


شَرْحُ

رياض الصالحين

مِن كَلَامِ سَيِّد المُرْسَلِين

لفضيلة الشيخ العلامة


محمد بن صالح العثيمين

المجلد السادس

قَالَ رَسُولُ اللَّهِ ﷺ:

﴿ أَلا إِنِّي أُوتِيتُ الْقُرْآنَ وَمِثْلَهُ مَعَهُ ﴾

Peyğəmbər ﷺ buyurmuşdur:
“Bilin ki, mənə Quran və onun bənzəri verilmişdir”.




Şərh
Riyadus-Salihin

İmam ən-Nəvəvi

Şərh edən:

Muhəmməd ibn Saleh əl-Useymin

Altıncı cild



Redaksiya heyəti
Ə. Z. Musayev
M. N. Qarayev
A. X. Salehli
Əbu Muhəmməd
E. Q. Rüstəmov

Kompüter tərtibatı
M. N. Qarayev

DUALAR KİTABI

İki yüz əllinci fəsil

Duanın fəziləti

Mövzu ilə əlaqəli ayələr:

Uca Allah buyurur:

﴿ وَقَالَ رَبُّكُمُ ٱدْعُونِيٓ أَسْتَجِبْ لَكُمْ ﴾

«Rəbbiniz dedi: "Mənə dua edin, Mən də sizə cavab verim"».[1]

﴿ ٱدْعُوا۟ رَبَّكُمْ تَضَرُّعًا وَخُفْيَةً ۚ إِنَّهُۥ لَا يُحِبُّ ٱلْمُعْتَدِينَ ﴾

"Rəbbinizə acizanə, həm də gizlicə dua edin! Şübhəsiz ki, O, həddi aşanları sevmir".[2]

﴿ وَإِذَا سَأَلَكَ عِبَادِى عَنِّى فَإِنِّى قَرِيبٌ ۖ أُجِيبُ دَعْوَةَ ٱلدَّاعِ إِذَا دَعَانِ ﴾

"Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən *onlara* yaxınam, Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm".[3]

﴿ أَمَّن يُجِيبُ ٱلْمُضْطَرَّ إِذَا دَعَاهُ وَيَكْشِفُ ٱلسُّوٓءَ ﴾

"Darda qalan kimsə yalvardığı zaman ona cavab verən, şəri sovuşduran və sizi yer üzünün varisləri edən kimdir?"[4]

Şərh:

Müəllif Hafiz ən-Nəvəvi ﵀ "Salehlər bağçası" əsərinin bu yerində "Dualar kitabı"na başlayır.

---

[1] "Ğafir" surəsi, 60.

[2] "əl-Əraf" surəsi, 55.

[3] "əl-Bəqərə" surəsi, 186.

[4] "ən-Nəml" surəsi, 62.

Dualar "dua" sözünün cəmidir. Bu da insanın "Ey Rəbbim! Ey Rəbbim!" və ya buna bənzər sözlər deməklə izzət və cəlal sahibi olan Rəbbini çağırmasıdır. Belə ki, o, Uca Allaha dua etməklə ona dilədiyini verməsini, habelə arzulamadığını da ondan dəf etməsini istəyir.

Müəllif ən-Nəvəvi[1] "Dualar kitabı"nı "Duanın fəziləti" fəsli ilə başlayır, ardınca da bəzi ayələri zikr edir. Onlardan biri bu ayədir: «**Rəbbiniz dedi: "Mənə dua edin, Mən də sizə cavab verim"**».[2]

Bu izzət və cəlal sahibi Allah tərəfindən olan söz və vəddir. Allah isə öz vədinə əsla xilaf çıxmaz.

"Mənə dua edin, Mən də sizə cavab verim" – buradakı dua kəlməsində məqsəd ibadət və istəmək duasıdır. İbadət duası insanın Allaha ibadət etməsidir. Belə ki, Allaha ibadət edən kəsdən soruşsan ki, "Nə üçün namaz qılırsan? Nə üçün zəkat verirsən? Nə üçün oruc tutursan? Nə üçün həcc edirsən? Nə üçün cihad edirsən? Nə üçün valideyinlərinə yaxşılıq edirsən? Nə üçün qohumlarınla əlaqə saxlayırsan?", deyər ki: "Mən bununla izzət və cəlal sahibi Allahın razılığını qazanmaq istəyirəm. Bu da duanı əhatə edən ibadətdir.

İstəmək duası isə Allaha dua edərək: "Ey Rəbbim, məni bağışla! Ey Rəbbim, mənə rəhm et! Ey Rəbbim, mənə ruzi ver" və ya buna bənzər dualar etməyindir. Bu da bir ibadətdir. Necə ki, hədisdə qeyd olunmuşdur: **"Dua ibadətdir"**.[3] Burada Uca Allaha tərəf yönələrək Onun fəzilətini etiraf etmək olduğu üçün, bu, ibadət hesab olunur. Beləliklə, "**Mənə dua edin, Mən də sizə cavab verim"** ayəsi həm ibadət duasına, həm də istəmək duasına şamil olunur.

"Mən də sizə cavab verim". İbadət duasına cavab verilməsi həmin duanın qəbul olunmasıdır. İstəmək duasına cavab verilməsi isə həmin şəxsə istədiyinin verilməsidir. Bu da Uca Allahın verdiyi bir vəddir. Lakin bunun üçün bəzi şərtlərin mövcudluğu gərəkdir:

---

[1] O, İmam, Hafiz, mühəddis, fəqih Əbu Zəkəriyyə Yəhya ibn Şərəf ən-Nəvəvidir. Hicri 631-ci ildə Dəməşq yaxınlığında Nəva adlanan yerdə anadan olmuş, hicri 676-cı ildə elə orada da vəfat etmişdir. Allah ona rəhmət eləsin və onu Cənnət sakinlərindən etsin. Bax: əs-Suyuti, "ət-Tabəqat əl-huffaz", 1/513; əs-Subki, "ət-Tabəqat əş-Şəfiiyyə", 8/395.

[2] "Ğafir" surəsi, 60.

[3] Az sonra hədisin çıxarışı qeyd olunacaqdır.

Birinci şərt, ixlasdır. Allah üçün ixlaslı olmaq və duanı səmimi-qəlbdən Ona etmək. Əgər ibadət edirsənsə, Allaha heç bir şeyi şərik qoşmursansa, özünü kimsə göstərmək və ya eşitdirmək üçün ibadət etmirsənsə, "filankəs həcc ziyarəti edib, filankəs səxavətlidir, filankəs çoxlu oruc tutur" deyilsin deyə ibadət etmirsənsə, bu zaman duaların qəbul olunacaq. Əks halda əməllərin puç olacaqdır.

İstəyərək dua etdikdə də ixlaslı olmaq gərəkdir. Allaha dua edərkən hiss etməlisən ki, Ona ehtiyacın var, O isə sənə möhtac deyil, dilədiyini sənə verməyə Qadirdir.

İkinci şərt, dua edənin həddi aşmamasıdır. Duada həddi aşıldıqda Allah hətta ata-ananın öz övladına etdiyi dua olsa belə, həmin duanı qəbul etmir. Uca Allah buyurur: **"Rəbbinizə acizanə, həm də gizlicə dua edin. Şübhəsiz ki, O, həddi aşanları sevmir".**[1]

Əgər insan günah bir şey üçün dua edirsə, misal üçün – Allah qorusun – Allahdan haram bir şey istəyərsə, bu dua qəbul olunmur. Çünki burada həddi aşılmışdır. Əgər şəri baxımdan mümkünsüz bir şey üçün dua edirsə, misal üçün, "Allahım, məni peyğəmbər et" deyə dua edirsə, bu caiz deyil, onun etdiyi də həddi aşmaqdır və qəbul olunmur. Həmçinin insan məzlum birinin əleyhinə dua edərsə, qəbul olunmaz. Əgər oğlu öz xanımını sevdiyi üçün anası oğluna bəddua edərsə, qəbul olunmaz. Yaxud oğlu yaxşı insanlarla dostluq etdiyi üçün ata ona bəddua edərsə, qəbul olunmaz. Beləliklə, duada həddin aşılmaması şərtdir.

Üçüncü şərt. Dua edən kəs Allaha dua edərkən həmin duaya cavab veriləcəyinə əmin olmalıdır və dua təcrübədən keçirilməməlidir. Çünki bəziləri təcrübə xatirinə dua edirlər ki, görsünlər qəbul olunur, yoxsa yox. Belə dua qəbul olunmaz. Dua edərkən əmin ol ki, Uca Allah həmin duaya cavab verəcək. Əgər şübhəli halda dua edərsənsə, belə duanı O, qəbul etməz.

Dördüncü şərt, haramdan uzaqlaşmaqdır. Belə ki, insan haram yeməməlidir. Kim sələm, hiylə, yalan və digər yollarla gəlir əldə edərək onu yeyərsə, duaları qəbul olunmaz. Buna dəlil Peyğəmbərin ﷺ bu sözləridir: **"Şübhəsiz ki, Allah gözəldir və yalnız gözəl olanı qəbul edər. Həmçinin şübhəsiz ki, Allah rəsullarına əmr etdiyini möminlərə də əmr etmişdir.**

[1] "əl-Əraf" surəsi, 55.

Uca Allah buyurur: "Ey elçilər, halal nemətlərdən yeyin və yaxşı işlər görün! Mən, həqiqətən, sizin nə etdiklərinizi bilirəm".[1] Yenə Uca Allah buyurur: "Ey iman gətirənlər, sizə ruzi kimi verdiyimiz pak şeylərdən yeyin və əgər Allaha ibadət edirsinizsə, Ona şükür edin".[2] Sonra o, uzun səfərdə olan, saçları dağınıq toz içərisində olan bir kişidən söz açdı: **"O əllərini göyə qaldırıb "Ey Rəbbim, ey Rəbbim!" deyə dua edir. Halbuki onun yediyi haram, geyindiyi də haramdır. Haramla bəslənmiş beləsinin duasına necə cavab verilsin?"**[3]

Peyğəmbər ﷺ belə birisinin duasına Allahın cavab verəcəyini mümkünsüz hesab etmişdir. Halbuki o, duanın qəbul olunma səbəblərindən birinə riayət edərək təkidlə istəmişdi. Lakin haram yediyinə görə Uca Allah onun dualarını qəbul etməmişdi. Allah qorusun!

Beləliklə, duanın qəbul olunması üçün bu dörd şərtin mövcudluğu gərəkdir. Daha doğrusunu Allah bilir.

Uca Allah buyurur: **"Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən *onlara* yaxınam, Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm".[4]**

"Darda qalan kimsə yalvardığı zaman ona cavab verən, şəri sovuşduran və sizi yer üzünün varisləri edən kimdir?"[5]

Şərh:

Duanın fəzilətləri və qəbul olunma şərtləri haqqında söhbət açdıq.

Növbəti ayədə isə Uca Allah buyurur: **"Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən *onlara* yaxınam, Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm".[6]**

Burada xitab Peyğəmbərədir ﷺ. Uca Allah ona buyurur ki, **"Qullarım səndən Mənim barəmdə soruşsalar...",** yəni soruşsalar ki, Allah yaxındadır, yoxsa yaxında deyil, cavab belədir: O, yaxındadır. Lakin Onun yaxınlığı əzəmət və cəlalına layiq şəkildədir. Burada məkan yaxınlığı

---

[1] "əl-Muminun" surəsi, 51.

[2] "əl-Bəqərə" surəsi, 172.

[3] "Səhih Muslim. Zəkat kitabı. Halal gəlirdən sədəqə vermə fəsli", 1686.

[4] "əl-Bəqərə" surəsi, 186.

[5] "ən-Nəml" surəsi, 62.

[6] "əl-Bəqərə" surəsi, 186.

nəzərdə tutulmur. Çünki Uca və nöqsansız Allah hər şeyin – yeddi səmanın və ərşin üzərindədir. Yaxınlıq isə Onun əzəmətinə və cəlalına layiq şəkildədir. O, əzəmətli və sonsuz ucalığına rəğmən müqəddəs zatı istisna olmaqla yaxın ikən uzaq, uzaq ikən də yaxındır. Bir dəfə Peyğəmbər ﷺ öz səhabələrinə dedi: **"Dua etdiyiniz *Allah* sizə miniyinizin boynundan daha yaxındadır".**[1] Lakin O, səmaların üzərindədir.

Yeddi qat səma və yeddi qat yer Allahın əlində bizlərin əlimizdəki bir xardal dənəciyinin misalındadır.[2] Allah hər şeyi əhatə edəndir, Ondan başqa ibadətə layiq məbud yoxdur.

"Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən *onlara* yaxınam". Bu yaxınlıq Allahın cəlalına və əzəmətinə layiq bir yaxınlıqdır və məkan yaxınlığı deyildir. Yəni Uca Allah yerdə deyil, səmaların fövqündədir.

"**Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm".** Bu dəlildir ki, Allaha həqiqi şəkildə yönələrək dua edib Ondan istəyənin, Allahdan başqa yardım edəcək bir varlığın olmadığını təsdiq edənin, habelə hər kəsin Allaha möhtac olduğunu bilənin duasını O, qəbul edər. İnsan bu vəziyyətdə dua edərsə, Uca və nöqsansız olan Allah onun duasını qəbul edər. Lakin az öncə qeyd etdiyimiz şərtlərə də diqqət yetirilməlidir.

"Qoy onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər ki, doğru yola yönələ bilsinlər". Yəni onları ibadət etməyə çağırdığım zaman. Dua da ibadətdəndir. Çünki Uca Allah buna əmr edərək buyurur: **«Rəbbiniz dedi: "Mənə dua edin, Mən də sizə cavab verim"».**

"Mənə iman gətirsinlər", yəni içərisində şəkk və ya küfr olmayan həqiqi imanla. Belə olarsa, Allah onların dualarını tez qəbul edər.

"**Doğru yola yönələ bilsinlər".** Buradakı "ləallə" sözü açıqlama mənasındadır. Yəni doğru yola yönələ bilmələri üçün. Yəni bütün işlərində doğru yolda ola bilsinlər. Doğru yol səfehliyin əksidir. Bu ayə izzət və cəlal sahibi Allaha iman və ixlasla dua etməyə təşviq edən ayələrdəndir.

Sonra müəllif dördüncü ayəni qeyd edir. Uca Allah buyurur: **"Darda qalan kimsə yalvardığı zaman ona cavab verən, şəri sovuşduran və sizi yer üzünün varisləri edən kimdir?"**[3]

---

[1] "Musnəd İmam Əhməd", 4/402.

[2] İbn Əbu Şeybə, "əl-Musənnəf", 7/186; "Təbərinin təfsiri", 24/25.

[3] "ən-Nəml" surəsi, 62.

Bu ayədəki sual inkar mənasındadır. Yəni darda qalan kimsə yalvardığı zaman ona cavab verən yalnız Allahdır. İzzət və cəlal sahibi Allah dua edən kafir olsa belə, darda qalan kimsənin duasını qəbul edir. Hətta kafir olan kəs belə çıxılmaz vəziyyətdə Allaha dua edərsə, nöqsansız Allah onun duasını qəbul edər.

"***Dağların saldığı* kölgələr kimi dalğalar onları çulğadığı zaman onlar dini məhz Allaha məxsus edərək Ona yalvararlar. *Allah* onları xilas edib quruya çıxartdıqda isə aralarından bəziləri *küfrlə iman arasında* orta yol tutar. Bizim ayələrimizi yalnız nankor xainlər inkar edərlər".**[1]

Deməli, insan dara düşdükdə Allaha dua etməyə zərurət yaranarsa və dua edərsə kafir olsa belə, Allah onun duasını qəbul edər. Elə isə görün dua edən mömin olsa necə olar?

Darda qalan kimsə yalvardığı zaman ona cavab verən yalnız Allahdır. İzzət və cəlal sahibi Allahdan başqaları isə ola bilsin ki, cavab versinlər, bəzən də cavab verməsinlər. Ola bilsin ki, yanğn zamanı və ya suda batarkən birisindən yardım istəyəsən, o da sənə yardım etməsin. İzzət və cəlal sahibi Allaha isə dua etsən qəbul edər.

"Darda qalan kimsə yalvardığı zaman ona cavab verən, şəri sovuşduran və sizi yer üzünün varisləri edən kimdir?" Yəni darda qalan bir kimsə yalvardığında ona Allahdan savayı cavab verən bir ilah yoxdur.

"Heç Allahla yanaşı başqa bir məbudmu var?"[2] Yəni darda qalan bir kimsə yalvardığı zaman ona Allahdan savayı cavab verən bir ilah yoxdur. Burada bütlərə ibadət edərək onların dualara cavab verdiklərini iddia edənlərə rədd vardır. Məgər bunun bir anlamı yoxdur ki, sən bütə dua edəsən, o isə sənə cavab verməsin? Hətta Peyğəmbərə ﷺ belə dua edib desən ki: "Ey Allahın elçisi, məni xilas et", sən müşrik və kafir olursan. Peyğəmbər ﷺ səndən uzaqdır və əgər sağ olsaydı, sənə qarşı vuruşardı. Çünki Allahdan başqasına dua edilməz. Allahdan başqa çağırılanlar isə cavab vermirlər: **"Allahı qoyub Qiyamət gününədək özünə cavab verə bilməyən əşyalara yalvaran kimsədən daha çox azmış kim ola bilər? Halbuki *o bütlər* onların yalvarışından xəbərsizdirlər. İnsanlar bir yerə**

[1] "Loğman" surəsi, 32.

[2] "ən-Nəml" surəsi, 62.

toplanılacaqları zaman *bütlər* onlara düşmən kəsiləcək və onların ibadətini inkar edəcəklər".[1]

Bu kimi ayələr duanın fəzilətinə və ona çağırışa dəlalət edir. Gərək insan bir an belə öz Rəbbindən qafil olmasın. Uca Allahdan diləyirik ki, bizi dua etdikdə cavab verdiyi, bağışlanma dilədikdə bağışladığı, tövbə etdikdə tövbəsini qəbul etdiyi kəslərdən etsin.

Mövzu ilə əlaqəli hədislər:

١٤٦٥– وَعن النُّعْمانِ بْنِ بشيرٍ ﷺ، عَنِ النَّبيِّ ﷺ قَالَ: « الدُّعاءُ هوَ العِبَادةُ ».
رواه أبو داود والترمذي وقالا حديث حسن صحيح.

1465. Nomən ibn Bəşir ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: **"Dua ibadətdir"**.

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş və hər ikisi: "Bu hədis həsən səhihdir" demişlər.[2]

Şərh:

Müsəlmanlar izzət və cəlal sahibi Allahın şəriətini bu dörd dəlil üzərində bina etmişlər: Quran, Sünnə, müsəlmanların icması və düzgün qiyas. Onların hamısı Qurani-Kərimin ətrafında dövr edir, çünki o, əsasdır. Əgər Uca və nöqsansız Allah Rəsulullaha itaəti Özünə itaət hesab etməsəydi və elçisinə tabe olmağı əmr etmiş olmasaydı, Sünnə dəlil olmazdı. Əgər Allah bu ümmətin icmasını haqq buyurmasaydı və onların zəlalət üzərində icma etməsini mümkünsüz etməsəydi, icma da dəlil olmazdı. Əgər baxmaq, nəzərdən keçirmək və bir məsələni digəri ilə müqayisə etmək Quranın dəlalət etdiyi şəriətin dəlillərindən olmasaydı, qiyas da dəlil olmazdı. Lakin bütün bunların dəlil olmasını və üzərlərində şəri hökmlərin sabit olmasını Quran göstərir.

Müəllif ﷺ duanın fəziləti və duaya əmrlə bağlı ayələri zikr etdikdən sonra hədisləri qeyd edir.

---

[1] "əl-Əhqaf" surəsi, 5-6.

[2] "Musnəd İmam Əhməd", 4/271; "Sunən Əbu Davud", 1264; "Sunən ət-Tirmizi", 3294; "Sunən İbn Macə", 3818.

Həmin hədislərin birində Nomən ibn Bəşir ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: **"Dua ibadətdir".** Yəni dua ibadətdəndir. Uca Allahın bu ayəsi də buna dəlildir: «**Rəbbiniz dedi: "Mənə dua edin, Mən də sizə cavab verim. Həqiqətən, Mənə ibadət etməyə təkəbbür göstərənlər Cəhənnəmə zəlil olaraq girəcəklər"**».[1] Burada O "dua etməyə təkəbbür göstərənlər" demədi, buyurdu ki: **"ibadət etməyə təkəbbür göstərənlər"**. Bu da göstərir ki, dua ibadətdir. Bunun da izahı belədir ki, insan Allaha dua etdikdə izzət və cəlal sahibi Allahın kamilliyini və duaya cavab verə biləcəyini etiraf etmiş olur. Bununla o həm də etiraf edir ki, həqiqətən də Allah hər şeyə qadirdir, Onun bəxş etməsi verməməsindən daha üstündür. Sonra da o, başqasına deyil, məhz Allaha tərəf yönəlmiş, padşaha, peyğəmbərə, övliyaya, yaxın və ya uzaq bir adama deyil, məhz Allaha dua etmişdir. Bu da ibadətin həqiqətidir. Bununla da bilirik ki, sən Allaha dua etdikdə cavab verilib-verilməməsindən asılı olmayaraq etdiyin buna dəlalət edir. Çünki sən bununla izzət və cəlal sahibi Allaha ibadət etmiş olursan. Belə ki, sən: "Ey Rəbbim, məni bağışla, ey Rəbbim, mənə rəhm et, ey Rəbbim, mənə ruzi ver, ey Rəbbim, mənə hidayət ver" dedikdə bu dua səni izzət və cəlal sahibi Allaha yaxınlaşdıran ibadət hesab olunur. Buna görə Allah sənə Qiyamət günü savab yazacaqdır. Allah hər kəsi xeyir və islaha müvəffəq etsin.

١٤٦٦– وعَنْ عَائِشَةَ ﵂ قَالَتْ: كَان رسُول اللَّهِ ﷺ يَسْتَحِبُّ الجوامِعَ مِنَ الدُّعاءِ، ويَدَعُ ما سِوى ذلكَ. رَوَاه أَبو داود بِإِسنادٍ جيِّد.

1466. Rəvayət olunur ki, Aişə ﵂ demişdir: "Rəsulullah ﷺ qısa və dərinmənalı dualar etməyə üstünlük verir, digərlərini isə tərk edirdi".[2]

١٤٦٧– وعَنْ أَنَسٍ ﵁ ، قَالَ: كانَ أَكْثَرُ دُعَاءِ النبيِّ ﷺ: « اللَّهُمَّ آتِنَا في الدُّنْيَا حَسَنَةً، وفي الآخِرةِ حَسنَةً، وَقِنَا عَذابَ النَّارِ » مُتَّفَقٌ عليهِ.

زاد مُسلِمٌ في رِوايتِهِ قَال: وكَانَ أَنَسٌ إِذا أَرَاد أَنْ يَدعُوَ بِدعوَةٍ دَعَا بها، وَإِذا أَرَادَ أَن يَدعُو بدُعَاءٍ دَعا بهَا فيه.

[1] "Ğafir" surəsi, 60.

[2] "Sunən Əbu Davud", 1267.

1467. Rəvayət edilir ki, Ənəs ﵁ demişdir: «Peyğəmbər ﷺ çox vaxt belə dua edərdi: **"Ey Allahım, ey Rəbbimiz, bizə bu dünyada da, axirətdə də gözəl (nemətlər) bəxş et və bizi Cəhənnəm əzabından qoru!"**[1]»[2]

Muslim öz rəvayətinə bunu da əlavə etmişdir: "Ənəs ﵁ dua etmək istədikdə bu duanı edər, başqa bir dua etmək istədikdə isə içərisində bu duanı da edərdi".

Şərh:

Müəllif ﵀ duanın fəziləti ilə bağlı hədislər qeyd etmişdir.

Həmin hədislərdən biri də Aişədən ﵂ nəql olunmuş hədisdir ki, o hədisdə Rəsulullahın ﷺ qısa (lakonik) və dərinmənalı dualar etməyə üstünlük verdiyi, digərlərini isə tərk etdiyi bildirilir. Yəni o, dua etdikdə az sözlü və əhatəli olanını seçərdi. Ümumi və qısa olanını seçər, təfsilatı isə tərk edərdi. Çünki qısa və əhatəli dualar təfsilatlı olandan daha geniş-mənalıdır. Misal üçün insan dua edərək Rəbbinin onu cənnətə daxil olmasını diləyərək deyir: "Allahım, məni Cənnətə daxil et". Orada istədiyi filan-filan şeyləri sadalamasına isə ehtiyac yoxdur. Çünki ola bilsin orada onun bilmədiyi daha çox şey var. Duasında təfsilata varmaqla o, istədiklərinin çevrəsini daraltmış olur. Dua etdikdə ümumi dua edilməlidir ki, bu da daha əhatəli və müxtəsərdir.

Duanı təkrar etməyə gəlincə isə Peyğəmbər ﷺ etdiyi duaları üç dəfə təkrar edərdi.

Peyğəmbərin ﷺ lakonik və əhatəli dua etməsinə dəlil kimi başqa bir hədisdə Ənəsdən rəvayət olunur ki, Peyğəmbər dua edərək deyərdi: **"Ey Allahım, ey Rəbbimiz, bizə bu dünyada da, axirətdə də gözəl (nemətlər) bəxş et və bizi Cəhənnəm əzabından qoru!"**.[3]

Bu dua ən qısa və əhatəli dualardan biridir. **"Bu dünyada"** demək əməlisaleh zövcə, rahat minik, geniş ev və s. bu kimi gözəl nemətləri əhatə edir. **"Axirətdə də bizə gözəl nemətlər ver"** demək isə axirətdəki bütün gözəl nemətləri, o cümlədən asan haqq-hesab olunma, əməl dəftərinin sağ

---

[1] Transkripsiyası: Allahummə Rabbənə atinə fid-dunya həsənətən və fil-axirəti həsənətən və qina əzabən-nar.

[2] "Səhih əl-Buxari", 5910; "Səhih Muslim", 4855.

[3] "Səhih əl-Buxari", 5910; "Səhih Muslim", 4855.

ələ verilməsi, Sirat körpüsündən asanlıqla keçmək, Rəsulullahın bulağından – Kövsərdən su içmək, Cənnətə daxil olmaq və s. kimi nemətlərə də şamil olunur.

Deməli, bu dua ən əhatəli dualardandır. Çünki o, bir çox məsələləri əhatə edir. Ənəs ﵁ də adətən bu duanı edər, başqa dua etdikdə də bu duanı işlədərdi. Sanki o, bu duanı əsla tərk etməzdi. Bu da həmin duanın fəzilətini göstərir. Göstərir ki, insan bu duadan çox istifadə etməlidir. Hətta Peyğəmbər ﷺ təvafları bu dua ilə tamamlayar, hər təvafın sonunda – Yəmən küncü ilə qara daş arasında: **"Ey Rəbbimiz, bizə bu dünyada da, axirətdə də gözəl (nemətlər) bəxş et və bizi Cəhənnəm əzabından qoru!"** deyərdi. Müvəffəq edən Allahdır.

١٤٦٨– وعَن ابنِ مسْعُودٍ ﵁ ، أَنَّ النَّبِيَّ ﷺ كَانَ يَقُولُ: « اللَّهُمَّ إِنِي أَسْأَلُكَ الهُدَى، وَالتُّقَى، وَالعفَافَ، والغنَى » رواهُ مُسْلِمٌ.

1468. İbn Məsuddan ﵁ rəvayət olunur ki, Peyğəmbər ﷺ belə demişdir: **"Allahım, Səndən hidayət, təqva, iffət və zənginlik diləyirəm"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Şərh:

Müəllif ﵀ duanın fəziləti barəsində bəzi hədislərdən sonra belə bir hədis qeyd etmişdir. Həmin hədisdə İbn Məsuddan ﵁ rəvayət olunur ki, Peyğəmbər ﷺ belə demişdir: **"Allahım, Səndən hidayət, təqva, iffət və zənginlik diləyirəm"**. Peyğəmbər ﷺ öz Rəbbindən bu dörd şeyi istəyir:

"Allahım, Səndən hidayət" istəyirəm**.** Hidayət, yəni faydalı elm.

Hidayət iki növdür: elm hidayəti və əməl hidayəti. Bəziləri isə belə demişlər: dəlalət hidayəti və müvəffəqiyyət hidayəti.

İnsan öz Rəbbindən hidayət istədikdə hər ikisini istəmiş olur. Yəni ona həm elm bəxş etməsini, həm də ona əməl etməyə müvəffəq etməsini istəyir. Bu da "əl-Fatihə" surəsindəki aşağıdakı ayəyə daxildir: **"Bizi doğru yola yönəlt".**[2] Yəni bizə xeyiri göstər və bizi ona əməl etməyə müvəffəq et. Çünki insanlar bu mövzuda dörd qismə bölünürlər:

---

[1] "Səhih Muslim", 4898.

[2] "əl-Fatihə" surəsi, 6.

Birinci qisim: Allahın elm verdiyi və ona əməl etməyə müvəffəq etdiyi kəslər. Bu ən kamil qismdir.

İkinci qisim: Elmdən və əməldən məhrum olanlar.

Üçüncü qisim: Elm verilənlər, lakin əməldən məhrum olanlar.

Dördüncü qisim: Əməl edənlər, lakin elmdən məhrum olmaqla zəlalətə düçar olanlar.

Bu qismlərdən ən xeyirlisi həm elmə, həm də əmələ müvəffəq olanlardır. İnsanın dua edərək: **"Bizi doğru yola yönəlt"** deməsi bunu istəməsidir.

[Hədisin ərəbcəsindəki] **"ət-tuqa"** sözünün mənası isə təqvadır.

Təqva, Allahın əmr etdiklərinə əməl etməyi, qadağan etdiklərindən də çəkinməyi özündə birləşdirən ümumi bir kəlmədir. Belə ki, "təqva" sözü "viqayə", yəni "qorunma" sözündən qaynaqlanır – səni Allahın əzabından yalnız Onun əmrlərinə tabe olmağın, qadağalarından çəkinməyin qoruya bilər.

[Hədisin ərəbcəsindəki] **"əl-əfaf"** sözünün mənası isə iffət, yəni zinadan uzaqlaşmadır. Burada göz zinası, toxunma zinası və əsl zina nəzərdə tutulur. Bu dua ilə insan zinanın bütün növlərindən Allaha sığınır. Çünki zina pozğunçuluqdur və bu əməl əxlaqın, nəsillərin, qəlblərin və dinin fəsada uğramasına səbəb olur. Uca Allah buyurur: "**Zinaya yaxınlaşmayın! Çünki bu, iyrənc bir əməl və murdar bir yoldur".**[1]

[Hədisin ərəbcəsindəki] **"əl-ğina"** sözünün mənası isə zənginlikdir. Burada insanın başqalarının malik olduğu nemətlərə möhtac olmaması nəzərdə tutulur. İnsan, Allahın ona çox və ya az nemət verməsindən asılı olmayaraq insanların mallarına göz dikməməlidir. Qənaət, misilsiz bir xəzinədir. Bir çoxlarına Allah ona kifayət edəcək qədər nemət bəxş etsə də, qəlblərindəki paxıllığa görə (Allah qorusun!) onlar hər zaman kasıb vəziyyətdədirlər. Əgər izzət və cəlal sahibi Allahdan zənginlik diləsən, bununla bərabər həm də başqalarının əlindəkinə göz dikmədən malik olduğun nemətlərlə kifayətlənməlisən.

Demək, mömin olan kəs dörd istəyi özündə birləşdirən bu duanı etməlidir. Peyğəmbər ﷺ də bu duanı edərdi: **"Allahım, Səndən hidayət, təqva, iffət və zənginlik diləyirəm"**. Müvəffəq edən Allahdır.

---

[1] "əl-İsra" surəsi, 32.

١٤٦٩– وعَنْ طارِقِ بنِ أَشْيَمَ، ﵁، قالَ: كَانَ الرَّجلُ إِذا أَسْلَمَ عَلَّمَهُ النَّبيُّ ﷺ الصَّلاةَ، ثُمَّ أَمَرَهُ أَنْ يَدعُوَ بِهَؤُلاءِ الكَلِمَاتِ: « اللَّهُمَّ اغفِرْ لِي، وَارْحمْني، واهْدِني، وعافِنِي، وارْزُقْني ». رواهُ مسلمٌ.

وفي رِوايَةٍ لَهُ عَنْ طارِقٍ أَنَّهُ سَمِعَ النَّبِيَّ ﷺ وَأَتاهُ رَجُلٌ، فَقَالَ: يا رَسُولَ اللَّهِ. كيْفَ أَقُولُ حِينَ أَسْأَلُ رَبِّي؟ قَالَ: « قُلْ: اللَّهُمَّ اغْفِرْ لِي، وَارْحَمْني، وَعَافِنِي، وَارْزُقْني، فَإِنَّ هَؤُلاءِ تَجْمَعُ لَكَ دُنْيَاكَ وَآخِرَتَكَ ».

1469. Rəvayət olunur ki, Tariq ibn Əşyəm ﵁ demişdir: "Birisi İslamı qəbul etdikdə Peyğəmbər ﷺ ona namazı öyrədər, sonra da ona bu kəlmələrlə dua etməyi əmr edərdi: **"Allahım, məni bağışla, mənə rəhm et, mənə hidayət ver, mənə sağlamlıq ver, mənə ruzi ver"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Tariqdən ﵁ nəql edilən digər rəvayətdə isə deyilir ki, bir dəfə bir kişi Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ey Allahın elçisi, Rəbbimdən bir şey diləyəndə necə dua edim?" Dedi: «**De ki, "Allahım məni bağışla, mənə rəhm et, mənə hidayət ver, mənə sağlamlıq ver, mənə ruzi ver". Şübhəsiz ki, bunlar sənin dünyanı və axirətini cəm etmiş olar"**».[2]

Şərh:

Müəllif ﵀ Tariq ibn Əşyəmdən ﵁ onun belə dediyini rəvayət etmişdir: "Birisi İslamı qəbul etdikdə Peyğəmbər ﷺ ona namazı öyrədərdi". Çünki namaz şəhadətdən sonra İslamın ən əzəmətli rüknüdür.

İslamın rükünləri beşdir: Allahdan başqa ibadətə layiq haqq məbudun olmadığına və Muhəmmədin ﷺ Onun elçisi olmasına şahidlik etmək, namaz qılmaq, zəkat vermək, Ramazan orucu, Allahın toxunulmaz evinə həcc ziyarəti etmək.

Beləcə, Peyğəmbər ﷺ İslamı yenicə qəbul etmiş kəsə namaz qılmağı öyrədər, sonra da ona bu kəlmələrlə dua etməyi əmr edərdi: **"Allahım, məni bağışla, mənə rəhm et, mənə hidayət ver, mənə sağlamlıq ver, mənə ruzi ver"**. Bunlar Peyğəmbərin ﷺ İslamı yeni qəbul etmiş kəsə öyrətdiyi beş kəlmədir.

---

[1] "Səhih Muslim", 4864.

[2] "Səhih Muslim", 4865.

“Allahım məni bağışla”, yəni günahlarımı bağışla. Kafir olan kəs İslamı qəbul etdikdə Allah onun günahlarını bağışlayır. Bu xüsusda Uca Allah buyurur: **“Kafir olanlara de ki, əgər *küfrə* son qoysalar, olub-keçənlər onlara bağışlanar. Yox, əgər *küfrə* qayıtsalar, əvvəlkilərin başına gələn aqibəti gözləsinlər”.**[1] Lakin bağışlanma diləmək İslamı qəbul etdikdən sonra hər bir müsəlman üçün də tələb olunur. Çünki insan günahsız deyildir. Hədislərin birində buyurulur: **“Xəta edənlərin ən xeyirlisi tövbə edənlərdir”.**[2]

“Mənə rəhm et”, yəni məni mərhəmətinlə əhatə et. İnsan günahlardan, xətalardan və cəzalardan bağışlanmasını, özünə rəhm edilməsini dilədikdə dilədiyinə nail olmaq istəyir. Çünki insan çətinlikdən uzaqlaşıb dilədiyinə nail olmadıqca işi tamamlanmış olmur.

“Mənə hidayət ver”. Bundan öncə “hidayət” sözünün mənasını qeyd etmişdik ki, burada elm və bəyan, habelə müvəffəqiyyət və düzgünlük hidayəti nəzərdə tutulur.

“Mənə sağlamlıq ver”. Yəni məni bütün xəstəliklərdən qoru. Xəstəliklər iki növdür:

Birincisi, qəlb xəstəlikləri. Uca Allah buyurur: **“Onların qəlblərində xəstəlik vardır və Allah da onların xəstəliyini artırmışdır”.**[3]

İkinisi, bədən üzvlərinin məruz qaldığı cismi xəstəliklər. Burada Allahdan sağlamlıq dilədikdə hər iki qisim nəzərdə tutulur. Qəlb xəstəlikləri bədən xəstəliklərindən daha əzəmətlidir. Çünki bədən xəstələndikdə insan səbr edərək savabını Allahdan diləyərsə, bu onun dərəcələrini qaldırar, günahlarının bağışlanmasına səbəb olar, bunun sonu isə yalnız ölümlə nəticələnə bilər. Ölüm isə hər bir canlının başına gələcək bir həqiqətdir və bu qaçılmazdır.

Lakin qəlb xəstəliyi – Allah qorusun – həm dünyanın, həm də axirətin fəsada uğramasıdır. Qəlb şəkk, şirk, nifaq, Allahın nazil etdiyinə nifrət, Allahın dostlarına kin bəsləmək və ya buna bənzər başqa xəstəliklərə düçar olarsa, insan həm dünyasını, həm də axirətini itirmiş olur. Ona görə də sağlamlıq dilədikdə düşünməlisən ki, sən Allahın səni həm qəlb, həm

---

[1] “əl-Ənfal” surəsi, 38.

[2] “Sunən ət-Tirmizi”, 2423; “Sunən İbn Macə”, 4241.

[3] “əl-Bəqərə” surəsi, 10.

də bədən xəstəliklərindən qorumasını diləyirsən. O qəlb xəstəlikləri ki, şəkk, şirk və ya şəhvət üzərində qurulub.

"Mənə ruzi ver". Yəni yemək, içmək, geyim, ev və başqa bədənə lazım olan ruziləri bəxş et. Qəlbin ehtiyac duyduğu ruzi isə faydalı elm və yaxşı əməllərdir. Burada hər ikisi qəsd olunur.

Ruzi iki növdür: Bədənə lazım olan ruzi, qəlbə lazım olan ruzi. İnsan Allaha dua edərək "mənə ruzi ver" deyirsə, hər ikisini istəmiş olur.

Müəllifin qeyd etdiyi digər bir ləfzdə deyilir ki, bir kişi Peyğəmbərdən ﷺ ehtiyacı olduğu və ona fayda verəcək məsələlər barəsində soruşur, o da əmr edir ki, bu duanı etsin: **"Allahım, məni bağışla, mənə rəhm et, mənə hidayət ver, mənə sağlamlıq ver və mənə ruzi ver".**

Müsəlman olan kəs Peyğəmbərin ﷺ öz ümmətinə öyrətdiyi bu duaları davamlı şəkildə etməlidir. İslamı qəbul edən kəsə bu duanı öyrətmək gərəkdir. Müvəffəq edən Allahdır.

١٤٧٠– وَعَنْ عَبْدِ اللَّهِ بنِ عمرو بن العاصِ رضي الله عنهما ، قَالَ: قَال رَسُولُ اللَّهِ ﷺ: «اللَّهُمَّ مُصَرِّفَ القُلُوبِ صرِّفْ قُلوبَنَا عَلَى طَاعَتِكَ » رَوَاهُ مُسْلِمٌ.

1470. Rəvayət olunur ki, Abdullah ibn Amr ibn əl-As رضي الله عنه demişdir: Rəsulullah ﷺ demişdir: **"Ey qəlbləri yönəldən Allahım, qəlblərimizi itaətin üzərinə yönəlt".**[1]

Şərh:

Müəllif رحمه الله dua ilə bağlı hədisləri qeyd edərək demişdir: Abdullah ibn Amrdan رضي الله عنه rəvayət olunan hədisdə Peyğəmbər ﷺ belə demişdir: **"Ey qəlbləri yönəldən Allahım, qəlblərimizi itaətin üzərinə yönəlt".**

Qəlblər izzət və cəlal sahibi Allahın əlindədir. Bütün Adəm övladlarının qəlbləri Allahın iki barmağı arasındadır. O da həmin qəlbləri istədiyi kimi dəyişdirir. Odur ki, gərək insan hər zaman Allahdan diləsin ki, onu sabit etsin və qəlbini Ona itaətə yönəltsin. Xüsusi olaraq qəlb ona görə qeyd olunur ki, əgər qəlb sağlam olarsa, bütün bədən üzvləri də salamat olar. Qəlb xarab olduqda isə digər bədən üzvləri də fəsada uğrayar. Səhih hədislərin birində Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Şübhəsiz ki, bədəndə**

[1] "Səhih Muslim", 4798.

bir ət parçası vardır ki, əgər o sağlam olarsa, digər bədən üzvləri də salamat olar, yox əgər xarab olarsa, digər bədən üzvləri də fəsada uğrayar".[1]

"Qəlblərimizi itaətin üzərinə yönəlt" deyən insan düşünə bilər ki, "itaətinə" deyilsə daha yaxşı olar. Əslində isə "itaətin üzərinə" ifadəsi daha bəlağətlidir. Yəni qəlbi itaətin üzərinə çevir ki, Allaha qarşı asiliyə dönməsin. Çünki qəlb itaətə yönəldikdə namazdan zikrə, ondan sədəqəyə, ondan oruca, ondan elmə və beləcə izzət və cəlal sahibi Allaha bir itaətdən digərinə keçir. Gərək biz də bu duanı edək: **"Ey qəlbləri çevirən Allahım, qəlblərimizi itaətin üzərinə yönəlt".**

١٤٧١– وَعَنْ أَبي هُرَيرَةَ ﷺ، عن النَّبِيِّ ﷺ قَالَ: « تَعَوَّذُوا بِاللَّهِ مِنْ جَهْدِ الْبَلاءِ، وَدَرَكِ الشَّقَاءِ، وَسُوءِ الْقَضَاءِ، وَشَماتَةِ الأَعْدَاءِ » متفقٌ عليه.

وفي رِوَايةٍ: قالَ سُفْيَانُ: أَشُكُّ أَنِّي زِدْتُ وَاحِدَةً مِنها.

1471. Əbu Hureyradan ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Gücün çatmadığı bəladan, bədbəxtlərin əməllərindən, pis qədərdən və düşmənlərin istehzasından Allaha sığının".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Bir rəvayətdə Sufyan demişdir: "Hansı birisini artırdığıma şübhələnirəm".

Şərh:

Müəllif ﷺ duanın fəziləti babında bu hədisi də qeyd etmişdir: Əbu Hureyradan ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Gücün çatmadığı bəladan, bədbəxtlərin əməllərindən, pis qədərdən və düşmənlərin istehzasından Allaha sığının".**

Rəsulullah ﷺ bizlərə bu dörd şeydən Allaha sığınmağı əmr etmişdir:

Birincisi, **gücün çatmadığı bəladan**. Yəni insanın taqətinin çatmadığı bəla. Bəlalar iki növdür: Cismi bəla, məsələn, xəstəliklər. Bir də mənəvi bəla, məsələn, insana dili ilə əziyyət verərək onun eyiblərini yayan, yaxşılıqlarını isə gizlədən birisinin müsəllət olması və ya buna bənzər başqa işlər. Bu bəla insana əziyyət verir. Hətta ola bilsin ki, bu insanın çəkdiyi

[1] "Səhih əl-Buxari", 50; "Səhih Muslim", 2996.

[2] "Səhih əl-Buxari", 6126; "Səhih Muslim", 4880.

məşəqqət cismi bəlaya mübtəla olmuş kəsin əziyyətindən daha şiddətli olsun. Buna görə insan gərək gücünün çatmadığı bəladan Allaha sığınsın.

Cismi bəla məlumdur: xəstəliklər – qarında, sinədə, başda, boyunda və ya başqa bədən üzvündə olan ağrılar.

Ola bilsin, bəlanın üçüncü qismi də olsun ki, bu da Allahın insanı mübtəla etdiyi böyük və əzəmətli müsibətlərdir: **"İnsanlardan eləsi də vardır ki, Allaha şübhə ilə ibadət edir. Əgər ona bir xeyir çatsa, onunla rahatlıq tapar. Yox, əgər başına bir iş gəlsə, üz döndərib *küfrə* qayıdar. O *adam* dünyanı da itirər, axirəti də. Gerçək zərər də elə budur".**[1] Allah qorusun! Yəni bir xeyir əldə etdikdə rahatlıq tapır, yox əgər başına dini və ya dünyavi bir bəla gələrsə, tamamilə dəyişər. Baxıb görərsən ki, beləsinin imanı sabit deyil – ən kiçik şübhə ilə üzləşdikdə haqdan üz döndərir. Görürsən ki, o, səbir edə bilmir və Allahın qəza və qədərinə üsyan edir, hətta ola bilsin, onun qəlbində bu bəlaya görə izzət və cəlal sahibi Allaha layiq olmayan fikirlər yer alsın.

İkincisi, **bədbəxtlərin əməllərindən**. Yəni dua etməliyik ki, Allah bizi bədbəxtlikdən qorusun. Bədbəxtlik xoşbəxtliyin əksidir. Xoşbəxtliyin səbəbi yaxşı əməllərdir, bədbəxtliyə səbəb isə pis əməllərdir.

Allaha bədbəxtlərin əməllərindən sığınmaq üçün dua etdikdə bədbəxt adamların əməllərindən qorunmuş olursan.

Üçüncüsü, **pis qədərdən**. Pis qədər dedikdə iki məna ehtimal olunur:

Birinci məna, insanın pis hökm verməsi; ikinci məna, Allahın insana pis qədər hökm verməsi. Qəza deyildikdə hökm nəzərdə tutulur.

Ola bilsin, insan tələssin və öz istəklərinə uyğun hökm versin, sonra da iztirab çəksin. Bu pis qədər və izzət və cəlal sahibi Allah tərəfindən verilmiş hökmdür. Yaxud ola bilsin, izzət və cəlal sahibi Allah insanın xoşuna gəlmədiyi və onun hüzn çəkməsinə səbəb olan hökm versin. Elə buna görə də pis qədər və hökmdən izzət və cəlal sahibi Allaha sığınmaq gərəkdir.

Dördüncüsü, **düşmənlərin istehzasından**. "əl-əada" "düşmən" sözünün cəmidir. Fiqh alimləri "düşmən" sözünə belə tərif vermişlər ki, kim bir başqasının başına gəlmiş pisliyə və ya kədərə sevinərsə, o, onun düşmənidir.

[1] "əl-Həcc" surəsi, 11.

Demək, sənin başına gəlmiş bir pisliyə, sevincini aradan qaldıran kədərə sevinən hər bir insan sənin düşmənin hesab olunur.

"Düşmənlərin istehzasından", yəni düşmənlər sənin əleyhinə, sənin başına gələnlərə görə sevinirlər. Düşmən olan kəs insanın üzləşdiyi müsibətə sevinir, onun əldə etdiyi xeyirlərə görə isə kədərlənir. Buna görə də düşmənlərin istehzasından gərək izzət və cəlal sahibi Allaha sığınasan.

Rəsulullah ﷺ bizlərə əmr etmişdir ki, bu dörd haldan Allaha sığınaq. İnsan Rəsulullahın ﷺ əmrinə tabe olmalı və bunlardan Allaha sığınmalıdır ki, Allah da onun duasını qəbul etsin. Müvəffəq edən Allahdır.

١٤٧٢– وَعَنْهُ قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ يقُولُ: « اللَّهمَّ أَصْلِحْ لِي دِيني الَّذي هُوَ عِصْمَةُ أَمْرِي، وأَصْلِحْ لِي دُنْيَايَ التي فِيهَا مَعَاشِي، وَأَصْلِحْ لِي آخِرَتِي الَّتي فِيها معادي، وَاجْعلِ الحيَاةَ زِيادَةً لِي فِي كُلِّ خَيْرٍ، وَاجْعَلِ الموتَ راحَةً لِي مِنْ كُلِّ شَرٍ » رَوَاهُ مسلِمٌ.

1472. Yenə Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ deyərdi: **"Allahım, işimin əsası olan dinimi mənim üçün islah et, yaşadığım dünyamı da mənim üçün islah et, dönəcəyim axirətimi də mənim üçün islah et; həyatıma mənim üçün hər bir xeyirdən əlavə et, ölümü isə mənim üçün hər bir şərdən rahatlıq vasitəsi et".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Şərh:

Müəllifin رحمه الله "Duanın fəziləti" fəslində qeyd etdiyi hədislərin birində Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, Peyğəmbər ﷺ belə dua edərdi: **"Allahım, işimin əsası olan dinimi mənim üçün islah et, yaşadığım dünyamı da mənim üçün islah et, dönəcəyim axirətimi də mənim üçün islah et; həyatıma mənim üçün hər bir xeyirdən əlavə et, ölümü isə mənim üçün hər bir şərdən rahatlıq vasitəsi et".**

Peyğəmbər ﷺ duasına dindən başlayaraq dedi: **"İşimin əsası olan dinimi mənim üçün islah et".** Yəni onu mənim ixlaslı və düzgün olmasını müyəssər et. İnsanı şərdən və düşmənlərdən qoruyan dindir. İnsanın dini nə qədər çox islah olunarsa, bir o qədər də o pisliklərdən qorunmuş olar. Dinin islah olunması isə Allahla səmimi olmaq və Peyğəmbərinə ﷺ tabe

[1] "Səhih Muslim", 4897.

olmaqla mümkündür. Allaha şərik qoşan kəsin dini islah olunmaz. Kim riyakarlıq edərək namaz qılarsa, sədəqə verərsə, oruc tutarsa, Quran oxuyarsa, zikr edərsə, elm tələb edərsə və ya cihad edərsə, bütün bu əməllər yararsız hesab olunar. Allah qorusun! Həmin əməllər rədd olunur. Necə ki, qüdsi hədisdə Uca Allah buyurur: **"Mən qoşulan şəriklərə möhtac deyiləm. Kim bir əməlində Mənə bir şeyi şərik qoşarsa, onu şirki ilə başlı başına buraxaram".**[1] Həmçinin bidətçinin də bir qoruyanı olmaz və o pisliklərdən qorunmaz. Əksinə onun etdiyi əməlin özü pislikdir. Rəsulullah ﷺ demişdir: **"Hər bir yenilik zəlalət, hər bir zəlalət isə oddadır"**.[2]

Bidətçi olan kəs Allahı zikr edərək "sübhanallah" desə, Allaha həmd edib buyurulmamış şəkildə namaz qılarsa, onun əməli rədd olunar. Ola bilsin ki, şeytan insana hər hansı bir ibadəti bəzəsin, onun da bundan qəlbi qorxub ağlasın. Ancaq əgər bu əməl dində yenilikdirsə, bu ona fayda verməyəcəkdir. Həmin əməl rədd olunur. Məgər görmürsən ki, nəsranilər öz kilsələrində bəzi müsəlmanlardan daha möhkəm qorxub ağlayırlar? Lakin bu onlara fayda vermir, çünki onlar zəlalət əhlidirlər. Yaxud bidət əhli olsun. Məsələn, görürük ki, bidət əhli, ələlxüsus da sufilər bəzi əməllərdə Allah qorxusu ilə ağlayır, qəlb yumşaqlığı ilə müəyyən zikrlər edirlər. Lakin bütün bunların onlara faydası yoxdur. Çünki həmin əməllər Allahın şəriətinə müvafiq deyildir. Peyğəmbər ﷺ demişdir: **"Kim bizim bu işimizdə bir yeniliyə yol verərsə, rədd olunar".**[3] Yəni sahibinə qaytarılar. O ﷺ həmçinin demişdir: **"Kim bizim buyurmadığımız bir şeyi əmr edərsə, rədd olunar"**.[4]

"İşimin əsası olan", yəni onun vasitəsilə pisliklərdən və fitnələrdən qorunduğum.

"yaşadığım dünyamı da islah et". Yəni dünya yaşayış yeridir. Ölənədək orada məskunlaşır, orada yaşayırsan. Lakin dünya əbədi qalacaq yeri deyildir. Haradadır bir vaxtlar orada qərar tutanlar? Haradadır padşahlar və onların övladları? Haradadır varlılar? Haradadır zənginlər və ya yoxsullar? Haradadır rəhbərlər, adi insanlar? – Hamısı ölüb gediblər. İndi

[1] "Səhih Muslim", 5300.

[2] "Sunən ən-Nəsai", 1590.

[3] "Səhih əl-Buxari", 2499; "Səhih Muslim", 3242.

[4] "Səhih əl-Buxari", 3243.

onlar haqqında yalnız danışılır. Sənin də haqqında bir gün danışılacaq. Dahi şair demişdir:

İnsan orada xəbər verən kimi görsənsə də,
Bir gün sadəcə bir xəbərə çevrilmiş olur.[1]

Əvvəlcə insan özü xəbər verən olur və deyir ki, filan iş baş verdi, filankəs doğuldu, filankəs öldü. Ancaq bir gün onun özü də bir xəbər olacaqdır. Bu gün biz öz şeyxlərimizdən, dostlarımızdan, qardaşlarımızdan və atalarımızdan danışırıq. Onların hamısı bir xəbərə çevriliblər, sanki bir yuxu olublar. Sən də bir gün belə olacaqsan.

Dünya yaşayış üçündür, qərar tutmaq üçün deyil. Lakin bu dünyada insan yaxşı işlər görməyə və onları axirət üçün mənfəətə çevirməyə müvəffəq olarsa, nə gözəl. Yox əgər o, axirət üçün deyil, dünya üçün çalışarsa, həm dünyanı, həm də axirəti itirmiş olar. Allah qorusun! Ona görə də hədisdə **"yaşadığım"** sözü işlənir. Yəni insan orada müvəqqəti yaşadıqdan sonra oranı tərk edir.

"dönəcəyim axirətimi də mənim üçün islah et". Hər kəs axirətə qayıdacaqdır və bundan qaçmaq mümkün deyildir. Uca Allah buyurur: **«De: "Şübhəsiz ki, əvvəlkilər də, sonrakılar da bəlli bir günün müəyyən vaxtında mütləq toplanılacaqlar"**».[2]

Allah əvvəlkilərin və sonuncuların hamısını bir arada toplayacaq, hər kəs onları görüb eşidəcəkdir. Uca və böyük Allah buyurur: **"Həqiqətən, bunlarda axirət əzabından qorxanlar üçün bir ibrət vardır. Bu, insanların bir yerə toplanacağı bir gündür. Bu həm də hamının şahid olacağı bir gündür. Biz onu sadəcə müəyyən olunmuş vaxtadək təxirə salmışıq".**[3]

"Müəyyən olunmuş vaxtadək" – yəni sayılı günlər. Çünki bunların hamısı fanidir. Hər kəsin aqibəti eyni olacaqdır. Qiyamət günü aqibətlər eyni olacaqdır. Dahi şair demişdir:

Hər bir insanın salamatlığı uzun sürsə də,
Bir gün əllər üzərində aparılacaqdır.[4]

---

[1] Əbul-Həsən ət-Tuhəmi.

[2] "əl-Vaqiə" surəsi, 49-50.

[3] "Hud" surəsi, 103-104.

[4] Kəb ibn Zuheyrin "Divan"ına bax (1/49).

Həyat nə qədər uzun görünsə də, hər birimizin nəşi bir gün əllərdə aparılacaq. Ola bilsin yanaq və od bədənimizi yemiş olsun. Ya da çöllükdə ölək və vəhşi heyvanlar cəsədlərimizi parçalayıb yesin. Yaxud da dənizdə boğulaq və cəsədimizi balıqlar yesin. Mühüm olan odur ki, hər bir insanın sonu axirətdir. Ona görə də duada deyilir ki: **"Dönəcəyim axirətimi də mənim üçün islah et"**. Axirətin islah olunması Uca Allahın səni Cəhənnəm odundan qoruyaraq Cənnətə daxil etməsidir. Allahdan diləyirəm ki, həm mənim, həm də sizin axirətimizi islah etsin.

"Həyatıma mənim üçün hər bir xeyirdən əlavə et". İnsan bu həyatda müvəffəq olduqda, hər gün yaxşı işlər gördükdə, saleh əməllər etdikdə bunu özündə hiss edir. Görürsən ki, yaxşı işlər gördükdə buna görə sevinir və deyir: **"Bizi buna qovuşduran Allaha həmd olsun! Əgər Allah bizi hidayət etməsəydi, biz özümüz doğru yola yönələ bilməzdik. Əlbəttə, Rəbbimizin elçiləri haqqı gətirmişdilər".**[1] Bu hər gün artır – namaz qılır, zikr edir, Quran oxuyur, yaxşı işləri əmr edir, pis işlərdən çəkindirir, qardaşı ilə görüşərkən gülümsəyir. Ümumən yaxşı işlərdə böyük xeyirlər vardır. İnsan öz həyatında nə qədər çox xeyir işlər görsə, həyatı da xeyirli olar. Buna görə də hədisdə deyilir: **"Ən xeyirliniz ömrü uzun, əməli də yaxşı olanınızdır".**[2]

"Ölümü isə mənim üçün hər bir şərdən rahatlıq vasitəsi et". Ölüm həyatdan öncədir. Peyğəmbər ﷺ Allahdan ölümü ona görə hər bir şərdən rahatlıq vasitəsi etməsini diləmişdir ki, insan bu dünyada başına nə gələcəyindən bixəbərdir. Ola bilsin ki, dünyada çox qalsın, lakin geriləmiş olsun, dinində fəsada uğrasın. Allah qorusun! Ola da bilsin, dünyada çox qalsın və baş verən böyük fitnələrdən əziyyət çəksin və desin: "Kaş ki, anam məni dünyaya gətirməzdi; kaş ki, bundan öncə öləydim və unudulub gedəydim". Çünki o, böyük fitnələrlə qarşılaşıb. Ola bilsin, Uca Allahın onun üçün tezləşdirdiyi ölüm ona bütün şərlərdən daha xeyirli olsun. Bu səbəbdən də Peyğəmbər ﷺ duasında: **"Ölümü isə mənim üçün hər bir şərdən rahatlıq vasitəsi et"** demişdir.

Müsəlman qardaş, sən də bu duanı çox et: **"Allahım, işimin əsası olan dinimi mənim üçün islah et, yaşadığım dünyamı da mənim üçün**

---

[1] "əl-Əraf" surəsi, 43.

[2] Hədisi Əhməd (5/40) və Tirmizi (2252) rəvayət etmişlər.

islah et, dönəcəyim axirətimi də mənim üçün islah et; həyatıma mənim üçün hər bir xeyirdən əlavə et, ölümü isə mənim üçün hər bir şərdən rahatlıq vasitəsi et".

١٤٧٣– وَعنْ علي ﷺ ، قَالَ: قال لي رَسُولُ اللَّهِ ﷺ: « قُلْ: اللَّهُمَّ اهْدِنِي، وَسدِّدْنِي ».
وَفِي رِوَايةٍ: « اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الْهُدى، وَالسَّدَادَ » رواهُ مسلم.

1473. Rəvayət olunur ki, Əli ﷺ demişdir: «Rəsulullah ﷺ mənə belə dedi: **"De: Allahım mənə hidayət ver, məni doğru yola yönəlt!"**»[1]

Başqa bir rəvayətdə isə: **"Allahım, Səndən hidayət, doğruluq istəyirəm"**– deyilir.

Şərh:

Əli ibn Əbu Talibdən ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ ona belə deməyi əmr etmişdir: **"Allahım, mənə hidayət ver, məni doğru yola yönəlt!"**.

Hidayətə gəlincə, biz artıq onun mənası barədə söhbət açmışıq. Düzgünlük isə insanın sözündə, əməlində və əqidəsində doğru olmasıdır. Doğruluq insanın düzgünlüyə müvəffəq olması və yolunu azmamasıdır. Uca Allah buyurur: "**Ey iman gətirənlər, Allahdan qorxun və doğru söz danışın ki, O, sizin əməllərinizi islah etsin və günahlarınızı bağışlasın. Kim Allaha və Onun Elçisinə itaət etsə, böyük bir uğur qazanar".**[2]

Uca Allah doğru sözdə iki faydanın olduğunu zikr etmişdir:

Birincisi, əməllərin islah olunması; ***ikinicisi,*** günahların bağışlanması.

Odur ki, gərək insan bu duanı etsin: "Allahım, mənə hidayət ver, məni doğru yola yönəlt!", yaxud da desin: "Allahım, mənə hidayət ver və məni doğru yola yönəlt!". Hər ikisinin mənası eynidir.

١٤٧٤– وَعَنْ أَنَسٍ ﷺ ، قَالَ: كَانَ رسُولُ اللَّهِ ﷺ: يَقُولُ: اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الْعجْزِ والكَسَلِ وَالجُبْنِ وَالهَرَمِ، وَالْبُخْلِ، وَأَعُوذُ بِكَ مِنْ عَذَابِ القبْرِ، وَأَعُوذُ بِكَ مِنْ فِتْنَةِ المَحْيا وَالمَمَاتِ ».

[1] "Səhih Muslim", 4904.

[2] "əl-Əhzab" surəsi, 70-71.

وفي رِوايةٍ: « وَضَلَعِ الدَّيْنِ وَغَلَبَةِ الرِّجَالِ » رَوَاهُ مُسْلِمٌ.

1474. Rəvayət olunur ki, Ənəs ﷺ demişdir: Peyğəmbər ﷺ belə deyərdi: **"Allahım, acizlikdən, tənbəllikdən, qorxaqlıqdan, qocalıqdan və paxıllıqdan Sənə sığınıram. Qəbir əzabından da Sənə sığınıram, dirilərin və ölülərin fitnəsindən də Sənə sığınıram".**

Başqa bir rəvayətdə: **"borc altında qalmaqdan və insanların məni sıxışdırmasından"**– deyilir.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Şərh:

Bu, müəllifin ﷺ "Duanın fəziləti" fəslində zikr etdiyi hədislərdəndir. Ənəs ibn Malikdən ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ belə deyərdi: **"Allahım, acizlikdən və tənbəllikdən Sənə sığınıram".**

Acizlik qüdrətin olmaması, tənbəllik isə istəyin olmamasıdır. Belə ki, insan bir əməli etmədikdə ya acizlik səbəbindən bunu etmir, ya da xəstəlik, yaşlılıq və ya başqa bu kimi səbəbdən. Yaxud da bunu etmək istəmədiyi üçün etmir. Rəsulullah ﷺ acizlikdən və tənbəllikdən Allaha sığınardı.

"Qorxaqlıqdan, qocalıqdan və paxıllıqdan Sənə sığınıram". Qorxaqlıq nəfsin yoxsulluğu, insanın şücaətli olmaması anlamındadır. Qocalıq insanın yaşlanması, paxıllıq isə insanın malında simiclik etməsidir. Beləsi malını xərcləməyib saxlayır, hətta vacib məsələlər üçün belə sərf etmir.

"Borc altında qalmaqdan və insanların məni sıxışdırmasından Sənə sığınıram". Borc – Allah qorusun – insanın gecə oyaq qalmasına, gündüz isə fikir etməsinə səbəbdir. Borcu olan insan fikirli olur və əziyyət çəkir. Lakin insanlardan qaytarmaq niyyəti ilə borc götürənin borcunu qaytarmağa Allah yardım edir.

Əgər insanlardan pul, məhsul, kirayə ev və ya başqa bir şeyi qaytarmaq niyyəti ilə götürmüsənsə, Allah onu geri qaytarmağa yardım edəcək – ya bu dünyada onu qaytarmağına yardım edəcək, ya da axirətdə. Bu, Peyğəmbərdən ﷺ səhih olaraq varid olmuşdur. İnsanların pulu ilə oynayan, qaytarmamaq məqsədi ilə onlardan borc götürənlərin malını isə Allah tələf edir. Allah qorusun!

[1] "Səhih Muslim", 4878.

Peyğəmbər ﷺ belə də dua edərdi: **“Allahım, kədərdən və hüzndən Sənə sığınıram”**.

Hüzn keçmişdə baş verənlərə, kədər isə gələcəkdə baş verənlərə görə olur. İnsan keçmişdə baş verənlərə görə hüznlü olduqda, yaxud da gələcəkdə baş verə biləcək hadisələrə görə kədərləndikdə həyatı narahat keçir. Yox, əgər insan indiki halına önəm verirsə, habelə əmr olunduğu şəkildə gələcəyi üçün hazırlaşırsa, bu onun rahat olmasına səbəb olur. Peyğəmbər ﷺ hüzndən və kədərdən Allaha sığınardı.

İnsanların böyük əksəriyyətinin öz gələcəyi barəsində düşündüyünü görürsən. Halbuki, belə diqqətə o qədər də ehtiyac yoxdur. Görürsən ki, həyat beləsini çox yorur. Vaxtı yetişən əməli etdikdə isə görür ki, əslində iş olduqca asan imiş. Bir çoxları da keçmişdə baş verənləri unutmur və kədərlənərək özlərini yorurlar.

١٤٧٥– وَعن أَبي بكْرٍ الصِّدِّيقِ رضي الله عنه ، أَنَّه قَالَ لِرَسولِ اللَّه ﷺ: عَلِّمني دُعَاءً أَدعُو بِهِ في صَلاتي، قَالَ: قُلْ: اللَّهمَّ إِنِّي ظَلَمْتُ نَفْسِي ظُلْماً كثِيراً، وَلا يَغْفِر الذُّنوبَ إِلاَّ أَنْتَ، فَاغْفِر لي مغْفِرَةً مِن عِنْدِكَ، وَارحَمْني، إِنَّكَ أَنْتَ الْغَفور الرَّحِيم » متَّفَقٌ عليهِ.

وفي رِوايةٍ: « وَفي بيْتي » وَرُوِي: « ظُلْماً كَثِيراً » وروِيَ « كَبِيراً » بِالثاءِ المثلثة وبِالباءِ الموحدة، فَيَنْبغِي أَن يُجْمَعَ بَيْنَهُمَا، فَيُقَالُ: كَثيراً كَبيراً.

1475. Rəvayət olunur ki, Əbu Bəkr əs-Siddiq رضي الله عنه Rəsulullaha ﷺ: “Mənə namazda oxumağım üçün bir dua öyrət” demiş, o ﷺ da belə demişdir: «**De: “Allahım, həqiqətən mən özümə çoxlu zülm etdim, Səndən başqa isə günahları əfv edən yoxdur. Öz məğfirətinlə məni bağışla, mənə rəhm et. Şübhəsiz ki, Sən Bağışlayan və Rəhm edənsən”.**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Başqa bir rəvayətdə: “evimdə”, “çoxlu zülm” sözü isə “böyük zülm” kimi rəvayət olunmuşdur. Bunlar cəm olunmalı və: **“çoxlu, böyük”** kimi deyilməlidir.

Şərh:

Müəllif رحمه الله Əbu Bəkrdən رضي الله عنه rəvayət olunmuş hədisi nəql etmişdir.

[1] “Səhih əl-Buxari”, 790; “Səhih Muslim”, 4876.

Həmin hədisdə o, Peyğəmbərdən ﷺ ona namazda oxuması üçün bir dua öyrətməsini istəmişdir. Soruşanla soruşulan barəsində bir düşünün: sual verən Peyğəmbərin ﷺ ən çox istədiyi insan Əbu Bəkr, sual verilən isə Peyğəmbərdir. Bir insan öz sevdiyinə bir sual verdikdə cavabın ən gözəl şəkildə olması da labüddür. "Namazda oxuya bilməyim üçün" – yəni ya səcdədə, ya da sonuncu təşəhhüddən sonra oxuyacağım bir dua.

Dedi: «De: **"Allahım, həqiqətən mən özümə çoxlu zülm etdim, Səndən başqa isə günahları əfv edən yoxdur. Öz məğfirətinlə məni bağışla, mənə rəhm et. Şübhəsiz ki, Sən Bağışlayan və Rəhm edənsən"**». Bu, olduqca yığcam və faydalı bir duadır.

"Allahım, həqiqətən mən özümə çoxlu zülm etdim". Burada qulun özünə zülm etməsinin etirafı öz əksini tapır. Bu da duanın üslublarındandır ki, insan duasında öz halını izzət və cəlal sahibi Allaha bəyan etsin. Necə ki, Musa demişdir: **"Ey Rəbbim, Sənin mənə nazil edəcəyin xeyrə ehtiyacım var".**[1] Bununla da o, öz halı ilə Rəbbinə təvəssül etdi.

"Səndən başqa isə günahları əfv edən yoxdur". Bu, izzət və cəlal sahibi Allaha tərif və acizliyin etirafıdır ki, Allahdan başqa günahları əfv edən yoxdur. Uca Allah buyurur: **"günahları Allahdan başqa kim bağışlaya bilər?"**[2] Əgər bütün insanlar bir araya gələrək sənin bir günahını bağışlamağa cəhd etsələr, bunu edə bilməzlər. Sənin günahlarını yalnız izzət və cəlal sahibi Allah bağışlaya bilər.

"Öz məğfirətinlə məni bağışla". Burada məğfirət Allaha nisbət olunub, çünki bu daha bəlağətli və əzəmətlidir. Şəkk yoxdur ki, bəxş edilənin böyüklüyü bəxş edənin böyüklüyündəndir.

"Mənə rəhm et", yəni gələcəkdə mənə rəhm et və məni hər bir xeyirə müvəffəq et.

"Şübhəsiz ki, Sən Bağışlayan və Rəhm edənsən". Burada Allahın iki münasib adı ilə Ona təvəssül olunur. Duada: **"Öz məğfirətinlə məni bağışla, mənə rəhm et"** deyildiyi üçün: **"Sən Bağışlayan və Rəhm edənsən"** deyilməsi daha münasibdir.

İnsan da gərək bu duanı namazında ya səcdədə, ya da sonuncu təşəhhüddən sonra desin. Müvəffəq edən Allahdır.

---

[1] "əl-Qəsəs" surəsi, 24.

[2] "Ali İmran" surəsi, 135.

١٤٧٦– وَعَن أَبي موسَى ﷺ، عَنِ النَّبِيِّ ﷺ أَنَّه كَانَ يَدعُو بِهَذا الدُّعَاءِ: «اللَّهمَّ اغْفِر لِي خَطِيئَتِي وجهْلِي، وإِسْرَافِي في أَمْرِي، وما أَنْتَ أَعلَم بِهِ مِنِّي، اللَّهمَّ اغفِرْ لِي جِدِّي وَهَزْلِي، وَخَطَئِي وَعمْدِي، وَكلُّ ذلِكَ عِنْدِي، اللَّهُمَّ اغْفِرْ لِي مَا قَدَّمْتُ وَمَا أَخَّرْتُ، وَما أَسْرَرْتُ وَمَا أَعْلَنْتُ، وَمَا أَنْتَ أَعْلَمُ بِهِ مِنِّي، أَنْت المقَدِّمُ، وَأَنْتَ المُؤَخِّرُ، وَأَنْتَ عَلى كلِّ شَيْءٍ قَدِيرٌ » متفقٌ عليه

1476. Əbu Musadan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ bu duanı edərdi: **"Allahım, xətalarımı və cahilliyimi bağışla, işimdə həddimi aşmağımı, habelə Sənin məndən daha yaxşı bildiklərini bağışla. Allahım, ciddi və zarafatla etdiklərimi, səhvən və qəsdən etdiyimi bağışla. Bütün bunlar məndə mövcuddur. Allahım, etdiklərimi və etmədiklərimi, sirr kimi saxladıqlarımı və elan etdiklərimi, habelə Sənin məndən daha yaxşı bildiklərini bağışla. Sən tezləşdirənsən, Sən gecikdirənsən, Sən hər şeyə Qadirsən".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٤٧٧– وعنْ عَائِشَةَ ﷺ، أَنَّ النَّبي ﷺ كَانَ يقُولُ في دُعَائِهِ: « اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ شَرِّ ما عمِلْتُ ومِنْ شَرِّ ما لَمْ أَعْمَلْ ». رَوَاهُ مُسْلِم.

1477. Aişədən ﷺ rəvayət olunan hədisdə deyilir: «Peyğəmbər ﷺ duasında belə deyərdi: **"Allahım, etdiyim əməllərin, habelə etmədiyim əməllərin şərindən Sənə sığınıram"**».

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١٤٧٨– وعَنِ ابنِ عُمَر ﷺ قَالَ: كانَ مِنْ دُعاءِ رسُولِ اللَّهِ ﷺ « اللَّهمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ زَوَالِ نِعْمَتِكَ، وَتَحَوُّلِ عَافِيَتِكَ وَفُجاءَةِ نِقْمَتِكَ، وَجميعِ سخَطِكَ » روَاهُ مُسْلِمٌ.

1478. Rəvayət olunur ki, İbn Ömər ﷺ demişdir: «Rəsulullahın ﷺ dualarından biri belə idi: **"Allahım, nemətinin aradan qalxmasından, salamatlığının dəyişməsindən, qəfil cəzandan və bütün qəzəbindən Sənə sığınıram"**».

---

[1] "Səhih əl-Buxari", 5919; "Səhih Muslim", 4896.

[2] "Səhih Muslim", 4891.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٤٧٩– وَعَنْ زَيْدِ بنِ أَرْقَم ﷺ ، قَالَ: كَانَ رَسُولُ اللَّه ﷺ يقولُ: «اللهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ العَجْزِ وَالكَسَلِ، والبُخْلِ وَالهَرم، وعَذَاب الْقَبْر، اللَّهُمَّ آتِ نَفْسِي تَقْوَاهَا، وَزَكِّهَا أَنْتَ خَيرُ مَنْ زَكَّاهَا، أَنْتَ وليُّهَا وَمولاَهَا، اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ عِلمٍ لا يَنْفَعُ، ومِنْ قَلْبٍ لاَ يخْشَعُ، وَمِنْ نَفْسٍ لا تَشبَعُ، ومِنْ دَعْوةٍ لا يُسْتجابُ لهَا » رواهُ مُسْلِمٌ.

1479. Rəvayət olunur ki, Zeyd ibn Ərqam ﷺ demişdir: «Allahın elçisi ﷺ belə deyərdi: **"Allahım, acizlikdən və tənbəllikdən, paxıllıqdan və qocalıqdan, qəbir əzabından Sənə sığınıram. Allahım, nəfsimə təqva bəxş et, onu artır. Onu artıranların ən xeyirlisi Sənsən, onun dostu və ağası Sənsən, Allahım, faydasız elmdən, qorxmayan qəlbdən, doymayan nəfsdən və cavab verilməyən duadan Sənə sığınıram"».**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١٤٨٠– وَعنِ ابنِ عبَّاسٍ ﷺ ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ كَانَ يَقُولُ: « اللَّهُمَّ لَكَ أَسْلَمْتُ، وَبِكَ آمَنْتُ، وعلَيْكَ تَوَكَّلْتُ، وَإِلَيْكَ أَنَبْتُ وَبِكَ خَاصَمْتُ، وإِلَيْكَ حَاكَمْتُ. فاغْفِرْ لي ما قَدَّمْتُ، وما أَخَّرْتُ، وَمَا أَسْرَرْتُ ومَا أَعلَنْتُ، أَنْتَ المُقَدِّمُ، وَأَنْتَ المُؤَخِّرُ، لا إِلَهَ إِلاَّ أَنْتَ ».

زادَ بعْضُ الرُّوَاةِ: « ولا حَولَ ولا قوَّةَ إِلاَّ بِاللَّهِ » متفَقٌ عليهِ.

1480. Rəvayət olunur ki, İbn Abbas ﷺ demişdir: «Rəsulullah ﷺ belə deyərdi: **"Allahım, Sənin üçün müsəlman oldum, Sənə iman gətirdim, Sənə təvəkkül etdim, Sənə yönəldim, Sənin üçün mübahisə etdim, Səninlə mühakimə etdim. Etdiklərim və etmədiklərim, gizli saxladıqlarım və elan etdiklərimə görə məni bağışla. Sən tezləşdirənsən, Sən yubadansan, Səndən başqa ibadət haqqına malik məbud yoxdur"**».

Bəzi ravilər bu əlavəni etmişlər: **"Allahdan başqa güc və qüvvət sahibi yoxdur"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

---

[1] "Səhih Muslim", 4922.

[2] "Səhih Muslim", 4899.

[3] "Səhih əl-Buxari", 1053; "Səhih Muslim", 1288.

Şərh:

Müəllif ﵀ "Duanın fəziləti" fəslində müxtəlif hədisləri qeyd edir ki, onlarda diqqət çəkən bir çox cümlələr vardır. Onlardan birində Peyğəmbər ﷺ Uca Allaha onun keçmiş və gələcək günahlarını bağışlaması üçün dua edərək belə deyir: "**Allahım, etdiklərimi və etmədiklərimi, sirr kimi saxladıqlarımı və elan etdiklərimi, habelə Sənin məndən daha yaxşı bildiklərini bağışla".** Bunu: "Allahım, mənim bütün günahlarımı bağışla" demək də əvəz edə bilər, lakin ibadət məqamında təfsilata varmaq tələb olunandır. Çünki bu, insanın bütün günahlarını – gizlində və aşkarda olan, bildiyi və bilmədiyi günahları xatırlamasına şərait yaradır, onun izzət və cəlal sahibi Allaha istəklərini artırır, Onu sevərək, Ondan qorxaraq və Ona ümid edərək bağışlanma istəməsinə səbəb olur. Ona görə də Peyğəmbər ﷺ izzət və cəlal sahibi Allaha təfsilatlı şəkildə dua edərək Ondan bağışlanma və başqa məsələlər istəyərdi.

Rəsulullah ﷺ dualarında həm də bir sıra məsələlərdən, o cümlədən günahlar və onların təsirlərindən, qəbir əzabından və bu hədislərdə zikr olunmuş digər məsələlərdən Allaha sığınmışdır. İnsan da gərək bu duaları kitabdan götürüb bir yerə yazsın, Uca Allaha həmin dualarla yalvararaq onlardan faydalansın. O duaları elə kitabdan da oxumaq olar və bu da savabdır. Lakin sizin üçün daha yaxşısı kitabdan bu duaları yazıb götürməkdir ki, qəlblərinizə yol tapsın, siz də Uca Allaha onlarla dua edəsiniz. Müvəffəq edən Allahdır.

١٤٨١– وَعَن عَائِشَةَ ﵂ ، أَنَّ النَّبِيَّ ﷺ كَانَ يَدعو بهؤُلاءِ الكَلِمَاتِ: «اللَّهُمَّ إِني أَعوذُ بِكَ مِن فِتنةِ النَّارِ، وعَذَابِ النَّارِ، وَمِن شَرِّ الغِنَى وَالفَقْر».

رَوَاهُ أَبو داوَد، والترمذيُّ وقال: حديث حسن صحيح، وهذا لفظُ أَبي داود.

1481. Rəvayət olunur ki, Aişə ﵂ demişdir: «Peyğəmbər ﷺ bu kəlmələrlə dua edərdi: **"Allahım, Cəhənnəm fitnəsindən, Cəhənnəm əzabından, zənginliyin və yoxsulluğun fitnəsindən Sənə sığınıram"**».

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş və: "Bu hədis həsən səhih hədisdir" demişlər.[1] Bu mətn Əbu Davudun ləfzidir.

[1] "Sunən Əbu Davud", 1319; "Sunən ət-Tirmizi", 3417.

١٤٨٢– وعَن زيادِ بْن عِلاقَةَ عن عمّه، وهو قُطبَةُ بنُ مالِكٍ، رضي الله عنه ، قَال: كَانَ النَّبيُّ ﷺ يقُولُ: « اللَّهمَّ إِنّي أَعُوذُ بِكَ مِن منْكَرَاتِ الأَخلاقِ، والأعْمَالِ والأَهْواءِ » رواهُ الترمذي وقال: حديثٌ حَسَنٌ.

1482. Rəvayət olunur ki, Ziyad ibn Ələqa əmisi Qutbə ibn Malikdən رضي الله عنه onun belə dediyini nəql etmişdir: «Peyğəmbər ﷺ belə deyərdi: **"Allahım, pis əxlaqdan, əməldən və istəkdən Sənə sığınıram"».**

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir" demişdir.[1]

١٤٨٣– وعَن شكَلِ بنِ حُمَيْدٍ رضي الله عنه قَال: قُلْتُ يا رَسولَ اللَّهِ: عَلِّمْني دُعاءً. قَالَ: «قُلْ: اللَّهُمَّ إِني أعوذُ بِكَ مِنْ شَرِّ سَمْعِي، وَمِن شَرِّ بصَرِي، وَمِن شَرِّ لسَاني، وَمِن شَرِّ قَلبي، وَمِن شَرِّ منِيِّي » رواهُ أبو داودَ، والترمذيُّ وقالَ: حديثٌ حسنٌ.

1483. Rəvayət olunur ki, Şəkl ibn Humeyd رضي الله عنه demişdir: «Mən dedim: "Ey Allahın elçisi, mənə dua öyrət". Dedi: **"Allahım, eşitdiyimin şərindən, gördüyümün şərindən, dilimin şərindən, qəlbimin şərindən və nütfəmin şərindən Sənə sığınıram"».**

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən hədisdir" demişdir.[2]

١٤٨٤– وَعَن أَنسٍ رضي الله عنه ، أَنَّ النَّبِيَّ ﷺ كَانَ يَقُولُ: « اللَّهمَّ إِنّي أَعُوذُ بِكَ مِنَ الْبرَصِ، وَالجُنُونِ، والجُذَامِ، وسّيءِ الأَسْقامِ » رَوَاهُ أَبو داود بإِسنادٍ صحيحٍ.

1484. Ənəsdən رضي الله عنه rəvayət olunur ki, Peyğəmbər ﷺ belə deyərdi: **"Allahım, albinosluqdan, dəlilikdən, cüzamdan və pis xəstəliklərdən Sənə sığınıram".**

Hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.[3]

---

[1] "Sunən ət-Tirmizi", 3515.

[2] "Musnəd İmam Əhməd", 3/429; "Sunən Əbu Davud", 1327; "Sunən ət-Tirmizi", 3414; "Sunən ən-Nəsai", 5349.

[3] "Musnəd İmam Əhməd", 3/192; "Sunən Əbu Davud", 1329.

١٤٨٥– وعَنْ أَبي هُرَيْرَةَ ﵁ ، قَالَ: كانَ رَسُولُ اللَّهِ ﷺ يَقولُ: اللَّهمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الجُوعِ، فإِنَّهُ بِئْسَ الضَّجيعُ، وَأَعُوذُ بِكَ من الخِيانَةِ، فَإِنَّهَا بِئْسَتِ البِطانَةُ ».رواهُ أبو داودَ بإِسنادٍ صحيحٍ.

1485. Rəvayət olunur ki, Əbu Hureyra ﵁ demişdir: «Peyğəmbər ﷺ deyərdi: **"Allahım, aclıqdan Sənə sığınıram, heç şübhəsiz, o, pis həmsöhbətdir. Xəyanətdən Sənə sığınıram, heç şübhəsiz, o, pis bir xislətdir"».**

Hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.[1]

١٤٨٦– وَعن عليٍّ ﵁ ، أَنَّ مُكَاتَباً جاءهُ، فَقَالَ إِني عجزتُ عَن كتابتي. فَأَعِنِّي. قالَ: أَلا أُعَلِّمُكَ كَلِماتٍ عَلَّمَنيهنَّ رَسُولُ اللَّهِ ﷺ لَو كانَ عَلَيْكَ مِثْلُ جبلٍ دَيْناً أَدَّاهُ اللَّهُ عنْكَ؟ قُلْ: « اللَّهمَّ اكْفِني بحلالِكَ عَن حَرَامِكَ، وَاغْنِني بِفَضلِكَ عَمَّن سِوَاكَ».رواهُ الترمذيُّ وقال: حديثٌ حسنٌ.

1486. Əlidən ﵁ rəvayət olunur ki, bir dəfə saziş bağlamış bir adam onun yanına gəlib dedi: "Mən öz sazişimə riayət etməkdə aciz oldum, mənə yardım et". Dedi: «Rəsulullahın ﷺ mənə öyrətdiyi bəzi kəlmələri sənə öyrədəcəyəm. Həmin sözləri desən Uhud dağı boyda borcun olsa belə, Allah onu sənin üçün ödəyər. De: **"Allahım, məni halalınla kifayətləndir və haramından qoru, fəzilətinlə məni Səndən başqasına möhtac etmə"**».

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir" demişdir.[2]

Şərh:

Bunlar Peyğəmbərin ﷺ etdiyi duaları ehtiva edən hədislərdir. Həmin dualarda o, pis əxlaqdan, pis əməllərdən, pis istəklərdən və pis xəstəliklərdən və digər rəvayətdə deyildiyi kimi, mərəzlərdən Allaha sığınardı.

"Pis əxlaqdan və əməllərdən", yəni günahlardan. Pis əxlaq isə insanlarla pis davranmaqdır.

"İstəklər". Hər insanın nəfsi istəkləri var. Bəzi insanların istəkləri Peyğəmbərin ﷺ gətirdiklərinə uyğun olur, digərlərinin istəkləri isə öz iradəsinə tabe olur.

---

[1] "Sunən Əbu Davud", 1323; "Sunən ən-Nəsai", 5373; "Sunən İbn Macə", 3345.

[2] "Musnəd İmam Əhməd", 1/153; "Sunən ət-Tirmizi", 3486.

“Mərəzlər”, yəni xəstəliklər. Bunlardan da insan Allaha sığınmalıdır. Əgər Allah onu qoruyarsa, o kəs bir çox xeyirlərə nail olar.

Peyğəmbər ﷺ həm də albinosluqdan, dəlilikdən, cüzamdan və sair pis xəstəliklərdən Allaha sığınardı. Çünki bunlar bədənin və ağlın xəstəliklərindəndir. Allah qorusun!

Cüzam, bir vəbadır. İnsanın hər hansı bir üzvündə başlayır və sonra digər üzvlərinə yayılır. Buna görə alimlər demişlər ki, cüzam xəstəsi insanlardan uzaq olmalıdır. Əmr sahibi onu xüsusi bir yerə yerləşdirməlidir. Günümüzdə buna karantin deyilir. Çünki bu xəstəlik ən qorxulu xəstəliklərdəndir və hava ilə yayılır. Allahdan afiyət diləyirik.

“Pis xəstəliklər”, bütün xəstəliklərə şamil olunur. Həmin xəstəliklərdən biri də günümüzdə xərçəng kimi tanınan xəstəlikdir. Bu da olduqca qorxulu bir xəstəlikdir. Allahdan afiyət diləyirik. Gərək insan bu hədislərə həris olsun və Peyğəmbərə ﷺ tabe olsun.

Peyğəmbər ﷺ aclıqdan da Allaha sığınar və deyərdi: “O, çox pis bir həmsöhbətdir”. Həmçinin xəyanətdən də Allaha sığınar və: “O, çox pis bir xislətdir” deyərdi.

Odur ki, gərək insan bu kitabdakı hədisləri ayrıca vərəqə qeyd etsin və tədricən əzbərləsin. Müvəffəq edən Allahdır.

١٤٨٧– وعَنْ عِمْرانَ بنِ الحُصينِ رضي الله عنهما ، أَنَّ النَّبِيَّ ﷺ علَّم أَباهُ حُصيْناً كَلِمتَيْنِ يدعُو بهما: « اللَّهُمَّ أَلهِمْني رُشْدِي، وأَعِذني مِن شَرِّ نفسي ». رواهُ الترمذيُّ وقَالَ: حديثٌ حسنٌ.

1487. İmran ibn Husayndan رضي الله عنهما rəvayət olunur ki, Peyğəmbər ﷺ onun atası Husaynə iki söz öyrətmişdir: **“Allahım, mənə doğruluğu ilham et, məni özümün şərindən qoru”**.

Hədisi Tirmizi rəvayət etmiş və: “Bu, həsən hədisdir” demişdir.[1]

١٤٨٨– وَعَن أَبي الفَضلِ العبَّاسِ بنِ عَبْدِ المُطَّلِبِ رضي الله عنه ، قال: قُلْتُ يارسول اللَّهِ: عَلِّمْني شَيْئاً أَسْأَلُهُ اللَّه تَعَالى، قَالَ: « سَلُوا اللَّه العافِيةَ ». فَمكَثْتُ أَيَّاماً، ثُمَّ جِئتُ فَقُلْتُ: يا رسولَ اللَّه: علِّمْني شَيْئاً أَسْأَلُهُ اللَّه تعالى، قَالَ لِي: « يَا عبَّاسُ يا عمَّ رَسولِ اللَّهِ، سَلُوا اللَّه العافيةَ في الدُّنْيا والآخِرةِ ».رَواهُ الترمذيُّ وقَالَ: حديثٌ حسنٌ صَحيحٌ.

[1] “Sunən ət-Tirmizi”, 3405.

1488. Rəvayət olunur ki, Əbul-Fadl Abbas ibn Əbdul-Muttalib ﷺ demişdir: «Mən dedim: "Ey Allahın elçisi, mənə elə bir dua öyrət ki, onunla Uca Allaha dua edim". Dedi: **"Allahdan afiyət istəyin"**. Bir neçə gündən sonra yenə gəlib dedim: "Mənə elə bir dua öyrət ki, onunla Uca Allaha dua edim". Mənə dedi: **"Ey Abbas, ey Rəsulullahın əmisi, Allahdan həm bu dünyada, həm də axirətdə afiyət istəyin"**».

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən səhih hədisdir" demişdir.[1]

١٤٨٩– وعنْ شَهْرِ بْنِ حوشَبٍ قَالَ: قُلْتُ لأُمِّ سَلَمَةَ، ﷺ، يا أُمَّ المؤمِنِين مَا كَانَ أَكْثَرُ دُعَاءِ رسُول اللَّهِ ﷺ إِذا كانَ عِنْدكِ؟ قَالَتْ: كانَ أَكْثَرُ دُعائِهِ: « يا مُقلبَ القُلوبِ ثَبِّتْ قلْبي علَى دِينِكَ » رَواهُ الترمذيُّ، وقال حَديثٌ حسنٌ.

1489. Rəvayət olunur ki, Şəhr ibn Həuşəb ﷺ demişdir: «Mən Ummu Sələməyə ﷺ dedim: "Ey möminlərin anası, əgər bilirsənsə de, Rəsulullahın ﷺ ən çox etdiyi dua hansı idi?" Dedi: "Ən çox bu duanı edərdi: **"Ey qəlbləri çevirən *Allah*, qəlbimi dinin üzərində sabit et"**».

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir" demişdir.[2]

١٤٩٠– وعن أبي الدَّرداءِ ﷺ ، قَالَ: قَالَ رَسولُ اللَّهِ ﷺ: « كانَ مِن دُعاءِ دَاوُدَ ﷺ: «اللَّهمَّ إِنِّي أَسْأَلُكَ حُبَّكَ، وَحُبَّ من يُحِبُّكَ، وَالعمَل الذي يُبَلِّغُني حُبَّكَ اللَّهُمَّ اجْعل حُبَّكَ أَحَبَّ إِلَيَّ مِن نَفسي، وأَهْلي، ومِن الماءِ البارد » رواهُ الترمذيُّ وَقَالَ: حديثٌ حسنٌ.

1490. Rəvayət olunur ki, Əbu Dərda ﷺ demişdir: «Rəsulullah ﷺ demişdir: **"Davudun dualarından biri belə idi: – Allahım, Sənin sevgini, Səni sevənlərin sevgisini, Sənin sevginə çatdıran əməlləri diləyirəm. Allahım, elə et ki, Sənin sevgin mənə öz nəfsimdən, yaxınlarımdan və soyuq sudan da əziz olsun"**».

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir" demişdir.[3]

١٤٩١– وعن أَنَسٍ ﷺ ، قَالَ: قال رسُولُ اللَّهِ ﷺ: «أَلِظُّوا بِياذا الجَلالِ وَالإِكرامِ».

---

[1] "Musnəd İmam Əhməd", 1/8; "Sunən ət-Tirmizi", 3518.

[2] "Musnəd İmam Əhməd", 3/112; "Sunən ət-Tirmizi", 2066.

[3] "Sunən ət-Tirmizi", 3412.

رواه الترمذي وروَاهُ النَّسَائيُّ مِن رِوايةِ ربيعةَ بنِ عامِرٍ الصَّحابيّ. قَالَ الحاكم: حديثٌ صحيحُ الإِسْنَادِ.

« أَلِظُّوا » بكسر اللَّام وتشديد الظاءِ المعجمةِ معْنَاه: الْزَمُوا هذِهِ الدَّعْوَةِ وأَكْثِرُوا مِنها.

1491. Rəvayət olunur ki, Ənəs ﵁ demişdir: «Rəsulullah ﷺ demişdir: **"İzzət və cəlal sahibi ilə duanı çoxaldın"**».

Hədisi Tirmizi rəvayət etmişdir. Nəsai bu hədisi səhabə Rabiə ibn Amirdən nəql etmişdir. Hakim: "Bu hədisin isnadı səhihdir" demişdir.[1]

[Hədisin ərəbcəsindəki] "əlizzu" "çoxlu bu duanı edən"dir.

١٤٩٢– وعن أَبي أُمامةَ ﵁ قَالَ: دَعا رسُولُ اللَّهِ ﷺ بِدُعَاءٍ كَثيرٍ، لم نَحْفَظْ مِنْهُ شَيْئاً، قُلْنا يا رَسُولَ اللَّهِ دعوت بِدُعاءٍ كَثِيرٍ لم نَحْفَظ منْهُ شَيْئاً، فقَالَ: « أَلا أَدُلُّكُم على ما يَجْمَعُ ذَلكَ كُلَّهُ؟ تَقُولُ: « اللَّهُمَّ إِنِّي أَسْأَلُك مِن خَيرِ ما سأَلَكَ مِنْهُ نبيُّكَ مُحَمَّدٌ ﷺ، وأَعُوذُ بِكَ من شَرِّ ما اسْتَعاذَ مِنْهُ نَبيُّكَ مُحمَّدٌ ﷺ، وَأَنْتَ المُسْتَعَانُ، وعليْكَ البلاغُ، ولا حَوْلَ ولا قُوَّةَ إِلاَّ بِاللَّهِ » رواهُ الترمذيُّ وقَالَ: حديثٌ حَسَنٌ.

1492. Rəvayət olunur ki, Əbu Uməmə ﵁ demişdir: «Peyğəmbər ﷺ çoxlu dualar edərdi, biz isə hələ də onlardan bir şey əzbərləməmişdik. Dedik: "Ey Allahın elçisi, sən çoxlu dualar edirsən, biz isə onlardan heç nə əzbərləməmişik". Dedi: **"Sizə bütün bunları cəm edən bir şey öyrədimmi? Belə deyin: – Allahım, peyğəmbərin Muhəmmədin istədiklərinin xeyrini Səndən diləyirəm, peyğəmbərin Muhəmmədin sığındıqlarının şərindən Sənə sığınıram. Sən yardım edənsən, duamız Sənədir, Səndən başqa güc-qüvvət Sahibi yoxdur"».**

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir" demişdir.[2]

١٤٩٣– وَعَن ابْنِ مسْعُودٍ، ﵁، قَالَ: كَانَ مِن دُعَاء رَسُولِ اللَّه ﷺ: اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ مُوجِباتِ رحْمتِكَ، وَعزَائمَ مغفِرتِكَ، والسَّلامَةَ مِن كُلِّ إِثمٍ، والغَنِيمَةَ مِن كُلِّ بِرٍ، وَالفَوْزَ بالجَنَّةِ، وَالنَّجاةَ مِنَ النَّارِ ».

[1] "Musnəd İmam Əhməd", 4/177; "Sunən ət-Tirmizi", 3447; "Sunən ən-Nəsai", 4/409.

[2] "Sunən ət-Tirmizi", 3443.

رواهُ الحاكِم أبو عبد اللَّهِ، وقال: حديثٌ صحيحٌ على شرط مسلِمٍ .

1493. Rəvayət olunur ki, İbn Məsud ﷺ demişdir: «Rəsulullahın ﷺ dualarından biri belə idi: **"Allahım, Sənin mərhəmətini vacib edən şeyləri, bağışlanmanın səbəblərini, hər günahdan salamatlığı, hər yaxşılıqdan qənimət əldə etməyi, Cənnətlə zəfər qazanmağı və Cəhənnəmdən qurtulmağı Səndən diləyirəm"**».

Hədisi Hakim Əbu Abdullah rəvayət etmiş və: "Hədis Muslimin şərtinə görə səhihdir" demişdir.[1]

Şərh:

Bu hədislərdə Peyğəmbərin ﷺ etdiyi və edilməsini əmr etdiyi duaların fəzilətindən bəhs olunur. Həmin hədislərin birində İmran ibn Husayndan rəvayət olunur ki, Peyğəmbər ﷺ belə dua edərdi: **"Allahım, mənə doğruluğu ilham et, məni özümün şərindən qoru".** Başqa bir rəvayətdə deyilir: **"Məni nəfsimin şərindən qoru".**

"Mənə doğruluğu ilham et", yəni məni doğru yola yönəlt. Doğruluq yanlışlığın əksidir. Yanlışlıq asiliklər, şər və fəsadlardır. İnsan doğruluğa müvəffəq olarsa, müvəffəq olar. Bu da möminlərin məqsədləridir. Uca Allah onlar barəsində buyurur: **"Lakin Allah sizə imanı sevdirmiş, onu qəlbinizə gözəl göstərmiş, sizdə küfrə, günaha və asi olmağa qarşı nifrət oyatmışdır. Doğru yolda olanlar da bunlardır".**[2] Doğruluq budur.

Abbas ﷺ da Peyğəmbərdən ﷺ ona dua öyrətməsini istəmiş, o da belə buyurmuşdur: **"De: – Allahım, Səndən afiyət diləyirəm"**. Bir neçə gün sonra o, yenə Peyğəmbərin ﷺ yanına gəlmiş, ondan dua öyrətməyini istəmiş, o da demişdir: **"De: – Allahım, həm bu dünyada, həm də axirətdə afiyət diləyirəm".**

Afiyət hər bir şərdən qorunmaqdır. Allah sənə afiyət verərək səni hər növ şərdən qoruyarsa, bədənlərin, qəlblərin, istəklərin və başqa şərlərdən qoruyarsa, sən xeyir içərisində olarsan.

Peyğəmbər ﷺ həm də bu duanı çox edərdi: **"Ey qəlbləri çevirən *Allah*, qəlbimi dinin üzərində sabit et".**

---

[1] "Mustədrək əl-Hakim", 1/706.

[2] "əl-Hucurat" surəsi, 8.

Qeyd etdik ki, Peyğəmbər ﷺ buna bənzər başqa bir dua da edərdi: **"Ey qəlbləri dəyişdirən Allah, qəlblərimizi itaətinə doğru çevir"**. Bu ikisini cəm edərək: "Ey qəlbləri çevirən Allah, qəlbimi itaətin üzərində sabit et; ey qəlbləri dəyişdirən Allah, qəlblərimizi itaətinə doğru çevir" desən bu daha yaxşı olar.

Belə dualardan biri də Davuddan nəql olunmuş bu duadır: "**Allahım, Sənin sevgini, Səni sevənlərin sevgisini, Sənin sevginə çatdıran əməlləri diləyirəm. Allahım, elə et ki, Sənin sevgin mənə öz nəfsimdən, yaxınlarımdan və soyuq sudan da əziz olsun**". Bu da olduqca mühüm bir duadır. Əgər Allahı sevsən, Allahı sevənləri də sevsən, Onun övliyalarından olarsan. İzzət və cəlal sahibi Allahın sevdiyi əməlləri sevsən də belədir. Odur ki, insan davamlı şəkildə bu duanı etməlidir. Çünki izzət və cəlal sahibi Allahın sevgisi əsas qayədir. Uca Allah buyurur: «**De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın"**».[1]

Dualardan biri də budur: **"Allahım, Sənin mərhəmətini vacib edən şeyləri, bağışlanmanın səbəblərini, hər günahdan salamatlığı, hər yaxşılıqdan qənimət əldə etməyi, Cənnətlə zəfər qazanmağı və Cəhənnəmdən qurtulmağı Səndən diləyirəm"**.

Müəllif buna bənzər bir sıra hədisləri qeyd etmişdir. Öncə də qeyd etmişdik ki, yaxşı olar ki, bu hədislər ayrıca qeyd edilib oxunsun. Çünki dərs əsnasında onun öyrənilməsi insan üçün çətin ola bilər, ancaq götürüb onları bir-bir öyrənsən, sənin üçün də asan olar. Müvəffəq edən Allahdır.

[1] "Ali İmran" surəsi, 31.

İki yüz əlli birinci fəsil

Gizlində edilən duanın fəziləti

Mövzu ilə əlaqəli ayələr:

Uca Allah buyurur:

﴿ وَٱلَّذِينَ جَآءُو مِنۢ بَعۡدِهِمۡ يَقُولُونَ رَبَّنَا ٱغۡفِرۡ لَنَا وَلِإِخۡوَٰنِنَا ٱلَّذِينَ سَبَقُونَا بِٱلۡإِيمَٰنِ وَلَا تَجۡعَلۡ فِي قُلُوبِنَا غِلّٗا لِّلَّذِينَ ءَامَنُواْ رَبَّنَآ إِنَّكَ رَءُوفٞ رَّحِيمٌ ﴾

"*Səhabələrdən* sonra gələnlər deyirlər: "Ey Rəbbimiz, bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz, həqiqətən də Sən Şəfqətlisən, Rəhmlisən".[1]

﴿ وَٱسۡتَغۡفِرۡ لِذَنۢبِكَ وَلِلۡمُؤۡمِنِينَ وَٱلۡمُؤۡمِنَٰتِ ﴾

"Sən həm öz günahlarının, həm də mömin kişilərlə mömin qadınların bağışlanmasını dilə".[2]

﴿ رَبَّنَا ٱغۡفِرۡ لِي وَلِوَٰلِدَيَّ وَلِلۡمُؤۡمِنِينَ يَوۡمَ يَقُومُ ٱلۡحِسَابُ ﴾

Uca Allah İbrahim haqqında xəbər verərək buyurur: **"Ey Rəbbimiz! Haqq-hesab günü məni, valideynlərimi və möminləri bağışla!"[3]**

Şərh:

Müəllif Hafiz ən-Nəvəvi ﵀ demişdir: **"Gizlində edilən duanın fəziləti"** fəsli. Yəni qardaşın üçün gizlində dua etmək.

Gizlində edilən dua açıq-aydın şəkildə imanın səmimiliyinə dəlalət edir. Belə ki, Peyğəmbər ﷺ demişdir: **"Sizlərdən biriniz özü üçün istədiyini qardaşı üçün də istəmədikcə iman gətirmiş olmaz".[4]**

---

[1] "əl-Həşr" surəsi, 10.

[2] "Muhəmməd" surəsi, 19.

[3] "İbrahim" surəsi, 41.

[4] "Səhih Muslim", 4912.

Əgər sən də qardaşın üçün gizlində, onun xahişi, tövsiyəsi olmadan dua etsən, bu, sənin onu həqiqətən də sevdiyinə dəlalət edər. Çünki sən özün üçün istədiyin xeyiri onun üçün də istəyirsən.

Sonra müəllif Uca Allahın kitabından üç ayə zikr etmişdir. Onlardan birincisi Uca Allahın bu ayəsidir: «***Səhabələrdən*** **sonra gələnlər deyirlər: "Ey Rəbbimiz, bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz, həqiqətən də Sən Şəfqətlisən, Rəhmlisən"».**[1]

Bu da Uca Allahın onlar barəsində söz açdığı üç sinifdən üçüncüsüdür. Birinci sinif barədə Uca Allah belə buyurur: **"*Qənimət həmçinin* yurdlarından qovulmuş və mallarından məhrum olunmuş yoxsul mühacirlərə məxsusdur. Onlar Allahın mərhəmətini və razılığını qazanmağa can atır, Allaha və Onun Elçisinə kömək edirlər. Doğru olanlar da məhz onlardır".**[2] Uca Allah bu sözü ilə onları hicrət və köməklə vəsf etmişdir.

İkinci sinif barədə Uca Allah buyurur: **"*Mühacirlərdən* əvvəl *Mədinədə* yurd salmış, *sonra da* iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır".**[3] Bunlar da Mədinədəki ənsarlardır.

Üçüncü sinif barədə isə Uca Allah buyurur: «***Səhabələrdən*** **sonra gələnlər deyirlər: "Ey Rəbbimiz, bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz, həqiqətən də Sən Şəfqətlisən, Rəhmlisən"».**[4]

Müəllifin gətirdiyi ikinci ayə isə belədir: **"Sən həm öz günahlarının, həm də mömin kişilərlə mömin qadınların bağışlanmasını dilə".**[5]

Uca Allah öz Peyğəmbərinə ﷺ əmr edir ki, həm öz günahları üçün, həm də mömin kişi və qadınlar üçün bağışlanma diləsin. Peyğəmbərin ﷺ

---

[1] "əl-Həşr" surəsi, 10.

[2] "əl-Həşr" surəsi, 8.

[3] "əl-Həşr" surəsi, 9.

[4] "əl-Həşr" surəsi, 10.

[5] "Muhəmməd" surəsi, 19.

öz günahlarına görə Allahdan bağışlanma diləməsi bir sıra hədislərdə öz əksini tapır. Biz onu da bilirik ki, o, möminlər üçün də bağışlanma dilə-mişdir. Çünki o, bunu əmr etmişdir.

Ayədəki: **"günahların üçün bağışlanma dilə"** sözü "izzət və cəlal sahibi Allahdan günahlarının bağışlanmasını dilə" mənasındadır. Belə ki, məğfirət günahın örtülməsi və silinməsidir. İfadənin özü də buna dəlalət edir: "məğfirət" sözü "miğfar" sözündən qaynaqlanır ki, bu da döyüş zamanı insanın başını ox və qılınclardan qoruyan dəbilqə mənasındadır.

Üçüncü ayədə isə Uca Allah İbrahim barədə buyurur: **"Ey Rəbbimiz, haqq-hesab günü məni, valideynlərimi və möminləri bağışla!".**[1]

Ayədəki **"və möminləri"** sözü gizlində möminlər üçün edilmiş dua hesab olunur. Deməli, möminlər üçün gizlində dua edilməsi peyğəmbər-lərin yoludur. Biz də namazlarımızda qardaşlarımız üçün gizlində dua edirik. Hər birimiz: "əssəlamu aleynə va alə ibadillahis-salihin" (Bizlərə və Allahın əməlisaleh bəndələrinə salam olsun)" deyirik. Bu da bir duadır. Peyğəmbər ﷺ demişdir: **"Sizlər bunu dedikdə göylərdə və yerdə olan bütün əməlisaleh bəndələrə salam vermiş olursunuz".**[2] Demək, əgər sən də: "əssəlamu aleynə va alə ibadillahis-salihin" (Bizlərə və Allahın əməli-saleh bəndələrinə salam olsun) desən, qardaşların üçün gizlində dua etmiş olursan.

Mövzu ilə əlaqəli hədislər:

١٤٩٤– وَعَن أَبي الدَّردَاءِ رضي الله عنه أَنَّهُ سمِعَ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: « ما مِن عبْدٍ مُسْلِمٍ يَدعُو لأَخِيهِ بِظَهرِ الغَيْبِ إِلاَّ قَالَ المَلَكُ ولَكَ بمِثْلٍ » رواه مسلم.

1494. Əbu Dərdadan رضي الله عنه rəvayət olunur ki, o, Rəsulullahın ﷺ belə dediyini eşitmişdir: **"Gizlində qardaşı üçün dua edən elə bir müsəlman qul yoxdur ki, mələk ona: "Sənə də misli olsun!"– demiş olmasın"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[3]

---

[1] "İbrahim" surəsi, 41.

[2] "Səhih əl-Buxari", 1127.

[3] "Səhih Muslim", 4912.

١٤٩٥– وعَنْهُ أَنَّ رسُول اللَّه ﷺ كانَ يقُولُ: « دَعْوةُ المرءِ المُسْلِمِ لأَخيهِ بِظَهْرِ الغَيْبِ مُسْتَجَابةٌ، عِنْد رأْسِهِ ملَكٌ مُوكَّلٌ كلَّمَا دعا لأَخِيهِ بخيرٍ قَال المَلَكُ المُوكَّلُ بِهِ: آمِينَ، ولَكَ بمِثْلٍ » رواه مسلم.

1495. Yenə Əbu Dərdadan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ belə deyərdi: **"Müsəlmanın gizlində qardaşı üçün etdiyi dua müstəcəbdir. Onun başı üstündə müvəkkil bir mələk durar, hər dəfə o, qardaşı üçün dua etdikdə həmin müvəkkil mələk ona: "Amin, sənə də misli olsun!" deyər".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Şərh:

Sonra müəllif رحمه الله Əbu Dərdadan رضي الله عنه nəql olunmuş hədisi iki ləfzdə qeyd edir.

Birisi gizlində qardaşı üçün dua edərsə, mələk ona: "Sənə də misli olsun" deyər. Yəni sənə də dilədiyinin misli olsun. Sən gizlində qardaşın üçün dua etdikdə mələklər də sənin duana amin deyərək, "sənə də misli olsun" demiş olurlar.

Lakin bu, dua edilməsi səndən tələb olunmayan kəslərə aiddir. Səndən dua etmək tələb olunduqda sən həmin şəxsə dua edərsənsə, o adam sanki sənin səsini eşidən bir şahid olar. Çünki duanı səndən tələb edən odur. O sənə söyləmədən sən ona gizlində dua edərsənsə, bunun əcri və fəziləti vardır. Müvəffəq edən Allahdır.

[1] "Səhih Muslim", 4914.

İki yüz əlli ikinci fəsil

Dua ilə bağlı məsələlər

Mövzu ilə əlaqəli hədislər:

١٤٩٦– عنْ أُسامَةَ بْنِ زيْدٍ ﷺ قالَ: قالَ رسُولُ اللَّه ﷺ: « مَنْ صُنِعَ إِلَيْهِ معْرُوفٌ، فقالَ لِفَاعِلِهِ: جزَاك اللَّه خَيْراً، فَقَد أَبْلَغَ في الثَّنَاءِ ».

رواه الترمذي وقَالَ: حَدِيثٌ حسنٌ صَحِيحٌ.

1496. Rəvayət olunur ki, Usamə ibn Zeyd ﷺ demişdir: «Allahın elçisi ﷺ demişdir: **"Özünə yaxşılıq edilən kəs həmin yaxşılığı edənə: "Allah səni xeyirlə mükafatlandırsın" deyərsə, gözəl bir şəkildə təşəkkür etmiş olar"».**

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən səhih hədisdir" demişdir.[1]

Şərh:

Bu, duanın növləri ilə bağlı müxtəlif məsələlərdir. Bu hədislərdən birində Usamə ibn Zeyddən ﷺ nəql olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Özünə yaxşılıq edilən kəs həmin yaxşılığı edənə: "Allah səni xeyirlə mükafatlandırsın" deyərsə, gözəl bir şəkildə təşəkkür etmiş olar".**

Kimə mal, elm və ya hər hansı bir başqa yardım edilərsə, Peyğəmbər ﷺ həmin yaxşılığı edəni mükafatlandırmağı əmr etmişdir: **"Kim sizə yaxşılıq edərsə, onu mükafatlandırın".**[2]

Mükafat da vəziyyətə görə olur. Elə insan var ki, onun mükafatı onun sənə etdiyi yaxşılığın misli və ya daha artığıdır. Elə insan da vardır ki, onun mükafatı ona dua etməyindir. Çünki o, səndən mal qəbul etmir. Əgər çoxlu mal-dövləti, xalqının yanında ad-sanı olan böyük bir insan sənə bir şey hədiyyə edərsə, sən də ona həmin hədiyyənin mislini versən öz haqqının qüsurlu olduğunu düşünər. Belə birisi üçün dua et: **"Ona mükafat verməyə bir şey tapmasanız onun üçün dua edin ki, mükafatını vermiş olasınız".**

---

[1] "Sunən ət-Tirmizi", 1958.

[2] "Sunən Əbu Davud", 1424.

Həmin dualardan biri də: "Allah səni xeyirlə mükafatlandırsın" kəlməsidir. Sənə bir şey verdikdə, yaxud bir şey ilə yardım etdikdə ona de ki: "Allah səni xeyirlə mükafatlandırsın". Bununla da sən gözəl bir şəkildə təşəkkür etmiş olarsan. Əgər Allah onu xeyirlə mükafatlandırarsa, o həm bu dünyada, həm də axirətdə səadətə nail olar.

١٤٩٧– وَعَن جَابرٍ ﷺ قال: قَال رسُولُ اللَّهِ ﷺ: « لا تَدعُوا عَلى أَنْفُسِكُم، وَلا تدْعُوا عَلى أَولادِكُم، ولا تَدْعُوا على أَمْوَالِكُم، لا تُوافِقُوا مِنَ اللَّهِ ساعة يُسأَلُ فِيهَا عَطاءً، فيَسْتَجيبَ لَكُم » رواه مسلم.

1497. Rəvayət olunur ki, Cabir ﷺ demişdir: «Rəsulullah ﷺ demişdir: **"Özünüzə bəddua etməyin, övladlarınıza da bəddua etməyin, malınıza da bəddua etməyin. Yoxsa çağırışınız Allahın duaları qəbul etdiyi saata təsadüf edər, duanıza cavab verilər"».**

Hədisi Muslim rəvayət etmişdir.[1]

Şərh:

Müəllif ﷺ Cabirdən ﷺ nəql olunmuş hədisi qeyd etmişdir. Həmin hədisdə Rəsulullah ﷺ demişdir: **"Özünüzə bəddua etməyin, övladlarınıza da bəddua etməyin, malınıza da bəddua etməyin. Yoxsa çağırışınız Allahın duaları qəbul etdiyi saata təsadüf edər, duanıza cavab verilər".**

Qəzəb anında belə hallar çox baş verir. Qəzəbli insan özünə və ya övladına bəddua edə bilər. Misal üçün övladına deyir ki, Allah səni öldürsün, Allah sənin bəlanı versin. Hətta bəziləri öz övladını lənətləyir də. Bəziləri isə qəzəbləndikdə – Allah qorusun – öz ailəsinə, zövcəsinə, bacısına, hətta olur ki, öz anasına da bəddua edir. Yaxud ola bilsin, öz malına bəddua etsin. Misal üçün, tez-tez xarab olan maşını və ya başqa bir şeyi üçün deyir ki, Allah bu maşına,.. bu evə,.. bu yatağa bərəkət verməsin.

Peyğəmbər ﷺ belə bəddualar etməyi qadağan etmişdir. Çünki ola bilsin, bu, duaların qəbul olunma vaxtına təsadüf edər və qəbul olunar. Misal üçün, övladına desən ki, gəl bura, Allah səni öldürsün, niyə belə etmisən? Allah səni müvəffəq etməsin, Allah sənə qazanc nəsib etməsin,

[1] "Səhih Muslim", 5328.

Allah səni islah etməsin – bütün bunlar cazi deyil və haramdır. Çünki duaların qəbul olunma vaxtına təsadüf etməsi mümkündür.

Həmçinin mal-dövlətinə, məsələn, işləməyən maşınına, yaxud evdə iş gördükdə bəddua etmə. Demə ki, "Allah bərəkət verməsin", əksinə, de ki: "Allahım, bu işi asanlaşdır, Allahım, müyəssər et". Bununla da işində asanlığa nail olarsan. Müvəffəq edən Allahdır.

١٤٩٨– وعن أَبي هُريرةَ رضي الله عنه أَنَّ رَسولَ اللَّهِ ﷺ قَالَ: « أَقْرَبُ ما يَكُونُ العَبْدُ مِن رَبِّهِ وَهُوَ سَاجِدٌ، فَأَكْثِرُوا الدُّعَاءَ » رواه مسلم.

1498. Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Qulun Rəbbinə ən yaxın olduğu hal səcdə halındadır. Elə isə, *səcdədə* duanı çoxaldın".**

Hədisi Muslim rəvayət etmişdir.[1]

Şərh:

Sonra müəllif رحمه الله Əbu Hureyradan رضي الله عنه nəql olunmuş hədisi zikr edir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Qulun Rəbbinə ən yaxın olduğu hal səcdə halındadır. Elə isə, *səcdədə* duanı çoxaldın".**

İnsan Uca Allaha dua etdikdə Allaha yaxın olur, Allah da ona yaxın olur. İzzət və cəlal sahibi Allah buyurur: **"Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən *onlara* yaxınam, Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm. Qoy onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər ki, doğru yola yönələ bilsinlər".**[2]

İnsanın Allaha ən yaxın olduğu vaxt səcdə halında olduğu vaxtdır. Çünki səcdə izzət və cəlal sahibi Allaha itaətin ən kamil halıdır. Çünki bu zaman sən ən şərəfli və ən uca üzvlərini izzət və cəlal sahibi Allaha təzim edərək ayaqların qoyulduğu yerə qoyursan. Bu vaxt Allah sənə yaxın olur. Odur ki, fərz və ya nafilə namazında olmağından asılı olmayaraq, səcdədə çoxlu dualar et. İstər bu dualar dünya ilə bağlı olsun, istərsə də axirətlə. Hər ikisi xeyirdir. Belə ki, duanın özü ibadətdir. Əgər: "Allahım, pulumu artır, Allahım, mənə gözəl ev nəsib et, Allahım, mənə rahat minik qismət

[1] "Səhih Muslim", 744.

[2] "əl-Bəqərə" surəsi, 186.

et" və ya buna bənzər sair dualar etmək istəsən, onları hətta fərz namazında olsa belə etsən yaxşıdır. Hədislərin birində deyilir: **"Rəbbinizdən hətta ayaqqabınızın ipini belə istəyin".**[1]

Məlumdur ki, ayaqqabının bağı bəsit bir şeydir. Buna baxmayaraq, sən onu belə Allahdan istə. Çünki Allahdan dilədiyin hər bir şey ibadətdir. Sonra da bil ki, sən Allahdan dilədikdə hər bir halda qazanmış olursan. Çünki ya nöqsansız və uca Allah sənə dilədiyini verəcək, ya da ki, başına gələ biləcək daha böyük bir bəlanı səndən uzaqlaşdıracaq. Yaxud da onun əvəzini sənə əcr olaraq Qiyamət günü verəcəkdir. Kim Uca Allaha dua edərsə, peşman olmaz. Elə isə Allaha çox dua edin, Allahdan çoxlu bağışlanma diləyin. Rəsulullah ﷺ demişdir: **"Bəzən fikrim yayınır və mən Allaha gündə yüz dəfə tövbə edərək Ondan bağışlanma diləyirəm".**[2]

Əgər Peyğəmbərin ﷺ bütün keçmiş və gələcək günahları bağışlandığı halda o, Allahdan gündə yüz dəfə bağışlanma diləyərək tövbə edirdisə, elə isə sən də gün boyu bundan qafil olma. Çünki bu asan bir işdir. Sən: "Allahdan bağışlanma diləyirəm, Ona tövbə edirəm" sözlərini on dəqiqə və ya ondan da az bir müddətdə deyə bilərsən. Bu, çox asan bir iş olduğu kimi, bununla həm də böyük xeyir əldə etmək və Peyğəmbərə ﷺ tabe olmaq mümkündür. Müvəffəq edən Allahdır.

١٤٩٩– وَعَنْهُ أَنَّ رَسُول اللَّهِ ﷺ قَالَ: يُسْتجَابُ لأَحَدِكُم ما لَم يعْجلْ: يقُولُ قَد دَعوتُ رَبِّي، فَلم يسْتَجبْ لي ». متفقٌ عليه.

وفي رِوَايَةٍ لمُسْلِمٍ: « لا يزَالُ يُسْتَجَابُ لِلعَبْدِ مَا لَم يدعُ بِإِثمٍ، أَوْ قَطِيعةِ رَحِمٍ، ما لَمْ يَسْتعْجِلْ » قِيلَ: يا رسُولَ اللَّهِ مَا الاسْتِعْجَالُ؟ قَالَ: « يَقُولُ: قَدْ دعَوْتُ، وَقَدْ دَعَوْتُ فَلَم أَرَ يَسْتَجِيبُ لي، فَيَسْتَحْسِرُ عِنْد ذلك، ويَدَعُ الدُّعَاءَ ».

1499. Yenə Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Sizlərdən biriniz tələsərək: "Rəbbimə dua etdim, mənə cavab vermədi" demədiyi müddətdə duaları qəbul olunar"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

---

[1] "Sunən ət-Tirmizi", 3536.

[2] "Səhih Muslim", 4870.

[3] "Səhih əl-Buxari", 5865; "Səhih Muslim", 4916.

Muslimin rəvayəti isə belədir: **"Günah işlərə və qohumluq əlaqələrinin kəsilməsinə dua etmədiyi və tələsmədiyi müddətdə qulun duası qəbul olunar".** Soruşdular: "Ey Allahın elçisi, tələsmək nədir?" Dedi: **"Birinizin: "Dua etdim, lakin cavab verildiyini görmürəm" deyərək ümidini kəsməsi və duanı tərk etməsidir"**.[1]

Şərh:

Müəllif ﵀ bu hədisi "Dua ilə bağlı məsələlər" fəslində qeyd edir.

Əbu Hureyradan ﵁ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Sizlərdən biriniz tələsərək: "Rəbbimə dua etdim, mənə cavab vermədi" demədiyi müddətdə duaları qəbul olunar"**. Yəni insan tələsmədiyi müddətdə duası qəbul olunacaqdır. Buradakı "tələsməyin" nə olduğunu Peyğəmbər ﷺ belə açıqlamışdır ki, insan tələsir və "Dua etdim, lakin mənə cavab verilmədi" deyir, bununla da ümidini üzərək duanı dayandırır. Bu da insanın cahiliyyindəndir. Çünki Uca və nöqsansız Allah duaya cavab verilməsinə mane olan bir maneəyə və ya hər hansı bir hikmətə görə duana cavab vermir. Allaha elə dua et ki, istəyin ümidsizliyinə qalib gəlsin, bir də Allahla bağlı yaxşı zənn et ki, dilədiyini yerinə yetirsin.

Bundan sonra Allah sənə dilədiyini versə, lap gözəl. Dilədiyini sənə vermədikdə isə sənin bilmədiyin başına gələ biləcək hər hansı bir böyük bəlanı dəf etmiş olur. Ya da ki, duanın əvəzini Qiyamət günü verəcəkdir. Odur ki, ümidsiz olma və Rəbbinə dua et. Dua ibadət olduğu halda nə üçün onu çox etməyəsən? Allahdan diləyirik ki, bizi və sizləri sevib razı qaldığı işlərə müvəffəq etsin.

١٥٠٠– وَعَنْ أَبِي أُمَامَةَ ﵁ قَالَ: قِيلَ لِرَسُولِ اللَّهِ ﷺ: أَيُّ الدُّعَاءِ أَسْمعُ؟ قَالَ: « جوْفَ اللَّيْلِ الآخِرِ، وَدُبُرَ الصَّلَوَاتِ المكْتُوباتِ ». رواه الترمذي وقالَ: حديثٌ حسنٌ.

1500. Rəvayət olunur ki, Əbu Umamə ﵁ demişdir: «Allahın elçisindən ﷺ soruşdular: "Hansı dua daha tez eşidilir?" Dedi: **"Gecənin sonunda *qılınan* və fərz namazlarından sonra edilən dualar"**».

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir" demişdir.[2]

---

[1] "Səhih Muslim", 4918.

[2] "Sunən ət-Tirmizi", 3421.

١٥٠١– وَعَنْ عُبَادَةَ بْنِ الصَّامِتِ ﷺ أَنَّ رسُولَ اللَّهِ ﷺ قَالَ: « مَا عَلى الأَرْضِ مُسْلِمٌ يَدْعُو اللَّه تَعالى بِدَعْوَةٍ إِلاَّ آتَاهُ اللَّه إِيَّاهَا، أَوْ صَرَف عنْهُ مِنَ السُّوءِ مِثْلَهَا. ما لَم يدْعُ بإِثْم، أَوْ قَطِيعَةِ رحِمٍ » فَقَالَ رَجُلٌ مِنَ القَوْمِ: إِذاً نُكْثِرُ. قَالَ: « اللَّه أَكْثَرُ». رواه الترمذي وقال حَدِيثٌ حَسنٌ صَحِيحٌ: وَرَواهُ الحاكِمُ مِنْ رِوايةِ أَبي سعيدٍ وَزَاد فِيهِ: « أَوْ يَدَّخر لهُ مِنَ الأَجْرِ مِثْلَها».

1501. Ubadə ibn əs-Samitdən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Yer üzərindəki hər bir müsəlman dua etdikdə Allah ya onun istədiyini ona verir, ya da onu başına gələ biləcək bəladan qoruyur. Yalnız günah işlərə və ya qohumluq əlaqələrinin kəsilməsinə dua etməsi istisnadır".** Oradakılardan biri dedi: "Elə isə *duanı* çoxaldaq". Dedi: **"Allahın *verə biləcəyi nemətlər* daha çoxdur"**.

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən səhih hədisdir" demişdir.[1]

Hədisi Hakim də Əbu Səiddən rəvayət etmiş və bunu əlavə etmişdir: **"Ya da onun üçün duanın mislində əcr saxlayar".**

١٥٠٢– وعَنِ ابْنِ عَبَّاسٍ ﷺ أَنَّ رسُولَ اللَّه ﷺ كَان يقُولُ عِنْد الكرْبِ: « لا إِلَه إِلاَّ اللَّه العظِيمُ الحلِيمُ، لا إِله إِلاَّ اللَّه رَبُّ العَرْشِ العظِيمِ، لا إِلَهَ إِلاَّ اللَّه رَبُّ السمَواتِ، وربُّ الأَرْض، ورَبُّ العرشِ الكرِيمِ » متفقٌ عليه.

1502. İbn Abbasdan ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ çətinlik anında belə deyərdi: **"Allahdan başqa ibadətə layiq məbud yoxdur, O Əzəmətli və Həlimdir; Allahdan başqa ibadətə layiq məbud yoxdur, O, əzəmətli ərşin Rəbbidir; Allahdan başqa ibadətə layiq məbud yoxdur, O, səmaların və yerin, kəramətli ərşin Rəbbidir"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Şərh:

Bu hədislər Hafiz ən-Nəvəvinin ﷺ bu məqamda qeyd etdiyi qalan hədislərdəndir. Həmin hədislərin birində Peyğəmbərdən ﷺ soruşulur ki, hansı dua daha tez eşidilir? Yəni hansı duaya daha tez cavab verilir? Dedi: **"Gecənin sonunda *qılınan* və fərz namazlarından sonra edilən dua"**.

[1] "Sunən ət-Tirmizi", 3497.

[2] "Səhih əl-Buxari", 5780; "Səhih Muslim", 4909.

"Gecənin sonunda", yəni gecənin son hissəsində. Belə ki, Uca Allah gecənin son üçdə birində yerin səmasına nazil olur və deyir: "Kim mənə dua edər ki, onun duasını qəbul edim? Kim məndən istəyər ki, ona istədiyini verim? Kim məndən bağışlanma diləyər ki, onu bağışlayım?" Gərək insan da gecənin bu vaxtında cavab verilməsinə ümid edərək dua etsin.

"Fərz namazlarından sonra", yəni namazların sonunda. Peyğəmbər ﷺ təşəhhüdü qeyd etdikdən sonra bunu tövsiyə etmiş və demişdir: **"Sonra istədiyi qədər dua etsin".**[1]

"Namazlardan sonra" deyildikdə salamdan sonrakı vaxt nəzərdə tutulmur. Çünki salamdan sonra dua məqamı deyil, zikr məqamıdır. Uca Allah bu xüsusda buyurur: **"Namazı bitirdikdən sonra ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edin".**[2] Deməli, "namazların sonu" deyildikdə namazların son hissəsi nəzərdə tutulur.

Sonra müəllif Ubadə ibn əs-Samitin رضي الله عنه hədisini qeyd etmişdir: **"Yer üzərindəki hər bir müsəlman dua etdikdə Allah ya onun istədiyini ona verər, ya onu başına gələ biləcək bəladan qoruyar, ya da onun mislində ona əcr yazar. Yalnız günah işlərə və ya qohumluq əlaqələrinin kəsilməsinə dua etməsi istisnadır".**

Bu barədə biz söhbət açaraq demişdik ki, Allahdan diləyən peşman olmaz. Əksinə, günah, yəni haram bir iş üçün dua etməsi istisna olmaqla onun üçün bu üç haldan biri baş verəcəkdir. Çünki günah bir iş üçün dua etmək zülmdür. Uca Allah buyurur: **"Şübhəsiz ki, zalımlar nicat tapmayacaqlar!"**[3]

Sonuncu hədis isə İbn Abbasdan رضي الله عنهما rəvayət olunmuş kədər barəsində olan duadır: **"Allahdan başqa ibadətə layiq məbud yoxdur, O Əzəmətli və Həlimdir; Allahdan başqa ibadətə layiq məbud yoxdur, O, əzəmətli ərşin Rəbbidir; Allahdan başqa ibadətə layiq məbud yoxdur, O, səmaların və yerin, kəramətli ərşin Rəbbidir".**

Kədər anında deyilən bu kəlmələr insanın kədərinin aradan qalxmasına səbəb olur. Müvəffəq edən Allahdır.

---

[1] "Səhih Muslim", 609.

[2] "ən-Nisa" surəsi, 103.

[3] "əl-Ənam" surəsi, 21.

İki yüz əlli üçüncü fəsil

Övliyaların kəraməti və fəziləti

Mövzu ilə əlaqəli ayələr:
Uca Allah belə buyurur:

﴿ أَلَآ إِنَّ أَوۡلِيَآءَ ٱللَّهِ لَا خَوۡفٌ عَلَيۡهِمۡ وَلَا هُمۡ يَحۡزَنُونَ * ٱلَّذِينَ ءَامَنُواْ وَكَانُواْ يَتَّقُونَ * لَهُمُ ٱلۡبُشۡرَىٰ فِي ٱلۡحَيَوٰةِ ٱلدُّنۡيَا وَفِي ٱلۡأٓخِرَةِۚ لَا تَبۡدِيلَ لِكَلِمَٰتِ ٱللَّهِۚ ذَٰلِكَ هُوَ ٱلۡفَوۡزُ ٱلۡعَظِيمُ ﴾

“Şübhəsiz ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar kədərlənməyəcəklər. Onlar iman gətirmiş və *Allahdan* qorxmuşlar. Dünya həyatında da, axirətdə də onlara müjdə vardır. Allahın kəlmələri əsla dəyişilməz. Bu, böyük uğurdur”.[1]

﴿ وَهُزِّيٓ إِلَيۡكِ بِجِذۡعِ ٱلنَّخۡلَةِ تُسَٰقِطۡ عَلَيۡكِ رُطَبٗا جَنِيّٗا * فَكُلِي وَٱشۡرَبِي وَقَرِّي عَيۡنٗا ﴾

“Xurma ağacının gövdəsini özünə tərəf silkələ ki, üstünə yetişmiş, təzə xurma tökülsün. Ye, iç, gözün aydın olsun!”[2]

﴿ كُلَّمَا دَخَلَ عَلَيۡهَا زَكَرِيَّا ٱلۡمِحۡرَابَ وَجَدَ عِندَهَا رِزۡقٗاۖ قَالَ يَٰمَرۡيَمُ أَنَّىٰ لَكِ هَٰذَاۖ قَالَتۡ هُوَ مِنۡ عِندِ ٱللَّهِۖ إِنَّ ٱللَّهَ يَرۡزُقُ مَن يَشَآءُ بِغَيۡرِ حِسَابٖ ﴾

«Zəkəriyya hər dəfə onun yanına ibadətgaha daxil olduqda, onun yanında ruzi olduğunu görərdi. O dedi: “Ey Məryəm, bu, sənin üçün haradandır?” *Məryəm* dedi: “Bu, Allah tərəfindəndir. Həqiqətən, Allah istədiyi kimsəyə hesabsız ruzi verir”».[3]

﴿ وَإِذِ ٱعۡتَزَلۡتُمُوهُمۡ وَمَا يَعۡبُدُونَ إِلَّا ٱللَّهَ فَأۡوُۥٓاْ إِلَى ٱلۡكَهۡفِ يَنشُرۡ لَكُمۡ رَبُّكُم مِّن رَّحۡمَتِهِۦ وَيُهَيِّئۡ لَكُم مِّنۡ أَمۡرِكُم مِّرۡفَقٗا * وَتَرَى ٱلشَّمۡسَ إِذَا طَلَعَت تَّزَٰوَرُ عَن كَهۡفِهِمۡ ذَاتَ ٱلۡيَمِينِ وَإِذَا غَرَبَت تَّقۡرِضُهُمۡ ذَاتَ ٱلشِّمَالِ وَهُمۡ فِي فَجۡوَةٖ مِّنۡهُ ﴾

---

[1] “Yunus” surəsi, 62-64
[2] “Məryəm” surəsi, 25-26.
[3] “Ali İmran” surəsi, 37.

"Madam ki, siz onları və Allahdan savayı ibadət etdiklərini tərk etdiniz, onda mağaraya sığının ki, Rəbbiniz sizə Öz mərhəmətini geniş etsin və işinizdə sizin üçün fayda hazırlasın. *Orada olsaydın* günəşin doğduğu zaman onların mağarasının sağ tərəfinə yönəldiyini, batdığı zaman isə onlardan uzaqlaşıb sol tərəfə addadığını, onların da mağaranın içində geniş bir yerdə yerləşdiklərini görərdin".[1]

Şərh

Müəllif Hafiz ən-Nəvəvi ﵀ **"Övliyaların kəraməti və fəziləti"** fəslini qeyd etmişdir.

Kəramət, adətən *təbiətdə* baş verməyən işlərdir. Uca və nöqsansız Allah Rəsuluna ﷺ itaət edənlərə ya hörmət olaraq, ya da haqqı müdafiə etsinlər deyə, onların əli ilə bunu izhar edir.

Kəramət Quran, Sünnə və reallıqlarla sabitdir. Bəs övliyalar kimlərdir?

Övliyaların kim olduğunu Uca Allah öz Kitabında qeyd edərək belə buyurur: **"Şübhəsiz ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar kədərlənməyəcəklər. Onlar iman gətirmiş və *Allahdan* qorxmuşlar".[2]**

Övliyalar bunlardır. Onlar imanla təqvanı bir araya gətirmiş kəslərdir. Bəzi ölkələrdə edildiyi kimi, Allahın düşmənlərinin övliya olduqlarını iddia etmək deyil. Birisi gəlir və Allahın dostu olduğunu deyir. Əslində isə o, fasiq və asi birisidir. İnsanları özünə ibadət etməyə, habelə hər şeydə ona itaət olunmasına səsləyir. Özü isə iddia edir ki, Allah ona hər şeyi, hətta haram əməlləri belə halal etmişdir. Çünki o, artıq ali məqsədə çatmışdır. Bələləri Allahın övliyaları deyil, əksinə, Allahın düşmənləridir. Allahın dostu, müəllifin də qeyd etdiyi ayələrdə buyurulduğu kimi, təqvalı mömin birisidir: **"Şübhəsiz ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar kədərlənməyəcəklər. Onlar iman gətirmiş və *Allahdan* qorxmuşlar".** Sonra müəllif buna dəlalət edən ayə və hədisləri və reallığı qeyd etmişdir.

Peyğəmbərin ﷺ möcüzələri ilə övliyaların kəraməti və sehrbazların sehri arasındakı fərq odur ki, möcüzə peyğəmbərlərin əli ilə baş verən və adətə müxalif işlərdir. Allah möcüzələri peyğəmbərləri dəstəkləmək və

[1] "əl-Kəhf" surəsi, 16-17.

[2] "Yunus" surəsi, 62-63.

onların insanlar tərəfindən təsdiq olunması üçün vermişdir. Məsələn, İsanın ölüləri diriltməsi kimi.

Belə ki, Məryəm oğlu İsa ölüləri dirildirdi. Hətta artıq dəfn olunmuş ölüləri belə məzarlarından çıxarırdı. Uca Allah buyurur: **"Mənim iznimlə ölüləri dirildirdin".**[1] Bunun üçün o, məzarın önündə dayanaraq sahibi üçün dua edir, həmin adam da dirilib məzarından çıxırdı. Həmçinin o, koru və cüzam xəstəliyinə tutulanı sağaldar, palçıqdan quşa bənzər şey düzəldib ona üfürər, o da Allahın izni ilə quşa çevrilərək onun önündə uçurdu. Palçıq quşa çevrilirdi! Bu da Allahın möcüzələrindən idi. Peyğəmbərlərin möcüzələri adətən baş verməyən işlərdir. Allah onları peyğəmbərlərinin əli ilə həyata keçirir ki, onlara dəstək olsun.

Övliyaların kəraməti isə adətən baş verməyən hadisələrdir. Lakin onlar peyğəmbərlərin deyil, peyğəmbərlərə tabe olanların əli ilə baş verir. İmranın qızı Məryəmin başına gələnlər buna misaldır. Uca Allah buyurur: **"Doğuş sancıları onu bir xurma ağacının gövdəsinə söykənməyə vadar etdi. O dedi: "Kaş bundan əvvəl öləydim və birdəfəlik unudulaydım". *Məryəmin* aşağı tərəfindən (İsa və ya Cəbrail) onu səsləyib dedi: "Qəm yemə, Rəbbin sənin *ayağının* altından bir bulaq axıtdı. Xurma ağacının gövdəsini özünə tərəf silkələ ki, üstünə yetişmiş, təzə xurma tökülsün".**[2]

Bu, Allahın ayələrindəndir və Məryəm üçün bir kəramətdir. Təsəvvür edin ki, zəif qadın xurma ağacının gövdəsini özünə tərəf çəkir. Ağacın budağını çəkmək mümkündür, lakin gövdəsini əymək çətin məsələdir. Ağacın gövdəsini tərpədir və onun üzərinə yetişmiş, təzə xurma tökülür. Ancaq yerə düşərkən əzilən xurmalar kimi əzilmir.

Onun hamilə qalması və övlad dünyaya gətirməsi də izzət və cəlal sahibi Allahın ayələrindən, onun da kəramətlərindəndir. Uca Allah buyurur: **"onu və onun oğlunu aləmlərə bir möcüzə etdik".**[3]

Üçüncü növ *əcaib (qeyri-adi)* hal isə Allahın falçı və sehrbazların əli ilə həyata keçirdiyi əməllərdir. Onlar bu zaman cinlərdən istifadə edirlər. İzzət və cəlal sahibi Allah bu işlərin onların həm özləri, həm də başqaları üçün fitnə olaraq həyata keçməsinə izin verir. Bəzi insanlar vardır ki, onların

[1] "əl-Maidə" surəsi, 110.

[2] "Məryəm" surəsi, 23-25.

[3] "əl-Ənbiya" surəsi, 91.

əli ilə adətə müxalif hadisələr baş verir. Lakin onlar övliyalardan deyillər. Məlum məsələdir ki, onlar peyğəmbər də ola bilməzlər. Çünki Muhəmməddən ﷺ sonra peyğəmbər gəlməyəcək. Demək onlar şeytanlardandır.

Dördüncüsü isə Uca və nöqsansız Allahın yalançıların əli ilə elə onların yalançı olduğunu üzə çıxarmaq üçün həyata keçirdiyi növdür. Rəvayət olunur ki, Müseyləmə əl-kəzzəbin başına da bu gəlmişdi. O, Peyğəmbərin ﷺ həyatının sonunda peyğəmbərlik iddia edən birisi idi. Bir qrup insan da ona tabe olmuşdu. Bir dəfə onun yanına insanlar gəlib söyləyirlər ki, onların quyusunun suyu quruyub və çox az miqdarda su qalmışdır. Ondan tələb edirlər ki, gedib həmin quyuya tüpürsün ki, su geri qayıtsın. O da həmin yerə gedir. Ona su verirlər ki, ağzını yaxalayıb onu quyuya tüpürsün. Həmin vaxt quyuda az miqdarda su var idi. O quyuya tüpürdükdən sonra isə həmin su da yoxa çıxır və quyu tamamilə quruyur.

Şəkk yoxdur ki, bu adətən baş verməyən bir haldır. Uca və nöqsansız Allah həmin yalançının yalanını aşkara çıxartmaq üçün onun əli ilə bu halı həyata keçirmişdi.

Beləliklə, bu dörd hal, yəni peyğəmbərin möcüzəsi, övliyanın kəraməti, falçının söylədiyi və iftiraçı və yalançının alçaldılması adətən baş verməyən hallardır. Lakin bu hallar kimin əli ilə baş verməsinə görə fərqlənir. İndi isə müəllifin qeyd etdiyi ayələrdən söhbət açaq.

Uca Allah buyurur: **"Şübhəsiz ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar kədərlənməyəcəklər. Onlar iman gətirmiş və *Allahdan* qorxmuşlar. Dünya həyatında da, axirətdə də onlara müjdə vardır. Allahın kəlmələri əsla dəyişilməz. Bu, böyük uğurdur".**[1]

Şərh:

Müəllif رحمه الله **"Övliyaların kəraməti və fəziləti"** fəslinə Uca Allahın bu ayələri ilə başlayır: **"Şübhəsiz ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar kədərlənməyəcəklər. Onlar iman gətirmiş və *Allahdan* qorxmuşlar..."**.

Qeyd etdiyimiz kimi, Uca Allah bildirir ki, övliyalar təqvalı möminlərdir: **"Şübhəsiz ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar kədərlənməyəcəklər. Onlar iman gətirmiş və *Allahdan* qorxmuşlar".**

[1] "Yunus" surəsi, 62-64.

Şeyxulislam İbn Teymiyyə ﵀ bu ayə barəsində demişdir ki, "Kim təqvalı mömin olarsa, Allahın dostudur". İzzət və cəlal sahibi Allah da buyurur ki, bu övliyalar üçün qorxu yoxdur və onlar kədərlənməyəcəklər. Yəni başlarına gələcək işlərdə onlar üçün qorxu yoxdur və onlar keçmişdə etdikləri işlərə görə əsla kədərlənməyəcəklər. Çünki onlar dünya həyatını anlamış, yaxşı işlər görmüş, Allaha iman gətirərək Ondan qorxmuş və bununla da övliyalardan olmuşlar.

Sonra Uca Allah buyurur: "**Dünya həyatında da, axirətdə də onlara müjdə vardır".** Yəni həm bu dünyada, həm də axirətdə onlar üçün xoş xəbərlər vardır.

Dünya həyatındakı müjdələr müxtəlif növlərdə olur:

– Ola bilsin ki, mömin kəs saleh bir yuxu görsün və buna sevinsin. Ya da ola bilsin digər əməlisaleh birisi onun barəsində xoş bir yuxu görmüş olsun. Misal üçün görə bilər ki, o, Cənnətlə müjdələnir. Ya da ola bilsin ki, başqa birisi onun Cənnət əhlindən olduğunu görmüş olsun. Ya da onu gözəl bir simada görsün. Mühüm olan odur ki, Peyğəmbər ﷺ gözəl yuxu barəsində demişdir: **"Bu, mömin üçün erkən bir müjdədir".**[1]

– İnsan itaət etdikdə sevinir və bu fərəh onun gözünün nuruna çevrilir. Bu da həmin adamın Allahın dostlarından olduğuna dəlalət edir. Peyğəmbər ﷺ demişdir: **"Kim savab işə görə sevinir, günah işə görə isə kədərlənirsə o, mömindir".**[2] Əgər görsən ki, etdiyin itaətlərə görə köksün genişlənir, günahlara görə isə sıxılır, bil ki, bu sənin üçün bir müjdədir ki, sən Allahın mömin bəndələrindən, təqvalı övliyalarındansan. Buna görə Peyğəmbər ﷺ demişdir: **"Gözümün nuru namazdadır".**[3]

– Xeyirxah insanların insanı tərif etməsi, onu sevməsi, onun haqqında xeyir söz söyləməsi də buna aiddir. Əgər görsən ki, xeyirxah insanlar səni sevir, səni xeyir sözlə tərifləyir, bu, yəni insanın xeyirxah insanlar tərəfindən tərifləmməsi onun üçün bir müjdədir. Pis insanların dedikləri və tənələri isə buna aid deyil, çünki onlar tərəziyə malik deyillər və onların şahidliyi Allah yanında qəbul deyildir. Xeyir əhli isə səni tərifləyərək barəndə xoş sözlər söyləsələr, sənə yaxınlaşsalar və sənə tərəf istiqamətlənsələr bil ki, bu, Allah tərəfindən sənə bir müjdədir.

---

[1] "Səhih Muslim", 4780.

[2] "Musnəd İmam Əhməd", 1/18; "Sunən ət-Tirmizi", 2091.

[3] "Musnəd İmam Əhməd", 3/285; "Sunən ən-Nəsai", 3878.

– Dünya həyatındakı müjdə insanın həyatdan köçərkən müjdələnməsidir ki, bu zaman onun yanına mələklər nazil olur. Uca Allah buyurur: **"Həqiqətən də: "Rəbbimiz Allahdır!"– deyib sonra düz yol tutan kəslərə mələklər nazil olub *deyirlər:* "Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin! Biz dünya həyatında da, axirətdə də sizin dostlarınızıq. Orada sizin üçün nəfsinizin çəkə biləcəyi hər şey hazırlanmışdır. Orada istədiyiniz hər şey vardır. Bağışlayan və Rəhmli *Allah tərəfindən verilən* ziyafət kimi".**[1]

– Müjdələrdən biri də insanın ölüm anında aldığı müjdədir. Bu zaman ona deyilir: "Ey gözəl bədəndə olan gözəl ruh, Allahın rəhmətinə və razılığına çıx!". Bununla da o, sevinir və fərəh hissi keçirir.

– Qəbirdə olan müjdə də buna aiddir. İnsana Rəbbi, dini və peyğəmbəri haqqında sual verildikdə düzgün cavab verir. Bu zaman göydən bir nida gəlir ki, "Qulum doğru söylədi. Ona Cənnətdə yer ayırın, ona Cənnət libası geyindirin, onun üçün Cənnətə bir qapı açın".

– Daha bir müjdə həşr günü olan müjdədir: **"Ən böyük dəhşət onları kədərləndirməyəcək. Mələklər onları qarşılayıb: "Bu sizə vəd olunmuş gününüzdür!"– *deyəcəklər*".[2]; "Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin!"**[3]

Xülasə, Allahın övliyalarına həm bu dünyada, həm də axirətdə müjdələr vardır. Allah həm bizləri, həm də sizləri onlardan etsin.

Uca Allah buyurur: **"Allahın kəlmələri əsla dəyişilməz. Bu, böyük uğurdur".**[4]

Uca Allahın kəlmələrini əsla dəyişdirən olmaz. Kainatda heç kim Allahın kəlmələrini dəyişə bilməz. Şəri kəlmələr *(şəri qanunlar)* baxımından batil əhli yəhudi və xaçpərəstlər öz kitablarında onları *(şəri qanunları)* təhrif edib, artırıb-əksiltməklə dəyişsələr də, kainat kəlmələri *(kainat qanunları)* baxımından heç kim onları *(kainat qanunlarını)* dəyişdirə bilməz: **"Allahın kəlmələri əsla dəyişilməz. Bu, böyük uğurdur".** Müvəffəq edən Allahdır.

---

[1] "Fussilət" surəsi, 30-32.

[2] "əl-Ənbiya" surəsi, 103.

[3] "Fussilət" surəsi, 30.

[4] "Yunus" surəsi, 64.

Uca Allah buyurur: **"Zəkəriyya hər dəfə onun yanına *ibadətgaha* daxil olduqda, onun yanında ruzi olduğunu görərdi. O dedi: "Ey Məryəm, bu sənin üçün haradandır?" *Məryəm* dedi: "Bu, Allah tərəfindəndir. Həqiqətən, Allah istədiyi kimsəyə hesabsız ruzi verir".**[1]

O həmçinin buyurur: **"Madam ki, siz onları və Allahdan savayı ibadət etdiklərini tərk etdiniz, onda mağaraya sığının ki, Rəbbiniz sizə Öz mərhəmətini geniş etsin və işinizdə sizin üçün fayda hazırlasın. *Orada olsaydın* günəşin doğduğu zaman onların mağarasının sağ tərəfinə yönəldiyini, batdığı zaman isə onlardan uzaqlaşıb sol tərəfə addadığını, onların da mağaranın içində geniş bir yerdə yerləşdiklərini görərdin".**[2]

Şərh:

Qeyd etdiyimiz kimi, övliyaların kəraməti adətən baş verməyən hadisələrdir və onlar övliyalara yardım, Allahın dininə də dəstək olaraq onların əli ilə baş verir. Həmçinin qeyd etdik ki, möcüzələr, sehr və alçalmalar da vardır. Sadalanan bu dörd hal adətən baş vermir və bunu da biz öncə qeyd etmişdik.

Həmçinin bil ki, övliyanın hər bir kəraməti onun tabe olduğu peyğəmbər üçün bir möcüzədir. Çünki həmin peyğəmbərə tabe olan övliyaya kəramət verildikdə bu, Uca və nöqsansız Allah tərəfindən onun tutduğu yolun doğruluğuna, həmçinin onun şəriətinin düzgünlüyünə dəlalət edir. Bu baxımdan deyirik ki, övliyanın hər bir kəraməti onun tabe olduğu peyğəmbər üçün bir möcüzədir.

Sonra müəllif ﷺ kəramətlər barədə ayələri zikr etmişdir. Həmin ayələrdən birində Uca Allah buyurur: **"Rəbbi onu yaxşı tərzdə qəbul etdi, onu gözəl bir bitki kimi yetişdirdi və onu Zəkəriyyaya həvalə etdi. Zəkəriyya hər dəfə onun yanına *ibadətgaha* daxil olduqda, onun yanında ruzi olduğunu görərdi. O dedi: "Ey Məryəm, bu sənin üçün haradandır?" *Məryəm* dedi: "Bu, Allah tərəfindəndir. Həqiqətən, Allah istədiyi kimsəyə hesabsız ruzi verir".**[3]

---

[1] "Ali İmran" surəsi, 37.

[2] "əl-Kəhf" surəsi, 16-17.

[3] "Ali İmran" surəsi, 37.

İmranın qızı Məryəmi anası nəzir etmişdi: **"Bir zaman İmranın arvadı demişdi: "Ey Rəbbim, mən bətnimdəkini Sənə qul olmaq üçün nəzir etdim, məndən qəbul et! Həqiqətən, Sən Eşidənsən, Bilənsən". Ondan azad olduğu zaman demişdi: "Ey Rəbbim, mənim qızım oldu" – Allah onun nə doğduğunu daha yaxşı bilirdi, – "axı oğlan qız kimi deyildir. Mən onun adını Məryəm qoydum, onu və onun nəslini lənətlənmiş şeytandan *qorunmağı* Sənə həvalə edirəm". Rəbbi onu yaxşı tərzdə qəbul etdi, onu gözəl bir bitki kimi yetişdirdi və onu Zəkəriyyaya həvalə etdi. Zəkəriyya hər dəfə onun yanına *ibadətgaha* daxil olduqda, onun yanında ruzi olduğunu görərdi. O dedi: "Ey Məryəm, bu sənin üçün haradandır?" *Məryəm* dedi: "Bu, Allah tərəfindəndir. Həqiqətən, Allah istədiyi kimsəyə hesabsız ruzi verir".**[1]

Deməli, Zəkəriyya hər dəfə Məryəmin mehrabına, yəni ibadət etdiyi yerə daxil olduqda orada müxtəlif ruzilər görərdi. Halbuki həmin ruzilər adətən olmazdı. Ondan soruşanda ki, "bunlar sənə haradandır, bunu kim gətirib?", Məryəm deyərdi ki, bunlar Allah tərəfindəndir. Demirdi ki, onu filankəsin oğlu filankəs gətirib. O, izzət və cəlal sahibi Allah tərəfindən göndərilmişdir. Şübhəsiz ki, Uca Allah hər şeyə qadirdir. Ruzi insan tərəfindən deyil, Allah tərəfindən ona bəxş olunurdu: **"Həqiqətən, Allah istədiyi kimsəyə hesabsız ruzi verir".**

Bu vaxt yaşlı olan və hələ də övladı olmayan Zəkəriyya da Rəbbinə dua edir. Şübhəsiz ki, Allah hər şeyə Qadirdir. O, Allahın qüdrətinə dəlil olaraq Məryəmə insan vasitəsi olmadan ruzi verilməsini göstərmişdi. O da Allaha dua edir ki, ona övlad bəxş etsin və beləcə övladı olur.

Burada başqa kəramətlər də vardır. Belə ki, Məryəmin عليها السلام kəramətlərindən biri də bu idi ki, onun ruzisi bazardan alınmır, onu kiminsə oğlu filankəs gətirmirdi – ruzi ona məhz Allah tərəfindən verilirdi.

Məşhur kəramətlərdən biri də mağara əhlinin başına gələnlər idi. "əl-Kəhf" dağda yerləşən geniş bir mağara idi. Mağara əhli yeddi nəfər idi. Onlar öz qövmlərinin nə qədər şirk və küfr içərisində olduğunu gördükdə bununla razılaşmayaraq qövmlərini və ölkələrini tərk edirlər. Çünki həmin ölkə şirk və küfr ölkəsi idi. Onlar qövmlərindən uzaqlaşaraq mağaraya üz

[1] "Ali İmran" surəsi, 35-37.

tuturlar. Uca Allah bu xüsusda buyurur: **"Biz onların əhvalatını sənə olmuş bir həqiqət kimi söyləyirik. Onlar Rəbbinə iman gətirmiş gənclər idi. Biz də onların hidayətini artırdıq. Onlar *kafir hökmdarın qarşısında* durub: "Rəbbimiz göylərin və yerin Rəbbidir. Biz heç vaxt Ondan başqa məbuda ibadət etməyəcəyik. Əks halda olduqca böyük bir *küfr* danışmış olarıq!"– deyərkən onların qəlbinə qüvvət verdik. *Cavanlardan biri o birilərinə dedi:* "Bizim bu xalqımız Allahdan başqa məbudlar qəbul etdi. Bəs nə üçün onlar bu *bütlərə* dair bir dəlil gətirmədilər? Allaha qarşı yalan uydurandan daha zalım kim ola bilər?! Madam ki, siz onları və Allahdan savayı ibadət etdiklərini tərk etdiniz, onda mağaraya sığının ki, Rəbbiniz sizə Öz mərhəmətini geniş etsin və işinizdə sizin üçün fayda hazırlasın".**[1]

Yəni onlar öz yurdlarını tərk etdikdə onlara mağaraya sığınmaq əmr olunmuşdu: **"Rəbbiniz sizə Öz mərhəmətini geniş etsin və işinizdə sizin üçün fayda hazırlasın".**[2]

"Mağaraya sığının", yəni oraya gedin. Mağara da dediyimiz kimi, dağda yerləşirdi. Onlar oraya getdilər. Mağaranın girişi şimal-şərq istiqamətində idi və oraya nə səhər, nə də axşam günəş şüası düşmürdü. Allah onlar üçün bunu asanlaşdırmışdı. Uca Allah buyurur: **"Kim Allahdan qorxarsa, *Allah* onun işini asanlaşdırar".**[3]

Onlar evlərini Allah yolunda tərk etmişdilər, Allah da onların işlərini asanlaşdırmışdı. Onlar mağaraya sığındıqdan sonra Allah onları yatırtdı. Uca Allah bu xüsusda buyurur: **"*Orada olsaydın* günəşin doğduğu zaman onların mağarasının sağ tərəfinə yönəldiyini, batdığı zaman isə onlardan uzaqlaşıb sol tərəfə addadığını, onların da mağaranın içində geniş bir yerdə yerləşdiklərini görərdin".**[4]

Yəni günəş şüaları onların üzərinə tam düşmürdü. Əgər düşmüş olsaydı, onlar istidən məhv olardılar. Əksinə, cüzi miqdarda günəş şüası düşürdü ki, onlar mağarada çürüməsin. Sadəcə ehtiyac olduğu miqdarda üzərinə günəş şüası düşürdü.

---

[1] "əl-Kəhf" surəsi, 13-16.

[2] "əl-Kəhf" surəsi, 16.

[3] "ət-Talaq" surəsi, 4.

[4] "əl-Kəhf" surəsi, 17.

“onların da mağaranın içində geniş bir yerdə yerləşdiklərini görərdin”, yəni geniş bir yerdə. Hədisdə deyilir ki: **“Elə ki, onlar geniş yer tapdılar...”.**[1] Yəni mağarada geniş yer tapdılar. Bu da Allahın ayələrindən idi ki, onlara bu yeri hazırlamışdı. Onlar bu yerə əmin-amanlıqda izzət və cəlal sahibi Allaha təvəkkül edərək, Ona arxayın olaraq daxil olurlar, Allah da onları yatızdırır. Bəs nə qədər yatırlar? Bir gün, iki gün, üç gün? Xeyr, onlar üç yüz doqquz il yatırlar. Nə isti, nə soyuq, nə aclıq, nə də susuzluq səbəbindən oyanmırlar. Bu da Allahın kəramətlərindən idi. Bizlərdən biri üç gün ac-susuz, isti və ya soyuq hissə etmədən qala bilərmi? Xeyr. Onlar isə üç yüz doqquz il mağarada qalırlar. Uca Allah buyurur: **“Onlar mağarada üç yüz il, üstəlik doqquz *il də* qaldılar”.**[2]

İzzət və cəlal sahibi Allah buyurur: **“Biz onları sağa-sola çevirirdik”.**[3] İzzət və cəlal sahibi Allah onları çevirirdi. Nə üçün demir ki, onlar sağa-sola çevrilirdilər? Əksinə, buyurur ki; **“Biz onları çevirirdik”.** Çünki yatmış insanın əməli olmaz. Qələm onun üzərindən qaldırılar, hətta nə isə bir iş etsə belə, bu onun əməli sayılmaz.

Sonra Uca Allah buyurur: **“Onların iti isə girəcəkdə qabaq pəncələrini uzadıb *yatmışdı*”.** İt də izzət və cəlal sahibi Allahın izni ilə mağaranın girəcəyində uzanaraq onları qoruyurdu. Uca Allah onları sağa-sola ona görə çevirirdi ki, əgər onlar bir tərəf üzərində qalmış olsaydılar, qanları işləməz və xarab olardı. Lakin onlar *qeyri-ixtiyari* sağa-sola çevrilirdilər. Kimsə onları görsəydi, oyaq zənn edərdi. Yəni üzlərindən yatmış olduqları bilinmirdi. Əslində isə onlar yatmışdılar.

Allah onlara heybətli görkəm vermişdi: “**Əgər sən onları görsəydin, dönüb onlardan qaçardın və dəhşət səni bürüyərdi”.**[4] Yəni sən onlardan qorxub qaçardın. Belə ki, qəlb qorxur, bədən isə qaçır. Bu onun üçün idi ki, kimsə onları görüb oyatmasın. İzzət və cəlal sahibi Allah onlara bunu bəxş etmişdi. Mağara əhlinin kəramətləri çoxdur. Biz sadəcə bunu qeyd etməklə kifayətlənirik. Uca Allahdan diləyirik ki, bizləri hörmətli övliyalarından etsin. Şübhəsiz ki, O, hər şeyə qadirdir.

---

[1] “Səhih əl-Buxari”, 1555; “Səhih Muslim”, 2263.

[2] “əl-Kəhf” surəsi, 25.

[3] “əl-Kəhf” surəsi, 18.

[4] “əl-Kəhf” surəsi, 18.

Uca Allah buyurur: **"Madam ki, siz onları və Allahdan savayı ibadət etdiklərini tərk etdiniz, onda mağaraya sığının ki, Rəbbiniz sizə Öz mərhəmətini geniş etsin və işinizdə sizin üçün fayda hazırlasın. *Orada olsaydın* günəşin doğduğu zaman onların mağarasının sağ tərəfinə yönəldiyini, batdığı zaman isə onlardan uzaqlaşıb sol tərəfə addadığını, onların da mağaranın içində geniş bir yerdə yerləşdiklərini görərdin".**[1]

Şərh:

Müəllif Hafiz ən-Nəvəvi ﵀ "Övliyaların kəraməti və fəziləti" fəslində bir neçə ayəni qeyd etmişdir. Həmin ayələr övliyaların kəramətinə şamil olunur. Onlardan biri də mağara əhlinin hekayəsidir.

Onlar gənc insanlar idilər, öz xalqlarını tərk edərək getmişdilər. Allah da onları dağda yerləşən böyük bir mağaraya yönəltmişdi. Onlar oraya daxil olduqdan sonra Allah onları yatırtmış, onlar da orada üç yüz doqquz il yatmışdılar. Uca Allah həmin vaxt ərzində onları sağa-sola çevirirdi. Bu da övliyaların kəramətindəndir. Belə ki, Uca Allah onlara təhlükəsiz bir sığınacaq vermişdi. Uca Allah buyurur: **"Əgər sən onları görsəydin, dönüb onlardan qaçardın və dəhşət səni bürüyərdi".**[2] – bu müddət ərzində heç kim onlara yaxınlaşmadı.

Kəramətlərdən biri də o idi ki, onlar bu uzun müddət ərzində orada qaldılar və onların nə dırnağı, nə saçı, nə də başqa bir şeyi dəyişməmişdi. Adətən saç və dırnaqlar uzanır, bunların isə saç və dırnaqları uzanmamışdı, sanki dünən yatmışdılar.

Uca Allah buyurur: **"Beləcə onları oyatdıq ki, *nə baş verdiyini* birbirindən soruşub öyrənsinlər. Onlardan biri: "*Burada* nə qədər qaldınız?"– dedi. *Bəziləri:* "Bir gün, yaxud günün bir hissəsi qədər qaldıq"– dedilər".**[3]

Onlar bunu ona görə dedilər ki, onların heç bir şeyi dəyişməmişdi. Bəzilərinin onların saç və dırnaqlarının uzanması barəsində iddiaları isə səhvdir. Çünki belə olsaydı, onlar anlayardılar ki, mağarada çox uzun müddət qalıblar. Ancaq hər şey olduğu kimi qalmışdı.

---

[1] "əl-Kəhf" surəsi, 16-17.

[2] "əl-Kəhf" surəsi, 18.

[3] "əl-Kəhf" surəsi, 19.

Kəramətlərdən biri də o idi ki, onlar yuxuda ikən Uca Allah onların zalım padşahlarını da əməlisaleh birisi ilə dəyişmişdi. Onlar oyandıqdan sonra aralarından birini şəhərə göndərirlər ki, yemək gətirsin. Onların əllərindəki pul köhnə idi və üç yüz doqquz il öncə istifadə olunan pul idi. Həmin adam aldığı yeməyin pulunu ödədikdə insanlar təəccüblənirlər ki, bu pulu haradan almısan? O da başlarına gələnləri insanlara danışır.

Bu övliyaların kəramətindəndir. Yaxşı olar ki, buna bənzər ayələr toplansın və onlardakı izzət və cəlal sahibi Allahın qüdrətinə dəlalət edən kəramətlər cəm olunsun. Şühəsiz ki, Uca və Böyük Allah qullarına qarşı lütfkardır. Insan Allahı razı salacaq əməllərlə ona ibadət edərsə, Allah da onun razı qaldığı şeyləri ona verər. Müvəffəq edən Allahdır.

Mövzu ilə əlaqəli hədislər:

١٥٠٣– وعنْ أبي مُحَمَّدٍ عَبْدِ الرَّحْمن بنِ أبي بكر الصِّدِّيقِ رضي الله عنهما أنَّ أصْحاب الصُّفَّةِ كانُوا أُنَاساً فُقَرَاءَ وأنَّ النبي ﷺ قَالَ مرَّةً « منْ كانَ عِنْدَهُ طَعامُ اثنَينِ، فَلْيذْهَبْ بِثَالث، ومَنْ كَانَ عِنْدهُ طعامُ أرْبَعَةٍ، فَلْيَذْهَبْ بخَامِسٍ وبِسَادِسٍ » أوْ كَما قَالَ، وأنَّ أبَا بَكْرٍ رضي الله عنه جاءَ بثَلاثَةٍ، وَانْطَلَقَ النبي ﷺ بِعَشرَةٍ، وَأنَّ أبَا بَكْرٍ تَعَشَّى عِنْد النبي ﷺ، ثُمَّ لَبِثَ حَتَّى صلَّى العِشَاءَ، ثُمَّ رَجَعَ، فَجَاءَ بَعْدَ ما مَضَى من اللَّيلِ مَا شاءَ اللَّه. قَالَتْ امْرَأَتُهُ: ما حبسَكَ عَنْ أضْيافِكَ؟ قَالَ: أوَ ما عَشَّيتِهِمْ؟ قَالَتْ: أبوْا حَتَّى تَجِيءَ وَقدْ عرَضُوا عَلَيْهِم قَال: فَذَهَبْتُ أنَا، فَاختبأْتُ، فَقَالَ: يَا غُنْثَرُ، فجدَّعَ وَسَبَّ وَقَالَ: كُلُوا هَنِيئاً، واللَّه لا أَطْعمُهُ أبَداً، قال: وايمُ اللَّهِ ما كُنَّا نَأْخذُ منْ لُقْمةٍ إلاَّ ربا مِنْ أَسْفَلِهَا أكْثَرُ مِنْهَا حتَّى شَبِعُوا، وصَارَتْ أكثَرَ مِمَّا كَانَتْ قَبْلَ ذلكَ، فَنَظَرَ إلَيْهَا أبُو بكْرٍ فَقَال لا مْرَأَتِهِ: يَا أُخْتَ بني فِرَاسٍ مَا هَذا؟ قَالَتْ: لا وَقُرَّةِ عَيني لهي الآنَ أَكثَرُ مِنْهَا قَبْلَ ذَلكَ بِثَلاثِ مرَّاتٍ، فَأَكَل مِنْهَا أبُو بكْرٍ وَقَال: إنَّمَا كَانَ ذلكَ مِنَ الشَّيطَانِ، يَعني يَمينَهُ، ثُمَّ أَكَلَ مِنهَا لِقمةً، ثُمَّ حَمَلَهَا إلى النبي ﷺ فَأَصْبَحَت عِنْدَهُ. وكانَ بَيْننَا وبَيْنَ قَومٍ عهْدٌ، فَمَضَى الأجَلُ، فَتَفَرَّقنَا اثني عشَرَ رَجُلاً، مَعَ كُلِّ رَجُلٍ مِنْهُم أُنَاسٌ، اللَّه أعْلَم كَمْ مَعَ كُلِّ رَجُلٍ فَأَكَلُوا مِنْهَا أَجْمَعُونَ.

وفي روايَة: فَحَلَفَ أبُو بَكْرٍ لا يَطْعمُه، فَحَلَفَتِ المرأَةُ لا تَطْعِمَه، فَحَلَفَ الضِّيفُ أوِ الأَضْيَافُ أن لا يَطعَمَه، أوْ يطعَمُوه حَتَّى يَطعَمه، فَقَالَ أبُو بَكْرٍ: هذِهِ مِنَ الشَّيْطَانِ، فَدَعا

بالطَّعامِ فَأَكَلَ وَأَكَلُوا، فَجَعَلُوا لا يَرْفَعُونَ لُقْمَةً إلاَّ ربَتْ مِنْ أَسْفَلِهَا أَكْثَرَ مِنْهَا، فَقَال: يَا أُخْتَ بَني فِرَاس، ما هَذا؟ فَقالَتْ: وَقُرَّةِ عَيْني إنهَا الآنَ لأَكْثَرُ مِنْهَا قَبْلَ أنْ نَأْكُلَ، فَأَكَلُوا، وبَعَثَ بهَا إلى النبي ﷺ فذَكَرَ أَنَّه أَكَلَ مِنهَا.

وفي روايةٍ: إنَّ أبَا بَكْرٍ قَالَ لِعَبْدِ الرَّحْمَنِ: دُونَكَ أَضْيافَكَ، فَإنِّي مُنْطَلِقٌ إلى النبي ﷺ، فَافْرُغْ مِنْ قِراهُم قَبْلَ أنْ أجِيءَ، فَانْطَلَقَ عبْدُ الرَّحمَن، فَأَتَاهم بمَا عِنْدهُ. فَقَال: اطْعَمُوا، فقَالُوا: أيْنَ رَبُّ مَنزِلَنَا؟ قال: اطعموا، قَالُوا: مَا نَحْنُ بآكِلِين حتَى يَجِيء ربُ مَنْزِلَنا، قَال: اقْبَلُوا عَنَّا قِرَاكُم، فإنَّه إنْ جَاءَ ولَمْ تَطْعَمُوا لَنَلقَيَنَّ مِنْهُ، فَأَبَوْا، فَعَرَفْتُ أنَّه يَجِد عَلَيَّ، فَلَمَّا جاءَ تَنَحَّيْتُ عَنْهُ، فَقالَ: ماصنعتم؟ فأَخْبَروهُ، فقالَ يَا عَبْدَ الرَّحمَنِ فَسَكَتُّ ثم قال: يا عبد الرحمن. فسكت، فَقَالَ: يا غُنثَرُ أَقْسَمْتُ عَلَيْكَ إن كُنْتَ تَسمَعُ صوتي لما جِئْتَ، فَخَرَجتُ، فَقُلْتُ: سلْ أَضْيَافِكَ، فَقَالُوا: صَدقَ، أتَانَا بِهِ. فَقَالَ: إنَّمَا انْتَظَرْتُموني وَاللَّه لا أَطعَمُه اللَّيْلَةَ، فَقالَ الآخَرون: وَاللَّهِ لا نَطعَمُه حَتَّى تَطعمه، فَقَالَ: وَيْلَكُم مَالَكُمْ لا تَقْبَلُونَ عنَّا قِرَاكُم؟ هَاتِ طَعَامَكَ، فَجاءَ بِهِ، فَوَضَعَ يَدَه، فَقَالَ: بِسْمِ اللَّهِ، الأولى مِنَ الشَّيطَانِ فَأَكَلَ وَأَكَلُوا. متفقٌ عليه.

قوله: « غُنْثَر » بغين معجمةٍ مضمومةٍ، ثم نونٍ ساكِنةٍ، ثُمَّ ثاءٍ مثلثةٍ وهو: الغَبيُّ الجَاهِلُ، وقوله: « فجدَّع » أي شَتَمه وَالجَدْع: القَطع. قوله: « يجِدُ عليَّ » هو بكسر الجيمِ، أيْ: يَغْضَبُ.

1503. Əbu Muhəmməd Abdur-Rahmən ibn Əbu Bəkr əs-Siddiqdən رضي الله عنه rəvayət olunur ki, o demişdir: "Suffə əhlindən olan kimsələr kasıb adamlar idi. Bir dəfə Peyğəmbər ﷺ dedi: **"Kimdə iki nəfərlik yemək varsa, üçüncü payını onlara aparsın. Kimdə də dörd nəfərlik yemək varsa, beşinci və ya altıncı payı onlara aparsın"**. Yaxud da buna bənzər söz dedi. Əbu Bəkr üç nəfərlik pay gətirdi, Peyğəmbər ﷺ də on nəfərlə gəldi. Əbu Bəkr axşam Peyğəmbərlə ﷺ birlikdə şam yeməyi yedi, sonra işa namazını qılıb geri qayıtdı. Gecədən bir xeyli keçmiş gəldi. Zövcəsi dedi: "Səni qonaqlarının yanına getməyə qoymayan nədir?" Dedi: "Onlara yemək verməmisənmi?" Dedi: "Onlara təklif olundu, ancaq sən gəlməyincə razı olmadılar, mən də gedib gizləndim". Dedi: "Ay axmaq!" Sonra da onu acıladı. Sonra *qonaqlara* dedi: "Yeyin, nuş olsun, mən isə ondan yeməyəcəyəm". [Əbu Bəkr] deyir ki: "Allaha and olsun ki, birisi bir loxma götürdükdə, yeri daha artığı ilə

dolurdu". Beləcə onlar yeyib doydular, yemək isə əvvəlkindən də artıq idi. Əbu Bəkr ona baxıb zövcəsinə dedi: "Ey Firas oğullarının bacısı, bu nədir?" Dedi: "Mənim də gözlərim bərəlib, o indi əvvəlkindən üç dəfə çoxdur". Sonra Əbu Bəkr yeməkdən yedi və [andını nəzərdə tutaraq]: "Bu şeytandan idi". Ondan bir loxma da yeyib onu Peyğəmbərin ﷺ yanına apardı. [Əbu Bəkr] dedi: "Bizimlə həmin camaat arasında bir əhd var idi. Bir müddət keçdi. Biz on iki kişi toplandıq. Hər birimizin də yanında bir qrup insan var idi. Yanımızda nə qədər adam olduğunu Allah bilir. Onların hamısı həmin yeməkdən yedilər".[1]

Başqa bir rəvayətdə deyilir: "Əbu Bəkr and içdi ki, ondan yeməyəcək, zövcəsi də and içdi ki, ondan yeməyəcək. Qonaq və ya qonaqlar da and içdilər ki, o yeməsə, ondan yeməyəcəklər. Əbu Bəkr dedi: "Bu şeytandandır". Sonra o, yemək gətirtdi və ondan yedi, onlar da yedilər. Onlar hər loxma götürdükcə onun yeri artığı ilə dolurdu. Sonra dedi: "Ey Firas oğullarının bacısı, bu nədir?" Dedi: "Gözlərimin nuru, o indi əvvəlkindən də çoxdur". Sonra ondan yedilər və Peyğəmbərə ﷺ də ondan göndərdilər. Dediyinə görə o da ondan yedi".[2]

Başqa bir rəvayətdə deyilir: "Əbu Bəkr رضي الله عنه Abdur-Rahmənə dedi: "Qonaqların sənin yanında qalsın, mən Peyğəmbərin ﷺ yanına gedirəm. Mən gəlmədən öncə onlarla işi bitir". Abdur-Rahmən əlindəkini onlara gətirdi və: "Yeyin"– dedi. Dedilər: "Evin sahibi haradadır?" Dedi: "Yeyin". Dedilər: "Ev yiyəsi gəlməyincə biz yeyən deyilik". Dedi: "Qabınızı götürün. Əgər o gəlib görsə ki, siz yeməmisiniz, çox qəzəblənəcəkdir". Onlar yenə razı olmadılar. Onun gəlib mənə hirslənəcəyini bildiyim üçün oradan aralandım. Gəlib soruşdu: "Nə etdiniz?" Ona olanları xəbər verdilər. Dedi: "Ey Abdur-Rahmən". Mən susdum. Yenə dedi: "Ey Abdur-Rahmən". Mən yenə susdum. Dedi: "Ay axmaq, səni Allaha and verirəm, səsimi eşidirsənsə, buraya gəl". Mən yerimdən çıxıb: "Qonaqlarından soruş" dedim. Dedilər: "Doğru söyləyir. Bizə yemək gətirmişdi". Dedi: "Məni gözləyirdiniz? Vallahi ki, bu gecə dilimə yemək vurmayacağam". Dedilər: "Ondan yeməsən, biz də yeyən deyilik". Dedi: "Vay sizin halınıza, sizə nə olub, yeməyinizi yemirsiniz? Yeməyi gətir". O yeməyi gətirdi, o da əlini yeməyə

[1] "Səhih əl-Buxari", 567; "Səhih Muslim", 3833.

[2] "Səhih əl-Buxari", 5676.

uzadıb dedi: "Bismilləh. Birinci şeytandandır". Sonra yeməkdən yedi, onlar da yedilər".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

[Hədisin ərəbcəsində keçən] "əl-ğunsər" sözü axmaq, yaxud cahil, "cəddaə" isə söymək, təhqir etmək mənasındadır.

Şərh:

Bu hekayə övliyaların kəraməti ilə bağlıdır. Burada Əbu Bəkrin رضي الله عنه başına gələnlər nəql edilmişdir. Belə ki, Mədinəyə gələn mühacirlərdən bəziləri olduqca kasıb idilər. Onların əyinlərindəki libaslarından başqa heç nəyi yox idi. Bu səbəbdən həmin mühacirlər məscidin bir küncünə sığınmışdılar. *Onlara Suffə əhli deyirdilər.* Sonra da Allah onlara bəzi adamları göndərər, onlar da həmin mühacirləri öz evlərinə götürər və onlara yemək verərdilər. Bir gecə Peyğəmbər ﷺ dedi: **"Kimdə iki nəfərlik yemək varsa, üçüncü payını onlara aparsın. Kimdə də dörd nəfərlik yemək varsa, beşinci və ya altıncı payı onlara aparsın".** Beləcə o, öz səhabələrinə əmr etdi ki, özləri ilə Suffə əhlindən bir neçə nəfər aparıb onlara yemək versinlər. Peyğəmbər ﷺ də insanların ən səxavətlisi idi. O özü ilə on nəfər apardı. Əbu Bəkr dörd nəfər apardı. Bəziləri üç, bəziləri də hallarına uyğun olaraq dörd nəfər apardılar.

Əbu Bəkr رضي الله عنه öz qonaqlarını evinə apardı, oğlu Abdur-Rahmənə də tapşırdı ki, onların xidmətində dursun. Özü isə Peyğəmbərin ﷺ yanına getdi. Belə ki, o, vaxtının çoxunu Peyğəmbərlə ﷺ birlikdə keçirər, onunla bir yerdə olardı. O, Peyğəmbərin ﷺ yanında onunla birlikdə şam etdi, sonra da evinə qayıtdı. Artıq gecənin bir hissəsi keçmişdi. O soruşdu: "Qonaqlarınıza yemək verdinizmi?" Dedilər: "Xeyr". O da elə düşündü ki, onlar Əbu Bəkrin gəlməsini gözləyərək qonaqlara yemək verməmişlər. Buna görə də o, onlara sərt şəkildə acıqlandı. Sonra oğlu Abdur-Rahməni səslədi, o isə qorxudan cavab vermədi. Çünki Əbu Bəkr öz ailəsinin tərbiyəsi işində çox ciddi idi. Bu səbəbdən cavab vermədi, qorxdu ki, ona nə isə bir söz deyər. Sonra ona and verdi ki, onu eşidirsə, cavab versin. O da cavab verdi. Əbu Bəkr dedi: "Camaata niyə yeməyi gecikdirmisiniz?" Ona qonaqlarından soruşmasını dedi. O onlardan soruşdu, onlar da dedilər ki,

[1] "Səhih əl-Buxari", 5675.

bizə yemək təklif etdilər, ancaq biz sən gələnədək yeməyə razı olmadıq. Sonra o, Allaha and içdi ki, yemək yeməyəcək. Yəni sizlər mənə görə gecikmisiniz, elə isə mən yemək yeməyəcəyəm. Qonaqlar da ona hörmət əlaməti olaraq yemək yeməyəcəklərinə and içdilər. Beləcə hər iki tərəf and içmiş oldu – Əbu Bəkr and içir ki, o yeməkdən yeməyəcək, qonaqlar da and içirlər ki, yemək yeməyəcəklər. Bunlardan hansı biri daha önəmlidir: Əbu Bəkr andına sadiq qalsın və qonaqlar yemək yeməsin? Yoxsa qonaqlar andlarına sadiq qalsınlar və yemək yeməsinlər? İkinci daha önəmlidir. Əbu Bəkr dedi: "Bu şeytandandır", yəni yeməyəcəyinə and içməsi şeytandandır. Sonra o, qonaqlarla birlikdə yedi. Baş vermiş kəramət isə bundan ibarət idi ki, qonaqlardan biri qabdan bir loxma götürdükdə qab yuxarı qalxar, loxmanın yerində yemək əvvəlkindən də çox olardı. Bu necə baş verirdi? Bu izzət və cəlal sahibi Allahdan Əbu Bəkrə verilmiş bir kəramət idi. Çünki o, bu ümmətin övliyalarının ən əfzəlidir. Belə ki, o, peyğəmbərdən sonra bu ümmətin ən fəzilətlisidir. Onlar yeməklərini bitirdilər və qabda əvvəlkindən də çox yemək qaldı. Əbu Bəkr yeməyi götürüb Peyğəmbərin ﷺ yanına apardı. Peyğəmbər ﷺ də bəzi adamları çağırdı, onlar da gəlib həmin yeməyi yedilər.

Əbu Bəkr رضي الله عنه həmin yeməyi Peyğəmbərə ﷺ göstərmək üçün aparmışdı. Öyrənmək istəyirdi ki, bu iş izzət və cəlal sahibi Allah tərəfindən necə baş vermişdir. O Allah ki, göylərin və yerin mülkü Onun əlindədir. Bir şeyin olmasını istədikdə ona: "Ol!" deyər, o da olar.

Bu hədisdən götürülən nəticə budur ki, bu hadisə Allahın övliyalarından olan Əbu Bəkrin رضي الله عنه kəramətlərindən biridir. Biz də onun övliyalardan biri olduğuna şahidlik edirik. Hətta o, peyğəmbər və elçilərdən sonra Allahın ən əfzəl övliyalarındandır. Belə ki, o, sadiqlərdən idi, yəni peyğəmbərlərdən sonra bəşəriyyətin ikinci ən yüksək məqamında idi. Uca Allah buyurur: **"Allaha və *Onun* Elçisinə itaət edənlər Allahın özlərinə nemət bəxş etdiyi peyğəmbərlərlə, sidq ürəkdən inananlarla, şəhidlərlə və əməlisalehlərlə birlikdə olacaqlar. Onlar necə də gözəl dostlardır".**[1]

Əbu Bəkr رضي الله عنه Adəmdən Qiyamət gününədək ən əfzəl siddiqlərdən, Allahın övliyalarındandır. Bu da onun kəramətlərindən biri idi. Hədisdə bir çox faydalar mövcuddur.

[1] "ən-Nisa" surəsi, 69.

Həmin faydalardan biri Əbu Bəkrin رضي الله عنه fəziləti və onun övliyalardan olması ilə bağlıdır. Qeyd etdik ki, peyğəmbərlərdən sonra Allahın ən əfzəl övliyalarından biri idi. Belə ki, Əbu Bəkr Allahın xüsusi nemət bəxş etdiyi dörd sinif insandan – peyğəmbərlər, siddiqlər, şəhidlər və əməli-salehlərdən ikincisində idi.

Faydalardan biri də odur ki, insan hər hansı bir səbəbdən qəzəbləndikdə buna görə qınanmır. Belə ki, Əbu Bəkr hədisdə qəzəblənərək söyüş söyür. Hətta oğlu Abdur-Rahmən də ondan qorxaraq gizlənir. O isə çağırıb deyir: Ay axmaq, ay cahil. Bu da dəlildir ki, insan hər hansı bir səbəbdən qəzəbləndikdə buna görə qınanmır və bu, onun fəzilətindən və mərtəbəsindən azaltmır.

Hədisdən həm də görünür ki, insan öz övladının layiqsiz bir hərəkətini gördükdə onu cahil və ya axmaq adlandıra bilər.

Həmçinin hədisdən görünür ki, and içmək qədim zamanlardan insanların adətlərindəndir. Misal üçün: səni Allaha and verirəm, ye; Allaha and olsun, yemərəm; vallahi ki, *evə* girəcəksən, yaxud vallahi ki, girməyəcəyəm. Onlar Allaha and içərdilər. Günümüzdə isə bir çox cahillər boşanma andı edirlər. Bu səhvdir. Bir çox çöl əhlinin yanına qonaq gəldikdə qonaq ev sahibinin onun üçün heyvan kəsəcəyini düşündükdə deyir ki, [belə etmə, əgər heyvan] kəssən arvadımı boşayaram. Yaxud da "zövcəm mənə haram olsun" və ya "əgər heyvan kəssən, xanımım mənə anam kimi olsun". Allah qorusun! Bunlar haramdır və caiz deyildir: **"Kim and içərsə ya Allaha and içsin, ya da sussun".**[1]

Allaha and içməyə gəlincə bu adət qədimdə də olub, hətta ərəblərin xüsusiyyətlərindəndir. Yaxşı olar ki, birinə and içdikdə inşəAllah sözünü də işlədib: "vallahi inşəAllah" deyəsən. Belə ki, vallahi inşəAllah dedikdə iki fayda əldə etmiş olursan:

Birincisi, Allah sənin işini asanlaşdırar.

İkincisi, əgər işin alınmazsa, sənə kəffarə düşməz. Odur ki, hər zaman and içdikdə inşəAllah sözünü də de ki, həm kəffarədən yaxa qurtarasan, həm də işlərin asanlaşsın.

Süleyman peyğəmbərin xəbəri sizə gəlib çatmayıbmı? Günlərin bir günü o, demişdi: "Vallahi ki, bu gün doxsan qadının yanına gedəcəyəm və

[1] "Səhih əl-Buxari", 2482.

onlardan hər biri məndən Allah yolunda vuruşacaq oğul dünyaya gətirəcəkdir". Yəni doxsan qadınla yaxınlıq edəcəyəm. Hər bir qadın da ondan övlad dünyaya gətirəcək və onlar Allah yolunda vuruşacaqlar. Baxın, görün peyğəmbərlər Allah yolunda vuruşmağı necə sevirdilər. O, Allahdan çoxlu övladının olmasını, onların da Allah yolunda vuruşmalarını istəyirdi. Deməmişdi ki ona ticarətdə, əkinçilikdə və ya hər hansı bir dünyavi işdə yardım etsinlər. Əksinə, dedi ki, Allah yolunda vuruşsunlar. Bu zaman ona dedilər ki, inşəAllah de. O isə inşəAllah demədi. Çünki əzmkarlıqla bu işə niyyətlənmişdi. Lakin Uca Allahın buyurduğu kimi: **"Allah diləmədikcə, siz istəyə bilməzsiniz"**. Beləcə o, həmin gün doxsan qadınla yaxınlıq etdi. Allah ona güc vermişdi. Bəs nə baş verdi. Həmin qadınlardan yalnız biri uşaq dünyaya gətirdi, o da şikəst idi. Sübhanallah! Bu Allahın möcüzələrindən idi. İzzət və cəlal sahibi Allah bununla ona bildirdi ki, hər bir iş Allahın əlindədir.

Peyğəmbərimiz Muhəmməd ﷺ demişdir: **"Əgər o, inşəAllah desəydi, yalan danışmazdı və muradına çatmış olardı".**[1] Yəni əgər inşəAllah desəydi, işi asanlaşardı.

Bir gün qureyşlilər Peyğəmbərin ﷺ yanına gəlib dedilər: "Bizə əvvəllər ölkələrini tərk edərək mağarada yaşamış kəslər, yaxud da zil-qarneyn haqqında xəbər ver". Peyğəmbər ﷺ dedi: "Sabah sizə deyərəm". Peyğəmbər ﷺ onların hekayəsini bilmirdi. Çünki o nə onların vaxtında yaşayıb, nə də etibarlı bir tarixi mənbə var idi. Sabah açılır, lakin ona vəhy nazil olmur. Peyğəmbər ﷺ bilirdi ki, vəhy ona gecələr nazil olur. Lakin vəhy nazil olmur. İkinci gün yenə vəhy nazil olmur. Üçüncü, dördüncü, beşinci gün yenə nazil olmur. Beləcə on beş gün keçir, ancaq vəhy nazil olmur. Bu da Peyğəmbərə ağır gəlir, çünki o, düşmənləri qureyşlilərə vəd vermişdi ki, sabah onlara xəbər verəcək. Lakin xəbər verə bilməmişdi. Sonra Uca Allah həm qissəni, həm də bu ayələri nazil etdi: **"Heç bir şey barəsində: "Mən onu sabah edəcəyəm"– demə! Ancaq: "Əgər Allah istəsə" ("inşallah"– de!)".**[2]

Hər bir iş Allahın əlindədir. Odur ki, deyirik: Hər hansı bir formada özün, övladların, qonağın və ya başqa birisi üçün and içmək istədikdə

[1] "Səhih əl-Buxari", 6225; "Səhih Muslim", 3124.

[2] "əl-Kəhf" surəsi, 23-24.

inşəAllah sözünü də de ki, bu iki faydanı əldə etmiş olasan: Allah sənin işini asanlaşdırsın və and içdiyin şeyi sənə nəsib etsin. İkincisi isə iş alınmadıqda, sənə kəffarə düşməsin. Müvəffəq edən Allahdır.

Bu hədisin faydalarından biri də odur ki, insan hər hansı bir iş üçün and içdikdən sonra başqa bir işin daha xeyirli olması qənaətinə gələrsə, andının kəffarəsini ödəyib daha xeyirli olanı etməlidir. Buna Peyğəmbərdən ﷺ nəql olunmuş aşağıdakı səhih hədis dəlalət edir: **"Vallahi ki, mən inşəAllah ki, hər hansı bir işə görə and içdikdən sonra başqa bir işin daha xeyirli olduğunu gördükdə, daha xeyirli olanı edib andımın kəffarəsini ödəyirəm".** Digər bir rəvayətdə isə deyilir: **"Andımın kəffarəsini verib daha xeyirli olanı edirəm".**[1]

Əgər and içsən ki, filankəslə danışmayacaqsan, bu zaman yaxşı olar ki, kəffarəsini ödəməklə andını pozasan və daha xeyirli olanı edəsən. Əgər sənlə birinin arasında bir şey baş vermişdirsə və sən: "Vallahi ki, onun qapısını döymərəm, onu ziyarət etmərəm"– deyə and içmisənsə, onda gərək günah iş olmadığı təqdirdə sən andını pozub kəffarə ödəyəsən.

Həmçinin insan and içsə ki, övladı filan işi görsə, onu danışdırmayacaq, övlad da həmin işi görmüş olsa, o zaman gərək andını pozaraq onun kəffarəsini ödəməlidir. Mühüm olan odur ki, bir işə and içdikdən sonra görsən ki, başqa bir iş daha xeyirlidir, o zaman andının üzərində durma, onun kəffarəsini ödə.

Bu hədisin faydalarından biri də odur ki, insan başqa birisinə yaxşılıq edəcəyinə and içdikdən sonra həmin yaxşılığı etməzsə, ona kəffarə düşmür. Çünki Əbu Bəkr رضي الله عنه andının kəffarəsini verməmişdi. Daha doğrusu, onun kəffarə verdiyi bizlərə nəql olunmayıb. Bəzi alimlər bu hədisi dəlil gətirsələr də bu zəif dəlildir. Çünki Əbu Bəkrin رضي الله عنه bu hədisində onun kəffarə verib-vermədiyindən söhbət açılmır.

Ola bilsin ki, o, kəffarəni ödəyib, lakin bunu deməyib. Ehtimal da var ki, o, kəffarə ödəməyib. Lakin bizdə açıq-aydın dəlillər vardır ki, andını pozan kəffarə ödəməlidir. Bu zaman fərq etməz, özü andını pozub, yaxud başqasının ucbatından andı pozulub. Odur ki, deyirik: bir adama hörmət əlaməti olaraq and içsən, sonra da həmin adam ondan gözlədiyin əməli etməzsə, o zaman kəffarə verməlisən. Misal üçün sən bir nəfərlə qapıda

[1] "Səhih əl-Buxari", 6133; "Səhih Muslim", 3109.

dayanmısınız, həmin evin sahibi də sizi dəvət etmişdir. Qapı açılır və yoldaşın sənə deyir ki, buyur. Sən də deyirsən ki, vallahi girmərəm, sən buyur. O da deyir ki, yox, daxil olmaram. Bu zaman sən daxil olsan, kəffarə verməlisən. Fərqi yoxdur, istər bu hörmətdən dolayı olsun, istərsə də andın pozulması olsun.

Birisi deyə bilər ki, Əbu Bəkr رضي الله عنه birinci and içmişdi. Bu səbəbdən də qonaqlar onun andını pozmamalı idilər. Lakin onlar da and içdilər. İki nəfər and içdikdə isə biri belə, digəri də onun əksini deyərsə, hansı birinin andına riayət olunmalıdır? Fikrimizcə, birinci kim and içibsə, onun andı pozulmamalıdır. Çünki ilk olaraq o and içmişdir. Peyğəmbər ﷺ anda riayət olunmasına əmr etmişdir. Buna əsasən də səhv edən ikinci and içəndir.

Əgər biri and içsə ki, "vallahi ki, belə edəcəksən", digəri də desə ki, "vallahi etmərəm", o zaman kimin andı keçərli olmalıdır, birincinin yoxsa ikincinin? – Birincinin, çünki o birinci and içmişdir. Lakin Əbu Bəkrin təvazökarlığındandır ki, o, qonaqlara hörmət əlaməti olaraq yemək yemişdi.

Əbu Bəkrin رضي الله عنه hədisindəki başqa faydalardan onu qeyd edə bilərik ki, insan qonağına qarşı səxavətli olmalıdır. Axı qonağa yaxşılıq etmək imanın kamiliyindəndir. Peyğəmbər ﷺ demişdir: **"Kim Allaha və axirət gününə iman gətirirsə qonağına qarı səxavətli olsun".**[1]

Bir gün və bir gecə müddətində qonaq qəbul etmək vacibdir. Üç gün isə sünnədir. Ondan artıq olan isə müstəhəbdir. Lakin vacib olan bir gün və bir gecədir. Bəzi alimlər bunun həmin yerdə yeməkxanalar olmadığı təqdirdə vacib olduğunu bildirmişlər. Həmin yerdə yeməkxanalar olduğu təqdirdə isə bu sənə vacib olmur. Lakin bu halda da imkan daxilində ona pul verirsən. Bu məsələ barəsində səhih olan odur ki, insanlar müxtəlifdir. Bəzi qonaqlar restorana getməyi alçaldılma kimi qəbul edirlər. Beləsini gərək evində qarşılayasan. Elə insanlar da vardır ki, bunun onlar üçün heç bir əhəmiyyəti yoxdur. Beləsinə deyə bilərsən ki, qardaş, al bu pulu, get filan restorana. Bu həm də həmin yerdə mehmanxanalar olarsa, bu da eynidir. Bu halda bəzi elm əhlinin dediyi kimi, bu (evində qonaq etmək) ona vacib deyilsə, bu daha asan olar. Çünki mehmanxanalara şərəfli və ya xəbis hər kəs gəlir. Lakin heç şübhəsiz, səni qəsd edərək sənin evinə gəlib desə ki, mən sənin qonağınam, yaxşı olar ki, onu qonaq kimi qəbul edəsən.

[1] "Səhih əl-Buxari", 5559; "Səhih Muslim", 67.

Yalnız bunda sənin üçün bir zərərin olması və ya daha mühüm bir işin əldən verilməsi halı istisnadır. Hər bir məqamın öz hökmü vardır. Müvəffəq edən Allahdır.

١٥٠٤– وعنْ أبي هُرَيْرَة ﵁ قَالَ: قال رَسُولُ اللَّهِ ﷺ: « لَقَدْ كَان فِيما قَبْلَكُمْ مِنَ الأُمِمِ نَاسٌ محدَّثونَ، فإن يَكُ فِي أُمَّتي أَحَدٌ، فإنَّهُ عُمَرُ » رواه البخاري، ورواه مسلم من روايةِ عائشةَ، وفي رِوايتِهما قالَ ابنُ وَهْبٍ: « محدَّثُونَ » أَي: مُلهَمُون.

1504. Əbu Hureyradan ﵁ nəql olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Sizdən əvvəlki ümmətlərdə ilham olunan kəslər olmuşdur. Ümmətimdən belə birisi olsaydı, Ömər olardı".**

Bu hədisi Buxari rəvayət etmişdir.[1] Muslim bu hədisi Aişədən ﵂ nəql etmişdir.[2] Hər iki rəvayət barəsində İbn Vahb demişdir: "Hədisdəki "muhəddəsun" sözünün mənası ilham olunandır".

Şərh:

Müəllif ﵀ möminlərin əmiri Ömər ﵁ haqqındakı Əbu Hureyradan nəql olunmuş hədisi qeyd etmişdir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Sizdən əvvəlki ümmətlərdə ilham olunan kəslər olmuşdur. Ümmətimdən belə birisi olsaydı, Ömər olardı".**

"Sizdən əvvəlki ümmətlərdə ilham olunan kəslər olmuşdur". Yəni onların dedikləri doğrudan da baş verirdi. Bu da Allahın öz bəndəsinə bəşx etdiyi kəramətlərdəndir. Bir söz dedikdə və ya bir fətva verdikdə, yaxud da bir hökm çıxardıqda o həqiqətə çevrilir. Ömər ﵁ də haqqa ən uyğun danışan kəslərdən idi. Müəllif bu xüsusda misallar da gətirəcəkdir.

"Ümmətimdən belə birisi olsaydı, Ömər olardı". Bir rəyə görə burada "sizdən" (ümmətimdən) deyildikdə, yalnız oraya toplaşmış kəslər nəzərdə tutulurdu və Əbu Bəkr onların arasında deyildi. Digər bir rəyə görə isə burada xitab bütün ümmətədir və Əbu Bəkr ﵁ də ora daxildir. Birinci rəyə görə bir problem yoxdur. İkinci rəy barəsində isə ola bilsin biri soruşsun ki: Necə ola bilər ki, Əbu Bəkr qala-qala Ömərə ilham olunsun? Cavab odur ki, Əbu Bəkr doğru əmələ ilhamsız müvəffəq olurdu. Yəni

[1] "Səhih əl-Buxari", 3413.

[2] "Səhih Muslim", 4411.

Allahın müvəffəqiyyəti sayəsində bu baş verirdi. Buna bir sıra hadisələr dəlildir. Yəni Əbu Bəkrin Ömərdən daha çox həqiqətə müvafiq olmasına bir sıra məsələlər dəlalət edir:

Birinci. Hüdeybiyyə sülhü bağlananda qureyşlilər Peyğəmbərə ﷺ ağır görünən şərtlər qoyurlar. Ömər həmin şərtlərə məhəl qoyulmamasının tərəfdarı idi və Peyğəmbərin ﷺ yanına gəlib deyirdi ki, dinimizdə nə cür qanbahası verə bilərik? Axı bu şərti necə qəbul edə bilərik ki, onlardan islamı qəbul edib bizim yanımıza gələni biz onlara qaytarmalı, bizdən onların yanına gedən kimsəni isə onlar bizə qaytarmayacaqlar? Bu ağır şərt idi. Lakin Peyğəmbər ﷺ ona dedi: **"Mən Allahın elçisiyəm, sən də mənə asi olan deyilsən, çünki o mənə yardım edəndir"**. Sonra Ömər Əbu Bəkrin رضي الله عنه yanına getdi ki, onunla birlikdə Rəsulullahı ﷺ bu fikrindən döndərsin. Əbu Bəkr də ona Rəsulullahla ﷺ eyni rəydə olduğunu söylədi və dedi: "O, Allahın elçisidir. O mənə yardım etdiyi halda mən ona asi olan deyiləm". Onun dedikləri barədə heç bir şübhəsi yox idi. Demək burada haqqa müvafiq olan kim idi? Şübhəsiz ki, Əbu Bəkr.

İkinci. Rəsulullah ﷺ vəfat etdikdə onun ölüm xəbəri Mədinəyə yayılır. İnsanlar məscidə toplanır. Bu zaman Ömər onlara səslənib deyir: "O ölməyib, huşunu itirib ki, Rəbbi ona vəhy etsin. Kim onun öldüyünü desə, onun əllərini və ayaqlarını çarpazvari kəsərəm".[1] Beləcə o, Peyğəmbərin ﷺ ölümünü inkar etdi.

Həmin gün Əbu Bəkr Mədinənin kənarındakı bostanına getmişdi. Geri qayıtdıqda görür ki, Peyğəmbər ﷺ artıq vəfat etmişdir. Bu vaxt o, məscidə gedərək minbərə qalxır və qızıl hərflərlə yazılması gərəkən məşhur iki sözünü deyir: "Ey insanlar, kim Muhəmmədə ibadət edirdisə bilsin ki, Muhəmməd ölmüşdür. Kim də Allaha ibadət edirdisə bilsin ki, Allah Diridir və Ölməzdir. Sonra o bu ayəni oxudu: **"Həqiqətən sən də öləcəksən, onlar da öləcəklər".**[2] Daha sonra bu ayəni oxudu: **"Muhəmməd sadəcə Allahın rəsuludur, ondan əvvəllər də rəsullar olub keçmişlər. Məgər o ölsə və ya öldürülsə dininizdən dönəcəksiniz?"**[3]

---

[1] "Səhih əl-Buxari", 3394.

[2] "əz-Zumər" surəsi, 30.

[3] "Ali İmran" surəsi, 144.

Ömər deyir ki, "Allaha and olsun, Əbu Bəkr bu ayəni oxuduqda ayaqlarım məni tutmadı və mən yerə çökdüm". Belə ki, insan çox bərk qorxduqda ayaq üstə dayana bilmir.

Üçüncü. Rəsulullah ﷺ vəfat etdikdə ərəblərin bir qismi dindən çıxır və kafir olurlar. Allah qorusun! Peyğəmbər ﷺ vəfatından öncə bir ordu hazırlamış və Usamə ibn Zeydi رضي الله عنه ona başçı təyin etmişdi ki, Şam istiqamətində döyüşə getsinlər. Onlar artıq Mədinənin xaricində olsalar da hələ yola düşməmişdilər. Ərəblərin mürtəd olduğunu görən Ömər رضي الله عنه Əbu Bəkrə رضي الله عنه deyir ki, ordunu göndərməsin, bizim orduya ehtiyacımız var. Əbu Bəkr isə ona belə dedi: "Allaha and olsun ki, Rəsulullahın ﷺ bağladığı bir bayrağı mən açmaram". Beləcə Əbu Bəkr onların getməsinə əmr verdi. Əbu Bəkrin bu əməli doğru idi. Belə ki, insanlar Mədinə əhlinin Şamın ətraflarına ordu göndərdiyini eşidəndə dedilər ki, bunlar güclüdürlər, biz İslamdan çıxa bilmərik. Beləcə onlar İslamda qaldılar.

Xülasə, Əbu Bəkr رضي الله عنه haqqa müvafiq olma məsələsində Ömərdən daha öndə idi. Ələlxüsus da çətin anlarda. Hər bir halda uca Allah hər iki şəxsiyyətdən razı olsun. Allah bizi onlarla Nəim cənnətlərində bir araya gətirsin. Onların hər ikisi doğru rəyə müvəffəq olunanlardan idi. İnsan nə qədər çox Allaha iman gətirmiş olarsa, Allaha daha çox itaət etmiş olarsa, Allah onu imanı, elmi və yaxşı əməlləri miqdarında haqqa müvəffəq edər. Ola bilsin, insan bir əməl edir və onun düzgün olduğunu düşünür, lakin həmin əməlin Quran və Sünnədən heç bir dəlili yoxdur. Əgər araşdırıb görsə ki, həmin əməl Quran və Sünnəyə müvafiqdir bu artıq bir kəramət hesab olunur. Ömər barəsində də Rəsulullah ﷺ belə demişdir: **"Ümmətimdən [ilham olunan] birisi olsaydı, Ömər olardı"**.

١٥٠٥– وعنْ جَابِر بن سمُرَةَ، رضي الله عنهما. قَالَ: شَكَا أَهْلُ الكُوفَةِ سَعْداً، يَعْنِي: ابْنِ أبي وَقَّاصٍ، رضي الله عنه، إلى عُمَرَ بنِ الخَطَّابِ، رضي الله عنه، فَعزَلَه وَاسْتَعْمَلَ عَلَيْهِمْ عمَّاراً، فَشَكَوْا حَتَّى ذكَرُوا أَنَّهُ لا يُحْسِنُ يُصَلِّي، فَأَرسَلَ إلَيْهِ، فَقَالَ: ياأَبا إسْحاقَ، إنَّ هؤُلاءِ يزْعُمُونَ أَنَّكَ لا تُحْسِنُ تُصَلِّي. فَقَالَ: أمَّا أَنَا واللَّهِ فَإنِّي كُنْتُ أُصَلِّي بِهِمْ صَلاةَ رَسُولِ اللَّه ﷺ لا أَخْرِمُ عَنْهَا أُصَلِّي صَلاةَ العِشَاءِ فَأَرْكُدُ في الأُولَيَيْنِ، وَأُخِفُّ في الأُخْرَيْنِ، قال: ذَلِكَ الظَنُّ بكَ يَا أبَا إسْحاقَ، وأَرسلَ مَعَهُ رَجُلاً أَوْ رجَالاً إلَى الكُوفَةِ يَسْأَلُ عَنْهُ أَهْلَ الكُوفَةِ، فَلَمْ يَدَعْ مَسْجِداً إلاَّ سَأَلَ عَنْهُ، وَيُثْنُونَ

مَعْرُوفاً، حَتَّى دَخَلَ مَسْجِداً لِبَني عَبْسٍ، فَقَامَ رَجُلٌ مِنْهُمْ، يُقَالُ لَهُ أُسامةُ بنُ قَتَادَةَ، يُكَنَّى أبا سَعْدَةَ، فَقَالَ: أَمَا إذْ نَشَدْتَنَا فَإنَّ سَعْداً كانَ لا يسِيرُ بِالسَّرِيّةِ ولا يَقْسِمُ بِالسَّويَّةِ، وَلا يعْدِلُ في القَضِيَّةِ، قَالَ سعْدٌ: أَمَا وَاللَّهِ لأدْعُوَنَّ بِثَلاثٍ: اللَّهُمَّ إنْ كَانَ عبْدكَ هذا كَاذِباً، قَام رِيَآءً، وسُمْعَةً، فَأَطِلْ عُمُرَهُ، وَأَطِلْ فَقْرَهُ، وَعَرِّضْهُ للفِتَنِ، وَكَانَ بَعْدَ ذلكَ إذا سُئِلَ يَقُولُ: شَيْخٌ كَبِيرٌ مَفْتُون، أصَابتْني دَعْوةُ سعْدٍ.

قَالَ عَبْدُ المِلِكِ بنُ عُميْرٍ الرَّاوِي عنْ جَابرِ بنِ سَمُرَةَ فَأَنا رَأَيْتُهُ بَعْدَ قَدْ سَقَط حَاجِبَاهُ عَلى عيْنيْهِ مِنَ الكِبَرِ، وَإنَّهُ لَيَتَعَرَّضُ للجوارِي في الطُّرقِ فَيغْمِزُهُنَّ. متفقٌ عليهِ.

1505. Rəvayət olunur ki, Cabir ibn Səmura ﷺ demişdir: “Bir dəfə Kufə əhli Səd ibn Əbu Vaqqasdan Ömər ibn əl-Xəttaba şikayət etdilər. O da onu işdən çıxarıb onun yerinə Ammarı təyin etdi. Yenə şikayət edib dedilər ki, namaz qıldıra bilmir. O da onun yanına adam göndərib dedi: “Ey Əbu İshaq, bunlar iddia edirlər ki, sən namaz qıldıra bilmirsən”. Dedi: “Allaha and olsun ki, mən onlara Rəsulullahın namazı kimi namaz qıldırır, ondan kənara çıxmırdım. İşa namazını qıldırarkən ilk iki rükəti uzadar, son iki rükəti isə qısa edərdim”. Dedi: “Ey Əbu İshaq, bu sadəcə sənin barəndə olan bir zəndir”. Sonra Kufəyə, onun yanına adam və ya adamlar göndərdi ki, Kufə əhlindən onun barəsində soruşsunlar. Onlar da onun barəsində soruşmadıqları bir məscid qoymadılar. Hamısında da onu təriflələdilər. Sonra onlar Abs oğullarının məscidinə daxil oldular. Əbu Sədə ləqəbli Usamə ibn Qatədə adlı birisi qalxdı və dedi: “Bizdən soruşursansa, Səd döyüşə getmir, bərabər bölgü aparmır, işlərində də ədalətli deyil”. Səd dedi: “Allaha and olsun ki, üç şey barəsində dua edəcəyəm: “Allahım, əgər sənin bu bəndən yalançı, riyakar və özünü göstərəndirsə, onun ömrünü uzat, yoxsulluğunu artır və onu fitnələrə məruz qoy”. Sonradan ona sual verildikdə deyərdi: “Mən fitnəyə məruz qalmış bir qocayam, Sədin bədduası məni tutub”. Ravilərdən olan Abdul-Malik ibn Umeyr Cabir ibn Səmuradan rəvayət etmişdir ki; “Mən də onu görmüşəm. Qocalıqdan qaşları gözünü bağlamışdı, özü də küçədə qızlara əl-qol atırdı”.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

[1] “Səhih əl-Buxari”, 713.

Şərh:

Bu, müəllifin ﷺ nəql etdiyi kəramətlərdəndir. Cabir ibn Səmura ﷺ bu hədisdə Səd ibn Əbu Vaqqasın ﷺ qissəsini nəql etmişdir.

Səd duasının müstəcəb olması ilə məşhur idi. Yəni Uca Allah ona belə bir kəramət bəxş etmişdi ki, o Allaha dua etdikdə duası dərhal qəbul olunardı. Möminlərin əmiri Ömər ibn əl-Xəttab ﷺ onu Kufəyə əmir təyin etmişdi. Belə ki, müsəlmanlar İraqı fəth etdikdən sonra orada yurd salmışdılar. Xüsusən də İraqın ən məşhur iki şəhəri olan Bəsrə və Kufədə. Sonra da həmin məskənlərə əmirlər təyin etmişdilər. Beləcə Səd ibn Əbu Vaqqas ﷺ da Kufəyə əmir təyin olunmuşdu. Bir dəfə Kufə əhli ondan möminlərin əmirinə şikayət edirlər. Deyirlər ki, o heç namaz qıla bilmir. Halbuki o, Peyğəmbərin onu Cənnətlə müjdələdiyi görkəmli səhabələrdən idi. Ömər ﷺ onun yanına adam göndərir, o da gəlir. Ona deyir ki, Kufə əhli iddia edir ki, sən onlara Peyğəmbərin ﷺ namazını qıldıra bilmirsən. Sonra o işa namazını qeyd etdi. Sanki – daha doğrusunu Allah bilir – şikayətçilərin iddia etdikləri bu idi. Səd dedi: "Mən onlara Rəsulullahın ﷺ namazını qıldırıram və əsla bundan başqasını etmirəm. Mən ilk iki rükəti uzun, növbəti iki rükəti isə qısa qıldırıram". Ömər: "Ey Əbu İshaq, bizim sənin barəndə zənnimiz də elə belə idi"– deyib onu təmizə çıxardı. Çünki onun barəsində olan zənn elə belə idi. Çünki o namazı gözəl bilir və qövmünə Peyğəmbərin buyurduğu kimi namaz qıldırırdı. Buna baxmayaraq Ömər ﷺ onu sorğu-sual etdi, çünki o, əmir idi və daşıdığı məsuliyyəti gözəl anlayırdı. Sonra o Kufəyə adamlar göndərir ki, insanlardan Səd haqqında soruşsunlar. Onlar da məscidə daxil olub onun barəsində xəbər aldıqca insanlar onu tərifləyirdilər.

Sonra həmin adamlar Abs oğulları məscidinə gəlib onun haqqında soruşurlar. Bir kişi qalxıb dedi: "Bizə yardım edin, bu kişi ədalətli iş görmür, döyüşə getmir, adil deyil". Döyüşə, yəni cihada getmir, qəniməti isə ədalətlə bölmür. İnsanlar arasında hökm verdikdə də ədalətlə vermir. Beləcə ona bu üç ittihamı atdı. Səd dedi: "Allaha and olsun ki, üç şey barəsində dua edəcəyəm: "Allahım, əgər sənin bu bəndən yalançı, riyakar və özünü göstərəndirsə, onun ömrünü uzat, yoxsulluğunu artır və onu fitnələrə məruz qoy". Allahdan salamatlıq diləyirik. Üç əzəmətli dua! Lakin o istisna da edərək demişdi ki, əgər Sənin bu bəndən riyakarlıqla və haqsız olaraq özünü göstərərək bunu etmişsə. Allah da onun duasını

qəbul etdi. Həmin adam uzun ömür yaşadı. Hətta o dərəcədə ki, onun qaşları gözlərini örtdü. Həm olduqca yoxsul vəziyyətə düşdü, həm də fitnələrə məruz qaldı – bu qədər yaşlı ikən qız uşaqlarına əl-qol atır, yolda, bazarda onlara sataşırdı. Allah qorusun. Özü haqqında isə o belə deyirdi: "Mən fitnəyə məruz qalmış yaşlı bir qocayam, Sədin duası məni tutub".

Bu da Allahın Səd ibn Əbu Vaqqasa رضي الله عنه bəxş etdiyi kəramətlərdən biri idi.

Bu hədisdə bir sıra faydalar vardır. Həmin faydalardan biri odur ki, insanlara rəhbər təyin olunan birisi nə qədər uca məqama çatmış olsa belə, onlardan rahat olmur. Ona pislik üz verməsi qaçılmazdır. İbn əl-Vardi məşhur qəsidəsində demişdir:

Nəğmə və qəzəl söyləməkdən çəkin,
Qəti söz söylə və istehzadan çəkin,
Yeniyetmələk illərini xatırla,
Yeniyetmələk illəri insanın ulduzudur.
İnsanların yarısı düşməndir,
Ədalətli olsa belə, rəhbər olan kəsə.

Faydalardan biri də məzlumun zalım olan kəsə zülmünə görə bəddua etməsidir. Səd ibn Əbu Vaqqasın رضي الله عنه ona zülm edən kəsə etdiyi üç bəddua kimi.

Faydalardan biri də odur ki, Uca Allah məzlumun duasını qəbul edir. Buna görə də Peyğəmbər ﷺ Müaz ibn Cəbəli رضي الله عنه Yəmənə göndərəndə ona onlardan mallarının zəkatını almasını əmr etmiş və demişdi: **"Mallarının artığını götür, bir də məzlumun duasından qorx, çünki onunla Allah arasında heç bir pərdə yoxdur".**[1] Beləliklə Allah məzlumun duasını o kafir olsa belə, qəbul edir – zülm olunduqda Allaha dua edir, Allah da onun duasını qəbul edir. Çünki izzət və cəlal sahibi Allah ədalətlə hökm edəndir – zülmə məruz qalmış kəs üçün, o kafir olsa belə, ədalətlə hökm verir. Gör indi müsəlman olsa necə olar?

Hədisdəki bir başqa fayda odur ki, insan duada şərt qoya bilər. Misal üçün, dua etdikdə deyə bilər ki, "Allahım, əgər belədirsə, ona belə et, Allahım, əgər o mənə zülm etmişdirsə, ona belə bir bəla ver". Yəni zülmü miqdarında ona bəddua edirsən. Qurani-Kərimdə duada şərt barəsində

[1] "Səhih əl-Buxari", 1401; "Səhih Muslim", 27.

Uca Allah buyurur: **"Arvadlarını *zinada* günahlandırıb özlərindən başqa şahidləri olmayanların hər birinin şahidliyi özünün doğru danışanlardan olmasına dair dörd dəfə Allahı şahid tutması, beşinci dəfə isə: "Əgər yalan danışanlardandırsa, Allah ona lənət eləsin!"– *deməsidir*. Qadının da ərinin yalan danışanlardan olduğuna dair dörd dəfə Allahı şahid tutması cəzanı ondan dəf edər. Beşinci dəfə: "Əgər *ər* doğru danışanlardandırsa, Allah o qadına lənət eləsin!"– *deməlidir*".**[1]

Bu hədisdə bir başqa fayda da odur ki, möminlərin əmiri Ömər رضي الله عنه öz rəiyyətinə qarşı olduqca diqqətli və məsuliyyətli idi və bunları dərk edirdi. Bu səbəbdən də o bütün işlərdə, o cümlədən siyasət, hərb, sülh, din və dünya məsələlərində öz ədaləti ilə məşhur idi. Əbu Bəkrdən رضي الله عنه sonra xəlifəliyə ən layiq olan şəxsiyyət də o idi. Hətta demək olar ki, o, Əbu Bəkrin savab işlərindən biri idi. Çünki onu müsəlmanlara rəhbər təyin edən Əbu Bəkr olmuşdur.

Xülasə, bu hədisin başqa faydaları da var, ancaq biz yalnız bunları qeyd etməklə kifayətlənirik. Müvəffəq edən Allahdır.

١٥٠٦– وعنْ عُرْوَةَ بن الزُّبَيْر أنَّ سعِيدَ بنَ زَيْدِ بْنِ عمْرو بْنِ نُفَيْلٍ، رضي الله عنه خَاصَمَتْهُ أرْوَى بِنْتُ أوْسٍ إلى مَرْوَانَ بْنِ الحَكَم، وَادَّعَتْ أنَّهُ أَخَذَ شَيْئاً مِنْ أرْضِهَا، فَقَالَ سَعِيدٌ: أنَا كُنْتُ آخُذُ مِنْ أرْضِها شَيْئاً بعْدَ الذي سمِعْتُ مِنْ رَسُولِ الله ﷺ، ؟ قَالَ: مَاذا سمِعْتَ مِنْ رَسُولِ الله ﷺ ؟ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يقُولُ: « مَنْ أَخَذَ شِبْراً مِنَ الأرْضِ ظُلْماً، طُوِّقَهُ إلى سبْعِ أرضِينَ » فَقَالَ لَهُ مرْوَانُ: لا أسْأَلُكَ بَيِّنَةً بعْد هذا، فَقَال سعيدٌ: اللَّهُمَّ إنْ كانَتْ كاذِبةً، فَأَعْمِ بصرهَا، وَاقْتُلْهَا في أرْضِهَا، قَالَ: فَمَا ماتَتْ حَتَّى ذَهَبَ بَصَرُهَا، وبيْنَما هِي تمْشي في أرْضِهَا إذ وَقَعَتْ في حُفْرةٍ فَمَاتتْ. متفقٌ عليه.

وفي روايةٍ لمسلِمٍ عنْ مُحمَّدِ بن زَيْد بن عبد الله بن عُمَر بمَعْنَاهُ وأَنَّهُ رآهَا عَمْياءَ تَلْتَمِسُ الجُدُرَ تَقُولُ: أصَابَتْني دعْوَةُ سعِيدٍ، وَأَنَّها مرَّتْ عَلى بِئْرٍ في الدَّارِ التي خَاصَمَتْهُ فِيهَا، فَوقَعتْ فِيها، وَكانَتْ قَبْرهَا.

1506. Urva ibn Zubeyrdən rəvayət olunur ki, Arva bint Avs *adlı qadın* Səid ibn Zeyd ibn Amr ibn Nufeyli رضي الله عنه Mərvan ibn Həkəmə şikayət edərək

[1] "ən-Nur" surəsi, 6-9.

bildirir ki, o, onun torpağının bir hissəsini zəbt edib. Səid dedi: "Mən Rəsulullahın ﷺ bu sözləri dediyini eşitdikdən sonra onun torpağının heç bir qarışını da götürmərəm". Dedi: "Rəsulullahdan ﷺ nə eşitmisən?" Dedi: «Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Kim haqsız olaraq bir qarış torpaq zəbt edərsə, Allah həmin torpağın yeddi qatını onun üzərinə tökər"».** Mərvan ona dedi: "Bundan sonra səndən başqa bir dəlil istəmirəm". Səid dedi: "Allahım, əgər bu qadın yalançıdırsa, onun gözlərini kor et və onu öz torpağında öldür". *Ravi* deyir ki: "Ölməmişdən öncə onun gözləri kor oldu, sonra da öz torpağında gəzərkən bir quyuya düşüb öldü".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Muslimin rəvayətində isə Muhəmməd ibn Zeyd ibn Abdullah ibn Ömərdən رضي الله عنهما rəvayət olunur ki, o həmin qadını kor halında divarlardan tuta-tuta gəzən görmüşdür. O deyirdi: "Səidin bədduası məni tutub". Sonra da o, mübahisə etdiyi torpaqda gəzərkən bir quyuya düşərək ölmüş, həmin torpaq da onun məzarı olmuşdu.

Şərh:

Övliyaların kəramətlərindən biri də Uca və nöqsansız Allahın onların dualarını qəbul etməsi, onların da öz dualarının qəbul olunmasına şahid olmalarıdır. Səid ibn Zeyd ibn Amr ibn Nufeylə baxın. O, Cənnətlə müjdələnmiş on kişidən biridir. Bir qadın onu torpağının bir hissəsini qəsb etməkdə ittiham etmiş və Mərvana şikayət etmişdi. Səid dedi: "Mən Rəsulullahın ﷺ bu sözləri dediyini eşitdikdən sonra onun torpağının heç bir qarışını da götürmərəm". Dedi: "Rəsulullahdan ﷺ nə eşitmisən?" Dedi: «Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Kim haqsız olaraq bir qarış torpaq zəbt edərsə, Allah həmin torpağın yeddi qatını onun üzərinə tökər"».** Yəni mən bunu Peyğəmbərdən ﷺ eşitdiyim halda onun torpağını necə götürə bilərəm. Allah və rəsuluna iman gətirmiş bir kəs haqq peyğəmbərdən belə bir söz eşitdikdən sonra kiminsə torpağından bir qarış belə götürməz. Burada bəlağətli olsun deyə məhz bir qarış torpaq sözü işlənmişdir. Əslində bir santimetr belə olsa başqasının torpağını kimsə ələ keçirərsə, Qiyamət günü Allah həmin torpağın yeddi qatını onun üzərinə

[1] "Səhih əl-Buxari", 2959; "Səhih Muslim", 3022.

tökər. Qiyamət günü həmin torpağın yeddi qatı onun boynundan asılar. Belə ki, yer yeddi qatdan ibarətdir. Uca Allah bu xüsusda buyurur: **"Yeddi qat səmanı, onun qədər də yeri yaradan Allahdır".**[1]

İnsan torpaq aldıqda onun altına da, ta yeddinci qatınadək yiyələnmiş olmuş olur. Həmçinin həmin torpağın üzərindəki havanı da səmalaradək almış olur. Yəni heç kim həmin torpağın üzərində körpü tikə və ya onun altında xəndək qaza bilməz. Çünki o, həmin yerin səmaya qədər, habelə yerin altının yeddi qatına da malik olmuş olur. Kim kiminsə torpağından bir qarış götürərsə, Qiyamət günü həmin torpağın hamısı onun boynundan asılacaqdır. Allah qorusun!

Müşahidə olunan gün, yəni Qiyamət günü bütün yaradılanlar, həmçinin heyvanlar bir yerə həşr olunacaqlar. Həmin vaxt torpağı qəsb olunan kəs onu qəsb edənin boynunda həmin torpağın yeddi qatının asıldığını görəcəkdir. Allah qorusun! Buna görə də Peyğəmbər ﷺ demişdir: **"Yerin sərhədlərini dəyişən kəsə Allah lənət etsin".**[2] Yəni onun sərhədlərini dəyişən, özünə aid olmayan torpağı qəsb edən kəsə. Bu da dəlildir ki, başqasının torpağını qəsb etmək böyük günahlardan hesab olunur. Çünki ona bu böyük cəza veriləcəkdir. Həm lənət, həm də torpağı boynunda daşıması.

İndi təsəvvür edin, günümüzdə kilometrlərlə əraziləri qəsb edən kəslərin halı necə olacaq. Böyük sahələr qəsb olunur və müsəlmanların otlaqları əllərindən alınır. Belələri müsəlmanları heyvanlarının otlaqlarından, yollarından, vadilərindən və buna bənzər başqa yerlərdən məhrum edirlər. Qiyamət günü belələri qəsb etdiklərini boyunlarında daşıyacaqlar. Çünki onlar həmin torpaqları haqsız olaraq əldə etmişdilər. Müsəlmanların heyvanlarının otlaqları hamı üçündür, yollar hər kəs üçündür, vadilər və yağmurlu dərələr hər kəs üçündür. Alimlər demişlər ki, insan əkməklə *qəsb etdiyi* ölü torpağa sahiblənmiş olmur. Əgər kimsə gəlib bir torpağı əkib becərsə, tikinti aparsa, onun əkdiyi və tikdiyi sökülməlidir. Çünki bu ümumi mənafe üçündür. Yer də hər hansı bir insanın mülkiyyəti deyildir. Hətta fərz edək ki, əmr sahibi bir adamın torpağını onun əlindən alır ki, həmin şəhərin əhalisinin bu yerə ehtiyacı var. Bu zaman əmr sahibi həmin

[1] "ət-Talaq" surəsi, 12.

[2] "Səhih Muslim", 3657.

torpağın mülkiyyətçisinə çevrilmir. Çünki o, bu işdə müsəlmanların mənfəəti üçün çalışmalı, heç kimin mənfəətini digərininkindən üstün tutmamalıdır. Bu da olduqca məsuliyyətli bir məsələdir. Bu səbəbdən də torpaqların qiyməti artdıqda insanlar bir-birilərinin haqqına girməyə başladılar və özlərinə aid olmayan torpağın onlara aid olduğunu iddia etdilər. Ya da birinin qonşusu onun torpağının bir hissəsini öz torpağına qatır. Beləsi böyük bir təhlükə ilə üz-üzədir. [Ola bilsin, oxucunu bir az yorduq.] Hətta alimlər demişlər ki, əgər insan bir divar inşa edərkən onun özülündə bir santimetr belə başqasının torpağına girmiş olarsa, buna görə o haqsızlıq etmiş olur və Qiyamət günü Allah yanında cəzaya layiq olar.

Alimlərin bu çəkindirmələrinə və xəbərdarlıqlarına diqqət yetirin. İndi insanlar belə bir cəza ola-ola – Allah qorusun – metrlər nədir, hətta kilometrlər qəsb edirlər. Səid ibn Zeyd ﵁ Mərvana ﵀ bu hədisi danışdıqda o demişdi: "Bundan sonra səndən başqa bir dəlil istəmirəm". Çünki o bilirdi ki, Səidin həmin qadının torpağını qəsb etməsi qeyri-mümkündür. Qadının əleyhinə isə Səid belə dua etdi: "Allahım, əgər bu qadın yalançıdırsa, onun gözlərini kor et və onu öz torpağında öldür". Bundan sonra nə baş verdi? İzzət və cəlal sahibi Allah həmin qadını ölməmişdən öncə kor etdi, qadın öz torpağında gəzərkən quyuya düşərək öldü, Səid ibn Zeydə qarşı iddia irəli sürdüyü həmin torpaq da onun məzarına çevrildi. Bu da izzət və cəlal sahibi Allahın Səid ibn Zeydə ﵁ əta etdiyi kəramət idi ki, Allah onun duasını qəbul etmiş və duasının cavabını ona ölməmişdən öncə, hələ sağlığında göstərmişdi.

Öncə də qeyd etmişdik ki, məzlum kafir olsa belə, Allah onun duasını qəbul edir. Uca Allah hər zaman zalıma qarşı məzluma yardım edir. Çünki o, ədalətli və hikmət Sahibidir. Özü zülm etmir və heç kəsə zülm etməyə imkan vermir. Uca Allah Qurani-Kərimdə buyurur: **"Şübhəsiz ki, zalımlar əsla nicata çatmazlar".**[1]

Deməli, zalım əsla nicata çatmayacaq.

Sən də bu qissə barədə düşün və ibrət al. Bundan əvvəl qeyd etdiyimiz Səd ibn Əbu Vaqqasın da qissəsindən ibrət al. Bax, gör Allah onun duasını necə qəbul etdi. Bu, Uca və nöqsansız Allahın yoludur. Allah bizləri və sizləri zülmdən qorusun. Müvəffəq edən Allahdır.

[1] "əl-Ənam" surəsi, 21.

١٥٠٧– وَعَنْ جَابِرِ بنِ عبْدِ اللَّهِ ﵄ قَال: لَمَّا حَضَرَتْ أُحُدٌ دَعاني أبي مِنَ اللَّيْلِ فَقَال: مَا أُرَاني إلاَّ مَقْتُولا في أوَّل مَنْ يُقْتَلُ مِنْ أصْحابِ النبي ﷺ، وَإنّي لا أَتْرُكُ بعْدِي أعزَّ عَلَيَّ مِنْكَ غَيْرِ نَفْسِ رسُولِ اللَّهِ ﷺ، وإنَّ عليَّ دَيْناً فَاقْضِ، واسْتَوْصِ بِأَخَوَاتِكَ خَيْراً: فأَصْبَحْنَا، فَكَانَ أوَّل قَتِيلٍ، ودَفَنْتُ مَعهُ آخَرَ في قَبْرِهِ، ثُمَّ لَمْ تَطِبْ نفسي أنْ أتْرُكهُ مع آخَرَ، فَاسْتَخْرَجته بعْدَ سِتَّةِ أشْهُرٍ، فَإذا هُو كَيَوْمِ وَضَعْتُهُ غَيْر أُذُنِهِ، فَجَعَلتُهُ في قَبْرٍ عَلى حِدَةٍ. رواه البخاري.

1507. Rəvayət olunur ki, Cabir ibn Abdullah ﵄ demişdir: "Uhud gününün gecəsi atam məni çağırıb dedi: "Özümü *bu gün* Peyğəmbərin ﷺ səhabələrindən ilk öldürülənlərindən olduğunu görürəm. Özümdən sonra Rəsulullah ﷺ istisna olmaqla, səndən daha əziz birisini qoyub getmirəm. Borcumu ödəyərsən, bacılarınla da xoş davranarsan". Səhər açıldı və o, ilk öldürülənlərdən oldu. Onu başqa birisi ilə bir yerdə dəfn etdik. Ancaq onun başqa birisi ilə eyni məzarda dəfn olunmasından rahat olmadım. Altı ay sonra onu məzarından çıxardım, gördüm ki, qulağı istisna olmaqla o, dəfn olunduğu gündəki kimidir. Sonra onu ayrıca məzarda dəfn etdim".

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

Şərh:

Müəllifin ﵀ "Övliyaların kəraməti və fəziləti" fəslində mövzuya aid qeyd etdiklərindən sonra Cabir ibn Abdullahın ﵁ atası Abdullah ibn Haramın ﵁ başına gələnlərlə bağlı bu hədisi qeyd etmişdir.

Rəvayət edilir ki, o, bir gecə Cabiri oyadıb dedi: "Uhud döyüşündə Peyğəmbərin ﷺ səhabələrindən ilk qətlə yetiriləcək şəxs olacağımı düşünürəm". Sonra ona vəsiyyət edib dedi: "Mən Rəsulullahdan ﷺ sonra səndən daha əziz birisini qoyub getmirəm". Sonra ona tövsiyə etdi ki, borcunu ödəsin, bacılarının qayğısına qalsın. Səhər döyüş başladı və o, qətlə yetirildi. Həmin gün müsəlmanlardan yetmiş nəfər qətlə yetirildi və onların hər biri üçün ayrıca məzar qazmaq müsəlmanlara çətin gəldi. Odur ki, onlar iki və ya üç nəfəri bir məzarda dəfn etdilər. Cabirin atası Abdullah ibn Haramla birlikdə də bir kişi dəfn olundu. Lakin Cabirin ürəyi rahat olmadı və o, atasının məzarını o biri kişinin məzarından ayırmaq istədi. Altı ay sonra o, qazıb məzarı açdı və gördü ki, atası sanki indicə dəfn

[1] "Səhih əl-Buxari", 1264.

olunmuş kimidir. Qulağındakı cüzi dəyişiklikdən savayı atasının cəsədində heç bir dəyişiklik görmədi. Sonra onu ayrıca dəfn etdi.

Cabirə ﵁ gəlincə, o, atasının borcunu ödədi, bacılarının da qayğısına qalması üçün dul bir qadınla evləndi. Bir gün Peyğəmbər ﷺ ondan soruşdu ki, evlənmisənmi? O: "Bəli" deyə cavab verdi. O dedi: "Bakirə ilə, yoxsa dul qadınla?" Dedi: "Dul qadınla". Peyğəmbər ﷺ dedi: "Yaxşı olardı ki, bakirə ilə evlənəydin. O sənin lə oynayardı, sən də onunla, o səni güldürərdi, sən də onu". Cabir dedi: "Ey Allahın elçisi, atam mənə bacılarımı əmanət qoyub getdi". Sonra da izah etdi ki, dul ilə evlənib ki, bacılarına baxsın.

Bu, Cabirin atası Abdullah ibn Haramın kəramətlərindən idi. O, Uhud döyüşündə ilk qətlə yetirilənlərdən olacağını demiş, sonrasında isə onun bədəni altı ay sonra cüzi bir şey istisna olmaqla, çürüməmişdi.

Bil ki, insan dəfn olunduqdan sonra yer onun cəsədini yeyir. Yalnız büzdüm fəqərəsindən başqa. Bu büzdüm fəqərəsi də Qiyamət günü insanların yenidən dirilmə toxumu kimi olacaq, insanlar yenidən diriləcəklər. Yalnız peyğəmbərlərin cəsədləri istisnadır – yer onları çürütmür. Peyğəmbər ﷺ demişdir: **"Allah peyğəmbərlərin cəsədlərini yeməyi yerə haram etmişdir".**[1] Digər insanların bədənləri isə çürüyür. Lakin ola bilsin, Allah kəramət olaraq kiminsə bədənini çürütməyi yerə qadağan etsin. Müvəffəq edən Allahdır.

١٥٠٨– وَعَنْ أَنَسٍ ﵁ أَنَّ رَجُلَيْنِ مِنْ أَصْحابِ النبي ﷺ خَرَجا مِنْ عِنْدِ النبي ﷺ في لَيْلَةٍ مُظْلِمَةَ ومَعهُمَا مِثْلُ المِصْبَاحَينِ بيْنَ أيديهِما، فَلَمَّا افتَرَقَا، صارَ مَعَ كلِّ واحِدٍ مِنهما وَاحِدٌ حَتى أتَى أهْلَهُ.

رواه البخاري مِنْ طرُقٍ، وفي بعْضِها أنَّ الرَّجُلَيْنِ أُسيْدُ بنُ حُضيرٍ، وعبَّادُ بنُ بِشْرٍ ﵄.

1508. Ənəsdən ﵁ rəvayət olunur ki, Peyğəmbərin ﷺ səhabələrindən iki nəfər qaranlıq bir gecədə Peyğəmbərin ﷺ yanından çıxdılar. Onların əllərində çırağa bənzər bir şey var idi. Onlar ayrıldıqda hərəsində biri var idi. Beləcə onlar öz ailəsinin yanına gəldilər.

[1] "Musnəd İmam Əhməd", 4/8; "Sunən Əbu Davud", 883; "Sunən ən-Nəsai", 1357; "Sunən İbn Macə", 1075.

Hədisi Buxari müxtəlif yollarla rəvayət etmişdir. Onların bəzisində həmin iki kişinin Useyd ibn Xudeyr və Abbad ibn Bişr olduğu deyilir.[1]

Şərh:

Bu hədisi Hafiz ən-Nəvəvi ﵀ "Övliyaların kəraməti və fəziləti" fəslində qeyd etmişdir. Həmin hədisdə deyilir ki, iki nəfər – Useyd ibn Xudeyr və Abbad ibn Bişr ﵃ qaranlıq bir gecədə Peyğəmbərin ﷺ yanında idilər. Həmin vaxt hələ bazarlarda çıraq satılmırdı. Hətta evlərdə də çıraq yox idi. Onlar Rəsulullahın ﷺ yanından çıxdıqda Uca Allah onların önlərində çırağa bənzər işıqlar yaratdı. Yəni elektrik lampasına bənzər işıqlar onların yoluna işıq saldı. Bu onların istəyi ilə baş vermirdi. Uca Allah onlar üçün bir nur yaratdı və həmin nur onların hər biri evinə çatanadək yollarına işıq saldı. Bu da izzət və cəlal sahibi Allah tərəfindən verilmiş bir kəramətdir. Allahın kəramətindəndir ki, O, öz bəndəsinin yolunu nurlandırır. Burada söhbət addımla gedilən yoldan gedir və bunun faydası da hiss olunandır. Həmin iki şəxs bazarlarda və yollarda çıraqların olmadığı bir vaxtda işıqla gəzirdilər. Zülmət qaranlıqda Allah onlara bu nuru bəxş edir. Uca Allah insanın qəlbinə də nur verə bilər ki, bu da mənəvi nur adlanır. Görürsən ki, bəzi alimlərə Uca Allah böyük elmlər nəsib edir, onlar da müxtəlif fənləri öyrənib mənimsəyir və haqqı müdafiə edirlər.

Belə alimlərdən biri də Şeyxulislam İbn Teymiyyədir. Bu adamı İslam ümmətinə Allah bəxş etmişdir. Günümüzə qədər də İslam ümməti onun kitablarından faydalanır. O, hicrətin 728-ci ilində, yəni yüz illər öncə vəfat etsə də, ümmət bu gün də onun əsərlərindən istifadə edir. Allah ona böyük elm, fitri istedad və güclü mücadilə qabiliyyəti bəxş etmişdi. Kimsə onunla mübahisə etmək iqtidarında deyildi. O hətta demişdir ki: "Kim ayə və hədis dəlil gətirərək batil mövqedən mənimlə mübahisə edərsə, mən onun gətirdiyi ayə və hədisi onun özünə qarşı istifadə edərəm". İzzət və cəlal sahibi Allahın nemətindəndir ki, O, insana belə bir güc versin. Hətta bəziləri ilə mübahisə etdikdən sonra onlara belə deyirdi: "Tabe olduğunuz filan alimin filan kitabındakı sözünə baxın, görün o nə deyir". Beləcə Şeyxulislamla mübahisə edən kəslər öz kitablarında nə yazıldığından bixəbər olduqları halda, o, onların kitabında yazılanları bilirdi. "Vasitiyyə əqidəsi"ndə maliki qazi ilə etdiyi mübahisə olduqca qəribədir. Maliki qazi

[1] "Səhih əl-Buxari", 445.

istəyirdi ki, Sultan İbn Teymiyyəyə qəzəblənsin. O isə deyirdi: "Bu sizin məzhəbinizə uyğun deyil. Maliki məzhəbinin kitablarında belə demisiniz. Heç bir halda rəhbər məzhəbinizə müxalif olduğu üçün sənin dediyinə etiqad edə bilməz". Həmin adam da məğlub olur və başa düşə bilmir ki, bu adam bizim məzhəbimizi haradan belə öyrənib?

İbn Teymiyyə başqa müxtəlif fənlərdə – nəhv, sərf, ərəb dili, bəlağət kimi elmlərdə də əhatəli biliyə malik əsil alim idi. Onun tələbəsi İbn Qeyyim "əl-Bədai val-fəvaid" əsərində həmdlə tərif arasında olduqca dəqiq bir araşdırma aparmış və göstərmişdir ki, ərəb dilində bircə hərfin öz yerini dəyişməsi ilə məna necə dəyişir. O, çox qəribə bir araşdırma aparmış, sonra demişdir: "Şeyximiz ﵀ bu xüsusda danışdıqda çox qəribə məsələlər açıqlayardı. Lakin o, şairin dediyi kimidir:

İldırım çaxdı və mən ona dedim ki,
Ey ildırım, sənə ayıracaq vaxtım yoxdur.[1]

Yəni Şeyxulislam İbn Teymiyyə nəhv, sarf və bəlağət kimi elmlərdən daha önəmli elmlərlə məşğul olmuşdur.

Günlərin bir günü o, Misirə gəlir. Bu vaxt orada ərəb dili və təfsir üzrə ən məşhur alimlərdən olan Əbu Həyyan var idi. Əbu Həyyan Şeyxulislam İbn Teymiyyəni tərifləmişdi. Hətta onun İbn Teymiyyənin tərifi ilə bağlı qəsidəsi də var. Həmin qəsidədə o demişdir:

İbn Teymiyyə şəriətimizin müdafiəsinə qalxmışdır,
Teym qəbiləsinin rəhbərinin yolunu getmişdir.

Alim "Teym qəbiləsinin rəhbəri" deyərkən Əbu Bəkr əs-Siddiqi ﵁ nəzərdə tutur. Yəni İslam aləmində bidət və xürafatların geniş yayıldığı bir dönəmdə o, Əbu Bəkrin ﵁ Riddə günü etdiyi kimi, İslamı müdafiə etmişdir.

Misirə gəldikdə insanlar gəlib Şeyxulislam İbn Teymiyyənin elmindən faydalanmağa və onunla mübahisə etməyə başlayırlar. Onlardan biri də Əbu Həyyan idi. Onlar onunla nəhvlə bağlı bir məsələdə münaqişə edirdilər. Belə ki, Əbu Həyyan nəhv elmində dərya idi. Şeyxulislam ona belə dedi: "Bu səhvdir və ərəblər belə deməyiblər". O dedi: "Necə? Axı Sibaveyh nəhv elminin imamıdır və o, bunu öz kitabında belə qeyd etmişdir". Şeyxulislam ona dedi: "Məgər Sibaveyh nəhv elmində peyğəmbərdir

[1] "Mucəm əl-buldən", 5/264. Abdur-Rahmən ibn Dəraya aid edilir.

və bizim ona tabe olmağımız vacibdir? Sibaveyh öz kitabında səksəndən artıq yerdə xətaya yol vermişdir. Həmin səhvləri nə sən bilirsən, nə də ki, Sibaveyh. Dil alimləriniz Sibaveyhi lap hədis elminin Buxarisi edib". Əbu Həyyan təəccübləndi ki, o bu sözü necə deyə bilər axı. Sonra da bir qəsidə yazıb onu pisləməyə başladı. Allah qorusun. Əvvəlcə onu tərifləyirdi, sonra isə pislədi.

Xülasə, mühüm olan odur ki, Uca Allah kəramət vasitəsilə insana nur bəxş edə bilər və insan da həmin nurdan faydalana bilər. Bu iki səhabəyə bəxş etdiyi kimi. Uca Allah həm də mömin bəndəsinin qəlbinə də mənəvi nur verə bilər. Allah bizləri və sizləri belə qullarından etsin, qəlblərimizə nur və hidayət nəsib etsin. İnsan həmin nur vasitəsilə Allahın şəriətindən dəlillər sanki onun alnına yazılıbmış kimi danışa bilər. Bu Allahın insana bəxş etdiyi nemətlərdəndir. Uca Allahdan diləyirəm ki, bizləri təqvalı övliyalarından, zəfər çalacaq tayfasından və əməlisaleh bəndələrindən etsin.

١٥٠٩– وعنْ أبي هُرَيْرةَ، رضي الله عنه، قَال: بَعثَ رَسُولُ اللّهِ ﷺ عَشَرَةَ رهْطٍ عَيْناً سَريَّةً، وأمَّرَ عليْهِم عَاصِمَ بنَ ثابِتٍ الأنصاريَّ، رضي الله عنه، فَانطَلَقُوا حتَّى إذا كانُوا بالهَدْاةِ، بيْنَ عُسْفانَ ومكَّةَ، ذُكِرُوا لَحِيّ منْ هُذَيْلٍ يُقالُ لهُمْ: بنُوا لِحيَانَ، فَنَفَرُوا لهمْ بقَريب منْ مِائَةِ رجُلٍ رَامٍ فَاقْتَصُّوا آثَارَهُمْ، فَلَمَّا أحَسَّ بِهِمْ عاصِمٌ وَأصحابُهُ، لجَأوا إلى مَوْضِعٍ، فَأحاطَ بهمُ القَوْمُ، فَقَالُوا انْزلوا، فَأَعْطُوا بأيْدِيكُمْ ولكُم العَهْدُ والمِيثاقَ أنْ لا نَقْتُل مِنْكُم أحداً، فَقَالَ عاصم بن ثابت: أيها القومُ، أمَّا أنَا فلا أَنْزِلُ عَلَى ذِمةِ كَافرٍ. اللهمَّ أخْبِرْ عَنَّا نَبِيَّكَ ﷺ فَرمَوْهُمْ بِالنَّبْلِ فَقَتَلُوا عَاصِماً، ونَزَل إلَيْهِمْ ثَلاثَةُ نَفَرٍ على العهدِ والمِيثاقِ، مِنْهُمْ خُبيْبٌ، وزَيْدُ بنُ الدَّثِنة ورَجُلٌ آخَرُ، فَلَمَّا اسْتَمْكَنُوا مِنْهُمْ أطْلَقُوا أوْتَار قِسِيِّهِمْ، فرَبطُوهُمْ بِها، قَال الرَّجلُ الثَّالِثُ: هذا أوَّلُ الغَدْرِ واللَّهِ لا أصحبُكمْ إنَّ لي بهؤلاءِ أُسْوةً، يُريدُ القَتْلى، فَجرُّوهُ وعالجوه، فَأبي أنْ يَصْحبَهُمْ، فَقَتَلُوهُ، وانْطَلَقُوا بخُبَيْبٍ، وَزيْدِ بنِ الدَّثِنَةِ، حتى بَاعُوهُما بمكَّةَ بَعْد وَقْعةِ بدرٍ، فَابتَاعَ بَنُو الحارِثِ ابنِ عامِرِ بن نوْفَلِ بنِ عَبْدِ مَنَافٍ خُبَيْباً، وكانَ خُبَيبُ هُوَ قَتَل الحَارِثَ يَوْمَ بَدْرٍ، فلَبِثَ خُبيْبٌ عِنْدهُم أسِيراً حَتى أجْمَعُوا على قَتْلِهِ، فَاسْتَعارَ مِنْ بعْضِ بنَاتِ الحارِثِ مُوسَى يَسْتحِدُّ بهَا فَأَعَارَتْهُ، فَدَرَجَ بُنَيٌّ لهَا وَهِي غَافِلةٌ حَتى أَتَاهُ، فَوَجَدْتُه مُجْلِسَهُ عَلى فَخذِهِ وَالمُوسَى بِيده، فَفَزِعتْ فَزْعَةً عَرَفَهَا خُبَيْبٌ، فَقَال: أتَخْشيْنَ أن أقْتُلَهُ ما كُنْتُ لأفْعل ذلكَ، قَالَتْ: وَاللَّهِ ما رأيْتُ أسِيراً

خَيْراً مِنْ خُبيبٍ، فواللَّهِ لَقَدْ وَجدْتُهُ يوْماً يأَكُلُ قِطْفاً مِنْ عِنبٍ في يدِهِ، وإِنَّهُ لَمُوثَقٌ بِالحديدِ وَما بمَكَّةَ مِنْ ثمَرَةٍ، وَكَانَتْ تقُولُ: إِنَّهُ لَرزقٌ رَزقَهُ اللَّه خُبَيباً، فَلَمَّا خَرجُوا بِهِ مِنَ الحَرمِ لِيقْتُلُوهُ في الحِلِّ، قَال لهُم خُبيبُ: دعُوني أُصلي ركعتَيْنِ، فتَرَكُوهُ، فَركعَ رَكْعَتَيْنِ، فقالَ: واللَّهِ لَوْلا أنْ تَحسَبُوا أنَّ مابي جزَعٌ لَزِدْتُ: اللَّهُمَّ أحْصِهِمْ عدداً، واقْتُلهمْ بَدَداً، ولا تُبْقِ مِنْهُم أحداً. وقال:

فلَسْتُ أُبالي حينَ أُقْتلُ مُسْلِماً على أيّ جنْبٍ كَانَ للَّهِ مصْرعِي

وذلِكَ في ذَاتِ الإلَهِ وإنْ يشَأْ يُبَارِكْ عَلَى أوْصالِ شِلْوٍ مُمَزَّعِ

وكانَ خُبيْبٌ هُو سَنَّ لِكُلّ مُسْلِمٍ قُتِلَ صبْراً الصَّلاةَ وأخْبَر يعني النبي ﷺ. أصْحَابهُ يوْمَ أُصِيبُوا خبرهُمْ، وبعَثَ نَاسٌ مِنْ قُرَيْشٍ إلى عاصِم بن ثابتٍ حينَ حُدِّثُوا أنَّهُ قُتِل أنْ يُؤْتَوا بشَيءٍ مِنْهُ يُعْرفُ. وكَانَ قتَل رَجُلاً مِنْ عُظَمائِهِمْ، فبَعثَ اللَّه لِعَاصِمٍ مِثْلَ الظُّلَّةِ مِنَ الدَّبْرِ، فَحَمَتْهُ مِنْ رُسُلِهِمْ، فَلَمْ يقْدِرُوا أنْ يَقْطَعُوا مِنهُ شَيْئاً. رواه البخاري.

قولُهُ: الهَدْاَةُ: مَوْضِعٌ، وَالظُّلَّةُ: السحاب، والدَّبْرُ: النَّحْلُ. وقَوْلُهُ: « اقْتُلْهُمْ بِدَداً » بِكسرِ الباءِ وفتحهَا، فمن كسر، قال هو جمعٍ بِدَّةٍ بكسر الباءِ، وهو النصِيب، ومعناه اقْتُلْهُمْ حِصَصاً مُنْقَسِمَةً لِكلّ واحِدٍ مِنْهُمْ نصيبٌ، ومن فَتَح، قَالَ: مَعْنَاهُ: مُتَفَرّقِينَ في القَتْلِ واحِداً بَعْدَ وَاحِد مِنَ التّبْدِيدِ.

1509. Rəvayət olunur ki, Əbu Hureyra ؓ demişdir: “Bir dəfə Peyğəmbər ﷺ on nəfərlik bir dəstə hazırlayıb Asim ibn Sabit əl-Ənsarini ؓ də onlara rəhbər təyin etdi. Onlar yola çıxaraq Məkkə ilə Usfan arasındakı Hudət adlı yerə yetişdilər. Lihyan oğullarından olan Ləhiy ibn Huzeyli yüz atıcı ilə onları təqib etdi. Asim və dostları onlardan bir təpəyə sığındılar. Həmin qövm onları əhatəyə alıb dedi: “Düşün, əllərinizi verin, söz veririk ki, sizlərdən kimsəni öldürməyəcəyik”. Asim ibn Sabit dedi: “Ay camaat, mən əsla kafir birisinin zimmətinə daxil olmaram. Allahım, bizim barəmizdə Peyğəmbərə xəbər ver!” Onlar nizə atıb Asimi qətlə yetirdilər. Üç nəfər onlarla əhd bağladı. Onlar Xubeyb, Zeyd ibn əd-Dəsini və başqa bir kişi idi. Onları tutduqdan sonra yaylarının ipi ilə onları bağladılar. Üçüncü kişi dedi: “Bu xəyanətin əvvəlidir. Vallahi, sizinlə dostluq etməyəcəyəm. Bunlar (yəni ölülər) bizim üçün ibrətdirlər”. Onu aparıb yarasını sarısalar da o, yenə də onlarla dostluq etmək istəmədi, onlar da onu öldürdülər. Sonra onlar Xubeyb və Zeyd ibn əd-Dəsini özləri ilə apardılar. [Bu hadisə

Bədr döyüşündən sonraya təsadüf edirdi.] Onları aparıb Məkkədə satdılar. Haris ibn Amir ibn Nəufəl ibn Əbdu Manaf oğulları Xubeybi aldılar. Xubeyb Bədr günü Harisi qətlə yetirmişdi. Beləcə Xubeyb onların əlində əsir oldu, onlar da onu öldürmək qərarına gəldilər. Xubeyb Harisin qızlarından itilənmiş bıçaq istədi, qızlardan biri də uşaqlardan biri ilə ona istədiyini göndərdi, ancaq *Xubeybin* bıçaqla nə edəcəyindən xəbəri yox idi. Sonra gəlib gördü ki, uşaq Xubeybin qucağında oturub. Bıçağı Xubeybin əlində görüncə qəfil irəli atıldı. Xubeyb *onun qorxduğunu* bildi və dedi: "Qorxursan ki, mən onu öldürərəm? Xeyr, mən əsla belə bir iş tutmaram". Qadın deyir ki: "Allaha and olsun ki, mən Xubeybdən daha xeyirli əsir görmədim. Bir dəfə gördüm ki, o, əlində salxım tutub üzüm yeyir. Əli qandallı idi, həmin vaxt da Məkkədə qıtlıq idi". Qadın buna görə deyərdi: "Bu, Allahın Xubeybə verdiyi bir ruzidir". Onlar haramın ərazisindən çıxdılar ki, kənarda onu öldürsünlər. Bu vaxt Xubeyb onlara dedi: "İcazə verin, iki rükət namaz qılım". Onlar onu tək buraxdılar, o da iki rükət namaz qıldı. Sonra dedi: "Vallahi, əgər siz mənim səbirsiz olduğumu hesab etməsəydiniz, sizlər üçün belə dua edərdim: "Allahım, onları bircə-bircə topla, onları öldür, onlardan birini də sağ buraxma". Sonra dedi:

Müsəlman kimi öldüyüm üçün önəm vermirəm,
Hansı tərəfdə əcəlimin çatdığına,
Rəbbimin özü əgər istəsə,
Məhv olmuş oynaqlara belə bərəkət verər.

Xubeyb həmin gün *öz əməli ilə* bütün müsəlmanlara səbri və namazı tövsiyə etmiş oldu. Peyğəmbər ﷺ səhabələrinə onların xəbərlərini verir. Qureyşlilərdən bəziləri Asim ibn Sabitin ölüm xəbərini eşitdikdə onun yanına adamlar göndərirlər ki, ona məxsus bir şey gətirsinlər. Çünki o, müsəlman dəstənin rəhbəri idi. Allah Asimə arı topasına bənzər bir bulud göndərdi. Ona görə də onlar onun heç bir bədən üzvünü kəsə bilmədilər".

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

[Hədisin ərəbcəsində keçən] "həda" sözü yer, "zullə" sözü bulud, "dəbr" sözü arı, "bədədə" sözü isə nəsibdir. Yəni "onları bölünmüş halda öldür ki, hər biri öz payını almış olsun". Bəziləri də "fərqli halda" mənasını verdiyini bildirmişlər.

[1] "Səhih əl-Buxari", 3690.

Bu fəsildə bir sıra səhih hədislər vardır ki, onlar da bu kitabdakı öz məqamlarında zikr olunmuşdur. Misal üçün, rahibin və sehrbazın yanına gedən uşağın hədisi, Cureycin hədisi, ağzını qaya parçası örtmüş mağara əhlinin hədisi, buluda "filankəsin bağçasını sula" deyilməsini eşidən adamın hədisi və buna bənzər bir sıra müxtəlif məşhur dəlillər. Müvəffəq edən Allahdır.

١٥١٠– وعَن ابْنِ عُمر رضي الله عنهما قال: ما سمِعْتُ عُمرَ رضي الله عنه يَقُولُ لِشَيءٍ قطُّ: إنِّي لأَظُنُّهُ كَذا إلاَّ كَانَ كَمَا يَظُنُّ، رواهُ البُخَاري.

1510. Rəvayət olunur ki, İbn Ömər رضي الله عنهما demişdir: "Ömər hər dəfə: "Fikrimcə, bu belədir" dedikdə, onun düşündüyü kimi olurdu".

Bu hədisi Buxari rəvayət etmişdir.

Şərh:

Müəllif رحمه الله "Övliyaların kəraməti və fəziləti" fəslində bir neçə hədis zikr etmişdir. Həmin hədislərdən biri Əbu Hureyradan رضي الله عنه nəql olunmuş Asim ibn Sabit əl-Ənsari və onun dostları haqqında olan hədisdir.

Peyğəmbər ﷺ onları, yəni on nəfəri düşmən üzərinə kəşfiyyata göndərmiş və bunu gizlətmişdi. Onlar Məkkənin yaxınlığına gəldikdə Huzeyl qəbiləsindən olan adamlar onların gəlişindən duyuq düşüb onların üzərinə təqribən yüz atıcı adam göndərirlər. Onlar həmin adamların izinə düşərək onları mühasirəyə alırlar. Sonra huzeyllilər onlara aman veriləcəyinə söz verdilər ki, təslim olub çıxsalar onlara bir şey edilməyəcək. Asim isə dedi: "Ay camaat, mən əsla kafir birisinin zimmətinə daxil olmaram". Çünki kafir izzət və cəlal sahibi Allaha xəyanət edib. Allaha xəyanət edən isə Onun qullarına da xəyanət edər. Bu səbəbdən də Əbu Musa əl-Əşari Ömər ibn əl-Xəttaba məktub yazaraq beytul-mala nəzarət vəzifəsini hesablamanı yaxşı bilən nəsrani birisinə verməsi üçün icazə istədikdə Ömər ona belə cavab vermişdi ki, Allaha və Onun rəsuluna xəyanət edən bir kəsə mən etibar edə bilmərəm. Çünki hər bir kafir xaindir. Ona görə də ona beytul-mala nəzarət vəzifəsini vermə. Əbu Musa ikinci dəfə ona yazır ki, *belə iş üçün* bu adamın bənzərini tapmaq çox çətindir. Ömər ibn Xəttab da ona

cavabında yazır: "Mərhəmətli, Rəhimli Allahın adı ilə. Möminlərin əmiri Ömər ibn əl-Xəttabdan: Nəsrani öldü, vəssalam". Bircə cümlə yazır: "Nəsrani öldü". Yəni elə hesab et ki, həmin nəsrani ölüb. İndi beytul-malda hesablama məsələsi mümkünsüzmü olacaq? Beləcə o, Əbu Musanın istəyini qəbul etmir.

Əlqərəz, Asim ibn Sabit kafirlərə təslim olmağa razılıq vermir. Çünki onlara inanmaq olmaz. Hər bir kafir etibarsızdır. Sonra huzeyllilər bu on nəfər səhabədən Asimi və digər altı nəfəri nizə ilə qətlə yetirirlər. Sağ qalan üç nəfər isə deyirlər ki, gəlin aşağı enək, görək onlar əhdlərinə vəfa edəcəklərmi. Huzeyllilər onları tərkisilah edib əl-qollarını iplə bağladılar. Üçüncü adam dedi: "Bu ilk xəyanətdir, sizə qoşulmayacağam". Onlar onu yola gətirməyə çalışsalar da, o razı olmur və düşmənlər onu da öldürürlər.

Sonra onlar Xubeyb və onun dostunu aparıb Məkkədə satdılar. Xubeybi Məkkə əhlindən olan insanlar alır. Bədr döyüşündə Xubeyb onların rəhbərini qətlə yetirmişdi. Onlar da gördülər ki, bu onu öldürmək üçün gözəl fürsətdir. Onu əlləri bağlı halda əsir saxladılar. Bir dəfə ev əhlindən olan bir uşaq Xubeybin yanına gəlir. Sanki onun ona yazığı gəlir, ona rəhm edir. Necə ki, insan azyaşlı uşaq gördükdə ona yazığı gəlir. Ona görə də görsən ki, sən azyaşlı uşaqlara qarşı rəhmlisən bil ki, bu Allahın sənə verdiyi mərhəmətin əlamətlərindəndir. Çünki mərhəmətli insanlara izzət və cəlal sahibi Allah rəhm edir. Ona görə də əl-Əqra ibn Habis Peyğəmbərin ﷺ Həsənlə Hüseyni öpdüyünü gördükdə belə demişdi: "Mənim on övladım var, ancaq mən onlardan heç birini öpməmişəm". Peyğəmbər ﷺ dedi: **"Əgər Allah sənin qəlbindən mərhəməti almışdırsa, mən nə edə bilərəm?"**[1]**.**

Yenə o ﷺ demişdir: **"Allah rəhm edən qullarına rəhm edər".**[2]

Xubeyb uşağı götürüb dizində oturtdu. Bir qədər əvvəl o ev əhlindən övrət yerlərini təmizləmək üçün bir ülgüc götürmüşdü. Uşaq anasından xəbərsiz Xubeybin yanında oynamağa başlayır. Bu zaman anası da gəlib görür ki, uşaq Xubeybin dizində oturub. Xubeybin əlində ülgücü görən anası düşündü ki, bu Xubeyb üçün gözəl bir fürsətdir, indi oğlanı kəsib öldürəcək. Çünki Xubeybin əlində ülgüc var idi, uşaq da dizində idi. Lakin

[1] "Səhih əl-Buxari", 5539.

[2] "Səhih əl-Buxari", 1204; "Səhih Muslim", 1531.

Xubeyb etibarlı insan və görkəmli səhabə idi. O, uşağın anasının qorxduğunu görüb dedi: "Allaha and olsun ki, mən onu öldürmərəm". Qadın and içib deyir ki, "Mən Xubeybdən daha xeyirli bir əsir görmədim. Bir gün onun əlində üzüm salxımı gördüm". Məkkədə isə belə bir meyvə yox idi. Qadın bildi ki, bu meyvə izzət və cəlal sahibi Allahdandır. Uca və nöqsansız Allah bu üzümü ona göndərmişdir. Halbuki, o bir əsir idi və əlində özünə aid heç bir şeyi yox idi. Onun bazara gedib nə isə alması və onu yeməsi mümkün deyildi. Özü də onların nəzarəti altında idi. Lakin bu üzüm salxımını ona izzət və cəlal sahibi Allah əta etmişdi. O da Məkkədə həmin üzümü yeyirdi. Qadın da anlamışdı ki, bu üzüm Allah tərəfindən göndərilmişdir.

Bu isə Məryəmin hekayəsidir: **"Zəkəriyya hər dəfə onun yanına ibadətgaha daxil olduqda, onun yanında ruzi olduğunu görərdi. O dedi: "Ey Məryəm, bu sənin üçün haradandır?" Məryəm dedi: "Bu, Allah tərəfindəndir. Həqiqətən, Allah istədiyi kimsəyə hesabsız ruzi verir".**[1]

Bu, Uca Allahın Xubeybə bəxş etdiyi kəramətlərdəndir. Uca və nöqsansız Allah ona da bunu bəxş etmişdi. Xubeyb Məkkədə əsir olduğu bir vaxtda ona bir qədər üzüm göndərilmişdi ki, yesin.

Sonra ataları Xubeyb tərəfindən öldürülmüş bu ailənin üzvləri qərara gəlirlər ki, onu öldürsünlər. Lakin hərəmə hörmət əlaməti olaraq deyirlər ki, gəlin onu hərəmin xaricində öldürək. Çünki insan birisini hərəmin xaricində qətlə yetirdikdən sonra hərəmə daxil olardısa, onun orada öldürülməsi caiz deyildi. Uca Allah buyurur: **"Oraya daxil olanın təhlükəsizliyi təmin olunar".**[2]

Bu, cahiliyyət dövrünün adəti idi. İslam da onu təsdiqlədi ki, insan hərəmin xaricində qətlə səbəb olan bir iş törədərsə, sonra da hərəmə sığınarsa, hərəm onu qoruyur. Bu zaman həmin şəxsin orada qətlə yetirilməsi icazəli deyil.

Yaxşı, bəs onunla nə edirlər? Biri deyə bilər ki, tutaq ki, bu qaydanı qəbul etdik, o zaman hər bir cinayətkar qaçıb hərəmdə gizlənər ki, qorunma altında olsun? Deyirik: "Xeyr, biz onu hərəmdə öldürmürük, lakin onu sıxışdırıb hərəmdən çıxarırıq. Necə sıxışdırırıq? Ona yemək-içmək verilmir,

[1] "Ali İmran" surəsi, 37.

[2] "Ali İmran" surəsi, 97.

onunla alış-veriş edilmir, o danışdırılmır; elə edilir ki, özü sıxıntı duysun. Bu zaman o nə edəcək? – Çıxacaq. Çıxdıqdan sonra da ona vacib olanı edəcəyik".

Əlqərəz, onlar Xubeybi hərəmin xaricinə çıxarırlar ki, öldürsünlər, Xubeyb də onlardan xahiş edir ki, iki rükət namaz qılmasına imkan versinlər. Çünki bədənlə yetirilən əməllərin ən şərəflisi namazdır – namaz insanla izzət və cəlal sahibi Rəbbi arasında bir rabitədir. Onlar onun iki rükət namaz qılmasına icazə verdilər. Sonra Xubeyb dedi: "Əgər onların mənim qorxduğumu düşünməyəcəklərini bilsəydim, daha çox namaz qılardım". Çünki, o, namaz qılmağa həris birisi idi. İnsan ölüm anında da gərək bu əməli çox etsin. Sonra o, həmin adamların əleyhinə üç bəddua edir: "Allahım, onları mühasirəyə al, onları öldür, onlardan birini belə sağ saxlama". Allah onun bu duasını da qəbul edir. Bu hadisədən heç bir il keçməmiş hamısı ölür və ya öldürülür. Bu da onun kəraməti idi.

Sonra Xubeyb bu şeiri dedi:

Müsəlman kimi öldüyüm üçün önəm vermirəm,
Hansı tərəfdə əcəlimin çatdığına.
Rəbbimin özü əgər istəsə,
Məhv olmuş oynaqlara belə bərəkət verər.

Demək bu adamın kəramətindəndir ki, Uca və nöqsansız Allah ona Məkkədə mövcud olmayan meyvəni bəxş etmiş, o da əli qandallı ola-ola onu yeyirdi. O, ölümündən öncə namaz qılan ilk adam idi. O bunu etmiş, Uca Allah və Onun elçisi də bunu təsdiqləmişlər. O həmin insanlara bəddua etmiş, Allah da onun duasını qəbul etmişdi.

Qətlə yetirilmiş Asim ibn Sabitə gəlincə, qureyşlilərdən biri onu tanımışdı. O, Qureyşin böyüklərindən birini qətlə yetirmişdi. Onun yanına adamlar göndərirlər ki, qənimət olaraq onun bədən üzvlərindən nə isə onlara aparsınlar ki, rahatlansınlar. Həmin adamlar gəlib onun bədənindən bir üzv götürmək istədikdə, Uca Allah onun üzərinə arxa tərəfdən bir qaraltı, yəni arı sürüsü göndərir. Onlar da onun bədənini həmin adamlardan qorudular. Onlar nə qədər cəsədə yaxınlaşmaq istəsələr də istədiklərinə nail ola bilmədilər və kor-peşman geri döndülər. Bu da Uca və nöqsansız Allahın Asimə verdiyi kəramətlərdən idi ki, Uca Allah onun cəsədini ölümündən sonra belə, onu parçalamaq istəyən düşmənlərindən qorumuşdu.

Kəramətlər olduqca çoxdur. Müəllif ﵀ bu fəsildə onlardan bəzilərini qeyd etmiş, bu kitabın fərqli yerlərində də oxşar məsələləri zikr etmişdir.

Şeyxulislam İbn Teymiyyə demişdir: "Sünnə və camaat əhlinin əqidəsindəndir ki, onlar övliyaların kəramətinə iman gətirirlər. Uca və nöqsansız Allah övliyaların əli ilə müxtəlif elm və kəşflər, qüdrət və təsirlər həyata keçirir". Sonra demişdir: "Kəramətlər bu ümmətdən öncə də mövcud olmuş, bu ümmətdə də Qiyamətədək mövcud olacaqdır". O, özünün "əl-Furqan beynə əvliyaiş-şeytani va övliyair-Rahmən" əsərində kəramətlərə bir sıra dəlillər gətirmişdir.

ÇƏKİNİLMƏSİ ƏMR OLUNANLAR KİTABI

İki yüz əlli dördüncü fəsil

Qeybətin haram olması və dili qorumağın əmr edilməsi

Müəllif ﵀ **"Qeybətin haram olması və dili qorumağın əmr edilməsi"** fəslini qeyd edir.

Allahın elçisi ﷺ səhabələrinə dedi: **"Bilirsinizmi qeybət nədir?"** Dedilər: "Allah və Onun elçisi daha yaxşı bilir". Dedi: **"Qeybət qardaşının xoşuna gəlməyən bir sözü deməkdir"**. Dedilər: "Ey Allahın elçisi, əgər söylədiyim şey qardaşımda varsa, onda necə?" Dedi: **"Əgər söylədiyin şey onda varsa, onun qeybətini etmiş olursan, əgər söylədiyin şey onda yoxdursa, o zaman ona böhtan atmış olursan".**[1]

Qeybət böyük günahlardandır və namaz qılmaqla, oruc tutmaqla, yaxud da başqa bir yaxşı iş görməklə bu günah bağışlanmır. Əksinə, bu günah ədalət tərəzisinə saxlanılır. İbn Abdul-Qaviy "Ədəblər" nəzmində demişdir:

Deyilənə görə qeybət və söz gəzdirmək, –
Hər ikisi Əhmədə görə böyük günahdır.

Yəni İmam Əhməd ibn Hənbəl ﵀ qeybətin və söz gəzdirməyin böyük günahlardan olduğunu bildirmişdir. Peyğəmbər ﷺ qeybətə: **"Qardaşının xoşuna gəlməyən bir sözü deməkdir"** kimi tərif vermişdir. Burada həm yaradılış, həm əxlaq, həm də dini baxımdan olan eyiblər nəzərdə tutulur. Deməli, birisinin xoşuna gəlməyən sözü demək qeybətdir. Məsələn, xilqət baxımından birinin uzun, alçaqboy, kor və ya buna bənzər başqa vəsflərini etdikdə, bu qeybət olur. Əxlaq baxımından qeybət, misal üçün birinin iffətli olmadığını, yəni məsələn, qadınlara baxdığını, yeniyetmələrə nəzər saldığını, yaxud da buna bənzər əxlaqi vəsflərini deməyindir. Dini eyiblər isə insanın bidətçi olması, camaatla namaz qılmaması, filan əməlləri etməməsini deməkdir ki, bu da qeybətdir. Çünki bu, insanın qeybdə olan işi ilə bağlıdır. Yox, əgər həmin sözlər onun üzünə deyilirsə, bu, söyüş və təhqir hesab olunur və qeybət sayılmır.

---

[1] "Səhih Muslim", 4690.

Peyğəmbərin ﷺ: **"Əgər söylədiyin şey onda varsa, onun qeybətini etmiş olursan, əgər söylədiyin şey onda yoxdursa, o zaman ona böhtan atmış olursan"** – sözünə gəlincə, yəni qeybətlə bərabər böhtan da atmış olursan. İkinci qisim məlum olduğu üçün həzf olunmuşdur. Buna bənzər başqa bir hədisdə Peyğəmbər ﷺ bir gün belə demişdir: **"Kaş ki, qardaşlarımızı görə biləydik"**. Səhabələr dedilər: "Məgər biz sənin qardaşların deyilikmi?" Dedi: **"Siz mənim səhabələrimsiniz. Qardaşlarımız isə indi olmayan kəslərdir"**. Yəni məni görmədikləri halda mənə iman gətirənlər.

Onlara: **"Siz mənim səhabələrimsiniz"** deməsi onların ona ﷺ qardaş olmadıqları anlamına gəlmir. Əksinə, onlar Peyğəmbərin həm səhabələri, həm də qardaşlarıdır. Sonra gələnlər isə səhabələri deyil, qardaşlarıdır.

"Ona böhtan atmış olursan" sözündə təkcə qeybət deyil, həm qeybət, həm də böhtan var. Bil ki, qeybət, növünə görə daha pis ola bilər. Adi insanın qeybətini etmək, alimin, rəhbərin, müdirin, nazirin və ya buna bənzər başqa birisinin qeybətini etməklə eyni deyil. Belə ki, kiçik və ya böyük olmasından asılı olmayaraq, əmr sahibinin qeybətini etmək əmr sahibi olmayanın qeybətini etməkdən daha pisdir. Əgər sən adi insanın qeybətini etsən, təkcə onun özünə pislik etmiş olursan. Yox, əgər əmr sahibinə pislik etmiş olsan, həm ona, həm də onun əmri altında olanlara pislik etmiş olursan. Misal üçün, alimlərdən birinin qeybətini etsən, təbii ki, bu başqa müsəlmanlar kimi, şəxsən ona qarşı bir təcavüz hesab olunur. Lakin bununla bərabər sən onun elminə qarşı da pislik etmiş olursan. Çünki alim olan kəs elm daşıyır və onun qeybəti edildikdə insanların gözündən düşür. İnsanların gözündən düşdükdə isə onlar onun sözünü qəbul etməyəcəklər. Həmçinin onlar dini məsələlərdə onun yanına gələrək ona müraciət etməyəcəklər. Onun dediyi haqq da şübhəli məsələyə çevriləcəkdir. Çünki sən onun qeybətini etmisən. Bu isə şəriətə qarşı bir cinayətdir.

Əmirlər də bu qəbildəndir. Əgər sən rəhbərin, padşahın və ya prezidentin, yaxud da buna bənzər başqa birisinin qeybətini etsən, bu şəxsən ona yönəldilmiş qeybət deyil. Əksinə, bu həm onun, həm də rəhbərliyinin pisliyinin qeybətidir. Çünki sən rəhbərin, nazirin və ya padşahın qeybətini etsən, bu o deməkdir ki, sən insanların qəlbində ona qarşı nifrət yaratmağa çalışırsan. İnsanların qəlbində ona qarşı nifrət yaratdıqda isə sən insanlara çox böyük pislik etmiş olursan. Çünki bu insanlar arasında hərc-mərcliyin, xaosun yayılmasına, insanların bir-birlərindən uzaqlaşmalarına səbəb olur.

Bu gün söz atan sabah da ox atacaq. Çünki qəlblər rəhbərlərinə qarşı kin bəslədikdə onun əmrlərinə də tabe olmaq istəmir. Hətta yaxşı bir işə əmr olunduqda belə, adamlar həmin işi pis görür. Bu xüsusda şairlərdən biri doğru demişdir:

Ayıb işlərə razılıq gözü ilə baxmaq gecə kimidir,
Qəzəbli gözlə baxdıqda isə yalnız pislik görünər.

Yəni sən müsəlmanlar üzərində dini, dünyavi və ya icraçı rəhbər bir mövqeyə malik şəxsin qeybətini etsən, bilmədən müsəlmanlara pislik etmiş olursan.

Bəziləri elə düşünür ki, bu qeybət onun hirsinin soyumasına gətirib çıxarır. Lakin qızışdırmaqla əmin-aman bir halı necə qorxuya dəyişmək olar? Asayişi narahatlıqla necə əvəz etmək olar? Yaxud da insanların hər hansı alimə olan etibarını necə etibarsızlıqla əvəz etmək olar. Əgər nifrətlə dolmusansa və ya qəlbin kinlə doludursa, bunu başqasının üzərinə tökməzdən öncə öz üzərinə tök. Öz səhvlərinə diqqət et: sən özün nöqsansızsanmı? Özün salamatsanmı? Sənin ilk eyibin odur ki, əmr sahibini söyür, onun qeybətini edirsən.

Beləsi: "Mən yaxşı işləri əmr edib, pis işlərdən çəkindirmək istəyirəm" deyə bilər. O zaman biz deyirik: "Məqsədin gözəldir, lakin evə qapıdan daxil olmaq lazımdır. Yaxşı işləri əmr edib, pis işlərdən çəkindirməyin yolu adamın eyiblərini yaymaqla olmur. Əksinə, bu münkəri artırır. İnsanlar heç kimə etibar etmirlər. Alim: "Bu münkərdir" deyərək bir əməlin qarşısını almaq istəyirsə, deyirlər ki, yox, sən heç özünü islah etməmisən, qaldı ki, başqasını islah edəsən. Və beləcə.

Bunun müsəlmanlara böyük zərəri olur. Danılmazdır ki, bu əmrə uyanların bəziləri, yəni əmr sahiblərini, alimləri və əmirləri söyənlər ədalətli olmadıqca əsla yaxşı iş görmüş olmazlar. Uca Allah buyurur: **"Ey iman gətirənlər, Allah xatirinə ədaləti qoruyan şahidlər olun. Hər hansı bir camaata qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır. Allahdan qorxun! Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır".**[1]

"Ədalətsizliyə sövq etməsin", yəni ədalətli olmamağa sövq etməsin. Təəccüblüsü də budur ki, onların məclisində: "Ey insanlar, bu əməldən

[1] "əl-Maidə" surəsi, 8.

çəkinin, hiylədən çəkinin, yalandan çəkinin! Bazarlarımızda, alış-verişdə hiylələr, yalan və qeybət vardır" deməklərini əsla eşitməzsən. Heç görməzsən ki, onlar qəzəblərini insanların islah olunmasına yönəltsinlər.

Məlum məsələdir ki, kütlənin, yəni xalqın islah olunması mühümdür. Xalq isə insanlardan, Zeyddən, Ömərdən, Bəkrdən və Xalid kimi fərdlərdən formalaşır. Fərdlər islah olunduqda xalq da islah olunur, xalq islah olunduqda ümmət də islah olunmuş olur. Lakin bəzilərinin içində xəstəlik olur və onlar buna bənzər əməlləri sevirlər – xoşlayırlar ki, hansısa bir alimi müzakirə predmetinə çevirsinlər, onun gizli işlərini araşdırsınlar və xeyirli işlərini gizlətsinlər. Həmin gizli əməlləri də insanlar arasında yayırlar. Ya da hər hansı bir rəhbəri, əmiri, naziri, padşahı və ya prezidenti müzakirə edərək onun barəsində danışırlar. Sübhanallah, bəs ədalət? İzzət və cəlal sahibi Allah buyurur: **"Allah isə haqqı deyir və doğru yola yönəldir".**[1]

Hətta müşriklərin davranışı barədə belə Uca Allah buyurur: «**Onlar yaramaz əməl etdikləri zaman: "Atalarımızı belə gördük. Allah da bizə bunu əmr etmişdir"– deyirlər. De: "Allah yaramaz əməlləri əmr etməz"».**[2]

Onlar iki kəlmə dedilər – birincisi: **"Atalarımızı belə gördük"**, ikincisi: **"Allah bunu bizə əmr edib"**. Allah da onların arasında hökm verib dedi: **"Allah yaramaz əməlləri əmr etməz"**. O onlardan haqqı qəbul etdi, çünki onlar atalarını belə görmüşdülər. Onların: **"Allah bunu bizə əmr edib"** dedikləri batili isə rədd etdi.

Sən də danışmaq istədikdə ədalətlə danış və müsəlmanların, ələlxüsus da əmr sahiblərinin gizlinlərini araşdırma. Kim qardaşının eyiblərini araşdırarsa, Allah onun eyiblərini araşdırar. Allah da kiminsə eyiblərini araşdırarsa, onu anasının evində olsa belə, biyabır edər.

Mühüm olan odur ki, bizlər qeybətdən uzaq olmalı, dilimizi dinc saxlamalı və bilməliyik ki, başqasının qeybətini etdiyimiz hər bir kəlmə bizim savablarımızın azalmasına, həmin şəxsin savabının isə çoxalmasına səbəbdir. Bir hədisdə deyilir ki, Peyğəmbər ﷺ soruşdu: **"Bilirsinizmi ki, müflis kimdir?"** Dedilər: "Aramızda müflis olan kəs dinarı, dirhəmi olmayan kəsdir". Dedi: **"Ümmətimdən müflis olacaq adamlar o kəslərdir ki, Qiyamət günü namaz, oruc və zəkatla gələcək, lakin bununla bərabər**

[1] "əl-Əhzab" surəsi, 4.

[2] "əl-Əhzab" surəsi, 28.

birini söymüş, birinə böhtan atmış, digərinin malını yemiş, başqasının qanını axıtmış, bir başqasını da döymüşdür. Həmin adamlar gəlib onun savabından götürərlər. Savabları bitdikdə isə həmin adamların günahlarından götürülüb ona verilər. Sonra da Cəhənnəm oduna atılar".[1]

Biz hətta bəzi sələflərdən eşitmişdik ki, onun qeybətini etmiş birisinə hədiyyə təqdim etmiş və demişdi: "Sən mənə savablarından hədiyyə etdin ki, Qiyamət günü onlardan faydalanım. Mən də sənə hədiyyə verirəm ki, bu fani dünyada ondan faydalanasan".

Qısası, əziz qardaşlar, özümə və sizə nəsihətim budur ki, qeybətdən, həmçinin əmr sahiblərinin, alimlərin və rəhbərlərin eyibləri barəsində danışmaqdan çəkinəsiniz. Əgər məqsədiniz xeyir və islahdırsa, o zaman qapı açıqdır, bunun öz yolu vardır. Onunla özünüz birbaşa əlaqə yaradın. Əgər əlaqə yarada bilmirsinizsə, başqa kanallar vasitəsilə əlaqə yaratmağa çalışın. Üzərinizə düşəni yerinə yetirdikdən sonra qalanı sizdən asılı deyil.

Sonra, ey qardaş, bir düşün, gör sənin alimlərin və əmirlərin qeybətini etməyin bir şeyi düzəldirmi? Əsla! Əslində bu işi daha da korlayır, pisləşdirir, bununla nə fəsad aradan qalxmır, nə də pis iş görən düzəlmir. Uca Allahdan diləyirik ki, dilimizi pis sözlərdən qorusun, bizləri xeyirə və islaha yönəltsin.

Mövzu ilə əlaqəli ayələr:

Uca Allah belə buyurur:

﴿ وَلَا تَجَسَّسُوا۟ وَلَا يَغْتَب بَّعْضُكُم بَعْضًا ۚ أَيُحِبُّ أَحَدُكُمْ أَن يَأْكُلَ لَحْمَ أَخِيهِ مَيْتًا فَكَرِهْتُمُوهُ ۚ وَٱتَّقُوا۟ ٱللَّهَ ۚ إِنَّ ٱللَّهَ تَوَّابٌ رَّحِيمٌ ﴾

"Bir-birinizi güdməyin, bir-birinizin qeybətini qırmayın. Sizdən biriniz ölmüş qardaşının ətini yemək istəyərmi? Siz ki, bundan iyrənirsiniz. Allahdan qorxun! Həqiqətən, Allah tövbələri qəbul edəndir, Rəhmlidir".[2]

[1] "Səhih Muslim", 4678.

[2] "əl-Hücurat" surəsi, 12.

﴿ وَلَا تَقْفُ مَا لَيْسَ لَكَ بِهِۦ عِلْمٌ ۚ إِنَّ ٱلسَّمْعَ وَٱلْبَصَرَ وَٱلْفُؤَادَ كُلُّ أُو۟لَٰٓئِكَ كَانَ عَنْهُ مَسْـُٔولًا ﴾

"Haqqında məlumatın olmadığı bir işin dalınca getmə. Çünki qulaq, göz və ürək – bunların hamısı *sahibinin əməlləri* barəsində sorğusual olunacaqdır".[1]

﴿ مَّا يَلْفِظُ مِن قَوْلٍ إِلَّا لَدَيْهِ رَقِيبٌ عَتِيدٌ ﴾

"Dediyi elə bir söz yoxdur ki, *onu yazmaq üçün* yanında hazır durmuş gözətçi olmasın".[2]

Şərh:

Müəllif ﷺ "Qeybətin haram olması və dili qorumağın əmr edilməsi" fəslində qeyd etmişdir ki, qeybət qardaşının dinində, əxlaqında, xilqətində və başqa işlərdə xoşuna gəlmədiyi bir sözü zikr etməyindir.

Qeyd etdiyimiz kimi, qeybət böyük günahlardandır və onun kəffarəsi namaz, sədəqə, oruc və ya həcc ilə ödənmir. Qeybət digər günahlarla birlikdə savablara qarşı tərəziyə qoyulacaqdır. Yenə qeyd etmişdik ki, qeybətin hökmü hasil olan fəsada görə fərqlənir. Vurğuladıq ki, əmr sahiblərinin, alimlərin, əmirlərin qeybəti başqalarının qeybətindən daha şiddətlidir. Çünki bu daha böyük fəsadlara yol açır.

Müəllifin ﷺ zikr etdiyi ayələrə gəlincə, onlardan birincisi bu ayədir: **"Bir-birinizin qeybətini etməyin...".** Ayə isə bütünlüklə belədir: "**Ey iman gətirənlər, zənnə çox qapılmayın. Çünki zənn edilənlərin bir qismi günahdır. Bir-birinizi güdməyin, bir-birinizin qeybətini qırmayın. Sizdən biriniz ölmüş qardaşının ətini yemək istəyərmi? Siz ki, bundan iyrənirsiniz. Allahdan qorxun! Həqiqətən, Allah tövbələri qəbul edəndir, Rəhmlidir".[3]**

Allah ilk öncə qeybəti qadağan edir, sonra da elə bir misal çəkir ki, hər kəs bundan iyrənir. O buyurur: **"Sizdən biriniz ölmüş qardaşının ətini yemək istəyərmi? Siz ki, bundan iyrənirsiniz".**

---

[1] "əl-İsra" surəsi, 36.

[2] "Qaf" surəsi, 18.

[3] "əl-Hücurat" surəsi, 12.

Süal: Müsəlman qardaşının əti sənə təqdim olunsa, onu yeyərsənmi?

Cavab: Xeyr, bunu etmərəm, bu qeyri-mümkündür.

Birdən biri soruşsa ki, bəs bu misalın qeybətlə nə əlaqəsi? Deyirik: Çünki sənin qeybətini etdiyin kəs qeybdədir. Meyit kimi – meyidin ətini kəssən o özünü müdafiə edə bilməyəcəkdir. Buna görə də qardaşının xoşlamadığı bir sözü onun hüzurunda söyləməyin qeybət olmur. Bu, söyüş və təhqir adlanır.

"Allahdan qorxun! Həqiqətən, Allah tövbələri qəbul edəndir, Rəhmlidir". Uca Allah qeybəti qadağan etdikdən sonra Ondan qorxmağı əmr edir. Bil ki, sən qardaşının eyibini söyləsən, yaysan, onun nöqsanlarını izləsən Uca Allah da sənin eyiblərini açacaq kimsə təyin edər. Həmin kəs də sən sağ olsan da, ölmüş olsan da sənin eyiblərini açacaq. Çünki Peyğəmbər ﷺ demişdir: **"Kim qardaşının gizlinini araşdırarsa, Allah da onun gizlinini aşkara çıxarar və onu evində olsa belə, rüsvay edər".**[1]

Açıqlama, bəyan etmək məqsədilə edilən qeybətdə isə problem yoxdur. Məsələn, birisi bir adamla iş görmək istəyir, gəlir sənin yanına ki, səndən məsləhət alsın. Soruşur ki, məsləhətin nədir, filankəslə iş görmək olar, ya yox? Sən də həmin adam doğru iş görmədiyindən xəbərdarsan. Bu zaman həmin adamın eyibini nəsihət üçün söyləməyin sənə vacibdir. Buna da dəlil Fatimə bint Qeysə üç nəfər səhabənin – Usamə ibn Zeyd, Müaviyə ibn Əbu Sufyan və Əbu Cəhmin ﷺ elçi düşməsidir:

Həmin qadın Peyğəmbərdən ﷺ məsləhət almaq üçün onun yanına gəlir. Peyğəmbər ﷺ də ona deyir: **"Əbu Cəhmə gəlincə, o, əsasını belindən yerə qoymur. Müaviyə isə yoxsuldur və pulu yoxdur. Usamə ilə evlən".**[2] Burada Peyğəmbər ﷺ o iki adamın xoşlanmadığı vəsflərini, eyibini yaymaq üçün deyil, nəsihət üçün söyləyir. Bunları bir-birindən fərqləndirmək lazımdır. Əgər birisi sənin yanına məsləhətləşmək üçün gəlib desə ki, filankəsdən elm alımmı? Sən də həmin adamın səhv mənhəcdə olduğunu bildiyin üçün ona deyə bilərsən ki, ondan elm alma, ola bilsin, onun əqidəsində, fikrində və mənhəcində problem var. Əgər bu amilin səninlə məsləhətləşməyə gələn həmin adama təsir edəcəyini bilsən belə, bu zaman haqqı bəyan etməyin vacibdir. Ona deyirsən ki, o adamdan elm

[1] "Sunən ət-Tirmizi", 1955.

[2] "Səhih Muslim", 2709.

alma, onun filan-filan eyibləri var. Buna bənzər misallar olduqca çoxdur. Mühüm olan odur ki, sənin qardaşın haqqında onun xoşuna gəlmədiyi bir xislətini nəsihət olaraq söyləməyində bir qəbahət yoxdur.

Bəzi insanlar doğru olmayan belə bir söz deyirlər ki, "Fasiqin qeybəti caizdir". Bu nə hədis deyil, nə də ki, doğru söz. Əksinə, başqaları kimi fasiqin də arxasınca danışmaq qeybət sayılır. Əgər onun fasiqliyini eyib və ya təhqir kimi söyləsək, bu caiz deyil. Yox, əgər onun fasiqliyini nəsihət etmək və ya çəkindirmək üçün etsən, bu olar, hətta vacibdir. Əsas olan odur ki, bu ifadə Rəsulullahdan ﷺ nəql olunmuş hədis deyildir. Biz həmin ifadəyə aydınlıq gətirmək üçün onu qeyd etdik. Müvəffəq edən Allahdır.

﴿ وَلَا تَقْفُ مَا لَيْسَ لَكَ بِهِۦ عِلْمٌ ۚ إِنَّ ٱلسَّمْعَ وَٱلْبَصَرَ وَٱلْفُؤَادَ كُلُّ أُو۟لَٰٓئِكَ كَانَ عَنْهُ مَسْـُٔولًا ﴾

"Haqqında məlumatın olmadığı bir işin dalınca getmə. Çünki qulaq, göz və ürək – bunların hamısı *sahibinin əməlləri* barəsində sorğu-sual olunacaqdır".[1]

﴿ مَّا يَلْفِظُ مِن قَوْلٍ إِلَّا لَدَيْهِ رَقِيبٌ عَتِيدٌ ﴾

"Dediyi elə bir söz yoxdur ki, *onu yazmaq üçün* yanında hazır durmuş gözətçi olmasın".[2]

Şərh:

[Müəllifin bu fəslin mövzusuna uyğun gətirdiyi] ikinci ayə belədir: **"Haqqında məlumatın olmadığı bir işin dalınca getmə. Çünki qulaq, göz və ürək – bunların hamısı *sahibinin əməlləri* barəsində sorğu-sual olunacaqdır".**

"Dalınca getmə", yəni elmin olmadığı bir işin arxasına düşmə. Bu qadağa hər şeyə aiddir. Barəsində elmə malik olmadığın heç bir işin arxasınca getməməlisən. Ondan üz çevir və bu barədə danışma, çünki bu halda sən təhlükə ilə üz-üzəsən. Əgər Uca Allah və Onun elçisinə nisbət etdiyin sözdən söhbət gedirsə, bu ən böyük günaha səbəb olan haramlardandır. Məsələn, bir məsələ barəsində: "Allah belə deyib" deyirsən, halbuki

[1] "əl-İsra" surəsi, 36.

[2] "Qaf" surəsi, 18.

Allah belə deməyib. Yaxud da hər hansı bir ayəni dəlalətinə uyğun deyil, istədiyin kimi təfsir edirsən. Bu zaman Allahın demədiyi sözü söyləmiş olursan. Bu barədə hədislərin birində deyilir: **"Kim Quran barədə öz ağlı ilə danışarsa, Cəhənnəmdəki yerini hazırlasın"**.[1]

Heç kimə halal deyil ki, mənasını bilmədən Allahın kitabından bir ayəni təfsir etsin. Zənn və təxminlə təfsir etmək də belədir. Çünki bu, təhlükəli məsələdir. Əgər sən ayəni hər hansı bir mənada təfsir etsən, Allahın belə demək istədiyinə şahidlik etmiş olursan ki, bu da olduqca təhlükəlidir. Odur ki, insan şəri məsələlərdə bilmədiyi məsələ barəsində tələsməkdən çəkinməlidir. Başqa məsələlər də belədir, lakin şəri məsələlər daha şiddətlidir. Uca Allah Onun barəsində elmsiz danışmağı şirklə müqayisə edərək buyurur: «**De: "Rəbbim həm aşkar, həm də gizli *törədilən* yaramaz əməlləri, *hər cür* günahı, haqsızcasına zülm etməyi, Allahın, haqqında heç bir dəlil nazil etmədiyi bir şeyi Ona şərik qoşmağınızı və bilmədiyiniz şeyləri Allahın əleyhinə söyləməyinizi haram buyurmuşdur"».**[2]

İnsanlar barəsində bilmədiyin bir işi söyləməyin də belədir. Məsələn, deyirsən ki, filankəs belə deyib, halbuki həmin adam onu deməyib. Sənə desələr ki, filankəs belə deyib, buna həmən etimad etmə, onu dəqiqləşdir. Ələlxüsus da insanlar arasında dedi-qodunun yayıldığı bir dövrdə. Bu zaman daha çox çəkinmək lazımdır. Çünki insanlar arasında dedi-qodu geniş vüsət aldıqca onlar sözün üstünə sözlər qoyub danışır və onlara çatan xəbəri dəqiqləşdirmirlər. Ona görə də görürsən ki, bəziləri barəsində əsla doğru olmayan sözlər yayılır. İnsanlar dedi-qodu ilə öz istəklərinə çatırlar, həmçinin bilmədiklərini deyirlər. Allah qorusun!

Sonra müəllif ﷺ üçüncü misalı – Uca Allahın: **"İnsanı Biz yaratdıq və nəfsinin ona nəyi vəsvəsə etdiyini də bilirik. Biz ona şah damarından da yaxınıq. Sağında və solunda iki *mələk* oturub *onun əməllərini qeydə alır.* Dediyi elə bir söz yoxdur ki, *onu yazmaq üçün* yanında hazır durmuş gözətçi olmasın".**[3] ayələrindən üçüncüsünü qeyd etmişdir. Əslində isə həmin ayələrin hər üçünü qeyd etmiş olsaydı, daha yaxşı olardı.

---

[1] "Sunən ət-Tirmizi", 2875.

[2] "əl-Əraf" surəsi, 33.

[3] "Qaf" surəsi, 16-18.

Uca Allah insanı yaratdığını xəbər verir ki, bu da fitrətə görə bilinməsi zəruri olan məlum məsələdir. Yaradan olan Allah təkdir və O öz yaratdığına yaxşı bələddir. Uca Allah buyurur: **"Yaradan *Allah* Lətif və *hər şeydən* Xəbərdar olduğu halda, ola bilərmi ki, O, *gizlində və aşkarda olanları* bilməsin?"**[1]

İzzət və cəlal sahibi Allah bizim niyyətlərimizi, əhvalımızı, gələcəyimizi və bizimlə bağlı hər şeyi yaxşı bildiyi üçün belə buyurur: **"nəfsinin ona nəyi vəsvəsə etdiyini də bilirik".** Yəni sən nəfsində danışdığın şeyi danışmamışdan öncə Uca Allah onu bilir. Bəs buna görə O sənə günah yazırmı? Bu belə açıqlanır: əgər bunu etiqad edərək qəlbinə həkk etdirsən, Allah buna görə sənə günah yazar. Əks halda sənə günah yazılmır. Peyğəmbər ﷺ demişdir: **"Şübhəsiz ki, Allah ümmətimə əməl etmədiyi və danışmadığı müddətdə düşündüklərinə görə günah yazmır".**[2]

Misal üçün insana vəsvəsə gəlir və düşünür ki, xanımını boşasın, ya yox. Bu insanlar arasında çox baş verdiyi üçün bunu misal çəkirəm. Bu zaman hətta onu boşamaq əzmində olsa belə, boşanma sayılmır. Dili ilə deməyincə və ya buna dəlalət edən yazı yazmayınca, yaxud da sözə dəlalət edən işarə etməyincə, boşanma sayılmır. Çünki Uca Allah onun ﷺ ümmətini əməl etmədiyi və danışmadığı müddətdə düşündüklərinə görə məsul etmir.

Uca Allah buyurur: **"İnsanı Biz yaratdıq və nəfsinin ona nəyi vəsvəsə etdiyini də bilirik. Biz ona şah damarından da yaxınıq. Sağında və solunda iki *mələk* oturub *onun əməllərini qeydə alır*".**[3] Uca Allah hər bir insana iki mələk müvəkkil etmişdir ki, onlar da hər zaman onunla birlikdədirlər. Onlardan biri onun sağında, digəri isə solundadır. Onlar hər zaman insanın yanında olur, onun söylədiklərini və əməllərini qeyd edirlər: **"Dediyi elə bir söz yoxdur ki, *onu yazmaq üçün* yanında hazır durmuş gözətçi olmasın".**[4] Buradakı "min" (مِنْ) şəkilçisi təkidləyici rolunu oynayır. Yəni nə danışırsa-danışsın, onu yazmaq üçün yanında hazır durmuş gözətçi mələklər vardır. "Raqib" yəni nəzarət edən, "Atid" yəni yanında hazır duran və əsla ondan ayrılmayan. Məsələn, əgər sən cibinə diktafon qoysan ki, danışdıqlarını qeyd etsin, bəzən düşünmədən söylədiyin qəribə

[1] "əl-Mulk" surəsi, 14.

[2] "Səhih əl-Buxari", 4864; "Səhih Muslim", 181.

[3] "Qaf" surəsi, 16-17.

[4] "Qaf" surəsi, 18.

sözlər eşitmiş olarsan. Ola bilər ki, insan düşünmədən Allahın qəzəbinə səbəb ola biləcək bir söz söyləsin, həmin söz də onu Cəhənnəmin filan qədər içərisinə atmış olsun. Allah qorusun!

Rəvayət olunur ki, İmam Əhməd ibn Hənbəl ﷺ ağır xəstə ikən ağrıdan ah-nalə çəkən zaman onun yanına dostlarından biri daxil olur. Ona deyir ki, tabiinlərdən filankəs deyir ki, mələklər hətta xəstənin ah-naləsini belə yazırlar. İmam Əhməd də ah-naləsini dayandırır və qorxur ki, bunu yazarlar. Odur ki, insan gərək mümkün qədər az danışsın. Peyğəmbər ﷺ demişdir: **"Allaha və Axirət gününə iman gətirən kəs ya xeyir söz söyləsin, ya da sussun".**

"Xeyir söz söyləsin", yəni xeyirli sözlər danışsın. Ya ona görə ki, bu özü-özlüyündə xeyirdir. Ya da ona görə ki, xeyirli söz insanlar arasında ülfətə və məhəbbətə səbəb olur. Çünki sən bir məclisə gəlsən və orada insanların sevdiyi bir sözü söyləmədən belə, adi mübah kəlam danışmaqla özünü onlara sevdirsən bu xeyirli söz hesab olunur və Peyğəmbərin ﷺ: **"ya xeyir söz söyləsin, ya da sussun"** kəlamına aid olur.

Yazılan əməllərdən biri də qeybətdir. Diqqətli ol ki, etdiyin qeybətlər yazılmasın. Çünki sən birisinin qeybətini etdikdə Qiyamət günü həmin adam sənin üçün həmin vaxt ən dəyərli şey sayılacaq etdiyin savab işlərdən götürəcək. Savabların bitdikdə isə qeybət etdiyin kəslərin günahlarından sənə yüklənəcək və beləcə sən cəhənnəm oduna atılacaqsan.

Bil ki, hər bir mükəlləf kəs dilini məsləhət olmayan xeyirsiz sözlərdən qorumalıdır. Kəlamın deyilməsi ilə deyilməməsinin məsləhəti bərabər səviyyədə olarsa, həmin sözün deyilməməsi sünnədir. Çünki mübah bir söz harama və ya məkruha da çevrilə bilir. Bir çox hallarda bunu müşahidə etmək mümkündür. Salamatlığın isə alternativi yoxdur.

Allahdan diləyirik ki, bizləri Onun qəzəbinə səbəb olan əməllərdən qorusun və bizləri razı qaldığı işləri görməyə müvəffəq etsin.

١٥١١– وَعنْ أبي هُرَيْرَةَ رضي الله عنه عَنِ النبي ﷺ قَالَ: « مَنْ كَانَ يُؤْمِنُ بِاللَّهِ وَاليَوْمِ الآخِرِ فَليقُلْ خَيْراً، أوْ ليَصْمُتْ » متفقٌ عليه.

وَهذا الحَديثُ صَرِيحٌ في أَنَّهُ يَنْبغي أن لا يتَكَلَّم إلاَّ إذا كَان الكَلامُ خَيْراً، وَهُو الَّذي ظَهَرَتْ مصْلحَتُهُ، وَمَتى شَكَّ في ظُهُورِ المَصْلَحةِ، فَلا يَتَكَلَّمُ.

1511. Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Allaha və axirət gününə iman gətirən kəs ya xeyir söz söyləsin, ya da sussun"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.

Bu hədis dəlildir ki, insan yalnız xeyir olduqda danışmalıdır. Xeyirli söz isə faydalı olandır. Faydanın olacağı şübhə doğurduqda isə danışmamalıdır.[1]

١٥١٢– وعَنْ أبي مُوسَى ﷺ قَال: قُلْتُ يا رَسُولَ اللَّهِ أيُّ الْمُسْلِمِينَ أفْضَلُ؟ قال: « مَنْ سَلِمَ الْمُسْلِمُونَ مِن لِسَانِهِ وَيَدِهِ ». متفق عليه.

1512. Rəvayət olunur ki, Əbu Musa ﷺ demişdir: «Mən dedim: "Ey Allahın elçisi, hansı müsəlman daha əfzəldir?" Dedi: **"O kəs ki, müsəlmanlar onun dilindən və əlindən salamatdırlar"».**[2]

Şərh:

Müəllif Hafiz ən-Nəvəvi ﷺ "Qeybətin haram olması və dili qorumağın əmr edilməsi" fəslində demişdir: "Bil ki, hər bir mükəlləf kəs dilini məsləhət olmayan xeyirsiz sözlərdən qorumalıdır". Yalnız dini və dünyavi cəhətdən məsləhətli hesab olunan sözlər deyilməlidir. Bu da Peyğəmbərin ﷺ aşağıdakı kəlamından götürülmüşdür: **"Allaha və axirət gününə iman gətirən kəs ya xeyir söz söyləsin, ya da sussun"**. Müəllif məhz bu hədisi də qeyd etmişdir. Danışması ilə susmasının məsləhəti bərabər səviyyədə olduqda isə danışmayaraq salamat qalması daha əfzəldir. Yəni danışıb-danışmamasında şübhə etdikdə susması yaxşıdır, çünki salamat qalmaq daha gözəldir. Susan adam isə salamat qalır. Yalnız mövcud vəziyyət onun danışmasını tələb edirsə, o zaman danışsın. Məsələn, bir münkər əməl gördükdə susmasın, – onun danışması, nəsihət edərək münkəri qadağan etməsi vacibdir. Danışmaq məsləhət olmadıqda isə danışmasın. Çünki bu onun üçün daha xeyirlidir. Peyğəmbərin ﷺ: **"Allaha və axirət gününə iman gətirən kəs ya xeyir söz söyləsin, ya da sussun"** sözü ona dəlildir ki, insan xeyirli olmayan sözü söyləməyib susmalıdır. Çünki

[1] "Səhih əl-Buxari", 5994; "Səhih Muslim", 67.

[2] "Səhih əl-Buxari", 10; "Səhih Muslim", 57.

Peyğəmbər ﷺ Allaha və axirət gününə iman gətirməyə şərt kimi ya xeyir söz söyləməyi, ya da ki, susmağı buyurmuşdur. Xeyir söz isə iki növdür:

Birincisi, sözün özünün xeyirli olması. Məsələn, Quran oxumaq, "sübhanallah", "Allahu əkbər", "la ilahə illəllah" demək, elm öyrətmək və buna bənzər əməllər xeyirdir.

İkincisi, sözün xeyirə səbəb olması. Yəni həm kəlamın özü mübah olur, həm də xeyirə səbəb olur. Məsələn, həmin söz qəlblərin yaxınlaşmasına, qardaşların barışmasına, məclisində olanların sevinməsinə səbəb olarsa, bu xeyirdir. Çünki insan məclisin əvvəlindən sonunadək dinməz oturarsa, insanlar ondan bezər və ondan xoşlanmazlar. Hətta onun kobud və qaba bir insan olduğunu düşünərlər. Ancaq əgər o onların qəlblərinə sevinc qatacaq söhbətlər edərsə və həmin sözlər mübah olarsa, bu xeyirli söz hesab olunar. İnsanları güldürmək xatirinə yalan danışmaq isə qadağandır. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"İnsanları güldürmək məqsədilə yalan danışan kəsin vay halına, vay halına, vay halına!"**.[1]

Bəziləri insanları güldürmək məqsədilə yalanlar danışır və bunu lətifə adlandırırlar. Yaxşı olar ki, mübah kəlam danışılsın və bununla onların qəlblərinə sevinc daxil olsun. Yalandan danışmaq isə haramdır.

Sonra müəllif Əbu Musa əl-Əşarinin رضي الله عنه hədisini qeyd edir. Həmin hədisdə o Peyğəmbərdən ﷺ soruşur ki, hansı müsəlman daha əfzəldir? O da buyurur ki: **"O kəs ki, müsəlmanlar onun dilindən və əlindən salamatdırlar".** "Dili ilə", yəni o kəs qeybət etməklə, söz gəzdirməklə və buna bənzər başqa əməllərlə müsəlmanlara əziyyət vermir. "Əli ilə", yəni onların mallarını qəsb etmir, özlərini vurmur və insanlarla yalnız xeyirli şəkildə davranır. Bax, budur müsəlman.

Hədisdə insanlara dil və əl ilə əziyyət verməməyə təşviq olunur. Dilini qoru və insanlar barəsində yalnız xeyir söz söylə. Həmçinin əlini də qoru, insanların mallarına və canlarına əl uzatma, çalış ki, insanlar səndən salamat olsunlar. Bu, müsəlmanlar üçün daha xeyirlidir. Allahdan diləyirik ki, bizləri və sizi sevib razı qaldığı əməlləri etməyə müvəffəq etsin.

١٥١٣– وَعَنْ سَهْلِ بنِ سعْدٍ قَال: قَالَ رَسُولُ اللَّهِ ﷺ: « مَنْ يَضْمَنْ لي ما بيْنَ لَحْيَيْهِ وَمَا بيْنَ رِجْلَيْهِ أضْمنْ لهُ الجَنَّة ». متفقٌ عليهِ

[1] "Musnəd İmam Əhməd", 5/7; "Sunən Əbu Davud", 4338; "Sunən ət-Tirmizi", 2237.

1513. Rəvayət olunur ki, Səhl ibn Səd ﷺ demişdir: «Rəsulullah ﷺ demişdir: **"Kim mənə iki çənəsi arasındakı ilə iki budu arasındakını *qoruyacağına* zamin olarsa, mən də ona Cənnəti zamin olaram»**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٥١٤– وَعَنْ أبي هُرَيْرَةَ ﷺ أَنَّهُ سَمِعَ النبي ﷺ يَقُولُ: إنَّ الْعَبْد لَيَتَكَلَّمُ بِالكَلِمةِ مَا يَتَبَيَّنُ فيهَا يَزِلُّ بهَا إلى النَّارِ أبْعَدَ مِمَّا بيْنَ المشْرِقِ والمغْرِبِ ». متفقٌ عليهِ.

ومعنى: « يَتَبَيَّنُ » يَتَفَكَّرُ أنَّهَا خَيْرٌ أمْ لا.

1514. Əbu Hureyradan ﷺ rəvayət olunan hədisdə o, Peyğəmbərdən ﷺ belə eşitdiyini nəql etmişdir: **"Ola bilsin, qul, mahiyyətinə varmadan elə bir söz söyləsin ki, ona görə günçıxanla günbatan arasındakı məsafə qədər Cəhənnəm oduna yaxınlaşsın"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

[Hədisin ərəbcəsində keçən] "yətəbəyyənu" (mahiyyətinə varmadan) sözü, onun xeyirli olub-olmadığını bilməməsi mənasındadır.

١٥١٥– وَعَنْهُ عن النبي ﷺ قال: « إنَّ الْعَبْدَ لَيَتَكَلَّمُ بِالكَلِمةِ مِنْ رِضْوَانِ اللَّهِ تَعَالى مَا يُلقِي لهَا بَالاً يَرْفَعُهُ اللَّه بهَا دَرَجاتٍ، وَإنَّ الْعبْدَ لَيَتَكلَّمُ بالْكَلِمَةِ مِنْ سَخَطِ اللَّهِ تَعالى لا يُلْقي لهَا بالاً يهوي بهَا في جَهَنَّم » رواه البخاري.

1515. Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Ola bilsin, qul, fərqinə varmadan Uca Allahı razı salacaq bir söz söyləsin, Allah da ona görə onun dərəcələrini artırmış olsun. Ola da bilsin, qul, fərqinə varmadan Uca Allahı qəzəbləndirəcək bir söz söyləsin və ona görə Cəhənnəmə düşsün".**

Bu hədisi Buxari rəvayət etmişdir.[3]

Şərh:

Bu üç hədis dilin təhlükəsindən bəhs edir və bildirir ki, dil ən təhlükəli əzalardandır. Birinci hədisdə Peyğəmbər ﷺ demişdir: **"Kim mənə iki**

[1] "Səhih əl-Buxari", 5993.

[2] "Səhih əl-Buxari", 5996; "Səhih Muslim", 5304.

[3] "Səhih əl-Buxari", 5997.

çənəsi arasındakı ilə iki budu arasındakını *qoruyacağına* zamin olarsa, mən də ona Cənnəti zamin olaram».

İki çənə arasında yerləşən dildir, iki bud arasında olan isə cinsiyyət üzvüdür. Bu həm kişiyə aiddir, həm də qadına. Yəni kim dilini haram sözlərdən, yalandan, söz gəzdirməkdən, qeybətdən, kələk gəlməkdən və başqa bu kimi əməllərdən, övrət yerini isə zinadan, homoseksuallıqdan və buna səbəb olan amillərdən qoruyarsa, Peyğəmbər ﷺ onun Cənnətə getməsinə zəmanət verir. Yəni onun yeri Cənnət olacaqdır. Gərək dilini və övrət yerini qoruyasan.

Dil də övrət yeri kimi səhvlər edir. Peyğəmbər ﷺ bunları ona görə bir yerdə qeyd etmişdir ki, dildə danışmaq şəhvəti olur. Bir çox insanlar başqalarının namusları barəsində danışmaqdan həzz alır. Uca Allah buyurur: **"öz ailələrinin yanına fərəhlə qayıdırdılar".**[1] Görürsən ki, beləsinin ən çox sevdiyi iş başqaları barəsində danışmaqdır.

Bəziləri isə yalan danışmağı xoşlayırlar. Görürsən ki, beləsi yalan danışmağa can atır. Allah qorusun! Yalan danışmaq böyük günahlardandır. Ələlxüsus da insanları güldürmək məqsədilə yalan danışılarsa, bunun günahı daha böyükdür. Peyğəmbər ﷺ demişdir: **"İnsanları güldürmək məqsədilə yalan danışan kəsin vay halına, vay halına, vay halına!"**

Kəlam şəhvəti ilə qadın şəhvəti həm də ona görə bir yerdə qeyd olunmuşdur ki, insan, xüsusən də gənc yaşlarında şəhvətinə uya bilər. Əgər o, bu iki şəhvətinə, yəni kəlam şəhvəti ilə qadın şəhvətinə qalib gələ bilərsə, Peyğəmbər ﷺ onun Cənnətə daxil olacağına zəmanət vermişdir. Yəni bu iki təhlükədən özünü qorumuş kəsin mükafatı budur.

İkinci hədisdə isə deyilir: **"Ola bilsin, qul, mahiyyətinə varmadan elə bir söz söyləsin ki, ona görə günçıxanla günbatan arasındakı məsafə qədər Cəhənnəm oduna yaxınlaşsın".**

"Mahiyyətinə varmadan" sözünün mənası dəqiqləşdirmədən eşitdiyini danışandır: **"İnsanın hər eşitdiyini danışması günah olaraq onun üçün kifayətdir".**[2]

Görürsən ki, insan dəqiqləşdirmədən, mənasını və məramını bilmədən bir söz söyləyir, həmin sözə görə də günçıxanla günbatan arasındakı məsafə qədər Cəhənnəm oduna daxil olur. Allah qorusun!

---

[1] "əl-Mutaffifin" surəsi, 31.

[2] "Səhih Muslim", 6.

Məşriqlə məğrib arasındakı *gözlə görünən* məsafə olduqca böyükdür. İnsan bir kəlmə söz söyləməklə bundan da böyük məsafə qədər Cəhənnəm oduna daxil olur. Bu da dəlildir ki, insan başqasından və ya başqasına danışacağı sözü əvvəlcə dəqiqləşdirməlidir. Tələsmə, səbirli ol, əvvəlcə dəqiqləşdir. Axı səni danışmağa tələsdirən nədir? Dəqiqləşdir və işin məğzini öyrən. Bundan sonra isə danışmaq məsləhətdirsə, danış, danışmaq məsləhət olmadıqda isə sus: **"Allaha və axirət gününə iman gətirən kəs ya xeyir söz söyləsin, ya da sussun".**

Üçüncü hədisdə isə deyilir ki, insan ola bilsin, insan önəmsəmədən Uca Allahı razı salacaq bir söz söyləsin, məsələn, Quran oxusun, "sübhanallah", "Allahu əkbər", "la ilahə illəllah" desin, yaxşı işlərə dəvət etsin, pis işlərdən çəkindirsin, elm tədris etsin, insanların arasını düzəltsin və buna bənzər sözlər.

"Önəmsəmədən", yəni bunun nə qədər böyük savaba səbəb olacağının fərqinə varmadan. Əks təqdirdə, o həmin sözü söyləməyə niyyət edər və həmin əmələ önəm verər. Allah da ona görə onun Cənnətdə dərəcələrini artırmış olsun.

Ola da bilsin ki, insan önəmsəmədən Uca Allahı qəzəbləndirəcək bir söz söyləsin və ona görə Cəhənnəmə düşsün. Çünki o, həmin sözün nə qədər günah olduğunun fərqinə varmamışdı. Bir çoxları asi bir insan və ya buna bənzər başqa işlər barəsində soruşur və deyirlər ki, "onu tərk et; bunu tərk et; vallahi, bu adam doğru yola gəlməz; vallahi, Allah onu bağışlamaz". Bunlar olduqca ağır sözlərdir. Allah qorusun!

Bir dəfə bir abid adam günahkar bir adamın yanından keçir və deyir ki, vallahi, Allah filankəsi bağışlamayacaq. Baxın, Allah qorusun, o, Allahın işinə qarışaraq böyük bir söz söyləyib: "Vallahi, Allah onu bağışlamayacaq" deyir. Çünki bu abid adam öz etdiyi yaxşı əməlləri ilə təkəbbürlük edirdi. O, lovğalanaraq öz əməlləri ilə Rəbbinə minnət edir. Sanki Uca və nöqsansız Allaha minnət edə bilər. O: "Vallahi, Allah filankəsi bağışlamayacaq" deyir, izzət və cəlal sahibi Allah da buyurur ki: "Özünü Mənim yerimə qoyaraq filankəsi bağışlamayacağımı iddia edən kimdir?" Mülk və səltənət kimə məxsusdur? – İzzət və cəlal sahibi Allaha məxsusdur. Bunlar sənə məxsus deyil ki: "Allah filankəsi bağışlamayacaq" deyəsən. Mülk və səltənət Allaha məxsusdur və kim də özünü Allahın yerinə qoymaq istəyərsə, izzət və cəlal sahibi Allah onu zəlil edər və deyər: "Özünü Mənim

yerimə qoyaraq filankəsi bağışlamayacağımı iddia edən kimdir? Mən onu bağışladım, sənin əməllərini isə puç etdim".[1] – Sadəcə bir söz onun əməllərinin puç olmasına səbəb oldu. Allahdan salamatlıq diləyirik.

Elə isə dilini xətaya yol verməsindən qoru. Dilin xətaya yol verməsinə bir misal da birinin belə deməsidir: "Ey filankəs, qonşumuz namaz qılmır. Bəlkə ona nəsihət edəsən? Allah səni xeyirlə mükafatlandırsın". O da deyər: "Onun hidayətə varması mümkün deyil. O həddi aşmış birisidir, fasiqdir". Allah qorusun! Axı sənə kim deyib ki, o, hidayət oluna bilməz? Qəlblər kimin əlindədir? – İzzət və cəlal sahibi Allahın əlində. Peyğəmbər ﷺ bu barədə bizlərə xəbər verərək buyurur: **"Qəlblər ər-Rəhmanın iki barmağı arasındadır, – istəsə onları düzəldər, istəsə də azdırar".**

Bu məlum bir məsələdir. Bəzən insan qəlbində bəzi şeylərlə rastlaşır və bilir ki, bu şeytandandır. Anlayır ki, Allah onu sabit etməsə, yolunu aza bilər. Qəlblər Uca və nöqsansız Allahın əlindədir. Necə deyə bilərsən ki, bu adam hidayət oluna bilməz? Belə söz demək haramdır və caiz deyil. Allahdan hidayət dilə və ümidini üzmə. Məgər bu ümmətə keçmişində dinə qatı düşmən olanlar qoşulmadımı? Muhəmməd Peyğəmbərdən ﷺ sonra ikinci xəlifə kim olmuşdur? – Ömər ibn əl-Xəttab رضي الله عنه. O, İslam dəvətinin əleyhinə olan birisi idi – insanları İslamdan çəkindirər, özü də İslama qatı düşmənçilik edərdi. Uca Allah ona hidayət verdi və o, Rəsulullahdan ﷺ sonra ümmətin ikinci xəlifəsi oldu. Xalid ibn Vəlid və İkrimə ibn Cəhl رضي الله عنهما də həmçinin. Onlar Uhudda nələr etmədilər? Öz dəstələri ilə dağın arxa istiqamətindən müsəlmanlara hücum etmiş, buna görə də müsəlmanlar məğlub olmuşdular. Ancaq sonradan hər ikisi müsəlmanların məşhur sərkərdəsi olmuşdular. Odur ki, qardaşım, ümidini üzmə, Allahdan hidayət və sabitlik dilə. Dilinlə səhvə yol verməklə özünü həlak etmə. Allah bizləri asiliklərdən qorusun və Özünün razı qaldığı əməllərə bizi müvəffəq etsin. Şübhəsiz ki, O, hər şeyə Qadirdir.

١٥١٦– وعَنْ أبي عَبْدِ الرَّحمنِ بِلال بنِ الحارثِ المُزنيِّ رضي اللَّه عَنْهُ أنَّ رَسُولَ اللَّه ﷺ قالَ: « إنَّ الرَّجُلَ لَيَتَكَلَّمُ بالْكَلِمَةِ مِنْ رِضْوانِ اللَّهِ تَعالى ما كَانَ يَظُنُّ أنْ تَبْلُغَ مَا بلَغَتْ يكْتُبُ اللَّه بهَا رِضْوَانَهُ إلى يَوْمِ يلْقَاهُ، وَإنَّ الرَّجُلَ لَيَتَكَلَّمُ بالكَلِمةِ مِنْ سَخَطِ اللَّه مَا كَانَ يظُنُّ أن

[1] "Səhih Muslim", 4753.

تَبْلُغَ ما بلَغَتْ يكْتُبُ اللَّه لَهُ بهَا سَخَطَهُ إلى يَوْمِ يلْقَاهُ ».رواهُ مالك في « المُوطَّإِ » والترمذي وقال: حديثٌ حسنٌ صحيحٌ.

1516. Əbu Abdur-Rahmən Bilal ibn əl-Haris əl-Muzənidən ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Ola bilər ki, insan mahiyyətinə varmadan Uca Allahı razı salacaq bir söz söyləsin, Allah da o sözə görə Onunla görüşəcəyi günədək ona Öz Razılığını versin. Ola da bilsin, insan mahiyyətinə varmadan Uca Allahı qəzəbləndirəcək bir söz söyləsin, O da o sözə görə Onunla görüşənədək ona qəzəbli olsun"**.

Hədisi Malik və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən səhih hədisdir" demişdir.[1]

١٥١٧– وعَنْ سُفْيان بنِ عبْدِ اللَّهِ ﷺ قَال: قُلْتُ يا رسُولَ اللَّهِ حَدِّثني بأمْرٍ أعْتَصِمُ بِهِ قالَ: « قُلْ ربِّي اللَّه، ثُمَّ اسْتَقِمْ » قُلْتُ: يا رسُول اللَّهِ ما أَخْوفُ مَا تَخَافُ عَلَيَّ؟ فَأَخَذَ بِلِسَانِ نَفْسِهِ، ثُمَّ قَال: « هذا ». رواه الترمذي وقال: حديثٌ حسنٌ صحيحٌ.

1517. Rəvayət olunur ki, Sufyan ibn Abdullah ﷺ demişdir: «Mən dedim: "Ey Allahın elçisi, mənə elə bir söz söylə ki, ondan tutum". Dedi: **"De: "Rəbbim Allahdır", sonra da doğru yolla get"**. Mən dedim: "Ey Allahın elçisi, mənim üçün ən çox qorxduğun nədir?" O öz dilini tutub dedi: **"Bu"**».

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən səhih hədisdir" demişdir.[2]

١٥١٨– وَعَن ابنِ عُمَر ﷺ قَالَ: قَالَ رسُولُ اللَّه ﷺ: « لا تُكْثِرُوا الكَلامَ بغَيْرِ ذِكْرِ اللَّهِ، فَإِنَّ كَثْرَة الكَلامِ بِغَيْرِ ذِكْرِ اللَّه تَعالَى قَسْوةٌ لِلْقَلْبِ، وإِنَّ أبْعَدَ النَّاسِ مِنَ اللَّهِ القَلبُ القَاسي ». رواه الترمذي.

1518. İbn Ömərdən ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Allahın zikri olmayan sözləri çox işlətməyin. Şübhəsiz ki, Allahın zikri olmayan sözlərin çoxluğu qəlbi sərtləşdirir. Allahdan ən uzaq olan kəslər isə qəlbi sərt olanlardır"**.

---

[1] İmam Malik, "Muvatta", 1562.

[2] "Musnəd İmam Əhməd", 4/413; "Sunən ət-Tirmizi", 2334; "Sunən İbn Macə", 3962.

Hədisi Tirmizi rəvayət etmişdir.[1]

١٥١٩– وعنْ أبي هُريرَة ﷺ قَالَ: قال رسُولُ اللَّهِ ﷺ: « مَنْ وَقَاهُ اللَّه شَرَّ مَا بيْنَ لَحْييْهِ، وشَرَّ مَا بَيْنَ رِجْلَيْهِ دَخَلَ الجنَّةَ » رَوَاه التِّرمِذي وقال: حديث حسنٌ.

1519. Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kimi Allah iki çənəsi arasındakı ilə iki budu arasındakının şərindən qoruyarsa, o, Cənnətə daxil olar".**

Hədisi Tirmizi rəvayət etmiş və demişdir: "Bu, həsən hədisdir".[2]

١٥٢٠– وَعَنْ عُقْبةَ بنِ عامِرٍ ﷺ قَالَ: قُلْتُ يا رَسول اللَّهِ مَا النَّجاةُ؟ قَال: « أمْسِكْ عَلَيْكَ لِسانَكَ، وَلْيَسَعْكَ بيْتُكَ، وابْكِ على خَطِيئَتِكَ » رواه الترمذي وقالَ: حديثٌ حسنٌ.

1520. Rəvayət olunur ki, Uqbə ibn Amir ﷺ demişdir: «Mən dedim: "Ey Allahın elçisi, qurtuluş nədədir?" Dedi: **"Dilini qoru, evində qərar tut və səhvlərin üçün ağla"**».

Hədisi Tirmizi rəvayət etmiş və demişdir: "Bu, həsən hədisdir".[3]

١٥٢١– وعن أبي سَعيدٍ الخُدْرِيّ ﷺ عن النبي ﷺ قَالَ: « إذا أَصْبح ابْنُ آدم، فَإنَّ الأعْضَاءَ كُلَّهَا تُكَفِّرُ اللِّسانَ، تَقُولُ: اتّقِ اللَّه فينَا، فَإنَّما نحنُ بِكَ: فَإنِ اسْتَقَمْتَ اسَتقَمْنا وإنِ اعْوججت اعْوَججْنَا » رواه الترمذي.

معنى « تُكَفِّرُ اللِّسَان »: أَي تَذِلُّ وتَخْضعُ لَهُ.

1521. Əbu Səid əl-Xudridən ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Səhər açıldıqda Adəm oğlunun əzaları onun dilinə belə deyirlər: – Bizə görə Allahdan qorx, biz səndən asılıyıq. Sən düz olsan, biz də düz olarıq, sən əyri olsan, biz də əyri olarıq".**

Hədisi Tirmizi rəvayət etmişdir.[4]

[Hədisin ərəbcəsindəki] "tukəffirul-lisan" sözünün mənası "ona tabe olurlar" anlamındadır.

---

[1] "Sunən ət-Tirmizi", 2335.

[2] "Sunən ət-Tirmizi", 2333.

[3] "Sunən ət-Tirmizi", 2330.

[4] "Sunən ət-Tirmizi", 2331.

١٥٢٢– وعنْ مُعاذ ﷺ قال: قُلْتُ يا رسُول اللَّهِ أخبرني بِعَمَلٍ يُدْخِلُني الجَنَّة، ويُبَاعِدُني عن النَّارِ؟ قَال: « لَقدْ سَأَلْتَ عنْ عَظِيمٍ، وإنَّهُ لَيَسِيرٌ عَلى منْ يَسَّرَهُ اللَّه تَعَالى علَيهِ: تَعْبُد اللَّه لا تُشْرِكُ بِهِ شَيْئاً، وتُقِيمُ الصَّلاةَ، وتُؤتي الزَّكَاةَ، وتصُومُ رمضَانَ وتَحُجُّ البَيْتَ إن استطعت إِلَيْهِ سَبِيْلاً، ثُمَّ قَال: « ألا أدُلُّك عَلى أبْوابِ الخَيْرِ؟ الصَّوْمُ جُنَّةٌ.،الصَّدَقةٌ تطْفِيءُ الخَطِيئة كما يُطْفِيءُ المَاءُ النَّار، وصلاةُ الرَّجُلِ منْ جوْفِ اللَّيْلِ » ثُمَّ تَلا: {تتجافى جُنُوبهُمْ عَنِ المَضَاجِعِ } حتَّى بلَغَ { يعْمَلُونَ } [السجدة: ١٦]. ثُمَّ قال: « ألا أُخْبِرُكَ بِرَأسِ الأمْرِ، وعمودِهِ، وذِرْوةِ سَنامِهِ » قُلتُ: بَلى يا رسول اللَّهِ: قَالَ: « رأْسُ الأمْرِ الإسْلامُ، وعَمُودُهُ الصَّلاةُ. وذروةُ سنامِهِ الجِهَادُ » ثُمَّ قال: « ألا أُخْبِرُكَ بِمِلاكِ ذلكَ كله؟» قُلْتُ: بَلى يا رسُولَ اللَّهِ. فَأَخذَ بِلِسَانِهِ قالَ: « كُفَّ علَيْكَ هذا » قُلْتُ: يا رسُولَ اللَّهِ وإنَّا لمُؤَاخَذون بمَا نَتَكلَّمُ بِهِ؟ فقَال: ثَكِلتْكَ أُمُّكَ، وهَلْ يَكُبُّ النَّاسَ في النَّارِ على وَجُوهِهِم إلاَّ حصَائِدُ ألْسِنَتِهِمْ؟ ».رواه الترمذي وقال: حدِيثٌ حسنٌ صحيحٌ، وقد سبق شرحه.

1522. Rəvayət olunur ki, Müaz ﷺ demişdir: «Mən dedim: "Ey Allahın elçisi, mənə elə bir əməl öyrət ki, məni Cəhənnəmdən uzaqlaşdırıb Cənnətə daxil etsin". O buyurdu: **"Çox böyük, mühüm bir məsələni məndən soruşdun. Bu isə Uca Allahın asanlaşdırdığı kimsələr üçün asan olar. Bunun üçün Allaha ibadət et, Ona heç bir şeyi şərik qoşma, namaz qıl, zəkat ver, Ramazan orucunu tut və Allahın Evinə həcc et"**– buyurdu və: **"Sənə xeyir qapılarını da göstərimmi?"**– deyə soruşdu. Dedim: "Bəli, ey Allahın elçisi". Buyurdu ki: **"Oruc qalxandır; sədəqə suyun atəşi söndürüb yox etməsi kimi, xətaları yox edər. İnsanın gecə vaxtı qıldığı namaz isə salehlərin şüarıdır"**. Bunu dedikdən sonra bu ayəni oxudu: **"Onlar ibadət etmək üçün gecə vaxtı yataqlarından qalxar, Rəbbinin əzabından qorxaraq və rəhmətini ümid edərək Ona dua edərlər və onlara verdiyimiz ruzilərdən sərf edərlər".**[1] Sonra soruşdu: **"Sənə bu işin (dinin) başını, dirəyini və zirvəsini xəbər verimmi?"** Dedim: "Bəli, ey Allahın elçisi". **"Elə isə dinlə"**– buyurdu və belə dedi: **"Bu işin başı İslamdır, dirəyi namazdır, zirvəsi də cihaddır"**. Sonra yenə soruşdu: **"Sənə nəyin bütün bunları qoruyacağını xəbər verimmi?"** Dedim: "Bəli, ey Allahın

[1] "əs-Səcdə" surəsi, 16.

elçisi". **"Buna sahib ol"**– dedi və əli ilə dilinə işarə etdi. Mən soruşdum: "Ey Allahın elçisi, biz danışdıqlarımızdan da hesaba çəkiləcəyik?" Allahın elçisi ﷺ dedi: **"Anan səni itirsin, ey Müaz! İnsanları üzüstə süründürərək atəşə atan, onları fəlakətə sürükləyən səbəb dilləri ilə qazandıqlarından başqa nədir ki?"**

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən səhih hədisdir" demişdir.[1]

Şərh:

Müəllifin ﷺ qeyd etdiyi bu hədislərin hamısı dilin fəsadlarından çəkindirir. Ola bilsin ki, insan önəm vermədən Allahı qəzəbləndirəcək bir söz söyləsin və həmin sözün nə qədər böyük günah olduğunu heç düşünməsin. Allah da həmin sözə görə ona Qiyamətədək qəzəbini yazmış olsun. Bütün bu hədislər dilin şərindən və fəsadlarından çəkindirir. Bu xüsusda demişlər ki;

Dilini qoru və sus ki, bəla gəlməsin,
Heç şübhəsiz, bəla danışığa görə gəlir.[2]

Bir çoxları bilmədən özü üçün şər diləmiş olur, yaxud bilmədən övladına, mal-dövlətinə bəddua edir, dostuna, qohumuna bəddua edir. Ola bilsin, həmin bəddua açıq bir qapıya təsadüf edir və həmin dua qəbul olunur.

Müaz ibn Cəbəl ﷺ danışır ki, Peyğəmbər ﷺ ona belə dedi: **"Sənə nəyin bütün bunları qoruyacağını xəbər verimmi?"** Dedim: "Bəli, ey Allahın elçisi". **"Buna sahib ol"**– dedi və əli ilə dilinə işarə etdi. Mən soruşdum: "Ey Allahın elçisi, biz danışdıqlarımızdan da hesaba çəkiləcəyik?" Allahın elçisi ﷺ dedi: **"Anan səni itirsin, ey Müaz!".** Bu, məsələnin nə qədər ciddi olduğunu göstərir. "**İnsanları üzüstə süründürərək atəşə atan, onları fəlakətə sürükləyən səbəb dilləri ilə qazandıqlarından başqa nədir ki?"**

Odur ki, əziz qardaşım, çalış dilini qoruyasan. Dili qorumaq dedikdə insanın öz dilini yalandan, hiylədən, yalandan, söz gəzdirməkdən, qeybətdən qoruması, habelə izzət və cəlal sahibi Allahdan uzaqlaşdıran və onun əzabını vacib edən əməllərdən çəkinmək nəzərdə tutulur. İnsan bütün bu

[1] "Musnəd İmam Əhməd", 5/231; "Sunən ət-Tirmizi", 2541; "Sunən İbn Macə", 3963.

[2] "Feydul-qadir", 3/223. Bu beyt əl-Kasaniyə nisbət olunur.

əməllərdən çəkinməlidir. Allahdan diləyirik ki, işimizin əsasını təşkil edən dinimizi bizlər və sizlər üçün qorusun. Şübhəsiz ki, O, hər şeyə Qadirdir.

١٥٢٣– وعنْ أبي هُرَيرةَ ﷺ أنَّ رسُول اللَّه ﷺ قال: « أَتَدْرُونَ ما الغِيبةُ؟» قَالُوا: اللَّه ورسُولُهُ أَعْلَمُ. قال: « ذِكرُكَ أَخَاكَ بما يكْرَهُ » قِيل: أَفرأيْتَ إن كان في أخِي ما أَقُولُ؟ قَالَ: « إنْ كانَ فِيهِ ما تقُولُ فَقَدِ اغْتَبْته، وإنْ لَمْ يكُن فِيهِ ما تَقُولُ فَقَدْ بهتَّهُ » رواه مسلم.

1523. Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ soruşdu: **"Qeybət nədir, bilirsinizmi?"**. Səhabələr cavab verdi: **"Allah və Rəsulu daha yaxşı bilir"**. Rəsulullah ﷺ dedi: **"Qardaşınızın xoşuna gəlmədiyi şeyi söyləməkdir"**. Səhabələrdən biri soruşdu: "Bəs əgər söylədiklərim onda varsa, onda necə?" Allahın Rəsulu ﷺ da: **"Əgər söylədiklərin onda varsa, qeybət etmiş olursan, əgər yoxdursa, onda ona iftira etmiş olursan"–** cavabını verdi".

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٥٢٤– وعنْ أبي بكْرةَ ﷺ أنَّ رسُول اللَّه ﷺ قال في خُطْبتِهِ يوْم النَّحر بِمنىً في حجَّةِ الودَاعِ: « إنَّ دِماءَكُم، وأمْوالَكم وأعْراضَكُم حرامٌ عَلَيْكُم كَحُرْمة يومِكُم هذا، في شهرِكُمْ هذا، في بلَدِكُم هذا، ألا هَلْ بلَّغْت » متفقٌ عليه.

1524. Əbu Bəkradan ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ Vida həccində, Qurban bayramı günü Minada demişdir: **"Şübhəsiz ki, qanlarınız, mallarınız və namuslarınız bu gününüz, bu ayınız və bu şəhəriniz haram olduğu kimi, sizlərə haramdır. Çatdırdımmı?!"**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.

١٥٢٥– وعنْ عائِشة ﷺ قَالَتْ: قُلْتُ للنبي ﷺ حسْبُك مِنْ صفِيَّة كذا وكَذَا قَال بعْضُ الرُّواةِ: تعْني قَصِيرةٌ، فقال: « لقَدْ قُلْتِ كَلِمةً لو مُزّجت بماءِ البحْر لمَزَجَتْه، » قَالَتْ: وحكَيْتُ له إنساناً فقال: « ما أحِبُّ أني حكَيْتُ إنْساناً وإنَّ لي كذا وَكَذَا ». رواه أبو داود، والترمذي وقال: حديثٌ حسنٌ صحيحٌ.

[1] "Səhih Muslim", 4690.

ومعنى: « مزَجَتْهُ » خَالطته مُخَالَطة يَتغَيَّرُ بهَا طَعْمُهُ، أوْ رِيحُهُ لِشِدةِ نتنها وقبحها، وهَذا مِنْ أبلغَ الزَّواجِرِ عنِ الغِيبَةِ، قَال اللَّهُ تَعالى: { وما ينْطِقُ عنِ الهَوى، إن هُوَ إلا وحْيٌ يوحَى } [النجم: ٤]

1525. Rəvayət olunur ki, Aişə ﵂ demişdir: "Mən Peyğəmbərə ﷺ dedim ki, filan-filan Safiyyə". [Bəzi ravilər demişlər ki, Aişə onun balaca-boy olduğunu dedi.] Dedi: **"Sən elə bir söz söylədin ki, dənizin suyuna qarışsaydı, onu bulandırardı"**. Aişə deyir ki, birisi barədə ona danışdım. Dedi: **"Filan-filan işlərim varkən, kiminsə barədə danışmağı sevmirəm"**.

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən səhih hədisdir" demişdir.

[Hədisin ərəbcəsindəki] "məzəctuhu" sözü "dadı və qoxusu dəyişənədək bulanmaq" mənasındadır və qeybətin ən bəlağətli vəsflərindəndir. Uca Allah buyurur: **"O, havadan danışmır, danışdıqları da bir vəhydir"**.[1]

١٥٢٦– وَعَنْ أنَسٍ ﵁ قالَ: قَالَ رسُولُ اللَّهِ ﷺ: « لمَّا عُرِجَ بي مررْتُ بِقَوْمٍ لهُمْ أظْفَارٌ مِن نُحاسٍ يَخمِشُونَ بهَا وجُوهَهُمْ وَصُدُورَهُم، فَقُلْتُ: منْ هؤلاءِ يَا جِبْرِيل؟ قَال: هؤلاءِ الَّذِينَ يَأْكُلُونَ لُحُوم النَّاسِ، ويَقَعُون فِي أعْراضِهِمْ، » رواهُ أبو داود.

1526. Rəvayət olunur ki, Ənəs ﵁ demişdir: «Rəsulullah ﷺ demişdir: **"Meraca getdikdə bir qövmlə rastlaşdım. Onların misdən dırnaqları var idi və onlar dırnaqları ilə üzlərini və sinələrini cırırdılar. Mən dedim: "Bunlar kimdir, ey Cəbrail?" Dedi: "Bunlar insanların ətlərini yeyənlər və namuslarına toxunanlardır"».**

Hədisi Əbu Davud rəvayət etmişdir.[2]

١٥٢٧– وعن أبي هُرَيْرة ﵁ أنَّ رسُول اللَّه ﷺ قَالَ: « كُلُّ المُسلِمِ عَلى المُسْلِمِ حرَامٌ: دَمُهُ وعِرْضُهُ وَمَالُهُ ». رواهُ مسلم.

1527. Əbu Hureyradan ﵁ nəql olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Hər bir müsəlmanın qanı, namusu və malı digər müsəlmanlara haramdır"**.

---

[1] "ən-Nəcm" surəsi, 3-4.

[2] "Musnəd İmam Əhməd", 3/224; "Sunən Əbu Davud", 4235.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Şərh:

Müəllifin ﵀ "Qeybətin haram olması və dili qorumağın əmr edilməsi" fəslində qeyd etdiyi digər hədislər də bunlardır. Bu hədislər bir sıra məsələləri əhatə edir. Onlardan birində qeybətin tərifi var. Belə ki, qeybət, qardaşının dinində, əxlaqında, bədənində, ailəsində və başqa məsələlərdə xoşlanmadığı sözü deməyindir. Yalnız nəsihət etmək istisnadır. Məsələn, birisi başqa bir adamla birlikdə iş görmək istəyir, sən də bilirsən ki, həmin adam iş görüləsi adam deyil, yəni həmin adam kələkbaz, yalançı və ya buna bənzər başqa bir mənfi xasiyyətə malik birisidir. Sən də istəyirsən ki, o adamın eyibini bəyan edəsən. Bunda qəbahət yoxdur. Bunun dəlili Fatimə bint Qeysdən nəql olunmuş hədisdədir:

Bir dəfə o, ona elçi gələn Müaviyə ibn Əbu Sufyan, Əbu Cəhm və Usamə ibn Zeydlə bağlı Peyğəmbərdən ﷺ məsləhət almaq istəyir, Peyğəmbər ﷺ də ona belə deyir: **"Əbu Cəhmə gəlincə, o, əsasını belindən yerə qoymur (yəni arvad döyəndir). Müaviyə isə yoxsuldur və pulu yoxdur. Sən Usamə ilə evlən"**.[2] Bu nəsihət məqsədi ilədir və deyilməsi caizdir.

Bu hədislərdə həm də Peyğəmbərlə ﷺ səhabələr arasında baş vermiş ən böyük toplantıda – Vida həccində onun müsəlmanların qanlarının, mallarının və namuslarının haram olmasını bəyan etməsi də qeyd olunmuşdur. Onunla həcc edənlərin sayı təxminən yüz min nəfər civarında idi. Peyğəmbər ﷺ onlara belə demişdi: **"Şübhəsiz ki, qanlarınız, mallarınız və namuslarınız bu gününüz, bu ayınız və bu şəhəriniz haram olduğu kimi, sizlərə haramdır. Çatdırdımmı?!"** Onlar: "Bəli" dedilər, Peyğəmbər ﷺ də: **"Allahım, şahid ol!"**– dedi.

Bu hədislərdə həm də qardaşının xoşuna gəlməyən bir sözü söyləməyin, hətta onun xilqəti ilə bağlı "uzun" və ya "balacaboy" kimi sözlərlə deyilməsinin də qeybət və haram olması açıqlanır. Necə ki, Aişədən ﵂ nəql olunmuş hədisdə o, möminlərin anası Safiyyə bint Huyey bint Əxtab ﵂ barəsində Rəsulullaha ﷺ: "Safiyyə belədir" (yəni balacaboydur) dedikdə,

[1] "Səhih Muslim", 4650.

[2] "Səhih Muslim", 2709.

o dedi: **“Sən elə bir söz söylədin ki, əgər dənizə qarışsa, onun suyunu bulandırardı”.** Yənu bu elə bir böyük sözdür ki, dənizə daxil olsa, onun suyuna təsir edər. Söz özlüyündə kiçik olsa da, təsiri olduqca böyük və zərərlidir. Çünki onun bu sözü ilə Peyğəmbərdə ﷺ Safiyyəyə qarşı nifrət oyana bilər. Böyük söz olduğu üçün də təsiri böyükdür.

Merac günü Peyğəmbərin ﷺ gördüyü cəza da buna aiddir. Belə ki, o, bir qövmün yanından keçərkən görür ki, onların misdən dırnaqları var və onlar həmin dırnaqlarla üzlərini və sinələrini cırırlar. Soruşdu ki, ey Cəbrail, bunlar kimlərdir? Dedi ki, bunlar insanların namuslarına toxunanlardır – insanların ətlərini yeyir və onların haqlarına girirlər.

Xülasə, insan gərək dilini qorusun, Allaha və axirət gününə iman gətiribsə, yalnız xeyirli sözlər danışsın. Peyğəmbər ﷺ demişdir: **“Kim Allaha və axirət gününə iman gətirmişsə ya xeyir söz söyləsin, ya da sussun”**.

Allah bizi və sizi Öz qəzəbindən qorusun, bizi və sizi onu zikr etməyə, Ona şükür etməyə və Ona ibadət etməyə müvəffəq etsin.

İki yüz əlli beşinci fəsil

Qeybəti dinləməyin haramlığı, haram qeybət eşidən adamın bunu rədd etməsi, onu söyləyənə irad bildirməsi, aciz olduqda isə həmin məclisi tərk etməsi

Mövzu ilə əlaqəli ayələr:
Uca Allah belə buyurur:

﴿ وَإِذَا سَمِعُواْ ٱللَّغۡوَ أَعۡرَضُواْ عَنۡهُ ﴾

"Onlar lağlağı eşitdikləri zaman ondan üz çevirirlər".[1]

﴿ وَٱلَّذِينَ هُمۡ عَنِ ٱللَّغۡوِ مُعۡرِضُونَ ﴾

"O kəslər ki, sözbazlıqdan qaçırlar".[2]

﴿ إِنَّ ٱلسَّمۡعَ وَٱلۡبَصَرَ وَٱلۡفُؤَادَ كُلُّ أُوْلَٰٓئِكَ كَانَ عَنۡهُ مَسۡـُٔولٗا ﴾

"Qulaq, göz və ürək – bunların hamısı *sahibinin əməlləri* barəsində sorğu-sual olunacaqdır".[3]

﴿ وَإِذَا رَأَيۡتَ ٱلَّذِينَ يَخُوضُونَ فِيٓ ءَايَٰتِنَا فَأَعۡرِضۡ عَنۡهُمۡ حَتَّىٰ يَخُوضُواْ فِي حَدِيثٍ غَيۡرِهِۦۚ وَإِمَّا يُنسِيَنَّكَ ٱلشَّيۡطَٰنُ فَلَا تَقۡعُدۡ بَعۡدَ ٱلذِّكۡرَىٰ مَعَ ٱلۡقَوۡمِ ٱلظَّٰلِمِينَ ﴾

"Ayələrimizi lağlağıya qoyanları gördüyün zaman onlar başqa söhbətə keçənə qədər onlardan üz çevir. Əgər şeytan *bunu* sənə unutdursa, xatırladıqdan sonra zalım tayfa ilə birgə oturma".[4]

---

[1] "əl-Qəsəs" surəsi, 55.
[2] "əl-Muminun" surəsi, 3.
[3] "əl-İsra" surəsi, 36.
[4] "əl-Ənam" surəsi, 68.

Mövzu ilə əlaqəli hədislər:

١٥٢٨– وعنْ أبي الدَّرْداءِ ﷺ عنِ النبي ﷺ قالَ: « منْ ردَّ عَنْ عِرْضِ أخيهِ، ردَّ اللَّه عنْ وجْهِهِ النَّارَ يوْمَ القِيَامَةِ » رواه الترمذي وقالَ: حديثٌ حسنٌ.

1528. Rəvayət olunur ki, Əbu Dərda ﷺ demişdir: «Peyğəmbər ﷺ demişdir: **"Kim qardaşının irzini (namusunu) qoruyarsa, Qiyamət günü Allah onun üzünü oddan qoruyar"**».

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir" demişdir.[1]

١٥٢٩– وعنْ عِتْبَانَ بنِ مالِكٍ ﷺ في حدِيثِهِ الطَّويلِ المشْهورِ الَّذي تقدَّم في باب الرَّجاءِ قَالَ: قامَ النبي ﷺ يُصلِّي فَقال: « أيْنَ مالِكُ بنُ الدُّخْشُمِ؟ » فَقَال رجل: ذلكَ مُنافِقٌ لا يُحِبُّ اللَّه ورسُولَهُ، فَقَال النبي ﷺ: « لا تقُلْ ذلكَ، ألا تَراه قد قَال: لا إلهَ إلاَّ اللَّه يُريدُ بذلك وجْه اللَّه، وإن اللَّه قدْ حَرَّمَ على النَّارِ منْ قال: لا إله إلاَّ اللَّه يبْتَغِي بِذلكَ وجْهَ اللَّه » متفقٌ عليه.

1529. İtban ibn Malikdən ﷺ nəql olunmuş və "Rica" fəslində qeyd olunan uzun hədisdə o demişdir: "Bir dəfə Peyğəmbər ﷺ namaz qıldı, sonra dedi: **"Malik ibn Duxşum haradadır?"** Bir kişi dedi: "O münafiqdir, Allahı və Onun elçisini sevmir". Peyğəmbər ﷺ dedi: **"Elə demə! Məgər onun Allahın üzü xatirinə "la ilahə illəllah" dediyini eşitməmisən? Şübhəsiz ki, Allah Onun üzünün xatirinə "la ilahə illəllah" deyən adama Cəhənnəm odunu haram buyurmuşdur"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Şərh:

Müəllif Hafiz ən-Nəvəvi ﷺ "**Qeybəti dinləməyin haramlığı, haram qeybət eşidən adamın bunu rədd etməsi, onu söyləyənə irad bildirməsi, aciz olduqda isə həmin məclisi tərk etməsi"** fəslini qeyd etmişdir.

O, qeybətin haram olması, onun fəsad və təsirləri ilə bağlı ayə və hədisləri gətirdikdən sonra qeybətə qulaq asmağın haram olması fəslini qeyd etmişdir. Yəni bir insan görsə ki, birisi başqasının qeybətini edir,

[1] "Musnəd İmam Əhməd", 6/450; "Sunən ət-Tirmizi", 1854.

[2] "Səhih əl-Buxari", 407; "Səhih Muslim", 1052.

onun bunu dinləməsi haramdır. Əksinə, o bunu qadağan etməli və söhbəti dəyişməlidir. Bunu edənin savabı da böyükdür. Necə ki, Əbu Dərdadan nəql olunan hədisdə bu qeyd olunur. Adam qeybətə davam etməkdə israr edərsə, onu eşidən qalxıb oranı tərk etməlidir. Çünki Uca və nöqsansız Allah buyurur: **"*Allah* Kitabda sizə nazil etmişdir ki, Allahın ayələrinin inkar edildiyini, yaxud onlara istehza olunduğunu eşitdiyiniz zaman, *kafirlər* başqa bir söhbətə keçməyincə onlarla bir yerdə oturmayın. Yoxsa siz də onların tayı olarsınız".**[1]

Bu ona dəlildir ki, insan haram olan bir söz eşitdikdə həmin haram işi edən kəslə həmşərik olur və bu səbəbdən də həmin məclisdən qalxması ona vacib olur.

Sonra müəllif lağlağı söhbətlərdən üz döndərmək barəsində bir neçə ayə qeyd etmişdir.

Lağlağı, faydası olmayan hər bir söhbətə deyilir. Uca Allah ər-Rəhmanın qullarını vəsf edərək buyurur: **"Onlar yalandan şahidlik etməz, lağlağı məclisinə rast gəldikdə *oradan* ləyaqətlə ötüb keçərlər".**[2] Yəni həmin lağlağıya qoşulmazlar, çünki onlar belə söhbətlərə önəm verməzlər.

Sonra o, Malik ibn Duxşumla bağlı Utban ibn Malikin hədisini qeyd edir. Belə ki, bir nəfər onun haqqında Peyğəmbərin ﷺ yanında danışmış, Peyğəmbər ﷺ də ona bunu qadağan edərək belə demişdir: "**Məgər onun Allahın üzü xatirinə "la ilahə illəllah" dediyini eşitməmisən?** Axı o həm də namaz qılır". Bu da dəlildir ki, insan belə deyilsə, barəsində danışmaq qeybət sayılmır. Kafir olan kəsin qeybətini etmək olar. Lakin onun müsəlman qohumları varsa və həmin qeybətin onlara da zərəri dəyirsə, o zaman bunu etmək olmaz. Əks halda, danışa bilərsən. Fasiq bir insana gəlincə isə onun qeybətini etmək olmaz. Yalnız onun fasiqliyinin bəyan olunması məsləhətdirsə bunu etmək olar. Bu zaman həmin fasiqliyi söyləmək olar, çünki bu artıq nəsihət hesab olunur. Müvəffəq edən Allahdır.

١٥٣٠– وعَنْ كعْبِ بنِ مالكٍ رضي الله عنه في حدِيثِهِ الطَّويلِ في قصَّةِ توْبَتِهِ وقد سبقَ في باب التَّوْبةِ. قال: قال النبي ﷺ وهُو جَالِسٌ في القَوْم بِتبُوكَ: « ما فعل كَعْبُ بنُ مالك؟ » فقالَ رجُلٌ

[1] "ən-Nisa" surəsi, 140.

[2] "əl-Furqan" surəsi, 72.

مِنْ بَني سلِمَةَ: يا رسُولَ اللَّه حبسهُ بُرْداهُ، والنَّظَرُ في عِطْفيْهِ. فقَال لَهُ معاذُ بنُ جبلٍ رضي الله عنه: بِئس ما قُلْتَ، واللَّهِ يا رسُولَ اللَّهِ ما عَلِمْنا علَيْهِ إلاَّ خيْراً، فَسكَتَ رسُولُ اللَّه ﷺ.متفق عليه.

« عِطْفَاهُ » جانِباهُ، وهو إشارةٌ إلى إعجابه بنفسهِ.

1530. Kəb ibn Malik رضي الله عنه "Tövbə" fəslində keçən və onun tövbəsi barədə varid olmuş uzun hədisdə belə demişdir: "Peyğəmbər ﷺ Təbukda adamları ilə birlikdə oturmuşkən dedi: **"Kəb ibn Malik nə etdi?"** Sələmə oğullarından bir nəfər razılıqla öz çiyinlərinə baxaraq dedi: "Ey Allahın elçisi, libası onu gəlməyə qoymur". Bu vaxt Müaz ibn Cəbəl dedi: "Sənin söylədiyin necə də pis sözdür. Ey Allahın elçisi, vallahi ki, onun barəsində yalnız xeyir bilirik". Rəsulullah ﷺ da susdu".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

[Hədisin ərəbcəsindəki] "itfayhi" sözü "iki tərəfinə" deməkdir ki, bu da həmin adamın özünü bəyənməsinə işarədir.

Şərh:

Hafiz ən-Nəvəvi رحمه الله "Qeybəti dinləməyin haramlığı..." fəslində Kəb ibn Malikdən رضي الله عنه nəql olunmuş hədisi qeyd edir. Həmin hədis onun necə tövbə etməsi əhvalatından bəhs edir.

Kəb üzrsüz olaraq Təbuk döyüşünü tərk etmiş məşhur üç nəfərdən biri idi. Həmin o üç nəfər – Murara ibn ər-Rabi, Hilal ibn Umeyyə və Kəb ibn Malik Peyğəmbərə ﷺ bildirdilər ki, onlar üzrsüz olaraq döyüşə getmədilər. Peyğəmbər ﷺ Təbukdan qayıdar-qayıtmaz digər insanlar gəlib üzrxahlıq etməyə və "Vallahi ki, biz döyüşə bilmirik"– deyə and içməyə başladılar. Peyğəmbər ﷺ də onların üzrlərini qəbul edir, gizlinlərini isə Allaha həvalə edirdi. Kəb ibn Malik və digər iki nəfər isə haqqı söyləyib dedilər ki, biz heç bir üzr olmadan döyüşə qatılmamışıq. Onda Peyğəmbər onların tərk olunmasını əmr edir, müsəlmanlar da onları tərk edirlər. Onlar hətta salam verdikdə belə heç kim onların salamına cavab vermirdi. Kəb رضي الله عنه deyir ki, gəlib Peyğəmbərə ﷺ salam verdim, ancaq bilmədim o, dodaqlarını tərpədərək salama cavab verdi, ya yox. Qırx səkkiz gündən

[1] "Səhih əl-Buxari", 4066; "Səhih Muslim", 4973.

sonra Peyğəmbər ﷺ onların xanımlarına əmr edir ki, ərlərindən uzaqlaşsınlar və çıxıb öz ailələrinin yanına getsinlər. Hilal ilə Murara ibn Rabinin xanımları ehtiyacları üzündən ərlərinin yanında qaldılar. Kəbin zövcəsi isə ailəsinin yanına getdi.

Bu qəribə və əzəmətli hadisə ilə bağlı Uca Allah öz kitabında ayələr nazil etmişdir. Həmin ayələr oxunduqca oxuyanlar hər hərfinə görə on savab qazanırlar. Bu fəzilətdən üstün nə ola bilər ki? Bir insanın əhvalatını müsəlmanlar oxuyur və hər hərfinə görə on savab əldə edir. Uca Allah buyurur: **"Geri qalmış üç nəfəri də *bağışladı*. Hətta yer üzü öz genişliyinə baxmayaraq onlara dar gəlmiş, ürəkləri *kədərdən* sıxılmış və yəqin bilmişdilər ki, Allahın *əzabından*, ancaq Onun Özünə sığınmaqdan başqa çarələri yoxdur. Sonra *Allah* peşman olsunlar deyə onların tövbəsini qəbul etdi. Həqiqətən, Allah tövbələri qəbul Edəndir, Rəhmlidir".**[1]

Təbukda Peyğəmbər ﷺ oturmuş ikən Kəb barəsində soruşur, orada olanlardan biri qürrələnərək: "Ey Allahın elçisi, libasları onu məşğul edib" deyir. Həmin adamın dediyi bu sözlər şübhəsiz ki, qeybətdir. Çünki o, Kəbin xoşuna gəlməyən bir sözü demişdi. Lakin Allah onu müdafiə edəcək birini müəyyən edir və həmin adam deyir ki, o, Kəbi ancaq yaxşı birisi kimi tanıyır. Peyğəmbər ﷺ də susur.

Bu əhvalatdan belə bir fayda əldə etmək olar ki, bir kəsin başqasının qeybətini etdiyini görən insan gərək onu susdursun və ya susdurmağa cəhd etsin. Bunu etməyə qadir olduğu halda həm də güc vasitəsilə etməlidir. Məsələn, deməlidir ki, sus, Allahdan qorx! Ya da təsirli bir nəsihət etməklə bunun qarşısını almalıdır. Həmin adam qeybətə davam edərsə, o qalxıb həmin məclisi tərk etməlidir. Çünki insan xeyirxah insanların qeybətinin olunduğu bir məclisə rast gəldikdə onun ilk olaraq həmin insanları müdafiə etməsi vacibdir. Bacarmadıqda isə həmin yeri tərk etməlidir. Əks təqdirdə, günahda onlara həmşərik olacaqdır. Müvəffəq edən Allahdır.

[1] "ət-Tövbə" surəsi, 118.

İki yüz əlli altıncı fəsil

Mübah sayılan qeybət

Bil ki, mübah olan qeybət şəri cəhətdən başqa yolla əlçatmaz olan səbəblərlə olur ki, bunlar da altıdır:

Birincisi, zülmə məruz qalmaq. Məzlum olan birisi zalımın zülmündən yaxa qurtarması üçün hakimə və ya rəhbərə: "Filankəs mənə zülm edir"– deyə şikayət edə bilər.

İkincisi, münkəri dəyişdirmək və asi birisini doğru yola yönəltmək. Həmin münkəri aradan qaldıra biləcək birisinə: "Filankəs belə-belə işlər görür, onu tənbeh et" və ya buna bənzər sözlər. Əgər deyilənlərdən məqsəd həmin şəxsin islahı deyilsə, bunu etmək haramdır.

Üçüncüsü, fətva istəmək. Məsələn, qazıya deyir ki, "Atam, qardaşım, ərim və ya başqa birisi mənə haqsızlıq edib. Onun buna haqqı varmı? Bundan necə yaxa qurtara bilərəm? Haqqımı qoruyub, zülmü necə aradan qaldıra bilərəm?" Ehtiyac olduqca buna bənzər başqa suallar da verilə bilər. Lakin daha ehtiyatlı və əfzəl olanı belə deməsidir: "Bir kişi, bir şəxs və ya birinin əri belə edirsə, nə etmək lazımdır?" Bu zaman konkret bir şəxs qeyd edilmədən də nəticə əldə oluna bilər. Lakin hər bir halda müəyyən bir şəxsi qəsd etsə belə, bu caizdir. Uca Allahın izni ilə 1532 saylı hədisin şərhində bu barədə danışacağıq.

Dördüncüsü, müsəlmanları pislikdən çəkindirmək və onlara nəsihət etmək. Bunun bir neçə yolu var. Məsələn, ravi və şahidlərin cərh olunması ilə. Bu da müsəlmanların yekdil rəyi ilə caizdir, hətta ehtiyac olduğunda vacibdir. Buna başqa bir misal birisi ilə qohum olmaq, şəriklik, əmanət vermək, müamələ etmək kimi əməllərdə məsləhətləşməkdir. Məşvərət edən kəs heç bir halı gizlətməməli, nəsihət niyyəti ilə onun mənfi xüsusiyyətlərini qeyd etməlidir.

Başqa bir misal. Aqil birisi görür ki, elm tələbəsi bidətçi və ya fasiqin yanına gedib ondan elm alır və qorxur ki, elm tələbəsinə bundan zərər toxunar. Bu zaman ona nəsihət edərək onun halını bəyan etməli, niyyəti də ancaq nəsihət olmalıdır. Bu məsələyə xüsusi diqqət edilməlidir. Ola bilsin, danışan adam həsəd ucbatından bunu etsin və şeytan ona həmin əməli nəsihət kimi göstərmiş olsun. Buna diqqət yetirmək lazımdır. Ola da bilsin insan öz işində səlahiyyət sahibi olsun və bu işə ya yararlı olsun, ya

da fasiq və ya qafil olsun. Bu zaman ümumi vəzifəsi olan beləsini aradan götürüb onun yerinə yararlı birini təyin etməli, ya da halına görə ona bildirməlidir ki, qürrələnməsin, Ya da onu düzgün olana təşviq etməlidir.

Beşincisi, açıq-aşkar fasiqlik və bidət etmək. Məsələn, aşkarda şərab içmək, insanları həbs etmək, mallarını götürmək, haqsız olaraq pul yığmaq və batil işlər görmək kimi. Beləsini aşkarda etdiyi günahla vəsf etmək olar. Başqa eyiblərini isə demək haramdır. Yalnız caizliyinə başqa bir səbəb olması istisnadır.

Altıncısı, tanıtmaq. Əgər birisi kor, lal, kar, çolaq və digər buna oxşar vəsflərlə tanınırsa, onda onu elə bu cür tanıtmaq olar. Onu alçaltmaq məqsədilə belə adlandırmaq isə haramdır. Bu zaman onu başqa cür tanıda bilsə, daha yaxşı olar.

Əksər alimlər qeyd olunan bu altı səbəb üzərində ittifaq etmişlər. Onların dəlilləri isə səhih və məşhur hədislərdədir. Həmin hədislərdən bəziləri aşağıda qeyd olunacaqdır.

Şərh:

Müəllif Hafiz ən-Nəvəvi ﵀ **"Mübah sayılan qeybət"** fəslində hansı növ qeybətin caiz olduğunu qeyd etmiş və bunun üçün altı səbəb zikr etmişdir. Onun belə ətraflı açıqlamasından sonra əlavə bir şərhə ehtiyac yoxdur. Çünki onun bu sözləri doğrudur və onların dəlilləri də vardır. O həmin dəlilləri inşəAllah, qeyd edəcək, yeri gəldikcə biz də bu barədə danışacağıq. Uca Allahdan diləyirik ki, müəllif Hafiz ən-Nəvəvini bağışlasın, bizləri onunla Nəim cənnətlərində bir araya gətirsin.

١٥٣١- عَنْ عَائِشَةَ ﵂ أن رَجُلاً استأْذَن عَلى النبي ﷺ فقَالَ: « ائذَنُوا لهُ، بئس أخو العشِيرَةِ؟ » متفقٌ عليه.

احْتَجَّ بِهِ البخاري في جَوازِ غيبةِ أهلِ الفسادِ وأهلِ الرِّيبِ.

1531. Aişədən ﵂ rəvayət olunur ki, bir kişi Peyğəmbərin ﷺ yanına daxil olmaq üçün izin istədi, o da: **"Ona izin verin, necə də pis adamdır bu"**– dedi.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

[1] "Səhih əl-Buxari", 5594; "Səhih Muslim", 4693.

Buxari bu hədisi dəlil gətirərək fəsad əhlinin və şübhəli insanların qeybətinin edilməsinin caiz olduğunu bildirmişdir.

١٥٣٢– وعنْهَا قَالَتْ: قَالَ رسُولُ اللَّه ﷺ: « مَا أَظُن فُلاناً وفُلاناً يعرِفَانِ مِنْ ديننا شَيْئاً ». رواه البخاريُّ. قال الليثُ بنُ سعْدٍ أحدُ رُواةِ هذا الحَدِيثِ: هذَانِ الرَّجُلانِ كَانَا مِنَ المُنَافِقِينَ.

1532. Yenə Aişədən رضي الله عنها rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Düşünmürəm ki, filankəslə filankəs dinimizdən nə isə bilirlər"**.

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

Bu hədisin ravilərindən olan Leys ibn Səd demişdir: "Həmin iki adam münafiqlərdən idi".

١٥٣٣– وعنْ فَاطِمةَ بنْتِ قَيْسٍ رضي الله عنها قَالَتْ: أَتيْتُ النبي ﷺ، فقلت: إنَّ أبا الجَهْمِ ومُعاوِيةَ خَطباني؟ فقال رسول اللَّهِ ﷺ: « أمَّا مُعَاوِيةُ، فَصُعْلُوكٌ لا مالَ له، وأمَّا أبو الجَهْمِ فلا يضَعُ العَصا عنْ عاتِقِهِ » متفقٌ عليه.

وفي روايةٍ لمسلمٍ: « وأمَّا أبُو الجَهْمِ فضَرَّابُ للنِّساءِ » وهو تفسير لرواية: « لا يَضَعُ العَصا عَنْ عاتِقِهِ » وقيل: معناه: كثيرُ الأسفارِ.

1533. Rəvayət olunur ki, Fatimə bint Qeys demişdir: «Mən Peyğəmbərin ﷺ yanına gəlib dedim: "Əbul-Cəhmlə Müaviyə mənə elçi düşüblər". Rəsulullah ﷺ dedi: **"Müaviyə yoxsuldur, malı-mülkü yoxdur. Əbul-Cəhm isə əsasını belindən yerə qoymur"**».

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Muslimin rəvayətində: "Əbul-Cəhmə gəlincə isə o, qadın döyəndir"– deyilir ki, bu da "əsasını belindən yerə qoymur" sözünün açıqlamasıdır. Deyilənə görə, bir mənası da belədir: "Çox səfərə çıxandır".

١٥٣٤– وعن زيْد بنِ أرْقَمَ رضي الله عنه قال: خَرجْنَا مع رسولِ اللهِ ﷺ في سفَرٍ أصاب النَّاس فيهِ شِدةٌ، فقال عبدُ اللَّه بنُ أبي: لا تُنْفِقُوا على منْ عِنْد رسُولِ اللَّه حتى ينْفَضُّوا وقال: لَئِنْ رجعْنَا إلى المدِينَةِ ليُخرِجنَّ الأعزُّ مِنْها الأذَلَّ، فَأَتَيْتُ رسول اللَّه ﷺ، فَأَخْبرْتُهُ بِذلكَ،

[1] "Səhih əl-Buxari", 5607.

[2] "Səhih Muslim", 2709.

فأرسلَ إلى عبد اللَّه بن أبي فَاجْتَهَد يمِينَهُ: ما فَعَل، فقالوا: كَذَب زيدٌ رسولَ اللَّه ﷺ، فَوقَع في نَفْسِي مِمَّا قالوهُ شِدَّةٌ حتى أنْزَل اللَّه تعالى تَصْدِيقي: { إذا جاءَك المُنَافِقُون } ثم دعاهم النبي ﷺ، لِيَسْتغْفِرَ لهم فلَوَّوْا رُؤُوسَهُمْ. متفقٌ عليه.

1534. Zeyd ibn Ərqam ﵁ danışır ki: "Biz Rəsulullahla ﷺ birlikdə səfərdə idik. Həmin səfər zamanı insanlara çətinlik üz verdi. Abdullah ibn Ubey dedi: "Rəsulullahın yanındakılar dağılışmayınca onlara heç nə verməyin". Sonra dedi: "Mədinəyə qayıtdıqdan sonra aramızda güclü olanlar zəif olanları çıxaracaqlar". Mən Rəsulullahın ﷺ yanına gedib bunu ona dedim. O, Abdullah ibn Ubeyin yanına adam göndərib bu barədə soruşdu, o da and-aman elədi ki, belə bir söz deməyib. Söz yayıldı ki, "Zeyd Rəsulullaha yalan danışıb". Onların söylədikləri nəfsimə ağır gəldi. Sonra Uca Allah mənim doğruluğumu təsdiq edən ayə nazil etdi: **"Münafiqlər sənin yanına gəldikləri zaman..."**. Peyğəmbər ﷺ onları çağırdı ki, onlar üçün bağışlanma diləsin, onlar da onun önündə başlarını aşağı saldılar".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Müəllif ən-Nəvəvi ﵀ "Mübah sayılan qeybət" fəslində mövzuya aid hədisləri qeyd edir. Həmin hədislərdən birində Aişədən ﵂ rəvayət olunur ki, bir kişi Peyğəmbərin ﷺ yanına daxil olmaq üçün izin istədi, o da dedi: **"Ona izin verin, necə də pis adamdır bu"**.

Oxşar rəvayətdə: **"Həmqəbiləmin oğlu necə də pis adamdır"–** deyilir. Həmin adam fəsad əhlindən idi. Bu hədis də dəlildir ki, fəsad əhlinin qeybətini etmək olar. Məqsəd də insanların ona aldanmaması və ondan çəkinməsidir. Görsən ki, fəsad əhlindən birisi insanları aldatmaqla məşğuldur, insanlar da ona inanaraq aldanırlar, bu zaman onun barəsində insanlara: "O adam xeyirsizdir və fəsad əhlindəndir" deyə xəbər verməlisən ki, aldanmasınlar. Elə insanlar vardır ki, gözəl danışığı var, görünüşü səni valeh edir, danışdıqca ona qulaq asmaq istəyirsən. Lakin həmin adam xeyirsiz biridir. Ona görə beləsinin halını bəyan etmək vacibdir.

[1] "Səhih əl-Buxari", 4523; "Səhih Muslim", 4976.

Yenə Aişədən ﵂ nəql olunmuş başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: **"Düşünmürəm ki, filankəslə filankəs dinimizdən nə isə bilirlər".**

Həmin adamlar münafiqlərdən idilər. Peyğəmbər də onları pis şəkildə vəsf edərək demişdir ki, onlar dindən heç bir şey bilmirlər. Çünki münafiqlər qəlblərində Allahın dinindən heç bir şey bilmirlər. Bilsələr belə, qulaqları ilə bilir, qəlblərində isə bixəbərdirlər. Allah qorusun! Bələləri özlərini müsəlman kimi göstərsələr də, əslində kafirdirlər. Uca Allah buyurur: **"İnsanlar arasında elələri də vardır ki, mömin olmadıqları halda: "Allaha və Axirət gününə inanırıq"– deyirlər. Onlar Allahı və iman gətirənləri aldatmağa çalışırlar. Halbuki yalnız özlərini aldadır və *bunu* anlamırlar".**[1]

Müəllif daha sonra Fatimə bint Qeysin hədisini qeyd edir. Belə ki, o, məsləhət üçün Peyğəmbərin ﷺ yanına gəlmiş və üç nəfərin ona elçi düşdüyünü xəbər vermişdir: Müaviyə ibn Əbu Sufyan, Əbul-Cəhm və Usamə ibn Zeyd. Peyğəmbər ﷺ də ona dedi ki: **"Müaviyəyə gəlincə o, yoxsuldur, malı-pulu yoxdur"**. Həmin vaxt o kasıb birisi idi, lakin illər sonra müsəlmanların xəlifəsi oldu.

"Əbul-Cəhm isə qadın döyəndir". Başqa bir rəvayətdə isə: **"O, əsasını belindən kənara qoymur"**– deyilir. Hər iki cümlə eyni mənanı ifadə edir. Yəni o, qadınları ilə yaxşı davranmır və onları döyür.

Qadını döymək olmaz. Yalnız Uca Allahın bu ayədə bəyan etdiyi səbəbin olması halı istisnadır: **"Özbaşınalıq etmələrindən qorxduğunuz qadınlara nəsihət edin, yataqda onları tərk edin və onları döyün"**.[2] Lakin hər bir xırda söz-söhbətə görə qadınını döyməyin səhvdir və halal deyil. Uca Allah buyurur: **"Onlarla xoş rəftar edin".**[3] Lakin qadının özbaşınalığından və sənin üzərində böyüklənməsindən qorxsan və görsən ki, o, üzərinə düşən öhdəlikləri yerinə yetirmir, o zaman onunla aşağıdakı kimi mərhələli şəkildə davran:

İlk olaraq ona nəsihət et, onu Allahla qorxut. Bildir ki, ərin haqqını itirmək olmaz. Əgər düzələrsə, elə tələb olunan da budur.

---

[1] "əl-Bəqərə" surəsi, 8-9.

[2] "ən-Nisa" surəsi, 34.

[3] "ən-Nisa" surəsi, 19.

İkinci mərhələdə onunla yatağını ayır, onunla birlikdə yatma, ancaq danışmağı da tərk etmə. Onunla ən çoxu üç gün müddətində danışmaya bilərsən. Çünki müsəlmanın başqa bir müsəlmanı üç gündən artıq danışdırmaması, görüşdükdə hər birinin üzünü başqa tərəfə çevirməsi halal deyildir. Onlardan ən xeyirli olanı salamı birinci verəndir.

Üçüncü mərhələ. Əgər edilənlərin bir faydası olmasa, onları döyün. Ancaq bərk vurmayın, yüngülcə vurun ki, bundan ibrət götürsün.

"O, əsasını belindən kənara qoymur". Bəzilərinə görə bu cümlənin mənası odur ki, o, çoxlu səfərlər edir. Çünki o zamanlar səfərə çıxanlar dəvə üzərində əsaya ehtiyac duyurdular. Görünən isə odur ki, hər iki cümlə: "çox qadın döyən" və "əsasını belində daşıyan" eyni mənadadır. Çünki rəvayətlər bir-birilərini açıqlayır.

Sonra ona: **"Usamə ibn Zeyd *ibn Harisəyə* ərə get"**– deyə məsləhət verdi. O da ona ərə getdi və xoşbəxt oldu və ondan xeyir gördü. Bu da dəlildir ki, bir insan sənin birisi barəsində məsləhətləşdikdə onun eyiblərini söyləməyində bir qəbahət yoxdur. Çünki bu ifşa etmək deyil, nəsihət məqsədi güdür. Nəsihət məqsədilə danışanla birinin eyiblərini açaraq onu ifşa edən kəsi bir-birindən fərqləndir. Müvəffəq edən Allahdır.

Dördüncü hədis isə Zeyd ibn əl-Ərqamın hədisidir. Həmin hədisdə bildirilir ki, Peyğəmbərin ﷺ bir səfərində onunla birlikdə möminlər də var idi, münafiqlər də. Elə ki insanlar çətinliklərlə üzləşdi, münafiqlər dilə gəlib dedilər: "**Məhz onlar: "Allahın Elçisi yanında olanlara bir şey verməyin ki, dağılıb getsinlər!"– deyirlər".**[1] Yəni onlara yardım etməyin ki, ac qalsınlar və Peyğəmbərə ﷺ qarşı çıxsınlar. Onlar yalan danışırdılar. Möminlər ac və susuz qalsalar belə, onların Peyğəmbəri ﷺ tərk etmələri qeyri-mümkündür. Münafiqlərin halı isə fərqlidir: onlara sədəqələr verildikdə Peyğəmbərin ﷺ yanında olur və razı qalırlar. Sədəqə verilmədikdə isə qəzəblənirlər.

Möminlər Rəsulullahı ﷺ tərk etməzlər: "**Məhz onlar: "Allahın Elçisi yanında olanlara bir şey verməyin ki, dağılıb getsinlər"– deyirlər".** [Ayənin ərəbcəsindəki] "hətta" sözü məqsəd deyil, açıqlama mənasındadır – yəni dağılışsınlar deyə. Lakin onlar bu xüsusda yalan danışaraq demişdilər ki; **"Onlar: "Əgər biz Mədinəyə qayıtsaq, ən qüdrətlilər ən alçaqları (münafiqlər müsəlmanları) mütləq oradan çıxardacaqlar"–**

[1] "əl-Münafiqun" surəsi, 7.

deyirlər".[1] Yəni özləri – qövmləri arasında izzətli olanlar Rəsulullahın ﷺ ətrafındakıları – zəlil olanlarını çıxaracaqlar. Zeyd ibn əl-Ərqam da bunu eşidir və Peyğəmbərə ﷺ xəbər verir ki, Abdullah ibn Ubey belə demişdir. Peyğəmbər ﷺ də Abdullah ibn Ubeyin yanına adam göndərir ki, bunu dəqiqləşdirsin. O da and-aman edir, müxtəlif andlar içir ki, o belə söz deməyib. Münafiqlərin halı belədir – bilərəkdən yalandan and içirlər. O da beləcə yalandan and içir. Peyğəmbər ﷺ də onların zahirlərini qəbul edir, gizlinlərini Allaha həvalə edirdi.

Zeyd ibn əl-Ərqam bunu eşitdikdə çox pərişan olur. Çünki adam Peyğəmbərin ﷺ, daha dəqiq desək, Allahın elçisinin yanında and içmişdi. Bu Zeyd ibn əl-Ərqama çox ağır gəldi. İnsanlar söz yaydılar ki, Zeyd ibn əl-Ərqam Rəsulullaha ﷺ yalan söyləmiş, yalan xəbər gətirmişdir. Ta o vaxtadək ki, Uca Allah Zeyd ibn əl-Ərqama haqqında bu ayələri nazil etdi: **"Məhz onlar: "Allahın Elçisi yanında olanlara bir şey verməyin ki, dağılıb getsinlər!"– deyirlər. Halbuki göylərin və yerin xəzinələri Allahındır, lakin münafiqlər anlamırlar. Onlar: "Əgər biz Mədinəyə qayıtsaq, ən qüdrətlilər ən alçaqları (münafiqlər müsəlmanları) mütləq oradan çıxardacaqlar!"– deyirlər. Halbuki qüdrət yalnız Allaha, Onun Elçisinə və möminlərə məxsusdur, lakin *bunu* münafiqlər bilmirlər".**[2]

İzzət və cəlal sahibi Allahın Abdullah ibn Ubeyə verdiyi cavabı barədə düşün: **"Ən qüdrətlilər ən alçaqları (münafiqlər müsəlmanları) mütləq oradan çıxardacaqlar!"** sözünə: **"Qüdrət yalnız Allaha, Onun Elçisinə və möminlərə məxsusdur"**– cavabı**.** Uca Allah demədi ki, Allah daha izzətlidir. Çünki belə olsaydı, münafiqlərin də izzət sahibi olduqları anlaşılardı. Əslində isə onların izzəti yoxdur. Əksinə O, belə buyurur: **"Halbuki qüdrət yalnız Allaha, Onun Elçisinə və möminlərə məxsusdur, lakin *bunu* münafiqlər bilmirlər".**

Bu ayə dəlildir ki, insan münafiqin dediklərini rəhbərə xəbər verə bilər ki, onun barəsində bir ölçü götürülsün. Fəsad əhlinin də sözünü əmr sahibinə çatdırmaq olar ki, fəsadı böyüməsin. Əgər insan hər hansı bir sözün fəsada səbəb olacağından qorxursa, onu əmr sahibinə çatdırmalıdır ki, fəsad yayılmadan onun qarşısı alınsın. Bu zaman düşünmə ki, qorxuram

[1] "əl-Münafiqun" surəsi, 8.

[2] "əl-Münafiqun" surəsi, 7-9.

əmr sahibi mənə və ya ona bir şey edər. Lap əgər bir şey edərsə belə, fəsada səbəb olan sözləri danışan kəs artıq cinayət etmişdir. Deməli, bu cür sözləri əmr sahibinə çatdırmaq vacibdir. Lakin əvvəlcə dəqiqləşdirmək lazımdır ki, adam pis vəziyyətdə qalmasın. Peyğəmbərin ﷺ zamanında Abdullah ibn Ubey öz dediyini dandıqda Zeyd ibn əl-Ərqamın söylədiklərini təsdiqləyən vəhy nazil oldu. Rəsulullahın ﷺ vəfatından sonra isə vəhy kəsilmişdir və indi heç bir şey sözü təsdiq və ya inkar edə bilməz. Odur ki, birisindən fəsada aparan bir söz eşitdikdə ilk öncə dəqiqləşdir, sonra isə bunu əmr sahibinə çatdır ki, fəsad yayılmasın. Müvəffəq edən Allahdır.

١٥٣٥– وعنْ عائشةَ ﵂ قالتْ: قالت هِنْدُ امْرأَةُ أبي سُفْيانَ للنبي ﷺ: إنَّ أبا سُفيانَ رجُلٌ شَحِيحُ ولَيْس يُعْطِيني ما يَكْفِيني وولَدِي إلاَّ ما أخَذْتُ مِنه، وهَو لا يعْلَمُ؟ قال: « خُذِي ما يكْفِيكِ ووَلَدَكِ بالمعْرُوفِ » متفقٌ عليه.

1535. Rəvayət olunur ki, Aişə ﵂ demişdir: «Əbu Süfyanın xanımı Hind Peyğəmbərə ﷺ dedi: "Əbu Süfyan paxıl kişidir, mənə və övladıma kifayət qədər pul vermir. Ondan gizlin nə isə götürə bilərəmmi?" Dedi: **"Özünə və övladına kifayət edəcək qədər götür"**».

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Vacib məsələlərdə paxıllıq etmək haramdır. Kim belə bir iş görərsə, zülmə məruz qalmış adam öz haqqını götürə bilər.

Bir baxın, Hind Peyğəmbərə ﷺ haqsızlığa məruz qaldığını xəbər verir, o da buyurur ki: **"Özünə və övladına kifayət edəcək qədər götür".** Beləcə ona ərinin xəbəri olmadan özünə və övladına kifayət eəcək qədər onun malından götürməyə icazə verir. Yəni bundan artıq götürməməlidir. Bu da bir neçə məsələyə dəlildir:

Həmin məsələlərdən biri, haqsızlıq edən kəsin qeybətini etməyin caiz olmasıdır. Lakin həmin qeybət yalnız haqqını alıb özünə qaytaracaq şəxsin yanında olmalıdır. Əks təqdirdə, şikayət etməyin heç bir faydası olmayacaqdır.

[1] "Səhih əl-Buxari", 4945; "Səhih Muslim", 3233.

Digər məsələ. İnsan gərək ailəsinə – xanımına və övladına pul xərclə-sin. Hətta xanımı varlı olsa belə, ər onun üçün pul xərcləməlidir. Məsələn, zövcə müəllimədir. Ər də ona şərt qoyur ki, bir şərtlə işləməyə icazə verirəm ki, aldığın maaşın nə azı, nə yarısı, nə də çoxu sənin deyil. Əslində maaş onundur, çünki müqaviləyə əsasən tədris müqabilində ona əmək haqqı verilməlidir. O da bununla razılaşmışdır. Belə olduğu halda ər onun əmək haqqından və ya mükafatından heç bir şey götürə bilməz – əmək haqqı onundur. Lakin onun dərs keçməyinə imkan verib-verməyəcəyini şərt qoymayıbsa, evləndikdən sonra da ona dərs keçməyəcəyini bildir-mişsə, bu zaman onlar istədikləri şəkildə razılığa gələ bilərlər. Misal üçün, ər deyə bilər ki, sənə dərs keçməyə bu şərtlə icazə verirəm ki, əmək haqqı-nın yarısını, və ya üçdə ikisini, yaxud dörddə üçünü və ya dörddə birini mənə verəsən. Yaxud da başqa bir şəkildə razılaşa bilərlər. Lakin əgər qadın ona dərs deyəcəyinə mane olmamasına şərti qoyubsa, əri də onu qəbul edibsə, bu zaman ərin haqqı yoxdur ki, ona bunu qadağan etsin və ya onun əmək haqqından nə isə götürsün.

Bu hədisdən götürülən daha bir fayda odur ki, birisi üzərinə düşən xərcləmək öhdəliyindən imtina edirsə, adam onun pulundan bilib-bilmə-məyindən asılı olmayaraq xərclənməsi gərək olan qədər götürə bilər. Məsələn, qadın öz ərinin cibindən özünə və övladlarına bəs edəcək miq-darda pul götürə bilər. Həmçinin ərinin çantasından və ya daxılından da onun bilib-bilməməsindən asılı olmayaraq özünə və övladına kifayət edəcək miqdarda vəsait götürə bilər.

Birisi soruşa bilər ki, mənim üzərində haqqım olan kəs bunu inkar etsə, mən də onun malından götürməyə qadir olsam haqqımı onun malın-dan götürə bilərəmmi? Cavab budur ki, caiz deyil. Bununla xərclik arasın-dakı fərq ondadır ki, xərclik insanın zəruri ehtiyacını ödəmək üçün götü-rülür və bunun səbəbi bəllidir. Hər kəs bilir ki, filankəs filankəsin zövcə-sidir və ər öz xanımına pul xərcləməlidir. Borc isə fərqlidir, o gizli məsələ-dir, insanlar bunu bilmirlər. Peyğəmbər demişdir: **"Sənə əmanət verənə əmanətini geri qaytar, sənə xəyanət edənə isə sən xəyanət etmə".**[1]

Müvəffəq edən Allahdır.

[1] "Musnəd İmam Əhməd", 3/414; "Sunən Əbu Davud", 3067; "Sunən ət-Tirmizi", 1185.

İki yüz əlli yeddinci fəsil

Söz gəzdirməyin haram olması – bu, fəsad məqsədilə insanlar arasında söz yaymaqdır

Mövzu ilə əlaqəli ayələr:
Uca Allah belə buyurur:

﴿ هَمَّازٍ مَّشَّآءِۭ بِنَمِيمٍ ﴾

"Qeybət edənə, dedi-qodu yayana".[1]

﴿ مَّا يَلْفِظُ مِن قَوْلٍ إِلَّا لَدَيْهِ رَقِيبٌ عَتِيدٌ ﴾

"Dediyi elə bir söz yoxdur ki, *onu yazmaq üçün* yanında hazır durmuş gözətçi olmasın."[2]

Mövzu ilə əlaqəli hədislər:

١٥٣٦– وعَنْ حذَيْفَةَ ﷺ قالَ: قال رسُولُ اللَّه ﷺ: « لا يَدْخُلُ الجنةَ نمَّامٌ». متفقٌ عليه.

1536. Rəvayət olunur ki, Hüzeyfə ﷺ demişdir: «Rəsulullah ﷺ demişdir: **"Söz gəzdirən adam Cənnətə girməz"**».

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

١٥٣٧– وعَنْ ابن عَباسٍ ﷺ أنَّ رَسُول اللَّهِ ﷺ: مرَّ بِقَبرَيْنِ فقال: «إنَّهُمَا يُعَذَّبان، وَمَا يُعَذَّبَانِ في كَبيرٍ، بَلى إنَّهُ كَبيرٌ: أمَّا أحَدُهمَا، فَكَانَ يمشِي بالنَّمِيمَةِ، وأمَّا الآخرُ فَكَانَ لا يسْتَتِرُ مِنْ بولِه ». متفقٌ عليه، وهذا لفظ إحدى روايات البخاري.

قالَ العُلَماءُ: معْنَى: «وما يُعَذَّبَانِ في كَبيرٍ» أيْ كبير في زَعْمِهما وقيلَ: كَبِيرٌ تَرْكُهُ عَلَيهما.

---

[1] "əl-Qələm" surəsi, 11.

[2] "Qaf" surəsi, 18.

[3] "Səhih əl-Buxari", 5596; "Səhih Muslim", 151.

1537. İbn Abbasdan ﵄ rəvayət olunur ki, Rəsulullah ﷺ iki məzarın yanından keçərkən dedi: **"Onlara əzab olunur, özü də böyük bir şeyə görə yox. Əslində isə o, böyük bir şeydir. Onlardan biri söz gəzdirərdi, digəri isə sidiyindən qorunmazdı"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər. Bu ləfz Buxariyə aiddir.[1]

Alimlər demişlər: **"özü də böyük bir şeyə görə yox"** ifadəsinin mənası odur ki, həmin adamların nəzərində bu işlər böyük deyildi. Həmçinin demişlər: "Onu tərk etmək onlar üçün böyük bir iş idi".

Şərh:

Müəllif Hafiz ən-Nəvəvi ﵀ "Mübah sayılan qeybət" fəslində faydalı olan altı məsələni qeyd etmiş, sonra da həmin məsələlərə aid dəlilləri zikr etmişdir ki, bu barədə də danışdıq. Bunlardan biri də şikayətdir, yəni zülmə məruz qalmış insanın əmr sahibinə şikayət etməsində heç bir qəbahətin olmaması. Çünki bu onun haqqıdır və başqa yolla o öz haqqını təmin edə bilmir. Buna da dəlil Əbu Süfyanın zövcəsi Hind bint Utbənin hədisidir.

O, Peyğəmbərə ﷺ belə demişdi: "Əbu Süfyan paxıl kişidir, mənə və övladıma kifayət qədər pul vermir". Burada o, ərinin paxıllığını göstərir. Bu da insanın xoşuna gəlməyən bir sözdür. Lakin o bu sözü şikayət olaraq bildirmişdi ki, məruz qaldığı zülmdən yaxa qurtarsın. Çünki hər bir kişi öz zövcəsi və övladı üçün pul xərcləməlidir. Bu zaman o nə həddini aşmamalıdır, nə də ki, haqsızlıq etməməlidir. Uca Allah bu xüsusda buyurur: **"Onlar *mallarını* xərclədikdə nə israfçılıq, nə də xəsislik edər, bunların arasında orta bir yol tutarlar".**[2]

١٥٣٨– وعن ابن مسْعُودٍ ﵁ أنَّ النبي ﷺ قال: « ألا أُنَبِّئكُم ما العَضْهُ؟ هي النَّمِيمةُ، القَالَةُ بيْنَ النَّاسِ » رواه مسلم.

1538. İbn Məsuddan ﵁ rəvayət olunur ki, Peyğəmbər ﷺ dedi: **"Sizə "əl-adah" sözünün mənasını deyimmi? Bu, söz gəzdirməkdir, insanlar arasındakı dedi-qodudur"**.

---

[1] "Səhih əl-Buxari", 1289; "Səhih Muslim", 439.

[2] "əl-Furqan" surəsi, 67.

Bu hədisi Muslim rəvayət etmişdir.

"əl-adah" sözü yalan və böhtan mənasındadır, yəni adama yalandan böhtan atmaq.

Şərh:

Müəllif ﷺ "Söz gəzdirməyin haram olması" fəslində Abdullah ibn Məsuddan Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: **"Sizə "əl-Adah" sözünün mənasını deyimmi? Bu, söz gəzdirməkdir, insanlar arasındakı dedi-qodudur".**

Bu tədris üsullarından biridir – insan dinləyicilərə sual verməklə onların diqqətini özünə cəlb edir ki, onların zehnlərini oyatsın və onlar sözə diqqət versinlər: **"Sizə "əl-Adah" sözünün mənasını deyimmi?"**

Ərəb dilində "nəbə" və "xəbər" sözü eyni mənanı daşıyır, "əl-Adah" isə cırmaq mənasındadır. Uca Allah buyurur: **"Onlar Quranı hissələrə böldülər".**[1] Yəni Quranı hissələrə böldülər – onların bir hissəsinə inanıb, digər hissəsinə isə iman gətirmədilər.

Deməli, "əl-Adah" ümməti parçalayan bir şeydir. Söz gəzdirmək insanların sözlərini aranı qarışdırmaq məqsədilə bir-birilərinə çatdırmaqdır. Bu da böyük günahlardandır. Bir dəfə Peyğəmbərə öz məzarlarında əzab çəkən iki nəfər göstərildi. Ona xəbər verildi ki, onlardan biri söz gəzdirərdi. Bəzi insanlar – Allah qorusun! – fitnəyə uyaraq söz yaymaqla məşğul olur. Bununla da insanlar arasında hörmətli olmağa çalışır. Birinin yanına gedib deyir: "Filankəs sənin barəndə belə-belə deyir". Ola bilsin, doğru deyir, bəlkə də yalan deyir. Hətta söylədiyi sözlər doğru olsa belə, bu əməl haramdır və böyük günahlardandır. Uca Allah belə bir insana itaət olunmasını qadağan etmişdir: **"İtaət etmə hər tez-tez and içənə, alçağa, qeybət edənə, dedi-qodu yayana".**[2]

Bəzi alimlər demişlər ki, birisi sənə söz gətirirsə, bil ki, səndən də başqasına söz aparır. Yəni kim sənə insanlar haqqında danışırsa, bil ki, sənin barəndə də onlara danışır. Ondan həzər et, ona itaət etmə, ona tərəf boylanma.

---

[1] "əl-Hicr" surəsi, 91.

[2] "əl-Qələm" surəsi, 10-11.

Bu, Peyğəmbərin ﷺ gözəl təlim üslubudur. Belə ki, o, müraciət olunan kəsin diqqətini cəlb edən üsluba əl atır. Ələlxüsus da əgər dinləyicinin fikri yayınıbsa, ona elə bir üslubda yanaşmaq lazımdır ki onun diqqətini cəlb edə biləsən. Çünki xitabın məqsədi onun anlaması və öyrənməsidir. İnsan da bunun üçün faydalı üslublardan istifadə etməlidir.

Kimsə soruşa bilər ki, əgər birisi başqasının sözünü nəsihət məqsədilə gəzdirirsə, onda necə? Məsələn, görür ki, bir adam digərinə etibar edib sirlərini ona danışır. Həmin adam isə onun sirlərini başqalarına çatdırmaqla onu aldadır. Beləsi barəsində danışmaq olarmı?

Cavab: Bəli, danışmaq olar. Deyə bilər ki, bu adamdan çəkin. Bu adam sənin sözünü yayır və sənin barəndə belə-belə deyir. Çünki bu, nəsihətdir və bunda məqsəd insanların arasını vurmaq deyil, həmin adama nəsihət verməkdir. Uca Allah buyurur: **"Allah fəsad törədəni yaxşılıq edəndən *ayırd edə* bilir".**[1] Müvəffəq edən Allahdır.

[1] "əl-Bəqərə" surəsi, 220.

İki yüz əlli səkkizinci fəsil

Fəsad qorxusu kimi bir səbəb olmadıqca, insanların söhbətlərini əmr sahiblərinə çatdırmağın qadağan olunması

Mövzu ilə əlaqəli ayə:
Uca Allah belə buyurur:

﴿ وَلَا تَعَاوَنُوا۟ عَلَى ٱلْإِثْمِ وَٱلْعُدْوَٰنِ ﴾

“Günah işlər görməkdə və düşmənçilik etməkdə bir-birinizə köməkçi olmayın”.[1]

Mövzu ilə əlaqəli bəzi hədislər əvvəlki fəsildə qeyd olunmuşdur.

١٥٣٩– وعن ابن مَسْعُودٍ رضي الله عنه قالَ: قالَ رَسُولُ اللَّهِ ﷺ: « لا يُبَلِّغْني أحدٌ من أصْحابي عنْ أحَدٍ شَيْئاً، فَإنِّي أُحِبُّ أنْ أَخْرُجَ إِلَيْكُمْ وأنا سليمُ الصَّدْرِ » رواه أبو داود والترمذي .

1539. Rəvayət olunur ki, İbn Məsud رضي الله عنه demişdir: «Rəsulullah ﷺ dedi: **“Səhabələrimdən heç kim digəri barədə mənə xəbər çatdırmasın. Mən sizin yanınıza çıxarkən qəlbi açıq olmağı sevirəm”**».
Hədisi Əbu Davud və Tirmizi rəvayət etmişlər.[2]

Şərh:
Müəllif رحمه الله **“Fəsad qorxusu kimi bir səbəb olmadıqca, insanların söhbətlərini əmr sahiblərinə çatdırmağın qadağan olunması”** fəslini qeyd edir və demək istəyir ki, zərurət olmadıqca insanların söhbətlərini əmr sahiblərinə çatdırmaq lazım deyil. Çünki məsləhət olmadan insanların söhbətini əmr sahiblərinə çatdırmaq, barəsində danışılan şəxslə ədavətə səbəb olar, ya da əmr sahibləri həqiqətə müvafiq olmayan nəticəyə gələ bilərlər. Elə düşünə bilərlər ki, insanlar onlara nifrət bəsləyir və onları təhqir edirlər. Odur ki, belə söhbətləri əmr sahiblərinə çatdırmaq lazım

[1] “əl-Maidə” surəsi, 2.
[2] “Musnəd İmam Əhməd”, 1/395; “Sunən Əbu Davud”, 4218; “Sunən ət-Tirmizi”, 3831.

deyil. Yalnız bu məsləhət olduqda və buna zərurət yaranarsa, fəsada səbəb olacaq sözü əmr sahibinə çatdırmaq lazımdır. Məsələn, birisi məclislərdə əmr sahiblərinin əleyhinə danışaraq onları söyür. Belə bir sözü əmr sahibinə çatdırmaq məsləhət deyil. Çünki bu, söylədiyim kimi, fəsada yol açа bilər. Yəni həmin adama qarşı ədavət yarana bilər, əmr sahibləri də insanların onlara nifrət etdiyini düşünə bilərlər. İnsanlar onlara nifrət edir və onlar da lazımi şəkildə idarə edə bilmir, müsəlmanların haqlarını qoruya bilmirlər. Lakin fəsadın qarşısını almaq və fayda əldə etmək üçün insanların sözlərinin əmr sahiblərinə çatdırılmasına zərurət olarsa, bu zaman həmin sözləri əmr sahiblərinə çatdırmaq lazımdır. Əgər görsək ki, bir adam əmr sahiblərinin günah və asilikləri, habelə buna bənzər başqa işləri barəsində danışır və bunu insanlar arasında yayır, bu barədə əmr sahiblərinə xəbər verilməlidir. Çünki bu həmin adam üçün bir nəsihətdir ki, həddi aşmasın və əmr sahiblərinə qarşı çıxmasın. Həm də nəsihətdir ki, insanlar əmr sahiblərinə qarşı nifrət etməsinlər. Fəsad əhlini etdiyi əməllər və bu cür danışıqlarla birlikdə başlı-başına buraxmaq və bunun qarşısını almamaq isə xeyirə deyil, böyük fəsadlara səbəb olur.

Xülasə, Hafiz ən-Nəvəvi ﵀ bu fəsildə insanların söhbətlərinin fəsad qorxusu kimi səbəbi olmadan, lazım olmadıqca əmr sahiblərinə çatdırılmasının qadağan olunmasını izah edir. Məsləhət olduqda isə şərin, fəsadın və həddi aşmanın qarşısını almaq üçün dəqiqləşdirdikdən sonra sözləri əmr sahiblərinə çatdırmaq olar. Bununla da əmr sahibləri həmin fəsadın qarşısını almış olarlar. İnsanlar istədiklərini danışmaqla başlı-başına buraxılmış olsalar, bu böyük fəsadlara yol açа bilər.

Sonra müəllif bu fəslin mövzusuna aid bir ayə və bir hədis dəlil gətirmişdir. Ayəyə gəlincə, Uca Allah buyurur: **“Günah işlər görməkdə və düşmənçilik etməkdə bir-birinizə köməkçi olmayın”.**[1]

Günah işlər və düşmənçilikdəndir ki, insan müəyyən bir adamın sözlərini zərurət olmadan əmr sahiblərinə çatdırsın. Çünki bu zaman qeyd etdiyimiz kimi, əmr sahibləri tərəfindən həmin insana qarşı şəri səbəb olmadan ədavət yarana bilər.

[1] “əl-Maidə” surəsi, 2.

Hədisə gəlincə isə, İbn Məsuddan رضي الله عنه nəql olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Səhabələrimdən heç kim digəri barədə mənə xəbər çatdırmasın. Mən sizin yanınıza çıxarkən qəlbi açıq olmağı sevirəm".** Bu da Rəsulullahın ﷺ hikmətindəndir ki, heç kim gəlib insanların sözlərini ona çatdırmasın ki, onun qəlbində həmin insana qarşı bir şey yaranmasın. O, onların arasına çıxarkən qəlbi rahat olmaq istəyirdi.

Bəzən insan bir adamı sevir, onu təqdir edir, onun səxavətli olduğu qənaətində olur. Sonra həmin adam barəsində ona bəzi sözlər çatdırılır və o, həmin adama nifrət edir, ondan uzaqlaşır. Lakin əvvəldə də dediyimiz kimi, bu haqda yalnız məsləhət olduqda danışmaq lazımdır ki, fəsad yayılmasın və fitnələr baş qaldırmasın. Müvəffəq edən Allahdır.

İki yüz əlli doqquzuncu fəsil

İkiüzlülüyün pis əməl olması

Mövzu ilə əlaqəli ayə:
Uca Allah belə buyurur:

﴿ يَسۡتَخۡفُونَ مِنَ ٱلنَّاسِ وَلَا يَسۡتَخۡفُونَ مِنَ ٱللَّهِ وَهُوَ مَعَهُمۡ إِذۡ يُبَيِّتُونَ مَا لَا يَرۡضَىٰ مِنَ ٱلۡقَوۡلِ وَكَانَ ٱللَّهُ بِمَا يَعۡمَلُونَ مُحِيطًا ﴾

"Onlar *öz günahlarını* insanlardan gizlədir, Allahdan isə çəkinmirlər. Halbuki onlar *Allahın* razı qalmadığı sözləri gecələr xəlvətdə söylədikləri vaxt belə, O, onların yanında olur. Allah onların nə etdiklərini əhatə edir".[1]

Mövzu ilə əlaqəli hədislər:

١٥٤٠– وعن أبي هُريرةَ ﷺ قالَ: قالَ رسُولُ اللَّهِ ﷺ: « تَجدُونَ النَّاسَ معادِنَ: خِيارُهُم في الجاهِلِيَّةِ خيارُهُم في الإسْلامِ إذا فَقُهُوا، وتجدُونَ خِيارَ النَّاسِ في هذا الشَّأنِ أشدَّهُمْ لهُ كَراهِيةً، وتَجدُونَ شَرَّ النَّاسِ ذا الوجْهيْنِ، الذي يأتي هؤلاءِ بِوجْهِ وَهؤلاءِ بِوَجْهِ » متفقٌ عليه.

1540. Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"İnsanların mədən kimi olduqlarını görərsən – onlardan cahiliyyət dövründə xeyirli olanları, islama gəldikdən sonra da anladıqları təqdirdə xeyirli olarlar. Bu işdə ən xeyirli olanların ona (cahiliyyəyə) ən çox nifrət edənlərin olduğunu görərsən. İnsanların ən pisinin isə ikiüzlülər olduğunu görərsiniz. O kəs ki, bunların yanına bir üzlə gəlir, o birilərin yanına ikinci üzlə".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

---

[1] "ən-Nisa" surəsi, 108.

[2] "Səhih əl-Buxari", 5598; "Səhih Muslim", 4588.

١٥٤١– وعنْ محمدِ بن زَيْدٍ أنَّ نَاسًا قَالُوا لجَدِّهِ عبدِ اللَّه بنِ عُمْرو رضي الله عنهما: إنَّا نَدْخُلُ عَلَى سَلاطِيننا فنقولُ لهُمْ بِخلافِ ما نتكلَّمُ إذَا خَرَجْنَا مِنْ عِندِهِمْ قال: كُنَّا نعُدُّ هذا نِفَاقاً عَلى عَهْدِ رسولِ اللَّه ﷺ. رواه البخاري.

1541. Muhəmməd ibn Zeyddən رضي الله عنه rəvayət olunur ki, insanlar onun babası Abdullah ibn Amra رضي الله عنهما dedilər: "Bizlər sultanlarımızın yanına daxil olur və onlara kənarda danışdıqlarımızın tam əksini danışırıq". Dedi: "Biz Rəsulullahın ﷺ zamanında bunu nifaqdan sayardıq".

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

Şərh:

Müəllif رحمه الله **"İkiüzlülüyün pis əməl olması"** fəslini qeyd edir.

İkiüzlü o adamdır ki, bəzi adamların yanına bir üzlə gəlir, başqalarının yanına isə başqa bir üzlə. Münafiqlər də belə edirlər: **"Onlar möminlərlə rastlaşdıqda: "Biz iman gətirdik!"– deyirlər, öz şeytanları ilə xəlvətə çəkildikdə isə: "Şübhəsiz ki, biz sizinləyik. Biz *möminlərə* ancaq istehza edirik!"– deyirlər".**[2]

Bu, bir çox insanlarda vardır və nifaqın bir şöbəsidir. Allah qorusun! Görürsən ki, biri gəlib sənə yaltaqlıq edir, səni tərifləyir, hətta tərifləyərkən bəzən həddini aşır. Sənin yanında olmadıqda isə səni pisləyir, təhqir edir, səni olmayan xüsusiyyətlərlə vəsf edir. Allah qorusun! Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"İnsanların ən pisinin ikiüzlülər olduğunu görərsən – birilərinin yanına bir üzlə gəlir, başqalarının yanına isə başqa üzlə".**[3]

Bu böyük günahlardandır, çünki Peyğəmbər ﷺ bunu edənin ən pis insan olduğunu bildirmişdir. Gərək insan səmimi olsun, yalnız qəlbində olanı söyləsin. Dediyi yaxşı söz olarsa, ona görə tərifləsin, əks təqdirdə xeyirə yönəldilər. İnsanların yanına müxtəlif cildlərlə gələnlərə gəlincə isə istər bu onun ibadəti ilə bağlı olsun, – məsələn, özünü çoxlu ibadət edən kimi göstərir, əslində isə elə deyil, – istərsə də başqaları ilə davrandığı

[1] "Səhih əl-Buxari", 6642.

[2] "əl-Bəqərə" surəsi, 14.

[3] "Səhih əl-Buxari", 3234; "Səhih Muslim", 4588.

zaman özünü nəsihət edən və tərifləyən kimi göstərir, yanında olmadıqda isə onun barəsində xoşagəlməz sözlər söyləyir. Bu caiz deyil.

Sonra müəllif bir ayə qeyd edir: **"Onlar *öz günahlarını* insanlardan gizlədir, Allahdan isə çəkinmirlər. Halbuki onlar *Allahın* razı qalmadığı sözləri gecələr xəlvətdə söylədikləri vaxt belə, O, onların yanında olur. Allah onların nə etdiklərini əhatə edir".**[1]

Bu ayə insanların bilmədiklərini gizlədənlər barəsində nazil olmuşdur. Onlar insanlarla qəlblərində olmayan məsələləri danışarlar. Tək qaldıqda və ya gecə toplaşdıqda isə insanlardan gizlətdiklərini və nəfslərində olanı aşkara çıxararlar. Allaha sığınırıq. İzzət və cəlal sahibi Allah buyurur: **"Onlar *öz günahlarını* insanlardan gizlədir, Allahdan isə çəkinmirlər. Halbuki onlar *Allahın* razı qalmadığı sözləri gecələr xəlvətdə söylədikləri vaxt belə, O, onların yanında olur. Allah onların nə etdiklərini əhatə edir".**

Gizlində günah işlər görüb insanlardan onu utanaraq gizlədənlər də buna aiddir. Beləsi Allahdan utanmır və xəcalət çəkmir. Allah qorusun! Bu ayə belələrinə də şamil olunur. Lakin kim günah iş gördükdən sonra tövbə edərək peşman olarsa, insanlar gərək onun əməli barəsində danışmasınlar. Peyğəmbər ﷺ demişdir: **"Açıq-aşkar günah işlər görənlərdən başqa bütün ümmətim bağışlanacaqdır".**[2]

Açıq-aşkar günah işlər görənlər o kəslərdir ki, onlar günah iş gördükdən sonra onu insanlara danışarlar. Gərək insan səmimi ola – zahiri ilə batini eyni ola. Əgər səmimi olarsa və əməli xeyirli olarsa, xeyir əhli də onu həmin əməlin üzərində sabit olmasına çalışar. Yox, əgər xeyir əməl üzərində olmazsa, ona haqqı bəyan edərlər ki, həmin əməldən çəkinsin.

Uca Allahdan diləyirəm ki, batinlərimizi zahirlərimizdən daha xeyirli etsin, bizləri və sizləri sevib razı qaldığı əməllərə yönəltsin. Şübhəsiz ki, O, hər şeyə qadirdir.

---

[1] "ən-Nisa" surəsi, 108.

[2] "Səhih əl-Buxari", 5608.

İki yüz altmışıncı fəsil

Yalanın haram olması

Mövzu ilə əlaqəli ayələr:
Uca Allah belə buyurur:

﴿ وَلَا تَقْفُ مَا لَيْسَ لَكَ بِهِۦ عِلْمٌ ۚ إِنَّ ٱلسَّمْعَ وَٱلْبَصَرَ وَٱلْفُؤَادَ كُلُّ أُو۟لَٰٓئِكَ كَانَ عَنْهُ مَسْـُٔولًا ﴾

"Haqqında məlumatın olmadığı bir işin dalınca getmə. Çünki qulaq, göz və ürək – bunların hamısı *sahibinin əməlləri* barəsində sorğu-sual olunacaqdır".[1]

﴿ مَّا يَلْفِظُ مِن قَوْلٍ إِلَّا لَدَيْهِ رَقِيبٌ عَتِيدٌ ﴾

"Dediyi elə bir söz yoxdur ki, *onu yazmaq üçün* yanında hazır durmuş gözətçi olmasın".[2]

Şərh:
Müəllif ﵀ **"Yalanın haram olması"** fəslini qeyd etmişdir.

Yalan, bir adamın həqiqətin əksini söyləməsidir. Məsələn, deyir ki, filan hadisə baş verib, əslində isə həmin hadisə baş verməyib. Yaxud deyir ki, filankəsin başına bu iş gəlib, halbuki elə deyil. Buna bənzər həqiqət olmayan hadisələri xəbər vermək yalan hesab olunur.

Bil ki, yalanın bir neçə növü vardır:

Birinci növü, Allah və Onun elçisi haqqında yalan danışmaqdır. Bu yalanın ən böyük növlərindəndir. Uca Allah buyurur: **"Elmsiz olaraq insanları azdırmaq üçün Allaha qarşı yalan uyduran kimsədən daha zalım kim ola bilər? Şübhəsiz ki, Allah zalım qövmü doğru yola yönəltməz".[3]**

Ayədəki "ləm" hərfi açıqlama deyil, ardıcıllıq mənasındadır. Necə ki, Uca Allah Musa barəsində buyurur: **"Fironun ailəsi onu tapıb götürdü ki, axırda onlara düşmən və başlarına bəla olsun".[4]**

---

[1] "əl-İsra" surəsi, 36.
[2] "Qaf" surəsi, 18.
[3] "əl-Ənam" surəsi, 144.
[4] "əl-Qəsəs" surəsi, 8.

Onlar onu bu səbəbdən götürməmişdilər. Lakin Uca Allah elə etdi ki, o, onların başlarına bəla oldu və onlara düşmən oldu. Allaha yalandan iftira atanların aqibəti belə olur. Çünki o, iftirası ilə insanları doğru yoldan azdırır.

Allaha atılan iftira iki qismdir:

Birinci qism. Məsələn, deyir ki, Allah belə deyib, halbuki bu yalandır.

İkinci qismi Allahın kəlamını Onun istəmədiyi şəkildə təfsir etməkdir. Çünki kəlamın deyilməsində məqsəd onun mənasıdır. Əgər biri desə ki, "Allah bunu deməklə bunu nəzərdə tutur", Allahın adından yalan danışmış olur. O, izzət və cəlal sahibi Allaha yalan şahidlik etmiş olur. Lakin əgər başqa birisi ictihad edərək hər hansı bir ayənin təfsirində yanlışlığa yol verərsə, Uca Allah onu bağışlayır. Çünki O buyurur: **"bu dində də sizin üçün heç bir çətinlik yaratmadı".**[1] O həmçinin buyurur: **"Allah hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər mükəlləf edər".**[2] Yox, əgər Allahın kəlamını öz nəfsi istəklərinə, öz mənafeyinə uyğun gələn fərqli şəkildə açıqlamış olarsa, bu zaman o, izzət və cəlal sahibi Allaha iftira atmış olur.

Bu qəbildən olan digər yalan növü isə Rəsulullaha ﷺ atılan iftiradır. Məsələn, deyir ki, Rəsulullah ﷺ belə deyib, halbuki o, belə deməyib. Sadəcə onun adından yalan deyir. Həmçinin Peyğəmbərin ﷺ hədisi fərqli mənada açıqlanarsa bu zaman da Peyğəmbərə ﷺ iftira atmış olur. Peyğəmbər ﷺ demişdir: **"Kim mənim adımdan bilərəkdən yalan danışarsa, Cəhənnəmdəki yerinə hazırlaşsın".**[3] Yəni kim Rəsulullahın ﷺ adından yalan danışarsa, artıq Cəhənnəmdə özünə yer hazırlamış və orada oturmuş olar. Allah qorusun! Bu iki növ, yalanın ən şiddətli növləridir: Allahın adından yalan, Rəsulullahın ﷺ adından yalan.

Rəsulullahın ﷺ adından ən çox yalan danışanlar rafizilərdir. Təriqətlər arasında Rəsulullaha ﷺ onlardan çox iftira yaxan ikinci bir təriqət yoxdur. "Mustalah əl-hədis" elminin mütəxəssisləri uydurma hədislərlə bağlı söhbət zamanı bu barədə danışmış və demişlər ki, Rəsulullahın ﷺ adından ən çox yalan danışanlar rafizilərdir. Bunu təcrübi yolla araşdıran hər kəsə bu yaxşı məlumdur.

---

[1] "əl-Həcc" surəsi, 78.

[2] "əl-Bəqərə" surəsi, 286.

[3] "Səhih əl-Buxari", 107; "Səhih Muslim", 4.

İkinci növ yalan, insanların adından yalan danışmaqdır. İnsanların adından yalan danışmaq iki qismdir:

Birincisi, insanın özünü yalandan xeyirli və yaxşı, təqvalı və imanlı kimi büruzə verməsidir. Halbuki, onun halı elə deyil. O, küfr və zəlalət əhlindəndir. Allah qorusun! Bu, böyük nifaq hesab olunur. Uca Allah belələri barəsində buyurur: **"İnsanlardan elələri də vardır ki, mömin olmadıqları halda: "Allaha və Axirət gününə inanırıq"– deyirlər".**[1]

Lakin onlar qəlblərində olmayan sözləri dillərinə gətirir, bilərəkdən yalan and içirlər. Quran və Sünnədə buna dəlillər olduqca çoxdur. Münafiqlər yalançıdırlar, imanla bağlı insanları aldatmağa çalışırlar. Baxın, görün Uca Allah münafiqlər barəsində "əl-Munafiqun" surəsində nə buyurur. Elə surənin əvvəlindəcə O, münafiqlərin yalançı olduqlarını bildirir: **"Münafiqlər sənin yanına gəldikləri zaman: "Biz şəhadət veririk ki, sən Allahın Rəsulusan!"– deyirlər. Allah da bilir ki, sən Onun Rəsulusan. Allah şahiddir ki, münafiqlər əsl yalançıdırlar".**[2]

[Ayənin ərəbcəsinə diqqət edin!] Onlar üç dəfə təkid edərək yalandan Muhəmmədin Allahın rəsulu olduğuna şahidlik edirlər: "şəhadət veririk" sözü ilə, "həqiqətən" sözü ilə, bir də yalançıdırlar sözündəki təkidləyici "ləm" hərfi ilə. Sonra Uca Allah buyurur: **"Allah da bilir ki, sən Onun Rəsulusan. Allah şahiddir ki, münafiqlər əsl yalançıdırlar".** Bu da yalanın bir növüdür. Hətta bu, insanlara yalan danışmağın ən şiddətli növlərindəndir. Çünki, Allah qorusun, bunu deyən kəs münafiqdir.

Üçüncü növ yalan, insanlar arasında danışarkən, söhbət edərkən yalan danışmaqdır. Məsələn, deyir ki, mən filankəsə belə dedim. Halbuki, o belə deməyib. Yaxud da deyir ki, filankəs belə deyib, halbuki, o belə deməyib. "Filankəs gəlib", halbuki, o gəlməyib. Bu da haram sayılan əməllərdən və nifaqın əlamətlərindəndir. Peyğəmbər ﷺ demişdir: **"Münafiqin əlamətləri üçdür: Danışanda yalan danışar...".**[3]

Sonra müəllif yalanın haram olmasına dəlillər gətirir. Həmin dəlillərdən biri Uca Allahın bu ayəsidir: **"Haqqında elmin olmadığı bir şeyin dalınca getmə. Çünki qulaq, göz və ürək – bunların hamısı *sahibinin***

[1] "əl-Bəqərə" surəsi, 8.

[2] "əl-Münafiqun" surəsi, 1.

[3] "Səhih əl-Buxari", 32; "Səhih Muslim", 89.

***əməlləri* barəsində sorğu-sual olunacaq".**[1] Yəni, bilmədiyin bir işin arxasınca getmə, çünki qulaq, göz və ürək sorğu-sual olunacaqlar.

Əgər bu əmr elmin olmadığı şeyi deməyi qadağan edirsə, gör elmin ola-ola onun əksini deməyin necə qadağandır. Bunun günahı daha böyükdür. Bununla da bilirik ki, insan danışdıqda:

Birinci, ya danışdığı barədə elmə malik olur, bu da fəsada səbəb olmadığı müddətdə əslən mübahdır;

İkinci, ya bildiyinin əksini söyləməsidir ki, bu da açıq-aydın yalandır;

Üçüncü, bilmədiyi bir şeyi söyləməkdir, əslində isə onun bildiyi kimi deyil. Bu da qadağan olan əməllərdəndir.

"Haqqında elmin olmadığı bir şeyin dalınca getmə". Burada insana iki halda danışmaq qadağan edilir:

Birinci hal. Həqiqətin onun danışdığı kimi olmadığını bildiyi hal;

İkinci hal. Bilmədiyi şeyi danışmaq.

Bütün bunlar qadağan olunmuş əməllərdir. Bildiyi şeyi danışmaq isə olar.

Sonra müəllif başqa bir ayə qeyd edir: **"Dediyi elə bir söz yoxdur ki, *onu yazmaq üçün* yanında hazır durmuş gözətçi olmasın".**[2]

[Ayənin ərəbcəsində] burada keçən "mə" (ما) sözü inkar mənasında olub ümumən təkidləyici rol oynayır. Hər nə söz söyləsən, yanında onu yazan Raqib və Ətid vardır. Yəni, onlar hazır duraraq hər kəlməni qeydə alırlar: **"Sağında və solunda iki *mələk* oturub *onun əməllərini qeydə alır.* Dediyi elə bir söz yoxdur ki, *onu yazmaq üçün* yanında hazır durmuş gözətçi olmasın".**[3]

"Yoxsa onlar elə hesab edirlər ki, Biz onların sirlərini və gizli danışıqlarını eşitmirik?!"[4] Biz onların sirlərini və gizli danışıqlarını eşidirik: **"Xeyr, onların yanında *əməlləri* yazan elçilərimiz var".** Dəhşət! Ağzından çıxan hər bir sözü mələklər qeydə alır və Qiyamət günü onları sənin önünə qoyacaqlar. Uca Allah buyurur: **"Biz hər bir insanın əməlini öz boynundan asdıq. Qiyamət günü isə açıq vəziyyətdə qarşısına qoyulan kitabı**

---

[1] "əl-İsra" surəsi, 36.

[2] "Qaf" surəsi, 18.

[3] "Qaf" surəsi, 17-18.

[4] "əz-Zuxruf" surəsi, 80.

ona göstərəcəyik. Kitabını oxu! Bu gün sənə özün-özünü hesaba çəkməyin yetər".[1] Yəni, sən özün özünü haqq-hesaba çəkəcəksən.

Bəzi sələflər demişlər ki, Allaha and olsun, sənin özünü sənə haqq-hesab edən kimi təyin edən səninlə insafla davranmışdır.

Xülasə, Uca Allah buyurur: **"Dediyi elə bir söz yoxdur ki, *onu yazmaq üçün* yanında hazır durmuş gözətçi olmasın".** Yəni bu mələk bütün əməlləri yazır. Bütün sözləri – istər həmin sözlər sənin lehinə olsun, istərsə də əleyhinə. Hətta nə lehinə, nə də əleyhinə olmayan mənasız sözləri belə qeydə alır. İmam Əhməd xəstələndikdə ağrıdan ah-nalə çəkirdi. Ona gəlib dedilər ki, filankəs – zənnimcə Tavus – deyir ki, mələk hətta xəstənin ah-naləsini belə yazır. Yəni xəstə ağrının şiddətindən ah-nalə çəkdikdə bu, onun əleyhinə yazılır. Bu sözləri eşidən İmam Əhməd ah-naləni dayandırır və səbir edir, yazılmasın deyə ah-nalə çəkmir.

Onlar dillərini və bədən üzvlərini qorumağa müvəffəq olan və hər işin qədrini bilən kəslər idi. O hətta ah-naləsini belə saxlayır. Bizlər üçün isə Allahdan diləyirəm ki, bizləri əfv etsin. Çünki dilimizi çox boş buraxırıq. Peyğəmbər ﷺ demişdir: **"Kim Allaha və axirət gününə iman gətirmişsə ya xeyir söz söyləsin, ya da sussun".**[2] Allah bizlərə və sizlərə nəfsimizə qalib gəlməkdə yardım etsin, bizləri sevib razı qaldığı söz və əməllərə müvəffəq etsin.

١٥٤٢– وعنْ ابنِ مسعود رضي الله عنه قال: قالَ رسُولُ اللَّه ﷺ: « إنَّ الصِّدْقَ يهْدِي إلى الْبِرِّ وَإنَّ البرِّ يهْدِي إلى الجنَّةِ، وإنَّ الرَّجُل ليَصْدُقُ حتَّى يُكتَبَ عِنْدَ اللَّهِ صِدّيقاً، وإنَّ الْكَذِبَ يَهْدِي إلى الفُجُورِ وإنَّ الفُجُورَ يهْدِي إلى النارِ، وإن الرجلَ ليكذبَ حَتى يُكْتبَ عنْدَ اللَّهِ كَذَّاباً ». متفقٌ عليه.

1542. Rəvayət olunur ki, İbn Məsud رضي الله عنه demişdir: «Rəsulullah ﷺ dedi: **"Şübhəsiz ki, düzgünlük yaxşılığa, yaxşılıq isə Cənnətə aparır. İnsan o qədər doğru danışar ki, Allah yanında siddiqlərdən yazılar. Yalan isə pisliyə, pislik də Cəhənnəmə aparır. İnsan o qədər yalan danışar ki, Allah yanında yalançılardan yazılar".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

---

[1] "əl-İsra" surəsi, 13-14.

[2] "Səhih əl-Buxari", 5994; "Səhih Muslim", 67.

[3] "Səhih əl-Buxari", 5629; "Səhih Muslim", 4719.

Şərh:

Müəllif ﵀ bu hədisləri qeyd etmişdir. Abdullah ibn Məsuddan ﵁ nəql olunan həmin hədislərdən birində Peyğəmbər ﷺ yalan danışmaqdan çəkindirərək buyurur ki: **"Yalandan çəkinin!"**. Yəni, ondan uzaqlaşın.

Bu, bütün növ yalanlara aiddir. Bəzilərinin: "Yalan başqasına zərər vermirsə, onu demək olar" sözü doğru deyildir. Bu söz batildir, çünki buna dəlil yoxdur. *Bütün* dəlillərdə yalan mütləq şəkildə haram buyurulur.

Sonra Peyğəmbər ﷺ bəyan edir ki, yalan insanı pisliyə aparır. Yəni, Allah qorusun, insan yalan danışmağa davam etməklə pisliyə yönəlir. Bu da itaətdən kənarlaşmaq, asilik və günahlar etməkdir. Pisliklər isə insanı Cəhənnəmə aparır. Uca Allah buyurur: **"Xeyr! Həqiqətən, günahkarların kitabı Siccindədir. Sən haradan biləsən ki, Siccin nədir?! O, yazılı bir kitabdır. O gün *haqqı* yalan hesab edənlərin vay halına! O kəslər ki, Din gününü yalan hesab edirlər".**[1]

Sonra o ﷺ dedi: "**İnsan o qədər yalan danışar ki, Allah yanında yalançılardan yazılar**". Allah bizləri yalançılardan qorusun. Çünki insan yalana öyrəşdikdə hər dəfə yalan danışır, bununla da yalançılıq vəsfi ona şamil olunur. Allah bizləri və sizləri yalan və digər günahlardan qorusun.

Düzgünlüyə gəlincə, Peyğəmbər ﷺ buna təşviq edərək buyurur ki, düzgün olun, danışdıqda doğru danışın: "**Şübhəsiz ki, düzgünlük yaxşılığa, yaxşılıq isə Cənnətə aparır**". Uca Allah buyurur: **"Xeyr! Həqiqətən, yaxşıların kitabı İlliyyundadır! Sən haradan biləsən ki, İlliyyun nədir?! O, elə bir yazılı kitabdır ki, onu yalnız *Allaha* yaxın olanlar görürlər!"**[2]

İnsan doğru danışdıqda və dilini doğru danışmağa öyrəşdirdikdə bu onu yaxşı işlərə sövq edər. Yaxşılıq isə insanı Cənnətə aparır, yəni oraya çatdırır.

"**İnsan o qədər doğru danışar ki, Allah yanında siddiqlərdən yazılar".** Siddiqlik ali bir məqamdır. Bu mərtəbə Peyğəmbərlikdən ﷺ sonra gəlir. Uca Allah bu xüsusda buyurur: **"Allaha və Peyğəmbərə itaət edənlər – məhz onlar Allahın nemət bəxş etdiyi peyğəmbərlər, siddiqlər, şəhidlər və əməlisalehlərlə birlikdə olarlar. Onlar necə də gözəl dostlardır".**[3]

---

[1] "əl-Mutaffifin" surəsi, 7-11.

[2] "əl-Mutaffifin" surəsi, 18-21.

[3] "ən-Nisa" surəsi, 69.

Bil ki, yalanın günahı aqibətinə görə ikiqat arta da bilər. İş zamanı yalan danışmaq xəbər verdikdə yalan danışmaqdan daha şiddətlidir. İnsan alış-veriş zamanı, götürdükdə və qoyduqda yalan danışdıqda bu daha şiddətlidir. Çünki insan alış-veriş zamanı yalan danışarsa, ticarətinin bərəkətini aparmış olar. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Alan və satan bir-birilərindən uzaqlaşmadıqları müddətdə ixtiyar sahibidirlər. Əgər doğru danışsalar və açıqlasalar, onların alış-verişinə bərəkət verilər. Yox, əgər yalan danışıb gizlətsələr, bərəkət onların üzərindən qaldırılar".**[1]

Ticarət zamanı yalan danışıldıqda, qiymət və ya əmtəə artırıldıqda – Allah qorusun – bərəkət aradan qalxmış olur. Çünki bu ticarət yalan üzərində qurulur. Yalan isə batildir. Batil üzərində qurulan hər bir şey də batildir. Həmçinin məhsulun vəsfi zamanı da – məsələn, insan desə ki, bu məhsulun belə-belə xüsusiyyətləri var, halbuki o, yalan danışır, – bu da insanların malını haqsız yerə yemək hesab olunur. Bəzi avtomobil satıcılarının mikrofonla dedikləri də buna aiddir. Belə ki, insan öz avtomobilini satışa çıxarır və bilir ki, maşınında müəyyən bir qüsur var, lakin həmin qüsuru gizlədir. Müştəriyə həmin avtomobili göstərdikdə bütün ayıbları deyir, lakin əsas qüsuru gizlədir. Bu haramdır və caiz deyildir. Yox, əgər bilmirsə və hər hansı bir ayıbın olmasından ehtiyat edirsə, deyə bilər ki, hər hansı bir problem çıxdığı təqdirdə o, heç bir məsuliyyət daşımır. Müvəffəq edən Allahdır.

١٥٤٣– وعن عبدِ اللَّهِ بنِ عَمْرو بنِ العاص رضي الله عنهما، أنَّ النبي ﷺ قال: «أَرْبَعٌ منْ كُنَّ فِيهِ، كان مُنافِقاً خالِصاً، ومنْ كَانتْ فيهِ خَصْلَةٌ مِنْهُنَّ، كَانتْ فِيهِ خَصْلةٌ مِنْ نِفاقٍ حتَّى يَدعَهَا: إذا اؤْتُمِنَ خَانَ، وَإذا حدَّثَ كَذَبَ، وإذا عاهَدَ غَدَرَ، وإذا خَاصمَ فجَرَ» متفقٌ عليه.

1543. Abdullah ibn Amr ibn əl-Asdan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kimdə *bu* dörd xislət olarsa, xalis münafiq sayılar. Kimdə də bu xislətlərdən biri olarsa, həmin adamda o əməli tərk edənədək nifaqın bir əlaməti olar: əmanətə xəyanət edər, danışdıqda yalan danışar, əhd etdikdə onu pozar və mübahisə etdikdə haqqı danar"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

---

[1] "Səhih əl-Buxari", 1937; "Səhih Muslim", 2825.

[2] "Səhih əl-Buxari", 33; "Səhih Muslim", 88.

Şərh:

Müəllif Hafiz ən-Nəvəvi ﷺ "Yalanın haram olması" fəslində Abdullah ibn Amr ibn əl-Asdan Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: **"Kimdə *bu* dörd xüsusiyyət olarsa, xalis münafiq sayılar. Kimdə də bu xüsusiyyətlərdən biri olarsa, həmin adamda o əməli tərk edənədək nifaqın bir əlaməti olar: əmanət olunduqda xəyanət edər, danışdıqda yalan danışar, əhd etdikdə onu pozar və mübahisə etdikdə haqqı danar".**

"Kimdə *bu* dörd xüsusiyyət olarsa", yəni bu vəsflərə malik olan şəxs xalis münafiq sayılar. Çünki o, Allah qorusun, münafiqlərin bütün vəsflərini özündə cəm etmişdir. Burada etiqadi nifaq deyil, əməli nifaq nəzərdə tutulur. Çünki etiqadi nifaq küfrdür. Allah qorusun! Etiqadında münafiq olan İslamı büruzə verib küfrü gizlədən kəsdir. Bu qeyd olunan vəsflərə malik olan kəs isə Allaha və axirət gününə həqiqi şəkildə iman gətirir, lakin bununla bərabər bu xüsusiyyətləri özlərində cəm edirlər. Bu xüsusiyyətlərdə də nifaqdan bir pay vardır.

Birinci xislət: **"Əmanətə xəyanət edər",** yəni birisi ona nəyisə əmanət edərsə, ona xəyanət edər. Məsələn, birisinə pul, saat, qələm və ya başqa bir şey verib deyirlər ki, al, bunu saxla. Həmin adam da onu götürüb özü üçün işlədir, ya da bu barədə elə bir adama xəbər verir ki, həmin adam da onu qəsb edir. Mühüm odur ki, həmin adam əmanətə sahib çıxmır. Yaxud birisinə gizli bir söhbət edilir və ondan xahiş olunur ki, bu barədə heç kəsə bir xəbər verməsin, o isə gedib başqalarına yayır ki, filankəs mənə bunları dedi.

Bəzi insanlar isə, Allah qorusun, lovğalıq və şöhrətpərəstlik bəlasına düçar olur. Əmr sahiblərindən və ya rəhbərlərdən biri ona bir söz əmanət etdikdə gedib deyir ki, əmir mənə belə dedi, nazir mənə belə dedi, şeyx mənə belə dedi. Bununla o, özünü insanlara göstərir ki, böyük insanlar onunla danışır. Bu da, Allah qorusun, əmanətə xəyanət hesab olunur.

Vəlilik və qəyyumluq xəyanəti də bu qəbildəndir. Məsələn, biri yetim bir uşağın vəlisi olur, onun malına, böyüməsinə və inkişafına məsul olur. Lakin o, üzərinə düşən vəzifəni yerinə yetirmir. Onun malını zay edir, ona laqeyd yanaşır və ya özü üçün xərcləyir, həmin pulu gələcəkdə yiyəsinə qaytara biləcəyi barədə heç düşünmür də. Onunla heç gözəl şəkildə rəftar da etmir. Bu da əmanətə xəyanət hesab olunur.

İnsanın öz ailəsinə və övladlarına gözəl tərbiyə verməməsi də buna aiddir. Halbuki, onlar ona əmanət edilmişdir. Nöqsansız və Uca Allah buyurur: **"Ey iman gətirənlər, özünüzü və ailənizi yanacağı insanlar və daşlar olan oddan qoruyun!"**[1] Allah səni onların üzərində ona görə rəhbər seçmişdir ki, Qiyamət günü bu barədə səni sorğu-sual etsin. Qiyamət günü elə olacaq ki, insan yaxınlarından qaçacaq. Uca Allah buyurur: **"O gün insan qaçacaq öz qardaşından, anasından, atasından, həyat yoldaşından və övladlarından! O gün onlardan hər birinin yetərincə işi olacaq".**[2]

Əmanətə xəyanətin bir növü də insanlara imam olan birisinin onlara cümə və camaat namazları qıldırması, lakin üzərinə düşən vacibləri yerinə yetirməməsidir. Görürsən ki, beləsi bəzən tez gəlir, bəzən isə gecikir, bəzən onlara çox uzun xütbə edir və ya namaz qıldırır, bəzən də namazı elə tələsik qıldırır ki, arxadakılar rahat ola bilmirlər. Bəzən də arxadakılara elə laqeyd yanaşır ki, bu da əmanətə xəyanətdir.

Əlqərəz, əmanətə xəyanət əmanətlərdə, davranışlarda, əxlaqda və başqa hər şeydə ola bilər.

İkinci xislət: **"Danışdıqda yalan danışar"**. Yəni birisi yalan danışmaqla insanları aldadar. Məsələn, yalandan deyər ki, filankəs belə dedi, filan hadisə belə baş verdi. Bu da nifaqın əlamətlərindəndir.

Bəziləri bu bəlaya elə aludə olur ki, görürsən ki, insanlara yalan danışır, onları aldadır, sonra da deyir ki, zarafat edirdim. Sübhanallah, axı sən yalan danışmaqla onları aldadırsan!

Bəziləri də başqalarını güldürmək üçün yalan danışırlar. Vay olsun belələrinin halına, sonra yenə də vay olsun![3]

Öncə qeyd etmişdik ki, ən böyük yalan Allah və Onun rəsulunun adından yalan danışmaqdır. Bundan sonra ən böyük yalan isə alimlərin adından yalan danışmaqdır. Buna bir alimin adından şəri məsələlərdə yalan danışılması aiddir. Məsələn, biri yalandan deyir ki, bu halaldır, bu haramdır və ya vacibdir. Beləsi şəriətin adından yalançı sayılır. Çünki şəriəti alimlər təmsil edir, onu insanlara onlar çatdırırlar. Yalan danışandan dəlil istəyəndə deyir ki, filan alim belə deyib. Halbuki o, yalançıdır. Beləsi Peyğəmbərin adından yalan danışana yaxındır.

---

[1] "ət-Təhrim" surəsi, 6.

[2] "Əbəsə" surəsi, 34-37.

[3] "Musnəd İmam Əhməd", 5/5; "Sunən Əbu Davud", 4338; "Sunən ət-Tirmizi", 2237.

Xülasə, yalan danışan kəsdə nifaqdan bir əlamət vardır. Allah bizləri və sizləri ondan qorusun.

Üçüncü xislət: **"Əhd etdikdə onu pozar"**. Yəni kiməsə hər hansı bir şeyə görə əhd verərsə, həmin əhdini pozar. Bu həm kafirlərlə bağlanan əhdə, həm də bəzi məsələlərdə müsəlmanlarla bağlanan əhdə şamil olunur. Kafirlərlə olan əhd onlarla müəyyən müddətə müharibənin dayandırılması ilə bağlanan müqaviləyə deyilir. Necə ki, Peyğəmbər ﷺ Hudeybiyyə sülhündə qureyşlilərlə döyüşün dayandırılması ilə bağlı on illik müqavilə bağlamışdı. Müşriklərlə müqavilə bağladıqda onlarla üç hal baş verir:

Birinci hal: Onlar əhdi pozarlarsa, bu zaman müqavilə qüvvədən düşür. Uca Allah bu xüsusda buyurur: **"Əgər kafir başçılar əhd bağladıqdan sonra andlarını pozub dininizə böhtan atsalar, onlarla vuruşun, çünki onlar anda əhəmiyyət verməzlər. Bəlkə, *küfrdən* əl çəkələr".**[1] Necə ki, qureyşlilər Hudeybiyyə sülhündə Peyğəmbərə ﷺ etmişdilər. Müqavilənin bağlanmasından səkkiz il keçdikdən sonra qureyşlilər əhdi pozaraq öz tərəfdaşlarına Rəsulullahın ﷺ tərəfdaşlarına qarşı yardım etmişdilər.

İkinci hal: Əhdlərinə sadiq qalırlar. Bu zaman bizə də müddət bitənədək əhdə vəfa etmək vacibdir. Uca və Böyük Allah buyurur: **"Nə qədər ki, onlar sizinlə düzgün davranır, siz də onlarla düzgün davranın. Həqiqətən, Allah müttəqiləri sevir".**[2]

Üçüncü hal: Onların əhdi pozmalarından qorxmağımız. Yəni zahirdə onu pozmayıb əhdə vəfa etdiklərini göstərsələr də biz onların əhdə tam riayət etmədiklərini görürük. Bu zaman biz əhdi pozur və onlara açıq-aşkar deyirik ki, bizimlə sizin aranızda heç bir əhd yoxdur. Buna dəlil Uca Allahın bu ayəsidir: **"Əgər bir qövmün *əhdi pozacağı ilə* xəyanət etməsindən qorxsan, sən də onlara onu pozduğunu bildir. Şübhəsiz ki, Allah xainləri sevmir".**[3]

Müsəlmanlar arasında olan əhdə gəlincə isə bu, biri ilə hər hansı bir əməli edəcəyi və ya etməyəcəyi barədə əhd bağlanmasına deyilir. Məsələn, sirrini yaymayacağı və ya başqa əməllər barədə əhd bağlamaq. Bu əhdə vəfa etmək vacibdir. Alimlər birinə vəd verdikdə zərurət olmadan həmin vədi yerinə yetirməməyin hökmü barəsində ixtilaf etmişlər. Məsələn, səni

[1] "ət-Tövbə" surəsi, 12.

[2] "ət-Tövbə" surəsi, 7.

[3] "əl-Ənfal" surəsi, 58.

nahar və ya şam yeməyinə dəvət etmiş birinə söz verirsən ki, sabah gələcəyəm. Belə vədi yerinə yetirməmək olarmı?

Bəzi alimlər demişlər ki, sən vədinə xilaf çıxsan, günah qazanmırsan. Lakin doğru olan odur ki, şəri bir üzürün yoxdursa, sən günah qazanırsan. Qardaşına vəd verdikdə gərək vədini pozmayasan, çünki sən ona vəd vermisən. Vədi pozmaq isə nifaqın əlamətlərindəndir. Münafiq olmaq istəyərsənmi? – Heç kim istəməz.

Sünnənin dəlalət etdiyi doğru rəyə görə vədə riayət olunması vacibdir. Şeyxulislam ibn Teymiyyə də bu rəydə olmuşdur. Çünki vədi pozmaq nifaqdandır. Ancaq əgər sənin üzürün varsa, yaxud da aydın bir vəd verməmisənsə, məsələn, dostuna demisən ki, üzürüm olmasa, inşəAllah sizə gələrəm, bu zaman əgər sənin üzürün olarsa, problem yoxdur. Çünki ona qəti vəd verməmisən. Yaxud da qəti vəd vermisən, ancaq yolda avtomobilin xarab oldu, sən də vədələşdiyin yerə gedə bilmədin. Şəkk yoxdur ki, bu üzürdür və sən üzürlü hesab olunursan.

Dördüncü xislət: **"Mübahisə etdikdə haqqı danar".** Allah bizləri qorusun. Yəni biri ilə arasında mübahisə yarandıqda özündən çıxar. Özündən çıxma da iki növdür:

Birinci: Haqqı danmaq.

İkinci: Özünə aid olmayan bir şeyi iddia etmək.

Birinciyə misal. Biri digərinə min rial pul borcludur. Adam borclu olandan həmin pulu tələb etdikdə o, bunu inkar edir. Borc verən ona inanaraq şahid tutmayıb. Bu zaman qazi borcluya deyir ki, and iç, canını qurtar, o da and içir ki, onun heç bir borcu yoxdur. Bu zaman qazi onun lehinə hökm verir ki, onun heç bir borcu yoxdur. Bu, haqqı danmaqdır.

İkinciyə misal özünə aid olmayan bir şeyi iddia etməkdir. Məsələn, birisi qaziyə deyir ki, filankəsin mənə yüz rial borcu var. Həmin adam da bunu inkar edir. Bu zaman tələb edən dəlil olaraq yalançı şahidlər gətirir, onlar da yalandan onun lehinə şahidlik edirlər. Qazi də "dəlil" gətirənin lehinə hökm verir. Yalançı şahid gətirənin lehinə hökm verilməsi bu adamın haqqı danmasıdır. Allah qorusun!

Odur ki, mübahisələr zamanı yalandan və hiylədən çəkinmək lazımdır. Çünki bunlar haqqı danmağa aiddir.

Uca Allahdan diləyirik ki, bizim və sizin qəlblərimizi nifaqdan, şübhədən, şirkdən və riyadan təmizləsin. Şübhəsiz ki, O, hər şeyə qadirdir.

١٥٤٤– وعن ابن عباسٍ ﷺ عن النبي ﷺ، قالَ: « مَنْ تَحَلَّمَ بِحُلْمٍ لمْ يرَهُ، كُلِّفَ أنْ يَعْقِدَ بيْن شَعِيرتيْنِ، ولَنْ يفْعَلَ، ومِنِ اسْتَمَع إلى حديثِ قَوْم وهُمْ لهُ كارِهُونَ، صُبَّ في أُذُنَيْهِ الآنُكُ يَوْمَ القِيامَةِ، ومَنْ صوَّر صُورةً، عُذِّبَ وَكُلِّفَ أنْ ينفُخَ فيها الرُّوحَ وَلَيْس بِنافخٍ » رواه البخاري.

« تَحلَّم » أي: قالَ أنهُ حَلم في نَوْمِهِ ورَأى كَذا وكَذا، وهو كاذبٌ و « الآنك » بالمدِّ وضمِّ النونِ وتخفيفِ الكاف: وهو الرَّصَاصُ المذابُ.

1544. İbn Abbasdan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **“Kim görmədiyi bir yuxunu özündən uydurub söyləyərsə, iki saç dənəsini bir-birinə düyünləməyə mükəlləf olunar. O isə bunu edə bilməyəcək. Kim bir camaat razı olmadan onların söhbətinə qulaq asarsa, Qiyamət günü onun qulaqlarına *ərinmiş* qurğuşun töküləcək. Kim də bir rəsm çəkərsə, ona əzab veriləcək və çəkdiyinə ruh verməsi əmr olunacaq. O isə əsla bunu edə bilməyəcək”.**

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

[Hədisin ərəbcəsindəki] “təhəlləmə” sözünün mənası görmədiyi bir şeyi yuxuda gördüyünü deməkdir, “əl-anuk” isə ərinmiş qurğuşundur.

Şərh:

Müəllif Hafiz ən-Nəvəvi ﷺ “Yalanın haram olması” fəslində İbn Abbasdan ﷺ Peyğəmbərin belə dediyini rəvayət etmişdir: **“Kim görmədiyi bir yuxunu özündən uydurub söyləyərsə, iki saç dənəsini bir-birinə düyünləməyə mükəlləf olunar. O isə bunu edə bilməyəcək. Kim bir camaat razı olmadan onların söhbətinə qulaq asarsa, Qiyamət günü onun qulaqlarına *ərinmiş* qurğuşun töküləcək. Kim də bir rəsm çəkərsə, ona əzab veriləcək və çəkdiyinə ruh verməsi əmr olunacaq. O isə əsla bunu edə bilməyəcək”**.

“Kim görmədiyi bir yuxunu özündən uydurub söyləyərsə, iki saç dənəsini bir-birinə düyünləməyə mükəlləf olunar. O isə bunu edə bilməyəcək”. Yəni, hər kim görmədiyi bir yuxunu özündən uydurub desə ki, yuxuda belə-belə şeylər gördüm, Qiyamət günü ona iki saç dənəsini bir-

[1] “Səhih əl-Buxari”, 6520.

birinə düyünləmək əmr olunacaq. Məlum məsələdir ki, insan nə qədər çalışsa da, iki saç dənəsini bir-birinə düyünləyə bilməz. Bununla o, yalnız əzab çəkər. Ona deyiləcək ki, bunları düyünləməlisən. Bu da dəlildir ki, yuxu uydurub danışmaq böyük günahlardandır. Bəzi səfehlər belə edirlər: danışıb deyirlər ki, dünən bunları görmüşəm. Məqsəd də insanları güldürməkdir. Bu cür əməl haramdır. Ondan daha pisi isə: "Mən Peyğəmbəri yuxumda gördüm və o, mənə belə dedi"– deməsidir. Bunun günahı daha böyükdür, çünki bu zaman o, Peyğəmbərin ﷺ adından yalan danışmış olur. Həqiqətən gördüyü yuxunu isə insan danışa bilər.

Yuxuda görülənlər üç qisimdir:

Birinci qismi, xeyirli yuxulardır. Bu yuxularda insan sevinir və müjdələnir. Belə yuxuları insan yalnız sevdiyi insanlara danışmalıdır. Çünki çox həsəd aparan insanlar vardır. İnsan gördüyü yaxşı yuxunu onu sevməyən kəslərə danışarsa, ola bilsin o adamlar ona pislik etsinlər ki, həmin adam gördüyü xeyirə nail ola bilməsin. Məsələn, Yaqubun oğlu Yusufun qardaşlarının etdikləri kimi: **"Bir zaman Yusuf atasına demişdi: "Atacan, mən *yuxuda* on bir ulduz, günəş və ay gördüm. Onların mənə səcdə etdiyini gördüm".**[1] Yəni mən on bir ulduzun, günəşin və ayın mənə səcdə etdiklərini gördüm. Atası ona dedi: **"*Yəqub* dedi: "Oğlum, yuxunu qardaşlarına danışma, yoxsa sənə hiylə qurarlar. Çünki şeytan insanın açıqaydın düşmənidir".**[2] Odur ki, sevmədiyin insanlara, özlərinə istədiklərini sənin üçün də istəməyən kəslərə gördüyün xeyirli yuxunu əsla danışma.

İkinci qismi, pis yuxulardır. Bu yuxular insanı narahat edir və qorxudur. Belə yuxuları nə dosta, nə də düşmənə danışmaq olmaz. Yerindən qalxdıqda sol tərəfə üç dəfə üfür və: "Şeytanın şərindən və gördüyümün şərindən Allaha sığınıram"– de. Sonra yenə yatmaq istəsən istiqamətini dəyiş. Yəni pis yuxunu gördüyün tərəfində yatma. Demək xoşlamadığını görən adam aşağıdakıları etməlidir:

Qalxıb sol tərəfinə üç dəfə üfürüb: "Şeytanın şərindən və gördüyümün şərindən Allaha sığınıram"– deyir. Yatmağa davam etmək istədikdə isə tərəfini dəyişir. Qalxdıqda bu barədə heç kimə xəbər vermir. Bu zaman Allahın izni ilə, həmin yuxunun ona heç bir zərəri dəyməz.

---

[1] "Yusuf" surəsi, 4.

[2] "Yusuf" surəsi, 5.

Bəzən səhabələr görəndə ki, yuxuları onları bikef edir, xəstələndirir, onlar bu barədə Peyğəmbərə ﷺ danışardılar. O onlara məsləhətlər verər, onlar da rahatlanardılar. Bəzi insanlar isə özlərinə problem axtarırlar. Onlar pis yuxu gördükdən sonra onu insanlara danışırlar ki, ona bunu açıqlasınlar. Bu doğru deyil. Pis yuxu gördükdə sənin üçün ən gözəl dərmanı sənə Allahın elçisi öyrədib.

Üçüncü qismi, qarışıq yuxulardır. Belə yuxuların nə əvvəli olur, nə də ki, axırı. Bu zaman insan qarışıq və qəribə şeylər görür. Belə yuxuları da heç kimə danışma və narahat da olma. Bir dəfə bir kişi Rəsulullaha ﷺ deyir ki: "Ey Allahın elçisi, yuxuda gördüm ki, bir kişi mənim başımı kəsir, başım yerdə diyirlənir, mən də onun arxasınca gedirəm". Peyğəmbər ﷺ ona deyir: **"Şeytanın sənin lə oynadığı məsələləri insanlara danışma"**.[1] Bu *yuxu* şeytandandır – sənin başın kəsilir, hərəkət edir, sən də onu izləyirsən. Bunun heç bir əsası yoxdur. Buna bənzər işlərə fikir vermə və bu barədə heç kiminlə danışma.

Peyğəmbəri ﷺ yuxuda görməyə gəlincə, kim Rəsulullahı ﷺ onun həyatı barədə varid olmuş vəsflərə uyğun şəkildə gözəl bir tərzdə görərsə, bu, görən adam üçün xeyirə işarədir, onun Peyğəmbərə ﷺ tabe olmasını göstərər. Başqa cür gördükdə isə insan özünü hesaba çəkməlidir. Məsələn, görsə ki, o, Peyğəmbərlə danışır, lakin Peyğəmbər ﷺ ondan üz döndərir, yaxud Peyğəmbər ﷺ onu tərk edib gedir, yaxud onu gözəl olmayan bir tərzdə, libasında naqislik olaraq görürsə, bu zaman insan özünü hesaba çəkməlidir: yəqin o, Peyğəmbərə ﷺ tabeçiliyində qüsurlara yol vermişdir.

"Kim bir camaat razı olmadan onların söhbətinə qulaq asarsa, Qiyamət günü onun qulaqlarına *ərinmiş* qurğuşun töküləcək". Yəni insanlar istəməyə-istəməyə onlara qulaq asanın qulaqlarına Qiyamət günü qurğuşun töküləcəkdir.

Alimlər demişlər: "əl-anuk", "ərinmiş metal" deməkdir. Allah qorusun! Həmin qurğuşun da dünya odundan altmış doqquz dəfə daha şiddətli olan Cəhənnəm odu ilə əridiləcəkdir. Çünki o, insanlar istəmədən onları istər düzgün məqsədlə, istərsə də düzgün olmayan məqsədlə dinləmişdir. Çünki bəzi insanlar vardır ki, onların söhbətlərində hətta gizlilik və ya təhqir olmasa belə, başqalarının onları dinləməsi bir yana, heç eşitməyini

[1] "Səhih Muslim", 4212.

də xoşlamırlar. Bəzən görürsən ki, iki nəfər *məsciddə* söhbət etdiyi zaman kənar birisi Quran götürüb onların yaxınlığında əyləşərək özünü Quran oxuyurmuş kimi göstərir. Əslində isə o, onlar istəmədən onlara qulaq asır. Belələrinin qulağına Qiyamət günü ərinmiş qurğuşun töküləcəkdir. Allah qorusun!

Hədisin davamı şəkil çəkməklə bağlıdır ki, bu barədə də inşəAllah, söhbət açacağıq.

١٥٤٥– وعن ابنِ عُمرَ رضي الله عنهما قالَ: قال النبي ﷺ: « أفْرَى الفِرَى أنْ يُرِيَ الرجُلُ عيْنَيْهِ ما لَمْ تَرَيا ». رواهُ البخاري. ومعناه: يقولُ: رأيتُ فيما لم يره.

1545. İbn Ömərdən رضي الله عنهما rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"İftiraların ən böyüyü insanın görmədiyi bir şeyi gördüyünü iddia etməsidir".**

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

Yəni, görmədiyi bir şeyə "onu gördüm" deməsidir.

١٥٤٦– وعن سَمُرَةَ بنِ جُنْدُبٍ رضي الله عنه قالَ: كانَ رسُولُ اللَّه ﷺ مِما يُكْثِرُ أنْ يقولَ لأصحابِهِ: « هَلْ رَأَى أحدٌ مِنكُمْ مِن رؤيا؟» فيقُصُّ عليهِ منْ شَاءَ اللَّه أنْ يقُصَّ. وَإنَّهُ قال لنا ذات غَدَاةٍ: « إنَّهُ أتَاني اللَّيْلَةَ آتيانِ، وإنَّهُما قالا لي: انطَلِقْ، وإنِّي انْطلَقْتُ معهُما، وإنَّا أتَيْنَا عَلى رجُلٍ مُضْطَجِعٌ، وإذَا أَخَرُ قَائِمٌ عَلَيْهِ بِصَخْرَةٍ، وإذَا هُوَ يَهْوي بالصَّخْرَةِ لِرَأْسِهِ، فَيثْلَغُ رَأْسهُ، فَيَتَدَهْدهُ الحَجَرُ هَاهُنَا. فيتبعُ الحَجَرَ فيأْخُذُهُ، فلا يَرجِعُ إلَيْه حَتَّى يَصِحَّ رَأْسُهُ كما كان، ثُمَّ يَعُودُ عَلَيْهِ، فَيفْعلُ بهِ مِثْلَ ما فَعَل المَرَّةَ الأولى،» قال: قلتُ لهما: سُبْحانَ اللَّهِ، ما هذانِ؟ قالا لي: انْطَلِقْ انْطَلِقْ، فانْطَلَقْنا. فأَتيْنَا عَلى رَجُل مُسْتَلْقٍ لقَفَاه وَإذا آخَرُ قائمٌ عليهِ بكَلُّوبٍ مِنْ حَديدٍ، وإذا هُوَ يَأْتى أحَد شِقَّيْ وَجْهِهِ فيُشَرْشِرُ شِدْقَهُ إلى قَفاهُ، ومنْخِرهُ إلى قَفَاهُ، وَعينَهُ إلى قَفاهُ، ثُمَّ يتَحوَّل إلى الجانبِ الآخرِ فَيَفْعَل بهِ مثْلَ ما فعلَ بالجانب الأول، فَما يَفْرُغُ مِنْ ذلكَ الجانب حتَّى يصِحَّ ذلكَ الجانِبُ كما كانَ، ثُمَّ يَعُودُ عليْهِ، فَيَفْعَل مِثْلَ ما فَعلَ في المَرَّةِ الأولى. قال: قلتُ: سُبْحَانَ اللَّه، ما هذان؟ قالا لي: انْطلِقْ انْطَلِقْ، فَانْطَلَقْنَا. فَأتَيْنا عَلى مِثْل التَّنُّورِ فَأَحْسِبُ أنهُ قال: فإذا فيهِ لَغَطٌ، وأصْواتٌ، فَاطَّلَعْنا فيهِ فَإذَا فِيهِ رجالٌ ونِساء عُرَاةٌ، وإذا هُمْ يأتِيهِمْ لَهَبٌ مِنْ

[1] "Səhih əl-Buxari", 6521.

أَسْفلِ مِنْهُمْ، فإذا أتَاهُمْ ذلكَ اللَّهَبُ ضَوْضَؤُوا، قلتُ ما هؤلاءِ؟ قالا لي: انْطَلِقْ انْطَلِقْ، فَانْطَلَقْنَا. فَأَتَيْنَا على نهرٍ حسِبْتُ أَنهُ كانَ يقُولُ: « أَحْمرُ مِثْلُ الدَّمِ، وإذا في النَّهْرِ رَجُلٌ سابِحٌ يَسْبحُ، وَإذا على شَطِّ النَّهْرِ رجُلٌ قَد جَمَعَ عِندَهُ حِجارةً كَثِيرَة، وإذا ذلكَ السَّابِحُ يسبح ما يَسْبَحُ، ثُمَّ يَأتِيْ ذلكَ الذي قَدْ جمَعَ عِنْدهُ الحِجارةَ، فَيَفْغَرُ لهَ فاهُ، فَيُلْقِمُهُ حجراً، فَيَنْطَلِقُ فَيَسْبَحُ، ثُمَّ يَرْجِعُ إليهِ، كُلَّمَا رجع إليْهِ، فَغَر فاهُ لهُ، فَألْقمهُ حَجَراً، قلت لهما: ما هذانِ؟ قالا لي: انْطلِقْ انطلِق، فانْطَلَقنا. فَأَتَيْنَا على رَجُلٍ كريهِ المَرْآةِ، أوْ كأَكرَهِ ما أنت رَاءٍ رجُلاً مَرْأَى، فإذا هو عِندَه نارٌ يحشُّها وَيسْعى حَوْلَهَا، قلتُ لهما: ما هذا؟ قالا لي: انْطَلِقْ انْطلِقْ، فَانْطَلقنا. فَأَتَينا على روْضةٍ مُعْتَمَّةٍ فِيها مِنْ كلِّ نَوْرِ الرَّبيعِ، وإذا بيْنَ ظهْرِي الرَّوضَةِ رَجلٌ طويلٌ لا أكادُ أرى رأسَهُ طُولاً في السَّماءِ، وإذا حوْلَ الرجلِ منْ أكثر ولدان ما رَأَيْتُهُمْ قطُّ، قُلتُ: ما هذا؟ وما هؤلاءِ؟ قالا لي: انطَلَقْ انْطَلِقْ فَانْطَلقنا. فَأتيْنَا إلى دَوْحةٍ عظِيمَة لَمْ أر دَوْحةً قطُّ أعظمَ مِنها، ولا أحْسنَ، قالا لي: ارْقَ فيها، فَارتَقينا فيها، إلى مدِينةٍ مَبْنِيَّةٍ بِلَبِنٍ ذَهبٍ ولبنٍ فضَّةٍ، فأتَينَا باب المَدينة فَاسْتفتَحْنَا، فَفُتحَ لَنا، فَدَخَلناهَا، فَتَلَقَّانَا رجالٌ شَطْرٌ مِن خَلْقِهِم كأحْسنِ ما أنت راءٍ، وشَطرٌ مِنهم كأَقْبحِ ما أنتَ راءٍ، قالا لهم: اذهبوا فقَعُوا في ذلك النَّهْر، وإذا هُوَ نَهرٌ معتَرِضٌ يجْرِي كأن ماءَهُ المحضُ في البياض، فذَهبُوا فوقعُوا فيه، ثُمَّ رجعُوا إلينا قد ذَهَب ذلكَ السُّوءُ عَنهمْ، فَصارُوا في أحسن صُورةٍ.قال: قالا لي: هذه جَنَّةُ عدْن، وهذاك منزلُكَ، فسمَا بصَرِي صُعداً، فإذا قصر مِثلُ الرَّبابة البيضاءِ. قالا لي: هذاك منزِلُكَ. قلتُ لهما: بارك اللَّه فيكُما، فَذراني فأدخُلَه. قالا: أما الآن فلا، وأنتَ داخلُهُ. قلت لهُما: فَإنِّي رأَيتُ مُنْذُ اللَّيلة عجباً؟ فما هذا الذي رأيت؟ قالا لي: إنَا سَنخبِرُك. أمَّا الرجُلُ الأوَّلُ الذي أتَيتَ عَليه يُثلَغُ رأسُهُ بالحَجَرِ، فإنَّهُ الرَّجُلُ يأخُذُ القُرْآنَ فيرفُضُه، وينامُ عن الصَّلاةِ الكتُوبةِ. وأمَّا الذي أتَيتَ عَليْهِ يُشرْشرُ شِدْقُه إلى قَفاهُ، ومَنْخِرُه إلى قَفاهُ، وعَيْنهُ إلى قفاهُ، فإنه الرَّجُلُ يَغْدو مِنْ بَيْتِه فَيكذبُ الكذبةَ تبلُغُ الآفاقَ. وأمَّا الرِّجالُ والنِّساءُ العُراةُ الذين هُمْ في مِثل بِناءِ التَّنُّورِ، فإنَّهم الزُّناةُ والزَّواني. وأما الرجُلُ الَّذي أتَيْت عليْهِ يسْبَحُ في النَهْرِ، ويلْقمُ الحِجارة، فإنَّهُ آكِلُ الرِّبا. وأمَّا الرَّجُلُ الكَريهُ المَرآةِ الذي عندَ النَّارِ يَحُشُّها ويسْعى حَوْلَها فإنَّهُ مالِكُ خازنُ جَهنَّمَ. وأما الرَّجُلُ الطَّويلُ الَّذي في الرَّوْضةِ، فإنه إبراهيم، وأما الوِلدانُ الذينَ حوْله، فكلُّ مُوْلود ماتَ على الفِطْرَةِ » وفي رواية البَرْقَاني: « وُلِد على الفِطْرَةِ ». فقال بعض المسلمينَ: يا رسول اللَّه، وأولادُ المشرِكينَ؟ فقال رسولُ اللَّه ﷺ:

« وأولادُ المشركينَ ». وأما القوم الذين كانوا شطر منهم حسن وشطر منهم قبيح فإنهم قوم خلطوا عملاً صالحاً وآخر سيئاً تجاوز الله عنهم. رواه البخاري.

وفي رواية له: « رأيتُ اللَّيلَةَ رجُلَين أتَياني فأخْرجاني إلى أرْضٍ مُقدَّسةٍ » ثم ذكَره. وقال: « فانطَلَقْنَا إلى نَقبٍ مثل التنُّورِ، أعْلاهُ ضَيِّقٌ وأسْفَلُهُ وَاسعٌ، يَتَوَقَّدُ تَحتهُ ناراً، فإذا ارتَفَعت ارْتَفَعُوا حَتى كادُوا أنْ يَخْرُجوا، وإذا خَمَدت، رَجَعوا فيها، وفيها رجالٌ ونساء عراةٌ. وفيها: حتى أتَينَا على نَهرٍ من دَم، ولم يشك فيه رجُلٌ قائمٌ على وسط النَّهرِ، وعلى شطِّ النَّهر رجُلٌ، وبيْنَ يديهِ حجارةٌ، فأقبل الرَّجُلُ الذي في النَّهرِ، فَإذا أراد أنْ يخْرُجَ، رمَى الرَّجُلُ بِحجرٍ في فِيه، فردَّهُ حيْثُ كانَ، فجعلَ كُلَّمَا جاءَ ليخْرج جَعَلَ يَرْمي في فيه بحجرٍ، فيرْجِعُ كما كانَ. وفيهَا: « فصعدا بي الشَّجَرةَ، فَأدْخلاني داراً لَمْ أر قَطُّ أحْسنَ منْهَا، فيها رجالٌ شُيُوخٌ وَشَباب ». وفِيهَا: « الَّذي رأيْتهُ يُشَقُّ شِدْقُهُ فكَذَّابٌ، يُحدِّثُ بالْكذبةِ فَتُحْملُ عنْهَ حتَّى تَبْلُغَ الآفاق، فيصْنَعُ بِهِ ما رأيْتَ إلى يوْم الْقِيامةِ ». وفيها: « الَّذي رأيْتهُ يُشْدَخُ رأسُهُ فرجُلُ علَّمهُ اللَّه الْقُرآنَ، فنام عنهُ بِاللَّيْلِ، ولَمْ يعْملْ فيه بِالنَّهَارِ، فيُفْعلُ بِه إلى يوم الْقِيامةِ ». والدَّارُ الأولى التي دخَلْتَ دارُ عامَّةِ المُؤمنينَ، وأمَّا هذه الدَّارُ فدَارُ الشُّهَداءِ، وأنا جِبْريلُ، وهذا مِيكائيلُ، فارْفع رأسَك، فرفعتُ رأْسي، فإذا فوقي مِثلُ السَّحابِ، قالا: ذالكَ منزلُكَ، قلتُ: دَعاني أدْخُلْ منزلِي، قالا: إنَّهُ بَقي لَكَ عُمُرٌ لَم تَستكمِلْهُ، فلَوْ اسْتَكْملته، أتيت منْزِلَكَ » رواه البخاري.

1546. Rəvayət olunur ki, Səmura ibn Cundəb ﷺ demişdir: "Rəsulullah ﷺ çox vaxt səhabələrinə deyərdi: **"Sizlərdən kimsə yuxu görübmü?"** Bəziləri də ona gördüklərini danışardı. Bir gün o, bizə dedi: **"Bu gecə yanıma iki nəfər gəlib mənə: "Gedək!" dedilər, mən də onlarla getdim.**

Gəlib uzanmış bir kişinin yanına çatdıq. Onun başı üzərində dayanan kəs bir qaya parçası götürüb həmin kişinin başına çırpıb onun başını əzirdi. Daş kənara diyirlənir, o da qaya parçasını götürmək üçün gedirdi. Bu zaman yerdəki adamın başı düzəlir, adam da onun yanına qayıdır və əvvəl etdiyi kimi edirdi. Mən yoldaşlarıma dedim: "Sübhanallah, bunlar kimdir?" Onlar: "Gedək, gedək!" dedilər, biz də getdik.

Gəlib üzüqoylu uzanmış bir kişi gördük. Onun başı üzərində əlində dəmir parçası olan başqa birisi var idi. O, əlindəki dəmir ilə həmin adamın bir üzünü qulağınadək, gözünü də başının kənarınadək cırırdı. Sonra başının digər tərəfinə keçib birinci etdiyi kimi edirdi. O biri

tərəfdə olarkən üzünün birinci tərəfi əvvəlki halını alır, adam da yenə qayıdıb eyni əməli edirdi. Mən dedim: "Sübhanallah, bunlar kimdir?" Onlar yenə: "Gedək, gedək!" dedilər, biz də getdik.

Gəlib təndirə bənzər bir şeyin yanına çatdıq. Oradan səslər gəlirdi. Boylanıb içərisində çılpaq kişi və qadınlar gördük. Onların altlarında od gəzirdi. Od onlara toxunduqca onlar çığırırdılar. Soruşdum ki, bunlar kimdir, onlar yenə: "Gedək, gedək!" dedilər, biz də getdik.

Gəlib bir çaya çatdıq". Sanki çayın qan kimi qırmızı olduğunu dedi. **"Gördük ki, çayda bir kişi üzür. Çayın sahilində isə başqa birisi var idi. Onun qarşısı daşla dolu idi. Çaydakı adam var gücü ilə üzsə də sahildəki adam ona çatıb onun ağzını açır və onu daşla doldururdu. Sonra üzüb gedir, sonra yenə onun yanına gəlir və yenidən onun ağzını daşla doldururdu. Mən dedim: "Bunlar kimdir?" Onlar yenə: "Gedək, gedək!" dedilər, biz də getdik.**

Gəlib pis görünüşlü bir kişinin yanına çatdıq". Ya da belə dedi: **"Ən pis görünüşü olan bir adama rast gəldik. Onun ətrafında od var idi, o da odun ətrafında var-gəl edirdi. Mən dedim: "Bu kimdir?" Onlar yenə: "Gedək, gedək!" dedilər, biz də getdik.**

Gəlib hər tərəfdən bahar nuruna bürünmüş bir bağçaya çatdıq. Mən bağçanın ortasında bir kişi gördüm, onun başı az qala göyə çatırdı. Kişinin ətrafında çoxlu oğlan uşaqları var idi. Mən dedim: "Bu kimdir, bəs bunlar kimdir?" Onlar yenə: "Gedək, gedək!" dedilər, biz də getdik.

Gəlib elə bir kölgəliyə çatdıq ki, mən ondan daha böyük bir kölgəlik görməmişdim. Bizə: "Oraya qalxın!" dedilər, biz də qalxdıq. Gördük ki, orada qızıl və gümüş kərpiclərdən inşa edilmiş bir şəhər var. Biz şəhərə yaxınlaşıb darvazanı döydük. Bizə şəhərə daxil olmağa icazə verildi, biz də şəhərə daxil olduq. Şəhərdə bir tərəfi sənin görə biləcəyin ən xoş görünüşlü, digər tərəfi isə sənin görə biləcəyin ən pis görünüşlü kəs[lərə] rast gəldik. İki yoldaşım onlara dedilər: "Gedin, o çaya düşün". Oradan suyu ağappaq olan çay axırdı. Onlar həmin çaya endilər, sonra da bizim yanımıza qayıtdılar. Artıq onların pislikləri aradan qalxmış, özləri də gözəl görünüş almışdılar. Onlar mənə dedilər: "Bu Ədn cənnətidir, bu da sənin məqamındır". Mən yuxarı baxıb orada ağ rübabədən olan bir qəsr gördüm. Onlar mənə dedilər: "Bu sənin mənzilindir". Mən

dedim: "Allah sizə bərəkət versin, icazə verin, oraya daxil olum". Onlar dedilər: "İndi yox. Sən oraya daxil olacaqsan".

Mən dedim: "Mən gecə boyu qəribə şeylər görürəm. Bu gördüklərim nədir?" Onlar dedilər: "İndi sənə xəbər verərik. Yanına birinci getdiyimiz, başı daşla əzilən adam Quranı götürüb onu inkar edən, yatıb fərz namazlarını qılmayandır. Ağzı və gözləri qulağının dibinədək cırılan adam evindən çıxaraq yerlə göy arasındakı məsafə qədər yalan danışan kəsdir. Təndirə bənzər tikilinin içərisindəki çılpaq qadın və kişilər zinakar kişilər və qadınlardır. Çayda üzərək ağzı daşla doldurulan kişi sələm yeyəndir. Odun ətrafındakı kişi Cəhənnəmin xəzinədarı Malikdir. Bağçadakı o uzun adam İbrahim, onun ətrafındakı uşaqlar isə fitrət üzərində ölmüş azyaşlılardır". – əl-Bərqaninin rəvayətində isə: **"Fitrət üzərində dünyaya gəlmiş..."–** deyilir. Bəzi müsəlmanlar soruşdular: "Ey Allahın elçisi, bəs müşriklərin övladları?" Rəsulullah dedi: **"Müşriklərin övladları da. Bir tərəfi gözəl, digər tərəfi pis görünüşlü olan kəslərə gəlincə isə onlar yaxşı əməlləri pis əməllərinə qarışmış kəslərdir. Allah onların günahlarını bağışladı"**.

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

Buxarinin başqa bir rəvayətində isə belə deyilir: **"Bu gecə yanıma iki nəfər gəlib məni müqəddəs yerə apardı".** Sonra hədisin bir qismini nəql etdi və dedi: **"Biz təndirəbənzər bir tikilinin yanına gəldik. Onun yuxarısı dar, aşağısı isə geniş idi. Onun altında od yanırdı. Od gücləndikcə içərisindəkilər də qalxır və az qala çıxmaq istəyirdilər. Od azaldıqda isə onun içərisinə qayıdırdılar. Onun içərisində çılpaq kişilər və qadınlar var idi. Sonra biz qandan olan bir çayın yanına gəldik və çayın ortasında bir kişi gördük. Çayın kənarında isə başqa birisi dayanmışdı, önündə də daşlar var idi. Çaydakı adam çaydan çıxmağa cəhd etdikcə, o biri adam ona daş atırdı. Həmin adam yerinə qayıtmaq istədikdə də ona daş atılır, o da yenidən geriyə qayıdırdı. Sonra məni ağaca çıxartdılar və elə bir evə daxil etdilər ki, mən əvvəllər ondan daha gözəlini görməmişdim. Orada cavanlar və yaşlılar var idi".** Sonra dedi: **"Yanağı cırılan kəs yalançıdır. O kəs ki, yalan danışır, insanlar da ona inanırlar. Yalanı üfüqlərə çatır. Bu gördüklərin onun başına Qiyamət gününədək gətiriləcək.**

[1] "Səhih əl-Buxari", 6525.

Başı əzilən adam o kəsdir ki, Allah ona Quranı öyrətmiş, o isə gecələri yatmış, gündüzlər isə ona əməl etməmişdir. Bu gördüklərin onun başına Qiyamət gününədək gətiriləcək. Birinci daxil olduğun ev möminlərin evidir. Bu ev isə şəhidlərin evidir. Mən Cəbrailəm, bu isə Mikayıldır. Başını qaldır! Mən başımı qaldırıb başımın üzərində buluda bənzər bir şey gördüm. Mənə dedilər ki, bu sənin mənzilindir. Dedim: "Qoyun öz mənzilimə daxil olum". Dedilər: "Sənin tamamlamadığın bir ömür var. Tamamladıqdan sonra mənzilinə gələcəksən".

Şərh:

Abdullah ibn Abbasdan ﵄ nəql olunmuş hədisdə toxunulan məqamlardan ikisi barədə söhbət açmışdıq:

Birincisi, "Kim görmədiyi yuxunu uydurub danışarsa...";

İkincisi, "Kim istəmədikləri halda bir qövmü dinləyərsə...".

Üçüncü məqam: "**Kim də bir rəsm çəkərsə, ona əzab veriləcək və çəkdiyinə ruh verməsi əmr olunacaq. O isə əsla bunu edə bilməyəcək**".

Bil ki, şəkil çəkmək iki qismə bölünür:

Birinci qisim, heykəl düzəltməkdir – *heykəltəraş* insan və ya heyvan formasında heykəl düzəldir. Bu zaman onun məqsədi istər haram olsun, istərsə də mübah, bu, haramdır. Bu hətta böyük günahlardandır. Çünki Peyğəmbər ﷺ şəkil çəkənləri lənətləmiş və Allahın xəlq etdiyi varlıqları canlandıran kəslərin Qiyamət günü ən şiddətli əzaba düçar olacaqlarını bildirmişdir.

İkinci qisim, rəsm çəkməkdir. Yəni onun cismi yoxdur, lakin şəkili çəkilmişdir. Bu xüsusda alimlər ixtilaf etmişlər. Bəziləri bunu caiz görmüş və demişlər ki, əgər qəsdi haram bir şey deyilsə, bunda bir qəbahət yoxdur. Məsələn, əgər məqsəd rəsmdə olanı əzəmətləndirmək deyilsə, bir müddət sonra insanların ona ibadət edəcəklərindən qorxmursa, bu zaman caizdir. Necə ki, Nuhun qövmü əməlisaleh adamların şəkillərini çəkmiş, ancaq bir müddət sonra onlara ibadət etməyə başlamışdılar.

Onlar Zeyd ibn Xalidin ﵁ hədisini dəlil gətirmişlər. Həmin hədisdə deyilir: **"Yalnız libasda olan rəsm istisnadır".**[1] Onlar bunun istisna olduğunu bildirərək onun haram olmadığına dəlalət etdiyini bildirmişlər.

[1] "Səhih əl-Buxari", 5501; "Səhih Muslim", 3931.

Alimlərin böyük əksəriyyətinin rəyinə uyğun olan daha doğru rəyə əsasən isə heykəl ilə rəsm arasında heç bir fərq yoxdur və onların hər ikisi haramdır. Çünki əli ilə rəsm çəkən adam Allahın yaratdığının bənzərini çəkir və ümumi hökmə daxil olur.

Fotoaparat vasitəsilə çəkilmiş şəkillərə gəlincə, məlum məsələdir ki, bu, Peyğəmbərimizin ﷺ zamanında olmamışdır. Onun zamanında yalnız əl ilə çəkilən rəsm var idi və insan rəsm yolu ilə Allahın yaratdığı məxluqu canlandırırdı. Fotoşəkillər isə o zaman məlum deyildi. İnsan onu əli ilə çəkmir. Məsələn, rəsm çəkərək insanın başını, gözünü, burnunu, dodaqlarını və başqa üzvlərini canlandırmır, sadəcə düyməni basır və şəkil vərəqə çıxmış olur. Burada o, rəsm çəkmir, şəkil sadəcə işıq vasitəsilə alınır.

Fikrimizcə, bu şəkil çəkmək hesab olunmur. Sadəcə şəkil vərəqə çap olunur. Vərəqdə çəkilən də izzət və cəlal sahibi Allahın yaratdığıdır. Buna da dəlil odur ki, bir adam məktub yazıb, sonra da onun surətini çıxararsa, həmin surətə məktubun özü deyilmir, deyilir ki, məktubun özü insanın əli ilə yazdığıdır. Lakin hər bir halda, fotoşəkillərin çəkilmə məqsədini bilmək də önəmlidir. Əgər fotoşəkil haram məqsədlə çəkilirsə, harama çevrilir. Beləsi fitnə salmaq üçün silah alan, qumar məqsədilə yumurta alanla eyni hökmə düşür. Yəni bunlar (silah, yumurta) əslən mübah olsa belə, haram məqsədlə istifadədə nəzərdə tutulduğu üçün harama çevrilmiş olur.

Fotoşəkil mübah məqsədlər, məsələn, sürücülük vəsiqəsi almaq üçün çəkilirsə, bu mübahdır. Bizim bu məsələ barəsində mövqeyimiz budur.

Hazırda bu (rəsm, fotoşəkil) artıq ümumi bir bəlaya çevrilib və hər yerdə geniş vüsət almışdır. Lakin insan gərək Allah və Onun elçisinin haram buyurduğu əməllərlə haram olmayan əməlləri bir-birindən fərqləndirsin. İnsanları nə harama sövq etməməli, nə də onları mübah olan məsələlərdə sıxışdırmamalıdır.

Bu hədisdə ruhu olan canlılardan söhbət gedir – rəssamın (heykəltəraşın) onlara ruh vermələri əmr olunacaq. Çəkilən rəsmin ruhu yoxdursa, məsələn, ağaclar, günəş, ay, ulduzlar, dağlar, çaylar çəkilirsə, bu qadağan deyil. Çünki bunların ruhu mövcud deyil.

Bəzi alimlər isə belə demişlər ki, canlı bitkilərin və ağacların rəsmini çəkmək də caiz deyildir. Çünki hədisdə: **"Toxumu və arpa dənəsini yaratsınlar"**– deyilir. Bunlar da canlı olduğu üçün ruhu olan canlılar kimidir.

Lakin bu rəy cumhur alimlərin rəyinə müxalifdir. Səhih olan odur ki, bu cür rəsmləri çəkmək olar. İnsanın düzəltdiyi avtomobil, saray və buna bənzər əşyaların rəsmini çəkmək isə heç şübhəsiz, caizdir.

Bununla da şəkli çəkilənləri bir neçə qismə bölmək olar:

1) İnsanın əli ilə düzəltdiklərinin rəsmini çəkmək cazidir. Məsələn, maşın, saray, qapı və ya buna bənzər başqa şeylər;

2) Allahın yaratdıqdarından olan, lakin canı (ruhu) olmayanlar. Misal üçün günəş, ay, ulduz, dağlar, planetlər, çaylar. Bunların da rəsmini çəkmək yekdilliklə olar;

3) Allahın yaratdıqlarından olan, ruhu olmayan canlıların rəsmini çəkmək. Məsələn, ağacları və bitkiləri. Əksər alimlərə görə bunları çəkmək olar. Bəzi alimlər, o cümlədən məşhur tabiin Mücahid ibn Cəbr bunun haram olduğunu bildirmişdir. Səhih olan isə bunun caiz olmasıdır.

4) Ruhu olan canlıların rəsmini çəkmək olmaz. Çünki Peyğəmbər ﷺ şəkil çəkənləri lənətləmişdir. Bu istər rəsmə, istərsə də naxışa aiddir.

5) Fotoşəkil çəkmək məsələsində görüşümüz ondan ibarətdir ki, bu şəkil çəkməyə aid deyil. Çünki foto çəkən adam rəsm çəkmir. Lakin onun niyyətinə baxmaq da önəmlidir – o, həmin şəkli haram məqsəd üçün çəkir, yoxsa yox. Bu məsələnin təfsilatı bu şəkildədir. Müvəffəq edən Allahdır.

İki yüz altmış birinci fəsil

Caiz olan yalanlar

[Müəllif Hafiz ən-Nəvəvi ﷺ deyir:] Bil ki, yalan əslən haram olsa da, bəzi hallarda müəyyən şərtlərlə caizdir. Bu məsələyə aydınlıq gətirdiyim "əl-Əzkar" kitabından müxtəsər olaraq bunları deyirəm:

"Kəlam, məqsədlər üçün bir vasitədir. O məqsəd ki, ona yalan danışmadan nail olmaq mümkündür, həmin məqsədə çatmaq üçün yalan danışılması qadağandır. Yalansız əldə edilməsi mümkün olmayan məqsəd üçün isə yalan danışmaq olar. Həmin məqsədin özünə çatmaq mübahdırsa, bu zaman yalan da mübah olur. Həmin məqsədə çatmaq vacibdirsə, bu zaman yalan da vacib olur".

Əgər müsəlman birisi onu öldürmək, yaxud malını götürmək istəyən zalım birisindən gizlənirsə və ya malını gizlədirsə, başqa birisindən də onun barəsində soruşularsa, bu zaman onun yerini bəlli etməmək üçün yalan danışmaq caizdir.

Yaxud başqa bir misal. Əgər özündə zalım birisinin ələ keçirmək istədiyi başqasına aid bir əmanət olarsa, yalan danışmaqla onu gizlətmək olar. Bu vaxt daha yaxşısı tövriyə etməkdir. "Tövriyə" sözünün mənası məqsədə çatmaq naminə zahirən aldadıcı ləfzlə doğru söz söyləməkdir. Adam xitab olunanın məsələni anlamasına görə tövriyəni tərk edib yalan danışarsa, bu haram deyil.

Alimlər bu halda yalanın caiz olmasına dəlil olaraq aşağıdakı hədisi gətirirlər. Ummu Kulsumdan rəvayət olunan hədisdə o, Rəsulullahın ﷺ belə dediyini eşitmişdir: **"İnsanların arasını düzəldən, xeyir istəyən və xeyir söyləyən kəs yalançı deyildir".**[1]

Muslimin rəvayətində isə belə deyilir: «Ummu Kulsum dedi: **"Onun insanların danışdıqlarından yalnız üç halda yalan danışmağa rüxsət verdiyini eşitdim: müharibə vaxtı, insanların arasını düzəltmək və qadının ərinə danışdığı"**».

[1] "Səhih əl-Buxari", 2495; "Səhih Muslim", 4717.

Şərh:

Qeyd etdiyimiz kimi, yalan danışmaq haramdır. Hətta Allah və Onun elçisinin adından yalan danışmaq kimi yalanın bəzi növləri böyük günahlardandır. Müəllif bu fəsildə bəzi hallarda böyük bir xeyir əldə edilməsi naminə yalan danışmağın caiz olduğunu bildirmişdir. Hətta bəzi hallarda zərərin və zülmün qarşısını almaq üçün yalan danışmaq vacib belə olur. Məsələn, zalım bir adam məsum birini öldürmək istəyir. Sən də zalımdan gizlənən həmin günahsızın yerini bilirsən. Onu qətlə yetirmək istəyən zalım səndən soruşur ki, filankəs haradadır, filankəs filan yerdədir? Sən də cavab verirsən ki, xeyr, filankəs orada deyil. Halbuki, sən onun həmin yerdə olduğunu bilirsən. Bu zaman yalan danışa bilərsən. Çünki məsum bir insanı ölümdən xilas etmək vacibdir. Bir şey olmadan tamamlanmayan vacibi etmək vacibdir.

Lakin daha əfzəl olanı odur ki, tövriyə edəsən. Yəni yalan olmayan, doğru mənada olan elə söz söyləyəsən ki, onun yeri bəlli olmasın. Misal üçün zalım olan bir kəs səndən filankəsin filan yerdə olub-olmadığını soruşur, sən də başqa bir yerə işarə edərək deyirsən ki, xeyr, orada deyil.

Rəvayət olunur ki, bir dəfə İmam Əhmədin yanına bir nəfər gəlib onun tələbəsini soruşur ki, filankəs haradadır. İmam Əhməd də əlinə işarə edərək: "Filankəs burada deyil. Onun burada nə işi var?"– deyir. Bu tövriyə adlanır. Bir adam sənin yanına gəlib yanındakı günahsız adamı öldürmək istəsə və soruşsa ki; "filankəs buradadırmı?", sən iki əlinə deyil, bir əlinə işarə edib deyirsən ki, xeyr.

Yaxud da bir nəfər səndən israrla bir şey istəyir, sən isə həmin şeyi ona vermək istəmirsən. Çünki həmin adam malı israf edəndir. Bu zaman deyirsən ki, "Allaha and olsun ki, əlimdə bir şey yoxdur". Həmin vaxt doğrudan da əlin boş olur. Yəni əlinin içərisində dirhəm və ya başqa bir şey olmur. Deyirsən ki, "əlimdə heç nə yoxdur". Bu zaman sən doğru danışmış olursan. Qarşıdakı adam isə elə başa düşür ki, pulun yoxdur.

Yaxud da, məsələn, bir adam sənə pul və ya əmanət verir, sənə də deyir ki, bunları mənim üçün saxla. Həmin pulu səndən almaq istəyən zalım birisi də gəlib deyir ki, filankəsin sənə verdiyi əmanət haradadır? Onu mənə ver". Sən də and içirsən ki, məndə əmanət yoxdur. Niyyətində isə ərəb dilindəki "mə" (مَا) sözünü inkar mənasında deyil, "hansı ki"

mənasında işlədirsən. Bu zaman sən doğru danışmış olursan. Yəni dediyin "filankəsin məndə əmanəti var" mənasını versə də, qarşındakı adam onu fərqli mənada başa düşür və düşünür ki, əmanət səndə deyil.

Xülasə, ortada zülm varsa, insan da yalan danışaraq həmin haqsızlığı aradan qaldırmaq istəyirsə, bu caizdir. Lakin daha əfzəl olanı tövriyə etmək – doğru söz niyyət edib yalan danışmamaqdır.

Həmçinin böyük bir məsləhət olarsa, məsələn, müharibədə yalan danışa bilərsən. Misal üçün, düşmənin casusları səndən soruşur ki, "Ordu böyükdürmü, güclüdürmü? Silahı çoxdurmu?", sən də vəziyyətin ürəkaçan olmadığını bildiyin halda deyirsən ki, "Bəli". Məqsədin də düşmənin qəlbinə qorxu salmaqdır.

İnsanların arasını düzəltmək də buna aiddir. Bir nəfər sənin yanına gəlib xəbər verir ki, başqa bir adam onun qeybətini edib. Gəlib sənə deyir ki; "Eşitmişəm ki, filankəs mənim haqqımda belə-belə sözlər deyib". Sən deməlisən ki, "xeyr, o elə sözlər deməyib". Belə deməkdə bir problem yoxdur, çünki burada məqsəd insanların arasını düzəltməkdir.

Sevgi və mehribançılığın artırılması məqsədilə kişinin öz xanımı, qadının da öz əri ilə danışdığı zaman söylədiyi yalan [və ya şişirtmə] də buna aiddir. Məsələn, kişi öz xanımına deyir ki, sən mənə bütün qadınlardan əzizsən. Ola bilsin ki, bu doğru deyil, lakin bu, onların arasındakı sevgini artırmaq məqsədilə deyilir.

Xülasə, günahsız bir insanı ölümdən xilas etmək, yaxud məsum bir insanın malını tələf olunmaqdan qorumaq üçün yalan danışmaq vacibdir. Böyük məsləhət olduğu zaman bu mübah sayılır. Lakin yaxşı olar ki, bu zaman tövriyə edilsin ki, yalan danışılmasın. Müvəffəq edən Allahdır.

İki yüz altmış ikinci fəsil

Danışılanı dəqiqləşdirməyə təşviq etmək

Mövzu ilə əlaqəli ayələr:
Uca Allah buyurur:

﴿ وَلَا تَقْفُ مَا لَيْسَ لَكَ بِهِۦ عِلْمٌ ﴾

"Haqqında məlumatın olmadığı bir işin dalınca getmə...".[1]

﴿ مَّا يَلْفِظُ مِن قَوْلٍ إِلَّا لَدَيْهِ رَقِيبٌ عَتِيدٌ ﴾

"Dediyi elə bir söz yoxdur ki, *onu yazmaq üçün* yanında hazır durmuş gözətçi olmasın".[2]

Mövzu ilə əlaqəli hədislər:

١٥٤٧– وعنْ أبي هُرَيْرة ﷺ أنَّ النبيَّ ﷺ قال: « كفى بالمَرءِ كَذِباً أنْ يُحَدِّثَ بِكُلِّ ما سَمِعَ ». رواه مسلم.

1547. Əbu Hureyradan ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"İnsanın hər eşitdiyini danışmağının günahı onun üçün yetər"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[3]

١٥٤٨– وعن سمُرة ﷺ قال: قال رسُولُ اللَّه ﷺ: « منْ حدَّث عنِّي بِحَدِيثٍ يرَى أنَّهُ كذِبٌ، فَهُو أحدُ الكَاذِبين ». رواه مسلم.

1548. Səmuradan ﷺ rəvayət olunan hədisdə Rəsulullah ﷺ demişdir: **"Kim yalan olduğunu bilə-bilə mənim barəmdə hədis danışarsa, o da yalançılardan biridir"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[4]

---

[1] "əl-İsra" surəsi, 36.
[2] "Qaf" surəsi, 18.
[3] "Səhih Muslim", 6.
[4] "Səhih Muslim", 1.

١٥٤٩– وعنْ أسماءَ ﵂ أن امْرأة قالَتْ: يا رَسُول اللَّه إنَّ لي ضرَّةً فهل عليَّ جناحٌ إنْ تَشبعْتُ من زوجي غيْرَ الذي يُعطِيني؟ فقال النبيُّ ﷺ: « المُتشبِّعُ بِما لم يُعْطَ كَلابِس ثَوْبَي زُورٍ » متفقٌ عليه.

المُتشبِّعُ: هو الذي يُظهرُ الشَّبع وليس بشبعان، ومعناها هُنا: أنَّهُ يُظهرُ أنه حَصلَ له فضِيلةٌ وليْستْ حاصِلة. « ولابِس ثَوْبي زورٍ » أي: ذِي زُورٍ، وهو الذي يزَوِّرُ على النَّاس، بأن يَتَزَيَّى بِزيِّ أهل الزُّهدِ أو العِلم أو الثرْوةِ، ليغْترَّ بِهِ النَّاسُ وليْس هو بِتِلك الصِّفةِ، وقيل غَيْرُ ذلك والله أعلم.

1549. Əsmadan ﵂ rəvayət olunur ki, bir qadın dedi: "Ey Allahın elçisi, mənim yoldaşımın başqa bir zövcəsi də var. Olarmı ərimin mənə almadığı bir şeyi aldığını ona deyim?" Peyğəmbər ﷺ dedi: **"Özünə verilməyən bir şeyi yalandan verilən kimi təqdim edən kəs, iki yalan libasını geymiş olur"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

[Hədisin ərəbcəsində keçən] "əl-mutəşəbbi" sözünün mənası bir adamın malik olmadığı hər hansı bir fəzilətə sahib olduğunu izhar etməsidir. "Zur" sözünün mənası isə insanın yalandan özünü elmli, gözütox və zəngin insan kimi göstərməsidir. Əslində isə o, bu vəsflərə malik deyil. Buna bənzər başqa rəylər də bildirilmişdir. Doğrusunu Allah bilir.

Şərh:

Müəllif ﵀ **"Danışılanı dəqiqləşdirməyə təşviq etmək"** fəslini qeyd edir. O, yalan danışmağın haram olmasını qeyd etdikdən sonra bu fəsli qeyd edib.

Yalan danışmaq, bir işi həqiqətə uyğun olmayan şəkildə deməkdir. İnsan bir söz danışmamışdan və ya onu nəql etməmişdən öncə gərək onu dəqiqləşdirsin. Ələlxüsus da indiki zamanda – nəfsi istəklər, ded-qodu, olub-olmayanlar haqqında danışılan bir zamanda hər bir söz dəqiqləşdirilməlidir.

Sonra müəllif ﵀ bu mövzuya aid ayə və hədisləri dəlil gətirir.

[1] "Səhih əl-Buxari", 4818; "Səhih Muslim", 3972.

Uca Allah buyurur: **"Haqqında məlumatın olmadığı bir işin dalınca getmə...".**[1]

"Getmə", yəni barəsində elmin olmadığı məsələləri danışma və onları izləmə. Peyğəmbər ﷺ demişdir: **"Allaha və axirət gününə iman gətirən kəs ya xeyir söz söyləsin, ya da ki, sussun"**.

Uca Allah buyurur: **"Dediyi elə bir söz yoxdur ki,** ***onu yazmaq üçün*** **yanında hazır durmuş gözətçi olmasın".**[2] Yəni danışılan hər bir sözü yazan və ona nəzarət edən mələk vardır. Həmin mələk hər zaman onun yanındadır. Bu da insana xəbərdarlıqdır ki, bilmədiyi sözü danışmaqla günah qazanır.

Sonra müəllif ﷺ mövzu ilə əlaqəli hədisləri qeyd edir:

"İnsanın hər eşitdiyini danışmağının günahı onun üçün yetər". Yəni insan dəqiqləşdirmədən hər eşitdiyi sözü danışdıqda yalan danışmış olur. Bu bir reallıqdır. Bəzi insanlar sənin yanına gəlib deyirlər ki, belə-belə hadisələr baş verib. Sonra araşdırıb görürsən ki, həmin hadisə baş verməyib. Ya da biri gəlib sənə deyir ki, filankəs belə deyib. Araşdıranda görürsən ki, o elə bir söz deməyib.

Dəqiqləşdirilmədən danışılan yalanların ən böyüyü Allahın hökmü və şəriəti ilə əlaqədar olanıdır. Məsələn, Quranın adından, Allahın adından yalan danışması, yaxud da Quranı fərqli şəkildə təfsir etməsidir. Olur ki, Peyğəmbərin ﷺ adından yalan danışıb deyir ki, Peyğəmbər ﷺ belə deyib, halbuki o, yalan danışır. Yaxud da yalan olduğunu bilə-bilə Peyğəmbərin ﷺ adından hədis danışır və deyir ki, filankəs demişdir ki, Peyğəmbər ﷺ belə demişdir. Əslində isə o, həmin hədisin yalan olduğunu bilir. Bu zaman onun özü də Peyğəmbərin ﷺ bəyan etdiyi yalançılardan biri hesab olunur.

Bundan daha böyük günah isə ərinin iki zövcəsi olan qadının hədisində deyildiyi kimi, özünə verilməyən bir şeyi yalandan verilən kimi təqdim edən kəsin əldə etdiyi günahdır. Hədisdə qadın soruşur ki: "Ey Allahın elçisi, mənim yoldaşımın başqa bir zövcəsi də var. Olarmı ərimin mənə almadığı bir şeyi aldığını ona deyim?" Bununla da onunla ərinin arasını vurmaq istəyir. Peyğəmbər ﷺ isə ona belə cavab verir: **"Özünə**

[1] "əl-İsra" surəsi, 36.

[2] "Qaf" surəsi, 18.

verilməyən bir şeyi yalandan verilən kimi təqdim edən kəs, iki yalan libasını geymiş olur".

Xülasə, insan gərək danışdığı sözü də araşdırsın, ona söz deyən adamı da araşdırsın ki, görsün həmin adam etibarlı insandır, ya yox. Uca Allah buyurur: **"Ey iman gətirənlər! Əgər bir fasiq sizə bir xəbər gətirsə, *onu* araşdırın. Yoxsa bilmədən bir qövmə pislik edər, sonra da bunun peşmançılığını çəkərsiniz".**[1]

Ələlxüsus da insanlar arasında nəfsi istəklərin, dedi-qodunun geniş yayıldığı, onların hər sözü dəqiqləşdirmədən nəql etdikləri bir zamanda bunu etmək, yəni dəqiqləşdirmək daha çox vacib olur ki, insan həlak olmasın. Müvəffəq edən Allahdır.

[1] "əl-Hucurat" surəsi, 6.

İki yüz altmış üçüncü fəsil

Yalan şahidliyin haramlığının ağırlığı

Mövzu ilə əlaqəli ayələr:
Uca Allah buyurur:

﴿ وَٱجۡتَنِبُواْ قَوۡلَ ٱلزُّورِ ﴾

"Yalan sözlərdən də çəkinin".[1]

﴿ وَلَا تَقۡفُ مَا لَيۡسَ لَكَ بِهِۦ عِلۡمٌ ﴾

"Haqqında məlumatın olmadığı bir işin dalınca getmə".[2]

﴿ مَّا يَلۡفِظُ مِن قَوۡلٍ إِلَّا لَدَيۡهِ رَقِيبٌ عَتِيدٞ ﴾

"Dediyi elə bir söz yoxdur ki, *onu yazmaq üçün* yanında hazır durmuş gözətçi olmasın".[3]

﴿ إِنَّ رَبَّكَ لَبِٱلۡمِرۡصَادِ ﴾

"Həqiqətən, sənin Rəbbin nəzarət edir".[4]

﴿ وَٱلَّذِينَ لَا يَشۡهَدُونَ ٱلزُّورَ ﴾

"Onlar yalandan şahidlik etməz...".[5]

Mövzu ilə əlaqəli hədis:

١٥٥٠– وعن أبي بكْرةَ رضي الله عنه قال: قالَ رسولُ اللَّه ﷺ: « ألا أُنبِّئكُم بأكبر الكَبائِر؟ قُلنَا: بَلَى يا رسول اللَّهِ. قَالَ: « الإشراكُ باللَّه، وعُقُوقُ الوالِدَيْنِ » وكان مُتَّكِئا فَجلَس،

---

[1] "əl-Həcc" surəsi, 30.
[2] "əl-İsra" surəsi, 36.
[3] "Qaf" surəsi, 18.
[4] "əl-Fəcr" surəsi, 14.
[5] "əl-Furqan" surəsi, 72.

فقال: « ألا وقَوْلُ الزُّورِ، وشهادةُ الزورِ » فما زال يُكَرِّرُهَا حتى قلنا: لَيْتَهُ سكَت. متفق عليه.

1550. Rəvayət olunur ki, Əbu Bəkra ﷺ demişdir: «Rəsulullah ﷺ dedi: **"Sizə böyük günahların ən böyüyünü xəbər verimmi?"** Biz dedik: "Bəli, ey Allahın elçisi". Dedi: **"Allaha şərik qoşmaq, valideyinlərin üzünə ağ olmaq"**. Bu zaman o, söykənmiş halda idi. Qalxıb oturdu və dedi: **"Bir də yalan söz və yalan şahidlik"**. O bu sözləri o qədər təkrar etdi ki, biz: "Kaş ki, susaydı" dedik".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Müəllif ﷺ "Yalan şahidliyin haramlığının ağırlığı" fəslini qeyd edir.

Yalan şahidlik, bir işin yalan olduğunu bilə-bilə ona şahidlik etməkdir. Adamın bilmədiyi bir şeyə şahidlik etməsi, yaxud da işin baş verdiyini bildiyi halda onun reallığa uyğun olmadığı qənaətində olması da belədir. Bütün bu hallarda şahidlik etmək haramdır. İnsan yalnız dəqiq bildiyi məsələlərə şahidlik edə bilər. Yalan olduğunu bilərək şahidlik etmək isə, məsələn, yalandan demək ki, filankəsin filankəsə bu qədər borcu var, bu, – Allah qorusun – yalan şahidlikdir. Misal üçün, birinin imkanlı olduğunu bildiyin halda onun kasıb olduğuna, zəkata möhtac birisi olduğuna şahidlik etmək də belədir. Yaxud da bəzi insanların dövlət orqanlarında kimlərinsə ailə sahibi və bir neçə övlada sahib olduğuna yalandan şahidlik etməsi də buna aiddir. Buna misallar olduqca çoxdur.

Yalan şahidlik edən bu biçarə elə düşünür ki, bununla qardaşına yaxşılıq etmiş olur, əslində isə o həm özünü, həm də qardaşını zülmə məruz qoyur. Özünə zülm etməsi bəllidir, çünki o, günah iş görür və böyük bir günah edir. Qardaşına zülm etməsinə gəlincə, ona, layiq olmadığı bir şeyi verdiyi üçün ona zülm etmiş olur. Bununla da qardaşı pulu haqsız olaraq almış olur. Peyğəmbər ﷺ demişdir: **"Qardaşına haqlı olduğunda da, haqsız olduğunda da yardım et!"** Dedilər: "Ey Allahın elçisi, haqlı olanı bildik, bəs haqsız olana necə yardım edək?" Dedi: **"Etdiyi haqsızlığın**

[1] "Səhih əl-Buxari", 5519; "Səhih Muslim", 126.

qarşısını almaqla – bu ona yardım etməkdir”.[1] Allah qorusun, qardaşlarına fayda vermək üçün yalandan şahidlik edənlər həm özlərinə, həm də qardaşlarına zərər vermiş olurlar.

Sonra müəllif bəzi ayələri misal gətirmişdir ki, onlardan da bəziləri qeyd edilmiş, bəziləri isə qeyd edilməmişdir. Uca Allah buyurur: **“Murdar bütlərdən və yalan sözlərdən çəkinin”.**[2] Yalan şahidlik də yalan sözlərə aiddir. Uca Allah bu ayədə yalançı şahidliyi murdar bütlərlə, yəni şirklə yanaşı qeyd etmişdir ki, bu da yalançı şahidliyin nə qədər böyük günah olmasına dəlalət edir.

Yenə Uca Allah buyurur: **“Onlar yalandan şahidlik etməz, lağlağı məclisinə rast gəldikdə *oradan* ləyaqətlə ötüb keçərlər”.**[3] Burada həmin insanlar tərifl ənir. Deməli, yalan şahidlik etmədiklərinə görə tərifl ənirlərsə, yalan danışmadıqlarına görə də daha çox tərif olunmalıdırlar. Həmçinin əgər yalan şahidliyin və yalan sözün olmaması tərifə layiq işdirsə, deməli yalan şahidlik və yalan söz də pisl ənməyə layiqdir.

Sonra müəllif Əbu Bəkranın ﵁ hədisini qeyd edir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **“Sizə böyük günahların ən böyüyünü xəbər verimmi?”** Buradakı “ələ” (أَلا) ədatı başlanğıc üçündür. Burada Peyğəmbər ﷺ həmin ədatı işlətməklə insanların nəzərini mühüm bir məsələyə cəlb etməyə cəhd edir. Odur ki, deyir: **“Sizə böyük günahların ən böyüyünü xəbər verimmi?”** Biz dedik: “Bəli, ey Allahın elçisi”. Dedi: **“Allaha şərik qoşmaq”.** Bu ən böyük günahdır və sahibini ən şiddətli əzaba düçar edir. Çünki Allaha şərik qoşan kəsə Uca Allah Cənnəti haram etmişdir. Onun yeri Cəhənnəmdir. Zalımlara əsla yardım edə bilən tapılmaz.

İkincisi: **“Valideyinlərin üzünə ağ olmaq”,** yəni onların sözünə baxmamaq.

Valideyinlər ata və anadır. Gərək övladları bacardıqları qədər onlara yaxşılıq etsinlər və onların qayğısına qalsınlar. Yalnız zərərli işlər, bir də izzət və cəlal sahibi Allaha asiliklər istisnadır. Bu zaman onlara itaət olunmur.

---

[1] “Səhih əl-Buxari”, 6438.

[2] “əl-Həcc” surəsi, 30.

[3] “əl-Furqan” surəsi, 72.

Ravi deyir ki, "bu zaman o, söykənmiş halda idi", sonra deyəcəyi sözün böyüklüyünə görə "qalxıb oturdu və dedi: **"Bir də yalan söz və yalan şahidlik"**.

Peyğəmbər ﷺ diqqəti bu məsələyə ona görə yönəldir ki, bu, insanlar arasında tez-tez baş verir, insanlar da bu məsələyə önəm vermirlər. Beləcə o, insanlara demək istədi ki, bu olduqca önəmli məsələdir.

Şirk və valideyinlərə asilik barədə danışdıqda "o söykənmiş halda idi. Sonra qalxıb oturdu və dedi: **"Bir də yalan söz və yalan şahidlik".** O bu sözləri o qədər təkrar etdi ki, biz: "kaş ki, susaydı"– dedik.

Bu hədis yalan şahidliyin və yalan söz söyləməyin nə qədər böyük günah olduğunu göstərir. Gərək insan izzət və cəlal sahibi Allaha bu günahdan tövbə etsin. Çünki bu zaman o həm özünə, həm də başqasına zərər vermiş olur. Müvəffəq edən Allahdır.

İki yüz altmış dördüncü fəsil

Müəyyən bir insanı və ya heyvanı lənətləmək

Mövzu ilə əlaqəli hədislər:

١٥٥١– عن أبي زيْدٍ ثابتِ بنِ الضَّحاكِ الأنصاريّ ﷺ، وهو من أهْل بيْعةِ الرِّضوانِ قال: قَالَ رسُولُ اللَّهِ ﷺ: « من حَلَف عَلى يمِينٍ بِملَّةٍ غيْرِ الإسْلامِ كاذباً مُتَعَمِّداً، فهُو كما قَالَ، ومنْ قَتَل نَفسهُ بشيءٍ، عُذِّب بِهِ يوْم القِيامةِ، وَليْس على رجُلٍ نَذْرٌ فِيما لا يَملِكهُ، ولعنُ المُؤْمِنِ كَقَتْلِهِ » متفقٌ عليه.

1551. Rizvan beyətində iştirak etmiş Əbu Zeyd Sabit ibn Dahhək əl-Ənsaridən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kim qəsdən yalandan da olsa İslamdan başqa bir millətdən olmasına and içərsə, o, dediyi kimi olar. Kim özünü bir şeylə öldürərsə, Qiyamət günü ona həmin şeylə əzab olunar. İnsan malik olmadığı bir şeyi nəzir edə bilməz. Mömini lənətləmək onu öldürmək kimidir"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٥٥٢– وعنْ أبي هُريْرةَ ﷺ أنَّ رسُول اللَّه ﷺ قال: « لا ينْبغِي لِصِدِّيقٍ أنْ يكُونَ لَعَّاناً » رواه مسلم.

1552. Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Siddiq olan (doğru danışan) kəs çoxlu lənət edən olmaz".**

Bu hədisi Muslim rəvayət etmişdir.

١٥٥٣– وعنْ أبي الدَّردَاءِ ﷺ قال: قالَ رسُولُ اللَّهِ ﷺ: « لا يكُونُ اللَّعَّانُون شُفعَاءَ، ولا شُهَدَاءَ يوْمَ القِيامَةِ » رواه مسلم.

1553. Əbu Dərda ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ dedi: **"Çoxlu lənət edənlərdən Qiyamət günü nə şəfaətçi, nə də şahid olmayacaq"**.

Bu hədisi Muslim rəvayət etmişdir.

---

[1] "Səhih əl-Buxari", 1275; "Səhih Muslim", 159.

Şərh:

Müəllif ﵀ **"Müəyyən bir insanı və ya heyvanı lənətləmək"** fəsli açır.

"Lənət" sözünün mənası Allahın rəhmətindən qovulmaq və uzaqlaşmaqdır. Sən birisinə: "Allahım, filankəsə lənət et!" deməyinlə Allahın onu Öz rəhmətindən qovmasını və uzaqlaşdırmasını istəyirsən. Allah qorusun!

Bu səbəbdən də müəyyən bir adamı lənətləmək böyük günahlardan hesab olunur. Yəni, müəyyən bir insanı lənətləmək olmaz. Birisi üçün: "Allahım, filankəsə lənət et! Allah sənə lənət eləsin" və ya buna bənzər sözlər demək olmaz. Hətta diri olan bir kafiri belə müəyyən olaraq lənətləmək olmaz. Çünki ﷺ Peyğəmbər: "Allahım, filankəsi lənətlə!" dedikdə, Uca Allah bu ayəni nazil etdi: **"Bu işin sənə aidiyyəti yoxdur, – *müsəlman olsalar* onların tövbəsini qəbul etsin və ya *inkar etsələr* onlara əzab versin. Çünki onlar zalımdırlar".**[1]

Bəzi adamlar hirslənib müəyyən kafirləri lənətləyirlər. Bu caiz deyildir, çünki sən bilmirsən, bəlkə Allah ona hidayət verəcək. O qədər insanlar var ki, əvvəllər İslama və müsəlmanlara ən şiddətli şəkildə düşmənçilik etsələr də sonradan Allah onlara hidayət verib və onlar ən xeyirli möminlərdən olublar. Buna misal olaraq Ömər ibn əl-Xəttabı göstərmək olar:

O, bu ümmətin Əbu Bəkrdən sonra ikinci ən fəzilətli adamıdır. Əvvəllər isə İslamın ən böyük düşmənlərindən idi. Sonra Allah ona hidayət verdi və o, İslamı qəbul etdi.

Xalid ibn Vəlid də Uhud döyüşündə müsəlmanlara qarşı vuruşurdu. O, müsəlmanların üzərinə həmlə etməklə onları pərən-pərən saldı.

İkrimə ibn Əbu Cəhl və digər böyük səhabələr də əvvəllər İslama qatı düşmən olublar. Sonra isə izzət və cəlal sahibi Allah onlara hidayət verdi. Uca Allah buyurur: **"Bu işin sənə aidiyyəti yoxdur, – *müsəlman olsalar* onların tövbəsini qəbul etsin və ya *inkar etsələr* onlara əzab versin. Çünki onlar zalımdırlar".**

O ki qaldı küfr üzərində ölən kəsə, onun kafir olaraq öldüyünü biliriksə, o zaman onu lənətləyə bilərik. Çünki onun barəsində Allah mərhəmətindən ümid üzülüb. Çünki o, küfr üzərində ölmüşdür. Allah qorusun!

---

[1] "Ali İmran" surəsi, 128.

Bəs kafiri lənətləməklə nə qazanırıq? Ola bilsin ki, bu lənət Peyğəmbərin ﷺ bu sözlərinə aid olsun: **"Ölüləri söyməyin, onlar artıq etdikləri ilə üzləşiblər".**[1] Biz də kafiri və ya küfr üzərində ölən adamı lənətləyən kəsə deyirik ki: "Əslində sənin onu lənətləməyində heç bir fayda yoxdur. Çünki o, artıq Allahın rəhmətindən qovulub və uzaqlaşıb. O hətta Cəhənnəm əhlindəndir və orada əbədi qalacaqdır".

Heyvanları da lənətləmək olmaz. Hədisləri şərh edəndə bu barədə söhbət açacağıq.

Sonra müəllif Əbu Zeyd ibn Sabitin رضي الله عنه hədisini qeyd edir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Kim qəsdən yalandan da olsa İslamdan başqa bir millətdən olmasına and içərsə, o, dediyi kimi olar. Kim özünü bir şeylə öldürərsə, Qiyamət günü ona həmin şeylə əzab olunar. İnsan malik olmadığı bir şeyi nəzir edə bilməz. Mömini lənətləmək onu öldürmək kimidir".**

"Kim qəsdən yalandan da olsa İslamdan başqa bir millətdən olmasına and içərsə, o, dediyi kimi olar". Məsələn, bir insan desə ki, əgər belə-belə olarsa, o, yəhudi və ya xaçpərəstdir. Dediyi şey də olmazsa, o dediyi kimi olar. Yəni, Allah qorusun, o, yəhudi və ya xaçpərəst olur. Misal üçün, bizə xəbər verilir ki, filankəs dünən gəlib, biz deyirik ki, doğru deyil. Həmin adam israr edir ki, o gəlməyibsə, (bunu deyən özü) yəhudidir və ya nəsranidir. Məlum olsa ki, həmin adam doğrudan da gəlməyib, adam da "mən yəhudiyəm" sözünü qəsdən deyibsə, Peyğəmbərin ﷺ dediyi kimi, yəhudi və ya nəsrani olur.

Bu hədis dəlalət edir ki, İslamdan başqa millətdən olmağa yalandan and içmək böyük günahlardandır. Əgər dediyi yalan deyil doğru olarsa, bu vəsf ona şamil olunmur. Lakin biz ona deyirik ki, and içəndə yalnız Allaha and iç. Rəsulullah ﷺ demişdir: **"And içmək istəyən ya Allaha and içsin, ya da ki, sussun"**.[2] Əgər adam bu sözü qəsdən demirsə, lakin zənn edirsə ki, *hadisə* elə olub, sonra da məlum olsa ki, *hadisə* elə olmayıb, zənnimcə o bu vəsfə şamil olunmur.

Bu hədisdən o fayda əldə olunur ki, kim bir işin olması ilə bağlı qəsdən bir şeyə and içərsə, sonra da bəlli olarsa ki, həmin iş olmayıb, o zaman həmin kəs günah qazanmır və ona kəffarə vacib olmur.

---

[1] Az sonra hədisin mənbəyi qeyd olunacaqdır.

[2] "Səhih əl-Buxari", 2482; "Səhih Muslim", 3105.

Məsələn, əgər bir adam filankəsin sabah gələcəyini bilərək desə ki, mən dəqiq bilirəm, o, sabah gələcək, o bunu zənninə görə deyir. Əgər həmin adam gəlməsə, ona kəffarə vacib olmur. Çünki o, öz zənninə görə and içmişdir. Ona görə də bir kişi, "Allaha and olsun ki, ailələrdə (yəni Mədinə şəhərindəki ailələrdə) məndən kasıbı yoxdur" dedikdə Peyğəmbər ﷺ onun sözünü qəbul etmişdi.[1] Halbuki həmin adam Mədinənin bütün evlərini yoxlamamışdı, sadəcə öz gümanına görə belə demişdi.

Hədisdəki "**Kim özünü nə ilə öldürərsə, Qiyamət günü həmin şeylə əzab olunar"** sözünə gəlincə, yəni kim özünü nə ilə öldürərsə, ona Cəhənnəmdə elə onunla əzab verilər: kim zəhər içib ölürsə, Cəhənnəmdə əbədi olaraq ona zəhər içirdiləcək. Allah qorusun! Yaxud özünü asan kəsə Cəhənnəmdə də asılaraq əzab olunacaqdır. Bıçaqla özünə qəsd edən kəsə Cəhənnəm odunda bıçaqla əzab veriləcəkdir. Özünü yaba ilə öldürən kəsə Cəhənnəmdə onunla azəb verilər.

Aclıq aksiyası keçirənlər də buna aiddir. Bu, özünə qəsd etməkdir. Həmçinin partlayıcı ilə özlərini öldürənlər də buna aiddir – onlara onunla əzab veriləcəkdir. Bellərinə partlayıcı kəmər bağlayaraq gedib bir qövmün yanında özlərini partladanlar da buna aiddir. Bu zaman onun özü birinci ölür. Beləsi intihar etmiş hesab olunur və Cəhənnəmdə ona bununla əzab veriləcəkdir. Bunlar özlərinə fədailər adını versələr də, onlara həmin partlayıcılarla Cəhənnəmdə əzab veriləcəkdir. Allah qorusun! Onlar şəhid də sayılmırlar, çünki onlar haram iş görmüşlər. Şəhid o adama deyilir ki, Allahın qadağaları ilə deyil, buyurduğu əmrlərlə Ona yaxınlaşır. İzzət və cəlal sahibi Allah buyurur: **"Özünüzü öldürməyin. Həqiqətən, Allah sizə qarşı rəhmlidir".**[2] **O** həmçinin buyurur: **"Öz əllərinizlə özünüzü təhlükəyə atmayın, yaxşılıq edin! Həqiqətən, Allah yaxşılıq edənləri sevir".**[3]

Belə edən müsəlmanlarla bağlı sözümüz odur ki, ümid edirik ki, onlar əzaba düçar olmayacaqlar. Çünki onlar *bildiklərinə əsasən* yozaraq belə ediblər. Lakin onlar əcr qazanmırlar və şəhid deyillər. Çünki onlar Allahın izin vermədiyi və nəhy etdiyi bir əməli ediblər.

Birdən kimsə soruşsa ki, məgər səhabələr rumluların və başqalarının sıralarına hücum edərkən belə etməyiblərmi?

---

[1] "Səhih əl-Buxari", 1800; "Səhih Muslim", 1870.

[2] "ən-Nisa" surəsi, 29.

[3] "əl-Bəqərə" surəsi, 195.

Deyirik: Bəli, belə ediblər, lakin bununla onlar özlərini öldürüblərmi? – Xeyr, bu qətl sayılmır. Doğrudur, burada təhlükə var, lakin xilas olmaq ehtimalı da var. Onlar rumluların sıralarına atılır, öldürdüklərini öldürür, sonra müsəlmanların yanına dönürdülər. Məsələn, Bəra ibn Malikin əl-Yəməmə döyüşündə etdiyi də belədir. Müsəlmanlar yalançı [peyğəmbər] Müseyləmə əl-Kəzzabın sığınacağına çatdıqda görürlər ki, qapı bağlıdır və onlar içəri daxil ola bilmirlər. Olduqca cəsarətli birisi olan Bəra ibn Malik də yanındakılardan tələb edir ki, onu divarın o biri tayına atsınlar ki, onlar üçün qapını açsın. Onlar da onu divarın üstündən sığınacağın içərisinə hərlədilər ki, Müseyləmə əl-Kəzzabın qalasına daxil ola bilsinlər. O da qapını açdı və sağ qaldı.

Odur ki, buna bənzər misalları dəlil gətirərək bəzi cahillərin etdiyi intiharın caiz olmasını söyləmək doğru deyil. Biz deyirik: İzzət və cəlal sahibi Allahdan diləyirik ki, onlara buna görə əzab verməsin. Çünki onlar bunu yaxşı niyyətlə cahilliklərindən dolayı ediblər.

"Kim özünü nə ilə öldürərsə, həmin şey ilə Cəhənnəmdə ona əzab olunar". Hətta bəzi hədislərdə deyilir ki, kim özünü bir şeylə öldürərsə, Cəhənnəmdə əbədi olaraq həmin şeylə ona əzab olunar. Əbədilik də qeyd olunur. Bu o deməkdir ki, həmin adam kafirdir? Axı Cəhənnəmdə əbədi kafirlər qalacaq.

Cavab: Xeyr, o kafir deyil. O öldükdə qüsl olunur, kəfənlənir, namazı qılınır, özü üçün də bağışlanma dilənir. Necə ki, Peyğəmbər ﷺ özünü oxla öldürən adamla etmişdir. Onu Peyğəmbərin ﷺ yanına gətirdilər ki, ona namaz qıldırsın. O, özü onun namazını qıldırmasa da dedi ki, onun namazını qılın.[1] Müsəlmanlar da Rəsulullahın ﷺ əmri ilə ona namaz qılırlar. Bu da ona dəlalət edir ki, o kafir deyildi və deməli Cəhənnəmdə də əbədi qalmayacaqdır. Hədisdə "əbədi" sözünün qeyd olunmasına gəlincə, əgər bu ləfz Rəsulullahdan ﷺ dəqiq nəql olunmuşdursa, bu əməldən çəkindirmək üçün qeyd olunmuşdur. Ancaq o, kafir deyil.

Hədis: **"İnsan malik olmadığı bir şeyi nəzir edə bilməz"**[2] sözü ilə davam edir. Yəni insan malik olmadığı şeyi nəzir etməməlidir. Məsələn, əgər nəzir olaraq desən ki, Allah üçün filankəsin pulunu nəzir edirəm, bu,

[1] "Səhih Muslim", 1624.

[2] "Sunən İbn Macə", 2115.

mənasız bir sözdür və belə nəzir qəbul olunmur. Çünki başqa adamın pulu onun mülkü deyil.

Bilmək lazımdır ki, nəzir etmək bəyənilmir. Peyğəmbər ﷺ bunu qınayaraq edərək demişdir: **"O xeyir gətirmir, qədəri də dəyişdirmir, o yalnız paxılın malından çıxarışdır"**.[1]

Bir çoxlarının xəstəsi olduqda, yaxud da pul itirdikdə nəzir edir ki, Allah onun xəstəsinə şəfa versə oruc tutacaq, sədəqə verəcək, həcc və ya ümrə edəcək, yaxud da başqa bir yaxşı əməl edəcək. Allah onun xəstəsinə şəfa verdikdən sonra isə həmin adam alimlərə sual verərək həmin nəzirdən yaxa qurtarmağa yol axtarır, yaxud da tənbəllik edərək nəzirini tərk edir. Bu olduqca təhlükəli məsələdir. Əgər bir şeyin alınacağı təqdirdə Allaha nə isə nəzir etmisənsə, həmin iş alındıqdan sonra nəzirini yerinə yetirməməyin olduqca böyük təhlükədir. Uca Allah buyurur: **"Onlardan: "Əgər *Allah* Öz lütfündən bizə bəxş etsə, əlbəttə, biz sədəqə verər və əməlisalehlərdən olarıq!"– *deyə* Allaha əhd edənləri də vardır. *Allah* Öz lütfündən onlara verdikdə isə xəsislik edərək üz çevirib getdilər. Allaha verdikləri vədə xilaf çıxdıqlarına və yalan söylədiklərinə görə *Allah da* onların qəlblərinə Onunla qarşılaşacaqları günədək nifaq saldı".**[2]

Yəni Allah onların qəlblərinə ölənədək nifaq salar. Bu olduqca böyük əzab vədidir. Allah qorusun! Odur ki, Peyğəmbər ﷺ nəziri qadağan etmişdir. Çünki bu zaman insan özünə lazımsız yerə bəzi şeyləri vacib edir. Əgər istəyirsənsə ki, Allah sənin xəstənə şəfa versin, yaxud pulunu geri qaytarsın, Allaha dua edib de ki, "Allahım, xəstəmə şəfa ver, Allahım, pulumu geri qaytar!" Yəni nəzirdən başqa olan qapılar kilidli deyil.

Bununla belə, elm əhli nəziri bir neçə qismə bölmüşlər:

Birincisi, itaət nəziri. Yəni insanın namaz qılmağa, oruc tutmağa, sədəqə verməyə, həcc və ya ümrə etməyə nəzir etməsi kimi. Bu cür nəzirləri yerinə yetirmək vacibdir. Peyğəmbər ﷺ demişdir: **"Kim Allaha itaət edəcəyinə nəzir edərsə, onu yerinə yetirsin".**[3] İstər bu nəzir şərtlə olsun, istərsə də şərtsiz.

---

[1] "Səhih Muslim", 3095.

[2] "ət-Tövbə" surəsi, 75-77.

[3] "Səhih əl-Buxari", 6202.

İkincisi, asilik nəziridir. Buna riayət etmək olmaz. Misal üçün, bir müsəlmanla arasında baş verən anlaşılmazlıq səbəbindən onunla danışmayacağına nəzir edən kəs kimi. Deyir ki, nəzir edirəm Allaha filankəslə danışmayacağam. Yaxud da nəzir edirəm ki, qardaşımı, qohumumu ziyarət etməyəcəyəm. Yaxud da buna bənzər əməllər. Bu asilik və haramdır. Belə nəzirə riayət olunması caiz deyil. Peyğəmbər ﷺ demişdir: **"Kim Allaha asilik nəzir etsə, asilik etməsin"**. O zaman beləsi nə etməlidir? – O, and içdiyinə görə kəffarə verməlidir.

Üçüncüsü: Qəzəb nəziri. Burada verib-verməmək, təsdiq və ya təkzib etmək nəzərdə tutulur. Məsələn, deyir ki, nəzir edirəm Allaha ki, belə etməyim. Əslində o, özünü bununla yükləyir, özü isə imtina etmək istəyir. O, nəziri deyil, andın mənasını qəsd edir. Beləsinə seçim verilir ki, ya feldirsə həmin feli etsin, ya onu tərk etsin, ya da andın kəffarəsini versin. Misal üçün, "nəzir edirəm Allaha ki, bu libası bir daha geyinməyim" deyənə deyirik: "Seçim sənindir: istəyirsən bu libası geyin və and kəffarəsini ödə, istəmirsən geymə və kəffarə də ödəmə".

Dördüncüsü: Mütləq olmayan, yəni müəyyən olmayan şeydə nəzirdir. Misal üçün, deyir ki: "Allaha nəzir edirəm". Buna görə o and kəffarəsi ödəməlidir. Peyğəmbər ﷺ bu xüsusda demişdir: **"Nəzirin adı çəkilmədikdə onun kəffarəsi and kəffarəsidir"**.[1]

Nəticə odur ki, gərək insan nəzir etməsin. Ən yaxşısı odur ki, nəzir etmədən əməli etsin, çünki nəzir qədəri dəyişmir. Peyğəmbər demişdir: **"O, xeyir gətirmir, qədəri də qaytarmır"**. Bir çoxları soruşurlar ki, "mən nəzir etmişəm ki, Allah mənim xəstəmə şəfa versə ardıcıl iki ay oruc tutacağam". Biz ona deyirik ki, səni buna kim təşviq edib? Bəziləri də deyir ki, "Allah mənim xəstəmə şəfa versə, yeddi dəvə kəsməyi nəzir demişəm". Allaha sığınırıq! Əgər Allah onun xəstəsinə şəfa versə yeddi dəvə kəsdirməli və ondan bir şey yemədən hamısını sədəqə paylamalıdır. Bu nəzirlərə nə ehtiyac var? Müvəffəq edən Allahdır.

Şərh etdiyimiz hədis: **"Mömini lənətləmək onu öldürmək kimidir"** sözü ilə bitir. Yəni bir möminə desən ki, Allah sənə lənət eləsin, sanki onu öldürmüş olursan. Çünki lənət Allahın rəhmətindən qovulmaq və uzaqlaşdırılmaq mənasını verir. Kim də Allahın rəhmətindən qovularsa və

[1] "Sunən ət-Tirmizi", 1448.

uzaqlaşarsa, dünyanı tərk etmiş ölü kimi olur. Çünki Allahın rəhmətindən qovulub uzaqlaşdırılmış həmin kəs Axirət həyatından da məhrum olur. Öldürülən insan isə təkcə dünya həyatından məhrum olur.

Bil ki, mömini lənətləmək halal deyil və bu böyük günahlardandır. Yenə bilin ki, kim mömini lənətləyərsə, lənət həmin adama doğru gedir. Əgər o, ona layiqdirsə, ona çatar, yox əgər layiq deyilsə, onu deyənə qayıdar. Allah qorusun! Həmin adam özü lənətlənmiş olur və Allahın rəhmətindən qovulur. Müvəffəq edən Allahdır.

١٥٥٤– وعَنْ سَمُرَةَ بْنِ جُنْدُبٍ ﷺ قالَ: قالَ رَسُولُ اللَّهِ ﷺ: « لا تَلاعنُوا بلعنةِ اللَّه، ولا بِغضبِهِ، ولا بِالنَّارِ ». رواه أبو داود، والترمذي وقالا: حديثٌ حسنٌ صحيحٌ.

1554. Rəvayət olunur ki, Səmura ibn Cundəb ﷺ demişdir: «Rəsulullah ﷺ demişdir: **"Bir-birinizi Allahın lənəti, qəzəbi və Cəhənnəmlə lənətləməyin"**».

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş və demişlər: "Bu, həsən səhih hədisdir".[1]

١٥٥٥– وعن ابن مسعودٍ ﷺ قال: قال رسُولُ اللَّهِ ﷺ: « لَيْس المؤمِنُ بِالطَّعَّانِ، ولا اللَّعَّانِ ولا الفَاحِشِ، ولا البذِيِّ ». رواه الترمذي وقالَ: حديثٌ حسنٌ.

1555. Rəvayət olunur ki, İbn Məsud ﷺ demişdir: «Rəsulullah ﷺ demişdir: **"Mömin olan kəs tənə edən, lənət edən, pozğun və acıdil birisi deyildir"**».

Hədisi Tirmizi rəvayət etmiş və demişdir: "Bu, həsən hədisdir".[2]

١٥٥٦– وعنْ أبي الدَّرْداءِ ﷺ قال: قال رسُولُ اللَّه ﷺ: إنَّ العبْد إذا لَعنَ شَيْئاً، صعِدتِ اللَّعْنةُ إلى السَّماء، فتُغْلَقُ أبْوابُ السَّماءِ دُونَها، ثُمَّ تَهبِطُ إلى الأرْضِ، فتُغلَقُ أبوابُها دُونَها، ثُمَّ تَأخُذُ يميناً وشِمالا، فإذا لمْ تَجِدْ مساغاً رجعت إلى الذي لُعِنَ، فإنْ كان أهلاً لِذلك، وإلاَّ رجعتْ إلى قائِلِها ». رواه أبو داود.

[1] "Musnəd İmam Əhməd", 5/15; "Sunən Əbu Davud", 4260; "Sunən ət-Tirmizi", 1899.

[2] "Musnəd İmam Əhməd", 1/404; "Sunən ət-Tirmizi", 1900.

1556. Rəvayət olunur ki, Əbu Dərda ﷺ demişdir: «Rəsulullah ﷺ demişdir: **"İnsan bir şeyi lənətlədikdə həmin lənət göyə qalxar, səmanın qapısı da onun üzünə bağlanar. Sonra həmin lənət yerə enər, yerin də qapıları onun üzünə bağlanar. Sonra sağa-sola hərəkət edər. Əgər özünə yer tapmasa, lənət olunana yönələr. Əgər ona layiqdirsə ona çatar, əks təqdirdə lənət edənin özünə qayıdar"**».

Hədisi Əbu Davud rəvayət etmişdir.[1]

١٥٥٧– وعنْ عِمْرَانَ بنِ الحُصيْنِ ﷺ قال: بينَما رسُولُ اللَّه ﷺ في بعضِ أسْفَارِهِ، وامرأَةٌ مِنَ الأنصارِ عَلى نَاقَةٍ، فضجِرَتْ فَلَعَنَتْهَا، فَسمع ذلكَ رَسُولُ اللَّهِ ﷺ فقالَ: « خُذوا ما عليها ودعُوها، فإنَّها ملعُونَةٌ » قالَ عِمرَانُ: فكَأَنِّي أرَاهَا الآنَ تمشي في النَّاسِ ما يعرِضُ لهَا أحدٌ. رواه مسلم.

1557. Rəvayət olunur ki, İmran ibn Husayn ﷺ demişdir: "Rəsulullahın ﷺ bir səfərində ənsarlardan olan bir qadının dəvəsi büdrədi, qadın da onu lənətlədi. Rəsulullah ﷺ bunu eşidib dedi: **"Onun üzərindəkiləri götürün və onu tərk edin, o lənətlənmişdir".** İmran deyir ki: "Elə bil onu indiki kimi görürəm: o insanlar arasında gəzir, insanlar isə ona əhəmiyyət vermir".

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١٥٥٨– وعن أبي برْزَةَ نَضلَةَ بْنِ عُبيْدٍ الأسلمِيِّ ﷺ قال: بينما جاريةٌ على ناقَةٍ علَيها بعضُ متَاعِ القَوْمِ، إذْ بَصُرَتْ بالنبيِّ ﷺ وتَضايَقَ بهمُ الجَبلُ، فقالتْ: حَلْ، اللَّهُم العنْها فقال النبيُّ ﷺ: « لا تُصاحِبْنا نَاقَةٌ عليها لعْنةٌ » رواه مسلم.

قوله: « حلْ » بفتح الحاءِ المُهملةِ، وإسكان اللاَّم، وهَي كلِمةٌ لزَجْرِ الإبلِ.

واعْلَم أنَّ هذا الحديث قد يُسْتَشْكلُ معْنَاهُ، وَلا إشْكال فيه، بل المُرادُ النَّهيُ أنْ تُصاحِبَهُمُ تِلك النَّاقَةُ، وليس فيه نهيٌ عن بيْعِها وذَبْحِهَا وَرُكُوبِها في غَيْرِ صُحْبةِ النبي ﷺ بلْ كُلُّ ذلك وَما سوَاهُ منَ التَّصرُّفاتِ جائِزٌ لا منْع مِنْه، إلاَّ مِنْ مُصاحبَتِهِ ﷺ بِها، لأنَّ هذِهِ التَّصرُّفاتِ كُلِّهَا كانتْ جائزة فمُنع بْعضٌ مِنْها، فبَقِي الباقِي على ما كَانَ. واللَّه أعْلَمُ.

[1] "Sunən Əbu Davud", 4259.

[2] "Səhih Muslim", 4699.

1558. Rəvayət olunur ki, Əbu Bərzə Nədalə ibn Ubeyd əl-Əsləmi رضي الله عنه demişdir: "Bir dəfə bir cariyə dəvə ilə gedirdi. Dəvənin üzərində qövmün əşyaları var idi. Birdən dəvə Peyğəmbərə ﷺ baxdı və özünü narahat apardı. Qadın dedi: "Uzaqlaş! Allahım, buna lənət et!" Peyğəmbər ﷺ dedi: **"Üzərində lənət olan bir dəvə bizimlə getməməlidir".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

[Hədisin ərəbcəsindəki] "həl" sözü dəvəni pisləmək üçün işlənir.

Bu hədisin mənası düzgün anlaşılmaya bilər. Əslində isə burada müşkül heç nə yoxdur. Burada sadəcə həmin dəvənin onlarla birlikdə getməsi qadağan olunmuşdur. Həmin dəvəni satmaq, kəsmək və ya minmək kimi əməllər isə qadağan olunmamış və bu əməllər caizdir. Ona yalnız Peyğəmbərlə ﷺ birlikdə getməsi qadağan olunmuşdu. Caiz olan əməllərdən bəzisi qadağan olunmuş, digərləri isə qalmışdı. Daha doğrusunu Allah bilir.

Şərh:

Müəllif Hafiz ən-Nəvəvinin رحمه الله zikr etdiyi bu hədislər lənətdən çəkindirir. Belə hədislərdən biri Səmura ibn Cundəbdən nəql olunur. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Bir-birinizi Allahın lənəti, qəzəbi və Cəhənnəmlə lənətləməyin"**. Yəni Allahın lənəti ilə bir-birinizi lənətləməyin. Biriniz dostuna: "Allahın lənəti sənə olsun", yaxud qəzəbi ilə: "Allahın qəzəbi sənin üzərinə olsun", yaxud da Cəhənnəmlə: "Allah səni Cəhənnəmə daxil etsin" deməsin. Peyğəmbər ﷺ bütün bunlardan çəkindirmişdir. Çünki ola bilsin, bunları layiq olmayan birinə demiş olar.

İbn Məsudun hədisində isə Peyğəmbər ﷺ demişdir: **"Mömin olan kəs tənə edən, lənət edən, pozğun və acıdil birisi deyildir".** Bütün bunlar imandakı naqisliyə dəlalət edir. Bunlar həm də möminin imanını və ya imanının kamilliyini aparır. Mömin olan gərək insanlara, onların nəsillərinə, namuslarına, görünüşlərinə, surətlərinə və ya arzularına tənə etməsin.

Mömin işi-gücü ancaq lənət edən birisi də olmamalıdır. Görürsən ki, birisi hər sözdən sonra: "Allah sənə lənət eləsin" deyir. Yaxud: "Belə de də, Allah sənə lənət eləsin, niyə belə deyirsən?" deyir, ya da övladlarına: "Filan şeyi gətirin, Allah sizə lənət eləsin" deyir, yaxud buna bənzər başqa sözlər deyir.

[1] "Səhih Muslim", 4700.

Mömin olan kəs lənət edən, çığır-bağır salıb pozğun sözlər işlədən də deyildir. Mömin başqasına təcavüz edən acıdil birisi də deyildir. Mömin mömindir, salamatdır, sözündə və əməlində pislikdən uzaqdır, çünki o, mömindir.

Əbu Dərdanın رضي الله عنه hədisində deyilir ki, **"İnsan bir şeyi lənətlədikdə həmin lənət göyə qalxar, səmanın qapısı da onun üzünə bağlanar. Sonra həmin lənət yerə enər, yerin də qapıları onun üzünə bağlanar. Sonra sağa-sola hərəkət edər. Əgər özünə yer tapmasa, lənət olunana yönələr. Əgər ona layiqdirsə ona çatar, əks təqdirdə lənət edənin özünə qayıdar"**. Bu, lənətə layiq olmayan kəsi lənətləyənə əzab müjdəsidir. Belə ki, lənət göy ilə yer arasında, həmçinin sağa və sola gəzib dolaşır, sonda isə əgər həmin adam lənətə layiq deyilsə, sahibinə qayıdır.

Sonra o, İmran ibn Husaynın رضي الله عنهما hədisini qeyd edir. Həmin hədisdə deyilir ki, bir qadının dəvəsi büdrədikdə qadın ona: "Allah sənə lənət eləsin" dedi. Rəsulullah ﷺ bunu eşidib əmr edir ki, onun, yəni dəvənin üzərindəkilər götürülsün və o tərk edilsin. Dedi: "Elə bil onu indiki kimi görürəm: o insanlar arasında gəzir, insanlar isə ona əhəmiyyət vermirdi". Çünki Peyğəmbər ﷺ onun tərk olunmasını buyurmuşdu.

Bu həmin qadını lənətə layiq olmayan birisini lənətlədiyinə görə onu bu əməldən çəkindirmək üçün idi. Odur ki, "lənətlənmiş heyvanı saxlamayın" demişdi. Belə ki, həmin qadın o heyvanı lənətləmişdi. Lənətlənmiş bir heyvandan isə istifadə olunmaz. Peyğəmbər ﷺ bunu qadağan etmiş və bu yolla həmin qadını cəzalandırmışdı. Çünki heyvan lənətə layiq deyil. Müvəffəq edən Allahdır.

İki yüz altmış beşinci fəsil

Bəzi qeyri-müəyyən günahkarları lənətləməyin caizliyi

Mövzu ilə əlaqəli ayələr:
Uca Allah belə buyurur:

﴿ أَلَا لَعۡنَةُ ٱللَّهِ عَلَى ٱلظَّٰلِمِينَ ﴾

“Allahın lənəti olsun zalımlara!”[1]

﴿ فَأَذَّنَ مُؤَذِّنُۢ بَيۡنَهُمۡ أَن لَّعۡنَةُ ٱللَّهِ عَلَى ٱلظَّٰلِمِينَ ﴾

“Bu zaman onların arasında bir carçı səsləyib deyəcəkdir: “Allahın lənəti olsun zalımlara!”[2]

Səhih hədislərdə varid olmuşdur ki, Rəsulullah ﷺ demişdir: **“Allah saç calayana və saç calatdırana lənət etmişdir”**.[3]

Yenə o ﷺ demişdir: **“Allah sələm yeyənə lənət etmişdir”.**[4]

O şəkil çəkənləri də lənətləmişdir.[5]

Şərh:

Müəllif Hafiz ən-Nəvəvi ﷺ sağ olan müəyyən adamın, hətta o, kafir olsa belə, lənətlənməsinin haram olmasını qeyd etmişdir. Çünki bilmək olmaz, ola bilsin, izzət və cəlal sahibi Allah ona hidayət versin və o, əgər mürtəd, yaxud da əsil kafirdirsə İslama dönsün.

Sonra müəllif “**Bəzi qeyri-müəyyən günahkarları lənətləməyin caizliyi**” fəslini zikr edir və bunu ayə və hədislərlə əsaslandırır. Burada müəyyən bir şəxs nəzərdə tutulmur. Uca Allah buyurur: **“Allahın lənəti olsun zalımlara!”.**[6]

---

[1] “Hud” surəsi, 18.
[2] “əl-Əraf” surəsi, 44.
[3] “Səhih əl-Buxari”, 5933.
[4] “Musnəd İmam Əhməd”, 1/393; “Musnəd Əbu Yəla”, 8/96.
[5] “Musnəd İmam Əhməd”, 4/308.
[6] “Hud” surəsi, 18.

O həmçinin buyurur: **"Bu zaman onların arasında bir carçı səsləyib deyəcəkdir: "Allahın lənəti olsun zalımlara!".**[1]

Buna görə də ümumi şəkildə: "Allah zalımlara lənət eləsin!"– demək olar. Burada müəyyən bir adam qəsd olunmur, bu, bütün zalımlara şamil olunur.

Peyğəmbərinn ﷺ belə dediyi rəvayət olunmuşdur ki, **"Allah saç calayana və saç calatdırana lənət etmişdir"**.

Hədisdəki **"calayan"** bir saçı digərinə calayaraq onun uzun və sıx görünməsi ilə məşğul olan, **"calatdıran"** isə saçının calanmasını tələb edəndir.

Bu iki qadın – calayan və calatdıran Peyğəmbərin ﷺ dili ilə lənətlənmişdir. Əgər görsən ki, hər hansı bir qadın saçını calatdırmaq istəyir və ya başqa qadına saç calayır, onu müəyyən olaraq lənətləmək olmaz.

Necə ki, bizlər bütün şəhidlərin Cənnətdə olacağına şahidlik edirik. Lakin bir insan Allah yolunda cihad zamanı qətlə yetirilərsə, onun müəyyən olaraq şəhid olduğunu demə. Demə ki, biz onun Cənnətlik olduğuna şahidlik edirik. Çünki müəyyən adamın Cənnətlik olmasına şahidlik və müəyyən adamın lənətlənməsi məsələsi fərqli məsələdir.

Müəllif bu mövzuya uyğun başqa misallar da çəkmişdir. Onlardan biri budur: **"Allah yerin sərhədlərini dəyişənə lənət eləsin!"**. Yəni qonşusunun torpağının bir qisminə müdaxilə edib onu öz torpağına qatan kəsə. Beləsi Peyğəmbərin ﷺ dili ilə lənətlənmişdir. O, lənətlənməsi ilə bərabər, qonşusunun torpağından kəsdiyi payın yeddi mislini boynunda daşımağa mükəlləf olacaqdır. Allah qorusun! Peyğəmbər ﷺ demişdir: **"Kim bir qarış torpağı qəsb edərsə, Qiyamət günü onun yeddi mislini boynunda daşıyar"**.[2] Allahdan salamatlıq diləyir, belə rüsvayçılıq və utanclıqdan Ona sığınırıq.

Peyğəmbər ﷺ öz valideyinini lənətləyən kəsi də lənətləmişdir. O kəs ki, atasına və ya anasına: "Allah sənə lənət eləsin! Allahın lənəti sənin üzərinə olsun!"– deyir. O özü Allahın lənətinə layiqdir, çünki valideyinin haqqı yaxşılıq və xoş davranışdır. Onları lənətləyən isə özü lənətə layiqdir. Allah qorusun! Peyğəmbər ﷺ demişdir: **"Valideynini lənətləyənə Allah lənət eləsin!"**[3]

---

[1] "əl-Əraf" surəsi, 44.

[2] "Səhih Muslim", 3020.

[3] "Səhih Muslim", 3658.

Sən bunu edən üçün: "Allahım, öz valideynini lənətləyənə lənət et!", şəkil çəkənlər üçün isə: "Allahım, şəkil çəkənlərə lənət et!"– deyə bilərsən, çünki Peyğəmbər ﷺ şəkil çəkənləri lənətləmişdir.

Müəllifin zikr etdiyi hədislərdə ümumi ilə xüsusi lənət bir-birindən fərqləndirilir. Ümumidə müəyyən bir şəxs qabardılmır. Müəyyən bir şəxsi lənətlə xüsusiləşdirmək haramdır və cazi deyildir. Ümumi şəkildə isə onlara lənət deyilə bilər.

Müəllifin *lənətə nümunə olaraq* qeyd etdiyi digər hədislər barəsində isə bir qədər sonra söhbət açacağıq. Daha doğrusunu Allah bilir.

Müəllifin qeyd etdiyi bu hədislər müəyyən olmayan günahkarları lənətləməyin caizliyini bildirir. Bundan əvvəlki fəsildə qeyd etdik ki, kafir olsa belə, müəyyən adamı lənətləmək olmaz. Bu vəsflərə malik olan qeyri-müəyyən asiləri isə lənətləmək olar.

Məsələn, Peyğəmbərdən ﷺ nəql olunmuşdur ki, o, saç calayanı və calatdıranı lənətləmişdir. Calayan bunu icra edən, calatdıran isə bunu tələb edəndir. Bu o qadındır ki, saçı qısa olduğuna görə insanlar baxdıqda saçının uzun və sıx görünməsi üçün saçına başqa saç calatdırır. Peyğəmbər ﷺ belə qadınları lənətləmişdir. Bu hədisə görə, o bunu hətta saçı olduqca az olanlara da qadağan edir.

Parik taxmaq barədə isə bəzi alimlərimiz demişlər ki, parik taxmaq da saç calatdırmağa aiddir. *Eyibini örtmək üçün* gözəllik məqsədilə olsa belə, parik taxan qadın lənətlənmişdir. Allah qorusun!

Bəs bəzi qadınların gözlərinə taxdıqları rəngli linzalar da buna aiddirmi? Deyilə bilər ki, bu da ona aiddir. Çünki qadın gözlərini gözəlləşdirmək üçün belə edir. Sanki başqa adamın qırmızı, yaşıl və ya başqa rəng gözünü qoymuş olur. Biz də ehtiyat üçün deyirik ki, bu da ona aiddir, çünki onunla saç arasında fərq yoxdur.

Kimsə etiraz edə bilər ki, axı bu (linza) sürmə kimidir, daimi qalmır.

Deyirik: Saç da daimi qalmır. Məhz buna görə də qorxuram ki, linza da saç calatdırmaq kimi olsun. Bundan əlavə, tibbi nöqteyi-nəzərdən onun gözə zərərli olması sübuta yetirilmişdir. Baxmayaraq ki, onun zərəri qısa müddətli istifadə zamanı deyil, uzun müddət istifadə edildikdə bilinir.[1]

[1] Möhtərəm şeyxdən soruşulanda ki, gözəllik və ya tibbi məqsədlərlə taxılan linzaların qadın və ya kişi üçün hökmü nədir, o ﷺ belə cavab vermişdi: "Bu məsələdə əsas

[Müəllif ﷺ daha sonra] deyir:

Onun ﷺ sələm yeyəni lənətləməsi sabitdir. Yəni *həm də* yedirdəni. Sələm barəsində Peyğəmbər ﷺ beş adamı lənətlədi:

– yeyəni, yəni sələmi götürəni;

– yedirdəni, yəni sələm veräni;

– buna şahidlik edənləri, yəni sələmin verilməsinə şahid duranları;

– onu yazanı, yəni sələm verənlə alan arasında müqaviləni yazanı.

Bütün bunlar Peyğəmbərin ﷺ dili ilə lənətlənmişlər. Bununla belə, müəyyən bir adamın sələm verdiyini/aldığını gördükdə ona: "Allah sənə lənət eləsin!" demək caiz deyil. Yalnız ümumi şəkildə: "Allah sələm yeyənə, yedirdənə, şahidlərinə və onu yazana lənət eləsin!" deyə bilərsən. Çünki ümumi ilə xüsusi arasında fərq vardır. Ümumi şəkildə demək olar, xüsusiləşdirmək isə caiz deyil.

Peyğəmbər ﷺ şəkil çəkənləri də lənətləmişdir. Burada bütün şəkil çəkənlər deyil, ruhu olan canlıların, insan və ya heyvanların şəkillərini çəkənlər nəzərdə tutulur. Bu haramdır və caiz deyildir. Beləsi Peyğəmbərin ﷺ dili ilə lənətlənmişdir. Sən: "Allahım, şəkil çəkənlərə lənət et!" deyə bilərsən, ancaq *tanıdığın* müəyyən şəkil çəkən adam barəsində: "Allahım, filankəsə lənət et!"– demə, çünki bu zaman ümumi yox, xüsusiləşdirmək olur ki, bu da caiz deyil.

Şəkillərin növlərinə gəlincə, haram olan şəkil heykəl formasında olanlardır. Yəni insanın xəmir, gips və ya başqa bir maddədən insan və ya heyvan şəklində heykəl düzəltməsi haramdır. Ağac rəsmləri çəkmək isə, əksər alimlərin doğru rəyinə görə, caizdir. İnsanın düzəltdiyi əşyaların şəklini çəkmək isə yekdilliklə caizdir. Məsələn, avtomobil və ya başqa bir əşyanın şəkilləri.

Alimlər (Allah onlara rəhmət eləsin!) kağız və ya parça üzərində çəkilən rəsmlər barəsində isə ixtilaf etmişlər. Bəziləri demişlər ki, bunu çəkmək

---

şərt həkimə müraciət etməklə bunun gözə ziyanlı olub-olmadığını öyrənməkdir. Əgər onun ziyanlı olması sübuta yetirilərsə, onu taxmaq olmaz. Çünki zərərli şeydən istifadə etmək şəri cəhətdən qadağandır. Yox, əgər onun zərərli olamsı sübuta yetirilməzsə, onda baxırıq: əgər gözəllik üçündürsə, bu, kişilərə qadağandır. Çünki kişi özünü gözəlləşdirməməlidir. Qadınlar isə gözəllik məqsədilə bundan istifadə edə bilərlər. Çünki o, dəriyə döyülən tatu kimi, həmişəlik qalmır. İstənilən zaman onu çıxarmaq mümkündür. Tibbi və rəngli olmayan linzalardan isə həm kişilər, həm də qadınlar istifadə edə bilərlər.

olar və buna Zeyd ibn Xalid əl-Cuhənidən ﵁ nəql olunmuş hədisi dəlil gətirmişlər. Rəsulullah ﷺ demişdir: **"Şübhəsiz ki, mələklər, içərisində şəkil olan evlərə daxil olmazlar. Yalnız paltardakı rəsmlər istisnadır".**[1]

Alimlər demişlər ki, **"yalnız paltardakı rəsmlər"** deyildikdə vərəq üzərində və ya paltarda əllə tikilən naxışlar və buna bənzər naxışlar nəzərdə tutulur. Lakin doğru olan rəy odur ki, vərəqdə və ya libasda olan şəkillər də caiz deyildir. Əl ilə rəsm çəkmək caiz deyildir. Fotoaparatla çəkilən şəkillərə gəlincə, bu barədə artıq danışmışıq.[2]

[Daha sonra müəllif ﵀ deyir:]

Sabitdir ki, Peyğəmbər ﷺ buyurmuşdur: **"Allah yerin sərhədlərini dəyişəni lənətləmişdir".**[3]

O ﷺ həmçinin buyurmuşdur: **"Allah yumurta oğurlayan oğrunu lənətləmişdir".**[4]

O ﷺ həmçinin buyurmuşdur: **"Valideyinlərinə lənət edəni Allah lənətləmişdir".**

Şərh:

Misal üçün, bir insan öz torpağını haqsız olaraq qonşusunun torpağı hesabına artırır. Beləsi lənətlənmişdir. Peyğəmbər ﷺ onu lənətləyərək demişdir: **"Kim bir qarış torpağı qəsb edərsə, Qiyamət günü onun yeddi mislini boynunda daşıyar"**.[5]

Bu, torpağın hüdudlarını dəyişənlər haqqındadır. Bəs torpağı bütünlüklə qəsb edən adamların halı necə olacaq? Allah qorusun! Beləsi lənətə və Allahın rəhmətindən qovulmağa daha çox layiqdir. Elə insanlar da vardır ki, başqalarının torpağını təcavüzlə alıb deyirlər ki, həmin torpaqlar onlara məxsusdur. Ola bilsin, buna görə hətta yalançı şahidlər də gətirirlər ki, onların lehinə hökm verilsin. Bu zaman lənət onlara da şamil olunur. Qiyamət günü onlar da qəsb etdikləri boyunlarından asılmış vəziyyətdə insanlar önündə olacaqlar. Allah bizləri qorusun.

---

[1] "Səhih əl-Buxari", 5501; "Səhih Muslim", 3931.

[2] Bax: səh.161.

[3] "Səhih Muslim", 3657.

[4] "Səhih əl-Buxari", 2685; "Səhih Muslim", 3195.

[5] "Səhih Muslim", 3020.

Peyğəmbər ﷺ həmçinin demişdir: **"Allah, yumurta oğurlayan və buna görə əli kəsilən, habelə kəndir oğurlayan və buna görə əli kəsilən oğruya lənət etmişdir"**.[1]

Oğru hər hansı bir şeyi gizlincə götürənə deyilir. Misal üçün, gecə və ya insanlar qəflətdə ikən gəlir, qapını açır və oğurlayır. Oğurladığının dəyəri dörddə bir dinar və ya ona bərabər dirhəm miqdarını keçərsə, onun sağ əli biləyindən kəsilməlidir. Uca Allah bu barədə buyurur: **"Oğru kişinin və oğru qadının, etdikləri əməlin cəzası və Allahdan bir ibrət olaraq əllərini kəsin! Allah qüdrətlidir, hikmət sahibidir".**[2]

Oğrunun varlı və ya kasıb, kişi, yaxud qadın olması fərq etmir. Belə ki, Peyğəmbər ﷺ məxzumilərdən olan və insanların mallarını götürüb ona məxsus olduğunu iddia edən qadının əlinin kəsilməsini əmr etmişdi. Qureyşlilərə bu ağır gəldi və onlar Usamə ibn Zeyd vasitəsilə Peyğəmbərdən ﷺ həmin cəza hökmünün qaldırılmasını tələb etdilər. Peyğəmbər ﷺ də onlara xitab edərək belə dedi: **"Sizdən əvvəlkiləri məhv edən o idi ki, onların arasında adlı-sanlı birisi oğurluq edərdisə onu azad buraxar, kasıb adam oğurluq etdikdə isə onu cəzalandırardılar. Allaha and olsun ki, Muhəmmədin qızı Fatimə oğurluq etmiş olarsa, mən onun da əlini kəsərəm"**.[3]

Bir baxın, Peyğəmbər ﷺ and içir ki, öz qızı və nəsəb baxımından ən şərəfli qadın olan Fatimə oğurluq etmiş olarsa, onun əlini kəsər.

Hafiz ən-Nəvəvinin işarə etdiyi bu hədisdə isə "yumurta oğurlayan" deyilir. Halbuki yumurta əlin kəsilməsi üçün yetəri qədər qiymətli deyil. Çünki onun dəyəri dinarın dörddə biri qədərdir. Bəs yumurta və ya kəndir oğurlayanın əli necə kəsilə bilər?

Bəzi alimlər demişlər ki, burada "baş yumurtası" adlanan və döyüş zamanı başı oxlardan və zərbələrdən qoruyan dəbilqə nəzərdə tutulur. Onun qiyməti dörddə bir dinar qədər və ya ondan da artıqdır. Kəndir deyildikdə isə gəmi lövbərlərinin kəndirləri nəzərdə tutulur ki, o da qiymətli bir şeydir.

Bəzi alimlər də demişlər ki, burada elə məhz toyuq yumurtası nəzərdə tutulur. Çünki Peyğəmbər ﷺ bunu mütləq şəkildə söyləmişdir. Mütləq

---

[1] "Səhih əl-Buxari", 3216; "Səhih Muslim", 3196.

[2] "əl-Maidə" surəsi, 38.

[3] "Səhih əl-Buxari", 3216; "Səhih Muslim", 3196.

şəkildə deyildikdə isə toyuq yumurtası anlaşılır. Kəndir deyildikdə də odunların bağlandığı və ya buna bənzər kəndir nəzərdə tutulur.

Peyğəmbər ﷺ "onların əlləri kəsilir" deyir. Çünki insan adi şeyləri oğurlamağa öyrəşdikdə bahalı əşyaları da oğrulamağa cürət edir və beləcə əli kəsilir. Bu doğru rəyə daha uyğundur. Oğru, Allah qorusun, bəsit şeylər oğurladıqca böyük şeylər də oğurlayır və əli kəsilir.

Peyğəmbər ﷺ həmçinin demişdir: **"Valideyinlərinə lənət edəni Allah lənətləmişdir"** – istər atası olsun, istərsə də anası. Məsələn, övlad öz atasına və ya anasına: "Allah sənə lənət eləsin!" deyir. Bu zaman səhabələr soruşdular: "Ey Allahın elçisi, insan da öz valideynini lənətləyərmi?" Axı bu mümkün deyil. Peyğəmbər ﷺ də dedi: **"Bəli. Adam birisinin atasını söyür, o da *cavabında* bunun atasını söyür. Yaxud birisinin anasını söyür, o da *cavabında* bunun anasını söyür"**.[1]

Yəni iki nəfər mübahisə edir, biri o birisinə: "Allah sənin valideyinlərinə lənət eləsin!" deyir, ikinci də cavabında: "Sənin valideyinlərinə Allah lənət eləsin!" Birinci adam ikincinin onun valideyinlərini lənətləməsinə səbəbkar olduğu üçün valideyinlərini lənətləyənin hökmü ona verilmişdir. Bu iki şəxsi Peyğəmbər ﷺ lənətləmişdir.

Bəs yerin sərhədlərini dəyişmiş müəyyən bir şəxsə: "Allah sənə lənət eləsin!" demək olarmı?

Cavab: Xeyr, olmaz. Müəyyən bir adamı lənətləmək caiz deyil. Birinin öz valideynini söydürdüyünü görsən, ona: "Allah sənə lənət eləsin!" demək haramdır. Əksinə ona de ki: "Allahdan qorx!".

Xülasə:

– Peyğəmbər ﷺ yerin sərhədlərini dəyişdirəni lənətləmişdir.

– Oğru olana de ki, Allahdan qorx, çünki Peyğəmbər ﷺ yumurta və kəndir oğrusunu lənətləmişdir;

– Öz valideynlərini söydürənə de ki, Allahdan qorx, onların lənətlənməsinə səbəbkar olma, çünki Peyğəmbər ﷺ öz valideyinlərini lənətləyənləri lənətləmişdir.

O ki qaldı sənin birisinə: "Allah sənə lənət eləsin!" deməyinə, bu haramdır və caiz deyildir. Çünki bu halda ümumi ilə xüsusi, öncə qeyd etdiyimiz kimi, bir-birindən fərqləndirilməlidir. Müvəffəq edən Allahdır.

---

[1] "Səhih Muslim", 130.

[Daha sonra müəllif ﷺ deyir:]

Peyğəmbər ﷺ demişdir: **"Allahdan başqasına qurban kəsənə Allah lənət eləsin!"**

Yenə o ﷺ demişdir: **"Kim orada (Mədinədə) bir yenilik edərsə və ya yenilik edənə sığınacaq verərsə, ona Allahın, mələklərinin və bütün insanların lənəti olsun".**

Yenə o ﷺ demişdir: **"Allahım, Rilə, Zəkvana və Useyyəyə lənət et! Onlar Allah və Onun elçisinə asi oldular"**. Bunlar üç ərəb qəbiləsi idi.

Şərh:

Bu üç qisim insanı ümumi şəkildə lənətləmək olar. Öncə qeyd etdik ki, kafir olsa belə, müəyyən insanı lənətləmək və onun üçün: "Allahım, filankəsə lənət et!" demək olmaz. Hətta həmin adam kafir olsa belə.

Ümumi şəkildə lənət barəsində isə bir neçə qrup insan vardır ki, onlardan bəzilərini biz qeyd etmişik. Digərlərini də inşəAllah daha sonra qeyd edəcəyik. Onlardan biri barəsində Peyğəmbər ﷺ belə demişdir: **"Allahdan başqasına qurban kəsənə Allah lənət eləsin".**

Allahdan başqası üçün qurban kəsmək şirkdir. Çünki o, ibadətdir. İstənilən ibadəti Allahdan başqasına yönəldən insan isə müşrik olur. Uca Allah buyurur: «**De: "Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür. Onun heç bir şəriki yoxdur"».**[1]

O həmçinin buyurur: **"Rəbbin üçün namaz qıl və qurban kəs".**[2]

Ayədə namaz qılmaq və qurban kəsmək əmr olunur və bildirilir ki, bunlar izzət və cəlal sahibi Allaha məxsusdur. Allahdan başqası üçün namaz qılan isə müşrikdir. Allahdan başqası üçün qurban kəsən də müşrikdir. Burada ibadət, təzim və yaxınlaşma məqsədilə kəsilən qurbanlar nəzərdə tutulur. Yox, əgər Allahdan qeyrisinə ehtiram olaraq, misal üçün, qonağa hörmət mənasında kəsilərsə, yəni sənin evinə gələn qonağa yemək vermək üçün qurban kəsirsənsə, bunda bir qəbahət yoxdur. Əksinə, bu əmr olunmuş əməllərdəndir. Belə ki, Peyğəmbər ﷺ demişdir: **"Kim Allaha və Axirət gününə iman gətirmişsə, qonağına yaxşılıq etsin".**[3]

---

[1] "əl-Ənam" surəsi, 162-163.

[2] "əl-Kövsər" surəsi, 2.

[3] "Səhih əl-Buxari", 5560; "Səhih Muslim", 3255.

Bəzən də elə olur ki, birisi ət yemək istəyir və özü üçün heyvan kəsir. Bu da şirk deyil. Yalnız əgər qurbanı Allahdan qeyrisinə ibadət, təzim və yaxınlaşma məqsədilə kəsərsə, bu şirk sayılır. Necə ki, bəzi insanlar öz rəhbərləri və alimləri gəldikdə onlara təzim məqsədilə qurban kəsirlər. Bu, insanı dindən çıxaran böyük şirkdir. Bu, Allahın haram buyurduğu şirkdir. Onu edənə **"Allah Cənnəti haram etmişdir, onun yeri Cəhənnəmdir. Zalımlara bir dost tapa bilməzsən"**. Bunu edən lənətlənmişdir. Necə ki, Peyğəmbər ﷺ demişdir: **"Allahdan başqasına qurban kəsənə Allah lənət eləsin".**

Başqa bir hədisə diqqət edək. Peyğəmbər ﷺ demişdir: **"Kim orada (Mədinədə) bir yenilik edərsə və ya yenilik edənə sığınacaq verərsə, ona Allahın, mələklərinin və bütün insanların lənəti olsun".**

"Kim Mədinədə bir yenilik edərsə" deyildikdə iki şey qəsd olunur:

Birincisi bidətdir, yəni kim orada yeni bir bidət çıxararsa. Belə ki, Peyğəmbər ﷺ demişdir: **"Hər bir yenilik bidət, hər bir bidət isə zəlalət-dir"**. Yəni kim Mədinədə Allahın dinində olmayan bir yenilik çıxararsa, ona Allahın, mələklərin və bütün insanların lənəti olar. Yəni o bütün lənət edə bilənlərin lənətinə layiq olar. Allah qorusun! Çünki Mədinə Sünnə şəhəridir, Peyğəmbərin ﷺ şəhəridir. Orada Peyğəmbərin ﷺ yoluna zidd olan bidətləri necə etmək olar?

İkincisi fitnədir, yəni kim orada müsəlmanlar arasında fitnə salarsa. Bu fitnə istər müsəlman qanının axıdılmasına gətirib çıxarsın, istərsə də sadəcə ədavət, düşmənçilik və təfriqəyə səbəb olsun. Kim belə bir yenilik çıxararsa, ona Allahın, mələklərin və bütün insanların lənəti olar. Bu hədis orada günah iş görənə, yəni Mədinədə Allaha asi olan kəsə şamil olunmur. Beləsi üçün deyirik ki, Mədinədə günah etmək başqa yerdə günah işlər görməkdən daha böyükdür. Ancaq bunu edən lənətə layiq deyil. Lənətə layiq olan yalnız bu iki şeydən birini edəndir: bidət və ya fitnə. Belələrinə Allahın, mələklərin və bütün insanların lənəti vardır.

Digər bir hədisdə Peyğəmbər ﷺ dedi: **"Allahım, Rilə, Zəkvana və Useyyəyə lənət et! Onlar Allah və Onun elçisinə asi oldular"**.

Bunlar ərəb qəbiləsidir. Onlar Peyğəmbərin ﷺ səhabələrinə təca-vüz etmiş, Rəsulullah ﷺ da onları lənətləmişdi. O onlardan müəyyən bir insanı lənətləmədi, bütünlükdə qəbiləni lənətlədi. Yəni Peyğəmbərin ﷺ

səhabələrinə qarşı təcavüzü edənləri. Fikrimcə, bu lənət həmin qəbilələrin təcavüzdə iştirak etməyənlərinə şamil olunmur. Uca Allah buyurur: **"Heç bir günahkar başqasının günahını daşımaz".**[1] Müvəffəq edən Allahdır.

Peyğəmbər ﷺ demişdir: **"Allah yəhudilərə lənət etsin! – Onlar peyğəmbərlərinin məzarlarını məscidlərə çevirdilər".**

Peyğəmbər ﷺ özlərini qadınlara bənzədən kişiləri, habelə özlərini kişilərə bənzədən qadınları da lənətləmişdir.

Müəllif burada ümumi şəkildə lənətlənməsi cazi olan sinifləri qeyd etmişdir. Peyğəmbər ﷺ demişdir: **"Allah yəhudi və xaçpərəstlərə lənət etsin, onlar peyğəmbərlərinin məzarlarını məscidlərə çevirmişdilər."**

Yəhudilər Musaya tabe olanlar, xaçpərəstlər isə İsaya tabe olanlardır. Uca Allah Peyğəmbəri ﷺ göndərdikdən sonra bunu bilib iman gətirməyənlərin hökmü qəzəbə düçar olanlarla eynidir. Çünki onlar haqqı bilərək ona tabe olmamışlar. Allah qorusun!

Peyğəmbər ﷺ onları lənətləməsinin səbəbini belə izah edir: **"onlar peyğəmbərlərinin məzarlarını məscidlərə çevirdilər".** Yəni onlar öz peyğəmbərlərinin məzarlarının üstündə məscid tikdirir və orada namaz qılırlar. Yəhudi və ya xaçpərəst, yaxud da müsəlman olduğunu iddia edənin kimliyindən asılı olmayaraq kim belə edərsə, o şəxs Peyğəmbərin ﷺ dili ilə lənətlənmişdir. Kim qəbir üzərində məscid inşa edərsə, sonra da orada qəbirdəki üçün deyil, izzət və cəlal sahibi Allah üçün namaz qılarsa, onun namazı batil, etdiyi əməl isə haramdır. O, həmin namazı yenidən qılmalıdır. Həmin məscid isə dağıdılmalıdır, çünki orada namaz qılmaq olmaz.

Yox, əgər məscid əvvəldən inşa edilmişsə, sonradan onun içərisində əməlisaleh bir insan, əmir, nazir və ya rəhbər dəfn olunmuşsa, bu zaman qəbir qazılaraq başqa bir yerə köçürülməlidir. Həmin məzarın məsciddə saxlanılması caiz deyil. Çünki məscidlər, içərisində qəbir qoyulsun deyə inşa edilmir. İnşa edilir ki, orada namaz qılınsın, Allah zikr olunsun və Quran oxunsun.

Əgər şəkk edilsə ki, burada ilk əvvəl məscid tikilib, yoxsa məzar, bu zaman ehtiyat üçün həmin yerdə namaz qılınmır. Həmin yerdən uzaqlaşmaq lazımdır ki, namaz təhlükəyə düşməsin.

---

[1] "əl-İsra" surəsi, 15.

Soruşula bilər ki, məgər bu hədis Peyğəmbərin ﷺ məzarına da şamil olunmurmu?

Ona verilən cavab belədir: Peyğəmbər ﷺ məsciddə deyil, öz evində dəfn olunub. Məscid də onun məzarı üzərində inşa edilməyib. Əvvəllər həmin yer ayrıca idi. Sonradan məscidin genişləndirilməsinə ehtiyac oldu və qiblə istiqamətindən də genişləndirildi. Sanki həmin vaxt – daha doğrusunu Allah bilir – başqa bir istiqamətdən məscidi artıra bilməmişdilər. Beləcə məzar əhatələnmiş olaraq məsciddən ayrı qalmışdı. Məscidlə onun arasında isə divar mövcudur. Sonradan izzət və cəlal sahibi Allahın izni ilə iki nəfər Peyğəmbərin ﷺ cəsədini yandırmaq və ya muzeyə qoymaq, ya da başqa bir məqsəd üçün məzarından çıxarmaq istəmişdi. Belə ki, gecələrin birində xəlifələrdən birinin yuxusunda bir adam ona demişdi ki, Rəsulullahı ﷺ sarıgöz adamlardan qoru. O, iki-üç dəfə onun yuxusunda ona belə dedi, xəlifə də tələsik Mədinəyə getdi. Mədinəyə çatdıqda əmr etdi ki, böyük bir qonaqlıq verilsin. Sonra da Mədinənin valisinə dedi ki, bütün Mədinə əhalisini yanıma çağır. O da çağırdı. Xəlifə bir-bir bütün insanlara nəzər saldı, lakin yuxuda ona deyilən vəsflərə malik adamlarla rastlaşmadı. Sonra ikinci və üçüncü dəfə də əmr etdi ki. insanlar onun yanına gəlsinlər. Lakin o, həmin iki adamla rastlaşmadı. O, Mədinə valisinə dedi ki, niyə Mədinə əhlinin hamısını çağırmamısan? Vali dedi ki, onların hamısını çağırmışam. Yalnız iki nəfər qərib insan qalıb, onlar da gələn gündən məsciddə etikafdadırlar. Dedi: Onları buraya gətirin. Onlar gətirildikdə xəlifə gördü ki, yuxuda gördüyü vəsflər onlarda da vardır. Əmr edir ki, onların barəsində araşdırma aparılsın. Məlum olur ki, onlar gecə vaxtı xəndək qazırlar və artıq məzara yaxınlaşıblar. Xəlifə onların öldürülməsinə fərman verir. Sonra da əmr edir ki, məzarın ətrafı qazılsın və dağa qədər hər tərəfdən oraya dəmirdən üç divar düzəltdirir.[1] Beləcə qəbir məsciddən tamamən ayrı düşmüş oldu. Onun üzərində isə məscid inşa edilməmişdir. Şirk və qəbir əhlinin Peyğəmbərin ﷺ məzarı ilə bağlı gətirdikləri şübhəyə cavab belədir.

Toplum olaraq lənətlənməsi caiz olan sonuncu qisim barəsində müəllif رحمه الله demişdir: "Peyğəmbər ﷺ özlərini qadınlara bənzədən kişiləri, habelə özlərini kişilərə bənzədən qadınları lənətləmişdir".

[1] Bax: əs-Səmhudin, "əl-Vafə fi əxbari daril-Mustafa" əsəri.

Bənzəmək sözlə, əməllə, görünüşlə və libasla olur. Bəzən görürsən ki, kişi öz səsini qadın səsinə bənzədir. Qadın səsi ilə sanki qadındır kimi danışır. Beləsi də Peyğəmbərin ﷺ dili ilə lənətlənmişdir. Yaxud da libasında özünü qadına oxşadır, elə libaslar geyinir ki, onu yalnız qadınlar geyinir. Qadınlar kimi başına parik qoymaq da buna aiddir. Həmçinin qadın saatı taxmaq da buna aiddir. Çünki qadın saatları fərqli olur, kişilərin saatları isə ayrı. Bir də görürsən ki, kişi gedib qadın saatı taxır.

Görünüşdə bənzətməyə gəlincə, buna misal kişinin zinət əşyaları taxması və qadın kimi yeriməsidir. Beləsi də Peyğəmbərin ﷺ dili ilə lənətlənmişdir. Mühüm olan odur ki, kişinin özünü qadına bənzətməsi böyük günahlardandır – istər özünü ona qəlbində bənzətsin, istərsə də sözdə. Qadının da öz səsini kişi səsinə bənzətməsi, səsini yoğunlaşdıraraq kişilər kimi danışmaqla özünü kişiyə bənzətməsi böyük günahdır. Yaxud da saçını çiyindən yuxarı kişilər kimi qısaltması da buna aiddir. Və ya kişi palтarı və saatı taxması da belədir. Bütün bunlar böyük günahdır. Qadın belə edərsə, Peyğəmbərin ﷺ dili ilə lənətlənmiş olur.

Bəs əgər görsək ki, bir kişi özünü qadına bənzədir, ona: "Allah sənə lənət eləsin!" deyə bilərikmi? – Xeyr, "Allah sənə lənət eləsin!" demirik. Ona nəsihət verib deyirik: Peyğəmbər ﷺ özünü qadınlara bənzədən kişiləri və özünü kişilərə bənzədən qadınları lənətləmişdir. Çünki kafir olsa belə, kimisə müəyyən şəkildə lənətləmək olmaz. Fasiq olan adamı da lənətləmək olmaz. Deyə bilərsən ki, özünü qadınlara bənzədən kişilər lənətlənmişdir, özünü kişilərə bənzədən qadınlar da lənətlənmişdir. Yalnız ümumi şəkildə deyə bilərsən. Müvəffəq edən Allahdır.

İki yüz altmış altıncı fəsil

Haqsız olaraq müsəlmanı söyməyin haramlığı

Mövzu ilə əlaqəli ayə:
Uca Allah buyurur:

﴿ وَٱلَّذِينَ يُؤْذُونَ ٱلْمُؤْمِنِينَ وَٱلْمُؤْمِنَٰتِ بِغَيْرِ مَا ٱكْتَسَبُوا۟ فَقَدِ ٱحْتَمَلُوا۟ بُهْتَٰنًا وَإِثْمًا مُّبِينًا ﴾

“Mömin kişiləri və mömin qadınları etmədikləri bir işdən ötrü günahlandıranlar, sözsüz ki, öz üzərilərinə böhtanla bərabər açıq-aydın ağır bir yük götürmüşlər”.[1]

Mövzu ilə əlaqəli hədislər:

١٥٥٩– وعنِ ابنِ مَسعودٍ ﷺ قال: قال رسُولُ اللَّه ﷺ: « سِباب المُسْلِمِ فُسوقٌ، وقِتَالُهُ كُفْرٌ » متفقٌ عليه.

1559. Rəvayət olunur ki, İbn Məsud ﷺ demişdir: «Rəsulullah ﷺ demişdir: **“Müsəlmanı söymək fasiqlik, onu öldürmək isə küfrdür”**».

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Şərh:

Müəllif İmam ən-Nəvəvi ﷺ **“Haqsız olaraq müsəlmanı söyməyin haramlığı”** fəslini qeyd edir.

“Söymək” deyildikdə onu ayıblamaq və xoşuna gəlmədiyi sözü onun hüzurunda söyləmək nəzərdə tutulur. Hüzurunda olmadıqda isə bu qeybət adlanır.

Sonra müəllif Uca Allahın bu ayəsini qeyd edir: **“Mömin kişiləri və mömin qadınları etmədikləri bir işdən ötrü günahlandıranlar, sözsüz ki, öz üzərilərinə böhtanla bərabər açıq-aydın ağır bir yük götürmüşlər”.**

Ayədəki “o kəslər ki” (əlləzinə) sözü mübtəda, “yük götürmüşlər” sözü isə xəbərdir. Yəni mömin kişiləri və mömin qadınları etmədikləri bir

---

[1] “əl-Əhzab” surəsi, 58.

[2] “Səhih əl-Buxari”, 46; “Səhih Muslim”, 97.

işdən dolayı onlara əziyyət verərək günahlandıranlar, sözsüz ki, öz üzərilərinə böhtanla bərabər açıq-aydın ağır bir yük, yəni cəza yükü götürmüşlər. Allah qorusun! Bu, sözdə və ya əməldə olmasından asılı olmayaraq bütün əziyyətlərə aiddir. İnsan nə qədər hörmətə layiqdirsə, ona edilən əziyyətin günahı daha böyük olar. Yaxın adama əziyyət vermək uzaq adama əziyyət verməklə eyni səviyyədə deyil. Qonşuya edilən əziyyət qonşu olmayan kəsə edilən əziyyətlə eyni deyil. Sənin üzərində haqqı olan kəsə əziyyət verməyin sənin üzərində haqqı olmayan kəsə əziyyət verməyinlə eyni deyil. Yəni əziyyət verilənin halına görə onun günahı da fərqli səviyyələrdə olur.

Qəribədir ki, bir çox müsəlmanlar öz qonşularına əziyyət verərək onları sıxışdırır, onların ailə üzvlərini güdür və başqa bu kimi əməllər törədir. Bunun günahı olduqca böyükdür. Peyğəmbər ﷺ üz dəfə ardıcıl dedi: **"Allaha and olsun ki, iman gətirməyib!"** Dedilər: "Kim, ey Allahın elçisi?" Dedi: **"O kəs ki, qonşusu onun pisliyindən (yəni zülmündən) əmin-amanlıqda deyil"**.[1]

Uca Allahın: "**etmədikləri bir işdən ötrü"** sözündən isə belə anlaşılır ki, mömin etdiyi bir əmələ görə günahlandırıla bilər. Yəni sənə əziyyət verən bir insana əziyyət vermiş olsan, bunda bir qəbahət yoxdur. Yaxud da izzət və cəlal sahibi Allahın şəri cəza hökmünü icra etməkdə də bir qəbahət yoxdur. Və ya üzərinə düşən bir haqqı yerinə yetirməkdən imtina edən kəsə əziyyət versən, bunda da bir qəbahət yoxdur. Uca Allah pis əməl törədənlər barəsində buyurur: **"Aranızda belə *yaramaz* iş tutanların hər ikisinə əziyyət verin".**[2]

Bu, homoseksuallıq edən tərəflərin öldürülməsi hökmü nazil olmamışdan öncə idi. Onlara *yalnız* əziyyət vermək əmr olunmuşdu: **"Əgər tövbə edib *əməllərini* islah etsələr, onlara *əziyyət verməkdən* vaz keçin".**[3]

Əvvəllər homoseksuallara nə şallaq vurulurdu, nə də ki, onlar öldürülürdü. Sadəcə tövbə edənədək onlara əziyyət verilirdi. Sonra Uca Allah öz Peyğəmbərinin ﷺ dili ilə bu əməli edənin və edilənin öldürülməsi ilə bağlı hökm verdi. Səhabələr də bu barədə yekdil rəydə olmuşlar.

---

[1] "Səhih əl-Buxari", 5557.

[2] "ən-Nisa" surəsi, 16.

[3] "ən-Nisa" surəsi, 16.

Sonra müəllif Abdullah ibn Məsuddan ﵁ nəql olunmuş hədisi qeyd edir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Müsəlmanı söymək fasiqlik, onu öldürmək isə küfrdür"**.

Bu da fasiqliyin küfrdən daha yüngül olmasına dəlildir. Çünki söyüş fasiqlik, qətl isə küfr adlandırılmışdır. Odur ki, biri öz qardaşını söyərsə, söyüş söyən fasiq olur, onun şahidliyi qəbul olunmur, onun hətta öz qızı üzərindəki vəliliyi ortadan qaldırılır, qızı ilə də evlənilmir, çünki o, fasiqdir. O, müsəlmanlara imam da ola bilməz, müəzzin də ola bilməz. Bu əksər alimlərin rəyidir. Düzdür, bu məsələlərin bəzilərində ixtilaf olsa da, mühüm olan odur ki, öz *müsəlman* qardaşını söyən kəs fasiqlik etmiş olur, onu qətlə yetirən isə küfr etmiş olur. Hətta əgər qətlə yetirdiyi adamın qanını haqsız olaraq halal saymış olarsa, islam millətindən çıxaran küfr etmiş olur. Buna dəlil Uca Allahın bu ayəsidir: **"Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları barışdırın. Əgər onlardan biri digərinə qarşı təcavüz etsə, təcavüzkar dəstə ilə, o, Allahın əmrini *yerinə yetirməyə* qayıdanadək, vuruşun. Əgər o qayıtsa, hər iki dəstəni ədalətlə barışdırın və insaflı olun. Sözsüz ki, Allah insaflıları sevir. Möminlər, həqiqətən də qardaşdırlar. Elə isə qardaşlarınızı barışdırın".**[1]

Ayədən göründüyü kimi, bir-biri ilə vuruşan iki dəstə bir-birilərinə qardaş adlandırılmışlar. Bu da onların imandan çıxmadıqlarına və küçük küfr etdikdlərinə dəlalət edir. Müvəffəq edən Allahdır.

١٥٦٠– وعنْ أبي ذرٍّ ﵁ أَنَّهُ سمِع رسُول اللَّه ﷺ يقولُ: « لا يَرمي رجُلٌ رَجُلاً بِالفِسْقِ أو الكُفْرِ، إلاَّ ارتدت عليهِ، إنْ لمْ يَكُن صاحِبُهُ كذلكَ » رواه البخاريُّ.

1560. Əbu Zərdən ﵁ rəvayət olunur ki, o, Rəsulullahın ﷺ belə dediyini eşitmişdir: **"Heç kəs başqa birisini fasiqlik və ya küfrdə ittiham etməsin. Çünki ittiham etdiyi kəs elə olmazsa, söylədiyi söz özünə qayıdar".**

Bu hədisi Buxari rəvayət etmişdir.[2]

١٥٦١– وعنْ أبي هُرَيرةَ ﵁ أنَّ رسُولَ اللَّه ﷺ قالَ: « المُتَسابانِ مَا قَالا فَعَلى البَادِي مِنْهُما حتَّى يَعْتَدِي المظلُومُ » رواه مسلم.

[1] "əl-Hücurat" surəsi, 9-10.

[2] "Səhih əl-Buxari", 5585.

1561. Əbu Hureyradan رضي الله عنه rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"İki nəfərin bir-birini söyməsinin günahı birinci başlayana aiddir. Yalnız haqsızlığa məruz qalanın həddini aşması istisnadır".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Şərh:

Müəllif رحمه الله "Haqsız olaraq müsəlmanı söyməyin haramlığı" fəslində bu hədisləri qeyd etmişdir. Əbu Zərdən رضي الله عنه rəvayət olunur ki, o, Rəsulullahın ﷺ belə dediyini eşitmişdir: **"Heç kəs başqa birisini fasiqlik və ya küfrdə ittiham etməsin. Əgər ittiham etdiyi kəs elə olmazsa, söylədiyi söz özünə qayıdar".** Yəni bir adama "sən fasiqsən", "ey fasiq" desən, həmin adam fasiq deyilsə, sən fasiq olursan. Kimisə təkfir edən də belədir: özünə "ey kafir", "sən kafirsən" deyilən adam elə deyilsə, bunu deyənin özü kafir olur.

Bu da həmin əməlin böyük günahlardan olmasına dəlalət edir. Çünki Peyğəmbər ﷺ bu sifətə malik insanın özünü həmin vəsflə hədələmişdir. Odur ki, insan öz mömin qardaşına "ey fasiq" deyə bilməz. Yaxud birisi haqqında "filankəs fasiqdir" demək olmaz. Gərək dəqiq fasiq ola. Bununla o, bu kimi sözlərdən çəkindirmək istəmişdir. Müsəlmana "ey kafir", "filankəs kafirdir" demək də olmaz. O adam kafir deyilsə, bunu demək halal deyil. Bununla da şəri dəlil olmadan müsəlmanların bir-birilərini təkfir etməsindən çəkindirilir. Bəzi insanların halı isə, Allah qorusun, tamam fərqlidir: ən xırda məsələyə görə təkfir edib deyirlər ki: "bu küfrdür", "bu fasiqlikdir" və beləcə.

İkinci hədisdə isə Əbu Hureyradan رضي الله عنه rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"İki nəfərin bir-birini söyməsinin günahı birinci başlayana aiddir. Yalnız haqsızlığa məruz qalanın həddini aşması istisnadır".**

[Hədisin ərəbcəsindəki] "əl-musəbbətəni" sözü mübtəda, "mə" sözü isə ikinci mübtədadır. "fəaləl-badi" sözü ikinci mübtədanın xəbəri, cümlənin özü isə birinci mübtədanın xəbəridir. Mənası odur ki, iki nəfər bir-biriləri ilə söyüşdükdə onun günahı birinci söyüş söyənə yazılır. Bu zaman məzlumun *söyüşü başlayana qarşı* həddi aşması istisnadır – həddini aşarsa,

[1] "Səhih Muslim", 4688.

günah qazanmış olur. Bu da dəlildir ki, adam bir başqasını onun söydüyü qədərində, həddi aşmadan söyə bilər. Odur ki, Peyğəmbər ﷺ dedikdə ki, **"Valideyinlərinə lənət edəni Allah lənətləmişdir",** səhabələr soruşdular: "Ey Allahın elçisi, insan da öz valideynini lənətləyərmi?" Peyğəmbər ﷺ dedi: **"Bəli. Adam birisinin atasını söyür, o da *cavabında* bunun atasını söyür. Yaxud birisinin anasını söyür, o da *cavabında* bunun anasını söyür"**.

Bu da göstərir ki, insan pis əmələ səbəbkar olduqda həmin pislikdən özünə də çatır. Yalnız haqsızlığa məruz qalanın həddini aşması istisnadır. Bu zaman onun özünə qayıtmış olur. Öz haqqını miqdarında almış olsa, heç bir günah qazanmır. Müvəffəq edən Allahdır.

١٥٦٢– وعنهُ قالَ: أُتيَ النبيُّ ﷺ بِرجُلٍ قَدْ شَرِب قالَ: « اضربُوهُ » قال أبو هُرَيْرَة : فَمِنَّا الضَّاربُ بِيدِهِ، والضَّاربُ بِنعْلِه، والضَّارِبُ بثوبِهِ، فلَمَّا انصَرفَ، قال بعض القَوم: أخزاكَ اللَّه، قال: « لا تقُولُوا هذا، لا تُعِينُوا عليهِ الشَّيطَانَ » رواه البخاري.

1562. Yenə Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, bir dəfə Peyğəmbərin ﷺ yanına içkili bir adam gətirdilər. O dedi: **"Onu döyün!"**. Əbu Hureyra deyir ki, bəzilərimiz onu əli ilə, digərləri ayaqqabısı ilə, başqa biriləri də onu libası ilə vurdu. Adam çıxıb getdikdə bəziləri ona: "Allah səni alçaltsın!" dedi, Peyğəmbər ﷺ də onlara dedi: **"Belə deməyin, ona qarşı şeytana yardım etməyin"**.

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

Şərh:

Müəllif رحمه الله "Haqsız olaraq müsəlmanı söyməyin haramlığı" fəslində belə bir hədis qeyd edir ki, bir dəfə Peyğəmbərin ﷺ yanına içkili bir adam gətirirlər. Bu hadisə içki haram buyurulduqdan sonra baş vermişdi.

"Xamr" sözü sərxoşedici hər bir içkiyə şamil olunur – içki istər üzümdən hazırlansın, istər xurmadan, istərsə də arpadan, buğdadan və ya başqa bir şeydən. Sərxoş edirsə, "xamr" adlanır. Peyğəmbər ﷺ demişdir: **"Sərxoşedici hər bir şey şərabdır, hər bir sərxoşedici də haramdır".**[2]

[1] "Səhih əl-Buxari", 6279.

[2] "Səhih Muslim", 3733.

Sərxoşluq, insan ağlının ləzzət alaraq örtülməsidir. Yəni sadəcə ağılın *səbəbsiz* örtülməsi deyildir. Ancaq tibbi məqsədlər üçün edilən narkoz ağılı örtsə belə, haram deyil. Belə ki, narkoz qəbul etmiş adam onun bədənində nə baş verdiyindən xəbərsiz olur. Şərabı içən isə, Allah qorusun, elə hala düşür ki, özünü padşah hesab edir, yaxud özünü göylərdə hiss edir. Lap bu barədə deyildiyi kimi:

Biz onu içdikdə o bizi padşah edir.

Necə ki, Peyğəmbərin ﷺ əmisi Həmzə ibn Əbdül-Muttalib sərxoş ikən öz qardaşı oğluna – Peyğəmbərə ﷺ: "Siz mənim atamın qullarısınız" demişdi.[1] Bu iyrənc bir sözdür. Lakin o, həmin vaxt sərxoş idi. Sərxoş olan adam isə danışdıqlarına görə sorğu-sual olunmur. Bu, şərabın haramlığı nazil olmamışdan öncə idi. İçkinin haram edilməsi dörd mərhələdə baş vermişdir:

Birinci mərhələ: onun mübah olması. İlk əvvəl Uca Allah içkini insanlara mübah etmişdi. Uca Allah buyurur: **"Siz xurma ağacının meyvələrindən və üzümlərdən sərxoşedici içki və xeyirli ruzi hazırlayırsınız".**[2] Yəni siz onu içib sərxoş olursunuz. Həmçinin onun ticarətini edərək ruzi əldə edirsiniz.

İkinci mərhələ: Uca Allahın onun haramlığını ərz etməsi. Uca Allah buyurur: «**Səndən sərxoşedici *içki* və qumar barəsində soruşurlar. De: "İkisində də həm böyük günah, həm də insanlar üçün mənfəət vardır. Amma günahları mənfəətlərindən daha böyükdür"».**[3] Lakin onu qadağan etmədi.

Üçüncü mərhələ: Uca Allah buyurur: **"Ey iman gətirənlər! Sərxoş ikən nə dediyinizi anlayana qədər, eləcə də cunub olduğunuz halda, – yolda olan *müsafirlər* istisna olmaqla – qüsl edənədək namaza yaxınlaşmayın".**[4] Bununla O, sərxoş halda namaza yaxınlaşmağı haram buyurdu. Bu o demək idi ki, namaz vaxtlarından sonra içki içmək haram deyildi.

Dördüncü mərhələ: içkinin qəti olaraq haram buyurulması. Uca Allah sonuncu nazil olan "əl-Maidə" surəsində buyurur: **"Ey iman gətirənlər!**

---

[1] "Səhih əl-Buxari", 2375; "Səhih Muslim", 1979.

[2] "ən-Nəhl" surəsi, 67.

[3] "əl-Bəqərə" surəsi, 219.

[4] "ən-Nisa" surəsi, 43.

Şübhəsiz ki, sərxoşedici içki də, qumar da, *tapınmaq məqsədilə* dik qoyulmuş daşlar da, fal oxları da şeytan əməlindən olan murdar şeylərdir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız".[1] Bununla da insanlar ondan uzaqlaşdı. İnsanların nəfsi içki içmək istədiyindən onların bundan çəkindirilməsi üçün cəza da təyin etdi.

Peyğəmbər ﷺ bu barədə qəti bir söz buyurmamışdır. İçki içənin cəzası ölüm deyil. Bunu edən kəs sadəcə tənbeh olunmalıdır. Bu səbəbdən bir dəfə sərxoş bir kişi gətirildikdə Peyğəmbər ﷺ buyurdu: **"Onu vurun!"** O, on, qırx, səksən və ya yüz dəfə kimi say demədi. Onlar da həmin kişini vurdular. Bəziləri onu öz paltarı ilə, bəziləri əli, digərləri ayaqqabısı ilə vurdu. Beləcə, ona qırx şallaq vurdular. Həmin adam çıxıb getdikdən sonra insanlardan biri dedi ki, Allah onu rüsvay etsin. Yəni onu zəlil etsin. Peyğəmbər ﷺ isə ona dedi ki, belə demə, onun rüsvay olmasına dua etmə. Adam sərxoşedici içki içib və ona şallaq vurulub, yəni şallaqla təmizlənib: **"Ona qarşı şeytana yardımçı olmayın".** Peyğəmbər ﷺ belə deməklə onun şərab içməsinə baxmayaraq, söyülməsini qadağan etmişdi.

İçki içənlə bağlı bizim mövqeyimiz necə olmalıdır? – Mövqeyimiz ondan ibarətdir ki, biz onun hidayət olunması üçün dua etməliyik. De: "Allahım, ona hidayət ver! Allahım, onu islah et! Allahım, onu bu əməldən və buna bənzər başqa əməllərdən uzaq et!" Ona bəddua etdikdə isə sən ona qarşı şeytana yardımçı olursan. Hədis içkinin haram olmasına və içənin əzaba layiq olmasına dəlildir.

Ömər ibn əl-Xəttabın رضي الله عنه dövründə fəthlər geniş vüsət almış, İslama dəstə-dəstə insanlar gəlirdi. Onun zamanında içki içənlər də çox idi. O da olduqca müdrik insan idi. İstəyir ki, içki içəni daha sərt və təsirli şəkildə cəzalandırsın. Lakin o, təqvalı olduğu üçün səhabələri bir yerə toplayır. Yəni bütün səhabələri deyil, onlardan rəy verə bilənləri bir araya toplayır. Uca Allah buyurur: **"Onlara əmin-amanlıq və ya qorxu xəbəri gəldikdə, dərhal onu yayarlar. Halbuki bunu Peyğəmbərə və özlərindən olan əmr sahiblərinə çatdırsaydılar, içərilərindən *o xəbərin* mahiyyətinə varan kəslər onu bilərdilər".**[2]

---

[1] "əl-Maidə" surəsi, 90.

[2] "ən-Nisa" surəsi, 83.

Bu da dəlildir ki, adi insanlar əmr sahibləri ilə eyni deyillər. Həmçinin, adi insanların məclisində siyasətdən danışılmaz. Kim istəyir ki, adi insanlar əmr sahiblərinə siyasi məsələlərdə məsləhətlər versin, o kəs uzaq bir azğınlığa düşmüş və səhabələrin, raşidi xəlifələrin və ümmətin sələflərinin yolundan çıxmışdır.

Mühüm olan odur ki, Ömər müdrikliyi səbəbindən səhabələrdən rəy sahiblərini bir araya toplamış və demişdi: "Şərab içənlər çoxalmışdır. Dinə riayət zəiflədikdə rəhbərlik işləri sərtləşdirməlidir". Yəni bu iki şey – dinə riayət və hakimin sərtliyi zəiflədikdə, ümmət fəsada uğramış olur. O onlardan nə etməsini soruşur, Abdur-Rahmən ibn Auf da deyir: "Ey möminlərin əmiri, cəzaların ən yüngülü səksən şallaqdır".[1] Cəzanı səksən şallağa qaldır. Abdur-Rahmən ibn Auf ﷺ belə deməklə ismətli qadınları zinada günahlandıran kəsə verilən cəzanı nəzərdə tuturdu. Uca Allah buyurur: **"İsmətli qadınları *zinada* günahlandıran, sonra da dörd şahid gətirməyən kəslərə səksən çubuq vurun və onların şahidliyini heç vaxt qəbul etməyin".[2]**

Bu ən yüngül cəzadır. Beləcə Ömər ibn əl-Xəttab içki içənin cəzasını səksən şallağa qaldırmış oldu. Bu da açıq-aydın dəlildir ki, içki içənə verilən cəzanın müəyyən bir miqdarı yoxdur. Çünki o: "Cəzaların ən yüngülü səksən şallaqdır" dedi, səhabələr də onun bu fikri ilə razılaşdılar. Ömər buna etiraz etmədi ki, elə deyil, əksinə, cəzanı dəyişdirərək səksən şallağa çatdırdı ki, insanları bu əməldən çəkindirsin. Sünnədə bildirilir ki, içki içən adam şallaqlandıqda, sonra yenə içib şallaqlandıqda, sonra yenə içib şallaqlandıqda, sonra dördüncü dəfə içdikdə öldürülməlidir. Hədislərdə belə varid olmuşdur.[3]

Bəzi alimlər demişlər ki, içki içən şallaqdan sonra dördüncü dəfə içərsə, öldürülməlidir. Çünki o, bununla xarab bir ünsürə çevrilmiş olur. Onun islah olunması mümkünsüz olur.

Əksər alimlər isə demişlər ki, o öldürülməməlidir, ona təkrar-təkrar şallaq vurulmalıdır, hər dəfə içdikdə şallaqlanmalıdır. Şeyxulislam [İbn Teymiyyə] ﷺ orta mövqe sərgiləyərək demişdir: "Əgər insanlar arasında içki geniş yayılarsa və onlar qətl olmadan bu əməldən əl çəkməzlərsə, bu

[1] "Səhih Muslim", 3218.

[2] "ən-Nur" surəsi, 4.

[3] Bax: "Səhih əl-Buxari", 6779; "Sunən Əbu Davud", 4489.

zaman dördüncü dəfəsində qətlə yetirilməlidir. Bu orta rəydir və hər iki məqsədi ehtiva edir – həm açıq-aydın dəlillərdə varid olanı, həm də Ömərin ölüm cəzası verməməsini. Halbuki o demişdi ki, insanlar arasında içki çox yayılmışdır.

Alimlər bu hədisin səhihliyi barəsində ixtilaf etmişlər ki, onun hökmü qalır, ya yox? Həmçinin hədisin nəsx olunub-olunmaması, səhih olub-olmaması barəsində də ixtilaf etmişlər. Hər bir halda Şeyxulislamın seçdiyi rəy daha doğrudur: əgər insanlar içkini çox içərsə və qətl olmadan bu əməldən əl çəkməzlərsə, dördüncü dəfə içki içən öldürülməlidir. Kaş ki, əmr sahibləri bu əmrə riayət edəydilər. Buna əməl etmiş olsaydılar, çoxlu xeyir əldə olunar, bir çox pisliyin də qarşısı alınardı.

Bəzi islam ölkələrində, Allah qorusun, şərab içilməsi artıq geniş vüsət almışdır. Onlar şərabı da başqa mübah içkilər kimi, limon və ya portağal şirəsi kimi içirlər. Şəkk yoxdur ki, bu, müsəlman ənənələrinə xas olmayan əlamətdir. Bu, əslində, içkinin mübahlaşdırılması anlamındadır. Çünki bu, insanlar arasında yayılmışdır. İnsan soyuducunun qapısını açır və oradan şərab götürür. Allah qorusun! Sanki bu həmin əməlin mübahlaşdırılmasıdır. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Ümmətimdən bəzi insanlar zinanı, ipəyi, içkini və musiqini halal sayacaqlar".**[1]

[Hədisin ərəbcəsindəki] "əl-hir" sözü zina və homoseksuallıq mənasındadır.

İndi insanlar bu məsələlərdə dörd qismə bölünüblər:

Bəzi insanlar arasında zinakarlıq və homoseksuallıq geniş yayılmışdır. Allaha sığınırıq. Həmin yerlərdə bu mübah hesab olunur. Deyilənə görə, bəzi ölkələrdə təyyarədən enən sərnişinlərə yaxınlaşıb deyirlər ki, nə istəyirsən? Onların arasında gənclər və yaşlılar, gözəllər və çirkinlər olur.

Bəzi ölkələrdə içki geniş yayılmışdır. Bazarlarda satılır və gecə-gündüz halal içki kimi içilir. Bəzi ölkələrdə isə mütrif insanlar arasında kişilərin qadın kimi ipək və yüngül libas geyindiyini görürük. Hətta bəzən qızıl zinət əşyası belə geyinir, boyunbağı, üzük və ya başqa bir şey taxır.

Musiqiyə gəlincə, onun barəsində uzun-uzadı danışmaq olar. Əksər müsəlman ölkələrində o geniş vüsət almışdır. Musiqi bütün müsəlman ölkələrində desək belə, yanılmarıq, bütün növləri ilə çox yayılmışdır.

---

[1] Hədisi Buxari rəvayət etmişdir.

Allahdan salamatlıq, hidayət və əmr sahiblərinin, habelə onların rəiyyətlərinin islah olunmalarını diləyirik. Həqiqətən də O, hər şeyə Qadirdir.

١٥٦٣– وعنْهُ قالَ: سمِعْتُ رسُول الله ﷺ يَقُولُ: « من قَذَف مَمْلُوكَهُ بِالزِّنا يُقامُ عليهِ الحَدُّ يومَ القِيامَةِ، إلاَّ أنْ يَكُونَ كما قالَ » متفقٌ عليه.

1563. Yenə Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Kim öz köləsini zinakarlıqda ittiham edərsə, Qiyamət günü ona şəri cəza verilər. Yalnız dediyi kimi olması istisnadır".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Müəllif İmam ən-Nəvəvi رحمه الله "Haqsız olaraq müsəlmanı söyməyin haramlığı" fəslində sonuncu hədisi qeyd edir. Əbu Hureyradan رضي الله عنه nəql olunmuş hədisdə Peyğəmbər ﷺ demişdir: **"Kim öz köləsini zinakarlıqda ittiham edərsə, Qiyamət günü ona şəri cəza verilər. Yalnız dediyi kimi olması istisnadır".**

[Hədisin ərəbcəsindəki] "məmluk" sözü insanın malik olduğu köləyə deyilir. Kölə alınıb-satılır, hədiyyə edilir, girov qoyulur, vəqf edilir. Lakin izzət və cəlal sahibi Allahın əhkamlarında o, malla bağlı məsələlər istisna olmaqla, azad adamla eyni səviyyədədir.

Ağa, köləsinin özünə malikdir, yəni ondan faydalanır. Əgər o, köləsini ittiham edərək ona: "ey zinakar", "ey homoseksual", yaxud da buna bənzər başqa bir söz söyləsə, ona bu dünyada şəri cəza verilməz. Çünki o, kölənin ağasıdır. Axirətdə isə, Allah qorusun, ona bu əməlinə görə şiddətli əzab verilər – Qiyamət günü ona cəza veriləcəkdir. Bu səbəbdən də köləni ittiham etmək böyük günahlardandır. Çünki bu əməl üçün Qiyamət günü əzab nəzərdə tutulmuşdur. Elm əhli (Allah onlara rəhmət eləsin!) də böyük günahların tərifində belə demişlər.

Lakin əgər kölə həqiqətən də zina etmiş olarsa, ağası da onu buna görə ittiham edərsə, ona şəri cəza verilməz. Çünki Peyğəmbər ﷺ demişdir: **"Yalnız dediyi kimi olması istisnadır".** Yəni söylədiyi kimi.

[1] "Səhih əl-Buxari", 6352; "Səhih Muslim", 3138.

Bəs nə zaman onun dediyi kimi olur?

– O zaman ki, buna dörd nəfər şahidlik edir. Dörd nəfər ədalətli kişi onun zina etdiyinə şahidlik etməlidir ki, həqiqətən də cinsi yaxınlıq baş vermişdir. Ya da ki, onun özü bunu etiraf edir. Bu zaman ağanın üzərindən şəri cəza götürülmüş olur. Yenə bil ki, kölə zina etdikdə ona azad adama verilməli olan cəzanın yarısı verilir. Uca və Böyük Allah buyurur: **"Əgər ərə getdikdən sonra zina etsələr, onlara azad qadınlara verilən cəzanın yarısı tətbiq edilər".**[1]

Orta cəza şallağa aiddir. Yəni kölə zina etdikdə ona yalnız əlli şallaq vurulur.

Alimlər demişlər ki, sürgünə göndərilməsi hökmü köləyə aid deyil. Çünki azad subay adam zina etdikdə ona yüz şallaq vurulur, özü də bir il müddətinə öz vətənindən sürgün edilir. Köləyə isə əlli şallaq vurulur və o, sürgün edilmir. Çünki onun sürgün olunması onun ağasına zərərdir. Bu, insanı taqətindən artıq bir işlə yükləmək olur. Köləsi zina edən adama ağası şəri cəza verə bilər. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Sizlərdən birinin kənizi zina edərsə və bu bəyan olarsa, onu şallaqlasın".**[2]

Beləcə, ağaya öz kənizini şallaqlaması əmr olunur. Azad insanın şallaqlanmasını isə yalnız rəhbər və ya onun köməkçisi icra edə bilər. Hətta sənin öz oğlun belə, zina edərsə, özü də ağlı başında olan, həddi-büluğa çatmış biridirsə, ona cəzanı yalnız rəhbər və ya onun köməkçisi verə bilər. Həmçinin əgər sənin qardaşın həddi-büluğa çatdıqdan sonra ağlı başında olan biri kimi zina edərsə, ona da cəzanı yalnız rəhbər və ya onun köməkçisi verə bilər.

Ağa yalnız öz köləsini şallaqlaya bilər. Əgər kölə oğurluq etmiş olsa, bunun cəzasını, yəni əlini kəsməyi yalnız rəhbər və ya onun köməkçisi edə bilər. Ona görə alimlər demişlər ki, "ağa öz köləsinə şallaqdan savayı başqa bir cəza verə bilməz". Daha doğrusunu Allah bilir.

---

[1] "ən-Nisa" surəsi, 25.

[2] "Səhih əl-Buxari", 2080; "Səhih Muslim", 3215.

İki yüz altmış yeddinci fəsil

Ölüləri haqsız yerə və şəri məsləhət olmadıqca söyməyin haramlığı

Bu (şəri məsləhət), bidətə çağırandan / uyandan, onun fəsadından və ondan çəkindirmək üçün ediləndir ki, öncəki fəsildə də buna aid ayə və hədislər verilmişdir

Mövzu ilə əlaqəli hədis:

١٥٦٤– وعن عائِشةَ ﵂ قالتْ: قال رسُولُ اللَّهِ ﷺ: « لا تَسُبُّوا الأمواتَ، فَإنَّهُمْ قد أفْضَوْا إلى ما قَدَّموا » رواه البخاري.

1564. Rəvayət olunur ki, Aişə ﵂ demişdir: Rəsulullah ﷺ demişdir: **"Ölüləri söyməyin, onlar artıq etdikləri əməllərlə baş-başadırlar".**

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

Şərh:

Müəllif ﵀ **"Ölüləri haqsız yerə və şəri məsləhət olmadıqca söyməyin haramlığı"** fəslini qeyd edir.

Burada müsəlmanların ölüləri nəzərdə tutulur. Kafirə gəlincə isə onun heç bir toxunulmazlığı yoxdur. Lakin əgər onu söymək yaxınlarına əziyyət verirsə, bu istisnadır. Zərər olmadıqda isə onun heç bir toxunulmazlığı olmur. Müəllifin "Haqsız yerə" sözünün mənası da elə budur. Çünki müsəlmanlara əziyyət vermiş, onları qətlə yetirmiş kafirlərin ölülərini söyməyə bizim haqqımız vardır. Müsəlmanların dinlərini fəsada aparmaq istəyənlər də belədir. Üstəlik şəri məsləhət olduqda, misal üçün ölü bidət əhlindən olduqda və həmin bidəti insanlar arasında yaymış birisi olduqda onu söymək, təhqir etmək məsləhətdir. İnsanları isə ondan və yolundan çəkindirməliyik ki, o və etdikləri insanlar arasında ucaldılmasın (nüfuz qazanmasın).

---

[1] "Səhih əl-Buxari", 1306.

Sonra o, bu məsələyə Aişədən رضي الله عنها nəql olunmuş hədisi dəlil gətirir. Peyğəmbər ﷺ demişdir: **"Ölüləri söyməyin, onlar artıq etdikləri əməllərlə baş-başadırlar"**.

"Ölüləri söyməyin". Nəhyin əsli haramlıqdır. Ölüləri söyməməliyik.

Sonra da səbəbini qeyd edir: **"onlar artıq etdikləri əməllərlə baş-başadırlar".**

Sizin onları söyməyiniz heç nəyi dəyişmir. Çünki onlar öldükdən sonra etdikləri əməllərlə görüşüblər. Onlar əməl diyarından cəza diyarına köçüblər. Hər ölən kəs öz əməlləri ilə görüşür, cəza diyarına köçür və onun üçün Qiyamət qopmuş olur. İndi onun əməli dayandırılıb və heç bir əməl edə bilmir. Yalnız Sünnədə varid olmuş əməllər istisnadır. Peyğəmbər ﷺ demişdir: **"İnsan öldükdə üç əməldən başqa onun bütün əməlləri kəsilir: davamlı sədəqə, faydalı elm və onun üçün dua edən əməlisaleh övlad".**[1]

Bu da dəlildir ki, insan gərək dilini faydasız sözlərdən qorusun. Bu təqva əhlinin yoludur. Rəhmanın qulları lağlağı söhbətlər ilə rastlaşdıqda oradan uzaqlaşarlar. Onlar yalançı şahidlik də etməz və yalnız haqqı danışarlar. Daha doğrusunu Allah bilir.

[1] "Səhih Muslim", 3084.

İki yüz altmış səkkizinci fəsil

Əziyyət verməyin haramlığı

Mövzu ilə əlaqəli ayə:
Uca Allah belə buyurur:

﴿ وَٱلَّذِينَ يُؤْذُونَ ٱلْمُؤْمِنِينَ وَٱلْمُؤْمِنَٰتِ بِغَيْرِ مَا ٱكْتَسَبُوا۟ فَقَدِ ٱحْتَمَلُوا۟ بُهْتَٰنًا وَإِثْمًا مُّبِينًا ﴾

“Mömin kişiləri və mömin qadınları etmədikləri bir işdən ötrü günahlandıranlar, sözsüz ki, öz üzərilərinə böhtanla bərabər açıq-aydın ağır bir yük götürmüşlər”.[1]

Mövzu ilə əlaqəli hədislər:

١٥٦٥– وعنْ عبدِ اللَّه بنِ عَمرو بن العاص ﷺ قالَ: قال رَسُولُ اللَّهِ ﷺ: « المُسْلِمُ منْ سَلِمَ المُسْلِمُونَ مِنْ لِسَانِهِ ويدِهِ، والمُهَاجِرُ منْ هَجَر ما نَهَى اللَّه عنْهُ » متفقٌ عليه.

1565. Abdullah ibn Amr ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: **“Müsəlman, dilindən və əlindən başqa müsəlmanlara zərər dəyməyən kəsdir; mühacir isə Allahın qadağan etdiyi şeyləri tərk edəndir”**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١٥٦٦– وعنهُ قالَ: قال رسولُ اللَّه ﷺ: « مَنْ أحبَّ أن يُزَحْزحَ عن النَّارِ، ويَدْخَل الجنَّةَ، فلتَأتِهِ منِيَّتُهُ وهُوَ يُؤمِنُ باللهِ واليَوْمِ الآخِرِ، وَلْيَأتِ إلى النَّاسِ الذي يُحِبُّ أنْ يُؤْتَي إليْهِ » رواه مسلم.

وهُو بعْضُ حَديثٍ طويلٍ سبقَ في باب طاعةِ وُلاةِ الأمُورِ.

1566. Yenə Abdullah ibn Amrdan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **“Kim Cəhənnəmdən xilas olub Cənnətə daxil olmaq istəyirsə, əcəli çatdığı zaman Allaha və axirət gününə iman gətirmiş olsun, ziyarət olunmalarını istədiyi insanları ziyarət etsin”.**

---

[1] “əl-Əhzab” surəsi, 58.

[2] “Səhih əl-Buxari”, 9; “Səhih Muslim”, 58.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Bu sözlər "Əmr sahiblərinə itaət" fəslində keçən uzun bir hədisdəndir.

Şərh:

Müəllif ﵀ **"Əziyyət verməyin haramlığı"** fəslini qeyd edir. Bu həm sözlə, həm feillə, həm də tərk etməklə olunan əziyyətlərdir.

Sözlə verilən əziyyətə gəlincə, bu, qardaşına zərər verməsə belə, ona əziyyət verən sözü söyləməkdir. Əgər dediklərin ona zərər vermiş olarsa, bunun günahı daha böyükdür.

Feillə edilən əziyyət insanı məkanında, oturduğu yerdə, yolunda və buna bənzər başqa bir yerdə sıxışdırmaqla olur.

Tərk etməklə əziyyət isə qardaşının əziyyət çəkdiyi bir şeyi tərk etməklə olur.

Bütün bunlar haramdır və ona görə şiddətli əzab vardır. Uca Allah bu xüsusda buyurur: **"Mömin kişiləri və mömin qadınları etmədikləri bir işdən ötrü günahlandıranlar, sözsüz ki, öz üzərilərinə böhtanla bərabər açıq-aydın ağır bir yük götürmüşlər".**[2] Yəni onlar öz üzərilərinə böhtan, yəni yalan və açıq-aydın günah götürmüş olurlar ki, bu da böyük bir cəzadır. Allah afiyət versin.

Uca Allahın **"etmədikləri bir işdən ötrü"** kəlamı isə dəlildir ki, əgər bir insana, əziyyət olunmağa layiq bir əməli etdiyinə görə əziyyət verilərsə, bunda bir qəbahət yoxdur. Necə ki, Uca Allah buyurur: **"Aranızda belə *yaramaz* iş tutanların hər ikisinə əziyyət verin. Əgər tövbə edib *əməllərini* islah etsələr, onlara *əziyyət verməkdən* vaz keçin".**[3]

Bu əvvəllər belə idi. Allah qorusun! Homoseksual birisi tövbə edənədək ona əziyyət verilirdi. Sonra Peyğəmbərin ﷺ belə dediyi sabit oldu: **"Lut qövmünün əməlini edəni görsəniz, edəni də, ediləni də öldürün".**[4]

Şeyxulislam İbn Teymiyyə demişdir: "Səhabələrin yekdil rəyinə görə Lut qövmünün əməlini edən də, edilən də öldürülməlidir. Lakin onlar

---

[1] "Səhih Muslim", 3431.

[2] "əl-Əhzab" surəsi, 58.

[3] "ən-Nisa" surəsi, 16.

[4] "Musnəd İmam Əhməd", 1/300; "Sunən Əbu Davud", 3869; "Sunən ət-Tirmizi", 1376; "Sunən İbn Macə", 2551.

qətlin formasında ixtilaf etmişlər. Bəziləri demişlər ki, daşqalaq edilməlidir. Bəziləri demişlər ki, şəhərin ən hündür binasının üstündən atılmalıdır. Digərləri də onun odda yandırılmalı olduğunu demişlər". Allah qorusun! Mühüm olan odur ki, haqlı olaraq əziyyət vermək olar.

Bəzi adamların haqqa və xeyirə nifrət etmələri də buna aiddir. Belə ki, bəzi insanlar kiminsə Sünnəyə riayət etdiyini gördükdə əziyyət çəkir. Allah qorusun! Beləsinə də həmin adam əziyyət verir və nifrət edir. Bu zaman deyirik ki, sən Sünnəyə riayət etməkdə davam et. Çünki sən haqlı olaraq ona əziyyət verirsən.

Sonra müəllif iki hədis qeyd edir:

Birincisində Peyğəmbər ﷺ demişdir: **"Müsəlman, dilindən və əlindən başqa müsəlmanlara zərər dəyməyən kəsdir; mühacir isə Allahın qadağan etdiyi şeyləri tərk edəndir".**

Müsəlman o kəsdir ki, digər müsəlmanlar onun dilindən və əlindən salamatdırlar. Onları lənətləmir, təhqir etmir, söymür, qeybətini etmir və onların sözünü gəzdirmir. Məxluqatla bağlı dilin törədə biləcəyi hər bir əməldən uzaq olar. Müsəlmanlar onun əlindən də salamat olarlar – o, insanlara təcavüz etməz, vurmaz, mallarını oğurlamaz və yararsız hala salmaz. Müsəlman bax budur. Bu o demək deyil ki, yalnız belələri müsəlmandır. Bu, o deməkdir ki, İslam dini belədir. Müsəlman isə o kəsdir ki, zahirdə və batində Uca Allaha təslim olandır. Lakin bəzən buna bənzər misallar belə bir əmələ təşviq olunması üçün deyilir. Hətta başqa misallar olsa belə.

"Mühacir isə Allahın qadağan etdiyi şeyləri tərk edəndir". Məlum məsələdir ki, "mühacir", dinini yaşamaq üçün küfr ölkəsindən müsəlman ölkəsinə hicrət edən kəsə deyilir. Lakin hicrət həm də Allahın qadağan etdiyi əməlləri tərk etməyə də deyilir. Belə mühacir haram söz söyləmir, haram iş görmür, vacibi nəinki tərk etmir, əksinə, vacibləri edir, haramları isə tərk edir. Beləsi Allahın qadağan etdiklərini tərk etdiyi üçün mühacir adlanır.

İkinci hədis isə Peyğəmbərin ﷺ bu sözüdür: **"Kim Cəhənnəmdən xilas olub Cənnətə daxil olmaq istəyirsə, əcəli çatdığı zaman Allaha və axirət gününə iman gətirmiş olsun, ziyarət olunmalarını istədiyi insanları ziyarət etsin".**

Hədisdəki **"kim... istəyirsə"** sözü sövq etmək mənasını daşıyır. Çünki hər bir kəs Cəhənnəmdən qurtulmaq, Cənnətə daxil olmaq istəyir. Cəhənnəmdən qurtularaq Cənnətə daxil olan kəs zəfər çalmış olacaq. Kim Allaha və axirət gününə iman gətirdiyi halda əcəlinin çatmasını istəyirsə, **"əcəli çatdığı zaman Allaha və axirət gününə iman gətirmiş olsun"**.

Bu baxımdan insan gərək Allaha və axirət gününə iman gətirməyi daim xatırlasın. Çünki o, nə zaman öləcəyini bilmir. Hər zaman Allaha və axirət gününə iman gətirmək gözləri önündə olsun. İnsan izzət və cəlal sahibi Allaha, Onun ad və sifətlərinə, habelə axirət gününə, oradakı savab və cəzaya iman gətirdikdə Allahın dininə tabe olmalıdır. Bu, yəni Allaha və axirət gününə iman da Allahın haqqıdır. İnsanların haqqı isə ziyarət olunmalarını istədiyi insanları ziyarət etməsidir. Onlara əziyyət verməməlidir. Çünki o, özünə əziyyət verilməsini istəmir. Həmçinin onlara təcavüz etməməlidir, çünki o, özünə təcavüz olunmasını istəmir. Onları söyməməlidir, çünki o, özünün təhqir olunmasını sevmir. Alış-veriş zamanı onları aldatmamalıdır, çünki o, özünün aldadılmasını sevmir və beləcə.

Bu bir qaydadır. İnsanlar bu qaydaya riayət etmiş olsaydılar, öz aralarında böyük xeyirə nail olardılar. Bu, Peyğəmbərin ﷺ aşağıdakı sözünə bənzəyir: **"Sizlərdən biriniz özünə istədiyini qardaşı üçün istəməyincə, iman gətirmiş olmaz"**.[1] Müvəffəq edən Allahdır.

[1] "Səhih əl-Buxari", 12; "Səhih Muslim", 64.

İki yüz altmış doqquzuncu fəsil

Nifrət etmə, əlaqələri kəsmə və [qardaşına] arxa çevirmənin qadağan olması

İmam Hafiz ən-Nəvəvi **"Nifrət etmə, əlaqələri kəsmə və [qardaşına] arxa çevirmənin qadağan olması"** fəslini qeyd edir.

Nifrət qəlblə olur, əlaqələri kəsmə həm söz, həm də əməllərlə olur, arxa çevirmə isə əməllə olur.

Qəlbdəki nifrətə gəlincə, bu, insanın öz mömin qardaşına nifrət bəsləməsidir. Möminə nifrət etmək haramdır. Sən nə üçün ona nifrət edirsən?! Ola bilsin o, izzət və cəlal sahibi Allaha asi olduğu üçün ona nifrət edirsən. Bu zaman deyirik: Əgər o, Allaha asi olubsa, ona mütləq şəkildə nifrət bəsləmə. Mütləq şəkildə nifrət bəslənməli olan kəs kafirdir. Çünki onda xeyir yoxdur. Mömin isə asilik etsə belə, hətta asiliyə israr etsə belə, sən onu malik olduğu imana görə sevməli, etdiyi asilik və fasiqliyə isə nifrət bəsləməlisən.

Birisi soruşa bilər ki, sevgi ilə nifrət necə bir arada ola bilər?

Deyirik: Ola bilər. Çünki onların hər biri müxtəlif səmtlərdə olur və bir yerdə olmur. Biz imanına görə onu sevir, fasiqliyinə isə nifrət edirik. Məsələn, xəstəyə acı və kəskin qoxusu olan dərman verdikdə o, bunu bir tərəfdən sevir, digər tərəfdən isə yox. Dərmanın şəfaya səbəb olacağı üçün onu sevir, dadına və qoxusuna isə nifrət edir. Mömin qardaşın da belədir. Sən onunla iman əsasının üzərində birlikdəsən. Nə üçün ona mütləq şəkildə nifrət etməlisən? Onun asiliklərinə görə nifrət etsən, bunda bir qəbahət yoxdur. Lakin malik olduğu imana görə onu sevməlisən. Əgər sən onu malik olduğu imana görə sevib, fasiqliyinə nifrət etmiş olsan, bu sənin ona nəsihət verməyinə gətirib çıxaracaqdır. Beləcə, sən onu sevəcəksən, özünə istədiyini qardaşın üçün də istəyəcəksən, fasiqliyinə görə isə ona nəsihət edəcəksən.

Ona salam vermək də buna aiddir. Hətta günahları olsa belə, sən ona salam verməlisən. Yalnız bilsən ki, salamı tərk etməyin onun islah olunmasına səbəb olacaq, bu zaman salamın tərk edilməsi faydalı bir vasitəyə çevrilmiş olur.

Aranı kəsmək isə qardaşınla öz arandakı əlaqələri kəsməyə deyilir. Mömin qardaşının haqqıdır ki, sən onu ziyarət edəsən. Onunla əlaqəni kəsmək sənə halal deyildir. Çünki o, hətta asi olsa belə, sənin qardaşındır. Odur ki, görürsən ki, adam öz qonşusu asi ola-ola, ona yaxşılıq edir. Çünki Peyğəmbər ﷺ demişdir: **"Allaha və axirət gününə iman gətirən kəs qonşusuna yaxşılıq etsin".** Asi olsa belə, ona yaxşılıq et və ona nəsihət ver.

Həmçinin bəzi insanların qohumları onlarla əlaqəni kəsdiklərinə görə və ya asi olduqlarına görə onlar da qohumları ilə əlaqəni kəsirlər. Bu səhvdir. Asi olsalar belə, qohumlarınla əlaqə saxla. Onlar sənlə əlaqəni kəssələr də, sən onlarla əlaqə yarat. Necə ki, bir dəfə Peyğəmbərin ﷺ yanına bir nəfər gəlib deyir: "Ey Allahın elçisi, mənim qohumlarım var, onlarla əlaqə yaradıram, lakin onlar yaratmırlar. Onlara yaxşılıq edirəm, onlar isə mənə pislik edirlər. Onları arzulayıram". Sonra da bir başqa söz dedi. Peyğəmbər ﷺ dedi: **"Əgər həqiqət sənin dediyin kimidirsə, sanki onların qəlblərinə kömür salırsan"**.[1] Yəni sanki sən onların qəlblərinə kömür və ya isti qum tökmüş olursan. Onlar sənlə əlaqəni kəssələr belə, sən onlarla əlaqə yaratmağa çalış. Hətta onlar sənə pislik etsələr, sənə düşmənçilik göstərsələr belə, onlarla əlaqə yarat. Çünki yalnız özü ilə əlaqə yaradıldıqda əlaqə yaradan həqiqi qohumluq əlaqələri yaratmış olmur, sadəcə əvəzini vermiş olur.

İki möminin bir-birinə arxa çevirməsi də halal deyildir. Bəs burada qəlblər nəzərdə tutulur, yoxsa bədənlər? Əlbəttə ki, hər ikisi. Qardaşının səndən qəlbən üz döndərdiyini görmüş olsan belə, qəlblərinizi bir-birindən uzaqlaşdırmayın. Ona yaxınlaş və ona tərəf yönəl. Uca Allah buyurur: **"Yaxşılıqla pislik eyni ola bilməz. Sən *pisliyi* yaxşılıqla dəf et! O zaman sənlə ədavət aparan kimsə sanki yaxın bir dost olar".**[2]

Bu ilahi göstərişlərə və Peyğəmbər ﷺ tövsiyələrinə riayət etsək, böyük xeyirə nail olarıq. Lakin şeytan bizimlə oynayıb deyir ki, o sənlə əlaqəni kəsirsə, sən niyə onunla əlaqə yaradırsan? O, sənə arxa çevirdiyi halda sən niyə ona tərəf yönəlirsən? İzzət və cəlal sahibi Allah Quranda və Peyğəmbər ﷺ Sünnədə insanların bir-birinə arxa çevirməsini haram etmişdir.

Bədənlə arxa çevirmək də belədir. Bəzi insanlar başqalarına üz çevirib arxa döndərməkdən çəkinmirlər. Bəzən də təkəbbürlükdən biri sənlə söhbət edə-edə üzünü başqa tərəfə çevirir. Allah qorusun, bu halal deyil.

---

[1] "Səhih Muslim", 4640.

[2] "Fussilət" surəsi, 34.

Bəzi insanlar isə heyvan kimidirlər. Görürsən ki, bir-birilərinə arxa çevirib eyni yerdə əyləşirlər. Bu nə şəri əxlaqi çərçivəyə sığmır, nə ərəb adət-ənənəsinə uyğun deyil, nə də gözəl əxlaqdan sayılmır. Uca Allah Cənnət əhlini vəsf edərkən onların taxtlarda üz-üzə olacaqlarını bildirmişdir. Odur ki, üz-üzə durmaq yüksək əxlaqi keyfiyyət, arxa çevirmək isə pis əxlaq göstəricisidir. Lakin bəzi insanlar əxlaqsız və islam tərbiyəsindən uzaqdırlar. Belələrinin məclislərdə arxa-arxaya oturduqlarını görürsən ki, bu da səhvdir.

Buna bənzər başqa bir əməl də bəzi insanların namazda salam verdikdən sonra sıradan önə çıxaraq insanlara arxasını çevirməsidir. Yəqin o, elə düşünür ki, o insanlardan öndə olduğu üçün daha əzəmətli birisidir. Çünki istənilən bir adam başqalarından önə çıxdıqda məqsədsiz olsa belə, özünü əzəmətli saymış olur. Mən belə hallar gördükdə bunu qadağan edirəm. Çünki bu, insanlara arxa çevirmək kimidir.

Bu zaman desə ki, yerim dar olduğu üçün belə edirəm, çünki həmin yerdə otura bilmirəm, biz deyərik: "Qardaşım, Allaha həmd olsun ki, bu məsələ genişdir. Ayağa qalx, irəli gedib və ya buradan aralandıqdan sonra istədiyini et. İnsanların arasında olduğun zaman isə belə etmə".

Bu üç əməl – nifrət etmək, əlaqələri kəsmək və arxa çevirmək nəhy olunmuş əməllərdir. Daha doğrusunu Allah bilir.

Mövzu ilə əlaqəli ayələr:

Uca Allah belə buyurur:

﴿ إِنَّمَا ٱلۡمُؤۡمِنُونَ إِخۡوَةٞ ﴾

"Möminlər, həqiqətən də qardaşdırlar".[1]

﴿ أَذِلَّةٍ عَلَى ٱلۡمُؤۡمِنِينَ أَعِزَّةٍ عَلَى ٱلۡكَٰفِرِينَ ﴾

"möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olan"[2]

﴿ مُّحَمَّدٞ رَّسُولُ ٱللَّهِۚ وَٱلَّذِينَ مَعَهُۥٓ أَشِدَّآءُ عَلَى ٱلۡكُفَّارِ رُحَمَآءُ بَيۡنَهُمۡ ﴾

[1] "əl-Hücurat" surəsi, 10.

[2] "əl-Maidə" surəsi, 54.

“Muhəmməd Allahın Elçisidir. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər”.[1]

Şərh:

Hafiz ən-Nəvəvi ﷺ **“Nifrət etmə, əlaqələri kəsmə və [qardaşına] arxa çevirmənin qadağan olması”** fəslini qeyd edir. Bu fəslin adı ilə bağlı artıq söhbət açmışıq.

Sonra müəllif buna aşağıdakı ayəni dəlil gətirir: **“Möminlər, həqiqətən də qardaşdırlar. Odur ki, qardaşlarınızın arasını düzəldin”.**

Bu ayə bir-biri ilə savaşan iki mömin dəstənin arasını düzəltməkdən sonra gəlir. Uca Allah buyurur: **“Möminlər, həqiqətən də qardaşdırlar. Odur ki, qardaşlarınızın arasını düzəldin”.**[2] Ondan öncə gələn ayə isə belədir: **“Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları barışdırın. Əgər onlardan biri digərinə qarşı təcavüz etsə, təcavüzkar dəstə ilə, o, Allahın əmrini *yerinə yetirməyə* qayıdanadək vuruşun. Əgər o qayıtsa, hər iki dəstəni ədalətlə barışdırın və insaflı olun. Sözsüz ki, Allah insaflıları sevir”.**[3]

Yəni əgər iki mömin dəstə və ya qəbilə bir-biri ilə vuruşarsa, **“onların arasını düzəldin”.** Burada müraciət vuruşmayan möminlərə edilir.

“Əgər onlardan biri digərinə qarşı təcavüz etsə” və sülhlə razılaşmasa, bu zaman ədalətli dəstə ilə birlikdə olun və təcavüz edən dəstəyə qarşı vuruşun.

“təcavüzkar dəstə ilə, o, Allahın əmrini *yerinə yetirməyə* qayıdanadək vuruşun”. Yəni əməllərindən dönənədək belə edin.

“**Əgər o qayıtsa, hər iki dəstəni ədalətlə barışdırın”.** Yəni döyüşə, mal və can itkisinə son versələr, onları barışdırın.

Deyilə bilər ki, bəs hər iki dəstədən olan insanların qətli, mal-dövlət tələfatı necə olsun? – Onlar insafla ödənilməli, araları islah olunmalıdır: **“insaflı olun. Sözsüz ki, Allah insaflıları sevir”.** Yəni Allah, Onun göstərişlərini yerinə yetirərkən ədalətli olanları sevir.

---

[1] “əl-Fəth” surəsi, 29.

[2] “əl-Hücurat” surəsi, 10.

[3] “əl-Hücurat” surəsi, 9.

“Möminlər, həqiqətən də qardaşdırlar. Odur ki, qardaşlarınızın arasını düzəldin”. Bütün möminlər qardaşdırlar, hətta bir-biri ilə vuruşan iki mömin dəstə də, onların arasını düzəldənlər də qardaşdırlar.

Bu ayə xəvariclərin söylədiklərini açıq-aydın rədd edir. Onlar deyirlər ki, böyük günah edən *mömin* kafir olur. Müsəlmanın müsəlmana qarşı vuruşması isə ən böyük günahlardan biridir. Buna rəğmən Uca Allah bir-biriləri ilə vuruşan və onların arasını düzəldən dəstə barəsində buyurur: **“Möminlər, həqiqətən də qardaşdırlar. Odur ki, qardaşlarınızın arasını düzəldin.”**

Uca Allah bir-biri ilə vuruşan iki dəstənin arasının düzəldilməsini vacib etmişdir. Aralarında döyüş olmasa belə, ədavət edənlərin də arasını düzəltmək lazımdır. İnsan eşitsə ki, iki nəfər arasında düşmənçilik, nifrət, çəkişmə və ya uzaqlaşma var, gərək onların arasını düzəltsin. Bu halda o, islah naminə yalan da danışa bilər. Məsələn, onlardan birinə deyir ki, filankəs sənə zərər verəcək bir söz deməyib, yaxud da buna bənzər başqa bir söz. Beləcə o, onun demədiyi başqa bir sözü söyləmiş olur ki, onların arası düzəlsin. Sülh hər zaman xeyirdir.

[Müəllifin ﷺ dəlil gətirdiyi] ikinci ayədə isə Uca Allah buyurur: **“Ey iman gətirənlər! Sizlərdən kim dinindən dönərsə, *bilsin ki,* Allah *onun əvəzinə* Özünün sevdiyi və Onu sevən, möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olan bir camaat gətirər. Onlar Allah yolunda cihad edər və tənə edənin tənəsindən qorxmazlar. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allahın *lütfü* genişdir, *O hər şeyi* biləndir”.**[1]

Yəni sizlər dininizdən dönsəniz, bu, Allaha zərər verməz. Allah *sizin əvəzinizə* Özünə tabe olan və rəsuluna itaət etməklə sevdiyi adamları gətirər. Çünki Allahı sevməyin ən güclü təzahürü Peyğəmbərə tabe olmaqdır. Uca Allah buyurur: «**De: “Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah çox bağışlayandır, rəhmlidir”**».[2]

Sən də Allahın səni sevməsini istəyirsənsə, Onun elçisinə tabe ol. Yol aydın və açıqdır. İzzət və cəlal sahibi Allah buyurur: **“Allah *onun əvəzinə***

[1] “əl-Maidə” surəsi, 54.

[2] “Ali İmran” surəsi, 31.

Özünün sevdiyi və Onu sevən, möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olan bir camaat gətirər".[1]

Bu, möminin həqiqi vəsfidir. Belə ki, o öz mömin qardaşlarına qarşı mülayim, təvazökar və bağışlayan, kafirlərə qarşı isə sərtdir. Yəni onlar kafirlərə qarşı güclüdürlər – onlarla yumşaq davranmır, onları sevmir və onlara güzəşt etmirlər. Çünki bütün bunlar möminlərə haramdır. Mömin olan kəs kafirlərə qarşı mərhəmətli olmamalıdır. Həmçinin ona qarşı yumşaq olmamalıdır. Çünki Uca Allah elə bir din nazil etmişdir ki, o, bütün dinlərdən ucadır. Əksinə, biz kafirlərə nifrət etməli, onları özümüzə düşmən hesab etməliyik. Bilməliyik ki, onlar əsla bizim xeyrimizə iş görməzlər. Gördükləri iş bizə daha çox zərər verər, çünki o, düşməndir. Düşmən isə sənə yalnız pislik edə bilər. Hətta zahirdə özünü sənə dost kimi göstərsə belə, bil ki, o öz xeyri üçün çalışır. Çünki izzət və cəlal sahibi Allahdan daha doğru danışan yoxdur. O, qəlblərdə olanları biləndir. İzzət və cəlal sahibi Allah buyurur: **"Ey iman gətirənlər, Mənim düşmənimi də, öz düşməninizi də özünüzə dost tutmayın!"**[2]

O həmçinin buyurur: **"Ey iman gətirənlər, yəhudi və xaçpərəstləri *özünüzə* dost tutmayın! Onlar bir-birinin dostudurlar".**[3]

Uca Allah başqa bir ayədə buyurur: **"Sən yəhudilərin və xaçpərəstlərin dinlərinə tabe olmayınca, onlar səndən əsla razı qalmayacaqlar".**[4]

Müsəlmanlar yəhudi və ya xaçpərəst olmadıqca onların müsəlmanlardan razı qalmaları mümkünsüzdür. Bu səbəbdən də onlar bu gün vargücləri ilə insanları dinlərindən uzaqlaşdırmağa çalışır, gah əxlaqsız elanlar, gah jurnallar, gah pis çağırışlar, gah da açıq şəkildə küfrə çağırmaqla buna naill olmaq istəyirlər. İzzət və cəlal sahibi Allah buyurur: **"Biz onları oda çağıran rəhbərlər etdik. Qiyamət günü onlara kömək edilməyəcəkdir".**[5]

"Bu dünyada onları lənətə düçar etdik. Qiyamət günü isə onlar *Allahın rəhmətindən* qovulmuş kimsələrdən olacaqlar".[6]

---

[1] "əl-Maidə" surəsi, 54.
[2] "əl-Mumtəhinə" surəsi, 1.
[3] "əl-Maidə" surəsi, 51.
[4] "əl-Bəqərə" surəsi, 120.
[5] "əl-Qasas" surəsi, 41.
[6] "əl-Qasas" surəsi, 42.

İzzət və cəlal sahibi Allah bu qövmü vəsf edərək: **"möminlərə qarşı mülayim"** buyurur ki, əsas məqam da elə burasıdır.

Müəllifin qeyd etdiyi üçüncü ayədə Uca Allah buyurur: **"Muhəmməd Allahın Elçisidir. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər".**[1]

"Muhəmməd Allahın Elçisidir" – bu, Peyğəmbərin vəsfidir.

"**Onunla birlikdə olanlar...",** yəni onun səhabələri.

"kafirlərə qarşı sərt", yəni kafirlərlə sərt davranar, onlara güzəşt etməzlər, onlarla dostluq etməz, onlarla mərhəmətlə davranmazlar.

"öz aralarında isə mərhəmətlidirlər". Bir-birilərinə qarşı rəhmli olar, yumşaq davranar, şəfqətli olarlar. Möminlərin halı belədir.

Bunun əksi isə imanın zəifliyidir ki, bu zaman o mömin qardaşlarına qarşı rəhmli olmur. Bu onun imanının naqisliyinə dəlalət edir. Hətta ola bilsin ki, ümumiyyətlə mərhəmətdən məhrum olsun. Çünki rəhm etməyənə rəhm olunmaz. Allah qorusun! Bu həm də insanların bir-birilərinə nifrət bəsləməsindəndir. Çalışın aranızda nifrətə səbəb ola biləcək bütün əməllərdən qurtulasınız. Axı siz müsəlmansınız.

Bəzi insanlar dünya naminə qardaşına nifrət edir – ya mal-dövlətə, ya da onunla gülərüz danışmadığına görə belə edir. Axı siz qardaşsınız.

Uca Allahdan diləyirəm ki, sizləri və bizləri xeyr və islah olan əməllərə müvəffəq etsin.

١٥٦٧– وعنْ أنسٍ ﷺ أنَّ النبيَّ ﷺ قال: « لا تَباغَضُوا، ولا تحاسدُوا، ولاَ تَدابَرُوا، ولا تَقَاطعُوا، وَكُونُوا عِبادَ اللَّهِ إخواناً، ولا يَحِلُّ لِمُسْلِمٍ أنْ يهْجُرَ أخَاه فَوقَ ثلاثٍ »متفقٌ عليه.

1567. Ənəsdən ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Bir-birinizə nifrət etməyin, bir-birinizə həsəd aparmayın, bir-birinizə arxa çevirməyin, *əlaqələrinizi* kəsməyin. Ey Allahın qulları, qardaş olun! Heç bir müsəlmana başqa bir müsəlmanı üç gündən artıq tərk etməsi halal deyildir".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

---

[1] "əl-Fəth" surəsi, 29.

[2] "Səhih əl-Buxari", 5605; "Səhih Muslim", 4641.

Şərh:

Müəllif ﵀ insanların bir-birinə nifrət bəsləmələrinin və arxa çevirmələrinin qadağan edilməsinə dəlalət edən ayələri zikr etdikdən sonra bəzi hədisləri qeyd edir. Onlardan birində Ənəsdən rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Bir-birinizə nifrət etməyin, bir-birinizə həsəd aparmayın, bir-birinizə arxa çevirməyin, *əlaqələrinizi* kəsməyin. Ey Allahın qulları, qardaş olun! Heç bir müsəlmana başqa bir müsəlmanı üç gündən artıq tərk etməsi halal deyildir"**.

Bu sözlərlə Peyğəmbər ﷺ dörd əməli qadağan edir:

Birinci: Rəsulullah ﷺ insanların bir-birilərinə nifrət etmələrini qadağan etmişdir. Bir insana qarşı qəlbində nifrət yaranarsa, çalış həmin nifrəti aradan qaldırasan. Onun yaxşı cəhətlərinə nəzər sal, pis cəhətlərini isə sil. Peyğəmbər ﷺ bunu tövsiyə edərək demişdir: **"Bir mömin başqa bir mömin qadına (yəni öz həyat yoldaşına) nifrət etməsin**. **Bir cəhətindən xoşlanmırsa, başqa cəhətləri xoşuna gələr".**[1]

Bu, yaxşı cəhətlərlə pis cəhətlər arasında bir müqayisədir. Bəziləri – Allah qorusun – yalnız pis cəhətlərə baxır, ona görə hökm verir, yaxşı cəhətləri isə unudurlar. Digər insanlar isə yalnız yaxşı cəhətlərə baxır, pis cəhətləri isə unudur. Ədalət isə budur ki, insan bu iki şeyi nəzərə alsın, bağışlasın, əfv etsin. Uca Allah insanları əfv edənləri sevir. Qəlbində hər hansı insana qarşı nifrət yarandıqda çalış həmin nifrəti aradan qaldırasan. Nəfsini hesaba çək. Ola bilsin ki, sənin onun arasında nə isə bir anlaşılmazlıq var. O isə fəzilətli və yaxşı bir adamdır, insanlara yaxşılıq edir, xeyirli işlər görür və buna mal sərf edir. Bu yaxşılıqları xatırla ki, sənə etdiyi pis rəftar yaxşılıqların qarşısında çıxıb getsin.

İkinci: Rəsulullah ﷺ möminlərin bir-birinə həsəd aparmasını da qadağan etmişdir.

Üçüncü: Rəsulullah ﷺ möminlərin bir-birinə arxa çevirməsini də qadağan etmişdir. Bu barədə bir qədər öncə danışmışıq.[2]

Dördüncü: Bir-birinizlə əlaqəni kəsməyin. Yəni heç kim öz qardaşı ilə əlaqəni kəsməsin. Əksinə, onunla səbəbinə uyğun olaraq əlaqə yaratsın. Çünki, yaxınla yaxınlığına görə əlaqə yaradırsan, qonşu ilə qonşuluğuna

[1] "Səhih Muslim", 2672.

[2] Bax: səh. 215.

görə, dost ilə dostluğuna görə. Ona görə də çalış qardaşınla əlaqə yaradasan. Şübhəsiz ki, Uca Allah qohumları ilə əlaqə yaradanları sevir. İnsanın öz qardaşını üç gündən artıq tərk etməsi halal deyildir.

İnsanı tərk etmək onunla əlaqəni kəsməkdir. Görüşdükdə salam verməmək haramdır. Peyğəmbər ﷺ yalnız üç gün ərzində küsülü qalmağa rüxsət vermişdir. Ola bilsin, insanın qəlbində nə isə olsun. Bu zaman üç gün müddətinə onu tərk edə bilər. Üç gündən sonra isə görüşdükdə salam verməməsi caiz deyil. Yalnız həmin adamın günah iş görməsi halı istisnadır. Əgər onu tərk etməsilə o, həmin günahı tərk edəcəksə, bu zaman onu tərk etmək məsləhətdir. Peyğəmbərin ﷺ Təbuk döyüşündən yayınan üç nəfəri tərk etdiyi kimi.

Digər hallarda isə əslən tərk etmək haramdır. Bəzi alimlərin asi adamın ümumən tərk olunmasını demələri məsələsinə gəlincə isə bu məsələyə baxmaq lazımdır. Bizim rəyimizə görə üç gün müddətinə tərk etmək halaldır. Məsləhət halı istisna üç gündən artıq tərk etmək isə haramdır. Müvəffəq edən Allahdır.

١٥٦٨– وعنْ أبي هُرَيْرَةَ رضي الله عنه أنَّ رَسُولَ اللَّه ﷺ قال: « تُفْتَحُ أبْوابُ الجَنَّةِ يَوْمَ الاثنَيْنِ ويَوْمَ الخَمِيس، فَيُغْفَرُ لِكُلِّ عبْدٍ لا يُشْرِكُ بِاللَّهِ شَيئاً، إلاَّ رجُلاً كانَت بيْنهُ وبَيْنَ أخيهِ شَحْناءُ فيقالُ: أنْظِرُوا هذيْنِ حتَّى يصطَلِحا، أنْظِرُوا هذَيْنِ حتَّى يَصطَلِحا، » رواه مسلم.

وفي روايةٍ له: « تُعْرَضُ الأعْمالُ في كُلِّ يومِ خَميسٍ وَاثنَيْنِ » وذَكَر نحْوَهُ.

1568. Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Bazar ertəsi və cümə axşamı günləri Cənnətin qapıları açılır və Allaha şərik qoşmayan hər bir qulun günahları bağışlanır. Yalnız qardaşı ilə düşmənçilik etmiş kəs istisnadır. *Onlar üçün* deyilər: – Bunlar barışanadək onları tərk edin. Bunlar barışanadək onları tərk edin".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Muslimin başqa bir rəvayətində isə deyilir: **"Hər cümə axşamı və bazar ertəsi günləri əməllər ərz olunur".** Sonra da hədis eyni sözlərlə nəql edilir.

[1] "Səhih Muslim", 4652.

Şərh:

Müəllif ﷺ bu hədisi "Nifrət etmə, əlaqələri kəsmə və [qardaşına] arxa çevirmənin qadağan olması" fəslində qeyd etmişdir. Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Bazar ertəsi və cümə axşamı günləri Cənnətin qapıları açılır və Allaha şərik qoşmayan hər bir qulun günahları bağışlanır. Yalnız qardaşı ilə düşmənçilik etmiş kəs istisnadır. *Onlar üçün* deyilər: – Bunlar barışanadək onları tərk edin. Bunlar barışanadək onları tərk edin".** Başqa bir rəvayət isə: **"Hər cümə axşamı və bazar ertəsi günləri əməllər ərz olunur"** sözləri ilə başlayır.

Bu da dəlildir ki, insan özü ilə qardaşları arasında kin-küdurətin aradan qaldırılmasına səy göstərməlidir. Hətta öz nəfsində kinin aradan qaldırılmasında çətinlik görsə, bu zaman səbir etsin və onun aqibətini düşünsün. İnsan bir əməlin nə qədər savaba və necə böyük əcrə səbəb olduğunu gördükdə işi asanlaşır. Əməlin necə böyük əzaba səbəb olduğunu bildikdə də işi asanlaşır. İnsan nifrət bəslədiyi adamın yanına gedərək ona birbaşa: "gəl, aramızdakı bu ədavətə son qoyaq" deyə bilmirsə, o zaman ikisinin arasını düzəldə biləcək və hər ikisinin inandığı etibarlı bir vasitəçi tuta bilər. O da gedib həmin adama deməlidir ki, sənlə filankəsin arasında inciklik var, siz bu incikliyi aradan qaldırsanız yaxşı olar. Müvəffəq edən Allahdır.

İki yüz yetmişinci fəsil

Həsədin haram olması

Bu da birisindən dini və ya dünyavi nemətin götürülməsini təmənna etməkdir.

Mövzu ilə əlaqəli ayə:
Uca Allah belə buyurur:

﴿ أَمۡ يَحۡسُدُونَ ٱلنَّاسَ عَلَىٰ مَآ ءَاتَىٰهُمُ ٱللَّهُ مِن فَضۡلِهِۦ ﴾

"Yoxsa onlar Allahın Öz lütfündən insanlara verdiyi şeyə görə onlara həsəd aparırlar?"[1]

Mövzu ilə əlaqəli hədislər:
Bu mövzuya əvvəlki fəsildə Ənəsdən nəql olunmuş hədis də aiddir.[2]

١٥٦٩– وعَنْ أبي هُرَيرة رضي الله عنه أنَّ النبيَّ ﷺ قالَ: « إيَّاكُمْ والحسدَ، فإنَّ الحسدَ يأكُلُ الحسناتِ كَما تَأْكُلُ النَّارُ الحطبَ، أوْ قال العُشْبَ » رواه أبو داود .

1569. Əbu Hureyradan رضي الله عنه nəql olunan hədisdə Rəsulullah ﷺ demişdir: **"Həsəd etməkdən çəkinin. Çünki od oduncağı – və ya otu – yediyi kimi, həsəd də savabları yeyir"**.
Hədisi Əbu Davud rəvayət etmişdir.[3]

Şərh:
Müəllif رحمه الله **"Həsədin haram olması"** fəslini qeyd edir.
Həsəd, Allahın bir adama bəxş etdiyi elm, mal-dövlət, ailə, şöhrət və digər nemətlərə nifrət bəsləməkdir. Bu böyük günahlardan və yəhudilərin xüsusiyyətlərindəndir. Allah qorusun! Uca Allah onlar barəsində belə buyurur: **"Kitab əhlindən bir çoxu həqiqət özlərinə bəlli olduqdan sonra,**

[1] "ən-Nisa" surəsi, 54.
[2] Bax: 1567 saylı hədis.
[3] "Sunən Əbu Davud", 4257.

içlərindəki həsəd üzündən sizi imanınızdan sonra kafirliyə qaytarmaq istərlər".[1]

O həmçinin buyurur: **"Yoxsa onlar Allahın Öz lütfündən insanlara verdiyi şeyə görə onlara həsəd aparırlar?"** – yəni Öz fəzilətindən – **"Biz İbrahim nəslinə Kitab və hikmət bəxş etmiş və onlara böyük bir səltənət vermişdik".** [2]

Peyğəmbər ﷺ insanları həsəddən çəkindirmiş və bildirmişdir ki, od odunu və ya samanı yandırdığı kimi, həsəd də savabları məhv edir.

Həsəd həm də Allahın qəza və qədərinə etirazdır. Çünki həsəd edən, Allahın qəza və qədərinə narazılıq edir. Belə ki, o, Allahın həmin adama mal-dövlət, ailə və ya elm bəxş etməsindən narazıdır ki, bu da onun Allahın qəza və qədərinə etirazı olur.

Həsəd, Allah qorusun, qəlbdə bir od parçasıdır. Hər dəfə Allah öz bəndəsinə nemət bəxş edəndə, həmin od qəlbdə yenidən alovlanır. Belə adamlar hər zaman qəm-qüssə içərisində olurlar.

Həsəd Allahın nemət bəxş etdiyi başqasına qarşı hətta ədavətə və düşmənçiliyə də səbəb olur. Ola bilsin, onu nüfuzdan salmaq üçün onun barəsində danışmış da olsun. Dediyi doğru da olsa, yalan da olsa, əsas odur ki, həmin adama həsəd aparır. Bəlkə də müsəlman qardaşına həsəd aparması düşmənçiliyə gətirib çıxarsın.

Ancaq həsəd Allahın insana nemət bəxş etməsinin qarşısını almır. Nə qədər həsəd etsən də, nə qədər istəsən də Allahın qədərinin qarşısını ala bilməyəcəksən. Peyğəmbər ﷺ Abdullah ibn Abbasa رضي الله عنهما belə demişdir: **"Bil ki, ümmət bir araya gəlib sənə zərər toxundurmaq istəsə, Allahın sənə yazdığından savayı heç bir şeylə sənə ziyan verə bilməyəcək".**[3] Yəni, bunun xaricində sənə zərər toxundura bilməyəcəklər.

İnsan nəfsinin kiməsə qarşı həsəd apardığını görsə Allahdan qorxsun və nəfsini qınasın. Öz nəfsinə desin ki, Allahın ona bəxş etdiyi nemətə nə üçün həsəd aparırsan? Allahın öz bəndələrinə bəxş etdiyi nemətlərə nə üçün nifrət edirsən? Əgər həmin nemət səndə olsaydı, başqalarının sənə

---

[1] "əl-Bəqərə" surəsi, 109.

[2] "ən-Nisa" surəsi, 54.

[3] Hədisi Əhməd (1/293) və Tirmizi (2440) rəvayət etmişlər.

həsəd aparmasına razı olardınmı? Axı sən nə qədər həsəd aparsan da, nifrət bəsləsən də, bu, Allahın həmin adama bəxş etdiyi nemətin qarşısını ala bilməyəcək. Əksinə, bu, həsəd edənə zərər verəcəkdir. Bu minvalla öz nəfsini tərbiyələndirməlidir ki, həsəddən qurtulsun. Bu zaman onun qəlbi rahatlanacaq və kədərlənməyəcəkdir.

Allahım, bizləri ən gözəl əxlaqi keyfiyyətlərə və əməllərə hidayət et. Heç şübhəsiz, ən gözəl əxlaq və əməllərə yönəldən yalnız Sənsən. Bizləri pis əxlaqdan uzaq et. Heç şübhəsiz, pis əxlaqdan uzaqlaşdıran da yalnız Sənsən.

İki yüz yetmiş birinci fəsil

Cəsusluğun və başqalarının gizli söhbətlərinə qulaq asmağın haram olması

Mövzu ilə əlaqəli ayələr:
Uca Allah buyurur:

﴿ وَلَا تَجَسَّسُواْ ﴾

"Cəsusluq etməyin".[1]

﴿ وَٱلَّذِينَ يُؤْذُونَ ٱلْمُؤْمِنِينَ وَٱلْمُؤْمِنَٰتِ بِغَيْرِ مَا ٱكْتَسَبُواْ فَقَدِ ٱحْتَمَلُواْ بُهْتَٰنًا وَإِثْمًا مُّبِينًا ﴾

"Mömin kişiləri və mömin qadınları etmədikləri bir işdən ötrü günahlandıranlar, sözsüz ki, öz üzərilərinə böhtanla bərabər açıq-aydın ağır bir yük götürmüşlər".[2]

Mövzu ilə əlaqəli hədislər:

١٥٧٠– وعنْ أبي هُريْرةَ ﷺ أنَّ رسُول اللَّه ﷺ قال: « إيَّاكُمْ والظَّنَّ، فإن الظَّنَّ أكذبُ الحدِيثَ، ولا تحَسَّسُوا، ولا تَجسَّسُوا ولا تنافَسُوا ولا تحَاسَدُوا، ولا تَباغَضُوا، ولا تَدابَرُوُا، وكُونُوا عِباد اللَّهِ إخْواناً كَما أمركُمْ. المُسْلِمُ أخُو المُسْلِمِ، لا يظلِمُهُ، ولا يخذُلُهُ ولا يحْقرُهُ، التَّقوى هٰهُنا، التَّقوَى هٰهُنا » ويُشير إلى صَدْرِه « بِحَسبِ امريءٍ مِن الشَّرّ أن يحْقِر أخاهُ المسِلم، كُلُّ المُسلمِ على المُسْلِمِ حرَامٌ: دمُهُ، وعِرْضُهُ، ومَالُه، إنَّ اللَّه لا يَنْظُرُ إلى أجْسادِكُمْ، وَلا إلى صُوَرِكُمْ، وأعمالكم ولكنْ يَنْظُرُ إلى قُلُوبِكُمْ».

وفي رواية: « لا تَحاسَدُوا، وَلا تَبَاغَضُوا، وَلا تَجَسَّسُوا ولا تحَسَّسُوا ولا تَنَاجشُوا وكُونُوا عِبَادَ اللَّهِ إخْوَاناً ».

وفي روايةٍ: « لا تَقَاطَعُوا، وَلا تَدَابَرُوا، وَلا تَبَاغَضُوا ولا تحَاسدُوا، وَكُونُوا عِبَادَ اللَّهِ إخْوَاناً ».

---

[1] "əl-Hücurat" surəsi, 12.

[2] "əl-Əhzab" surəsi, 58.

وفي رواية: « لا تَهَاجَروا وَلا يَبِعْ بَعْضُكُمِ على بيع بَعْضٍ ».
رواه مسلم: بكلِّ هذه الروايات، وروى البخاري أكثَرَها.

1570. Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Zənn etməkdən uzaq olun, şübhəsiz ki, zənn ən yalan söhbətdir. Bir-birinizi güdməyin, bir-birinizə qarşı casusluq etməyin, bir-birinizlə bəhs etməyin, bir-birinizə həsəd aparmayın, bir-birinizə nifrət etməyin, bir-birinizə arxa çevirməyin. Ey Allahın qulları, Onun sizə əmr etdiyi kimi qardaş olun. Müsəlman müsəlmanın qardaşıdır – ona zülm etməz, onu alçaltmaz. Təqva buradadır [deyib əli ilə sinəsinə işarə etdi]. Adamın öz müsəlman qardaşını alçaltmasının şəri onun üçün yetər. Hər bir müsəlman digər müsəlman üçün toxunulmazdır – qanı da, namusu da, malı da. Şübhəsiz ki, Allah sizin bədənlərinizə və surətlərinizə baxmaz, qəlblərinizə baxar".**[1]

Başqa rəvayətdə isə deyilir: **"Bir-birinizə həsəd aparmayın, bir-birinizə nifrət etməyin, bir-birinizə qarşı casusluq etməyin, bir-birinizi güdməyin, bir-birinizə hiylə gəlməyin. Ey Allahın qulları, qardaş olun!"**[2]

Digər bir rəvayətdə deyilir: **"Bir-birinizlə əlaqəni kəsməyin, bir-birinizə arxa çevirməyin, bir-birinizə nifrət etməyin, bir-birinizə həsəd aparmayın. Ey Allahın qulları, qardaş olun!"**

Başqa bir rəvayətdə isə deyilir: **"Bir-birinizi tərk etməyin, bir-birinizin ticarəti üstünə ticarət etməyin".**[3]

Hədisi bütün bu rəvayətlərlə Muslim rəvayət etmişdir. Bir çox rəvayətləri Buxari də rəvayət etmişdir.[4]

Şərh:

Müəllif ﷺ **"Casusluğun və başqalarının gizli söhbətlərinə qulaq asmağın haram olması"** fəslini qeyd edir.

Casusluq, bir insanın qardaşının gizlinlərinə baxmasıdır. Bu həm birbaşa ola bilər, – yəni özü hər hansı bir ayıb axtarır, həm də müasir texniki

[1] "Səhih Muslim", 4650.
[2] "Səhih Muslim", 4648.
[3] "Səhih Muslim", 4647.
[4] "Səhih əl-Buxari", 4747, 5604, 2006.

vasitələrlə, məsələn, səsini qeyd etməklə ola bilər. Telefon vasitəsilə də bu mümkündür.

İstənilən halda, insanı öz qardaşının gizlinlərinə və ayıblarına aparan yol cəsusluq adlanır ki, bu da haramdır. Nöqsansız və Uca Allah buyurur: "**Ey iman gətirənlər, zənnə çox qapılmayın. Çünki zənn edilənlərin bir qismi günahdır. Bir-birinizi güdməyin".**[1] Bu sözlərlə Uca Allah cəsusluq etməyi qadağan etmişdir.

Cəsusluq müsəlman qardaşına əziyyət hesab olunduğu üçün müəllif Uca Allahın bu ayəsini də qeyd etmişdir: **"Mömin kişiləri və mömin qadınları etmədikləri bir işdən ötrü günahlandıranlar, sözsüz ki, öz üzərilərinə böhtanla bərabər açıq-aydın ağır bir yük götürmüşlər".**[2]

Cəsusluq əziyyət verməkdir. Güdülən kəs bununla əziyyət çəkir və bu nifrətə və düşmənçiliyə gətirib çıxarır. Bununla da cəsus özünü lazım olmayan şeylərlə yükləmiş olur. Görürsən ki, Allah qorusun, bir gün buradadır, bir gün orada, bir gün bunu güdür, bir gün onu. Beləcə Allahın qullarına əziyyət verməklə özünü yorur. Allah qorusun. Evlərdə cəsusluq etmək də buna aiddir. Qapının yanında dayanaraq məclislərdə nə danışıldığına qulaq asır, sonra da buna yalançı zənn və əsassız ittihamları əlavə edir.

Sonra müəllif ﵀ Əbu Hureyradan ﵁ nəql olunmuş hədisi müxtəlif rəvayətləri ilə qeyd edir. Həmin rəvayətlərin bir çoxu qeyd olunmuşdur. Lakin vurğulamaq istədiyimiz məqam: **"Zənn etməkdən uzaq olun. Şübhəsiz ki, zənn ən yalan söhbətdir"**– sözləridir ki, bu da Uca Allahın aşağıdakı ayəsinə müvafiqdir: "**Ey iman gətirənlər, zənnə çox qapılmayın".**[3]

Bu ayədə Uca Allah: **"Zənnə çox qapılmayın"** buyurur, ancaq "bütün zənlərdən" demir. Çünki əsasları olan zənni etməkdə bir qəbahət yoxdur. Bu da insanın təbiətindəndir ki, güclü əsaslar əldə etdikdə insan yaxşı və ya pis zənn etmiş olur. Əsas odur ki, həmin əsaslara söykənsin. Bunda bir problem yoxdur. Mücərrəd zənni isə Peyğəmbərimiz ﷺ qadağan etmiş və demişdir: **"Şübhəsiz ki, zənn ən yalan söhbətdir"**. Çünki insan zənn etdikdə özü ilə danışmağa başlayır. Deyir ki, filankəs belə etdi, belə edir, belə etmək istəyir. Bu da Peyğəmbərin ﷺ dediyi kimi, ən yalan söhbətdir.

---

[1] "əl-Hücurat" surəsi, 12.

[2] "əl-Əhzab" surəsi, 58.

[3] "əl-Hücurat" surəsi, 12.

Hədisdə hələ şərh etmədiyimiz bu sözlər də vardır: **"Ey Allahın qulları, Onun sizə əmr etdiyi kimi qardaş olun!"** Yəni insan qardaşına gərək sözün həqiqi mənasında qardaş olsun, ona düşmən olmasın. Bəzi insanlar qardaşı ilə aralarında hər hansı bir hadisə baş verdikdə pis zənnə qapılır və onu düşmən sayır. Bu caiz deyildir. Gərək insan qardaşına sevməklə, onunla yumşaq davranmaqla, pislik etməməklə, onun namusunu müdafiə etməklə və başqa bu kimi məsələlərdə qardaş olsun.

Hədisdəki: **"Müsəlman müsəlmanın qardaşıdır – ona zülm etməz, onu alçaltmaz"** sözü barədə danışmışdıq.

Sonra o, köksünə (ürəyinə) işarə edərək: **"Təqva buradadır"** dedi.

Qəlb qorxarsa, əzalar da qorxar. Peyğəmbər ﷺ demişdir: **"O düzələrsə, bütün bədən düzələr"**.[1] Əlbəttə ki, söhbət qəlbdən gedir. Bəzi insanlara nəyisə qadağan edərək deyirsən ki, "saqqal saxla, saqqalı qırxmaqla haram iş görürsən", o da sənə deyir ki: "Təqva buradadır". Ona deyirik: "Təqva haradadır? Oradakı təqvalı olsaydı, bu da təqvalı olardı". Yəni qəlb qorxarsa, bədən üzvləri də təqvalı olar.

Bəziləri də libasını topuqdan aşağı geyinir. Ona nəsihət etdikdə sənə deyir ki: "Təqva buradadır". Ona deyirik: "Təqva haradadır? Əgər sənin qəlbində təqva olsaydı, Uca Allahdan həm sözlərində, həm də əməllərində qorxardın. Çünki **"O düzələrsə, bütün bədən düzələr"**.

Bəzi insanlar isə, Allah qorusun, haqqa qarşı gələrək batillə mücadilə edənlər kimi, batilcəsinə mübahisə edirlər. Buna rəğmən, bəsirəti olan hər kəsə onların nahaqq mübahisə etmələri bəlli olur.

Müəllifin ﷺ qeyd etdiyi bu hədisə insanlar gərək daim riayət etsinlər, həyatlarını onun üzərində qursunlar. Bu hədis bir çox pis əxlaqi keyfiyyətləri də açıqlayır ki, insan onlardan da uzaq olarsa, böyük xeyirə nail olar. Müvəffəq edən Allahdır.

١٥٧١– وعَنْ مُعَاوِيَةَ ﷺ قالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: « إِنَّكَ إِن اتَّبعْتَ عَوْراتِ المُسْلِمينَ أفسَدْتَهُمْ، أوْ كِدْتَ أنْ تُفسِدَهُمَ » حديثٌ صحيح.

رواهُ أبو داود بإسناد صحيح.

[1] "Səhih əl-Buxari", 50; "Səhih Muslim", 2996.

1571. Rəvayət olunur ki, Müaviyə ﷺ demişdir: "Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Əgər sən müsəlmanların övrətlərini güdərsənsə, fəsad yaratmış olarsan, ya da fəsada yaxınlaşmış olarsan"**.

Səhih hədisdir. Onu Əbu Davud səhih isnadla rəvayət etmişdir.[1]

١٥٧٢– وعنِ ابنِ مسعودٍ ﷺ أَنَّهُ أُتِيَ بِرَجُلٍ فَقيلَ لَهُ: هذَا فُلانٌ تَقْطُرُ لِحْيَتُهُ خَمراً، فقالَ: إنَّا قَدْ نُهينَا عنِ التَّجَسُّسِ، ولكِنْ إن يظهَرْ لَنَا شَيءٌ، نَأخُذْ بِهِ، حَديثٌ حَسَنٌ صحيحٌ.

رواه أبو داود بإسْنادٍ عَلى شَرْطِ البخاري ومسلمٍ.

1572. İbn Məsud ﷺ rəvayət edir ki, bir dəfə onun yanına bir kişi gətirdilər və dedilər: "Bu filankəsdir, saqqalından şərab damcılayır. O dedi: "Bizə cəsusluq etmək qadağan olunub. Əgər zahirdə bir şey görmüş olsaq, onu götürərik".

Hədis həsən səhihdir. Onu Əbu Davud Buxari və Muslimin şərtinə əsasən rəvayət etmişdir.[2]

Şərh:

Bu hədisdə də bəyan olunur ki, insan gərək müsəlman qardaşlarına qarşı cəsusluq etməsin, onların gizlinlərini araşdırmasın. Əksinə, onların zahiri ilə ona layiq şəkildə müamilə etsin. Zahirdə olmayan məsələlər barəsində isə cəsusluq etmək olmaz. Necə ki, Müaviyədən nəql olunmuş hədisdə qeyd olunur ki; insan müsəlmanların gizlinlərini araşdırarsa, bu onu həlak edər, yaxud da həlakın bir addımlığında olar. Çünki bir çox məsələlər insanla Rəbbi arasında baş verir. Allahdan başqa heç kim onları bilmir. Əgər o, bu barədə kiməsə xəbər vermədən tövbə edib halını düzəldərsə, sonra da başqalarının gizlinlərini araşdırmazsa, izzət və cəlal sahibi Allah həmin əməli gizlin saxlayar. Lakin, Allah qorusun, insan başqalarının gizlinlərini araşdırarsa, "filankəs nə dedi, filankəs nə etdi", ona müsəlmanlardan bir xəbər verildikdə gedib ona qarşı cəsusluq edərsə, bu zaman ya açıq şəkildə bunu demiş olur, ya da buna eyham vurur. Məsələn, deyir ki, "filankəs belə dedi, belə etdi", bununla da onun ayıblarını başqalarına yayır. Peyğəmbər ﷺ isə hədisdə buyurur ki: **"Ey dili ilə iman gətirib**

[1] "Sunən Əbu Davud", 4244.

[2] "Sunən Əbu Davud", 4246.

qəlbinə iman daxil olmamış kəslər, müsəlmanların qeybətini etməyin, onları izləməyin. Kim onların gizlinlərini izləyərsə, Allah da onun gizlinlərini izləyər. Allah da kimin gizlinlərini izləyərsə, o adam evində olsa belə, onu ifşa edər".[1] Allah qorusun. Bu onun etdiyi əmələ görədir.

Müsəlmanların gizlinlərini araşdıran kəs onu ifşa etmək istədiyi kimi, izzət və cəlal sahibi Allah da onun gizlinlərini aşkara çıxararaq onu ifşa edir. Bunun qarşısını isə o əsla ala bilməz. Allah qorusun!

İbn Məsudun رضي الله عنه hədisində isə deyilir ki, bir dəfə onun yanına bir kişi gətirdilər və ona dedilər ki, "Bu filankəsdir. Bax, saqqalından şərab damcılayır".

Həmin adam şərabı gizlində içsə də, cəsusluq edərək bunu öyrənmişdilər. İbn Məsud bəyan etdi ki, kimsə gizlinini *özü* aşkara çıxarıbsa, biz onu əsas götürürik. Kimsə bunu gizlədirsə, Allah da onun bu əməlini gizlədir, biz də onu götürmürük. Bu da dəlildir ki, cəsusluq etmək olmaz.

[1] "Sunən Əbu Davud", 4236.

İki yüz yetmiş ikinci fəsil

Zərurət olmadan müsəlmanlar barədə pis zəndə olmağın qadağan olunması

Mövzu ilə əlaqəli ayə:
Uca Allah buyurur:

﴿ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ ٱجۡتَنِبُواْ كَثِيرٗا مِّنَ ٱلظَّنِّ إِنَّ بَعۡضَ ٱلظَّنِّ إِثۡمٞ ﴾

“Ey iman gətirənlər, zənnə çox qapılmayın. Çünki zənn edilənlərin bir qismi günahdır”.[1]

Mövzu ilə əlaqəli hədis:

١٥٧٣– وعنْ أبي هُرَيرةَ رضي الله عنه أنَّ رَسُول الله ﷺ قال: « إيَّاكُمْ وَالظَّنَّ، فإنَّ الظَّنَّ أكذَبُ الحَدِيثِ » متفقٌ عليه.

1573. Əbu Hureyradan رضي الله عنه rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **“Zənn etməkdən çəkinin, çünki zənn ən yalan söhbətdir”**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Şərh:

Uca Allahın: **“Ey iman gətirənlər, zənnə çox qapılmayın. Çünki zənn edilənlərin bir qismi günahdır”** ayəsini bir qədər əvvəl şərh etmişik.[3]

Əbu Hureyradan رضي الله عنه nəql olunmuş hədis barəsində daha öncə söhbət açmışdıq.[4] O hədisdə Peyğəmbər ﷺ demişdir: **“Zənn etməkdən çəkinin, çünki zənn ən yalan söhbətdir”**. Müvəffəq edən Allahdır.

---

[1] “əl-Hücurat” surəsi, 12.

[2] “Səhih əl-Buxari”, 4747; “Səhih Muslim”, 4646.

[3] Bax: səh.229.

[4] Bax: səh.229.

İki yüz yetmiş üçüncü fəsil

Müsəlmanları aşağılamağın haram olması

Mövzu ilə əlaqəli ayələr:
Uca Allah buyurur:

﴿ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ لَا يَسۡخَرۡ قَوۡمٞ مِّن قَوۡمٍ عَسَىٰٓ أَن يَكُونُواْ خَيۡرٗا مِّنۡهُمۡ وَلَا نِسَآءٞ مِّن نِّسَآءٍ عَسَىٰٓ أَن يَكُنَّ خَيۡرٗا مِّنۡهُنَّۖ وَلَا تَلۡمِزُوٓاْ أَنفُسَكُمۡ وَلَا تَنَابَزُواْ بِٱلۡأَلۡقَٰبِۖ بِئۡسَ ٱلِٱسۡمُ ٱلۡفُسُوقُ بَعۡدَ ٱلۡإِيمَٰنِۚ وَمَن لَّمۡ يَتُبۡ فَأُوْلَٰٓئِكَ هُمُ ٱلظَّٰلِمُونَ ﴾

"Ey iman gətirənlər, bir camaat digərini məsxərəyə qoymasın – ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Qadınlar da qadınları *lağa qoymasınlar* – ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Bir-birinizə tənə vurmayın və bir-birinizi pis ləqəblərlə çağırmayın. İman gətirdikdən sonra fasiq adlanmaq necə də pisdir. Məhz tövbə etməyənlər zalımlardır".[1]

﴿ وَيۡلٞ لِّكُلِّ هُمَزَةٖ لُّمَزَةٍ ﴾

"Hər bir qeybət edənin, tənə vuranın vay halına!"[2]

Şərh:
Müəllif ﵀ **"Müsəlmanları aşağılamağın haram olması"** fəslini qeyd etmişdir.

Müsəlmanı aşağılamaq dedikdə onu alçaltmaq, ona istehza etmək və lağa qoymaq, qədərini aşağılamaq və buna bənzər əməllər nəzərdə tutulur. Bu, ehtiram göstərməli və təqdir etməli olduğun müsəlman qardaşına qarşı ədavət olduğu üçün haram hesab olunur. Çünki o, sənin qardaşındır. Peyğəmbərin ﷺ dediyi kimi: **"Mömin möminin qardaşıdır".**[3]

Sonra müəllif Uca Allahın aşağıdakı ayəsini dəlil gətirir: **"Ey iman gətirənlər, bir camaat digərini məsxərəyə qoymasın – ola bilər ki, bunlar**

---

[1] "əl-Hücurat" surəsi, 11.
[2] "əl-Huməzə" surəsi, 1.
[3] "Səhih Muslim", 2536.

onlardan daha yaxşı olsunlar. Qadınlar da qadınları *lağa qoymasınlar* – ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar".[1]

Uca Allah möminlərə xitab edərək: **"Ey iman gətirənlər"** buyurur.

Müraciətin möminlərə olması ona dəlalət edir ki, deyilənlər imana aiddir. Bunun olmaması isə imana müxalifdir və onun itirilməsi anlamındadır. Hökmün belə müraciətlə bildirilməsi həm də məsələnin vacibliyinə diqqət çəkir. Çünki müraciətdə məqsəd qarşı tərəfin diqqətini özünə cəlb etməkdir.

"**Bir camaat digərini məsxərəyə qoymasın".** Bu kişilərə aiddir.

"**Qadınlar da qadınları *lağa qoymasınlar*".** Bu isə qadınlara aiddir.

İstehza ola bilsin ki, insanın görünüşünə görə olsun. Məsələn, onun uzunboy, qısaboy, kök, arıq və bu kimi başqa xüsusiyyətlərinə görə. Ola da bilsin ki, birinin sözünə istehza edilsin və onun kəlamı təqlid edilməklə lağa qoyulsun. Bəzi səfehlər istehza edərək qariləri və alimləri təqlid edirlər. Allah qorusun! Yaxud ola bilsin, insan başqasının davranışına və ya yerişinə istehza etsin. Deməli, qardaşına istehza olan hər bir əməl bu ayəyə aiddir: **"Bir camaat digərini məsxərəyə qoymasın...; qadınlar da qadınları *lağa qoymasınlar*".**

İzzət və cəlal sahibi Allah bəyan edir ki, ola bilsin, istehza olunanlar istehza edənlərdən həm Allah yanında, həm də insanların yanında daha xeyirli olsunlar. Ona görə buyurur: **"Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar"** – bu, qövm barədədir. **"Ola bilər ki, bu qadınlar onlardan daha yaxşı olsunlar".** Bu isə qadınlara aiddir.

"Bir-birinizə tənə vurmayın". Yəni bir-birinizi ayıblamayın. Ayədə "özünü" deyilir. Halbuki məlum məsələdir ki, insan özü-özünü ayıblamaz. Lakin möminlər qardaş olduqları üçün qardaşı da özü kimidir. Odur ki: **"Bir-birinizə tənə vurmayın",** yəni qardaşlarınıza tənə vurmayın. "Özünə" demişdir ki, qardaşınla da özün kimi ol – özünə tənə olunmasını sevmədiyin kimi, qardaşının da tənə olunmasını sevməməlisən.

"Bir-birinizi pis ləqəblərlə çağırmayın". Yəni bir-birilərinizi lağa qoyaraq ləqəblərlə səsləməyin. Ola bilsin ki, birini mənsub olduğu qəbilənin adında olan gülməli ləqəblə çağırsın və adamı həmin sözə nisbət etsin. Bu da pis ləqəblə çağırmağa aiddir.

---

[1] "əl-Hücurat" surəsi, 11.

“İman gətirdikdən sonra fasiq adlanmaq necə də pisdir”. Yəni bunları edəcəksinizsə fasiq olacaqsınız. İnsan öz qardaşını ayıbladıqda, onu məsxərəyə qoyduqda, yaxud buna bənzər digər əməllər etdikdə fasiq olur. Bu da ona dəlalət edir ki, möminlərə istehza etmək, onlara tənə vurmaq, onları pis ləqəblərlə çağırmaq böyük günahlardandır.

“Məhz tövbə etməyənlər zalımlardır”. Yəni kim bu günahlara davam edər və izzət və cəlal sahibi Allaha tövbə etməzsə o, zalımlardandır.

Sonra müəllif dəlil olaraq başqa bir ayəni qeyd edir: **“Hər bir qeybət edənin, tənə vuranın vay halına!”**[1]

“Vay” sözü Qurani-Kərimdə bir neçə yerdə işlənmişdir və əzab mənasını daşıyır. Onların hamısı əzab vədi və bu əməlləri edənlərə təhdid anlamındadır.

“Hər bir qeybət edənin, tənə vuranın”, yəni işarə və sözlə, dili və bədən üzvləri ilə başqalarında ayıb tutan kəs. Bu adamların vay halına! Allah qorusun.

١٥٧٤– وعنْ أبي هُرَيرة ﷺ أنَّ رَسُولَ اللَّهِ ﷺ قالَ « بِحَسْبِ امْرِيءٍ مِنَ الشَّرِّ أن يحْقِرَ أخَاهُ المُسْلِمَ » رواه مسلم، وقد سبق قرِيباً بطوله.

1574. Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **“Adamın öz müsəlman qardaşını alçaltmasının şəri günah olaraq onun üçün yetər”.**

Bu Muslimin rəvayət etdiyi və bir qədər öncə gətirilən hədisdəndir.[2]

١٥٧٥– وعَن ابْنِ مسعُودٍ ﷺ، عن النبي ﷺ قالَ: « لا يَدْخُلُ الجَنَّةَ منْ كَانَ في قَلْبِهِ مِثْقَالُ ذَرَّةٍ مِنْ كِبْرٍ، » فَقَالَ رَجُلٌ: إنَّ الرَّجُلَ يُحِبُّ أنْ يَكُونَ ثَوْبُهُ حَسناً، ونَعْلُهُ حَسَنَةً، فقال: « إنَّ اللَّه جَمِيلٌ يُحِبُّ الجَمَال، الكِبْرُ بَطَرُ الحَقِّ، وغَمْطُ النَّاسِ » رواه مسلم.

وَمَعْنَى « بطر الحَقِّ »: دَفْعه، « وغَمْطُهُم »: احْتِقَارهُمْ، وقَدْ سَبَقَ بيانُهُ أوْضَح مِنْ هَذا في باب الكِبرِ.

[1] “əl-Huməzə” surəsi, 1.

[2] “Səhih Muslim”, 4650.

1575. İbn Məsuddan ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Qəlbində zərrə qədər təkəbbürlük olan kəs Cənnətə daxil olmayacaqdır".** Bir kişi dedi: "Axı insan gözəl libasda, gözəl ayaqqabıda olmağı xoşlayır". Dedi: **"Şübhəsiz ki, Allah gözəldir və gözəlliyi sevir, təkəbbürlük haqqı danmaq və insanları aşağılamaqdır".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

"Haqqı danmaq", yəni inkar etmək; "aşağılamaq", yəni alçaltmaq. "Təkəbbürlük" fəslində bunların izahı daha ətraflı təqdim olunmuşdur.

١٥٧٦– وعن جُنْدُبِ بن عبدِ اللَّه ﷺ قالَ: قالَ رسولُ اللَّه ﷺ: « قالَ رَجُلٌ: واللَّهِ لا يَغْفِرُ اللَّه لفُلانٍ، فَقَالَ اللَّه عَزَّ وَجَلَّ: مَنْ ذا الَّذِي يَتَأَلَّى عليَّ أنْ لا أغفِرَ لفُلانٍ إنِّي قَد غَفَرْتُ لَهُ، وَأَحْبَطْتُ عمَلَكَ » رواه مسلم.

1576. Cundub ibn Abdullahdan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: «**Bir kişi: "Allaha and olsun ki, Allah filankəsi bağışlamayacaq"– dedi, izzət və cəlal sahibi Allah da buyurdu: "Özünü Mənim yerimə qoyaraq filankəsi bağışlamayacağımı deyən kimdir? Mən onu bağışladım, sənin əməllərini isə puç etdim".**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

Şərh:

Bu hədislər müsəlmanı aşağılamağın haram olması barəsindədir.

Birinci hədisdə Əbu Hureyradan rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Adamın öz müsəlman qardaşını alçaltmasının şəri günah olaraq onun üçün yetər".**

"Yetər", yəni bəs edir. Yəni müsəlman qardaşını alçaltmağın şəri insana bəs edər. Bu da müsəlmanın alçaldılmasının nə qədər böyük günah və böyük bir şər əməl olduğunu göstərir. Əgər insan şər əməllərdən yalnız bunu edərsə, bu ona kifayət edər. Odur ki, müsəlman qardaşını nə onun yaradılışına, nə əyin-başına, nə danışığına, nə görkəminə, nə də başqa bir səbəbə görə alçaltma.

---

[1] "Səhih Muslim", 131.

[2] "Səhih Muslim", 4753.

Müsəlman qardaşının sənin üzərində haqqı böyükdür – gərək ona hörmət göstərəsən, ehtiram bəsləyəsən. Onu alçaltmaq isə haramdır. Onu alçaltmaq sənə də haramdır.

İbn Məsud və Cundəb ibn Abdullahdan nəql olunmuş hədislər də müsəlmanı aşağılamağın haram olmasına dəlildir. İbn Məsudun رضي الله عنه hədisində Peyğəmbər ﷺ hətta buyurur ki: **"Qəlbində zərrə qədər təkəbbürlük olan kəs Cənnətə daxil olmayacaqdır".** Soruşurlar ki: "Ey Allahın elçisi, axı insan gözəl libasda, gözəl ayaqqabıda olmağı xoşlayır". Səhabələr elə düşünürlər ki, insan gözəl libas, gözəl ayaqqabı geyinərsə, bu təkəbbürlük və lovğalıq hesab olunur. Peyğəmbər ﷺ də onlara belə olmadığını bildirir və buyurur ki: **"Şübhəsiz ki, Allah gözəldir və gözəlliyi sevir".**

Uca və Böyük Allah Özü də gözəldir, feilləri, sifətləri də gözəldir. O, gözəlliyi də, yəni gözəl olmağı da sevir. İnsan nə qədər özünü gözəlləşdirərsə, bir o qədər də Allaha xoş olar. Təbii ki, gözəllik onun imkanı daxilində olmalıdır. Yəni bu o demək deyil ki, kasıb birisi gedib özünü yükləyərək yeni libas və yeni ayaqqabı almalıdır. Əgər Allah ona imkan bəxş edibsə, o zaman özünü gözəlləşdirsin: **"Şübhəsiz ki, Uca Allah bəndəsinə bəxş etdiyi nemətini onun üzərində görməyi sevir"**.[1]

Cundəb ibn Abdullahdan nəql olunmuş hədisdə Peyğəmbər ﷺ bir kişinin belə dediyini xəbər vermişdir: **"Allaha and olsun ki, Allah filankəsi bağışlamayacaq"**.

Həmin adam da ibadət edən, lakin özünü bəyənən, günah iş görmüş qardaşını isə aşağılayan biri idi. O Allaha and içir ki, Allah həmin adamı bağışlamayacaq. İzzət və cəlal sahibi Allah isə buyurdu: "**Özünü Mənim yerimə qoyaraq filankəsi bağışlamayacağımı deyən kimdir?**" Yəni Mənə and içərək Mənim kimisə bağışlayıb-bağışlamayacağımı deyən kimdir?

Hər şey Allahın əlindədir və O, dilədiyinə istədiyini bəxş edir: **"Mən onu bağışladım, sənin əməllərini isə puç etdim"**. Allaha sığınırıq. Adam elə bir söz dedi ki, həm dünyasını məhv etdi, həm də axirətini. Çünki o, bu sözləri özünü bəyənərək, qardaşını isə aşağılayaraq demişdi ki, Allah onu bağışlamayacaqdır. Allah isə həmin adamı bağışladı, çünki onun etdiyi günah şirkdən aşağı səviyyədə idi. Ya da ola bilsin, Allah ona hidayət verdi, o da tövbə etdi. O biri adamın isə əməlləri puç oldu. Çünki o, öz

[1] "Sunən ət-Tirmizi", 2819.

əməli ilə qürrələnərək özünü Allahın yerinə qoyaraq, Onun onu bağışlamayacağını demişdi. Allah qorusun!

Uca Allah kamil səltənət sahibidir və Onun sözündən üstün söz yoxdur. Öz Rəbbinə qarşı yaxşı gümanda olan bir insanın kiminsə barəsində ədavət güdmədən Allahın əvəzinə dediyi sözü haqqında isə Peyğəmbər ﷺ belə demişdir: **"Ola bilsin ki, qapılardan qovulan, üstü tozlu bir kimsə Allaha and içər, Allah da onun andını həyata keçirər"**.[1] Müvəffəq edən Allahdır.

[1] "Səhih Muslim", 4754.

İki yüz yetmiş dördüncü fəsil

Müsəlmana qarşı istehza etməyin qadağan olunması

Mövzu ilə əlaqəli ayələr:

Uca Allah buyurur:

﴿إِنَّمَا ٱلۡمُؤۡمِنُونَ إِخۡوَةٞ﴾

"Həqiqətən möminlər qardaşdırlar"[1]

﴿إِنَّ ٱلَّذِينَ يُحِبُّونَ أَن تَشِيعَ ٱلۡفَٰحِشَةُ فِي ٱلَّذِينَ ءَامَنُواْ لَهُمۡ عَذَابٌ أَلِيمٞ فِي ٱلدُّنۡيَا وَٱلۡأٓخِرَةِ﴾

"Möminlər arasında əxlaqsızlığın yayılmasını istəyən kimsələr üçün dünyada və axirətdə acılı-ağrılı bir əzab vardır".[2]

Mövzu ilə əlaqəli hədis:

١٥٧٧– وعنْ وَاثِلةَ بنِ الأسْقَعِ ﷺ قالَ: قال رسُولُ اللَّهِ ﷺ: « لا تُظْهِرِ الشَّمَاتَة لأخيك فَيرْحمُهُ اللَّهُ وَيبتَلِيكَ » رواه الترمذي وقال: حديث حسنٌ .

وفي الباب حديثُ أبي هريرةَ السابقُ في باب التَّجَسُّسِ: « كُلُّ المُسْلِمِ على المُسْلِمِ حرَامٌ ».

1577. Vasilə ibn əl-Əsqadan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Qardaşına istehza etmə! Allah onu bağışlayar, sənə isə bəla verər"**.

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir" demişdir.[3]

Bu fəsilə cəsusluq barədə Əbu Hureyradan ﷺ nəql olunmuş: **"Hər bir müsəlman digər müsəlmanlar üçün toxunulmazdır"** hədisi də aiddir**.**

---

[1] "əl-Hücurat" surəsi, 10.

[2] "ən-Nur" surəsi, 19.

[3] "Sunən ət-Tirmizi", 2430.

Şərh:

Burada "istehza" deyildikdə hər hansı bir günaha və ya hadisəyə görə ayıb tutma və buna bənzər əməllər nəzərdə tutulur. İnsanın da qardaşında gördüyü həmin işi və ya xəbəri yayması haramdır. Çünki bu Uca Allahın: **"Həqiqətən möminlər qardaşdırlar"**[1] ayəsinə ziddir. İnsan öz qardaşının ayıblarını aşkara çıxarmamalıdır – bu, Uca Allahın: **"Mömin kişiləri və mömin qadınları etmədikləri bir işdən ötrü günahlandıranlar, sözsüz ki, öz üzərlərinə böhtanla bərabər açıq-aydın bir günah götürmüşlər"**[2] ayəsinə də ziddir.

Sonra müəllif ﷺ **"Qardaşına istehza etmə! Allah onu bağışlayar, sənə isə bəla verər"** hədisini qeyd edir**.** Yəni insan öz qardaşını hər hansı bir işdə ayıblayarsa, ola bilsin ki, Allah həmin ayıb tutulan kəsə rəhm etsin – adam tövbə edib həmin günahdan uzaqlaşsın, ona istehza edən kəs isə eyni bəlaya düçar olsun. Belə şeylər tez-tez baş verir. Buna görə səhihliyi mübahisəli olan, lakin mənaca bu hədisə müvafiq olan başqa bir hədisdə deyilir ki; **"Kim bir qardaşının etdiyi günaha lağ edərsə, həmin günahı özü etmədikcə ölməz".**[3]

Odur ki, müsəlmanların ayıblarını ifşa etməkdən və bu yolla onları məsxərəyə qoymaqdan çəkin. Ola bilsin ki, lağ etdiyin naqislik onun üzərindən götürülüb sənin üzərinə yüklənsin.

[1] "əl-Hücurat" surəsi, 10.

[2] "əl-Əhzab" surəsi, 58.

[3] "Sunən ət-Tirmizi", 2429.

İki yüz yetmiş beşinci fəsil

Nəsəbləri təhqir etməyin haramlığı şəri baxımdan sabitdir

Mövzu ilə əlaqəli ayə:
Uca Allah buyurur:

﴿ وَٱلَّذِينَ يُؤْذُونَ ٱلْمُؤْمِنِينَ وَٱلْمُؤْمِنَٰتِ بِغَيْرِ مَا ٱكْتَسَبُوا۟ فَقَدِ ٱحْتَمَلُوا۟ بُهْتَٰنًا وَإِثْمًا مُّبِينًا ﴾

“Mömin kişiləri və mömin qadınları etmədikləri bir işdən ötrü günahlandıranlar, sözsüz ki, öz üzərlərinə böhtanla bərabər açıq-aydın bir günah götürmüşlər”.[1]

Mövzu ilə əlaqəli hədis:

١٥٧٨– وَعَنْ أبي هُرَيْرَةَ ﷺ قالَ: قَالَ رسُولُ اللَّه ﷺ: « اثْنَتَان في النَّاسِ هُمَا بِهِم كُفْرٌ: الطَّعْنُ في النَّسَبِ، والنِّيَاحةُ على المَّيت » رواه مسلم.

1578. Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **“İnsanlar arasında iki şey küfrdür: nəsəblərə söymək və meyidin üzərində ah-nalə çəkmək”.**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

Şərh:

“Nəsəblərə söymək”, nəsəbləri pisləmək və ya onları inkar etməkdir. Məsələn, tənə edir ki, “sən düşmənə qarşı amansız olmayan, kasıba qarşı mərhəmətli olmayan bir qəbilədənsən”. Bununla da onların ayıblarını söyləyir. Ya da deyir ki, “sən filan ailədən olduğunu desən də, onlardan deyilsən, səndə xeyir yoxdur. Əgər sən həmin qəbilədən olsaydın, səndə xeyir olardı”. Yaxud da buna bənzər başqa sözlər.

---

[1] “əl-Əhzab” surəsi, 58.

[2] “Səhih Muslim”, 100.

Sonra müəllif ﷺ Əbu Hureyradan ﷺ nəql olunmuş hədisi qeyd edir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"İnsanlar arasında iki şey küfrdür: nəsəblərə söymək və meyidin üzərində ah-nalə çəkmək"**.

Yəni insanların etdikləri iki xislət vardır ki, onlar küfr sayılır.

Birincisi, nəsəblərə söymək;

İkincisi, meyidin üzərində ah-nalə çəkmək.

Meyidin üzərində həm kişilər ağlayır, həm də qadınlar. Lakin qadınlar daha şiddətlə, göyərçinin səsinə bənzər nalə ilə ağlayırlar. Yəni müəyyən formada ah-nalə çəkərək ağlamaq haramdır. Peyğəmbər ﷺ ah-nalə çəkəni və dinləyəni lənətləmişdir.

Bəzi insanların günümüzdə etdikləri də buna aiddir. Belə ki, onlar meyidin evində toplanır, onlara yemək təqdim olunur, yaxud onlar üçün xüsusi yemək hazırlanır ki, toplansınlar. Bu haramdır. Çünki Peyğəmbər ﷺ ah-nalə çəkəni və dinləyəni lənətləmişdir. Onlar da elə ah-nalə çəkənlərdir. Möhtərəm səhabə Cərir ibn Abdullah əl-Bəcəlidən ﷺ nəql olunan hədisdə o demişdir: "Bizlər meyidin əhlinin evində toplanmağı və yemək hazırlanmasını ah-nalə çəkməkdən hesab edirdik".[1]

Səhabələr bunu vay-şivəndən hesab edərdilər. Buna görə də meyidin yaxınlarını qapılarını başsağlığı üçün açanlara qadağa qoyulur. Çünki bu, münkər və bidətdir. Səhabələr belə etməzdilər. Həm də bu, Allahın qəza və qədərinə etirazın bir növüdür. İnsan gərək razı qalsın və təslimiyyət göstərsin, qapını da bağlı saxlasın. Ona başsağlığı vermək istəyən kişi onu bazarda və ya məsciddə də görüb verə bilər. Qadınlar üçün isə qapıların açılmasına və onların bir yerə toplanmasına ümumiyyətlə ehtiyac yoxdur. Mühüm olan odur ki, Peyğəmbər ﷺ demişdir: **"İnsanlar arasında iki şey küfrdür: nəsəblərə söymək və meyidin üzərində ah-nalə çəkmək".**

İnsanların rəyi səni çaşdırmasın. Uca Allah buyurur: **"Əgər sən yer üzündə olanların əksəriyyətinə itaət etsən, onlar səni Allah yolundan azdırarlar. Onlar ancaq zənnə qapılır və ancaq yalan uydururlar".[2]**

O həmçinin buyurur: **"Sən nə qədər çox çalışsan da, insanların əksəriyyəti iman gətirən deyildir".[3]**

---

[1] "Sunən İbn Macə", 1601.

[2] "əl-Ənam" surəsi, 116.

[3] "Yusuf" surəsi, 103.

İnsanların etdikləri əsas deyil. Bu bir adətdir. Əsas olan Allahın kitabı, Peyğəmbərin ﷺ və raşidi xəlifələrin sünnəsi və səhabələrin əməllə-ridir. Onlardan heç kim öz qapısını başsağlığı üçün açmamışdır. Onlar bu səbəblə yemək üçün toplanmaz, bunu vay-şivənlikdən sayar və bu əməl-dən tamamilə uzaq durardılar. Çünki ah-nalə, eşitdiyiniz kimi, küfrdür. Yəni küfrün əlamətlərindəndir. Peyğəmbər ﷺ də ah-nalə çəkəni və bunu dinləyəni lənətləmişdir. Müvəffəq edən Allahdır.

İki yüz yetmiş altıncı fəsil

Hiylə gəlib aldatmağın haramlığı

Mövzu ilə əlaqəli ayə:
Uca Allah buyurur:

﴿ وَٱلَّذِينَ يُؤْذُونَ ٱلْمُؤْمِنِينَ وَٱلْمُؤْمِنَٰتِ بِغَيْرِ مَا ٱكْتَسَبُوا۟ فَقَدِ ٱحْتَمَلُوا۟ بُهْتَٰنًا وَإِثْمًا مُّبِينًا ﴾

“Mömin kişiləri və mömin qadınları etmədikləri bir işdən ötrü günahlandıranlar, sözsüz ki, öz üzərlərinə böhtanla bərabər açıq-aydın bir günah götürmüşlər”.[1]

١٥٧٩– وَعَنْ أبي هُرَيرةَ ﷺ أنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: « منْ حمَلَ عَلَيْنَا السِّلاحَ، فَلَيْسَ مِنَّا، ومَنْ غَشَّنَا، فَلَيْسَ مِنَّا » رواه مسلم.

وفي روايةٍ لَه أنَّ رَسُول اللَّه ﷺ مرَّ عَلى صُبْرَةِ طَعامٍ، فَأدْخَلَ يدهُ فيها، فَنالَتْ أصَابِعُهُ بَلَلاً، فَقَالَ: مَا هَذَا يا صَاحِبَ الطَّعَامِ؟ » قَالَ أصَابتْهُ السَّمَاءُ يَا رَسُولَ اللَّه قَالَ: « أفَلا جَعلْتَه فَوْقَ الطَّعَامِ حَتّى يَراهُ النَّاس، مَنْ غَشَّنَا فَلَيْسَ مِنَّا ».

1579. Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **“Kim bizə qarşı silah çəkərsə, bizdən deyil. Kim bizə hiylə gələrsə, bizdən deyil”.**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

Başqa bir rəvayətdə deyilir ki, Peyğəmbər ﷺ *satışa üçün qoyulan* bir miqdar buğdanın yanından keçərkən əlini onun içərisinə saldı və barmaqları yaş oldu. O dedi: **“Ey buğda sahibi, bu nədir?”** Dedi: “Üzərinə yağış yağıb, ey Allahın elçisi”. Dedi: **“Bunu üzdə qoy ki, insanlar görsün. Kim bizə hiylə gələrsə, bizdən deyil”.**[3]

١٥٨٠– وَعَنْهُ أنَّ رَسُولَ اللَّه ﷺ قَال: « لا تَنَاجشُوا » متفقٌ عليه.

---

[1] “əl-Əhzab” surəsi, 58.
[2] “Səhih Muslim”, 146.
[3] “Səhih Muslim”, 147.

1580. Yenə Əbu Hureyradan ﵁ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Malı almaq istəmədən onun qiymətini artırmayın"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٥٨١– وَعَنْ ابنِ عُمر ﵄ ، أنَّ النبيَّ ﷺ نَهَى عن النَّجَشِ. متفقٌ عليه.

1581. İbn Ömərdən ﵄ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ malı almaq istəmədən onun qiymətini artırmağı qadağan etmişdir.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١٥٨٢– وعَنْهُ قَالَ: ذَكَرَ رَجُلٌ لِرَسُولِ اللَّهِ ﷺ أَنَّهُ يُخْدعُ فِي البُيُوعِ؟ فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: « منْ بايَعْتَ، فَقُلْ لا خِلابَةَ » متفقٌ عليه.

« الخِلابةُ » بخاءٍ معجمةٍ مكسورة، وباءٍ موحدة: وهي الخدِيعةُ.

1582. Yenə İbn Ömərdən ﵄ rəvayət olunur ki, bir kişi ticarət zamanı aldadıldığını Rəsulullaha ﷺ xəbər verdi, Rəsulullah ﷺ da ona belə dedi: **"Ticarət etdiyin adama de ki, aldatmaq yoxdur"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

١٥٨٣– وَعَنْ أبي هُرَيْرَةَ ﵁ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: « مَنْ خَبَّب زَوْجَة امْرِيءٍ، أوْ مَمْلُوكَهُ، فَلَيْسَ مِنَّا » رواهُ أبو داود.

« خبب »: أيْ: أفسدَهُ وخدعَهُ.

1583. Əbu Hureyradan ﵁ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Kim başqasının xanımını və ya malik olduğu qadını aldadarsa, o bizdən deyil".**

Hədisi Əbu Davud rəvayət etmişdir.[4]

[Hədisin ərəbcəsində işlənən] "xabbəbə" sözü "xarab etmək", "aldatmaq" mənasındadır.

---

[1] "Səhih əl-Buxari", 1996; "Səhih Muslim", 2533.

[2] "Səhih əl-Buxari", 1998; "Səhih Muslim", 2792.

[3] "Səhih əl-Buxari", 2230; "Səhih Muslim", 2826.

[4] "Sunən Əbu Davud", 4502.

İki yüz yetmiş yeddinci fəsil

Əhdi pozmağın haramlığı

Mövzu ilə əlaqəli ayələr:
Uca Allah buyurur:

﴿ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ أَوۡفُواْ بِٱلۡعُقُودِ ﴾

"Ey iman gətirənlər, əhdlərinizi yerinə yetirin".[1]

﴿ وَأَوۡفُواْ بِٱلۡعَهۡدِۖ إِنَّ ٱلۡعَهۡدَ كَانَ مَسۡـُٔولٗا ﴾

"Əhdə vəfa edin. Çünki *hər kəs* əhd barəsində sorğu-sual olunacaq".[2]

Şərh:
Müəllif ﷺ **"Əhdi pozmağın haramlığı"** fəslini qeyd edir.

Əhdi pozmaq insana güvənilən zaman xəyanət etməkdir. O mənada ki, sənin yanına birisi gəlib əmanət qoyur, sən də həmin əmanətə xəyanət edirsən. Bu həmin adama əhd verdiyin halda da ola bilər, əhd vermədiyin halda da. Çünki sənə əmanət qoyan kəs sənə arxayın olub. Ona xəyanət etdikdə isə onunla əhdi pozmuş olursan.

Sonra müəllif əhdi pozmağın haramlığına əhdə vəfa etməyin vacibliyi ilə dəlil gətirir. Çünki işlər ona zidd olanlarla tanınır. Müəllif əhdə vəfa etməyin vacibliyinə izzət və cəlal sahibi Allahın kitabından iki ayə dəlil gətirmişdir.

Birinci ayədə Uca Allah buyurur: **"Ey iman gətirənlər, əhdlərinizi yerinə yetirin".** Yəni dostunla bağladığın sazişin tələblərinə tam şəkildə riayət et.

---

[1] "əl-Maidə" surəsi, 1.

[2] "əl-İsra" surəsi, 34.

Bu bütün sazişlərə, o cümlədən alış-veriş sazişlərinə də aiddir. Əgər qardaşına bir şey satırsansa, həmin məhsulun mövcudluğundan asılı olmayaraq gərək sövdələşməyə, onun şərtlərinə riayət edəsən. Məsələn, qardaşına ev satırsan və şərt qoyursan ki, həmin evdə hələ bir il yaşayacaqsan. Bu zaman alıcı bunun üçün sənə imkan yaratmalı və etiraz etməməlidir. Çünki bu şərt hələ müqavilə bağlanarkən irəli sürülmüşdür. Yaxud da qardaşına bir şey satırsan və ona şərt qoyursan ki, içərisindəki ayıba səbir etsin. Ona deyirsən ki, bunun belə bir ayıbı var. Müştəri də buna razılıq verdikdən sonra onu geri qaytarmağa haqqı yoxdur.

Burada bəzi insanların – Allah qorusun – etdikləri haram bir işi qeyd etmək istəyirəm. Misal üçün nə isə satır və bilir ki, onun müəyyən bir ayıbı var. Müştəriyə də deyir ki, bunun bütün ayıblarına səbir et. Bu adətən avtomobil auksionlarında baş verir. Görürsən ki, dəllal uca səslə deyir ki, gözünüz önündə olan bu maşını satıram. Ancaq onun ayıbını bildiyi halda hiylə gələrək onu söyləmir. Allaha sığınırıq. Çünki həmin ayıbı söyləsə, onun qiyməti düşəcək. Ayıbı demədikdə isə müştəri tərəddüd edir ki, ola bilsin onun ayıbları və ya nöqsanları var. Beləcə o, *böyük ehtimalla müəyyən bir* ayıbın olmasını bildiyi halda *real ödəniləsi* məbləğdən daha artığını ödəyir. Bu şərtlə alış-veriş edən kəsin şərtinə müştəri riayət etmiş olsa belə, həqiqətən də ayıb olduğu təqdirdə Qiyamət günü satıcı bundan yaxa qurtara bilməyəcək. Ondan bunun hesabı sorulacaq və *artıq qəbul edilmiş* həmin şərtin də ona bir faydası olmayacaqdır.

Bir məhsulu satdıqda gərək onun ayıblarını da deyəsən. Məsələn, birisi avtomobil alır və onu istifadə etdiyi bir-neçə gündə onun ayıbları üzə çıxmır. Ayıbın olub-olmaması şərti də danışılmayıb. Sonra o bir başqasına deyir ki, qarşındakı bu malı ayıbı olsa da, olmasa da sənə satdım. Bunda bir qəbahət yoxdur.

Mühüm olan odur ki, kim məhsulun ayıblı olduğunu bilirsə, gərək onu bəyan etsin. Əgər bilmirsə, bu zaman müştəriyə şərt qoya bilər ki, *hansısa bir nöqsan aşkar olarsa,* qaytarmaq yoxdur. Belə etmək olar.

Ərlə-arvadın bağladıqları andlaşma da əhdə vəfa etməyə aiddir. Qadın da, kişi də müəyyən şərtlər irəli sürür. Bu zaman şərtlərə riayət olunmalıdır. Məsələn, şərt qoyur ki, kişinin ailəsi ilə bir evdə yaşamayacağıq. Bu zaman kişi gərək şərtə riayət etsin. Çünki bəzi qadınlar ərin yaxınları ilə birlikdə yaşamaq istəmirlər. Onların səs-küylü, söz gəzdirən

olduğunu eşidib şərt qoyurlar ki, ailənlə birlikdə qalmaq istəmirəm. Bu zaman ər qəbul etdiyi bu şərtə gərək riayət edə. Çünki Uca Allah buyurur: **"Ey iman gətirənlər, əhdlərinizi yerinə yetirin".**[1]

Yaxud da qadın şərt qoyur ki, onu öz evindən çıxarmasın. Tutaq ki, qadının əvvəlki ərindən uşaqları var. Yenidən ərə gedərkən şərt qoyur ki, yorulmaması üçün onu evindən çıxarmasın. Bu zaman ər şərtə riayət etməlidir. Bunun əksi haramdır, çünki Uca Allah buyurur: **"Ey iman gətirənlər, əhdlərinizi yerinə yetirin".**

Ya da müəyyən məbləğdə mehr şərti qoyur, məsələn, on min mehir təyin edir. Bu zaman ər gərək həmin mehri versin və bunu uzatmasın. Çünki onunla şərt bağlayıb.

Lakin əgər onlar batil bir şərt irəli sürərsə, onlardan qəbul olunmaz. Misal üçün şərt qoysa ki, kişi birinci xanımını boşamalıdır, bu şərt qəbul olunmur və o buna riayət etməməlidir. Belə ki, Peyğəmbər demişdir: **"Heç bir qadın bacısının boşanmasını tələb edərək onun qabındakını boşaltmağa çalışmasın".**[2] Yaxud da: **"Onun səhifəsindəkini".**[3]

Bu şərt başqalarına qarşı ədavət olduğu üçün haramdır və ona riayət olunmur. Batil şərt olduğu üçün ona ümumiyyətlə əməl olunmur. Ancaq şərt qoysa ki, onun üzərinə arvad almayacaq, bu zaman həmin şərtin səhih olduğu deyilir. Çünki burada heç kimə ədavət yoxdur. Burada sadəcə ərə caiz olan bir əməlin qadağan olunması vardır. Bunda bir qəbahət yoxdur. Çünki burada ər özü öz haqqından imtina edir və heç bir ədavət yoxdur. Əgər onun üzərinə ikinci qadın almayacağı şərtini qəbul etdikdən sonra ər ikinci dəfə evlənərsə, qadın kişinin razı olub-olmamasından asılı olmayaraq nikahı poza bilər. Çünki burada ər şərti pozmuşdur.

Mühüm olan odur ki, Allah əhdlərə vəfa etməyi əmr etmişdir. Gərək verdiyin əhdi yerinə yetirəsən və onu pozmayasan, xəyanət etməyəsən, ayıbı gizlətməyəsən, hiylə gəlməyəsən.

Uca Allah buyurur: **"Əhdə vəfa edin. Çünki *hər kəs* əhd barəsində sorğu-sual olunacaq".**[4]

---

[1] "əl-Maidə" surəsi, 1.

[2] "Səhih əl-Buxari", 1996; "Səhih Muslim", 2532.

[3] "Səhih əl-Buxari", 4755; "Səhih Muslim", 2519.

[4] "əl-İsra" surəsi, 34.

Uca Allah əhdə vəfa edilməsini əmr edir. Yəni birinə əhd edib desən ki, "sənə Allahın əhdini verirəm ki, belə etməyəcəm", yaxud "mənə xəbər verdiyini kimsəyə deməyəcəm" və ya buna bənzər başqa bir əhd etsən, verdiyin əhdə gərək əməl edəsən. Çünki Qiyamət günü verdiyin əhd barəsində sorğu-sual olunacaqsan. Ona görə də Rəbbimiz buyurur ki; "**Çünki *hər kəs* əhd barəsində sorğu-sual olunacaq".** Yəni Qiyamət günü bu barədə soruşulacaqsan.

١٥٨٤– وعَنْ عبْدِ اللَّهِ بْنِ عَمْرو بْنِ العاص ﵄ أنَّ رسُولَ اللَّه ﷺ قَالَ: « أرْبعٌ مَنْ كُنَّ فيهِ، كانَ مُنَافِقاً خالصاً، وَمَنْ كانتْ فيه خَصْلَةٌ مِنْهُنَّ، كانَ فِيهِ خَصْلَةٌ مِنَ النِّفاقِ حتَّى يدعها: إذا أؤتمِنَ خانَ، وإذا حدَّثَ كَذَب، وإذا عاهَدَ غَدَر، وإذا خَاصَم فَجر ». متفقٌ عليه.

1584. Abdullah ibn Amr ibn əl-Asdan ﵄ nəql olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kimdə dörd xüsusiyyət *cəm* olarsa, xalis münafiq olar. Kimdə də həmin xüsusiyyətlərdən biri olarsa, o kəs həmin əməli tərk edənədək onda nifaqın bir xüsusiyyəti olar: əmanətə xəyanət edər, danışdıqda yalan danışar, əhd etdikdə onu pozar, mübahisə etdikdə haqqı danar".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٥٨٥– وعن ابن مسْعُودٍ، وابنِ عُمرَ، وأنسٍ ﵃ قَالُوا: قَالَ النبيُّ ﷺ: « لِكُلِّ غَادِرٍ لِوَاءٌ يوْمَ القِيامةِ، يُقَالُ: هذِهِ غَدْرَةُ فُلانٍ » متفقٌ عليه.

1585. İbn Məsud, İbn Ömər və Ənəsdən ﵃ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Əhdini pozan hər kəsin Qiyamət günü bayrağı olacaqdır. *Onun haqqında* deyəcəklər: – Bu, əhdini pozmuş filankəsdir".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١٥٨٦– وَعَنْ أبي سَعِيدٍ الخُدْرِي ﵁ أنَّ النبي ﷺ قَال: لِكُلِّ غَادِرٍ لِواءٌ عِندَ إسْتِه يَوْمَ القِيامةِ يُرْفَعُ لَهُ بِقدْرِ غدْرِهِ، ألا ولا غَادر أعْظمُ غَدْراً مِنْ أمير عامَّةٍ » رواه مسلم .

[1] "Səhih əl-Buxari", 2950; "Səhih Muslim", 3268.

[2] "Səhih əl-Buxari", 1996; "Səhih Muslim", 2532.

1586. Əbu Səid əl-Xudridən ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Əhdini pozan hər kəsin Qiyamət günü yanında bir bayrağı olacaqdır. Xəyanətinin miqdarında bayrağı qaldırılacaqdır. İnsanların rəhbərlərindən daha böyük əhdi pozan olmayacaqdır".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٥٨٧– وعنْ أبي هُرَيرةَ ﷺ عن النبي ﷺ قال: قَالَ اللَّه تعالى ثَلاثَةٌ أنا خَصْمُهُمْ يوْمَ القِيَامَةِ: رَجُلٌ أعطَى بي ثُمْ غَدَرَ، وَرجُلٌ باع حُراً فأَكل ثمنَهُ، ورجُلٌ استَأجرَ أجِيراً، فَاسْتَوْفي مِنهُ، ولَمْ يُعْطِهِ أجْرَهُ » رواه البخاري.

1587. Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: «**Uca Allah buyurur: "Mən Qiyamət günü üç nəfərlə mübahisə edəcəyəm: Mənim üçün verib sonra xəyanət edən, azad adamı satıb pulunu yeyən, bir də icarəyə götürdüyü adamı işlədərək onun pulunu verməyənlə"».**

Bu hədisi Buxari rəvayət etmişdir.[2]

Şərh:

Sonra müəllif bir neçə hədis qeyd edir ki, onların da şərhini vermişik. Onlardan ən əzəmətlisi Qiyamət günü əhdini pozan hər kəsin bayrağının olmasıdır. Bayraq döyüşlərdə olur.

"Əhdini pozan hər kəsin Qiyamət günü yanında bir bayrağı olacaqdır". Yəni altında. Xəyanətinin həddinə görə də həmin bayraq yüksələcəkdir – böyükdürsə, o yüksəkdə olacaq, kiçikdirsə – aşağıda. Deyiləcəkdir: "Bu filankəsin oğlu filankəsin xəyanətidir". Allah qorusun!

Bu hədis xəyanətin böyük günahlardan olmasına dəlildir. Çünki ona belə bir əzab vəd olunmuşdur. Hədis həm də Qiyamət günü insanlar analarının deyil, atalarının adı ilə çağırılacaqlarına dəlildir. Bəzilərinin Qiyamət günü insanların guya "ey filan qadının oğlu filankəs" deyə analarının adı ilə çağırılacağı iddiaları doğru deyildir. İnsanlar, dünyada olduğu kimi, atalarının adları ilə çağırılacaqlar.

Sonuncu hədis günümüzdə bir çoxlarının etdikləri əmələ diqqət çəkir ki, bu da insanları icarə ilə işlədərək onların pullarını verməməkdir. İcarə

[1] "Səhih Muslim", 3272.

[2] "Səhih əl-Buxari", 2075.

ilə adam işlətdikdən sonra onun pulunu verməyən kəsin qarşısında Qiyamət günü izzət və cəlal sahibi Allah olacaqdır. Necə ki, Uca Allah qüdsi hədisdə buyurur: **"Mən Qiyamət günü üç nəfərlə mübahisə edəcəyəm: Mənim üçün verib sonra xəyanət edən, azad adamı satıb pulunu yeyən, bir də icarəyə götürdüyü adamı işlədərək onun pulunu verməyənlə".** Yəni:

Birincisi, Mənim üçün əhd verib sonra həmin əhdi pozan kəs.

İkincisi, azad bir adamı satıb pulunu yeyən kəs. Hətta onun öz övladı və ya kiçik qardaşı olsa belə, onu sataraq pulunu yeyərsə, Qiyamət günü Allah onunla mübahisə edəcəkdir.

Üçüncüsü. Birisi icarəyə adam götürüb onu işlədir, həmin adam da tələb olunan işi tam yerinə yetirir. Sonda isə icarəyə götürən adam onun pulunu vermir. Bəziləri xarici ölkələrdən gəlmiş işçilərə qarşı belə davranır. Görürsən ki, onunla müəyyən məbləğ, məsələn 600 rial müqabilində razılaşır. Həmin adam işə gəldikdən sonra pulunu kəsir, ona əziyyət verir və ya haqqını tam vermir. Bəzən də maaşını kəsir. Allah qorusun! Beləsi Qiyamət günü Allahın qarşısına çıxacaq, Allah da onun savablarından götürüb həmin işçiyə verəcək. Beləcə bu böyük əzab vədi onu haqlayacaq. O kəsləri ki, işçiləri gətirir, sonra pullarını vermir və ya işləri olmadan onları gətirir, sonra da onları bazarlarda tərk edir, sonra da deyir ki, get nə qazansan yarısı mənimdir. Ya da deyir ki, get, ayda üç yüz və ya dörd yüz rial verəcəyəm. Bütün bunlar onlara halal deyil, haramdır. Yedikləri də Allahın qəzəbinə səbəb olacaqdır. Allah qorusun! Haram malla böyüyən bədənə isə Cəhənnəm odu yetişər. Bu yazıqların haqqını yeyən həmin zalımların duaları da qəbul olunmur. Belə ki, Peyğəmbər ﷺ demişdir: **"Uzun müddət səfərdə olan, üstü tozlu, saçı dağınıq birisi əllərini göyə qaldırıb: "Ey Rəbbim, ey Rəbbim!" deyir. Halbuki, yediyi haram, geyindiyi haram, özü də haramla bəslənir, onun duasına necə cavab verilə bilər?"**[1] Allah bizləri qorusun.

Bu zalımlara Allahın cəzası erkən yetişir ki, bu da həmin əməli davam etdirmək, onda israr etməkdir. Çünki günaha israr etmək günahdır. Allah qorusun! Uca Allah insanı hər hansı bir günahdan tövbə etməyə müvəffəq etmədikdə həmin adam bu günahı ilə Allahdan daha çox uzaqlaşır, onun günahları təkəbbürlüyünü daha da artırmış olur. Allah bizə də, onlara da hidayət və müvəffəqiyyət versin.

[1] "Səhih Muslim", 1686.

İki yüz yetmiş səkkizinci fəsil

Verdiyi şeyə minnət qoymağın və buna bənzər əməllərin haramlığı

Mövzu ilə əlaqəli ayələr:
Uca Allah buyurur:

﴿ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ لَا تُبۡطِلُواْ صَدَقَٰتِكُم بِٱلۡمَنِّ وَٱلۡأَذَىٰ كَٱلَّذِي يُنفِقُ مَالَهُۥ رِئَآءَ ٱلنَّاسِ وَلَا يُؤۡمِنُ بِٱللَّهِ وَٱلۡيَوۡمِ ٱلۡأٓخِرِ ﴾

"Ey iman gətirənlər! Malını özünü camaata göstərmək məqsədilə xərcləyən, Allaha və Axirət gününə inanmayan şəxs kimi, sədəqələrinizi minnət qoymaqla və əziyyət verməklə puç etməyin".[1]

﴿ ٱلَّذِينَ يُنفِقُونَ أَمۡوَٰلَهُمۡ فِي سَبِيلِ ٱللَّهِ ثُمَّ لَا يُتۡبِعُونَ مَآ أَنفَقُواْ مَنّٗا وَلَآ أَذٗى لَّهُمۡ أَجۡرُهُمۡ عِندَ رَبِّهِمۡ ﴾

"Mallarını Allah yolunda xərcləyənlərin və xərclədiklərinin ardından minnət qoymayan və əziyyət verməyənlərin Rəbbi yanında mükafatları vardır".[2]

Mövzu ilə əlaqəli hədislər:

١٥٨٨– وعنْ أبي ذَرٍّ ﷺ عنِ النبيِّ ﷺ قَالَ: « ثَلاثةٌ لا يُكلِّمُهُمْ اللَّه يوْمَ القيامةِ، ولا يَنْظُرُ إليْهِمْ، ولا يُزَكِّيهِمْ وَلهُمْ عذابٌ أليمٌ » قال: فَقرأها رسولُ اللَّه ﷺ ثَلاثَ مَرَّاتٍ. قال أبو ذرٍّ: خَابُوا وخَسِروا منْ هُمْ يا رسولَ اللَّه، قال المُسبِلُ، والمَنَّانُ، والمُنْفِقُ سلعتهُ بالحِلفِ الكَاذبِ » رواه مسلم.

وفي روايةٍ له: « المسبلُ إزارهُ » يعْني: المسْبِلُ إزَارهُ وثَوْبَهُ أسفَلَ مِنِ الكَعْبَيْنِ للخُيَلاءِ.

1588. Əbu Zər ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ: **"Qiyamət günü Allah üç nəfəri dindirməyəcək, onlara nəzər salmayacaq, onları təmizə**

---

[1] "əl-Bəqərə" surəsi, 264.
[2] "əl-Bəqərə" surəsi, 262.

çıxarmayacaq və onlara ağrıdıcı əzab veriləcək" dedi və bunu üç dəfə təkrarladı. Əbu Zər dedi: "Onlar uduzub xəsarətə uğradılar. Kimdir onlar, ey Allahın elçisi?" Dedi: **"Libasını uzun geyinən, söz gəzdirən və yalan and içməklə malını satan".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Başqa bir rəvayətdə deyilir: **"Libasının ətəyini uzadan"**, yəni lovğalıq edərək libasını topuqlardan aşağı geyinən kəs.

Şərh:

Müəllif ﵀ **"Verdiyi şeyə minnət qoymağın və buna bənzər əməllərin haramlığı"** fəslini qeyd edir.

İnsanın başqasına vermək istədiyi bir şey sədəqədirsə, onu izzət və cəlal sahibi Allah üçün verməlidir. Əgər yaxşılıqdırsa, yaxşılıq tələb olunan əməldir. Bu halda insan verdiyi şeyə gərək minnət qoymasın, deməsin ki, "mən sənə bunu və bunu vermişəm". Bunu istər onun üzünə desin, istər qıraqda. Məsələn, insanlar arasında: "mən filankəsə bunu və bunu vermişəm" deyir və beləcə ona minnət qoyur.

Sonra müəllif buna Uca Allahın aşağıdakı ayəsini dəlil gətirir: **"Ey iman gətirənlər! Malını özünü camaata göstərmək məqsədilə xərcləyən, Allaha və Axirət gününə inanmayan şəxs kimi, sədəqələrinizi minnət qoymaqla və əziyyət verməklə puç etməyin".**[2]

Bu dəlildir ki, insan sədəqə verdikdən sonra minnət qoyursa, onun sədəqəsi batil olur və heç bir savab qazanmır. Bu həm də böyük günahlardandır.

Uca Allah həmçinin buyurur: **"Mallarını Allah yolunda xərcləyənlərin və xərclədiklərinin ardından minnət qoymayan və əziyyət verməyənlərin Rəbbi yanında mükafatları vardır. Onlara Rəbbi yanında əcr vardır, onlar nə qorxu görər, nə də ki, kədərlənərlər".**[3]

Sonra o ﵀ Əbu Zərdən ﵁ rəvayət olunmuş hədisi gətirir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Qiyamət günü Allah üç nəfəri dindirməyəcək, onlara nəzər salmayacaq, onları təmizə çıxarmayacaq və onlara**

[1] "Səhih Muslim", 154.

[2] "əl-Bəqərə" surəsi, 264.

[3] "əl-Bəqərə" surəsi, 262.

ağrıdıcı əzab veriləcək: libasını uzun geyinən, söz gəzdirən və yalan and içməklə malını satan".

"Libasını uzun geyinən", yəni libasını və paltarının ətəyini təkəbbürlük və lovğalığından uzun geyinən kəs. Beləsi üçün belə bir şiddətli əzab vardır.

"Söz gəzdirən", yəni verdiyini danışıb yayan. Birinə bir şey verdikdə onu deməklə minnət qoyur.

"Yalan and içməklə malını satan", yəni malın baha satılması üçün yalandan and içən kəs. O da Uca Allahın Qiyamət günü dindirməyəcəyi, onlara nəzər salmayacağı, təmizə çıxarmayacağı və ağrıdıcı əzab veriləcəyi kəslərdəndir. Müvəffəq edən Allahdır.

İki yüz yetmiş doqquzuncu fəsil

İftixarın və qarşı çıxmağın qadağan olunması

Mövzu ilə əlaqəli ayələr:
Uca Allah buyurur:

﴿ فَلَا تُزَكُّوٓاْ أَنفُسَكُمۡۖ هُوَ أَعۡلَمُ بِمَنِ ٱتَّقَىٰٓ ﴾

"Özünüzü təmizə çıxartmayın, çünki O, kimin *Allahdan* qorxduğunu yaxşı bilir".[1]

﴿ إِنَّمَا ٱلسَّبِيلُ عَلَى ٱلَّذِينَ يَظۡلِمُونَ ٱلنَّاسَ وَيَبۡغُونَ فِي ٱلۡأَرۡضِ بِغَيۡرِ ٱلۡحَقِّۚ أُوْلَٰٓئِكَ لَهُمۡ عَذَابٌ أَلِيمٞ ﴾

"**Məzəmmət olunmağa ancaq insanlara zülm edənlər və yer üzündə haqsız yerə azğınlıq edənlər layiqdirlər. Məhz onlar üçün ağrılı-acılı əzab vardır".**[2]

Mövzu ilə əlaqəli hədislər:

١٥٨٩– وعَنْ عِياض بْنِ حمار ﷺ قَال قَال رسُولُ اللَّهِ ﷺ: « إن اللَّه تَعالى أَوْحَى إِلَيَّ أن تواضعُوا حَتى لا يبْغِيَ أَحَدٌ على أحدٍ، ولا يفْخرَ أحدٌ على أحدٍ » رواه مسلم.

قال أهلُ اللغةِ: البَغيُ: التَّعَدِّي والاستِطالةُ.

1589. İyad ibn Himardan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Uca Allah mənə vəhy etmişdir ki, təvazökar olun, heç kim heç kimə qarşı çıxmasın, heç kim də heç kimə qarşı lovğalanmasın"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[3]

Dil alimləri [hədisin ərəbcəsində keçən] **"əl-bəğy"** sözü haqqında demişlər ki, bu "həddi aşmaq" və "özünü dartmaq" mənasındadır.

---

[1] "ən-Nəcm" surəsi, 32.

[2] "əş-Şura" surəsi, 42.

[3] "Səhih Muslim", 5109.

Şərh:

Hafiz ən-Nəvəvi ﷺ **"İftixarın və qarşı çıxmağın qadağan olunması"** fəslini qeyd edir.

İftixar, insanın özü-özünü tərifləməsi və Uca Allahın ona bəxş etdiyi nemətlərə görə qürrələnməsidir. Bu istər övlad neməti olsun, istər maldövlət, istər elm, istər nəsəb, istərsə də ad-san və ya buna bənzər başqa nemətlər olsun, insanın bu nemətlərlə özünü başqalarından yüksək tutması iftixardır. Uca Allahın nemətlərindən danışmaq isə bu, Allahın nemətlərinin izhar olunmasıdır. Əgər bunu təvazökarlıqla edirsə, bunda bir qəbahət yoxdur. Uca Allah bu xüsusda buyurur: **"Rəbbinin nemətləri barəsində danış".**[1]

Peyğəmbər ﷺ belə demişdir: **"Mən Qiyamət günü Adəm övladının seyyidi olacağam, ancaq bununla qürrələnmirəm".**[2] Yəni bununla özümü başqalarından üstün tutmuram.

Qarşı çıxmaq isə başqasına qarşı ədavət aparmaqdır. Bir insanın başqasının malına, bədəninə, yaxınlarına, məqamına və ya buna bənzər başqa bir şeyə düşmənçilik etməsidir. Ədavətin növləri çoxdur, lakin insanın müsəlman qardaşının toxunulmazlığını pozması həmin növlərin hamısını əhatə edir ki, bu da haramdır.

Sonra müəllif ﷺ Uca və Nöqsansız Allahın bu ayəsini dəlil gətirir: **"Özünüzü təmizə çıxartmayın, çünki O, kimin *Allahdan* qorxduğunu yaxşı bilir".**[3]

Bu sözlərlə Uca və Nöqsansız Allah öz qullarının özlərini tərifləmələrini, yəni başqaları önündə lovğalanaraq qürrələnmələrini qadağan edir. Məsələn, adam dostuna deyir ki, mən səndən daha elmliyəm, mən səndən daha çox itaət edirəm, mən səndən daha varlıyam, yaxud da başqa sözlər. Allah qorusun! Bu, insanın özünü tərifləməsi və lovğalığın bir növüdür.

Uca Allahın aşağıdakı ayəsi bununla ziddiyyət təşkil etmir: **"Nəfsini *günahdan* təmizləyən uğur qazanmışdır".** Çünki qadağan olunan özünü təmizə çıxarma *növü* insana Uca Allah tərəfindən bəxş edilmiş nemətlərə, o cümlədən elmə, etdiyi ibadətə və xeyirə görə lovğalanması və bunlarla

---

[1] "əd-Duha" surəsi, 11.

[2] "Musnəd İmam Əhməd", 1/281; "Sunən ət-Tirmizi", 3073; "Sunən İbn Macə", 4298.

[3] "ən-Nəcm" surəsi, 32.

fəxr etməsidir. Odur ki, Uca Allah buyurur: **"Onu *günaha* batıran isə ziyana uğramışdır".**[1]

Batil əhli Qurandakı belə mütəşabih ayələri dəlil gətirərək insanları çaşdırırlar. Ona görə ki, onlar Uca Allahın vəsf etdiyi kimi, qəlblərində əyrilik olan kəslərdir. Allah qorusun! Uca Allah buyurur: **"Bətnlərdə sizə istədiyi surəti verən Odur. Ondan başqa *ibadətə layiq olan* məbud yoxdur, Qüdrətlidir, Hikmət sahibidir. Kitabı sənə nazil edən Odur. O Kitabın bir qismi muhkəm *(hər kəsin başa düşdüyü)* ayələrdir ki, bunlar, Kitabın anasıdır. Digərləri isə mütəşabih *(müstəsna insanların başa düşdüyü) ayələrdir*. Qəlblərində əyrilik olanlar fitnə-fəsad törətmək və istədikləri kimi yozmaq məqsədilə mutəşabih ayələrin ardınca gedərlər".**[2]

Quranda ziddiyyətli olan məsələlərin olması qeyri-mümkündür. Uca Allah bu xüsusda buyurur: **"Onlar Quran barəsində düşünmürlərmi?! Əgər o, Allahdan başqası tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ixtilaf tapardılar".**[3]

Quranda ixtilaf yoxdur. Nafi ibn əl-Əzraq al-Xarici əl-Məşhur İbn Abbasa رضي الله عنهما zahirən ziddiyyətli görünən bir çox mütəşabih ayələri nəql etmiş, o da digər ayələrlə onun cavabını vermişdi. Bunları əs-Suyuti "əl-İtqan fi ulumil-Quran" əsərində nəql etmişdir.

Sonra müəllif ﷺ qarşı çıxmağın haram olmasına aşağıdakı ayəni də dəlil gətirmişdir: "**Məzəmmət olunmağa ancaq insanlara zülm edənlər və yer üzündə haqsız yerə azğınlıq edənlər layiqdirlər. Məhz onlar üçün ağrılı-acılı əzab vardır".**[4]

Ayənin ərəbcəsində işlənən **"əs-səbil",** yəni "yol" sözü töhmət və məzəmmət mənasındadır. Yəni əzab insanların malına, namuslarına, özlərinə və yaxınlarına qarşı haqsızlıq edənlər üçündür. Belələri məzəmmət olunmalıdırlar.

"yer üzündə haqsız yerə azğınlıq edənlər layiqdirlər". Yəni onlar haqsız olaraq ədavət aparırlar. Allah qarşı çıxmanı ona görə haqsızlıq adlandırmışdır ki, çünki doğrudan da o, haqq deyil. Buradakı qeyd etiraz üçün deyil, haqqın bəyan olunması üçündür. Yəni hər bir haqqa qarşı

---

[1] "əş-Şəms" surəsi, 10.

[2] "Ali-İmran" surəsi, 6-7.

[3] "ən-Nisa" surəsi, 82.

[4] "əş-Şura" surəsi, 42.

çıxma haqsızlıqdır. Quranda buna bir çox halda rast gəlmək mümkündür. Görürsən ki, müəyyən qeydlər reallığı bəyan edir və başqa mənalara qarşı çıxmır. Məsələn, Uca Allah belə buyurur: **"Ey insanlar, sizi və sizdən əvvəlkiləri yaratmış Rəbbinizə ibadət edin ki, bəlkə *Ondan* qorxasınız".**[1]

Burada bizi yaradan və bizi yaratmayan Rəbb yoxdur. Bizi yaradan Rəbb sadəcə Onun halını bəyan etmək üçündür. Belə ki, bizləri Allah yaradıb və ruzimizi verən də Odur.

Xülasə, məzəmmət olunmağa ancaq insanlara zülm edənlər və yer üzündə haqsız yerə azğınlıq edənlər layiqdirlər.

Daha sonra müəllif İyad ibn Himardan nəql olunmuş hədisi qeyd edir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Uca Allah mənə vəhy etmişdir ki, təvazökar olun, heç kim heç kimə qarşı çıxmasın, heç kim də heç kimə qarşı lovğalanmasın"**.

Hədisin əvvəli fəslin mövzusuna dəlildir. Dəlildir ki, haqqa qarşı çıxmaq böyük günahdır. Bu Uca və Nöqsansız Allahın öz qullarına qarşı nə qədər diqqətli olduğunu göstərir. Bildirir ki, heç kim başqalarına qarşı çıxmasın və insan izzət və cəlal sahibi Allaha və haqqa qarşı təvazökar olmalıdır. Müvəffəq edən Allahdır.

١٥٩٠– وعن أبي هُريرةَ رضي الله عنه أنَّ رسُول الله ﷺ قَال: « إذا قال الرَّجُلُ: هلَكَ النَّاسُ، فهُو أهْلَكُهُمْ » رواه مسلم.

الرِّوايةُ المشْهُورةُ: « أهْلكُهُمْ » بِرفعِ الكافِ، ورُوِي بِنَصبِهَا. وهذا النَّهي لمنْ قالَ ذلكَ عجْباً بِنفْسِهِ، وتصاغُراً للناسِ، وارْتِفاعاً علَيْهِمْ، فهَذَا هُو الحرام، وأما منْ قالهُ لما يرى في الناس مِن نقْصٍ في أمْر دينِهِم، وقَالهُ تَحزُّناً علَيْهِمْ، وعلى الدِّينِ، فلا بأس بهِ. هَكَذا فَسَّرهُ العُلماءُ وفصَّلوهُ، ومِمنْ قالَه مِنَ الأئمةِ الأعْلام: مالكُ ابنُ أنسٍ،والخَطَّابيُّ، والحميدِيُّ وآخرونَ، وقد أوْضَحْته في كتاب « الأذْكَارِ ».

1590. Əbu Hureyradan رضي الله عنه rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Bir adam: "insanlar həlak oldu" deyərsə, o, həlak olanların ən böyüyü olar"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

---

[1] "əl-Bəqərə" surəsi, 21.

[2] "Səhih Muslim", 4755.

Məşhur rəvayət [ərəbcədə] "əhləkuhum" formasında varid olmuşdur. Bu da özünü bəyənərək başqalarını özündən aşağı görənlərə aiddir. Bu haramdır. Lakin biri başqalarının dinində naqislik gördükdə onların bu halına acıyaraq belə deyərsə, bunda bir qəbahət yoxdur. Alimlər buna bu cür təfsir vermis və onu bu cür açıqlamışlar. Böyük alimlərdən bunu Malik bin Ənəs, əl-Xəttabi, əl-Humeydi və başqaları demişlər. Mən bunları "əl-Əzkar" kitabında qeyd etmişəm.

Şərh:

Əbu Hureyradan rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Bir adam: "insanlar həlak oldu" deyərsə, o, həlak olanların ən böyüyü olar".**

Bu ifadə iki cür anlaşılır:

Birincisi, "insanlar həlak oldu", yəni "insanlar asiliklərə uyaraq fasiq oldular". O belə deməklə özünü təmizə çıxarmaq, başqasına isə tənə etmək istəyir. Beləsi insanların ən həlak olanıdır. Bu adamın əməlləri özü də bilmədən puç olur – Allaha asilik edən fasiqin yanından keçən adamın qissəsində olduğu kimi: o ona *davamlı* nəsihət etmiş, o isə fasiqliyində qalmışdı. Adam da demişdi ki, "Allaha and olsun ki, Allah filankəsi bağışlamayacaq". O bunu özünü bəyənərək və özünü izzət və cəlal sahibi Allahın yerinə qoyaraq demiş, Uca Allah da buyurmuşdu: "Özünü Mənim yerimə qoyaraq filankəsi bağışlamayacağımı deyən kimdir? Mən onu bağışladım, sənin əməllərini isə puç etdim". Çünki o, bu sözləri özünü bəyənərək, qürrələnərək, həm də izzət və cəlal sahibi Allahın rəhmətinin uzaq olduğunu güman edərək demişdi. İzzət və cəlal sahibi Allahın rəhmətini cahil olan kəsdən savayı kim uzaq saya bilər? Uca Allah buyurur: **"*İbrahim* dedi: "*Haqq yoldan* azanlardan başqa Rəbbinin mərhəmətindən kim ümidini üzər?".**[1]

"İnsanlar həlak oldu", "insanlar çaşıb", "insanlar fasiq olub" və ya buna bənzər sözlər deyən kəs özünü təmizə çıxarmaq, başqasına isə tənə vurmaq istəyir. Beləsi həlak olanların ən böyüyüdür. Allah qorusun!

[1] "əl-Hicr" surəsi, 56.

İki yüz səksəninci fəsil

Tərk olunası bidətlər, aşkar fasiqlik və buna bənzər əməllər istisna olmaqla, müsəlmanların bir-birilərini üç gündən artıq tərk etmələrinin haramlığı

Mövzu ilə əlaqəli ayələr:
Uca Allah buyurur:

﴿ إِنَّمَا ٱلْمُؤْمِنُونَ إِخْوَةٌ فَأَصْلِحُوا۟ بَيْنَ أَخَوَيْكُمْ ﴾

“Möminlər, həqiqətən də qardaşdırlar. Elə isə qardaşlarınızın arasını düzəldin”.[1]

﴿ وَلَا تَعَاوَنُوا۟ عَلَى ٱلْإِثْمِ وَٱلْعُدْوَٰنِ ﴾

“Günah işlər görməkdə və düşmənçilik etməkdə bir-birinizə yardım etməyin”.[2]

Mövzu ilə əlaqəli hədislər:

١٥٩١– وعنْ أنَسٍ ﷺ قال: قال رسُولُ اللَّهِ ﷺ: « لا تَقَاطَعُوا، ولا تَدابروا، ولا تباغضُوا، ولا تحاسدُوا، وكُونُوا عِبادَ اللَّهِ إخْواناً. ولا يحِلُّ لمُسْلِمٍ أنْ يهْجُرَ أخَاهُ فَوقَ ثَلاثٍ » متفقٌ عليه.

1591. Ənəsdən ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **“Bir-birinizlə əlaqəni kəsməyin, bir-birinizə arxa çevirməyin, bir-birinizə nifrət etməyin, bir-birinizə həsəd aparmayın. Ey Allahın qulları, qardaş olun! Heç bir müsəlmana öz qardaşını üç gündən artıq tərk etməsi halal deyildir”**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

---

[1] “əl-Hücurat” surəsi, 10.

[2] “əl-Maidə” surəsi, 2.

[3] “Səhih əl-Buxari”, 5612; “Səhih Muslim”, 1858.

١٥٩٢– وعنْ أبي أيوبَ ﷺ أنَّ رسُول اللَّه ﷺ قَال: « لا يحِلُّ لِمُسْلِمٍ أنْ يَهْجُرَ أخَاهُ فوْقَ ثَلاثِ لَيالٍ: يلتَقِيانِ، فيُعرِضُ هذا ويُعرِضُ هذا، وخَيْرُهُما الَّذِي يبْدأ بالسَّلامِ » متفقٌ عليه.

1592. Əbu Əyyubdan ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Heç bir müsəlmana öz qardaşını üç gecədən artıq tərk etməsi, qarşılaşan *bu* iki nəfərin bir-birilərindən üz çevirmələri halal deyildir. Onlardan ən xeyirlisi salama ilk başlayandır"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٥٩٣– وعنْ أبي هُريرةَ ﷺ قَال: قَال رسُولُ اللَّه ﷺ: « تُعْرضُ الأعْمالُ في كُلِّ اثنين وخَميس، فيغفِر اللَّه لِكُلِّ امْرِيءٍ لا يُشْرِكُ بِاللَّهِ شَيْئاً، إلا امْرءًا كَانَتْ بيْنَهُ وبيْنَ أخِيهِ شَحْناءُ، فيقُولُ: اتْرُكُوا هذَينِ حتَّى يصْطلِحا » رواه مسلم.

1593. Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **«Hər bazar ertəsi və cümə axşamı günləri əməllər ərz olunur. Allah özünə şərik qoşmayan hər kəsi bağışlayır. Yalnız qardaşı ilə küsülü olanlardan başqa. Buyurur ki: "Barışanadək onları tərk edin!"».**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١٥٩٤– وعَنْ جابرٍ ﷺ قَال: سمِعْتُ رسُول اللَّه ﷺ يقُولُ: « إنَّ الشَّيْطَانَ قَدْ يئسَ أنْ يَعْبُدهُ المُصلُّون في جَزيرةِ العربِ ولكِن في التَّحْرِيشِ بيْنهم » رواه مسلم.

« التَحْرِيشُ » الإفسادُ وتغييرُ قُلُوبِهم وتَقَاطُعُهم.

1594. Cabirdən ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Həqiqətən də, şeytan Ərəbistan yarımadasında namaz qılanların ona ibadət edəcəyindən ümidini üzüb. Yalnız onların arasında fəsad olması istisnadır".**

Hədisi Muslim rəvayət etmişdir.[3]

[Hədisin ərəbcəsində keçən] "ət-təhriş" sözünün mənası fəsad yaratmaq, qəlblərinin dəyişməsi və onlar arasındakı əlaqələrin kəsilməsidir.

---

[1] "Səhih əl-Buxari", 5768; "Səhih Muslim", 4643.

[2] "Səhih Muslim", 4653.

[3] "Səhih Muslim", 5030.

١٥٩٥- وعنْ أبي هريرة ﷺ قَال: قال رسول الله ﷺ « لا يحِلُّ لمسْلِمٍ أنْ يهْجُرَ أخَاه فوْقَ ثَلاثٍ، فمنْ هَجر فَوْقَ ثلاثٍ فمات دخَل النَار ».

رواهُ أبو داود بإسْنادٍ على شرْطِ البخاري.

1595. Əbu Hureyradan ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Heç bir müsəlmana qardaşını üç gündən artıq tərk etməsi halal deyil. *Qardaşını* üç gündən artıq tərk edib ölən adam Cəhənnəmə daxil olar".**

Əbu Davud bu hədisi Buxari və Muslimin şərtlərinə uyğun isnadla rəvayət etmişdir.[1]

١٥٩٦– وعَنْ أبي خرَاشٍ حدْرَدِ بن أبي حدْردٍ الأسْلمي، ويُقَالُ السُّلمي الصَّحابِي ﷺ أنَّهُ سَمِعَ النبي ﷺ يقُولُ: « منْ هَجر أخاهُ سَنَةً فَهُو كَسفْكِ دمِهِ ».رواه أبو داود بإسناد صحيح.

1596. Əbu Xiraş Hədrad ibn Əbi Hədrad əl-Əsləmidən, – ona səhabə əs-Suləmi ﷺ də deyilir, – rəvayət olunur ki, o, Peyğəmbərin ﷺ belə dediyini eşitmişdir: **"Qardaşını bir il tərk edən adam onun qanını tökmüş kimidir"**.

Hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.[2]

١٥٩٧– وعنْ أبي هُرَيْرةَ ﷺ أنَّ رسُولَ اللَّهِ ﷺ قَالَ: « لا يَحِلُّ لمُؤْمِنٍ أنْ يهْجُرَ مُؤْمِناً فَوْقَ ثَلاثٍ، فَإنْ مرَّتْ بِهِ ثَلاثٌ، فَلْيَلْقَهُ، ولْيُسَلِّمْ عَلَيْهِ، فَإن رَدَّ عليهِ السَّلام، فقَدِ اشْتَرَكَا في الأجْرِ، وإنْ لَمْ يَرُدَّ عَلَيْهِ، فَقَدْ باءَ بالإثمِ، وخَرَجَ المُسلِّمُ مِن الهجْرةِ».

رواهُ أبو داود بإسنادٍ حسن. قال أبو داود: إذا كَانَتِ الهجْرَةُ للَّهِ تَعالى فَلَيْس مِنْ هذَا في شيءٍ.

1597. Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Heç bir möminə üç gündən artıq bir mömini tərk etməsi halal deyil. Üç gündən artıq vaxt keçdisə, onunla qarşılaşdıqda ona salam**

[1] "Sunən Əbu Davud", 4268.

[2] "Sunən Əbu Davud", 4269.

versin. Əgər ona salamı qaytarsa, əcrdə onunla həmşərik olar. Əgər onun salamını qaytarmasa, günaha batmış olar. Salam verən kimsə isə tərk etmənin məsuliyyətindən çıxmış olar".

Hədisi Əbu Davud həsən isnadla rəvayət etmiş və demişdir: "Əgər tərketmə Uca Allah üçündürsə, buna aid deyil".[1]

Şərh:

Müəllifin ﵀ "**Tərk olunası bidətlər, aşkar fasiqlik və buna bənzər əməllər istisna olmaqla, müsəlmanların bir-birilərini üç gündən artıq tərk etmələrinin haramlığı**" fəslində qeyd etdiyi hədislər barədə müfəssəl şəkildə əvvəldə söhbət açmışıq. Bildirmişdik ki, heç bir müsəlman başqa müsəlmanı üç gündən artıq tərk etməməlidir. Üç gündən az müddətdə isə tərk edə bilər. Lakin yaxşı olar ki, bunu da etməsin. Lakin bunu edə bilər. Çünki ola bilsin ki, bəzən insanla qardaşı arasında bir anlaşılmazlıq olur və onu tərk edir. Peyğəmbər ﷺ bu müddətin üç günədək olmasına rüxsət vermişdir. Bundan sonra isə gərək o, salam verə. Ancaq əgər tərketmə dini səbəbdən baş vermişdirsə, misal üçün, tərk olunan şəxsin bununla islah olunmasına, etdiyi günahı tərk etməsinə səbəb olacaqsa, bunda bir qəbahət yoxdur. Hətta ola bilsin ki, bu vacib olsun.

Peyğəmbər ﷺ Təbuk döyüşünə getməmiş Kəb ibn Malikin və onun iki dostu Hilal ibn Umeyyə və Murara ibn ər-Rabinin tərk olunmasını əmr etmişdi. Peyğəmbər ﷺ döyüşdən qayıtdıqdan sonra münafiqlər Rəsulullahın ﷺ yanına gələrək üzürlü olduqlarına and-aman etməyə başlayırlar. Uca Allah buyurur: **"Yanlarına qayıtdığınız zaman onlardan əl çəkəsiniz deyə, qarşınızda Allaha and içəcəklər. Siz onlardan üz döndərin, çünki onlar murdardırlar. Qazandıqları *günahların* cəzası olaraq gedəcəkləri yer Cəhənnəm olacaqdır. Qarşınızda and içəcəklər ki, onlardan razı qalasınız. Siz onlardan razı olsanız da, Allah fasiq qövmdən razı qalmaz".**[2]

Onlardan razı olsanız belə, bunun onlara faydası olmur. Bu üç nəfərə isə Allah düzgünlük nəsib etmişdi. Onlar gəlib Peyğəmbərə ﷺ xəbər verdilər ki, onlar üzürsüz olaraq döyüşə qatılmamışdılar. Bu hədisin şərhini qeyd etmişdik.

---

[1] "Sunən Əbu Davud", 4266.

[2] "ət-Tövbə" surəsi, 95-96.

Kəb ibn Malik və onun iki dostunun tərk olunmasında böyük fayda üzə çıxdı – onlar Allaha tərəf yönəlmiş, Allaha və Rəsulullaha ﷺ qarşı sadiq olmuş və imanlarında sabit qalmışdılar. Beləcə onların tərk olunmalarında böyük bir fayda var idi. Əgər asilik edən və ya vacibi tərk edən, yaxud da haram iş görən kəsin tərk olunmasından fayda gözlənilirsə, bu zaman həmin fayda əldə olunanadək tərk olunar. Bir kəsin tərk olunması faydasız olarsa, halını daha da ağırlaşdırarsa və onu xeyir əhlindən daha da uzaqlaşdırarsa, bu zaman o tərk olunmur. Çünki şəriət məsləhətlərlə gəlmişdir, onun ziddi ilə deyil. Görsək ki, asi birini tərk etməyimiz onun şərini, bizə və bizdə olan xeyirə nifrətini artıracaqsa, bu zaman o tərk olunmur. Beləsinə salam da veririk, onun salamını da alırıq. Çünki o, Allaha asi olsa da, mömindir. Mömin olan kəs isə üç gündən artıq tərk olunmaz. Tərk etməklə bağlı əhkamlar belədir.

Odur ki, bəzi müsəlmanların qardaşının yanından keçərkən birinin digərinin çiyninə vurmasını və salam verməməsini görmək mənə pis gəlir. Allah qorusun! O sanki bir ət parçasının, yəhudinin və ya nəsraninin yanından keçir. Axı o, onun qardaşıdır – ona salam verdikdə on savab, iman, sevgi, mehribanlıq və Cənnətə daxil olma qazanır. Peyğəmbər ﷺ demişdir: **"Allaha and olsun ki, iman gətirməyincə Cənnətə daxil olmazsınız, bir-birinizi sevməyincə də iman gətirməzsiniz. Sizə elə bir şeyi deyimmi ki, onu etdikdə bir-birinizi sevəsiniz? – Salamı aranızda yayın"**.[1] Bu sözlərlə o bəyan etmişdir ki, salamı yaymaq sevginin səbəblərindən və imandandır. İman isə Cənnətə daxl olmağa səbəbdir.

Əfsuslar olsun ki, bəzi müsəlmanlar qarşılaşır, ancaq bir-birilərinə salam vermirlər. Ola bilsin ki, onlar daha əvvəl sinif yoldaşı olublar, istər məsciddə bir yerdə təhsil alsınlar, istərsə də universitetdə, yaxud institutda və ya başqa məktəblərdə. Bəs elm tələb etməyin faydası hanı? Əgər elm tələbəsi Quran və Sünnənin işarə etdiyi və Rəsulullahın ﷺ malik olduğu gözəl tərbiyəni almayıbsa, habelə əgər o, cahillə eynidirsə və ya cahil ondan daha faydalıdırsa, bu elmin nə faydası var? Bu səbəbdən böyük faydaları olduğu üçün salamı yaymağı tövsiyə edirəm. Bu faydalıdır və zərərli deyil. Çünki o, dilin əməlidir. Dil isə səhərdən axşama qədər işləsə də yorulmur.

[1] "Səhih Muslim", 81.

Salamı qaytarmaq isə belədir: "və aleykum əssəlam". Uca Allah buyurur: **"Sizə salam verildiyi zaman ondan daha yaxşı şəkildə və ya onun mislində salamı geri qaytarın**".[1]

Ayədə Rəbbimiz ilk öncə daha yaxşı olanı, sonra isə kifayət miqdarını qeyd edir: **"və ya onun mislində salamı geri qaytarın**". Çoxlarının salamlaşmaq üçün dediyi "Xoş gəlmisən" sözündə isə dua yoxdur. Dua "əssəlamu aleykum" deməkdir. Odur ki, bu duaya: "və aleykum əssəlam" deməklə cavab ver.

Allahdan bizə və sizə hidayət, müvəffəqiyyət, tövbə və günahlardan uzaqlaşma diləyirəm. Şübhəsiz ki, o, hər şeyə qadirdir.

[1] "ən-Nisa" surəsi, 86.

İki yüz səksən birinci fəsil

Üçüncü adamın yanında iki nəfərin gizli danışmasının qadağan olunması

Mövzu ilə əlaqəli ayə:
Uca Allah buyurur:

﴿ إِنَّمَا ٱلنَّجۡوَىٰ مِنَ ٱلشَّيۡطَٰنِ لِيَحۡزُنَ ٱلَّذِينَ ءَامَنُواْ ﴾

"Gizli söhbətlər iman gətirənləri kədərləndirməyə çalışan şeytandandır".[1]

Mövzu ilə əlaqəli hədislər:

١٥٩٨– وعن ابْنِ عُمَرَ رضي الله عنهما أنَّ رسُولَ اللَّهِ ﷺ قَال: « إذا كَانُوا ثَلاثَةً، فَلا يَتَنَاجَى اثْنَانِ دُونَ الثَّالِثِ » متفقٌ عليه.

ورواه أبو داود وَزاد: قَالَ أَبُو صالح: قُلْتُ لابْنِ عُمرَ: فأربعة؟ قَالَ: لا يضرُّكَ».

ورواه مالك في « المُوطأ »: عنْ عبْدِ اللَّهِ بنِ دِينَارٍ قَالَ: كُنْتُ أنَا وَابْنُ عُمرَ عِند دارِ خالِدِ بن عُقبَةَ التي في السُّوقِ، فَجاءَ رجُلٌ يُريدُ أنْ يُنَاجِيَهُ، ولَيْس مع ابنِ عُمر أحَدٌ غَيْري، فَدعا ابنُ عُمرَ رجُلاً آخر حتَّى كُنَّا أرْبَعَةً، فقال لي وللرَّجُلِ الثَّالِثِ الَّذي دَعا: اسْتَأخِرا شَيْئاً، فإنِّي سَمِعْتُ رسُولَ اللَّه ﷺ يَقُولُ: « لا يَتَنَاجَى اثْنَانِ دونَ وَاحدٍ ».

1598. İbn Ömərdən رضي الله عنهما rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Üç nəfər bir yerdə olduqda onlardan ikisi öz aralarında gizli danışmasın".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Əbu Davudun rəvayətində isə belə bir əlavə vardır: "Əbu Saleh deyir ki, mən İbn Ömərə dedim: "Bəs dörd nəfər *olduqda*?" Dedi: "Bunun sənə zərəri olmaz".

---

[1] "əl-Mücadələ" surəsi, 10.

[2] "Səhih əl-Buxari", 5814; "Səhih Muslim", 4052.

Malik "əl-Muvatta" əsərində belə rəvayət edir: Abdullah ibn Dinar demişdir: "Bir dəfə mən İbn Ömərlə birlikdə Xalid ibn Uqbənin bazardakı evində idik. Bu zaman bir kişi gəlib onunla gizli danışmaq istədi. Həmin vaxt İbn Ömərin yanında məndən savayı heç kim yox idi. Onda İbn Ömər başqa bir adam çağırdı və biz dörd nəfər olduq. Sonra mənə və çağırdığı üçüncü adama dedi: «Bir qədər aralı durun. Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Bir nəfəri qoyub iki nəfər gzilində danışmasın"**».

١٥٩٩– وَعن ابنِ مسْعُودٍ رضي الله عنه أنَّ رسُولَ اللَّهِ ﷺ قال: « إذا كُنْتُمْ ثَلاثة، فَلا يَتَنَاجى اثْنَانِ دُونَ الآخَرِ حتَّى تخْتَلِطُوا بالنَّاسِ، مِنْ أجْل أنَّ ذَلكَ يُحزِنُهُ » متفقٌ عليه.

1599. İbn Məsuddan رضي الله عنه rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"İnsanlara qarışmayınca bir yerdə olan üç nəfərdən ikisi bir nəfəri *tək* qoyub öz aralarında danışmasın"**.

Şərh:

Hafiz ən-Nəvəvi رحمه الله İslamın təşviq etdiyi ədəb normalarından birini – **"Üçüncü adamın yanında iki nəfərin gizli danışmasının qadağan olunması"** fəslini qeyd edir və buna dəlil olaraq Uca Allahın aşağıdakı bu ayəsini gətirir: **"Gizli söhbətlər iman gətirənləri kədərləndirməyə çalışan şeytandandır".**[1] Yəni üçüncü adamın yanında iki nəfərin gizli danışması şeytandandır.

Uca və nöqsansız Allah şeytanın belə gizli danışıqlarla nə istədiyini bəyan edərək buyurur: **"Gizli söhbətlər iman gətirənləri kədərləndirməyə çalışan şeytandandır. Amma Allahın izni olmadıqca o onlara heç bir zərər yetirə bilməz".**

Müsəlmanlar iman etməyənlərin yanına gəldikdə onlar öz aralarında gizli danışar və məxfi söhbət aparardılar. Belə edərdilər ki, möminlər hüzn çəksinlər və desinlər ki, bunlar bizə pislik etmək istəyirlər. Çünki möminlərin münafiq və kafirlərdən olan düşmənləri iman əhlini daim kədərləndirməyə çalışır. Şeytanın İslam düşmənlərindən istədiyi də elə budur – o hər zaman və hər bir halda möminləri kədərləndirmək istəyir.

[1] "əl-Mücadələ" surəsi, 10.

Uca Allah buyurur: **"Gizli söhbətlər iman gətirənləri kədərləndirməyə çalışan şeytandandır. Amma Allahın izni olmadıqca o, onlara heç bir zərər yetirə bilməz".**

Kim Allaha təvəkkül edərək Ona etimad göstərərsə, Ona heç kim zərər verə bilməz. Peyğəmbərin ﷺ İbn Abbasa رضي الله عنهما dediyi kimi: **"Bil ki, əgər ümmət bir araya gələrək sənə fayda vermək istəsə, Allahın sənə yazdığından başqa sənə heç bir fayda verə bilməzlər".**[1]

Əlqərəz, onlar öz aralarında möminlərin hüzn çəkmələri üçün gizli söhbətləşirlər.

Sonra müəllif İbn Ömər və İbn Məsudun رضي الله عنهما bu mənada olan hədisini qeyd edir ki, Peyğəmbər ﷺ üçüncü adamın yanında iki nəfərin gizli danışmasını qadağan etmişdir. Çünki bu zaman üçüncü adam kədərlənir və deyir ki, nə üçün məni danışdırmadılar, niyə məndən gizlin danışırlar. Bu da əgər onlar barəsində yaxşı zənn edərsə belə olur. Ola da bilsin ki, onlar barəsində pis zənn etmiş olsun.

Kimsə desə ki, mənimlə dostum arasında xüsusi bir məsələ varsa və mən də kimsənin həmin məsələni bilməsini istəmirəmsə, onda necə?

Deyirik: Abdullah ibn Ömərin رضي الله عنهما etdiyi kimi et. Bir nəfər də çağır ki, dörd nəfər olasınız. Bu zaman iki nəfər gizlində danışa bilər, digər iki nəfər də öz aralarında. İbn Ömər رضي الله عنهما də belə etmişdir. İbn Məsuddan nəql olunmuş hədis də buna dəlalət edir: **"İnsanlarla qarışanadək"**. İnsanlara qarışdıqda problem aradan qalxmış olur. Bu mümkün olmadıqda və onlar kimisə tapmadıqda isə gərək üçüncü adamdan icazə alsınlar. Əgər izin versə, bu onun haqqıdır. Bu zaman o kədərlənmir və buna önəm vermir.

Üçüncü adamın yanında iki adamın gizli danışmasına o da aiddir ki, iki nəfər müəyyən bir dili bilir, üçüncü isə onu bilmir. İki nəfər öz arasında həmin dildə danışır, üçüncü adam isə onları eşitsə də, dediklərini anlamır. Bu da üçüncü adamın yanında iki adamın gizli danışmasına aiddir. Çünki bu, üçüncü adamı kədərləndirir və o düşünür ki, görəsən niyə onlar məni tərk edib öz aralarında danışırlar. Ola bilər ki, onlar barəsində hətta pis zənn etsin və münasibətə son qoysun. Müvəffəq edən Allahdır.

[1] "Sunən ət-Tirmizi", 2440.

İki yüz səksən ikinci fəsil

Köləyə, heyvana, qadına və övlada şəri bir səbəb olmadan və ya ədəb normaları xaricində əzab verməyin qadağan olması

Mövzu ilə əlaqəli ayə:
Uca Allah buyurur:

﴿ وَٱعۡبُدُواْ ٱللَّهَ وَلَا تُشۡرِكُواْ بِهِۦ شَيۡـٔٗاۖ وَبِٱلۡوَٰلِدَيۡنِ إِحۡسَٰنٗا وَبِذِي ٱلۡقُرۡبَىٰ وَٱلۡيَتَٰمَىٰ وَٱلۡمَسَٰكِينِ وَٱلۡجَارِ ذِي ٱلۡقُرۡبَىٰ وَٱلۡجَارِ ٱلۡجُنُبِ وَٱلصَّاحِبِ بِٱلۡجَنۢبِ وَٱبۡنِ ٱلسَّبِيلِ وَمَا مَلَكَتۡ أَيۡمَٰنُكُمۡۗ إِنَّ ٱللَّهَ لَا يُحِبُّ مَن كَانَ مُخۡتَالٗا فَخُورًا ﴾

“Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın! Valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara, yaxın və uzaq qonum-qonşuya, yol yoldaşına, müsafirə və sahib olduğunuz *kölə və kənizlərə* yaxşılıq edin! Həqiqətən, Allah lovğalıq edənləri və özünü öyənləri sevmir”.[1]

Mövzu ilə əlaqəli hədislər:

١٦٠٠– وَعنِ ابنِ عُمر رضي الله عنهما أنَّ رسول اللَّهِ ﷺ قَال: « عُذِّبتِ امْرَأةٌ في هِرَّةٍ حبستها حَتَّى ماتَتْ، فَدَخلَتْ فِيهَا النَّارَ، لا هِيَ أطْعمتْهَا وسقَتْها، إذ هي حبَستْهَا ولا هِي تَركَتْهَا تَأكُلُ مِنْ خَشَاشِ الأرض » متفقٌ عليه.

« خَشَاشُ الأَرْضِ » وهي هَوامُّها وحشَراتُها.

1600. İbn Ömərdən رضي الله عنهما rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **“Bir qadın bir pişiyə görə Oda atılacaq və əzaba düçar olacaq. O, pişiyi ona yemək və su vermədən ölənədək həbs etmiş, pişiyin yerdəki həşəratlardan yeməsi üçün onu azad buraxmamışdı”.**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

[Hədisin ərəbcəsindəki] “xaşəşul ard” “yerdəki həşəratlar”dır.

---

[1] “ən-Nisa” surəsi, 36.

[2] “Səhih əl-Buxari”, 3223; “Səhih Muslim”, 4160.

١٦٠١– وعنْهُ أنَّهُ مرَّ بفِتْيَانٍ مِنْ قُرَيْشٍ قَدْ نصبُوا طَيْراً وهُمْ يرْمُونَهُ وقَدْ جعلُوا لِصاحبِ الطَّيْرِ كُلَّ خَاطِئَةٍ مِنْ نَبْلِهِمْ، فَلَمَّا رأوُا ابنَ عُمرَ تفَرَّقُوا فَقَالَ ابنُ عُمَرَ: منْ فَعَلَ هذا؟ لَعنَ اللَّه مَن فَعلَ هذا، إنَّ رسُولَ اللَّه ﷺ لَعَنَ من اتَّخَذَ شَيْئاً فِيهِ الرُّوحُ غَرضاً. متفقٌ عليه.

« الْغرَضُ »: بفتح الغين المعجمة، والراءِ وهُو الهَدفُ، والشَّيءُ الَّذي يُرْمَى إلَيهِ.

1601. Yenə İbn Ömərdən رضي الله عنهما rəvayət olunur ki, bir dəfə o, iki nəfər qureyşli gəncin bir quşu nişan alıb ona tərəf atdıqlarını gördü. Baxdı ki, hər səhv etdiklərində də quşun sahibinə bir nizə atırlar. Onlar İbn Öməri görən kimi aralaşdılar. İbn Ömər dedi: "Bunu kim edib? Bunu edənə Allah lənət eləsin! Rəsulullah ﷺ ruhu olan bir şeyi hədəf seçəni lənətləmişdir".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٦٠٢– وعَنْ أنَسٍ رضي الله عنه قَال: نَهَى رسُولُ اللَّه ﷺ أنَّ تُصْبَرَ الْبَهَائمُ. متفقٌ عليه، ومَعْنَاه: تُحْبسَ للْقَتْلِ.

1602. Ənəsdən رضي الله عنه rəvayət olunur ki, o demişdir: "Allahın elçisi ﷺ heyvanların həbs edilərək öldürülməsini qadağan etmişdir".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Mənası öldürmək üçün həbs etməkdir.

١٦٠٣– وَعَنْ أبي عَليٍّ سُوَيْدِ بنِ مُقَرِّنٍ رضي الله عنه، قَالَ: لَقَدْ رَأيْتُني سابِعَ سبْعَةٍ مِنْ بني مُقرِّنٍ مَالنَا خَادِمٌ إلاَّ واحِدةٌ لَطمها أصْغرُنَا فأمَرنَا رسُولُ اللَّه ﷺ أنْ نُعْتِقَها. رواه مسلم.

وفي روايةٍ: « سابِع إخْوةٍ لي ».

1603. Əbu Əli Suveyd ibn Muqarrindən رضي الله عنه rəvayət olunur ki, o demişdir: "Biz Muqarrin oğullarından yeddi nəfərin yalnız bir xidmətçimiz var idi. Bizim kiçiyimizin ona sillə vurmasına görə Peyğəmbər ﷺ onu azad etməyimizi buyurdu".

Hədisi Muslim rəvayət etmişdir.[3]

Başqa bir rəvayətdə: "Mənim yeddinci qardaşım" deyilir.

---

[1] "Səhih əl-Buxari", 5091; "Səhih Muslim", 3619.

[2] "Səhih əl-Buxari", 5089; "Səhih Muslim", 3616.

[3] "Səhih Muslim", 3133.

Şərh:

Müəllif ﵀ **"Köləyə, heyvana, qadına və övlada şəri bir səbəb olmadan və ya ədəb normaları xaricində əzab verməyin qadağan olması"** fəslini qeyd edir. Şəri səbəb olmadan onları vuraraq əzab vermək haramdır.

Sonra müəllif Uca Allahın bu ayəsini dəlil gətirir: **"Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın! Valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara, yaxın və uzaq qonum-qonşuya, yol yoldaşına, müsafirə və sahib olduğunuz *kölə və kənizlərə* yaxşılıq edin! Həqiqətən, Allah lovğalıq edənləri və özünü öyənləri sevmir".**[1]

Bütün bunlar haqq sahibləridir.

"Valideynlərə yaxşılıq edin". Onlar Peyğəmbərimiz Muhəmmədin ﷺ haqqından sonra insanlar arasında sənin üzərində ən böyük haqq sahibləridirlər.

"Qohum-əqrəbaya, yetimlərə, kasıblara". "Qohum-əqrəba" deyildikdə həm ata, həm də ana tərəfdən qohumlar nəzərdə tutulur. **"**Yetimlər" deyildikdə uşaq ikən ataları ölmüş kəslər nəzərdə tutulur. "Miskinlər" deyildikdə isə kasıblar nəzərdə tutulur. "Yaxın qonşu" deyildikdə yaxında olan, "uzaq qonşu" deyildikdə isə uzaq qonşu nəzərdə tutulur. "Yoldaş" deyildikdə həyat yoldaşı və ya yol yoldaşı nəzərdə tutulur. "Müsafir" deyildikdə isə yolda qalan adam nəzərdə tutulur. "Sahib olduğunuz" deyildikdə kölə və kənizlər, habelə heyvanlar nəzərdə tutulur. Hər bir insana onlara yaxşılıq etmək əmr olunmuşdur. İnsan olduqda öz yediyindən onlara da yedirməli, özü geyindiyindən ona da geyindirməli, onları layiqli yaşayış yeri ilə təmin etməldir. Onları taqətləri çatmayan şeylərlə mükəlləf etməməlidir.

Daha sonra müəllif ﵀ İbn Ömərdən ﵄ rəvayət olunan hədisi qeyd edir. Hədisdə deyilir ki, **"Bir qadın bir pişiyə görə Oda atılacaq və əzaba düçar olacaq. O, pişiyi ona yemək və su vermədən ölənədək həbs etmiş, pişiyin yerdəki həşəratlardan yeməsi üçün onu azad buraxmamışdı"**. Onun yanında yemək və su qoymamış, pişik də ölmüşdür. Həmin qadın da bu səbəbdən əzab çəkəcəkdir. Allah qorusun! Halbuki, bu adi bir pişikdir. Qadın ona belə bir pislik etmiş, onu ölənədək həbs etmişdir. Hədisdən anlaşılır ki, əgər pişiyin yanında kifayət qədər yemək və içmək qoymuş

[1] "ən-Nisa" surəsi, 36.

olsaydı, problem olmazdı. Qəfəslərdə saxlanılan quşlar da buna aiddir. Əgər insan onlara yemək və içmək verirsə, onu soyuqdan və istidən qoruyursa, bunda bir qəbahət yoxdur. Yox, əgər səhlənkarlıq edərsə, heyvan da həmin səhlənkarlıq səbəbindən ölərsə, buna görə əzab oluna bilər. Bu dəlildir ki, insan malik olduğu heyvanlarla bağlı diqqətli olmalıdır. Əgər bu heyvanlara qarşı belədirsə, onda insanlara qarşı daha diqqətli olmaq gərəkdir, çünki onlar hörmət olunmağa daha çox layiqdirlər.

İkinci hədisdə İbn Ömərdən ﵄ rəvayət olunur ki, bir dəfə o, iki qureyşli gəncin yanından keçirdi. Gördü ki, onlar bir quşu hədəf qoyub ona atırlar ki, kim daha düzgün vuracaq. Abdullah ibn Öməri gördükdə onlar ətrafa qaçırlar. O dedi: "Bu nədir?" Onlar ona xəbər verdilər, o da dedi: "Bunu edənə Allah lənət eləsin!" Sonra da bildirdi ki, Rəsulullah ﷺ ruhu olan bir şeyi hədəf seçəni lənətləmişdir. Çünki bu zaman həmin canlı əziyyət çəkir. Biri onu qanadından vurur, o birisi sinəsindən, digəri onu belindən vurur, başqa birisi onu başından vurur və o əziyyət çəkir. Bu səbəbdən Peyğəmbər ﷺ ruhu olan bir şeyi hədəf götürəni lənətləmişdir.

Ənəs ibn Malikdən ﵁ rəvayət olunan sonrakı hədisdə o demişdir: "Allahın elçisi ﷺ heyvanların həbs edilərək öldürülməsini qadağan etmişdir". Yəni heyvan əvvəlcə həbs olunur, sonra da öldürülür. Belə etmək olmaz. Çünki o, həbs edildisə, kəsilməsi gərəkdir. Tullantıya çevrilməsi isə halal deyil. Müvəffəq edən Allahdır.

١٦٠٤– وعنْ أبي مَسْعُودٍ البدْرِيّ ﵁ قَال: كُنْتُ أضْرِبُ غلاماً لي بالسَّوطِ، فَسمِعْتُ صوتاً مِنْ خَلفي: « اعلَمْ أبا مَسْعُودٍ » فَلَمْ أفْهَمْ الصَّوْتَ مِنَ الْغَضب، فَلَمَّا دنَا مِنِّي إذا هُو رسُولُ اللَّه ﷺ فَإذا هُو يَقُولُ: « اعلَمْ أبا مسْعُودٍ أنَّ اللَّه أقْدرُ علَيْكَ مِنْكَ عَلى هذا الغُلامِ » فَقُلْتُ: لا أضْربُ مملُوكاً بعْدَهُ أبداً.

وفي روَايةٍ: فَسَقَطَ السَّوْطُ مِنْ يدِي مِنْ هيْبتِهِ.

وفي روايةٍ: فقُلْتُ: يَا رسُول اللَّه هُو حُرٌّ لِوجْهِ اللَّه تعالى فَقَال: « أمَا لوْ لَمْ تَفْعَلْ، لَلَفَحَتْكَ النَّارُ، أوْ لمَسَّتكَ النَّارُ » رواه مسلم. بهذِهِ الرواياتِ.

1604. Əbu Məsud əl-Bədri ﵁ demişdir: "Bir dəfə mən köləmi qamçı ilə vurarkən arxadan bir səs eşitdim: **"Agah ol, ey Əbu Məsud"**. Hirsli olduğumdan səsi anlamadım. Adam yaxınlaşdıqda gördüm ki, Allahın

elçisidir ﷺ. Mənə dedi ki: **“Ey Əbu Məsud, agah ol ki, Allah, sən bu kölənin üzərində qadir olduğundan daha çox sənin üzərində qüdrətlidir”**. Mən dedim: “Bundan sonra əsla kölə döyməyəcəyəm”.

Başqa bir rəvayətdə deyilir: “Onun heybətindən qamçını əlimdən düşürdüm”.[1]

Digər bir rəvayətdə deyilir: «Mən dedim: “Ey Allahın elçisi, Uca Allahın üzü xatirinə onu azad etdim”. O dedi: **“Belə etməsəydin, səni od yandırardı və ya sənə od toxunardı”**».

Bu hədisi Muslim bu rəvayətlərlə nəql etmişdir.[2]

١٦٠٥– وَعنِ ابْنِ عُمر رضي الله عنهما أنَّ النبيَّ ﷺ قَال: « منْ ضرب غُلاماً له حَداً لم يأتِهِ، أو لَطَمَهُ، فإن كَفَّارتَهُ أن يُعْتِقَهُ » رواه مسلم.

1605. İbn Ömərdən رضي الله عنهما rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **“Kim etmədiyi bir işdən ötrü köləsini vurarsa və ya ona şapalaq vurarsa, onun kəffarəsi onu azad etməkdir”**.

Bu hədisi Muslim rəvayət etmişdir.[3]

١٦٠٦– وعن هِشَام بن حكيم بن حزامٍ رضي الله عنهما أنَّهُ مرَّ بالشَّامِ على أنَاسٍ مِنَ الأنباطِ، وقدْ أُقِيمُوا في الشَّمْس، وصُبَّ على رُؤُوسِهِم الزَّيْتُ، فَقَال: ما هَذا؟ قِيل: يُعَذَّبُونَ في الخَراجِ، وَفي رِوايةٍ: حُبِسُوا في الجِزيةِ. فَقَال هِشَامٌ: أشْهَدُ لسمِعْتُ رسُول اللَّهِ ﷺ يقُولُ: « إن اللَّه يُعذِّبُ الذِينَ يُعذِّبُونَ النَّاس في الدُّنْيا » فَدَخَل على الأمِيرِ، فحدَّثَهُ، فَأمر بِهِم فخُلُّوا. رواه مسلم « الأنبَاطُ » الفلاَّحُونَ مِنَ العجمِ.

1606. Hişam ibn Həkim ibn Hizamdan رضي الله عنه rəvayət olunur ki, bir dəfə o, Şamda bir qrup əkinçinin yanından keçəndə görür ki, onları günün altında saxlayıblar, başlarına da yağ tökülüb. O dedi: “Bu nədir?” Dedilər: “Onlara xəraca görə əzab verilir”. Başqa bir rəvayətdə: “Cizyəyə görə həbs olunublar”– deyilir. Hişam dedi: “Şahidlik edirəm ki, mən Rəsulullahın ﷺ: **“Şübhəsiz ki, Allah bu dünyada insanlara əzab verənlərə əzab verər”**

[1] “Səhih Muslim”, 3135.
[2] “Səhih Muslim”, 3136.
[3] “Səhih Muslim”, 3131.

dediyini eşitmişəm". Sonra o, əmirin yanına daxil oldu, onunla danışdı, o da əmr etdi ki, onları buraxsınlar.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

"Kəndçilər" dedikdə əcnəbi işçilər nəzərdə tutulur.

١٦٠٧– وعنِ ابنِ عبَّاسٍ ﵄ قَال: رأى رسُولُ اللَّه ﷺ حِماراً مْوسُومَ الوجْهِ، فأَنْكَر ذلكَ؟ فَقَال: وَاللَّهِ لا أسِمُهُ إلا أقْصى شَيءٍ مِنَ الوجْهِ، وَأمرَ بِحِمَارِهِ، فَكُوِيَ في جاعِرتَيْهِ، فهو أوَّلُ مَنْ كوى الجَاعِرتَيْنِ. رواه مسلم.

« الجاعِرتَانِ »: نَاحِيتَا الوركَيْن حوْل الدُّبُر.

1607. Rəvayət olunur ki, İbn Abbas ﵄ demişdir: "Bir dəfə Rəsulullah ﷺ üzü işarələnmiş bir uzunqulaq gördü. O, bunu pisləyərək dedi: **"Vallahi ki, mən onu üzünün ən son yerində işarələyərəm"**. Sonra əmr etdi ki, onun uzunqulağı arxa hissəsinin hər iki tərəfindən işarələndi. O, ilk dəfə arxadan işarə qoyan kəs idi".

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

[Hədisin ərəbcəsindəki] "əl-cairateyn" sözü "arxa hissənin iki tərəfi" mənasındadır.

١٦٠٨– وعَنْهُ أنَّ النبيَّ ﷺ: مَرَّ علَيهِ حِمَارٌ قد وُسِم في وجْهِه فقَال: لعن اللَّه الَّذي وسمهُ » رواه مسلم.

وفي رواية لمسلم أيضاً:نَهى رسُولُ اللَّه ﷺ عن الضَّرْبِ في الوجهِ،وعنِ الوسْمِ في الوجهِ.

1608. Yenə İbn Abbasdan ﵄ rəvayət olunur ki, bir dəfə Peyğəmbər ﷺ üzünə işarə qoyulmuş bir uzunqulaq görüb dedi: **"Bu işarəni qoyana Allah lənət eləsin!"**

Bu hədisi Muslim rəvayət etmişdir.[3]

Muslimin başqa bir rəvayətində deyilir: "Rəsulullah ﷺ üzə vurmağı və üzə damğa vurmağı qadağan etmişdir".[4]

---

[1] "Səhih Muslim", 4733.

[2] "Səhih Muslim", 3954.

[3] "Səhih Muslim", 3953.

[4] "Səhih Muslim", 3952.

Şərh:

Hafiz ən-Nəvəvi **"Köləyə, heyvana, qadına və övlada şəri bir səbəb olmadan və ya ədəb normaları xaricində əzab verməyin qadağan olması"** fəslində bu hədisləri qeyd etmişdir. Çünki ədəb verməkdə məqsəd ağrı və əziyyət vermək deyil, islah etməkdir.

Odur ki, vurmadan da ədəb normalarını öyrətmək mümkün olduğu halda köləni vurmaq olmaz. Əgər başqa üsulla öyrənməsə, o zaman vura bilər. Vurduqda isə əziyyətverici zərbələrdən çəkinməlidir. İzzət və cəlal sahibi Allah qadınlar barədə buyurur: **"Özbaşınalıq etmələrindən qorxduğunuz qadınlara nəsihət edin, *bunun faydası olmadığı təqdirdə* yataqda onları tərk edin, *bu da fayda verməzsə*, onları döyün".**[1] Bununla O vurmağı üçüncü mərhələdə qeyd etmişdir. Vurmaqdan da məqsəd ağrıdıcı olması və əziyyət vermək deyil, ədəbləndirmək olmalıdır.

Sonra müəllif Əbu Məsud əl-Bədrinin hədisini qeyd edir. O rəvayət edir ki, o, öz köləsini qamçı ilə vurarkən arxadan bir səs eşitdim: **"Agah ol, ey Əbu Məsud"**. Hirsli olduğumdan səsi anlamadım. Adam yaxınlaşdıqda gördüm ki, Allahın elçisidir ﷺ. Mənə dedi ki: **"Ey Əbu Məsud, agah ol ki, Allah, sən bu kölənin üzərində qadir olduğundan daha çox sənin üzərində qüdrətlidir"**. Yəni ona izzət və cəlal sahibi Allahın qüdrətini xatırladaraq bildirir ki, Allah, onun köləsi üzərində qadir olduğundan daha çox onun üzərində qüdrət sahibidir. İzzət və cəlal sahibi Allah qeyd etdiyimiz ayənin davamında buna işarə edir: **"Əgər sizə itaət etsələr, onlara *əziyyət vermək üçün başqa* yol axtarmayın. Həqiqətən, Allah ucadır, böyükdür".**[2]

Səhabə gördükdə ki, bu böyük moizəni verən Allahdır və o deyir ki, Allah, onun köləsi üzərindəki qüdrətindən daha çox onun öz üzərində qadirdir, Rəsulullahın ﷺ heybətindən qamçısı əlindən düşür. Sonra da o, həmin köləni azad edir. Bu da onun gözəl fəhmi səbəbindən idi. Çünki Uca Allah buyurur: **"Həqiqətən, yaxşı işlər pis əməlləri silib aparır".**[3]

Beləcə ona pislik etmək əvəzinə azad etməklə ona yaxşılıq etmiş oldu. Peyğəmbər ﷺ də buna təşviq edir ki, kim *haqsız olaraq* köləsini döyərsə və

---

[1] "ən-Nisa" surəsi, 34.

[2] "ən-Nisa" surəsi, 34.

[3] "Hud" surəsi, 114.

ya ona şapalaq vurarsa, bunun kəffarəsi onu azad etməkdir. Çünki yaxşılıqlar pislikləri aparır.

Müəllif daha sonra xərac məsələsinə görə həbs olunmuş kəslərlə bağlı Hişam ibn Həkim ibn Hizamın hədisini qeyd edir. Onlar ənbatlar idilər. Ona görə ənbat adlandırılmışdılar ki, onlar su çıxarırdılar. Onlar Şamdan gəlmiş kəndlilər idi və xərac borcları var idi, borclarını isə ödəməmişdilər. Oranın valisi də onlara ağrıdıcı bir cəza vermişdi. Hişam da əmirin yanına daxil olaraq ona bu barədə xəbər verir, əmir də onları buraxır. Bu da dəlildir ki, sələflər rəhbərlərə gözəl şəkildə nəsihətlər verərdilər. Belə ki, onlar rəhbərin yanına gedərək ona nəsihətlər verərdilər. Əgər nəsihəti qəbul edərdilərsə nə gözəl, qəbul etmədikdə isə nəsihət edənin boynundan məsuliyyət götürülərək rəhbərin üzərinə qoyulardı. Lakin izzət və cəlal sahibi Allahdan qorxan rəhbərlərə Allahın ayələri xatırladıldıqda onlar bunu görməzdən və ya eşitməzdən gəlməzdilər. Bu rəhbər də nəsihətə qulaq verərək onları azad etdi. Bu da dəlildir ki, bu həddə çatan cəza yolverilməzdir.

Müəllifin qeyd etdiyi hədislərdən biri də nişanə qoyulması ilə bağlıdır.

Heyvanların seçilməsi üçün üzlərinə dağ basılması haramdır və bu, böyük günahlardan hesab olunur. Çünki Peyğəmbər ﷺ bunu edəni lənətləmişdir. "Dağ basmaq" deyildikdə heyvanın üzərinə əlamət qoyulması anlaşılır.

[Hədisin ərəbcəsində işlənən] "vasm" sözü "əs-simmə" sözündən götürülüb, mənası da "əlamət" deməkdir. Heyvandarlıqla məşğul olanlar adətən öz heyvanlarına nişanə qoyurlar. Hər qəbilənin özünün bir nişanəsi olur. Ya qoşa xətt, ya dörbucaq, ya dairə, ya da aypara formasında olur. Beləcə hər bir qəbilənin özünəməxsus nişanəsi olur. Bu onun üçün idi ki, itmiş heyvan tapılarkən bəlli olurdu ki, hansı qəbiləyə məxsusdur və onlara bu barədə xəbər verilirdi. Bu nişanə iddialar məsələsində də bir sübut hesab olunur. Bir adam üzərində nişanə olan bir heyvan taparaq onun özünə məxsus olduğunu iddia edərsə, bu əlamət onun iddiasının doğruluğuna dəlil ola bilər. Bununla da o qarşı tərəfdən üstün ola bilər. Bu, Sünnədə sabit olmuş məsələlərdəndir. Belə ki, Peyğəmbər ﷺ, habelə ondan sonrakı xəlifələr sədəqəlik dəvələrə nişanə qoyardılar.

Lakin üzə nişanə qoymaq, üzə vurmaq və təhqir etmək olmaz. Çünki o, heyvanın gözəlliyidir. Boyun hissəsində, ayaqda, bud və ya bədənin hər hansı bir başqa yerində nişanə qoymaq isə olar.

Bu da dəlildir ki, lənətə səbəb olan bir əməl görən kəs: "Allahım, bunu edənə lənət et!" desə, günah qazanmış olmur. Üzünə nişanə qoyulmuş bir heyvanı gördüyümüzdə və: "Allahım, bu nişanəni qoyanı lənətlə" deməyimizdə bir qəbahət yoxdur. Diqqət edin, biz "filankəsin oğlu filankəsi" demirik, biz sadəcə Peyğəmbərin ﷺ söylədiyi kimi deyirik ki, bunu edənə lənət et.

Həmçinin küçədə nəcislə rastlaşsaq deyə bilərik ki, bura nəcis atana lənət olsun. Çünki Peyğəmbər ﷺ demişdir: **"Lənətə səbəb olan üç əməldən çəkinin: su hövzələrində, yola və kölgəyə təbii ehtiyacı rəf etmək".**[1]

Allah bizləri və sizləri sevib razı qaldığı əməllərə müvəffəq etsin və bizi əməlisaleh və islah edən bəndələrindən etsin.

[1] "Sunən Əbu Davud", 24; "Sunən İbn Macə", 323.

İki yüz səksən üçüncü fəsil

Heyvanlara, hətta qarışqaya belə odla işgəncə verməyin haramlığı

Mövzu ilə əlaqəli hədislər:

١٦٠٩– عنْ أبي هُرَيْرة ﷺ قَال: بعثنا رسُولُ اللَّه ﷺ في بعثٍ فَقال: «إن وجدْتُم فُلاناً وفُلاناً » لِرجُلَيْنِ مِنْ قُريش سمَّاهُمَا « فأحْرِقُوهُمَا بالنَّارِ » ثُمَّ قَال رسُولُ اللَّهِ ﷺ حِينَ أردْنا الخُرُوج: « إنّي كُنْتُ أمرْتُكمْ أن تُحْرقُوا فُلاناً وفُلاناً، وإنَّ النَّار لا يُعَذبُ بِهَا إلا اللَّه، فَإنْ وجَدْتُموهُما فَاقْتُلُوهُما » رواه البخاري.

1609. Əbu Hureyra ﷺ rəvayət edir ki, "Bir dəfə Rəsulullah ﷺ bizi bir yerə göndərdi və dedi: **"Əgər filankəs və filankəsi görsəniz,** – o bizə Qureyşdən olan iki nəfərin adını dedi, – **ikisini də odla yandırın"**. Biz çıxmaq istədikdə isə Rəsulullah ﷺ dedi: **"Sizə filankəs və filankəsi yandırmağınızı əmr etmişdim. Allahdan başqa odla heç kim cəza verə bilməz. Onları tapsanız öldürün"**.

Bu hədisi Buxari rəvayət etmişdir.

١٦١٠– وعن ابنِ مسْعُودٍ ﷺ قَال: كُنَّا مع رسُولِ اللَّه ﷺ في سفَر، فَانْطَلَقَ لحَاجتِهِ، فَرأيْنَا حُمَّرةً معَهَا فَرْخَانِ، فَأَخذْنَا فَرْخيْهَا، فَجَاءتْ الحُمَّرةُ تَعْرِشُ فجاءَ النبي ﷺ فقال: « منْ فَجع هذِهِ بِولَدِهَا؟ رُدُّوا وَلَدهَا إليْهَا » وَرأى قَرْيَةَ نَمْلٍ قَدْ حرَّقْنَاهَا، فَقال: « مَنْ حرَّقَ هذِهِ؟ » قُلْنَا: نَحْنُ. قَالَ: « إنَّهُ لا ينْبَغِي أنْ يُعَذِّب بالنَّارِ إلاَّ ربُّ النَّارِ ». رواه أبو داود بإسناد صحيح.

قوله: « قَرْيةَ نَمْلٍ » معناهُ: موْضِعُ النَّمْلِ مَع النَّملِ.

1610. Rəvayət olunur ki, İbn Məsud ﷺ demişdir: "Bir dəfə biz Rəsulullahla ﷺ birlikdə səfərdə idik. O, təbii ehtiyacını rəf etməyə getdi. Biz yanında iki balası olan bir quş gördük və onun balalarını götürdük. Quş gəlib qanad çalmağa başlayır. Peyğəmbər ﷺ gəlib dedi: **"Bu quşu balası ilə kim narahat edib? Balalarını özünə qaytarın".** Biz yandırdığımız

qarışqa yuvasını gördükdə dedi: **“Bunu kim yandırıb?”** Biz dedik: “Biz”. Dedi: **“Od sahibindən başqa heç kim odla əzab verə bilməz”.**

Hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.[1]

[Hədisin ərəbcəsində işlənən] “qarışqa kəndi” sözü ilə qarışqa yuvası nəzərdə tutulur.

Şərh:

Müəllif ﵀ “**Heyvanlara, hətta qarışqaya belə odla işgəncə verməyin haramlığı”** fəslini qeyd edir. Yəni bir insana odla əzab vermək halal deyil. Çünki odsuz da cəza vermək olar. Həmçinin şəri cəzaları da odsuz vermək olar. Odla yandırmaq isə əzabın artırılmasıdır ki, buna da lüzum yoxdur.

Sonra o, Əbu Hureyradan ﵁ nəql olunmuş hədisi qeyd etmişdir. Hədisdə deyilir ki, o, döyüşə bir dəstə adam göndərir və adlarını çəkərək iki nəfər barəsində: “Filankəslə filankəsi tapsanız, onları odla yandırın” deyir. Səhabələr də Peyğəmbərin ﷺ əmrinə tabe olaraq yola çıxmaq istəyirlər. Sonra dedi ki, mən sizə belə-belə demişdim, izzət və cəlal sahibi Allahdan başqa heç kim odla əzab verə bilməz. Onları görsəniz öldürün. Beləcə Peyğəmbər ﷺ birinci əmrini ikinci əmri ilə hökmdən salır. Bu da dəlildir ki, insan ölümə layiq olduqda odla yandırılmamalı, şəri dəlillərə müvafiq şəkildə qətlə yetirilməlidir.

İbn Məsudun ﵁ rəvayət etdiyi hədisdə bildirilir ki, Peyğəmbər ﷺ öz ehtiyacı üçün getdikdə səhabələr bir quş tapırlar. Quşun yanında iki balası var idi. Onlar balaları götürdülər, quş da bu səbəbdən tələşlə vargəl etməyə başlayır. Adətən belə olur ki, quşun balasını götürdükdə balasını itirdiyinə görə narahatlıqla səs salır. Uca və nöqsansız Allah heyvanların qəlbinə mərhəmət qoymuşdur. Heyvanlar da öz balalarını qorumaq üçün özlərini hətta təhlükəyə belə atırlar. Bu da izzət və cəlal sahibi Allahın hikmətindəndir. Peyğəmbər ﷺ əmr edir ki, quşun balalarını buraxsınlar, onlar da onu buraxırlar.

Sonra o ﷺ yandırılmış qarışqa yuvası görüb soruşdu ki, “Bunu kim yandırıb?” Dedilər: “Biz, ey Allahın elçisi”. Peyğəmbər ﷺ də buyurur ki: **“Od sahibindən başqa heç kim odla əzab verə bilməz”.**

[1] “Sunən Əbu Davud”, 2300.

O ﷺ bunu qadağan edir. Odur ki, evində qarışqa olduqda onu yandırma. Sadəcə müəyyən dərmanlardan istifadə edərək Allahın izni ilə onları qova bilərsən. Əgər başqa vasitələrlə qarışqaların qarşısını almaq mümkün deyilsə, onları məhv edən vasitələrdən istifadə edə bilərsən. Çünki bu, əziyyətin dəf olunmasıdır. Başqa hallarda isə qarışqanı öldürməyi Peyğəmbər ﷺ qadağan etmişdir. Lakin əgər sənə əziyyət verirlərsə və onları öldürmədən bunun qarşısı alınmırsa, o zaman onları məhv etməyində bir qəbahət yoxdur. Müvəffəq edən Allahdır.

İki yüz səksən dördüncü fəsil

Haqq sahibinin tələbi haqqında varlının işi yubatmasının haramlığı

Mövzu ilə əlaqəli ayələr:
Uca Allah buyurur:

﴿ إِنَّ ٱللَّهَ يَأۡمُرُكُمۡ أَن تُؤَدُّواْ ٱلۡأَمَٰنَٰتِ إِلَىٰٓ أَهۡلِهَا وَإِذَا حَكَمۡتُم بَيۡنَ ٱلنَّاسِ أَن تَحۡكُمُواْ بِٱلۡعَدۡلِ ﴾

"Həqiqətən, Allah sizə əmanətləri sahiblərinə qaytarmanızı və insanlar arasında hökm verərkən ədalətlə hökm vermənizi əmr edir".[1]

﴿ فَإِنۡ أَمِنَ بَعۡضُكُم بَعۡضٗا فَلۡيُؤَدِّ ٱلَّذِي ٱؤۡتُمِنَ أَمَٰنَتَهُۥ وَلۡيَتَّقِ ٱللَّهَ رَبَّهُۥ ﴾

"Əgər sizlərdən biri digərinə etibar edirsə, qoy etibar olunmuş kəs *ona verilmiş* əmanəti qaytarsın və Rəbbi olan Allahdan qorxsun".[2]

Mövzu ilə əlaqəli hədislər:

١٦١١– وَعَنْ أبي هُريرَةَ ﷺ أنَّ رَسُولَ اللَّه ﷺ قال: « مَطْلُ الغَنِيِّ ظُلْمٌ، وَإِذَا أُتبِعَ أحَدُكُمُ عَلى مَلِيءٍ فَلْيَتْبَعْ » متفقٌ عليه.
مَعْنَى « أُتبِعَ » أُحِيلَ.

1611. Əbu Hureyradan ﷺ rəvayət olunan hədisdə Rəsulullah ﷺ demişdir: **"Varlı adamın işi uzatması zülmdür. Sizlərdən birinizə bir iş həvalə olunduqda, ona tabe olsun"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

Tabe olmaq sözünün mənası həvalə olmaqdır.

---

[1] "ən-Nisa" surəsi, 58.

[2] "əl-Bəqərə" surəsi, 283.

[3] "Səhih əl-Buxari", 2125.

Şərh:

Müəllif ﵀ "**Haqq sahibinin tələbi haqqında varlının işi yubatmasının haramlığı"** fəslini qeyd edir.

Burada başqasına vacib olan haqlar nəzərdə tutulur. [Ərəbcədə işlənən] "əl-mətal" sözünün mənası gecikdirmədir və bu zülm hesab olunur. Əgər sənin kiminsə üzərində haqqın varsa, sən haqqını ondan istədikdə o bunu uzadırsa, bu, zülm və düşmənçilik hesab olunur. Zaminlərin zəmanət verdikləri şəxslərə etdikləri də buna aiddir. Onlar – Allah qorusun – gecikdirir, onlara əziyyət verir, onların haqlarını tapdalayırlar. Görürsən ki, bir loxma çörək üçün öz ailəsini və ölkəsini tərk etmiş adam gəlir işləyir, zamin isə onun pulunu dörd ay, beş ay və ya daha çox gecikdirir, haqqını istədikdə isə onu qorxudur ki, danışsan səni öz ölkənə göndərəcəyəm. Məgər bələləri bilmirlər ki, Allah onlardan daha güclüdür? Ola bilsin ki, ölməmişdən öncə Allah onların üzərinə onlara əzab verəcək şəxslər təhkim etsin. Çünki onlar miskinlərdir. Peyğəmbər ﷺ Uca və Böyük Allahdan nəql edərək demişdir: **"Qiyamət günü üç kəs mənə qarşı olacaq: mənim üçün verdikdən sonra xəyanət edən",** yəni əhd edib əhdini pozan, **"azad adamı satıb pulunu yeyən, bir də icarəyə götürdüyü adamı işlətdikdən sonra pulunu verməyən".**[1] Bunlar Qiyamət günü Allaha qarşı olacaqlar. Onların hallarından Allaha sığınırıq. Haqqını vermədən keçirdikləri hər bir saat, hər bir an onlar Allahdan daha da uzaqlaşacaq, zülmləri çoxalacaqdır. Allah qorusun. Qiyamət günü zülm zülmətlərə çevriləcəkdir.

Müəllif ﵀ daha sonra Uca Allahın bu ayəsini dəlil gətirmişdir: **"Həqiqətən, Allah sizə əmanətləri sahiblərinə qaytarmanızı və insanlar arasında hökm verərkən ədalətlə hökm vermənizi əmr edir".**[2]

Satlıqların qiyməti əmanətə aiddir. Birisi sənə bir şey satanda qiyməti sənin boynunda qalır və əmanətə bənzəyir. Gərək onu ödəyəsən və uzatmayasan.

Əbu Hureyradan ﵁ rəvayət olunan hədisdə isə Peyğəmbər ﷺ demişdir: **"Varlı adamın işi uzatması zülmdür. Sizlərdən birinizə bir iş həvalə olunduqda, ona tabe olsun".**

---

[1] "Səhih əl-Buxari", 2075.

[2] "ən-Nisa" surəsi, 58.

Peyğəmbər ﷺ bu hədisdə işi gözəl şəkildə icra etməklə ona gözəl şəkildə tabe olmağı cəm edərək demişdir: **"Varlı adamın işi uzatması zülmdür".** Bu da dəlildir ki, insan haqları öz sahiblərinə qaytarmalı və gecikdirməməlidir. Əgər etsə, o, zalımdır, əgər etsə, zalım olur. Nə qədər insanlar vardır ki, onlardan bir şeyin pulu və haqqı tələb olunur, onlar da deyirlər ki, get, sabah gəl, birisigün gəl. Halbuki özünün pulu var, sadəcə, Allah qorusun, şeytan onunla oynayır. Sanki pul qaldıqca çoxalacaq, yaxud elə bil haqq sahibinin haqqı düşəcək. Ağıldan səfeh olan və dinində azan belələrinin halı necə də qəribədir. Məgər bunu uzatmaqla haqq onların üzərindən düşəcək və ya azalacaq? – Qətiyyən yox. İndi versən də, on gün sonra versən də, on il sonra versən də haqq qalır. Sadəcə şeytan belələri ilə oyun oynayır.

Peyğəmbərin ﷺ: **"Varlının... uzatması"** sözü dəlildir ki, kasıbın uzatması zülm deyil. Əgər insanın bir şeyi yoxdursa və buna görə uzadırsa, bu adam zalım deyil. Əksinə, bunu tələb edən zalımdır. Odur ki, əgər adam kasıbdırsa, gərək ona möhlət verəsən və ondan pulu tələb etməyəsən. Çünki Uca Allah buyurur: **"Əgər *borclu olan kəs borcu qaytarmağa* qadir deyilsə, vəziyyəti düzələnə qədər *ona* möhlət verin".**[1]

Uca Allah vəziyyət düzələnədək möhlət verilməsini əmr edir. Bir çox insanlar vardır ki, onun kasıbın yanında haqqı olur. Bilərək ki, o kasıbdır, ondan haqqını tələb edir, onu sıxışdırır. Hətta əmr sahiblərinə şikayət edərək onu həbs etdirir. Həmin adamın isə pulu qaytarmağa imkanı olmur. Bu haramdır və ədavətdir. Qazi həmin adamın kasıb olduğunu və borc verənin ondan haqqını tələb etdiyini bildikdə gərək haqq sahibini qınasın və fikrindən daşındırsın. Çünki o, zalımdır. Çünki Uca Allah gözləməyi əmr edir. **"Əgər *borclu olan kəs borcu qaytarmağa* qadir deyilsə, vəziyyəti düzələnə qədər *ona* möhlət verin".** Gərək borclunun kasıb olduğunu bildiyi halda onu sıxışdırmasın.

"Sizlərdən birinizə bir iş həvalə olunduqda, ona tabe olsun". Yəni birisinin başqa bir nəfərə, məsələn, Zeydə borcu var. Zeyd də deyir ki, mən Amrdan sənin haqqın miqdarında istəyəcəyəm. Yəni, misal üçün, Zeydin yüz rial borcu var. O da gedib Amrdan yüz rial istəyir. Borc yiyəsi Zeydə deyir ki, yüz rialı ver, Zeyd də deyir ki, mən səni Amra yönəldirəm

[1] "əl-Bəqərə" surəsi, 280.

ki, yüz rialı ondan alasan. Bu zaman borc yiyəsi deyə bilməz ki, mən belə bir şey qəbul etmirəm. Çünki Peyğəmbər ﷺ demişdir: **"Sizlərdən birinizə bir iş həvalə olunduqda, ona tabe olsun".** Yalnız həvalə olunan adamın (bizim misalımızda Amr) kasıb, iş uzadan və ya həmin adamın (borc yiyəsinin) qohumu olması, bir də hakimə onun barəsində şikayət edə bilməyəcəyi halı istisnadır. Maneə olduğu təqdirdə həvaləyə etiraz edə bilər. Maneə olmadıqda isə Peyğəmbər ﷺ: **"tabe olsun"** deməklə əmr etmişdir ki, həvaləni qəbul etsin. Alimlər bunun vacib, yoxsa müstəhəb olması barəsində ixtilaf etmişlər.

Hənbəlilər bunun vacib olduğunu bildirmişdir. Tələb edən kəs başqasına həvalə olunduqda və həmin adam imkanlı olduqda belə həvalə qəbul olunmalıdır.

Əksər alimlərə görə isə bu müstəhəbdir. Çünki insan bir başqasının yanına göndərilməməlidir. Ola bilsin desin ki, birincidən tələb etmək daha asandır, ikinci adamdan isə qorxub çəkinirəm. Yaxud buna bənzər başqa bir söz söyləsin. Lakin şəri maneə olmadığı təqdirdə borc yiyəsinin həvalə olunanın yanına getməsi daha əfzəldir. Müvəffəq edən Allahdır.

İki yüz səksən beşinci fəsil

İnsanın hədiyyəni təslim etdiyi və ya etmədiyi adama və ya övladına hədiyyə verməkdən vaz keçməsi. Həmçinin sədəqə və ya zəkat verdiyi, yaxud kəffarə ödədiyi adamdan sədəqə verdiyi şeyi almasının bəyənilməməsi. Başqa adama verildikdə isə onu almaqda problem yoxdur.

Mövzu ilə əlaqəli hədislər:

١٦١٢– عَنِ ابنِ عَبَّاسٍ رضي الله عنهما أن رَسُولَ اللَّه ﷺ قَالَ: « الَّذِي يعُودُ في هِبَتِهِ كَالكَلبِ يرجعُ في قَيْئِهِ » متفقٌ عليه.

وفي روايةٍ: « مَثَلُ الَّذي يَرجِعُ في صدقَتِهِ، كَمَثلِ الكَلْبِ يَقيءُ، ثُمَّ يعُودُ في قَيْئِهِ فَيَأكُلُهُ ».

وفي روايةٍ: « العائِدُ في هِبَتِهِ كالعائدِ في قَيْئِهِ ».

1612. İbn Abbasdan رضي الله عنهما rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Verdiyi hədiyyəni geri alan kəs qaytardığını yeyən it kimidir"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Başqa bir rəvayətdə isə deyilir: **"Verdiyi sədəqəni geri istəyən kəs qaytardıqdan sonra qaytardığını yenidən yeyən it kimidir".**[2]

Digər bir rəvayət isə belədir: **"Hədiyyəsini geri alan kəs qaytardığını yeyən adam kimidir"**.[3]

١٦١٣– وَعَنْ عُمَرَ بن الخَطَّابِ رضي الله عنه قَالَ: حَمَلْتُ عَلى فَرَسٍ في سبيلِ اللَّه فأَضَاعَهُ الَّذي كَانَ عِنْدَه، فَأردتُ أنْ أشْتَرِيَهُ، وظَنَنْتُ أنَّهُ يَبيعُهُ بِرُخْصٍ، فسَألتُ النبيَّ ﷺ فَقَالَ: « لا تَشتَرِهِ وَلا تَعُدْ في صدَقَتِكَ وإن أعْطَاكَهُ بِدِرْهَمٍ، فَإنَّ الْعَائد في صَدَقَتِهِ كَالْعَائِدِ في قيْئِهِ » متفقٌ عليه.

قوله: « حمَلْتُ عَلى فَرسٍ في سَبيلِ اللَّه » معْنَاهُ: تَصدَّقْتُ بِهِ عَلى بعْض المُجاهِدِينَ.

---

[1] "Səhih əl-Buxari", 2429; "Səhih Muslim", 3045.

[2] "Səhih Muslim", 3048.

[3] "Səhih əl-Buxari", 2428; "Səhih Muslim", 3050.

1613. Rəvayət olunur ki, Ömər ibn əl-Xəttab ﵁ demişdir: "Bir nəfərə Allah yolunda bir at yəhərlədim. Həmin adam isə ona yaxşı baxmadı, mən də onu almaq istədim. Düşündüm ki, onu ucuz satar. Peyğəmbərdən ﷺ bu barədə soruşduqda o dedi: **"Onu alma, hətta onu bir neçə dirhəmə sənə satmış olsa belə, sədəqənə geri dönmə. Şübhəsiz ki, sədəqəsini geri istəyən kəs qaytardığını yeyən kəs kimidir".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Hədisdəki "Allah yolunda bir at yəhərlədim" sözünün mənası "onu bəzi mücahidlərə sədəqə verdim" mənasındadır.

Şərh:

Müəllif ﵀ bu fəsildə hədiyyəni geri almanın haramlığını qeyd etmişdir. Yəni sən bir insana az və ya çox olmasından asılı olmayaraq havayı bir şey versən, onu geri almamalısan. Çünki Peyğəmbər ﷺ hədiyyəsini geri alan kəsi itə bənzətmişdir.

İt mədəsindəkini qaytardıqdan sonra onu yeyir. Bu olduqca pis bir bənzətmədir. Peyğəmbər ﷺ hədiyyəsini geri alanı buna bənzətmişdir ki, insanları bundan çəkindirsin. Fərqi etməz, hədiyyə verdiyin kəs qohumlarındandır, yoxsa başqa birisidir. Öz qardaşına saat, qələm, avtomobil və ya ev hədiyyə versən, onu geri almaq halal deyildir. Yalnız it olmağa razı olsan, belə edə bilərsən. Heç kəs it olmağa razı olmaz. Oğul belə öz atasına bir şey hədiyyə versə, gərək hədiyyəsini geri almasın. Məsələn, varlı bir adam kasıb atasına ev hədiyyə edərsə, atası olsa belə, gərək verdiyi hədiyyəni geri almasın. Ancaq əgər ata öz oğluna hədiyyə vermişsə, onu geri ala bilər. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Birisinə hədiyyə və ya nə isə başqa bir şey verib geri almaq halal deyildir. Yalnız atanın öz oğluna verdiyi istisnadır".**[2] Çünki atanın haqqı var ki, öz övladına hədiyyə etmədiyi malından ona zərər vurmamaq şərtilə götürsün.

Sonra müəllif Ömər ibn əl-Xəttabdan ﵁ nəql olunmuş hədisi qeyd edir. Həmin hədisdə deyilir ki, bir dəfə o bir kişiyə bir at verir ki, ondan istifadə edərək Allah yolunda vuruşsun. Həmin adam isə ata yaxşı baxmadı. Ömər də elə güman etdi ki, həmin adam atı ucuz qiymətə satmaq

[1] "Səhih əl-Buxari", 2442.

[2] "Sunən Əbu Davud", 3072; "Sunən ət-Tirmizi", 2058; "Sunən ən-Nəsai", 3630.

istəyir, özü də atın xərclərini ödəmək iqtidarında deyil. O, gəlib bu barədə Peyğəmbərə ﷺ xəbər verdikdə o dedi: **"Onu alma, hətta onu sənə bir neçə dirhəmə satmış olsa belə, sədəqənə geri dönmə".** Çünki sən onu Allah üçün çıxarmısan və insan öz sədəqəsini ala bilməz. İnsan Allah üçün bir şey veribsə, onu geri qaytara bilməz. Bu səbəbdən də o demişdir: "**Şübhəsiz ki, sədəqəsini geri istəyən kəs qaytardığını yeyən kəs kimidir**". Ömər də bu fikrindən daşındı.

Bu, hədiyyə verən kəs hədiyyəni qəbul etdikdə olur. Götürməmişdən öncə isə bu ona haram olmur. Lakin vədinə vəfa etməlidir. Necə ki, misal üçün, birisi başqasına vəd etsə ki, sənə saat verəcəm. Daha sonra fikrindən dönsə belə, vədinə xilaf çıxmamalıdır. Çünki əhdinə vəfa etməyən kəsdə nifaqın bir əlaməti vardır. İnsan isə münafiqlərin xüsusiyyətləri ilə vəsf olunmamalıdır. Müvəffəq edən Allahdır.

İki yüz səksən altıncı fəsil

Yetimin malını mənimsəməyin haramlığı

Mövzu ilə əlaqəli ayələr:
Uca Allah buyurur:

﴿ إِنَّ ٱلَّذِينَ يَأۡكُلُونَ أَمۡوَٰلَ ٱلۡيَتَٰمَىٰ ظُلۡمًا إِنَّمَا يَأۡكُلُونَ فِي بُطُونِهِمۡ نَارٗاۖ وَسَيَصۡلَوۡنَ سَعِيرٗا ﴾

"Şübhəsiz ki, yetimlərin mallarını haqsızlıqla yeyənlər öz qarınlarına ancaq od doldururlar və *beləcə,* onlar alovlu atəşə girəcəklər".[1]

﴿ وَلَا تَقۡرَبُواْ مَالَ ٱلۡيَتِيمِ إِلَّا بِٱلَّتِي هِيَ أَحۡسَنُ حَتَّىٰ يَبۡلُغَ أَشُدَّهُۥ ﴾

"Yetim həddi-buluğa çatana qədər, xeyirxahlıq (qoruyub saxlamaq və artırmaq məqsədilə istifadə etmək) istisna olmaqla, onun malına yaxınlaşmayın!"[2]

﴿ وَيَسۡـَٔلُونَكَ عَنِ ٱلۡيَتَٰمَىٰۖ قُلۡ إِصۡلَاحٞ لَّهُمۡ خَيۡرٞۖ وَإِن تُخَالِطُوهُمۡ فَإِخۡوَٰنُكُمۡۚ وَٱللَّهُ يَعۡلَمُ ٱلۡمُفۡسِدَ مِنَ ٱلۡمُصۡلِحِۚ ﴾

"Səndən yetimlər haqqında soruşurlar. De: "Onlara yaxşılıq etmək daha xeyirlidir. Əgər onları *öz işinizə* qatırsınızsa, *bilin ki,* onlar sizin qardaşlarınızdır". Allah fəsad törədəni yaxşılıq edəndən *ayırd edə* bilir".[3]

Mövzu ilə əlaqəli hədis:

١٦١٤– وَعن أبي هُرَيْرة رضي الله عنه عَن النَّبيّ ﷺ قَالَ: « اجْتَنِبُوا السَّبْعَ المُوبِقَاتِ، قَالُوا: يا رَسُولَ اللَّه ومَا هُن؟ قال: الشِّرْك بِاللَّهِ، وَالسِّحْرُ وَقَتْلُ النَّفْسِ التي حرَّمَ اللَّهُ إلاَّ بِالحقِّ، وَأَكْلُ الرِّبَا، وَأَكْلُ مال اليتِيمِ. والتَّولِّي يوْمَ الزَّحْفِ، وقذفُ المُحْصنَاتِ المُؤمِنَات الغافِلاتِ » متفقٌ عليه.
« المُوبِقَاتُ » المُهْلِكَاتُ.

---

[1] "ən-Nisa" surəsi, 10.
[2] "əl-Ənam" surəsi, 152.
[3] "əl-Bəqərə" surəsi, 220.

1614. Əbu Hureyradan ﷺ nəql olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Yeddi həlakedici əməldən çəkinin"**. Dedilər: "Onlar hansı əməllərdir, ey Allahın elçisi?" Dedi: **"Allaha şərik qoşmaq, sehr, Allahın haram buyurduğu canı haqsız olaraq öldürmək, sələm yemək, yetimin malını yemək, döyüşdən qaçmaq və günahsız, ismətli mömin qadınları pozğunçuluqda ittiham etmək"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

[Hədisin ərəbcəsində keçən] "əl-mubiqat" sözünün mənası "həlak edən" deməkdir.

Şərh:

Müəllif ﷺ **"Yetimin malını mənimsəməyin haramlığı"** fəslini qeyd edir.

Yetimlər o kəslərdir ki, onlar həddi-büluğa çatmamışdan öncə ataları vəfat etmişdir. Bu həm oğlanlara aiddir, həm də qızlara. Bu yetimlərin şəfqət, diqqət, mərhəmət və qayğıya ehtiyacları var. Çünki atalarını itirməklə onların qəlbi sınmışdır. İzzət və cəlal sahibi Allahdan başqa onlara yardım edən yoxdur. Beləliklə, onlara diqqət və qayğı göstərilməlidir. Bu səbəbdən Allah öz Kitabının bir çox ayələrində onlara qarşı mərhəmətli olmağa təşviq edir.

Yetimlərin malını haqsızcasına yemək halal deyildir. Uca Allah buyurur: **"Şübhəsiz ki, yetimlərin mallarını haqsızlıqla yeyənlər öz qarınlarına ancaq od doldururlar və *beləcə*, onlar alovlu atəşə girəcəklər".**[2]

Bəzi insanlar vardır ki, Allah qorusun, yetimlərin malından haqsız olaraq istifadə edir və yetimlərin maraqlarını heç nəzərə almırlar. Belələri yediklərinin qarınlarında oda çevrilməsi əzabına layiqdirlər. Allahdan afiyət diləyirik.

Uca Allah həmçinin buyurur: **"Yetim həddi-buluğa çatana qədər, xeyirxahlıq (qoruyub saxlamaq və artırmaq məqsədilə istifadə etmək) istisna olmaqla, onun malına yaxınlaşmayın!"**[3] Yəni yetimlərin malı ilə yalnız xeyirli məqsədlərlə istifadə edin.

---

[1] "Səhih əl-Buxari", 2560; "Səhih Muslim", 129

[2] "ən-Nisa" surəsi, 10.

[3] "əl-Ənam" surəsi, 152.

Əgər sənin qarşında iki layihə vardırsa, sən də yetimin malını onlardan birinə yatırım etmək istəyirsənsə, bax, gör onlardan hansı daha çox qazanc gətirə bilər, hansı daha məsləhətlidir, onu da et. Nəfsi istəklərinə və başqa yaxın birinin nəfsi istəklərinə uyaraq daha pis variantı seçməyin halal deyildir. Bax, gör hansı daha faydalıdır, onu da et. Hansının daha faydalı olduğunu müəyyənləşdirməkdə çətinlik çəkirsənsə, onun malına dəymə. Çünki Uca Allah buyurur: **"Yetim həddi-buluğa çatana qədər, xeyirxahlıq (qoruyub saxlamaq və artırmaq məqsədilə istifadə etmək) istisna olmaqla, onun malına yaxınlaşmayın!"**

Yetimin malını kiməsə borc da vermək olmaz. Çünki ola bilsin, həmin adam borcu qaytara bilməsin. Buna görə də yetimin pulunun borca verilməsi onun xeyrinə deyil. Əgər başqasına həmin pulu borca vermək məsləhət deyilsə, onda sənin özünə də borc kimi götürməyin də doğru deyildir. Yetimlərin bəzi yaxınları, Allah qorusun, buna cürət edirlər. Onlar yetimin malını istifadə etməklə özləri üçün pul və qazanc əldə edirlər, yetim isə öz malından faydalana bilmir. Uca Allah buyurur: **"Yetim həddi-buluğa çatana qədər, xeyirxahlıq (qoruyub saxlamaq və artırmaq məqsədilə istifadə etmək) istisna olmaqla, onun malına yaxınlaşmayın!"**

Görsən ki, [yetimin malı ilə] yatırım etmək istədiyin layihələrdən biri daha yaxşıdır, bunu edə bilərsən. Sonradan, Allahın qədəri ilə həmin layihədə uduzsan, bu zaman sənə günah yazılmır. Çünki sən ictihad etmişdin. İctihad etmiş kəsin isə ictihadı doğru olarsa o iki əcr, xəta olarsa isə bir əcr qazanır. Bilərəkdən bu işdə daha yaxşı olanı tərk etmək isə haramdır.

Uca və Böyük Allah buyurur: **"Səndən yetimlər haqqında soruşurlar. De: "Onlara yaxşılıq etmək daha xeyirlidir. Əgər onları *öz işinizə* qatırsınızsa, *bilin ki*, onlar sizin qardaşlarınızdır". Allah fəsad törədəni yaxşılıq edəndən *ayırd edə* bilir".**[1]

Bu ayə səhabələrin Peyğəmbərə ﷺ verdikləri suala cavab olaraq nazil olunmuşdur. Onlar soruşmuşdular ki, ey Allahın elçisi, bizdə yetimlərin malları var. Evimiz və yeməyimiz də birdir. Nə edək? Əgər onların yeməyini ayrıca qabda etsək, yorularıq, hətta ola bilsin ki, bu onlara mənfi təsir etsin. Necə edək?[2] İzzət və cəlal sahibi də buyurdu: **"Əgər onları *öz işinizə***

[1] "əl-Bəqərə" surəsi, 220.

[2] "Sunən Əbu Davud", 2487; "Sunən ən-Nəsai", 3609.

qatırsınızsa, *bilin ki,* onlar sizin qardaşlarınızdır". Yəni, madam ki, məqsədiniz islahdır, onda daha faydalı olanı edin – onlarla birlikdə yeyin, qabqazanı da eyni edin: **"Allah fəsad törədəni yaxşılıq edəndən *ayırd edə* bilir. Əgər Allah istəsəydi, əlbəttə, sizi çətin vəziyyətə salardı".** Bu sizlər üçün çətin olardı, lakin Uca və nöqsansız Allah möminlərə qarşı mərhəmətlidir.

Sonra müəllif ﷺ Əbu Hureyranın ﷺ hədisini nəql edir. Həmin hədisdə Peyğəmbər ﷺ dedi: **"Yeddi həlakedici əməldən çəkinin"**. Yəni bu əməlləri edənlər həlak olurlar. Allah qorusun! Səhabələr soruşdular: "Onlar hansı əməllərdir, ey Allahın elçisi?" Dedi: **"Allaha şərik qoşmaq, sehr, Allahın haram buyurduğu canı haqsız olaraq öldürmək, sələm yemək, yetimin malını yemək, döyüşdən qaçmaq və günahsız, ismətli mömin qadınları pozğunçuluqda ittiham etmək".**

Birincisi, Allaha şərik qoşmaqdır. Bu, həlakedici əməllərin ən böyüyüdür – izzət və cəlal sahibi Allahın səni yaratdığı andan, ana bətnində ikən, doğulduğundan sonra, gənc ikən və daha sonra sənə çoxlu nemətlər bəxş etdiyi halda Ona şərik qoşmağın. Allah sənə bu qədər nemətlər bəxş etdiyi halda necə Ona şərik qoşursan? Allah qorusun! Bu zülmlərin ən böyüyüdür. Ən böyük zülm Allahın səni yaratmasına rəğmən Ona şərik qoşmağındır. Bu, həlakedici əməllərin ən böyüyüdür.

Allaha şərik qoşmağın bir çox növləri vardır ki, onlardan da bəziləri aşağıdakılardır:

– Yaradanı əzəmətləndirdiyi kimi, yaradılanı da əzəmətləndirmək. Bu, azad olan və olmayan bəzi xidmətçilərdə vardır. Görürsən ki, prezidentini, padşahını, nazirini Allahdan çox əzəmətləndirir. Allaha sığınırıq! Bu böyük bir şirkdir. Əgər başçısı, naziri, padşahı və ya ağası ona desə ki, namazı burax, belə et, ona tabe olar. Eləsi hətta namazın vaxtı çıxmış olsa belə, buna əhəmiyyət vermir. Bunun mənası odur ki, o, yaradılmışı Allahdan çox əzəmətləndirir.

– Məhəbbət bəsləmək də bu qəbildəndir, yəni hər hansı bir məxluqu Allah kimi, yaxud da Ondan çox sevmək. Görürsən ki, insan birini Allahdan çox sevir. Allah qorusun! Bu, eşq fitnəsinə düşmüş həm kişilərdə, həm də qadınlarda olur. Belələrinin qəlbi Allahdan başqasına qarşı sevgi hisləri ilə dolu olur. Uca Allah buyurur: **"İnsanlardan elələri də var ki, Allahdan**

qeyrilərini *Ona* tay tutur, onları da Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür".[1]

– Riyakarlıq da buna aiddir. Bu gizli bir məsələdir və Allaha şərik qoşmaq hesab olunur. İnsan qalxıb namaz qılır və başqasının ona baxdığını bilincə namazını gözəlləşdirir. Yaxud oruc tutur ki, ona abid deyilsin. Sədəqə verir ki, onun səxavətli olduğu deyilsin. Uca Allah buyurur: **"Mən şərik qoşulanların ən zənginiyəm. Kim hər hansı bir əməldə Mənə başqasını şərik qoşarsa, onu şirki ilə baş-başa qoyaram".**[2]

– Dünya malının insanın ağlını aparması da buna aiddir. Görürsən ki, birisinin fikri-zikri, bədəni, yuxusu, hər şeyi dünyadır – bu gün nə əldə edib, nə itirib. Görürsən ki, beləsi dünya malı üçün ağına-bozuna baxmadan halal, haram yolla, yalan və əmr sahiblərinə hiylə gəlməklə çalışır və *Axirətinə* heç əhəmiyyət də vermir. Çünki dünya onu köləyə çevirmişdir. Allah qorusun. Şirkin bu növünə dəlil Peyğəmbərin ﷺ bu sözüdür: **"Dinarın qulu bədbəxt olsun".** Elə düşünürsüz ki, bu adam dinara səcdə edir? – Xeyr, dinar onun qəlbinə hakim olmuşdur.

"Dinarın qulu bədbəxt olsun, dirhəmin qulu bədbəxt olsun, zərzibalı libasın qulu bədbəxt olsun".[3] Yəni, paltar.

"Döşəyin qulu bədbəxt olsun". Yəni, yataq. Beləsi libasını və yatağını *yaraşıqlı,* hədsiz təmiz saxlamağa namazdan və başqa ibadətlərdən daha çox önəm verir.

"Verdikdə razı qalar, verilmədikdə qəzəblənər". Allah ona bir nemət bəxş etdikdə deyər ki, Rəbbim Səxavətlidir, Əzəmətlidir və hər bir tərifə layiqdir. Nemət bəxş olunmadıqda isə qəzəblənər. Allah qorusun! Uca Allah buyurur: **"İnsanlardan eləsi də var ki, Allaha şübhə ilə ibadət edir. Əgər ona bir xeyir çatsa, onunla rahatlıq tapar. Yox, əgər başına bir iş gəlsə, üz döndərib *küfrə* qayıdar. O *adam* dünyanı da itirər, axirəti də. Gerçək zərər də elə budur".**[4] Allahın elçisi ﷺ demişdir: **"Verdikdə razı qalar, verilmədikdə qəzəblənər."**

"Bədbəxt oldu", yəni xəsarətə uğradı.

---

[1] "əl-Bəqərə" surəsi, 165.

[2] "Səhih Muslim", 5300.

[3] "Səhih əl-Buxari", 2673.

[4] "əl-Həcc" surəsi, 11.

[Hədisin ərəbcəsində keçən] **"intəkəsə"** sözü "Allah onun işlərini dolaşığa salsın" deməkdir. Allah onun işlərini o qədər çətinləşdirər ki, hətta ayağına batmış tikanı çıxarmağa yanında bir adam tapmaz. **"izə şikə"**, yəni ayağına tikan batdıqda onu çıxaran tapılmasın.

Sonra isə bunun ardınca demişdir: **"Atının yüyənindən tutaraq onun Allah yolunda aparan adama Tuba olsun".**

"Tuba" yəni həm bu dünyada, həm də axirətdə həmin qula gözəl həyat olsun.

"Saçı dağınıq, ayaqları toza bulaşmış, atının yüyənindən tutaraq onun Allah yolunda aparan adama Tuba olsun".

Birincisi zər-zibalı paltarın və döşəyin quludur. İkincisi isə özü haqqında düşünmür. Onun üçün əsas olan Allaha ibadət etmək və Onun razılığını qazanmaqdır: **"Onun saçı dağınıq, ayaqları isə toza bulaşıb. Hara getdiyi barədə isə heç düşünmür"**. Yəni hansı mənzilə enəcəyi onu maraqlandırmır. Əgər haradasa cihad etmək məsləhətdirsə, o orada iştirak edər. Beləsi həm dünyanı qazanır, həm də axirəti.

Xülasə odur ki, bəzi insanlar bilmədən Allaha şərik qoşurlar. Əziz qardaşım, əgər görsən ki, dünya sənin qəlbini doldurub və sən yalnız onun barəsində düşünürsən, onu düşünərək yatır, onu düşünərək dururs an, bil ki, qəlbində şirk vardır. Çünki Peyğəmbər ﷺ demişdir: **"Dinarın qulu bədbəxt olsun".** Bu da dəlildir ki, beləsi mal-dövlətini halal və ya haramın fərqinə varmadan əldə edir.

Allaha haqqı ilə ibadət edən kəs isə mütləq şəkildə haram mal götürə bilməz. Çünki haramda izzət və cəlal sahibi Allahın qəzəbi, halalda isə razılığı vardır. Allaha haqqı ilə ibadət edən insan deyir ki, mən mal-dövlətimi yalnız icazə verilən yolla qazanmalı, yalnız icazə verilən yolla da mal-dövlətimi xərcləməliyəm.

İkincisi sehrdir. Sehr düyün vurmaq və ovsunlar deməklə edilir. Yəni şeytan və cin şəkilləri ilə oxunan tilsimlərdir. Sehrbaz olan kəs onlara üfürür və bununla sehr olunan kəsə ölüm, xəstəlik və *haldan-hala* dəyişmə kimi amillərlə əziyyət verir. Yəni onu məqsədindən daşındırır, yaxud da istəmədiyi bir şeyə yönəldir. Uca Allah buyurur: **"*Yəhudilər* ərlə arvadı bir-birindən ayıracaq işləri onlardan öyrənirdilər".**[1]

[1] "əl-Bəqərə" surəsi, 102.

Sehr böyük günahlardandır. Sehrbaz, tövbə edib-etməməsindən asılı olmayaraq, ona şəri cəza verilərək öldürülməlidir. Çünki onun etdikləri və cürətinin gücü olduqca şiddətlidir. Allah qorusun! Hədislərin birində deyilir: **"Sehrbazın cəzası qılıncla boynunun vurulmasıdır".**[1]

Başqa bir rəvayətdə isə deyilir: **"Onun qılıncla vurulmasıdır".**[2]

Sehrin bəzi növləri küfrdür. Sehrbaz öz əməli üçün şeytanlardan və cinlərdən yardım alır ki, bu da küfrdür. Uca Allah "əl-Bəqərə" surəsində buyurur: **"Onlar Süleymanın səltənəti barədə şeytanların oxuduqlarına uydular. *Halbuki* Süleyman kafir olmadı. Lakin şeytanlar sehri və Babildə Harut və Marut adlı iki mələyə nazil olanı insanlara öyrədərək kafir oldular. *O iki mələk*: "Biz ancaq bir sınağıq, sən gəl kafir olma!"– deməmiş *onu* heç kəsə öyrətmirdilər. *Yəhudilər* ərlə arvadı bir-birindən ayıracaq işləri onlardan öyrənirdilər. Lakin onlar Allahın izni olmadan heç kəsə zərər verə bilməzlər. Onlar özlərinə zərər verən və faydası olmayan şeyi öyrənirdilər. Onlar bilirdilər ki, bunu satın alan kimsələrin Axirətdə heç bir payı yoxdur. Qarşılığında özlərini satdıqları şey necə də pisdir! Kaş *bunu* biləydilər".**[3]

Bu da açıq dəlildir ki, sehr şeytanlardan əldə olunursa, bu, küfrdür. Çünki şeytanlar şirk olmayan əməllə insana yardım etməzlər. Ləbid ibn əl-Əsam adlı xəbis bir yəhudi də Peyğəmbərə ﷺ sehr etmişdi. O, öz sehrini daraq və erkək xurma vasitəsilə etmişdi.[4] Bu xəbis, sehri Peyğəmbərin ﷺ adətən istifadə etdiyi darağına qoymuşdu. Daraqda qalan saçları isə o bir quyuya qoymuşdu. Bununla belə, həmin sehr peyğəmbərliklə bağlı olan məsələlərdə ona təsir etməmişdi. Sadəcə ona elə gəlirdi ki, o ailəsinin yanına gəlib və ya nəyisə edib. Əslində isə həmin işi o etməmişdi. Sonra Uca Allah bu iki surəni nazil etdi: **"De: – Sığınıram sübhün Rəbbinə!"**[5] və **"De: – Sığınıram insanların Rəbbinə!"**[6]

Cəbrail عليه السلام bu surələrə ona ruqyə etdi, o da Allahın izni ilə şəfa tapdı, sonra da həmin sehri quyudan çıxartdırıb məhv etdi. Bu da yəhudilərin nə

---

[1] "Sunən ət-Tirmizi", 1380.

[2] Bax: əl-Munziri, "əl-Kəbair", 1/15.

[3] "əl-Bəqərə" surəsi, 102.

[4] "Səhih əl-Buxari", 5763; "Səhih Muslim", 2189.

[5] "əl-Fələq" surəsi, 1-5.

[6] "ən-Nas" surəsi, 1-6.

qədər xəbis olduqlarına və necə bir şiddətlə ədavət bəsləmələrinə dəlildir. Uca Allah buyurur: **"Yəhudiləri və müşrikləri iman gətirənlərə qarşı düşmənçilik edən insanların ən pisi olduğunu görəcəksən".**[1] Ayədə yəhudilər müşriklərdən öncə qeyd olunur. Çünki onlar müsəlmanlara qarşı ən çox ədavət aparan kəslərdir. Buna görə də Peyğəmbərə ﷺ sehr etmişdilər. Lakin Allaha həmd olsun ki, O, həmin sehri batil etdi.

Sehr iki qismə bölünür:

Birinci qismi küfrdür ki, bu da şeytani ruhlardan yardım almaqdır.

İkinci qismi isə küfr deyildir. Bu, müəyyən vasitələrə, taxta və buna bənzər şeylərə *insana təsir etməsi məqsədilə* düyün vurulmasıdır.

Sehrbaza gəlincə isə o, hər bir halda öldürülməlidir – əgər kafirdirsə, mürtədliyinə görə, yox, əgər sehri küfr dərəcəsinə çatmırsa, başqasına verdiyi əziyyətə görə qətlə yetirilir. Uca Allah buyurur: **"Allaha və Onun elçisinə qarşı savaşanların və yer üzündə fitnə-fəsad törətməyə səy göstərənlərin cəzası ancaq öldürülmək və ya çarmıxa çəkilmək, yaxud əllərinin və ayaqlarının çarpazvari kəsilməsi, ya da yaşadıqları yerdən sürgün edilmələridir. Bu, onlar üçün dünyada bir rüsvayçılıqdır. Axirətdə isə onları böyük bir əzab gözləyir".**[2]

Üçüncüsü, Allahın haram buyurduğu cana qəsd etmək, onu öldürməkdir. Allahın öldürülməsini haram buyurduğu şəxslər dörddür: müsəlman, *zimmi*, *muahəd* və *mustəmən*. Bu dörd qrup insan toxunulmazdır və onları öldürmək olmaz.

Müsəlmana gəlincə, bu aydın məsələdir.

Zimmi bizim ölkədə, bizim aramızda yaşayan kitab əhli və ya qeyri-müsəlmandır. Beləsi müsəlmanlara cizyə vergisi ödəyir, müsəlmanlar da onu müsəlman olmamasına baxmayaraq, toxunulmaz hesab edərək əziyyətlərdən qoruyurlar.

Muahəd müsəlmanlarla aralarında saziş olan kəslərdir. Belələri bizim ölkəmizdə də ola bilərlər. Hudeybiyyə sülhündə Peyğəmbərlə ﷺ Qureyş arasında bağlanmış sazişdə olduğu kimi. Əgər adam əhd bağlamış kəslərdəndirsə, onu öldürmək haramdır, çünki onun toxunulmazlığı var.

---

[1] "əl-Maidə" surəsi, 82.

[2] "əl-Maidə" surəsi, 33.

Mustəmən isə bizim ölkəmizə daxil olaraq bizdən aman istəyən kəsdir. Beləsinə aman verilməlidir. Ola bilsin ki, o, ticarət məqsədi ilə ölkəyə gəlib, gətirdiyi malları satıb ticarət etsin. Ola da bilsin ki, o, İslamı araşdırıb öyrənmək məqsədilə gəlmişdir. Uca Allah buyurur: **"Əgər müşriklərdən biri səndən aman diləsə, ona aman ver ki, Allahın kəlamını eşitsin. Sonra onu özünün xatircəm olduğu yerə çatdır. Çünki onlar *haqqı* bilməyən bir qövmdür".**[1]

Hərb edən isə o kəsdir ki, bizimlə onların arasında müharibə vardır. Bizimlə onların arasında nə əhd var, nə zimmət, nə də aman. Beləsini öldürmək halaldır, çünki bizimlə onların arasında əhd yoxdur. Əksinə o, bizə qarşı müharibə aparır və imkanı olsa müsəlmanları qətlə yetirər. Beləsinin nə əhdi var, nə də ki, zimməti.

Peyğəmbərin ﷺ: **"Allahın haram buyurduğu canı haqsız olaraq öldürmək"** sözü o deməkdir ki, canlar toxunulmazdır. Ancaq ola bilsin ki, toxunulmaz bir nəfsi öldürmək də haqq (doğru) olsun. Necə ki, bu haqda Peyğəmbər ﷺ demişdir: **"Allahdan başqa ibadət haqqına malik məbudun olmamasına və Muhəmmədin Onun elçisi olmasına şahidlik edən müsəlmanın qanı üç hal istisna olmaqla halal deyildir: evli ola-ola zina etmiş kəs, cana can qisası, dinini tərk edib camaatdan ayrı düşən kəs".**[2]

Birincisi, zina edən kəs. Yəni bütün şərtləri ilə nikah bağladıqdan sonra öz xanımı ilə yaxınlıq edən birisi sonra da zina edərsə, o, daşqalaq edilərək qətlə yetirilməlidir. Beləsi tutulur, insanlar da onun ətrafına toplaşır və daş toplayırlar. Həmin daşlar nə böyük olur ki, onu tez qətlə yetirsin, nə də balaca olur ki, bunu çətinləşdirsin. Sonra o, daşqalaq edilir. Onu üzünə deyil, arxadan, qarnından, çiynindən, ayaqlarından ölənədək daşlayırlar. Necə ki, Peyğəmbər ﷺ Ğamidiyyəni, Maiz ibn Maliki və başqalarını daşqalaq etmişdi.

İkincisi, cana can. Bir adam başqasını qəsdən qətlə yetirərsə, qisasın şərtləri də kamil olarsa, o adam müsəlman olsa belə, cana can prinsipinə müvafiq olaraq qətlə yetirilir.

---

[1] "ət-Tövbə" surəsi, 6.

[2] "Səhih əl-Buxari", 6370; "Səhih Muslim", 3175.

Üçüncüsü, dinini tərk edib camaatdan ayrılan. Deyilənə görə, mürtəd məhz beləsidir. Yəni o, müsəlman olduqdan sonra dini tərk etmiş, sonra da müsəlman camaatını tərk etmişdir. Allah qorusun! Beləsi öldürülür.

Dördüncüsü, sələm yemək. Bu da sahibini həlak edən yeddi əməldən biridir. Sələm şirkdən sonra ən böyük günahlardan biri hesab olunur. Sələm və sələm sayılan əməllər barədə bundan sonrakı fəsildə daha ətraflı danışılacaq.

Beşincisi, yetimin malını yemək də sahibini həlak edən yeddi əməldən biridir. Yetim o kəsdir ki, həddi-büluğa çatmadan öncə atasını itirib. Bir insan onu himayəyə götürərək malını yeyir, yaxud həmin malı öz ailəsi üçün xərcləyir və ya həmin malla *öz mənfəəti üçün* ticarət edir, yaxud da buna bənzər başqa əməl edir. Bu əməl da sahibini həlak edən yeddi əməldəndir. Allah qorusun! Həmin yetimin qız və ya oğlan olmasının fərqi yoxdur.

Altıncısı, döyüşdən qaçmaq. Yəni döyüş vaxtı hərb meydanını tərk etmək. Müsəlmanlar kafirlərin üzərinə döyüşə gedərkən bu adam qaçır. Bu da böyük günahlardandır. Çünki bu əməl iki fəsada yola açır:

Birinci fəsad: müsəlmanların qəlbi sınır.

İkinci fəsad: kafirlər müsəlmanların üzərində daha da güclənirlər.

Belə ki, müsəlmanların bir qismi məğlub olsalar, kafirlərin müsəlmanlar üzərində gücləri artacaq, bununla da onlar daha da fəallaşacaqlar. Lakin izzət və cəlal sahibi Allah Quranda bir istisnanı qeyd edərək demişdir: **"Daha bir döyüş əməliyyatı keçirmək üçün bir tərəfə çəkilən və ya başqa bir dəstəyə qoşulanlar istisna olmaqla, kim belə bir gündə onlara arxa çevirərsə, Allahın qəzəbinə düçar olar. Onun gedəcəyi yer Cəhənnəmdir. Ora necə də pis dönüş yeridir".**[1]

Yəni, bu iki səbəbdən biri kimi, başqa bir qrupa yardım etmək məqsədilə döyüş meydanını tərk etmək olar. Məsələn, xəbər gəlir ki, düşmən filan qrupu mühasirəyə alıb və onlar təhlükədədir, adam da onlara yardım etmək üçün döyüş meydanını tərk edərsə, olar. Çünki o bunu daha faydalı bir iş üçün etmişdir.

[1] "əl-Ənfal" surəsi, 16.

Bir tərəfə çəkilən deyildikdə isə ayədə **"Daha bir döyüş əməliyyatı keçirmək üçün bir tərəfə çəkilən"** kəslər nəzərdə tutulur. Yəni birinin silahını düzəltmək, zirehini geyinmək və ya buna bənzər döyüşün xeyrinə olan başqa məqsədlərlə kənara çəkilməsi olar.

Yeddincisi isə günahsız, ismətli mömin qadınları zinada ittiham etməkdir. Yəni ismətli mömin qadınlara böhtan atmaq. Bu da böyük günahlardandır ki, bir qadının zinakar olduğunu söyləyəsən. Bunu deyən adama səksən şallaq vurulur, şahidliyi qəbul olunmur və o, ədalətli deyil, fasiqlərdən hesab olunur. Uca Allah bu xüsusda buyurur: **"İsmətli qadınları *zinada* günahlandırıb, sonra dörd şahid gətirməyən kəslərə səksən çubuq vurun" –** bu, ilk cəzadır – **"və onların şahidliyini heç vaxt qəbul etməyin. Onlar əsl fasiqdirlər"** – bu da ikinci cəzadır. **"Bundan sonra tövbə edib özlərini islah edənlərdən başqa. Şübhəsiz ki, Allah Bağışlayandır, Rəhmlidir".**[1] Belə olarsa, onların üzərindən fasiqlik götürülür və onlar adil insan sayılırlar. Günahsız mömin kişini zinada ittiham etmək də buna aiddir. Yəni kimsə bir kişini zinada ittiham edərsə, ona da qadını ittiham edən kəs kimi səksən şallaq vurulur.

Bunlar sahibini həlak edən yeddi əməldir. Allah bizləri və sizləri fitnələrdən qorusun. Şübhəsiz ki, O, hər şeyə Qadirdir.

[1] "ən-Nur" surəsi, 4-5.

İki yüz səksən yeddinci fəsil

Sələmin haramlığının böyüklüyü

Mövzu ilə əlaqəli ayələr:
Uca Allah buyurur:

﴿ ٱلَّذِينَ يَأۡكُلُونَ ٱلرِّبَوٰاْ لَا يَقُومُونَ إِلَّا كَمَا يَقُومُ ٱلَّذِي يَتَخَبَّطُهُ ٱلشَّيۡطَٰنُ مِنَ ٱلۡمَسِّۚ ذَٰلِكَ بِأَنَّهُمۡ قَالُوٓاْ إِنَّمَا ٱلۡبَيۡعُ مِثۡلُ ٱلرِّبَوٰاْۗ وَأَحَلَّ ٱللَّهُ ٱلۡبَيۡعَ وَحَرَّمَ ٱلرِّبَوٰاْۚ فَمَن جَآءَهُۥ مَوۡعِظَةٞ مِّن رَّبِّهِۦ فَٱنتَهَىٰ فَلَهُۥ مَا سَلَفَ وَأَمۡرُهُۥٓ إِلَى ٱللَّهِۖ وَمَنۡ عَادَ فَأُوْلَٰٓئِكَ أَصۡحَٰبُ ٱلنَّارِۖ هُمۡ فِيهَا خَٰلِدُونَ * يَمۡحَقُ ٱللَّهُ ٱلرِّبَوٰاْ وَيُرۡبِي ٱلصَّدَقَٰتِۗ وَٱللَّهُ لَا يُحِبُّ كُلَّ كَفَّارٍ أَثِيمٍ * إِنَّ ٱلَّذِينَ ءَامَنُواْ وَعَمِلُواْ ٱلصَّٰلِحَٰتِ وَأَقَامُواْ ٱلصَّلَوٰةَ وَءَاتَوُاْ ٱلزَّكَوٰةَ لَهُمۡ أَجۡرُهُمۡ عِندَ رَبِّهِمۡ وَلَا خَوۡفٌ عَلَيۡهِمۡ وَلَا هُمۡ يَحۡزَنُونَ * يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ ٱتَّقُواْ ٱللَّهَ وَذَرُواْ مَا بَقِيَ مِنَ ٱلرِّبَوٰٓاْ إِن كُنتُم مُّؤۡمِنِينَ ﴾

"Sələm yeyənlər *qəbirlərindən* şeytan vurmuş dəlinin qalxdığı kimi qalxarlar. Bu onların: "Alış-veriş də sələmçilik kimidir"– demələrinə görədir. Halbuki, Allah alış-verişi halal, sələmçiliyi isə haram etmişdir. Hər kim özünə Rəbbindən xəbərdarlıq gəldikdən sonra *sələmçiliyə* son qoyarsa, keçmişdə aldığı *sələmlər* onundur. Onun işi Allaha qalar. Kim y*enə sələmçiliyə* qayıdarsa, məhz onlar cəhənnəmlik olar və orada sürəkli qalarlar. Allah sələmi puç edər, sədəqələri isə artırar. Allah küfr və günah işlərdə israr edən kimsələri sevməz. Həqiqətən, iman gətirib saleh əməllər edən, namaz qılan və zəkat verənlərin Rəbbi yanında mükafatları vardır. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər. Ey iman gətirənlər, Allahdan qorxun və əgər möminsinizsə, sələmdən qalan məbləğdən vaz keçin".[1]

Səhih hədislər isə məşhurdur. Həmin hədislərdən biri də bundan öncəki fəsildə Əbu Hureyradan ﷺ nəql olunmuş hədisdir.

Şərh:
Müəllif ﷺ **"Sələmin haramlığının böyüklüyü"** fəslini qeyd edir.

---

[1] "əl-Bəqərə" surəsi, 275-278.

Sələm, artırma və ya gecikdirmədir. Yəni ya məbləğin artırılması, ya da əldə etmənin gecikdirilməsidir. İzzət və cəlal sahibi Allah öz kitabında sələmin hökmünü və onun üçün hazırlanmış cəzanı bəyan etmişdir. Peyğəmbər ﷺ sələmin nə vaxt və necə olduğunu bəyan etmiş və qeyd etmişdir ki, sələm altı növ məhsulda olur: qızıl, gümüş, buğda, arpa, xurma və duz. Bu altı məhsulda sələm olur.

Bir şeyi öz cinsi ilə alış-veriş etməyin iki şərti olmalıdır:

Birincisi, bərabərlik; ikincisi isə ayrılmadan öncə əldə etmə.

Qızılı qızıla dəyişdikdə, gərək çəkiləri eyni olsun və ayrılmamışdan öncə gərək hər iki tərəf öz qızılını götürmüş olsun. Gümüşü gümüşə dəyişdikdə də gərək çəkiləri eyni olsun və ayrılmamışdan öncə gərək hər iki tərəf öz gümüşünü götürmüş olsun. Buğdanı buğda ilə dəyişdikdə də gərək çəkiləri eyni olsun və ayrılmamışdan öncə gərək hər iki tərəf öz buğdasını götürmüş olsun. Arpanı arpaya dəyişdikdə də gərək çəkiləri eyni olsun və ayrılmamışdan öncə gərək hər iki tərəf öz arpasını götürmüş olsun. Xurmanı xurmaya dəyişdikdə də gərək çəkiləri eyni olsun və ayrılmamışdan öncə gərək hər iki tərəf öz xurmasını götürmüş olsun. Habelə duzu duza dəyişdikdə də gərək çəkiləri eyni olsun və ayrılmamışdan öncə gərək hər iki tərəf öz duzunu götürmüş olsun.

Bu altı növ məhsulun hər birinin alqı-satqı qaydası belədir. Öz cinsindən olmayan məhsulları, məsələn qızılı gümüşlə alqı-satqı etdikdə də hər iki tərəf öz malını ayrılmamışdan öncə əldə etməlidir. Ancaq bu zaman miqdarın eyni olması şərt deyil. Misal üçün, bir sa buğdanı iki sa arpaya dəyişə bilərsən. Sadəcə ayrılmamışdan öncə hərə öz malını almalıdır. Yaxud bir sa xurmanı iki sa arpaya dəyişmək olar, bir şərtlə ki, ayrılmamışdan öncə hərə öz malını götürmüş olsun. Həmçinin qızılı gümüşlə də artıq-əskik dəyişmək olar, bir şərtlə ki, ayrılmamışdan öncə hərə öz malını götürmüş olsun.

Peyğəmbərin ﷺ sələm saydığı altı növ məhsul budur. Bu mənada olan şeylər də eyni hökmü daşıyır. Çünki İslam şəriəti oxşar şeylər arasında fərq qoymur, ancaq fərqli şeyləri də oxşar hesab etmir.

Sələmin hökmünə gəldikdə isə o, sahibini həlak edən yeddi böyük günahdan biridir. Allah qorusun! Sələmlə iş görən kəs Allahın yer üzündə ən xəbis qulları olan yəhudilərə bənzəyir. Çünki sələm və haramla iş görənlər

yəhudilərdir. Bu ümmətdən də kim sələmlə iş görərsə, həmin kəsdə yəhudiyə bənzərlik vardır. Allahdan afiyət diləyirik.

Sələmin cəzası haqqında isə izzət və cəlal sahibi Allah belə buyurur: **"Sələm yeyənlər *qəbirlərindən* şeytan vurmuş dəlinin qalxdığı kimi qalxarlar".**

Şeytan Adəm oğluna müsəllət ola bilər. Allah qorusun. Yalnız Uca Allahın şəri zikrləri etməyə müvəffəq etdiyi kəslər şeytandan qoruna bilərlər. Məsələn, hər gecə "Ayət əl-Kursi"ni və başqa buna bənzər zikrləri oxumaqla. Şeytan insana müsəllət olaraq onunla mübarizə aparır. Bu zaman həmin adamın əlləri, ayaqları ilə hərəkət edərək özünü ora-bura vurmasını görə bilərsən. Sələm yeyənlər də qəbirlərindən şeytan vurmuş dəlinin qalxdığı kimi qalxacaqlar.

Alimlər ixtilaf etmişlər ki, doğrudanmı onlar qəbirlərindən şeytanın vurduğu dəli kimi oyanacaqlar, yoxsa ayənin mənası odur ki, onlar sələmlə iş gördükləri, habelə acgöz, tamahkar və xəsis olduqları üçün dəli kimi olurlar? Bəlkə buna əhəmiyyət vermədiklərinə görə belə vəsf olunurlar?

Səhih olan budur ki, ayənin iki mənası var və bu hər iki mənada ola bilər. Yəni onlar bu dünyada şeytanın vurduğu dəlilər kimi işlər görürlər, axirətdə də qəbirlərindən bu vəsflə qalxırlar. Allah qorusun.

Sonra izzət və cəlal sahibi Allah onların **"alış-veriş də sələm kimidir"** deməklə səhv müqayisə etdiklərini bildirir. Yəni, onlara görə fərq etməz, sənin, məsələn, bir adama yüz riala qoyun satmağınla bir dirhəmi iki dirhəmə satmağın eyni şeydir. Beləcə onlar dedilər ki, **"alış-veriş də sələm kimidir"**. Onların bu müqayisəsi şeytana Adəmə səcdə etməsi əmr olunduğu zaman etdiyi müqayisəyə bənzəyir. Bir zaman o da: **"Mən ondan daha xeyirliyəm – Sən məni oddan, onu isə palçıqdan yaratmısan"**[1]– deməklə səhv müqayisə etmişdi.

İndi də onlar səhv müqayisə etdilər. İzzət və cəlal sahibi Allah da bildirdi ki, şəri hökmdə müqayisə olmur: Allah alış-verişi haram, sələmi isə halal etmir. Uca Allah ona görə alış-verişi halal, sələmi isə haram buyurmuşdur ki, onların arasında böyük fərq vardır və onlar eyni deyillər. Lakin Allah kimin qəlbini örtərsə, o adam batili haqq, haqqı isə batil kimi görər. Allah qorusun.

[1] "əl-Əraf" surəsi, 12.

İzzət və cəlal sahibi Allah qəlbləri örtülmüş kəslər barədə buyurur: **"Onlara bizim ayələrimiz oxunduğu zaman: Bunlar əvvəlkilərin əfsanələridir – deyirlər".**[1]

Qurani-Kərim ən əzəmətli, ən aydın, ən fəsahətli, ən faydalı kəlamdır. Onlar isə bu kəlam barəsində deyirlər ki, bu, əvvəlkilərin əfsanələridir. Nə üçün? – **"Onların qəlbini qazandıqları *günahlar* bürümüşdür".**[2] Qəlb, örtülərsə, adam batili haqq, haqqı isə batil kimi görər. Onlar da: **"Alış-veriş də sələm kimidir"**– deyirdilər. Uca Allah isə buyurur: **"Allah alış-verişi halal, sələmi isə haram buyurmuşdur".**

Sonra izzət və cəlal sahibi Allah sələm yeyənlərə xatırladır ki, tövbə edib bu günahdan uzaqlaşsınlar. Çünki Uca Allah tövbə edənləri və təmizlənənləri sevir. Rəsulullah ﷺ bu xüsusda demişdir: **"Bəndə tövbə etdiyi zaman Allah, birinizin itmiş miniyini tapdığı zaman sevindiyindən daha çox sevinir".**[3]

Bir adam çöllükdə idi. Onun yeməyi və suyu da miniyinin üstündə idi. Həmin minik itdi. Özü də səhralıqda, yanında da heç kim yoxdur. Onu axtarır, lakin tapa bilmir. Sonra bir ağac altına uzanır və Allahın onun əcəlini yetişdirəcəyi anı gözləyir. Elə bu vaxt ağacın arasından itmiş dəvəsinin ovsarının ağacdan asıldığını görür. Həmin vaxt o, həyatla ölüm arasında idi. Dəvəsinin ovsarından tutub deyir ki; "Allahım, Sən mənim qulumsan, mən də sənin rəbbin".[4] Sadəcə o, sevincin gücündən səhv edir. İstəyirdi ki: "Allahım, Sən mənim Rəbbimsən, mən də Sənin qulun" desin, ancaq sevincin gücündən səhv edir. Peyğəmbər ﷺ də buyurur ki: **"Bəndə tövbə etdiyi zaman Allah, birinizin itmiş miniyini tapdığı zaman sevindiyindən daha çox sevinir"**. Bu sevinc barəsində bir düşün. Adam ölmək üzrədir, yemək-içməyini, dəvəsini və malını itirib. Birdən onu tapır və sevinir. İzzət və cəlal sahibi Allah, bəndəsinin tövbə etməsinə bu adamın sevincindən daha çox sevinir.

Uca Allah buyurur: **"Hər kim özünə Rəbbindən xəbərdarlıq gəldikdən sonra *sələmçiliyə* son qoyarsa, keçmişdə aldığı *sələmlər* onundur".**

---

[1] "əl-Mutaffifin" surəsi, 13.

[2] "əl-Mutaffifin" surəsi, 14.

[3] "Səhih Muslim", 4928.

[4] "Səhih Muslim", 4932.

Həmd Allaha məxsusdur. Yəni səlam yeyən kəs nəsihət qəbul edər və bu əməlinə son qoyarsa, keçmişdə aldığı səlamlər onundur və günahları bağışlanır. Artıq buna görə o məsul deyil və onun işi Allaha qalır. Yox, əgər nəsihət qəbul etmiş, ancaq insanların hələ də onun üzərində haqları varsa, gərək həmin haqları ödəsin. Çünki Uca Allah buyurur: **"keçmişdə aldığı *səlamlər* onundur".** Yerdə qalan isə onun deyil. Bu səbəbdən də Peyğəmbər ﷺ Ərəfatda Vida həcci zamanı Qiyamət gününədək davam edəcək bir hökm elan etdi: **"Cahiliyyət dövründə alınmış səlam qüvvədə deyil".**[1] Yəni, cahiliyyət dövründə insanların alıb-verdikləri səlamlər artıq keçərsizdir. Onlar gərək səlamdən əl çəksinlər. Buna görə də demişdir ki: **"İlk ləğv olunan səlam Abbas ibn Əbdul-Muttalibin səlamidir".** Abbas isə onun əmisi idi. Hökm belədir. Rəhbər olan hər bir kəs də ilk növbədə öz yaxınlarından başlamalıdır. İnsanların bu günkü adəti isə bunun tam əksidir. Rəhbərlərin qohumları da *qeyri-rəsmi* toxunulmazlığa sahib olduqları üçün istədiklərini edirlər. Rəsulullahın ﷺ zamanında isə o: **"İlk ləğv olunan səlam Abbas ibn Əbdul-Muttalibin səlamidir. Onun hamısı keçərsizdir"**– demişdi. İkinci cümlə burada hökmü təkidləyir.

Ömər ibn əl-Xəttab رضي الله عنه insanlara bir şeyi qadağan etməmişdən öncə öz ailəsini və qohumlarını bir yerə yığaraq onlara deyərdi: "İnsanlara filan şeyi qadağan edirəm. İnsanlar isə sizə quş ətə baxdığı kimi baxırlar. Allaha and olsun ki, sizlərdən kiminsə bunu etdiyini eşitsəm, ona ikiqat əzab verəcəyəm". Yəni ona əzabın iki mislini verəcək. Çünki ola bilsin ki, qohumlar *onun bu qadağasına* müxalif olsunlar, ancaq rəhbərə yaxın olduqları üçün bunu biruzə verməsnlər. Bu gün də müxtəlif yerlərdə bu baş verməkdədir. İslam ümmətində və İslam xilafətində isə hökmlər ilk növbədə rəhbərin öz qohumları üzərində icra edilir. Məhz bunun sayəsində də onlar dünyanın hər tərəfini fəth etmiş, müxtəlif xalqları ram etmişdilər.

Xülasə, uca və nöqsansız Allah öz lütfü, mərhəməti və səxavəti ilə günahkarlara tövbə etmələrinə imkan verir: **"Hər kim özünə Rəbbindən xəbərdarlıq gəldikdən sonra *səlamçiliyə* son qoyarsa, keçmişdə aldığı *səlamlər* onundur".** Allah bizlərin və sizlərin tövbələrini qəbul etsin.

Qullarının tövbəsini hər an qəbul edən uca Allah buyurur: **"O kəslər ki, mömin kişi və qadınları *yandırmaqla* sınağa çəkmiş, sonra da tövbə**

[1] "Sunən Əbu Davud", 2896; "Sunən İbn Macə", 3046.

etməmişlər, onlara Cəhənnəm əzabı və onları yandırıb-yaxacaq od əzabı hazırlanmışdır".[1]

Bu, Uxdud əhlinin hekayəsində qeyd olunur və uzunsov xəndəklər qazaraq bütün mömin bəndələri ora atmış kəslərə aiddir: **"Möminlərə verdikləri *işgəncələri* seyr edirdilər. *Kafirlər* onlardan yalnız Qüdrətli, Tərifəlayiq Allaha iman gətirdiklərinə görə intiqam alırdılar".**[2]

İzzət və cəlal sahibi Allah buyurur: **"O kəslər ki, mömin kişi və qadınları *yandırmaqla* sınağa çəkmiş, sonra da tövbə etməmişlər, onlara Cəhənnəm əzabı və onları yandırıb-yaxacaq od əzabı hazırlanmışdır".**

Baxın, onlar möminləri yandırırdılar, bununla belə, izzət və cəlal sahibi Allah tövbə edənləri sevir: **"sonra da tövbə etməmişlər...".** Allah bizlərin və sizlərin tövbələrini qəbul etsin.

İzzət və cəlal sahibi Allah buyurur: **"Hər kim özünə Rəbbindən xəbərdarlıq gəldikdən sonra *sələmçiliyə* son qoyarsa, keçmişdə aldığı *sələmlər* onundur. Onun işi Allaha qalar. Kim y*enə sələmçiliyə* qayıdarsa, məhz onlar cəhənnəmlik olar və orada sürəkli qalarlar".**[3]

Bu onların axirətdəki cəzalarıdır. Dünyadakı cəza isə belədir: **"Allah sələmi puç edər",** yəni onu tələf edər.

Bir şeyin tələfi iki növdür:

Maddi tələf, yəni malı təbii bir hadisə nəticəsində məhv olar, yaxud xəstələnər və müalicəyə və dərmana ehtiyacı olar. Yaxud ailə üzvlərindən birinin müalicəyə ehtiyacı olar. Yaxud oğurlanar, qəsb olunar və ya yanğında məhv olar. Uca Allah sələmi buna bənzər dünyavi cəzalarla puç edər.

Mənəvi tələf. Bəzilərinin pulu çox olsa da, onlar kasıblar kimi həmin puldan faydalana bilmirlər. Beləsi necə dövlətli hesab edilə bilər? Təbii ki, sayılmaz. Beləsi hətta kasıbdan da pis halda olur. Çünki yığdığı mal-dövlət başqalarına miras qalacaq. Özü isə ondan faydalana bilmir. Beləcə Allah sələmi puç edir. Allah bizlərə qəlblərimizi dirildəcək və əhvalımızı düzəldəcək moizələr nəsib etsin.

Ardınca uca Allah: **"Sədəqələri isə artırır"**[4]– buyurur. Yəni onu artırıb çoxaldır.

---

[1] "əl-Buruc" surəsi, 10.

[2] "əl-Buruc" surəsi, 7-8.

[3] "əl-Bəqərə" surəsi, 275.

[4] "əl-Bəqərə" surəsi, 276.

Peyğəmbər ﷺ belə demişdir: **"Kim gözəl tərzdə bir xurma sədəqə verərsə – Allah yalnız gözəl tərzdə verilən sədəqəni qəbul edər – Allah onu əlinə götürər və biriniz öz atını böyütdüyü kimi, onu böyüdər, böyüdər və o, dağ boyda olar"**.[1]

Uca Allah buyurur: **"Mallarını Allah yolunda xərcləyənlərin misalı yeddi sünbül verən bir toxumun misalına bənzəyir ki, sünbüllərin hər birində yüz ədəd dən vardır. Allah istədiyi kimsənin *mükafatını* artırar".**[2]

Sədəqə yaxşı bir iş, habelə Allaha ibadətdir. İnsan öz malından nə isə sədəqə verdikdə Uca Allah onun bu sədəqəsinin savabını və əcrini artırır, malının yerdə qalan hissəsinə isə bərəkət nazil edir. Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: **"Sədəqə malı azaltmaz".**[3]

Allah sədəqə ilə sələmi ona görə yanaşı qeyd etmişdir ki, sələm zülmdür, malın batilcə yeyilməsidir. Sədəqə isə yaxşılıq və xeyirli əməldir. Bu ikisi bir arada qeyd olunur ki, sədəqə verən yaxşı insanlarla zalım sələm yeyənlər müqayisə edilsin.

Daha sonra uca və böyük Allah buyurur: **"Mallarını Allah yolunda xərcləyənlərin və xərclədiklərinin ardından minnət qoymayan və əziyyət verməyənlərin Rəbbi yanında mükafatları vardır. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər".**[4] Burada imana və yaxşı əməllərə təşviq vardır.

İzzət və cəlal sahibi Allah buyurur: **"Ey iman gətirənlər, Allahdan qorxun və əgər möminsinizsə, sələmdən qalan məbləğdən vaz keçin".**[5]

"Allahdan qorxun" deyə buyuraraq ilk öncə təqvalı olmağı əmr edir. Sonra isə: **"sələmdən qalan məbləğdən vaz keçin"–** buyurur. Yəni onu tərk edin və onu götürməyin. Beləcə, ümumi əmrdən sonra xüsusi əmri qeyd edir. Çünki təqva haram işlərdən çəkinmək və vacibləri yerinə yetirməkdir. O: **"sələmdən qalan məbləğdən vaz keçin"** buyurur**.** Bu da ümumidən sonra xüsusinin qeyd olunmasıdır.

Sonra buyurur: **"Belə etməsəniz",** yəni sələmi tərk etməsəniz **"Allahın və Onun rəsulunun sizə müharibə elan etdiyini bilin".** Başqa bir

---

[1] "Səhih əl-Buxari", 1321.

[2] "əl-Bəqərə" surəsi, 261.

[3] "Səhih Muslim", 4689.

[4] "əl-Bəqərə" surəsi, 262.

[5] "əl-Bəqərə" surəsi, 278.

qiraətdə isə " فَأذنوا / fə-azinu" kimi (yəni "əlif" uzadılaraq) oxunur. Yəni, "Allah və rəsuluna qarşı müharibə elan edin". Özümüz üçün Allahdan Ona və Onun eçisinə itaətdə müvəffəqiyyət diləyirik. Allah bizləri bu cür haramlardan qorusun.

"Yox, əgər tövbə etsəniz, sərmayəniz sizindir. Nə siz zülm edərsiniz, nə də sizə zülm olunar". Yəni, əgər sələm yeməkdən tövbə etsəniz, sərmayəniz sizindir. Birisinə yüz *rial* verib əvəzinə yüz iyirmi *rial* almaq istəmisənsə tövbə etdikdən sonra ancaq yüz *rialı* götürürsən. Çünki Uca Allah buyurur: **"sərmayəniz sizindir".**

Bəzi insanlar aşkar dəlil ola-ola batil qiyasa əl atıb deyirlər ki, əgər malını ABŞ, İngiltərə, Fransa və ya hər hansı başqa bir ölkədə əcnəbi banka qoymusansa, *yığılan* faizi götürüb sədəqə ver. Sübhanallah! Heç adam da əlini bilə-bilə nəcisə vurub sonra gedib əlini yuyarmı? Niyə birdəfəlik nəcisdən uzaqlaşmasın? Bu, aşkar dəlilə qarşı olan batil qiyasdır və o doğru sayılmır. Əgər onu sənə versələr qəbul etmə, de ki, şəriətimiz sələmi bizlərə haram buyurmuşdur.

Bəziləri isə deyirlər ki, əgər bunu onlardan götürməsən, onlar onu kilsələrə və ya müsəlmanlara qarşı aparılan müharibələrə sərf edəcəklər.

Biz deyirik: Bunu kim deyir? Bəlkə bankın sahibi onu özünə və ya qohumuna götürəcək, yaxud həmin pulu öz mənafeyi üçün xərcləyəcək? Kim deyir ki, həmin pul kilsəyə sərf olunacaq? Lap fərz edək ki, həmin pul kilsəyə verildi. Məgər həmin pul sənin mülkündür ki, o pulla kilsəyə yardım edildiyini iddia edəsən? – Xeyr, həmin pul sənin mülkünə çevrilməyib. Sadəcə sənə əsli sələm olan bir malı vermək istəyirlər. Bu sənin malının qazancı deyil ki, deyəsən ki, mən onlara pulumdan vermiş oldum və harama dəstək verdim. Qətiyyən belə deyil. Tutaq ki, bu elə sənin malının qazancıdır, yaxud malın daha çox qazanc gətirib. Sən də sələm olduğu üçün götürmək istəmədiyin malı onlar pulu kilsəyə və ya müsəlmanlara qarşı aparılan müharibələrə sərf edirlər. Bunu onlara sənmi əmr etmisən? – Xeyr. Elə isə Uca Allahdan qorx: "Sərmayən sənindir. Nə sən zülm edərsən, nə də sənə zülm olunar".

Sonra isə deyirik: Kim zəmanət verə bilər ki, sənə sələmdən bir-iki milyon qazanc gəlsə, sən onu sədəqə verəcəksən? Bəlkə də simiclik sənə qalib gələcək, tərəddüd edib gözləyəcəksən. Sonra da günlər keçəcək və sən öləcəksən, həmin mal da başqasına qalacaq. Sən bunu etsən başqalarına da

nümunə olacaqsan: deyəcəklər ki, təqvalı filankəs birisi pulunu banka qoyub sələm götürdü. Bundan əlavə, bizlər də bunu davam etdirib sələmi götürsək, İslam bankı yaratmağı mümkünsüz edəcəyik. Çünki İslam bankının yaradılması asan deyil. Bu iş olduqca çətindir və bu yolda maneələr vardır. Bəzi insanlar da müsəlmanlarla onların arasında qalıblar. İnsanlar buna davam edərlərsə, onların işi asanlaşar və deyərlər ki, İslam bankı yaradılanadək sələmi götürək. Biz davamlı təbliğ etsək ki, bu haramdır, o zaman müsəlmanlar İslam bankları yaratmağa məcbur olacaq və sələm banklarına ehtiyacları qalmayacaq.

Xülasə, kim desə ki, sələmi götür sədəqə ver, dəlilə qiyasla qarşılıq vermiş olur. İzzət və cəlal sahibi Allah aydın şəkildə buyurur: **"Yox, əgər tövbə etsəniz, sərmayəniz sizindir. Nə siz zülm edərsiniz, nə də sizə zülm olunar".**

Əgər cahiliyyət dönəmində baş vermiş sələm müqaviləsi Rəsulullahın vaxtında məhz onun tərəfindən qoyulmuşdusa, baxmayaraq ki, həmin müqavilə cahiliyyət dövründə baş vermişdi, onlar buna mübah əməl kimi əməl edirdilər. Buna rəğmən Peyğəmbər ﷺ onu keçərsiz edərək dedi: **"Cahiliyyət dövrünün sələmi keçərsizdir".** Belə dəlil varkən sələmin haram olmasını bilən müsəlman necə deyə bilər ki, onu götürüm, sonra sədəqə verim?

Nəticə etibarilə bu mövzu bəzi alimlər üçün problemə çevrilmişdir. Onlar elə düşünürlər ki, bu pulu götürüb sədəqə vermək olar. Onlar dərindən düşünsələr, səhv etdiklərini anlayarlar. Qiymət günü uca Allahın önündə bizim üçün hüccət bu ayədir: **"Yox, əgər tövbə etsəniz, sərmayəniz sizindir. Nə siz zülm edərsiniz, nə də sizə zülm olunar".** Axı ayədə deyilmir ki, kafirlərlə müamələ etdikdə sələmi götürün. Əfsuslar olsun ki, bəziləri buna müsbət fətva verirlər, halbuki onlar diqqətlə araşdırsalar, səhv olduqlarını deyərlər.

Bizdə uca və böyük Allahın: **"Yox, əgər tövbə etsəniz, sərmayəniz sizindir. Nə siz zülm edərsiniz, nə də sizə zülm olunar"** ayəsi var. Biz də: "Eşitdik və aləmlərin Rəbbi olan Allaha itaət etdik" deyir, sərmayəmizi götürür, pulun qalanı ilə isə işimiz olmur. Müsəlmanlara qarşı müharibə isə sənin pulunun iştirakı olmadan da aparılır və bu məsələ təkcə sənin dirhəmlərindən asılı deyil.

Şəriətə tabe olsaq, Allah bizi hər bir sıxıntıdan qurtarar və hər bir çətinlikdən çıxmağa bizə bir yol göstərər. Yox, əgər öz ağlımızla müqayisə etsək: **"Sələm də alış-veriş kimidir",** yaxud: **"Mən ondan daha üstünəm. Çünki Sən məni oddan, onu isə palçıqdan yaratmısan"**[1]**–** deyənlər kimi olar və böyük xətaya yol verərik. Bu aydın məsələdir və ictihad etməyə gərək yoxdur: **"Yox, əgər tövbə etsəniz, sərmayəniz sizindir. Nə siz zülm edərsiniz, nə də sizə zülm olunar".**

Əgər borclu çətinliklə üzləşsə və borcun vaxtı çatsa, özünün də pulu olmasa, bu zaman ona möhlət verilməlidir. **"Əgər *borclu olan kəs borcu qaytarmağa* qadir deyilsə, vəziyyəti düzələnə qədər *ona* möhlət verin".** Yəni, borcu vermək vaxtı çatan kasıbın borcu ödəməyə imkanı olmadıqda ona möhlət verilməlidir. **"*ona* möhlət verin"–** deyən kimdir? İzzət və cəlal sahibi Allah. Malı sənə verən, onunla sənə yaxşılıq edən, ondan istifadə etməyə imkan yaradan Odur. O da sənə buyurur ki, əgər borcu olan kasıbdırsa, gərək ona möhlət verəsən. İman haradadır? İbadət haradadır?

Allahın həqiqi bəndəsi o adamdır ki, o, Allahın əmrini eşitdikdə: "Eşitdik və itaət etdik" – deyir. Uca Allah buyurur: "**Kim Allaha və Onun rəsuluna itaət etsə, böyük bir uğur qazanar".**[2]

Dinara və dirhəmə ibadət edən, onların haradan gəlməsinə önəm verməyənlərə gəlincə isə onlar dinarın və dirhəmin qullarıdır. Peyğəmbər ﷺ onların həlak olmaları üçün bəddua etmişdir.

"Əgər *borclu olan kəs borcu qaytarmağa* qadir deyilsə, vəziyyəti düzələnə qədər *ona* möhlət verin".

Sonra daha yüksək mərtəbə gəlir ki, o da möhlət verməkdən daha yaxşıdır. Uca Allah buyurur: **"Sədəqə versəniz, bu sizin üzün daha xeyirlidir".** Görürsən ki, imkanı yoxdur, ona sədəqə ver və de ki, ey filankəs, görürəm imkanın zəifdir, borcu sənə bağışlayıram. Bu sənin üçün daha xeyirlidir. Sən ana bətnindən çıxarkən pulun yox idi. Sənə yardım edən, mal-dövlət bəxş edən kimdir? – İzzət və Cəlal sahibi Allah. O buyurur: **"Sədəqə versəniz, bilsəniz bu sizin üzün daha xeyirlidir".** De ki: Aləmlərin Rəbbi olan Allahı eşitdik və Ona itaət etdik.

---

[1] Bax: "əl-Əraf" surəsi, 12.

[2] "əl-Əhzab" surəsi, 71.

Sonra ayələri bu ayə ilə tamamlayır: **"Allahın hüzuruna qaytarılacağınız gündən qorxun! Sonra hər kəsə qazandığının əvəzi veriləcək və onlara zülm edilməyəcəkdir".**

İzzət və cəlal sahibi Allahın hüzuruna ayaqyalın və çılpaq qaytarılacağınız o gündən qorxun: **"O gün insan qaçacaq – öz qardaşından, anasından, atasından, həyat yoldaşından və övladlarından. O gün onlardan hər birinin yetərincə işi olacaq".**[1]

O gün təqva yalnız izzət və cəlal sahibi Allaha itaətlə olacaqdır. Allah bizlərə və sizlərə təqva və yaxşı işlər nəsib etsin. Şübhəsiz ki, O, hər şeyə Qadirdir.

Mövzu ilə əlaqəli hədislər:

Bu mövzuya əvvəlki fəsildə keçən 1614 saylı hədisi də aid etmək olar.[2]

١٦١٥– وَعَن ابنِ مَسْعودٍ ﵁ قَالَ: « لَعَنَ رسُولُ اللَّهِ ﷺ آكِلَ الرِّبَا وموكِلهُ». رواه مسلم.

زاد الترمذي وغيره: « وَشَاهديه، وَكَاتبَهُ ».

1615. Rəvayət olunur ki, İbn Məsud ﵁ demişdir: "Rəsulullah ﷺ sələm yeyəni və yedirdəni lənətləmişdir".

Bu hədisi Muslim rəvayət etmişdir.[3]

Tirmizinin və başqalarının rəvayətində isə: "şahidlərini və yazanı" əlavəsi də var.[4]

Şərh:

Müəllif ﵀ **"Sələmin haramlığının böyüklüyü"** fəslində İbn Məsudun ﵁ bu sözlərini qeyd edir: "Rəsulullah ﷺ sələm yeyəni və yedirdəni lənətləmişdir".

Sələm yeyən, yəni onu götürən. İstər bunu yeməyə sərf etsin, istərsə də geyim, minik, məişət ləvazimatları, ev və ya başqa bir şeyə. Əsas olan

[1] "Əbəsə" surəsi, 34-37.

[2] Bax: səh. 291.

[3] "Səhih Muslim", 2994.

[4] "Sunən ət-Tirmizi", 1128.

odur ki, o, sələmi götürüb. Uca Allah yəhudilər barəsində buyurur: ***"Həm də* qadağan olunmasına baxmayaraq, sələm aldıqlarına və haqsız yerə insanların mallarını yediklərinə görə *belə etdik*".**[1] Beləcə sələm yeyən kəs Peyğəmbərin ﷺ dili ilə lənətlənmişdir.

Onu yedirdən, yəni sələm verən. Baxmayaraq ki, sələm verən məzlumdur, çünki sələmi alan onun haqqına girmişdir. Buna baxmayaraq o da Peyğəmbərin ﷺ dili ilə lənətlənmişdir. Çünki o, sələm alanla günah məsələlərində əməkdaşlıq etmişdir. Peyğəmbər ﷺ demişdir: **"Zalım olsa da, məzlum olsa da qardaşına yardım et"**. Dedilər: "Ey Allahın elçisi, məzlumu anladıq, bəs zalıma necə yardım edək?" O dedi: **"Onu zülmdən çəkindirsən ona yardım etmiş olarsan".**[2]

Birisinin pula ehtiyacı olduqda banka gedir, on min *rial* pul götürür və on bir min *rial* qaytarmalı olur. Bu vaxt həm sələmi götürən, həm də sələm verən bank məxluqatın ən xeyirlisi Muhəmmədin dili ilə lənətlənir. Rəsulullahın ﷺ lənəti və duası isə dərhal qəbul olunur. Lənət Allahın rəhmətindən qovulmaqdır. Bu lənətlənmiş kəs cəza baxımından İblisə şərik olur. Çünki Uca Allah İblisə: **"Sənə lənət olsun"**– demişdi.[3]

Sələm yeyən də, onu yedirdən də lənətlənmişlər. Yəni onlar Allahın rəhmətindən qovulmuşlar. Bir də ki, sələmi yeyən haram yemiş olur. Haramla qidalanan bədən isə oda layiqdir. Allah bundan əlavə əldə olunan sələmə görə onun malından bərəkəti aparır. Ola bilsin, onun başına *bədbəxt* hadisə gəlsin və o, tələf olsun. Uca Allah buyurur: "**İnsanların var-dövləti sayəsində artırmaq məqsədilə sələmlə verdiyiniz mal Allah yanında artmaz".**[4] Sələm verən kəs isə sələm verdiyinə görə ona lənət olunur.

Kimsə soruşa bilər ki, sələm verən kəsi sonradan Allah hidayət etsə, tövbə edə bilərmi? Deyirik: Bəli, tövbə edə bilər. Onunla Allaha edilən tövbə arasına kim müdaxilə edə bilər? Sadəcə səmimi şəkildə tövbə etmək, günaha görə peşman olmaq və bir daha həmin əmələ qayıtmamağa əzm göstərmək lazımdır. Sonra da Allaha yaxınlaşmaq niyyəti ilə sələmdən yaxa qurtarmaq üçün onu *malından* çıxarmalıdır. Çünki Allah gözəldir və

[1] "ən-Nisa" surəsi, 161.

[2] "Səhih əl-Buxari", 6438.

[3] "əl-Hicr" surəsi, 35.

[4] "ər-Rum" surəsi, 39.

yalnız gözəl olanı qəbul edir. Bunu da o, xeyirli işlərdən birinə sərf etməklə yerinə yetirə bilər ki, onlardan biri də sədəqə vermək, yaxud da onu beytulmala verməkdir.

Digər rəvayətlərdə Tirmizi və başqaları Peyğəmbərin ﷺ sələmə şahidlik edənləri və onu yazanları da lənətlədiyini nəql etmişlər. Sələmə şahidlik edənlər və onu yazan kəs bundan mənfəət götürmür, lakin onlar sələmin tamamlanmasına yardım etmişlər. Şahidlər və yazanın sayəsində sələm tamamlanır. Belə ki, şahidlər haqqı təsbit edir, yazan isə onu təsdiqləyir. Ona görə də bu üç şəxs – iki şahid və yazan günaha və ədavətə yardım etmişlər. Bu səbəbdən də lənətdən onlara da pay biçilmişdir. Həmin beş şəxsin hamısı Muhəmmədin ﷺ dili ilə lənətlənmişlər: sələm yeyən, yedirdən, buna şahidlik edən iki nəfər və bunu yazan.

Bu hədis dəlildir ki, günah bir işə yardım edən kəs günah edənlə həmşərikdir. Bu belədir və buna Quran dəlalət edir. Uca və böyük Allah buyurur: **"Ayələrimizi məsxərəyə qoyanları gördüyün zaman, onlar başqa söhbətə keçənədək onlardan üz çevir. Əgər şeytan *bunu* sənə unutdursa, xatırladıqdan sonra zalım tayfa ilə birgə oturma".**[1]

"Əgər şeytan *bunu* sənə unutdursa", yəni bunu unutsan **"xatırladıqdan sonra zalım tayfa ilə birgə oturma".** Yəni xatırladıqdan sonra zalım qövmlə birlikdə oturma.

İzzət və cəlal sahibi Allah buyurur: **"*Allah* Kitabda sizə nazil etmişdir ki, Allahın ayələrinin inkar edildiyini, yaxud onlara istehza olunduğunu eşitdiyiniz zaman, *kafirlər* başqa bir söhbətə keçməyincə onlarla bir yerdə oturmayın. Yoxsa siz də onların tayı olarsınız. Şübhəsiz ki, Allah münafiqlərin və kafirlərin hamısını Cəhənnəmdə toplayacaqdır".**[2]

Günah iş görənlə oturmaqla belə həmşərik olan günah iş görən adam kimi günah qazanmış olur: **"Yoxsa siz də onların tayı olarsınız. Şübhəsiz ki, Allah münafiqlərin və kafirlərin hamısını Cəhənnəmdə toplayacaqdır".**

Bu ayə ribadan çəkinməyə və ondan uzaqlaşmağa dəlildir.

Sələmdən istifadə müsəlmanlara bu gün böyük zərərlər verir. Görürsən ki, kasıb və möhtac olan kəs sələmi asanlıqla əldə edə bilir. Sadəcə məbləği artıq qaytarmalı olur. Onun niyyətini isə Allah bilir. Ola bilsin ki,

[1] "əl-Ənam" surəsi, 68.

[2] "ən-Nisa" surəsi, 140.

vaxtı yetişdikdə onun heç borcu qaytarmağa niyyəti yoxdur. Lakin bu iş asan olduğu üçün götürür. Beləcə, zərurət olmadan borclar üst-üstə yığılır.

Hətta bəzi səfehlər zəruri ehtiyac duymadıqlarını almaqdan ötrü sələmə əl atır. Şeytan onu şirnikləndirir və o, düşünmür ki, borcu verən kəs vaxtı gəldikdə ondan borcu tələb edəcək və ona mərhəmət göstərməyəcək. Hətta ola bilsin, o, həbs olunsun və ya borcu ikiqat artırılsın. Uca Allahın: **"Əgər *borclu olan kəs borcu qaytarmağa* qadir deyilsə, vəziyyəti düzələnədək *ona* möhlət verin"** ayəsinə[1] əməl etməyən bir çoxlarının halı belədir. Bu yazıq da düşünmür ki, borclu halda ölə bilər. Beləsi düşünmür ki, Peyğəmbərin ﷺ yanına cənazə namazı qılması üçün cənazə gətirildikdə o: **"Onun borcu varmı?"**– soruşar, "Bəli, var" deyildikdə deyərdi ki: **"Borcu ödəyin"**. "Xeyr" deyildikdə isə: **"Onun namazını qılın"**– deyərdi.[2] Onun borclunun namazını qılmaması bu işin nə qədər böyük olduğunu göstərir.

Həmçinin beləsi düşünmür ki, birisi Allah yolunda vuruşaraq ölərsə, şəhid olur, şəhidlik isə borc istisna bütün başqa günahlara kəffarə olur. Buna rəğmən bir çox səfehlər borc məsələsinə diqqətlə yanaşmır və bu günaha batır. Misal üçün iyirmi minlik avtomobili olduğu halda deyir ki, yox, gedim borca səksən minlik maşın alım və ya bəzilərinin etdiyi kimi, sələm götürüm. Salona gəlib avtomobilin qiymətini öyrənir, sonra başqa tacirin yanına gedib deyir ki, o avtomobili al və mənə sat. Bütün bunlar aləmlərin Rəbbi olan Allaha hiylə gəlməyə və ya Onu aldatmağa cəhd etməkdir. Uca Allah buyurur: **"Doğrusu, münafiqlər Allahı aldatmağa çalışırlar. Halbuki *Allah* onları aldadır".**[3]

Yəni bu tacirin həmin maşını almağa nə niyyəti var idi, nə də ki, maşını almaq istəyən adama yaxşılıq etmək niyyəti. Məqsəd məbləğin artırılması ilə də olsa, avtomobili əldə etməkdir. Həmin tacirə deyilsə ki, aldığın qiymətə onu sat, deyəcək ki, bəs mən nə qazanıram? Yalnız baha qiymətə sataram. Sonra isə, bələləri haqqında eşitmişik ki, almaq istəyən adam fikrindən vaz keçərsə, adı "qara siyahı"ya əlavə olunur ki, bir daha mal ala bilməsin. Bu məcburetmə sayılır. Axı Aləmlərin Rəbbi olan Allaha necə hiylə gələ bilərik?

---

[1] "əl-Bəqərə" surəsi, 280.

[2] "Səhih əl-Buxari", 2127; "Səhih Muslim", 3040.

[3] "ən-Nisa" surəsi, 142.

Adamın banka gəlib: "Mənə yüz min rial borc ver, artığı ilə qaytaracağam" deməsi, hiylə ilə alınan belə borcdan daha yüngüldür. Çünki hiylə səmimiyyətdən daha pisdir – hiylə gələn, günahla birlikdə hiylə də etmiş, doğru danışan isə bəlli olan bir günahı etmişdir. Lakin o çalışır ki, tövbə etsin, çünki onun nəfsi bunu qəbul edə bilmir. Problem isə bunu halal görən və bu əmələ davam edən kəsdədir. Rəsulullah ﷺ demişdir: **"Yaxşı əməl qəlbin və nəfsin rahat olduğu əməldir. Günah isə o şeydir ki, o sənin nəfsində qərar tutur və qəlbdə sıxıntıya səbəb olur. İnsanlar sənə fətva vermiş olsalar belə".**

Heç kimə yox, öz qəlbinə sual ver ki, sən həqiqətən avtomobil almaq istəmisən, yoxsa müştərinin istəyinə uyğun olaraq maşın alıb onu baha satmaq istəmisən? Qiyamət günü səni haqq-hesaba çəkən aləmlərin Rəbbi Allah olacaqdır və O, sənin qəlbində olanları bilir. Şeyxulislam İbn Teymiyyə deyir ki, məsələn, bir adamdakı hansısa bir məhsula ehtiyacın varsa və sənin onu almağa pulun yoxdursa, mal yiyəsinin yanına gedib onu almaq istədiyini deyirsən. Onun da nağd qiyməti əllidir. Ona desən ki, bunu mənə altmışa bir il müddətinə sat. Sonra da onu götürüb satsan, bu haram və hiylədir. Bu, Peyğəmbərin ﷺ qadağan etdiyi "əl-iynə" ticarətindəndir. O ﷺ demişdir: **"Nə vaxt ki, əl-iynə ticarəti ilə məşğul olacaqsınız, inəklərin quyruğundan yapışacaqsınız, əkinçiliklə razılaşıb cihadı tərk edəcəksiniz, Allah sizin üzərinizə zəlillik endirəcək. Sizlər öz dininizə qayıtmayınca, O həmin zəlilliyi sizin üzərinizdən götürməyəcək".**[1]

Burada hiylənin olması aydındır.

Kağız pul məsələsində isə, əgər mal onu satan satıcının əlindədirsə və onu nağd almaq istəyənə əlliyə, borca almaq istəyənə isə altmışa satmaq istəyirsə, bunda bir qəbahət yoxdur.

Xülasə, sələm və sələmlə bağlı hiylə yollarından çəkinmək lazımdır. Əgər sələm almaq bu qədər asanlaşdırılmış olmasaydı, bəzi insanlar ondan çəkinər, boyunlarındakı yükdən azad olar, özləri də rahat olardılar.

Uca Allahdan bizə və sizə müvəffəqiyyət və hidayət arzulayıram.

[1] "Sunən Əbu Davud", 3003.

İki yüz səksən səkkizinci fəsil

Riyakarlığın haram olması

Mövzu ilə əlaqəli ayələr:
Uca Allah buyurur:

﴿ وَمَآ أُمِرُوٓاْ إِلَّا لِيَعۡبُدُواْ ٱللَّهَ مُخۡلِصِينَ لَهُ ٱلدِّينَ حُنَفَآءَ وَيُقِيمُواْ ٱلصَّلَوٰةَ وَيُؤۡتُواْ ٱلزَّكَوٰةَۚ وَذَٰلِكَ دِينُ ٱلۡقَيِّمَةِ ﴾

“Halbuki, onlara dini məhz Allaha məxsus edərək, həniflər kimi ibadət etmək, namaz qılmaq və zəkat vermək əmr olunmuşdu. Doğru din məhz budur”.[1]

﴿ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ لَا تُبۡطِلُواْ صَدَقَٰتِكُم بِٱلۡمَنِّ وَٱلۡأَذَىٰ كَٱلَّذِي يُنفِقُ مَالَهُۥ رِئَآءَ ٱلنَّاسِ وَلَا يُؤۡمِنُ بِٱللَّهِ وَٱلۡيَوۡمِ ٱلۡأٓخِرِ ﴾

“Ey iman gətirənlər! Malını özünü camaata göstərmək məqsədilə xərcləyən, Allaha və Axirət gününə inanmayan şəxs kimi, sədəqələrinizi minnət qoymaqla və əziyyət verməklə puç etməyin”.[2]

﴿ يُرَآءُونَ ٱلنَّاسَ وَلَا يَذۡكُرُونَ ٱللَّهَ إِلَّا قَلِيلٗا ﴾

“Özlərini camaata göstərər və Allahı olduqca az yad edərlər”.[3]

Şərh:
Hafiz ən-Nəvəvi ﵀ **“Riyakarlığın haram olması”** fəslini qeyd edir.
Riya, ərəb dilindəki “ راء / raə”, yəni “görmək” sözünün məsdəridir və *“cihad” sözünün* “cəhədə, yucəhidu, cihədən, mucəhədətən” olaraq hallanması kimi, “raə, yəra, riyəən, muraətən” olaraq hallanır.

---

[1] “əl-Beyyinə” surəsi, 5.
[2] “əl-Bəqərə” surəsi, 264.
[3] “ən-Nisa” surəsi, 142.

"Riya" deyildikdə insanın izzət və cəlal sahibi Allaha ibadət etməsi, lakin ibadətini insanların gözündə gözəlləşdirməsidir – görənlər desinlər ki, necə də abid adamdır, necə gözəl ibadət edir, yaxud da buna bənzər başqa sözlər. Beləsi insanların onu Allaha ibadətində tərifləməsini istəyir, ancaq həmin ibadətlə insanlara yaxınlaşmağı düşünmür. Çünki belə etsə, böyük şirk etmiş olar. O, sadəcə Allaha ibadətində tərifl ənmək istəyir. İstəyir ki, insanlar onun barəsində: "filankəs Allaha çox ibadət edəndir, çox oruc tutandır, çox sədəqə verəndir, yaxud da buna bənzər başqa işlər görəndir" desinlər. O, əməllərində ixlaslı olmur və istəyir ki, insanlar onun ibadətini tərifləsinlər. Bununla o, riyakarlıq etmiş olur. Riyanın azı kiçik şirk, çoxu isə böyük şirk hesab olunur.

Sonra müəllif ﷺ riyanın haram olmasına dair ayələr dəlil gətirir.

Uca Allah buyurur: **"Halbuki, onlara dini məhz Allaha məxsus edərək həniflər kimi ibadət etmək, namaz qılmaq və zəkat vermək əmr olunmuşdu. Doğru din məhz budur".**[1] Yəni Rəbbimiz insanlara əmr edib ki, dini ixlasla Ona məxsus etsinlər, namazı ixlasla Onun üçün qılsınlar, sədəqəni ixlasla versinlər, orucu ixlasla tutsunlar, həcci ixlasla yerinə yetirsinlər, insanlara ixlasla yardım etsinlər və başqa buna bənzər əməllərdə Allaha qarşı ixlaslı olsunlar.

"Namaz qılmaq", yəni namazı kamil şəkildə düzgün qılsınlar, **"zəkat vermək"** – onu layiq olan kəslərə versinlər.

"Doğru din məhz budur". Yəni ucaldılmış millətin dini budur. İzzət və cəlala sahibinə qarşı ixlaslı olur, qəlbində riyakarlıq olmur. Çünki o, öz ibadəti ilə Allahın üzünü və axirət diyarının savabını diləyir.

İkinci ayə. Uca Allah buyurur: **"Ey iman gətirənlər! Malını özünü camaata göstərmək məqsədilə xərcləyən, Allaha və Axirət gününə inanmayan şəxs kimi, sədəqələrinizi minnət qoymaqla və əziyyət verməklə puç etməyin".**[2] Yəni kasıba sədəqə verdikdə ona minnət qoyaraq demə ki, bunu mən etdim. Çünki bu, savabı aparır.

"Əziyyət verməklə", çünki sənin özünü kasıbdan üstün görməyin və ya buna bənzər başqa əməllərin kasıba əziyyət verir. Bu da əcri aradan qaldırır.

---

[1] "əl-Beyyinə" surəsi, 5.

[2] "əl-Bəqərə" surəsi, 264.

"**Malını özünü camaata göstərmək məqsədilə xərcləyən, Allaha və Axirət gününə inanmayan şəxs kimi".** Ayədəki dəlil bu cümlədir: **"Malını özünü camaata göstərmək məqsədilə",** yəni xərcləyir ki, onu tərifləsinlər və desinlər ki, necə də çox sədəqə verir – **"Allaha və Axirət gününə inanmayan şəxs kimi".**

Üçüncü ayə. Uca Allah buyurur: **"Özlərini camaata göstərər və Allahı olduqca az yad edərlər".**[1]

Bu, münafiqlərin vəsflərindəndir. Onlar namaza fəal və sevgi ilə deyil, tənbəlliklə qalxar, namazı da özlərini insanlara göstərmək üçün qılarlar. Allah qorusun. Bu səbəbdən də münafiqlər üçün ən ağır namaz işa və sübh namazlarıdır. Çünki həmin vaxtlar qaranlıq olur və gələnlər gəlməyənlərdən seçilmirlər. Buna görə də onlara ən ağır gələn namazlar sübh və işa namazlarıdır. Üstəlik, bu münafiqlər özlərini insanlara göstərirlər. Yəni namazda riyakarlıq edirlər, mallarını riyakarlıqla xərcləyirlər. Cihada riyakarlıqla çıxırlar. Bu baxımdan müsəlmanlardan kimsə riyakarlıq edərsə, münafiqlərə bənzəmiş olar. Allah qorusun.

Uca Allah buyurur: **"Vay olsun o namaz qılanların halına ki, onlar namazlarında səhlənkarlıq edirlər. O kəslər ki, riyakarlıq edirlər".**[2] Yəni əməllərində riyakarlıq edirlər. İstəyirlər ki, insanlar onları görüb ibadətlərini tərifləsinlər. Riyakarlıq şirkdir. Ola bilsin ki, hətta böyük şirk olsun. Bu da nifaqın əlamətlərindəndir. Allah bizləri və sizləri münafiqlikdən qorusun. Müvəffəq edən Allahdır.

Mövzu ilə əlaqəli hədislər:

١٦١٦– وَعَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّه ﷺ يَقُولُ: « قَالَ اللَّه تعَالى: أَنَا أَغْنَى الشُّرَكَاءِ عَنِ الشِّرْكِ، منْ عَمِلَ عَمَلا أَشْرَكَ فيهِ مَعِي غَيْرِي، تَرَكْتُهُ وشِرْكَهُ » رواه مسلم.

1616. Əbu Hureyradan ﷺ nəql olunmuş hədisdə o deyir ki: «Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Uca Allah buyurur: – Mən şərik qoşanların şərikinə Möhtacsızam. Kim etdiyi əməldə Mənə başqasını şərik qoşarsa, onu şəriki ilə başlı-başına buraxaram"».**

[1] "ən-Nisa" surəsi, 142.

[2] "əl-Məun" surəsi, 4-6.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Şərh:

Müəllif ﷺ şirkin haram olmasına dəlalət edən ayələri qeyd etdikdən sonra riya ilə bağlı bəzi hədisləri qeyd etmişdir. Həmin hədislərin birində Əbu Hureyra ﷺ deyir ki: «Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Uca Allah buyurur: – Mən şərik qoşanların şərikinə Möhtacsızam. Kim etdiyi əməldə Mənə başqasını şərik qoşarsa, onu şəriki ilə başlı-başına buraxaram"».**

Bu hədisə alimlər "qüdsi hədis" deyirlər. Həmin hədisləri Peyğəmbər ﷺ Uca Allahdan rəvayət edərək: "Uca Allah buyurur..."– deyir. Belə ki, Peyğəmbərdən ﷺ nəql olunmuş hədisləri o, ya Allaha nisbət edir – ki bunlara da qüdsi hədislər deyilir, ya da Allaha nisbət etmir və buna Peyğəmbərin ﷺ hədisləri deyilir. Bu qüdsi hədisdə də Uca Allah buyurur: **"Mən şərik qoşanların şərikinə Möhtacsızam."**

Şəriklərin hər birinin digərinə ehtiyacı olur. Hər bir şərikin öz payına ehtiyacı var və şəriklərdən heç biri öz payından keçməz. Misal üçün iki nəfərə məxsus olan bir mənzildə hər bir şərikin digər şərikə ehtiyacı var. Əgər evdə hər hansı bir çatışmamazlıq olarsa, yaxud evdə təmirə ehtiyac varsa bir şərik digər şərikə deyir ki, mənə filan qədər ver, evi təmir edək. Beləcə, hər bir şərik öz payına sahib çıxmış olur.

Uca Allahın isə heç kimə və heç nəyə ehtiyacı yoxdur. İnsan *eyni vaxtda* həm Allah üçün, həm də Allahdan qeyrisi üçün bir iş gördükdə, Allah onu tərk edir. Misal üçün, insan həm Allah üçün, həm də insanlar üçün namaz qılarsa, Allah onun namazını qəbul etməz. "Onun namazının yarısı qəbul olunur, digər yarısı isə yox" demək də doğru deyil, çünki onun namazı ümumiyyətlə qəbul olunmur. İnsan riyakarlıq edərək sədəqə verərsə, həmin sədəqə ondan qəbul olunmaz. İnsan, ümumiyyətlə hər hansı bir əməldə Allaha şərik qoşarsa, onun həmin əməli qəbul olunmaz.

Bu da dəlildir ki, ibadətə riya daxil olarsa, həmin ibadət qəbul olunmaz. İnsan namaz qıldığı ilk dövrdən indiyə qədər insanlara özünü göstərərək namaz qılarsa, – "maşaAllah, necə də çox namaz qılır" desinlər deyə namaz qılarsa, onun həmin namazlardan heç bir payı yoxdur və izzət və

[1] "Səhih Muslim", 5300.

cəlal sahibi Allah onları qəbul etmir. Hətta həmin adam rukunu, səcdəni, qiyamı və oturuşu uzatsa belə, hərəkətsiz qalsa, gözləri də səcdə yerindən ayrılmasa belə, namazı qəbul olunmur. Çünki o, Allaha şərik qoşmuşdur. Uca və böyük Allahın isə onun ibadətinə ehtiyacı yoxdur.

Həmçinin bir adam kasıblara yardım edir, onlara sədəqələr verir, lakin riyakarlıq edir ki, onun üçün: "filankəs olduqca səxavətli və əliaçıq birisidir" desinlər. Beləsi bütün mal-dövlətini paylasa belə, onun sədəqələri qəbul olunmur. Çünki Uca Allah buyurur: **"Mən şərik qoşanların şərikinə Möhtacsızam. Kim etdiyi əməldə Mənə başqasını şərik qoşarsa, onu şəriki ilə başlı-başına buraxaram".**

Sən də nəfsində olanı beləcə müqayisə et. Ancaq əgər birinə *sonradan* riyakarlıq gələrsə, məsələn, ixlaslı bir adam namaza başladıqdan sonra qəlbinə riyadan bir şey gələrsə və o buna qarşı mübarizə apararsa, onun ona zərəri toxunmaz. Odur ki, o, şeytanın riya şübhəsi atdığının qarşısında alçalmamalıdır. Əksinə, qoy o ibadətinə davam etsin və özü-özünə: "riya etdim, qorxuram ki, namazım batil olar"– deməsin. Əks halda *belə şübhələrlə* şeytan onu dolandırar. Uca Allah buyurur: **"Vəsvəsə verən və geri çəkilən şeytanın şərindən".**[1] Çünki şeytan əzmkarlıq gördükdə geri çəkilərək qaçır. Odur ki, davam et və bil ki, bunun sənə zərəri olmaz.

Namaza ixlasla başladıqdan sonra riya ilə üzləşsə və riya ilə də davam etsə, – Allah qorusun, – bu zaman onun namazı əvvəldən sona kimi batil olur. Çünki namazın sonu batil olursa, əvvəli də batil olur.

Odur ki, riyadan uzaq olun, ancaq riyadan qorxaraq ibadəti tərk etməkdən çəkinin. Çünki bəzi insanlara şeytan vəsvəsə verib deyir ki, "namaz qılma, oxuma, bu riyadır. Bax, rahat deyilsən, deməli riyakarlıq edirsən". Bununla şeytan həmin adamı yaxşı əməldən çəkindirmək istəyir. Odur ki, gərək şeytana fürsət buraxmayaq. Əksinə, insan namaz qılmalı, əmələ başlamalı və rahat olmalıdır. Buna isə əhəmiyyət verməməlidir, çünki sonda şeytan geriyə çəkilib qaçacaqdır.

Əslində insan iki halla üz-üzədir:

Birinci halda adam ibadətə başlamamışdan öncə şeytan gəlib ona deyir ki, bunu etmə, yoxsa insanlar səni tərifləyəcəklər.

---

[1] "ən-Nəs" surəsi, 4.

İkinci halda şeytan adama onun ibadətə başlamasından sonra yaxınlaşır. Bu zaman gərək o, şeytanı dəf edərək onun şərindən Allaha sığınsın və ona əhəmiyyət verməyərək işinə davam etsin.

Kimsə soruşsa ki, insan ibadəti bitirdikdən sonra insanların onu tərifləmələrini görsə bunun ona zərəri olarmı?

Cavab: Zərəri olmur, çünki ibadət sağlam yerinə yetirilib. İnsanların onu tərifləməsi isə möminin erkən müjdəsidir. Lakin bu ibadətini bitirdikdən sonra baş verdikdə belə olur. Eşitsə ki, insanlar onu tərifləyirlər, belə desin: "Məni tərif olunacaq şəxs edən Allaha həmd olsun". Həmçinin insan ibadətini bitirdikdən sonra sevinərsə, biz onun haqqında: "Bu, insanın özünü bəyənməsidir və onun ibadəti batil olur" deməməliyik. Çünki özünü bəyənmə odur ki, insan ibadəti bitirdikdən sonra özünü bəyənsin, Allaha ibadəti ilə minnət qoysun. Beləsinin əməli puç olur. Allah qorusun. Həmin adamın isə bu ağlına belə gəlməyib. Sadəcə o, Allaha həmd edərək sevinmişdir ki, onu xeyirli işlərə müvəffəq edib. Bunun ona zərəri olmaz. Odur ki, hədisdə deyilir: **"Öz savablarına sevinən, günahlarına isə kədərlənən mömindir".**[1] Allah bizləri və sizi onlardan etsin.

١٦١٧– وَعَنْهُ قَالَ: سمِعْتُ رَسُولَ اللَّه ﷺ يَقُولُ: « إنَّ أَوَّلَ النَّاسِ يُقْضَى يوْمَ الْقِيامَةِ عَلَيْهِ رجُلٌ اسْتُشْهِدَ، فَأُتِيَ بِهِ، فَعرَّفَهُ نِعْمَتَهُ، فَعَرفَهَا، قالَ: فَمَا عَمِلْتَ فِيها؟ قَالَ: قَاتَلْتُ فِيكَ حَتَّى اسْتُشْهِدْتُ: قالَ كَذَبْت، وَلكِنَّكَ قَاتلْتَ لأَنْ يُقالَ جَرِيء، فَقَدْ قِيلَ، ثُمَّ أُمِرَ بِهِ فَسُحِبَ عَلى وَجْهِهِ حَتَّى أُلْقِيَ فِي النَّارِ. وَرَجُل تَعلَّم الْعِلْمَ وعَلَّمَهُ، وقَرَأَ الْقُرْآنَ، فَأَتِيَ بِهِ، فَعَرَّفَهُ نِعَمهُ فَعَرَفَهَا. قالَ: فمَا عمِلْتَ فِيهَا؟ قالَ: تَعلَّمْتُ الْعِلْمَ وَعَلَّمْتُهُ، وَقَرَأْتُ فِيكَ الْقُرآنَ، قَالَ: كَذَبْتَ، ولكِنَّك تَعَلَّمْت الْعِلْمَ وَعَلَّمْتُهُ، وقَرَأْتُ الْقرآن لِيقالَ: هو قَارِىءٌ، فَقَدْ قِيلَ، ثُمَّ أمِرَ، فَسُحِبَ عَلى وَجْهِهِ حَتَّى أُلْقِيَ فِي النَّارِ، وَرَجُلٌ وسَّعَ اللَّه عَلَيْهِ، وَأعْطَاه مِنْ أصنَافِ المَال، فَأُتِي بِهِ فَعرَّفَهُ نعمَهُ، فَعَرَفَهَا. قال: فَمَا عَمِلْت فيها؟ قال: ما تركتُ مِن سَبيلٍ تُحِبُّ أنْ يُنْفَقَ فيهَا إلاَّ أنْفَقْتُ فيها لَك. قَالَ: كَذَبْتَ، ولكِنَّكَ فَعَلْتَ لِيُقَالَ: هو جَوَادٌ فَقَدْ قيلَ، ثُمَّ أمِرَ بِهِ فَسُحِبَ عَلَى وجْهِهِ ثُمَّ أُلْقِيَ فِي النار » رواه مسلم.

« جَرِيء » بفتح الجيم وكسر الرَّاءَ وبالمدِّ أيّ: شُجَاعٌ حَاذقٌ.

[1] "Sunən ət-Tirmizi", 2091.

1617. Yenə Əbu Hureyradan رضي الله عنه onun belə dediyi rəvayət olunur: «Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Qiyamət günü barələrində hökm veriləcək ilk üç şəxs bunlardır: *şəhid, alim və zəngin.***

Şəhid gətiriləcək və Allah ona bəxş etdiyi nemətləri xatırladacaq, o da bunu etiraf edəcək. Soruşacaq: "Bunun müqabilində sən nə etdin?" O deyəcək: "Sənin uğrunda vuruşdum və şəhid oldum". O deyəcək: "Yalan deyirsən, sənin barəndə: – necə də cürətlidir deyilsin deyə vuruşmusan. Buna da nail olmusan". Sonra əmr olunacaq və həmin adam üzü üstə sürüklənərək Cəhənnəm oduna atılacaq.

Sonra elm öyrənib onu öyrədən, Quran oxuyan adam gətiriləcək və Allah ona bəxş etdiyi nemətləri xatırladacaq. O da bunu etiraf edəcək. Soruşacaq: "Bunun müqabilində sən nə etdin?" O deyəcək: "*Sənin uğrunda* elm öyrənib onu öyrətmişəm və Sənin üçün Quran oxumuşam". O deyəcək: "Yalan deyirsən, sənin barəndə: – alimdir desinlər deyə elm öyrənmişdin, – gözəl qaridir deyilsin deyə Quran oxumuşdun. Buna da nail olmusan". Sonra əmr olunacaq və həmin adam üzü üstə sürüklənərək Cəhənnəm oduna atılacaq.

Daha sonra Allahın zənginlik bəxş etdiyi, ona növbənöv nemətlər verdiyi kəs gətiriləcək və Allah ona bəxş etdiyi nemətləri xatırladacaq, o da bunu etiraf edəcək. Soruşacaq: "Bunun müqabilində sən nə etdin?" O deyəcək: "Sənin sevdiyin elə bir yer qoymadım ki, ora öz malımdan xərcləməyim". O deyəcək: "Yalan deyirsən, sənin barəndə: – necə də səxavətlidir deyilsin deyə malını xərcləmisən və buna da nail olmusan". Sonra əmr olunacaq və həmin adam üzü üstə sürüklənərək Cəhənnəm oduna atılacaq".

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

[Hədisin ərəbcəsində keçən] "cəriun" sözünün mənası "şücaətli, cəsarətli"dir.

Şərh:

Riya ilə bağlı daha öncə söhbət açmışdıq. Bildirdik ki, uca və nöqsansız Allah riyakardan əməl qəbul etmir və onun əməllərini puç edir. Burada isə Əbu Hureyradan nəql olunmuş başqa bir hədis qeyd olunur.

[1] "Səhih Muslim", 3527.

Hədisdə deyilir ki, Qiyamət günü ilk öncə üç sinif insana hökm oxunacaq: alimə, mücahidə və sədəqə verən zənginə.

Elmli adam elm öyrənərək onu və Quranı başqalarına öyrətmişdi. Sonra uca və nöqsansız Allah Qiyamət günü onu öz qarşısına gətirəcək və ona bəxş etdiyi nemətləri ona xatırladacaqdır. Həmin adam da etiraf edəcəkdir. Sonra ondan soruşacaqdır ki, bəs bunun müqabilində sən nə etdin? Yəni bu nemətlərə görə şükür etdinmi? O da deyəcək ki, Sənin üçün elm öyrəndim və Quran oxudum. Ona deyiləcək: **"Yalan deyirsən, sənin barəndə: – alimdir desinlər deyə elm öyrənmişdin, – gözəl qaridir deyilsin deyə Quran oxumuşdun".** Yəni əməllərin Allah üçün deyildi və onlarda riyakarlıq var. Sonra əmr olunacaq və həmin adam üzü üstə sürüklənərək Cəhənnəm oduna atılacaq.

Bu da dəlildir ki, elm tələbəsi elm tələb etdikdə gərək niyyətini izzət və cəlal sahibi Allah üçün etməli və insanların ona alim, şeyx, müəllim, çalışqan və başqa buna bənzər sözlər deməsinə əhəmiyyət verməməlidir. O, izzət və cəlal sahibi Allahın razılığını qazanmaq, Onun şəriətini öyrənib öyrətmək, özündəki və insanlardakı cahilliyi aradan qaldırmaq barədə düşünməlidir ki, Allahın nemət bəxş etdiyi kəslərdən yazılsın. Uca Allah buyurur: **"Allaha və Peyğəmbərə itaət edənlər – məhz onlar Allahın nemət bəxş etdiyi peyğəmbərlər, siddiqlər, şəhidlər və əməlisalehlərlə birlikdə olarlar. Onlar necə də gözəl dostlardır".**[1]

Başqa bir məqsədlə – ona alim, çalışqan və ya dahi insan deyilsin deyə elm alanların isə əməlləri puç olacaqdır. Allah qorusun. Beləsi barədə ilk əvvəl hökm veriləcək, Qiyamət günü yalançı çıxarılacaq, tənbeh olunacaq və üzüqoylu Cəhənnəm oduna atılacaq.

İkincisi mücahiddir. O, Allah yolunda döyüşmüş və həlak olmuşdur. O, Qiyamət günü izzət və cəlal sahibi Rəbbinin hüzuruna gətiriləcək və O bəxş etdiyi nemətləri ona xatırladacaqdır. Yəni uca və nöqsansız Allahın ona bəxş etdiyi ruzi, güc və qüvvət kimi nemətlər ona xatırlanacaqdır – o bu nemətlərin sayəsində həmin rütbəyə gəlib çatmış və döyüşmüşdür. Həmin adam da etiraf edəcəkdir. Sonra ondan soruşacaqdır ki, **"Bunun müqabilində sən nə etdin?" O deyəcək: "Sənin uğrunda vuruşdum və şəhid oldum". O deyəcək: "Yalan deyirsən, sənin barəndə: – Necə də**

[1] "ən-Nisa" surəsi, 69.

cürətlidir deyilsin deyə vuruşmusan. Buna da nail olmusan". Sonra əmr olunacaq və həmin adam üzü üstə sürüklənərək Cəhənnəm oduna atılacaq. Allah qorusun. Bu da Allah yolunda vuruşan.

Ümumiyyətlə, Allah yolunda vuruşanların müxtəlif niyyətləri olur. Kim Allah kəlməsini uca tutmaq məqsədilə döyüşərsə, o, Allah yolunda vuruşmuş hesab olunur. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Kim Allah kəlməsini uca tutmaq məqsədilə döyüşərsə, o, Allah yolunda döyüşmüşdür".**[1]

Vətən uğrunda döyüşən kəs isə tağut uğrunda döyüşmüş sayılır. Kim millətinə təəssübkeşlik edərək vuruşarsa, o da tağut uğrunda döyüşmüş olur. Kim dünya mənfəəti əldə etmək uğrunda döyüşərsə, o da tağut uğrunda döyüşmüş olur. Çünki Uca Allah buyurur: **"İman gətirənlər Allah yolunda, kafir olanlar isə tağut yolunda vuruşurlar. Elə isə şeytanın dostları ilə vuruşun! Şübhəsiz ki, şeytanın hiyləsi zəifdir".**[2]

Lakin bir müsəlman vətənini millətçilik naminə deyil, vətəni və ya milləti uğrunda, yəni müsəlman vətənini təcavüzkar kafirlərdən qorumaq üçün vuruşarsa, o, Allah yolunda döyüşmüş sayılır. Çünki müsəlman ölkələrinin qorunmasının səmərəsi Allah kəlməsinin uca tutulmasıdır. Həmçinin müsəlmanların qorunmasının da səmərəsi Allah kəlməsinin uca tutulmasıdır.

Yaxşı, bəs əgər bir insan döyüşdə ölmək üçün vuruşarsa, o, Allah yolunda vuruşmuş hesab olunurmu? Cavab: Xeyr. Bir çox gənclərin niyyəti belə olur. Onlar ölmək üçün döyüşə gedir və deyirlər ki, biz şəhid olacağıq. Xeyr, gedin və sağ qalaraq Allah kəlməsini uca tutmaq məqsədilə vuruşun! Belə olduğu halda Allah yolunda öldürülsəniz, Allah yolunda şəhid hesab olunacaqsınız.

Üçüncüsü isə Allahın mal-dövlət bəxş etdiyi, onun da həmin malı payladığı və sədəqə verdiyi kəsdir. Sonra uca və nöqsansız Allah Qiyamət günü onu Öz qarşısına çıxaracaq və ona bəxş etdiyi nemətləri ona xatırladacaqdır. Həmin adam da etiraf edəcəkdir. Sonra ondan soruşacaqdır ki, bunun müqabilində sən nə etdin? O da deyəcək ki, sədəqə verdim, filan-filan yaxşılıqları etdim. Ona deyiləcək ki, yalan danışırsan, sənə barəndə:

---

[1] "Səhih əl-Buxari", 120.

[2] "ən-Nisa" surəsi, 76.

səxavətlidir deyilsin deyə yaxşılıqlar etmisən və buna da nail olmusan. Sonra əmr olunacaq və o da üzüqoylu Cəhənnəm oduna atılacaqdır.

Qiyamət günü ilk Cəhənnəm oduna atılacaq üç sinif insan bunlar olacaqdır. Bu da dəlildir ki, gərək insan sərf etdiyi mal-dövlət, bədən, elm və başqa məsələlərdə niyyətini tək və şəriksiz olan Allah üçün xüsusiləşdirsin. Əgər o, Uca Allah üçün edilməli hər hansı bir əməli Allahdan başqası üçün edərsə, buna görə günah qazanar. Müvəffəq edən Allahdır.

١٦١٨– وَعَنْ ابنِ عُمَرَ رضي الله عنهما أَنَّ نَاساً قَالُوا لَهُ: إِنَّا نَدْخُلُ عَلى سَلاطِيننا فَنَقُولُ لَهُمْ بِخِلافِ مَا نَتَكَلَّمُ إذا خَرَجْنَا منْ عنْدِهِمْ؟ قالَ ابْنُ عُمَرَ رضي الله عنهما: كُنَّا نَعُدُّ هذا نِفَاقاً عَلى عَهْد رَسُولِ اللَّهِ ﷺ . رواه البخاري.

1618. İbn Ömərdən رضي الله عنهما rəvayət olunur ki, bəzi insanlar ona dedilər: "Biz sultanlarımızın yanına daxil oluruq və onlara yanlarında olmadıqda söyləmədiklərimizi deyirik". İbn Ömər dedi: "Biz Rəsulullahın ﷺ zamanında bunu nifaqdan sayırdıq".

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

Şərh:

Müəllif Abdullah ibn Ömərdən رضي الله عنهما rəvayət olunmuş hədisi qeyd etmişdir. Hədisdə deyilir ki, "bəzi insanlar ona dedilər: "Biz sultanlarımızın yanına daxil olur və onlara yanlarında olmadıqda söyləmədiklərimizi deyirik". İbn Ömər dedi: "Biz Rəsulullahın ﷺ zamanında bunu nifaqdan sayırdıq". Çünki onlar yalan danışır, xəyanət edir və nəsihət etmirlər.

Sultanların, əmirlərin, nazir, rəis və padşahların yanına daxil olan kəs gərək hər şeyi olduğu kimi danışsın. İnsanların düz və ya əyri yolda olmalarından, yaxud haqq və ya batil üzərində olmalarından asılı olmayaraq, həqiqəti danışsınlar. Bir insanın əmirin və ya kralın yanına daxil olub: "insanlar yaxşıdırlar, insanların vəziyyəti yaxşıdır, məscidlər insanlarla doludur, insanlar Allaha ibadət edir, insanların maddi vəziyyəti yaxşıdır, insanların təhlükəsizliyi yaxşıdır" və ya buna bənzər başqa yalan sözləri deməsi caiz deyildir. Bu haramdır. Bunu deyən kəs həm əmr sahibini

[1] "Səhih əl-Buxari", 6642.

aldatmış olur, həm də bütünlükdə ümməti. Çünki əmr sahibi günəş deyil ki, hər yerə işıq saçsın. Hətta günəşin belə işığı hər yerə çatmır – qapalı olan otaqlara günəş işığı daxil olmur. Əmr sahiblərinin də elmi, eşitməsi, görməsi, idrakı, ağılları başqa insanlar kimi məhduddur. Onlar bütün insanların hallarından xəbərdar ola bilməzlər. Bunun kimi bir xain və hiyləgər gəlib onlara desə ki: "Hər şey yaxşıdır, insanlar ibadət, firavanlıq və əmin-amanlıqdadırlar", yaxud buna bənzər başqa sözlər söyləsələr, onlar aldanacaq və elə biləcəklər ki, işlər doğrudan da yaxşıdır. Beləcə, onlar tələb olunan islahatları aparmayacaqlar. Səbəb də odur ki, bəziləri onlara hər şeyin yaxşı olduğunu deyib. Odur ki, doğrunu söyləmək vacibdir. Yaranı yalnız dərmanı tam qəbul etməklə sağaltmaq mümkündür. Çatışmamazlıqlara görə onu pisləmək isə caiz deyil, çünki o adam yalan danışmışdır. İbn Ömər ﵄ doğru demişdir: "Bu nifaqdandır".

Beləliklə, bəyan etmək vacibdir. Nifaq etmək və yaltaqlanmaq isə caiz deyildir. Odur ki, bir adam nəinki ümmətə, hətta on tələbəyə belə məsul istənilən şəxsin yanına gəldikdə gərək real vəziyyəti ona çatdırsın. Yalandan deməsin ki, "vallahi ki, tələbələr hamısı yaxşıdır, hamısı çalışqandır, hamısının sözü eynidir, hamısının əxlaqı eynidir", əksinə onlara həqiqəti çatdırsın, zərurət varsa, onların hər biri barəsində ayrıca söhbət açsın. Eyibin aradan qaldırılması məqsədilə eyibin zikr olunması nəsihət və salamatlıq hesab olunur. Bu əsla qeybət sayılmır.

Bir baxın, Fatimə bint Qeys Peyğəmbərin ﷺ yanına gəlib deyir: "Ey Allahın elçisi, mənə üç nəfər elçi düşüb: Usamə ibn Zeyd, Müaviyə ibn Əbu Sufyan və Əbu Cəhm". Peyğəmbər ﷺ də ona belə cavab verir: **"Müaviyəyə gəlincə, o yoxsuldur və onun mal-dövləti yoxdur"**. Yəni pulu yoxdursa, səni necə saxlayacaq? **"Əbu Cəhm isə qadın döyəndir"**. Əslində bu pis əlamətdir, lakin *belə məqamda onu zikr etmək* qeybət deyil, əksinə, nəsihət və məsləhətləşmədir. Sonra dedi: **"Usamə ibn Zeydə ərə get"**.[1]

Əgər müəyyən insanlar üzərində əmr sahibi olan kəsin yanına gəlib desən ki, filankəs belə-belə edir, özün də doğru danışırsan və həmin adamla sənin aranda ədavət yoxdursa, sən xeyir üzərindəsən və nəsihət edərək əcr əldə etmiş olursan. İnsanlar olanlar barəsində düzgün məlumat verməsələr, işlər qaydasına düşməz. Həqiqəti gizlətmək isə caiz deyildir.

[1] "Səhih Muslim", 2709.

Həmçinin məktəbdə və ya universitetdə görsən ki, bir tələbənin əxlaqı pisdir və ya əmr sahiblərinin qeybətini edir, ilk əvvəl gərək ona nəsihət edəsən. Düzəlməsə, gərək onun barəsində məsul şəxslərə xəbər verəsən ki, halı düzəlsin. Çünki beləsi virusa bənzəyir və digər tələbələri də yoluxdura bilər. Onun bu halı dini və əxlaqi cəhətdən böyük fəsadlara yol aça bilər. Sənin etdiyin isə nəsihətdir.

Həmçinin bir yerdə münkər əməllər, fırıldaqçılıq, məsul şəxslərin öz işlərini görməmələrini gördükdə, həmin yerin başçısının yanına gəlib hər şeyin yaxşı olduğunu deməməliyik. Əksinə, gərək ona vəziyyəti bəyan edək. Təbii ki, məsələni əmr sahibinə çatdırmadan öncə özümüz nəsihət etsək, bu daha yaxşı olar. Lakin bilsək ki, rəhbərdən başqasının yanına getsək həmin adam bizə: "narahat olmayın, hər şey inşəAllah düzələcək" – deyə bizi yola verəcək və məsələnin həllini uzadacaq, bu zaman ondan daha yüksək vəzifəsi olana bu barədə məlumat verilməlidir.

Qısası, Allah sizə bərəkət versin, nəsihət etmək və məsələni olduğu kimi açıqlamaq vacibdir. İnsanlarla bir üzlə görüşüb, ondan ayrıldıqda başqa sifət almaq isə nifaqdır.

Daha bir xüsusi məsələ də vardır. Ola bilsin ki, insan birinə xitabən: Maşallah, sən yaxşı, sevimli və əliaçıq insansan" deyir və beləcə onu çoxlu tərifləyir, halbuki qəlbi ona nifrətlə doludur. Sadəcə onun əlindəkinə nail olmağa çalışır. Düzgün bir insan görsə ki, həmin adam onun yanında belə gözəl sözlər deyir, yanından ayrıldıqda isə bunun tamamilə əksini danışır və onu təhqir edir, bu zaman o deməlidir ki, bu adam belə-belə işlər edir. Mömin olan kəs gərək Allahdan qorxsun, yaltaqlıqdan, yalandan və dələduzluqdan uzaq olsun. Həmçinin gərək səmimi olsun ki, Allah onun əli ilə insanları islah etsin. Müvəffəq edən Allahdır.

١٦١٩– وعنْ جُنْدُب بن عَبْدِ اللَّه بنِ سُفْيانَ رضي الله عنه قَالَ: قالَ النبيُّ ﷺ: «مَن سَمَّعَ سَمَّعَ اللَّه بِهِ، ومَنْ يُرَائِي اللَّه يُرَئِي بِهِ » متفقٌ عليه.

وَرَواهُ مُسْلِمٌ أيضاً مِنْ رِوَايَةِ ابْنِ عَبَّاسٍ رضي الله عنهما.

« سَمَّعَ » بتَشْدِيدِ المِيمِ، وَمَعْنَاهُ: أشْهَرَ عمَلَهُ للنَّاس رِيَاءً « سَمَّعَ اللَّه بِهِ » أيْ: فَضَحَهُ يَوْمَ الْقِيَامَةِ،

ومَعْنى: « منْ رَاءَى » أيْ: مَنْ أَظْهَرَ للنَّاسِ الْعَمَل الصَّالحَ لِيَعْظُمَ عِنْدهُمْ «رَاءَى اللَّه بِهِ » أيْ: أظْهَرَ سَرِيرَتَهُ عَلى رُؤوس الخَلائِقِ.

1619. Cundəb ibn Abdullah ibn Sufyandan ﷺ nəql olunur ki, Peyğəmbər ﷺ belə demişdir: **"Kim etdiyini eşitdirərsə, Allah onu rüsvay edər. Kim əməlini göstərərsə, Allah onu rüsvay edər"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Bu hədisi Muslim həm də İbn Abbasdan ﷺ rəvayət etmişdir.

[Hədisin ərəbcəsindəki] "səmmaə" (eşitdirmək) əməlini riyakarlıqla insanlara nümayiş etdirməkdir. "Səmmaəllahu bihi" sözünün mənası isə Qiyamət günü Allahın onu rüsvay etməsidir. Yəni kim əməlində riyakarlıq edərək yaxşı bir işini insanlara göstərməklə onların gözündə böyümək istəyərsə, Allah onu məxluqatın önündə ifşa və rüsvay edər.

Şərh:

Müəllif ﷺ riya ilə bağlı hədislərdən Cundəb ibn Abdullahdan nəql olunmuş hədisi qeyd edir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Kim etdiyini eşitdirərsə, Allah onu rüsvay edər. Kim əməlini göstərərsə, Allah onu rüsvay edər"**.

"Kim etdiyini eşitdirərsə", yəni kim Allaha ibadət etdiyi zaman insanların onu eşitməsi və: "filankəs çox zikr edəndir, çoxlu Quran oxuyandır" və ya buna bənzər başqa sözlər deməsi üçün səsini yüksəldərsə, beləsi insanlara özünü göstərərək riyakarlıq etmiş olur. Allah qorusun.

[Hədisin ərəbcəsindəki] **"səmmaəllahu bihi",** "onu rüsvay edər, işini aşkara çıxarar", insanlar da onun riyakar olduğunu bilərlər. Hədisdə bunun dünyada, yoxsa axirətdə baş verəcəyi qeyd olunmur. Ola bilsin, Allah həmin insanı bu dünyada rüsvay edib onun ayıbını insanlara bəlli etsin. Ola da bilsin, bu, axirətdə baş versin. Bu isə daha şiddətli və daha alçaldıcıdır. Allaha sığınırıq. Uca Allah buyurur: **"Axirət əzabı isə daha rüsvayedicidir. Onlara kömək də edilməz".**[2]

"Kim əməlini göstərərsə, Allah onu rüsvay edər". Yəni kim bir əməl edərsə ki, insanlar buna görə onu tərifləsinlər, Uca Allah onun ayıbını

[1] "Səhih əl-Buxari", 6018; "Səhih Muslim", 5301.

[2] "Fussilət" surəsi, 16.

insanlara bəlli edər və onu rüsvay edər, həmin adamın da riyakar olduğu üzə çıxar. Allah qorusun.

Bu hədis riyakarlıqdan çəkindirir və bildirir ki, riyakar insan nə qədər özünü gizlətsə belə, gec-tez üzə çıxacaqdır. Allah qorusun. Çünki buna zamin duran Allahdır: **"Kim etdiyini eşitdirərsə, Allah onu rüsvay edər. Kim əməlini göstərərsə, Allah onu rüsvay edər".**

١٦٢٠– وعَنْ أبي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: « مَنْ تَعَلَّم عِلْماً مِمَّا يُبْتَغَى بِهِ وَجْهُ اللَّهِ عَزَّ وَجَلَّ لا يَتَعَلَّمُهُ إلاَّ لِيُصِيبَ بِهِ عَرَضاً مِنَ الدُّنْيَا، لَمْ يَجِدْ عَرْفَ الجَنَّةِ يَوْمَ الْقِيَامَةِ » يَعْنِى: رِيحَهَا. رواه أبو داود بإسنادٍ صحيحٍ. والأحاديثُ في الباب كثيرةٌ مشهورةٌ.

1620. Əbu Hureyradan ﷺ nəql olunmuş hədisdə Peyğəmbər ﷺ demişdir: **"Kim Allah üçün öyrənilməsi gərəkən elmi hər hansı bir dünya nemətini əldə etmək məqsədilə öyrənərsə, Qiyamət günü Cənnətin qoxusunu belə duymayacaqdır".**

Hədisi Əbu Davud səhih isnadla nəql etmişdir.[1]

Bu fəsildəki hədislərin sayı çox, özləri də məşhurdur.

Şərh:

Əbu Hureyradan ﷺ nəql olunmuş hədisdə deyilən **"Allah üçün öyrənilməsi gərəkən elm"** şəriət elmləri, yəni Quran və Sünnədir. İnsanın Quran və Sünnədən öyrənməkdə məqsədi hər hansı bir dünya nemətini əldə etmək olarsa, Qiyamət günü Cənnətin qoxusunu belə duymayacaqdır. Halbuki Cənnətin qoxusu uzaq-uzaq məsafələrdən hiss olunur. Bir adam: "filankəs əqidə elmində güclüdür" söylənilsin deyə, yaxud vəzifəyə gəlsin deyə və ya başqa buna bənzər məqsədlərlə əqidə elmini öyrənərsə, yaxud fiqh elmini, təfsir elmini, hədis elmini özünü insanlara göstərmək üçün öyrənərsə, o adam Cənnətin qoxusunu belə duymayacaqdır. Allah qorusun. Yəni ora daxil olmaq ona haram ediləcəkdir.

Allah üçün öyrənilməsi gərək olmayan riyaziyyat, həndəsə, inşaat kimi dünyavi elmlərə gəldikdə isə onların dünya mənfəətlərini əldə etmək məqsədilə öyrənilməsi caizdir. Çünki bu dünyavi elmlərdir və dünyavi

[1] "Musnəd İmam Əhməd", 2/338, 3179; "Sunən ət-Tirmizi", 2579; "Sunən İbn Macə", 248.

məqsədlərlə öyrənilir. Hədisdə göstərilən cəza isə Allah üçün öyrənilməsi gərəkən elmlərə aiddir.

Birdən kimsə desə ki, bir çoxları indi universitetlərdə təhsil alır və yüksək səviyyəli diplomlar almağa çalışırlar, bəs onda necə olsun.

Deyirik: Əməllər niyyətlərə bağlıdır. Əgər həmin diplomları vəzifə və rütbələr əldə etmək məqsədilə istəyirlərsə, dünya mənfəəti əldə etmək istəmiş olurlar. Yox əgər həmin diplomları almaqla müəllim, müdir və ya rəhbər olub fayda vermək istəyirlərsə, bunda bir problem yoxdur. Çünki hal-hazırda insanların elminə deyil, diplomlarına qiymət verilir. Biri desə ki, "mən nə qədər elm alsam belə diplomsuz məni müəllim qoymayacaqlar, ona görə də oxuyub diplom əldə etmək istəyirəm. Bununla da müəllim olmaq və müsəlmanlara fayda vermək istəyirəm", bu, gözəl niyyətdir və bunda bir qəbahət yoxdur. Müvəffəq edən Allahdır.

İki yüz səksən doqquzuncu fəsil

Riya olduğu güman edilən, əslində isə riya olmayan əməllər

Mövzu ilə əlaqəli hədis:

١٦٢١– عنْ أبي ذَرٍّ ﷺ قَال: قِيل لِرسُولِ اللَّه ﷺ: أَرأَيْتَ الرَّجُلَ الذى يعْملُ الْعملَ مِنَ الخيْرِ، ويحْمدُه النَّاسُ عليه؟ قال: « تِلْكَ عاجِلُ بُشْرَى الْمُؤْمِنِ »، رواه مسلم.

1621. Rəvayət olunur ki, Əbu Zərr ﷺ demişdir: "Bir dəfə Rəsulullahdan ﷺ soruşdular: "İnsanların xeyirli işlər görən adamı tərifləməsinə nə deyirsən?" O ﷺ dedi: **"Bu, möminin erkən müjdəsidir".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Şərh:

Müəllif Hafiz ən-Nəvəvi ﷺ **"Riya olduğu güman edilən, əslində isə riya olmayan əməllər"** fəslini qeyd etmişdir. Yəni insanlar bu əməlləri riya zənn edirlər, halbuki onlar riya deyil. Sonra o, Əbu Zərdən ﷺ nəql olunmuş hədisi qeyd etmişdir.

Həmin hədisdə deyilir ki, bir dəfə Rəsulullahdan ﷺ insanların xeyirli işlər görən adamı tərifləməsi barəsində soruşdular, o da dedi: **"Bu, möminin erkən müjdəsidir"**.

Hədisdəki məsələ bu şəkildədir: bir insan Allah üçün yaxşı işlər görür və insanların bu barədə bilib-bilməməsinə, eşidib-eşitməməsinə, görüb-görməməsinə əhəmiyyət vermir və işini Allah üçün edir. Sonra insanlar onun barəsində danışır və: "filankəs çoxlu xeyir işlər görür, filankəs çoxlu itaətlər edir, filankəs insanlara çox əl tutur" və ya buna bənzər başqa sözlər deyirlər. Peyğəmbər ﷺ deyir: **"Bu, möminin erkən müjdəsidir".** Bu onun üçün bir tərifdir. Çünki insanlar kimisə tərifləndikdə onlar Allahın yer üzərindəki şahidləri hesab olunurlar. Buna görə bir dəfə Peyğəmbərin ﷺ və səhabələrinin yanından aparılan cənazəni insanlar tərifləmiş, o da: **"Vacib oldu"**– demişdi. Sonra aparılan başqa bir cənazəni insanlar

[1] "Səhih Muslim", 4780.

pisləmiş, o yenə: **"Vacib oldu"**– buyurmuşdu. Onlar: "Ey Allahın elçisi, nə vacib oldu?" soruşanda o: **"Birinciyə Cənnət vacib oldu, ikinciyə isə Cəhənnəm vacib oldu. Siz Allahın yer üzündəki şahidlərisiniz"**– demişdi.[1] Bu da Peyğəmbərin ﷺ: **"Bu, möminin erkən müjdəsidir"** sözünün izahı.

Bununla riya arasındakı fərq odur ki, riyakar adam bir iş gördükdə insanlara onu göstərir və niyyətində Allahla yanaşı başqasını şərik tutur. Bu adamın isə niyyəti izzət və cəlal sahibi Allah üçündür və o, insanların onu tərifləyib-tərifləməməsini heç ağlına belə gətirməmişdir. Sadəcə insanlar bunu bilirlər. Şairlərdən biri bu xüsusda belə demişdir:

İnsanda nə qədər əxlaqi keyfiyyətlər olarsa,
İnsanlar gec-tez bundan xəbər tutarlar.

Yəni, insan hər hansı bir əməli gördükdə insanların bundan xəbər tutmasını istəməsə belə, onlar gec-tez bundan xəbər tutacaqlar. Onun itaətlərindən agah olduqda isə onu tərifləyəcəklər. Bu isə riya deyildir, sadəcə möminin erkən müjdəsidir. Çünki insanlar onu tərifləmişlər. İnsanlar da kimi tərifləyərsə, o Cənnət əhlindən olar.

Riyakar isə, Allah qorusun, namaz qıldıqda istəyər ki, insanlar bunu bilsin. Xeyirli iş danışdıqda istəyər ki, insanlar bundan xəbərdar olsunlar. Riyakarla Əbu Zərdən nəql olunan hədisdəki xeyriyyəçi adam arasındakı fərq olduqca böyükdür. Allahdan bizləri və sizi riyadan, habelə pis fitnələrdən qorumasını diləyirik. Şübhəsiz ki, O, hər şeyə qadirdir.

[1] "Səhih əl-Buxari", 1278.

İki yüz doxsanıncı fəsil

Naməhrəm qadınlara, habelə göyçək uşaqlara şəri ehtiyac olmadan baxmağın haram olması

Mövzu ilə əlaqəli ayələr:
Uca Allah buyurur:

﴿ قُل لِّلْمُؤْمِنِينَ يَغُضُّوا۟ مِنْ أَبْصَـٰرِهِمْ وَيَحْفَظُوا۟ فُرُوجَهُمْ ﴾

"Mömin kişilərə de ki, *harama baxmayıb* gözlərini aşağı diksinlər".[1]

﴿ إِنَّ ٱلسَّمْعَ وَٱلْبَصَرَ وَٱلْفُؤَادَ كُلُّ أُو۟لَـٰٓئِكَ كَانَ عَنْهُ مَسْـُٔولًا ﴾

"Şübhəsiz ki, qulaq, göz və ürək – bunların hamısı *sahibinin əməlləri* barəsində sorğu-sual olunacaq".[2]

﴿ يَعْلَمُ خَآئِنَةَ ٱلْأَعْيُنِ وَمَا تُخْفِى ٱلصُّدُورُ ﴾

"*Allah* gözlərin xaincəsinə baxışını və kökslərin *nələr* gizlətdiyini bilir".[3]

﴿ إِنَّ رَبَّكَ لَبِٱلْمِرْصَادِ ﴾

"Həqiqətən, sənin Rəbbin nəzarət edir".[4]

Şərh:
Hafiz ən-Nəvəvi ﵀ **"Naməhrəm qadınlara, habelə göyçək uşaqlara şəri ehtiyac olmadan baxmaq"** fəslini qeyd edir.

"Naməhrəm qadınlar" deyildikdə qohum olub-olmamasından asılı olmayaraq, sənlə onlar arasında məhrəmlik olmayan qadınlar nəzərdə

---

[1] "ən-Nur" surəsi, 30.
[2] "əl-İsra" surəsi, 36.
[3] "Ğafir" surəsi, 19.
[4] "əl-Fəcr" surəsi, 14.

tutulur. "Oğlan uşağı" deyildikdə isə saqqalı çıxmamış, bığı da qalınlaşmamış oğlan uşaqları nəzərdə tutulur. Yəni, bığı nazik, saqqalı isə çıxmamış oğlanlar. "Göyçək" isə kifirin əksidir.

Naməhrəm qadınlara baxmaq, müəllifin də söylədiyi kimi, haramdır. Çünki Uca Allah onlara baxmamağı əmr etmişdir: **"Mömin kişilərə de ki, *harama baxmayıb* gözlərini aşağı diksinlər və cinsiyyət üzvlərini *zinadan* qorusunlar. Bu onlar üçün daha təmiz olar. Şübhəsiz ki, Allah onların nə etdiklərindən xəbərdardır".**[1]

Allah gözləri aşağı dikməyi və cinsiyyət üzvünü qorumağı əmr etmişdir. Bu da dəlildir ki, gözlə baxmaq cinsiyyət üzvünü qorumamağa səbəbdir. İnsan gözü ilə baxdıqda qəlbi qadınlara bağlanır. Qəlbi bağlandıqdan sonra qadına yaxınlaşıb onunla danışır. Sonra ona vədlər verir və beləcə pozğunçuluq baş verir. Allah qorusun. Ona görə deyilir ki, "baxmaq zinanın müqəddiməsidir". Yəni o zinaya aparır. Bu səbəbdən də Uca Allah harama baxmamağı əmr etmişdir.

Uca Allah buyurur: **"Şübhəsiz ki, qulaq, göz və ürək – bunların hamısı *sahibinin əməlləri* barəsində sorğu-sual olunacaq".** İnsan qulaq asdıqlarına görə məsuliyyət daşıyır. Harama qulaq asdıqda, naməhrəm qadının səsini dinləməkdən həzz aldıqda buna görə məsuliyyət daşıyır. Həmçinin baxdığına və qəlbinə görə də məsuliyyət daşıyır. Odur ki, insan gərək özünü qorusun.

Naməhrəm olmayan qadınlara, yəni onlarla nikah bağlanması haram olan qadınlara gəldikdə isə onların üzünə, başına, əllərinə, qollarına, baldır və ayaqlarına baxmaq olar. Yalnız insanın özünün fitnəyə düşməsi halı istisnadır. Fitnədən qorxduqda, hətta məhrəmlərə belə baxmamalıdır. Məsələn, adamın ona məhrəm olan gözəl bir süd bacısı var. Süd bacısı isə əsl bacı kimidir. Lakin ona baxan fitnəyə düşməkdən qorxarsa, gərək ona da baxmasın. Belə olduğu halda həmin süd bacısı da gərək onun yanında hicabla gəzsin. Çünki hicabı vacib edən əsas səbəb fitnədən çəkinməkdir. Fitnə olduqda, hətta məhrəmin yanında belə üzü bağlamaq lazımdır. Lakin fitnə yoxdursa və insan, qəlbi təmiz və iffətlidirsə, bu adam yalnız məhrəmlərinə baxa bilər. Lakin əmisi qızına, dayısı qızına, zövcəsinin bacısına, qardaşının zövcəsinə və buna bənzər başqa naməhrəmlərə baxmamalıdır.

[1] "ən-Nur" surəsi, 30.

Mühüm olan odur ki, fitnə olmadıqda məhrəmlərə baxmaq olar, nəməhrəmlərə baxmaq isə mütləq şəkildə haramdır.

İzzət və cəlal sahibi Allah buyurur: **"*Allah* gözlərin xaincəsinə baxışını və kökslərin *nələr* gizlətdiyini bilir".**[1]

"Gözlərin xaincəsinə baxışı" deyildikdə, gizli baxmaq nəzərdə tutulur. Yəni insanlar bilmədən *onlara* gizlincə baxmaq. Halbuki, bunu Allah bilir. O, gözlərin xain baxışlarından və qəlblərin gizlətdiyi yaxşı və pis niyyətlərdən xəbərdardır. Hətta O, nəfsinin insana verdiyi vəsvəsələri və gələcəkdə adamın başına gələcək işləri də bilir. Müvəffəq edən Allahdır.

١٦٢٢– وَعَنْ أبي هُرَيْرَةَ ﷺ عنِ النبي ﷺ قَال: « كُتِبَ على ابْنِ آدم نَصِيبُهُ مِنَ الزِّنَا مُدْرِكٌ ذلكَ لا محالَةَ: الْعَيْنَانِ زِنَاهُمَا النَّظَرُ، والأُذُنَانِ زِنَاهُما الاستِماعُ، واللِّسَانُ زِنَاهُ الْكَلامُ، وَالْيدُ زِنَاهَا الْبَطْشُ، والرَّجْلُ زِنَاهَا الخُطَا، والْقَلْب يَهْوَى وَيَتَمنَّى، ويُصَدِّقُ ذلكَ الْفرْجُ أوْ يُكَذِّبُهُ ».

متفقٌ عليه. وهذا لَفْظُ مسلمٍ، وروايةُ الْبُخاريِّ مُخْتَصَرَةٌ.

1622. Əbu Hureyradan ﷺ nəql olunmuş hədisdə Peyğəmbər ﷺ demişdir: **"Adəm övladına zinadan olan nəsibi yazılmışdır. O da təbii ki, ona çatacaqdır. Gözlərin zinası baxmaqdır, qulaqların zinası dinləməkdir, dilin zinası danışmaqdır, əlin zinası toxunmaqdır, ayağın zinası yeriməkdir. Qəlb meyl edib istəyir, cinsiyyət orqanı da bunu ya təsdiq edir, ya da ki inkar"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Buxarinin rəvayəti daha müxtəsərdir.

Şərh:

Müəllif **"Naməhrəm qadınlara, habelə göyçək uşaqlara şəri ehtiyac olmadan baxmaq"** fəslində ayələri zikr etdikdən sonra Əbu Hureyranın hədisini qeyd etmişdir.

Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Adəm övladına zinadan olan nəsibi yazılmışdır. O da təbii ki, ona çatacaqdır"**. Yəni Uca Allahın

[1] "Ğafir" surəsi, 19.

[2] "Səhih əl-Buxari", 5774; "Səhih Muslim", 4802.

qoruduğu kəslərdən başqası zinadan yaxa qurtarmaz. Sonra Peyğəmbər ﷺ buna misallar çəkərək buyurur ki, **"gözün zinası baxmaqdır"**, yəni insan şəhvətlə olmasa belə, naməhrəm qadına baxırsa, göz zinası etmiş olur.

"Qulağın zinası dinləməkdir". İnsan qadının danışığına qulaq asaraq bundan həzz ala bilər ki, bu da qulaq zinasıdır.

"Əlin zinası toxunmaqdır". Yəni əllə toxunmaq və buna bənzər başqa əməllər.

"Ayağın zinası yeriməkdir". Yəni insanın pozğunçuluq olan yerə, yaxud qadın səsi eşitdiyi yerə getməsi, yaxud qadını görüb onun yanına getməsi ayaqla olunan zina hesab olunur.

Buna bənzər işlərə **"qəlb meyl edib istəyir"** və qadınlara bağlanır ki, bu da qəlblə olunan zinadır.

"Cinsiyyət üzvü də bunu ya təsdiq edir, ya da ki inkar". Yəni insan cinsiyyət üzvü ilə zina edərsə, Allah qorusun, digər üzvlərin zina etdiyini təsdiq etmiş olur. Yox, əgər cinsiyyət üzvü ilə zina etmiş olmasa və özünü qoruya bilsə, bu, digər bədən üzvlərinin zina etdiyinin təkzib olunmasıdır.

Bu, qadınlara, onların səslərinə, onları görməyə, onlara toxunmağa, onların yanına getməyə, qəlblə istəməyə könül bağlamamaq barədə bir xəbərdarlıqdır. Bütün bunlar, Allah qorusun, zinanın növləridir. Odur ki, ağıllı, iffətli insan öz bədən üzvlərini buna bənzər əməllərdən qorumalıdır.

İnsan buna bənzər əməllər hiss edər-etməz gərək ondan uzaqlaşsın. Çünki şeytan insanın bədənində damardakı qan kimi hərəkət edir. Baxmaq isə İblisin oxlarından biridir. Ola bilsin ki, insan bir qadına baxsın, lakin birinci baxışda qəlbi ona bağlanmış olmasın. Lakin ikinci, üçüncü və sonrakı baxışlardan sonra qəlbi ona bağlana bilər. Bundan sonra o həmişə – oturduqda, durduqda, uzandıqda həmin qadın haqqında düşünər və beləcə şər və fitnə baş verər. Allah qorusun. Müvəffəq edən Allahdır.

١٦٢٣– وعنْ أبي سعِيدٍ الخُدْرِيِّ رضي الله عنه عَنِ النبي ﷺ قَالَ: « إيَّاكُمْ والجُلُوسِ في الطُّرُقَاتِ، » قَالُوا: يَارَسُول اللَّه مالَنَا مِنْ مجالِسِنا بُدٌّ: نَتَحَدَّثُ فيها. فَقالَ رسُولُ اللَّهِ ﷺ: « فإذا أبَيْتُمْ إلاَّ المجْلِسَ، فأَعْطُوا الطَّرِيقَ حَقَّهُ » قَالُوا: ومَا حَقُّ الطَّرِيق يَارَسُولَ اللَّه؟ قَالَ: « غَضَّ البصر، وكَفُّ الأذَى، وردُّ السَّلامِ، والأمْرُ بِالمَعْرُوفِ والنَّهيُ عنِ المُنْكَرِ ». متفقٌ عليه.

1623. Əbu Səid əl-Xudridən ﵁ nəql olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Yollarda oturmaqdan çəkinin".** Dedilər: "Ey Allahın elçisi, axı oturmasaq alınmır, bizlər oturub söhbət edirik?" Allahın elçisi ﷺ dedi: **"Oturmasanız alınmırsa, yolun haqqını verin".** Dedilər: "Ey Allahın elçisi, yolun haqqı nədir?" Dedi: **"Gözü qorumaq, əziyyəti aradan qaldırmaq, salamı almaq, yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkinmək".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٦٢٤– وعَنْ أبي طلْحةَ زيْدِ بنِ سهْلٍ رَضِيَ اللَّه عنْهُ قَالَ: كُنَّا قُعُوداً بالأفنِيةِ نَتحَدَّثُ فيها فَجَاءَ رسُولُ اللَّه ﷺ فَقَامَ علينا فقال: « مالكُمْ وَلمَجالِسِ الصُّعُداتِ؟ » فَقُلنا: إنَّما قَعدنَا لغَير ما بَأس: قَعدْنَا نَتَذاكرُ، ونتحدَّثُ. قال: « إما لا فَأدُّوا حَقَّهَا: غَضُّ البصرِ، ورَدُّ السَّلام، وحُسْنُ الكَلام » رواه مسلم.

« الصُّعداتُ » بضَمِّ الصَّادِ والعيْن. أي: الطُّرقَات.

1624. Əbu Talhə Zeyd ibn Səhldən ﵁ rəvayət olunur ki, o demişdir: "Bir dəfə biz çöldə oturub söhbət edirdik. Bu vaxt Peyğəmbər ﷺ bizim yanımıza gəlib dedi: **"Yolda nə üçün oturmusunuz? Yolda oturmaqdan çəkinin"**. Biz dedik: "Pis məqsədlə oturmamışıq, oturub söhbət edirdik". O dedi: **"O zaman yolun haqqını verin: gözü qorumaq, salamı almaq və gözəl kəlam".**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

[Hədisin ərəbcəsindəki] "əs-suudət" "yollar" deməkdir.

Şərh:

Müəllif ﵀ gözü qorumağa aid ayə və hədislər qeyd etmişdir. Həmin hədislərdən bəziləri də Əbu Səid əl-Xudridən və Zeyd ibn Səhldən nəql olunmuş hədislərdir.

Peyğəmbər ﷺ demişdir: **"Yollarda oturmaqdan çəkinin".** Bu bir qadağadır. Yəni yollarda oturmaqdan çəkinin. Səhabələr dedilər: "Ey Allahın elçisi, *evdə* oturmaq olmur". Onlar günümüzdə də bir çox insanların etdikləri kimi evlərin yanında otururdular. İndi də insanlar evlərinin

[1] "Səhih əl-Buxari", 5761; "Səhih Muslim", 3960.

[2] "Səhih Muslim", 4020.

yanında oturur, qonşular da onların yanına toplanıb dini və dünyavi işlər barəsində söhbət edirlər.

Peyğəmbər ﷺ dedi: **"Əgər otursunuzsa, o zaman yolun haqqını verin".** Yəni oturmaq istəyirsinizsə, onda yolun haqqını verin. Onlar soruşdular: – Ey Allahın elçisi, yolun haqqı nədir?" Peyğəmbər ﷺ də yolun haqqını qeyd etdi:

Birinci: **"Gözü qorumaq"**. Yəni yoldan keçənlərə baxmamaq, onları izləməmək. Çünki bəzi insanlar yoldan keçənlərə baxaraq onları gələndən gedənədək izləyirlər. Ona görə də baxmamalıdır. Baxmamaq iki cəhətdən vacibdir: yolu keçən adam qadın olduqda, bir də yolu keçən adam ona baxılmasından utanır və bundan əziyyət çəkir.

İkinci: **"Əziyyət verməmək"**. Keçənlərdən heç birinə nə dediyiniz sözlə, nə də etdiyiniz əməllə əziyyət verməməlisiniz. Misal üçün ayaqlarınızı uzadıb yolu daraltmamalı, yaxud da yolda uzanmamalısınız.

Üçüncü: **"Salama cavab vermək"**. Yəni kimsə sizə salam verdikdə onun salamını vacib şəkildə almalısınız. Desə ki: "Əssəlamu aleykum", "və aleykum əssəlam" deməlisiniz. Cavab olaraq "xoş gəlmisən, xoş gördük" demək kifayət etmir. Salama cavab vermək vacibdir. Uca Allah buyurur: **"Sizə salam verildiyi zaman onu daha gözəl şəkildə alın və ya *verilən salamı olduğu kimi* qaytarın!"**[1]

Dördüncü: **"Yaxşı işlərə dəvət etmək"**. Görsəniz ki, kimsə ondan tələb olan bir işdə nöqsana yol verir, onu doğru yola dəvət etməlisiniz.

"Yaxşı işlər" deyildikdə şəriətin buyurduğu, habelə insanların təsdiq etdikləri haram olmayan işlər nəzərdə tutulur. Məsələn, yolda oturduğunuz vaxt görsəniz ki, bir qadın üzüaçıq gəzir, ona bunun qadağan olduğunu deyin. Yaxud görsəniz ki, camaat namazı qılınır, siz namazı qılmısınız, lakin bir adam namaz qılmır, bu zaman ona əmr etməlisiniz ki, get camaatla namaz qıl və beləcə insanları yaxşı işlərə dəvət edərək pis işlərdən çəkindirməlisiniz.

Bunlar yolda oturanlar üzərində olan beş haqdır. Elə bundan sonrakı hədis də həmin mövzudadır. Burada da əsas gözü haramlardan qorumaqdır. Müvəffəq edən Allahdır.

---

[1] "ən-Nisa" surəsi, 86.

١٦٢٥– وَعَنْ جَرِيرٍ ﷺ قَالَ: سألْتُ رَسُولَ اللَّهِ ﷺ عَنْ نَظَرِ الفجأةِ فَقَال: « اصْرِفْ بصَرَكَ » رواه مسلم.

1625. Cərir ﷺ demişdir: "Mən Rəsulullahdan ﷺ qəfil baxış barədə soruşdum, o da dedi: **"Gözünü çevir".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٦٢٦– وَعنْ أمِّ سَلَمةَ ﷺ قَالَتْ: كُنْتُ عِنْدَ رَسُولِ اللَّه ﷺ وعِنْدَهُ مَيمونهُ، فَأَقْبَلَ ابنُ أمِّ مكتُوم، وذلكَ بعْدَ أنْ أُمِرْنَا بِالحِجابِ فَقَالَ النبيُّ ﷺ: « احْتَجِبا مِنْهُ » فَقُلْنَا: يا رَسُولَ اللَّهِ أَلَيْس هُوَ أعْمَى: لا يُبْصِرُنَا، ولا يعْرِفُنَا؟ فقَال النبيُّ ﷺ: «أفَعَمْياوَانِ أنْتُما ألَسْتُما تُبصِرانِهِ؟ » رواه أبو داود والترمذي وقَالَ: حَدِيثٌ حسنٌ صَحِيحٌ.

1626. Ummu Sələmə ﷺ demişdir: "Bir dəfə mən Rəsulullahın ﷺ yanında idim. Həmin vaxt Meymunə də onun yanında idi. Bu vaxt İbn Ummu Məktum gəldi. Həmin vaxt artıq bizlərə hicab taxmaq əmr olunmuşdu. Peyğəmbər ﷺ dedi: **"Onun yanında hicabınızı taxın".** Biz dedik: "Ey Allahın elçisi, məgər o kor deyilmi? Axı o bizi görmür". Peyğəmbər ﷺ dedi: **"Siz də korsunuz? Onu görmürsünüz?"**

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Həsən səhih hədisdir" demişdir.[2]

Şərh:

Müəllif "Naməhrəm qadınlara, habelə göyçək uşaqlara şəri ehtiyac olmadan baxmağın haram olması" fəslində Cərir ibn Abdullahdan ﷺ rəvayət edir ki, o, Peyğəmbərdən ﷺ qəfil baxış barədə soruşduqda o belə cavab verdi: **"Gözünü çək"**.

"Qəfil baxış" deyildikdə, məsələn, üzüaçıq bir qadının qəfildən insanın yanından keçdikdə onu görməsi nəzərdə tutulur. Peyğəmbər ﷺ buyurur ki: **"Gözünü çevir".** Yəni sağa və ya sola bax ki, onu görməyəsən.

---

[1] "Səhih Muslim", 4018.

[2] "Musnəd İmam Əhməd", 2/296; "Sunən Əbu Davud", 3585; "Sunən ət-Tirmizi", 2702.

Bu hədisdən anlaşılır ki, qadının kişiyə baxması haramdır. Lakin bu qəfildən baş verdikdə, əfv olunur. Çünki bu insanın öz ixtiyarı ilə baş verməmişdir. İnsanın öz istəyi ilə baş verməyən günahı isə Allah əfv edir.

İkinci hədis isə Ummu Sələmədən رضي الله عنها nəql olunmuşdur. Bir dəfə o Rəsulullahın ﷺ yanında idi. Həmin vaxt Meymunə də onun yanında idi. Bu vaxt Abdullah ibn Ummu Məktum onun yanına gəlir. O kor idi. Bu, hicab ayəsi nazil olandan sonra baş vermişdir. Peyğəmbər də onlara əmr edir ki, hicab geyinsinlər. Yəni Ummu Sələmə ilə Meymunəyə əmr edir ki, kor olsa belə, İbn Ummu Məktumun yanında hicab taxsınlar. Onlar deyirlər ki: "Ey Allahın elçisi, məgər o kor deyilmi? Axı o bizi görmür". Peyğəmbər ﷺ dedi: **"Siz də korsunuz? Onu görmürsünüz?"** Beləcə, o, kor olsa belə, naməhrəm kişinin yanında hicab taxmağı buyurdu.

Bu zəif hədisdir, çünki bütün səhih hədislər buna ziddir. Belə ki, Peyğəmbər ﷺ Fatimə bint Qeysə demişdi: **"Gözləmə müddətini ibn Ummu Məktumun evində keçir. O kor olduğuna görə onun yanında hicabsız ola bilərsən".**[1]

Bu hədis səhih əsərlərdədir. Müəllifin qeyd etdiyi hədis barəsində isə İmam Əhməd belə demişdir: "Bunu Peyğəmbərin ﷺ sözü kimi rəvayət etmək səhvdir". Yəni Peyğəmbərin ﷺ belə deməsi səhih deyil.

Bu baxımdan qadının naməhrəm kişiyə adi, şəhvətsiz baxışla baxması haram deyil. Ona görə də biz bazarlarda kişilərin üzüaçıq gəzdiyini, qadınların da onlara baxdığını görürük. Elə Peyğəmbərin ﷺ də zamanında qadınlar məscidlərə gələndə kişilər üzlərini örtməzdilər. Əgər qadının kişini görməsi halal olmasaydı, kişiyə də qadın kimi üzünü örtməsi əmr olunardı.

Səhih odur ki, həzz və ya şəhvət olmadan qadın kişiyə baxa bilər. Kişinin isə qadını görməsi haramdır. Evlərdəki xidmətçi qadınlar da başqa qadınlar kimi üzlərini örtməlidirlər. Ona görə ki, bu daha təhlükəlidir. Çünki o üzünü açarsa və özü də gənc olarsa, ev sahibi də, əgər övladları varsa, övladları da fitnəyə düşə bilərlər. Müvəffəq edən Allahdır.

١٦٢٧– وعنْ أبي سَعيدٍ رضي الله عنه أنَّ رسُول اللَّهِ ﷺ قال: « لا يَنْظُرُ الرَّجُلُ إلى عوْرةِ الرَّجُلِ، وَلا المَرْأةُ إلى عوْرَةِ المَرْأةِ، ولا يُفْضِى الرَّجُلُ إلى الرَّجُلِ في ثوبٍ واحِدٍ، ولا تُفْضِى المَرْأةُ إلى المَرْأةِ في الثَّوْبِ الواحِدِ » رواه مسلم.

[1] "Səhih Muslim", 2721.

1627. Əbu Səid ﵁ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Kişi başqa kişinin övrətinə baxmasın, qadın da başqa qadının övrətinə baxmasın. Kişi başqa kişinin önünə yarıçılpaq çıxmasın, qadın da başqa qadının önünə yarıçılpaq çıxmasın"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Şərh:

Sonrakı hədisdə Əbu Səid əl-Xudridən ﵁ nəql olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Kişi başqa kişinin övrətinə baxmasın, qadın da başqa qadının övrətinə baxmasın. Kişi başqa kişinin önünə yarıçılpaq çıxmasın, qadın da başqa qadının önünə yarıçılpaq çıxmasın"**

Peyğəmbərin ﷺ: **"Qadın başqa qadının övrətinə baxmasın"** sözü bir qadının başqa qadının övrət yerinə baxmasının haram olmasına dəlildir. Misal üçün, külək və ya hansısa bir başqa səbəbdən qadının övrət yeri açılarsa, başqa qadın ona baxmamalıdır. Burada göbəkdən dizə qədər olan hissə nəzərdə tutulur. Həmçinin bir kişinin külək və ya başqa bir səbəbdən övrət yeri açılarsa, başqa kişilər ona baxmamalıdır.

Bəzi qadınlar bunu əsas gətirərək yanlış fikirlərə düşərək demişlər ki, qadın yalnız göbəklə diz arasını örtməlidir. Bu səhv fikirdir. Çünki Peyğəmbər ﷺ qadınların göbəkdən dizə qədər örtünməklə kifayətlənmələrini buyurmamışdır. Sadəcə qadına başqa qadının övrətinə baxmağı qadağan etmişdir. Bu iki məsələ arasındakı fərq aşkardır. Qadınların paltarı gərək örtən olsun. Səhabə qadınlar topuqdan aşağı ayaqlarını və əllərini də örtərdilər. Lakin birdən külək və ya hər hansı bir başqa səbəbdən qadının paltarı açılarsa başqa qadınlar onun bədəninin göbəklə diz arasında olan yerlərinə baxmamalıdır. Kişi haqqında da deyirik ki, başqa kişinin göbəklə diz arasındakı yerlərinə baxmamalıdır. Kişinin başqa kişinin sinəsinə və ya çiyninə baxması olar. Dəlil də odur ki, kişinin başqa kişilərin yanında göbəkdən aşağı geyilən libasda olması kifayətdir. Hədisdə deyilir ki, bir kişi Peyğəmbərin ﷺ yanına gəlib Vahibəni onunla evləndirməsini istəyir. Vahibə də Peyğəmbərin ﷺ yanına gələrək: "Ey Allahın elçisi, mən özümü sənə hədiyyə etdim" deyən qadındır. Peyğəmbər ﷺ ona nəzər salır, ancaq susur. Qadın da oturur. Sonra camaat arasından bir kişi deyir: "Onu

[1] "Səhih Muslim", 512.

mənimlə evləndir, ey Allahın elçisi". Peyğəmbər soruşdu: **"Mehr verməyə nəyin var?"** Dedi: "Ancaq əynimdəki libasımdır". Hədisin ravilərindən olan Səhl deyir ki, onun üst geyimi yox idi, yalnız göbəkdən aşağı geyilən libası var idi. Peyğəmbər ﷺ də ona deyir ki: **"Libasını ona versən, libassız qalacaqsan, verməsən, mehr olmayacaq. Heç olmasa, dəmirdən bir üzük ver"**. Həmin adam bir dəmir üzük belə tapa bilmir, çünki çox kasıb idi. Peyğəmbər dedi: **"Qurandan bir şey bilirsənmi?"** Dedi: "Bəli, filan-filan surələri bilirəm". Peyğəmbər ﷺ dedi: **"Bildiyin surələrin müqabilində səni onunla evləndirdim"**. Yəni bildiyin surələri ona öyrət, bu da olsun sənin mehrin.

Hədisdən dəlil odur ki, kişi yalnız göbəkdən aşağını örtən libas da geyinə bilər. Qadının isə belə bir libasla kifayətlənməsi caiz deyil. Səhabə qadınların adətləri belə deyildi. Müvəffəq edən Allahdır.

İki yüz doxsan birinci fəsil

Naməhrəm qadınla xəlvətdə qalmağın haramlığı

Mövzu ilə əlaqəli ayə:
Uca Allah buyurur:

﴿ وَإِذَا سَأَلْتُمُوهُنَّ مَتَٰعًا فَسْـَٔلُوهُنَّ مِن وَرَآءِ حِجَابٍ ﴾

"Peyğəmbərin **zövcələrindən bir şey istədikdə pərdə arxasından istəyin".**[1]

Mövzu ilə əlaqəli hədislər:

١٦٢٨– وَعَنْ عُقْبَةَ بْن عَامِرٍ رضي الله عنه أَنَّ رَسُولَ اللَّه ﷺ قَال: « إِيَّاكُمْ وَالدُّخُولَ عَلَى النِّسَاءِ »، فَقَالَ رَجُلٌ مِنَ الأَنْصَارِ أَفَرأَيْتَ الْحمْوَ؟ قالَ: « الْحمْوُ المَوْتُ،» متفقٌ عليه.
« الْحَمُو » قَرِيبُ الزَّوْجِ كأَخِيهِ، وابن أخيه، وابْنِ عمِّهِ.

1628. Uqbə ibn Amirdən رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ dedi: **"Qadınların yanına daxil olmaqdan çəkinin".** Ənsardan bir nəfər dedi: "Bəs qayın necə?" Peyğəmbər ﷺ dedi: **"Qayın ölümdür".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

[Hədisin ərəbcəsindəki] "əl-həmv" sözü "ərin qardaşı, qardaşı oğlu və əmisi oğlu kimi yaxınlarıdır".

١٦٢٩– وَعَن ابنِ عبَّاسٍ رضي الله عنهما أَنَّ رسُول اللَّه ﷺ قَال: « لا يَخْلُوَنَّ أحدُكُمْ بِامْرأةٍ إلاَّ مَعَ ذِي مَحْرَمٍ » متفقٌ عليه.

1629. İbn Abbasdan رضي الله عنهما rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Biriniz yanında məhrəm olmadan qadınla xəlvətdə qalmasın".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

---

[1] "əl-Əhzab" surəsi, 53.
[2] "Səhih əl-Buxari", 4831; "Səhih Muslim", 4037.
[3] "Səhih əl-Buxari", 4832; "Səhih Muslim", 2391.

١٦٣٠– وعن بُرَيْدةَ ﵁ قَالَ: قَال رسُول الله ﷺ: « حُرْمةُ نِساءِ المُجاهِدِينَ علَى الْقَاعِدِينَ كَحُرْمةِ أمهاتِهِمْ، ما مِنْ رجُل مِنْ الْقَاعِدِين يخْلُفُ رجُلاً مِنَ المُجاهدينَ في أهلِهِ، فَيَخُونُهُ فِيهِم إلاَّ وقَف لهُ يَوْم الْقِيامةِ، فَيأخُذُ مِن حسَناتِهِ ما شَاءَ حَتَّى يَرضي » ثُمَّ الْتَفت إلَيْنَا رسُولُ الله ﷺ فَقَالَ: « ما ظَنُّكُمْ؟ » رواهُ مسلم.

1630. Bureydədən ﵁ rəvayət olunur ki, Peyğəmbər ﷺ dedi: **"Mücahidlərin xanımlarının cihadda olmayanlar üçün toxunulmazlığı analarının toxunulmazlığı kimidir. Mücahidlərdən hansı biri cihadda olmayanın yanında öz əhlini qoyarsa, o da ona xəyanət edərsə, Qiyamət günü onun qarşısında dayanaraq savablarından dilədiyi qədər razı qalanadək götürəcəkdir".** Sonra Rəsulullah ﷺ bizə tərəf dönüb dedi: **"Nə düşünürsünüz?"**

Bu hədisi Muslim rəvayət etmişdir.

Şərh:

Müəllif ﵀ **"Naməhrəm qadınla xəlvətdə qalmağın haramlığı"** fəslini qeyd edir. "Naməhrəm qadın" deyildikdə onunla aranızda məhrəmlik olmayan qadınlar nəzərdə tutulur. Misal üçün əmiqızı, dayıqızı, bibiqızı, xalaqızı və başqaları.

Naməhrəmlə xəlvətdə qalmaq haramdır. Bir qadınla kişi xəlvətdə olduqda üçüncüləri şeytan olur. Üçüncüləri şeytan olanlar barəsində nə düşünürsünüz? Düşünürük ki, bu zaman onlar fitnəyə düşəcəklər. Allah qorusun.

Sonra müəllif Uca Allahın bu ayəsini qeyd edir: "***Peyğəmbərin* zövcələrindən bir şey istədikdə pərdə arxasından istəyin".**[1] Yəni onlarla xəlvətdə qalmayın. Onlarla pərdə arxasından danışın ki, xəlvət olmasın.

Daha sonra Uqbə ibn Amirdən ﵁ nəql olunmuş hədisi qeyd edir. Həmin hədisdə Rəsulullah ﷺ demişdir: **"Qadınların yanına daxil olmaqdan çəkinin"**. Ənsardan bir nəfər dedi: "Bəs qayın necə?" Peyğəmbər ﷺ dedi: **"Qayın ölümdür".** Hədisdəki "əl-həmv" sözü ərin qardaşı, əmisi, dayısı kimi yaxınları bildirir. Ərin atası və oğlu məhrəm hesab olunur, qardaşı, əmisi, dayısı isə məhrəm deyillər.

[1] "əl-Əhzab" surəsi, 53.

"Qayın ölümdür" sözü bundan çəkindirməyin bəlağətli bir formasıdır. Yəni insan ölümdən necə qaçırsa, ərinin qohumlarının onun yanına məhrəmsiz daxil olmasından da qaçmalıdır. Bu şiddətli bir çəkindirmədir. Ərin qohumlarının evə daxil olması başqa adamların daxil olmalarından daha şiddətlidir. Çünki onlar qohum kimi daxil olur və onlara heç kim bunu qadağan etmir. Qapıda dayanıb izin istədikdə onlara heç kim bir söz demir. Bu səbəbdən kişinin öz qardaşına zövcəsi ilə xəlvətdə qalmasına icazə verməsi haramdır.

Bəzi insanlar bu məsələyə biganə yanaşırlar. Görürsən ki, zövcəsinin yanında həddi-büluğa çatmış qardaşını qoyub işə gedir. Qardaşı ilə zövcəsi də evdə xəlvətdə qalırlar. Bu haramdır və caiz deyildir. Çünki **"Şeytan Adəm övladının bədənində qan kimi hərəkət edir"**.[1] Bəs başqa ev yoxdursa çıxış yolu nədir? – Gərək kişilər tərəfdən ayrıca qapı olsun, qadınlar olan tərəf isə bağlı olsun. Açarı götürüb qardaşına desin ki, sənin yerin buradır. Zövcəsinə də desin ki, sənin yerin buradır.

Qapıların açıq qalması isə caiz deyildir. Çünki ola bilsin ki, şeytan onu yoldan çıxarar və qorxduğu şey, fitnə və pozğunluq baş verər. Allah qorusun. Allahdan afiyət diləyirik.

Xəlvətin bir başqa növü də sürücü ilə olan xəlvətdir. Məsələn birinin sürücüsü var. Zövcəsini və ya qızını həmin sürücü ilə məhrəmsiz təklikdə qoya bilməz. Maşında tək qalmaq evdə tək qalmaqdan daha şiddətlidir. Çünki maşında xəlvətdə qalsalar sövdələşib başqa yerə gedə bilərlər və orada da fitnə və pozğunçuluq baş verə bilər. Allah qorusun. Ona görə də kişinin öz xanımına, bacısına və ya qızına qısa məsafə olsa belə, sürücü ilə təklikdə getməsinə icazə verməsi haramdır.

Birdən kimsə soruşsa ki, bəlkə qadın təhsil alır və məhrəmi də xəstədir və ya məşğuldur, bu zaman məktəbə necə getsin? Axı onun getməsi labüddür? Deyirik: – Xeyr. Kim deyir ki, onun getməsi vacibdir? Məktəbə harama düşməklə getmək haramdır. Gərək evdə qalsın və sürücü ilə tək getməsin. Çünki bu haramdır. Əgər o həqiqətən oxuyandırsa, həmin dərsi evində də çalışaraq öyrənə bilər. Öz ailə üzvlərini beləcə getməyə icazə verən kəslərin ürəyindən qeyrət hissinin götürülmə qorxusu olur. Allah qorusun. Müvəffəq edən Allahdır.

[1] "Səhih əl-Buxari", 1898; "Səhih Muslim", 4040.

İki yüz doxsan ikinci fəsil

Kişilərin geyimdə, hərəkətdə və başqa əməllərdə özlərini qadınlara, qadınların da özlərini kişilərə bənzətməsinin haramlığı

Mövzu ilə əlaqəli hədislər:

١٦٣١– عن ابنِ عبَّاسٍ ﵄ قَالَ: لَعَنَ رسُولُ اللَّه ﷺ المُخَنَّثين مِنَ الرِّجالِ، والمُتَرجِّلاتِ مِن النِّساءِ.

وفي رواية: لَعنَ رسُولُ اللَّهِ ﷺ المُتَشبِّهين مِن الرِّجالِ بِالنساءِ، والمُتَشبِّهَات مِن النِّسَاءِ بِالرِّجالِ. رواه البخاري.

1631. Rəvayət olunur ki, İbn Abbas ﵄ demişdir: "Rəsulullah ﷺ özünü qadınlara bənzədən kişiləri və özlərini kişilərə bənzədən qadınları lənətləmişdir".

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

Başqa bir rəvayətdə [bu rəvayətdə bənzətmə sözü ərəb dilində başqa sözlərlə verilib] isə deyilir: "Rəsulullah ﷺ özünü qadınlara bənzədən kişiləri və özlərini kişilərə bənzədən qadınları lənətləmişdir".[2]

١٦٣٢– وعنْ أبي هُرَيْرةَ ﵁ قال: لَعنَ رسُولُ اللَّه ﷺ الرَّجُل يلْبسُ لِبْسةَ المرْأةِ، والمرْأةِ تَلْبِسُ لِبْسةَ الرَّجُلِ. رواه أبو داود بإسناد صحيح.

1632. Rəvayət olunur ki, Əbu Hureyra ﵁ demişdir: "Rəsulullah ﷺ qadın libası geyinən kişini və kişi libası geyinən qadını lənətləmişdir".

Bu hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.[3]

١٦٣٣– وعنْه قَال: قَال رسُولُ اللَّه ﷺ: « صِنْفَانِ مِنْ أهلِ النَّارِ لمْ أرَهُما: قَوْمٌ معهم سِياطٌ كأذْنَابِ الْبقَرِ يَضْرِبونَ بِها النَّاس، ونِساء كاسياتٌ عارِياتٌ مُمِيلاتٌ مَائِلاتٌ، رُؤُوسُهُنَّ

[1] "Səhih əl-Buxari", 5436.

[2] "Səhih əl-Buxari", 5435.

[3] "Sunən Əbu Davud", 3575.

كَأَسْنِمةِ الْبُخْتِ المائِلَةِ لا يَدْخُلنَ الجنَّةَ، ولا يجِدْنَ رِيحَهَا، وإنَّ رِيحَهَا لَيُوجَدُ مِنْ مسِيرَةِ كذَا وكَذَا » رواه مسلم.

معنى « كاسيات » أيْ: مِنْ نعْمَةِ اللَّه « عارِياتٌ » مِن شُكْرِهَا وَقِيل: معناهُ: تسْتُرُ بعْض بدنِها، وتَكْشِفُ بعْضَهُ إظْهاراً لِجمالِها ونحوه. وقيل: تَلْبِسُ ثَوْباً رقِيقاً يصِفُ لَوْنَ بدنِهَا. ومعْنى « مائِلاتٌ » قيل: عَن طاعة اللَّه تعالى وما يَلزَمُهُنَّ حِفْظُهُ، « مميلاتٌ » أيْ: يُعلِّمْنَ غَيرهُنَّ فِعْلَهُنَّ المذْمُوم، وقيل مائِلاتٌ يَمْشِينَ مُتَبخْترات،مُمِيلاتٍ لأكْتَافِهِنَّ، وقِيلَ: مائِلاتٌ يمْتَشِطْنَ المِشْطَةَ المَيْلاءَ: وهِيَ مِشْطَةُ الْبغَايا. و « مُميلاتٌ »: يُمشِّطْنَ غَيْرهُنَّ تِلْكَ المِشْطَةَ. « رُؤُوسُهُنَّ كَأَسْنِمةِ الْبُخْتِ » أيْ: يُكبِّرْنَها ويُعظِّمْنها بلَفِّ عِمَامة أوْ عِصابةٍ أو نَحْوه.

1633. Yenə Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Cəhənnəm əhlindən iki sinif insan vardır ki, mən onları görməmişəm: *birincisi,* inəyin quyruğu kimi qamçıları olan və insanları onlarla döyən qövm; *ikincisi isə* geyinmiş çılpaq qadınlardır. Özləri pis işlərə meyl edər və başqalarını da meyl etdirərlər. Başlarını (saçlarını) dəvənin hörgücü kimi maili edərlər. Onlar nə Cənnətə daxil olacaq, nə də onun qoxusunu duyacaqlar. Halbuki Cənnətin qoxusu bu və bu qədər məsafədən duyulur".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

"Geyinmiş" yəni Allahın nemətindən, "çılpaq" yəni onun şükründən. Həmçinin demişlər ki, onun mənası bədəninin bir hissəsini örtüb qalan hissələrini isə gözəlliyini izhar etmək üçün açmasıdır. Bəzilərinə görə bu, nazik paltar geyinərək bədəninin rəngini büruzə verənlərdir. "Meyl edənlər" sözünün mənası Uca Allaha itaətdən və qorunması lazım olan şeylərdən uzaqlaşanlardır. "Meyl etdirənlər", yəni başqalarına da öz pis əməllərini öyrədənlər. Bəziləri bunun mənasının əzilib-büzülərək gəzənlər olduğunu bildirmişlər. Bəziləri demişlər ki, burada pozğun qadınlar kimi gəzənlər nəzərdə tutulur. Həmin qadınlar başqalarını da həmin əməllərə sövq edirlər. Onların başları dəvələrin hörgücünə bənzəyir. Yəni onu parça və digər vasitələrlə böyüdürlər.

[1] "Səhih Muslim", 3971.

Şərh:

Müəllif Hafiz ən-Nəvəvi ﵀ **"Kişilərin geyimdə, hərəkətdə və başqa əməllərdə özlərini qadınlara, qadınların da özlərini kişilərə bənzətməsinin haramlığı"** fəslini qeyd edir. Belə ki, uca və nöqsansız Allah kişini və qadını yaratmış və onlardan hər birinə özəlliklər vermişdir. Kişilər yaradılış, güc, din və başqa cəhətlərdən qadınlardan fərqlidirlər. Qadınlar da kişilərdən fərqlənirlər. Kim kişiləri qadınlar kimi, qadınları da kişilər kimi etmək istəyərsə, qədər və şəriət baxımından Allaha qarşı çıxmış olar və qədər və şəriət baxımından Allaha üsyan etmiş olar. Çünki uca və nöqsansız Allah məxluqatı bir hikmətlə yaratmış və *onlara uyğun* qanunlar buyurmuşdur. Buna görə də kişilərin özlərini qadınlara, qadınların da özlərini kişilərə bənzətməsinə böyük bir əzab və lənət vəd edilmişdir. Lənət isə Allahın rəhmətindən qovulmaq və uzaqlaşmaqdır. Özlərini qadınlara bənzədən kişilər və özlərini kişilərə bənzədən qadınlar Peyğəmbərin ﷺ dili ilə lənətlənmişlər. Necə ki, İbn Abbasdan ﵄ nəql olunan hədisdə deyilir ki, Peyğəmbər ﷺ özlərini qadına bənzədən kişiləri lənətləmişdir. Başqa bir rəvayətdə isə "özlərini qadın kimi aparan kişiləri" qeyd olunur. Bu hədisdə qeyd olunan "qadına bənzəyənlər" bunlardır. Həmçinin özlərini kişilərə bənzədən qadınlar da lənətlənmişlər.

Lənət, Allahın rəhmətindən qovulmaq və uzaqlaşmaqdır. Kişi öz geyimində özünü qadına bənzədərsə, ələlxüsus da ipək, qızıl kimi haram edilmiş libaslar geyərsə, habelə danışığında özünü qadına bənzədərsə, dilini əzib-büzməklə qadın səsinə bənzər səslər çıxararsa, yaxud yerişində qadın kimi yeriyərsə və ya qadına xas olan hər hansı başqa bir hərəkəti edərsə, həmin adam bəşəriyyətin ən xeyirli adamının dili ilə lənətlənmişdir. Bizlər də Rəsulullahın lənət etdiklərini lənətləyirik.

Özünü qadına bənzədən kişi lənətlənmişdir. Özünü kişiyə bənzədən qadın da lənətlənmişdir – əgər qadın kişi kimi danışarsa, yaxud kişilərin geyindiyi kimi əmmamə qoyarsa, yaxud kişilər kimi paltar geyinərsə.

Şalvar geyinmək də buna aiddir. Belə ki, şalvar geyinmək kişilərə xasdır. Qadın gərək bədənini örtən paltarlar geyinsin. Şalvar isə, bildiyimiz kimi, qadınların bud və baldırlarını büruzə verir. Bu baxımdan deyirik ki, qadına hətta ərinin yanında olsa belə, şalvar geyinməsi halal deyildir.

Çünki haramlığa səbəb bədənin büruzə verilməsi deyil, kişiyə bənzəməkdir. Əgər qadın özünü kişiyə bənzədirsə, o, Muhəmmədin ﷺ dili ilə lənətlənmiş olur.

Özünü əks cinsə bənzətmək həm də böyük günahlardandır. Bu səbəbdən müəllif İbn Abbasın hədisindən sonra Əbu Hureyradan nəql olunmuş hədisi qeyd edir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Cəhənnəm əhlindən iki sinif insan vardır ki, mən onları görməmişəm: inəyin quyruğu kimi qamçıları olan və insanları onlarla döyən qövm".**

Alimlər demişlər: bunlar insanları haqsız olaraq vuran polislərdir. Onların əllərində inək qamçısına bənzər qamçılar olur. Yəni əllərində uzun bir qamçı olur və onlarla insanları haqsızcasına vururar. Haqlı olaraq isə təcavüzkarı vurmaq olar: **"Zinakar qadının və zinakar kişinin hər birinə yüz çubuq vurun. Əgər Allaha və axirət gününə inanırsınızsa, Allahın dininə görə onlara yazığınız gəlməsin".**[1] Yəni onlara yazığınız gəlməsin, şallaqları tam vurun. Lakin insanları haqsız yerə vuranlara gəlincə isə onlar Cəhənnəmlikdirlər. Allah qorusun.

İkincisi, **"geyinmiş çılpaq qadınlar. Özləri pis işlərə meyl edər və başqalarını da meyl etdirərlər. Başlarını (saçlarını) dəvənin hörgücü kimi maili edərlər. Onlar nə Cənnətə daxil olacaqlar, nə də onun qoxusunu duyacaqlar. Halbuki Cənnətin qoxusu bu və bu qədər məsafədən duyulur."**

Bunlar geyinmiş çılpaq qadınlardır. Bəzi alimlər demişlər: Yəni libas geyiniblər, lakin təqva baxımından çılpaqdırlar.

Bu hədis geniş libaslı olsa belə, hər bir fasiq, günahkar qadına şamil olunur. Çünki libas deyildikdə paltar nəzərdə tutulur. Lakin onlar təqva baxımından çılpaqdırlar. Belə ki, təqvası olmayan çılpaqdır. Uca Allah buyurur: **"Təqva libası isə xeyirlidir".**[2]

Bəziləri isə demişlər ki, **"geyinmiş çılpaq"** deyildikdə üzərində libas olan, lakin örtünəcək yerləri örtməyən libaslar geyinən qadınlar nəzərdə tutulur. Bu ya libas dar olmaqla olur, ya əndamı büruzə verən nazik paltar geyinməklə, ya da qısa geyinməklə. Bütün belə libasları geyinən qadına "geyinmiş çılpaq" deyilir.

---

[1] "ən-Nur" surəsi, 2.

[2] "əl-Əraf" surəsi, 26.

Bəziləri bunu saçlarını kənara çıxaran qadınlara aid edirlər. Çünki saçı kənara meyl edənlər belə edirlər. Buna bənzər əməllər kafir qadınlardan bizlərə gəlmiş, bəzi qadınlar da bundan təsirlənibiər. Allah qorusun. Saçı kənara daramaqla bəziləri meyl etmiş olurlar.

Digər alimlər isə demişlər ki, hədisdəki **"meyl etdirənlər"** sözü ilə başqalarına fitnə yayan, ətir vurub açıq-saçıq geyinənlər nəzərdə tutulur. Ola bilsin ki, hər iki ləfz nəzərdə tutulur. Çünki qaydaya əsasən, əgər dəlil iki mənada açıqlanırsa və həmin mənalardan birini tərcih edən səbəb yoxdursa, bu zaman hər iki mənaya aid olur. Burada da iki məna arasında heç bir ziddiyyət olmadığı üçün onların hər ikisinə aid edilir.

"Meyl edənlər" sözünün mənası qadınların həya və abırdan uzaq olmalarıdır. Görürsən ki, bəzi qadınlar bazarlarda kişilər kimi iti gəzirlər. Hətta bəzi kişilər belə onlar kimi gəzə bilmirlər. Ayaqlarını yerə elə vururlar ki, sanki əsgər gəzir. Özləri isə buna heç əhəmiyyət də vermirlər. Bu azmış kimi, yanlarındakı rəfiqələri ilə deyib-gülürlər, səslərini qaldıraraq fitnəyə səbəb olurlar. Həmçinin dükan sahibi ilə danışıb-gülür, bəzən əlini satıcı kişiyə uzadır ki, saatı onun əlinə taxsın. Buna bənzər fəsad və bəlalar çoxdur. Belə qadınlar, şəkk yoxdur ki, haqdan meyl edənlərdir. Özlərini qadınlara bənzədən kişilər də bunun kimidir. Allahdan afiyət diləyirik.

"Başlarını (saçlarını) dəvənin hörgücü kimi maili edərlər". Hədisin ərəbcəsində keçən "buxt" sözü uzun hörgücü olan dəvə növü üçün işlənir. Həmin hörgüc sağa və ya sola əyilir. Bu qadınlar da saçlarını bir tərəfə yığdıqları üçün başları bir tərəfə əyilmiş olur. Bəzi alimlər demişlər ki, bu qadın başına kişi əmmaməsi qoyur ki, hicabı qalxsın. Bununla da onun başı dəvənin hörgücünə bənzəyir. Əlqərəz, bu qadınlar başlarını fitnəyə səbəb olan formaya salırlar.

"Onlar nə Cənnətə daxil olacaqlar, nə də ki, onun qoxusunu duyacaqlar". Yəni onlar nə Cənnətə daxil olacaqlar, nə də ki, ona yaxınlaşa biləcəklər. Halbuki onun qoxusu uzaq məsafələrdən – yetmiş illik və ya daha uzaq məsafələrdən duyulur. Buna baxmayaraq, bu cür qadınlar Cənnətə yaxınlaşa bilməyəcəklər. Allah qorusun. Çünki onlar yollarını azaraq geyinmiş halda çılpaq olmuş, meyl etmiş və başqalarını da meyl etdirmişlər. Başlarını da fitnəyə səbəb ola biləcək şəkildə zinətləmişlər. Bu da həmin növ libasların haram olmasına dəlildir. Çünki həmin libaslarla

insan Cənnətdən məhrum olur. Bu isə həmin günahın böyük günahlardan olmasına dəlildir.

Bu məqamda bir məsələyə də toxunmaq gərəkdir ki, bir çox qadınlar və insanlar onu səhv anlayırlar. Özlərini qarşı cinsə bənzədir, sonra da deyirlər ki, mənim niyyətim bu deyildi, məqsədim özümü bənzətmək deyildi. Onlara deyirik: Bənzəmək zahiri bir məsələdir. Olur ki, təbii bənzəmə də olur. Bənzətməkdə isə niyyətin olub-olmaması önəmli deyil. Nə zaman qadın özünü qarşı cinsə, kafir, günahkar və çılpaq qadınlara bənzədərsə, yaxud da qadın özünü kişilərə, kişi isə özünü qadınlara bənzədərsə, harama düşmüş olur – niyyət etsə də, etməsə də. Lakin bu əməl məqsədyönlü şəkildə baş verirsə, bu daha şiddətlidir. Məqsədsiz olduqda isə deyirik: bənzəmək halını dəyişdirməlisən ki, bənzəməkdən çəkinəsən.

Əbu Hureyranın رضي الله عنه hədisinə gəlincə isə onu Əbu Davud həsən isnadla nəql etmişdir. Həmin hədisdə Rəsulullah ﷺ qadının kişi palтarı geyinməsini, kişilərin də qadın paltarlarını geyməsini qadağan etmişdir. Bu da bizim daha öncə dediyimizi dəstəkləyir: qarşı cinsə bənzəmək paltarla, görünüşlə, yerişlə və başqa cür olur. Allah bizləri və sizləri salamat etsin, oğul və qızlarımızı fitnələrdən və səhvlərdən qorusun.

İki yüz doxsan üçüncü fəsil

Şeytana və kafirlərə bənzəməyin qadağan olunması

Mövzu ilə əlaqəli hədislər:

١٦٣٤– عنْ جابرٍ رضي الله عنه قَال: قَال رَسُولُ اللَّه ﷺ: « لا تأْكُلُوا بِالشِّمَالِ، فَإِنَّ الشَّيْطَانَ يأكُل ويَشْرَبُ بِشِمالِهِ » رواه مسلم.

1634. Cabirdən رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Sol əllə yeməyin! Həqiqətən, şeytan sol əli ilə yeyib-içir".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٦٣٥– وعَن ابنِ عُمر رضي الله عنهما أنَّ رَسُولَ اللَّه ﷺ قَالَ: « لا يَأْكُلَنَّ أحدُكُمْ بِشِمالِهِ، وَلا يَشْرَبَنَّ بِهَا. فَإِنَّ الشَّيْطَانَ يَأْكُلُ بِشِمالِهِ وَيشْربُ بِهَا » رواهُ مسلم.

1635. İbn Ömərdən رضي الله عنهما rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Sizlərdən biriniz sol əli ilə yeyib-içməsin. Həqiqətən, şeytan sol əli ilə yeyib-içir".**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

Şərh:

Müəllif رحمه الله **"Şeytana və kafirlərə bənzəməyin qadağan olunması"** fəslini qeyd edir.

Uca və böyük Allah buyurur: **"Bir zaman Biz mələklərə: "Adəmə *hörmət əlaməti olaraq* səcdə edin!"– dedikdə, İblisdən başqa *hamısı* səcdə etdi. O imtina edib təkəbbür göstərdi və kafirlərdən oldu".**[3]

Adəm övladlarından olan kafirlər də Allahın düşmənləri və şeytanın dostlarıdırlar. Uca Allah buyurur: **"Allah iman gətirənlərin dostudur – onları zülmətlərdən nura çıxarar. Kafirlərin dostları isə tağutdur, o onları**

---

[1] "Səhih Muslim", 3764.

[2] "Səhih Muslim", 3765.

[3] "əl-Bəqərə" surəsi, 34.

nurdan zülmətlərə çıxarar. Onlar Od sakinləridirlər və onlar orada əbədi qalacaqlar".[1]

Şeytana və kafirlərə bənzəmək insanın qəsdən və ya qəsdsiz olaraq onların əməllərini etməsi, onlara xas olan libasları geyinməsi, yaxud onlar kimi bəzənməsi ilə olur. "Bu kafirlərin geyimidir" deyildikdə, müsəlman olan kəsin onu geyinməsi haram olur. Saçda və ya saqqalda "bu kafirlərə məxsus formadır" deyildikdə, müsəlmanların onlara bənzəməsi haram olur. Əməllərdə də şeytana bənzəmək olmaz. Düzdür, şeytan qeyb aləminə aid bir varlıq olsa da, biz onun əməllərindən yalnız Rəsulullahın ﷺ bizlərə öyrətdiklərini bilirik.

İbn Ömərdən رضي الله عنهما rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Sizlərdən biriniz sol əli ilə yeyib-içməsin. Həqiqətən, şeytan sol əli ilə yeyib-içir"**.

Ərəbcə "şimal" (شِمَال) deyildikdə sol əl nəzərdə tutulur. Peyğəmbər ﷺ də sol əllə yeyib-içməyi qadağan etmiş və bildirmişdir ki, bu şeytanın əməlidir – şeytan sol əli ilə yeyib-içir. Bizə isə ona tabe olmaq qadağan edilib. Uca Allah buyurur: **"Ey iman gətirənlər! Şeytanın izi ilə getməyin. Kim şeytanın izi ilə getsə, *bilsin ki,* o *şeytan* iyrənc və yaramaz işlər görməyi əmr edir".**[2]

Bu hədis də sol əllə yemək yeməyin, sol əllə içməyin haram olmasına dəlildir. Kim sol əli ilə yeyib-içərsə, bizim və izzət və cəlal sahibi Allahın düşməni olan şeytana bənzəmiş olur.

Günümüzdə artıq bəziləri kafirlərə qarışaraq sol əllə yeyib-içməklə rəhbərləri olan şeytanı təqlid etməyə çalışırlar. Sol əlləri ilə yeyib-içən bu insanları gördükdə təəccüblənirsən. Onlar şeytana və kafirlərə bənzəməklə Rəsulullahın ﷺ hidayətinə müxalif olurlar. Bəziləri isə sağ əlləri ilə yeyib-içsələr də onlara bir içəcək təqdim olunduqda sol əllə götürüb içir, sonra da deyir ki, qorxuram ki, qabı kirləndirərəm. Ona deyirik: Sübhanallah, qoy kirlənsin! Ona görə ki, içdikdən sonra stəkanı yuyacaqsan. Müasir zamanda isə bizlər hətta bir dəfə istifadə olunub atılan plastik stəkanlardan su içirik. Lakin şeytan insana əməllərini gözəlləşdirir, Allah qorusun, o da həmin əməlləri yaxşı əməl kimi görür. Uca Allah bunları

[1] "əl-Bəqərə" surəsi, 257.

[2] "ən-Nur" surəsi, 21.

inkar edərək buyurur: **"Pis əməli özünə gözəl göstərilib onu yaxşı hesab edənlə, *doğru yolla gedən kimsə eyni ola bilərmi?* Həqiqətən, Allah istədiyini zəlalətə salır, istədiyini də doğru yola yönəldir".**[1] Allahdan salamatlıq diləyirik.

Hər bir halda insan zərurət olmadan sol əli ilə yeyib-içməməlidir. Sağ əl şikəst və ya sınmış olarsa, yaxud barmaqları olmazsa və ya buna bənzər başqa çətinliklər olarsa, bu zaman Allah bizlərə öz dinində çətinlik buyurmamışdır. Bir dəfə Peyğəmbər ﷺ sol əli ilə yeyən bir kişi görüb bunu ona qadağan edir. O adam da cavabında deyir ki, sağ əlimlə yeyə bilmirəm. Peyğəmbər ﷺ də ona: "Heç bacarmayasan!"– dedi.[2] Bundan sonra həmin adam *sağ* əlini ağzına qaldıra bilmir. Çünki o, bacarmıram deyərkən yalan demişdi. Peyğəmbərin ﷺ ona bəddua etməsi həmin əməlin haram olmasına dəlildir. Bu elədir ki, var.

Sol əllə alıb-vermək də şeytana bənzəməkdəndir. Əfsuslar olsun ki, bir çoxları, hətta elm tələbələri, xeyir və ibadət əhli belə sol əli ilə götürür/verirlər. Sübhanallah! Sol əli ilə götürüb-verənlər şeytana bənzəmiş olur. Bu da kişiliyə və ədəb-ərkana müxalifdir. Çalış, bir şey verdikdə sağ əlinlə ver, həmçinin bir şey götürmək istədikdə sağ əllə götür. Yalnız sağ əlin məşğul olması istisnadır. Məsələn, sağ əlində ağır bir şey varsa və onu sol əlinə ötürə bilmirsənsə, bu zaman vermək istədiyini sol əllə verə bilərsən. Hər bir halın öz hökmü vardır. Ancaq Peyğəmbərin hidayətinə tabe olmaq istəyirsənsə, səbəbsiz olaraq sol əllə nə götürmə, nə də vermə. Allahdan bizə və sizə müvəffəqiyyət və hidayət diləyirəm.

[1] "Fatir" surəsi, 8.

[2] "Səhih Muslim", 3766.

İki yüz doxsan dördüncü fəsil

Kişiyə və qadına saçlarına qara rəng qoymağın qadağan olması

Mövzu ilə əlaqəli hədislər:

١٦٣٦– وعَنْ أبي هُرَيرَةَ ﵁ أنَّ رَسُول اللَّه ﷺ قَال: إنَّ الْيهُود والنَّصارى لا يَصْبِغُونَ، فَخَالِفوهُمْ » متفقٌ عليه.

المُرَادُ: خِضَابُ شَعْرِ اللِّحْيةِ والرَّأسِ الأبْيضِ بِصُفْرةٍ أوْ حُمْرةٍ، وأمَّا السَّوادُ، فَمنْهيٌّ عَنْهُ كَما سَنَذْكُرُ في الْباب بعْدَهُ، إن شاء اللَّه تعالى.

1636. Əbu Hureyradan ﵁ nəql olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Həqiqətən də yəhudi və xaçpərəstlər rəng qoymurlar. Siz onlara müxalif olun"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Ağarmış saqqalı və saçı rəngləmək deyildikdə onları sarı və qırmızı rənglə boyamaq deməkdir. Qara rəngə gəlincə isə bu qadağan olunub ki, bu barədə də inşəAllah sonrakı fəsildə söhbət açacağıq.

١٦٣٧– عنْ جابرٍ ﵁ قَال: أُتِي بابي قُحافَةَ والِدِ أبي بكْرٍ الصِّدِّيقِ ﵄ يوم فتْحِ مكَّةَ ورأسُهُ ولِحيتُهُ كالثَّغَامَةِ بياضاً، فَقَالَ رسُولُ اللَّه ﷺ: « غَيِّرُوا هَذا واجْتَنبُوا السَّوادَ » رواه مسلم.

1637. Rəvayət olunur ki, Cabir ﵁ demişdir: "Məkkənin fəthi günü Əbu Bəkr əs-Siddiq atası Əbu Quhafə ilə birlikdə gəldilər. Onun saçı və saqqalı ağ bitki kimi bəmbəyaz idi. Rəsulullah ﷺ dedi: **"Bunun rəngini dəyişdirin, lakin qara rəngdən çəkinin"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

---

[1] "Səhih əl-Buxari", 3203.

[2] "Səhih Muslim", 3925.

Şərh:

Müəllif ﵀ **"Kişiyə və qadına saçlarına qara rəng qoymağın qadağan olması"** fəslini qeyd edir.

Əbu Hureyradan ﵁ nəql olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Həqiqətən də yəhudi və xaçpərəstlər rəng qoymurlar. Siz onlara müxalif olun"**. Yəni, siz rəngləyin.

Bu, ağarmış saçlara aiddir. Buna dəlil növbəti hədisdir. Həmin hədisdə deyilir ki, Məkkənin fəthi günü Əbu Bəkr əs-Siddiq atası Əbu Quhafə ilə birlikdə gəldilər. Onun saçı və saqqalı ağ bitki kimi bəmbəyaz idi.

[Hədisin ərəbcəsində işlənən] "əs-səğamə" ağ rəngli bitki növüdür. Rəsulullah ﷺ dedi: **"Bunun rəngini dəyişdirin, lakin qara rəngdən çəkinin".** Bu da dəlildir ki, insan, yaxşı olar ki, ağarmış saç-saqqalını boyasın, ancaq qara rənglə boyamasın. Ya xına ilə sarı rəngə, ya da sarı və qara rəngi qarışdıraraq boyasın. Sarı rənglə qara rəng qarışdıqda qəhvəyi rəng alınır. Peyğəmbər ﷺ də bunu əmr etmişdir. *Sonradan* bəzi insanlara məşəqqət və çətinlik olmasın deyə, özü bunu etməmişdir. Çünki buna riayət etmək və bunu izləmək məşəqqətlidir.

"Qara rəngdən çəkinin" sözü dəlildir ki, o *saç-saqqalı* qara rəngə boyamağı qadağan etmişdir. Çünki qara rəng insanı yenidən cavanlaşdırır. Bu isə izzət və cəlal sahibi Allahın fitrətinə müxalifdir. İndiki dövrdə müəyyən boyalar vardır ki, qadınlar onlarla saçlarını boyayırlar. Onları istifadə etməkdə bir qəbahət yoxdur. Yalnız qara rəng istisnadır, çünki Peyğəmbər ﷺ onu qadağan etmişdir. Kafir qadınlara xas olan rənglərlə boyamaq da istisnadır – ondan istifadə olunmur, çünki mömin qadınlar belə etsələr, kafir qadınlara bənzəmiş olarlar. Bu qadağan olunmuşdur. Müvəffəq edən Allahdır.

İki yüz doxsan beşinci fəsil

Saçın bir hissəsini qırxıb, digər hissəsini saxlamağın qadağan olunması, saçları dibdən qırxmağın isə qadınlara deyil, kişilərə caiz olması

Mövzu ilə əlaqəli hədislər:

١٦٣٨– عن ابن عُمر ﵄ قَالَ: نَهَى رسُولُ اللَّه ﷺ عنِ القَزعِ. متفق عليه

1638. İbn Ömərdən ﵄ nəql olunur ki, o demişdir: "Rəsulullah ﷺ saçın bir hissəsini qırxıb, digər hissəsini saxlamağı qadağan etmişdir".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٦٣٩– وعَنْهُ قَالَ: رَأى رَسُولُ اللَّه ﷺ صبِياً قَدْ حُلِقَ بعْضُ شَعْر رأسِهِ وتُرِكَ بعْضُهُ، فَنَهَاهَمْ عَنْ ذَلِكَ وَقَال: « احْلِقُوهُ كُلَّهُ أو اتْرُكُوهُ كُلَّهُ ».

رواهُ أبو داود بإسناد صحيحٍ على شَرْطِ البُخَارِي وَمسْلِم.

1639. Yenə İbn Ömərdən ﵄ rəvayət olunur ki, o demişdir: "Bir dəfə Rəsulullah ﷺ saçının bir hissəsi qırxılmış, digər hissəsi isə saxlanmış oğlan uşağı görüb dedi: **"Ya onun hamısını qırx, ya da hamısını saxla".**

Hədisi Əbu Davud səhih isnadla Buxari və Muslimin şərtlərinə əsasən rəvayət etmişdir.[2]

١٦٤٠– وعنْ عبْدِ اللَّه بنِ جعْفَر ﵄ أنَّ النبي ﷺ أمْهَل آلَ جعْفَرٍ ﵁ ثَلاثاً، ثُمَّ أتَاهُمْ فَقَالَ: « لا تَبْكُوا على أخِي بَعْدَ الْيوم » ثُمَّ قَال: « ادْعُوا لي بَنِيَّ أخِي » فجِيءَ بِنَا كَأَنَّنا أفْرُخٌ فَقَال: « ادْعُوا لي الحلاَّقَ » فَأَمرهُ، فَحَلَقَ رُؤُوسنَا. رواه أبو داود بإسنادٍ صحيح على شَرْطِ البخاري ومُسْلِمٍ.

1640. Abdullah ibn Cəfərdən ﵄ rəvayət olunur ki, Peyğəmbər ﷺ Cəfərin ailəsinə üç gün bir söz söyləmədi. Sonra onların yanına gəlib dedi:

---

[1] "Səhih əl-Buxari", 5466; "Səhih Muslim", 3959.

[2] "Sunən Əbu Davud", 3663.

“Bu gündən etibarən qardaşım üçün ağlamayın”. Sonra: **“Qardaşımın oğullarını yanıma çağırın”**– dedi, biz də onun yanına gəldik. Sonra o bərbər çağırdı və saçımızı qırxdırdı”.

Hədisi Əbu Davud səhih isnadla Buxari və Muslimin şərtlərinə əsasən rəvayət etmişdir.[1]

١٦٤١– وعَن عَلِيٍّ ﷺ قَالَ: نَهَى رسُول اللَّه ﷺ أنْ تحْلِقَ المَرأةُ رَأسَهَا. رواهُ النِّسائى.

1641. Rəvayət olunur ki, Əli ﷺ demişdir: “Rəsulullah ﷺ qadının başını qırxmasını qadağan etmişdir”.

Hədisi ən-Nəsai rəvayət etmişdir.[2]

Şərh:

Müəllif ﷺ bu fəsildə saçın bir hissəsini qırxıb, digər hissəsini saxlamağın qadağan olmasını qeyd edir.

İbn Ömərdən ﷺ rəvayət olunur ki, o demişdir: “Rəsulullah ﷺ saçın bir hissəsini qırxıb, digər hissəsini saxlamağı qadağan etmişdir”.

[Hədisin ərəbcəsindəki] “əl-qazə” saçın bir hissəsini qırxıb, digər hissəsini saxlamaqdır. Bu istər bir tərəfdən olsun, istərsə də hər iki tərəfdən, yaxud üstdən, sağ və sol tərəflərdən və ya arxadan və öndən olsun, fərq etmir. Nə zaman ki, saçın bir hissəsi qırxılıb, digər hissəsi saxlanırsa, bu “əl-qazə”, yəni buludun bir parçası adlanır.

Bu xüsusda Ənəs ﷺ belə demişdir: “Səmada bulud və ya əl-qazə (yəni bulud parçası) görmürük”.

Müəllif ﷺ daha sonra İbn Ömərin başqa bir hədisini qeyd edir ki, «Bir dəfə Rəsulullah ﷺ saçının bir hissəsi qırxılmış, digər hissəsi isə saxlanmış oğlan uşağını görüb dedi: **“Ya onun hamısını qırx, ya da hamısını saxla”**».

Daha sonra o Cəfər ibn Əbu Talibin ﷺ övladlarının hədisini qeyd edir. Peyğəmbər ﷺ Cəfər ibn Əbu Talib ﷺ şəhid olduqdan sonra onun ailəsinə üç gün bir söz söyləmədi. Sonra onların yanına gəlib dedi: **“Bu gündən etibarən qardaşım üçün ağlamayın”.**

[1] “Sunən Əbu Davud”, 3660.

[2] “Sunən ət-Tirmizi”, 838; “Sunən ən-Nəsai”, 4963.

Onlara üç gün vaxt vermişdi ki, rahatlansınlar və qəlblərindəki hüzn və kədər aradan qalxsın. Üç gün keçdikdən sonra isə Cəfər üçün ağlamağı qadağan etdi. Sonra onun kiçik övladlarını gətirdilər və o, onların saçlarının qırxılmasını əmr etdi. Saçlarını qırxdırdı ki, kirlənməsin. Çünki məlum məsələdir ki, oğlan uşaqlarının bədənləri və saçları *tez* kirlənir. Buna görə də onların saçlarını dibdən qırxdırdı. Bu, oğlan uşaqlarına aiddir. Qızlara gəlincə isə Peyğəmbər ﷺ onların saçlarını dibdən qırxdırmağı qadağan etmişdir. Bu səbəbdəndir ki, uşaq dünyaya gəldikdə əgər oğlandırsa, yeddinci günündə onun saçı qırxılır və əqiq qurbanı kəsilir. Qızlarda isə kəsilmir.

Qızların saçları zərurət olmadan nə kiçik yaşlarında, nə də böyük yaşlarında qırxılmır. Ancaq, məsələn, başda yaralar varsa və ona dərman qoyulması üçün qırxılarsa bu caizdir. Çünki Peyğəmbər ﷺ ehramda ikən qan aldırmağa ehtiyac duyduqda başını qırxmışdı. Baxmayaraq ki, ehramda saç qırxdırmaq haramdır, o, ehramda ikən qan aldırmışdı. Çünki ehtiyacın olması ayrı məsələdir.

Bu hədislər dəlildir ki, insanın saçını çox uzatması Sünnə deyil. Saç buraxmaq, onu çoxalanadək hörüklü və ya adi şəkildə saxlamaqdır. Bu bir adətdir. Əgər bu Sünnə olsaydı, Peyğəmbər ﷺ əmr edərdi ki, uşaqların saçını buraxın və Cəfər ibn Əbu Talibin övladlarının saçını qırxdırmazdı.

Deməli, saç uzatmaq bir adətdir. Insanlar buna adət etdikdə uzadır, etmədikdə isə uzatmırlar. Elm əhlindən bunun Sünnə olmasını deyənlərə gəlincə isə bu onların ictihadıdır. Səhih olan isə odur ki, bu Sünnə deyil və bizlər insanların saç saxlamalı olduğunu demirik. Əksinə, deyirik ki, əgər bu adətə çevrilibsə və insanlar saçı uzadırlarsa, başqalarından fərqlənməmək üçün saçı uzatmaq olar. İndiki zamandakı kimi insanlar saç uzatmırlarsa, o zaman uzatma.

Bu səbəbdən Şeyx Abdur-Rahmən əs-Sədi, Şeyx Muhəmməd ibn İbrahim, Şeyx Əbdüləziz ibn Bəz, Şeyx Abdullah ibn Humeyd və başqa böyük şeyxlərimiz saçlarını uzatmazdılar. Çünki bu Sünnə deyil, sadəcə adətdir. Müvəffəq edən Allahdır.

İki yüz doxsan altıncı fəsil

Sac calatdırmağın, bədənə döymə vurmanın və dişləri aralamağın haram olması

Mövzu ilə əlaqəli ayələr:
Uca Allah buyurur:

﴿ إِن يَدْعُونَ مِن دُونِهِۦٓ إِلَّآ إِنَٰثًا وَإِن يَدْعُونَ إِلَّا شَيْطَٰنًا مَّرِيدًا * لَّعَنَهُ ٱللَّهُ وَقَالَ لَأَتَّخِذَنَّ مِنْ عِبَادِكَ نَصِيبًا مَّفْرُوضًا * وَلَأُضِلَّنَّهُمْ وَلَأُمَنِّيَنَّهُمْ وَلَءَامُرَنَّهُمْ فَلَيُبَتِّكُنَّ ءَاذَانَ ٱلْأَنْعَٰمِ وَلَءَامُرَنَّهُمْ فَلَيُغَيِّرُنَّ خَلْقَ ٱللَّهِ ﴾

"Onlar *Allahı* qoyub, yalnız qadın *adlarını daşıyan* bütlərə dua edir və yalnız üsyankar şeytana sitayiş edirlər. Allah *şeytanı* lənətlədi. O isə dedi: "Mən Sənin qullarından müəyyən bir qismini hökmən ələ alacağam. Onları mütləq *doğru yoldan* azdıracaq və xülyalara salacağam. Onlara heyvanların qulaqlarını kəsməyi buyuracaq və Allahın yaratdıqlarına dəyişiklik etməyi əmr edəcəyəm".[1]

Mövzu ilə əlaqəli hədislər:

١٦٤٢– وعَنْ أسْمَاءَ ﵂ أنَّ امْرأَةً سألتِ النبيَّ ﷺ فَقَالتْ: يا رَسُولَ اللَّه إنَّ ابْنَتِي أصَابَتْهَا الْحَصْبةُ، فتمرَّقَ شَعْرُهَا، وإنِّي زَوَّجْتُها، أفَأَصِلُ فِيهِ؟ فقال: « لَعَنَ اللَّه الْواصِلة والْمَوصولة » متفقٌ عليه.

وفي روايةٍ: « الواصِلَةَ، والمُسْتوصِلَةَ ».

قَوْلُهَا: « فَتَمرَّقَ » هو بالرَّاءِ، ومعناه: انْتَشَرَ وَسَقَطَ، « والْوَاصِلة »: التي تَصِلُ شَعْرهَا، أو شَعْر غيرها بشَعْرٍ آخر. « والمَوْصُولة »: التي يُوصَلُ شَعْرُهَا.

« والمُستَوصِلَةُ »: التي تَسْأَلُ منْ يَفْعَلُ ذلكَ لَهَا.

وعَنْ عائشة ﵂ نَحْوُهُ، متفقٌ عليه.

[1] "ən-Nisa" surəsi, 117-119.

1642. Əsmadan ﵂ rəvayət olunur ki, "Bir qadın Peyğəmbərdən ﷺ soruşdu: "Ey Allahın elçisi, mənim qızım xəstələnib və saçları tökülüb. Mən onu evləndirdim. Onun saçına saç calatdıra bilərəmmi?" Dedi: **"Allah saç calayana və calatdırana lənət eləsin"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.

[Hədisin ərəbcəsindəki] "təmərraqa" sözü "tökülmək", "vasilə" sözü "saç calayan", "musilə" "calatdıran", "əl-mustavsilə" isə bunu etməyi tələb edəndir.

Buxari və Muslim Aişədən ﵂ də bu hədisin bənzərini nəql etmişlər.

١٦٤٣– وَعَنْ حميْدِ بن عبْدِ الرَّحْمن أنَّهُ سمع مُعاويَةَ ﵁ عامَ حجَّ علَى المِنْبَر وَتَنَاول قُصَّةً مِنْ شَعْرٍ كَانَتْ في يد حَرِسيٍّ فَقَالَ: يا أهْل المَدِينَةِ أيْنَ عُلَمَاؤكُمْ؟، سمِعْتُ النبيَّ ﷺ يَنْهَى عنْ مِثْلِ هَذِهِ ويقُولُ: « إنَّمَا هَلَكَتْ بنُو إسْرَائِيل حِينَ اتَّخَذَهَا نِسَاؤُهُمْ » متفقٌ عليه.

1643. Humeyd ibn Abdur-Rahməndən ﵁ rəvayət olunur ki, o, Müaviyə həccə gedən il onu minbərdə ikən Hərisinin əlində şeir hekayəsi danışarkən gördü. O dedi: "Ey Mədinə əhli, alimləriniz haradadır? Mən Peyğəmbərin ﷺ buna bənzər əməli nəhy etdiyini eşitmişəm. O demişdir: **"Şübhəsiz ki, İsrail oğullarını məhv edən qadınlarının bunu etmələri oldu"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.

١٦٤٤– وعَنِ ابنِ عُمر ﵁ أنَّ رسُولَ اللَّه ﷺ لَعَنَ الْواصِلَةَ وَالمُسْتوصِلَةَ، والْوَاشِمَة والمُستَوشِمة. متفقٌ عليه.

1644. İbn Ömərdən ﵄ rəvayət olunur ki, Rəsulullah ﷺ saç calayana, calatdırana, dağ basana və basdırana lənət etmişdir.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.

١٦٤٥– وعن ابنِ مَسعُودٍ رضي عنْهُ قَال: لعنَ اللَّه الْواشِماتِ والمُستَوشمات والمُتَنَمِّصات، والمُتفلِّجات لِلحُسْن، المُغَيِّراتِ خَلْقِ اللَّه، فَقَالَتْ لَهُ امْرأَةٌ في ذلكَ. فَقَالَ: وما لي لا ألْعَنُ مَنْ لَعَنَ رَسُولُ اللَّه ﷺ وَهُو في كتاب اللَّه؟، قَالَ اللَّه تَعالى: { وَمَا آتَاكُمُ الرَّسُولُ فَخُذُوهُ وَما نَهَاكُمْ عَنْهُ فَانْتَهُوا } [الحشر: ٧]. متفقٌ عليه.

« الْمُتَفَلِّجةُ »: هي التي تبْرُدُ مِنْ أسْنَانِهَا لِيَتَباعدَ بعْضُها مِنْ بعْضٍ قَليلاً وتُحَسِّنُهَا وهُوَ الْوَشْرُ، والنَّامِصَةُ: هِي التي تَأْخُذُ مِنْ شَعْرِ حاجب غَيْرِهَا، وتُرَقِّقُهُ لِيصِيرَ حَسناً، والمُتَنمِّصةُ: التي تَأمُرُ منْ يفْعَلُ بِهَا ذَلِكَ .

1645. İbn Məsuddan ﷺ rəvayət olunur ki, o demişdir: "Allah dağ basana, basdırana, qaş aldırana, gözəllik üçün dişlərini aralayana, Allahın yaratdığını dəyişdirənə lənət etmişdir". Bir qadın ona bu barədə irad tutduqda o belə dedi: "Allahın kitabında olan və Rəsulunun ﷺ lənətlədiyi birini nə üçün lənətləməyim? Uca Allah buyurur: **"Peyğəmbər sizə nəyi verirsə, onu götürün, nəyi qadağan edirsə, ondan çəkinin"**[1].

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.

[Hədisin ərəbcəsindəki] "əl-muflicə" dişləri bir-birindən aralamaq-"dır. Buna "vaşr" da deyilir. "Namisa" qaşını aldıran, onu nazikləşdirən, "mutənammisa" isə bunu etməyi əmr edəndir.

[1] "əl-Həşr" surəsi, 7.

İki yüz doxsan yeddinci fəsil

Saqqaldakı və saçdakı və başqa ağ tükləri qopartmağın, həmçinin tüksüz insanın ilk tüklərini qopartmağının qadağan olunması

Mövzu ilə əlaqəli hədislər:

١٦٤٦– عنْ عَمْرِو بنِ شُعَيْبٍ، عن أبيهِ، عنْ جَدِّهِ ﵁، عنِ النبي ﷺ قَالَ: « لاَ تَنْتِفُوا الشَّيْبَ، فَإِنَّهُ نُورُ الْمُسْلِمِ يوْمَ الْقِيامةِ » رواهُ أبو داودَ والتِّرْمِذِيُّ، والنسائِيُّ بأَسَانِيدَ حسنَةٍ، قَالَ الترمذي: هُو حديثٌ حَسَنٌ.

1646. Amr ibn Şüeyb ﵁ atasından, o da babasından rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: **"Ağ tükləri qopartmayın, çünki onlar Qiyamət günü möminin nuru olacaqdır"**.

Hədisi Əbu Davud, Tirmizi və Nəsai həsən isnadlarla rəvayət etmiş, Tirmizi isə: "Bu, həsən hədisdir"– demişdir.

١٦٤٧– وعنْ عائِشَةَ ﵂ قَالَتْ: قَالَ رسُولُ اللَّه ﷺ:« منْ عمِل عملاً لَيْس عليهِ أَمْرُنَا فهُو رَدٌّ » رواه مسلم.

1647. Rəvayət olunur ki, Aişə ﵂ demişdir: «Rəsulullah ﷺ demişdir: **"Kim bizim əmr etmədiyimiz bir əməli edərsə onlardan rədd olunar"**».

Bu hədisi Muslim rəvayət etmişdir.

İki yüz doxsan səkkizinci fəsil

Üzürsüz olaraq sağ əllə yuyunmağın və sağ əli övrət yerinə vurmağın bəyənilməməsi

Mövzu ilə əlaqəli hədis:

١٦٤٨– عنْ أبي قَتَادةَ ﵁ عنِ النبي ﷺ قَال: « إذَا بال أحدُكُمْ. فَلاَ يأْخُذَنَّ ذَكَرهُ بِيَمِينِهِ، وَلاَ يسْتَنْجِ بِيمِينِهِ، ولاَ يتنَفَّسْ في الإنَاءِ ».

متفقٌ عليه. وفي الْباب أحاديثُ كَثِيرةٌ صحِيحةٌ.

1648. Əbu Qatədədən ﵁ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Biriniz təbii ehtiyacını rəf etdikdə övrət yerini sağ əli ilə tutmasın, sağ əli ilə təmizlənməsin və qaba nəfəs almasın".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Bu mövzuya aid çoxlu səhih hədislər vardır.

Şərh:

Müəllif ﵀ **"Üzürsüz olaraq sağ əllə yuyunmağın və sağ əli övrət yerinə vurmağın bəyənilməməsi"** fəslini qeyd edir.

İstinca təbii ehtiyacları rəf etdikdən sonra önün və arxanın sidik və nəcisdən su ilə yuyulmasına, yaxud da daş və ya onları əvəz edən parça, torpaq və ya salfetlə təmizlənməsinə deyilir. Daşla təmizlənməyin xüsusi şərtləri vardır ki, alimlər onları açıqlamışlar.

Suyun şərti nəcisin əlamətlərini aradan qaldırmasıdır. Nəcisin əlamətləri isə bəllidir. Əlamətlər aradan qalxdıqda həmin yer əvvəlki vəziyyətinə qayıdır və təharət tamamlanır.

Sonra müəllif Əbu Qatədənin hədisini qeyd edir. Həmin hədisdə deyilir ki, Peyğəmbər ﷺ demişdir: **"Biriniz təmizlənmək istədikdə övrət yerini sağ əli ilə tutmasın".** Yəni övrət yerini sağ əli yumasın. Çünki sağ əl hörmətlidir. Alimlər bu səbəbdən demişlər ki, sağ əl öndədir. Yalnız əziyyətli hal üçün istifadə olunur. Sol əl əziyyətli işlər üçün, sağ əl isə

[1] "Səhih əl-Buxari", 150; "Səhih Muslim", 855.

digər hallarda istifadə olunur. Buna əsasən, sağ əllə qabdan suyu tökərək sol əllə yumaq lazımdır. Çünki Peyğəmbər ﷺ sağ əllə yuyunmağı qadağan etmişdir.

Daha sonra Peyğəmbər ﷺ demişdir: **"Sağ əli ilə təmizlənməsin".** Yəni daşla təmizlənmək də belədir. Nəcis yerini daşla təmizləmək istədikdə daşı sağ əllə deyil, sol əli ilə tutmalıdır.

"Qaba nəfəs almasın". Yəni su içdikdə Sünnə üç dəfə nəfəs almaqdır: bir udum içir, sonra nəfəs alır, sonra ikinci udumu alır, sonra yenə nəfəs alır, sonra da üçüncü udumu alır. Sünnə belədir. Bu bədən və mədə üçün daha faydalıdır. Çünki susuzluq mədədə yanğın yaradır. Onun üzərinə birdən su gəldikdə ona təsir edir. Onu udumlarla içib arabir nəfəs aldıqda bu daha nuş və daha faydalı olur. Necə ki bunu Peyğəmbər ﷺ demişdir.[1] Nəfəs aldıqda qabın içinə nəfəs almamalıdır. Ağzını qabdan uzaqlaşdırıb nəfəs almalıdır. Çünki qaba tənəffüs etmək zərərlidir – çıxan hava suya təsir edir və tərkibi dəyişdirir. Həmçinin bu ondan sonra həmin qabdan içəcək şəxslərə də bir əziyyətdir. Çünki onun nəfəsindən xəstəlik – mikrob çıxa bilər və suya düşərək sonradan içənlərə zərər toxundura bilər. Buna görə də Peyğəmbər ﷺ insanın qaba nəfəs verməsini qadağan etmişdir. Müvəffəq edən Allahdır.

[1] "Səhih Muslim", 2028.

İki yüz doxsan doqquzuncu fəsil

Üzürsüz olaraq tək xüf və ya tək ayaqqabı ilə gəzməyin bəyənilməməsi, həmçinin üzürsüz olaraq ayaq üstə xüf və ya ayaqqabıların geyinilməsinin bəyənilməməsi

Mövzu ilə əlaqəli hədislər:

١٦٤٩– عنْ أبي هُريرةَ ﵁ أنَّ رسُول اللَّه ﷺ قَالَ: « لا يمْشِ أحدُكُم في نَعْلٍ واحِدَةٍ، لِينْعَلْهُما جمِيعاً، أوْ لِيخْلَعْهُمَا جمِيعاً ». متفقٌ عليْهِ .

وفي روايةٍ « أوْ لِيُحْفِهِما جميعاً »

1649. Əbu Hureyradan ﵁ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Sizlərdən biriniz bir ayaqqabı ilə gəzməsin – ya hər ikisini geyinsin, ya da hər ikisini çıxarsın".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Digər bir rəvayətin ərəbcəsində: **"ya da hər ikisini çıxarsın"** ifadəsi başqa sözlə verilir.

١٦٥٠– وعنه قَال: سمِعتُ رسُول اللَّه ﷺ يَقُولُ: « إذَا انْقَطَعَ شِسْعُ نَعْلِ أحدِكُمْ، فلا يمْشِ في الأخْرى حتَّى يُصْلِحَهَا » رواهُ مسلم.

1650. Yenə Əbu Hureyradan ﵁ rəvayət olunur ki, mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Sizlərdən birinin ayaqqabısının tayının ipi qoparsa, onu düzəldənədək tək tayla gəzməsin".**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١٦٥١– وعَنْ جابِرٍ ﵁ أن رسول اللَّه ﷺ نَهَى أنْ ينْتَعِلَ الرَّجُلُ قَائماً. رواهُ أبُو داوُدَ بإسْنادٍ حَسنٍ.

1651. Cabirdən ﵁ rəvayət olunur ki, Rəsulullah ﷺ adamın ayaq üstə ayaqqabı geyinməsini qadağan etmişdir.

---

[1] "Səhih əl-Buxari", 5408; "Səhih Muslim", 3914.

[2] "Səhih Muslim", 3915.

Hədisi Əbu Davud həsən isnadla rəvayət etmişdir.[1]

Şərh:

Bu hədislər təktay ayaqqabı geyinməyin, yaxud tək ayağa xüf (məst) geyinməyin bəyənilməməsinə dəlildir. Gərək ya hər ikisini çıxarsın, yəni heç bir ayağına geyinməsin, ya da hər iki ayağına geyinsin.

Bilmək lazımdır ki, ayaqqabı geyinmək Sünnə olduğu kimi, ayaqyalın gəzmək də Sünnədir. Bu səbəbdən də Peyğəmbər ﷺ çox rifah halında yaşamağı qadağan etmiş, bəzən ayaqyalın gəzməyi də buyurmuşdur.[2]

Sünnədir ki, insan ayaqqabı geyinsin. Ayaqqabı geyinən kəs minik üzərində olan kəs kimidir. Lakin o bəzən insanlar arasında ayaqyalın da gəzməlidir ki, bəzi insanların tənqid etdikləri bu sünnəni də izhar etmiş olsun. Onlar bəzi ayaqyalın gəzən adamları gördükdə deyirlər ki, bu nədir? Bunlar cahillərdir, etdikləri də səhvdir. Çünki Peyğəmbər rifah halının həddən artıq olmasını qadağan etmiş və bəzən ayaqyalın gəzməyi buyurmuşdur.

Geyindikdə də sağla başlamalı, soyunduqda isə soldan başlamalıdır. Həmçinin ayaqqabını geyinib onlarla məscidə daxil olmaq istəsən, onları yoxla. Onlarda hər hansı bir kir və ya əziyyət verici bir şey olarsa, onu yerə sürtüb təmizlə ki, aradan qalxsın. Sonra onlarla namaz qıl. Şübhəsiz ki, bu Sünnədir. Peyğəmbər ﷺ demişdir: **"Yəhudilərə müxalif olun, onlar ayaqqabıları və xüfləri ilə namaz qılmırlar".**[3]

Yəhudilər ayaqqabıda namaz qılmırlar. Sünnədir ki, insan ayaqqabıları ilə və ya bir çox insanların da etdikləri kimi, xüflərində namaz qılsın. Xüf ilə ayaqqabı arasında fərq yoxdur. İndi ayaqqabı ilə namaz qılmaq inkar olunur, çünki bu unudulmuş sünnədir. Əgər məscidlər əvvəllərdə olduğu kimi döşənərsə, bu mümkündür. Əvvəllər məscidlər kiçik daşlar, qum və ya buna bənzər başqa şeylərlə döşənərdi. Bu zaman ayaqqabı geyinməklə heç bir əziyyət olmur. İndi isə məscidlər xalılarla döşənir və insan ayaqqabı ilə ora daxil olarsa, onu kirləndirər. Çünki bəzi insanlar ayaqqabılarının kirli olub-olmamasına önəm vermirlər. Buna görə də alimlər

[1] "Sunən Əbu Davud", 3606.

[2] "Musnəd İmam Əhməd", 6/22.

[3] "Sunən Əbu Davud", 556.

günümüzdə məscidə ayaqqabı ilə daxil olmamağı buyurmuşlar. Çünki məscidin xalıları ayaqqabılarla kirlənə bilər. Əgər insan Sünnəni tətbiq etmək istəyirsə, o zaman nafilə namazları, o cümlədən təhəccüd namazını evində ayaqqabı ilə qılsın. Bununla da o, Peyğəmbərin ﷺ: **"Yəhudilərə müxalif olun, onlar ayaqqabıları və xüfləri ilə namaz qılmırlar"** əmrinə riayət etmiş olar.

Sonrakı hədisdə – Əbu Hureyranın hədisində deyilir ki, təktay ayaqqabı geyinmək qadağan olunmuşdur. Yəni ya hər iki ayağını geyinməli, ya da hər iki ayağını çıxarmalıdır. Birini geyinib digərini geyinməmək isə qadağan olunmuşdur. Bunun da, daha doğrusunu Allah bilir, izahı belədir ki, İslam dini hətta libas məsələsində də ədalətli olmağı buyurmuşdur.

Bir ayağa ayaqqabı geyinib o birini ayaqqabısız buraxmaq olmaz. Çünki bu, ikinci ayağa qarşı haqsızlıqdır. Buna görə də Peyğəmbər ﷺ təktay ayaqqabı geyinərək gəzməyi qadağan etmişdir. Alimlər demişlər ki, hətta o birini düzəltmək üçün olsa belə, yəni əvvəlcə o birini düzəlt, sonra geyin.

Əbu Hureyradan nəql olunmuş ikinci hədisdə isə deyilir: **"Sizlərdən birinin ayaqqabısının tayının ipi qoparsa, onu düzəldənədək tək tayla gəzməsin".**

Əbu Davudun Cabirdən رضي الله عنه nəql etdiyi hədisdə isə Peyğəmbər ﷺ ayaq üstə ayaqqabı geyinməyi qadağan etmişdir. Ayaqqabını geyinmək üçün oturub cəhd etmək lazımdır. Çünki ayaq üstə ayaqqabını düzəldərək geyindikdə insan yıxıla bilər, övrət yeri görünə bilər, özünə də zərər dəyə bilər. Bu günkü başmaqlara gəlincə isə onlar bu qadağaya daxil olmur, çünki bu günkü başmaqları geyinib-soyunmaq olduqca rahatdır. Müvəffəq edən Allahdır.

Üç yüzüncü fəsil

Yatarkən odu və ya çırağı yanılı qoymağın qadağan olması

Mövzu ilə əlaqəli hədislər:

١٦٥٢– عنِ ابْنِ عُمرَ ﵄ عنِ النبي ﷺ قَال: « لا تَتْرُكُوا النَّار في بُيُوتِكُمْ حِين تَنامُونَ » متفق عليه.

1652. İbn Ömərdən ﵄ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Yatdığınız zaman evinizdə odu yanılı saxlamayın".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٦٥٣– وعَنْ أبي مُوسَى الأشْعريّ ﵁ قَالَ: احْتَرَقَ بيْتٌ بِالمدينةِ على أهْلِهِ مِنَ اللَّيْلِ. فَلَمَّا حُدِّثَ رسُولُ اللَّه ﷺ بِشَأْنِهِمْ قَال: « إنَّ هَذِهِ النَّار عدُوٌّ لكُمْ، فَإذَا نِمْتُمْ فأطْفِئُوها » متفق عليه.

1653. Əbu Musa əl-Əşaridən ﵁ rəvayət olunur ki, bir gecə Mədinədə bir ev yandı. Bu barədə Peyğəmbərə ﷺ xəbər verildikdə o dedi: **"Şübhəsiz ki, bu od sizin düşmənizdir. Yatdığınız zaman onu söndürün"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١٦٥٤– وعنْ جابِر ﵁ عنْ رسُول اللَّهِ ﷺ قَال: « غَطُّوا الإنَاء، وأوْكِئُوا السِّقَاءَ، وَأغْلِقُوا الْباب، وَأطفِئُوا السِّراجِ، فإنَّ الشَّيْطَانَ لا يحِلُّ سِقَاءً، ولاَ يفتَحُ باباً، ولاَ يكْشِفُ إنَاءً، فإنْ لَمْ يجِدْ أحَدُكُمْ إلا أنْ يَعْرُضَ على إنَائِهِ عوداً، ويذْكُر اسْمَ اللَّهِ فَلْيفْعَلْ، فَإنَّ الفُوَيْسِقَةَ تُضْرِمُ على أهْلِ البيتِ بيْتَهُمْ » رواهُ مسلم.

« الفُوَيْسِقَةَ »: الفأْرةُ، و « تُضْرِمُ »: تُحْرِقُ.

1654. Cabirdən ﵁ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Qabları örtün, su tuluqlarını qapayın, qapını bağlayın, çırağı söndürün ki,**

---

[1] "Səhih əl-Buxari", 5819; "Səhih Muslim", 3759.

[2] "Səhih əl-Buxari", 5820; "Səhih Muslim", 3760.

şeytan nə su qabı, nə açıq qapı, nə də açıq qab tapmasın. Örtməyə bir şey tapmasanız bir çubuq belə olsa, Allahın adını çəkib qabın üstünə qoyun. Şübhəsiz ki, ziyanvericilər ev əhlinin yaxınlığında evi yandırır".

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

[Hədisin ərəbcəsində keçən] "tudrimu" sözü "yandırır" deməkdir. "Ziyanverici", yəni siçan.

Şərh:

Müəllif ﵀ **"Yatarkən odu və ya çırağı yanılı qoymağın qadağan olunması"** fəslini qeyd edir. Çünki bu hədislərdə Peyğəmbərin ﷺ vəsf etdiyi kimi, od insanın düşmənidir. İnsan onu yanılı halda qoyub yatdıqda, ola bilsin ki, ziyanverici, yəni siçan gəlib onu aşırar və ev yanar.

Əvvəllər çıraqlar yağ və başqa şeylərlə yandırılaraq oda çevrilirdi. Sonradan neft məhsulları ilə alınmağa başladı. Bunların da hamısı duru məhlullardır. Siçan gəlib ona toxunduqda qabın içərisindəki məhlul yerə tökülür və yanğın baş verir. Buna görə də Peyğəmbər ﷺ yatmadan öncə odu söndürməyi buyurmuşdur ki, yanğın baş verməsin. Günümüzdə isə işıqlanma vasitələri inkişaf etmiş və elektrik vasitəsilə əldə olunur. Kimsə elektriklə işləyən bir çırağı qoşulu vəziyyətdə qoyub yatarsa, bunda bir qəbahət yoxdur. Çünki Peyğəmbərin ﷺ çəkindirdiyi *təhlükəli* səbəb günümüzdə elektrikdə mövcud deyil. Doğrudur, bəzi istilik sobaları vardır ki, ona bənzəyir. İnsan yatarkən onu yatağına yaxın qoyarsa, əli, ayağı ilə ona toxuna bilər. Bu səbəbdən belə sobalar çarpayıdan təhlükəsiz məsafədə qoyulmalıdır ki, yanğın baş verməsin.

Həmçinin insan yatmamışdan öncə gərək qapını da bağlasın, yaxud qabın üzərini taxta ilə olsa belə örtsün ki, qabda olanı şeytandan qorusun. Müvəffəq edən Allahdır.

[1] "Səhih Muslim", 3755.

Üç yüz birinci fəsil

Özünü mükəlləf etməyin, yəni məsləhət olmayan çətin bir sözü deməyin qadağan olunması

Mövzu ilə əlaqəli ayə:
Uca Allah buyurur:

﴿ قُلۡ مَآ أَسۡـَٔلُكُمۡ عَلَيۡهِ مِنۡ أَجۡرٖ وَمَآ أَنَا۠ مِنَ ٱلۡمُتَكَلِّفِينَ ﴾

«**De: "Mən buna görə sizdən heç bir mükafat istəmirəm və mən özümdən bir şey uydurmağa çalışmıram"».**[1]

Mövzu ilə əlaqəli hədislər:

١٦٥٥– وعنْ ابن عُمر، رضي الله عنهما، قَالَ: نُهينَا عنِ التَّكلُّفِ. رواه البُخاري.

1655. Ömərdən رضي الله عنه rəvayət olunan hədisdə o demişdir: "Bizlərə özünü mükəlləf etmə qadağan edilmişdi".

Bu hədisi Buxari rəvayət etmişdir.[2]

١٦٥٦– وعنْ مسْرُوق قَال: دخَلْنَا على عبْدِ اللَّهِ بن مسْعُودٍ رضي الله عنه فَقَال: يا أَيُّهَا النَّاس منْ عَلِم شَيئاً فَلْيقُلْ بهِ، ومنْ لَمْ يعْلَمْ، فلْيقُلْ: اللَّه أعْلَمُ، فإنَّ مِنَ الْعِلْمِ أن تَقُولَ لِمَا لا تَعْلَمُ: اللَّه أعْلَمُ. قَال اللَّه تَعالى لِنَبيِّهِ ﷺ: { قلْ ما أسأَلُكُمْ عَليْهِ مِنْ أجْرٍ وما أنا مِنَ الْمُتَكَلِّفِين } رواهُ البخاري.

1656. Məsruq deyir ki, biz Abdullah ibn Məsudun رضي الله عنه yanına daxil olduq. O dedi: «Ey insanlar, hər kəs bildiyi şeyi sözü söyləsin. Bilmədikdə isə: "Allah daha yaxşı bilir" desin. Bir şeyi bilmədikdə: "Allah daha yaxşı bilir" deməyin özü bir elmdir. Uca Allah öz Peyğəmbərinə belə demişdir: "**De: – Mən buna görə sizdən heç bir mükafat istəmirəm və mən özümdən bir şey uydurmağa çalışmıram"».**

---

[1] "Sad" surəsi, 86.

[2] "Səhih əl-Buxari", 6759.

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

Şərh:

Müəllif ﵀ "**Özünü mükəlləf etməyin, yəni məsləhət olmayan çətin bir sözü deməyin qadağan olunması"** fəslini qeyd edir.

"Mükəlləfiyyət" sözü "bir şeyi bilmədiyi halda özünü bilən kimi göstərməkdir". Sonra müəllif Uca Allahın bu ayəsini qeyd edir: «**De: "Mən buna görə sizdən heç bir mükafat istəmirəm və mən özümdən bir şey uydurmağa çalışmıram"».** Yəni gətirdiyim vəhyin müqabilində sizlərdən bir mükafat istəmirəm ki, mənə verəsiniz. Sadəcə sizə xeyiri göstərir və izzət və cəlal sahibi Allaha tərəf çağırıram.

Digər elçilər ﵈ də öz əshabələrinə belə deyirdilər: **"Mən özümdən bir şey uyğurmağa çalışmıram".** Yəni sizlərə çətinlik törətmirəm və elmsiz danışmıram. Əksinə, Peyğəmbər ﷺ deyir, Uca Allah da onun sözünü dəstəkləyir və təsdiq edirdi.

Sonra müəllif Abdulah ibn Ömərdən ﵄ nəql olunmuş hədisi qeyd edir: "Bizlərə özünü mükəlləf etmə qadağan edilmişdi".

Qadağan edən Allahın elçisidir. Səhabənin "bizə qadağan olundu" deməsi bu qadağanın peyğəmbər tərəfindən qoyulmasıdır. Sanki o: "Allahın elçisi bizə qadağan etdi" deyir. Buna əsasən də qadağan edən Peyğəmbərdir ﷺ. "Bizlərə özünü mükəlləf etmə qadağan edilmişdi", yəni insanın bilmədiyi bir şeyi bilən alim kimi göstərməsi qadağan edilmişdir. Əslində isə o alim deyil.

Sonra müəllif Abdullah ibn Məsudun ﵁ hədisini qeyd edir.

İnsan bilmədiyi bir şey haqqında soruşulduqda danışmamalı, doğru olub-olmadığını bilmədiyi bir cavabı verməməlidir. Yalnız bildiyi sözü danışmalıdır. Bilmədiyi bir şey barəsində soruşulduqda isə: "Allah daha yaxşı bilir" desin. Çünki insanın: "Allah daha yaxşı bilir" deməsinin özü elmdir. Bu vəsfdən Allah elmli olaraq razı olur. Çünki bilmədiyi bir şeyə: "bilmirəm" deyən kəs əsl alimdir. O, elminin əhatəsini, özünün nəyə qadir olduğunu bilir, buna görə də bilmədiyi bir şey haqqında: "Allah daha yaxşı bilir" deyir.

[1] "Səhih əl-Buxari", 4401.

İnsan bilmədiyi bir məsələ haqqında "Allah daha yaxşı bilir" deyib bu məsələ ilə bağlı fətva verməsə, insanlar ona inanar, bilərlər ki, o, fətva verdiyi məsələləri bilir, bilmədiyi məsələlərdə isə susur.

Insan bilmədiyi bir söz barəsində "Allah daha yaxşı bilir" deməklə özünü həm də haqqı deməyə və tələsik fətva verməkdən çəkinməyə öyrətmiş olur. Bu da günümüzdə bəzi insanların əməllərinə əksdir. Onlar elə düşünürlər ki, fətva verməklə nə isə qazanacaqlar. Bununla da onlar elmli və elmsiz və ya yarımçıq elmlə fətva verirlər. Bu xüsusda Şeyxulislam "əl-Fətva əl-həməviyyə" əsərində demişdir: "Deyərdilər ki, dini və dünyanı dörd şey fəsada uğradar: yarımçıq danışan, yarımçıq alim, yarımçıq dilçi və yarımçıq həkim".

Danışana gəlincə, o dinləri və əqidələri fəsada uğradır. Çünki kəlam elminə yiyələnib əsas qayəyə yetişməyənlər bununla qürrələnirlər. Ancaq qayəyə çatmış kəlam əhli isə həqiqəti anlayaraq haqqa dönmüşlər.

Yarımçıq fəqihə gəlincə, o, ölkələri fəsada uğradır – batil hökmlər verməklə bunun haqqını ona, onun haqqını isə buna verir.

Yarımçıq dilçi, dili bərbad edir. O elə zənn edir ki, ərəb dilinin qrammatikasını mənimsəyib. Ona görə də bilmədən danışır və dili bərbad edir.

Yarımçıq həkim isə bədənləri məhv edir. Çünki o, bilmədən əslində ziyanlı olan bir şeyi dərman kimi insanlara tövsiyə edir və beləcə xəstələr məhv olur.

Xülasə odur ki, gərək insan yalnız icazəli məsələlər barəsində fətva versin və tələsməsin. Əgər Uca Allah onun insanlara rəhbər olmasını, habelə insanlara fətva verərək onları doğru yola yönəltməsini istəyibsə, bu baş verəcək. Yox, əgər Allah bunu istəməyibsə, tələsməyi ona fayda verməyəcəkdir.

Sonra İbn Məsud Uca Allahın bu ayəsini dəlil gətirir: «**De: "Mən buna görə sizdən heç bir mükafat istəmirəm və mən özümdən bir şey uydurmağa çalışmıram"**»[1].

Müvəffəq edən Allahdır.

[1] "Sad" surəsi, 86.

Üç yüz ikinci fəsil

Meyitin üzərində ah-nalə çəkməyin, üzə vurmağın, yaxa cırmağın, saç yolmağın və ya onu qırxmağın, habelə bəddua etməyin qadağan olması

Mövzu ilə əlaqəli hədislər:

١٦٥٧– عَنْ عُمَر بْنِ الخَطَّابِ ﵁ قَالَ: قَال النبيُّ ﷺ: « الميِّتُ يُعذَّبُ في قَبرِهِ بِما نِيح علَيْهِ ».

وفي رواية: « ما نِيحَ علَيْهِ » متفقٌ عليه.

1657. Ömər ibn Xəttabdan ﵁ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Meyit, üzərində ah-nalə çəkildiyinə görə qəbirdə əzaba düçar olur".**

Başqa bir rəvayətdə: **"çəkilən ah-naləyə *görə*"** deyilir.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٦٥٨– وعن ابْنِ مسعُودٍ ﵁ قَالَ: قَالَ رَسُولُ اللَّه ﷺ: « لَيْسَ مِنَّا مَنْ ضَرَبَ الخُدُودَ، وشَقَّ الجُيُوبَ، ودَعا بِدَعْوَى الجَاهِلِيةِ » متفقٌ عليه.

1658. İbn Məsuddan ﵁ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Sinəsinə vuran, yaxasını cıran, cahiliyyə dövrünün dualarını edən kəs bizdən deyil"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Şərh:

Müəllif ﵀ "**Meyitin üzərində ah-nalə çəkməyin, üzə vurmağın, yaxa cırmağın, saç yolmağın və ya onu qırxmağın, habelə bəddua etməyin qadağan olması**" fəslini qeyd edir.

"Ah-nalə çəkmək" meyitin üzərində göyərçinin səsinə bənzər səslə ağlamaqdır (inləməkdir). Meyit üzərində ağlamaq iki cürdür:

---

[1] "Səhih əl-Buxari", 1210; "Səhih Muslim", 1537.

[2] "Səhih əl-Buxari", 1212; "Səhih Muslim", 148.

Təbii ağlamaq. Bunda bir problem yoxdur və insan buna görə qınanmır. Necə ki, bu Peyğəmbərin ﷺ başına gəlmişdi – bir dəfə can çəkən bir uşağı ona verəndə Peyğəmbər ﷺ ölümlə çarpışan bu uşağın halına ağlamış və əl-Əqra ibn Habisə demişdir: **"Bu, mərhəmətdəndir. Şübhəsiz ki, Allah qullarından yalnız mərhəmətli olanlara rəhm edər"**.[1]

Peyğəmbər ﷺ bu uşağın halına kədərlənərək deyil, mərhəmətdən dolayı ağlamış və: **"Şübhəsiz ki, Allah qullarından yalnız mərhəmətli olanlara rəhm edər"**– demişdir. Allah bizi və sizləri onlardan etsin.

İnsanın sevdiyi kəsi itirməsindən dolayı ağlaması da buna aiddir. Necə ki, Peyğəmbər ﷺ Misir padşahının hədiyyəsi Mariya əl-Qibtiyyədən olan oğlu İbrahim vəfat etdikdə ağlamışdı. Həmin qadın Peyğəmbərdən ﷺ uşaq dünyaya gətirir, Peyğəmbər ﷺ də ona Allahın dostu İbrahimin adını verir: **"Atanız İbrahimin milləti"**. Uşaq təxminən on altı aylığında olanda izzət və cəlal sahibi Allah onun canını alır. Onu Peyğəmbərin ﷺ yanına gətirirlər və o deyir: **"Şübhəsiz ki, göz yaşarır, qəlb kədərlənir, biz isə yalnız Rəbbimizi razı salan sözlər söyləyirik. Ey İbrahim, biz səndən ayrılığa görə kədərlənirik".**[2] Peyğəmbər ﷺ belə demiş, həm də xəbər vermişdir ki, Cənnətdə onu əmizdirəcək birisi olacaqdır.

Xülasə, bu cür ağlamaqda bir qəbahət yoxdur. Çünki bu, təbii məsələdir və insanın Allahın qəza və qədərinə etirazının göstəricisi deyil.

İkinci növ ağlamaq isə insanın meyit üzərində ah-nalə çəkərək ağlamasıdır. Bu cür ağlamağa görə meyitə qəbirdə əzab verilir. Səbəbkar isə onun məzarının üzərində ah-nalə çəkəndir. Bəzi insanlar səhvə yol verərək ölü üzərində vay-şivən qoparırlar. Belə etdikdə məzarda olana əzab verilir. Allah qorusun. Bu barədə Peyğəmbərdən ﷺ sabit olan hədis Ömər ibn Xəttabdan rəvayət olunmuşdur. Gərək insan səbir edərək bunun əcrini Uca Allahdan diləsin. Müsibətin böyüklüyü qədər savab da böyük olur – müsibət nə qədər böyükdürsə, savab da bir o qədər çox olur.

İbn Məsuddan رضي الله عنه rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Sinəsinə vuran, yaxasını cıran, cahiliyyə dövrünün dualarını edən kəs bizdən deyil"**.

---

[1] "Səhih əl-Buxari", 1204; "Səhih Muslim", 1531.

[2] "Səhih əl-Buxari", 1220.

Bu əməlləri cahil insanlar edirlər. Başına müsibət gəldikdə paltarını cırır, üzünü vurur, saçını yolur və cahiliyyət dövrünün dualarını edir: "Vay mənim halıma, ay-haray, belim sındı" və buna bənzər sözlər deyir. Peyğəmbər ﷺ onlardan uzaq olduğunu bildirmişdir. Çünki mömin olan kəs Allaha, Allahın qəza və qədərinə inanır, bilir ki, artıq bu halı dəyişdirmək mümkün deyil – bu iş tamam olub və bitib. Yer və göy yaradılmamışdan əlli min əvvəl hər şey yazılıb, qələmlər quruyub və səhifələr bükülüb. Nə olursa-olsun, bunu dəyişdirmək mümkün deyil. Elə isə fəryad qoparmağın nə faydası var?! Qəzəblənməyin nə faydası var?! Hirslənməyin nə faydası var?! Bu yalnız şeytanın sənə verdiyi bir əmr və ya vəhydir ki, səni bir tərəfdən əcrdən məhrum etsin, digər tərəfdən də meyitə bu səbəbdən əzab versinlər.

Odur ki, ey qardaşım, çalış izzət və cəlal sahibi Allahdan qorxasan. Səbir et və bunun əvəzini Allahdan dilə ki, bununla da Uca Allahın barələrində: **"Səbir edənləri müjdələ!"**– deyə buyurduğu[1] kəslərdən olasan. Bəs onlar kimlərdir? – **"O kəslər ki, başlarına bir müsibət gəldikdə deyirlər ki, həqiqətən biz Allahdanıq, dönüşümüz də Allahadır".**[2]

Peyğəmbər ﷺ demişdir: **"Müsəlmanın başına bir müsibət gəldikdə: "Allahım, bu müsibətə görə mənə əcr ver, mənə ondan daha xeyirlisini nəsib et"– deyərsə, Allah onun müsibətinə görə ona əcr verər və ondan daha xeyirlisini ona nəsib edər".**[3]

Deməli, insana vacibdir ki, səbir etsin və bunun əvəzini Allahdan umsun. Bilsin ki, ah-nalə çəkib fəryad qoparmağın heç bir faydası yoxdur, artıq hər şey bitmişdir.

Yaxşı, bəs əgər bir adam səfər zamanı bir hadisə ilə üzləşərsə: "Əgər mən səfər etməsəydim, salamat olardım və başıma bu hadisə gəlməzdi" deməlidirmi? – Xeyr, bu mümkün deyil. Uca Allah bu xüsusda buyurur: **"*Evlərində* oturub öz qardaşları barəsində: "Əgər onlar bizə itaət etsəydilər, öldürülməzdilər"– söyləyənlərə de: "Əgər doğru danışırsınızsa, onda ölümü özünüzdən uzaqlaşdırın".**[4] Ölümdən qaçış yoxdur. Odur ki, səbir edib bunun əcrini Allahdan dilə, de ki: "Biz Allahdanıq, dönüşümüz

[1] "əl-Bəqərə" surəsi, 155.

[2] "əl-Bəqərə" surəsi, 156.

[3] "Səhih Muslim", 1525.

[4] "Ali İmran" surəsi, 168.

də Allahadır. Allahım, müsibətimdə mənə əcr ver və bundan daha xeyirlisini mənə nəsib et!". Allah da bu müsibətinə görə sənə əcr verər və ondan daha xeyirlisini nəsib edər.

Əri Əbu Sələmənin vəfat etdiyi Ummu Sələmənin رضي الله عنها hədisinə baxın. O ərini olduqca çox sevirdi. Əri dünyasını dəyişdikdə olduqca kədərləndi. Qadın bir zaman Peyğəmbərin ﷺ belə dediyini eşitmişdi: **"İnsanın başına bir müsibət gəldikdə: "Allahım, müsibətimdə mənə əcr ver və ondan daha xeyirlisini mənə nəsib et!" deyərsə, Allah müsibətinə görə ona əcr yazar və ondan daha xeyirlisini ona nəsib edər".** O da: "Allahım, müsibətimdə mənə əcr ver və ondan daha xeyirlisini mənə nəsib et!"– deyir, özlüyündə isə fikirləşir ki, axı Əbu Sələmədən daha yaxşı kim ola bilər? Axı o Əbu Sələməni, Əbu Sələmə də onu sevirdi, ondan daha xeyirli kim ola bilərdi? O, Peyğəmbərin sözünə şübhə etmirdi, onun doğru olduğuna inanırdı, lakin bununla belə özü-özünə deyirdi ki, bu kim ola bilər? Onun gözləmə müddəti bitdikdən sonra Peyğəmbər ﷺ onunla nişanlanır. Beləcə ona Əbu Sələmədən daha yaxşısı nəsib oldu – onun övladlarına Peyğəmbər ﷺ tərbiyə verməyə başladı, onlar da Peyğəmbərin ﷺ himayəsinə keçdilər.

Bu da başqa bir qissənin nəticəsidir. Peyğəmbər ﷺ Əbu Sələmənin yanına daxil olanda görür ki, onun gözləri bərələ qalıb və ruhu çıxıb. O onun gözlərini bağladı. Allahın ona salavatı və salamı olsun. Sonra dedi: **"Ruh çıxdıqda göz onu izləyir".** Ruh bədəndən çıxdıqda gözlər onu Allahın izni ilə görür. Ev əhli bunu eşitdikdə bilirlər ki, Əbu Sələmə vəfat edib. İnsanlar səs-küy yaradırlar. Peyğəmbər ﷺ dedi: **"Özünüz üçün yalnız xeyirli dua edin. Şübhəsiz ki, mələklər sizin dediklərinizə amin deyirlər".** Sonra dedi: **"Allahım, Əbu Sələməni bağışla, onun dərəcələrini qaldır, məzarını genişlət, onu işıqlandır, ondan sonra da ona daha xeyirli mənzil nəsib et!"**.[1]

Bu beş dua dünya və onun üzərindəkilərə bərabərdir: **"Allahım, Əbu Sələməni bağışla, onun dərəcələrini qaldır, məzarını genişlət, onu işıqlandır, ondan sonra da ona daha xeyirli mənzil nəsib et".**

Bu duaların birini bildik, qalanlarına da Allahın izni ilə cavab verilmişdir. Bildiyimiz odur ki, Peyğəmbər ﷺ Əbu Sələmədən sonra onun

[1] "Səhih Muslim", 1528.

ailəsinə baxmış, onun xanımı ilə evlənmiş, onun övladlarına tərbiyə vermişdir, yəni onlar Peyğəmbərin ﷺ himayəsində yaşamışdılar.

Mühüm olan odur ki, müsibət anında nə olursa-olsun, kişi gərək səbir etsin, **"İnnə lilləhi va innə ileyhi raciun"** desin və bunları söyləsin: "Allahım, bu müsibətimdə mənə əcr ver, bundan daha xeyirlisini mənə nəsib et!" O şivən qoparmadan ağlaya da bilər. Çünki bu, bəşəriyyətin ən xeyirlisi Muhəmməddən də görülmüşdür. Müvəffəq edən Allahdır.

١٦٥٩– وَعنْ أبي بُرْدةَ قَالَ: وَجِعَ أَبُو مُوسَى الأشعريُّ رضي الله عنه ، فَغُشِيَ عليْهِ، وَرَأْسُهُ في حِجْرِ امْرأَةٍ مِنْ أهْلِهِ، فَأَقْبلَتْ تَصِيحُ بِرنَّةٍ فَلَمْ يَسْتَطِعْ أنْ يَرُدَّ عَلَيْهَا شَيْئاً، فَلَمَّا أفَاقَ، قَال: أنَا بَرِيءٌ مِمَّنْ بَرِيءَ مِنْهُ رسُولُ اللَّه ﷺ بَرِيءَ مِنَ الصَّالِقَةِ، والحَالَقةِ، والشَّاقَّةَ، متفقٌ عليه.

« الصَّالِقَةُ »: التي تَرْفَعُ صوْتَهَا بالنِّياحةِ والنَّدْبِ « والحَالِقَةُ »: التي تَحْلِقُ رَأسَهَا عِنْدَ المُصِيبَةِ. « والشَّاقَّةُ » التي تَشُقُّ ثَوْبَهَا.

1659. Rəvayət olunur ki, Əbu Burdə demişdir: "Bir dəfə Əbu Musa ağrındı və huşunu itirdi. Onun başı əhlindən olan bir qadının qucağında idi. Qadın şivən qoparıb çığırdı, lakin o qadına cavab verə bilmədi. Oyandıqdan sonra isə dedi: "Rəsulullahın ﷺ uzaq olduğu işdən mən də uzağam. Peyğəmbər ﷺ şivən qoparandan, saçını qırxandan və yaxasını cırandan uzaqdır".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

[Hədisin ərəbcəsindəki] "saliqa" şivən qoparıb səsini ucaldan, "həliqa" müsibət vaxtı saçını qırxan, "şəqqa" isə libasını cıran qadındır.

١٦٦٠– وعَن المُغِيرةِ بنِ شُعْبَةَ رضي الله عنه قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: « مَنْ نِيحَ عَليْهِ، فَإنَّهُ يُعَذَّبُ بِمَا نِيحَ علَيْهِ يَوْم الْقِيامةِ » متفقٌ عليه.

1660. Muğira ibn Şöbə رضي الله عنه demişdir: «Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Kimin üzərində şivən qoparılarsa, Qiyamət günü üzərində şivən qoparılmasına görə ona əzab verilər"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

---

[1] "Səhih Muslim", 149.

[2] "Səhih əl-Buxari", 1209; "Səhih Muslim", 1549.

١٦٦١– وعَنْ أمِّ عَطِيَّةَ نُسيْبَةَ بِضَمِّ النُّونِ وَفَتحِهَا ﵂ قَالَتْ: أخَذَ عَلَينَا رَسُولُ اللَّهِ ﷺ عِنْدَ البَيْعة أنْ لا نَنُوح. متفقٌ عليه.

1661. Ummu Atiyyə Nuseyyibədən ﵂ rəvayət olunur ki, o demişdir: "Beyət vaxtı Rəsulullah ﷺ bizə şərt qoydu ki, şivən qoparmayaq".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٦٦٢– وَعَنِ النُّعْمانِ بنِ بشيرٍ ﵄ قَالَ: أُغْمِي علَى عبْدِ اللَّه بنِ رَوَاحَةَ ﵁، فَجَعَلَتْ أُخْتُهُ تبكي، وتَقُولُ: واجبلاَهُ، واكذَا، واكَذَا: تُعدِّدُ علَيْهِ. فقَال حِينَ أفَاقَ: ما قُلْتِ شيْئاً إلاَّ قِيل لِي: أنْتَ كَذَلِكَ؟، رواهُ البُخَارِي.

1662. Rəvayət olunur ki, Noman ibn Bəşir ﵄ demişdir: "Abdullah ibn Ravaha ﵁ huşunu itirdikdə bacısı ağlamağa başladı və: "Ay dağım, ay eləm, ay beləm" deyib saymağa başladı. O özünə gəldikdə dedi: "Sənin söylədiklərini mənə deyib soruşdular ki, sən beləsən?!"

Bu hədisi Buxari rəvayət etmişdir.[2]

١٦٦٣– وَعَن ابن عُمر ﵄ قَال: اشْتَكَى سعْدُ بنُ عُبادَةَ ﵁ شَكْوَى، فَأَتَاهُ رسُولُ اللَّه ﷺ يعُودُهُ معَ عبْدِ الرَّحْمنِ بنِ عوْفٍ، وسَعْدِ بنِ أبي وقَّاص، وعبْدِ اللَّه بن مسْعُودٍ ﵃، فلما دخَلَ عليْهِ، وجدهُ فِي غَشْيةٍ فَقالَ: «أَقُضَى؟ قَالُوا: لا يا رسُولَ اللَّه. فَبَكَى رسُولُ اللَّه ﷺ. فَلمَّا رَأى الْقَوْمُ بُكاءَ النبي ﷺ بَكَوْا، قَالَ: « ألاَ تَسْمعُون؟ إنَّ اللَّهُ لا يُعَذِّبُ بِدمْعِ الْعَيْنِ، ولا بِحُزْنِ الْقَلْبِ، ولَكِنْ يُعذِّبُ بِهذَا » وَأشَارَ إلى لِسانِهِ « أوْ يَرْحَمُ » متفقٌ عليه.

1663. İbn Ömər ﵄ rəvayət edir ki, Səd ibn Ubədə ﵁ xəstələndi, Rəsulullah ﷺ da Abdur-rahmən ibn Auf, Səd ibn Əbu Vaqqas və Abdullah ibn Məsudla birlikdə onu ziyarət etməyə gəlir. Onun yanına daxil olduqda görür ki, huşunu itirib. Soruşur ki, canını tapşırıb? Dedilər ki: "Xeyr, ey Allahın elçisi". Rəsulullah ﷺ ağlayır, insanlar da Peyğəmbərin ağladığını görüb ağlayırlar. Sonra dedi: **"Eşidirsinizmi? Allah gözün yaşına, qəlbin kədərinə görə əzab verməz"**. Sonra o dilinə işarə edərək: **"Lakin buna görə ya əzab verər, ya da rəhm edər"**– deyir**.**

[1] "Səhih əl-Buxari", 1223; "Səhih Muslim", 1552.

[2] "Səhih əl-Buxari", 3934.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٦٦٤– وعَنْ أبي مالِكٍ الأشْعَرِيّ ﷺ قالَ: قَالَ رَسُولُ اللَّه ﷺ: «النَّائِحَةُ إذَا لَمْ تتُبْ قَبْل مَوْتِهَا تُقَامُ يوْمَ الْقِيامةِ وعَلَيْها سِرْبَالٌ مِنْ قَطِرَانٍ، ودَرْعٌ مِنْ جرَبٍ» رواهُ مسلم.

1664. Əbu Malik əl-Əşari ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Şivən qoparan qadın ölməmişdən öncə tövbə etməzsə, Qiyamət günü qalxdıqda onun əynində qətrandan bir libas və dərisini deşən bir zireh olar"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١٦٦٥– وعنْ أُسيدِ بنِ أبي أُسِيدِ التَّابِعِيّ عَنِ امْرَأَةٍ مِنَ المُبايعات قَالَتْ: كَانَ فِيمَا أخذ علَيْنَا رَسُولُ اللَّه ﷺ، في المعْرُوفِ الَّذِي أخذَ علَيْنَا أنْ لا نَعْصِيَهُ فِيهِ: أَنْ لا نَخْمِشَ وَجْهاً، ولاَ نَدْعُوَ وَيْلاَ، ولا نَشُقَّ جيْباً، وأنْ لا نَنْثُر شَعْراً.

رَواهُ أبو داوُدَ بإسْنادٍ حسنٍ.

1665. Tabiinlərdən olan Useyd ibn Əbu Useyddən nəql olunur ki, beyət etmiş qadınlardan biri demişdir: "Rəsulullah ﷺ bizlərə şərt qoymuşdu ki, ona asi olmayaq: üzümüzü cırmayaq, haray qoparmayaq, yaxamızı cırmayaq və saçımızı yolmayaq".

Hədisi Əbu Davud həsən isnadla rəvayət etmişdir.[3]

١٦٦٦– وعَنْ أبي مُوسَى ﷺ أن رَسُولَ اللَّهِ ﷺ قَالَ: « ما مِنْ ميّتٍ يَمُوتُ، فَيَقُومُ باكيهِمْ، فَيَقُولُ: وَاجبلاهُ، واسَيِّداهُ أوَ نَحْو ذَلِك إلاَّ وُكِّل بِهِ مَلَكَانِ يلْهَزَانِهِ: أهَكَذَا كُنتَ؟ ». رَوَاهُ التِّرْمِذي وقال: حديثٌ حَسَنٌ.

« اللَّهْزُ »: الدَّفْعُ بجُمْعِ الْيَدِ في الصَّدرِ.

1666. Əbu Musadan ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Hər hansı bir adam öldükdə onun üçün ağlayan qalxıb: "Ay dağım, ay ağam" və ya buna bənzər başqa sözlərlə ağı deyərsə, bu zaman**

[1] "Səhih əl-Buxari", 1212; "Səhih Muslim", 1532.

[2] "Səhih Muslim", 1550.

[3] "Sunən Əbu Davud", 2724.

Allah iki mələk təyin edər və onlar onun əllərini sinəsinə qoyub ondan soruşarlar: – Məgər sən belə olmusan?!"

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir"– demişdir.[1]

[Hədisin ərəbcəsindəki] "əl-ləhz" əlləri sinə üzərində toplamaqdır.

١٦٦٧– وعنْ أبي هُرَيْرةَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّه ﷺ: « اثْنتَانِ في النَّاسِ هُمَا بِهِمْ كُفْرٌ: الطَّعْنُ في النَّسَبِ، والنِّياحَة عَلى المَيِّتِ » رواهُ مسلم.

1667. Əbu Hureyradan ﷺ nəql olunur ki, Rəsulullah ﷺ demişdir: **"İnsanların etdiyi iki əməl küfrdür: əsil-nəsəbə tən etmək və ölünün üzərində şivən qoparmaq"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

Şərh:

Hafiz ən-Nəvəvinin ﷺ nəql etdiyi bu hədislərin hamısı meyidin üzərində şivən qoparmağın haramlığına dəlalət edir.

Şivən qoparmaq barədə daha öncə də söhbət açmışdıq. Yaxşı olar ki, ölən kəsin yaxşı əməllərindən danışılsın, ona görə köks ötürülsün və "innə lilləhi va innə ileyhi raciun" deyilsin.

Qeyd olunan hədislərin birində Əbu Musadan ﷺ rəvayət olunur ki, onun başı ev əhlindən olan birisinin qucağında ikən huşunu itirir, başını qucağına qoyduğu qadın da ah-nalə çəkib ağlayır. Əbu Musa oyandıqdan sonra deyir ki, Rəsulullahın uzaq olduğu işdən mən də uzağam: Peyğəmbər ﷺ şivən qoparandan, saçını qırxandan və yaxasını cırandan uzaqdır.

"əs-saliqa" sözü "salq" sözündəndir, mənası da səsi yüksəltmək, yəni müsibət anında qışqıraraq nalə qaldırmaqdır. Bu əməldən Peyğəmbər ﷺ uzaqdır. Biz də Allahı şahid edirik ki, bizlər də Rəsulullahın ﷺ uzaq olduğu əməldən uzağıq.

"əl-həliqa" cahiliyyət dövründə yaxını ölən qadınların saçlarını qoparmalarına deyilirdi. Bununla o sanki qəzəbini bildirirdi. Saçlar qadınların zinətidir. Saçın uzun olması qadın üçün gözəllikdir. Günümüzdə isə qadınlar kafir qadınları görərək onlara bənzəməyə çalışır, hətta bəziləri kişilər kimi saçlarını qısaldırlar. Allaha sığınırıq.

---

[1] "Sunən ət-Tirmizi", 924.

[2] "Səhih Muslim", 100.

"əş-şəqqa" isə qadının müsibət anında öz yaxasını cırmasıdır. Saçlarını yolan qadına da belə deyilir. Qəzəbə səbəb olan hər bir əməl Peyğəmbərin ﷺ uzaq olduğu əməllərə daxildir.

Bu hədislərdə bildirilir ki, şivən qoparan qadın ölməmişdən öncə tövbə etməzsə, Qiyamət günü məzarından əynində qətrandan libas və dərisini deşən zirehlə qalxar. [Hədisin ərəbcəsindəki] "sirbal" libas, "dir" isə bədənə yapışan zirehdir. Yəni onun dərisi çıxar. Allah qorusun. "Cərab" adlı xəstəlik vardır ki, dəri qaşınır və qopur. Əgər belə dəri üzərində zireh və qətrandan olan libas da olarsa, bu zaman onun dərisi od tutub yanar. Allah qorusun. Ancaq o, ölməmişdən öncə tövbə edərsə, Allah onun tövbəsini qəbul edər. Çünki kim ölməmişdən öncə hər hansı bir günahdan tövbə edərsə, Allah onun tövbəsini qəbul edər.

Bu hədislərdə həm də qeyd olunur ki, Peyğəmbər ﷺ Səd ibn Ubadənin رضي الله عنه huşunu itirdiyini görüb ağlamış, onunla birlikdə olan səhabələr də ağlamışdılar. Sonra belə demişdi: **"Eşidirsinizmi?"** Buradakı sual işarəsi əmr mənasındadır. Yəni, dinləyin!

"Allah gözün yaşına, qəlbin kədərinə görə əzab verməz". Sonra da dilinə işarə edərək: **"Lakin buna görə ya əzab verər, ya da rəhm edər"**– dedi. Yəni Uca Allah ağlamağa və kədərlənməyə görə insana əzab vermir. Lakin sözə və səsə görə əzab da verə bilər, rəhm də edə bilər. Məsələn, başına bir müsibət gəlmiş insan: "İnnə lilləhi va innə ileyhi raciun" desə, özü də bunu qəlbən, Allahın mülk, təqdir və ixtiyar sahibi olduğuna, habelə bütün işlərimizin Ona qayıtdığına, Qiyamət günü Onunla görüşəcəyimizə iman gətirərək deyərsə, sonra da Ummu Sələmənin رضي الله عنها hədisində onun dediklərini, yəni: "Allahım, bu müsibətimə görə mənə savab ver, mənə ondan daha xeyirlisini nəsib et!" deyərsə, buna görə savab əldə edər və bu sözə görə ona rəhm olunar. Yox, əgər "ay dağım, ay-haray, *şaxsey-vaxsey"* kimi sözlər deyərsə, buna görə meyitə əzab verilər. Allah qorusun.

"Ay dağım" tərif kimi bir sözdür, yəni bu meyit bir dağ kimi idi, mənim sığınacağım idi, indi mən onu itirdim.

Bu hədislərin xülasəsi odur ki, təbii olaraq insanın ağlamağında bir qəbahət yoxdur. Ah-nalə çəkmək, şivən qoparmaq, üzə vurmaq, palтarı cırmaq, saç yolmaq və ya onu qırxmaq isə – bütün bunlar haramdır. Bunlar Peyğəmbərin ﷺ uzaq olduğu əməllərdəndir. Müvəffəq edən Allahdır.

Üç yüz üçüncü fəsil

Kahinlərin, münəccim, falçı və rəml atanların *yanına gəlməyin*, daş, arpa və ya buna bənzər şeylərlə fala baxmağın qadağan olması

Mövzu ilə əlaqəli hədislər:

١٦٦٨– عنْ عائِشَةَ ﵂ قَالَتْ: سَأَلَ رسُولَ اللَّه ﷺ أُنَاسٌ عنِ الْكُهَّانِ، فَقَالَ: « لَيْسُوا بِشَيءٍ » فَقَالُوا: يَا رَسُولَ اللَّه إنَّهُمْ يُحَدِّثُونَنَا أحْيَاناً بشْيءٍ فيكُونُ حقّاً؟ فَقَالَ رَسُول اللَّه ﷺ: « تِلْكَ الْكَلمةُ مِنَ الْحَقِّ يخْطَفُهَا الجِنِّيُّ. فَيَقُرُّهَا في أذُنِ وليِّهِ، فَيخْلِطُونَ معهَا مِائَةَ كِذْبَةٍ ». مُتَّفَقٌ عليْهِ.

وفي روايةٍ للبُخَارِيِّ عنْ عائِشَةَ ﵂ أنَّهَا سَمِعَت رَسُول اللَّه ﷺ يَقُولُ: « إنَّ الملائكَةَ تَنْزِلُ في العَنانِ وهو السَّحابُ فَتَذْكُرُ الأمْرَ قُضِيَ في السَّمَاءِ، فيسْتَرِقُ الشَّيْطَانُ السَّمْع، فَيَسْمعُهُ، فَيُوحِيهِ إلى الْكُهَّانِ، فيكْذِبُونَ معَهَا مائَةَ كَذْبةٍ مِنْ عِنْدِ أنفُسِهِمْ ».

قولُهُ: « فَيَقُرُّهَا » هو بفتح الياء، وضم القاف والراءِ: أي: يُلقِيهَا. « والْعنَانُ » بفتح العين.

1668. Aişə ﵂ rəvayət edir ki, insanlar Peyğəmbərdən ﷺ kahinlər barəsində soruşdular, o da dedi: **"Onlar bir şey deyillər"**. Dedilər: "Ey Allahın elçisi, bəzən onların dedikləri həqiqət olur axı". Rəsulullah ﷺ dedi: **"Bu, cinin haqdan oğurladığı sözlərdir. O həmin sözü dostunun qulağına pıçıldayır, dostu da ona yüz yalan qatır".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Buxaridə keçən hədisdə Aişədən ﵂ rəvayət olunur ki, o, Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Həqiqətən, mələklər buludlara enir və səmada verilmiş əmri zikr edirlər. Şeytan da gizlincə onu dinləyir, sonra da eşitdiklərini kahinlərə xəbər verir. Onlar da həmin xəbərlərə özlərindən yüz yalan əlavə edirlər".**

[Hədisin ərəbcəsindəki] "yuqirruhə" sözünün mənası "çatdırmaq"dır.

---

[1] "Səhih əl-Buxari", 5745; "Səhih Muslim", 4135.

Şərh:

Hafiz ən-Nəvəvi ﵀ "**Kahinlərin, münəccim, falçı və rəml atanların *yanına gəlməyin*, daş, arpa və ya buna bənzər şeylərlə fala baxmağın qadağan olması**" fəslini qeyd edir.

Kahinlər, "kahin" sözünün cəmidir. Kahin gələcəkdə baş verəcək qeybi məsələlərdən xəbər verdiyini iddia edəndir. Misal üçün deyir ki, filan gündə filan hadisə olacaq. Yaxud birisinə deyir ki, filan gündə xoşbəxt olacaqsan və ya filan gündə başına belə bir hadisə gələcək. Yaxud da buna bənzər başqa xəbərlər. Bunlar kahinlərdir.

Kahinlər Adəm övladlarıdır. Onların cinlərdən dostları olur. Cinlərə isə Uca Allah əşyalar üzərində böyük qüdrət, sürət və güc bəxş etmişdir. Uca və böyük Allah səmada hökm verir. Onlar səmaya qalxır, – orada hər birinin öz oturacağı olur, – gizlincə xəbərlərə və mələklərdən eşitdiklərinə qulaq asır, sonra da bəzi xəbərləri oğurlayıb insanlardan olan dostlarına çatdırırlar. Həmin kahin də səmadan eşidilmiş sözə özündən sözlər əlavə edir. Hər zaman doğru danışan Peyğəmbər ﷺ bu xüsusda demişdir: **"Yüz yalan əlavə edir",** yəni eşitdiklərinə əlavələr edirlər. Gec-tez cinin səmadan eşitdiyi xəbər baş verir.

Aişə ﵂ nəql edir ki, Peyğəmbərdən ﷺ kahinlər barəsində soruşanda o dedi: **"Onlar bir şey deyillər"**. Çünki onlar Peyğəmbərin ﷺ zamanında, hələ ona vəhy nazil olmamışdan da öncə var idilər. Cinlər də Uca Allahın buyurduğu kimi: **"Orada otururduq"**, yəni səmadakı "eşitmə yerlərində". Peyğəmbər ﷺ göndərildikdən sonra isə cin oturub xəbərləri dinlədikdə od gəlib onları yandırırdı. Uca Allah buyurur: **"Amma kim indi *onları* dinləmək istəsə, o, pusquda gözləyən yandırıb-yaxan alova rast gələr".**[1]

Peyğəmbərdən ﷺ kahinlər barəsində soruşulduqda o dedi: **"Onlar bir şey deyillər".** Yəni onlara əhəmiyyət verməyin, kəlamlarına da inanmayın ki, sizi narahat etməsinlər. Dedilər: "Ey Allahın elçisi, bəzən onların dedikləri həqiqət olur axı". Peyğəmbər ﷺ də xəbər verir ki, onların dedikləri bir həqiqətə yüz yalan əlavə olunur. Səbəbi də odur ki, insanla dostluq edən cin səmadan xəbər oğurlayır və insanlardan olan dostuna çatdırır. Sonra da deyilənlərdən doğru olanı baş verir, batil olanı isə insanlar sanki olmamış kimi unudurlar.

---

[1] "əl-Cin" surəsi, 9.

Biz gərək kahinləri yalanlayaq və onlara inanmayaq. Kim onların yanına gedib onlardan bir şey soruşar və onlara inanarsa, Muhəmmədə ﷺ nazil olana, yəni Qurana küfr etmiş olar. Onların küfrü Uca Allahın: **«De: "Allahdan başqa göylərdə və yerdə olanların heç biri qeybi bilməz"»**[1] ayəsinə zidd olmalarındadır**.** Əgər onlar qeybdən xəbər verdiklərini iddia edərlərsə, insanlar da onlara inanarlarsa, onların bu təsdiqi Uca Allahın: **«De: "Allahdan başqa göylərdə və yerdə olanların heç biri qeybi bilməz"»** ayəsini yalanlamaq anlamındadır:**.**

Münəccimlərə gəlincə, onlar ulduzlarla bağlı elmi iddia edir və bunu özlərinə peşə edirlər. Ulduzlarla bağlı elm iki qisimdir:

Birinci qisim caizdir və bunda bir qəbahət yoxdur. Bu, ulduzların hərəkət istiqamətləri ilə bağlı elmdir. Bununla fəsillərə və gündüzün uzunluğuna dəlillər gətirilir. Buna ehtiyac vardır və bunda bir problem yoxdur. Çünki insanlar öz ehtiyaclarını ödəyirlər. Ulduzların istiqamətləri elmi də buna aiddir. Misal üçün şimal qütbü, şimal istiqamətində qütb tərəfdə bəlli olan ulduz. Onunla qiblənin istiqamətini və üfüqün cəhətlərini bilmək olur. Uca Allah buyurur: **"*Allah*, yer sizi yırğalamasın deyə onun üstündə möhkəm dağlar, habelə düzgün istiqamət götürəsiniz deyə çaylar və yollar yaratdı. *Yollarda* əlamətlər də *yaratdı*. *İnsanlar getdikləri* istiqaməti ulduzlar vasitəsilə də müəyyənləşdirərlər".**[2]

"Əlamətlər" sözü ilə dağlar nəzərdə tutulur. Yəni onlar qurunun və dənizlərin zülmətlərində yol tapırlar. Əgər göy üzünü buludlar örtməyibsə, onlar yollarını tapa bilirlər. Misal üçün, Qasim məntəqəsində qibləyə yönəlmək istəsən qütbü sağ qulağının arxasına çevir. Bu yolla hər bir məntəqəni bununla müəyyən etmək olur. Beləcə hərəkət elmini insan zaman və məkanı müəyyən etmək üçün öyrənir. Zamanı, yəni misal üçün fəsilləri, qışın və ya yayın daxil olma vaxtını, habelə məkanı, yəni üfüqün cəhətlərini müəyyənləşdirmək üçün öyrənilir.

İkinci qisim haramdır. Bu təsir elmidir. Bu, yer üzərində baş verən hadisələrin ulduzlar təsiri səbəbindən baş verməsini iddia etməkdir. Misal üçün, cahiliyyət dövründə deyirdilər ki, filan ulduza görə yağış yağdı. Bu haramdır və ona etimad etmək olmaz. Çünki yer üzərində baş verənlərin

[1] "ən-Nəml" surəsi, 65.

[2] "ən-Nəhl" surəsi, 15-16.

səmada olanlarla heç bir əlaqəsi yoxdur. Səma ayrıdır. Səmada baş verənlər yerə təsir etmir. Ulduzların da baş verən hadisələrlə əlaqəsi yoxdur.

Bəzi insanlar, Allah qorusun, deyirlər ki, filan adam filan bürcdə doğulduğuna görə xoşbəxt olacaq. Başqa birisi isə filan bürcdə doğulduğuna görə bədbəxt olacaq. Axı bunu kim deyib? Bunu çıxış yeri adlandırırlar. Axı bu nə çıxış yeridir elə, oğlum? Münəccimə inanan kəs də kahinə inanan kəs kimi, haram iş görmüş olur. Müvəffəq edən Allahdır.

١٦٦٩– وعنْ صفيَّةَ بنْتِ أبي عُبيدٍ، عَنْ بَعْضِ أزْواجِ النبيِّ ﷺ و عَنِ النبيِّ ﷺ قَال: « مَنْ أتَى عَرَّافاً فَسأَلَهُ عنْ شَيْءٍ، فَصدَّقَهُ، لَمْ تُقْبلْ لَهُ صلاةٌ أرْبَعِينَ يوْماً» رواهُ مسلم.

1669. Safiyyə bint Əbu Ubeyd رضي الله عنها Peyğəmbərin ﷺ bəzi zövcələrindən nəql etmişdir ki, Peyğəmbər ﷺ demişdir: **"Kim falçının yanına gedər, ondan bir şey soruşub ona inanarsa, qırx gün namazı qəbul olunmaz".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٦٧٠– وعنْ قَبِيصَةَ بن المُخَارِقِ رضي الله عنه قَالَ: سمِعْتُ رسُول الله ﷺ يقُولُ: الْعِيَافَةُ، والطَّيَرَةُ، والطَّرْقُ، مِنَ الجِبْتِ ». رواهُ أبو داود بإسناد حسن .

قال: الطَّرْقُ: هُوَ الزَّجْرُ، أيْ: زجْرُ الطَّيْرِ، وهُوَ أنْ يَتَيمَّنَ أوْ يتَشاءَمَ بِطَيرانِهِ، فَإنْ طَار إلى جهةِ الْيمِينَ تَيَمَّنَ، وَإنْ طَارَ إلى جهةِ الْيَسَارِ تَشَاءَم: قال أبو داود: « وَالْعِيافَةُ »: الخَطُّ.

قال الجَوْهَرِيُّ في « الصِّحاح »: الجِبْتُ كَلِمةٌ تَقَع على الصَّنَم والكَاهِن والسَّاحِرِ ونَحْوِ ذلكَ.

1670. Qabisa ibn əl-Məxariq رضي الله عنه deyir ki, mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Sehr, uğur məqsədi ilə quş uçurmaq, sehr xətləri çəkmək şeytandandır".**

Hədisi Əbu Davud həsən isnadla rəvayət etmişdir.[2]

"Tarq", quş uçurmaqla uğur və ya uğursuzluq təyin etməkdir – əgər quş sağ tərəfə uçarsa uğurlu, sol tərəfə uçarsa uğursuzluq olduğunu iddia etmək.

Əbu Davud demişdir: "iyafə" xətt deməkdir.

---

[1] "Səhih Muslim", 4137.

[2] "Sunən Əbu Davud", 3408.

əl-Cəuhəri "əs-Sihah" əsərində demişdir: "Cibt" sözü bütlərə, kahinə və sehrbaza aid edilir.

١٦٧١– وعنْ ابْنِ عبَّاسٍ ﷺ قَالَ: قَال رَسُولُ اللَّه ﷺ: « من اقْتَبَسَ عِلْماً مِنَ النُّجُومِ، اقْتَبسَ شُعْبَةً مِنَ السِّحْرِ زَادَ ما زَاد » رَوَاهُ أبو داود بإسناد صحيح.

1671. İbn Abbasdan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kim ulduzlardan elm götürərsə, sehrdən bir şey götürmüş olar. Artırdıqda artırar"**.

Hədisi Əbu Davud səhih isnadla nəql etmişdir.[1]

١٦٧٢– وعَنْ معاوِيَةَ بنِ الحَكَم ﷺ قَال: قُلْتُ يا رسُول اللَّه إنَّى حَدِيثٌ عهْدٍ بِجاهِلِيَّةٍ، وقدْ جَاءَ اللَّه تعالى بالإسْلام، وإنَّ مِنَّا رجالاً يأتُونَ الْكُهَّانَ؟ قَال: « فَلا تَأْتِهِم » قُلْتُ: وَمِنَّا رجالٌ يتَطَيَّرُونَ؟ قال: « ذلكَ شَىْءٌ يجِدُونَه في صُدُورِهِمْ، فَلاَ يُصُدُّهُمْ » قُلْتُ: وَمِنَّا رِجَالٌ يَخُطُّونَ؟ قَالَ: « كَانَ نبيٌّ مِنَ الأنْبِيَاءِ يَخُط، فَمَنْ وَافَقَ خَطَّهُ، فَذاكَ » رواه مسلم.

1672. Müaviyə ibn əl-Həkəm ﷺ rəvayət edir ki, mən dedim: "Ey Allahın elçisi, Uca Allah İslamı gətirmiş, mən də İslamı yenicə qəbul etmişəm. Bizdən bəziləri kahinlərin yanına gedirlər". Dedi: **"Onların yanına getmə"**. Mən dedim: "Bəzilərimiz quş uçururlar, o necə?" Dedi: **"Bunu onlar öz qəlblərində hiss edirlər və bu onları yoldan çıxarmır"**. Mən dedim: "Bəzilərimiz də yerə xətt çəkirlər. O necə?" Dedi: **"Peyğəmbərlərdən biri xətt çəkərdi. Bəzilərinin xətti düz çıxardı".**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

Şərh:

Müəllifin ﷺ gətirdiyi bu hədis və rəvayətlər dəlildir ki, insanın kahin yanına gedib onun söylədiklərinə inanması haramdır. Kim falçının yanına gedib onun söylədiklərini təsdiqləyərsə, qırx gün namazı qəbul olmaz. *Diqqət edin, insan* sadəcə kahin və ya falçıdan soruşduğuna inanmaqla Muhəmmədə ﷺ nazil olana qarşı küfr etmiş olur.

[1] "Sunən Əbu Davud", 3406.

[2] "Səhih Muslim", 836.

Ancaq kim kahin yanına onun yalanını ifşa etmək məqsədilə gedərsə, bu olar. Hətta ola bilsin, bu, tərifəlayiq bir əməl də olsun. Necə ki, Peyğəmbər ﷺ İbn Sayyədlə etmişdi. O, sehrbaz və kahin biri idi. Peyğəmbər ﷺ ona dedi: **"Mən səndən nəyi gizlədirəm?"** Yəni nəfsimdə gizlətdiyim nədir? O da: "Dux..." deyir, ancaq sözü tam deyə bilmir. Çünki Peyğəmbər ﷺ fikrində "duxan", yəni tüstü sözünü tutmuşdu. İbn Sayyəd həmin sözü tam deyə bilmir, Peyğəmbər ﷺ də ona deyir ki: **"Alçal, sənin miqdarın artmayacaq".** Yəni sən kahinsən və səndə xeyir yoxdur.

Kahinlik və münəccimliklə bağlı məsələyə quş uçurmaq, yəni quşlardan istifadə etmək də buna aiddir. Cahiliyyət dövründə quş uçurardılar. Əgər quş önə uçsaydı, səfəri davam etdirərdilər. Yox, əgər arxaya uçsaydı, onlar da səfərdən geri dönərdilər. Quş sağa uçsaydı, səfəri sağ istiqamətə davam edər və deyərdilər ki, bu səfər xeyirli və uğurlu olacaq. Quş sola uçsaydı, səfərə davam edər, ancaq həmin səfərin uğursuz olacağını düşünərdilər. Çünki quş sola uçmuşdu. Sol tərəf isə istənilməyən tərəf idi. Bu onların adəti idi. Allaha sığınırıq.

Quşların heç bir təsiri yoxdur. Peyğəmbər ﷺ bütün bunları batil etdi ki, insan Allahdan başqa heç nəyə bağlanmasın. Əmr etdi ki, insan çətinliklə üzləşdikdə istixarə etsin – iki rükət nafilə namaz qılsın və istixarə üçün bəlli olan duanı etsin: "Allahummə inni əstəxirukə bi ilmikə, va əstəqdirukə bi qudratikə, va əs'əlukə min fadlikə-l-azim, fə innəkə təqdiru va lə əqdir, va tə'ləmu va lə a'ləm, va əntə alləmu-l-ğuyubi. Allahummə in kuntə tə'ləmu ənnə həzə-l-əmra xayrun li fi dini va məaşi va aqibəti əmri, acilihi va əəcilihi – fəqdurhu li va yəssirhu li, summə bərik li fihi. Va in kuntə tə'ləmu ənnə həzə-l-əmra şərrun li fi dini va məaşi va aqibəti əmri, acilihi va əəcilihi – fa-s-rifhu anni, va-s-rifni anhu, vaqdur liyə-l-xayra heysu kənə, summə ərdıni bihi" (Allahım, Səndən Öz elminlə mənə kömək etməyi və Öz qüdrətinlə mənə qüdrət verməyi diləyirəm. Səndən Sənin böyük lütfünü diləyirəm. Sənin [hər şeyə] qüdrətin çatır, mənim isə qüdrətim çatmır, Sən [hər şeyi] bilirsən, mən isə bilmirəm. Qeybləri bilən Sənsən. Allahım, bu işin (işin adını çəkir) mənim dinim, yaşayışım və aqibətim üçün – yaxud deyir: dünyam və axirətim üçün – xeyirli olduğunu bilirsənsə, onu mənə nəsib et, asanlaşdır, sonra da onu mənim üçün bərəkətli et. Bu işin mənim dinim, yaşayışım və aqibətim üçün – yaxud deyir: dünyam və axirətim üçün – zərərli olduğunu bilirsənsə, onu məndən,

məni də ondan uzaq et! Harada olsam da mənə xeyir nəsib et, sonra məni ondan razı sal!”[1]

Bu istixarədən sonra Allah ona bir şeyi təqdir etsə, bu onun üçün xeyirli olar – işinə başlayıb Allaha təvəkkül etsin. Ancaq görsə ki, Allah onu həmin işə qarşı həvəsdən salıb, bu heç də o demək deyil ki, həmin iş xeyirli deyil. İnsanlar və quşlar vasitəsilə xeyir ummağa, yaxud buna bənzər başqa əməllərə gəlincə isə bütün bunlarda xeyir yoxdur.

١٦٧٣– وعَنْ أبي مسعُودٍ الْبدرِي ﷺ أنَّ رَسُولَ اللَّهِ ﷺ نَهَى عَنْ ثَمَنِ الْكَلْبِ، ومهْرِ الْبَغِيِّ وحُلْوانِ الْكاهِنِ » متفقٌ عليهِ.

1673. Əbu Məsud əl-Bədridən ﷺ rəvayət olunur ki, “Rəsulullah ﷺ itin qiymətini, fahişənin gəlirini və kahinin pulunu qadağan etmişdir”.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Şərh:

Kahinlərin və münəccimlərin yanına getməyin haram olması fəslindəki başqa bir hədis də budur. Həmin hədisdə deyilir ki, Peyğəmbər ﷺ itin qiymətini, fahişənin gəlirini və kahinin pulunu qadağan etmişdir.

İtin nə olduğu bəllidir. Aşağıdakı üç hal istisna olmaqla insanın it alması, onu bina və ya həyət evində saxlaması icazəli deyil:

1) Əkin iti;

2) Qoyun, keçi və ya dəvə sürüsünü qoruyan it;

3) Ov iti. Çünki öyrədilmiş itin gətirdiyi ov halaldır. Əgər insanın öyrədilmiş iti varsa və onu dovşanı tutmağa göndərərsə, o da onu tutub öldürərsə, həmin dovşanı yemək halaldır.

Çünki uca və böyük Allah buyurur: **“Təmiz nemətlər və Allahın sizə öyrətdiyindən təlim edib əhliləşdirdiyiniz yırtıcı heyvanların ovladıqları sizə halal edildi. Onların sizin üçün tutub gətirdiklərindən yeyin və *ova göndərərkən* onların üzərinə Allahın adını çəkin. Allahdan qorxun! Şübhəsiz ki, Allah tez haqq-hesab çəkəndir”.**[3]

---

[1] “Səhih əl-Buxari”, 1096.

[2] “Səhih əl-Buxari”, 2083; “Səhih Muslim”, 2930.

[3] “əl-Maidə” surəsi, 4.

Bu üç növ iti – əkin, sürü və ov itlərini insan saxlaya bilər. Bunlardan başqa məqsədlə it saxlamaq isə haramdır. İt heyvanlar arasında ən murdarlarından biridir. Çünki onun nəcisi qəlizdir. İt bir qabdan su içdikdə həmin qab bir dəfə torpaqla olmaqla yeddi dəfə yuyulmalıdır. Yaxşı olar ki, torpaqla birinci dəfə yuyulsun. Əgər insanın bir iti olarsa – istər həmin it əkin iti olsun, istər sürünü qoruyan it, istərsə də ov iti – həmin iti satmaq haramdır. Onun pulu da ona haramdır. Ona ehtiyacı qalmadıqda isə onu kiməsə verə bilər, ancaq sata bilməz. Çünki Peyğəmbər ﷺ itin qiymətini qadağan etmişdir.

İkincisi kahinin gəliridir. Kahin gələcəkdə baş verəcək qeyb məsələlərindən xəbər verdiyini iddia edəndir. O deyir ki, filan şey olacaq, filan şey baş verəcək. Bu üstər ümumi olsun, istərsə də xüsusi. Misal üçün bir adama deyir ki, filan gün sənin başına bu hadisə gələcək. Cahiliyyət dövründə kahinlər onların yanına gələn insanlardan çoxlu qazanc əldə edirdilər. Peyğəmbər ﷺ də kahinin əldə etdiyi qazancı qadağan etdi, çünki kahinlik haramdır. Haram olan bir şeydən əldə olunan gəlir də haramdır.

Üçüncüsü fahişənin gəliridir, yəni zinakarın əldə etdiyi qazanc. Allah qorusun. Qadın gedib zina edir. Murdar insanlar onların yanına gələrək onları bir-iki, üç günlük, daha çox və ya az müddətə icarəyə götürürlər. Sonra ona pul verirlər. Bunu da Peyğəmbər ﷺ qadağan etmişdir. Çünki bu haram müqabilində əldə olunan gəlirdir. Allah bir şeyi haram buyurubsa, onun qazancını da haram buyurmuşdur.

Soruşa bilərlər ki, əgər kahin Allaha tövbə etsə, daha öncə insanlardan əldə etdiyi pulları onlara qaytarmalıdırmı?

Deyirik: Xeyr, onlara qaytarmalı deyil. Çünki onlar bunun əvəzini alıblar. Həmin əvəzlə onun pulunun hər ikisi onlara çatmır. Lakin həmin pulu sədəqə verə bilər ki, onlardan təmizlənsin. Əgər beytul-mal varsa, onu beytul-mala da verə bilər.

Bunu ov, əkin və ya sürü qoruyan iti satan adama da deyə bilərik ki, əgər satıb sonradan hidayət olunsa və tövbə etsə, deyirik: Həmin pulu iti alana vermə. Çünki belə olduqda o həm iti, həm də onun pulunu əldə edəcək. Get onu sədəqə ver ki, ondan qurtulasan. Yaxud onu beytul-mala ver.

Fahişənin gəliri barədə də belə deyirik: əgər qadın Allaha tövbə edib əməlindən dönərsə, zinakardan aldığı pulu geri qaytarmır. Onu ya beytul-mala verir, ya da ki, sədəqə verərək xeyirli məqsədlərə istifadə edir.

Üç yüz dördüncü fəsil

Quş uçurmağın qadağan olması

Mövzu ilə əlaqəli hədislər:
Əvvəlki fəsildə də bu mövzuda hədislər var.

١٦٧٤– وعنْ أنَسٍ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّه ﷺ: « لا عَدْوَى ولا طِيَرَةَ ويُعْجِبُنى الفألُ » قالوا: ومَا الْفَألُ؟ قَالَ: « كَلِمةٌ طيِّبَةٌ » متفقٌ عليه.

1674. Ənəsdən ﷺ rəvayət olunan hədisdə Rəsulullah ﷺ demişdir: **"Keçici xəstəlik və quş uçurmaq yoxdur. Fəl isə mənim xoşuma gəlir"**. Soruşdular ki: "Fəl nədir?" Dedi: **"Gözəl söz"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.

١٦٧٥– وعَنْ ابْنِ عُمَرَ ﷺ قَالَ: قَالَ رسُولُ اللَّه ﷺ: لا عَدْوى وَلا طِيَرَةَ، وإنْ كَان الشُّؤمُ في شَيْءٍ، فَفي الدَّارِ، والمَرْأةِ وَالفَرَسِ » متفقٌ عليه.

1675. İbn Ömərdən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Keçici xəstəlik və quş uçurmaq yoxdur. Əgər bir şeydə uğur olsaydı, evdə, qadında və atda olardı".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٦٧٦– وعَنْ بُرَيْدةَ ﷺ أنَّ النبيَّ ﷺ كَانَ لا يتطَيَّرُ. رَواهُ أبُو داود بإسنادٍ صحيحٍ.

1676. Bureydədən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ quş uçurmazdı. Hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.[2]

١٦٧٧– وَعنْ عُرْوَةَ بْنِ عامِرٍ ﷺ قَالَ: ذُكِرتِ الطَّيَرَةُ عِنْد رَسُولِ اللَّه ﷺ فقَالَ: أحْسَنُهَا الْفَألُ، وَلا تَرُدُّ مُسْلِماً، فَإذا رأى أحَدُكُمْ ما يَكْرَه، فَلْيقُلْ: اللَّهُمَّ لا يَأتى بالحَسَناتِ إلاَّ أنتَ، وَلا يَدْفَعُ السَّيِّئاتِ إلاَّ أنْتَ، وَلا حوْلَ وَلا قُوَّةَ إلاَّ بك » حديثٌ صَحيحٌ رَوَاهُ أبو داودُ بإسنادٍ صَحيحٍ .

---

[1] "Səhih əl-Buxari", 5329; "Səhih Muslim", 4128.

[2] "Sunən Əbu Davud", 3419.

1677. Urva ibn Amir ﵁ demişdir: "Bir dəfə Rəsulullahın ﷺ yanında quş uçurmaqdan söhbət açıldı. Peyğəmbər ﷺ dedi: **"Ən yaxşısı fəldir. *Bu* müsəlmana yaraşmaz. Sizlərdən biriniz xoşlamadığı bir şey gördükdə desin: – Allahım, Səndən başqa yaxşılıqlar verən yoxdur, Səndən başqa pisliklərı dəf edən də yoxdur. Səndən başqa güc-qüvvət sahibi yoxdur".**

Hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.[1]

Şərh:

Müəllif ﵀ **"Quş uçurmağın qadağan olması"** fəslini qeyd edir:

Quş uçurma, insanın gördüyü, eşitdiyi zaman və məkanda uğur diləməsidir. Ona görə "quş uçurma" adlanır ki, ərəblər cahiliyyət dövründə quş uçurmaqla uğur axtarırdılar. Beləcə bütün uğur axtarmalara şamil oldu. Bəzi ərəblər quşu uçurardılar. Əgər quş sol tərəfə uçardısa, adam bunu uğursuzluq hesab edərdi. Quş geri qayıdardısa, adam etmək istədiyi işi təxirə salardı. Quş irəli uçardısa, onda görmək istədiyi işi edərdi. Sağ tərəfə uçduqda isə deyərdi ki, bu, yaxşı və mübarək əməldir. Beləcə onlar quş uçuraraq uğur axtarardılar. Hətta göydə uçan quşların, məsələn, qarğa, bayquş və bəzi quşların uçuşundan da uğur umardılar.

Bəzi ərəblər isə zamanda uğur axtarardılar. Onların arasında yayılmışdı ki, qadın şəvval ayında ərə gedərsə, *evlilik* müvəffəq olmur və əri onu sevmir. Bu isə batildir. Peyğəmbər ﷺ möminlərin anası Aişə ﵂ ilə şəvval ayında nikah bağlamış, şəvval ayında da onun yanına daxil olmuşdur. Aişə ﵂ belə deyirdi: "Məndən daha xoşbəxt olanınız kimdir?" Onlar iddia edirdilər ki, qadın bu ayda ərə gedərsə, onun evliliyi müvəffəqiyyətli olmur. Bunun isə heç bir açıqlaması yoxdur.

Bəziləri səfərdə uğur axtarırdı. Onlar, məsələn, cümə axşamı günü səfərə çıxmağı uğursuzluq hesab edirdilər. Deyirdilər ki, cümə axşamı günü səfərə çıxsan nə isə bir hadisə, bəla və ya xəsarət baş verəcək. Bunun da heç bir əsası yoxdur. Çərşənbə, cümə axşamı və çərşənbə axşamı və başqa günlərin hamısı eynidir.

Bəzi insanlar isə səfər ayını uğursuz hesab edir və deyirlər ki, insan bu ayda hər hansı bir əməl edərsə – məsələn, evlənmək, övlad*a qalmaq* və

[1] "Sunən Əbu Davud", 3418.

ya səfərə çıxmaq – bu zaman həmin adam müvəffəq olmur. Bu da batildir. Uğurun və ya uğursuzluğun hər hansı bir ayla əlaqəsi yoxdur.

Bəzi insanlar isə bidətə bidətlə qarşılıq verirlər. Onlar səfər ayına "səfərul-xeyr" deyirlər. Bu da caiz deyildir. Səfər də Muhərrəm, Rabiul-əvvəl və başqa aylar kimidir – onlarda nə uğur, nə də uğursuzluq yoxdur. Bidəti isə bidətlə müalicə etməməliyik. Bəzi adamların Aşura günündə etdikləri kimi etməməliyik. Rafizilər üçün aşura günü hüzn günüdür. Onlar həmin gün özlərini vurur, libaslarını cırır, saçlarını yolur, hətta bəzən özlərini xəncərlə və ya başqa şeylərlə yaralayırlar. Onlara görə həmin gün ölən şəhid sayılır. Bu əsassız fikirlərdən Allaha sığınırıq. Başqa insanlar da vardır ki, rafizilərin hüzn günü hesab etdikləri həmin günü sevinc günü hesab edir, yemək yedirir, övladlarına libas alır, qəlbləri fərəhləndirirlər. Bu da səhvdir və bidətdir. Bidəti isə bidətlə dəf etməzlər. Onu yalnız Sünnə məhv edir. Sünnəyə sarılsan bidət məhv olacaq.

Sonra müəllif ﵀ bu xüsusda hədisləri qeyd edir ki, Peyğəmbər ﷺ quş uçurmaqla uğur əldə etməyi *düşünməyi* qadağan etmişdir. Onun belə dediyi sabitdir ki: **"Keçici xəstəlik və quş uçurmaq yoxdur. Fəl isə mənim xoşuma gəlir"**. Ondan soruşdular ki: "Fəl nədir?" Dedi: **"Gözəl söz"**.

Şəkk yoxdur ki, gözəl söz insan qəlbində sevinc yaradır. Buna misal Peyğəmbərin ﷺ Hudeybiyyə sülhü müddətində qureyşlilərlə yazışmasıdır. Sonda onun yanına Suheyl ibn Amrı göndərdilər. O, gəlib çatdıqda Peyğəmbər ﷺ dedi: **"Bu da Səhl ibn Amr, görürəm artıq sizin işiniz səhl oldu (asanlaşdı)"**, yaxud da buna bənzər bir söz dedi. Beləcə o, adla gözəl söz dedi. Bu cür uğur ummaq xeyirlidir və insan qəlbinə rahatlıq gətirir. Uğursuzluq isə bunun əksidir. Hər hansı bir uğursuzluqla üzləşdikdə ondan üz çevir və de: "Allahım, Sənin verdiyin xeyirdən başqa xeyir yoxdur, Sənin yaratdığın uğurdan başqa uğur yoxdur və Səndən başqa haqq ilah yoxdur". Yəni, hər şey Sənin əlindədir və Səndən başqa ibadətə layiq məbud yoxdur.

Peyğəmbərin ﷺ: **"Əgər bir şeydə uğur olsaydı, evdə, qadında və atda olardı"** sözünə gəlincə, bunun mənası odur ki, bu üç şey ən çox insanla birlikdə olur: həyat yoldaşı, ev və minik heyvanı. Bu üç şeydə bəzən uğursuzluq olur. Bəzən insan bir qadını bəyənir, onunla evlənir, lakin bundan sonra ondan yalnız problem və yorğunluq görür – qəlbi genişlənmir, əksinə sıxılır və ondan bezir.

At da (minik də) belədir. Günümüzdə bizim miniyimiz at deyil, maşınlardır. Bəzi maşınlarda uğursuzluq olur və çoxlu qəza törədir, xarab olur, bu da insanı bezdirir. İnsan belə bir şeylə üzləşdikdə məlun şeytandan Allaha sığınsın və desin: "Allahım, Sənin verdiyin xeyirdən başqa xeyir yoxdur, Sənin yaratdığın uğurdan başqa uğur yoxdur və Səndən başqa haqq ilah yoxdur". Beləcə Allah onun nəfsində olan uğursuzluğu aradan qaldırar. Müvəffəq edən Allahdır.

Üç yüz beşinci fəsil

Daş-divarın, libasın, dinar-dirhəmin, yastıq-yatağın və başqa əşyaların üzərində heyvan şəkli çəkməyin haramlığı, habelə divar, örtük, əmmamə, libas və ya başqa şeyin üzərinə şəkil asmağın haramlığı və şəkillərin məhv edilməsinə əmr

Mövzu ilə əlaqəli hədislər:

١٦٧٨– عَن ابْنِ عُمَرَ ﵄ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: « إِنَّ الَّذِين يَصْنَعونَ هذِهِ الصُّورَ يُعَذَّبُونَ يَوْمَ الْقِيَامَةِ، يُقَالُ لهُمْ: أَحْيُوا مَا خَلَقْتُمْ » متفقٌ عليه.

1678. İbn Ömərdən ﵄ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Şübhəsiz ki, bu şəkilləri çəkənlərə Qiyamət günü əzab veriləcəkdir. Onlara deyiləcək: – Yaratdıqlarınızı dirildin!"**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٦٧٩– وعَنْ عَائِشَةَ ﵂ قَالَتْ: قَدِمَ رَسُولُ اللَّهِ ﷺ مِنْ سَفَرٍ وَقَدْ سَتَرْتُ سَهْوَةً لي بِقِرَامٍ فيهِ تماثيلُ، فَلَمَّا رَآهُ رسُولُ اللَّه ﷺ تَلوَّنَ وجْهُه وقَالَ: « يا عَائِشَةُ أشدُّ الناسِ عَذاباً عِنْدَ اللَّه يَوْم الْقِيامةِ الَّذِينَ يُضَاهُون بخَلْقِ اللَّه »، قَالَتْ: فَقَطَعْنَاهُ، فَجَعَلنا مِنْهُ وِسادةً أوْ وِسادَتَيْن. متفقٌ عليه.

« القِرَامُ » بكسْرِ القَافِ، هُوَ: السِّتْرُ. « وَالسَّهْوةُ » بِفَتْحِ السِّين المُهْمَلَةِ وَهِيَ: الصُّفَّةُ تكون بَيْنَ يَدي الْبيْتِ، وقَيلَ: هِيَ الطَّاقُ النَّافِذُ فِي الحَائِطِ.

1679. Aişə ﵂ rəvayət edir ki, "Peyğəmbərin ﷺ bir səfərdən qayıtdığı zaman mən evdəki oturacağı üzərində şəkillər olan örtüklə örtmüşdüm. Peyğəmbər ﷺ onu görüncə üzünün rəngi dəyişdi və dedi: **"Ey Aişə, Qiyamət günü ən şiddətli əzaba məruz qalanlar Allahın məxluqlarının şəkillərini çəkənlərdir".** Aişə deyir ki, biz də onu kəsib bir-iki yastıq düzəltdik".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

---

[1] "Səhih əl-Buxari", 5495; "Səhih Muslim", 3942.

[2] "Səhih əl-Buxari", 5498; "Səhih Muslim", 3937.

[Hədisin ərəbcəsindəki] "əl-qiram" sözü "örtük", "əs-səhva" isə "evdə olan oturacaq"dır. Deyirlər ki, bu, divarda olan çıxıntıya da deyilir.

١٦٨٠– وَعَن ابْنِ عَبَّاسٍ ﵄ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّه ﷺ يَقُولُ: « كُلُّ مُصَوِّرٍ فِي النَّارِ يُجْعَلُ لَهُ بِكُلِّ صُورَةٍ صَوَّرَهَا نَفْسٌ فَيُعَذِّبُهُ فِي جهَنَّم » قَالَ ابْنُ عَبَّاسٍ: فَإِنْ كُنْتَ لا بُدَّ فَاعِلاً، فَاصْنَعِ الشَّجَرَ وَما لا رُوح فِيهِ. متفقٌ عليه.

1680. İbn Abbas ﵄ rəvayət edir ki, "Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Bütün şəkil çəkənlər Cəhənnəmlikdirlər. Çəkdikləri hər bir şəkil canlandırılaraq sahibinə Cəhənnəmdə əzab verəcək".**

İbn Abbas dedi: "Əgər şəkil çəkmək istəyirsənsə, ağac və ya cansız bir şey çək".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Müəllif ﵀ heyvan şəkli çəkmək və şəkil çəkənlərə veriləcək əzab barədə varid olanlar fəslini qeyd edir və İbn Ömər ﵄, Aişə ﵂ və İbn Abbasdan nəql olunan hədisləri dəlil gətirir.

Şəkil çəkmək bir neçə qismə bölünür:

Birincisi, haramlığına ittifaq edilmiş növ. Bu da ruhu olan bir şeyin daş, taxta, gil, gips və ya başqa bir şeydən heykəlini düzəltməkdir. Əgər kimsə bunlardan heyvan, insan, şir, dovşan, meymun və ya başqa bir şey düzəldərsə, bu yekdilliklə haramdır. Bunu edən Peyğəmbərin ﷺ dili ilə lənətlənmişdir və Qiyamət günü ona əzab veriləcək və deyiləcək: "Yaratdığını dirilt!"

İbn Abbasdan ﵄ nəql olunan hədisdə o demişdir: "Bütün şəkil çəkənlər Cəhənnəmlikdirlər. Əgər şəkil çəkmək istəyirsənsə, ağac və ya cansız bir şey çək".

İkinci qisim ruhu olmayanları – ağacları, günəşi, ayı, ulduzları, çayları, dağları və ya buna bənzər şeyləri çəkməkdir. Bunları çəkmək icazəlidir. Lakin bəzi alimlər böyüyən bitkiləri də çəkməyi qadağan etmişlər. Onlardan məşhur tabiin Mücahidi göstərmək olar. O demişdir: "Böyüyən bir şey cansız olsa belə, onun şəklini çəkmək olmaz. Çünki səhih hədisdə

[1] "Səhih əl-Buxari", 2073; "Səhih Muslim", 3945.

deyilir: "Qoy bir dən, zərrə, arpa dənəsi yaratsınlar".[1] Əksər alimlərin rəyinə əsasən isə istər ağaclar kimi böyüyən olsun, istərsə də günəş, ay, dəniz, çaylar və ya buna bənzər böyüməyən olsun, cansız bir şeyin şəkilini çəkmək olar.

Üçüncü qismə, yəni ruhu olan bir şeyin rəsmini rəngləməklə çəkməyə gəlincə isə bu xüsusda alimlər ixtilaf etmişlər. Onlardan bəziləri demişlər ki, bu caizdir. Belə ki, zənnimcə Buxari Zeyd ibn Xaliddən onun belə dediyini rəvayət etmişdir: "Yalnız libasdakı naxışlar istisnadır".[2] Burada naxış istisna olunur. Çünki naxış izzət və cəlal sahibi Allahın yaratdığı toxunulan cisimlərə bənzəmir. Bu sadəcə əllə çəkilən naxışlardır. Əksər alimlərə görə isə bu caiz deyildir. Doğru olan rəy də budur ki, ruhu olan şeylərin nə şəklini, nə də ki, siluetini çəkmək olmaz.

Günümüzdə olanlardan Peyğəmbərin ﷺ zamanında olmayanı da var ki, bu da fotoşəkillərdir. Yaxşı, bəs bu qadağa onlara da şamil olunur, ya yox?

Dəlilə nəzər saldıqda görürsən ki, bu qadağa ona şamil olmur. Fotoşəkil çəkənlər əslində rəsm çəkmiş olmurlar. Sadəcə müəyyən cismin üzərinə güclü işıq salınmaqla onun şəkli anında əks etdirilir. Şəkil çəkən isə gərək şəkili düzəltsin, ona göz, baş, qulaq, burun və başqa üzvlər çəksin və beləcə iş görmüş olsun. Fotoşəkillər isə anında çəkilir. Sanki onlar Allahın yaratdığını əks etdirir və karton üzərinə çıxarılır. Bu rəy daha məqsədəuyğundur.

Müasir alimlər bu xüsusda da ixtilaf ediblər ki, bu – *fotoşəkil* lənət və qadağaya daxil olur, yoxsa yox? Səhih olan odur ki, daxil deyil. Çünki *zamanımızda* bundan qaçmaq qeyri-mümkündür. Əgər birisi həqiqətən də şəkil çəkmək istəsəydi, bu onun 15 dəqiqə və ya daha çox vaxtını aparardı. Bu isə bir anda baş verir.

Buna bənzər digər bir misal. Adam qardaşına məktub yazarsa, sonra da məktubun surətini çıxararsa, bu surətçıxaran hərfləri və sözləri əl ilə yazılan məktubu yazandırmı? Xeyr, sadəcə güclü bir işıq vasitəsilə məktubun surəti çıxarılıb. İnsanlardan da heç kim demir ki, surətdən çıxarılan (ikinci nüsxə olan) məktub əl ilə yazılmışdır. Bunu hətta kor olan birisi də

[1] "Səhih əl-Buxari", 7004; "Səhih Muslim", 3947.

[2] "Səhih əl-Buxari", 5501; "Səhih Muslim", 3931.

edə bilər. Dəlil barədə düşünən kəs oradakı hikməti də anlayacaqdır ki, rəssamın işində məqsəd Allahın məxluqlarının böyüdülməsi, Xaliq kimi ona surət verilməsidir. Lənət və qadağa məhz buna aiddir. Digəri isə sadəcə foto çəkməkdir.

Lakin hər bir halda həmin fotonun nə məqsədlə çəkilməsinə də baxılmalıdır. Əgər anlasaq ki, bu mübahdır və bu şəkil çəkmək sayılmır, ona digər mübahlar kimi baxılmalıdır ki, şəkil hansı məqsədlə çəkilib. Çünki mübahın hökmü məqsədinə görə dəyişir. Məsələn, insan Ramazan ayında iftar etmək məqsədilə səfərə çıxmaq istəyirsə, deyirik ki, bu əməl haramdır. Baxmayaraq ki, səfərə çıxmaq əslən halaldır. Yaxud insan avtomat alıb onunla müsəlman öldürmək və ya təcavüz etmək istəyirsə, deyirik ki, bu alış-veriş haramdır. Baxmayaraq ki, alış-veriş əslən halaldır.

Fotoya da baxılmalıdır ki, o hansı məqsədlə çəkilib. Ola bilsin, şəkil pis məqsədlə çəkilib. Məsələn, birisi əri olmayan qadına baxaraq ondan həzz almaq məqsədilə onun şəklini çəkib, sonra da o vaxtaşırı şəkili çantasından çıxarır, ona baxaraq həzz alır. Bu haramdır. Yaxud göyçək bir oğlan uşağının şəklini çəkir ki, zaman-zaman ona baxmaqla həzz alsın. Bu da haramdır. Və ya böyük padşahların və alimlərin şəklini çəkir ki, onlara təzim etsin, şəkillərini evindən asıb onları əzəmətləşdirsin. Bu haramdır. Yaxud Allaha ibadət edən kəslərin şəkillərini evdə asır ki, ondan bərəkət umsun. Bu da caiz deyil və haramdır. Xatirə üçün şəkil çəkdirmək də haramdır və caiz deyildir. Çünki bu, vaxt itkisidir. Bir müddət sonra şəkildəkiləri xatırlamağın sənə nə faydası var axı?

Yaxud da birisinin əzizi ölür, o da onun şəxsiyyət vəsiqəsində şəkili olduğu üçün həmin vəsiqəni özündə saxlayır. Bu caiz deyil. Çünki ona (vəsiqəyə) ehtiyac bitmişdir. Ölmüş əzizinin şəkillərini saxlama ki, həmin adamı xatırlamaqla kədərini yeniləməyəsən. Ola bilsin ki, onun barəsində batil etiqad da edərsən. Yalnız dövlətin verdiyi pensiyanı almaqdan və ya buna bənzər başqa bir səbəbdən ona ehtiyac duyularsa, o zaman həmin vəsiqəni saxlamaq olar. Bu zaman o üzrlü sayılır. Səbəb olmadıqda isə onu yandırmaq (məhv etmək) vacibdir.

Fotoşəkil çəkməkdən məqsəd hər hansı bir hadisəni sübut etməkdirsə, bunda bir qəbahət yoxdur. Məsələn, bir işçi qrupu gördükləri işi sübuta yetirmək üçün şəkil çəkdirirlər. Onların şəkil çəkdirmələri olar. Çünki bu doğru məqsədlər üçün çəkilmişdir.

Yaxud insan çəkdiyi şəkilləri insanlara göstərmək istəyir ki, onlar mallarından xərcləsinlər. Məsələn, ac-yalavac, paltarsız insanların şəklini çəkib göstərir ki, insanlar onlara qarşı mərhəmət sərgiləsinlər. Bu da doğru məqsəd hesab olunur.

Uzun sözün qısası, əl ilə rəsm çəkərək rəngləmək səhih rəyə görə haramdır. Fotoaparatla şəkil çəkmək isə *əl ilə* şəkil çəkmək sayılmır ki, haram olduğunu deyək. Gərək ilk öncə dəlili anlamağa çalışaq, sonra da dəlildən çıxan hökmü bilək. Düşündükdə görürük ki, bu şəkil çəkmək sayılmır və qadağa və lənət ona şamil olunmur. Sadəcə mübah *rəy* qalır. Sonra hansı məqsədlə çəkilməsinə baxılır. Əgər mübah məqsədlə çəkilibsə, mübahdır (icazəlidir), haram məqsədlə çəkilibsə, haramdır. Müvəffəq edən Allahdır.

١٦٨١– وَعَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّه ﷺ يَقُولُ:« مَنْ صَوَّرَ صُورة في الدُّنْيَا، كُلِّفَ أنْ يَنْفُخَ فيها الرُّوحَ يَوْمَ الْقِيَامَةِ وَلَيْسَ بِنَافخٍ » متفقٌ عليه.

1681. Yenə İbn Abbas رضي الله عنهما rəvayət edir ki, mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Kim dünyada şəkil çəkərsə, Qiyamət günü ona ruh verməyə mükəlləf edilər. O isə bunu edə bilməyəcək"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٦٨٢– وعَن ابن مَسْعُودٍ رضي الله عنه قَالَ: سَمِعْتُ رَسُولَ اللَّه ﷺ يَقُولُ: « إنَّ أشَدَّ النَّاسِ عَذَاباً يَوْمَ الْقِيَامَةِ الْمُصَوِّرُونَ » متفقٌ عليه.

1682. İbn Məsuddan رضي الله عنه rəvayət olunur ki, "Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Qiyamət günü ən şiddətli əzab olunanlar şəkil çəkənlər olacaqdır".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١٦٨٣– وَعَنْ أبي هُرَيْرَة رضي الله عنه قَالَ: سَمِعْتُ رَسُولَ اللَّه ﷺ يَقُولُ: « قَالَ اللَّه تَعَالى: ومَنْ أظْلَمُ مِمَّنْ ذهَب يَخْلُقُ كَخَلْقِي، فَلْيَخْلُقُوا ذَرَّةً أوْ لِيَخْلُقُوا حَبَّةً، أوْ لِيَخْلُقُوا شَعِيرَةً » متفقٌ عليه.

[1] "Səhih əl-Buxari", 5506; "Səhih Muslim", 3946.

[2] "Səhih əl-Buxari", 5494; "Səhih Muslim", 3943.

1683. Əbu Hureyradan ﷺ rəvayət olunur ki, "Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: «**"Uca Allah buyurur: – Mənim yaratdığımın bənzərini yaradandan daha zalım kim ola bilər? Qoy onlar bir zərrə, bir dən, bir arpa dənəsi yaratsınlar"**».

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٦٨٤– وَعَنْ أبي طَلْحَةَ ﷺ أنَّ رَسُولَ اللَّهِ ﷺ قَال: « لا تَدْخُلُ المَلائِكَةُ بَيْتاً فِيهِ كَلْبٌ وَلا صُورَةٌ » متفقٌ عليه.

1684. Əbu Talhədən ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"İçərisində it və şəkil olan evə mələklər daxil olmur"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١٦٨٥– وعن ابن عُمرَ ﷺ قالَ: وَعَدَ رَسُولَ اللَّهِ ﷺ جِبْرِيلُ أنْ يأتِيَهُ، فَرَاثَ عَلَيْهِ حتَّى اشْتَدَّ عَلى رَسُول الله ﷺ، فَخَرَجَ فَلَقِيهُ جبْرِيلٌ فَشَكَا إلَيْهِ. فقَالَ: إنَّا لا نَدْخُلُ بيْتاً فيهِ كَلْبٌ وَلا صُورَةٌ. رواه البخاري.

« رَاثَ »: أبْطأَ، وهو بالثاءِ المثلثةِ.

1685. Rəvayət olunur ki, İbn Ömər ﷺ demişdir: «Peyğəmbər ﷺ Cəbrailə vədə verdi ki, yanına gəlsin. Cəbrail gecikdi, bu da Peyğəmbərə ağır gəldi. Çıxdıqda Cəbraillə rastlaşdı, o da ona şikayət edib dedi: "Biz içərisində it və ya şəkil olan evə daxil olmuruq"».

Bu hədisi Buxari rəvayət etmişdir.[3]

١٦٨٦– وَعَنْ عَائِشَةَ ﷺ قَالَتْ: وَاعَدَ رَسُولَ اللَّه ﷺ جبْرِيلُ عَلَيْهِ السَّلامُ في سَاعَةٍ أنْ يأتِيَهُ، فَجَاءَتْ تِلْكَ السَّاعةُ ولم يأتِهِ، قَالَتْ: وَكَانَ بيَدِهِ عصاً، فَطَرَحَهَا مِنْ يَدِهِ وَهُوَ يَقُولُ: « مَا يُخْلِفُ اللَّه وَعَدَهُ وَلا رُسُلُهُ » ثُمَّ الْتَفَتَ، فَإذا جِرْوُ كَلْبٍ تحْتَ سَرِيره. فَقالَ: « مَتَى دَخَلَ هذا الْكَلْبُ؟ » فَقُلْتُ: وَاللَّه مَا دَرَيْتُ بِهِ، فأمر به فَأُخْرِجَ، فَجَاءَهُ جبْرِيلُ عَلَيْهِ السَّلامُ: فَقَال

[1] "Səhih əl-Buxari", 7004; "Səhih Muslim", 3075.
[2] "Səhih əl-Buxari", 3075; "Səhih Muslim", 3929.
[3] "Səhih əl-Buxari", 5503.

رَسُولُ اللَّه ﷺ: « وَعَدْتَنى، فَجَلَسْتُ لكَ ولَم تَأتِنى» فقالَ: مَنَعنى الْكَلْبُ الذى كَانَ فِي بيْتِكَ و إنَّا لا نَدْخُلُ بَيْتًا فِيهِ كَلْبٌ وَلا صورَةٌ » رواه مسلم.

1686. Rəvayət olunur ki, Aişə رضي الله عنها demişdir: "Peyğəmbər ﷺ Cəbrailin müəyyən saatda gəlməsi barədə vədələşdi. Vaxt yetişdi, ancaq Cəbrail gəlmədi. Aişə deyir ki, Peyğəmbər ﷺ əlindəki əsanı yerə atıb dedi: **"Allah və rəsulları vədlərinə xilaf çıxmaz".** Çevriləndə çarpayısının altında küçük bir it görüb dedi: **"Bu it bura nə vaxt daxil olub?"** Mən də and içdim ki, heç xəbərim olmayıb. O əmr etdi və iti çıxardılar. Bundan sonra Cəbrail onun yanına gəldi. Rəsulullah ﷺ dedi: **"Mənə vəd verdin, mən gözlədim, ancaq sən gəlmədin"**. Dedi: "Sənin evindəki it mənə mane oldu. Biz içərisində it və şəkil olan evə daxil olmuruq"».

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٦٨٧– وعَنْ حَيَّانَ بنِ حُصَينٍ قَالَ: قال لي عَليُّ بن أبي طَالِبٍ رضي الله عنه: ألا أبعَثُكَ عَلى ما بَعَثَني عَلَيْهِ رَسُولُ اللَّه ﷺ؟ أنْ لا تَدَعَ صُورَةً إلاَّ طَمسْتَهَا، ولا قَبْرِاً مُشْرِفاً إلاَّ سَوَّيْتَهُ. رواه مسْلِمٌ.

1687. Həyyan ibn Husayndan rəvayət olunur ki, o demişdir: «Əli ibn Əbu Talib رضي الله عنه mənə dedi: "Rəsulullahın ﷺ mənə buyurduğunu mən də sənə buyurummu? – Gördüyün hər bir şəkili cır, *üstü* tikilmiş hər bir qəbiri *yerlə* bərabər et"».

Bu hədisi Musim rəvayət etmişdir.[2]

Şərh:

Müəllifin رحمه الله qeyd etdiyi bu hədislərin hamısı şəkil çəkməyin böyük günahlardan olmasına dəlildir. Çünki bu xüsusda şiddətli əzab və lənət vəd olunmuşdur: **"Allah şəkil çəkənlərə lənət eləsin".**[3] Lənət isə Allahın rəhmətindən qovulmaq və uzaqlaşmaqdır.

Qiyamət günü şəkil çəkənlər həm də şəkillərə ruh verməyə mükəlləf olunacaqlar, lakin bunu bacarmayacaqlar. Onların ruh vermələri qeyri-

[1] "Səhih Muslim", 3927.

[2] "Səhih Muslim", 1609.

[3] "Səhih əl-Buxari", 4928.

mümkün olduğu üçün əzab da onların üzərindən götürülməyəcəkdir. Yalnız Allahın istəməsi istisnadır.

Şəkil çəkənlər həm də zalımların zalımlarıdırlar. Uca Allah buyurur: "Mənim yaratdığımın bənzərini yaradandan daha zalım kim ola bilər?" Yəni bundan daha zalımı yoxdur. "Qoy onlar bir zərrə, bir dən, bir arpa dənəsi yaratsınlar". Yəni əgər doğru deyirlərsə və Allahın yaratdıqlarının bənzərini yaratmaq istəyirlərsə, qoy yemək üçün dən, un yaratsınlar. Yer üzərində olanların hamısı, hətta göydə olanlar belə bir yerə toplansalar, bir ədəd arpa dənəsini yarada bilməzlər. Onlar hətta xəmirdən arpa dənəsinə bənzər bir şey düzəltsələr belə, o bitməz. Çünki o arpa deyil. Əgər insan kiçikliyə misal olan bircə dən, arpa və ya zərrə dənəsini yaratmaqda acizdirsə, bəs böyük şeyləri yarada bilməsi haqqında nə demək olar.

Bu da dəlildir ki, şəkil çəkmək haramdır. Şəkilləri çəkib onları evlərə daxil etmək də haramdır. Mələklər عليهم السلام içərisində şəkil və it olan evə daxil olmurlar. Mələklərin daxil olmadığı ev barəsində nə düşünürsən? Təbii ki, o pis evdir.

Zərurətdən dolayı istisna olan şəkillər dinar və dirhəmin üzərində olan şəkillərdir. Belə ki, pulun üzərində padşahların və rəhbərlərin şəkilləri olur. Bu zaman *yalnız* bu şəkili qoyanlar məsuliyyət daşıyırlar. Ümumi insanlar isə məsuliyyət daşımırlar – Allah insanı taqəti çatmayan bir işlə yükləməz.

Evdə üzəri şəkilli dirhəmlərin olması mələklərin inşəAllah həmin evə daxil olmasına əngəl olmur. Əvvəlki pullarda şəkillər indikindən daha böyük olurdu. Bu günkü şəkillər sadəcə şəkildir. Öncə də qeyd etmişdik ki, əzabın bu cür şəkillərə aid olub-olmaması barəsində alimlər ixtilaf ediblər. Əvvəllər şəkillər oyma üsulu ilə yaradılırdı və alimlər də bunu qadağan etməmişdilər. Çünki bu bir zərurətdir və insanlar bundan uzaqlaşa bilməzlər, yəni insanlar öz dirhəmlərini çölə ata bilməzlər. Şəxsiyyət vəsiqəsi, pasportlar və pul qabları da, bir sözlə, zərurət hesab olunan hər bir şey də buna aiddir: **"Allah insana taqəti çatmadığı bir işi yükləməz".**[1]

Allah dində bizlərə çətinlik yaratmamışdır. Əlqərəz, bunlar mələklərin evə daxil olmasına bir maneə deyil.

[1] "əl-Bəqərə" surəsi, 286.

Üçüncü: Ehtiram olunmayan və ayaq altında olan şeylər, məsələn, xalça üzərində olan şəkillər də mələklərin evə daxil olmasına maneə deyil. Çünki elm əhlinin çoxu bunu mübah sayır. Lakin ixtilaflı məsələ olduğu üçün bundan uzaqlaşmaq daha yaxşıdır. Bəzi alimlər demişlər ki, bunlara hörmət qoyulmasa da onlar haram hökmünə daxildir. Bir çox alimlər isə deyirlər ki, daxil deyil.

Dördüncü: Uşaqların oynadıqları şəkilli oyuncaqlara də rüxsət verilir. Bu cür şəkillər (şəkilli oyuncaqlar), onların olduğu evlərə mələklərin daxil olmasına maneə deyil. Belə ki, Aişənin evində bir şəkilli oyuncağı var idi və o, Peyğəmbərin ﷺ evində onunla oynayardı. Peyğəmbər ﷺ isə ona bunu qadağan etməmişdi.

Şəkilli (cizgili) plastik oyuncaqlar isə gərək istifadə olunmasın. Çünki bunlar tam surətlərdir və onlarda göz cizgiləri olur. Hətta həmin gözlərə qapaqlar belə qoyulur və onlar açılıb-bağlanır. Bəziləri addımlayır, digərləri də səslər çıxarır. Bu da ola bilsin ki, mələklərin daxil olmadığı evlər barədə olan qadağaya şamil olunsun.

Son dövrlər istifadə olunmağa başlayan şəkillərə gəlincə, Allaha həmd olsun bunlar sanki kölgəyə bənzəyir. Onların ağzı, burnu və gözləri olmur. Sadəcə əlləri, ayaqları və başları olur. Bunda inşəAllah bir qəbahət yoxdur. Belə şəkillər mələklərin evə daxil olmalarına mane olmur. Uşaqların şəkilləri başqalarından fərqlənir.

İçərisində şəkillər olan qəzetləri (və ya jurnalları) isə əgər şəkillərinə görə almısansa, bu haramdır. Yox, əgər yazılarına görə almısansa, olar.

Haram şəkil görən kəs gərək onu cırsın. Çünki Əli رضي الله عنه Əbul-Həyyac əl-Əsədiyə belə demişdir: "Rəsulullahın ﷺ mənə buyurduğunu mən də sənə buyurummu? – Gördüyün hər bir şəkili cır, *üstü* tikilmiş hər bir qəbiri *yerlə* bərabər et". Burada "tikilmiş qəbir" deyildikdə başqalarından fərqlənən qəbirlər nəzərdə tutulur. Bu istər qəbirin hündürlüyünə görə olsun, istərsə də üzərindəkilərinin, yəni daşların hündürlüyünə görə olsun.

Bu səbəbdən gərək siz də bəzi insanların etdikləri kimi, qəbirlərin üzərində daşlar qoyub onların üzərində Quran ayələri və ya başqa sözlər yazmaqdan çəkinəsiniz. Bunu etmək icazəli deyil. Çünki bu həmin qəbirləri üzəri tikilmiş qəbirlərə aid edir. Kim belə bir məzar görərsə, gərək onu

qazıb yerlə bir etsin, yazını da aşağı salsın ki, torpaqda itsin. Çünki ola bilsin, gələcəkdə sonrakı nəsillər üzəri tikilmiş məzarlar xüsusunda həddi aşsınlar.

Əslində bütün qəbirlər eyni səviyyədə olmalıdır və onlarda əzəmətliliyə dəlalət edən heç bir şey olmamalıdır. Bütün bəlalar və şirk qəbirlərə təzim olunmaqdan başlayır. Allah bizləri və sizləri qorusun. Şübhəsiz ki, O, hər şeyə Qadirdir.

Üç yüz altıncı fəsil

Ov, sürü və əkin itindən başqa it saxlamağın haramlığı

Mövzu ilə əlaqəli hədislər:

١٦٨٨– عنِ ابْنِ عُمَر رضي الله عنهما: قَالَ سمِعْتُ رسُولَ اللَّه ﷺ يَقُولُ: « من اقْتَنى كَلْباً إلا كَلْب صَيْدٍ أوْ مَاشِيةٍ فإنَّهُ يَنْقُصُ مِنْ أجْرِهِ كُلَّ يوْمٍ قِيراطَانِ » متفقٌ عليه.

وفي روايةٍ: « قِيرَاطٌ ».

1688. İbn Ömər رضي الله عنهما rəvayət edir ki, "Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Kim ov və sürüdən başqa məqsədlə it saxlayarsa, hər gün onun əcrindən iki qirat azalar"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Başqa bir rəvayətdə: "Bir qirat" deyilir.

١٦٨٩– وعَنْ أبي هُرَيْرَةَ رضي الله عنه قَالَ: قَالَ رسُولُ اللَّه ﷺ: « مَنْ أمْسَكَ كَلْباً، فَإنَّهُ ينْقُصُ كُلَّ يَوْمٍ مِنْ عملِهِ قِيرَاطٌ إلاَّ كَلْب حَرْثٍ أوْ مَاشِيَة » متفقٌ عليه.

وفي رواية لمسلم: « مَنِ اقْتَنى كَلْباً لَيْسَ بِكَلْبِ صَيْدٍ، ولا مَاشِيةٍ ولا أرْضٍ فَإنَّهُ يَنْقُصُ مِنْ أجْرِهِ قِيراطَانِ كُلَّ يْومٍ ».

1689. Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ dedi: **"Kim it saxlayarsa, hər gün onun əcrindən bir qirat azalar. Yalnız ov və sürüdə istifadə olunanlardan başqa"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Muslimin rəvayətində isə deyilir: **"Kim ov, əkin və sürü itindən başqa bir it saxlayarsa, hər gün onun əcrindən iki qirat azalar"**.[3]

---

[1] "Səhih əl-Buxari", 5059; "Səhih Muslim", 2941.

[2] "Səhih əl-Buxari", 2154; "Səhih Muslim", 2949.

[3] "Səhih Muslim", 2947.

Şərh:

Müəllif ﵀ **"Ov, sürü və əkin itindən başqa it saxlamağın haramlığı"** fəslini qeyd edir.

İtin nə olduğu məlumdur. O, müxtəlif rənglərdə olur. Yalnız zil qara itlər şeytan olmaları ilə səciyyələnirlər. Peyğəmbərdən ﷺ soruşdular ki, ağ itin, qırmızı və qara itdən fərqi varmı? Dedi: **"Qara it şeytandır"**. Əgər namaz qılanın önündən qara it keçərsə, həmin adam namazı yarımçıq kəsməli və yenidən namaz qılmalıdır.

Əksər alimlərə görə qara itlə ov etmək halal deyildir. Hətta həmin it öyrədilmiş olsa belə, sahibi onu "bismillah" deyib göndərsə belə həmin ov halal olmur. Çünki o, şeytandır. Əgər Adəm övladlarından yəhudi və xaçpərəstlər istisna olmaqla kafir olanların ovu halal deyilsə, bu şeytan itin də gətirdiyi ov halal deyildir. Başqa rənglərdə olan itlərə gəlincə, onların namaz qılanın önündən keçməsi namazı batil etmir, ovları da, alimlərin bildirdikləri müvafiq şərtlərə əsasən halaldır.

İt götürmək və it saxlamaq isə haramdır. Hətta bu ən böyük günahlardandır. Allah qorusun. Çünki istisna hallardan savayı it saxlayan kəsin savabları hər gün iki qirat miqdarında azalır. Peyğəmbər ﷺ demişdir: **"Kim cənazə dəfn olunanadək onu təqib edərsə, ona iki qirat savab yazılar"**. Dedilər: "İki qirat nədir?" Dedi: **"Ən kiçiyi Uhud boyda olan iki böyük dağ qədər"**.[1]

Beləliklə, istisna hallar xaric, it saxlayan hər kəsin savabları hər gün Uhud dağı miqdarında azalır. Bu da dəlildir ki, it saxlamaq böyük günahlardandır. Yalnız ov, əkin və sürü qoruması üçün olan itlər istisnadır.

Birincisi, ov iti insanın ov zamanı istifadə etdiyi öyrədilmiş itdir. Onun gətirdiyi ov da halaldır. Öyrədilmiş iti yolladıqda gedib tələb olunanı gətirir, "dur!" dedikdə durur, "dur!" desə yemək də yemir. Bir də onu "bismilləh" deyib yollayanda, onun ovlayıb gətirdiyi halal olur. Yəni, insan onu ehtiyacından dolayı saxlayır.

İkincisi, əkin iti insanın əkin sahəsini heyvanların daxil olmasından qorumaq üçün saxladığı itdir.

Üçüncüsü isə insanın dəvə, inək və ya qoyun kimi heyvanlarını canavarlar və oğrulardan qoruması üçün saxladığı itdir. Həmin it xoşagəlməz

[1] "Səhih Muslim", 1571.

bir şey gördükdə hürür və sahibinin diqqətini cəlb edir. Yaxud, fərz edək ki, insan malını qorumaq istəyir. O, məsələn, çöllük bir yerdə yaşayır və ətrafında təhlükəsizlik xidməti mövcud deyil. Bu zaman onun it saxlamasında bir problem yoxdur. Çünki o, mal-dövlətini əkini qoruduğu kimi qoruyur. Bundan savayı olan hallar isə haramdır.

İzzət və cəlal sahibi Allahın hikmətindəndir ki, pis qadınlar pis kişilər üçün, pis kişilər də pis qadınlar üçündür. Deyilənə görə, yəhudi və xaçpərəstlər, habelə müxtəlif yerlərdə yaşayan ateistlər və başqa kafirlərin hərəsinin bir iti olur. Allah qorusun. Onunla birlikdə yaşayır, ət aldıqda yaxşı hissəsini ona verir, pisini isə özü yeyir, onu hər gün sabun və digər təmizləyici vasitələrlə yuyur. Halbuki, onu yer üzündəki bütün dənizlərin suyu və yer üzündəki bütün sabunlarla yusa belə, o təmizlənmir. Çünki o nəcis hökmündədir. Nəcis isə yalnız aradan qaldırılmaqla təmizlənə bilər.

Lakin Allahın hikmətindəndir ki, bu murdarlar murdarları sevirlər. Onlar şeytanın vəhyi ilə dostluq edirlər. Belə ki, onların bu küfrləri şeytanın vəhyindən və onun əmrlərindəndir. Şübhəsiz ki, şeytan insanı yalnız murdar işlərə və xoşagəlməz əməllərə, küfrə və zəlalətə sövq edir. Onlar da şeytanın qulları, nəfsi istəklərinin kölələridir. Onlar həm də xəbis insanlardır və xəbis əməlləri sevirlər. Allah bizlərə də, onlara da hidayət versin.

Mühüm olan odur ki, şəri cəhətdən səbəbsiz yerə it saxlamaq böyük günahlardandır. Çünki it bir qabı yalayarsa, həmin qab birincisi torpaqla olmaqla yeddi dəfə yuyulmadıqca təmizlənmir. Başqa nəcis növləri də yalnız aradan qaldırıldıqda həmin yer təmiz olur. Müvəffəq edən Allahdır.

Üç yüz yeddinci fəsil

Dəvəyə və başqa heyvanlara zınqırov bağlamağın bəyənilməməsi, həmçinin it və zınqırovla səfərə çıxmağın məkruhluğu

Mövzu ilə əlaqəli hədislər:

١٦٩٠– عَنْ أبي هُرَيْرَةَ ﵁ قَالَ: قال رسُولُ اللَّه ﷺ: « لا تَصْحَبُ المَلائِكَةُ رُفْقَةً فيهَا كَلْبٌ أوْ جَرَسٌ » رواه مسلم.

1690. Əbu Hureyra ﵁ rəvayət edir ki, Rəsulullah ﷺ belə demişdir: **"Mələklər zınqırov və itləri olan müsafirlərlə birlikdə olmaz"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٦٩١– وعَنْهُ أنَّ النبيّ ﷺ قَال: « الجرسُ من مزَامِير الشَّيْطَانِ » رَوَاهُ مُسْلِمٌ.

1691. Yenə Əbu Hureyradan ﵁ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Zınqırov şeytanın musiqi alətidir".**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

Şərh:

Müəllif ﵀ **"Dəvəyə və başqa heyvanlara zınqırov bağlamağın bəyənilməməsi, həmçinin it və zınqırovla səfərə çıxmağın məkruhluğu"** fəslini qeyd edir və Əbu Hureyradan ﵁ nəql olunmuş hədisi qeyd edir.

Zınqırovun nə olduğu məlumdur. Onu heyvanın boynundan asırlar, heyvan da onun səsindən həzz alır. Bunu Peyğəmbər ﷺ qadağan etmiş və bundan çəkindirmişdir. Bildirmişdir ki, mələklər zınqırovu olan insanlarla birlikdə olmaz. Çünki heyvanlar hərəkət etdikcə həmin zınqırov *müəyyən ritmdə* səslənir və musiqi yaradır. Musiqi isə, məlumdur ki, haramdır.

Daha öncə it saxlamaq barədə danışanda bildirmişdik ki, mələklər it olan evə daxil olmurlar. Yalnız istisna hallarda saxlanılan itlərdən başqa.

---

[1] "Səhih Muslim", 3949.

[2] "Səhih Muslim", 3950.

Onlar da ov, əkin və sürü itləridir. Bunları saxlamaqda bir qəbahət yoxdur. Müəyyən vaxtlarda saatların zəng çalması və buna bənzər əşyalar həmin qadağaya daxil olmur. Çünki onlar heyvanların boynundan asılmır və yalnız müəyyən vaxtlarda zəng çalır.

Qapılarda olan zənglər də buna aiddir. Bəzi qapıların üzərində zənglər olur ki, onlarla içəri daxil olmaq üçün icazə istənilir. Bu icazəlidir və qadağa ona şamil olunmur. Çünki o da heyvanın və ya başqa bir şeyin üzərində asılmamışdır. Həmçinin onun üzərində olan taqqıltı ləvazimatı da Peyğəmbərin ﷺ qadağasına şamil olunmur.

Bəzi telefon növləri vardır ki, xətt məşğul olduqda sənə xəbər verir ki, bir az gözlə, sonra da musiqi verilir. Bu haramdır. Çünki musiqi haram olan əməllərdəndir. Lakin insan başqa yolla istədiyi adama zəng edə bilmirsə, bu zaman problem deyil. Musiqini qoyan günah qazanır. Lakin ona qulaq asanlar telefon sahibinə nəsihət etməlidirlər ki, bu musiqini aradan qaldırsınlar. Həmin adam özü zəng edər.

Telefon zəngi zamanı fasilədə Quran qiraəti qoymağa gəlincə, – yəni zəng zamanı Quran ayəsi eşidilir, sonra deyilir ki, bir az gözləyin, sonra yenə Quran eşidilir, – burada izzət və cəlal sahibi Allahın ayələrinə hörmətsizlik vardır. Sanki bu, gözlətmək üçün bir alətə çevrilir. Quran bundan daha şərəfli işlər üçün nazil edilmişdir. O, qəlblərin və əməllərin islahı üçün nazil olunmuşdur. Telefonda və ya başqa yerdə gözlətmə vasitəsi kimi istifadə olunsun deyə nazil olunmamışdır. Ola bilsin ki, Qurana hörmət etməyən birisi sənə zəng etsin və ona Quranı dinləmək ağır gəlsin. Allah qorusun. Yaxud kafir, yəhudi, nəsrani sənə zəng etsin və Quranı eşidib elə bilsin ki, bu bir mahnıdır. Çünki o bunu bilmir. Bəlkə də ərəb deyil. Şübhəsiz ki, bu Qurana qarşı hörmətsizlikdir. Gözləmə müddətində Quran qoyan adama nəsihət olunmalı, ona deyilməlidir ki, Allahdan qorx! Allahın kitabı gözlətmək üçün istifadə olunmaqdan daha şərəflidir.

Belə gözlətmə vaxtında hikmətli kəlamlar və şeirlər, yaxud da buna bənzər faydalı şeylər qoyarsa, bu icazəlidir. Hikmətli kəlamlar olduqca çoxdur. Aləmlərin Rəbbinin insanların qəlblərini və əməllərini, habelə xalqları islah etmək üçün nazil edilmiş Kəlamını telefonda gözlətmə vasitəsi etmək isə doğru deyil. Quran belə istifadə edilməkdən daha şərəflidir. İnsanları doğru yola yönəldən Allahdır.

Üç yüz səkkizinci fəsil

Cəllaləni minməyin bəyənilməməsi

Cəllalə, zir-zibillə qidalanan dəvəyə deyilir. O təmiz ot-ələf yeməyə başlayarsa, məkruhluq aradan qalxır və onun ətini yemək halal olur.

١٦٩٢– عَنِ ابْنِ عُمَرَ رضي الله عنهما قَالَ: نَهى رسُولُ اللَّه ﷺ عنِ الجَلاَّلَةِ في الإبلِ أنْ يُرْكَب عَلَيْهَا. رواهُ أبو داود بإسناد صحيحٍ.

1692. İbn Ömər رضي الله عنهما deyir ki, Rəsulullah ﷺ dəvələrdən cəllaləni minməyi qadağan etdi.

Hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.[1]

Şərh:

Müəllif رحمه الله **"Cəllaləni minməyin bəyənilməməsi"** fəslini qeyd edir.

Cəllalə, insanların və heyvanların nəcislərini və digər tullantıları yeyən dəvəyə deyilir. Adətən belə bir şeylə qidalanan dəvənin əti və ayağı murdarlanır. Buna görə də Peyğəmbər ﷺ onu minməyi qadağan etmişdir. O onun ətini yeməyi də qadağan etmişdir. Əgər toyuq nəcislə qidalanırsa, o da cəllalə hökmünə düşür – onun da ətini yemək tənzih və ya təhrim dərəcəsində olan məkruhdur. Yox, əgər o həm təmiz, həm də natəmiz şeylər yeyirsə və yediyinin çoxu təmizdirsə, bu zaman o cəllalə hökmündə olmur və o mübah olur. Bəzi toyuq təsərrüfatı ilə məşğul olanların toyuqlara qan yedirtməsi də belədir. Həmin toyuqların qidalarının çoxu təmizdir. Sadəcə azacıq onlara bunu verirlər ki, güclənib inkişaf etsinlər. Bununla da həmin toyuqlar nə haram, nə də ki, məkruh olur. Əgər qidanın çoxu pakdırsa, o zaman çox olana görə hökm verilir.

Cəllalə budur, ona minmək yüngülcə bəyənilmir. Onun ətini yeməyə gəlincə, bu həm təhrim, həm də tənzih dərəcəsində məkruh ola bilər. Alimlər bu xüsusda ixtilaf etmişlər. Qadağaya əsas şərt odur ki, onların yediklərinin çoxu nəcisdən ibarət olsun. Yox, əgər yedikləri pak yeməkdən az olarsa, onun ətini yemək olar. Müvəffəq edən Allahdır.

---

[1] "Sunən Əbu Davud", 2195.

Üç yüz doqquzuncu fəsil

Məscidə tüpürməyin qadağan olunması, *məsciddə ona* rast gəlindikdə onun aradan qaldırılması, məscidi natəmizliklərdən qorumaq

Mövzu ilə əlaqəli hədislər:

١٦٩٣– عَنْ أنسٍ ﵁ أنَّ رَسُولَ اللَّه ﷺ قَال: « البُصَاقُ في المسْجِدِ خَطِيئَةٌ، وَكَفَّارَتُهَا دَفْنُهَا » متفق عليه.

1693. Ənəsdən ﵁ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Məscidə tüpürmək xətadır, onun kəffarəsi isə onu basdırmaqdır".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٦٩٤– وعَنْ عائِشَةَ ﵂ أنَّ رسُولَ اللَّه ﷺ رَأى في جِدَارِ الْقِبْلَةِ مُخَاطاً، أوْ بُزَاقاً، أوْ نُخَامةً، فَحكَّه. متفقٌ عليه.

1694. Aişədən ﵂ rəvayət olunur ki, bir dəfə Rəsulullah ﷺ qiblənin divarında bəlğəm və ya tüpürcək gördü və onu ovub təmizlədi.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١٦٩٥– وعَنْ أنَسٍ ﵁ أنَّ رَسُولَ اللَّه ﷺ قَالَ: « إنَّ هذِهِ المسَاجِدَ لا تَصْلُحُ لِشْيءٍ مِنْ هذا الْبوْلِ ولا القَذَرِ، إنَّمَا هِيَ لِذِكْرِ اللَّه تَعَالى، وقَراءَةِ الْقُرْآنِ » أوْ كَمَا قالَ رسُولُ اللَّه. رواه مسلم.

1695. Ənəsdən ﵁ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Bu məscidlərə sidik ifraz etmək, onları kirləndirmək olmaz. Bunlar Uca Allahı zikr etmək və Quran oxumaq üçündür".** Və ya Peyğəmbərin ﷺ dediyi kimi.

Bu hədisi Muslim rəvayət etmişdir.[3]

---

[1] "Səhih əl-Buxari", 398; "Səhih Muslim", 857.

[2] "Səhih əl-Buxari", 392; "Səhih Muslim", 854.

[3] "Səhih Muslim", 429.

Şərh:

Müəllif ﵀ bu fəsli ona görə qeyd etmişdir ki, məscidləri çirkabdan, tüpürcək, bəlğəm və başqa natəmizliklərdən qorumağın gərəkliyini bəyan etsin. Sonra o Ənəs ﵁ və Aişədən ﵂ nəql edilən hədisləri qeyd edir.

Ənəsin hədisində Rəsulullah ﷺ demişdir: **"Məscidə tüpürmək xətadır, onun kəffarəsi isə onu basdırmaqdır".** Yəni bir insan belə bir iş etmiş olarsa, onu basdırmalıdır. Peyğəmbərin ﷺ: **"Məscidə tüpürmək xətadır"** sözü məscidə tüpürməyin və ya buna bənzər bir iş görməyin haram olmasına dəlildir. Bu iki səbəbə görə səhvdir:

Birinci səbəbi onun namaz qılanlara əziyyət verməsidir. Ola bilsin ki, namaz qılan bilmədən onun üzərinə səcdə etsin, biləndə isə bundan iyrənsin və bununla əziyyət çəkmiş olsun.

İkinci səbəbi onun izzət və cəlal sahibi Allahın məscidlərinə qarşı hörmətsizlik olmasıdır. Uca Allah isə məscidlərə ehtiram göstərilməsini və oralarda Allahın adının uca tutulmasını buyurmuşdur.

İnsanın məscidə tüpürməsi icazəli deyil. Ancaq əgər fərz etsək ki, kimsə bunu etdi, o zaman bunun kəffarəsi yerdə olanının gömülməsi, divarda olanının isə ovulmasıdır. Buna bənzər hədis Aişədən ﵂ nəql olunmuşdur. Həmin hədisdə deyilir ki, Rəsulullah ﷺ qiblənin divarında bəlğəm və ya tüpürcək gördü və onu ovub təmizlədi.

Günümüzdə isə məscidlər xalılarla örtülüdür. Belə şəraitdə onun kəffarəsi onun dəsmalla silinib təmizlənməsidir. Lakin biz əslən deyirik ki, ümumiyyətlə məscidə tüpürmək olmaz. Əgər bu baş verərsə, onun kəffarəsi dediklərimizdir.

Müəllif ﵀ sonda Aişədən ﵂ nəql olunan hədisi qeyd edir ki, Rəsulullah ﷺ qiblənin divarında bəlğəm və ya tüpürcək gördü və onu ovub təmizlədi. Bu da dəlildir ki, insan məsciddə natəmizlik görərsə, onu təmizləməklə aradan qaldırmalıdır.

Ənəsdən ﵁ nəql olunan ikinci hədis məscidə gəlib onun bir tərəfinə bilməyərəkdən sidik ifraz etmiş bədəvi haqqındadır. Çünki əksər hallarda bədəvilər cahil olur. İnsanlar onu danlayırlar. Peyğəmbər ﷺ də onların bu qınamalarını qadağan edir. Həmin bədəvi işini bitirdikdən sonra Peyğəmbər ﷺ səhabələrə onun sidiyinin üstünə bir qab su tökməyi əmr etdi, sonra bədəviyə dedi: **"Bu məscidlərə sidik ifraz etmək, onları**

kirləndirmək olmaz. Bunlar Uca Allahı zikr etmək və Quran oxumaq üçündür". Rəsulullah ﷺ bununla bəyan etdi ki, məscidləri zibilləmək, orada əziyyətverici şeylər etmək olmaz.

Gərək mömin də Allahın evlərinə ehtiram göstərsin, oranı kirləndirməsin, orada səsini qaldırmasın, bir sözlə ədəbli olsun. Çünki məscidlər Allahın evləri və mələklərin olduğu yerdir. Müvəffəq edən Allahdır.

Üç yüz onuncu fəsil

Məsciddə mübahisə etməyin, səs ucaltmağın, heyvan səsləməyin, alqı-satqı etməyin, icarə və başqa işlər görməyin bəyənilməməsi

Mövzu ilə əlaqəli hədislər:

١٦٩٦– عَنْ أبي هُرَيْرَةَ ﵁ أَنَّهُ سَمِعَ رَسُولَ اللَّه ﷺ يقُولُ: مِنْ سمِعَ رَجُلاً ينْشُدُ ضَالَّةً في المسْجِدِ فَلْيَقُلْ: لا رَدهَا اللَّه علَيْكَ، فإنَّ المساجدَ لَمْ تُبْنَ لهذا » رَواهُ مُسْلِم.

1696. Əbu Hureyradan ﵁ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kim eşitsə ki, bir adam məsciddə itirdiyi əşyanı soruşur, ona desin ki: – Allah onu sənə qaytarmasın! Şübhəsiz ki, məscidlər bunun üçün inşa edilməmişdir".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٦٩٧– وَعَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: « إذا رأَيتم مَنْ يَبِيعُ أَو يبتَاعُ في المسجدِ، فَقُولُوا: لا أَرْبَحَ اللَّه تِجَارتَكَ، وَإِذا رأَيْتُمْ مِنْ ينْشُدُ ضَالَّةً فَقُولُوا: لا ردَّهَا اللَّه عَلَيكَ». رواه الترمذي وقال: حديث حسن.

1697. Yenə Əbu Hureyradan ﵁ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kiminsə məsciddə alqı-satqı etdiyini görsəniz, ona: "Allah sənin ticarətinə rahatlıq verməsin!"– deyin. Kiminsə itirdiyi əşyanı soruşduğunu görsəniz, ona: "Allah onu sənə qaytarmasın!"– deyin"**.

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir"– demişdir.[2]

١٦٩٨– وعَنْ بُرَيْدَةَ ﵁ أَنَّ رَجُلاً نَشَدَ في المَسْجِدِ فَقَالَ: منْ دَعَا إِلَيَّ الجَملَ الأَحْمرَ؟ فَقَالَ رَسُولُ اللَّهِ ﷺ « لا وَجَدْتَ إِنَّمَا بُنِيَتِ المَسَاجِدُ لِمَا بُنِيَتْ لَهُ » رواه مسلم.

1698. Bureydədən ﵁ rəvayət olunur ki, bir dəfə bir kişi heyvanı üçün səslənib: "Kim mənim üçün qırmızı dəvəni çağırar?"– dedi, Rəsulullah ﷺ

---

[1] "Səhih Muslim", 880.

[2] "Sunən ət-Tirmizi", 1242.

da dedi: **"Onu heç tapmayasan! Axı bu məscidlər tikildiyi işlər üçün inşa edilmişdir".**[1]

١٦٩٩– وَعَنْ عَمْرو بْنِ شُعَيْبٍ، عَنْ أَبِيهِ، عَنْ جَدِّهِ ﵁ أَنَّ رَسُولَ اللَّهِ ﷺ نَهَى عَنِ الشِّرَاءِ وَالبَيْعِ فِي المسْجِدِ، وَأَنْ تُنْشَدَ فيهِ ضَالَّةٌ، أَوْ يُنْشَدَ فِيهِ شِعْرٌ. رواهُ أَبُو دَاودَ، والتِّرمذي وقال: حَديثٌ حَسَنٌ.

1699. Amr ibn Şueyb atasından, o da babasından ﵁ rəvayət edir ki, Rəsulullah ﷺ məsciddə alış-veriş etməyi, heyvan səsləməyi, habelə şeir deməyi qadağan etmişdir.

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən hədisdir"– demişdir.[2]

١٧٠٠– وَعَنِ السَّائِبِ بْنِ يزيدَ الصَّحَابي ﵁ قالَ: كُنْتُ في المَسْجِدِ فَحَصَبني رَجُلٌ، فَنَظَرْتُ فَإِذَا عُمَرُ بنُ الخَطَّابِ ﵁ فَقَالَ: اذهَبْ فأْتِني بِهَذيْنِ فَجِئْتُهُ بِهِمَا، فَقَالَ: مِنْ أَيْنَ أَنْتُمَا؟ فَقَالا: مِنْ أَهْلِ الطَّائِفِ، فَقَالَ: لَوْ كُنْتُمَا مِنْ أَهْلِ الْبَلَدِ، لأَوْجَعْتُكُمَا، تَرْفَعَانِ أَصْوَاتَكُمَا فِي مسْجِدِ رَسُولِ اللَّهِ ﷺ ؟ رَوَاهُ البُخَارِي.

1700. Rəvayət olunur ki, Səhabə Saib ibn Yezid ﵁ demişdir: "Bir dəfə mən məsciddə ikən bir kişi məni vurdu. Baxıb gördüm ki, Ömər ibn əl-Xəttabdır. Mənə dedi ki, get, bu ikisini mənim yanıma gətir. Mən də onları gətirdim. O dedi: "Siz haradansınız?" Dedilər: "Biz Taif əhliyik". Dedi: "Əgər siz bu şəhərdən olsaydınız, sizi ağrıdardım. Rəsulullahın ﷺ məscidində səsinizi qaldırırsınız?!"

Bu hədisi Buxari rəvayət etmişdir.[3]

Şərh:

Müəllif ﵀ **"Məsciddə mübahisə etməyin, səs ucaltmağın, heyvan səsləməyin, alqı-satqı etməyin, icarə və başqa işlər görməyin bəyənilməməsi"** fəslini qeyd etmişdir.

---

[1] "Səhih Muslim", 881.

[2] "Sunən Əbu Davud", 911; "Sunən ət-Tirmizi", 296.

[3] "Səhih əl-Buxari", 450.

Uca Allah məscidləri özünə nisbət edərək buyurur: **"Allahın məscidlərində Onun adının zikr edilməsinə maneçilik törədənlərdən və onların viranə qalmasına çalışanlardan daha zalım kim ola bilər?!"**[1]

Peyğəmbər ﷺ də bu hədisdə məscidləri öz Rəbbinə nisbət etmişdir: **"Allahın qadın qullarına məscidlərə getməyə qadağan etməyin"**.

Uca və nöqsansız Allah bəyan etmişdir ki, məscidlər izzət və cəlal sahibi Allahın adının zikr olunduğu evlərdir. Allah orada öz adının Uca tutulmasına və zikr olunmasına izin vermişdir: **"*Bu nur* Allahın, tikilib ucaldılmasına və içində Öz adının zikr edilməsinə izin verdiyi evlərdədir. *Mömin kişilər* orada səhər-axşam Ona təriflər deyirlər. O kişilər ki, nə ticarət, nə də alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmır".**[2]

Bir halda ki, məscidləri Allah özünə nisbət etmişdir, Peyğəmbər ﷺ də onları öz Rəbbinə nisbət etmişdir, Allah da orada adının uca tutulmasına izin vermişdir, deməli, ona hədsiz ehtiram göstərilməlidir.

Məscidlərin özünəməxsus əhkam, hörmət və təzimi vardır. Məsələn, dəstəmazı olmayan kəs orada otura bilməz. Cənabət halında olan kəslər barəsində Peyğəmbər ﷺ demişdir: **"İçərisində cənabət halında olan kəs olan evə mələklər girmir".**[3] Yəni, nə qədər ki, adam cənabət halındadır, mələklər həmin evə daxil olmurlar. Cənabət halında olan kəs məsciddə qaldıqda həm də mələklərə əziyyət verir. Çünki o onların məscidlərə daxil olmasına mane olur, yaxud daxil olduqda əziyyət çəkirlər. Odur ki, deyirik: Dəstəmazı olmayan kəs dəstəmaz alanadək məscidə daxil olmasın. Çünki səhabələr məsciddə yatırdılar və dəstəmazsız hala düşürdülər. Onlar qalxıb dəstəmaz alır, sonra yenə qayıdıb yatırdılar. Bu Peyğəmbərin ﷺ vaxtında belə idi. Peyğəmbər ﷺ də onlara bunu icazə vermişdi.

Məscid əhkamlarından biri də odur ki, oraya daxil olan insan iki rükət namaz qılmadan gərək oturmasın. Hansı vaxtda olursa-olsun, istər səhər, istərsə də axşam, günorta, gün çıxdıqda, gün batdıqda, bir sözlə istənilən vaxtda məscidə daxil olduqda bu namazı qılmalıdır. Çünki Peyğəmbər ﷺ demişdir: **"Sizlərdən biri məscidə daxil olduqda iki rükət**

---

[1] "əl-Bəqərə" surəsi, 114.

[2] "ən-Nur" surəsi, 36-37.

[3] "Musnəd İmam Əhməd", 1/83.

namaz qılmadan oturmasın".[1] Hətta bir dəfə o cümə günü xütbə verərkən bir nəfər məscidə daxil olub oturur. Bu vaxt Peyğəmbər ﷺ xütbəsini saxlayıb soruşur: **"Namaz qıldınmı?"** Dedi: "Xeyr". Dedi: **"Qalx və iki rükət namaz qıl, ancaq uzatma"**.[2] Yəni tələs ki, xütbəni də dinləyəsən.

Bəzi alimlər bu hədisə əsaslanaraq məscidə salam namazının vacib olduğunu bildirmişlər. Çünki Rəsulullah ﷺ bu adama iki rükət namaz qılmasını əmr etmiş, həmin adam da bu namazı qılmaqla xütbədən yayınmışdı. Baxmayaraq ki, xütbəni dinləmək vacibdir. Vacibdən yalnız ondan daha vacib olan əməllə yayınmaq olar.

Bu səbəbdən bəzi alimlər bildirmişlər ki, insan məscidə dəstəmazlı halda daxil olub namaz qılmadan oturarsa, günah qazanır. Biz isə deyirik: Şəkk yoxdur ki, həmin adam Peyğəmbərə ﷺ asi olmuş olur. Məscidə dəstəmazlı halda daxil olub oturan kəs Rəsulullahın ﷺ: **"...rükət namaz qılmadan oturmasın"** əmrinə asi olmuş olur.

Məscid hökmlərindən biri də odur ki, orada az və ya çox olmasından asılı olmayaraq alış-veriş etmək olmaz. Bunu etmək sənə haramdır, həmin alış-veriş isə batildir – nə həmin qazanc satıcıya, nə də mal alıcıya verilmir. Onlardan hər biri az və ya çox olmasından asılı olmayaraq, aldığını geri qaytarmalıdır. Hətta əgər desə ki, ey filankəs, sənin filan şeyə ehtiyacın varmı? Desə ki, bəli. O da desə ki, ondan mənə bu qədər göndər. Məsələn deyir ki, səndə düyü var? Deyir: Bəli. Deyir: Mənə ondan bir kisə göndər – bunu məsciddə olduğu zaman deyərsə, bu haramdır. Çünki bu alış-verişdir. Məsciddə isə nə olursa-olsun, alış-veriş etmək qadağandır.

Yaxud məsələn, əgər birinin on rialı varsa və başqasına desə ki, al bu on rialı, əvəzində mənə iki beşlik ver, bu da caiz deyil. Ancaq bəzi alimlər demişlər ki, əgər ehtiyac varsa, bu caizdir. Məsələn, yoxsul birisi səndən pul istəyir. Sənin də on rialın var. Deyə bilərsən ki, al bu on rialı, mənə doqquz rial ver. Məqsəd ona bir rial sədəqə verməkdir. Bəzi alimlər buna icazə vermişlər. Çünki bu vəziyyətdə sədəqəni başqa cür vermək mümkün deyil. Onların da məqsədi alış-veriş etmək deyil.

Məsciddə alış-veriş etmək haramdır və bu alıcı ilə satıcıya aiddir.

Bəs birdən biri kiminsə alış-veriş etdiyini eşitsə, nə etməlidir?

---

[1] "Səhih əl-Buxari", 1097; "Səhih Muslim", 1167.

[2] "Səhih Muslim", 1449.

Peyğəmbər ﷺ buyurmuşdur ki, **"Ona: "Allah sənin ticarətinə qazanc verməsin!"– deyin".** Yəni dua et ki, Allah onun ticarətini iflasa uğratsın və qazanclı etməsin. Lakin Peyğəmbər ﷺ bunu da demişdir: **"Məscidlər bunun üçün inşa edilməmişdir".** Ehtimal olunur ki, adam bu sözü dediklərinə əlavə etməlidir. Yaxud ehtimal olunur ki, bu, Peyğəmbərin ﷺ verdiyi hökmün təhlilidir, ona görə onu demək lazım deyil. Ancaq sənin bunu deməyin ona xoşdursa, söyləməyin daha yaxşıdır. Yəni deyirsən ki, Allah sənin ticarətinə qazanc verməsin. Məscidlər alış-veriş üçün inşa edilməyib. Onlar namaz, zikr, Quran oxuma, elm tələb etmə və buna bənzər başqa əməllər üçün inşa edilmişdir. Əgər sənin "Məscidlər bunun üçün inşa edilməmişdir" sözün onun xoşuna gəlirsə, onu de ki, sənə qəzəblənməsin. Çünki Peyğəmbərin ﷺ əmrinə dəvət də, Peyğəmbərin ﷺ əmrinə itaət də Allahın əmri kimi itaət olunur: **"Allaha və Onun rəsuluna itaət edin".**[1] Mən də deyirəm: Allah sənin ticarətinə qazanc gətirməsin, çünki məscidlər bunun üçün inşa olunmamışdır. Deyirəm ki, onun xoşuna getsin.

Biri gəlib desə ki, məsələn, pul qabımı kim görüb, yaxud filan şeyi itirmişəm, bu haramdır və icazəli deyil. Hətta güman etsən ki, o məsciddə oğurlanıb, bunu demə. Soruşulsa ki, bəs onu necə tapım? Deyirik: çıx, məscidin xaricində qapının önündə otur və de ki: Allah sizi xeyirlə mükafatlandırsın, filan əşyamı itirmişəm.

Bu səbəbdən Peyğəmbər ﷺ buyurur ki; **"Kim eşitsə ki, bir adam məsciddə itirdiyi əşyanı soruşur, ona desin ki: – Allah onu sənə qaytarmasın!".** Ona bəddua edirik ki, Allah həmin əşyanı ona qaytarmasın və o, axtardığını tapmasın: **"Allah onu sənə qaytarmasın! Axı məscidlər bunun üçün inşa edilməyib"**.

Heyvanı səsləmək də belədir. Peyğəmbər ﷺ bir kişinin səslənərək dəvəsini çağırdığını eşitdikdə belə deyir: **"Onu heç tapmayasan!"**. **"Tapmayasan"**, yəni Allah onu sənə qaytarmasın. Beləcə Peyğəmbər ﷺ onun üçün dua edir ki, dəvəsini tapa bilməsin. Çünki məscidlər bunun üçün inşa olunmamışdır.

Əgər bir insan itirdiyini deyil, tapdığı bir əşyanı, məsələn, açarları tapdığını bildirmək üçün desə ki, "bu açarlar kimindir?", bu elan itirilmiş əşyanın səslənməsi hesab olunur, yoxsa onun sahibinin axtarılması?

[1] "ət-Təğabun" surəsi, 12.

Cavab ikincidir, yəni sahibinin axtarılması. Bəzi alimlər buna icazə verərək demişlər ki, bunda bir qəbahət yoxdur, çünki bu bir yaxşılıqdır. Bəzi alimlər isə bunun bəyənilməz əməl olduğunu bildirərək demişlər ki, bu əməl məkruhdur. Ancaq əgər o, yaxşı əməlini tamamlamaq istəyirsə, onda məscidin çölündə qapının önündə oturub desin: "Kim açarını və ya pulunu itirib?" Yaxud "kim filan əşyasını itirib?"

Əziz qardaşlar, mühüm olan odur ki, məscidlərə ehtiram olunsun.

Möminlərin əmiri Ömər ibn əl-Xəttab ﵁ Peyğəmbər ﷺ məscidində iki adamın yüksək səslə danışdıqlarını eşidib onları yanına çağırdı və dedi: "Siz haradansınız?" Sanki o, gördüyündən təəccüblənmişdi. Onlar dedilər ki, biz Taif əhlindənik. Dedi: "Əgər siz bu şəhərdən olsaydınız, sizi ağrıdardım". Yəni sizi elə vurardım ki, sizi ağrıdardı. "Peyğəmbərin ﷺ məscidində səsinizi qaldırırsınız?" Bu, Ömərin bu əməli inkar etməsidir. Bəs onun: "Peyğəmbərin ﷺ məscidində" sözü yalnız həmin məscidin ehtiram olunmasına aiddir, yoxsa bütün məscidlərin? Zahirdə görünən odur ki, bu bütün məscidlərə aiddir.

Hədislərdə keçən "məscidlərdə şeirlər deməyə" sözünə gəlincə, bu xeyirsiz və mənasız şeirlərə aiddir. Xeyirli şeirlərə gəlincə isə bu icazəlidir. Bir vaxtlar Həssan ibn Sabit ﵁ Peyğəmbərin ﷺ məscidində şeirlər deyər, Peyğəmbər ﷺ də onu eşidərdi. Bir dəfə Ömər ibn əl-Xəttab ﵁ onun şeir deməsini eşitdikdə bunun əleyhinə olduğunu bildirdi, o da belə dedi: "Mən bu məsciddə səndən daha xeyirli birisinin yanında şeir deyirdim". Bununla o, Peyğəmbəri ﷺ nəzərdə tuturdu.

Şeirlərdə xeyir və məsləhət olduqda onu demək olar. Məsələn, itaətə çağıran və cihad zamanı Allah yolunda cihada təşviq edən şeirlər və ya buna bənzər başqa şeirləri demək olar. Xeyirsiz şeirləri isə məsciddə söyləmək olmaz. Allah ən ucadır və daha yaxşı biləndir.

Üç yüz on birinci fəsil

Sarımsaq, soğan, kəvər soğanı və ya pis qoxulu başqa bir şey yeyib zərurət olmadan qoxusu gedənədək məscidə daxil olmağın qadağan olunması

Mövzu ilə əlaqəli hədislər:

١٧٠١– عَنِ ابْنِ عُمَرَ رضي الله عنهما أَنَّ النَّبِيَّ ﷺ قَالَ: منْ أَكَلَ مِنْ هَذِهِ الشَّجَرَةِ يَعْني الثُّومَ فلا يقْرَبَنَّ مَسْجِدَنَا » متفقٌ عليه.

وفي روايةٍ لمسلم: « مَسَاجِدَنَا ».

1701. İbn Ömərdən رضي الله عنهما rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Kim bu ağacdan, yəni sarımsaq yeyərsə, məscidimizə yaxınlaşmasın"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Muslimin rəvayətində isə: **"məscidlərimizə"**– deyilir.

١٧٠٢– وَعَنْ أَنَسٍ رضي الله عنه قَالَ: قَالَ النبيُّ ﷺ: « مَنْ أَكَلَ مِنْ هذِهِ الشَّجَرَةِ فَلا يَقْربنَّا، وَلا يُصَلِّيَنَّ مَعنَا » متفقٌ عليه.

1702. Ənəsdən رضي الله عنه rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Kim bu ağacdan yeyərsə, bizə yaxın durmasın və bizimlə namaz qılmasın"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١٧٠٣– وَعَنْ جَابِرٍ رضي الله عنه قَالَ: قَالَ النَّبيُّ ﷺ: « مَنْ أَكَلَ ثُوماً أَوْ بَصَلاً، فَلْيَعْتَزِلْنَا، أَوْ فَلْيَعْتَزِلْ مَسْجدَنَا » متفقٌ عليه.

وفي رواية لمُسْلِمٍ: مَنْ أَكَلَ الْبَصَلَ، وَالثُّوم، وَالْكُرَاث، فَلا يَقْرَبَنَّ مسْجِدَنَا، فَإِنَّ المَلائِكَةَ تَتَأَذَّى مِمَّا يتأَذَّى مِنْهُ بَنُو آدمَ ».

1703. Cabirdən رضي الله عنه rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Kim sarımsaq və ya soğan yeyərsə, məscidlərimizdən uzaq dursun"**.

---

[1] "Səhih əl-Buxari", 806; "Səhih Muslim", 873.

[2] "Səhih Muslim", 874.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Muslimin rəvayətində isə deyilir: **"Kim soğan, sarımsaq və ya kəvər soğanı yeyərsə, məscidlərimizə yaxınlaşmasın. Çünki, insanların əziyyət çəkdiyi şeylərdən mələklər də əziyyət çəkir"**.[2]

١٧٠٤– وَعَنْ عُمَرَ بْنِ الخَطَّابِ ﷺ أَنَّهُ خطَبَ يَوْمَ الجُمُعَةِ فَقَالَ فِي خُطْبَتِهِ: ثُمَّ إِنَّكُمْ أَيُّهَا النَّاسُ تَأْكُلُونَ شَجَرَتَيْنِ ما أُرَاهُمَا إِلاَّ خَبِيثَتَيْنِ: الْبَصَلَ، وَالثُّومَ، لَقَدْ رَأَيْتُ رَسولَ اللَّهِ ﷺ إِذَا وَجَدَ رِيحَهُمَا مِنَ الرَّجُلِ فِي المَسْجِدِ أَمَرَ بِهِ، فَأُخْرِجَ إِلى الْبَقِيعِ، فَمَنْ أَكَلَهُمَا، فَلْيُمِتْهُمَا طبْخاً. رواه مسلم.

1704. Ömər ibn əl-Xəttabdan ﷺ rəvayət olunur ki, bir dəfə o, cümə xütbəsi verərkən dedi: "Sonra isə, ey insanlar, sizlər iki ağacdan yeyirsiniz ki, mən onları xoşagəlməz hesab edirəm: soğan və sarımsaq. Peyğəmbər ﷺ məsciddə kimdənsə onların qoxusunun gəldiyini bilsəydi, əmr edərdi ki, həmin adam məsciddən Baqiyə çıxarılsın. Kim onları yemək istəyirsə, bişirməklə onların qoxusunu öldürsün".

Bu hədisi Muslim rəvayət etmişdir.[3]

Şərh:

Müəllifin ﷺ zikr etdiyi bu fəsil məscidlərin əhkamları ilə bağlıdır. Sarımsaq, soğan, kəvər soğanı və ya pis qoxulu başqa bir şey yeyən kəs qoxusu gedənədək məscidə yaxınlaşmamalı, ora daxil olmamalıdır.

Sonra müəllif bəzi hədisləri qeyd etmişdir. Həmin hədislərin birində Ömər ibn ibn əl-Xəttabdan rəvayət olunur ki, bir dəfə o, cümə günü xütbə verərkən dedi: Sonra isə, ey insanlar, sizlər iki ağacdan yeyirsiniz ki, mən onları, yəni qoxularını xoşagəlməz hesab edirəm.

Daha sonra xəbər verir ki, onlardan yemiş bir kimsə məscidə daxil olardısa, Peyğəmbər ﷺ əmr edərdi ki, onu məsciddən çıxarıb Baqiyə aparsınlar. Məlumdur ki, Baqi məzarlığı Peyğəmbər məscidinə yaxın idi. O ﷺ da həmin adamı onu danlamaqdan ötrü Baqiyə çıxarırdı. Əslində isə elə məsciddən çıxarmaq kifayət edir. Ancaq o həmin adamı məhz qınamaq

[1] "Səhih Muslim", 876.

[2] "Səhih Muslim", 877.

[3] "Səhih Muslim", 879.

üçün onu azacıq uzaq yerə çıxarırdı. Sonra Ömər dedi: "Kim onları yeyirsə, yəni yemək istəsə, onları bişirsin. Çünki onları bişirdikdə qoxuları gedir və istənilən fayda da əldə olunur.

Bu hədisdən belə fayda əldə olunur ki, soğan və sarımsaq haram deyil və istəyən onlardan yeyə bilər. Lakin onlardan yeyib məscidə daxil olmamalı, camaatla namaz qılmamalı, elm məclisində iştirak etməməlidir. Çünki mələklər kəskin qoxudan əziyyət çəkirlər.

Alimlər həm də demişlər ki, kimin dişində, ağzında xoşagəlməz qoxu olarsa, həmin qoxunu aradan qaldırmayınca məscidə yaxınlaşmasın. Çünki səbəb eynidir – mələklərin xoşagəlməz qoxulardan əziyyət çəkməsi.

Kimsə soruşa bilər ki, insan həmin qoxunu aradan qaldıran bir vasitədən istifadə edərsə, məscidə daxil ola bilərmi?

Deyirik: Əgər qoxunu tamamilə aradan qaldıran bir şeydən istifadə edirsə və mədəsindən qoxu gəlmirsə, məscidə daxil ola bilər. Çünki hökm səbəbə görə dəyişir: səbəb varsa, hökm qalır, səbəb aradan qalxdıqda isə hökm dəyişir.

Kimsə soruşa bilər ki, insan məscidə getməməsi üçün onlardan yesə necə olsun?

Deyirik: Bu haramdır. İnsanın hər hansı bir fərzi yerinə yetirməməyə səy göstərməsi caiz deyil. Lakin nəfsini saxlaya bilməyib yeyərsə, deyirik: yeməsi caizdir, ancaq onun qoxusunu tam aradan qaldırmayınca məscidə yaxınlaşmamalıdır. Müvəffəq edən Allahdır.

Üç yüz on ikinci fəsil

İmam cümə xütbəsi verən zaman dizləri qucaqlamağın bəyənilməməsi. Çünki bu, yuxu gətirir, xütbəni dinləməyə mane olur və dəstəmazın pozulmasına səbəb ola bilər

Mövzu ilə əlaqəli hədis:

١٧٠٥– عنْ مُعَاذِ بْنِ أَنسٍ الجُهَنِيِّ، رضي الله عنه أَنَّه النَّبِيَّ ﷺ نَهَى عَنِ الحِبْوَةِ يَوْمَ الجُمُعَةِ وَالإِمَامُ يَخْطُبُ. رواهُ أبو داود، والترمذي وَقَالا: حدِيثٌ حَسَنٌ.

1705. Muaz ibn Ənəs əl-Cuhənidən رضي الله عنه rəvayət olunur ki, Peyğəmbər ﷺ cümə günü imam xütbə verən zaman dizləri qucaqlayıb oturmağı qadağan etmişdir.

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir"– demişlər.[1]

Şərh:

Müəllif رحمه الله **"İmam cümə xütbəsi verən zaman dizləri qucaqlamağın bəyənilməməsi"** fəslini qeyd edir.

[Hədisin ərəbcəsində keçən] "habva" sözü "dizləri qarnına çəkib oturmaq"dır. Özünü əmmamə və ya başqa şeylə bağlamağa da "habva" deyilir. Peyğəmbər ﷺ cümə günü imam xütbə verən zaman bu cür oturmağı iki səbəbə görə qadağan etmişdir.

Birincisi, ola bilsin, bu oturuş yuxu gətirsin və adam xütbəni dinləyərkən mürgüləsin.

İkincisi, ola bilsin, hərəkət etdikdə övrət yeri görünsün. Çünki əvvəllər insanların çoxunun libası izar və rida örtüyündən ibarət idi və oturuşunu dəyişən insanın övrət yeri görünə bilərdi. Yox, əgər bundan əmin olsa, onda problem yoxdur. Belə ki, əgər qadağa müəyyən səbəbə görədirsə, həmin səbəb aradan qalxdıqda qadağa da aradan qalxmış olur.

---

[1] "Sunən Əbu Davud", 936; "Sunən ət-Tirmizi", 472.

Üç yüz on üçüncü fəsil

Zil-hiccə ayının ilk on günü daxil olduqda qurban kəsmək istəyən şəxsin qurban kəsənədək öz saçından və dırnaqlarından kəsməsinin qadağan olunması

Mövzu ilə əlaqəli hədis:

١٧٠٦– عَنْ أُمِّ سَلَمةَ ﵂ قَالَتْ: قَالَ رسُولُ اللَّهِ ﷺ: « مَنْ كَانَ لَهُ ذِبْحٌ يَذْبَحُهُ، فَإِذا أُهِلَّ هِلالُ ذِي الحِجَّة، فَلا يَأْخُذَنَّ مِنْ شَعْره وَلا منْ أَظْفَارِهِ شَيْئاً حتى يُضَحِّيَ » رَواهُ مُسْلِم.

1706. Ummu Sələmənin ﵂ belə dediyi rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Kimin kəsəcəyi qurbanı varsa, kəssin. Zil-hiccə ayının hilalı görünməsindən qurban kəsənədək saçından və dırnaqlarından bir şey götürməsin".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Şərh:

Müəllif ﵀ "**Zil-hiccə ayının ilk on günü daxil olduqda qurban kəsmək istəyən şəxsin qurban kəsənədək öz saçından və dırnaqlarından kəsməsinin qadağan olunması"** fəslində Ummu Sələmənin hədisini qeyd edir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Kimin kəsəcəyi qurbanı varsa, kəssin. Zil-hiccə ayının hilalı görünməsindən qurban kəsənədək saçından və dırnaqlarından bir şey götürməsin".**

Zil-hiccə ayı daxil olduqda özünün və ya başqasının yerinə öz malından qurban kəsmək istəyirsənsə, qurbanı kəsənədək saçından, qoltuqaltı və övrət yerlərinin tüklərindən, bığından, saqqalından, habelə dırnaqlarından kəsib götürmə. Muslimin rəvayətində belə bir əlavə də var: **"nə də dərisindən".** Yəni qurban kəsənədək dərisindən də götürməsin. Bu da kəsilən qurbana hörmət əlamətidir. Həm də ihramda olmayanların ihramda olanlar qədər savab qazana bilməsi üçündür. Çünki həcc və ya ümrə ziyarətində olanlar qurban kəsilənədək saçını qırxdırmır. İzzət və cəlal sahibi Allah bunu həcc ziyarəti etməyənlərə də onların etdiklərindən bir pay olsun deyə belə buyurmuşdur. Daha doğrusunu Allah bilir.

---

[1] "Səhih Muslim", 3656.

Üç yüz on dördüncü fəsil

Məxluqa, o cümlədən Peyğəmbərə, Kəbəyə, mələklərə, səmaya, atalara, həyata, ruha, başa, sultanın nemətinə, filan torpağa və ən çox qadağan olunmuş əmanətə and içməyin qadağan olunması

Mövzu ilə əlaqəli hədislər:

١٧٠٧– عَنِ ابْنِ عُمَرَ، رضي الله عنهما، عَنِ النَّبِيِّ ﷺ، قَالَ: « إِنَّ اللَّه تَعالى ينْهَاكُمْ أَنْ تَحْلِفُوا بابائِكُمْ، فَمَنْ كَانَ حَالِفاً، فلْيَحْلِفْ بِاللَّهِ، أَوْ لِيَصْمُتْ » متفقٌ عليه.

وفي رواية في الصحيح : « فمنْ كَانَ حَالِفاً، فَلا يَحْلِفْ إِلاَّ بِاللَّهِ، أَوْ لِيسْكُتْ »

1707. İbn Ömərdən رضي الله عنهما rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Uca Allah sizlərə atalarınıza and içməyinizi qadağan edir. And içən ya Allaha and içsin, ya da sussun"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

"Səhih" əsərindəki digər rəvayətdə isə: **"And içən Allahdan başqasına and içməsin, ya da sussun"**– deyilir.

١٧٠٨– وعنْ عَبْدِ الرحْمنِ بْن سمُرَةَ، رضي الله عنه قَالَ: قَالَ رسُولُ اللَّهِ ﷺ: «لا تحْلِفوا بِالطَّواغِي، ولا بابائِكُمْ » رواه مسلم.

« الطَّوَاغي »: جَمْعُ طاغية، وهِي الأصْنَامُ، وَمِنْهُ الحديثُ: « هذِهِ طاغِيةُ دوْسٍ »: أَيْ: صنمُهُم ومعْبُودُهُم. ورُوِيَ في غَيرِ مُسْلِم: « بالطَّواغِيتِ » جمْع طاغُوت، وهُو الشَّيطانُ وَالصَّنمُ.

1708. Abdur-Rahmən ibn Səmuranın رضي الله عنه belə dediyi rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Bütlərə və atalarınıza and içməyin"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

[Hədisin ərəbcəsindəki] "tavaği" sözü "taği" sözünün cəmidir, mənası da "bütlər"dir.

---

[1] "Səhih əl-Buxari", 6155; "Səhih Muslim", 3105.

[2] "Səhih Muslim", 3108.

Bir hədisdə deyilir: "Bu, Dus bütüdür", yəni onların məbududur.

Muslimdən qeyrisinin rəvayətində: "tağut" sözünün cəmi "tağutlar" deyilir ki, bunun da mənası şeytan və bütdür.

١٧٠٩– وعنْ بُرَيْدة ﷺ أَنَّ رسُول الله ﷺ قال:«من حلَف بِالأَمانَةِ فليْس مِنا».
حدِيثٌ صحيحٌ، رواهُ أَبُو داود بِإِسنادٍ صحِيحٍ.

1709. Bureydədən ﷺ nəql olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Kim əmanətə and içərsə, bizdən deyil"**.

Hədis səhihdir, onu Əbu Davud səhih isnadla rəvayət etmişdir.[1]

١٧١٠– وعنْهُ قال: قال رسُولُ اللَّهِ ﷺ: « منْ حلفَ، فقال: إِني بريءٌ مِنَ الإِسلامِ فإِن كانَ كاذِباً، فَهُو كما قَالَ، وإِنْ كَان صادِقاً، فلَنْ يرْجِع إِلى الإِسلاَمِ سالِماً». رواه أبو داود.

1710. Yenə Bureydədən ﷺ nəql olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Kim and içib deyərsə ki, mən İslamdan uzağam, yalan demişsə, dediyi kimi olar. Əgər doğru demişsə, İslama salamat qayıtmaz"**.

Hədisi Əbu Davud rəvayət etmişdir.[2]

١٧١١– وَعنِ ابْن عمر ﷺ أَنَّهُ سمِعَ رَجُلاً يَقُولُ: لاَ والْكعْبةِ، فقالَ ابْنُ عُمر: لا تَحْلِفْ بِغَيْرِ اللَّهِ، فإِني سَمِعْتُ رسُولَ اللَّهِ ﷺ يقُولُ: « منْ حلفَ بِغَيْرِ اللَّهِ، فَقدْ كَفَر أَوْ أَشرْكَ » رواه الترمذي وقال: حدِيثٌ حسَنٌ.

وفسَّر بعْضُ الْعلماءِ قوْلهُ: « كَفر أَوْ أشرك » علَى التَّغلِيظِ كما رُوِي أَنَّ النبيَّ ﷺ قَالَ: « الرِّيَاءُ شِرْكٌ ».

1711. İbn Ömərdən ﷺ rəvayət olunur ki, bir dəfə o bir kişinin: "Kəbəyə and olsun ki, xeyr"– dediyini eşitdi. İbn Ömər ona dedi: «Allahdan başqasına and içmə! Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: **"Kim Allahdan başqasına and içərsə, küfr etmiş və ya şirk qoşmuş olur"**».

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir"– demişdir.[3]

---

[1] "Sunən Əbu Davud", 2831.

[2] "Sunən Əbu Davud", 2836.

[3] "Sunən ət-Tirmizi", 1455.

Bəzi alimlər: **"küfr etmiş və ya şirk qoşmuş olur"** sözünün şiddətli çəkindirmə mənasında olduğunu bildirmişlər. Neçə ki, Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: **"Riya şirkdir"**.

Şərh:

Müəllif ﷺ **"Məxluqa, o cümlədən Peyğəmbərə, Kəbəyə, mələklərə, səmaya, atalara, həyata, ruha, başa, sultanın nemətinə, filan torpağa və ən çox qadağan olunmuş əmanətə and içməyin qadağan olunması"** fəslini qeyd edir.

And içmək, bir şeyi əzəmətli bir şeylə təkid etməkdir. İnsan bir şeyə and içdikdə, onu özündə əzəmətli saymış olur. Sanki: "and içilənin əzəməti qədərində mən doğru danışıram" deyir. Ona görə də and yalnız izzət və cəlal sahibi Allaha olmalıdır – ya Allaha, ya da Onun ad və sifətlərindən birinə and iç. Uca Allah buyurur: "***Münafiqlər*** **Allaha çox möhkəm and içdilər"**[1]; **"qarşınızda Allaha and içəcəklər"**[2], **"Xeyr, sənin Rəbbinə and olsun ki, ... iman gətirmiş olmazlar"**[3]. Bunlar and növləridir.

Allahdan başqasına and içmək küfr və şirkdir. Ola bilsin ki, böyük küfr və ya kiçik küfr olsun.

Ola da bilsin ki, böyük və ya kiçik şirk olsun. Əgər and içən kəs and içdiyi şeyin Allahın əzəməti kimi əzəmət sahibi olduğuna etiqad edərsə, böyük şirk etmiş olur. Yox, əgər etiqad edirsə ki, and içdiyinin əzəməti Allahın əzəmətindən kiçikdir, bu zaman kiçik şirk etmiş olur, ancaq bu, böyük şirkə aparan yoldur. Cahiliyyət dövründə insanlar öz atalarına and içməyə öyrəşmişdilər və bu onlara qadağan edilmişdi.

Əgər insan Allahın ayələrinə and içib deyərsə ki, bununla Allahın məxluqlarını qəsd edirəm, bu zaman deyirik: Bu, Allahdan başqasına and içməkdir, həmin adam da müşrik və kafir olur.

Əgər desə ki: Allahın ayələrinə and içdikdə Quranı nəzərdə tuturam, – çünki Quran izzət və cəlal sahibi Allahın ayələridir, – bu zaman həmin adam müşrik olmur. Çünki Qurani-Kərim Allahın kəlamıdır. Allahın kəlamı isə onun sifətlərindəndir.

---

[1] "ən-Nur" surəsi, 53.

[2] "ət-Tövbə" surəsi, 95.

[3] "ən-Nisa" surəsi, 65.

Əgər kimsə desə ki: "Allahın ayələrinə and olsun" deməklə Quranı nəzərdə tuturam, deyirik: Bu, səhih anddır və bunda bir qəbahət yoxdur.

Düşünürəm ki, avam insanlar: "Allahın ayələrinə and olsun" deyərkən onlar Quranı qəsd edirlər. Əgər Quranı nəzərdə tuturlarsa, bu haram deyil. Ancaq əgər Allahın digər möcüzələrini, o cümlədən günəşi, ayı, ulduzları, gecəni, gündüzü və buna bənzər başqa şeyləri nəzərdə tuturlarsa, bu şirk və küfrdür. Müvəffəq edən Allahdır.

Üç yüz on beşinci fəsil

Bilərəkdən yalan and içməyin şiddəti

Mövzu ilə əlaqəli hədislər:

١٧١٢– عَنِ ابْنِ مسْعُودٍ رضي الله عنه أَنَّ النَّبِيَّ ﷺ قال: « منْ حلفَ علَى مَالِ امْرِيءٍ مُسْلِمٍ بغيْرِ حقِّهِ، لقِي اللَّه وهُو علَيْهِ غَضْبانُ » قَالَ: ثُمَّ قرأَ عليْنَا رسُولُ اللَّه ﷺ مِصَداقَه منْ كتاب اللَّهِ عَزَّ وَجَلَّ: { إِنَّ الَّذِينَ يَشْتَرُونَ بِعهْدِ اللَّهِ وأَيْمانِهِمْ ثَمناً قَلِيلاً } [آل عمران: ٧٧] إلى آخِرِ الآيةِ: مُتَّفَقٌ عليْه.

1712. İbn Məsuddan رضي الله عنه rəvayət olunur ki, Peyğəmbər ﷺ dedi: **"Kim haqsız olaraq bir müsəlmanın malının ona məxsus olduğunu iddia edərsə, Allah onunla ona qəzəbləndiyi halda görüşər"**. Dedi: «Sonra Rəsulullah ﷺ izzət və cəlal sahibi Allahın Kitabından bunun təsdiqini oxudu: **"Allah ilə olan əhdlərini və andlarını ucuz qiymətə satan kimsələrə gəlincə, onlara axirətdə heç bir pay yoxdur"[1]».**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.

١٧١٣– وعَنْ أَبي أُمامةَ إِياسِ بْنِ ثعْلبَةَ الحَارِثِيِّ رضي الله عنه أَن رسُول اللَّه ﷺ قالَ: « منِ اقْتَطعَ حَقَّ امْرِيءٍ مسْلِمٍ بِيمِينِهِ، فَقَدْ أَوْجَب اللَّه لَهُ النَّارَ. وحرَّم عَلَيْهِ الْجنَّةَ» فَقالَ لَهُ رَجُلٌ: وإِنْ كَانَ شَيْئاً يسِيراً يا رسُولَ اللَّهِ؟ قَالَ: « وَإِنْ كان قَضِيباً مِنْ أَراكٍ » رواهُ مُسْلِمٌ.

1713. Əbu Uməmə İyas ibn Sələbə əl-Harisidən رضي الله عنه nəql olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kim əli ilə bir müsəlmanın haqqını kəsərsə, Allah ona Cəhənnəmi vacib, Cənnəti isə ona haram edər".** Bir kişi dedi: "Ey Allahın elçisi, xırda bir şey olsa belə?" Dedi: **"Kiçik bir çubuq qədər olsa belə"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

---

[1] "Ali İmran" surəsi, 77.

[2] "Səhih Muslim", 196.

١٧١٤– وعنْ عبْدِ اللَّهِ بْنِ عمرِو بْنِ الْعاصِ ﵄ عن النبيِّ ﷺ قالَ: « الْكَبَائِرُ: الإِشْرَاكُ بِاللَّهِ، وَعُقُوقُ الْوَالِدَيْن، وَقتْلُ النَّفْسِ، والْيَمِينُ الْغَمُوسُ » رواه البخاري.

وفي روايةٍ له: أَن أَعْرَابِيًّا جاءَ إِلى النَّبِيِّ ﷺ فَقال: يَا رَسُول اللَّه ما الْكَبَائِرُ؟ قالَ: «الإِشْراكُ بِاللَّهِ » قَالَ: ثُمَّ ماذا؟ قالَ: « الْيَمِينُ الْغَمُوسُ » قُلْتُ: وَمَا الْيمِينُ الْغَمُوسُ؟ قال: « الَّذِي يَقْتَطِعُ مَالَ امْرِيءٍ مسلم، » يعْنِي بِيمِينٍ هُوَ فِيها كاذِبٌ.

1714. Abdullah ibn Amr ibn əl-Asdan ﵄ nəql olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Böyük günahlar Allaha şərik qoşmaq, valideyinlərin üzünə ağ olmaq, adam öldürmək və sahibini batıran yalandan and içməkdir".**

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

Başqa bir rəvayətdə[2] isə deyilir ki, bir bədəvi Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ey Allahın elçisi, böyük günahlar hansılardır?" Dedi: **"Allaha şərik qoşmaq"** Dedi: "Sonra hansı?" Dedi: **"Sahibini batıran yalan and".** Dedik: "Bu nə anddır elə?" Dedi: **"Başqasının malının mənimsənməsinə səbəb olan and"**. Yəni içərisində yalan olan and.

Şərh:

Müəllif Hafiz ən-Nəvəvi ﵀ "Salehlər bağçası" əsərində müsəlmanın malının mənimsənməsinə səbəb olan **"Bilərəkdən yalan and içməyin şiddəti"** fəslini qeyd edir.

İnsan istər bir işlə bağlı olsun, istərsə də başqa bir işlə Allaha and içdikdə gərək doğru danışsın. Əgər yalandan and içməklə hansısa bir müsəlmanın azacıq da olsa malını mənimsəmiş olarsa, Qiyamət günü Allahla Allahın ona qəzəbi tutduğu halda görüşəcəkdir.

Deyilənə bir misalı. Bir insan başqasından borcunu tələb edərək deyir ki, sən mənə min rial verməlisən. Həmin adam da deyir ki, mənim sənə borcum yoxdur. İddia edənin də dəlili yoxdur. Bu zaman qazi inkar edənə deyir ki, and iç ki, sənin ona borcun yoxdur. O da and içib deyir ki, Allaha and olsun ki, mənim ona borcum yoxdur. Qazi də bu zaman hökm verir

[1] "Səhih əl-Buxari", 6182.

[2] "Səhih əl-Buxari", 6409.

ki, onun həmin adama borcu yoxdur. Çünki iddia edən dəlil gətirməli, inkar edən isə and içməlidir.

Yalandan and içən bu adam da Allahla Allahın ona qəzəbi tutduğu halda görüşəcəkdir. Allah qorusun. Allah Cənnəti ona haram edəcək və onu Cəhənnəm əhlindən edəcək. Allahdan afiyət diləyirik. Səhabələr soruşdular ki: "Ey Allahın elçisi, hətta kiçik şeylər olsa belə?" Dedi: **"Hətta kiçik çubuq qədər olsa belə".**

[Hədisin ərəbcəsində keçən] "qadib" əl boyda çubuq və ya buna bənzər şeylərdir. Yəni hətta onun qədər olsa belə. "Qadib" ağacın kiçik bir çubuğudur. İnsan yalandan and içməklə müsəlman bir kəsin malını bir çubuq qədər belə mənimsəyərsə, bu şiddətli cəzaya layiq görülmüş olar. Allah qorusun.

Adamın özü ilə bağlı anda gəlincə, məsələn, ona deyiləndə ki, "sən belə etmisən", o da yalandan: "Vallahi ki, etməmişəm" deyir. Əgər o yalançı olarsa, bu cəzaya layiq olmasa da günah qazanmış olur. Həmin adam yalan ilə izzət və cəlal sahibinə andı cəm etmiş olur. Beləcə onun cəzası da ikiqat artmış olur.

Gərək müsəlman izzət və cəlal sahibi Allahı əzəmətləşdirmiş olsun, çox and içməsin. And içdikdə isə doğru söz söyləsin və andına sadiq olsun. Uca Allahdan həm bizə, həm də sizə müvəffəqiyyət diləyirəm.

Üç yüz on altıncı fəsil

And içdikdən sonra başqa bir işin daha xeyirli olduğunu görən kəsin daha xeyirli olanı edib sonra andının kəffarəsini ödəməsi

Mövzu ilə əlaqəli hədislər:

١٧١٥– عَنْ عبْدِ الرَّحْمنِ بْنِ سَمُرةَ ﷺ قَالَ: قَالَ لِي رسُولُ اللَّه ﷺ: «... وَإِذَا حَلَفْتَ علَى يَمِينٍ، فَرَأَيْت غَيْرَها خَيْراً مِنهَا، فأْتِ الَّذِي هُوَ خَيْرٌ، وكفِّرْ عن يَمِينك » متفقٌ عليه.

1715. Abdur-Rahmən ibn Səmura ﷺ rəvayət edir ki, bir dəfə Rəsulullah ﷺ mənə dedi: **"And içdikdən sonra başqa bir işin ondan daha xeyirli olduğunu görsən, daha xeyirli olanı et və andının kəffarəsini ödə"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٧١٦– وعَنْ أَبي هُريْرَةَ ﷺ أَنَّ رسُولَ اللَّهِ ﷺ قالَ: « منْ حلَف عَلَى يَمِينٍ فَرأَى غَيْرَهَا خَيْراً مِنْهَا، فَلْيُكَفِّرْ عَنْ يَمِينِهِ، ولْيَفْعَلْ الَّذِي هُوَ خَيْرٌ » رواهُ مسلم.

1716. Əbu Hureyradan ﷺ nəql olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Kim and içdikdən sonra başqa bir əməlin daha xeyirli olduğunu görsə, andının kəffarəsini ödəsin və daha xeyirli olanı etsin"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١٧١٧– وَعَنْ أَبي مُوسَى ﷺ أَنَّ رسُول اللَّه ﷺ قَالَ: « إِنِّي واللَّهِ إِنْ شَاءَ اللَّه لاَ أَحلِفُ عَلَى يَمِينٍ، ثُمَّ أَرَى خَيْراً مِنهَا إِلاَّ كَفَّرْتُ عَنْ يَمِيني، وأَتيْتُ الَّذِي هُوَ خَيرٌ » متفقٌ عليه.

1717. Əbu Musadan ﷺ nəql olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Vallahi ki, mən inşəAllah and içdikdən sonra başqa bir işin daha xeyirli olduğunu gördükdə, andımın kəffarəsini verib daha xeyirli olanı edirəm".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

---

[1] "Səhih əl-Buxari", 6227; "Səhih Muslim", 3120.

[2] "Səhih Muslim", 3115.

[3] "Səhih əl-Buxari", 6133; "Səhih Muslim", 3109.

١٧١٨– وَعَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: « لأَنْ يَلَجَّ أَحَدُكُمْ في يَمِينِهِ في أَهْلِهِ آثَمُ لَهُ عِنْدَ اللَّهِ تَعَالى مِنْ أَنْ يُعْطِيَ كَفَّارَتَهُ الَّتي فَرَض اللَّه عَلَيْهِ» متفقٌ عليه.

قولُهُ: « يلَجَّ » بِفَتْحِ اللَّلامِ، وَتَشْدِيدِ الجيمِ: أَيْ يتمادَى فِيها، وَلاَ يُكَفِّرُ، وقولُه: «آثَمُ » بالثاءِ المثلثة، أَيْ: أَكْثَرُ إِثْماً.

1718. Əbu Hureyradan ﷺ nəql olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Birinizin öz əhli ilə bağlı içdiyi andı pozmamaqda israr etməsi, onu pozub Allahın ona fərz etdiyi kəffarəni ödəməklə andını pozmasının günahından daha böyükdür"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.

Şərh:

Müəllif ﷺ "**And içdikdən sonra başqa bir işin daha xeyirli olduğunu görən adamın daha xeyirli olanı edib sonra andının kəffarəsini ödəməsi"** fəslini qeyd edir. Çünki bir şeyə and içən insan gərək andına sadiq olsun və onu pozmasın. Ancaq vacibi tərk edəcəyinə and içən gərək andını pozsun. Məsələn, birisi desə ki: "Vallahi, bu gün camaatla namaz qılmayacağam", bunu etməsi ona haramdır. Çünki camaat namazı vacibdir. Ola bilsin, belə bir hal baş versin ki, atası birisinə: "Məndən uzaqlaş!" desin, o da and içsin ki, "Vallahi, bu gün sizin acığınıza camaat namazı qılmayacağam". Bəzi səfehlər belə edirlər.

Belə and içənə deyirik ki, bu caiz deyil. Gərək gedib camaatla namaz qılasan və andının kəffarəsini ödəyəsən. Əgər aralarında baş vermiş anlaşılmazlığa görə and içib: "vallahi, əmim oğlu ilə danışmayacağam" desə, bu da haramdır. Çünki bununla o, qohumluq əlaqələrini kəsmiş və qardaşından uzaqlaşmış olur. Deyirik ki, onunla danış və andının kəffarəsini ver.

Yaxud atası ona zöhr namazının nafiləsini qılmağı əmr edir, o da deyir ki, "vallahi, sənin acığına onu qılmayacağam". Deyirik ki, yaxşı olar ki, onu qılasan və andının kəffarəsini ödəyəsən. Lakin bunu etmək vacib deyil. Çünki zöhrün nafiləsini qılmaq vacib deyil.

Xülasə, insan and içdikdən sonra başqa bir işin daha xeyirli olduğunu bildikdə, andının kəffarəsini ödəyib daha xeyirli olanı etməlidir. O, ixtiyar sahibidir – istəsə birinci həmin əməli edib sonra kəffarəni ödəyər, istəsə də birinci kəffarəni ödəyib sonra əməli edər.

Müəllif bəzi hədisləri qeyd etmişdir ki, onlardan Abdur-Rahmən ibn Səmuradan nəql olunan hədisdə Rəsulullah ﷺ demişdir: **"And içdikdən sonra başqa bir işin ondan daha xeyirli olduğunu görsən, daha xeyirli olanı et və andının kəffarəsini ödə".** Bu, Peyğəmbərin ﷺ sözüdür. Onun etdiyinə gəlincə isə o demişdir: **"Vallahi ki, mən inşəAllah and içdikdən sonra başqa bir işin daha xeyirli olduğunu gördükdə, andımın kəffarəsini verib daha xeyirli olanı edirəm".** Bununla, yəni söz və əməllə olan sünnə ilə sabit olur ki, insan bir şeyə and içdikdən sonra başqa bir işin daha xeyirli olduğunu görərsə, daha xeyirli olanı edib andının kəffarəsini ödəməlidir. Belə etməyəcəksə, onda andını qorumalı və onu pozmamalıdır. Uca Allah buyurur: **"Andlarınızı qoruyun"**[1]. Müvəffəq edən Allahdır.

[1] "əl-Maidə" surəsi, 89.

Üç yüz on yeddinci fəsil

Səhvən içilən andın kəffarəsi əfv olunur. Bu, qəsd olmadan içilən andlara deyilir. Misal üçün, birisi adətən: "vallahi yox, hə vallah" və buna bənzər başqa ifadələr deyir

Mövzu ilə əlaqəli ayə:
Uca Allah buyurur:

﴿ لَا يُؤَاخِذُكُمُ ٱللَّهُ بِٱللَّغۡوِ فِيٓ أَيۡمَٰنِكُمۡ وَلَٰكِن يُؤَاخِذُكُم بِمَا عَقَّدتُّمُ ٱلۡأَيۡمَٰنَۖ فَكَفَّٰرَتُهُۥٓ إِطۡعَامُ عَشَرَةِ مَسَٰكِينَ مِنۡ أَوۡسَطِ مَا تُطۡعِمُونَ أَهۡلِيكُمۡ أَوۡ كِسۡوَتُهُمۡ أَوۡ تَحۡرِيرُ رَقَبَةٖۖ فَمَن لَّمۡ يَجِدۡ فَصِيَامُ ثَلَٰثَةِ أَيَّامٖۚ ذَٰلِكَ كَفَّٰرَةُ أَيۡمَٰنِكُمۡ إِذَا حَلَفۡتُمۡۚ وَٱحۡفَظُوٓاْ أَيۡمَٰنَكُمۡ ﴾

"Allah, qəsdiniz olmadan içdiyiniz andlara görə sizi hesaba çəkməz, lakin O, qəsdən içdiyiniz andlara görə sizi hesaba çəkəcəkdir. Bunun kəffarəsi ailənizə yedirtdiyinizin orta hesabı dəyərində on kasıbı yedirtmək, yaxud onları geyindirmək, yaxud da bir kölə azad etməkdir. *Bunları* tapmayan kəs üç gün *dalbadal* oruc tutmalıdır. And içib *sonra onu pozduğunuza görə* andlarınızın kəffarəsi budur. *Elə isə* andlarınızı qoruyun!".[1]

Mövzu ilə əlaqəli hədis:

١٧١٩– وَعَنْ عَائِشَةَ ﵂ قَالَتْ: أُنْزِلَتْ هَذِهِ الآيَةُ: {لا يُؤَاخِذُكُمُ اللَّه بِاللَّغْو فِي أَيْمَانِكُمْ} فِي قَوْلِ الرَّجُلِ: لا واللَّهِ، وَبَلى واللَّهِ. رواه البخاري.

1719. Aişə ﵂ demişdir: **"Allah, qəsdiniz olmadan içdiyiniz andlara görə sizi hesaba çəkməz"** ayəsi bir kişinin: "vallahi yox, hə vallah" deməsinə görə nazil olmuşdur.

Bu hədisi Buxari rəvayət etmişdir.[2]

---

[1] "əl-Maidə" surəsi, 89.

[2] "Səhih əl-Buxari", 4247.

Şərh:

Müəllif ﵀ **"Səhvən içilən andın kəffarəsi əfv olunur..."** fəslini qeyd edir.

Səhvən and, insanın qəlbində qəsd etmədən dilində söylədiyi anda deyilir. Uca Allah onu əfv etmişdir. Çünki bir çox hallarda insan: "yox vallahi, hədiyyə etmərəm, vallah etmərəm" və ya buna bənzər başqa sözlər deyir. Bu sözlər insanın dilində çoxalsa da, Allah onu əfv etmişdir. Uca Allah buyurur: **"Allah, qəsdiniz olmadan içdiyiniz andlara görə sizi hesaba çəkməz".**[1] Möminlərin anası Aişə ﵂ bunu belə təfsir etmişdi ki, bu, bir adamın danışıq əsnasında qəsdi olmadan: "yox vallah, hə vallah" deməsinə görə nazil olmuşdur. Buna görə insan məsul tutulmur və günah qazanmır. Bu anda riayət olunmamalıdır və onun kəffarəsi də yoxdur.

Amma əgər müsəlman şüurlu şəkildə qəti and içərək desə ki. vallahi ki, bunu etməyəcəyəm, vallahi ki, bunu edəcəyəm", sonra da onu etməsə, kəffarə ödəməlidir. Belə bir andın da kəffarəsi on nəfər kasıbı yedirtmək və ya geydirmək, yaxud da bir nəfər qul azad etməkdir. Uca Allah ilk öncə yemək yedirməklə başlamışdır. Çünki o, bu üç növ arasında ən asan olanıdır: "**Bunun kəffarəsi ailənizə yedirtdiyinizin orta hesabı dəyərində on kasıbı yedirtmək, yaxud onları geyindirmək, yaxud da bir kölə azad etməkdir".** Əgər *buna imkanı və ya istəyi* olmasa, o, üç gün ardıcıl oruc tutmalıdır. Bu, Uca Allahın rəhmətindəndir ki, qəsdsiz olaraq dillərdə təkrarlanan andlara görə günah və kəffarə olmur. Çünki bu, çox təkrarlanır.

Ancaq bununla belə izzət və cəlal sahibi buyurur: **"Andlarınızı qoruyun!"** Yəni çox and içməyin və onu pozduqda kəffarəni tərk etməyin. Əksinə, andlarınızı qoruyun. Çünki and məsuliyyətli işdir. Buna görə də andlarına müxalif iş görənləri Peyğəmbər ﷺ "andı pozanlar" adlandırmışdır. Çünki Allahın mərhəməti olmasaydı, insan hər dəfə and içdikdə ona riayət etməli idi. Lakin Allahın nemətindəndir ki, günah olmadığı təqdirdə, insana içdiyi andı poza bilməsinə icazə vermişdir. Müvəffəq edən Allahdır.

[1] "əl-Maidə" surəsi, 89.

Üç yüz on səkkizinci fəsil

Doğru danışsa belə, ticarət zamanı and içməyin bəyənilməməsi

١٧٢٠– عَنْ أَبي هُرَيْرَةَ ﷺ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يقُولُ: «الحَلِفُ منْفَقَةٌ للسِّلْعَةِ، مَمْحَقَةٌ للْكَسْبِ » متفقٌ عليه.

1720. Əbu Hureyra ﷺ rəvayət edir ki, mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"And içmək malın bərəkətini aparır, gəliri azaldır"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٧٢١– وَعَنْ أَبي قَتَادَةَ ﷺ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: « إِيَّاكُمْ وَكَثْرَةَ الحلِفِ فِي الْبَيْعِ، فَإِنَّهُ يُنَفِّقُ ثُمَّ يَمْحَقُ » رواه مسلم.

1721. Əbu Qatədə ﷺ rəvayət edir ki, mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Alış-veriş vaxtı çox and içməkdən çəkinin. Çünki o, bərəkəti aparır və gəliri azaldır".**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

Şərh:

Müəllif ﷺ **"Doğru danışsa belə, ticarət zamanı and içməyin bəyənilməməsi"** fəslini qeyd edir. Yəni, insanın ticarət zamanı and içməsi bəyənilmir. Məsələn, doğru olsa belə, and içib: "vallahi, bunu yüz riala almışam" deməsi məkruhdur. Yalan danışarsa isə bu, zülm üzərinə zülm olar. Allah qorusun. Əgər, məsələn, səksənə aldığı halda yüzə aldığını deyərsə, bu daha şiddətli olar. Çünki bu zaman o, ticarət zamanı yalandan and içmiş olur.

Peyğəmbər ﷺ bunu qadağan etmişdir. Necə ki, Əbu Hureyranın hədisində: "Bu bərəkəti aparır və gəliri azaldır"– deyilir. Yəni o, and içməklə malı artsa belə, Allah onun bərəkətini aparır, gəlirini isə azaldır. Çünki bu gəlir Rəsulullaha ﷺ asi olmaq üzərində qurulur. Rəsulullaha ﷺ asi olmaq isə Allaha asi olmaqdır.

---

[1] "Səhih əl-Buxari", 1945; "Səhih Muslim", 3014.

[2] "Səhih Muslim", 3015.

Bir çoxları bu bəlaya düçar olurlar. Məsələn, görürsən ki, müştərilərə and-aman edir ki: "vallahi, bu yaxşı maldır, vallahi bunu filan qiymətə almışam". Doğru deyib-deməməyinin fərqi yoxdur. Bu qadağandır. Əgər Uca Allahın sənin qazancına bərəkət verməsini istəyirsənsə, çalış ki, and içmədən alış-veriş edəsən.

Əbu Qatədənin hədisi də ticarət zamanı and içməkdən çəkindirir: **"Alış-veriş vaxtı çox and içməkdən çəkinin. Çünki o, bərəkəti aparır və gəliri azaldır".**

Hər iki hədisin mənası eynidir. Hər ikisi dəlalət edir ki, insan alış-veriş zamanı and içməməlidir. Hədisin zahirinə görə çox and içənlə az and içən arasında fərq yoxdur. Lakin adətən alıcı ilə satıcı çox and içdikləri üçün bəzi alimlər bunu çox and içənlərə aid etmişlər. Allah bir adama ruzi bəxş etmək istədikdə, onu andsız da bəxş edir. Allahdan diləyirik ki, bizlərə və sizlərə halal ruzi bəxş etsin.

Üç yüz on doqquzuncu fəsil

İnsanın Allahın üzü xatirinə Cənnətdən başqa bir şey diləməsinin bəyənilməməsi; Uca Allah xatirinə istəyən və yardım diləyən kəsə verməməyin də bəyənilməməsi

Mövzu ilə əlaqəli hədislər:

١٧٢٢– عَنْ جابرٍ ﵁ قَال: قالَ رسُولُ اللَّهِ ﷺ: « لا يُسْأَلُ بوَجْهِ اللَّهِ إلاَّ الجَنَّةُ » رواه أبو داود.

1722. Cabirdən ﵁ rəvayət olunur ki, Allahın elçisi ﷺ demişdir: **"Allahın üzü ilə yalnız Cənnət istənilər"**.

Hədisi Əbu Davud rəvayət etmişdir.[1]

١٧٢٣– وَعَن ابْن عُمَرَ ﵄ قَالَ: قَال رسُولُ اللَّهِ ﷺ: « مَنِ اسْتَعَاذَ بِاللَّهِ، فأَعِيذُوهُ، ومنْ سَأَل باللَّهِ، فَأَعْطُوهُ، وَمَنْ دَعَاكُمْ، فَأَجِيبُوه، ومَنْ صنَع إِلَيْكُمْ معْرُوفاً فَكَافِئُوهُ، فَإِنْ لمْ تَجِدُوا مَا تُكَافِئُونَهُ به، فَادَعُوا لَهُ حَتَّى تَرَوْا أَنَّكُمْ قَدْ كَافَأْتُموهُ » حديثٌ صَحِيحٌ، رواهُ أَبُو داود، والنسائي بأسانيد الصحيحين.

1723. İbn Ömər ﵄ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Kim Allaha sığınarsa, onu sığındırın. Kim Allahın adı ilə istəyərsə, *istədiyini* ona verin. Kim sizi dəvət edərsə, dəvətini qəbul edin. Kim sizə yaxşılıq edərsə, onu mükafatlandırın. Əgər mükafat verməyə bir şey tapmasanız, onun üçün dua edin. Bununla siz onu mükafatlandırmış olarsınız"**.

Hədis səhihdir, onu Əbu Davud və ən-Nəsai səhih isnadlarla rəvayət etmişlər.

Şərh:

Müəllif ﵀ "**İnsanın Allahın üzü xatirinə Cənnətdən başqa bir şey diləməsinin bəyənilməməsi; Uca Allah xatirinə istəyən və yardım diləyən kəsə verməməyin də bəyənilməməsi**" fəslini qeyd edir.

---

[1] "Sunən Əbu Davud", 1423.

Uca Allahın üzü, izzət və cəlal sahibi Allahın sifətlərindəndir. Uca Allah buyurur: **"*Yer* üzündə olan hər kəs ölməyə məhkumdur. Ancaq Rəbbinin əzəmətli və kəramətli Üzü əbədidir".**[1]

Hər şey, hər nə varsa məhvə məhkumdur. Yalnız izzət və cəlal sahibi Allahın Üzü əbədidir: **"Ancaq Rəbbinin əzəmətli və kəramətli Üzü əbədidir".** Buna görə bəzi alimlər demişlər ki, Uca Allahın: **"Ancaq Rəbbinin əzəmətli və kəramətli Üzü əbədidir"** sözü özündən əvvəlkilərə aid edilir ki, izzət və cəlal sahibi Allahın kamilliyi bəlli olsun. Çünki Allah əbədidir və fani deyil.

Uca Allahın üzü əzəmətlidir, insanın da istəyə biləcəyi ən böyük şey Cənnətdir. Uca Allah buyurur: **"Kim Oddan uzaqlaşdırılıb Cənnətə daxil edilərsə, o, əlbəttə, uğur qazanmış olar".**[2] Bu, ən böyük uğurdur və ondan daha üstün bir uğur yoxdur: **"Kim Oddan uzaqlaşdırılıb Cənnətə daxil edilərsə, o, əlbəttə, uğur qazanmış olar".** Allahdan diləyirik ki, bizləri onlardan etsin.

Cənnət insanın istəyə biləcəyi ən böyük nemət olduğu üçün Allahın üzü ilə də yalnız onun istənilməsi buyurulmuşdur. Dünya nemətlərindən heç bir şey Allahın üzü ilə istənilməz. "Səndən Üzünün xatirinə diləyirəm ki, mənə yaşamağım üçün ev, minməyim üçün avtomobil və ya bir başqa şey nəsib et" demə, çünki Allahın Üzü dünya nemətləri istənilməsindən daha əzəmətlidir. Dünyada olan hər şey kiçik, hər şey fanidir. İzzət və cəlal sahibi Allaha yaxınlaşdıran əməllər istisna olmaqla, dünyada xeyir yoxdur – hər şey itkidir. İzzət və cəlal sahibi Allah buyurur: **"And olsun axşamçağına ki, insan ziyan içindədir".**[3]

"Əsr" (axşamçağı) bir zamandır və bu dünyaya aiddir. Uca Allah əsr çağına and içir ki, insanlar ziyan içindədirlər. Bu dörd vəsfi özündə cəm edənlərdən başqa ondan heç kəs faydalana bilmir:

Birincisi, **"o kəslərdən başqa ki, onlar iman gətirərlər".**

İkincisi, **"yaxşı işlər görərlər".**

Üçüncüsü, **"bir-birilərinə haqqı tövsiyə edərlər".** Yəni bir-birilərinə haqqı tövsiyə edərlər.

---

[1] "ər-Rəhman" surəsi, 26-27.

[2] "Ali İmran" surəsi, 185.

[3] "əl-Əsr" surəsi, 1-2.

Dördüncüsü, **"bir-birilərinə səbri tövsiyə edərlər".**[1] Yəni haqq və dəvət yolunda səbirli olmağı, habelə Allahın qədərinə və başqa hallarda səbir etməyi tövsiyə edərlər.

Mühüm olan odur ki, Allahın üzü ilə yalnız Cənnəti və Cənnətə yaxınlaşdıran işləri diləməliyik. Həmçinin Allahın üzü ilə Cəhənnəmdən qurtulmağı diləyə bilərsən. Çünki insan Cəhənnəmdən qurtularsa, Cənnəti qazanmış olar. Yalnız iki *gedəcək* yer var: kafirlərin yeri olan Cəhənnəm, Allah bizləri və sizləri ondan qorusun, bir də mömin və müttəqilərin evi olan Cənnət. Birdən desən ki, "Sənin üzünlə Səndən diləyirəm ki, məni Cəhənnəm odundan qoruyasan", bunda bir qəbahət yoxdur. Çünki Uca Allah səni Cəhənnəmdən qorusa, Cənnətinə daxil edəcəkdir.

Bu hədisin isnadı zəifdir, lakin mənası səhihdir – Allahın üzü ilə yalnız əzəmətli bir şey istəməlisən.

İbn Ömərdən ﵄ nəql olunan hədisdə deyilir: **"Kim Allaha sığınarsa, onu sığındırın"**.[2] Yəni mənası odur ki, birisi sənə desə ki: "Səndən Allaha sığınıram", onu sığındır və onu tərk et. Necə ki, bunu Peyğəmbərin ﷺ evləndiyi bir qadın etmişdi. O ona yaxınlaşdıqda qadın: "Səndən Allaha sığınıram" dedi, Peyğəmbər ﷺ də ona dedi: "Çox əzəmətli olana sığındın. Get ailənin yanına".[3] Beləcə o, Allaha sığındığı üçün onu tərk etdi.

Kimsə səndən Allaha sığınarsa, onu sığındır. Yalnız vacib bir haqdan sığınmaq istisnadır. Bu zaman Allah onu sığındırmır. Əgər o sənə lazımdırsa və ondan haqqını istəyib: "Mənim haqqımı ver" desən, o da desə ki: "Səndən Allaha sığınıram", bu zaman onu sığındırma. Çünki Allah hissi davranan kəsi sığındırmaz. Yox, əgər həmin iş haram deyilsə və o səndən Allaha sığınarsa, izzət və cəlal sahibi Allaha təzim olaraq onu sığındır.

"Kim Allahın adı ilə istəyərsə, *istədiyini* ona verin". Kimsə səndən istəyib desə ki, Allah xatirinə bunu mənə ver, ona istədiyini ver. Əgər səndən haram bir şey istəyərsə, vermə. Məsələn, birisi sənə desə ki, Allah xatirinə ailənlə nə etdiyini söylə, bu barədə ona xəbər vermək olmaz. Əksinə, ona nəsihət ver və de ki, sənə aid olmayan işlərlə başını qatma. Peyğəmbər ﷺ demişdir: **"İnsanın özünə aid olmayanı tərk etməsi onun**

[1] "əl-Əsr" surəsi, 3.

[2] "Sunən Əbu Davud", 1424; "Sunən ən-Nəsai", 2520.

[3] "Səhih əl-Buxari", 4852.

İslamının gözəlliyindəndir".[1] Əgər səndən Allah xatirinə haram bir şey istəyərsə, vermə. Məsələn, desə ki, Allah xatirinə mənə pul ver, siqaret alım, vermə. Çünki o haram bir şey almaqdan ötrü səndən pul istəyir.

Mühüm olan odur ki, birisi səndən haram olmayan bir şeyi Allah xatirinə istəyərsə, ver. Gərək istənilən şey də zərərli olmasın. Əgər zərərlidirsə, vermə. Çünki Peyğəmbər ﷺ demişdir: **"Zərər vermə, zərərə də məruz qalma".**[2]

"Kim sizə yaxşılıq edərsə, onu mükafatlandırın". Kimsə sənə yaxşılıq edərsə, məsələn, sənə bir şeylə yardım etdikdə, yaxud ondan hər hansı bir işdə istifadə etdikdə, ona mükafatını ver, mükafat əvəzi yetərli bildiyin bir şeyi ona ver. Əgər mükafat verə bilməsən və ya həmin adam mükafatlandırılası birisi deyilsə, yəni məsələn, rəhbər, nazir, rəis və ya buna bənzər başqa bir adam olarsa, onun üçün dua et və əmin ol ki, onu mükafatlandırdın.

"Kim sizi dəvət edərsə, dəvətini qəbul edin". Kimsə səni evinə və ya kiçik və ya böyük olmağından asılı olmayaraq, qonaqlığa dəvət edərsə, ona cavab ver. Lakin burada da sənə zərərin olmaması şərtdir. Əgər bunun sənə zərəri olacaqsa, dəvətə cavab vermə. Əgər həmin adam tərk olunası birisidirsə, o zaman da dəvətə cavab vermə. Yaxud adamın malında haramçılıq varsa, yaxud bilsən ki, onun dəvətinə icabət etmək məsləhət deyil, – ola bilsin ki, haram iş görər, – bu zaman dəvəti qəbul etmə.

Toy qonaqlığı barəsində isə Peyğəmbər ﷺ demişdir: **"Kim bu dəvətə cavab verməzsə, Allaha və Onun elçisinə asi olmuş olar".** Toyda sənə zərər və ya münkər yoxdursa, bəy səni toya dəvət edirsə, dəvəti qəbul et. Əgər bunda sənə zərər varsa, bu zaman dəvəti qəbul etməyin vacib deyil. Əgər toyda münkər varsa və sən həmin münkəri aradan qaldırmaq iqtidarındasansa, o zaman dəvəti qəbul et, get və münkəri dəyiş. Əks təqdirdə, cavab vermə. Müvəffəq edən Allahdır.

[1] "Sunən ət-Tirmizi", 2239.

[2] "Sunən İbn Macə", 2331.

Üç yüz iyirminci fəsil

Sultana “şahənşah” deməyin haramlığı. Çünki bunun mənası “şahlar şahı”dır. Bu vəsf isə yalnız Allaha aid ola bilər

Mövzu ilə əlaqəli hədis:

١٧٢٤– عَنْ أَبي هُرَيْرَةَ ﷺ عن النَّبِيِّ ﷺ قال: « إِنَّ أَخْنَعَ اسمٍ عندَ اللَّهِ عزَّ وجَلَّ رَجُلٌ تَسَمَّى مَلِكَ الأَملاكِ » متفق عَلَيه.

1724. Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **“Şübhəsiz ki, izzət və cəlal sahibi Allahın yanında ən xoşagəlməz ad birisinə “şahlar şahı” deyilməsidir”**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.

Üç yüz iyirmi birinci fəsil

Fasiq və bidətçiyə “cənab” və ya buna bənzər sözlər deyilməsinin qadağan olması

Mövzu ilə əlaqəli hədis:

١٧٢٥– عن بُرَيْدَةَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: « لا تَقُولُوا لِلْمُنَافِقِ سَيِّدٌ، فَإِنَّهُ إِنْ يكُ سَيِّداً، فَقَدْ أَسْخَطْتُمْ رَبَّكُمْ عزَّ وَجَلَّ » رواه أبو داود بإسنادٍ صحيحٍ.

1725. Bureydə ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **“Münafiqə cənab deməyin. Əgər o cənab olsa belə, siz izzət və cəlal sahibi Rəbbinizi qəzəbləndirmiş olursunuz”**.

Hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.

Üç yüz iyirmi ikinci fəsil

Qızdırmanı söyməyin bəyənilməməsi

Mövzu ilə əlaqəli hədis:

١٧٢٦– عنْ جَابرٍ رضي الله عنه أَنَّ رسُول اللَّهِ ﷺ دخَلَ على أُمِّ السَّائبِ، أَوْ أُمِّ الْمُسَيَّبِ فقَالَ: « مَالَكِ يا أُمَّ السَّائبِ أَوْ يَا أُمِّ الْمُسيَّبِ تُزَفْزِفينَ؟ » قَالَتْ: الحُمَّى لا بارَكَ اللَّه فِيهَا، فَقَالَ: « لا تَسُبِّي الحُمَّى، فَإِنَّهَا تُذْهِبُ خَطَايا بَني آدم، كَما يُذْهِبُ الْكِيرُ خَبثَ الحدِيدِ » رواه مسلم.

« تُزَفْزِفِينَ » أَيْ: تَتَحرَّكِينَ حرَكَةً سريعَةً، ومَعْناهُ: تَرْتَعِدُ، وَهُوَ بضمِّ التاءِ وبالزاي المكررة والفاء المكررة، ورُوِي أَيضاً بالراءِ المكررة والقافين.

1726. Cabirdən رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ bir dəfə Ummus-Saibin – və ya Ummul-Museyyibin yanına daxil oldu və dedi: **"Sənə nə olub, ey Ummus-Saib – və ya ey Ummul-Museyyib, niyə əsirsən?"** Dedi: "Qızdırmadır, Allah ona bərəkət verməsin". Dedi: **"Qızdırmanı söymə, çünki ərimə dəmirin pasını apardığı kimi, o da Adəm övladının xətalarını aparır"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

[Hədisin ərəbcəsindəki] "tuzəfzifin" sözü "əsmək və sürətli hərəkət etmək"dir.[2]

Şərh:

Müəllif رحمه الله "Salehlər bağçası" əsərində **"Qızdırmanı söyməyin bəyənilməməsi"** fəslini qeyd edir.

Qızdırma (ərəbcə: əl-hummə), xəstəliyin bir əlamətidir və istiliklə təzahür edir. Onun müxtəlif növləri vardır. Lakin bu, izzət və cəlal sahibi Allahın təqdiri ilə baş verir. Onun baş verməsini təqdir edən də, onu aradan qaldıran da nöqsansız və Uca Allahdır. İnsanın da Allahın feillərindən hər hansı birini söyməsi caiz deyil. Çünki onu söymək onu yaradan Allahı

[1] "Səhih Muslim", 4672.

[2] "Səhih İbn Hibban", 7/200.

söymək kimidir. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Zamanı söyməyin, çünki zaman Allahdır"**.[1]

Burada Cabirdən رضي الله عنه nəql olunmuş hədis vardır. Hədisdə deyilir ki, Peyğəmbər ﷺ bir dəfə Ummul-Museyyibin və ya Ummus-Saibin yanına daxil olub görür ki, o, titrəyir. Yəni qızdırmadan taqətdən düşüb. Onun: **"Niyə əsirsən?"** sualına qadın deyir ki: "Qızdırmadır, Allah ona bərəkət verməsin".

Bu zaman Peyğəmbər ﷺ: **"Qızdırmanı söymə, çünki ərimə dəmirin pasını apardığı kimi, o da Adəm övladının xətalarını aparır"**– deyib onu söyməyi *ona və ümmətinə* qadağan edir.

Gərəkdir ki, insan xəstələndikdə səbir edib bunun əcrini izzət və cəlal sahibi Allahdan umsun. Peyğəmbər ﷺ xəbər verir ki, dəmiri qızdırdıqda onun pası getdiyi kimi, xəstəlik də insanın günahlarını o cür aradan qaldırır. Odun üzərində olan dəmirin pası gedib saflaşdığı kimi, qızdırma da insanı elə edir.

Bunun müalicəsi üçün vasitələri da vardır ki, onlardan biri də soyuq sudur. Peyğəmbər ﷺ qızdırmanın Cəhənnəm alovundan olduğunu xəbər verərək bizə əmr etmişdir ki, onu soyuq su ilə söndürək. Müasir dövrümüzdə həkimlər təsdiq edirlər ki, qızdırmanın ən gözəl müalicələrindən biri elə soyuq sudur. Hətta qızdırması olan adamı soyuq kondisionerlərin yanına qoyurlar ki, qızdırması ona zərər verməsin. Ya da parçanı suda isladıb xəstənin üzərinə qoyurlar. Çünki qızdırma, məlum olduğu kimi, bir hərarətdir. Bu su da onu soyudaraq aradan qaldırır. Bunu Rəsulullah ﷺ xəbər vermişdir. Rəsulullahın ﷺ xəbər verdiyi hər bir şey isə haqdır.

Mühüm olan odur ki, insan üzləşdiyi bütün xəstəliklərdə səbir etməli, onları söyməməli və bunun əcrini Allahdan ummalıdır. Müvəffəq edən Allahdır.

[1] "Səhih Muslim", 4169.

Üç yüz iyirmi üçüncü fəsil

Küləyi söyməyin qadağan olması və külək əsdikdə nə deyilməsinin bəyanı

Mövzu ilə əlaqəli hədislər:

١٧٢٧– عَنْ أَبي المُنْذِرِ أُبَيِّ بْنِ كَعْبٍ ﵁ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: « لا تَسُبُّوا الرِّيحَ، فَإِذَا رَأَيْتُمْ ما تَكْرَهُونَ، فَقُولُوا: اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ مِنْ خَيْرِ هذِهِ الرِّيحِ وخَيْرِ مَا فِيهَا وخَيْرِ ما أُمِرَتْ بِهِ، وَنَعُوذُ بِكَ مِنْ شَرِّ هَذِهِ الرِّيحِ وَشَرِّ ما فيها وشرِّ ما أُمِرَتْ بِهِ » رواه الترمذي وقَالَ: حَديثٌ حسنٌ صحيح.

1727. Əbul-Munzir Ubey ibn Kəbin ﵁ belə dediyi rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Küləyi söyməyin! Xoşunuza gəlməyən bir şey gördükdə: "Allahım, bu küləyin xeyrini, ondakı xeyri və əmr olunduğu xeyri Səndən diləyirik; bu küləyin şərindən, ondakı şərdən və əmr olunduğu şərdən Sənə sığınırıq"– deyin".**

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən səhihdir"– demişdir.[1]

١٧٢٨– وعنْ أَبي هُرَيْرةَ ﵁ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: الرِّيحُ مِنْ رَوْحِ اللَّهِ تَأْتِي بِالرَّحْمَةِ، وَتَأْتِي بالعَذَابِ، فَإِذا رَأَيْتُمُوهَا فَلا تَسُبُّوهَا، وَسَلُوا اللَّه خَيْرَهَا، واسْتَعِيذُوا باللَّهِ مِنْ شَرِّهَا » رواه أبو داود بإسناد حسنٍ.

قوله ﷺ: « مِنْ رَوْحِ اللَّهِ » هو بفتح الراءِ: أَيْ رَحْمَتِهِ بِعِبَادِهِ.

1728. Əbu Hureyra ﵁ rəvayət edir ki, mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Şübhəsiz ki, külək Allahın mərhəmətindəndir – bəzən rəhmətlə gəlir, bəzən də əzabla. Onu gördükdə söyməyin, onun xeyrini Allahdan diləyin, Onun şərindən də Allaha sığının".**

Hədisi Əbu Davud həsən isnadla rəvayət etmişdir.[2]

[Hədisin ərəbcəsindəki] "min rauhi-lləh" ifadəsi "Allahın qullarına qarşı mərhəmətindəndir" deməkdir.

---

[1] "Sunən ət-Tirmizi", 2178.

[2] "Sunən Əbu Davud", 4433.

١٧٢٩– وعنْ عَائِشَةَ ﵂ قَالَتْ: كَانَ النَّبِيُّ ﷺ إذا عَصِفَتِ الرِّيح قالَ: «اللَّهُمَّ إِني أَسْأَلُكَ خَيْرَهَا، وَخَيْرِ مَا فِيهَا، وخَيْر ما أُرسِلَتْ بِهِ، وَأَعُوذُ بك مِنْ شَرِّهِا، وَشَرِّ ما فِيها، وَشَرِّ ما أُرسِلَت بِهِ » رواه مسلم.

1729. Rəvayət olunur ki Aişə ﵂ demişdir: "Peyğəmbər ﷺ külək əsdikdə deyərdi: «**Küləyi söyməyin! Xoşunuza gəlməyən bir şey görsəniz deyin: "Allahım, bu küləyin xeyrini, ondakı xeyri və onunla göndərilənin xeyrini Səndən diləyir, bu küləyin şərindən, ondakı şərdən və onunla göndərilənin şərindən Sənə sığınırıq"**».

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Şərh:

Müəllif ﵀ "**Küləyi söyməyin qadağan olması və külək əsdikdə nə deyilməli olmasının bəyanı"** fəslini qeyd edir.

Küləklər hərəkəti, keyfiyyəti və göndərilməsinə görə izzət və cəlal sahibi Allahın möcüzələrindəndir. Belə ki, izzət və cəlal sahibi Allahdan başqa heç kim onların qarşısını ala bilməz. Uca Allah bu xüsusda buyurur: **"Həqiqətən, göylərin və yerin yaradılışında, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıl sahibləri üçün dəlillər vardır".**[2]

Yenə Uca Allah buyurur: **"Küləkləri Öz mərhəməti önündə *yağışdan qabaq* müjdəçi olaraq göndərən Odur".**[3]

Yenə O buyurur: **"Sizə Öz mərhəmətindən daddırsın, əmri ilə gəmilər üzsün, Onun lütfünü arayasınız və *sizə verdiyi nemətlərə* şükür edəsiniz deyə külәkləri müjdəçi göndərməsi də Onun dəlillərindəndir".**[4]

Bu xüsusda ayələr olduqca çoxdur.

Uca Allahın yaratdığı və əsdirdiyi bu küləklər iki qismdir:

Birinci qismi adi küləkdir – o əsir və heç bir zərər toxundurmur.

İkinci qismi isə qasırğalardır. Bu isə qorxuludur, çünki Ad qövmünü Uca Allah külək vasitəsilə məhv etmişdir. Allah qorusun. Odur ki, külək

[1] "Səhih Muslim", 1496.

[2] "Ali İmran" surəsi, 190.

[3] "əl-Furqan" surəsi, 48.

[4] "ər-Rum" surəsi, 46.

əsdikdə onu söymək olmaz. Çünki o küləyi izzət və cəlal sahibi Allah göndərmişdir. Onu söydükdə sən Uca və böyük Allahı söymüş olursan. Sən Peyğəmbərin ﷺ dediyi kimi de: **"Allahım, bu küləyin xeyrini, ondakı xeyri və onunla göndərilənin xeyrini Səndən diləyir, bu küləyin şərindən, ondakı şərdən və onunla göndərilənin şərindən Sənə sığınırıq"**. Bu duanı etməklə küləyin xeyiri sənə çatacaq, şəri isə səndən uzaqlaşacaq.

"Küləyin xeyrini Səndən diləyirik". Çünki bu küləklər bəzən güclü qasırğalara çevrilir, evləri dağıdır, ağacları sındırır, diyarları viran qoyur.

"Ondakı xeyiri", yəni onun gətirdiyi xeyiri. Çünki külək xeyirli də ola bilər, zərərli də.

"Onunla göndərilənin xeyrini". Çünki o bəzən xeyirlə, bəzən də şərlə göndərilir. Buna görə də küləyin göndərildiyi xeyiri diləyirik.

"**Bu küləyin şərindən, ondakı şərdən və onunla göndərilənin şərindən Sənə sığınırıq".** İnsan küləyin şərindən, ondakı şərdən və onunla göndərilənin şərindən Allaha sığınaraq, onun xeyrini, ondakı xeyiri və onunla göndərilənin xeyrini diləyərsə, Allah onu küləyin şərindən qoruyar.

Bil ki, insanın küləyə, yağışın yağmasına, buludların gəlişinə bağlanmamalıdır. Çünki bu Peyğəmbərin ﷺ qadağan etdiyi "təbiətdən yağış diləməyə" aiddir. Bir çox insanlar vardır ki, cənub küləyindən yardım gözləyir və deyirlər ki, cənub küləyi əssə, yağış yağacaq. Görürsən ki, onların qəlbi cənub küləyinə bağlıdır. Bu da caiz deyildir. Çünki ola bilsin, güclü cənub küləyi olsun, ancaq nə yağış yağmasın, nə də buludlar gəlməsin. Yaxud əksinə, ola bilsin ki, şimal küləyindən sonra buludlar və yağış gəlsin. Bütün işlər izzət və cəlal sahibi Allahın əlindədir. Ona görə də çalış öz qəlbini yalnız uca və böyük Allaha bağlayasan və Onun yaratdığı küləyi söyməyəsən. Allahdan onun xeyrini, ondakı xeyiri və onunla göndərilənin xeyrini dilə, onun şərindən, ondakı şərdən və onunla göndərilənin şərindən Allaha sığın. Müvəffəq edən Allahdır.

Üç yüz iyirmi dördüncü fəsil

Xoruzu söyməyin qadağan olması

١٧٣٠– عنْ زَيْدِ بْنِ خَالِدٍ الجُهَنِيّ ﵁ قَالَ: قَالَ رَسُولُ اللَّه ﷺ: « لا تَسُبوا الدِّيكَ، فَإِنَّهُ يُوقِظُ للصلاةِ » رواه أبو داود بإسنادٍ صحيح.

1730. Zeyd ibn Xalid əl-Cuhənidən ﵁ rəvayət olunur ki, Allahın elçisi ﷺ demişdir: **"Xoruzu söyməyin, çünki o namaza oyadır"**.

Hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.[1]

Şərh:

Müəllif ﵀ **"Xoruzu söyməyin qadağan olması"** fəslini qeyd edir.

Xoruz toyuğun erkəyidir. Onun güclü səsi olur və o, yatanları oyadır. Bəzi xoruzlar namazların vaxtında azan verirlər. Peyğəmbər ﷺ əmr etmişdir ki, xoruzun səsini eşidən kəs Allahdan Onun fəzilətini diləsin. Sən də xoruzun səsini eşitsən, Allahdan Onun fəzilətini dilə, çünki o, mələk görüb. Bəzi xoruzlar isə namaz vaxtı və ya namaz vaxtına az qalmış banlayıb insanları namaza oyadırlar. Bu özəlliyinə görə də Peyğəmbər ﷺ onu söyməyi qadağan etmişdir.

Peyğəmbər ﷺ qarışqanı da öldürməyi qadağan etmişdir. Çünki onun qardaşları Süleyman əleyhissalamın xilas olmasına səbəb olmuşdular. Bu da izzət və cəlal sahibi Allahın ədalətindəndir ki, bəzi heyvanların insanlara faydası, özəlliyi və fəziləti olur. Bəzi insanlar ola bilsin yatdığı vaxt xoruzun banlamasından oyansın və onu söysün. Bu qadağan olunmuşdur. Çünki Peyğəmbər ﷺ demişdir: "Xoruzu söyməyin!"

Bu hədis dəlildir ki, insan onu namaza oyadacaq vasitələrdən, misal üçün zəngli saatdan istifadə etməlidir. Gərək insan bu saatlardan əldə edib ondan istifadə etsin ki, namaza oyanıb ona yetişsin. Bir çoxları bu məsələdə səhlənkardır. Onlar elə bilirlər ki, müəyyən vaxtda oyanacaqlar, lakin yuxu onlara qalib gəlir. Bunu bilirsənsə, özünə namaza qalxmaq üçün zəngli saat əldə et. Çünki bir şey onsuz alınmırsa, həmin əşya əldə olunmalıdır. Müvəffəq edən Allahdır.

---

[1] "Sunən Əbu Davud", 4437.

Üç yüz iyirmi beşinci fəsil

Bir insanın: “Filan səbəbdən yağış yağdı” deməsinin qadağan olması

Mövzu ilə əlaqəli hədis:

١٧٣١– عَنْ زَيْدِ بْنِ خَالِدٍ ﵁ قَالَ: صلَّى بِنَا رَسُولُ اللَّهِ ﷺ صَلاَةَ الصُّبْحِ بِالحُدَيْبِيَةِ فِي إِثْرِ سَمَاءٍ كَانتْ مِنَ اللَّيْلِ، فَلَمَّا انْصرَفَ أَقْبَلَ عَلى النَّاسِ، فَقَال: هَلْ تَدْرُون مَاذَا قَالَ رَبُّكُمْ؟ » قَالُوا: اللَّهُ وَرَسُولُهُ أَعلَمُ. قَالَ: « قَالَ: أَصْبَحَ مِنْ عِبَادِي مُؤمِنٌ بي، وَكَافِرٌ، فأَمَّا مَنْ قالَ مُطِرْنَا بِفَضْلِ اللَّهِ وَرَحْمتِهِ، فَذلِكَ مُؤمِنٌ بي كَافِرٌ بالْكَوْكَبِ، وَأَمَّا مَنْ قالَ: مُطِرْنا بِنَوْءِ كَذا وَكذا، فَذلكَ كَافِرٌ بي مُؤمِنٌ بالْكَوْكَبِ» متفقٌ عليه.

والسَّماءُ هُنَا: المَطَرُ.

1731. Rəvayət olunur ki, Zeyd ibn Xalid ﵁ demişdir: “Bir dəfə Rəsulullah ﷺ Hüdeybiyyədə bizlərə sübh namazını qıldırdı. Həmin vaxt səma qaranlıq idi. Namazı bitirdikdən sonra üzünü insanlara çevirib dedi: **“Heç bilirsiniz Rəbbiniz nə buyurdu?”** Dedilər: “Allah və Onun elçisi daha yaxşı bilər”. Dedi: **“Buyurdu ki: – Qullarımdan Mənə qarşı mömin kimi də səhərə çıxanlar oldu, kafir kimi də. “Allahın fəziləti və mərhəməti sayəsində bizlərə yağış yağdı” deyənlər Mənə qarşı mömin, ulduzlara qarşı kafir oldu, “filan və filan ulduza görə yağış yağdı” deyənlər isə ulduzlara qarşı mömin, Mənə qarşı kafir oldular”**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.

Buradakı “səma” sözü yağış anlamındadır.

Şərh:

Müəllif ﵀ **“Bir insanın: “Filan səbəbdən yağış yağdı” deməsinin qadağan olması”** fəslini qeyd edir.

Sonra o Zeyd ibn Xalid əl-Cuhənidən ﵁ nəql olunan hədisi gətirir. Hədisdə deyilir ki, bir dəfə onlar Peyğəmbərlə ﷺ birlikdə Hüdeybiyyədə idilər. Hüdeybiyyə hadisəsi məşhur və məlumdur. Belə ki, Peyğəmbər ﷺ ümrə ziyarəti etmək məqsədilə Məkkəyə yola çıxmış, özü ilə də qurbanlıq

dəvələr götürmüşdü. Halal ərazi ilə Haram ərazi arasındakı Hüdeybiyyə adlanan yerə çatdıqda qureyşlilər ona Məkkəyə girməyə icazə vermədilər. Sonra onlarla Peyğəmbər ﷺ arasında sülh müqaviləsi bağlanır. Gecələrin birində yağışdan sonra Peyğəmbər ﷺ insanlara sübh namazını qıldırır. Namazı bitirdikdən sonra üzünü onlara çevirib dedi: **“Heç bilirsiniz Rəbbiniz nə buyurdu?”**

O bu sualı diqqət yetirsinlər deyə vermişdi. Çünki sual vermək insanın fikrini cəlb edir. Dedilər: “Allah və Onun elçisi daha yaxşı bilər”. Adamdan şəriət məsələlərində bilmədiyi bir şeyi soruşduqda belə cavab verməlidir: “Allah və Onun elçisi daha yaxşı bilər”. Dünyəvi məsələlərdə isə: “və Onun elçisi” sözünü deməməlidir. Çünki Peyğəmbər ﷺ qeybi bilmirdi. Məsələn, biri soruşsa ki, “sənin fikrincə, sabah yağış yağacaqmı?”, deyirsən ki, “Allah bilir”. Yəni “Allah və rəsulu daha yaxşı bilir” demirsən. Çünki Peyğəmbər ﷺ buna bənzər qeyb məsələlərini bilmir. Ancaq sənə desə ki, “bu haramdır, yoxsa halal?”, deyirsən ki, “Allah və rəsulu daha yaxşı bilir”. Çünki Peyğəmbər şəriət məsələlərini bilir.

Xülasə, onlar dedilər ki, “Allah və rəsulu daha yaxşı bilir”. Bu da bir əxlaq göstəricisidir. Dedi: **“Buyurdu ki: – Qullarımdan Mənə qarşı mömin kimi də səhərə çıxanlar oldu, kafir kimi də”.** Yəni, həmin gecə izzət və cəlal sahibi Allah öz rəsuluna vəhy nazil edərək bildirmişdi ki: **“Allahın fəziləti və mərhəməti sayəsində bizlərə yağış yağdı” deyənlər Mənə qarşı mömin, ulduzlara qarşı kafir oldu, “filan və filan ulduza görə yağış yağdı” deyənlər isə ulduzlara qarşı mömin, Mənə qarşı kafir oldular”**

Buradakı “ ب / bə ” hərfi (“da, də”, “görə” qoşmaları) səbəbi bildirir. Yəni mənası budur ki, əgər sən yağışı gördüyün ulduza nisbət edib desən ki, “bu ulduzda olan bərəkət və xeyirə görə yağış yağacaq”, bu həm haram, həm də izzət və cəlal sahibi Allaha qarşı küfrdür. Çünki o, səbəbi səbəbkara, yəni izzət və cəlal sahibi Allaha nisbət etmir.

Ancaq əgər desən ki, “Allahın lütfü və mərhəməti sayəsində bu buludlardan yağış yağdı”, bunda bir qəbahət yoxdur. Çünki bununla sən etiraf edirsən ki, yağış Allahın lütfü sayəsində yağır, lakin bu bulud vasitəsilə yağıb. Bizdə adi insanların çoxu deyir ki, qış, payız kimi bu və bu fəsillərdə bizə yağış yağır. Onlar bunları səbəb kimi deyil, zaman olaraq qeyd edirlər. Yəni yağış həmin vaxtda yağır. Bunda bir problem yoxdur.

“ ب / bə” hərfini səbəb kimi göstərmiş olarsa, bu zaman Allaha qarşı küfr, ulduza isə iman etmiş olur. Sonra da etiqad etsə ki, ulduz səbəbdir, yaradan isə izzət və cəlal sahibi Allahdır, bu Allahın nemətinə qarşı küfrdür. Ancaq bu küfr insanı İslamdan çıxarmır.

Bu hədisdən bizlərə bəlli olur ki, yağış yağdıqda insan gərək: “Allahın fəziləti və rəhməti ilə yağış yağdı”– desin. Müvəffəq edən Allahdır.

Üç yüz iyirmi altıncı fəsil

Müsəlmana: “ey kafir!” deməyin haramlığı

Mövzu ilə əlaqəli hədislər:

١٧٣٢– عَنِ ابنِ عُمَرَ ﵄ قَالَ: قَالَ رَسُولُ اللَّه ﷺ: « إِذا قَالَ الرَّجُلُ لأَخِيهِ: يَا كَافِر، فَقَدْ بَاءَ بِهَا أَحَدُهُما، فَإِنْ كَان كَمَا قَالَ وَإِلاَّ رَجَعَتْ عَلَيْهِ » متفقٌ عليه.

1732. İbn Ömərdən ﵄ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **“Birisi öz qardaşına: “ey kafir!” deyərsə, ya dediyi kimi olar, ya da *söz* öz sahibinə qayıdar”**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٧٣٣– وعَنْ أَبي ذَرٍّ ﵁ أَنَّهُ سمِعَ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: « منْ دَعَا رَجُلاً بالْكُفْرِ، أَوْ قَالَ: عَدُوَّ اللَّهِ، ولَيْس كَذلكَ إِلاَّ حَارَ علَيْهِ » متفقٌ عليه. « حَارَ » رَجَعَ.

1733. Əbu Zərdən ﵁ rəvayət olunur ki, o, Rəsulullahın ﷺ belə dediyini eşitmişdir: **“Kim bir kəsi “kafir” sözü ilə çağırarsa və ya ona: “ey Allahın düşməni” deyərsə, o da dediyi kimi olmazsa, *söz* özünə qayıdar”.**

Bu hədisi Buxari rəvayət etmişdir.[2]

[Hədisin ərəbcəsindəki] “həra” sözü “qayıtmaq” deməkdir.

Şərh:

Müəllif ﵀ **“Müsəlmana: “ey kafir!” deməyin haramlığı”** fəslini qeyd edir.

Müsəlmanla kafirin hökmü izzət və cəlal sahibi Allaha aiddir. Küfrə də hökm verən Allahdır, İslama da hökm verən Allahdır. Üstəlik, halal və haram hökmünü buyuran da izzət və cəlal sahibi Allahdır. Bizlər Allahın haram buyurduğunu halal, halal buyurduğunu isə haram edə bilmərik. Həmçinin Allahın hökmündə kafir olmayanı kafir hesab edə bilmərik, Allah yanında müsəlman sayılmayan birisini də biz müsəlman adlandıra

[1] “Səhih əl-Buxari”, 5638; “Səhih Muslim”, 92.

[2] “Səhih əl-Buxari”, 5585

bilmərik. Təkfir olduqca təhlükəli məsələdir və o İslam ümmətinə olduqca təhlükəli qapılar açmışdır.

Bu xəbis yolu, yəni müsəlmanları təkfir etməyi seçən ilk toplum xəvariclər olmuşdur. Peyğəmbər ﷺ onlar barəsində buyurmuşdur: **"Onlar Quran oxusalar da oxuduqları hülqumlarını keçmir. Onların dindən çıxması oxun öz şikarını dəlib keçdiyi kimi olacaq"**.[1]

Onlar namaz qılır, sədəqə verir və Quran oxuyurdular. Səhabələr belə öz namazlarını onların namazları ilə müqayisədə naqis görürdülər. Lakin onlar müsəlmanları kafir sayaraq onların qanını, malını və qadınını halal görmüşlər. Allah qorusun.

Bu vəziyyət mövcudluğunu günümüzə qədər davam etdirməkdədir. Zəlalət əhli olan xəbis bir toplum vardır ki, Allah və Rəsulunun təkfir etmədikləri şəxsləri öz nəfsi istəklərinə görə təkfir edib: "Bu kafirdir, bu bidətçidir, bu fasiqdir" deyir, yaxud buna bənzər başqa sözlər söyləyirlər.

Bəs İslamdan çıxmış bu xəvariclərin aqibəti necə oldu? Onlar raşidi xəlifələrin dördüncüsü Əli ibn Əbu Taliblə birləşərək Şam əhlinə qarşı müharibə apardılar. Onlar bu xüsusda ittifaq etdilər və onların arasında böyük müharibələr baş verdi, çoxlu qan töküldü. Müsəlmanların qanının axıdılmasının qarşısını almaq üçün Əli ibn Əbu Talib Şam əhli ilə sülh bağladı. Bu vaxt xəvaricər ona dedilər: "Sən kafirsən! Nə üçün onlarla sülh bağlayırsan? Artıq sən də onlar kimi kafir oldun". Bununla ona qarşı çıxaraq onunla vuruşmağa başladılar. Lakin gözəl aqibət, Allaha həmd olsun ki, Əlinin oldu. O onları Ad və İrəm qəbilələri kimi məhv etdi. Ancaq bu xəbis məzhəb indiyə qədər müsəlmanlar arasında mövcuddur. Toxunulmaz olmalarına baxmayaraq, onlar müsəlmanların qanını, malını və qadınlarını mübah görür və misal üçün, deyirlər ki, kim zina edərsə, kafirdir; kim oğurluq edərsə, kafirdir; kim içki içərsə, kafirdir. Yəni onlara görə bütün böyük günahlar İslamdan çıxaran küfrdür. Allah qorusun.

Müsəlmanları təkfir edən belələri, şəkk yoxdur ki, özləri kafirdirlər. Çünki Peyğəmbər ﷺ xəbər vermişdir ki, insan öz qardaşına: "ey kafir!" deyərsə, onlardan biri kafir olur. Əgər dediyi kimsə kafirdirsə, elə olur, ya da – Allah qorusun – onu deyən kafir olur. Bu səbəbdən gərək müsəlman olan kəs dilini və qəlbini müsəlmanları təkfir etməkdən qorusun. Nəfsinin

[1] "Səhih əl-Buxari", 4670.

istəyinə görə “bu adam kafirdir” deməsin və qəlbində həmin adamın kafir olmasına etiqad etməsin. Təkfir hökmü vermək Zeydə və ya Amra aid bir məsələ deyil. Bu, Allah və Onun rəsuluna aid məsələdir – Allah və rəsulu kimi kafir hesab ediblərsə, onlar kafirdir. Desək ki, o müsəlmandır, Allah və rəsulunun müsəlman saydığı kəslər, hətta bəziləri onlara kafir desələr belə, müsəlmandır.

Buna görə də müsəlmana: “ey kafir!” və ya “ey Allahın düşməni!” deyənlərə deyirik ki, əgər xitab olunan kəs həqiqətən də kafir və ya Allahın düşmənidirsə, elədir. Yox, əgər kafir deyilsə, o zaman onu deyən kəsin özü kafir olur. Allah qorusun. Buna əsasən də əgər bunu deyənlər buna layiq deyillərsə, bu sözü demək böyük günahlardandır. Ona görə müəllif də müsəlmana: “ey kafir!”, “ey Allahın düşməni!” deməyin haram olmasını bildirmişdir. Uca Allahdan diləyirik ki, qəlblərimizi və sözlərimizi Onun qəzəbinə səbəb ola biləcək və bizə zərər verəcək söz və əməllərdən qorusun. Şübhəsiz ki, O, hər şeyə Qadirdir.

Üç yüz iyirmi yeddinci fəsil

Pis işlərin və acıdil olmanın qadağan olması

Mövzu ilə əlaqəli hədislər:

١٧٣٤– عَن ابْنِ مَسْعُودٍ ﷺ قَالَ: قَالَ رسُولُ اللَّهِ ﷺ: « لَيْس المُؤْمِنُ بالطَّعَّانِ، وَلا اللَّعَّانِ، وَلا الْفَاحِشِ، وَلا الْبَذِيء » رواه الترمذي وقال: حديثٌ حسنٌ.

1734. İbn Məsud ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Mömin tənə vuran, lənət edən, pis iş görən və kobud olan deyildir".**

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir" demişdir.[1]

١٧٣٥– وعِنْ أَنَسٍ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: « مَا كَانَ الْفُحْشُ في شَيْءٍ إِلاَّ شانَهُ، ومَا كَانَ الحَيَاءُ في شَيْءٍ إِلاَّ زَانَهُ » رواه الترمذي، وقال: حديثٌ حسن.

1735. Ənəsdən ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Əgər bir şeydə pislik olarsa, onu məhv edər, bir şeydə də həya olarsa, onu bəzəyər".**

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir" demişdir.[2]

[1] "Sunən ət-Tirmizi", 1900.

[2] "Sunən ət-Tirmizi", 1897.

Üç yüz iyirmi səkkizinci fəsil

Avam insanlarla danışarkən bəlağətli, fəsahətli danışığa səy göstərməyin, dilin incəliklərinin və qrammatik qaydalara diqqət yetirməyin bəyənilməməsi

Mövzu ilə əlaqəli hədislər:

١٧٣٦– عَنِ ابْنِ مَسْعُودٍ ﷺ أَنَّ النَّبِيَّ ﷺ قَالَ: « هَلَكَ الْمُتَنَطِّعُون » قَالَهَا ثَلاثاً. رَوَاهُ مُسْلِم.

« الْمُتَنَطِّعُونَ »: الْمُبَالِغُونَ فِي الأُمُورِ.

1736. İbn Məsuddan ﷺ nəql olunur ki, Peyğəmbər ﷺ: **"Xırdalığa varanlar həlak oldular"**– dedi və bu sözü üç dəfə təkrar etdi.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

[Hədisin ərəbcəsindəki] "əl-mutənattiun" işlərdə həddi aşanlardır.

١٧٣٧– وَعَنِ عَبْدِ اللَّهِ بْنِ عَمْرو بْنِ العَاصِ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «إِنَّ اللَّه يُبْغِضُ الْبَلِيغَ مِنَ الرِّجَالِ الَّذي يَتَخَلَّلُ بِلِسَانِهِ كَمَا تَتَخَلَّلُ الْبَقَرَةُ».

رَواه أَبو داودَ، والترمذي، وقال: حديثٌ حسن.

1737. Abdullah ibn Amr ibn Asdan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Allah, dilini inək dili kimi oynadıb bəlağətli danışan adamlara nifrət edir"**.

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən hədisdir" demişdir.[2]

١٧٣٨– وعَنْ جَابِرِ بْنِ عَبْدِ اللَّهِ ﷺ أَنَّ رَسُولَ اللَّه ﷺ قَالَ: إِنَّ مِنْ أَحَبِّكُمْ إِلَيَّ، وَأَقْرَبِكمْ مِنِّي مَجْلِساً يَوْمَ الْقِيامةِ، أَحَاسِنُكُمْ أَخْلاقاً، وَإِنَّ أَبْغَضَكُمْ إِلَيَّ، وَأَبْعَدَكُمْ مِنِّي يوْمَ الْقيَامَةِ، الثَّرْثَارُونَ، وَالْمُتَشَدِّقُونَ وَالْمُتَفَيْهِقُونَ » رواه الترمذي وقال: حديثٌ حسن، وقد سبق شرحُهُ في باب حُسْنِ الخُلقِ.

---

[1] "Səhih Muslim", 4823.

[2] "Sunən Əbu Davud", 4352; "Sunən ət-Tirmizi", 2780.

1738. Cabir ibn Abdullahdan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Sizlərdən ən çox sevdiyim, Qiyamət günü mənə ən yaxın olacaq kəslər əxlaqı ən gözəl olanınızdır. Qiyamət günü məndən ən uzaq olacaq kəslər isə çoxdanışanlar, bəlağətli və uzun-uzadı danışanlardır".**

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir" demişdir.[1]

Hədisin şərhi "Gözəl əxlaq" fəslində verilib.

Şərh:

Bütün bu hədislər insanın danışığı ilə bağlıdır. Gərək insan yalnız xeyirli sözlər söyləsin. Peyğəmbər ﷺ demişdir: **"Kim Allaha və Axirət gününə iman gətirirsə ya xeyir söz söyləsin, ya da ki, sussun"**.[2]

Xeyirli iş də ya özü-özlüyündə xeyirlidir, ya da başqasına görə xeyirlidir. Özü-özlüyündə xeyirli olan iş insanın Quran oxuması, zikr etməsi, yaxşı işlərə dəvət etməsi, pis işləri qadağan etməsi və ya buna bənzər işlər görməsidir.

Başqasına görə xeyirli olan işlər isə insanın savab olmayan sözlər danışmasıdır. Həmin sözlərlə o, dostlarının kefini açmaq, qəlblərindəki qəmqüssəni unutdurmaq istəyir. Bu da ümumi söz olsa belə, əgər insanın məqsədi söylədiyimiz kimidirsə, xeyirli işdir. Bunun əksi isə insanın acıdil, tənə vuran və lənət edən olmasıdır.

Tənə vuran, insanların nəsəbinə tənə vuran və onları ayıblayandır.

Lənət edən, çoxlu lənət edən və söyüş söyəndir. Allah qorusun. Peyğəmbər ﷺ belə adamda imanın olmamasını buyuraraq demişdir: **"Mömin tənə vuran, lənət oxuyan, kobud və acıdil birisi deyil".** Mömin olan kəs mülayim, mehriban, yumşaq davranan kəsdir.

Dilin bəlalarından biri də insanın uzun-uzadı bəlağətli danışmasıdır. Onlar adi insanların yanında dilin incəliklərinə varırlar. Həm də bunu ya riyakarlıqla edirlər ki, insanlar: "Görün ərəb dilini necə gözəl bilir"– desinlər, ya da başqa məqsədlə. Gərək insan başqaları kimi danışsın. Əsas odur ki, danışılan kəlam insanlara çatsın. Hətta adi insanların danışdığı şivədə (ləhcədə) olsa da olar. Yox, əgər elm məclisində elm tələbələrinə müraciət edirsə, bu zaman bacardığı qədər səlis ərəb dilində danışmalıdır.

---

[1] "Sunən ət-Tirmizi", 1941.

[2] "Səhih əl-Buxari", 5994; "Səhih Muslim", 67.

Müəllifin ﵀ bu fəsildə qeyd etdiyi birinci hədisdə Peyğəmbər ﷺ demişdir: **"Xırdalığa varanlar həlak oldular, xırdalığa varanlar həlak oldular, xırdalığa varanlar həlak oldular"**.

[Hədisin ərəbcəsindəki] "əl-mutənatti" sözü insanın sözündə, danışığında, əməlində, rəyində və ya başqa bir işində insanların qeyri-adi hesab etdikləri dərəcədə xırdaçılığa varmasına deyilir.

Bütün bunlar İslamın gətirdiyi gözəl ədəb normalarındandır. Aləmlərin Rəbbi olan Allaha həmd olsun.

Üç yüz iyirmi doqquzuncu fəsil

“Nəfsim xəbis oldu” deməyin bəyənilməməsi

١٧٣٩– عَنْ عَائِشَة ﵂ عَنِ النَّبِيِّ ﷺ قال: « لا يَقُولَنَّ أَحَدُكُمْ خَبُثَتْ نَفْسي، وَلكِنْ لِيَقُلْ: لَقِسَتْ نَفْسِي » متفقٌ عليه.

قالَ الْعُلَمَاءُ: معْنَى خبُثَتْ غَثَيتْ، وَهُوَ مَعْنَى « لَقِسَتْ » وَلكِنْ كَرِهَ لَفْظَ الخُبْثِ.

1739. Aişə ﵂ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: **“Sizlərdən biriniz “nəfsim xəbis oldu” deməsin, qoy “nəfsim pis oldu” desin”.**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Alimlər demişlər ki, bu iki söz mənaca oxşar olsa da, Peyğəmbər ﷺ “xəbis” sözünü işlətməyi xoşlamamışdır.

Şərh

“Nəfsim xəbis oldu”, yəni daraldı. Bəzən insanın ürəyi sıxılır və dünya ona dar gəlir. O isə bunun səbəbini anlamır və deyir ki, nəfsim xəbis oldu. Yəni pis hala düşdü. Bu kəlməni demək bəyənilmir. Buna görə Peyğəmbər ﷺ “nəfsim xəbis oldu” deməyi qadağan edib. Ancaq “nəfsim pis oldu” demək olar, çünki bu daha yumşaq sözlə ifadə olunur.

Bu hədis xoşagəlməz sözləri deməkdən uzaqlaşmağın, onları mənaca yaxın və nisbətən daha xoş sözlərlə əvəz etməyin gərəkliyinə dəlildir. Çünki ola bilsin ki, ləfz mənaya səbəb olsun. Məsələn, desin ki, “nəfsim xəbis oldu”, yəni ürəyim bulandı. Bu zaman ola bilsin, ağlına yaxşının əksi olan xəbislik gəlsin. Çünki xəbis nəfslər kafir olan nəfslərdir. Bu xüsusda Uca Allah buyurur: **“Ey iman gətirənlər, şübhəsiz ki, müşriklər murdardırlar. Bu ildən sonra məscidul-harama yaxınlaşmasınlar”.**[2]

O həmçinin buyurur: **“Pis qadınlar pis kişilər üçün, pis kişilər də pis qadınlar üçündür. *Həmçinin* yaxşı qadınlar yaxşı kişilər, yaxşı kişilər də yaxşı qadınlar üçündür”.**[3]

---

[1] “Səhih əl-Buxari”, 5711; “Səhih Muslim”, 4180.

[2] “ət-Tövbə” surəsi, 28.

[3] “ən-Nur” surəsi, 26.

Başqa bir misal. Peyğəmbər ﷺ təbii ehtiyacını rəf etmək istədikdə deyərdi: **"Allahım, xəbislikdən və xəbislərdən Sənə sığınıram"**.[1] Yəni xəbis şeytanlardan.

Mühüm olan odur ki, gərək insan xoşagəlməz sözləri söyləməsin və onları nəfsə xoş gələn sözlərlə əvəz etsin.

[1] "Səhih əl-Buxari", 139; "Səhih Muslim", 563.

Üç yüz otuzuncu fəsil

Üzümü "səxavət" adlandırmağın bəyənilməməsi

Mövzu ilə əlaqəli hədislər:

١٧٤٠– عَنْ أَبي هُرَيْرَةَ ﵁ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: « لا تُسَمُّوا الْعِنَبَ الْكَرْمَ، فإِنَّ الْكَرْمَ الْمُسْلِمُ » متفقٌ عليه. وهذا لفظ مسلمٍ.

وفي روَايةٍ: « فَإِنَّمَا الْكَرْمُ قَلْبُ الْمُؤْمِنِ ».

وفي رواية للبخاري ومسلِم: « يَقُولُونَ الْكَرْمُ إِنَّمَا الْكَرْمُ قلْبُ الْمُؤْمِنِ ».

1740. Əbu Hureyradan ﵁ nəql olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Üzümü səxavət adlandırmayın. Səxavətli olan müsəlmandır".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1] Bu ləfz Muslimindir.

Başqa bir rəvayətdə isə deyilir: **"Şübhəsiz ki, səxavət möminin qəlbidir"**.[2]

Buxari və Muslimin digər rəvayətində isə: **"Səxavət deyirlər, əslində səxavət möminin qəlbidir"**– deyilir.

١٧٤١– وَعَنْ وَائِلِ بْنِ حَجرٍ ﵁ عَنِ النَّبِيِّ ﷺ قَال: « لا تَقُولُوا: الْكَرْمُ، وَلَكِنْ قُولُوا: الْعِنَبُ، وَالحبَلَةُ » رواه مسلم.

« الحبَلَةُ » بفتح الحاءِ والباءِ، ويقال أيضاً بإِسكان الباءِ.

1741. Vail ibn Həcrdən ﵁ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Səxavət deməyin, üzüm və ya əl-həbələ deyin"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[3]

Şərh:

Müəllif ﵀ **"Üzümü "səxavət" adlandırmağın bəyənilməməsi"** fəslini qeyd edir.

---

[1] "Səhih əl-Buxari", 5714; "Səhih Muslim", 4172.

[2] "Səhih əl-Buxari", 5715; "Səhih Muslim", 4171.

[3] "Səhih Muslim", 4176.

Bu fəsildə üzümün "səxavət" adlandırılması qadağan edilir.

Səxavət, Peyğəmbərin ﷺ dediyi kimi, möminə və ya möminin qəlbinə deyilir. "Səxavət" sözü "əl-kərm" sözündən götürülüb. "Kərm" isə yaxşı vəsfdir, mömin öz şöhrəti, mal-dövləti və elmi ilə səxavətli və əliaçıq olduqda bu sözlə vəsf olunur. O, bu vəsfə üzümdən daha çox layiqdir. Üzümə "əl-inəb" və ya "əl-həblə" də demək olar, "əl-kərm" isə deyilməz. Bunun da – doğrusunu Allah bilir – bir səbəbi vardır. Çünki üzümdən haram içki əldə oluna bilər. Belə ki, üzümdən çaxır düzəldilə bilər. Allah qorusun. Üzümü sıxıb qıcqırtdıqda çaxır alınır. *Bəlkə elə* buna görə üzümü "səxavət" adlandırmağı Peyğəmbər ﷺ qadağan etmişdir. Əkin haqqında olan kitablarda bəzi ağac növlərinin "əl-kərm" və ya "əl-kurum" adlandırılması da buna aiddir. Gərək üzüm və ya üzüm tingləri "əl-kərm" adlandırılmasın. Üzüm barəsində "əl-inəb", "əl-həblə" və ya buna bənzər sözlər deyilə bilər. Müvəffəq edən Allahdır.

Üç yüz otuz birinci fəsil

Nikah və ya buna bənzər şəri bir səbəb olmadan qadının gözəlliklərini *yad* kişiyə danışmağın qadağan olması

Mövzu ilə əlaqəli hədis:

١٧٤٢– عَنِ ابْنِ مَسْعُودٍ ﵁ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: « لا تُبَاشِرِ المَرْأَةُ المَرْأَةَ، فَتَصِفَهَا لِزَوْجِهَا كَأَنَّهُ يَنْظُرُ إِلَيْهَا » متفقٌ عليه.

1742. İbn Məsuddan ﵁ nəql olunur ki, Rəsulullah ﷺ demişdir: **"Bir qadın başqa bir qadını, onu sanki göstərirmiş kimi *(əri onu görürmüş kimi)*, öz ərinə təsvir etməsin".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Müəllif ﵀ "**Nikah və ya buna bənzər şəri bir səbəb olmadan qadının gözəlliklərini *yad* kişiyə danışmağın qadağan olması**" fəslini qeyd edir.

Yəni bir qadın başqa bir qadının vəsflərini, o cümlədən boyunu, gözəlliyini, ağlığını və başqa xüsusiyyətlərini bir kişiyə deməməlidir. Yalnız şəri bir zərurətin olması istisnadır. Məsələn, bir kişi həmin qadınla evlənmək istəyir, qızın qardaşı da onu vəsf edir ki, ya onunla evlənsin, ya da onu tərk etsin. Bunu etmək olar. Həmçinin bir adam bir qadınla nişanlanmaq istəyərsə, ona baxa bilər. Bu həmin qadını qəbul edib-etməməyinə səbəb olur. Bu səbəbdən də Peyğəmbər ﷺ nikah və ya buna bənzər şəri səbəb olmadan qadına başqa bir qadının gözəlliklərini kişiyə danışmağı qadağan etmişdir. Bu məhrəm olan kəslərə də aiddir. Zövcə tərəfdən bu onun zərərinədir. Çünki qadının ərinə başqa bir qadın vəsf olunarsa, ola bilsin, onunla evlənmək üçün ona rəğbəti artsın, bu səbəbdən də adətən olduğu kimi, onların arasında narazılıqlar yaşansın.

Ancaq bu o demək deyil ki, insan bundan qorxub birdən daha artıq evlənməkdən çəkinməlidir. Əgər kişi sağlamlıq, mal, ədalət baxımından

[1] "Səhih əl-Buxari", 4839.

təmin etməyə qadirdirsə, onun birdən artıq qadınla evlənməsi məsləhətdir ki, bununla onun nəsli və İslam ümmətinin sayı artsın. Lakin əgər ədalətli olmayacağından qorxarsa, Uca Allah bu xüsusda olan ayəsinə riayət etsin: **"Əgər *himayənizdə olan* yetim qızlarla *evlənəyəcəyiniz təqdirdə* ədalətlə davranmayacağınızdan qorxsanız, onda xoşunuza gələn *sizə halal olan başqa* qadınlardan ikisi, üçü və dördü ilə evlənin. Əgər *o qadınlarla* ədalətlə dolanmayacağınızdan qorxarsınızsa, onda *onlardan* biri ilə evlənin və ya sahib olduğunuz cariyələrlə *kifayətlənin*. Bu, haqsızlıq etməməyiniz üçün ən uyğun olanıdır".**[1]

Xülasə, gərək insan bir qadını başqa bir kişiyə vəsf etməsin. Yalnız şəri zərurət halı istisnadır. Bəzi səfehlərin etdikləri də buna aiddir. Belə ki, onlar öz dostlarının yanında zövcəsinin gözəlliyindən bəhs edib deyirlər ki, xanımım belə gözəldir, üzü belədir, gözü belədir, ağzı belədir və ya buna bənzər başqa sözlər deyir. Bunları demək haramdır. Çünki Peyğəmbər ﷺ bunu qadağan etmişdir. Müvəffəq edən Allahdır.

[1] "ən-Nisa" surəsi, 3.

Üç yüz otuz ikinci fəsil

İnsanın: "Allahım, istəyirsənsə məni bağışla" deməsinin bəyənilməməsi. Əksinə, o bunu qətiyyətlə istəməlidir

Mövzu ilə əlaqəli hədislər:

١٧٤٣– عنْ أَبي هُرَيْرَةَ ﵁ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: « لا يَقُولَنَّ أَحَدُكُمْ: اللَّهُمَّ اغْفِرْ لي إِنْ شِئْتَ: اللَّهُمَّ ارْحَمْني إِنْ شِئْتَ، لِيعْزِمِ المَسْأَلَةَ، فإِنَّهُ لا مُكْرِهَ لَهُ » متفقٌ عليه.

وفي روايةٍ لمُسْلِمٍ: « وَلكنْ، لِيَعْزِمْ وَلْيُعْظِّمِ الرَّغْبَةَ، فَإِنَّ اللَّه تَعَالى لا يتَعَاظَمُهُ شَيْءٌ أَعْطَاهُ ».

1743. Əbu Hureyradan ﵁ nəql olunur ki, Rəsulullah ﷺ demişdir: **"Biriniz: "Allahım, istəyirsənsə məni bağışla; Allahım, istəyirsənsə mənə rəhm et" deməsin, qətiyyətlə dua etsin. Çünki Onu məcbur edən yoxdur".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Muslimin rəvayətində isə: **"Əksinə, *öz istəyində* əzmini, rəğbətini artırsın. Çünki verəcəyi heç bir şey Uca Allah üçün çətin deyil"**– deyilir.[2]

١٧٤٤– وَعَنْ أَنَسٍ ﵁ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: « إِذا دعا أَحَدُكُمْ، فَلْيَعْزِمِ المَسْأَلَةَ، وَلا يَقُولَنَّ: اللَّهُمَّ إِنْ شِئْتَ، فَأَعْطِني، فَإِنَّهُ لا مُسْتَكْرِهَ لَهُ » متفقٌ عليه.

1744. Ənəsdən ﵁ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Biriniz dua etdikdə əzmkarlıqla istəsin və: "Allahım, istəyirsənsə *onu* mənə ver" deməsin. Çünki Onu məcbur edən yoxdur"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

Şərh:

Müəllif ﵀ "**İnsanın: "Allahım, istəyirsənsə məni bağışla" deməsinin bəyənilməməsi. Əksinə, o bunu qətiyyətlə istəməlidir**" fəslini qeyd edir.

---

[1] "Səhih əl-Buxari", 5864; "Səhih Muslim", 4839.

[2] "Səhih Muslim", 4838.

[3] "Səhih əl-Buxari", 5863; "Səhih Muslim", 4837.

Məlumdur ki, insanın xeyir tələb etmək və şəri dəf etmək üçün izzət və cəlal sahibi Allahdan başqa sığınacağı yoxdur. Əgər məqsəd Uca Allahdırsa – çünki insanların istədikləri, sığındıqları və etimad etdikləri Odur – gərək o zaman insan: "Allahım, istəyirsənsə məni bağışla; Allahım, istəyirsənsə mənə rəhm et"– deməsin. Bu haramdır. Çünki: "istəyirsənsə" deyən sanki: "istəyirsənsə məni bağışla, bağışlamasan da önəmli deyil"– deyir, sanki: "mənim Sənə ehtiyacım yoxdur" deyir. Birinin öz dostuna: "istəyirsənsə məni ziyarət et, istəmirsənsə ziyarət etmə, çünki mənim sənə ehtiyacım yoxdur" dediyi kimi.

Buna görə də birinin: "Allahım, istəyirsənsə məni bağışla" deməsi haramdır. Müəllif ﵀ də "İnsanın: Allahım, istəyirsənsə məni bağışla" deməsinin bəyənilməməsi" fəslini qeyd edir. Yəni harama yaxın məkruhdur. Həmçinin deməməlidir ki, "Allahım, istəyirsənsə mənə rəhm et", əksinə, duanı qətiyyətlə etməlidir. Çünki o, izzət və cəlal sahibi, səxavətli və həmdə layiq Allahdan diləyir. O, Allaha möhtacdır. Odur ki, əzmlə dua etsin və: "Allahım, məni bağışla, mənə rəhm et!"– desin, "istəyirsən" sözünü isə işlətməsin. Həmçinin: "İnşəAllah məni bağışla" demək, yaxud: "Allah səni bağışlasın, inşəAllah; Allah sənə hidayət versin, inşəAllah" demək olmaz. Əksinə, dua etdikdə əzmlə, qətiyyətlə dua etmək lazımdır.

Peyğəmbər ﷺ bunu bəyan etmişdir ki, burada iki əməldən uzaqlaşmaq gərəkdir:

Birincisi, **"Qətiyyətlə dua etsin. Çünki Onu məcbur edən yoxdur"–** demişdir. Yəni izzət və cəlal sahibi Allah istəsə səni bağışlayar, istəsə sənə rəhm edər. Heç kim Ona bunu məcbur edə bilməz. İzzət və cəlal sahibi Allah istədiyini edəndir. Onu məcbur edə biləcək heç bir qüvvə yoxdur ki, sən: "istəyirsənsə" deyəsən.

İkincisi, insanın: "istəyirsənsə" sözü sanki işi böyüdüb: "istəyirsənsə bunu et, istəmirsənsə etmə"– deməsidir. Uca Allah üçün isə verilməsi çətin olan bir iş yoxdur. Nemət nə qədər böyük olsa belə, izzət və cəlal sahibi Allah daha səxavətlidir, az deyil, daha çox bəxş edəndir.

Xülasə, sənin: "Allahım, istəyirsənsə məni bağışla; Allahım, istəyirsənsə mənə rəhm et; Allahım, istəyirsənsə məni Cənnətə daxil et; Allahım, istəyirsənsə mənə övlad bəxş et; Allahım, istəyirsənsə mənə saleh zövcə nəsib et" kimi sözlər deməyin halal və caiz deyil. İstədiyini qətiyyətlə istə və dua etdiyində "istəyirsənsə" sözünü demə.

Həmçinin bəzi insanların – zənnimcə sufilərin: "Allahım, Səndən hökmünü dəyişməyini istəmirəm, lakin Səndən qədərimdə lütf istəyirəm" deməsi də haramdır. Necə yəni, Allahdan diləyirsən ki, hökmünü dəyişməsin? Sanki deyirsən ki, "Allahım, Səndən hökmünü dəyişməyini istəmirəm, lakin Səndən qədərimdə lütf istəyirəm". Yaxud sanki deyirsən ki, "ey Rəbbim, mənə əzab ver, lakin mənə qarşı lütfkar ol; Allahım, sevdiyim insanları həlak et, lakin lütf et", yaxud buna bənzər başqa sözlər. Bütün bu duaları Quran və Sünnədə varid olan formada və ya ona yaxın mənada etmək lazımdır.

Əlqərəz, burada iki məsələ var:

Birinci: "Allahım, istəyirsənsə məni bağışla; Allahım, istəyirsənsə mənə rəhm et; Allahım, istəyirsənsə mənə ruzi ver; Allahım, istəyirsənsə mənə hidayət ver" kimi dua etmə. Duanı et və "istəyirsən" sözünü demə.

İkinci: "Allahım, Səndən hökmünü dəyişməyini istəmirəm, lakin Səndən qədərimdə lütf istəyirəm" demə. De ki, "Allahım, mənə mərhəmət et; Allahım, məni şərdən qoru" və ya buna bənzər başqa dualar et.

Peyğəmbərin ﷺ xəstə gördükdə: **"Heç nə olmaz, təmizlənirsən inşəAllah"** deməsinə gəlincə, bu rica mənasındadır. Yəni ümid edirəm ki, bu xəstəlik sənin günahlarını təmizləyər. Həm də burada xitab olaraq: "istəyirsənsə" sözü işlənməyib. Peyğəmbər ﷺ: **"İnşəAllah / Allah istəyərsə"** deyə buyurmuşdur. Xitabla olmayan ləfz xitabla olan ləfzdən daha yüngül işlənmiş olur. Daha doğrusunu Allah bilir.

Üç yüz otuz üçüncü fəsil

“Allah və filankəs istəyərsə” deməyin bəyənilməməsi

١٧٤٥– عنْ حُذَيْفَةَ بْنِ اليَمَانِ رضي الله عنه عَنِ النَّبِيِّ ﷺ قالَ: « لا تَقُولوا: ماشاءَ اللَّه وشاءَ فُلانٌ، ولكِنْ قُولوا: مَا شَاءَ اللَّه، ثُمَّ شَاءَ فُلانٌ » رواه أبو داود بإسنادٍ صحيح.

1745. Huzeyfə ibn əl-Yəməndən رضي الله عنه nəql olunur ki, Peyğəmbər ﷺ demişdir: «**“Allah və filankəs istəsə” deməyin, “Allah, sonra da filankəs istəsə”– deyin.**

Hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.[1]

Şərh:

Müəllif رحمه الله “Salehlər bağçası” əsərində «**“Allah və filankəs istəyərsə” deməyin bəyənilməməsi**» fəslini qeyd edir.

Bəyənilməmək deməklə harama yaxın məkruh hökmü nəzərdə tutulur. Yəni desən ki, “Allah və filankəs istəsə”, yaxud “Allah və sən istəsən” və ya buna bənzər başqa bir söz söyləsən buradakı “və” bərabərlik bildirir. “Allah və filankəs istəsə” dediyin zaman sanki həmin adamı izzət və cəlal sahibi Allaha bərabər etmiş olursan. Bütün işlərin mütləq idarə edəni isə yalnız Allahdır. Uca və cəlal sahibi Allah istədiyini edir.

Lakin Peyğəmbər ﷺ bunu qadağan etdikdə mübah olan sözü bizlərə bildirərək demişdir: **“Allah, sonra da filankəs istəsə”– deyin**. Çünki “sonra” sözü ardıcıllığı bildirir. Yəni Allahın istəyi filankəsin istəyindən öncədir, üstündür.

“Allah və sən istədin” sözü də belədir. Bir kişi Peyğəmbərə ﷺ: “Allah və sən istədin” dedi, Peyğəmbər ﷺ də buyurdu ki: **“Məni Allaha tay tutdun?”** O bununla bu sözü inkar edib dedi: **“De ki, yalnız Allah istəsə”.**[2]

Bu deyilişlərin aşağıdakı variantları vardır:

Birinci variant “Yalnız Allah istəsə” deməkdir. Bu sözlə bütün işlər Allaha həvalə olunur və müsəlmanlar bu xüsusda ittifaq etmişlər. Bütün müsəlmanlar deyirlər ki, Allahın istədiyi olur, istəmədiyi isə olmur.

İkinci variant “Allah, sonra da filankəs istəsə” deməkdir. Bu caizdir. Peyğəmbər ﷺ buna icazə vermiş və belə deməyi tövsiyə etmişdir.

---

[1] “Sunən Əbu Davud”, 4328.

[2] “Musnəd İmam Əhməd”, 1/214.

Üçüncü variant "Allah və filankəs istəsə" deməkdir. Bu haramdır və icazəli deyil. Çünki bu zaman insan yaradılanı izzət və cəlal sahibi Yaradanla eyni tutumuş olur.

Dördüncü variant "Allah və filankəs istədi" deməkdir. Bu məsələyə diqqət edilməlidir. [Bu ifadənin ərəbcəsində " وَ / və " bağlayıcısı əvəzinə " فَـ / fə " hərfi işlənir] və ardıcıllığı bildirir. Lakin o "summə" (ثُمَّ / sonra) sözü kimi deyildir. Çünki "summə" müəyyən vaxtla ardıcıllığı, "fə" isə birbaşa ardıcıllığı bildirir. Buna görə də bu məsələyə diqqət yetirmək gərəkdir. Bu səbəbdən Peyğəmbər ﷺ bu sözü tövsiyə etməmişdir.

Bu hədis dəlildir ki, insan başqasına caiz olmayan bir sözü, caiz olanın nə olduğunu bildirərək söyləyərsə, olar. Çünki o ﷺ demişdir: **"Allah və filankəs istədi" deməyin. Deyin ki, – Allah, sonra filankəs istədi".**[1]

İnsanları öyrədən də belə olmalıdır: onlara qadağan olunmuş qapıları öyrətdikdə açıq qapıları da göstərməlidir ki, insanlar buradan çıxıb ora daxil ola bilsinlər. Bəzi insanlar qadağan olunmuş şeyləri sadalayıb: "bu haramdır, bu haramdır"– deyir, ancaq caiz olanları demirlər. Onlar həmin adamlar üçün qapıları bağlayır, lakin yeni qapılar açmırlar. Lutun öz qövmünə nə dediyinə bir baxın: **"Doğrudanmı siz insanlar içində ancaq kişilərlə yaxınlıq edir"**[2] Sonra da buyurur ki: **"və Rəbbinizin sizin üçün yaratdığı qadınlarınızı tərk edirsiniz?"**[3] O onlara bir şeyi qadağan edir, ancaq həm də icazəli olanı göstərir. Peyğəmbər ﷺ də belə demişdir: «**"Allah və filankəs istəsə" deməyin, "Allah, sonra da filankəs istəsə"– deyin"**. İzzət və cəlal sahibi Allahın bu ayəsinə baxın: **"Ey iman gətirənlər!** ***Peyğəmbərə:*** **"Raina!"– deməyin, "Unzurna!"– deyin".**[4] Beləcə onlara "raina" deməyi qadağan edir, sonra doğru sözü: "unzurna" deməyi əmr edir. Bir dəfə Peyğəmbərə ﷺ gözəl xurma gətirdilər, o da soruşdu: **"Xeybərin bütün xurmaları belədir?"** Dedilər? "Xeyr. Biz iki saa başqa xurmanı bir saa bu xurma ilə, üç saa başqa xurmanı isə iki saa bu xurma ilə dəyişirik". Dedi: **"Belə etmə. Hamısını** (yəni pislərini) **dirhəmlə sat, sonra həmin pula bunlardan al".**[5] Yəni, yaxşı xurmanı pulla al. Müvəffəq edən Allahdır.

---

[1] "Sunən Əbu Davud", 4328.

[2] "əş-Şuəra" surəsi, 165.

[3] "əş-Şuəra" surəsi, 166.

[4] "əl-Bəqərə" surəsi, 104.

[5] "Səhih əl-Buxari", 2050; "Səhih Muslim", 2984.

Üç yüz otuz dördüncü fəsil

İşa namazından sonra danışmağın bəyənilməməsi

Burada başqa vaxtlarda mübah olan söhbətlər nəzərdə tutulur. Hansı ki, onu etməklə etməmək eynidir.

– Başqa vaxtlarda bəyənilməyən və ya haram olan söhbətlər bu vaxt daha çox haram və məkruh olur.

– Yaxşı işlər danışmağa, məsələn, elm almaq, əməlisaleh insanların hekayəsi, əxlaqi söhbətlər, qonaqla söhbət, ehtiyacı olanla danışmaq və buna bənzər başqa söhbətləri etməyə gəlincə, bu, məkruh deyil, əksinə, müstəhəbdir.

– Bu vaxtda üzrlü səbəbdən danışmaq da məkruh deyil.

Bütün bu qeyd etdiklərim barədə səhih hədislər varid olmuşdur.

١٧٤٦– عَنْ أَبي بَرْزَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ كَانَ يَكرَهُ النومَ قبْلَ العِشَاءِ وَالحَدِيثَ بعْدَهَا. متفقٌ عليه.

1746. Əbu Bərzədən ﷺ nəql olunur ki, Rəsulullah ﷺ işa namazından əvvəl yatmağı, *işadan* sonra isə danışmağı sevməzdi".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٧٤٧– وعَنِ ابْنِ عُمرَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ صَلَّى العِشَاءَ في آخِرِ حَيَاتِهِ، فَلَمَّا سَلَّم، قَالَ: « أَرَأَيْتَكُمْ لَيْلَتَكُمْ هَذِهِ؟ فَإِنَّ على رَأْسِ مِئَةِ سَنَةٍ لا يَبْقَى مِمَّنْ هُوَ عَلى ظَهْرِ الأَرْضِ اليَوْمَ أَحدٌ » متفقٌ عليه.

1747. İbn Ömərdən ﷺ rəvayət olunur ki, Allahın elçisi ﷺ həyatının sonunda bir dəfə işa namazı qıldı. Salam verdikdən sonra dedi: **"Bu gecəni görürsünüzmü? Yüz il sonra yer üzündə indi var olan kəslərdən heç kim sağ qalmayacaqdır"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

---

[1] "Səhih əl-Buxari", 535; "Səhih Muslim", 1024.

[2] "Səhih əl-Buxari", 113; "Səhih Muslim", 4605.

١٧٤٨– وَعَنْ أَنَسٍ ﷺ أَنَّهم انْتَظَرُوا النَّبِيَّ ﷺ فَجاءَهُمْ قريباً مِنْ شَطْرِ اللَّيْلِ فصلَّى بِهِم، يعني العِشَاءَ قَالَ: ثُمَّ خَطَبَنَا فَقَالَ: « أَلا إِنَّ النَّاسَ قَدْ صَلُّوا، ثُمَّ رَقَدُوا » وَإِنَّكُمْ لَنْ تَزَالُوا في صَلاةٍ ما انْتَظَرْتُمُ الصَّلاةَ » رواه البخاري.

1748. Ənəsdən ﷺ rəvayət olunur ki, bir dəfə onlar *işa namazı üçün* Peyğəmbəri ﷺ gözləyirdilər. O isə gecəyarısına yaxın bir vaxtda gəlib işa namazını qıldırdı. Sonra bizə xütbə verib dedi: **"Həqiqətən də insanlar namazlarını qıldılar, sonra yatdılar. Siz isə namazı gözlədiyiniz müddətdə namazda olduğunuz kimi idiniz".**

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

Şərh:

Müəllif ﷺ **"İşa namazından sonra danışmağın bəyənilməməsi"** fəslini açır, sonra da qeyd edir ki, danışmaq üç qismdir: məkruh və haram olan, müstəhəb olan və mübah olan qismlər.

Məkruh və haram olan danışıq işadan sonra baş verdikdə bunun dərəcəsi daha da artır. Mübah olan danışığı Peyğəmbər ﷺ işadan sonra etməyi bəyənməzdi. Müstəhəb olan danışığı isə işa namazından sonra belə etmək olar.

Birinci qism qeybət, söz gəzdirmək, yalan şahidlik, musiqiyə və lağlağıya qulaq asmaq, haramlara baxmaq kimi məsələlərdir ki, bunlar hər bir vaxt haramdır. Ancaq işa namazından sonra bunun günahı daha da artmış olur. Çünki həmin vaxt mübah danışıq belə bəyənilmirsə, haram danışıq daha çox bəyənilmir.

İkinci qism adi söhbətlərdir ki, onlar nə müstəhəb, nə məkruh, nə də ki, haramdır. İnsanların danışıqlarının çoxu bu növdəndir. Bu cür danışığı işa namazından sonra etməyi Peyğəmbər ﷺ xoşlamazdı. Çünki işa namazından sonra insan danışdıqda söhbət uzanır, həmin adamlar gec yatır və bu səbəbdən sübh namazına oyanmaq da çətinləşir. Vacibin tərk olunmasına səbəb ola biləcək mübah əməlləri etmək də bəyənilmir.

Üçüncü qism isə müstəhəb olandır, yəni elm öyrənmək, əzbərləmək və ya onu təkrarlamaq kimi məsələlər. Qonaqla söhbət edirsən ki, ona

[1] "Səhih əl-Buxari", 565.

ikram etmiş olasan. Ailə ilə söhbət edirsən ki, onların könlünü ələ alasan, və sair. Bundan başqa zəruri hallarda danışmaq da buna aiddir. Əksinə, əgər məqsəd xeyir əldə olunmasıdırsa, bu müstəhəbdir.

Sonra müəllif ﵀ bəzi hədisləri qeyd edir. Həmin hədislərin birində Əbu Bərzədən ﵁ rəvayət olunur ki, Peyğəmbər ﷺ işa namazından əvvəl yatmağı, *işadan* sonra isə danışmağı xoşlamazdı. Çünki işa namazından əvvəl yatmaq insanı namazlara qarşı tənbəlləşdirir. Hətta ola bilsin, adam yatıb qalsın və namazı təxirə salmış olsun. Bu cəhətdən aktiv qalmaq üçün Peyğəmbər ﷺ işa namazından əvvəl yatmağı xoşlamazdı. Yorğunluq isə insandan asılı olmadığı üçün ona zərər vermir.

Hədisdəki əsas məqam "*işadan* sonra danışmağı" cümləsidir. Çünki Peyğəmbər ﷺ işa namazından sonra danışmağı xoşlamazdı. Lakin danışıq xeyirli məqsədlər üçün olarsa, bunda bir qəbahət yoxdur. Bəzən Peyğəmbər ﷺ işa namazından sonra səhabələri ilə söhbət edər, onlara nəsihət və açıqlamalar verərdi. Necə ki, İbn Ömər ﵄ və Ənəsdən nəql olunan hədislərdə bu qeyd olunur – belə söhbətdə bir qəbahət yoxdur. Müvəffəq edən Allahdır.

Üç yüz otuz beşinci fəsil

Şəri bir üzürü olmayan qadını əri öz yatağına çağırdıqda getməməsinin haram olması

١٧٤٩– عَنْ أَبي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسولُ اللَّهِ ﷺ: « إِذا دَعَا الرَّجُلُ امْرَأَتَهُ إِلى فِراشِهِ فأَبَتْ، فَباتَ غَضْبانَ علَيْهَا، لَعَنَتْهَا المَلائِكَةُ حتى تُصْبِح » متفقٌ عليه.

وفي رواية: حَتَّى « تَرْجِع ».

1749. Əbu Hureyradan ﷺ nəql olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Kişi öz qadınını yatağına çağırdıqda gəlməzsə, kişi də bu səbəbdən ona qəzəbli yatarsa, mələklər həmin qadını səhərə qədər lənətləyər".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Başqa bir rəvayətdə: **"qayıdanadək"** deyilir.

[1] "Səhih əl-Buxari", 2998; "Səhih Muslim", 2596.

Üç yüz otuz altıncı fəsil

Ərinin izni olmadan qadının nafilə oruc tutmasının haramlığı

١٧٥٠– عنْ أَبي هُرَيْرَةَ ﵁ أَنَّ رسُولَ اللَّه ﷺ قَالَ: « لا يَحِلُّ للمَرْأَةِ أَنْ تَصُومَ وَزَوْجُهَا شاهِدٌ إِلاَّ بِإِذْنِهِ ولا تَأْذَنَ في بَيْتِهِ إِلاَّ بِإِذْنِهِ » متفقٌ عليه.

1750. Əbu Hureyradan ﵁ nəql olunur ki, Rəsulullah ﷺ demişdir: **"Əri yanında olan qadına ərinin izni olmadan oruc tutması halal deyil. *Qadın ərinin* izni olmadan onun evinə *kimisə buraxmasına da* icazə verə bilməz".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Müəllif ﵀ iki fəsil və onlara aid hədislər qeyd edir. Birinci hədisdə Peyğəmbər ﷺ demişdir: **"Kişi öz qadınını yatağına çağırdıqda gəlməzsə, kişi də bu səbəbdən ona qəzəbli yatarsa, mələklər həmin qadını səhərə qədər lənətləyər".**

Vacib olan odur ki, kişi öz xanımını yatağına çağırdıqda, qadın şəri baxımdan bir üzürü olmadıqca ona qarşılıq verməlidir. Məsələn, xəstə olması səbəbindən yaxınlıq edə bilməməsi üzürdür. Yaxud başqa bir üzürlü səbəbdən yatağa gələ bilməməsi də belədir. Bu zaman ərinin yatağına getməyə bilər. Əks təqdirdə isə ərinin yanına getməsi vacibdir. Həmçinin ər də gördükdə ki, qadını onunla yaxınlıq etmək istəyir, gərək ona qarşılıq versin. Uca Allah buyurur: **"Onlarla xoş rəftar edin".**[2]

İkincisi isə: **"Əri yanında olan qadına ərinin izni olmadan oruc tutması halal deyil. *Qadın ərinin* izni olmadan onun evinə *kimisə buraxmasına da* icazə verə bilməz"** hədisidir**.**

Hədisdəki birinci məsələ orucdur. Oruc iki növdür:

Birincisi vacib orucdur. O, ərinin izni olmadan da oruc tuta bilər.

---

[1] "Səhih əl-Buxari", 4796; "Səhih Muslim", 1704.

[2] "ən-Nisa" surəsi, 19.

İkincisi nafilə orucdur. Qadın ərinin izni olmadan bu növ orucu tuta bilməz. Qadın əri evdə olmadıqda bu orucu tuta bilər, əri yanında olanda isə onun izni olmadan bu orucu tuta bilməz. Çünki ola bilsin, əri onu öz *təbii* ehtiyacı üçün yanına çağırsın, o da gedə bilməsin.

Oruc vacib olduqda isə, məsələn, Ramazan orucunun bəzi qəzalarını tutmalıdırsa və növbəti Ramazan ayına da az vaxt qalmışdırsa, bu zaman ərinin izni olsa da, olmasa da qadının oruc tutması vacibdir. Məsələn, qadın on gün Ramazan orucundan qəza tutmalıdır. Növbəti ramazan ayına da on gün vaxt qalmışdır. Bu zaman əri icazə versə də, verməsə də orucunu tutmalıdır. Hətta əri bunu qadağan etsə belə, qadın gərək orucunu tutsun. Çünki bu vacibdir. Yox, əgər on gün Ramazan orucunun qəzası varsa, növbəti ramazan ayına da bir-iki ay və ya daha çox vaxt varsa, bu zaman əri onun oruc tutmasına əngəl ola bilər. Bununla da ərinin izni olmadan o, oruc tuta bilməz. Çünki vaxt genişdir və vaxtın çox olmasına görə gərək ərini sıxışdırmasın. Əri qadına oruc tutmağına icazə verdikdə isə, əgər vacib orucdursa, *qadına* / *ərinə* onu cinsi əlaqə ilə pozmaq haramdır. Çünki əri buna icazə verib, üstəlik də bu oruc vacib növdəndir. Buna görə də orucunu tamamlamalıdır. Uca Allah buyurur: **"Əhdə vəfa edin. Çünki *hər kəs* əhd barəsində sorğu-sual olunacaq".**[1]

Hədisdəki ikinci məsələ isə ərinin icazəsi olmadan qadın onun evinə kiminsə gəlməsinə icazə verməməsidir. Yəni əri icazə vermədikcə qadın heç kimin onun evinə gəlməsinə icazə verməməlidir. Əgər əri müəyyən bir şəxsin onun evinə gəlməsini qadağan edərsə və deyərsə ki, "filankəs mənim evimə daxil olmasın", onda qadın həmin adamın evə gəlməsinə icazə verməməlidir. Çünki ev ona məxsusdur. Yox, əgər əri mülayim biridirsə, bu zaman hər bir adam üçün ayrıca ondan icazə almaya bilər. Müvəffəq edən Allahdır.

[1] "əl-İsra" surəsi, 34.

Üç yüz otuz yeddinci fəsil

Namazda imama tabe olanın öz başını imamdan öncə rukudan və səcdədən qaldırmasının haram olması

Mövzu ilə əlaqəli hədis:

١٧٥١– عنْ أَبي هُرَيْرَةَ ﵁ أَنَّ النَّبِيَّ ﷺ قَالَ: « أَمَا يَخْشَى أَحَدُكُمْ إِذا رفَعَ رأْسَهُ قَبْلَ الإِمَامِ أَنْ يَجْعلَ اللَّه رأْسَهُ رأْسَ حِمارٍ، أَوْ يَجْعلَ اللَّه صُورتَهُ صُورَةَ حِمارٍ» متفقٌ عليه.

1751. Əbu Hureyradan ﵁ nəql olunur ki, Rəsulullah ﷺ demişdir: **"Məgər imamdan öncə başını qaldıran kəs qorxmur ki, Allah onun başını uzunqulaq başına, ya da bədənini uzunqulaq bədəninə çevirər?!"**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Müəllifin ﵀ gətirdiyi hədisdə Peyğəmbər ﷺ bu əməllərin hökmünü bəyan etmişdir.

Birincisi, namazda imama tabe olanın öz başını imamdan öncə rukudan və səcdədən qaldırmasının haram olmasıdır. Çünki namaz qılan kəs *namazın hərəkətlərində* öz imamına tabe olmalı, onu qabaqlamamalı, ondan gecikməməli, onunla eyni zamanda etməməli, sadəcə ardınca etməlidir.

Onu keçməyə gəlincə, əgər ihram təkbirini imamdan öncə deyərsə, namaz sayılmaz. Yəni, əgər imamdan öncə səhvən və ya unudaraq təkbir gətirərsə, namazı qəbul olunmur və o, namazı gərək yenidən qılsın. Yox, əgər haram olmasını bilərək rukuda və ya səcdədə imamı qabaqlayarsa, onun namazı batil hesab olunur. Çünki o, namazda haram iş görmüşdür. Onun namazı namazda danışan adamın namazı kimi batil olur.

İmamla eyni vaxtda etmək isə, – yəni imamla birlikdə ruku, səcdə və qiyam etmək,– əgər bu ihram təkbirində baş verərsə, namaz sayılmaz. Başqa bir məqamda isə bu qadağan olunmuşdur. Bəziləri bunun məkruh, digərləri isə haram olduğunu bildirmişlər.

---

[1] "Səhih əl-Buxari", 650; "Səhih Muslim", 648.

İmamı qabaqlamağa gəlincə, əgər bu ihram təkbirində baş verərsə, namaz qəbul olunmur. Ruku və səcdə məqamında isə Peyğəmbər ﷺ bundan çəkindirərək demişdir: **"Məgər imamdan öncə başını qaldıran kəs qorxmur ki, Allah onun başını uzunqulaq başına, ya da bədənini uzunqulaq bədəninə çevirər?!"** Bu təhdiddirmi? Adam rukuda və ya səcdədə imamdan öncə başını qaldırarsa, Allah onun başını uzunqulaq başına, bədənini də uzunqulaq bədəninə çevirə bilər. Allah qorusun.

Peyğəmbər ﷺ ona görə heyvanlar arasından uzunqulağı seçmişdir ki, uzunqulaq heyvanlardan ən pis görkəmdə olanıdır. Uca Allah Tövratı bilən yəhudiləri də uzunqulağa bənzədərək buyurur: **"Tövrata əməl etmək buyurulduqdan sonra ona əməl etməyənlər belində çoxlu kitab daşıyan, *amma onlardan faydalana bilməyən* uzunqulağa bənzəyirlər".**[1]

Bu da rukuya getdikdə və ya səcdədən qalxdıqda imamı qabaqlamağın haramlığına dəlildir. Rukuya və ya səcdəyə getdikdə də imamı qabaqlamaq haramdır.

İmamdan gec qalmaq isə... bəziləri bunu edirlər. Görürsən ki, imamın səcdədən qalxmasına rəğmən o hələ də səcdədə qalıb və dua etdiyini iddia edir və xeyir üzərində olduğunu düşünür. Beləsinə deyirik ki, sən namazını tək qıldıqda xeyir və dua üzərində olursan. İmamla birlikdə namaz qıldıqda isə imamdan geri qalırsansa, Peyğəmbərin ﷺ hidayətinə müxalif olmuş olursan. Peyğəmbər ﷺ demişdir: **"*İmam* ruku etdikdə siz də ruku edin".**[2] [Ərəb mətnində bu yerdə keçən] bağlayıcı " فَـ / fə " hərfi ardıcıllığı bildirir. İnsan da gecikmədən tələsməlidir. Müvəffəq edən Allahdır.

[1] "əl-Cumuə" surəsi, 5.

[2] "Səhih əl-Buxari", 365; "Səhih Muslim", 623.

Üç yüz otuz səkkizinci fəsil

Namazda əlləri yana qoymağın bəyənilməməsi

Mövzu ilə əlaqəli hədis:

١٧٥٢– عَنْ أَبي هُرَيْرَةَ ﵁ أن رسول الله ﷺ: نهي عنِ الخَصْرِ في الصَّلاةِ. متفقٌ عليهِ.

1752. Əbu Hureyradan ﵁ nəql olunur ki, Peyğəmbər ﷺ namazda ikən əlləri yana qoymağı qadağan etmişdir.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh

Müəllif ﵀ **"Namazda əlləri yana qoymağın bəyənilməməsi"** fəslini qeyd edir.

Yan deyildikdə insanın qabırğalarından aşağı böyür hissəsi ilə çanağ nəzərdə tutulur. Çünki əmr olunmuşdur ki, insan namazda sağ əlini sol dirsəyinin, biləyinin və ya dirsəklə biləyin arasının üzərinə qoysun və onu qaldırsın. Bu Sünnədir. Bunu qiyamda ikən həm rukudan öncə, həm də rukudan sonra etməlidir. Əlləri yana qoymağı isə Peyğəmbər ﷺ qadağan etmişdir.

Əlləri *harada* qoymağın iki variantı vardır:

Birinci: Sağı solun üzərində olmaqla qasıqdan üstdə tutmaq.

İkinci: Sağı solun üzərində olmaqla qəlbi üzərində tutmaq.

Bəzi insanlar əllərini qəlbdən *daha* üstdə qoyurlar. Bu səhvdir. Şəriət məsələlərinə ağıl müdaxilə edə bilməz. Şəriət Peyğəmbərdən ﷺ öyrənilir. Peyğəmbərin ﷺ sağ əli sol əlin üzərinə qoyub qəlbindən *daha* üstə qoyması varid olmamışdır. Bu qadağandır və qadağa, müəllifin ﵀ də dediyi kimi, bəyənilməmə hökmündədir.

[1] "Səhih əl-Buxari", 1143; "Səhih Muslim", 848.

Üç yüz otuz doqquzuncu fəsil

Adamın yemək gətirildikdə nəfsi çəkə-çəkə namaz qılmasının və təbii ehtiyacını rəf etməkdən özünü zorla saxlayaraq namaz qılmasının bəyənilməməsi

١٧٥٣- عَنْ عَائِشَةَ ﵂ قَالَتْ: سَمِعْتُ رَسُول اللَّهِ ﷺ يَقُولُ: « لا صَلاةَ بحَضرَةِ طَعَامٍ، وَلا وَهُوَ يُدَافِعُهُ الأَخْبَثَانَ » رواه مسلم.

1753. Aişədən ﵂ rəvayət olunur ki, mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Yemək gətirildikdə *nəfsi çəkə-çəkə namaz qılanın*, bir də özünü ayaqyoluna getməkdən zorla saxlayanın namazı yoxdur"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Şərh:

Müəllif ﵀ "**Adamın yemək gətirildikdə nəfsi çəkə-çəkə namaz qılmasının və təbii ehtiyacını rəf etməkdən özünü zorla saxlayaraq namaz qılmasının bəyənilməməsi**" fəslini qeyd edir.

Aişədən ﵂ rəvayət olunur ki, mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Yemək gətirildikdə *nəfsi çəkə-çəkə namaz qılanın*, bir də özünü ayaqyoluna getməkdən zorla saxlayanın namazı yoxdur".** Yəni insan ac olduğu zaman ortaya yemək gətirilərsə, hətta insanların məsciddə namaz qılmalarını görsə belə, yeməyini yemədən namazını qılmamalı, ilk öncə yeyib doymalıdır. İbn Ömər ﵄ yemək zamanı imamın namaz qıldırdığını eşitsə də yeməyini bitirmədən yerindən qalxmazdı. Çünki insan namaza başladıqda fikri məşğuldursa, namazını rahat qıla bilmir və müti olmur. Onun fikri yeməkdə qalır. İnsan bütün işlərini yekunlaşdırdıqdan sonra namazını qılmalıdır. Uca Allah buyurur: **"*İşlərini* qurtaran kimi *Allah yolunda* çalış və *ancaq* Rəbbinə üz tut!".**[2]

Ancaq o bunu adət halına çevirməməli, yəni yeməyini davamlı olaraq namaz vaxtına salmamalıdır.

---

[1] "Səhih Muslim", 869.

[2] "əş-Şərh" surəsi, 7-8.

İkincisi, insan yüngül və ya ağır təbii ehtiyacını rəf etməkdən özünü zorla saxlaya-saxlaya namaz qılmamalıdır. Bu da insanın mütiliyini aparır. Çünki bu zaman insanın fikri sıxıntısında qalır. Həm də sidiyi və nəcisi zorla saxlamaq bədənə ziyandır. Uca və nöqsansız Allah *insan bədənində* sidik və nəcis üçün xüsusi bir yer müəyyən etmişdir ki, həmin yer dolarsa boşalmalıdır. İnsanın onu bədəndə həbs etməsi insanın özünə ziyandır.

Kimsə deyə bilər ki, mən ayaq yoluna getsəm, camaat namazını qaçırmış olaram axı. Deyirik: Heç nə olmaz, get və *camaatla* namazı qıla bilməsən belə, əvvəlcə təbii ehtiyacını ödə.

Başqa birisi soruşa bilər ki, mən *ayaqyoluna getməyə* ehtiyaclı vəziyyətdə ikən namazın vaxtına az qalırsa, əvvəlcə ayaq yoluna gedim və namazı gec də olsa qılım, yoxsa qəlbim bunun fikri ilə məşğul ola-ola ilk öncə namazımı qılım?

Deyirik: Bu məsələdə alimlər ixtilaf etmişlər. Şeyxulislam İbn Teymiyyənin rəyinə görə namazın vaxtı çıxsa belə, ilk öncə ayaqyoluna gedilməlidir. Çünki bu bir zərurətdir və onu həbs etdikdə bədəninə zərər vermiş olursan. Əksər alimlər isə demişlər ki, buna görə namaz təxirə salınmamalıdır. Adam qısa olaraq ilk öncə namazını qılmalıdır. Bunun ona zərəri olmaz. Daha doğrusunu Allah bilir.

Üç yüz qırxıncı fəsil

Namazda göyə baxmağın qadağan olması

١٧٥٤– عَنْ أَنسِ بْنِ مَالِكٍ ﵁ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: « مَا بالُ أَقْوَامٍ يَرْفَعُونَ أَبْصَارَهُمْ إِلِى السَّماءِ في صَلاتِهِمْ، » فَاشْتَدَّ قَوْلُهُ في ذلك حَتَّى قَالَ: « لَيَنْتَهُنَّ عَنْ ذلك، أَوْ لَتُخْطَفَنَّ أَبْصارُهُمْ، » رواه البخاري.

1754. Ənəs bin Malikdən ﵁ rəvayət olunur ki, Peyğəmbər ﷺ dedi: **"Bəzilərinə nə olub ki, namazda nəzərlərini göyə qaldırırlar?"** Bundan sonrakı sözləri isə daha şiddətli oldu: **"Ya buna son qoyacaqlar, ya da Allah onların gözlərini çıxaracaq".**

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

Şərh:

Ənəsdən ﵁ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ namazda göyə baxmağı qadağan edərək demişdir: **"Bəzilərinə nə olub ki, namazda nəzərlərini göyə qaldırırlar?"** Yəni niyə belə edirlər? **"Ya buna son qoyacaqlar, ya da Allah onların gözlərini çıxaracaq".** Bu təhdid dəlildir ki, insanın namazda gözlərini səmaya qaldırması haramdır.

Hərdən görürəm ki, bəziləri: "SəmiAllahu limən həmidəh" deyib rukudan qalxdıqda gözlərini və üzlərini də yuxarı qaldırırlar.

Bu haqda bəzi alimlər demişlər ki, belə edənin namazı hətta batil olur. Çünki o, namazda xüsusi olaraq qadağan olunmuş bir əməl edir. Şəriət qaydası isə belədir ki, kim ibadətdə xüsusi olaraq qadağan edilmiş bir əməli edərsə, onun ibadəti batil olur.

Sonra onlar ikinci bir səbəb gətirərək demişlər: "Bu, Allaha qarşı bir ədəbsizlikdir. Gərək insan namaz qıldıqda qorxsun və başını tərpətsin". Həmçinin açıqlayaraq belə demişlər ki: "İnsana əmr olunmuşdur ki, bütün bədənini qibləyə tərəf yönəltsin. Gözünü səmaya qaldırdıqda isə üzünü qiblədən çəkmiş olduğuna görə namazı batil olur". Məsələ təhlükəlidir. Buna görə də Peyğəmbərin ﷺ bu xüsusdakı təhdidi şiddətli olmuşdur: **"Ya buna son qoyacaqlar, ya da Allah onların gözlərini çıxaracaq"**.

[1] "Səhih əl-Buxari", 708.

Kimsə soruşa bilər ki, "O zaman nəzərlərimizi hara yönəldək?"

Deyirik: Səcdə etdiyin yerə bax. Yalnız təşəhhüd zamanı şəhadət barmağına bax. Çünki Peyğəmbər ﷺ təşəhhüd etdikdə şəhadət barmağına baxardı. Bəzi alimlər imama tabe olmaq məqsədilə imama baxmaq halını istisna etmişlər. Ələlxüsus da əgər o imamı eşitmirsə və imamı görmədən ona tabe ola bilmirsə belə edə bilər. Səhabələr də belə edərdilər. Bir dəfə Peyğəmbər ﷺ minbərə çıxaraq onun üstündə namaz qıldı, sonra da dedi: **"Bunu belə etdim ki, mənə tabe olasınız və namazınızı öyrənəsiniz".**[1]

Çünki insanlar ona baxmadan namazı öyrənə bilməzdilər. Buna görə də onlar sakit namazlarda Peyğəmbərin ﷺ saqqalının tərpəndiyini deyirdilər. Bu da dəlildir ki, onlar namazda imamlarına baxırdılar.

Bəzi alimlər insanın Məscidul-haramda və Kəbə önündə olması halını istisna etmişlər. Bu zaman o Kəbəyə baxır. Lakin bu zəif istisnadır. Səhih olan odur ki, insan namazda Kəbəyə baxmamalıdır. Çünki bu Peyğəmbərdən ﷺ varid olmamışdır. Çünki bu təşvişə səbəb olur. Belə ki, o təvaf edənlərin gediş-gəlişinə, dövr etməsinə baxmış olur.

Bəzilərinin: "Kəbəyə baxmaq ibadətdir" demələri səhvdir və səhih deyil. Bildiyimiz qədər, Peyğəmbərdən ﷺ nə səhih, nə də ki, zəif bir hədis varid olmayıb ki, o, Kəbəyə baxmağın ibadət olduğunu söyləsin.

Müvəffəq edən Allahdır.

[1] "Səhih Muslim", 847.

Üç yüz qırx birinci fəsil

Üzürsüz olaraq namazda çevrilməyin bəyənilməməsi

Mövzu ilə əlaqəli hədislər:

١٧٥٥– عَنْ عَائِشَةَ ﵂ قَالَتْ: سأَلْتُ رَسُولَ اللَّهِ ﷺ عَنِ الالْتِفَاتِ فِي الصَّلاةِ فَقَالَ: « هُوَ اخْتِلاسٌ يَخْتَلِسُهُ الشَّيْطَانُ مِنْ صَلاةِ الْعَبْدِ » رواهُ البُخَاري.

1755. Rəvayət olunur ki, Aişə ﵂ demişdir: «Mən Rəsulullahdan ﷺ namazda çevrilmək barədə soruşdum, o da dedi: **"Bu, şeytanın qulun namazından oğurladığı bir şeydir"**».

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

١٧٥٦– وَعَنْ أَنَسٍ ﵁ قَالَ: قَالَ لِي رسُولُ اللَّهِ ﷺ: « إِيَّاكَ وَالالْتِفَاتَ فِي الصَّلاةِ، فَإِنَّ الالْتِفَاتَ فِي الصَّلاةِ هَلَكَةٌ، فإِنْ كَان لابُدَّ، فَفي التَّطَوُّعِ لا في الْفَرِيضَةِ». رواه التِّرمذي وقال: حديثٌ حسنٌ صَحِيحٌ.

1756. Ənəs ﵁ rəvayət edir ki, bir dəfə Rəsulullah ﷺ mənə dedi: **"Namazda çevrilməkdən çəkin, çünki namazda çevrilmək həlak edən əməldir. Əgər bunu etmək qaçılmaz olarsa, fərz namazında deyil, nafilə namazında et".**[2]

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən səhih hədisdir" demişdir.

Şərh:

Müəllif ﵀ **"Üzürsüz olaraq namazda çevrilməyin bəyənilməməsi"** fəslini qeyd edir.

İnsan qalxıb namaz qıldıqda izzət və cəlal sahibi Allahın hüzurunda durmuş olur. Bu səbəbdən nə qəlbi ilə, nə də ki, üzü ilə uca və nöqsansız Allahdan üzünü çevirməməlidir.

Qəlblə çevrilməyə gəlincə, bu, namazdan başqa bir şey barəsində düşünməkdir. Bir çox namaz qılanların fikirləri dağınıq olur. İnsanın qəlbi ilə

---

[1] "Səhih əl-Buxari", 709.

[2] "Sunən ət-Tirmizi", 537.

çevrilməsi onun namazına bədənlə çevrilməsindən daha çox xələl gətirmiş olur. Çünki bu, namazı naqis edir. Hətta insanın namazda fikri yayınarsa, qəlbinin namazda iştirakı miqdarında ona namazının onda biri qədər, hətta ondan da az miqdarda savab yazılmış olur.

Üzlə çevrilmək isə insanın boynunu sağa və ya sola çevirməsidir. İnsana əmr olunub ki, namaz vaxtı onun üzü qiblə istiqamətində olsun – sağa və ya sola meyl etməsin. Əgər belə edərsə... Aişə ﵂ Peyğəmbərdən ﷺ namazda çevrilmək barədə soruşduqda o, belə cavab vermişdir: **"Bu, şeytanın qulun namazından oğurladığı bir şeydir".**

[Hədisin ərəbcəsində keçən] "əl-ixtilas" sözünün mənası bir şeyi gizlincə götürməkdir. Yəni şeytan namazda insana yaxınlaşaraq onu sağa və sola baxmağa vadar edir ki, namazının əcrindən azaltsın.

Namaz əsnasında Uca və nöqsansız Allah qulunun qarşısında olur. İnsan öz Rəbbindən üzünü çevirdikdə Allah da ondan üz döndərə bilər. Buna görə də Peyğəmbər ﷺ namazda çevrilməyi qadağan etmişdir. Necə ki, Ənəs ibn Malikdən ﵁ nəql olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Namazda çevrilmək həlak edən əməldir".** Lakin buna ehtiyac olarsa, bir müşkül olmaz. Məsələn, sənə hücum etmək istəyən heyvanın səsini eşidib çevrilsən, yaxud mühüm bir iş dalınca göndərdiyin insana tərəf dönsən, bunda bir problem yoxdur. Bir şərtlə ki, yalnız başınla dönəsən. Bədənlə çevrilmək isə namazı batil edir. Çünki bu zaman insan qiblədən üzünü çevirmiş olur. Qibləyə tərəf yönəlmək isə namazın şərtlərindəndir.

Bəziləri isə *namaz boyu* boyunları ilə olmasa da, gözləri ilə çevrilirlər. Görürsən ki, gözü daim sağa-sola baxır – biri ayağa qalxdıqda ona baxır, biri oturduqda ona baxır, hərəkət etdikdə ona baxır. Şəkk yoxdur ki, bu da namazın savabını azaldır. Gərək namaz qılan insan namaz zamanı gözlərini yerə – səcdə etdiyi yerə diksin, sağa və ya sola baxmasın. Müvəffəq edən Allahdır.

Üç yüz qırx ikinci fəsil

Məzarlara tərəf namaz qılmağın qadağan olması

Mövzu ilə əlaqəli hədis:

١٧٥٧– عَنْ أَبي مَرْثَدٍ كَنَّازِ بْنِ الحُصَيْنِ ﷺ قَالَ: سمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: « لا تُصَلُّوا إِلى القُبُورِ، وَلا تَجْلِسُوا علَيْها » رواه مُسْلِم.

1757. Əbu Mərsad Kənnaz ibn əl-Husayn ﷺ nəql edir ki, mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Məzarlara tərəf namaz qılmayın, onların üzərində də oturmayın".**

Hədisi Muslim rəvayət etmişdir.

Üç yüz qırx üçüncü fəsil

Namaz qılanın önündən keçməyin haram olması

Mövzu ilə əlaqəli hədis:

١٧٥٨– عَنْ أَبي الجُهيْمِ عَبْدِ اللَّهِ بْنِ الحَارِثِ بْنِ الصِّمَّةِ الأَنْصَارِيِّ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: « لَوْ يَعْلَمُ المَارُّ بَيْنَ يدي المُصَلِّي مَاذا عَلَيْهِ لَكَانَ أَنْ يَقِفَ أَرْبَعِينَ خَيْراً لَهُ مِنْ أَنْ يَمُرَّ بَيْنَ يَدَيْهِ » قَالَ الرَّاوي: لا أَدْرِي: قَالَ أَرْبَعِين يَوماً، أَو أَرْبَعِينَ شَهْراً، أَوْ أَرْبَعِينَ سَنَةً. متفقٌ عليه.

1758. Əbul-Cuheym Abdullah ibn əl-Haris ibn əs-Sammə əl-Ənsaridən ﷺ nəql olunur ki, Rəsulullah ﷺ demişdir: **"Əgər namaz qılanın önündən keçən şəxs nə qədər günah qazandığını bilsəydi, qırx qədər dayanması onun önündən keçməsindən daha yaxşı olardı".**

Ravilərdən biri dedi: "Bilmirəm, qırx gün dedi, qırx ay, yoxsa qırx il".

Hədisi Buxari və Muslim rəvayət etmişlər.

Üç yüz qırx dördüncü fəsil

Müəzzin iqamə verməyə başladıqdan sonra adamın nafilə namaz qılmasının bəyənilməməsi – bu, istər həmin namazın sünnəsi olsun, istər də başqa bir namaz

Mövzu ilə əlaqəli hədis:

١٧٥٩– عَنْ أَبي هُرَيْرَةَ ﵁ عَنِ النَّبِيِّ ﷺ قَالَ: « إذا أُقِيمتِ الصلاَةُ، فَلاَ صَلاَةَ إِلا المكتوبَةَ » رواه مسلم.

1759. Əbu Hureyradan ﵁ nəql olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"İqamə verildisə, fərz namazından başqa namaz yoxdur"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Şərh:

Müəllif ﵀ **"Müəzzin iqamə verməyə başladıqdan sonra adamın nafilə namaz qılmasının bəyənilməməsi…"** fəslini qeyd edir.

Yəni, namazın iqaməsi verildikdə adam nafilə namazına, o cümlədən məscidə salam, həmin namazın sünnəsi və ya digər nafilə namazlara başlamamalıdır. Misal üçün, sübh namazının iqaməsi verilməyə başladıqda sübh namazının sünnəsini qılmaq olmaz. Əbu Hureyradan ﵁ buna dəlil olan hədisdə Peyğəmbər ﷺ demişdir: **"İqamə verildisə, fərz namazından başqa namaz yoxdur".**

Hədisdəki **"namaz yoxdur"** sözü ümumidir və bütün namazlara aiddir. Hətta adam qəza namazının olduğunu iqamə verilərkən xatırlasa belə, onu qılmamalıdır. İmamla birlikdə həmin namazın niyyəti ilə qoşulmalı və camaatdan ayrılmamalıdır. Məsələn, sən əsr namazına iqamə verildiyi an məscidə daxil olursan, ancaq zöhr namazını hələ qılmamısan. Bu zaman *ayrılıqda* zöhrü qılmırsan, çünki artıq əsr namazının iqaməsi verilir. Sən zöhr namazının niyyəti ilə onlara qoşul, namazı bitirdikdən sonra da əsr namazını qıl.

---

[1] "Səhih Muslim", 1160.

Bəs namazın iqaməsi verildiyi an sən nafilə namazına artıq başlamısansa, onu tamamlamalısan, yoxsa namazdan yarmıçıq çıxmalısan? Alimlərin bu barədə iki rəyi vardır:

Birinci rəy: Namazın iqaməsi verildikdə sən nafilə namazına artıq başlamısansa, onu tamamlamadan yarımçıq kəsirsən.

İkinci rəy: Namazın bir-iki rükətini və ya hamısını ötürsən belə, namazını tamamlayırsan. Bu halda salamdan öncə ihram təkbiri miqdarında vaxtın qalması yetərlidir.

Səhih rəy olaraq isə deyirik ki, namazın iqaməsi verildikdə sən nafilə namazına artıq başlamısansa və əgər hələ birinci rükətdəsənsə, namazını yarımçıq kəs. Əgər ikinci rükətdəsənsə, onu qısa şəkildə tamamla. Dəlilləri özündə cəm edən doğru rəy elə bu ola bilər. Müvəffəq edən Allahdır.

Üç yüz qırx beşinci fəsil

Cümə gününü orucla, gecəsini isə namazla xüsusiləşdirməyin bəyənilməməsi

Mövzu ilə əlaqəli hədislər:

١٧٦٠– عَنْ أَبي هُرَيْرة ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ: « لا تَخُصُّوا لَيْلَةَ الجُمُعَةِ بِقِيَامٍ مِنْ بَيْنِ اللَّيَالِي، وَلا تَخُصُّوا يَوْمَ الجُمُعَة بِصِيَامٍ مِنْ بيْنِ الأَيَّامِ إِلاَّ أَنْ يَكُونَ في صَوْمٍ يَصُومُهُ أَحَدُكُمْ » رواه مسلم.

1760. Əbu Hureyradan ﷺ nəql olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Cümə gününün gecəsini başqa gecələrdən qiyamla xüsusiləşdirməyin. Cümə gününü də başqa günlərdən orucla xüsusiləşdirməyin. Yalnız birinizin adətən tutduğu oruc istisnadır".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٧٦١– وَعَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: « لا يَصُومَنَّ أَحَدُكُمْ يَوْمَ الجُمُعَةِ إِلاَّ يَوْماً قَبْلَهُ أَوْ بَعْدَهُ » متفقٌ عليه.

1761. Yenə Əbu Hureyradan ﷺ nəql olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Bir gün öncəni və ya bir gün sonranı *ona birləşdirmədikcə* cümə gününü oruc tutmayın"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.

١٧٦٢– وَعَنْ مُحَمَّدِ بْنِ عَبَّادٍ قَالَ: سَأَلْتُ جَابِراً ﷺ: أَنَهَى النَّبِيُّ ﷺ عَنْ صَوْمِ الجُمُعَةِ؟ قَالَ: نَعَمْ. متفقٌ عليه.

1762. Muhəmməd ibn Abbad deyir ki, mən Cabirdən ﷺ soruşdum: "Peyğəmbər ﷺ cümə günü oruc tutmağı qadağan edibmi?". Dedi: "Bəli".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

---

[1] "Səhih Muslim", 1930.

[2] "Səhih əl-Buxari", 1848; "Səhih Muslim", 1928.

١٧٦٣– وَعَنْ أُمِّ الْمُؤْمِنِينَ جُوَيْرِيَةَ بِنْتِ الحَارِثِ ﵂ أَنَّ النَّبِيَّ ﷺ دَخَلَ عَلَيْهَا يوْمَ الجُمُعَةَ وَهِيَ صائمَةٌ، فَقَالَ: « أَصُمْتِ أَمْسِ؟ » قَالَتْ: لا، قَالَ: « تُرِيدينَ أَنْ تَصُومِي غداً؟ » قَالَتْ: لا، قَالَ: « فَأَفْطِرِي » رَوَاهُ البُخاري.

1763. Möminlərin anası Cuveyriyyə bint Haris ﵂ nəql edir ki, bir cümə günü o, oruclu ikən Peyğəmbər ﷺ onun yanına gəlib dedi: **"Dünən oruc tutmuşdunmu?"** Dedi: "Xeyr". Dedi: **"Sabah oruc tutmaq istəyirsənmi?"** Dedi: "Xeyr". Dedi: **"Elə isə orucunu poz".**

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

Şərh:

Müəllif ﵀ **"Cümə gününü orucla, gecəsini isə namazla xüsusiləşdirməyin bəyənilməməsi"** fəslini qeyd edir.

Cümə günü həftənin bayramıdır və hər yeddi gündə bir dəfə təkrarlanır. Məhz bayram olduğu üçün həmin günü oruc tutmağı Peyğəmbər ﷺ qadağan etmişdir. Lakin bu haram olan qadağa deyil, çünki cümə günü bir il ərzində əlli dəfədən çox təkrarlanır.

Qurban və Ramazan bayramlarında oruc tutmaq isə haramdır. Çünki bunlar ildə yalnız bir dəfə olur – bir dəfə Ramazan bayramı, bir dəfə də Qurban bayramı. Cümə günü isə təkrarlanır. Bu səbəbdən də bu xüsusi bir qadağadır. Bu qadağa məkruh hökmündədir. Cümə günündən bir gün öncə, yaxud bir gün sonra oruc tutduqda bu məkruh hökmü də aradan qalxır. Varid olan hədislərdən Əbu Hureyradan ﵁ nəql olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Cümə gününün gecəsini başqa gecələrdən qiyamla xüsusiləşdirməyin. Cümə gününü də başqa günlərdən orucla xüsusiləşdirməyin. Yalnız birinizin adətən tutduğu oruc istisnadır".**

Burada xüsusiləşdirmək yoxdursa, yəni adam hər gecə təhəccüdə qalxırsa, cümə gecəsi də qalxıb ibadət edə bilər. Yaxud bir gündən bir oruc tutan kəsin orucu cümə gününə təsadüf edirsə, həmin orucu tuta bilər.

Həmçinin Ərəfa günü, Aşura günü cümə gününə təsadüf edərsə, istəyən kəs həmin günləri oruc tuta bilər. Çünki bu oruc cümə günü üçün xüsusi deyil. Sadəcə həmin gün cümə gününə təsadüf etmişdir.

[1] "Səhih əl-Buxari", 1850.

Aşura günü isə bir gün qabaq və ya bir gün sonranı da oruc tutmaqla yəhudilərə müxalif olmalıyıq.

Başqa bir hədisdə deyilir: **"Bir gün öncəni və ya bir gün sonranı *ona birləşdirmədikcə* cümə gününü oruc tutmayın".**

Möminlərin anası Cuveyriyyə bint Haris رضي الله عنها nəql edir ki, bir cümə günü o, oruclu ikən Peyğəmbər ﷺ onun yanına gəlib dedi: **"Dünən oruc tutmuşdunmu?"** Dedi: "Xeyr". Dedi: **"Sabah oruc tutmaq istəyirsənmi?"** Dedi: "Xeyr". Dedi: **"Elə isə orucunu poz".** Bu da dəlildir ki, cümə günü oruc tutmaq özündən bir gün qabaq və ya bir gün sonra oruc tutulduqda caizdir.

"Sabah oruc tutmaq istəyirsənmi?" sözü dəlildir ki, şənbə günü nafilə orucu tutmaq olar. Cümə günü ilə birlikdə şənbə gününü də oruc tutmaq isə məkruh deyil. Həmçinin Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur ki: **"Şənbə günü fərz olan oruclar istisna olmaqla, oruc tutmayın. Heç olmazsa, üzüm qurusunu götürüb sovursun"**.[1]

Bu hədis barəsində alimlər ixtilaf etmişlər. Bəziləri onun zəif olduğunu və ona əməl olunmamalı olduğunu bildirmişlər. Şeyximiz mühəddis Əbdüləziz bin Bəz də bunu demişdir: "Şənbə günü oruc tutmağın nəhy olunması barədə hədis zəif və şazdır, ona əməl olunmur". Bəziləri isə demişlər ki, o, nəsx olunmuşdur. Digərləri demişlər ki, bu qadağa ifrata varmaq barəsindədir. İmam Əhmədin rəyi belədir: "Cümə günü və ya bazar günü oruc tutarsa, olar".

Hər bir halda, adam oruc tutarsa günah qazanmır. Lakin daha əfzəl olan cümə və ya bazar gününü başqa günlə birlikdə tutmaqdır.

Cuveyriyyədən رضي الله عنها rəvayət olunan hədis Buxarinin "Səhih"indədir. Əbu Hureyradan nəql olunan hədis də həmçinin. Hər iki hədis dəlildir ki, şənbə günü oruc tutmaq olar. Həmçinin cümə günü ilə birlikdə oruc tutarsa olar. Bununla da bizə bəlli olur ki, gərək insan başqasını təqlid etməsin. Çoxları hər dəfə dəlillərə nəzər salmadan, onları cəm etmədən başqalarını təqlid edir. Çünki bəzi alimlər isnadın zahirinə baxmaqla mətninə nəzər salmadan hədisin səhih olmasına hökm verirdilər. Mətnə nəzər salmaq olduqca önəmlidir. Çünki hansısa ravinin səhv etməsinə görə şəriət qaydalarına müxalif olmağın xətası daha güclü sənədi və mətni olan səhih, aydın hədislərə əsaslanan kəsin xətasından daha yüngülür.

---

[1] "Sunən Əbu Davud", 2067; "Sunən ət-Tirmizi", 675; "Sunən İbn Macə", 1716.

Gərək elm tələbəsi, ələlxüsus da hədis tələbəsi buna diqqət yetirsin, sadəcə sənədin isnadının zahirinə baxaraq hədisə hökm verməsin. Baxsın ki, bu hədis şəriətin məlum qaydalarına, həmçinin etibarlı ravilərin nəql etdikləri hədislərə müxalif deyil ki. Belə olarsa, o zaman hədisin şaz olmasına hökm verməli və hədisi qəbul etməməlidir. Çünki qeyd etdiyimiz kimi, bir ravinin xəta etməsi mötəbər imamların xəta etmələrindən daha yüngüldür.

Hər bir halda, şənbə günü nafilə orucu tutmaq haram deyil. Lakin gərək ya bir gün əvvəl, ya da bir gün sonra da oruc tutulsun. Müvəffəq edən Allahdır.

Üç yüz qırx altıncı fəsil

“əl-Visal” orucu tutmağın haramlığı, bu da iki və daha artıq günü aralarında yemədən-içmədən oruc tutmaqdır

Mövzu ilə əlaqəli hədislər:

١٧٦٤– عَنْ أَبي هُرَيْرَةَ وَعَائِشَةَ ﵄ أَنَّ النَّبِيَّ ﷺ نَهَى عَنِ الْوِصالِ. متفقٌ عليه.

1764. Əbu Hureyra ﵁ və Aişədən ﵂ nəql olunur ki, Peyğəmbər ﷺ əl-Visal orucunu qadağan etmişdir.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.

١٧٦٥– وَعَن ابْنِ عُمَرَ ﵄ قالَ: نَهَى رسُولُ اللَّهِ ﷺ عَنِ الْوِصالِ. قَالُوا: إِنَّكَ تُواصِلُ؟ قَالَ: « إِنِّي لَسْتُ مِثْلَكُمْ، إِني أُطْعَمُ وَأُسْقَى » متفقٌ عليه، وهذا لَفْظُ البُخاري.

1765. İbn Ömər ﵄ dedi ki, Peyğəmbər ﷺ əl-Visal orucunu qadağan etdi. Dedilər: “Bəs sən əl-Visal orucu tutursan axı”. Dedi: “Mən sizin kimi deyiləm, mənə yemək və içmək verilir”.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1] Bu ləfz Buxariyə məxsusdur.

Şərh:

Müəllif ﵀ **“əl-Visal orucu tutmağın haramlığı”** fəslini qeyd etmişdir.

əl-Visal orucu adamın iki gün ardıcıl, aralarında iftar etmədən oruc tutmasıdır. Uca və nöqsansız Allah orucun sərhədlərini bu sözlərlə təyin etmişdir: **“Artıq onlara yaxınlaşın və Allahın sizin üçün *əzəldən* müəyyən etdiyini istəyin. Dan yeri sökülməndə, ağ sapın qara sapdan seçildiyi sizə aydın olanadək yeyin-için. Sonra gecəyədək orucunuzu tamamlayın”.**[2]

“Sonra gecəyədək orucunuzu tamamlayın”, yəni Uca Allah orucun əvvəlini və sonunu müəyyən etmişdir. Peyğəmbər ﷺ demişdir: **“İnsanlar iftarı tezləşdirdikləri müddətdə xeyir içərisində olacaqlar”.**[3]

---

[1] “Səhih əl-Buxari”, 1826; “Səhih Muslim”, 1844.

[2] “əl-Bəqərə” surəsi, 187.

[3] “Səhih əl-Buxari”, 1821; “Səhih Muslim”, 1838.

Qayda belədir ki, insan gərək iftar etməyə tələssin. O ﷺ demişdir: **"Kim orucunu uzatmaq istəyərsə, səhərə qədər uzatsın"**.[1]

Beləcə, Peyğəmbər ﷺ orucu səhərədək uzatmağa icazə vermişdir. Bununla da oruc tutanın üç halı bəlli olur:

Birinci: Gün batdıqdan sonra iftarını açmağa tələsir. Bu Sünnədir və daha kamil və daha fəzilətli olanıdır.

İkinci: Orucu səhərədək uzadır. Bu icazəli olsa da birinci kimi deyil.

Üçüncü: İki gün iftar etməməkdir ki, bu da əl-Visal orucudur. Bu, müəllifin dediyi kimi, haramdır. Məqsədəuyğun rəy də budur, çünki Peyğəmbər ﷺ əl-Visal orucunu qadağan etmişdir. Bu orucu tutan bəzi səhabələr elə zənn etdilər ki, Peyğəmbərin ﷺ onlara rəhmi gəldiyi üçün bunu belə demişdir. Onlar: "Biz dözərik" deyərək bu orucu tutdular, o da onları tərk etdi. Sonra onlar yenə bu orucu tutdular və sonra Şəvval ayı gəldi. O dedi: **"Hilal gecikərsə, mən sizə artıracağam".**[2] Sanki o bu əməli inkar edirdi. Bu da həmin orucun haram olmasına dəlildir.

Bəzi alimlər isə əl-Visal orucunun haram deyil, məkruh hökmündə olduğunu demişlər. Çünki səbəb insanlara mərhəmətdir. İnsan isə özü-özünün əmiridir. Peyğəmbər ﷺ də hilal görünənədək orucunu bir-iki gün uzatdı, sonra da: **"Hilal gecikərsə, mən sizə artıracağam"** dedi.

Bəzi sələflərin, o cümlədən Abdullah ibn Zubeyrin رضي الله عنهما on beş gün iftarsız oruc tutması barədə varid olan rəvayətlərə gəlincə, bu onların şəxsi ictihadları idi. Doğru olan rəy isə Sünnədə buyurulandır.

[1] "Səhih əl-Buxari", 1828.

[2] "Səhih əl-Buxari", 6755; "Səhih Muslim", 1846.

Üç yüz qırx yeddinci fəsil

Məzarın üzərində oturmağın haram olması

Mövzu ilə əlaqəli hədis:

١٧٦٦– عَنْ أَبي هُرَيْرَةَ ﵁ قَال: قَال رسُولُ اللَّهِ ﷺ: لأَنْ يجْلِسَ أَحدُكُمْ على جَمْرَةٍ، فَتُحْرِقَ ثِيَابَه، فَتَخْلُصَ إِلى جِلْدِهِ خَيرٌ لَهُ مِنْ أَنْ يجْلِسَ على قَبْرٍ» رواه مسلم.

1766. Əbu Hureyradan ﵁ nəql olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Birinizin paltarını yandırana kimi köz üstündə oturması, yanığın hətta dərisinə çatması məzar üzərində oturmasından daha xeyirlidir"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

[1] "Səhih Muslim", 1612.

Üç yüz qırx səkkizinci fəsil

Məzarı suvamağın və üstünü tikməyin qadağan olması

Mövzu ilə əlaqəli hədis:

١٧٦٧– عَنْ جَابِرٍ رضي الله عنه قَالَ: نَهَى رَسُولُ اللَّهِ ﷺ أَنْ يُجَصَّصَ الْقَبْرُ، وَأَنْ يُقْعَدَ عَلَيهِ، وأَنْ يُبْنَى عَلَيْهِ. رواه مسلم.

1767. Cabirdən رضي الله عنه rəvayət olunur ki, Peyğəmbər ﷺ məzarın suvanmasını, onun üzərində oturmağı, üzərini tikməyi qadağan etmişdir.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Şərh:

Sonra müəllif رحمه الله **"Məzarın üzərində oturmağın qadağan olması", "Məzarı suvamağın və üstünü tikməyin qadağan olması"** fəsillərini qeyd edir.

Çünki məzarda müsəlman və möhtərəm zat vardır. Onun məzarının üzərində oturmaq isə ona qarşı hörmətsizlikdir. Buna görə də Əbu Hureyradan رضي الله عنه nəql olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Birinizin paltarını yandırana kimi köz üstündə oturması, yanığın hətta dərisinə çatması məzar üzərində oturmasından daha xeyirlidir".** Bu isə o əməlin haram olmasına dəlalət edir.

İnsan müsəlmanın məzarı üzərində oturmamalıdır. Oturmaq istəyirsə, məzarın arxası istiqamətində, yaxud sağında və ya solunda otursun. Məzarın üzərində oturmaq isə haramdır.

Məzara diqqət məsələsində həddi aşmaq da buna aiddir. Buna görə də Peyğəmbər ﷺ məzarın sıvanmasını qadağan etmişdir. Çünki məzarı sıvamaq onu əzəmətləşdirmək anlamına gəlir. Məzarı əzəmətləşdirmək isə şirkə gətirib çıxarır. Məzarın üzərini tikmək də belədir. Odur ki, məzarı sıvamaq haramdır. Məzarın üzərini tikməyin haramlığı isə daha şiddətlidir. Məzarın üzərini yazmaq məsələsi isə açıqlanmalıdır. Məzarın yerini bildirmək üçün üzərinə sahibinin adını yazmaq olar. Ancaq bunu cahiliyyət

[1] "Səhih Muslim", 1610.

dövründə edildiyi kimi, yəni ölünün adını yazıb, onu tərifləmək, belə-belə adam idi deyə qeyd etmək və ya üzərinə şeir yazmaq isə haramdır.

Bəzi cahillərin etdikləri də bu qəbildəndir. Onlar, məsələn, məzarın üzərindəki daşa Fatihə sürəsini və ya başqa ayələri yazırlar. Bütün bunlar haramdır. Məzarlıqda olan kəs belə bir şey gördükdə gərək bunu aradan qaldırsın. Çünki bu, dəyişdirilməsi vacib olan münkər əməldir. Müvəffəq edən Allahdır.

Üç yüz qırx doqquzuncu fəsil

Kölənin öz sahibindən qaçmasının haramlığının ağırlığı

Mövzu ilə əlaqəli hədislər:

١٧٦٨– عَنْ جَرِيرٍ ﵁ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: « أَيُّمَا عَبْدٍ أَبَقَ، فَقَدْ بَرِئَتْ مِنْهُ الذِّمَّةُ ». رواه مسلم.

1768. Cərirdən ﵁ nəql olunur ki, Peyğəmbər ﷺ dedi: ***"Sahibindən* qaçan kölə zimmətdən uzaqlaşar"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٧٦٩– وَعَنْهُ عَنِ النَّبِيِّ ﷺ: « إِذا أَبَقَ الْعبْدُ، لَمْ تُقْبَلْ لَهُ صَلاةٌ » رواه مسلم.

وفي روَاية: « فَقَدْ كَفَر ».

1769. Yenə Cərirdən ﵁ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Kölə qaçarsa, onun namazı qəbul olunmaz"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

Başqa bir rəvayətdə isə: **"küfr etmiş olur"**– deyilir.

Şərh:

Müəllif ﵀ **"Kölənin öz sahibindən qaçmasının haramlığının ağırlığı"** babını qeyd etmişdir.

Kölə, yəni qul. [Hədisin ərəbcəsində işlənən] "ibaq" sözü ilə isə onun öz sahibindan qaçması nəzərdə tutulur. Çünki kölənin həm özü, həm də mənfəətləri sahibinə məxsusdur. O, qaçarsa sahibini bunlardan məhrum etmiş olar. Bu barədə təhdid varid olmuşdur ki, belə edən "kafir olur", "zimmətdən uzaqlaşır", "onun namazı qəbul olmur". Bu üç cəza, Allah qorusun, ona şamil olur.

Birinci: Cərirdən ﵁ nəql olunan hədisdə deyildiyi kimi, zimmətdən uzaqlaşır.

---

[1] "Səhih Musim", 102.

[2] "Səhih Musim", 103.

İkinci: Kafir olur, ancaq bu küfr İslam millətindən çıxaran küfr deyil.

Üçüncü: Namazı qəbul olunmur. Yəni kölə öz sahibindən qaçdıqdan sonra namaz qılarsa, onun namazı sayılmır.

Alimlər ixtilaf etmişlər ki, onun həm fərz, həm də nafilə namazlarının hamısı qəbul olunmur, yoxsa bu söz yalnız nafilə namaza aiddir. Bəzi alimlər demişlər ki, fərz namazları qəbul olur. Çünki onun zamanı şəri baxımdan istisnadır. Çünki o, öz ağasının yanında olsa da, ondan qaçsa da namazı qılacaqdır. Bəziləri isə demişlər ki, hədis ümumidir və buna görə cəza verilməsi mümkündür. Deməli, qıldığı nafilə namazı ilə bağlı "qəbul olunmur" deyildikdə namazın ümumiyyətlə sayılmaması, fərz namazı ilə bağlı isə "savabından məhrum olur" anlaşılır. Bu da gözəl bir cəmdir. Daha doğrusunu Allaha bilir.

Üç yüz əllinci fəsil

Şəri cəzalar məsələsində şəfaətçiliyin haramlığı

Mövzu ilə əlaqəli ayə:
Uca Allah buyurur:

﴿ ٱلزَّانِيَةُ وَٱلزَّانِي فَٱجۡلِدُواْ كُلَّ وَٰحِدٖ مِّنۡهُمَا مِاْئَةَ جَلۡدَةٖۖ وَلَا تَأۡخُذۡكُم بِهِمَا رَأۡفَةٞ فِي دِينِ ٱللَّهِ إِن كُنتُمۡ تُؤۡمِنُونَ بِٱللَّهِ وَٱلۡيَوۡمِ ٱلۡأٓخِرِۖ وَلۡيَشۡهَدۡ عَذَابَهُمَا طَآئِفَةٞ مِّنَ ٱلۡمُؤۡمِنِينَ ﴾

“Zinakar qadının və zinakar kişinin hər birinə yüz çubuq vurun. Əgər Allaha və Axirət gününə inanırsınızsa, Allahın dininə görə onlara yazığınız gəlməsin”.[1]

Mövzu ilə əlaqəli hədis:

١٧٧٠– وَعَنْ عَائِشَةَ ﵂، أَنَّ قُرَيْشاً أَهَمَّهُمْ شَأْنُ المَرْأَةِ المَخْزُومِيَّةِ الَّتي سَرَقَتْ فَقَالُوا: منْ يُكَلِّمُ فيها رَسُولَ اللَّه ﷺ، فَقَالُوا: وَمَنْ يَجْتَرِيءُ عَلَيْهِ إِلاَّ أُسَامَةُ بْنُ زَيدٍ، حِبُّ رسولِ اللَّهِ ﷺ، فَكَلَّمَهُ أُسَامَةُ فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: « أَتَشْفَعُ في حَدٍّ مِنْ حُدُودِ اللَّهِ تَعَالى؟» ثم قام فاحتطب ثُمَّ قَالَ: « إِنَّمَا أَهلَكَ الَّذينَ قَبْلَكُمْ أَنَّهمْ كَانُوا إِذا سَرَقَ فِيهِم الشَّرِيفُ تَرَكُوهُ، وَإِذا سَرَقَ فِيهِمُ الضَّعِيفُ، أَقامُوا عَلَيْهِ الحَدَّ، وَايْمُ اللَّهِ لَوْ أَنَّ فاطِمَةَ بِنْبتَ مُحَمَّدٍ سَرَقَتَ لَقَطَعْتُ يَدَهَا ». متفقٌ عليه.

1770. Aişədən ﵂ rəvayət olunur ki, qureyşliləri Məxzum oğulları qəbiləsindən olan oğurluq etmiş qadının halı narahat edirdi. Onlar dedilər: “Onun barəsində kim Rəsulullahla ﷺ danışar?” Dedilər: “Rəsulullahın ﷺ sevimlisi Usamə bin Zeyddən başqa buna kim cürət edə bilər?” Usamə onunla danışdı, Rəsulullah ﷺ da dedi: **“Allahın cəzası barəsində şəfaətçilikmi edirsən?”** Sonra qalxıb xütbə verdi və dedi: **“Sizdən əvvəlkiləri həlak edən o oldu ki, onların arasında hörmətli bir adam oğurluq etsəydi onu tərk edər, zəif adam oğurluq etsəydi, onu cəzalandırardılar.**

[1] “ən-Nur” surəsi, 2.

Allaha and olsun ki, əgər Muhəmmədin qızı Fatimə də oğurluq edərsə, onun da əlini kəsərəm".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Başqa bir rəvayətdə isə deyilir: "... Peyğəmbərin ﷺ üzünün rəngi dəyişdi, o dedi: **"Allahın cəzası barəsində şəfaətçilikmi edirsən?!"** Usamə dedi: "Ey Allahın elçisi, mənim üçün bağışlanma dilə". Sonra Peyğəmbər ﷺ əmr etdi və həmin qadının əli kəsildi".[2]

Şərh:

Müəllif İmam ən-Nəvəvi ﷺ "Salehlər bağçası" əsərində **"Şəri cəzalar məsələsində şəfaətçiliyin haramlığı"** fəslini qeyd edir.

Şəri cəza, şəriətin buyurduğu cəzadır. Bil ki, günahlara görə verilən cəzalar iki qisimdir:

Birincisi, Axirətdə veriləcək cəzalar;

İkincisi, dünyada verilən cəzalar.

Axirətdə veriləcək cəzalar Allaha aiddir. Uca Allah buyurur: **"Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan kiçik günahları isə dilədiyinə bağışlayacaqdır".**[3] Deməli, izzət və cəlal sahibi Allah öz fəziləti və rəhməti ilə insanın şirkdən başqa bütün günahlarını bağışlaya bilər.

Dünyada verilən cəzaların isə növləri vardır. Onlardan bəziləri şəriətdə müəyyən edilmişdir və onları dəyişdirmək olmaz. Məsələn, oğrunun əli kəsilməlidir. Bu zaman əl əvəzinə başqa bir üzv kəsilməməlidir. Həmçinin əl kəsiləndə Uca Allahın müəyyən etdyi həddi aşmaq olmaz.

Zina da belədir. Əgər zina etmiş şəxs subaydırsa, ona yüz çubuq vurulur və o yaşadığı yerdən bir il müddətinə sürgün edilir. Yəni qaldığı yerdən başqa bir şəhərə bir illik qovulur. Bu müddəti isə nə artırmaq, nə də azaltmaq olmaz, çünki bu, şəri cəzadır.

Həmçinin Allah və Onun elçisinə qarşı müharibə aparanların və yer üzündə fəsad yayanların cəzası onların öldürülməsi, çarmıxa çəkilməsi, əllərinin və ayaqlarının çarpazvari kəsilməsi və yaşadıqları yerdən sürgün edilmələridir.

---

[1] "Səhih əl-Buxari", 3216; "Səhih Muslim", 3196.

[2] "Səhih Muslim", 3197.

[3] "ən-Nisa" surəsi, 48.

Bundan başqa, müəyyən miqdarda təyin olunmamış cəzalar da vardır ki, bu kimi cəzalarda hakimin, yəni qazinin, yaxud da şəri cəza verməyə səlahiyyəti olan şəxslərin rəyinə əsaslanmaq lazımdır. Bu məsələ genişdir. Bəzən cəza malla olur və insana pul cəzası kəsilir. Bəzən vəzifəsindən azad etməklə cəza verilir. Bəzən həbs etməklə, bəzən də onun ayıbını insanlar arasında yaymaqla olur. Bəzən məclisdən çıxarılmaqla, bəzən şallaqla olur. Hansı cəza daha məqsədəuyğun hesab olunursa o da verilir.

Müəyyən olunmuş cəzalar barədə rəhbərə xəbər verildikdə kiminsə bu xüsusda şəfaətçilik etməsi caiz deyil. Necə ki, Peyğəmbər ﷺ demişdir: **"Şəri cəzanın verilməsi rəhbərə yetişərsə, ona şəfaətçilik edənə də, şəfaət etdirənə də Allah lənət eləsin".** Lənət Allahın rəhmətindən qovulmaq və uzaqlaşmaqdır. Peyğəmbər ﷺ həmçinin demişdir: **"Kim Allahın buyurduğu şəri cəzalarda şəfaətçilik edərsə, Allaha qarşı çıxmış olar".** Allah qorusun.

Yox, əgər hakimə çatmış olmasa, bu zaman vasitəçilik və şəfaətçilik etmək olar. Məsələn, bir adam kiminsə zina etdiyini görərsə və buna dörd şahidi olarsa, düşünərsə ki, həmin adam tövbə etsə yaxşı olar və beləcə onun ayıbını gizlədərsə, bu caizdir. Hakimə çatdıqdan sonra isə olmaz.

Dindən çıxmağa görə qətl isə şəri cəza deyil. Çünki mürtəd olan kəsin məsələsi hakimə çatdıqdan sonra tövbə edərsə, qətl hökmü ondan düşür. Yuxarıdakı cəzalar isə icra olunmalıdır. İnsan cəzadan öncə tövbə etmiş olsa belə, həmin cəza onun üzərindən götürülmür. Uca Allah bu xüsusda buyurur: **"Allaha və Onun rəsuluna qarşı savaşanların və yer üzündə fitnə-fəsad törətməyə səy göstərənlərin cəzası ancaq öldürülmək və ya çarmıxa çəkilmək, yaxud əllərinin və ayaqlarının çarpazvari kəsilməsi, ya da yaşadıqları yerdən sürgün edilmələridir. Bu, onlar üçün dünyada bir rüsvayçılıqdır. Axirətdə isə onları böyük bir əzab gözləyir. Sizin əlinizə keçməmişdən öncə tövbə edənləri istisnadır. Bilin ki, Allah bağışlayandır, rəhmlidir".**[1]

Sonra müəllif رحمه الله Aişənin رضي الله عنها nəql etdiyi hədisi qeyd edir ki, Məxzum oğulları qəbiləsindən bir qadın oğurluq etmişdi. Sonra da bu oğurluğun nə olduğunu bəyan edir ki, həmin qadın malı götürər, sonra da inkar edərdi. Yəni, insanların yanına gəlib deyərdi ki, mənə *istifadə üçün* qazan verin,

[1] "əl-Maidə" surəsi, 33-34.

mənə müvəqqəti qab verin. İnsanlar da ona yardım olaraq ona müvəqqəti istifadə üçün həmin şeyləri verərdilər. Qadın da sonradan deyərdi ki, mənə heç bir şey verməmisiniz.

Peyğəmbər ﷺ də müvəqqəti götürülmüş şeyi inkar etməyi oğurluq hökmü ilə eyni etdi. Çünki oğru evə gizli daxil olur. Bu, insanların mallarının gizli yolla oğurlanmasıdır. O isə insanların əşyalarını müvəqqəti götürdükdən sonra bunu inkar edirdi. Peyğəmbər ﷺ də əmr etdi ki, həmin qadının əli kəsilsin. Bu qadın da Qureyşin ən hörmətli qəbilələrindən olan Məxzum oğulları qəbiləsindən idi. Buna görə də onlar pərişan idilər. Düşünürdülər ki, Məxzum qəbiləsindən olan birinin əli necə kəsilə bilər? Onlar Peyğəmbərə ﷺ şəfaətçilik edəcək bir adam axtardılar və dedilər ki, Rəsulullahın ﷺ sevimlisi Usamə bin Zeyddən başqa buna kim cürət edə bilər? Onlar nə Əbu Bəkrin, nə də Ömər və Osmanın, yaxud Usamə ibn Zeyddən daha üstün olan başqa bir səhabənin adını çəkməmişdilər. Ya onlar ümumiyyətlə buna təşəbbüs etməmişdilər, ya da ki, düşünmüşdülər ki, onlar şəri cəza məsələsində əsla Peyğəmbərə ﷺ şəfaətçilik edən deyillər. Mühüm olan odur ki, onlar Usamə ibn Zeyddən bunu istədilər. Usamə də Zeyd ibn Harisənin oğlu idi. Zeyd ibn Harisə kölə idi. Onu Peyğəmbərə ﷺ Xədicə ﵂ hədiyyə etmiş, Peyğəmbər ﷺ də onu azad etmişdi. O onu da, oğlu Usaməni də çox sevirdi. Əlqərəz, Usamə Peyğəmbərlə ﷺ həmin qadın barəsində danışdı ki, bəlkə əlkəsmə cəzasını onun üzərindən götürsün. Bu vaxt Peyğəmbərin ﷺ üzünün rəngi dəyişdi və bunu inkar edərək ona dedi: **“Allahın cəzası barəsində şəfaətçilikmi edirsən?”** Yəni sən Allahın cəzası barəsində gərək şəfaətçilik etməyəydin.

Sonra qalxıb xütbə verdi, yəni bəlağətli bir xütbə verdi. Çünki ərəbcə “ixtətabə” deyilirsə, bəlağətli bir xütbə vermək nəzərdə tutulur. Ərəb dili alimləri demişlər ki, sözdəki əlavə, mənanın genişliyinə dəlalət edir. Yəni sözdəki əlavə hərflər mənanın daha geniş olmasından xəbər verir. Burada da “ixtətabə” sözü “bəlağətli xütbə vermək” mənasındadır. Sonra dedi: **“Sizdən əvvəlkiləri həlak edən o oldu ki, onların arasında hörmətli bir adam oğurluq etsəydi onu tərk edər, zəif adam oğurluq etsəydi, onu cəzalandırardılar**”.

“Sizdən əvvəlkiləri”, yəni sizdən əvvəlki ümmətləri.

“Həlak edən”, yəni etdikləri günahlara görə onları əzaba düçar edən bu olmuşdur.

Onlar deyərdilər ki, o, hörmətli adamdır, onun əlini kəsmək olmaz. Beləcə, hörmətli adam oğurluq edərdisə, ona toxunmazdılar, zəif adam oğurluq etdikdə isə onu cəzalandırardılar. Beləcə, cəza verilməsi insanların halı ilə bağlı olurdu.

Bu da dəlildir ki, əvvəlki ümmətlərdə də oğurluq edənlər olurdu. Həm də oğurluğu onların həm varlısı, həm kasıbı, həm hörmətlisi, həm də zəifləri edirdi. Sonra Peyğəmbər ﷺ and içir, halbuki o, and içmədən də sadiq və düzdanışandır: **"Allaha and olsun ki, əgər Muhəmmədin qızı Fatimə də oğurluq etsə, onun da əlini kəsərəm".** Ona Allahın salavatı və salamı olsun. Budur ədalət, budur Allahın hökmünü həyata keçirmək və nəfsin istəklərinə uymamaq. And içdi ki, Məxzum oğullarından olan həmin qadından həm əsil, həm də nəsəbcə daha üstün olan, Cənnət qadınlarının rəhbəri Muhəmmədin qızı Fatimə oğurluq edərsə, onun da əlini kəsərəm. Hədisdəki **"əlini kəsərəm"** sözü haqqında iki rəy vardır:

Birinci rəy: ya Peyğəmbər ﷺ özü şəxsən onun əlini kəsərdi. Bu daha bəlağətlidir.

İkinci rəy: ya da onun əlini kəsməyi kiməsə əmr edərdi.

Hər bir halda, Peyğəmbər ﷺ əsla hörmətinə və məqamına görə kiminsə şəri cəzasını ləğv etməzdi. Çünki şəri cəza izzət və cəlal sahibi Allahın haqqıdır: **"Allaha and olsun ki, əgər Muhəmmədin qızı Fatimə də oğurluq etsə, onun da əlini kəsərəm".** Sonra Peyğəmbər ﷺ əmr etdi və Məxzum oğullarından olan həmin qadının əli kəsildi. Baxmayaraq ki, o qadın Qureyşin ən hörmətli qadınlarından idi, cəzası ləğv olunmadı. Əmr sahiblərinin hamısı belə olmalıdır. Onlar cəza məsələsində insanlar arasında gərək fərq qoymasınlar – heç kimə varına, qohumluğuna, qəbiləsindəki hörmətinə və ya başqa bir səbəbə görə üstünlük verməsinlər. Cəza Allahın haqqıdır və izzət və cəlal sahibi Allah üçün icra edilməlidir.

"Zinakar qadının və zinakar kişinin hər birinə yüz çubuq vurun. Əgər Allaha və axirət gününə inanırsınızsa, Allahın dininə görə onlara yazığınız gəlməsin".[1]

Cəzalı insanlara şəfaətçilik etmək onlara yazığı gəlmək anlamındadır. Heç kim heç kimə şəfaətçi olmamalıdır. Heç kimə yazığın gəlməsin, heç kimə mərhəmət göstərmə, demə ki: "filankəs hörmətlidir, bu isə zəifdir,

[1] "ən-Nur" surəsi, 2.

filankəsin azyaşlı uşaqları var". Çünki şəri cəza günah iş görmüş hər bir kəsə fərzdir.

Nə qədər ki, İslam ümməti bu ədalət üzərində idi və Allahdan başqa heç kəsin qınağına əhəmiyyət verməzdi, izzət, qüvvət və aşkar bir qələbə onunla idi. Allahın cəzalarını icra etmədikdə, izzət və cəlal sahibi Allahın buyurduğu cəzaların icra edilməməsi üçün hesablaşmalar və vasitələr öz sözünü dedikdə isə bu gün gördüyümüz hala gəldik.

Uca Allahdan diləyirik ki, İslam ümmətinə əvvəlki izzətini, dininə bağlılığını qaytarsın. Şübhəsiz ki, O, hər şeyə Qadirdir.

Üç yüz əlli birinci fəsil

İnsanların yolunda, kölgələndikləri yerdə və su hövzələrində ağır təbii ehtiyacı rəf etməyin qadağan olması

Mövzu ilə əlaqəli hədis:
Uca Allah buyurur:

﴿ وَٱلَّذِينَ يُؤْذُونَ ٱلْمُؤْمِنِينَ وَٱلْمُؤْمِنَٰتِ بِغَيْرِ مَا ٱكْتَسَبُوا۟ فَقَدِ ٱحْتَمَلُوا۟ بُهْتَٰنًا وَإِثْمًا مُّبِينًا ﴾

“Mömin kişiləri və mömin qadınları etmədikləri bir işdən ötrü günahlandıranlar, sözsüz ki, öz üzərlərinə böhtanla bərabər açıq-aydın bir günah götürmüşlər”.[1]

Mövzu ilə əlaqəli hədis:

١٧٧١– وَعَنْ أَبي هُرَيْرَةَ ﷺ أَنَّ رَسُول اللَّهِ ﷺ قَالَ: « اتَّقُوا اللَّاعِنَيْن » قَالُوا ومَا اللَّاعِنَانِ؟ قَالَ: « الَّذِي يَتَخَلَّى في طَرِيقِ النَّاسِ أَوْ في ظِلِّهِمْ » رواه مسلم.

1771. Əbu Hureyra ﷺ nəql edir ki, Peyğəmbər ﷺ dedi: **“Lənətlənən iki şəxsdən olmaqdan çəkinin”.** Dedilər: “Lənətlənən iki şəxs kimdir?” Dedi: **“İnsanların yolunda və kölgələndikləri yerdə təbii ehtiyacını rəf edən (ayaqyoluna çıxan) kəs”.**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

---

[1] “əl-Əhzab” surəsi, 58.

[2] “Səhih Muslim”, 397.

Üç yüz əlli ikinci fəsil

Durğun suya sidik ifraz etməyin qadağan olması

Mövzu ilə əlaqəli hədis:

١٧٧٢– عَنْ جَابِرٍ رضي الله عنه: أَنَّ رسُولَ اللَّهِ ﷺ نَهَى أَنْ يُبَال في المَاءِ الرَّاكِدِ. رواهُ مسلم.

1772. Cabirdən رضي الله عنه nəql olunur ki, Peyğəmbər ﷺ durğun suya sidik ifraz etməyi qadağan etmişdir.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Şərh:

Müəllif رحمه الله **"İnsanların yolunda, kölgələndikləri yerdə və su hövzələrində ağır təbii ehtiyacı rəf etməyin qadağan olması"** fəslini qeyd edir.

[Əvvəlki fəslin başlığının ərəbcəsində işlənən] "ət-təğavvut" ağır su başına çıxmaqdır. Sidik ifraz etmək də ona aiddir. İnsanların yoluna və ya kölgələndiyi yerə ağır və ya yüngül su başına çıxmaq caiz deyil. Onların qış vaxtı gündə (günəş altında) oturduqları yer də buna aiddir. Belə etmək möminlərə əziyyət verməkdir. Uca Allah buyurur: **"Mömin kişiləri və mömin qadınları etmədikləri bir işdən ötrü günahlandıranlar, sözsüz ki, öz üzərlərinə böhtanla bərabər açıq-aydın bir günah götürmüşlər".**[2]

Burada həm söz, həm də sair əziyyətdən söhbət gedir. Sözlə əziyyət dedikdə pisləmə, söyüş və buna bənzər sözlər nəzərdə tutulur.

"**Etmədikləri bir işdən ötrü"**. Əgər buna səbəb başlarına bunlar gəlmiş kəslərin özləri və onların öz əlləri ilə etdikləri cinayətlərdirsə, xeyr.

Sonra müəllif رحمه الله Əbu Hureyradan رضي الله عنه nəql olunan hədisi qeyd edir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Lənətlənən iki şəxsdən olmaqdan çəkinin".** Dedilər: "Lənətlənən iki şəxs kimdir?" Dedi: **"İnsanların yolunda və kölgələndikləri yerdə təbii ehtiyacını rəf edən (ayaqyoluna çıxan) kəs".**

---

[1] "Səhih Muslim", 423.

[2] "əl-Əhzab" surəsi, 58.

“Lənətlənən”, yəni lənətə səbəb olmuş. İnsanların gedib-gəldiyi yollarda və ya kölgələndikləri yerlərdə təbii ehtiyaclarını rəf edənlər lənətlənmişlər. Allah qorusun. Bu səbəbdən insanların yollarında və kölgələndikləri yerlərə kiminsə su başına çıxdığını gördükdə: “Allahım, bunu edənə lənət et”– demək olar. Çünki onun özü özünü bu vəziyyətə salıb.

Durğun suya, yəni axarı olmayan su hövzəsinə də sidik ifraz etmək olmaz, çünki Peyğəmbər ﷺ bunu qadağan etmişdir – Muslimin Cabirdən nəql etdiyi hədisdə deyildiyi kimi. Odur ki, gölməçə və ya buna bənzər durğun su hövzələrinə sidik ifraz etmək olmaz. Axar su isə hərəkətlidir. Hərəkət etdiyi üçün də ifrazatın təsirinə məruz qalmır. Lakin əgər həmin suyun axdığı yerdə bu su ilə təmizlənən və ya həmin sudan içən insanlar varsa, o zaman həmin insanlara əziyyət verilməməlidir. Müvəffəq edən Allahdır.

Üç yüz əlli üçüncü fəsil

Övladlardan bəzilərinə digərlərindən daha yaxşı hədiyyələr verməyin bəyənilməməsi

Mövzu ilə əlaqəli hədis:

١٧٧٣– عَنِ النُّعْمَانِ بْنِ بَشِيرٍ ﵁ أَنَّ أَبَاهُ أَتَى بِهِ رَسول اللَّهِ ﷺ فَقَالَ: إِنِّي نَحَلْتُ ابْني هذا غُلاماً كَانَ لِي، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: « أَكُلَّ وَلَدِكَ نَحلْتَهُ مِثْلَ هَذا؟» فَقَال: لا، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: « فأَرْجِعْهُ ».

وفي رِوَايَةٍ: فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: « أَفَعَلْتَ هَذا بِوَلَدِكَ كُلِّهِمْ؟ » قَالَ: لا، قَالَ: « اتَّقُوا اللَّه وَاعْدِلُوا في أَوْلادِكُمْ » فَرَجَعَ أَبي، فَردَّ تلْكَ الصَّدَقَةَ.

وفي رِوَايَةٍ: فَقَال رسُولَ اللَّهِ ﷺ: « يَا بَشِيرُ أَلَكَ وَلَدٌ سِوَى هَذا؟ قَالَ: نَعَمْ، قَال: « أَكُلَّهُمْ وَهَبْتَ لَهُ مِثْلَ هَذا؟ » قَالَ: لا، قالَ: « فَلا تُشْهِدْني إِذاً فَإِنِّي لا أَشْهَدُ عَلى جَوْرٍ ».

وَفي رِوَايَةٍ: « لا تُشْهِدْني عَلى جَوْرٍ ».

وفي روايةٍ: « أَشْهِدْ عَلى هذا غَيْرِي، » ثُمَّ قَالَ: « أَيَسُرُّكَ أَنْ يَكُونُوا إِلَيْكَ في الْبِرِّ سَوَاءً؟ » قَالَ: بلى، قَالَ: « فَلا إِذاً » متفقٌ عليه.

1773. Nomən ibn Bəşir ﵁ rəvayət edir ki, onun atası Rəsulullahla ﷺ birlikdə gəlib dedi: "Mən bu oğluma digər oğlumdan çox pətək verdim". Rəsulullah ﷺ soruşdu: **"Hər oğluna bunun kimi pətək verm**ə**dinmi?"** Dedi: "Xeyr". Rəsulullah ﷺ dedi: **"Elə isə onu *ondan* geri götür".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Başqa bir rəvayətdə[2] isə Rəsulullah ﷺ soruşdu: **"Sən bunu bütün övladların üçün də etdinmi?"** Dedi: "Xeyr". Onda o ﷺ dedi: **"Allahdan qorxun və övladlarınız arasında ədalətli olun".** Atam da qayıdıb həmin sədəqəni geri götürdü.

---

[1] "Səhih əl-Buxari", 2397; "Səhih Muslim", 3052.

[2] "Səhih Muslim", 3055.

Başqa bir rəvayətdə[1] isə Rəsulullah ﷺ dedi: **"Ey Bəşir, sənin bunun kimi başqa övladın da varmı?"** Dedi: "Bəli". Dedi: **"Onların da hamısına belə hədiyyə etdinmi?"** Dedi: "Xeyr". Dedi: **"Elə isə məni buna şahid etmə. Mən zülmə şahidlik etmirəm".**

Başqa bir rəvayətdə[2] isə: **"Məni zülmə şahid etmə!"**– deyilir.

Yenı bir rəvayətdə[3] deyilir: **"Buna başqasını şahid et"**. Sonra dedi: **"Məgər istəmirsən ki, onların hamısı sənə qarşı yaxşılıq etsin?"** Dedi: "Bəli, *istəyirəm*". Dedi: **"Onda belə etmə"**.

Şərh:

Müəllif ﷺ **"Övladlardan bəzilərinə digərlərindən daha yaxşı hədiyyələr verməyin bəyənilməməsi"** fəslini qeyd edir.

Övladlar deyildikdə həm oğlanlar, həm də qızlar nəzərdə tutulur. Hədiyyə deyildikdə verilməsi vacib olanlar deyil, sədəqə nəzərdə tutulur. Çünki verilməsi gərəkənlər az və ya çox olmasından asılı olaraq hər bir övlada verilir. Yəni əgər birisi görsə ki, bir övladı elm tələb edir və onun kitablara ehtiyacı var, başqası isə elə deyil, bu zaman birinciyə ehtiyacı olduğu kitabları alıb verə bilər; və ya əgər birinin paltara ehtiyacı varsa, digərinin isə ehtiyacı yoxdursa, bu zaman ehtiyacı olana paltar verə bilər. Yaxud biri xəstələnibsə və müalicə üçün pula möhtacdırsa, bu zaman ona verə bilər. Həmçinin biri evlənmək yaşına çatıbsa, onu evləndirə bilər. Hər bir ehtiyaclının ehtiyacını ödəmək bərabərlikdir. Əlavə bir şey verdikdə isə gərək ədalətli olasan.

Alimlər ixtilaf etmişlər ki, oğlanla qıza eyni miqdarda vermək ədalətdirmi? Yəni əgər oğlana yüz verirsə, qıza da yüz verməlidirmi, yoxsa izzət və cəlal sahibi Allahın miras məsələsində müəyyənləşdirdiyi kimi, oğlana qıza verilənin iki misli verilməlidir?

Doğru olan rəy budur ki, oğlana yüz verdikdə, qıza əlli verməlidir. Çünki izzət və cəlal sahibi Allahın bölgüsündən daha ədalətli bölgü yoxdur. Deyirik: Qıza bir dirhəm verirsənsə, oğlana iki dirhəm ver. Bu ədalətli mövqedir.

---

[1] "Səhih Muslim", 3056.

[2] "Səhih əl-Buxari", 2456.

[3] "Səhih Muslim", 3059.

Övladlarının bəzilərini digərlərindən üstün tutanlar isə əlavə verdiklərini geri qaytarmalıdırlar. Birinə yüz verib, başqalarına isə verməyibsə, gərək yüzü geri alsın, ya da başqalarına da birinciyə verdiyi qədər versin. Onlar belə bir işə halallıq verdikdə isə bunu həya edərək və utanaraq deyil, razılıq və qane olaraq etsinlər.

Beləliklə, övladlarının bəzilərini digərlərindən üstün tutanlar barədə ədalət yolu üçdür:

Birinci: Artıq veriləni geri qaytarmaqla.

İkinci: Başqalarına da onun mislini verməklə: **"oğlana qıza verilənin iki mislində"**.

Üçüncü: Onlardan halallıq istəməklə. Lakin onlar buna halallığı həya edərək və utanaraq deyil, razı və qane olaraq verməlidirlər.

Sonra müəllif Noman ibn Bəşir ibn Səd əl-Ənsarinin ﷺ hədisini qeyd edir ki, atası oğluna arı pətəyi vermişdi. Başqa bir rəvayətə görə isə divar və ya bostan vermişdi. Yəqin ki, ona bostan vermişdi ki, oğlan həmin bostanda işləsin. Savadlı olan anası Umra bint Ravaha dedi: "Razı olmaram ki, bu oğluma verib o birilərə verməyəsən. Bir şərtlə razı olaram ki, buna Peyğəmbər ﷺ də şahidlik etsin". Bəşir ibn Səd də Peyğəmbərin ﷺ yanına gedib ondan şahidlik etməsini istədi. Peyğəmbər ﷺ dedi: **"Bundan başqa övladın varmı?"** Dedi: "Bəli". Dedi: **"Onların da hər birinə belə hədiyyə verdinmi?"** Dedi: "Xeyr". Dedi: **"Elə isə onu *ondan* geri götür"**. Sonra dedi: **"Başqasını buna şahid et".** Yəni bu əməldən uzaqlaşdı. Çünki onun buna şahidlik etməsi mübah deyil. O, bu əməldən uzaqlaşaraq dedi: **"Başqasını buna şahid tut. Mən zülmə şahid olmaram"**. Sonra dedi: **"Məgər istəmirsən ki, onların hamısı sənə qarşı yaxşı olsunlar?"** Dedi: "Bəli, *istəyirəm, ey Allahın elçisi*". Dedi: **"O zaman belə etmə"**, yəni onları bərabər tut. Çünki onlardan birini digərindən üstün tutduqda üstün tutulmayanın nəfsində bir şey qalır, sonra da o valideyni ilə yaxşı davranmır. Sonra dedi: **"Allahdan qorxun və övladlarınızın arasında ədalətli olun".**

Bununla Peyğəmbər ﷺ övladlar arasında ədalətli olmağı əmr etmişdir. Birinə bir rial pul verirsənsə, o birinə də ver. Demə ki, bu kiçik bir şeydir və buna görə izin almağa lüzum yoxdur. Sələflər – Allah onlardan razı olsun! – o qədər ədalətlə davranardılar ki, övladlarından birini öpərdilərsə, o birini də öpərdilər. Həmçinin övladlara nəzər saldıqda da birinə razılıqla, digərinə isə qəzəblə baxma. Hətta qarşılaşmaq və gülümsəmək

kimi məsələlərdə də onların arasında ədalətli ol. Yalnız birinin səni qəzəbləndirməsi halı istisnadır. Səbəb yoxdursa, onların arasında ədalətli ol və birini digərindən üstün tutma.

Burada bir məsələ də var. Bəzi insanlar böyük övladlarını evləndirir, kiçik övladları üçün isə özünün ölümündən sonra onlara çatacaq mehr miqdarında pul qoyur. Bu haramdır və halal deyil! Bu haramdır və halal deyil! Çünki o, digər uşaqlara ehtiyacları olduğu üçün vermişdir. Digər kiçik qardaşların isə həmin vaxt ehtiyacları yoxdur və onlara *vaxtından əvvəl* nə isə vəsiyyət etmək halal deyil. Belə vəsiyyət edilərsə, həmin vəsiyyət batildir və pul mirasa qaytarılmalı, vaxtı gələndə də hər kəs öz miras payını almalıdır.

Bəzilərinin isə övladları onlarla birlikdə ticarət və ya əkinçilikdə işləyirlər. Adam da həmin övlada digərlərindən artıq pul verir. Bu da caiz deyil. Çünki əgər övlad öz atası ilə birlikdə könüllü çalışıbsa, bu bir yaxşılıqdır. Bunun Axirətdəki savabı dünyadakı savabdan daha üstündür. Əgər atasının yanında pulla işləmək istəyirsə, gərək atası ona maaş təyin etsin. Məsələn, desin ki, sənə ayda başqalarına da verdiyim kimi, bu qədər verəcəyəm. Yaxud da başqaları ilə etdiyim kimi, sənə qazancdan bu qədər pay verəcəyəm. Yox, əgər övlad könüllü olaraq atası ilə işləyirsə, o zaman ona başqalarından çox pay ayrılması caiz deyil.

Yaxud əgər birisi Quran öyrənən, elm tələb edən oğluna pul verir, sonra da digər övladlarına: "Sizlərdən kim elm alarsa, ona da qardaşına verdiyim kimi pul verəcəyəm və ya kim Quranı əzbərləsə, ona da qardaşına verdiyim qədər pul verəcəyəm" deyirsə, bu zaman o bəzilərindən tələb edir, digərlərini isə tərk edir. Onların buna haqları yoxdur. Ancaq birini xüsusiləşdirib başqalarını tərk etmək caiz deyil.

Peyğəmbərin ﷺ: **"Allahdan qorxun və övladlarınız arasında ədalətli olun"** sözündən anlaşılır ki, övladlardan fərqli olaraq digər qohumlar arasında ədalətli olmaq vacib deyil. Məsələn, qardaşlarına başqalarından daha çox verə bilərsən, yaxud onlara verib başqalarına verməyə bilərsən. Çünki dəlil yalnız övladlara aiddir. Bəzi alimlərin: "Mirasda bütün varislər arasında ədalətli olmaq lazımdır" sözünə isə dəlil yoxdur. Ədalət yalnız övladlar arasında olmalıdır. Müvəffəq edən Allahdır.

Üç yüz əlli dördüncü fəsil

Qadının ölüyə üç gündən artıq yas saxlamasının haramlığı. Yalnız öz əri üçün dörd ay on gün gözləməlidir

١٧٧٤– عَنْ زَيْنَبَ بِنْتِ أَبي سَلَمَةَ ﵄ قَالَتْ: دَخَلْتُ عَلَى أُمِّ حَبِيبةَ ﵂ زَوْجِ النَّبِيِّ ﷺ حِينَ تُوُفِّي أَبُوها أَبُو سُفْيَانَ بْنُ حَرْبٍ ﵁ ، فدَعَتْ بِطِيبٍ فِيهِ صُفْرَةُ خَلُوقٍ أَوْ غَيْرِهِ، فدَهَنَتْ مِنْهُ جَارِيَةً، ثُمَّ مَسَّتْ بِعَارِضَيْها. ثُمَّ قَالَتْ: وَاللَّهِ مَالي بِالطِّيبِ مِنْ حَاجَةٍ، غَيْرَ أَنِّي سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يقُولُ عَلى المِنْبرِ: « لا يحِلُّ لامْرأَةٍ تُؤْمِنُ بِاللَّهِ وَالْيَوْمِ الآخِرِ أَنْ تُحِدَّ عَلَى مَيِّتٍ فَوْقَ ثَلاثِ لَيَالٍ، إِلاَّ عَلى زَوْجٍ أَرْبَعَة أَشْهُرٍ وَعَشْراً » قَالَتْ زَيْنَبُ: ثُمَّ دَخَلْتُ عَلى زَيْنَبَ بنْتِ جَحْش ﵂ حِينَ تُوُفِّيَ أَخُوهَا، فَدَعَتْ بِطِيبٍ فَمَسَّتْ مِنْه، ثُمَّ قَالَتْ: أَمَا وَاللَّهِ مَالي بِالطِّيبِ مِنْ حاجَةٍ، غَيْرَ أَنِّي سَمِعْتُ رَسُولَ اللَّه ﷺ يَقُولُ عَلى المِنْبَر: « لا يَحِلُّ لامْرَأَةٍ تُؤْمِنُ بِاللَّهِ وَاليَوْم الآخِرِ أَنْ تُحِدَّ عَلى مَيِّتٍ فَوْقَ ثَلاَثٍ إِلاَّ عَلى زوجٍ أَرْبَعَةَ أَشْهُرٍ وَعَشْراً». متفقٌ عليه.

1774. Zeynəb bint Əbu Sələmə ﵂ belə nəql edir ki: "Bir dəfə mən Peyğəmbərin ﷺ həyat yoldaşı Ummu Həbibənin ﵂ atası Əbu Sufyan ibn Hərb ﵁ vəfat etdikdə onun yanına daxil oldum. O, sarı rəngə çalan ətir istədi və ondan cariyəyə ətir vurdu. Sonra həmin ətirdən öz üstünə sürtdü və dedi: "Allaha and olsun ki, mənim ətirə ehtiyacım yoxdur, sadəcə mən Rəsulullahın ﷺ minbərdə ikən belə dediyini eşitmişəm: **"Allaha və axirət gününə iman gətirən bir kəsin meyit üçün üç gündən artıq yas saxlaması doğru deyil. Yalnız qadın öz əri üçün dörd ay on gün gözləməlidir".**

Zeynəb deyir ki, mən Zeynəb bint Cəhşin ﵂ qardaşı vəfat etdikdə də onun yanına daxil oldum. O da ətir istəyib ondan üstünə sürtdü və dedi: "Allaha and olsun ki, mənim ətirə ehtiyacım yoxdur, sadəcə mən Rəsulullahın ﷺ minbərdə ikən belə dediyini eşitmişəm: **"Allaha və axirət gününə iman gətirən bir kəsin meyit üçün üç gündən artıq yas saxlaması doğru deyil. Yalnız qadın öz əri üçün dörd ay on gün gözləməlidir".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

---

[1] "Səhih əl-Buxari", 4918; "Səhih Muslim", 2730.

Şərh:

Müəllif ﵀ **"Qadının ölüyə üç gündən artıq yas saxlamasının haramlığı. Yalnız öz əri üçün dörd ay on gün gözləməlidir"** fəslini qeyd edir.

Yas saxlamaq, zinəti və sevinc göstəricisi olan digər şeyləri tərk etməkdir. Bu haramdır. Cahiliyyət dövründə sevdiyi bir kəsi ölən insan yas saxlayaraq özlərinin təqdir etdikləri bir müddətə ətirdən və bəzənməkdən uzaq olardılar. Peyğəmbərin ﷺ xanımları Ummu Həbibə və Zeynəb bint Cəhşin ﵄ nəql etdikləri hədisdə isə deyilir ki, ər istisna olmaqla, ölmüş adama üç gündən artıq yas tutulmur.

Peyğəmbər ﷺ üç gün yas saxlamağa izin vermişdir. Bundan artıq isə olmaz. Misalı belədir: Bir adamın oğlu ölür, o da buna görə kədərlənir. Bu zaman səbir etmək və bunun əcrini Allahdan diləmək vacibdir. İşlər isə olduğu kimi davam etməlidir. Əgər dükanı varsa, dükanına getməli, əkin sahəsi varsa, sahəsinə getməlidir. Əgər işçidirsə, iş yerinə getməli, müəllim və ya tələbədirsə, məktəbə getməlidir – gərək işləri bundan təsirlənməsin. Şəriətdə tələb olunan budur, Sünnə olan və daha müvafiq olan da budur. Elə insan üçün rahat olanı da budur ki, heç kim üçün, o cümlədən oğlu, atası, anası, qardaşı üçün yas saxlamasın. Çünki işlər izzət və cəlal sahibi Allahdandır, hər şeyin Sahibi Odur. Hər bir halda həmdə layiq olan Odur. Yas saxlamağa ehtiyac yoxdur, yalnız səbir etmək və savabını Allahdan istəmək gərəkdir. Biz demirik ki, kədərlənmə. Çünki hər bir insanın diri qəlbi var və o, kədərlənəcəkdir. Biz deyirik ki, səbir et və bunun savabını Allahdan dilə, dünyəvi işlərini dəyişdirmə. Daha yaxşı, müvafiq, əfzəl və asan olanı budur.

Qadınlar da onların oğulları, ataları, qardaşları və çox istədikləri başqa bir adamları öldükdə üç günə qədər yas tuta bilərlər. Bundan artıq isə olmaz.

Lakin nəfs ola bilsin ki, buna dözməsin, ələlxüsus da müsibət böyük olduqda. Buna görə də Peyğəmbər ﷺ üç gün yas saxlamağa icazə vermişdir. Yəni bir insanın dostu və ya qohumu vəfat edərsə, insanlarla kədərləndiyi üçün görüşə bilmirsə, üç gün evdə qala bilər. Lakin namazları camaatla qılmalıdır.

Peyğəmbərin ﷺ: **"Allaha və Axirət gününə iman gətirən bir kəsin meyit üçün üç gündən artıq yas saxlaması doğru deyil. Yalnız qadın öz əri üçün dörd ay on gün gözləməlidir"** sözünə gəlincə, ərin haqqı olduqca

böyükdür. Hətta Peyğəmbər ﷺ: **"Əgər kiminsə kiməsə səcdə etməsini buyurmuş olsaydım, haqqı böyük olduğu üçün əmr edərdim ki, qadın öz ərinə səcdə etsin"**– demişdir.[1] Lakin aləmlərin Rəbbi izzət və cəlal sahibi Allahdan başqa heç kimə səcdə etmək olmaz.

Əgər qadın hamilə deyilsə, əri üçün dörd ay on gün yas tutmalıdır. Hamilə qadın isə bu müddətdən artıq və ya əksik olmasından asılı olmayaraq, uşağı dünyaya gətirənədək gözləyir. Deməli, ər öldükdə qadın dörd ay on gün gözləməlidir. Uca Allah bu xüsusda buyurur: **"Sizlərdən ölənlərin qoyub getdiyi zövcələr dörd ay on gün gözləməlidirlər".**[2] Əri hətta onun yanına daxil olmayıbsa belə. Hətta qadın nikahını Mədinədə, kişi isə Məkkədə olarkən bağlasalar belə, yəni onunla yaxınlıq etməsə belə, nikah doğru olduğu təqdirdə ona yas saxlamalıdır.

Hamilə qadın isə bari-həmlini yerə qoyanadək gözləməlidir. İşdir, əri yuyulmamışdan öncə uşaq dünyaya gələrsə, müddət bitmiş olur və gözləmə müddəti qurtarır. Məsələn, bir qadının əri vəfat etdiyi zaman qadın uşağını dünyaya gətirir. Yəni ruhun bədəndən çıxması ilə uşağın doğulması arasında bir neçə dəqiqə keçir. Artıq bu zaman gözləmə müddəti bitir və yas qurtarır. Şəri baxımdan qadın ərini dəfn etməmişdən öncə də ərə gedə bilər. Uca Allah buyurur: **"Hamilə qadınların gözləmə müddəti isə onlar hamiləlikdən azad olana qədərdir".**[3] Artıq qadının gözləmə müddəti bitmişdir. Yas tutmaq da gözləmə müddətinə aiddir.

Lakin yas tutmaq nədir? Yas tutmaq qadının aşağıdakılardan çəkinməsidir:

Birincisi, zinət libası. Yəni bəzəkli libaslar geyinməkdən çəkinməlidir. Adi libas isə hətta qırmızı, sarı və ya yaşıl rəngdə olsa belə, geyinə bilər.

İkincisi, müxtəlif növ ətirlər. İstər yağ olsun, istər buxur və ya digər ətirlər – qətiyyən ətir vurmamalıdır. Yalnız heyzdən təmizlənən qadın istisnadır. Bu zaman o azacıq ətirlə təmizlənə bilər ki, qoxu qalmasın.

Üçüncüsü, zinət əşyaları. Ayağında, əlində, boynunda, qulağında və sinəsində bəzək əşyalarından istifadə etməməlidir. Zinət əşyalarının bütün çeşidlərindən imtina etməlidir. Hətta taxdığı qızıl dişi çıxarmasının zərəri

[1] "Sunən Əbu Davud", 1828; "Sunən ət-Tirmizi", 1079.

[2] "əl-Bəqərə" surəsi, 234.

[3] "ət-Talaq" surəsi, 4.

olmayacaqsa, onu da çıxarmalıdır. Zərəri olacaqsa, o zaman mümkün qədər onu gizlətməli və gülməməlidir ki, dişi insanlara görsənməsin.

Dördüncüsü, gecə zərurət, gündüz isə ehtiyac olmadıqca evdən çıxmamalıdır. Əri vəfat etmiş qadın zərurət və ehtiyac olmadan evindən çıxmamalı və evində qalmalıdır. Əgər desə ki, "gündüz və ya axşam söhbət üçün qonşuya gedib sonra da evə qayıtmaq istəyirəm", deyirik: "Xeyr, qoy qonşuların sənin evinə gəlsin, sən isə evdən çıxma. Sən evdə ikən ərin vəfat etdiyi evdə qalmalısan". Fərz edək ki, qadın öz əri ilə başqa bir şəhərə müalicəyə gedib, əri də həmin şəhərdə dünyasını dəyişib. Deyirik: "Qayıt öz şəhərinə, çünki bu sənin əsil məskənin deyil".

Beşincisi, bəzənib-düzənmək və sürmə çəkmək kimi işlər. Hətta fərz etsək ki, qadının gözündə xəstəlik var, bu zaman da gözlərinə sürmə çəkməməlidir. Yalnız ehtiyac olarsa, rəngsiz bir şeyi gecələr çəkib səhər silə bilər. Bir qadın Peyğəmbərin ﷺ yanına gəlib deyir ki, "ey Allahın elçisi, qızımın əri vəfat etmişdir, özünün də gözü ağrayır. Ona sürmə çəkə bilərikmi?" Dedi: **"Xeyr"**.[1] Baxmayaraq ki, onun gözü ağrayırdı, Peyğəmbər ﷺ: **"Xeyr"**– deyə buyurdu. İbn Həzm ﷺ deyir ki, "Nəticədə hətta görmə qabiliyyətini itirmiş olsa belə, gözlərinə sürmə çəkməməlidir. Çünki Peyğəmbərdən ﷺ gözü ağrayan adam barəsində soruşulmuş, o isə *müəyyən səbəbdən* sürməyə icazə verməmişdir".

Yanaqları qızartmaq və bəzənmək də buna aiddir. Ətirsiz sabundan isə istifadə etmək, həmçinin başı və dərini də təmizləmək olar.

Avam insanlar arasında yayılmış "*hüznlü* qadın cümədən cüməyə qüsl almalıdır" fikri əsassızdır. Həmçinin belə bir fikir də yayılmışdır ki, qadın gərək gecə həyətə çıxmasın və tavan altında qalsın. Bu da doğru deyil. Qadın evin damına və ya həyətinə çıxa bilər – aylı gecədə də, günəşli gündə də. Yalnız evindən kənara çıxmamalıdır. Belə bir fikir də yayılıb ki, qadın yalnız məhrəmləri ilə danışa bilər. Bu da doğru deyil. O istədiyi adamla danışa bilər. Lakin izzət və cəlal sahibi Allahın buyurduğu kimi: **"*yad kişilərlə* nazlana-nazlana danışmayın, yoxsa qəlbində xəstəlik olan kəs tamaha düşər".**[2] Müvəffəq edən Allahdır.

---

[1] "Səhih Muslim", 2732.

[2] "əl-Əhzab" surəsi, 32.

Üç yüz əlli beşinci fəsil

Şəhər əhlinin çöl adamı ilə ticarət etməsi; minikliləri qarşılamaq; qardaşının ticarəti üstünə ticarət etmək, izni olmadan və ya qaytarmadan onun nişanı üzərinə nişan etmək

Mövzu ilə əlaqəli hədislər:

١٧٧٥– عَنْ أَنَسٍ ﷺ قَالَ: نَهَى رَسُولُ اللَّهِ ﷺ أَنْ يَبِيعَ حَاضِرٌ لِبَادٍ وَإِنْ كَانَ أَخَاهُ لأَبِيه وَأُمِّهِ. متفق عليه.

1775. Ənəsdən ﷺ nəql olunur ki, Peyğəmbər ﷺ, atasının və anasının övladı olsa belə, yerli adamın çoldən gələnə mal satmasını qadağan etmişdir.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٧٧٦– وَعَنِ ابْنِ عمَرَ قال: قالَ رَسول الله ﷺ: « لا تَتَلَقُّوُا السلَع حَتَّى يُهْبَطَ بِهَا إلى الأَسْواقِ » متفقٌ عليه.

1776. İbn Ömərdən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Mal bazara daxil olmadıqca, onu almayın"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.

١٧٧٧– وَعَنِ ابْنِ عَبَّاسٍ ﷺ قَالَ: « قَالَ رَسُولُ اللَّهِ ﷺ: « لا تَتَلَقَّوُا الرُّكْبَانَ، وَلا يبِعْ حَاضِر لِبَادٍ »، فَقَالَ لَهُ طَاووسُ: ما « لا يَبِعْ حَاضِرٌ لِبادٍ؟ » قال: لا يكُونُ لَهُ سَمْسَاراً. متفقٌ عليه.

1777. İbn Abbasdan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Minikliləri qarşılamayın, yerli tacir də çöldən gələndən almasın"**. Tavus ona dedi: "Yerli tacir çöldən gələndən almasın?" Dedi: "Yəni, ona dəllalıq etməsin".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

---

[1] "Səhih əl-Buxari", 1996; "Səhih Muslim", 2800.

١٧٧٨– وَعَنْ أَبي هُرَيْرَةَ ﷺ قَالَ: نَهَى رَسُولُ اللَّهِ ﷺ أَنْ يَبِيعَ حَاضِرٌ لِبَادٍ وَلا تَنَاجَشُوا ولا يبع الرَّجُلُ عَلى بَيْعِ أَخيهِ، ولا يخطبْ عَلى خِطْبَةِ أَخِيهِ، ولا تسْأَلِ المرأةُ طلاقَ أخْتِهَا لِتَكْفَأَ مَا في إِنَائِهَا.

وفي رِوَايَةٍ قَالَ: نَهَى رَسُولُ اللَّه ﷺ عَنِ التَّلَقِّي وأن يَبْتَاعَ المُهَاجِرُ لأَعْرابِيّ، وأنْ تشْتَرِطَ المرْأَةُ طَلاقَ أُخْتِهَا، وَأنْ يَسْتَام الرَّجُلُ عَلى سوْمِ أخيهِ، ونَهَى عَنِ النَّجَشِ والتَّصْرِيةِ. متفقٌ عليه.

1778. Əbu Hureyra ﷺ nəql edir ki, Peyğəmbər ﷺ yerli tacirin çöldən gələndən almasını qadağan etmişdir. Həmçinin malı satmaq məqsədilə tərifləməyi, qardaşının ticarəti üzərinə ticarət etməyi, qardaşının nişanı üzərinə nişan aparmağı, həmçinin qadının bacısını boşatdırıb onun yerinə keçməsini qadağan etmişdir.

Başqa bir rəvayətdə isə Rəsulullah ﷺ qarşılamağı, mühacirin bədəvini qarşılamasını, qadının öz bacısını boşama şərti qoymasını, kişinin qardaşının alış-verişi üzərinə alış-veriş etməsini, malı satmaq məqsədilə tərifləməyi və südü heyvanın məməsində saxlamağı qadağan etmişdir.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.

١٧٧٩– وَعنِ ابْنِ عُمَرِ ﷺ، أنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: « لا يبِعْ بَعْضُكُمْ عَلى بَيْعِ بعْضٍ، ولا يَخْطُبْ على خِطْبة أخِيهِ إلاَّ أنْ يَأْذَنَ لَهُ » متفقٌ عليه، وهذا لَفْظُ مسلم.

1779. İbn Ömərdən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Bir-birinizin ticarəti üzərinə ticarət etməyin, onun izni olmadan qardaşınızın nişanı üzərinə nişan aparmayın"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər. Bu ləfz Muslimin ləfzidir.

١٧٨٠– وَعَنْ عُقْبةَ بنِ عَامِرٍ ﷺ أنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: « المُؤْمِنُ أخُو المُؤمِن، فَلاَ يحِلُّ لِمُؤمِنٍ أنْ يبْتَاعَ عَلَى بَيْعِ أخِيهِ وَلاَ يَخْطِبْ علَى خِطْبَةِ أخِيه حتَّى يَذَر » رواهُ مسلم.

1780. Uqbə ibn Amirdən ﷺ nəql olunur ki, Rəsulullah ﷺ demişdir: **"Mömin möminin qardaşıdır. Möminin qardaşının ticarəti üzərinə tica-**

[1] "Səhih əl-Buxari", 2013; "Səhih Muslim", 2798.

rət etməsi, qardaşının nişanı üzərinə ondan imtina edənədək nişan etməsi halal deyildir".

Bu hədisi Muslim rəvayət etmişdir.

Şərh:

Müəllif ﵀ "Salehlər bağçası" əsərində üç məsələ barəsində ayrıca fəsil qeyd etmişdir. Bunlar:

Yerlinin çöldən gələndən alması; Minikliləri qarşılamaq; Qardaşının ticarəti üzərinə ticarət,... nişanı üzərinə nişan etməkdir.

Birinci məsələyə, yəni yerlinin çöldən gələndən almasına gəlincə bu, buna misal bir insanın bazarda satmaq məqsədilə çöldən qoyun, yağ, süd və ya pendir gətirməsidir. Yerli əhalidən də biri gəlib ona deyir ki, ey filankəs, mən səndən alıram. Bu caiz deyil. Çünki Peyğəmbər ﷺ demişdir: **"İmkan verin, insanlar bir-birilərindən ruzilənsinlər".**[1] Qoy çöl adamı malını özü satsın. Bəlkə ucuz satacaq. Çünki o, öz ailəsinin yanına qayıtmaq istəyir. Həm də çöl adamı satdıqda yerli adam ona pulu gecikdirmədən verir. Çünki bilir ki, çöl adamı öz ailəsinin yanına dönmək istəyir. Bu zaman həm satıcı olan çöl adamı üçün, həm də alıcı olan müştəri üçün fayda əldə olunur. Çünki çöl adamı tələsdiyindən malını daha ucuz qiymətə satır və qiyməti artırmır. Buna görə də Peyğəmbər ﷺ yerlinin çöl adamından almasını qadağan etmişdir.

Alimlər – Allah onlara rəhmət eləsin – dəlil kimi qeyd etmişlər ki, çöl adamı yerli adamın yanına gələrək desə ki, "ey filankəs, bu mal mənimdir", bunda bir qəbahət yoxdur. Çünki çöl adamı bununla biləcək ki, yerli adam ondan mal alarsa, daha baha qiymətə almalı olacaq. Bu zaman pulu almaqdan ötrü bir-iki gün qalması (ləngiməsi) onu narahat etməyəcək.

Lakin hədisin zahiri ümumidir. Yəni yerli adam çöl adamından mal almamalıdır. Əgər onun yanına gəlib desə ki, "ey filankəs, malımı götür sat", deməlidir ki, "xeyr, get özün sat".

Alimlər – Allah onlara rəhmət eləsin – bu səbəbdən belə bir nəticə də çıxarmışlar ki, "İmkan verin, insanlar bir-birilərindən ruzilənsinlər". Əgər qiymət eynidirsə, hətta yerli adam çöl adamından aldıqda belə, bu zaman yerli adam çöl adamından ala bilər. Çünki qiymət dəyişməyəcəkdir. Bunun daha bir misalı belədir ki, dövlət bir mala müəyyən bir qiymət qoymuşdur və həmin malın bu qiyməti artıb azala bilməz – fərqi yoxdur, həmin malı

[1] "Səhih Muslim", 2799.

yerli adam satır, yoxsa çöl adamı. Yəni bu zaman yerli adamın bunda bir faydası olmur. Ona görə demişlər ki, əgər qiymət bəllidirsə, onda yerli adam çöl adamından mal ala bilər.

Bəzi alimlər də belə bir nəticə çıxarmışlar ki, bu zaman həmin mala insanların ehtiyacı olmalıdır. Yəni insanların ehtiyacları həmin maldan asılıdır. İnsanların nadir hallarda istifadə etdikləri məhsulları isə almaq olar. Lakin bu zəif nəticədir. Doğru olan odur ki, insanların çox və ya az istifadə etdikləri məhsullar arasında fərq yoxdur.

İkinci məsələ, minikli olanları qarşılamaqdır. Çünki əvvəllər bilirdilər ki, çöl adamı cümə günü səhər vaxtı məhsul gətirir. Bu vaxt bəziləri şəhərdən çıxıb öz qohumunun yanına gedər, yolda da minikli adamlarla rastlaşıb onların məhsulunu onlar bazara çatmamışdan öncə alardılar. Bununla da minikli adamlar şəhərə çatmamışdan öncə şəhər əhalisini ruzidən məhrum edirdilər. Bu zaman minikli adamlar da aldanmış olurdular. Deməli, atlıların qarşılanmasında iki zərər meydana gəlirdi:

Birinci zərər atlıların gəlişini gözləyərək onlardan məhsul almaq istəyən şəhər əhalisinə olurdu.

İkinci zərər minikli adamların özünə olurdu. Çünki onları qarşılayanlar onları aldadır, onlardan məhsulu bazar qiymətindən ucuz alırdılar. Onlar da bazara çatmadıqları üçün qiymətdən bixəbər olurdular. Buna görə də Peyğəmbər ﷺ buyurur ki: **"Kim gedib onlardan alarsa, sonradan bazara gələrsə, o ixtiyar sahibidir".**[1] Yəni əgər miniklə mal gətirən onu qarşılayana şəhərin xaricində mal satarsa, sonra da şəhərə daxil olub aldadıldığını anlayarsa, pulu geri qaytarıb malını tələb edə bilər. Çünki o, aldadılmışdır.

Üçüncü məsələ isə müsəlmanın müsəlman qardaşının ticarəti üzərinə ticarət etməsidir. Bu da haramdır. Məsələn, birisi qiyməti ona olan bir məhsul alır, o biri də gəlib deyir ki, mən sənə eyni məhsulu səkkizə sataram. Bu da haramdır. Çünki bu zaman müştəri birinci ilə ticarətini ləğv edərək daha ucuz almağa çalışacaq.

Qardaşının nişanı üzərinə nişan etmək də belədir. Eşitsən ki, filankəs bir nəfərin qızı ilə nişanlanıb, sənin də gedib həmin qıza elçi düşməyin haramdır. Yalnız birinci nişan edən adamın buna izin verməsi istisnadır.

[1] "Səhih Muslim", 2796.

Yəni gedib həmin adama deyirsən ki, ey filankəs, eşitmişəm filankəsə elçi düşmüsən, mən də elçi düşmək istəyirdim. Mənim elçiliyimə icazə verirsənmi? Əgər o adam desə ki, bəli, o zaman olar. Çünki haqq onundur.

Yaxud eşidirsən ki, qız tərəfi onun elçiliyini qəbul etməyiblər və onu geri qaytarıblar. Bu zaman elçi düşə bilərsən. Çünki onlar onu geri qaytardılar və onun həmin adamlarla heç bir bağlılığı yoxdur.

Yox, əgər eşitsən ki, bir adam filankəsə elçi düşüb, ancaq onu qəbul edib-etmədiklərini bilmirsən, bu zaman sənin də həmin adama elçi düşməyin halal deyil. Çünki ola bilsin ki, onlar sənin elçiliyini qəbul etsinlər, bununla da sən həmin elçini öz haqqından məhrum etmiş olasan. Müvəffəq edən Allahdır.

Üç yüz əlli altıncı fəsil

Mal-dövləti şəriətin icazə vermədiyi işlərə sərf etməyin qadağan olması

Mövzu ilə əlaqəli hədislər:

١٧٨١– عَنْ أبي هُرَيْرَةَ ﷺ قَالَ: قَال رَسُولُ اللَّهِ ﷺ: « إنَّ اللَّه تَعَالى يَرضي لَكُمْ ثلاثاً، وَيَكْرَه لَكُمْ ثَلاثاً: فَيَرضي لَكُمْ أنْ تَعْبُدوه، وَلا تُشركُوا بِهِ شَيْئاً، وَأنْ تَعْتَصِموا بِحَبْلِ اللَّهِ جَمِيعاً وَلا تَفَرَّقُوا، ويَكْرهُ لَكُمْ: قِيلَ وَقَالَ، وَكَثْرَةَ السُّؤالِ، وإضَاعَةَ المَالِ »رواه مسلم، وتقدَّم شرحه.

1781. Əbu Hureyradan ﷺ nəql olunur ki, Rəsulullah ﷺ demişdir: **"Uca Allah sizlər üçün üç şeydən razı qalır, üç şeyi isə sizin üçün xoşlamır. Razı qalır ki, Ona ibadət edəsiniz, heç bir şeyi Ona şərik qoşmayasınız, Allahın ipindən hamılıqla yapışasınız və parçalanmayasınız. Üç şeyi isə sizlər üçün xoşlamır: dedi-qodunu, çoxlu sual verməyi və malı hədər etməyi".**

Bu hədisi Muslim rəvayət etmişdir və onun şərhini daha öncə qeyd etmişik.

١٧٨٢– وَعَنْ وَرَّادٍ كَاتِبِ المُغِيرَةِ بن شُعْبَة قالَ: أمْلَى عَلَيَّ المُغِيرَةُ بنُ شُعبةَ في كتاب إلى مُعَاوِيَةَ ﷺ ، أنَّ النبيّ ﷺ كَانَ يَقُول في دبُرِ كُلِّ صَلاةٍ مَكْتُوبَةٍ: « لاَ إلَهَ إلاَّ اللَّه وَحدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ المُلْكُ وَله الْحَمْد وَهُوَ عَلَى كُلِّ شَيءٍ قَدِيرٌ، اللَّهُمَّ لاَ مانِعَ لِمَا أعْطَيْتَ، وَلاَ مُعْطِيَ لِمَا مَنَعْتَ، وَلاَ ينْفَعُ ذَا الجَدِّ مِنْكَ الْجَدُّ » وَكَتَبَ إلَيْهِ أنَّهُ « كَانَ يَنْهَى عَنْ قِيل وقَالَ، وإضَاعَةِ المَالِ، وَكَثْرةِ السُّؤَالِ، وَكَانَ يَنْهَى عَنْ عُقُوقِ الأمهَّاتِ، ووأْدِ الْبَنَاتِ، وَمَنْعٍ وهَاتِ » متفقٌ عَلَيْهِ، وسبق شرحه.

1782. Muğira ibn Şöbənin ﷺ yazarı Varrad nəql edir ki, Muğira ibn Şöbə mənə Müaviyəyə ﷺ belə bir məktub yazdırdı: "Peyğəmbər ﷺ hər fərz namazından sonra belə deyərdi: **"Allahdan başqa ibadət haqqına malik məbud yoxdur, O, Təkdir və Onun şəriki də yoxdur. Mülk və həmd Ona məxsusdur və O, hər şeyə Qadirdir. Allahım, Sənin verdiyinə mane olacaq yoxdur, Sənin qadağan etdiyini də heç kəs əta edə bilməz. [Mal-dövləti və cah-cəlalı ilə] güclü olan kəs bununla Səndən (Sənin**

əzabından) qurtula bilməz”. Muğira ﵁ bunları da yazdırdı: “Peyğəmbər ﷺ dedi-qodunu, mal-dövlətin hədər olunmasını və çoxlu sual verməyi qadağan edərdi. O ﷺ, valideyinlərin üzünə ağ olmağı, qızları tələf etməyi, alıb verməməyi də qadağan etmişdir”.

Hədisin mənbəyi və şərhi daha öncə qeyd olunmuşdur.

Şərh:

Müəllif ﵀ **“Mal-dövləti şəriətin icazə vermədiyi işlərə sərf etməyin qadağan olması”** fəslini qeyd edir.

İzzət və cəlal sahibi Allah pulu insanlar öz dini və dünyəvi işlərini görsünlər deyə qoymuşdur. Uca Allah buyurur: **“Allahın sizin üçün dolanışıq vasitəsi etdiyi mallarınızı səfehlərə verməyin”.**[1] Bu səbəbdən mal-dövlətə də təcavüz etməyi haram etmişdir. Peyğəmbər ﷺ demişdir: **“Heç şübhəsiz, sizin qanınız, malınız və namusunuz toxunulmazdır”**.[2]

Uca və nöqsansız Allah mal-dövləti özü tərtiblə qisimlərə bölmüşdür. O buyurur: **“Bilin ki, ələ keçirdiyiniz qənimətlərin beşdə biri Allaha, Onun Elçisinə, onun əqrəbasına, yetimlərə, kasıblara və müsafirlərə məxsusdur”.**[3] O həmçinin buyurur: **“Zəkatlar Allah tərəfindən bir fərz olaraq yalnız yoxsullara, kasıblara, onu yığıb paylayanlara, qəlbləri *İslam dininə* isinişdiriləcək kimsələrə, kölələrin azad olunmasına, borclulara, Allah yolunda cihad edənlərə və müsafirlərə məxsusdur”.**[4] Başqa bir ayədə isə buyurur: **“Allah sizə övladlarınız xüsusunda kişiyə iki qadının payı qədər *pay verilməsini* buyurur”.**[5]

Bundan əlavə bir sıra mirasla bağlı ayələr də vardır ki, orada şəriətin mal-dövlətə necə diqqət verdiyini, barəsində nə əmrlər verdiyini göstərir. Bu səbəbdən də bir sıra dövlətlər iqtisadiyyatlarına, mal-dövlətlərinə və zənginliklərinə görə mövcuddur.

Mal-dövlət olduqca mühüm məsələdir. Ona görə də insan pulunu faydasız işlərə sərf etməməlidir. Mal-dövləti faydasız işlərə sərf etməyin müxtəlif formaları var:

---

[1] “ən-Nisa” surəsi, 5.

[2] “Səhih Muslim”, 2137.

[3] “əl-Ənfal” surəsi, 41.

[4] “ət-Tövbə” surəsi, 60.

[5] “ən-Nisa” surəsi, 11.

– Xərclədikdə israf etmək. Çünki israf yemək-içməkdə, libasda, minikdə və evdə belə haramdır. İnsan həddini aşdıqda günah daşımış olur. Bu xüsusda Uca Allah buyurur: **"Yeyin-için, lakin israf etməyin. Şübhəsiz ki, *Allah* israf edənləri sevmir".**[1]

İnsanın həddi aşması israf hesab olunur. Bu da haramdır və Uca Allahın həmin adamı sevməməsinə səbəbdir. Əgər israfın həddi aşmaq olmasını deyiriksə, bəlli olur ki, pulu xərcləmək müxtəlif cür olur. Ola bilsin, zəngin bir insan ev və ya maşın alsın, onun üçün israf sayılmayan bahalı libas geyinsin. Çünki o, zəngin olaraq həddini aşmamışdır. Lakin yoxsul bir adam onun etdiyini edərsə, deyərik ki, bu israf və haramdır. Ona görə də bir çox orta səviyyəli bəzi kasıblar pul xərcləməkdə özlərini zənginlər kimi aparmaqda səhvə yol verirlər. Əksinə, onlar imkanları daxilində xərcləməlidirlər. Özün kasıb ola-ola varlılar kimi yeyib-içməyə, geyinməyə, evlənməyə, minikdə gəzməyə, evə sahib olmağa çalışmağın səfehlik və haram əməldir və halal deyildir.

– Bəzi insanlar bundan da çox xətaya yol verərək daim borc almaqla özünü ərköyünləşdirir. Gedib zəngin qonşusunun aldığı məişət ləvazimatlarından alır. Bu, Allahın haram buyurduğu əməllərdəndir. İsraf, həddi aşmaqdır, çünki Allah israf edənləri sevmir. Allah, xərclədikdə nə israf edən, nə də simiclik edən, bunların arasında orta yol tutan qullarını tərif etmişdir.

– Ehtiyac olmadan çeşidli libaslar almaq da israfdır. Günümüzdə bir çox qadınlar hər dəfə yeni bir libas çıxdıqda gedib onu alaraq evini libasla doldurur. Əvvəlkindən fərqli bir libas çıxan kimi gedib onu da alırlar. Bəziləri isə, Allah qorusun, ərlərini bunları almağa və malı hədər etməyə məcbur edirlər. Kişiyə vacib olan odur ki, öz məsuliyyətini dərk etsin və xanımını israf etməkdən çəkindirsin.

– Mal-dövlət növlərindən icazə verilməyənə, haram şeylərə pul xərcləmək. Məsələn, pul verib siqaret alanların etdikləri əməl haramdır. Allah bunu qadağan etmişdir. Çünki bu, pulun açıq-aşkar hədər edilməsidir. Necə ola bilər ki, insan pulunu versin, sonra yandırsın? – axı siqareti yandırmadan çəkmək olmur. Sanki insan pulunu yandıraraq özünə zərər verən şeylərə xərcləmiş olur. Kaş ki, onun zərəri olmayaydı. Günümüzdə

[1] "əl-Əraf" surəsi, 31.

tibb mütəxəssisləri siqaretin insan sağlamlığına zərərli olmasnda ittifaq etmişlər. Gərək insan ondan çəkinsin. Hətta sənaye cəhətdən inkişaf etmiş kafir dövlətləri belə qapalı məkanlarda, insanların sıx olduğu yerlərdə siqaret çəkilməsini qəti şəkildə qadağan edirlər. Xüsusi məclislərdə də onun çəkilməsi qadağandır. Yalnız məclis sahibindən icazə istənildikdə o buna icazə verərsə, çəkməyə icazə verirlər. Əks təqdirdə, qadağan olunur. Çünki bu həm siqaret çəkənə, həm də yanında olanlara zərər verir. Hətta səmada belə onlar siqaret çəkməyi qadağan edirlər. Bəzi pilotlar mənə demişlər ki, onlar bəzi ölkələrin sərhədlərini keçdikdən sonra onlara siqaret çəkmək qadağan olunur. Bu, dinə görə deyil, məhz zərərli olduğu üçün qadağan olunur. Həmçinin onların havalarına hörmət əlaməti olaraq bunu qadağan edirlər. Amma təəssüflər olsun ki, bunu edən kafirlərdir, bir çox müsəlmanlar isə insanlara əhəmiyyət belə vermirlər. Çıxarıb hər kəsin yanında siqaret çəkir və buna önəm vermir. Bu ona həm özünə zərər verdiyi üçün, həm də başqalarına ziyan vurduğu üçün haramdır. İnsanlar bundan əziyyət çəkirlər. Uca Allah buyurur: **"Mömin kişiləri və mömin qadınları etmədikləri bir işdən ötrü günahlandıranlar, sözsüz ki, öz üzərlərinə böhtanla bərabər açıq-aydın bir günah götürmüşlər".**[1]

Siqaret də onlara əziyyət verir. Onların yanında siqaret çəkildikdə tüstü onların nəfəslərinə qarışır və bundan əziyyət çəkirlər. Odur ki, insanın siqaret alması haramdır. O, bunu etməklə günah qazanmış olur. Hətta bunda israr edərsə, ədalətli olmaq vəsfindən məhrum olur. Bir çox alimlərin də dedikləri kimi, vəlisi olmayana vəlilik etməsi hüququndan da məhrum edilir. Çünki o, adillikdən fasiqliyə qədəm qoymuş olur. Nikah kimi məsələlərdə də onun vəliliyi qəbul edilmir. Odur ki, məsələ ciddidir.

– İnsanın oyunlara və ya buna bənzər faydasız şeylərə pul sərf etməsi də pulu hədər etməyə aiddir. Fişənglərə pul vermək də buna aiddir.

Peyğəmbərin ﷺ: **"Uca Allah sizlərin dedi-qodu etmənizi sevmir"** sözünün mənası odur ki, insan başqalarının sözlərini nəql edərkən "filankəs belə dedi", "deyilənə görə belə olub" deməməlidir. Bu gün bir çox müflis məclislərində də belədir. Onlar oturub "deyilənə görə bu gün belə olacaq", "filankəs haqqında nə deyirsən?", yaxud vaxtı hədər edən buna bənzər başqa söhbətlər edirlər.

[1] "əl-Əhzab" surəsi, 58.

Müdrik şəriətimiz insanlara həm istifadə etdikləri mal-dövləti hədər etməyi, həm də vaxtını itirməyi qadağan etmişdir. Şəkk yoxdur ki, dedi-qodu və çoxlu sual verməklə vaxt itirmək mal-dövləti hədər etməkdən daha zərərlidir. Çünki ola bilsin ki, itirilmiş mal-dövləti geri qaytarmaq mümkün olsun, itirilmiş vaxtı isə geri qaytarmaq mümkün deyil. Vaxt gedir, lakin gəlmir. Odur ki, gərək insan vaxtını dedi-qoduya, kiminsə dediklərinə və buna bənzər söhbətlərinə sərf etməsin.

Çox istəmək də belədir. Ola bilsin ki, çox istəmək deyildikdə məqsəd insanın başqalarından istəməsidir. İnsanlardan istəmə. Əgər insanlardan pul istəyirsənsə, bu haramdır. İnsanlar o qədər ona-buna ağız açarlar ki, Qiyamət günü gəldikdə üzlərində hətta azacıq ət də olmaz. Allah qorusun.

Ola bilsin, bu sözdə insanların halını ehtiyac və fayda olmadan soruşmaq da nəzərdə tutulsun. "Filankəs haqqında nə deyirsən? O, zəngindir, yoxsa kasıb? Elmlidir, yoxsa cahil?" Yaxud buna bənzər başqa suallar.

Ola bilsin, burada insanın ələlxüsus da Peyğəmbər dönəmində ehtiyacı olmadığı elm barədə suallar verməsi nəzərdə tutulsun. Çünki ola bilsin ki, Peyğəmbərə ﷺ haram olmayan bir şey barədə sual verildikdən sonra həmin şey haram buyurulsun. Yaxud vacib olmayan bir şey barəsində sual verilsin və o, vacib buyurulsun. Lakin bu, insanın ehtiyacı olmadan verdiyi suallara aiddir. Əgər ehtiyacı olarsa, məsələn, elm tələbəsi soruşub öyrənmək istəyirsə, bunda bir qəbahət yoxdur. Çünki o, soruşub faydalanır və özündəki şübhəni aradan qaldırır.

Peyğəmbər ﷺ anaların üzünə ağ olmağı, yəni anaları öz haqlarından məhrum etməyi qadağan etmişdir. Ananın öz qız və oğlan övladları üzərində haqqı böyükdür. Onun haqqı hətta atanın haqqından da böyükdür. Bir dəfə Peyğəmbərdən ﷺ soruşurlar ki: "İnsanlardan kiminlə daha yaxşı davranmalıyam?" Dedi: **"Ananla"**. Dedi: "Sonra kiminlə?" Dedi: **"Ananla"**. Dedi: "Sonra kiminlə?" Dedi: **"Ananla"**. Dedi: "Sonra kiminlə?" Dedi: **"Sonra atanla".**[1]

Ananın haqları olduqca böyükdür. Çünki o öz övladını əziyyətlə daşımış, ağrı ilə də dünyaya gətirmiş, gecə və gündüzləri də onun uğrunda yorulmuşdur. Odur ki, onun haqqı da böyükdür.

Ataların da üzünə ağ olmaq böyük günahlardandır. Lakin Peyğəmbər ﷺ anaların haqqının daha şiddətli olduğu üçün onu qeyd etmişdir.

[1] "Səhih əl-Buxari", 5514; "Səhih Muslim", 4621.

Peyğəmbər ﷺ anaların üzünə ağ olmağı, qız uşaqlarını öldürməyi qadağan etmişdir. Axmaq cahiliyyət dövrünün adətlərindən biri belə idi ki, birisinin qız uşağı olduqda onu diri-diri torpağa basdırardı. Allah qorusun: **"Onlardan birinə qızı olması ilə müjdə verildikdə hikkəsindən üzü qapqara qaralır. Verilən bəd xəbər ucbatından camaatdan gizlənir".** Yəni bu xəbərə görə insanlardan gizlənir. **"*Bilmir nə etsin*, körpəni rüsvayçılıq içində saxlasınmı",** yəni onu ona qayğı göstərmədən saxlasın, **"yoxsa onu torpağa gömsün?",** yəni onu diri-diri dəfn etsin. Hətta onlardan *artıq dili söz tutan* bəziləri yalvarıb: "Atacan, atacan"– deyirdilər. Allah qorusun. Cahiliyyə dövründə onların qəlbləri beləcə daşdan da bərk idi. Hətta heyvanlar belə öz övladlarına bunu etmirlər!!! Aləmlərin Rəbbi olan Allaha həmd olsun ki, bizlərə bu gözəl dini nəsib etdi və bizlərə rəhmli və mərhəmətli olmağı buyurdu.

Bəyan edildi ki, qızları qorumağın savabı olduqca böyükdür. Buna da yalnız nicata çatanlar can atar. Peyğəmbər ﷺ demişdir: **"Kim üç qıza yaxşı baxıb onlara yaxşılıq edərsə, onlar onunla Cəhənnəm odu arasında bir sipər olar"** Dedilər: "Ey Allahın elçisi, ikisinə də?" Dedi: **"İkisinə də"**. Dedilər: "Birinə də?" Dedi: **"Birinə də"**.[1]

Adamlar İmam Əhmədə: "Sənin qızın olub" deyəndə, deyərdi ki: "Peyğəmbərlərin ﷺ də qızı olur, peyğəmbərlərin də qızı olur".

Peyğəmbərlərin ən şərəflisi Muhəmmədin də dörd qızı, üç oğlu olmuşdur. Övladlarından həddi-büluğa çatanları yalnız qızlar olmuşdur, oğlanları isə kiçik yaşlarında vəfat etmişdilər. Onlardan ən böyüyü İbrahim olmuşdur ki, o da on altı aylıq ikən, yəni bir il dörd aylığında, südəmər vaxtında vəfat etmişdir. Onun Cənnətdə süd verəni olacaqdır. Qızlarına gəlincə isə onlardan üçü Peyğəmbər ﷺ hələ sağ ikən vəfat etmişdilər. Onlar Zeynəb, Ruqəyya və Ummu Kulsum idi. Dördüncü qızı Fatimə isə Peyğəmbərin ﷺ vəfatından cəmi bir neçə ay sonra vəfat etmişdir.

Xülasə, əgər Uca Allah bir adama qız bəxş edərsə, o da onlara gözəl baxar, qayğılarına qalarsa, həmin qızlar onunla Cəhənnəm odu arasında bir sipərə çevrilərlər.

Peyğəmbərin ﷺ: "Alıb verməmək" sözü isə paxıllıq və simicliyə işarə edir. Yəni birisi heç kimə yaxşılıq etmir, sədəqə vermir, ancaq özü isə başqalarından alır, paxıllıq edir və doymur.

---

[1] "Musnəd İmam Əhməd", 6/29.

Üç yüz əlli yeddinci fəsil

Ciddi və ya zarafatyana müsəlmana silahla işarə etməyin, habelə qılıncı açıq verməyin qadağan olması

Mövzu ilə əlaqəli hədislər:

١٧٨٣– عَن أبي هُرَيْرَة ﵁ عَنْ رَسُولِ اللَّه ﷺ قَال: «لاَ يشِرْ أحَدُكُمْ إلَى أخِيهِ بِالسِّلاَحِ، فَإنَّهُ لاَ يَدْرِي لَعَلَّ الشَّيْطَانَ يَنْزِعُ في يَدِهِ، فَيَقَعَ في حُفْرَةٍ من النَّارِ » متفقٌ عليهِ.

وفي رِوَايةٍ لِمُسْلِمٍ قَالَ: قَالَ أبُو الْقَاسِمِ ﷺ: « مَنْ أشارَ إلَى أخيهِ بِحَدِيدَةٍ، فَإنَّ المَلائِكةَ تَلْعنُهُ حتَّى يَنْزِعَ، وإنْ كَان أخَاهُ لأبِيهِ وأُمِّهِ ».

1783. Əbu Hureyradan ﵁ nəql olunur ki, Rəsulullah ﷺ demişdir: **“Biriniz qardaşına silahla işarə etməsin. O bilmir, birdən şeytan onu əlindən çıxarar, beləcə Cəhənnəmin bir quyusuna düşər”**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Muslimin rəvayətində isə belə deyilir: «Əbul-Qasim ﷺ demişdir: **“Kim qardaşına dəmirlə işarə edərsə, hətta atabir-anabir qardaşı olsa belə, əlini çəkənədək mələklər onu lənətləyər”**».[2]

[Hədisin ərəbcəsində] Peyğəmbərin ﷺ dediyi “yənzi” sözü “tənə etmək və fəsad törətmək” mənasındadır.

١٧٨٤– وَعَنْ جابرٍ ﵁ قَالَ :«نَهَى رسُولُ اللَّه ﷺ أنْ يُتَعَاطَى السَّيْفُ مَسْلُولاً».

رواهُ أبو داود، والترمذي وقال: حديثٌ حسَنٌ.

1784. Cabir ﵁ deyir ki, Rəsulullah ﷺ qılıncı açıq vəziyyətdə verib-almağı qadağan etmişdir.

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: “Bu, həsən hədisdir”– demişdir.[3]

---

[1] “Səhih əl-Buxari”, 6545; “Səhih Muslim”, 4742.

[2] “Səhih Muslim”, 4741.

[3] “Sunən Əbu Davud”, 2221; “Sunən ət-Tirmizi”, 2089.

Şərh:

Müəllif ﷺ "**Ciddi və ya zarafatyana müsəlmana silahla işarə etməyin, habelə qılıncı açıq verməyin qadağan olması**" fəslini qeyd etmişdir. Burada iki məsələ vardır:

Birinci məsələ, kiməsə silah, dəmir parçası, daş və ya başqa bir şeylə sanki ona doğru atırmış kimi işarə etmək. Peyğəmbər ﷺ bunu qadağan etmişdir. Çünki ola bilsin ki, o, atmaq istəyirmiş kimi işarə etsin, şeytan da onun əlindən onu çıxarsın və o, beləcə Cəhənnəm çuxuruna daxil olmuş olsun. Allah qorusun.

Həmçinin bəzi səfehlərin etdikləri kimi, sürətlə avtomobili ayaq üstə dayanmış, oturmuş və ya uzanmış birisinin üstünə sürür, çataçatda isə tez istiqamətini dəyişir. Bu da dəmirlə işarə etmək kimi qadağandır. Çünki ola bilsin, şeytan sükanı onun əlindən çıxarsın və o, idarəetməni itirərək Cəhənnəm çuxuruna düşmüş olsun. Yaxud, məsələn, birinin iti olur, başqa birisi onun yanına gəldikdə iti onun üzərinə qısqırdır. Bu zaman ola bilsin, it həmin adamı parçalasın və ya yaralasın, sahibi isə onu xilas edə bilməsin.

Mühüm olan odur ki, zarafatyana və ya ciddi olmasından asılı olmayaraq, insanı həlak edə biləcək hər türlü əməllərdən çəkinmək lazımdır. Əbu Hureyradan رضي الله عنه nəql olunan hədis də buna dəlalət edir.

İkinci məsələ, açıq vəziyyətdə qılıncı verib-almaqdır. Bu da qadağan olunmuşdur. Çünki ola bilsin, adam əlini uzadıb qılıncı götürmək istədikdə qılınc onun əlindən qaçsın və onun əlini kəssin. Bıçaq və buna bənzər alətlər də belədir – onları da açıq vəziyyətdə alıb-vermək olmaz. Əgər başqasına bıçaq vermək istəyirsənsə, bıçağın uc hissəsini özünə tərəf çevir, tutacağını isə qarşı tərəfə çevir ki, əlindən sürüşüb qarşı tərəfə xəsarət yetirməsin.

Yaxud sən əsa ilə insanlar arasında gəzdikdə onu eninə tutma. Çünki onu eninə tutduqda arxadan gələn və ya öndə gedənlərə dəyə bilər. Tutduqda onu dikinə tut. Ya ona söykən, ya da dikinə tut ki, arxada və ya öndə olanlara dəyməsin.

Bütün bunlar gözəl ədəb normalarındandır. Gərək insan həyatında bunlara riayət etsin ki, başqalarına zərər və ya əziyyət verəcək əməllər etmiş olmasın. Müvəffəq edən Allahdır.

Üç yüz əlli səkkizinci fəsil

Azandan sonra fərz namazını qılmadan məsciddən üzürsüz çıxmağın bəyənilməməsi

Mövzu ilə əlaqəli hədis:

١٧٨٥– عَنْ أبي الشَّعْثاءِ قال: كُنَّا قُعُوداً مع أبي هُرَيْرَةَ ﵁ في المسْجِدِ، فَأَذَّنَ المؤَذِّنُ، فَقَام رَجُلٌ مِنَ المسْجِدِ يَمْشِي، فَأَتْبعهُ أَبُو هُرَيْرَةَ بصَرَهُ حتَّى خَرجَ مِنَ المسْجِدِ، فقَالَ أَبُو هُرَيْرَةَ: أَمَّا هَذَا فَقَدْ عصَى أَبَا الْقَاسِمِ ﷺ. رواه مسلم.

1785. Əbuş-Şəsa deyir ki, bir dəfə biz Əbu Hureyra ﵁ ilə birlikdə məsciddə oturmuşduq. Bu vaxt müəzzin azan verdi. Bir nəfər məsciddən çıxıb getməyə başladı. Əbu Hureyra da həmin adam məsciddən çıxanadək onu baxışları ilə izlədi və dedi: "Bu adam Əbul-Qasimə asi oldu".

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Şərh:

Müəllif ﵀ **"Azandan sonra fərz namazını qılmadan məsciddən üzürsüz çıxmağın bəyənilməməsi"** fəslini qeyd edir.

Çünki müəzzin azan verdikdə insanlara deyir ki, namaza gəlin. Yəni namaz qılın. Bundan sonra məsciddən çıxmaq asilikdir. Ona "gəl!" deyilir, o isə gedir.

Sonra müəllif Əbuş-Şəsanın hədisini qeyd edir. Hədisdə deyilir ki, bir dəfə o, Əbu Hureyra ilə birlikdə məsciddə oturmuşdu. Bu vaxt bir adam qalxıb getdi. Əbu Hureyra da həmin adam məsciddən çıxanadək baxışları ilə onu izlədi, sonra dedi: "Bu adam Əbul-Qasimə asi oldu". Gözü ilə onu izlədi ki, görsün həmin adam məscidin başqa yerində oturmaq üçünmü gedir, yoxsa nə istəyir. Məsciddən çıxdıqda isə bəlli oldu ki, o, məsciddən çıxmaq üçün gedir və dedi ki: "Bu adam Əbul-Qasimə asi oldu". Bununla o Peyğəmbəri ﷺ nəzərdə tutur. Əgər səhabə deyirsə ki, "Əbul-Qasimə asi oldu", bu, Peyğəmbərdən ﷺ nəql olunmuş hədis hökmündə olur. Sanki o deyir ki, Rəsulullah ﷺ bizə bunu qadağan etmişdir.

---

[1] "Səhih Muslim", 1048.

Alimlər bu hədisi dəlil gətirmişlər ki, azandan sonra üzür olmadan və namazı qılmadan məsciddən çıxmaq haramdır. Üzür də odur ki, insan məsələn, təbii ehtiyacını rəf etmək, yaxud qaz səbəbindən dəstəmazını yeniləmək istəyir, yaxud elə bir xəstəliyi var ki, çölə çıxmaq məcburiyyətindədir və ya başqa bir məsciddə imam, yaxud müəzzindir.

Lakin əgər başqa bir məsciddə namaz qılmaqdan ötrü bu məsciddən çıxarsa, bu məsələdə dayanılır. Çünki hədis ümumidir. Ola bilsin, kimsə desin ki, bu hədis camaatla namaz qılmamaq üçün evdən çıxanlara aiddir. Başqa məsciddə namaz qılmaq üçün məsciddən çıxan buna aid deyil. Hər bir halda, gərək başqa məsciddə namaz qılmaq üçün belə çıxmasın. Yalnız şəri bir səbəbin olması halı istisnadır. Məsələn, qonşu məscidə cənazə gətirilib və o gedib həmin cənazədə iştirak etmək istəyir. Bu zaman ikinci məscidə getməsi daha məqsədəuyğun hesab olunur. Bu və ya buna bənzər başqa şəri səbəblər olduqda, deyirik ki, çıxa bilər. Müvəffəq edən Allahdır.

Üç yüz əlli doqquzuncu fəsil

Üzürsüz olaraq reyhandan imtina etməyin bəyənilməməsi

Mövzu ilə əlaqəli hədislər:

١٧٨٦– عَنْ أبي هُرَيْرَةَ ﵁ ، قَال: قَالَ رَسُولُ اللَّه ﷺ: « مَنْ عُرِضَ عَلَيْهِ رَيْحَانٌ، فَلا يَرُدَّهُ، فَإِنَّهُ خَفيفُ المَحْمِلِ، طَيِّبُ الرِّيحِ » رواهُ مسلم.

1786. Əbu Hureyradan ﵁ nəql olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kimə reyhan təqdim olunarsa, onu geri qaytarmasın. Çünki onun özü xəfif, qoxusu gözəldir"**.

Bu hədisi Muslim rəvayət etmişdir.

١٧٨٧– وَعَنْ أَنَسِ بنِ مَالِكٍ ﵁ أَنَّ النبيَّ ﷺ كَانَ لا يَرُدُّ الطِّيبَ. رواهُ البُخاري.

1787. Ənəs ibn Malik ﵁ nəql edir ki, Peyğəmbər ﷺ ətirdən imtina etməzdi.

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

Şərh:

Müəllif ﵀ **"Üzürsüz olaraq reyhandan imtina etməyin bəyənilməməsi"** fəslini qeyd etmişdir.

Reyhan bir ətir növüdür (ətirli bitkidir). Peyğəmbər ﷺ onu: **"onun özü xəfif, qoxusu isə gözəldir"** deyə vəsf etmiş və tövsiyə etmişdir ki, onu geri qaytarmayaq (ondan imtina etməyək).

Müəllif ﵀ Buxarinin Ənəs ibn Malikdən ﵁ nəql etdiyi bir hədisi də qeyd etmişdir. Həmin hədisdə deyilir ki, Peyğəmbər ﷺ ətirdən imtina etməzdi.

Məlumdur ki, ətir insanın nəfsinə xoş gəlir, könlünü açır, ona xoş ovqat bəxş edir. Peyğəmbər ﷺ də ətiri çox sevərdi. O hətta belə demişdir: **"Dünyadan mənə ətir, qadın və gözümün nuru olan namaz sevdirildi".**[2]

---

[1] "Səhih əl-Buxari", 2394.

[2] "Musnəd İmam Əhməd", 3/128; "Sunən ən-Nəsai", 3878.

Odur ki, insan da gərək hər zaman ətirdən istifadə etsin. Çünki ətir insanın özünün gözəlliyinin əlamətidir. Belə ki, gözəllik gözəl insanlar üçündür. Gözəl insanlara gözəllik layiqdir. Uca Allah gözəldir və yalnız gözəl olanı qəbul edir.

Odur ki, sənə ətir hədiyyə olunduqda ondan imtina etmə, çünki Peyğəmbər ﷺ də ətiri geri qaytarmazdı. Ələlxüsus da əgər həmin ətir reyhan kimi xəfif və gözəl qoxulu olarsa. Bunun sənə əsla zərəri dəyməz.

Əgər qorxsan ki, sənə ətir hədiyyə edən kəs sonradan məclislərdə bu barədə danışacaq, yaxud gələcəkdə sənə minnnət qoyub deyəcək ki, "mən sənə bunu hədiyyə etmişdim, bəs mənim mükafatım?", yaxud bununla sənin xidmətini gözləyir, bu zaman hədiyyə qəbul olunmur. Çünki həmin adam hədiyyəsinin savabını minnət və əziyyətlə puç etmiş olur. Yox, əgər ondan sənə zərər gəlmirsə, yaxşı olar ki, onu geri qaytarmayasan. Müvəffəq edən Allahdır.

Üç yüz altmışıncı fəsil

Özünübəyənmə kimi fəsadın olmasından ehtiyat edildikdə bir adamı üzünə tərifləməyin bəyənilməməsi, belə bir hal olmadıqda isə bunun caizliyi

Mövzu ilə əlaqəli hədislər:

١٧٨٨– عَنْ أبي مُوسى الأشْعرِيّ ﷺ قَالَ: سَمِعَ النَّبيُّ ﷺ رَجُلاً يُثْني عَلَى رَجُلٍ وَيُطْرِيهِ في المدْحَةِ، فَقَالَ: « أهْلَكْتُمْ، أوْ قَطعْتُمْ ظَهرَ الرَّجُلِ » متفقٌ عليهِ.

« وَالإطْرَاءُ »: المُبالَغَةُ في المَدْحِ.

1788. Əbu Musa əl-Əşaridən ﷺ rəvayət olunur ki, o demişdir: "Bir nəfərin başqasını həddən artıq tərifləyini görən Rəsulullah ﷺ dedi: **"Onu məhv etdiniz"**, yaxud **"Onun belini qırdınız"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

[Hədisin ərəbcəsində işlənən] "əl-itra" sözü "həddindən çox tərifləmək" deməkdir.

١٧٨٩– وَعَنْ أبي بَكْرَة ﷺ أنَّ رجُلاً ذَكِرَ عِنْدَ النبي ﷺ، فَأَثْنَى عَلَيْهِ رَجُلٌ خَيْراً، فَقَالَ النبي ﷺ: « ويْحَكَ قَطَعْت عُنُقَ صَاحِبكَ » يقُولُهُ مِرَاراً « إنْ كَانَ أحَدُكُمْ مَادِحاً لا مَحَالَةَ، فَلْيَقُلْ: أَحْسِبُ كَذَا وكَذَا إنْ كَانَ يَرَى أنَّهُ كَذَلِكَ، وَحَسِيبُهُ اللَّه، ولاَ يُزَكَّى علَى اللَّهِ أحَدٌ » متفق عليه.

1789. Əbu Bəkra ﷺ rəvayət edir ki, bir dəfə Peyğəmbərin ﷺ yanında bir nəfərdən söz düşdü, adamlardan da biri onu tərifladi. Peyğəmbər ﷺ: **"Vay sənin halına, dostunun boynunu vurdun"**– dedi və bunu bir neçə dəfə təkrar etdi. [Sonra dedi:] «**Biriniz tərifləmək istədikdə belə desin: "Hesab edirəm ki, o belədir". Əgər güman etdiyi kimi olarsa, Allah onu hesaba çəkər. Heç kimi Allah yanında təmizə çıxartmıram**».

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

---

[1] "Səhih əl-Buxari", 5600; "Səhih Muslim", 5321.

[2] "Səhih əl-Buxari", 5601; "Səhih Muslim", 5319.

١٧٩٠– وَعَنْ هَمَّامِ بنِ الْحَارِثِ، عنِ المِقْدَادِ ﷺ أَنَّ رَجُلاً جعَل يَمْدَحُ عُثْمَانَ ﷺ، فَعَمِدَ المِقْدادُ، فَجَثَا عَلَى رُكْبَتَيْهِ، فَجَعَلَ يَحْثُو في وَجْهِهِ الْحَصْبَاءَ، فَقَالَ لَهُ عُثْمَانُ: مَا شَأْنُكَ؟ فَقَالَ: إنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: « إذَا رَأَيْتُمُ المَدَّاحِينَ، فَاحْثُوا في وُجُوهِهِمُ التُّرابَ » رَوَاهُ مسلم.

1790. Həmmam ibn əl-Haris Miqdaddan ﷺ rəvayət etmişdir ki, bir dəfə bir kişi Osmanı ﷺ tərifləyirdi, Miqdad da dizləri üstə oturub onun üzünə torpaq atdı. Osman ﷺ: "Sənə nə olub?"– deyə soruşdu, o da: "Peyğəmbər ﷺ buyurdu ki: **"Məddahları gördükdə, onların üzünə torpaq atın"**– dedi**.**

Bu hədisi Muslim rəvayət etmişdir.

Şərh:

Bu hədislər [tərifləməkdən] çəkindirmək barəsində olsa da, onun mübahlığı barəsində də çoxlu səhih hədislər vardır.

Alimlər demişlər ki, *bu mövzulu* hədisləri belə cəm etmək olar: Əgər tərifl ənən kəs kamil iman və yəqinlik sahibidirsə, nəfsi də hazırlıqlı və mərifət sahibidirsə, tərifdən fitnəyə düşməyəcəksə, qürurlanmayacaqsa, nəfsi onunla oynamayacaqsa, bu zaman o nə haram deyil, nə də məkruh. Əgər bu sadalananlardan birindən ehtiyat edilirsə, bu zaman onu üzünə tərifləmək şiddətli şəkildə bəyənilmir. Bu təfsilata əsasən müxtəlif hədislər öz yerini tapmış olur.

Tərifin mübahlığı barədə varid olmuş hədislərin birində Peyğəmbər ﷺ Əbu Bəkrə ﷺ belə demişdir: **"Ümid edirəm ki, sən onlardansan"**.[1] Yəni Cənnətə bütün qapılarından daxil olmaq üçün çağırılacaq kəslər barəsində belə demişdir.

Başqa bir hədisdə isə deyilir: **"Sən onlardan deyilsən"**.[2] Yəni sən libasını təkəbbürlüklə uzadan adamlardan deyilsən.

Peyğəmbər ﷺ Ömərə belə demişdir: **"Yolda sənin lə qarşı-qarşıya gələn şeytan yolunu dəyişir"**.[3]

---

[1] "Səhih əl-Buxari", 1764; "Səhih Muslim", 1705.

[2] "Səhih əl-Buxari", 5602.

[3] "Səhih əl-Buxari", 3051; "Səhih Muslim", 4410.

Tərifin mübahlığı barədə hədislər olduqca çoxdur. Onlardan bəzilərini İmam Nəvəvinin müəllifi olduğu "əl-Əzkar" kitabında qeyd etmişəm. Uca Allah ona rəhmət eləsin.

Müəllif ﵀ insanı tərifləmək barədə danışır. İnsan öz qardaşını onda olan xüsusiyyətlərlə tərifləyə bilərmi? Bunun da halları vardır:

Birinci. Onu tərifləməkdə xeyir, onu yaxşı işlərə, gözəl əxlaqa ürəkləndirmə varsa, bu zaman tərifləmək olar. Çünki bu, həmin adamı yaxşı işlərə sövq edir. Görsən ki, bir adamda səxavət, şücaət, fədakarlıq, başqalarına yaxşılıq kimi xüsusiyyətlər var və onu belə işlərə daha da rəğbətləndirmək üçün tərifləsən, bu yaxşı əməldir. Həm də bu Uca Allahın aşağıdakı ayəsinə şamil olunur: **"Yaxşılıq və təqva üzərində bir-birinizlə əməkdaşlıq edin".**[1]

İkinci. Onu tərifləyirsən ki, onun fəzilətini bəyan edəsən və insanlar ona ehtiram göstərsin. Necə ki, Peyğəmbər ﷺ bunu Əbu Bəkr və Ömərə etmişdi. Əbu Bəkrlə bağlı bir hədisdə Peyğəmbər ﷺ bir gün soruşdu ki: **"Sizlərdən kim bu gün oruc tutub?"**, Əbu Bəkr dedi ki, mən. Yenə soruşdu ki: **"Sizlərdən kim bu gün cənazə təqib edib?"**, yenə Əbu Bəkr: "Mən" deyə cavab verdi. Yenə soruşdu ki: **"Kim sədəqə verib?"**, yenə Əbu Bəkr: "Mən"– dedi. Peyğəmbər ﷺ də buyurdu ki: **"Bu xüsusiyyətlər kimdə cəm olarsa, Cənnətə daxil olar"**.[2]

Peyğəmbər ﷺ deyəndə ki, kim libasını lovğalanaraq uzadarsa, Allah ona nəzər salmaz, Əbu Bəkr dedi: "Ey Allahın elçisi, bəzən libasımın bir balağı uzanır, mən də onu yığıram". Peyğəmbər buyurdu ki: **"Sən libasını lovğalanaraq geyinənlərdən deyilsən"**.

Peyğəmbər ﷺ Ömərə demişdir ki: **"Yolda sənin lə qarşı-qarşıya gələn şeytan yolunu dəyişir".** Yəni şeytan görsə ki, sən bir yolla gedirsən, yolunu dəyişib başqa yolla gedir. Bütün bu hədislər Əbu Bəkrlə Ömərin fəzilətlərini göstərir. Bunda bir qəbahət yoxdur.

Üçüncü. Başqasını həddən artıq, hətta layiq olmadığı dərəcədə tərifləmək. Bu haram, yalan və saxtakarlıqdır. Məsələn, adi bir adamı əmir, nazir adlandırmaq kimi. Onu onda olmayan keyfiyyətlərlə vəsf etmək sənə haram olduğu kimi, bu, tərif olunan üçün də zərərlidir.

---

[1] "əl-Maidə" surəsi, 2.

[2] "Səhih Muslim", 1707.

Dördüncü. İnsanı onda olanlara görə tərifləmək. Lakin güman edilir ki, tərifl ənən kəs özünü bəyənər və özünü başqalarından üstün tutsun. Bu da haramdır və caiz deyil.

Müəllif ﵀ bəzi hədisləri qeyd etmişdir. Həmin hədislərin birində deyilir ki, bir adamın başqasını tərifl ədiyini eşidən Peyğəmbər ﷺ dedi: **"Vay sənin halına, dostunun boynunu vurdun".** Yəni onu tərifl ədiyin üçün sanki onun başını kəsmiş oldun. Çünki bununla tərifl ənən adam lovğalanaraq özünü üstün sayır.

Peyğəmbər ﷺ məddahların üzünə torpaq atılmasını da buyurmuşdur. Birisi şan-şöhrət sahibi olan hər kəsin məclisində oturub onu tərifləməklə tanınırsa, ona məddah deyilir. Məddah, tərifləyən adamdan fərqlənir – tərifləyən adam nadir hallarda kimisə tərifləyir, məddah isə hər dəfə böyük, əmir, qazi, alim və ya başqa bir adamın yanında oturduqda onu tərifləyir. Belələrinin üzünə torpaq atılmalıdır. Bir dəfə bir kişi Osmanı ﵁ tərifl ədi, Miqdad ﵁ da dizləri üstə oturub onun üzünə torpaq atdı. Osman: "Sənə nə olub?"– soruşdu, Miqdad da dedi: «Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Məddahları gördükdə, onların üzünə torpaq atın"».**

Hər bir halda, insan gərək yalnız xeyirli sözlər danışsın. Çünki Peyğəmbər ﷺ demişdir: **"Kim Allaha və Axirət gününə iman gətirmişsə, ya xeyir söz söyləsin, ya da sussun"**.[1] Müvəffəq edən Allahdır.

[1] "Səhih əl-Buxari", 5994; "Səhih Muslim", 67.

Üç yüz altmış birinci fəsil

Bəla gəlmiş yerdən qaçıb çıxmağın və ora getməyin bəyənilməməsi

Mövzu ilə əlaqəli ayələr:
Uca Allah buyurur:

﴿ أَيۡنَمَا تَكُونُواْ يُدۡرِككُّمُ ٱلۡمَوۡتُ وَلَوۡ كُنتُمۡ فِي بُرُوجٖ مُّشَيَّدَةٖ ﴾

“Harada olursunuzsa olun, hətta əlçatmaz qalalarda olsanız belə, ölüm sizi haqlayacaq”.[1]

﴿ وَلَا تُلۡقُواْ بِأَيۡدِيكُمۡ إِلَى ٱلتَّهۡلُكَةِ ﴾

“Öz əllərinizlə özünüzü təhlükəyə atmayın”.[2]

Mövzu ilə əlaqəli hədislər:

١٧٩١– وَعَنْ ابْنِ عَبَّاسٍ رضي الله عنهما أَنَّ عُمَر بْنِ الْخَطَّابِ رضي الله عنه خَرَجَ إِلَى الشَّامِ حَتَّى إِذَا كَانَ بِسَرْغَ لَقِيَهُ أُمَراءُ الأَجْنَادِ أَبُو عُبَيْدَةَ بْنُ الجَرَّاحِ وَأَصْحَابُهُ فَأَخْبَرُوهُ أَنَّ الْوبَاءَ قَدْ وَقَعَ بالشَّامِ، قَالَ ابْنُ عَبَّاسٍ: فَقَالَ لِي عُمَرُ: ادْعُ لِي المُهاجِرِين الأَوَّلِينَ فَدَعَوتُهم، فَاسْتَشَارهم، وَأَخْبرَهُم أَنَّ الْوَبَاءَ قَدْ وَقَعَ بِالشَّامِ، فَاخْتلَفوا، فَقَالَ بَعْصُهُمْ: خَرَجْتَ لأَمْرٍ، ولا نَرَى أَنْ تَرْجِعَ عَنْهُ. وَقَالَ بَعْضُهُمْ: مَعَكَ بَقِيَّة النَّاسِ وَأَصْحَابُ رسُولِ اللَّه ﷺ، وَلا نَرَى أَنْ تُقْدِمَهُم عَلَى هذا الْوَبَاءِ، فَقَالَ: ارْتَفِعُوا عَنِّي، ثُمَّ قَالَ: ادْعُ لِي الأَنْصَارَ، فَدعَوتُهُم، فَاسْتَشَارهمْ، فَسَلَكُوا سَبِيلَ المُهاجِرِين، وَاختَلَفوا كَاخْتلافهم، فَقَال: ارْتَفِعُوا عَنِي، ثُمَّ قَالَ: ادْعُ لِي مَنْ كَانَ هَا هُنَا مِنْ مَشْيَخَةِ قُرَيْشٍ مِنْ مُهَاجِرةِ الْفَتْحِ، فَدَعَوْتُهُمْ، فَلَمْ يَخْتَلِفْ عليه مِنْهُمْ رَجُلانِ، فَقَالُوا: نَرَى أَنْ تَرْجِعَ بِالنَّاسِ وَلاَ تُقْدِمَهُم عَلَى هَذَا الْوَبَاءِ، فَنَادى عُمَرُ رضي الله عنه فِي النَّاسِ: إِنِّي مُصْبِحٌ عَلَى ظَهْرِ،

[1] “ən-Nisa” surəsi, 78.
[2] “əl-Bəqərə” surəsi, 195.

فَأَصْبِحُوا عَلَيْهِ: فَقَال أَبُو عُبَيْدَةَ ابْنُ الجَرَّاحِ ﷺ: أَفِرَاراً مِنْ قَدَرِ اللَّه؟ فَقَالَ عُمَرُ ﷺ: لَوْ غَيْرُكَ قَالَهَا يَا أَبَا عُبيْدَةَ، وكَانَ عُمَرُ يَكْرَهُ خِلافَهُ، نَعَمْ نَفِرُّ منْ قَدَرِ اللَّه إلى قَدَرِ اللَّه، أرأَيْتَ لَوْ كَانَ لَكَ إبِلٌ، فَهَبَطَتْ وَادِياً لهُ عُدْوَتَانِ، إحْدَاهُمَا خَصْبةٌ، والأخْرَى جَدْبَةٌ، أَلَيْسَ إنْ رَعَيْتَ الخَصْبَةَ رعَيْتَهَا بقَدَرِ اللَّه، وإنْ رَعَيْتَ الجَدْبَةَ رعَيْتَهَا بِقَدَر اللَّه، قَالَ: فجَاءَ عَبْدُ الرَّحْمَنِ بْنُ عَوْفٍ ﷺ، وَكَانَ مُتَغَيِّباً فِي بَعْضِ حَاجَتِهِ، فَقَال: إنَّ عِنْدِي مِنْ هَذَا عِلْماً، سَمِعْتُ رَسُولَ اللَّه ﷺ يَقُولُ: « إذَا سَمِعْتُمْ بِهِ بِأَرْضٍ، فلاَ تَقْدمُوا عَلَيْهِ، وإذَا وَقَعَ بِأَرْضٍ وَأَنْتُمْ بِهَا، فَلا تخْرُجُوا فِرَاراً مِنْهُ » فَحَمِدَ اللَّه تَعَالى عُمَرُ ﷺ وَانْصَرَفَ، متفقٌ عليه.

والْعُدْوَةُ: جانِبُ الْوادِي.

1791. İbn Abbas ﷺ rəvayət edir ki, Ömər ibn əl-Xəttab Şama səfərə çıxmışdı. Sərğ adlanan yerdə *ordu* əmirləri Əbu Ubeydə ibn əl-Cərrah ﷺ və dostları onun yanına çıxıb xəbər verdilər ki, Şamda vəba xəstəliyi yayılıb. İbn Abbas deyir ki, Ömər mənə: "İlk mühacirləri yanıma çağır"– dedi, mən də onları çağırdım və o, onlarla məşvərət etdi. Onlara xəbər verdi ki, Şamda vəba yayılıb. Onlar fikir ayrılığına düşdülər. Bəziləri dedilər ki, insanların qalanı və Rəsulullahın ﷺ səhabələri sənlədir. Bizim fikrimizcə, sən onları vəba olan yerə göndərməməlisən. Dedi: "Qalxın mənim yanımdan". Sonra mənə: "Ənsarları mənim yanıma çağır"– dedi, mən də onları çağırdım, o da onlarla məsləhətləşdi. Onlar da mühacirlər kimi dedilər, onlar kimi də fikir ayrılığına düşdülər. Dedi: "Qalxın mənim yanımdan". Sonra mənə: "Fəth mühacirlərinin ağsaqqallarını yanıma çağır"– dedi, mən də onları çağırdım. Onlardan heç biri Ömərlə ixtilaf etmədi. Dedilər ki, fikrimizcə, sən insanların yanına qayıtmalı və onları vəba olan yerə göndərməməlisən. Ömər insanları çağırıb dedi: "Sabah gedərik". Onlar getmək istədikdə Əbu Ubeydə ibn əl-Cərrah dedi: "Allahın qədərindən qaçırsınız?" Ömər dedi: "Kaş, bu sözləri başqa birisi demiş olsaydı, ey Əbu Ubeydə" – Ömər onunla mübahisə etmək istəməmişdi – "Bəli, biz Allahın qədərindən Allahın qədərinə doğru qaçırıq. Tutaq ki, sənin dəvən var, sən də elə bir vadiyə getmisən ki, onun iki tərəfi var: biri yaşıllıq, o biri isə quraqlıq. Sən yaşıllıq olan tərəfə Allahın qədəri ilə getməyəcəkdinmi? Quraqlığa da getmiş olsaydın, yenə də Allahın qədəri ilə

bunu etmiş olacaqdın". Sonra Abdur-Rahmən ibn Auf gəldi. O, bəzi işlərini görmək üçün getmişdi. Dedi: «Məndə bu barədə elm var. Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Biriniz hansısa yerdə vəbanın olduğunu eşitsəniz, oraya getməyin. Vəba sizin olduğunuz yerdə baş verərsə, oradan çıxmayın"**». Ömər də Uca Allaha həmd edib getdi".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

[Hədisin ərəbcəsindəki] "əl-udva" sözü "vadinin bir tərəfi"dir.

١٧٩٢– وَعَنْ أُسَامَةَ بْنِ زَيْدٍ رضي الله عنه عنِ النَّبِيِّ ﷺ قَالَ: « إِذَا سمِعْتُمْ الطَّاعُونَ بِأَرْضٍ، فَلاَ تَدْخُلُوهَا، وَإِذَا وقَعَ بِأَرْضٍ، وَأَنْتُمْ فِيهَا، فَلاَ تَخْرُجُوا مِنْهَا » متفقٌ عليهِ.

1792. Usamə ibn Zeyddən رضي الله عنه nəql olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Hansısa bir yerdə taun xəstəliyinin olduğunu eşitsəniz, oraya daxil olmayın. Taun sizin olduğunuz torpaqda baş verərsə, oradan çıxmayın"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Şərh:

Bu, olduqca əzəmətli bir fəsildir və müəllif رحمه الله onu **"Bəla gəlmiş yerdən qaçıb çıxmağın və ora gəlməyin bəyənilməməsi"** adlandırmışdır. Yəni əgər eşitsən ki, haradasa vəba var, oraya getmə. Sənin olduğun yerdə baş verərsə, oradan qaçma.

Sonra müəllif رحمه الله Uca Allahın bu ayəsini dəlil gətirmişdir: **"Harada olursunuzsa olun, hətta əlçatmaz qalalarda olsanız belə, ölüm sizi haqlayacaq**".

Müəllif burada **"oradan çıxmayın"** sözünə işarə edir: **"Harada olursunuzsa olun..."**. Hansı zamanda və ya məkanda olursunuzsa olun, fərq etmir. **"Hətta əlçatmaz qalalarda olsanız belə"**, yəni nə qədər möhkəm hörülmüş yerlərdə olsanız belə, ölüm sizi haqlayacaqdır.

"Harada olursunuzsa olun, hətta əlçatmaz qalalarda olsanız belə, ölüm sizi haqlayacaq". Başqa bir ayə bundan da bəlağətlidir: «**De: "Qaçdığınız ölüm sizi mütləq haqlayacaq. Sonra siz qeybi və aşkarı bilənin hüzuruna qaytarılacaqsınız. O da sizə nə etdiklərinizi xəbər verəcək"».**

[1] "Səhih əl-Buxari", 5288; "Səhih Muslim", 4114.

[2] "Səhih əl-Buxari", 5287; "Səhih Muslim", 4108.

Sənin ondan qaçdığın ölüm sənə çatmayacaq, o səni haqlayacaq. Ölümdən qaçmaq mümkün deyil. Elə isə *ölümcül* vəbanın yayıldığı yerdə ölümdən necə qaça bilərsən? Lap əgər belə etsən də, izzət və cəlal sahibi Allahın qədərindən qaça bilməyəcəksən.

Uca Allahın: **"*Sayları* minlərlə olduğu halda ölüm qorxusundan dolayı yurdlarından çıxanları görmədinmi? Allah onlara: "Ölün!"– dedi. Sonra isə onları diriltdi"**[1] ayəsinə gəlincə, sayları minlərlə olan bir qövmə vəba üz vermişdi. Onlar da ölümdən qorxaraq həmin yerdən çıxmışdılar. İzzət və cəlal sahibi Allah da onlara möcüzə göstərmiş və Özünün hər şeyi əhatə edən olduğunu bildirmişdi. Allahın istədiyi mütləq olacaqdır. Allah onlara: "Ölün!" deyə əmr etmiş, onlar da ölmüşdülər. Çünki Allah bir şeyi istədikdə ona: "Ol!" deyir, o da olur. Beləcə, minlərlə adam öldü, sonra da Allah onları diriltdi. Şübhəsiz ki, Allah hər şeyə Qadirdir. Bununla izzət və cəlal sahibi Allah onlara göstərdi ki, Allahın qədərindən qaçmaq mümkün deyil.

Sonra müəllif vəba olan yerə getməməyə dəlil olaraq bu ayəni dəlil gətirmişdir: **"Öz əllərinizlə özünüzü təhlükəyə atmayın".**[2] Yəni sizin həlakınıza səbəb olan əməlləri etməyin.

Sonra da Peyğəmbərdən ﷺ varid olan hədisləri dəlil gətirmiş və Ömər ibn əl-Xəttabın Mədinədən Şama getməsi qissəsini qeyd etmişdir. Ona taun xəstəliyi barədə xəbər verilmiş və Peyğəmbərin ﷺ belə dediyi bildirilmişdir ki: **"Biriniz hansısa yerdə vəbanın olduğunu eşitsəniz, oraya getməyin".** Beləcə Peyğəmbər ﷺ taun xəstəliyinin yayıldığı yerə getməyi qadağan etmişdir. Taun da öldürücü bir vəbadır. Allah qorusun.

Elm əhlindən bəziləri demişlər ki, taun vəbanın xüsusi bir növüdür. Həmin vəba bədəndə irinli yaralar əmələ gətirir, bu yaralar da *bədəndə yayılaraq* insanı məhv edir.

Bəziləri isə demişlər ki, taun insanın qarnında baş verən və onun ölümünə səbəb olan sancıdır. Yenə demişlər ki, taun sürətlə yayılan hər bir vəbaya deyilir. Xolera və digər xəstəliklər də buna aiddir. Bu həqiqətə daha yaxın rəydir. Çünki bu, ləfzə aid olmasa da, mənaya aid olur. Sürətlə yayılan hər bir vəbanın (epidemiyanın) olduğu yerə getmək olmaz. Yox, əgər vəba sizin olduğunuz yerdə yayılarsa, o zaman oradan çıxmayın. Çünki bu

[1] "əl-Bəqərə" surəsi, 243.

[2] "əl-Bəqərə" surəsi, 195.

zaman siz Allahın qədərindən qaçmış olacaqsınız. Ancaq necə qaçsanız da, Allahın qədəri sizə yetişəcəkdir. Ona görə də demişdir: Ondan qaçmaq üçün oradan çıxmayın.

İnsanın xəstəlikdən qaçmaq üçün deyil, həmin yerdən çıxmasına gəlincə, yəni məsələn, müəyyən səbəbdən həmin yerə gedib ehtiyacını bitirdikdən sonra oradan çıxa bilər.

İbn Abbasdan رضي الله عنهما nəql olunmuş hədisdə deyilir ki, bir dəfə o, Şama gedən Ömərlə birlikdə idi. Daha doğrusunu Allah bilir – səhv etmirəmsə, Qüdsü fəth etmək üçün Şama gedirdi. Yolda olarkən ordu əmirləri onun yanına gəlib ona xəbər verirlər ki, Şamda vəba xəstəliyi yayılıb. Taun da sürətlə yayılan bir xəstəlikdir. Ömər də dayanaraq İbn Abbasa əmr edir ki, mühacirləri onun yanına çağırsınlar. O da onları çağırır və Ömər onlarla məsləhətləşir. Onlar fikir ayrılığına düşürlər. Bəziləri deyirlər ki, gəldiyin yerdən yarımçıq qayıtma, bəziləri də deyirlər ki, qayıt. Ömər də deyir ki: Çıxın mənim yanımdan. Sonra İbn Abbasa əmr edir ki, ənsarları onun yanına çağırsın. O da onları çağırır və Ömər onlarla məsləhətləşir. Onlar da mühacirlər kimi fikir ayrılığına düşürlər. Ömər də deyir ki: Çıxın mənim yanımdan. Sonra yenə İbn Abbasa əmr edir ki, Fəth mühacirlərinin ağsaqqallarını, yəni böyük mühacirləri yanına çağırsın. O da onları çağırır və onlar ixtilaf etmirlər – yekdilliklə deyirlər ki, geri dön.

Ömər insanlara səslənir ki, səhər minik üzərindəyik. Yəni qayıdırıq. Peyğəmbərin ﷺ "Bu ümmətin etibarlı adamı" deyə adlandırdığı Əbu Ubeydə Amir ibn əl-Cərrah dedi: "Ey möminlərin əmiri, Allahın qədərindənmi qaçırsan?" Yəni Allahın qədərindən qaçaraqmı insanların yanına qayıdırsan? Dedi: "Kaş, bu sözləri bir başqası deyəydi, ey Əbu Ubeydə". Sonra da onu qane edəcək bir misal çəkir: tutaq ki, sənin dəvən var. Sən də elə bir vadiyə getmisən ki, onun iki tərəfi var: biri yaşıllıq, o biri isə quraqlıq. Sən yaşıllıq olan yerə Allahın qədəri ilə getməyəcəkdinmi? Quraqlığa da getmiş olsan, yenə də Allahın qədəri ilə bunu etmiş olacaqsan". Bu vaxt müəyyən ehtiyaclarını bitirib gələn Abdur-Rahmən ibn Auf Ömərə deyir ki, məndə bu barədə elm var. Belə ki, Peyğəmbər ﷺ onlara belə demişdir: **"Biriniz hansısa yerdə vəbanın olduğunu eşitsəniz, oraya getməyin. Vəba sizin olduğunuz yerdə baş verərsə, oradan çıxmayın".** Bu da Peyğəmbərin ﷺ hökmünə müvafiq oldu. Ömər də bu hökmün etdiyi əmələ müvafiq olduğuna görə Allaha həmd etdi.

Bu hədisdə bəzi faydalar vardır:

Onlardan biri budur ki, ehtiyac olduqda xəlifə özü bilavasitə döyüşdə iştirak edə bilər.

Başqa bir fayda möminlərin əmiri Ömərin gözəl siyasətidir. O, böyük din, elm və ağıla sahib olmasına baxmayaraq, birbaşa fətva vermir, başqalarına müraciət edərək onlarla məşvərət edir.

Bir başqa fayda odur ki, gərək daha fəzilətli olanla başlanılsın. Məşvərətdə, elmdə, rəydə, nəsihətdə daha yaxşı olandan başlamaq lazımdır. Ona işarə edən tutarlı dəlil üzə çıxırsa, mövzu bitir, başqalarını sorğu-sual etməyə ehtiyac qalmır.

Yenə bir fayda odur ki, məşvərət etmək möminlərin vəsflərindəndir. Necə ki, Uca və Böyük Allah buyurur: **"Onlar öz işlərini öz aralarında məşvərət edərək həyata keçirərlər".**[1]

Allah bir kəsi bir işə müvəffəq edərsə, həmin adam da tərəddüd edib doğru fikrin hansı olduğunu bilmədikdə elm, din və təcrübə sahibi olan başqaları ilə məşvərət etməlidir. İş ümumi olduqda və bütün insanlara aid olduqda da hamının adından çıxış etməkdən ötrü məşvərət etmək lazımdır.

Daha bir fayda odur ki, rəiyyətdən olan adamın imama onun hüzurunda müraciət etməsi caizdir. Ancaq bir şərtlə ki, müraciət edən kəs elm, din və ağıl sahibi olsun. Sadə adamın şiddətli qeyrəti və emosianallığı kifayət etmir. Beləsi ilə danışılmır. Əmr sahibləri ilə yalnız ağıllı adamlar danışmalıdır. Digərləri isə əmr sahiblərinin arxasından danışmamalıdırlar – onun qarşısında danışmalıdırlar ki, münaqişə qane edici olsun.

Başqa bir fayda, misal gətirməkdir. Çünki misal gətirmək insana mövzunu daha yaxşı anladır. Belə ki, Ömər Əbu Ubeydəyə belə bir misal çəkir: tutaq ki, sənin dəvən var, sən də elə bir vadiyə getmisən ki, onun iki tərəfi var: biri yaşıllıq, o biri isə quraqlıq. Sən yaşıllıq olan tərəfə Allahın qədəri ilə getməyəcəkdinmi? Quraqlığa da getmiş olsan, bunu da Allahın qədəri ilə etmiş olacaqsan. Yəni hər iki seçim izzət və cəlal sahibi Allahın qədəri ilə baş verir.

Başqa bir çıxarılan fayda qədərilərə və mötəzililərə rəddir. Onlar deyirlər ki, insan öz əməlində müstəqildir və həmin əməlin Allahla heç bir əlaqəsi yoxdur. Allah qorusun. Ona görə də onlara bu ümmətin məcusiləri

[1] "əş-Şura" surəsi, 38.

deyilir. Çünki onlar məcusilərə bənzəyirlər. Əslində isə insan bütün əməllərini izzət və cəlal sahibi Allahın təqdiri ilə edir.

Yenə bir fayda. Ola bilsin ki, şəri elm böyük insanlar üçün gizli olsun, adi insanlar isə onu bilsin. Şəkk yoxdur ki, Ömər ibn əl-Xəttab Abdur-Rahmən ibn Aufdan daha elmli idi. Onun yanında olan bir çox səhabələr də Abdur-Rahmən ibn Aufda olmayan elmə malik idilər. Lakin ola bilsin ki, burada da baş verdiyi kimi, kiçik bir adam böyüklərdən çox bilsin.

Başqa bir fayda odur ki, Peyğəmbərin ﷺ hikmətindəndir ki, insan özünü həlak edəcək və ya ona zərər toxundura biləcək işlər görməməlidir. Belə ki, Uca Allah buyurur: **"özünüzü öldürməyin".**[1] Həmçinin buyurur: **"Öz əllərinizlə özünüzü təhlükəyə atmayın".**[2] Yəni insan onu həlak edəcək işlərə gərək baş qoşmasın. Hər şey qədərlə olsa belə, səbəblərin də təsiri vardır.

Digər bir fayda budur ki, bir yerdə vəba (epidemiya) baş verərsə, oradan çıxıb qaçmaq olmaz. Zəruri ehtiyac üzündən çıxmaq isə olar.

Yenə bir fayda. İnsan vəbaya qarşı dava-dərman və iynələrdən istifadə edə bilər. Çünki bu, bəla gəlməmişdən öncə qorunma üsuludur. Vəbaya mübtəla olmuş insan onu müalicə də edə bilər, ondan qoruna da bilər. Bu, təvəkkülün naqisliyi anlamına gəlmir, əksinə, bu, təvəkkülün özüdür. Çünki həlaka və əzaba səbəb olan işlərdən qorunmaq vacibdir. Əgər Allaha təvəkkül edən, yaxud təvəkkül edən olduğunu iddia edən kəs səbəbləri götürmürsə, həqiqi təvəkkül etmiş olmur. Əksinə, o, Allahın hikmətinə tənə etmiş olur. Çünki Allahın hikmətinə görə, hər bir işin Allahın onun üçün müəyyən etdiyi bir səbəbi olur. Müvəffəq edən Allahdır.

[1] "ən-Nisa" surəsi, 29.

[2] "əl-Bəqərə" surəsi, 195.

Üç yüz altmış ikinci fəsil

Sehrin haram olmasının ağırlığı

Mövzu ilə əlaqəli ayə:
Uca Allah buyurur:

﴿وَمَا كَفَرَ سُلَيۡمَٰنُ وَلَٰكِنَّ ٱلشَّيَٰطِينَ كَفَرُواْ يُعَلِّمُونَ ٱلنَّاسَ ٱلسِّحۡرَ وَمَآ أُنزِلَ عَلَى ٱلۡمَلَكَيۡنِ بِبَابِلَ هَٰرُوتَ وَمَٰرُوتَ﴾

“Süleyman kafir olmadı. Lakin şeytanlar sehri və Babildə Harut və Marut adlı iki mələyə nazil olanı insanlara öyrədərək kafir oldular”.[1]

Şərh:
Müəllif ﵀ “Sehrin haram olmasının ağırlığı” fəslini qeyd edir.

Sehr düyünlər vurmaqdan, qiraətlərdən və üfürmələrdən ibarətdir. Bunlarla sehr edən sehr olunana zərər yetirmək istəyir. Sehrin bəzi növləri insanı öldürə, bəziləri xəstələndirə, bəzi növləri insanın ağlını apara bilər, bəziləri birləşdirə bilər, yəni bir insanı başqasına möhkəm bağlaya bilər, bəzi növləri də uzaqlaşdıra bilər, yəni iki yaxın adamı bir-birindən ayıra bilər. Beləcə sehrin növləri vardır, lakin bütün növləri haramdır. Peyğəmbər ﷺ sehr edəndən və etdirəndən Allaha sığınmışdır.

Sehrin bəziləri küfrə gətirib çıxarır. Əgər sehrbaz şeytani ruhlar vasitəsilə öz sehrinə çatırsa, onlara yaxınlaşır, ona itaət edənədək ibadət edirsə, bu şübhəsiz ki, küfrdür. Yox, əgər belə olmazsa, bu əziyyət vermək, haram əməl və böyük günahlardan hesab olunur. Əmr sahibləri sehrbazlar tövbə etsələr belə, onları öldürməlidirlər. Çünki əgər tövbə etsə, onun işi izzət və cəlal sahibi Allaha qalır. Yox, əgər tövbə etməsə, yenə də işi Allaha qalır, lakin biz onu qətlə yetiririk ki, əziyyət və fəsadından qorunaq.

Əgər tövbə etməsə və sehri küfrdürsə, o, Cəhənnəm əhlindən olacaqdır. Çünki, Allah qorusun, sehr yer üzündəki ən böyük fəsadlardan və şər əməllərdəndir. Belə ki, insan ondan qorunmazsa, o, insanın başına gəlir. Lakin müəyyən bir şey vardır ki, o səni izzət və cəlal sahibi Allahın izni ilə

[1] “əl-Bəqərə” surəsi, 102.

sehrdən qoruya bilər. Bu da şəriətin buyurduğu dua və zikrlərdir. Məsələn, "Kürsü" ayəsi, "əl-İxlas", "əl-Fələq", "ən-Nəs" surələri və başqa ayələrdə və Peyğəmbərdən ﷺ nəql olunmuş hədislərdə keçən dua və zikrlər. Şəkk yoxdur ki, bu, insanı sehrdən qoruyan ən böyük vasitələrdəndir.

Sonra müəllif ﷺ Uca Allahın belə bir ayəsini qeyd edir ki: **"Süleyman kafir olmadı. Lakin şeytanlar sehri və Babildə Harut və Marut adlı iki mələyə nazil olanı insanlara öyrədərək kafir oldular".**[1]

Ayənin əvvəli belədir: **"Onlar Süleymanın səltənəti barədə şeytanların oxuduqlarına uydular".** Yəni şeytanların Süleymanın mülkü barədə oxuduqlarına uydular. Sehri insanlara şeytanlar öyrətmişdilər: **"Süleyman kafir olmadı. Lakin şeytanlar sehri və Babildə Harut və Marut adlı iki mələyə nazil olanı insanlara öyrədərək kafir oldular".** Süleyman kafir olmadı, çünki o sehr qoyub getməmişdi, peyğəmbərlik qoyub getmişdi. O, hörmətli peyğəmbərlərdən idi.

"**Lakin şeytanlar sehri və Babildə Harut və Marut adlı iki mələyə nazil olanı insanlara öyrədərək kafir oldular".** Bu da dəlildir ki, şeytanlardan sehr öyrənmək küfrdür. Buna görə əvvəl də dedik ki, insan sehrində şeytanlardan yardım alarsa, kafir olur.

"Babildə Harut və Marut adlı iki mələyə nazil olanı insanlara öyrədərək". İzzət və cəlal sahibi Allah bu iki mələyi yer üzünə – Babilistana orada çoxlu sehrbazlar olduğu üçün göndərmişdi. Onlar insanlara sehri öyrədirdilər. Lakin həm də onlara nəsihət edirdilər: ***"O iki mələk*: "Biz ancaq bir sınağıq, sən gəl kafir olma!"– deməmiş, *onu* heç kəsə öyrətmirdilər".** İzzət və cəlal sahibi Allah bu iki mələyi göndərmişdi ki, insanlara sehri öyrətsinlər.

Bu məqamda insan soruşa bilər ki, "Necə olur ki, izzət və cəlal sahibi Allah insanlara sehr öyrətmək üçün mələk göndərsin? Axı mələklər möhtərəm varlıqlardır".

Deyirik: Bu, izzət və cəlal sahibi Allah tərəfindən göndərilmiş bir imtahan idi. Ona görə də mələklər insanlara sehri öyrətməmişdən öncə deyirdilər ki: **"Biz ancaq bir sınağıq, sən gəl kafir olma!"** Bununla onlar insanlara nəsihət edirdilər. Ancaq izzət və cəlal sahibi Allah insanları sınağa çəkmişdi, onlar da həmin mələklərdən sehri öyrənirdilər. Onlar həmin

[1] "əl-Bəqərə" surəsi, 102.

mələklərdən düyün bağlayıb uzaqlaşdırma (ayırma) sehrini öyrənirdilər. Bu da sehrin ən pis növlərindən biridir: **"Onlar ərlə arvadı bir-birindən ayıracaq işləri onlardan öyrənirdilər".**

Sehrbaz, həyat yoldaşı ilə arası yaxşı olan birinə sehr edib onları bir-birindən ayırırdı. Adam öz həyat yoldaşına yaxınlaşmaq istədikdə o qışqırıb-ağlayır və ondan uzaqlaşmaq istəyirdi. Uzaqlaşdıqda isə ondan ayrı düşdüyünə görə ağlayırdı. Allah qorusun. Beləcə, ona iki yöndən zərər vermiş olurdu – həm birləşmək, həm də ayrılmaq yönündən. Həmçinin ər də öz xanımı üçün darıxır, lakin ona yaxınlaşanda sinəsi daralmağa başlayır, hətta ölmək istəyir. Allah qorusun. Bu böyük sehrdir. Uca Allah buyurur: **"Lakin onlar Allahın izni olmadan heç kəsə zərər verə bilməzlər".**

Diqqət edin, bu, ismi cümlədir: **"Lakin onlar Allahın izni olmadan heç kəsə zərər verə bilməzlər".** İsmi cümlə isə sübutu və dərinliyi bildirir. Üstəlik, buradakı inkar " bə / ـِ " hərfi ilə birlikdə təkid mənasında işlənmişdir: **"Lakin onlar Allahın izni olmadan heç kəsə zərər verə bilməzlər".** Yəni Allahın izni olmadan onlar öz sehrləri ilə əsla zərər verə bilməzlər. Yalnız Allah buna izin verərsə, sehrbaz buna qadir olar. Allah hər şeyə Qadirdir. İzzət və cəlal sahibi Allah istəyərsə, hər şeyi qadağan edər. Çünki göylərin və yerin səltənəti Onun əlindədir. Səbəbləri yaradan, onları yox edən Odur. Şübhəsiz ki, O, hər şeyə Qadirdir.

"Lakin onlar Allahın izni olmadan heç kəsə zərər verə bilməzlər. Onlar özlərinə zərər verən və faydası olmayan şeyi öyrənirdilər". Yəni iki mələyin göndərildiyi insanlar özlərinə zərər verən və faydası olmayan şeyi öyrənirdilər. Bu həm dünyada, həm axirətdə və pis aqibətdə xalis zərərdir. Çünki sehr olunana edilən zülm də Qiyamət günü onun axırına çıxacaq. İzzət və cəlal sahibi Allah onu ihmal etməyəcək.

"Onlar bilirdilər ki, bunu satın alan kimsələrin axirətdə heç bir payı yoxdur". Bu cümlə and, təkidləyici "ləm" və "artıq" sözləri ilə təkidlənmişdir. Yəni bu sehri öyrənənlər bildilər ki, bunu öyrənənlərin axirətdə heç bir payı yoxdur. Onlar bunu iki mələyin sözündən bilirdilər: **"Biz ancaq bir sınağıq, sən gəl kafir olma!"** Onlar öyrənmişdilər ki, seçim öz əllərindədir. Buna baxmayaraq, onlar sehri seçdilər. Ona görə Rəbbimiz: **"bunu satın alan kimsələrin"**– buyurur. Satın almaq isə məhsula rəğbət bəslənilərək baş verir. Buna görə də Uca Allah sehri öyrənməyi "satın almaq" adlandırır.

“Axirətdə heç bir payı yoxdur”, yəni onun Axirətdə bir nəsibi yoxdur. Axirətdə payı olmayacaq kəslər isə kafirlərdir. Möminlərin isə Axirətdə payı olacaqdır – onlar Cənnətə ya sorğu-sualsız daxil olacaqlar, ya da günahları miqdarında əzab çəkdikdən sonra Cənnətə daxil olacaqlar. Kafirin isə Axirətdə heç bir payı olmayacaqdır.

“Qarşılığında özlərini satdıqları şey necə də pisdir!” Yəni aldıqları sözü burada satmaq mənasındadır. Yəni Allah onların özlərini sataraq seçdiklərini pisləyir.

“Kaş *bunu* biləydilər!” Yəni onlar elm sahibləri olsaydılar, bilərdilər ki, bu təmiz şərdir.

Xülasə, sehr böyük günahlardandır. Hətta insanı küfrə də sala bilər. Sehrbazın aqibəti isə istər sehri ilə küfr etsin, istərsə də etməsin, ölümdür. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **“Sehrbazın cəzası qılıncla öldürülməsidir”.**[1] Digər ləfzi isə: **“Qılıncla vurulmasıdır”.**[2]

Allahdan diləyirik ki, müsəlmanları sehrbazların şərindən qorusun, onların hiylələrini özlərinə qarşı çevirsin. Bizləri və sizləri şəriətin buyurduğu dua və zikrləri etməyə müvəffəq etsin – o dua və zikrlər ki, adamı şər insanlardan və şeytanlardan qoruyur. Müvəffəq edən Allahdır.

١٧٩٣– وَعَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه عَنِ النبيِّ ﷺ قَالَ: « اجْتَنِبُوا السَّبْعَ المُوبِقَاتِ » قَالُوا: يَا رسُولَ اللَّهِ وَمَا هُنَّ؟ قَالَ: « الشِّرْكُ بِاللَّهِ، السِّحْرُ، وَقَتْلُ النَّفْسِ التي حرَّمَ اللَّه إلاَّ بِالْحَقِّ، وَأَكْلُ الرِّبَا، وَأَكْلُ مَالِ اليتيم، والتَّوَلِّي يَوْمَ الزَّحْفِ، وقَذفُ المُحْصنَات المُؤمِناتِ الْغَافِلات » متفقٌ عليه.

1793. Əbu Hureyra رضي الله عنه nəql edir ki, Peyğəmbər ﷺ dedi: **“*Sahibini* həlak edən yeddi günahdan çəkinin”**. Dedilər: “Onlar hansılardır, ey Allahın elçisi?” Dedi: **“Allaha şərik qoşmaq, sehr, Allahın haram buyurduğu cana haqsız yerə qəsd etmək, sələm yemək, yetimin malını yemək, döyüş meydanından qaçmaq və namuslu, günahsız mömin qadınları zinada ittiham etmək”.**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

---

[1] “Sunən ət-Tirmizi”, 1380.

[2] Təbərani, “Möcəm əl-Kəbir”, 4/273; əl-Heysəmi, “Məcmə əz-Zəvaid”, 6/80.

[3] “Səhih əl-Buxari”, 2560; “Səhih Muslim”, 129.

Şərh:

Müəllif ﷺ **"Sehrin haram olmasının ağırlığı"** fəslində Əbu Hureyradan nəql olunmuş hədisi qeyd edir.

Hədisdə **"Allahın haram buyurduğu cana haqsız yerə qəsd etmək"** qeyd olunur. Qeyd etdik ki, toxunulmaz insanlar dörd qisimdir: müsəlman, zimmi, muahəd və mustəmən. Haqsız yerə bunlardan heç birini öldürmək olmaz.

Həmçinin müsəlmanlarla kafirlər arasında olan əhddən söhbət açıb dedik ki, buna ehtiyac olarsa, bu caizdir. Alimlər ixtilaf etmişlər ki, kafirlərlə on ildən artıq əhd bağlamaq olar, yoxsa yox? Mütləq əhd caizdir, ya yox? Qeyd etmişdik ki, əhd üç növdür:

Birinci qisim daimi əhddir ki, bu, haramdır.

İkinci qisim mütləq əhddir ki, daha doğru rəyə görə bu caizdir.

Üçüncü qisim isə müvəqqəti əhddir ki, bu da caizdir.

Bu xüsusda danışanlar ixtilaf etmişlər ki, on ildən artıq əhd bağlamaq olar, yoxsa yox? – Səhih olan odur ki, ehtiyac olduğu üçün caizdir.

Hədisdə həmçinin **"Sələm yemək"** deyilir.

Sələm yemək də böyük günahlardandır. Şeyxulislam İbn Teymiyyə demişdir: Sələm yeyən barədə varid olan cəza şirkdən başqa günahlar xüsusunda varid olmamışdır. Bu, olduqca böyük günahdır. Allah qorusun. Hətta Uca Allah öz kitabında buyurur: **"Ey iman gətirənlər! Allahdan qorxun və əgər möminsinizsə, sələmdən qalan məbləğdən vaz keçin. Belə etməsəniz, Allahın və Onun rəsulunun sizə müharibə elan etdiyini bilin. Yox, əgər tövbə etsəniz, sərmayəniz sizindir. Nə siz zülm edərsiniz, nə də sizə zülm olunar".**[1] İzzət və cəlal sahibi Allah bəyan edir ki, əgər insan sələmi tərk etməsə, Allaha və Onun rəsuluna qarşı müharibə elan etmiş olur: **"Belə etməsəniz, Allahın və Onun rəsulunun sizə müharibə elan etdiyini bilin".** Əgər tövbə edərsə, öz malından artığını götürməsi haramdır: **"Əgər tövbə etsəniz, sərmayəniz sizindir. Nə siz zülm edərsiniz, nə də sizə zülm olunar".**

Mühüm olan odur ki, sələm yemək sahibini həlak edən böyük günahlardandır. Sələm altı sinif məhsulda olur ki, onları da Peyğəmbər ﷺ bəyan etmişdir: **"Qızılı qızılla, gümüşü gümüşlə, buğdanı buğda ilə,**

[1] "əl-Bəqərə" surəsi, 278-279.

arpanı arpa ilə, xurmanı xurma ilə, duzu duzla dəyişmək eyni mislində, eyni miqdarda, əl-ələ olmalıdır. Cinslər fərqli olduqda isə, əl-ələ olmaqla, istədiyiniz kimi alıb satın".[1]

İnsanlar arasında hal-hazırda yayılmış sələm iki növdür: Qızıl və gümüşlə. Çünki yeməklərin dəyişdirilməsi nadir hallarda olur, onlardakı sələm də azdır. Daha çox sələm pulda olur.

Alimlər, Allah onlara rəhmət etsin, qızıl və gümüşü əvəz edən kağız əskinaslar meydana çıxdıqda onun xüsusunda böyük bir fikir ayrılığına düşdülər. Bu ixtilaf altıdan çox rəyi özündə ehtiva edir, hər bir fikir də bir rəydir. Onlardan ən yaxın rəy belədir ki, əgər cinslər müxtəlifdirsə, əlavə riba caiz, nisyə ribası isə caiz deyil. Buna əsasən də sənə on rial əskinas verib əvəzində doqquz rial metal pul ala bilərəm. Yaxud buna bənzər başqa bir şey. Çünki cinslər müxtəlifdir. Hədisdə də deyilir ki, "**Cinslər fərqli olduqda isə, əl-ələ olmaqla, istədiyiniz kimi alıb satın**".

Kağız rialla metalın qiyməti hökumətin təqdirinə görə eyni olsa da belədir. Lakin mahiyyətcə kağızın metaldan fərqli olduğunu görürük. Hətta qiyməti də fərqlidir. Fərz edək ki, bir dəmir parçası və bir kağız parçasını küçədə görsən, onların qiyməti eyni deyildir. Onların arasında fərq vardır. Çünki onların cinsləri, qiymətləri müxtəlifdir. Əgər dövlət onların qiymətlərini eyniləşdirməsəydi, onlar eyni olmazdılar. Bu da Peyğəmbərin ﷺ aşağıdakı sözünə daxil olur ki: "**Cinslər fərqli olduqda isə, əl-ələ olmaqla, istədiyiniz kimi alıb satın**".

Sonra isə... Sələmin fərqli növləri vardır ki, onların da bəziləri digərlərindən daha pisdir. Bunlardan ən şiddətlisi sələmi qat-qat artıraraq yeməkdir. Belə ki, borclu kasıbın borc qaytarmağa pulu olmadıqda ona deyir ki, sənə bir il möhlət verirəm, sonra borcu artıracağam. Məsələn, on min borcu var, lakin qaytarmağa pulu yoxdur. Ona deyir ki, bir il gözləyirəm, sonra borcu on bir min edəcəyəm. Bu haramdır və caiz deyil. Fərqi yoxdur bunu açıq şəkildə etsin, yaxud hiylə ilə. Məsələn, ona deyir ki, məndən bu malı on bir minə al, sonra da onu mənə on minə sat. Bununla o haram olan əməl xüsusunda hiylə gəlmək istəyir. Allah qorusun. Allahın haramları xüsusunda hiylə gəlmək haram əməli açıq şəkildə etməkdən daha pisdir. Buna görə də sələmlə bağlı hiylə işlədənlərə Uca Allahın bu ayəsi şamil

[1] "Səhih Muslim", 2970.

olunur: **"Sələm yeyənlər *qəbirlərindən* şeytan vurmuş dəlinin qalxdığı kimi qalxarlar".** Bu ayə barəsində alimlərin iki rəyi vardır:

Birinci: Onlar dünyavi davranışlarında sələmi yeməyə və onu götürməyə dəli kimi qalxarlar. Sanki dəli olmuş birisi bu haram qazancı əldə etmək istəyir. O hər yolla, hər üsulla gündə bir hiylə gəlmiş olur.

Ayə barəsində ikinci rəy: Qiyamət günü onlar qəbirlərindən bütün insanların və şahidlərin önündə cin toxunmuş kəslər kimi qalxacaqlar. Allah qorusun.

Hər bir halda, istər açıq şəkildə olsun, istərsə də məkr və hiylə yolu ilə, sələm haramdır. Sadəcə məkr və hiylə yolu ilə olan sələm daha ağır və şiddətli günahdır və qəlbi daha çox sərtləşdirir. Allah qorusun.

"Xeyr! Onların qəlbini qazandıqları *günahlar* bürümüşdür".[1] Onlar bu hiylələri edir və onları halal və caiz görürlər, bu günahlardan da yaxa qurtarmırlar. Açıq şəkildə haram iş görən isə Allahdan utanır və günah iş gördüyünü bilir. Ola bilsin, Allah da onun işini asanlaşdırsın və onu tövbə etməyə müvəffəq etsin.

"Yetimin malını yemək" də sahibini həlak edən böyük günahlardandır. Yetim o kəsdir ki, valideynini həddi-büluğa çatmamışdan öncə itirib. Yetim aciz olur və özünü müdafiə edə bilmir, birisi də gəlib onun malını əlindən alıb yeyir. Bu da sahibini həlak edən günahlardandır. Allah qorusun.

"Döyüş meydanından qaçmaq". Yəni kafirlərə qarşı döyüşdən qaçmaq. Müsəlmanlar kafirlərlə üz-üzə gəldikdə döyüşdən qaçan kəs həlakedici böyük günah etmiş olur. Allah qorusun. Yalnız izzət və cəlal sahibi Allahın zikr etdiyi kəslər istisnadır: **"Daha bir döyüş əməliyyatı keçirmək üçün bir tərəfə çəkilən və ya başqa bir dəstəyə qoşulanlar istisna olmaqla...".**[2]

"Namuslu, günahsız mömin qadınları zinada ittiham etmək". Yəni bir adamın günahsız mömin bir qadını zinada ittiham edib: "Filankəs zina edib" deməsi. Bu da həlakedici böyük günahlardandır. Namuslu kişini ittiham etmək də bunun kimi böyük günahlardandır.

Müvəffəq edən Allahdır.

---

[1] "əl-Mutaffifin" surəsi, 14.

[2] "əl-Ənfal" surəsi, 16.

Üç yüz altmış üçüncü fəsil

Düşmən əlinə keçməsindən ehtiyat etdikdə Quranla kafir ölkəsinə səfər etməyin qadağan olması

Mövzu ilə əlaqəli hədis:

١٧٩٤– عَنْ ابْنِ عُمَرَ ﵄ قَالَ: « نَهَى رَسُولُ اللَّه ﷺ أنْ يُسَافَرَ بالقرآن إلَى أرْضِ الْعَدُوِّ » متفقٌ عليه.

1794. İbn Ömərdən ﵄ rəvayət olunur ki, Rəsulullah ﷺ düşmən torpağına Quranla səfər etməyi qadağan etmişdir.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Müəllif ﵀ **"Düşmən əlinə keçməsindən ehtiyat etdikdə Quranla kafir ölkəsinə səfər etməyin qadağan olması"** fəslini qeyd edir.

İnsanın Quranla kafir ölkəsinə səfər etməsi qadağandır. Çünki onun kafirlərin əlinə keçməsi, onların da onu alçaltması güman edilir. Quran, düşmən əlində olmaqdan daha əzəmətli və şərəflidir. Buna görə də Abdullah ibn Ömər ﵄ qeyd etmişdir ki, Peyğəmbər ﷺ düşmən torpağına Quranla səfər etməyi qadağan etmişdir. Bu da müəllifin ﵀ dediyi kimi, bundan ehtiyat edildikdə qadağandır. Günümüzdə olduğu kimi, bunun təhlükəsi olmadıqda isə Quranla səfərə çıxmaq olar. Ticarət və ya təhsil məqsədilə kafir ölkəsinə səfərə çıxmış adam özü ilə Quran da götürə bilər. Lakin bilməlidir ki, kafir ölkəsində təhsil və ya başqa məqsədlərlə gedib uzun müddət qalmaq üç şərt olmadan caiz deyil:

Birinci şərt, insanın elmli olmasıdır ki, şübhələri rədd edə bilsin. Çünki kafirlər düşməndirlər və onlar insanları Allahın dinindən döndərmək istəyirlər. Elmi olmayan gənc adam onların yanına getdikdə ona şübhələr atmağa başlayırlar ki, onu özü də bilmədən dinindən çıxarsınlar. Şübhələri dəf etməyə yetərincə elmi olmayanların kafir ölkələrinə səfər etmələri halal deyildir. Hər bir halda, yalnız müalicə kimi zəruri hallar

[1] "Səhih əl-Buxari", 2768; "Səhih Muslim", 3474.

istisnadır. Ancaq bu zaman da onun yanında onu başqalarının şərindən qoruyan dostu olmalıdır.

İkinci şərt, onu şəhvətlərdən qoruyacaq dindarlığı olmalıdır. Çünki kafir dövlətlərində dini və dünyavı əngəllər mövcud deyil. İnsanlar dedikləri kimi azad yaşayırlar. Onlar nəfsi istəklərində azad, əslində isə nəfsi istəklərinin kölələridirlər. İnsanı şəhvətlərdən qoruyan dini olmasa həlak olar. Çünki o, çılpaq qadınlar, sərxoşedici içkilər, pisliklər görür. Əgər dini olmasa, uçuruma gedər.

Üçüncü şərt, öz ölkəsində olmayan bir elmə yiyələnmək üçün səfər etmək – hansı ki, insanların həmin elmə ehtiyacları vardır. Bunda bir qəbahət yoxdur.

Bu üç şərt mövcuddursa, insan düşmən ölkəsinə səfər edə bilər. Əks halda bu icazəli deyil. Bu da orada bir müddət qalacaq adama aiddir. Yox, əgər ticarət məqsədilə gedib qayıdacaqsa, bu asan işdir. Müvəffəqiyyət Allahdandır.

Üç yüz altmış dördüncü fəsil

Yemək-içmək, təmizlik və başqa məqsədlər üçün qızıl və gümüş qabdan istifadə etməyin haramlığı

Mövzu ilə əlaqəli hədislər:

١٧٩٥– عَنِ أمِّ سَلَمَةَ ﵂ أنَّ رَسُولَ اللَّه ﷺ قَالَ: « الَّذِي يَشْرَبُ في آنِيَةِ الْفِضَّةِ إنَّمَا يُجَرْجِرُ في بَطْنِهِ نَار جَهَنَّمَ » متفقٌ عليه.

وفي روايةٍ لِمُسْلِمٍ: « إنَّ الَّذِي يَأكُلُ أوْ يَشْربُ في آنيةِ الْفِضَّةِ وَالذَّهَب ».

1795. Ummu Sələmədən ﵂ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Gümüş qabdan içən adam öz qarnında Cəhənnəm odunu qaynatmış olur"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Muslimin rəvayətində: **"Qızıl və gümüş qabdan yeyib-içən kəs..."** deyilir

١٧٩٦– وعنْ حُذَيْفَةَ ﵁ قالَ: إنَّ النبيَّ ﷺ نَهَانَا عَنِ الحَرِيرِ، والدِّيباجِ، وَالشُّرْب في آنِيَةِ الذَّهَبِ وَالْفِضَّةِ، وقال: « هُنَّ لهُمْ في الدُّنْيَا وَهِيَ لَكُمْ في الآخِرةِ » متفقٌ عليهِ.

وفي روايةٍ في الصَّحِيحَيْنِ عَنْ حُذَيْفَةَ ﵁: سَمِعْتُ رَسُولَ اللَّه ﷺ يَقُولُ: « لا تَلْبِسُوا الحَرِيرَ وَلا الدِّيبَاجَ، ولا تَشْرَبُوا في آنِيَةِ الذَّهَبِ والْفِضَّةِ وَلا تَأْكُلُوا في صِحَافِهَا».

1796. Huzeyfə ﵁ demişdir: "Peyğəmbər ﷺ bizə ipəyi, zərxaranı, qızıl və gümüş qabda içməyi qadağan etmişdir. Dedi: **"Onlar bu dünyada onlar üçün, axirətdə isə sizin üçündür".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Yenə Buxari və Muslimin "Səhih"lərində Huzeyfədən ﵁ belə rəvayət olunur ki, "Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"İpək və zərxaralı libas geyinməyin, qızıl və gümüş qablarda içməyin, onlar üzərində də yeməyin".**[3]

---

[1] "Səhih əl-Buxari", 5203; "Səhih Muslim", 3846.

[2] "Səhih əl-Buxari", 5201; "Səhih Muslim", 3849.

[3] "Səhih əl-Buxari", 5206; "Səhih Muslim", 3850.

١٧٩٧– وعَنْ أنس بن سِيرينَ قال: كنْتُ مَع أنَسِ بن مالك ﷺ عِنْد نَفَرٍ مِنَ المجُوسِ، فَجِيءَ بفَالُودَجٍ عَلى إنَاءٍ مِنْ فِضَّةٍ، فَلَمْ يأكُلْهُ، فَقِيلَ لَهُ حوّلهُ فحوَّلَه عَلى إنَاءٍ مِنْ خَلَنْج، وجِيءَ بِهِ فأَكَلَهُ. رواه البيهقي بإسْنادٍ حَسنٍ.

« الخَلَنْجُ »: الجَفْنَة.

1797. Ənəs ibn Sirin deyir ki, bir dəfə mən Ənəs ibn Maliklə ﷺ birlikdə bir neçə məcusinin yanında idik. Bu vaxt gümüş qabda fəludəc yeməyi gətirildi. O həmin yeməkdən yemədi. Ona dedilər ki, onu dəyişsin, o da onu başqa bir qabla dəyişdirdi. Ona gətirildi və o ondan yedi".

Hədisi Beyhəqi həsən isnadla rəvayət etmişdir.[1]

Şərh:

Qızıl və gümüşün hər ikisi izzət və cəlal sahibi Allahın yer üzündə yaratdığı mədənlərdir. Allah onları bizim üçün yaratmışdır: **"Yer üzərindəki hər şeyi sizin üçün O yaratmışdır".**[2] Bizlər də şəriətdə qadağan olunanlar istisna olmaqla, qızıl və gümüşdən istifadə edə bilərik.

Peyğəmbər ﷺ qızıl və gümüş qablarda yeyib-içməyi qadağan edib xəbər vermişdir ki, bunlar bu dünyada kafirlər üçün, axirətdə isə bizim üçün olacaqdır. Həmçinin xəbər vermişdir ki, qızıl-gümüş qablarda yeyib-içənlər qarınlarında Cəhənnəm odunu qaynatmış olurlar. Allah qorusun.

[Hədisin ərəbcəsində] işlənən "cərcəra" sözü qaynayan suyun səsinə deyilir. Bu adama da, Allah qorusun, Cəhənnəm odundan içiriləcəkdir. Bu da dəlildir ki, qızıl və ya gümüş qabda yeyib-içmək böyük günahlardandır. Möminin isə bunu etməsi halal deyildir.

Qızıl və gümüşdən olan başqa şeylərin istifadəsinə gəlincə, bu barədə alimlər ixtilaf etmişlər. Əksər alimlər deyirlər ki, yemək-içmək zamanı qızıl və gümüş qabdan istifadə etmək caiz olmadığı kimi, onları başqa məqsədlərlə də istifadə etmək olmaz. Məsələn, qızıl və ya gümüşdən dərmanqabı, pulqabı və ya buna bənzər başqa əşyalardan da istifadə etmək olmaz. Çünki Peyğəmbər onlarda yeyib-içməyi qadağan etdiyi üçün başqa cür istifadə etmək də ona aiddir.

---

[1] əl-Beyhəqi, "Sunən əl-Kubra", 1/28.

[2] "əl-Bəqərə" surəsi, 29.

Bəzi alimlər isə bunu caiz hesab edərək demişlər ki, biz yalnız haqqında dəlil varid olanla kifayətlənirik. Qalanı isə haram deyil, çünki onun əsli halaldır. Buna görə də qızıl və gümüş qabda yeyib-içmək barədə varid olmuş hədislərdən birinin ravisi Ummu Sələmənin رضي الله عنها gümüş bir qabı var idi. O da həmin qabda Peyğəmbərin ﷺ saçlarını saxlayırdı. İnsanlar da gəlib həmin tüklər vasitəsilə şəfa diləyir və izzət və cəlal sahibi Allahın izni ilə şəfa tapırdılar. Yəni o, gümüş qabı yemək-içmək xaricində bir şey üçün istifadə etmişdi.

Bu, doğru rəyə daha yaxındır. Yəni qızıl və gümüşdən yemək-içməkdən fərqli digər məqsədlərlə istifadə etmək caizdir. Lakin yaxşı olar ki, ehtiyat üçün əksər alimlərin dedikləri kimi, tərk olunsun. Müvəffəq edən Allahdır.

Üç yüz altmış beşinci fəsil

Kişinin zəfəranlı paltar geyinməsinin haramlığı

Mövzu ilə əlaqəli hədislər:

١٧٩٨– عَنْ أنسٍ ﷺ قالَ: نَهَى النبي ﷺ أنْ يَتَزَعْفَر الرَّجُلُ. متفقٌ عليه.

1798. Ənəsdən ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ kişinin zəfəran vurmasını qadağan etmişdir.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٧٩٩– وعنْ عبدِ اللَّه بنِ عَمْرو بن العاص ﷺ قالَ: رأَى النبي ﷺ عَلَيَّ ثَوْبَيْنِ مُعَصْفَرين فَقَال: « أُمُّكَ أَمَرَتْكَ بهذا؟ » قلتُ: أَغْسِلُهُمَا؟ قال: « بلْ أحْرِقْهُما».

وفي روايةٍ، فقال: « إنَّ هذا منْ ثيَابِ الكُفَّار فَلا تَلْبسْهَا » رواه مسلم.

1799. Abdullah ibn Amr ibn As ﷺ rəvayət edir ki, "Bir dəfə Peyğəmbər ﷺ mənim üzərimdə iki usfurlu libas görüb dedi: **"Bunu sənə anan əmr edib?"** Mən dedim: "Onları yuyummu?" Dedi: **"Get, onları yandır"**.[2]

Başqa bir rəvayətdə deyilir: **"Bu, kafirlərin libaslarındandır, onları geyinmə"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[3]

Şərh:

Müəllif ﷺ **"Kişinin zəfəranlı paltar geyinməsinin haramlığı"** fəslini qeyd etmişdir.

Burada libasına zəfərana bənzəyən usfur bitkisi sürtən adam nəzərdə tutulur. Sonra da Abdullah ibn Amr ibn Asdan ﷺ rəvayət olunan hədisi dəlil gətirir ki, o demişdir: "Bir dəfə Peyğəmbər ﷺ mənim üzərimdə iki usfurlu libas görüb dedi: **"Bunu sənə anan əmr edib?"** Yəni buna qarşı çıxdı.

---

[1] "Səhih əl-Buxari", 5398; "Səhih Muslim", 3923.

[2] "Səhih Muslim", 3873.

[3] "Səhih Muslim", 3872.

Bu da dəlildir ki, adamın sarı, narıncı libas geyinməsi haramdır, bəyənilmir. Peyğəmbər ﷺ həmçinin qırmızı libas geyinməyi də qadağan etmişdir. Əgər bu onların libasıdırsa, bizə onlara bənzəmək qadağan edilmişdir. Peyğəmbər ﷺ bu xüsusda demişdir: **"Kim özünü bir qövmə bənzədərsə, o da onlardandır".**[1]

[1] "Sunən Əbu Davud", 3512.

Üç yüz altmış altıncı fəsil

Gecəyədək günü susaraq keçirməyin qadağan olması

Mövzu ilə əlaqəli hədislər:

١٨٠٠– عَنْ عليٍّ ﵁ قالَ: حَفِظْتُ عَنْ رَسُولِ اللَّهِ ﷺ: « لا يُتْمَ بَعْدَ احْتِلامٍ، وَلا صُمَاتَ يَوْمٍ إلى اللَّيْلِ » رواه أبو داود بإسناد حسن.

قالَ الخَطَّابي في تفسيرِ هذا الحديثِ: كَانَ مِنْ نُسُكِ الجاهِلِيَّة الصّمَاتُ، فَنُهُوا في الإسْلامِ عَنْ ذلكَ، وأُمِرُوا بِالذِّكْرِ وَالحَدِيثِ بالخَيْرِ.

1800. Rəvayət olunur ki, Əli ﵁ demişdir: "Mən Rəsulullahdan ﷺ bunları əzbərləmişəm: **"Həddi-büluğdan sonra yetimlik olmur, günboyu gecəyədək susmaq olmaz"**.

Hədisi Əbu Davud həsən isnadla rəvayət etmişdir.[1]

əl-Xəttabi bu hədisin şərhində demişdir: "Günboyu susmaq cahiliyyə dövrünün adətlərindən idi. İslam bunu onlara qadağan etdi. Onlara zikr edib yaxşı sözlər danışmaq əmr olundu".

١٨٠١– وعَنْ قيس بن أبي حازِمٍ قالَ: « دَخَلَ أَبُو بكرٍ الصِّدّيقُ ﵁ على امْرَأَةٍ مِنَ أحْمَسَ يُقَالُ لهَا: زَيْنَبُ، فَرَآهَا لا تَتَكَلَّم. فقالَ: « مَالهَا لا تَتَكَلَّمُ »؟ فقالُوا: حَجَّتْ مُصْمِتَةً، فقالَ لهَا: « تَكَلَّمِي فَإِنَّ هذا لا يَحِلُّ، هذا منْ عَمَلِ الجَاهِلِية»، فَتَكَلَّمَت. رواه البخاري.

1801. Qeys ibn Əbu Hazimdən rəvayət edilir ki, "Bir dəfə Əbu Bəkr əs-Siddiq ﵁ adı Zeynəb olan Əhməsli bir qadının yanına daxil oldu və gördü ki, həmin qadın danışmır. Soruşdu ki: "Ona nə olub ki, danışmır?", dedilər: "Susaraq həcc etmişdir". Ona dedi: "Danış! Bu halal deyil, bu cahiliyyə dövrünün əməllərindəndir". O da danışdı.

Bu hədisi Buxari rəvayət etmişdir.[2]

---

[1] "Sunən Əbu Davud", 2489.

[2] "Səhih əl-Buxari", 3547.

Şərh:

Müəllif ﵀ **"Gecəyədək günü susaraq keçirməyin qadağan olması"** fəslini qeyd etmişdir.

Cahiliyyə dövründə insanlar izzət və cəlal sahibi Allaha susmaqla ibadət edirdilər. Yəni insan səhər yuxudan qalxandan günəş batanadək danışmırdı. Müsəlmanlara bu qadağan edildi. Çünki bu, "sübhanallah, əlhəmdulilləh, la ilahə illəllah" demək, yaxşı işlərə dəvət etmək, pis işlərdən çəkindirmək, Quran oxumaq və başqa bu kimi əməllərin tərk olunmasına gətirib çıxarır. Bu həm də cahiliyyə dövrü əməllərindən olduğuna görə də qadağan edilmişdir. Ona görə də insanın bütün günü gecəyədək susması qadağandır. Tutaq ki, kimsə buna nəzir edibsə, bu nəzirini yerinə yetirməməli, nəzirini pozub kəffarə verməlidir. İnsan danışdıqda da yalnız xeyirli sözlər danışmalıdır. Peyğəmbər ﷺ demişdir: **"Allaha və Axirət gününə iman gətirən kəs ya xeyir söyləsin, ya da sussun".**[1] Müvəffəq edən Allahdır.

[1] "Səhih əl-Buxari", 5994; "Səhih Muslim", 67.

Üç yüz altmış yeddinci fəsil

İnsanın özünü öz atasından başqasına, habelə öz ağasından başqasına nisbət etməsinin haramlığı

Mövzu ilə əlaqəli hədislər:

١٨٠٢– عَنْ سَعْدِ بن أبي وقَّاصٍ ﷺ أنَّ النبيَّ ﷺ قالَ: مَن ادَّعَى إلى غَيْرِ أبِيهِ وَهُوَ يَعْلَمُ أنَّهُ غَيْرُ أبِيهِ فَالجَنَّةُ عَلَيهِ حَرامٌ ». متفقٌ عليهِ.

1802. Səd ibn Əbu Vaqqasdan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Kim bilərəkdən öz atasından qeyrisinin onun atası olduğunu iddia edərsə, Cənnət ona haramdır".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٨٠٣– وعن أبي هُرَيْرَةَ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ: « لا تَرْغَبُوا عَنْ آبَائِكُمْ، فَمَنْ رَغِبَ عَنْ أبيهِ فَهُوَ كُفْرٌ » متفقٌ عليه.

1803. Əbu Hureyradan ﷺ nəql edilir ki, Peyğəmbər ﷺ demişdir: **"Atalarınızdan üz çevirməyin. Kim atasından üz çevirərsə, bu küfrdür"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١٨٠٤– وَعَنْ يزيدَ شريك بن طارقٍ قالَ:رَأَيْتُ عَلِيًّا ﷺ عَلى المِنْبَرِ يَخْطُبُ،فَسَمِعْتهُ يَقُولُ:لا واللَّهِ مَا عِنْدَنَا مِنْ كتاب نَقْرؤهُ إلاَّ كتاب اللَّه، وَمَا في هذِهِ الصَّحِيفَةِ، فَنَشَرَهَا فَإذا فِيهَا أسْنَانُ الإبلِ، وَأَشْيَاءُ مِنَ الجِرَاحاتِ، وَفيهَا: قَالَ رَسولُ اللَّه ﷺ: المدِينَةُ حَرَمٌ مَا بَيْنَ عَيْرٍ إلى ثَوْرٍ، فَمَنْ أحْدَثَ فيهَا حَدَثاً، أوْ آوَى مُحْدِثاً، فَعَلَيْهِ لَعْنَةُ اللَّهِ والمَلائِكَة وَالنَّاسِ أجْمَعِينَ، لا يَقْبَلُ اللَّه مِنْهُ يَوْمَ الْقِيَامَة صَرْفاً وَلا عَدْلاً، ذِمَّةُ المُسْلِمِينَ وَاحِدَةٌ، يَسْعَى بِهَا أدْنَاهُمْ، فَمَنْ أخْفَرَ مُسْلِماً، فَعلَيْهِ لَعْنَةُ اللَّه والمَلائِكَةِ وَالنَّاسِ أجْمَعِينَ، لا يَقْبَلُ اللَّه مِنْهُ يَوْم الْقِيامَةِ صَرفاً ولا عدْلاً. وَمَنِ ادَّعَى إلى غَيْرِ أبيهِ، أو انتَمَى إلى غَيْرِ مَوَاليهِ، فَعلَيْهِ لَعْنَةُ اللَّه وَالملائِكَةِ وَالنَّاسِ أجْمَعِينَ، لا يقْبَلُ اللَّه مِنْهُ يَوْمَ الْقِيَامةِ صَرْفاً وَلا عَدْلاً ». متفقٌ عليه.

---

[1] "Səhih əl-Buxari", 3982; "Səhih Muslim", 96.

[2] "Səhih əl-Buxari", 2670; "Səhih Muslim", 94.

« ذِمَّةُ الْمُسْلِمِينَ » أيْ: عَهْدُهُمْ وأمانتُهُم. « وَأخْفَرَهُ »: نَقَضَ عَهْدَهُ. « والصَّرفُ»: التَّوْبَةُ، وَقِيلَ: الحِلَةُ. « وَالْعَدْلُ »: الفِدَاءُ.

1804. Yezid ibn Şureyk ibn Tariq ﷺ demişdir: «Mən Əlini minbərdə xütbə verən gördüm, onun belə dediyini eşitdim: "Xeyr, Allaha and olsun ki, Allahın kitabından və bu səhifədən başqa əlimizdə oxuyacağımız bir kitab yoxdur. Sonra o həmin səhifəni açdı. Orada dəvə dişləri və yara *müalicəsi* üçün bəzi ləvazimatlar var idi. Orada bunlar da yazılmışdı ki, Rəsulullah ﷺ demişdir: **"İrdən Sövrədək Mədinənin ərazisi toxunulmazdır. Kim orada hadisə çıxararsa, yaxud cinayətkarı himayə edərsə, Allahın, mələklərin və bütün insanların lənəti onun üzərinə olsun. Qiyamət günü Allah ondan heç bir əməl və tövbə qəbul etməz. Müsəlmanların zimməti eynidir. Onların ən aşağı səviyyədə olanı da buna haqlıdır. Kim müsəlmanın əhdini pozarsa, Allahın, mələklərin və bütün insanların lənəti onun üzərinə olsun. Qiyamət günü Allah ondan heç bir əməl və tövbə qəbul etməz. Kim öz atasından qeyrisinin onun atası olduğunu, yaxud öz ağasından qeyrisinin onun ağası olduğunu iddia edərsə, Allahın, mələklərin və bütün insanların lənəti onun üzərinə olsun. Qiyamət günü Allah ondan heç bir əməl və tövbə qəbul etməz"**».

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

[Hədisin ərəbcəsində keçən] "zimmət" sözü əhd, əmanət, "əxfəra" – əhdi pozmaq, "sarf" isə deyilənə görə, tövbə mənasındadır. Başqaları isə bunun mənasının ədalət olduğunu demişlər.

١٨٠٥– وَعَنْ أبي ذَرٍّ ﷺ أنَّهُ سَمِعَ رسولَ اللَّه ﷺ يَقُولُ: « لَيْسَ منْ رَجُلٍ ادَّعَى لِغَيْر أبيهِ وَهُوَ يَعْلَمُهُ إلاَّ كَفَرَ، وَمَنِ ادَّعَى مَا لَيْسَ لهُ، فَلَيْسَ مِنَّا، وَلْيَتَبوَّأْ مَقْعَدَهُ مِنَ النَّار، وَمَنْ دَعَا رَجُلاً بِالْكُفْرِ، أوْ قالَ: عدُوَّ اللَّه، وَلَيْسَ كَذلكَ إلاَّ حَارَ عَلَيْهِ » متفقٌ عليهِ، وَهَذَا لفْظُ روايةِ مُسْلِمٍ.

1805. Əbu Zərdən ﷺ nəql edir ki, o, Peyğəmbərin ﷺ belə dediyini eşitmişdir: **"Kim bilərəkdən atasından başqasının onun atası olduğunu iddia edərsə, küfr etmiş olar. Kim özünə aid olmayan bir şeyi iddia**

[1] "Səhih əl-Buxari", 6258; "Səhih Muslim", 2774.

edərsə, bizdən deyil", – yaxud dedi: **"Cəhənnəmdəki yerini hazırlasın". Kim bir adamı küfrlə çağırarsa, yaxud deyərsə ki: "ey Allahın düşməni", həmin adam da elə olmazsa, dediyi söz özünə qayıdar".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1] Bu ləfz Muslimin rəvayətidir.

Şərh:

Müəllif ﵀ "**İnsanın özünü öz atasından başqasına, habelə öz ağasından başqasına nisbət etməsinin haramlığı"** fəslini qeyd etmişdir.

O, insanların onlar vasitəsilə bir-birilərinə yaxınlaşdıqları iki amili qeyd etmişdir. Onlardan biri nəsəb, ikincisi isə dostluqdur. Peyğəmbər ﷺ demişdir: **"Dostluq qohumluq kimi bir bağlılıqdır"**.[2]

Nəsəbə gəlincə, insan gərək öz yaxınlarına nisbət olunsun – atasına, babasına və ulu babasına, yaxud da buna bənzər qohumuna. İnsanın öz atasından başqasının onun atası olmadığını bilə-bilə özünü ona nisbət etməsi halal deyildir. Məsələn, atası müəyyən bir qəbilədəndir, adam da görür ki, başqası ilə nisbətdə öz qəbiləsində naqislik var, gedib özünü daha hörmətli bir qəbiləyə nisbət edir ki, qəbiləsinə görə qınanmasın. Beləsi, Allah qorusun, lənətlənmişdir. Ona Allahın, mələklərin və bütün insanların lənəti olur. Allah Qiyamət günü ondan nə bir əməl, nə də tövbə qəbul etməyəcəkdir.

İnsan məşhur və hörmətli olan babasına, ulu babasına nisbət edilərək atasına nisbət edilməməsində bir qəbahət yoxdur. Peyğəmbər ﷺ demişdir: **"Mən peyğəmbərəm, yalançı deyiləm, mən Əbdul-Muttalibin oğluyam"**.[3] – baxmayaraq ki, o, Muhəmməd ibn Abdullah ibn Əbdul-Muttalibdir.

Əbdul-Muttalib onun babasıdır. O bunu Huneyn döyüşündə demişdir. Çünki Əbdul-Muttalib onun atası Abdullahdan daha məşhur idi. Babasının qureyşlilər yanında hörməti böyük idi. Ona görə də buyurmuşdur ki: **"Mən Əbdul-Muttalibin oğluyam".** Ancaq məlumdur ki, o, Muhəmməd ibn Abdullahdır. O bununla atasını inkar etmədi, sadəcə özünü daha məşhur babasına nisbət etdi.

---

[1] "Səhih Muslim", 93.

[2] "Sunən əd-Darimi", 3030.

[3] "Səhih əl-Buxari", 2652; "Səhih Muslim", 3325.

Bəzi insanlar qəbilələrinə nisbət olunurlar. Məsələn, deyir ki, Əhməd ibn Teymiyyə, yaxud başqa bir ad. Deyilən cəza yalnız öz doğma atasından başqasına nisbət olunana aiddir. Çünki bununla o, öz nəsəbindən narazılığını bildirmiş olur. Özünü atasından başqasına nisbət etməklə yüksəlmək istəyir ki, beləsinə də lənət olunur. Allah qorusun.

Bəzi insanlar, Allah qorusun, bunu dünya üçün edirlər. Məsələn, atalarına deyil, öz əmilərinə nisbət olunurlar. Bəzi insanların iki mənsubiyyəti olur – həm dayısına, həm də əmisinə, yaxud başqa birisinə nisbət olunur. Bununla da o, hər hansı bir dünya mənfəətini əldə etmək istəyir. Bu ona halal deyil və haramdır. Kimin halı belə olarsa, gərək bundan əl çəkib doğru yola yönəlsin. Kim izzət və cəlal sahibindən qorxarsa, Allah onun işini asanlaşdırar və onu gözləmədiyi yerdən ruziləndirər. Müvəffəq edən Allahdır.

Əli ibn Əbu Talibdən رضي الله عنه nəql olunan hədisdə onun minbərdən dediyi "əllərində Allahın kitabından başqa heç bir şey olmaması" sözünə gəlincə, burada "Allahın kitabı" deyildikdə günümüzdə böyüklü-kiçikli bütün müsəlmanların oxuduqları Quran nəzərdə tutulur. Ona heç kim nə əlavə etməyib, nə də ondan nəyisə əksiltməyib. Burada rafizi şiələrə rədd vardır. Onlar iddia edirlər ki, Quranın üçdə biri həzf olunmuşdur. Məsələn, deyirlər ki, "Vilayət" adlı surə və başqa surələr həzf olunub. Onlar müsəlmanların icmasından kənara çıxıblar: **"Hər kəs özünə doğru yol bəlli olduqdan sonra Peyğəmbərə qarşı çıxıb möminlərin yolundan ayrı bir yolla gedərsə, onu üz tutduğu yola yönəldər və Cəhənnəmə giriftar edərik. Ora nə pis dönüş yeridir".** (ən-Nisa, 115)

Dördüncü raşidi xəlifə olan möminlərin əmirinin Peyğəmbərin ﷺ onlara xüsusi bir şey buraxmadığına and içməsi rafizi şiələrin yalan deyiklərinə dəlildir. Əli رضي الله عنه and içmədən də sadiq və doğru danışan adamdır. Rafizilər deyirlər ki, Peyğəmbər ﷺ xəlifəliyi Əli ibn Əbu Talibə vəsiyyət etmişdir. Əbu Bəkr və Ömər isə zalım, qəsbkar, kafir və münafiqdirlər. Onlar, Allah qorusun, ümmətin ən xeyirli insanlarını belə vəsf edirlər. Allah öz ədaləti ilə onları layiq olduqları ilə cəzalandırsın. Şübhəsiz ki, O, hər şeyə Qadirdir.

Əgər siz həqiqətən də Əli ibn Əbu Talibi sevməkdə sadiqsinizsə, onu sevir, tərəfini saxlayır və özünüzü onun tərəfdarı adlandırırsınızsa, o zaman onun minbərdən insanlara xütbə verərkən içdiyi bu andını da təsdiqləyin.

O, elan edib açıqlamışdı ki, Peyğəmbər ﷺ onları günümüzədək böyüklü-kiçikli bütün insanların oxuduqları Qurandan başqa heç bir şeylə xüsusiləşdirməmişdir. Yalnız bu səhifədə yazılanlardan başqa. Orada dəvə dişlərinin zəkatı, paltar və yaralarla bağlı şeylər var idi. Həmin əşyaların nə olduğu bu hədisdə açıqlanmır. Başqa hədislərdə isə bu açıqlanır.

Həmin səhifədə deyilir ki, Mədinə şəhərinin İr və Sövr arasındakı ərazisi toxunulmazdır. Mədinənin də Məkkə kimi toxunulmazlığı vardır. Məkkənin haramlığının fərqi ondadır ki, oranı həcc və ya ümrə üçün ziyarət etməyə qəsd etməyən kəsin imanı kamil olmaz, Mədinə isə belə deyil. Həmçinin Mədinədə haramların edilməsi Məkkədən daha xəfifdir. Məkkədə ov ovlayan kəs cəzalandırılır, Mədinənin haram ərazisi ilə belə deyil. Biz burada bütün bu fərqləri zikr etmək istəmirik. Həmin məlum fərqlər altı və ya yeddidir.

İr və Sövrün arası da bəllidir. Bu haramın ərazisi dörd fərsəxdir. Bu haram ərazi barədə Peyğəmbər ﷺ buyurur ki: **"Kim orada hadisə çıxararsa, yaxud cinayətkarı himayə edərsə, Allahın, mələklərin və bütün insanların lənəti onun üzərinə olsun".** Hadisə, yəni əqidədə, mənhəcdə, əxlaqda müsəlmanlara müxalif olarsa, Allahın, mələklərin və bütün insanların lənəti onun üzərinə olsun. Həmçinin **"kim bir cinayətkarı himayə edərsə"**, yəni onu Mədinəyə daxil edərsə, özü də həmin adamın cinayət törətdiyini bilərək ona yardım edərək qoruyarsa, Allahın, mələklərin və bütün insanların lənəti onun üzərinə olsun.

İkinci cümlə: "Müsəlmanların zimməti eynidir". Yəni onların əhdi eynidir. Əhd sahibi olan müsəlmanlardan biri əhd etdikdən sonra əhdini pozarsa, Allahın, mələklərin və bütün insanların lənəti onun üzərinə olsun. Məsələn, əhdi olan kafir birisi və ya başqası ölkəyə əmin-amanlıqla və əhdlə daxil olduqdan sonra kimsə ona xəyanət edərsə, Allahın, mələklərin və bütün insanların lənəti onun üzərinə olsun. Əgər kafir əmin-amanlıqla ölkəyə daxil olarsa, mömin birisi də onu qoruyaraq desə ki, "gəl, daxil ol, sən mənim himayəmdəsən", sonra da birisi gəlib müsəlman tərəfindən qorunan həmin kafiri qətlə yetirərsə, Allahın, mələklərin və bütün insanların lənəti onun üzərinə olsun. Allah qorusun. Kimsə əmr sahibinin əhdi və əmin-amanlığı ilə ölkəyə daxil olan kəsi qətlə yetirərsə, Allahın, mələklərin və bütün insanların lənəti onun üzərinə olsun.

Bütün bunlar İslam dininin əmin-amanlıqla ölkəyə daxil olan kəsi himayə etdiyini göstərir. İslam dinində suiqəsd, xəyanət və cinayət yoxdur. Müsəlmanların əmin-amanlıq verdikləri kəs onların arasında əmin-amanlıqda olmalıdırlar.

Bununla da əhd və əmin-amanlıqla ölkəyə daxil olmuş kəslərə suiqəsdlə xəyanət edənlərin xətalarını və cahilliklərini görmüş oluruq. Bunlar möminlərin əmiri Əlinin də söylədiyi kimi, Allahın, mələklərin və bütün insanların lənətinə layiqdirlər. Allah qorusun.

Əmin-amanlıqla daxil olmayan və müsəlmanların əmin-amanlıq vermədikləri hərbçilərə, gizlincə daxil olaraq düşmənlərə casusluq edənlərə, yer üzündə fəsad törədənlərə gəlincə, onlar öldürülməlidir. Çünki onlara aman verilmir. Dövlət və ya başqa müsəlmanlar tərəfindən aman verilərək ölkəyə daxil olan kəsləri isə öldürmək olmaz. Həmin adamın canı toxunulmazdır – ona xəyanət edənə Allahın, mələklərin və bütün insanların lənəti olar.

Bununla da bəzi ölkələrdə aman verilmiş kəslərə qarşı edilən təcavüzün necə böyük səhv olduğunu görürük. Onlara dövlət tərəfindən aman verilir, sonra da kimsə İslam adına gəlib onları qətlə yetirir. İslamda xəyanət yoxdur. İzzət və cəlal sahibi Allah buyurur: **"Allahla bağladığınız əhdə sadiq olun; möhkəm and içdikdən sonra andlarınızı pozmayın. Çünki siz Allahı özünüzə zamin etmisiniz".**[1] Yenə izzət və cəlal sahibi Allah buyurur: **"İpliyini möhkəm əyirdikdən sonra *onu* açıb sökən qadın kimi olmayın. Bir camaat digər bir camaatdan *sayca və malca* daha çox olduğu üçün andlarınızı aranızda hiylə vasitəsinə çevirirsiniz. Allah bununla sizi sınayır. O, ixtilafda olduğunuz şeyləri Qiyamət günü sizə mütləq bildirəcəkdir".**[2]

Əhd əzəmətli şeydir, ona xəyanət etmək isə iyrəncdir. Allah qorusun. Bunun İslamla əlaqəsi yoxdur. **"Əgər haqq onların nəfslərinin istəklərinə tabe olsaydı, göylər, yer və onlarda olanlar fəsada uğrayardı".**[3] Müvəffəq edən Allahdır.

---

[1] "ən-Nəhl" surəsi, 91.

[2] "ən-Nəhl" surəsi, 92.

[3] "əl-Muminun" surəsi, 71.

Üç yüz altmış səkkizinci fəsil

İzzət və cəlal sahibi Allahın və Onun elçisinin qadağan etdiyi əməlləri etməkdən çəkinmək

Mövzu ilə əlaqəli ayələr:
Uca Allah buyurur:

﴿ فَلْيَحْذَرِ ٱلَّذِينَ يُخَالِفُونَ عَنْ أَمْرِهِۦٓ أَن تُصِيبَهُمْ فِتْنَةٌ أَوْ يُصِيبَهُمْ عَذَابٌ أَلِيمٌ ﴾

“Qoy onun əmrinə qarşı çıxanlar başlarına bir bəla gəlməsindən, yaxud özlərinə ağrılı-acılı bir əzab üz verməsindən qorxsunlar”.[1]

﴿ وَيُحَذِّرُكُمُ ٱللَّهُ نَفْسَهُۥ ﴾

“Allah sizi Özündən çəkindirir”.[2]

﴿ إِنَّ بَطْشَ رَبِّكَ لَشَدِيدٌ ﴾

“Doğrudan da, Rəbbinin *günahkarları* yaxalaması çox şiddətlidir”.[3]

﴿ وَكَذَٰلِكَ أَخْذُ رَبِّكَ إِذَآ أَخَذَ ٱلْقُرَىٰ وَهِىَ ظَٰلِمَةٌ ۚ إِنَّ أَخْذَهُۥٓ أَلِيمٌ شَدِيدٌ ﴾

“Rəbbin, haqsızlıq edən məmləkətləri yaxaladığı zaman belə yaxalayır. Onun cəzası həqiqətən də, ağrılı-acılıdır, şiddətlidir”.[4]

Mövzu ilə əlaqəli hədis:

١٨٠٦– وَعَنْ أبي هُرَيْرَةَ رضي الله عنه أَنَّ النبي ﷺ قَالَ: « إِنَّ اللَّه تَعَالى يَغَارُ، وَغَيْرَةُ اللَّهِ أَنْ يَأْتِيَ المَرْءُ مَا حَرَّمَ اللَّه عَليهِ » متفقٌ عليه.

---

[1] “ən-Nur” surəsi, 63.
[2] “Ali İmran” surəsi, 30.
[3] “əl-Buruc” surəsi, 12.
[4] “Hud” surəsi, 102.

1806. Əbu Hureyradan ﷺ nəql olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Şübhəsiz ki, Allah qısqanır – Allahın qısqanmağı insanın Onun haram buyurduğu əməlləri etməsidir"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Müəllif Hafiz ən-Nəvəvi ﷺ **"İzzət və cəlal sahibi Allahın və Onun elçisinin qadağan etdiyi əməlləri etməkdən çəkinmək"** fəslini qeyd edir.

İnsan haramlara düşməkdən çəkinməli və bu məsələdə səhlənkarlıq etməməlidir. O həm də izzət və cəlal sahibi Allahın məkrindən arxayın olmamalıdır. Şeytan bəzi insanları aldadır, ona deyir ki, günah et, sonra tövbə edərsən. Günah et, Allahın rəhməti qəzəbindən üstündür. Günah et, Uca Allah buyurur ki: **"Allah Özünə şərik qoşulmasını əsla bağışlamaz, bundan başqa *olan günahları* isə istədiyi kimsəyə bağışlayar".**[2] Yaxud buna bənzər şeytanın insanın ağlına gətirdiyi yalançı vədlər. Ancaq: **"şeytanın onlara verdiyi vədlər aldatmaqdan başqa bir şey deyildir".**[3]

Allah və rəsulunun qadağan etdiyi əməllərdən çəkinmək vacibdir.

Sonra müəllif ﷺ Allahın kitabından bəzi ayələr gətirmişdir. Uca Allah buyurur: **"Qoy onun əmrinə qarşı çıxanlar başlarına bir bəla gəlməsindən, yaxud özlərinə ağrılı-acılı bir əzab üz verməsindən qorxsunlar".**

"onun əmrinə qarşı çıxanlar", yəni Rəsulullahın ﷺ əmrindən.

"əmrinə qarşı çıxanlar", yəni ondan kənara çıxanlar, ona əhəmiyyət verməyənlər və müxalif işlər görənlər.

"başlarına bir bəla gəlməsindən, yaxud özlərinə ağrılı-acılı bir əzab üz verməsindən qorxsunlar". Qəlblərinə fitnə düşməsindən, yəni yəqin olmalı olduqları məsələlərdə şübhə, yaxud haram olan şeylərə şəhvətin düşməsi. Bu xüsusda İmam Əhməd demişdir: "Bilirsənmi fitnə nədir? Fitnə şirkdir. Ola bilsin, insan Peyğəmbərin ﷺ bəzi sözlərini qəbul etmədiyi üçün onun qəlbinə sapıqlıq düşsün və o, beləcə həlak olsun". Allah qorusun.

Odur ki, fitnədən çəkinin, Allaha və Onun rəsuluna müxalif olmaqdan çəkinin.

---

[1] "Səhih əl-Buxari", 4822; "Səhih Muslim", 4959.

[2] "ən-Nisa" surəsi, 48.

[3] "ən-Nisa" surəsi, 120.

"başlarına bir bəla gəlməsindən, yaxud özlərinə ağrılı-acılı bir əzab üz verməsindən qorxsunlar". Yəni ya bu dünyada, ya da axirətdə ağrıdıcı bir əzab.

Uca Allah buyurur: **"Allah sizi Özündən çəkindirir".**[1] Yəni izzət və cəlal sahibi Allahdan çəkinin. O, şiddətli əzab verəndir. Necə ki, Uca Allah buyurur: **"Qullarıma xəbər ver ki, Mən Bağışlayanam, Rəhmliyəm. Əzabım isə ağrılı-acılı əzabdır".**[2] O həmçinin buyurur: **"Bilin ki, Allah şiddətli cəza verəndir, həmçinin, Allah bağışlayandır, rəhmlidir".**[3]

Beləcə O, sözünü cəza ilə başlayıb məğfirət ilə bitirir ki, Allahın məkrindən arxayınçılıq yaranmasın. İnsan Allahın məkrindən arxayın olduqda bəlaya və əzaba düçar olur. Buna görə də uca və böyük Allah buyurur: **"Məgər o ölkələrin əhalisi əzabımızın onlara gecə vaxtı, onlar yatarkən gəlməyəcəyindən əmin idilərmi? Ya da o ölkələrin əhalisi əzabımızın onlara səhər-səhər, onlar əylənərkən gəlməyəcəyindən əmin idilərmi? Yaxud onlar Allahın hiyləsindən ehtiyat etmirdilərmi? Allahın hiyləsindən yalnız ziyana uğrayanlar ehtiyat etməzlər".**[4]

Allahın məkrindən əmin olub qorxmayıb asiliklər edən qafil əslində xəsarətə uğrayır. Çünki onun aqibəti əzab və məhvdir. Allah qorusun.

Uca və Böyük Allah buyurur: **"Rəbbin, haqsızlıq edən məmləkətləri yaxaladığı zaman belə yaxalayır. Onun cəzası həqiqətən də, ağrılı-acılıdır, şiddətlidir".**[5] Peyğəmbər ﷺ bunu belə təfsir etmişdi ki: **"Allah zalıma möhlət verir".** Yəni onu buraxır ki, özünə zülm verərək Allaha asi olsun. **"Onu yaxaladıqda isə fürsət verməz".**[6] Sonra o ﷺ Uca Allahın bu ayəsini oxudu: **"Rəbbin, haqsızlıq edən məmləkətləri yaxaladığı zaman belə yaxalayır. Onun cəzası həqiqətən də, ağrılı-acılıdır, şiddətlidir".**

Odur ki, izzət və cəlal sahibi Allaha qarşı asilikdə yumşaqlıq etmək olmaz. Hətta bəzi elm əhli demişdir ki: "Bir adam səhlənkarlıq edərək bir günahı edərsə, həmin günah kiçik günah olsa belə, sahibinin qəlbindəki səhlənkarlığa görə böyük günah sayılar". Allah qorusun. Allah bizləri əzabından və qəzəbindən qorusun.

---

[1] "Ali İmran" surəsi, 30.

[2] "əl-Hicr" surəsi, 49-50.

[3] "əl-Maidə" surəsi, 98.

[4] "əl-Əraf" surəsi, 97-99.

[5] "Hud" surəsi, 102.

[6] "Səhih əl-Buxari", 4318; "Səhih Muslim", 4680.

Odur ki, gərək insan Uca Allahın ona möhlət verməsi ilə qürrələnib Allahın ona tez əzab verməməsinə görə günahlar etməsin. Bu, izzət və cəlal sahibi Allahın məkrindən arxayınçılıqdır. Uca və nöqsansız Allah zalım adama möhlət verir, onu yaxaladıqda isə Peyğəmbərin də ﷺ dediyi kimi, möhlət vermir. Sonra Uca Allahın bu ayəsini oxudu: **"Rəbbin, haqsızlıq edən məmləkətləri yaxaladığı zaman belə yaxalayır. Onun cəzası həqiqətən də ağrılı-acılıdır, şiddətlidir".**

Bir çox insanlar bu xüsusda səhlənkarlıq edir, Allaha asilik edirlər. Ona həmin əməlin qadağan olması deyildikdə, ondan əl çəkib vacib olanı etməsini dedikdə cavab verir ki: **"Həqiqətən də Allah Bağışlayandır, Rəhmlidir"[1]; "Allah Özünə şərik qoşulmasını əsla bağışlamaz, bundan başqa *olan günahları* isə istədiyi kimsəyə bağışlayar".[2]** Deyir ki, mən Allaha şərik qoşmuram. Ona deyirsən ki, bunu deyən izzət və cəlal sahibi Allahdır, o da deyir ki: **"Qullarıma xəbər ver ki, Mən Bağışlayanam, Rəhmliyəm. Əzabım isə ağrılı-acılı əzabdır".[3]**

Gərək Allahın sənə möhlət verməsi ilə qürrələnməyəsən. Ola bilsin, Allah öz quluna möhlət versin və onu özü də bilmədən məhv etsin. Onu yaxaladıqda isə Qüvvətli və Qadir Allahın amansız gücü ilə məhv edər. Odur ki, səhlənkar olma, izzət və cəlal sahibi Allahın nəzarət etdiyini bil.

Sonra da bil ki, hər bir xəstəliyin bir dərmanı vardır. Əgər şeytanlardan kimsə sənə vəsvəsə versə, izzət və cəlal sahibi Allaha doğru yönəl və Ona tövbə et. Uca Allahın buyurduğu kəslər kimi ol: **"O kəslər ki, bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə, Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər. Axı günahları Allahdan başqa kim bağışlaya bilər? Bir də onlar gördükləri *pis* işlərdə bilə-bilə israr etməzlər".[4]**

Tövbənin beş şərti vardır:

1) İzzət və cəlal sahibi Allah üçün ixlas. Yəni insan tövbəni məxluqatdan kiməsə görə etməməli, həmçinin bunu şan-şöhrət qazanmaq, vəzifə əldə etmək üçün etməməlidir. Əksinə, tövbəni izzət və cəlal sahibi Allahın cəzasından qorxaraq, savabına ümid bəsləyərək etməlidir.

---

[1] "əl-Bəqərə" surəsi, 173.

[2] "ən-Nisa" surəsi, 48.

[3] "əl-Hicr" surəsi, 49-50.

[4] "Ali İmran" surəsi, 135.

2) Etdiyi günaha görə peşman olmaq. Yəni etdiyi günahın olması ilə olmaması eyni olmamalıdır. Etdiyi günaha görə peşman olmalı, təəssüf hissi keçirməli və deməlidir ki, kaş ki, bunu etməyəydim. Bununla belə o, başına gələnlərə görə Allahın qəza və qədəri ilə razılaşaraq izzət və cəlal sahibi Allaha tövbə etməlidir.

3) Günahdan əl çəkmək. Yəni əgər günah iş görülübsə, yaxud edilməsi mümkün olan vacib bir əməl tərk olunubsa, ondan qurtulmaq gərəkdir. Ola bilsin ki, günah etməkdə israrlı olsun və tövbə etsin. Bu səhvdir. Bu yalançı istəkdir. Bəzi insanlar deyirlər ki, sələmə görə Allahdan bağışlanma diləyir və tövbə edirəm. Buna baxmayaraq, o yenə sələm yeyir. Yaxud deyir ki, insanların haqlarını tapdaladığıma görə Allahdan bağışlanma diləyir və tövbə edirəm. Özü isə gedib insanların haqqını tapdalayır. Edə biləcəyi haqları gecikdirir. Buna bənzər insanın müxtəlif cür özünü tövbə edən kimi göstərərək aldatması buna aiddir. Əslində isə o, tövbə etmiş olmur.

Əgər edilmiş günah insan haqqıdırsa, gərək həmin haqq sahibinə qaytarılsın. Məsələn bir adamın malını oğurlasa, həmin adam da gəlib haqqını istədikdə deyərsə ki, artıq tövbə edib, deyirik ki, öncə apar malı sahibinə qaytar. Əgər qaytarmasan, tövbən səhih deyil.

Həmçinin əgər insanların ətini yeyərək qeybət etməklə, məclisdə kimisə söyməklə günah iş görübsə, özünə bu barədə xəbər verildikdə desə ki, o artıq tövbə edib, ona deyirik ki, get və həmin adamdan halallıq istə ki, tövbənin sənə faydası olsun. Bu, həmin adamın qeybətinin edilməsindən xəbər tutduğu haldır. Əks halda, ona xəbər verməyə gərək yoxdur. Onu məclislərdə tərifla və sonra Allahdan bağışlanma dilə.

4) Bir daha həmin günaha qayıtmamağa səy etmək. Yəni tövbə etdikdən sonra düşünməməlidir ki, imkan olsa yenə də həmin günaha qayıdacaq. Belə tövbə olmur. Çalışmalıdır ki, bir daha həmin günaha qayıtmasın.

5) Tövbə, qəbul edilən vaxtda olmalıdır. Yəni insan ölüm vaxtı yetişmədən öncə tövbə etməlidir. Həmçinin tövbə günəş batdığı yerdən çıxmamışdan öncə olmalıdır. Ölüm anında tövbə etdikdə həmin tövbənin insana faydası olmur. Bundan bəlli olur ki, tövbə dərhal, gecikmədən edilməlidir. Çünki insan ölümün onu nə zaman haqlayacağını bilmir. Gərək ölümə həmişə hazır olsun.

Uca Allahdan diləyirik ki, tövbələrimizi və tövbələrinizi qəbul etsin və bizi iman üzərində öldürsün.

Üç yüz altmış doqquzuncu fəsil

Qadağan olunmuş əməli edən adam nə deməli və nə etməlidir

Mövzu ilə əlaqəli ayələr:
Uca Allah buyurur:

﴿ وَإِمَّا يَنزَغَنَّكَ مِنَ ٱلشَّيۡطَٰنِ نَزۡغٞ فَٱسۡتَعِذۡ بِٱللَّهِۖ إِنَّهُۥ هُوَ ٱلسَّمِيعُ ٱلۡعَلِيمُ ﴾

"Əgər sənə şeytandan bir vəsvəsə gəlsə, Allaha sığın. Çünki O, Eşidəndir, Biləndir".[1]

﴿ إِنَّ ٱلَّذِينَ ٱتَّقَوۡاْ إِذَا مَسَّهُمۡ طَٰٓئِفٞ مِّنَ ٱلشَّيۡطَٰنِ تَذَكَّرُواْ فَإِذَا هُم مُّبۡصِرُونَ ﴾

"Allahdan qorxanlara şeytandan bir vəsvəsə toxunduğu zaman *Allahı* xatırlayar və dərhal *gerçəyi* görərlər".[2]

﴿ وَٱلَّذِينَ إِذَا فَعَلُواْ فَٰحِشَةً أَوۡ ظَلَمُوٓاْ أَنفُسَهُمۡ ذَكَرُواْ ٱللَّهَ فَٱسۡتَغۡفَرُواْ لِذُنُوبِهِمۡ وَمَن يَغۡفِرُ ٱلذُّنُوبَ إِلَّا ٱللَّهُ وَلَمۡ يُصِرُّواْ عَلَىٰ مَا فَعَلُواْ وَهُمۡ يَعۡلَمُونَ * أُوْلَٰٓئِكَ جَزَآؤُهُم مَّغۡفِرَةٞ مِّن رَّبِّهِمۡ وَجَنَّٰتٞ تَجۡرِي مِن تَحۡتِهَا ٱلۡأَنۡهَٰرُ خَٰلِدِينَ فِيهَاۚ وَنِعۡمَ أَجۡرُ ٱلۡعَٰمِلِينَ ﴾

"O kəslər ki, bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə, Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər. Axı günahları Allahdan başqa kim bağışlaya bilər? Bir də onlar gördükləri *pis* işlərdə bilə-bilə israr etməzlər. Onların mükafatı, Rəbbindən bağışlanma və *ağacları və qəsrləri* altından çaylar axan cənnətlərdir ki, orada əbədi qalacaqlar. *Yaxşı* əməl sahiblərinin mükafatı necə də gözəldir!".[3]

﴿ وَتُوبُوٓاْ إِلَى ٱللَّهِ جَمِيعًا أَيُّهَ ٱلۡمُؤۡمِنُونَ لَعَلَّكُمۡ تُفۡلِحُونَ ﴾

---

[1] "Fussilət" surəsi, 36.
[2] "əl-Əraf" surəsi, 201.
[3] "Ali İmran" surəsi, 135-136.

“Ey iman gətirənlər! Hamınız Allaha tövbə edin ki, bəlkə nicat tapasınız”.[1]

١٨٠٧– وعَنْ أبي هُرَيْرَةَ ﷺ عَن النَّبيِّ ﷺ قال: « مَنْ حَلَف فَقَالَ في حلفِهِ: بِاللَّاتِ والْعُزَّى، فَلْيقُلْ: لا إلَهَ إلاَّ اللَّه ومَنْ قَالَ لِصَاحِبِهِ، تَعَالَ أقَامِرْكَ فَليتَصَدَّق». متفقٌ عليه.

1807. Əbu Hureyradan ﷺ nəql olunur ki, Peyğəmbər ﷺ demişdir: **“Kim and içərək: “Lata və Üzzaya and olsun” deyərsə, *ardınca*: “La ilahə illəllah”– desin. Kim dostuna: “gəl, qumar oynayaq”– deyərsə, sədəqə versin”**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Şərh:

Müəllif ﷺ **“Qadağan olunmuş əməli edən adam nə deməli və nə etməlidir”** fəslini qeyd edir.

İnsan günahlardan məsum deyil, hər bir insanın günahları vardır. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **“Hər bir Adəm övladı xəta edəndir, xəta edənlərin ən xeyirlisi isə tövbə edənlərdir”.**[3]

Yenə o ﷺ demişdir: **“Əgər günah etməsəniz, Allah sizi məhv edib yerinizə başqa bir qövm gətirər. Onlar etdiyi günahlara görə Allahdan bağışlanma diləyər, Allah da onu bağışlayar”**.[4]

Hər bir insan günah edir. Lakin günah edən kimi gərək tələsib Allaha yönəlsin və tövbə etsin, peşman olub bağışlanma diləsin ki, həmin günahlar ondan silinsin. Uca Allah buyurur: **“Əgər sənə şeytandan bir vəsvəsə gəlsə, Allaha sığın. Çünki O, Eşidəndir, Biləndir”.**[5]

Əgər şeytan sənə vəsvəsə verib qəlbini günah işə sövq etsə, Allaha sığın. İstər Allahın haqqı, istər də məxluqların haqqı ilə bağlı olsun, hansısa bir günah işlətmək istəsən: “Məlun şeytanın şərindən Allaha sığınıram”– de. Əgər bu sözləri ixlasla desən, Allah sənə yardım edərək səni məlun şeytanın şərindən qoruyacaq, mühafizə edəcək.

---

[1] “ən-Nur” surəsi, 31.

[2] “Səhih əl-Buxari”, 5642; “Səhih Muslim”, 3107.

[3] “Sunən ət-Tirmizi”, 2423; “Sunən İbn Macə”, 4241.

[4] “Səhih Muslim”, 4936.

[5] “Fussilət” surəsi, 36.

Uca Allah buyurur: **"Allahdan qorxanlara şeytandan bir vəsvəsə toxunduğu zaman *Allahı* xatırlayar və dərhal *gerçəyi* görərlər".**[1] – Onların qəlblərinə vəsvəsə gəldikdə, yaxud pis əməl etdikdə xatırlayıb ibrət götürsünlər, **"və dərhal *gerçəyi* görərlər".** Yəni onlar səhv iş etdiklərini anlayaraq Uca Allahdan bağışlanma diləyərlər.

Müəllifin gətirdiyi başqa bir ayədə buyurulduğu kimi: **"O kəslər ki, bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə, Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər".**[2]

"pis iş gördükdə", yəni böyük günah etdikdə, **"yaxud özlərinə zülm etdikdə",** yəni bundan kiçik günah etdikdə, **"günahlarının bağışlanmasını diləyərlər"** – Allahdan diləyirlər ki, onları bağışlasın. **"Axı günahları Allahdan başqa kim bağışlaya bilər?"** Yəni Allahdan başqa günahları heç kim bağışlaya bilməz. Əgər bütün yer əhli və göy əhli bir yerə toplaşıb sənin bir günahını bağışlamaq istəsə, bunu əsla edə bilməzlər. Allahdan başqa günahları heç kim bağışlaya bilməz: **"Axı günahları Allahdan başqa kim bağışlaya bilər?"**

"Bir də onlar gördükləri *pis* işlərdə bilə-bilə israr etməzlər". Yəni günah olduğunu bilərək öz günahlarına davam etməzlər. Günah etdikdən sonra bilməyərəkdən həmin günaha davam edərlərsə, Allah onları sorğusual etməz. Uca Allah buyurur: **"Ey Rəbbimiz, unutsaq və ya xəta etsək bizi cəzalandırma!".**[3]

"Onların mükafatı, Rəbbindən bağışlanma və *ağacları və qəsrləri* altından çaylar axan cənnətlərdir ki, orada əbədi qalacaqlar. *Yaxşı* əməl sahiblərinin mükafatı necə də gözəldir".[4] Bu vəsflərə malik şəxslərin Allah yanında mükafatları budur.

Uca Allah buyurur: **"Ey iman gətirənlər! Hamınız Allaha tövbə edin ki, bəlkə nicat tapasınız".**[5]

Uca Allah bunu gözü qorumaq və zinətləri aşkara çıxarmamaqdan sonra qeyd edir.

---

[1] "əl-Əraf" surəsi, 201.

[2] "Ali İmran" surəsi, 135.

[3] "əl-Bəqərə" surəsi, 286.

[4] "Ali İmran" surəsi, 136.

[5] "ən-Nur" surəsi, 31.

Uca Allaha tövbə etmək Ona tərəf qayıtmaq, asilikdən itaətə yönəlmək, şirkdən tövhidə istiqamətlənmək, bidətdən Peyğəmbərin ﷺ Sünnəsinə tərəf getməklə olur. Bu zaman insan Rəbbinə dönür və etdiklərinə peşman olur, əzmkarlıq edir ki, bir daha həmin əmələ dönməyəcək. İzzət və cəlal sahibi Allahdan isə bağışlanma diləyir: **"... bəlkə nicat tapasınız".**

Nicat tapmaq isə tələb olunan qələbəni qazanmaq və qorxulandan yaxa qurtarmaqdır. Hər bir günahdan tövbə etmək vacibdir. Odur ki, günahlara qarşı səhlənkarlıq etmə. Demə ki, bu xəfifdir, Allah onu bağışlayar. Çünki ola bilsin günahlar qəlbdə toplanar və oranı zülmətə çevirər, bununla da xeyir qapıları onun üzünə bağlanar. Allah qorusun. Necə ki, Uca Allah buyurur: **"Xeyr! Onların qəlbini qazandıqları *günahlar* bürümüşdür".**[1] – Bütün günahlardan Allaha tövbə et.

Müəllifin رحمه الله qeyd etdiyi hədisdə Əbu Hureyradan رضي الله عنه nəql olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Kim and içərək: "Lata və Üzzaya and olsun" deyərsə, *ardınca*: "La ilahə illəllah"– desin".**

Lat, müşriklərin cahiliyyə dövründə ibadət etdikləri bütün adıdır. **Üzza** da onun kimi. Uca Allah buyurur: **"Siz *tapındığınız* Lat və Üzzanı gördünüzmü? Həmçinin üçüncü olan Mənatı da?"**[2]

Müşriklər Allaha and içdikləri kimi, onlara da and içir və: "Lata and olsun! Üzzaya and olsun!"– deyirdilər. Bu da ixlasın əksi olan şirkdir. Allahdan başqasına and içən kəs "la ilahə illəllah" desin ki, bir qəbahəti onun ziddi ilə müalicə etsin.

"Kim dostuna: "gəl, qumar oynayaq"– deyərsə, sədəqə versin". Bu da bir şeyin öz ziddi ilə müalicə olunmasıdır.

Qumar, pul müqabilində mərcə deyilir. İnsanlar bunu girov da adlandırırlar. Yəni mərc edirlər ki, filan şey belə olacaq. Beləcə pul və ya qoyun qoyub udurlar. Belə bir söz deyən haram iş görmüş olur. Gərək o, tövbə etsin. Tövbə olaraq da qumardan əldə edə biləcəyi gəlir müqabilində sədəqə versin. Bu da bir şeyin öz ziddi ilə müalicə olunmasıdır. Belə də deyirlər ki, "Kim vacib bir işdə ifrata vararsa, onun dərmanı Allaha tövbə etməsi, çoxlu yaxşı işlər görməsidir ki, bu əməllərlə o, müalicə olunsun. Uca Allahdan diləyirəm ki, bizlərin və sizlərin tövbələrini qəbul etsin, hamımızı sevib razı qaldığı əməllərə müvəffəq etsin.

---

[1] "əl-Mutaffifin" surəsi, 14.

[2] "ən-Nəcm" surəsi, 19-20.

MÜXTƏLİF ÇEŞİDDƏ SEÇİLMİŞ MÖVZULAR KİTABI

Üç yüz yetmişinci fəsil

١٨٠٨– عَن النَّواس بنِ سَمْعانَ ﵁ قالَ: ذَكَرَ رَسُولُ اللَّهِ ﷺ الدَّجَّالَ ذَاتَ غَدَاةٍ، فَخَفَّض فِيهِ، وَرَفَع حَتَّى ظَنَناه فِي طَائِفَةِ النَّخْلِ، فَلَمَّا رُحْنَا إلَيْهِ، عَرَفَ ذلكَ فِينَا فقالَ: « ما شأنكم؟ » قُلْنَا: يَارَسُولَ اللَّهِ ذَكَرْتَ الدَّجَّال الْغَدَاةَ، فَخَفَّضْتَ فِيهِ وَرَفَعْتَ، حَتَّى ظَنَنَّاه فِي طَائِفةِ النَّخْلِ فقالَ: « غَيْرُ الدَّجَالِ أخْوفَنِي عَلَيْكُمْ، إنْ يخْرجْ وأنآ فِيكُمْ، فَأنَا حَجِيجُه دونَكُمْ، وَإنْ يَخْرجْ وَلَسْتُ فِيكُمْ، فكلُّ امريءٍ حَجيجُ نَفْسِهِ، واللَّه خَليفَتي عَلى كُلِّ مُسْلِمٍ. إنَّه شَابٌ قَطَطٌ عَيْنُهُ طَافِيَةٌ، كَأَنِّي أشَبِّهُه بعَبْدِ الْعُزَّى بن قَطَنٍ، فَمَنْ أدْرَكَه مِنْكُمْ، فَلْيَقْرَأْ عَلَيْهِ فَوَاتِحَ سُورةِ الْكَهْفِ، إنَّه خَارِجٌ خَلَّةً بَينَ الشَّامِ وَالْعِرَاقِ، فَعَاثَ يمِيناً وَعاثَ شمالاً، يَا عبَادَ اللَّه فَاثْبُتُوا ». قُلْنَا يا رسول اللَّه ومَالُبْثُه في الأرْضِ؟ قالَ: « أرْبَعُون يَوْماً: يَوْمٌ كَسَنَةٍ، وَيَوْمٌ كَشَهْرٍ، وَيوْمٌ كجُمُعَةٍ، وَسَائِرُ أيَّامِهِ كأَيَّامِكُم ». قُلْنَا: يا رَسُول اللَّه، فَذلكَ الْيَوْمُ الَّذِي كَسَنَةٍ أتكْفِينَا فِيهِ صلاةُ يَوْمٍ؟ قال: « لا، اقْدُرُوا لَهُ قَدْرَهُ ». قُلْنَا: يَارَسُولَ اللَّهِ وَمَا إسْراعُهُ فِي الأرْضِ؟ قالَ: « كَالْغَيْث استَدبَرَتْه الرِّيحُ، فَيَأْتي على الْقَوْم، فَيَدْعُوهم، فَيؤْمنُونَ بِهِ، ويَسْتجيبون لَهُ فَيَأمُرُ السَّماءَ فَتُمْطِرُ، والأرْضَ فَتُنْبِتُ، فَتَرُوحُ عَلَيْهِمْ سارِحتُهُم أطْوَلَ مَا كَانَتْ ذُرى، وَأسْبَغَه ضُرُوعاً، وأمَدَّهُ خَواصِرَ، ثُمَّ يَأْتي الْقَوْمَ فَيَدْعُوهم، فَيَرُدُّون عَلَيهِ قَوْلهُ، فَيَنْصَرف عَنْهُمْ، فَيُصْبحُون مُمْحِلينَ لَيْسَ بأيْدِيهم شَيءٌ منْ أمْوالِهم، وَيَمُرُّ بِالخَرِبَةِ فَيقول لَهَا: أخْرجِي كُنُوزَكِ، فَتَتْبَعُه، كُنُوزُهَا كَيَعَاسِيب النَّحْلِ، ثُمَّ يدْعُو رَجُلاً مُمْتَلِئاً شَباباً فَيضْرِبُهُ بالسَّيْفِ، فَيَقْطَعهُ، جِزْلَتَيْن رَمْيَةَ الْغَرَضِ، ثُمَّ يَدْعُوهُ، فَيُقْبِلُ، وَيَتَهَلَّلُ وجْهُهُ يَضْحَكُ. فَبَينَما هُو كَذلكَ إذْ بَعَثَ اللَّه تَعَالى المسِيحَ ابْنَ مَرْيم ﵇ ، فَيَنْزِلُ عِنْد المَنَارَةِ الْبَيْضَآءِ شَرْقِيَّ دِمَشْقَ بَيْنَ مَهْرُودتَيْنِ، وَاضعاً كَفَّيْهِ عَلى أجْنِحةِ مَلَكَيْنِ، إذا طَأْطَأَ رَأسهُ، قَطَرَ وإذا رَفَعَهُ تَحدَّر مِنْهُ جُمَانٌ كَاللُّؤلُؤ، فَلا يَحِلُّ لِكَافِر يَجِدُّ ريحَ نَفَسِه إلاَّ مات، ونَفَسُهُ يَنْتَهِي إلى حَيْثُ يَنْتَهِي طَرْفُهُ، فَيَطْلُبُه حَتَّى يُدْرِكَهُ بَباب لُدٍّ فَيَقْتُلُه. ثُمَّ يأتي عِيسَى ﵇ قَوْماً قَدْ عَصَمَهُمُ اللَّه مِنْهُ، فَيَمْسَحُ عنْ وُجوهِهِمْ، ويحَدِّثُهُم بِدرَجاتِهم في الجنَّةِ. فَبَينَما هُوَ كَذلِكَ إذْ أوْحَى اللَّه تَعَالى إلى عِيسى ﵇ أنِّي قَدْ أخرَجتُ عِبَاداً لي لا يدانِ لأحَدٍ بقِتَالهمْ، فَحَرِّزْ عِبادي إلى الطُّورِ، وَيَبْعَثُ اللَّه يَأْجُوجَ ومَأجوجَ وَهُمْ مِنْ كُلِّ

حَدِبٍ يَنْسلُون، فيَمُرُّ أوَائلُهُم عَلى بُحَيْرةِ طَبرِيَّةَ فَيَشْرَبون مَا فيهَا، وَيمُرُّ آخِرُهُمْ فيقولُونَ: لَقَدْ كَانَ بهَذِهِ مرَّةً ماءٌ. وَيُحْصَرُ نبي اللَّهِ عِيسَى عليه السلام وَأصْحَابُهُ حَتَّى يكُونَ رأْسُ الثَّوْرِ لأحدِهِمْ خيْراً منْ مائَةِ دِينَارٍ لأحَدِكُمُ الْيَوْمَ، فَيرْغَبُ نبي اللَّه عِيسَى عليه السلام وأَصْحَابُه، رضي الله عنهم ، إلى اللَّهِ تَعَالى، فَيُرْسِلُ اللَّه تَعَالى عَلَيْهِمْ النَّغَفَ في رِقَابِهِم، فَيُصبحُون فَرْسى كَموْتِ نَفْسٍ وَاحِدَةٍ، ثُمَّ يهْبِطُ نبي اللَّه عيسى عليه السلام وَأصْحابهُ ، إلى الأرْضِ، فَلاَ يَجِدُون في الأرْضِ مَوْضِعَ شِبْرٍ إلاَّ مَلأهُ زَهَمُهُمْ وَنَتَنُهُمْ ، فَيَرْغَبُ نبي اللَّه عِيسَى عليه السلام وَأصْحابُهُ إلى اللَّه تَعَالَى، فَيُرْسِلُ اللَّه تَعَالى طيْراً كَأعْنَاقِ الْبُخْتِ، فَتحْمِلُهُمْ، فَتَطرَحُهم حَيْثُ شَآءَ اللَّه، ثُمَّ يُرْسِلُ اللَّه عَزَّ وجَلَّ مطَراً لا يَكِنُّ مِنْهُ بَيْتُ مَدَرٍ ولا وَبَرٍ، فَيَغْسِلُ الأرْضَ حَتَّى يَتْرُكَهَا كالزَّلَقَةِ. ثُمَّ يُقَالُ لِلأرْضِ: أنْبِتي ثَمرَتَكِ، ورُدِّي برَكَتَكِ، فَيَوْمئِذٍ تأكُلُ الْعِصَابَة مِن الرُّمَّانَةِ، وَيسْتظِلون بِقِحْفِهَا، وَيُبارَكُ في الرِّسْلِ حَتَّى إنَّ اللَّقْحَةَ مِنَ الإبِلِ لَتَكْفي الفئَامَ مِنَ النَّاس، وَاللَّقْحَةَ مِنَ الْبَقَرِ لَتَكْفي الْقَبِيلَةَ مِنَ النَّاس، وَاللَّقْحَةَ مِنَ الْغَنمِ لَتَكْفي الفَخِذَ مِنَ النَّاس.فَبَيْنَمَا هُمْ كَذَلِكَ إذْ بَعَثَ اللَّه تَعالَى رِيحاً طَيِّبَةً، فَتأْخُذُهم تَحْتَ آبَاطِهِمْ، فَتَقْبِضُ رُوحَ كُلِّ مُؤمِن وكُلِّ مُسْلِمٍ، وَيبْقَى شِرَارُ النَّاسِ يَتهَارجُون فِيهَا تَهَارُج الْحُمُرِ فَعَلَيْهِم تَقُومُ السَّاعَةُ» رواهُ مسلم.

1808. Nəvvas ibn Səmandan رضي الله عنه belə nəql edilir ki: "Bir gün Peyğəmbər ﷺ Dəccal haqqında danışdı. Onun haqqında gah yavaş, gah da yüksək səslə [elə bir tərzdə] danışdı ki, biz onun *az qala* xurmalıqlarda olduğunu güman etdik. Təkrarən onun yanına gəldiyimiz zaman bizim halımızı görüb soruşdu: **"Sizə nə olub?"** Biz dedik: "Ey Allahın elçisi, bu gün səhər sən Dəccal haqqında gah yavaş, gah da yüksək səslə elə bir tərzdə danışdın ki, biz onun lap xurmalıqlarda olduğunu güman etdik". O ﷺ dedi: **"Sizin üçün Dəccaldan daha çox başqa şeylərdən qorxuram. Əgər mən sizin aranızda ikən o çıxarsa, mən sizə görə onunla mücadilə edəcəm. Yox, əgər mən aranızda olmayan zaman çıxarsa, onda hər kəs özü onunla mücadilə etməlidir. Allah da hər bir müsəlman üçün məni əvəz edəcək. Həqiqətən o, qıvrımsaç, bir gözü əyri, Abduluzza ibn Qatana bənzəyən bir gəncdir. Sizdən kim onu görərsə, "Kəhf" surəsinin əvvəlki ayələrini ona qarşı oxusun. Həqiqətən o, Şam ilə İraq arasındakı bir yolda peyda olacaq və sağa-sola (hər yana) fitnə-fəsad yayacaq. Ey Allahın qulları, dininizdə sabit olun!"**

Biz soruşduq: "Ey Allahın elçisi, o, yer üzərində nə qədər qalacaqdır?" O dedi: **"Qırx gün [qalacaq. Onlardan] bir günü il, bir günü ay, bir günü həftə kimi, digər günləri isə sizin günləriniz kimi olacaqdır"**.

Biz soruşduq: "Ey Allahın elçisi, il kimi olan həmin gündə bizə bir günün namazını qılmaq kifayət edərmi?" O dedi: **"Xeyr, onun üçün [özünüz] vaxt təyin edin!"**

Biz soruşduq: "Ey Allahın elçisi, onun yer üzərində sürətlə hərəkəti necə olacaq?" O dedi: **"Küləyin qovduğu yağış buludlarının [sürəti] kimi. O, bir qövmün yanına gəlib onları çağıracaq, onlar da ona iman gətirəcək və ona boyun əyəcəklər. O zaman o göyə əmr edəcək və [göy dərhal] yağış yağdıracaq, yer də onun əmri ilə bitkilər bitirəcəkdir. [O qövmün] otlağa çıxmış heyvanları axşam otlaqdan hörgücləri heç vaxt olmadığı kimi hündür, məmələri südlə dolu və böyürləri uzadılmış halda geri qayıdacaqlar. Sonra o, [digər] bir qövmün yanına gəlib onları çağıracaq. [Ancaq həmin qövm] onun sözünü rədd edəcəkdir. O, [həmin qövmdən] üz çevirib getdikdən sonra onlara quraqlıq üz verəcək, əllərində olan bütün mal-dövlətləri tələf olacaqdır. O bir xarabalığın yanından keçəndə ona: "Öz xəzinələrini üzə çıxart!"– deyəcək, [bal arılarının] başçı arının ardınca düşdükləri kimi, oranın xəzinələri də onun ardınca düşəcəklər. Sonra o, gəncliyinin bahar çağında olan cavan bir oğlanı çağıracaq və onu qılıncla vurub iki hissəyə böləcəkdir. Onun bədəninin hissələri atılan oxun hədəfə çatdığı məsafə qədər bir-birindən ayrılacaqlar. Sonra o, [ikiyə böldüyü həmin cavan oğlanı] çağıracaq, o da [həmin anda dirilib] üzü gülə-gülə onun yanına gələcəkdir.**

Bu vaxt Uca Allah Məryəm oğlu Məsihi göndərəcəkdir. O, iki sarı paltara bürünmüş və əllərini iki mələyin qanadlarına qoyaraq Dəməşqin şərqindəki ağ minarəyə enəcəkdir. O, başını aşağı saldıqda [saçından] su damcıları, [başını] qaldırdıqda isə inci tək mirvarilər düşəcəkdir. Onun nəfəsinin qoxusunu hiss edən hər bir kafir mütləq öləcəkdir. Onun nəfəsi gözünün gördüyü məsafəyə qədər çatacaqdır. [İsa Dəccalı] axtaracaq və onu Ludd qapısının yanında yaxalayaraq öldürəcək.

Sonra Məryəm oğlu İsa Allahın [Dəccalın şərindən] qoruduğu bir qövmün yanına gələcək, əlini onların üzünə sürtəcək və onların Cənnətdəki dərəcələrini söyləyəcəkdir. Elə o vaxt Allah İsaya belə vəhy edəcək:

"Mən qullarımı *üzə* çıxardıram. Onlarla vuruşmağa heç kəsin gücü çatmaz. Qullarımı Tur [dağına] sığındır!"

Allah Yəcuc və Məcuc [tayfalarını] göndərəcək və onlar təpələrdən axışıb gələcəklər. Onların birinciləri Tabəriyyə gölündən keçərək onun suyunu içəcək, axırıncıları isə oradan keçərək belə deyəcəklər: "Nə vaxtsa burada su var idi".

Allahın peyğəmbəri İsa ﷺ və onun səhabələri mühasirədə o qədər qalacaqlar ki, hətta onlardan biri üçün öküz başı bu gün sizdən biriniz üçün yüz dinardan daha xeyirli olacaqdır. Bundan sonra Allahın peyğəmbəri İsa ﷺ və onun səhabələri dua edəcəklər və Allah [Yəcuc və Məcuc tayfalarının] boyunlarına qurdlar göndərəcək və səhəri hamısı bir nəfər kimi öləcəklər. Bundan sonra Allahın peyğəmbəri İsa və onun səhabələri *dağdan* yerə enəcəklər. Onlar yer üzündə [Yəcuc və Məcuc tayfalarının cəsədlərinin] piylərindən və çürüntülərinin qoxusundan bir qarış belə olsun yer tapa bilməyəcəklər. Belə olduqda Allahın peyğəmbəri İsa ﷺ və onun səhabələri dua edəcəklər və Allah onların üzərinə dəvələrin boyunlarına bənzər [uzun boylu] quşlar göndərəcək. [Quşlar cəsədləri] götürüb Allahın istədiyi yerə aparacaqlar. Sonra Allah gildən düzəldilmiş heç bir evin qoruna bilməyəcəyi [güclü] yağış göndərəcəkdir. [Yağış] yer üzündə [nə varsa] yuyub aparacaq, hətta [yer üzünü] güzgüyə bənzər bir halda tərk edəcəkdir.

Sonra yer üzünə: «Meyvələrini bitir və bərəkətini ver!»– deyiləcək. Həmin gün bir dəstə insan bir dənə narı yeyib doyacaq və onun qabığı altında kölgələnəcək. Süd isə (o qədər) bərəkətli olacaqdır ki, bir dəvənin südü bir dəstə insana kifayət edəcəkdir. Bir inəyin südü bir qəbiləyə, bir qoyunun südü isə bir neçə ailəyə kifayət edəcəkdir.

Sonra Uca Allah xoş bir külək göndərəcək. Həmin külək [möminləri] qoltuqlarının altından yaxalayacaq və hər bir möminin və müsəlmanın ruhunu [özü ilə] aparacaqdır. [Yer üzündə] insanların ən şər olanları qalacaq və orada eşşəklər kimi cinsi əlaqədə olacaqlar. Qiyamət saatı da belələrinin üzərində qopacaqdır".

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

[1] "Səhih Muslim", 5228.

Şərh:

Müəllif Hafiz ən-Nəvəvi ﷺ "Salehlər bağçası" əsərinin sonunda **"Müxtəlif çeşiddə seçilmiş mövzular"** kitabını qeyd etmişdir.

[Kitabın ərəbcə başlığındakı] "əl-mənsurat" bir deyil, müxtəlif mövzular, "əl-muləh" isə seçilmişlər deməkdir.

Sonra o ilk olaraq Dəccal və Qiyamətin əlamətlərini qeyd etmişdir.

Dəccal, çox yalan danışan deməkdir. Yəni dəccal çoxlu yalan danışan, yalnız yalanla vəsf olunan bir zatdır.

Qiyamətin əlamətləri, Qiyamətə yaxın vaxtda baş verən hadisələrdir. Uca Allah buyurur: **"Yoxsa *kafirlər Qiyamət* saatının qəfildən onlara gəlməsindən başqa bir şeymi gözləyirlər?! Artıq onun əlamətləri gəlmişdir. O *saat* onlara gəlib yetişdiyi zaman ibrət almaları nəyə yarayar?!".**[1] Yəni onun əlamətləri yaxındır.

Sonra müəllif ﷺ Nəvvas ibn Səmandan nəql olunan uzun bir hədisi qeyd etmişdir. Hədisdə deyilir ki, günlərin bir günü Peyğəmbərin ﷺ yanında Dəccaldan söhbət açıldı, o da onun haqqında gah yavaş, gah da yüksək səslə danışdı. Yəni onun barəsində uzun-uzadı danışdı. Hətta onlar elə zənn etdilər ki, o, *yaxınlıqdakı* xurmalıqdadır. Dedi: **"Sizin üçün Dəccaldan daha çox başqa şeylərdən qorxuram"**. Onlardan biri də riyadır. Belə ki, Peyğəmbər ﷺ demişdir: **"Sizin üçün ən çox qorxduğum şey gizli şirkdir".** Ondan bu haqda soruşulduqda o dedi ki, bu riyadır. İnsanın öz ibadətini özünü göstərərək etməsi, özünü göstərərək sədəqə verməsi, özünü göstərərək əxlaqlı olmasıdır. Bunlar riyakarlıqdır. Allah qorusun.

Riyakarlıq edənin əməlləri batil olur. Riya münafiqlərin əlamətlərindəndir. Uca və Böyük Allah buyurur: **"Doğrusu, münafiqlər Allahı aldatmağa çalışırlar. Halbuki *Allah* onları aldadır. Onlar namaza durarkən könülsüz qalxar, özlərini camaata göstərər və Allahı olduqca az yad edərlər".**[2]

Ey riyakarlıq edən kəs, bil ki, Allah səni ifşa edəcəkdir. Belə ki, Peyğəmbər ﷺ demişdir: **"Kim özünü insanlara eşitdirərsə, Allah onu ifşa edər. Kim özünü göstərərsə, Allah onu ifşa edər".**

---

[1] "Muhəmməd" surəsi, 18.

[2] "ən-Nisa" surəsi, 142.

Sonra dedi: **"Əgər mən sizin aranızda ikən o çıxarsa, mən sizə görə onunla mücadilə edəcəm".** Yəni mən sizin aranızda ola-ola Dəccal meydana çıxarsa, mən ona qarşı kifayət edərəm. Əgər mən olmadıqda çıxarsa, o zaman hər kəs özü qorunmalıdır. Yəni hər kəs öz nəfsini hesaba çəksin. Allah möminlərə görə digər insanları qoruyar. İzzət və cəlal sahibi Allah özü möminlərə yardım edər, onları Dəccalın fitnəsindən qoruyar. O elə bir fitnədir ki, Adəm yaradılandan Qiyamət saatınadək ondan böyüyü olmayacaqdır. Allah bizləri və sizləri onun fitnəsindən qorusun. Müvəffəq edən Allahdır.

Müəllifin Nəvvas ibn Səmandan rəvayət etdiyi hədisdə Dəccal belə təsvir olunur: "**Həqiqətən o, qıvrımsaç, bir gözü əyri, Abduluzza ibn Qatana bənzəyən bir gəncdir**".

Gənc, yəni Adəm övladı.

[Hədisin ərəbcəsində keçən] "qitat", yəni xilqətcə yığcam.

"Bir gözü əyri", yəni həmin gözü kordur. Peyğəmbər ﷺ onun barəsində demişdir ki, o, kor və xəbis biridir.

İzzət və cəlal sahibi Allah onu insanlara imtahan olaraq göndərəcək. O insanları dəvət edəcək və rəbb olduğunu deyəcək, Allah da ona bunun üçün imkan verəcək. O gəlib insanları dəvət edəcək, insanlar da onun dəvətini qəbul edəcəklər. Səmaya əmr edəcək, yağış yağacaq, əmr edəcək, yerdən bitki bitəcək, insanlar da gözləri buna şahid olacaqlar. Deyəcək: "Ey səma, yağış yağdır!", yağış yağacaq, "Ey yer, bitki bitir!", bitki bitəcək. Lakin bunlar onun qüdrəti və gücü ilə deyil, izzət və cəlal sahibi Allahın istəyi ilə baş verəcək. Çünki Allah ona imtahan üçün buna imkan yaratmışdır: "**[O qövmün] otlağa çıxmış heyvanları axşam otlaqdan hörgücləri heç vaxt olmadığı kimi hündür, məmələri südlə dolu və böyürləri uzadılmış halda geri qayıdacaqlar**". Yəni heyvanlar kökələcək, qarınları və məmələri dolacaq, özlərini də piy bağlayacaq.

"Sonra o, [digər] bir qövmün yanına gəlib onları çağıracaq. [Ancaq həmin qövm] onun sözünü rədd edəcəkdir. O, [həmin qövmdən] üz çevirib getdikdən sonra onlara quraqlıq üz verəcək, əllərində olan bütün mal-dövlətləri tələf olacaqdır". Lakin əcr və savab qazananlar da məhz onlar olacaqlar. Onların aqibəti gözəl olacaqdır. Yağış yağdırması və bitki bitirməsinə görə Dəccala iman edənlər isə özlərini qalib hesab etsələr belə, xəsarətə uğrayacaqlar. Sonra o, binasız və insansız viranə qalmış bir yerə

gəlib: "Ey yer, xəzinəni çıxar!" deyəcək, yer də içərisindəki xəzinəni və mədənləri – qızıl, gümüş və başqa sərvətləri çıxaracaq. Xurma barları da həmçinin.

O, yer üzündə qırx gün qalacaq. Birinci günün uzunluğu 360 gün, ikinci günün uzunluğu 30 gün, üçüncü günün uzunluğu bir cümə, yəni bir həftədir. Qalan otuz yeddi gün isə adi günlər qədər olacaq.

Peyğəmbərin ﷺ söhbətinin bu yerində izzət və cəlal sahibi Allah səhabələrə ilham verdi, onlar da soruşdular: "Ey Allahın elçisi, il kimi olan həmin gündə bizə bir günün namazını qılmaq kifayət edərmi?" O dedi: **"Xeyr, onun üçün [özünüz] vaxt təyin edin!"** Yəni bir ilin namazını bir gündə kamil qılın. Bu da başlayan tələbələrə tapmaca kimi verilən suallardandır. Deyirlər ki, bir insana bir gün ərzində bir ilin namazı vacibdir. Həmçinin bir gündə illik zəkatı vacib olur. Ramazan orucunu da həmin günün on ikidə biri qədər tutur. O hansı gündür? Deyirik: Bu, Dəccalın günüdür. Nöqsansız Allah hikmət Sahibidir. Allaha həmd olsun ki, O, öz dinini – bu dini peyğəmbərlərin ağasının ﷺ vəfatından öncə bizlər üçün kamil etmişdir. Allah səhabələri bu sualı vermək üçün dilə gətirmişdir: "Həmin gündə bizə bir günün namazını qılmaq kifayət edərmi?" Bunda bizim üçün böyük bir fayda vardır.

Hal-hazırda yer üzündə elə yerlər vardır ki, onların bir günü altı aya, bir gecəsi də altı aya bərabərdir. Şimal qütbündə altı ay günəşli olur, növbəti altı ay ərzində isə onlar günəşi görmürlər. Onlar da namazlarını Dəccalın günündəki kimi təqdir edirlər.

Dəccalın günlərinin ikincisi bir aya bərabərdir. Həmin gün bir ayın namazı qılınmalıdır. Üçüncü gün bir həftənin namazına bərabərdir. Dördüncü gündən sonra isə adi günlər kimi qılır.

Sonra səhabələr onun yer üzərində gəzməsi barədə soruşurlar ki, onun yerimək sürəti dəvə ilə və ya ayaqla gəzinti kimidirmi? Dedi: "**Küləyin qovduğu yağış buludlarının [sürəti] kimi**". Daha doğrusunu Allah bilir ki, bu necə baş verəcək. Yəni Allah ona, məsələn, təyyarələrə bənzər cihazlarmı verəcək, yoxsa yox? Peyğəmbərin ﷺ xəbər verdiyi yağmura bənzərliyin keyfiyyəti bilinmir.

Sonra onun fitnəsindən – Allah bizləri onun fitnəsindən qorusun! – belə söhbət açır ki, müsəlmanlardan bir gənc onun yanına gəlib deyir ki: "Mən şahidlik edirəm ki, sən Peyğəmbərin ﷺ xəbər verdiyi Dəccalsan".

Dəccal da onu qılıncla iki hissəyə elə bölür ki, onların biri o birindən uzağa düşür. Onu iki hissəyə ayırdıqdan sonra çağırır ki, ey filankəs, həmin adamın da iki hissəyə parçalanmış cəsədi birləşir. O da dirilib sanki heç bir şey olmamış kimi, Dəccala üz tutub deyir ki: "Allaha and olsun ki, mən şahidəm ki, sən Məsihi Dəccalsan. Mən səni daha yaxşı tanıdım". Sonra Dəccal onu ikinci dəfə öldürür və yenə iki hissəyə ayırır. Sonra yenə çağırır və onun bədəni birləşir və yenə ona üz tutur. Üçüncü dəfə də onu öldürmək istəyir, ancaq öldürə bilmir.

Bütün bunlar Dəccalın fitnəsindəndir. Şəkk yoxdur ki, insan bunu gördükdə sevinir.

Sonra Uca Allah öz elçisi İsa ibn Məryəmi عليه السلام iki mələyin qanadları üzərində yerə nazil edəcək. Mələklər qanadlı olurlar. İsa عليه السلام hal-hazırda səmada diridir, Qiyamətdən əvvəl yer üzünə qayıdaraq Dəccalı qətlə yetirəcək. Daha doğrusunu Allah bilir, sanki indicə ətirlə qüsl etmişdir – başını sağa-sola çevirdikcə başından su damcılayır, başını qaldırdıqda isə başından su tökülür. Bunun ya su, ya da tər olduğu ehtimal olunur. Daha doğrusunu Allah bilir.

Sonra o, məkrli, xəbis, kor Dəccalı axtaracaq. İsanın nəfəsinin küləyi dəyən hər bir kafir öləcək. Sübhanallah! Onun nəfəsi özü boyda məsafəyə çatır. Bu da Allahın möcüzələrindəndir. Yəni bizim nəfəsimiz bir qarışdan o yana keçmir. Onun nəfəsi isə özü boyda məsafəni əhatə edəcəkdir. Bu da o anlama gəlir ki, o, çox sayda kafirləri öldürəcəkdir. Çünki həmin nəfəs havada yayılacaq, onu duyan hər bir kafir öləcəkdir. O, Dəməşqin şərqindəki "Ağ minarə"nin yanına nazil olacaqdır. Peyğəmbər ﷺ onu belə vəsf etmişdir. Bu da o nazil olduğu vaxt olmalıdır. O Dəccalı axtarıb Ludd qapısı yanında tapacaq. Həmin qapı isə Fələstindədir və hal-hazırda yəhudi işğalındadır. Qiyamətədək Allahın lənəti onların üzərinə olsun! İsa Dəccal məsihi orada tapıb öldürəcəkdir. Beləcə Dəccal məsih məhv olacaq, İsa Məsih isə sağ qalacaqdır. Müvəffəq edən Allahdır.

Sonra İsa ibn Məryəm عليه السلام izzət və cəlal sahibi Allahın Dəccalın fitnəsindən qoruduğu bir qövmün yanına gəlib əlini onların üzünə sürtəcək və onları Cənnətlə müjdələyəcəkdir. Onlar bu vəziyyətdə ikən izzət və cəlal sahibi Allah İsaya vəhy edəcək ki, Mən qullarımdan elələrini üzə çıxarmışam ki, heç kəs onlarla bacara bilməz. Onlar qüdrətli qullardır. **"Göylərdə**

və yerdə olanların hamısı Mərhəmətli *Allahın* hüzuruna ancaq bir qul kimi gələcək".[1]

Həmin qullar Yəcuc və Məcuc tayfalarıdır. Onlar hər tərəfdən, hər bir yüksəklikdən enəcəklər. Çünki onlar yüksəkliklərə və vadilərə sığmırlar. Onlar da dağlara qalxıb aşağı enəcəklər. Onlar nə cin, nə də başqa bir məxluq deyil, məhz Adəm övladıdırlar. Buna dəlil Peyğəmbərin ﷺ bu sözüdür: **"Uca Allah Qiyamət günü deyəcəkdir: "Ey Adəm!" O da deyəcək: "Buyur, hüzurundayam". Allah ona deyəcək: "Zürriyyətindən bir toplumu Cəhənnəmə çıxar". O deyəcək: "Cəhənnəmə bir toplum nədir?" Allah deyəcək: "Adəm övladının hər min nəfərindən doqquz yüz doxsan doqquzu"**. Yəni bütün bunlar Cəhənnəmə gedəcək, yalnız bir nəfər Cənnətə gedəcək. Bu xəbər səhabələrə olduqca ağır gəldi. Dedilər: "Ey Allahın elçisi, o bir nəfər kimlərdir?" Peyğəmbər ﷺ dedi: **"Sevinin, siz elə iki ümmətlə qarşılaşacaqsınız ki, onlar çoxluq təşkil edəcəklər. *Onlar* Yəcuc və Məcuc *tayfalarıdır.* Sizdən bir nəfər, onlardan min nəfər *nisbətindədir***". Səhabələr buna görə çox sevindilər. Sonra o dedi: **"Ümid edirəm ki, sizlər Cənnət sakinlərinin dörddə birini təşkil edəcəksiniz".** Səhabələr də izzət və cəlal sahibi Allahın bu nemətinə görə sevinərək təkbir etdilər. Sonra o dedi: **"Ümid edirəm ki, sizlər Cənnət sakinlərinin üçdə ikisini təşkil edəcəksiniz".**[2] Bu üçüncü barədə mən şübhələnirəm. Lakin Peyğəmbərdən ﷺ varid olmuşdur ki: **"Şübhəsiz ki, Cənnət əhli yüz iyirmi sinif olacaqdır. Onlardan səksən sinif bu ümmətdəndir".**

Deməli, Yəcuc və Məcuc Adəm övladlarıdır, onlar insan şəklindədirlər və onlardan seçilmirlər. Bəzi mənbələrdə onların olduqca qısaboy və ya uzunboy olmalarına, qulaqlarının sallanaraq digərinə çatması xəbərinə gəlincə bunlar səhih deyil. Onlar Adəm övladıdırlar və onlar kimidirlər. Lakin onlar çoxsaylı bir ümmətdir. Uca Allah buyurur: **"Nəhayət, Yəcuc və Məcuc *səddi* açıldığı və onlar təpələrdən axışıb gəldikləri zaman...".**[3] Yəni bütün təpələrdən. Belə ki, onlar düzənliyə sığmırlar. Onlar sürətlə insanların üstünə gələcəklər. İzzət və cəlal sahibi Allah İsaya buyuracaq: **"Mən qullarımı *üzə* çıxardıram. Onlarla vuruşmağa heç kəsin gücü çatmaz. Qullarımı Tur [dağına] sığındır!"**

---

[1] "Məryəm" surəsi, 93.

[2] "Səhih əl-Buxari", 3099; "Səhih Muslim", 327.

[3] "əl-Ənbiya" surəsi, 96.

Tur, məlum bir dağın adıdır. İsa və onun tərəfdarları Tur dağına sığınacaqlar. Onlara elə bir aclıq və çətinlik üz verəcək ki, birisi bir öküz başı üçün çoxlu dinarlar vermək istəyəcək. Bu zaman İsa və qövmü izzət və cəlal sahibi Allaha rəğbət bəsləyəcək, Ondan diləyəcəklər ki, bütün dağlarda onları mühasirəyə almış bu qövmləri onlardan uzaqlaşdırsın. Sonra Uca Allah qurdlar göndərəcək. Qurdlar onların boyunlarına çıxacaq, onlar da öləcəklər. Saysız-hesabsız olan bu qövm bir gecə ərzində öləcək. Çünki işlər izzət və cəlal sahibi Allahın əlindədir. Bu həşərat da onların boynuna qonan kimi öləcəklər.

Sonra İsa ibn Məryəm və onun qövmü yerə enəcək. Həmin vaxt yer üzü cəsədlərlə və onların üfunətli iyi ilə dolu olacaq. İsa və qövmü izzət və cəlal sahibi Allahdan diləyəcəklər ki, onları bundan da xilas etsin. Allah böyük, güclü dəvənin boynu kimi uzunboğazlı quşlar göndərəcək, onlar da cəsədləri götürüb dənizə atacaqlar. Yəni bunlar olduqca böyük quşlar olacaq. Onların necəliyini izzət və cəlal sahibi Allahdan başqa heç kim bilmir. Bütün bunlar izzət və cəlal sahibi Allahın qüdrəti ilə baş verəcək. O, bir şeyin baş verməsini istədikdə ona: "Ol!"– deyər, o da olar. Odur ki, təəccüblənmə, demə ki, quşlar haradan gəldi, necə yarandı. Şübhəsiz ki, Allah hər şeyə Qadirdir.

Lakin buna baxmayaraq yer üzündə həmin cəəsdlərin üfunəti və pis qoxusu yenə qalacaq. Uca Allah güclü yağış göndərəcək və o, yeri yuyacaq. Şəhərlərdə və çöllükdə olan evlər, bütün yer üzü su ilə yuyulacaq. Beləcə yer üzü izzət və cəlal sahibi Allahın izni ilə təmizlənəcək. Allah yerə əmr edəcək ki, yer öz bərəkətini üzə çıxarsın. Yerdən böyük məhsullar çıxacaq, xeyir və bolluq olacaq. Elə bir bolluq ki, dəvənin bir parçası böyük bir topluma, inəyin bir parçası böyük bir qəbiləyə, qoyunun bir parçası böyük bir insan toplumuna bəs edəcək. Əslində onlar eyni olacaq, lakin Uca Allah onlara bərəkət nazil edəcək və daha çox insana bəs edəcək. Xeyir və bərəkət artacaq. Bütün bunlar da izzət və cəlal sahibi Allahın qüdrətinin böyüklüyünə dəlalət edir: **"Şübhəsiz ki, hər bir çətinlikdən sonra bir asanlıq gəlir, hər bir çətinlikdən sonra bir asanlıq gəlir".**[1] Baxın, əvvəlcə onlar Tur dağında mühasirədə idilər. *Əlacsızlıqdan yeməyə* öküz başı belə tapmırdılar, yerdən də bir şey bitmirdi. Sonra isə onlara bol məhsul və

[1] "əş-Şərh" surəsi, 5-6.

bərəkət nazil olur. Bütün bunlar izzət və cəlal sahibi Allahın əmri ilə baş verir. Müvəffəq edən Allahdır.

١٨٠٩– وَعَنْ رِبْعِيّ بْنِ حِرَاشٍ قَال: انْطَلَقْتُ مَعَ أبي مسْعُودٍ الأنْصارِيّ إلى حُذَيْفَةَ بْنِ الْيَمَانِ ﵄ فَقَالَ لَهُ أبُو مسعودٍ، حَدِّثْني مَا سمِعْت مِنْ رَسُولِ اللَّه ﷺ، في الدَّجَّال قالَ: « إنَّ الدَّجَّالَ يَخْرُجُ وَإنَّ مَعَهُ ماءً وَنَاراً، فَأَمَّا الَّذِي يَرَاهُ النَّاسُ ماءً فَنَارٌ تُحْرِقُ، وَأَمَّا الَّذِي يَرَاهُ النَّاسُ نَاراً، فَمَاءٌ بَارِدٌ عذْبٌ، فَمَنْ أدْرَكَهُ مِنْكُمْ، فَلْيَقَعْ في الذي يَراهُ نَاراً، فَإنَّهُ ماءٌ عَذْبٌ طَيِّبٌ » فَقَالَ أبُو مَسْعُودٍ: وَأنَا قَدْ سَمِعْتُهُ. متَّفَقٌ عَلَيْهِ.

1809. Ribi ibn Hiraş nəql edir ki, bir dəfə mən Əbu Məsud əl-Ənsari ilə birlikdə Huzeyfə ibn əl-Yəmənin ﵁ yanına getdim. Əbu Məsud ona dedi: "Rəsulullahdan ﷺ Dəccal haqqında eşitdiklərindən mənə danış". O dedi: **"Dəccal çıxdıqda onun suyu və odu olacaq. İnsanların su kimi gördükləri yandıran od, onların od kimi gördükləri isə duru və sərin su olacaq. Sizlərdən kim onları görsə, od kimi gördüyünə getsin. O, duru və sərin sudur".** Əbu Məsud dedi: "Bunu mən də eşitmişəm".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٨١٠– وعَنْ عَبْدِ اللَّهِ بن عَمْرو بن العاص ﵄ قالَ: قَالَ رَسُولُ اللَّه ﷺ: « يخْرُجُ الدَّجَّالُ في أمَّتي فَيَمْكُثُ أربَعِينَ، لا أدْري أرْبَعِينَ يَوْماً، أو أرْبَعِينَ شَهْراً، أوْ أرْبَعِينَ عَاماً، فَيبْعثُ اللَّه تَعالى عِيسَى ابْنَ مَرْيمَ ﵇ فَيَطْلُبُهُ فَيُهْلِكُه، ثُمَّ يَمْكُثُ النَّاسُ سبْعَ سِنِينَ لَيْسَ بَيْنَ اثْنَيْنِ عدَاوَةٌ. ثُمَّ يُرْسِلُ اللَّه، عزَّ وجَلَّ، ريحاً بارِدَةً مِنْ قِبلِ الشَّامِ، فَلا يبْقَى على وَجْهِ الأرْضِ أحَدٌ في قَلْبِهِ مِثْقَالُ ذَرَّةٍ مِنْ خَيْرٍ أوْ إيمَانٍ إلاَّ قَبَضَتْهُ، حتَّى لَوْ أنَّ أحَدَكُمْ دخَلَ في كَبِدِ جَبلٍ، لَدَخَلَتْهُ عَلَيْهِ حَتَّى تَقْبِضَهُ. فَيَبْقَى شِرَارُ النَّاسِ في خِفَّةِ الطَّيْرِ، وأحْلامِ السِّباعِ لا يَعْرِفُون مَعْرُوفاً، وَلا يُنْكِرُونَ مُنْكَراً، فَيَتَمَثَّلَ لهُمُ الشَّيْطَانُ، فَيقُولُ: ألا تسْتَجِيبُون؟ فَيَقُولُونَ: فَما تأمُرُنَا؟ فَيَأمرُهُم بِعِبَادةِ الأوْثَانِ، وهُمْ في ذلكَ دارٌّ رِزْقُهُمْ، حسنٌ عَيْشُهُمْ. ثُمَّ يُنْفَخُ في الصَّور، فَلا يَسْمعُهُ أحَدٌ إلاَّ أصْغى لِيتاً ورفع ليتاً، وَأوَّلُ منْ يسْمعُهُ رَجُلٌ يلُوطُ حَوْضَ إبِله، فَيُصْعقُ ويسعق النَّاسُ حوله، ثُمَّ يُرْسِلُ اللَّه أوْ قالَ: يُنْزِلُ اللَّه مَطَراً كأَنَّهُ الطَّلُّ أو الظِّلُّ، فَتَنْبُتُ مِنْهُ

[1] "Səhih əl-Buxari", 3194; "Səhih Mulsim", 5225.

أجْسَادُ النَّاس ثُمَّ ينفخ فِيهِ أخْرَى فإذا هُمْ قِيامٌ يَنْظُرُون. ثمَّ يُقَالُ يا أيهَا النَّاسُ هَلُمَّ إلى رَبِّكُم، وَقِفُوهُمْ إنَّهُمْ مَسْؤولونَ، ثُمَّ يُقَالُ: أخْرِجُوا بَعْثَ النَّارِ فَيُقَالُ: مِنْ كَمْ؟ فَيُقَالُ: مِنْ كُلِّ ألْفٍ تِسْعَمِائة وتِسْعةَ وتِسْعينَ، فذلكَ يْوم يجْعَلُ الْوِلْدانَ شِيباً، وذَلكَ يَوْمَ يُكْشَفُ عنْ ساقٍ » رواه مسلم.

« اللِّيتُ » صَفْحَةُ العُنُقِ، وَمَعْنَاهُ: يضَعُ صفْحَةَ عُنُقِهِ ويَرْفَعُ صَفْحتهُ الأخْرَى.

1810. Abdullah ibn Amr ibn əl-Asdan رضي الله عنهما rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Dəccal mənim ümmətimdə üzə çıxacaq və qırx qalacaq – bilmirəm, qırx gün, qırx ay, yoxsa qırx il. Sonra Uca Allah İsa ibn Məryəmi عليه السلام göndərəcək, o da Dəccalı tapıb öldürəcək. Sonra yeddi il insanlar arasında heç bir ədavət olmayacaq. Sonra izzət və cəlal sahibi Allah Şam tərəfdən soyuq bir külək əsdirəcək. Bu külək qəlbində zərrə qədər iman və xeyir olan hər kəsin canını alacaq. Hətta biriniz dağın içərisindəki mağarada olsa belə, həmin külək onu haqlayacaq. Yer üzərində yalnız pis insanlar və yaxşılıq və ya pislik bilməyən vəhşi heyvanlar qalacaq. Şeytan onlara görsənib deyəcək: "Cavab verməyəcəksinizmi?" Deyəcəklər: "Bizə nə əmr edirsən?" Onlara əmr edəcək ki, bütlərə ibadət etsinlər. Həmin vaxt onlar ruzi bolluğu və firavanlıq içərisində olacaqlar.**

Sonra sur çalınacaq. Onu eşidən hər kəs bir üzünü yerə, o birini isə göyə çevirəcək. Onu eşidən ilk adam dəvəsinin yüyənini düzəldən bir adam olacaq. O dəhşətə gələcək, insanları da dəhşət bürüyəcək. Sonra Allah kölgəyə bənzər bir yağmur göndərəcək. İnsanların cəsədləri yerdən bitib çıxacaq. Sonra növbəti sur çalınacaq və onlar qalxıb baxacaqlar.

Sonra deyiləcək: "Ey insanlar, Rəbbinizə tərəf gəlin!", "Onları saxlayın, onlar sorğu-sual olunacaqlar". Sonra deyiləcək: "Cəhənnəm əhlini çıxarın". Soruşulacaq: "Neçə nəfər?" Deyiləcək: "Hər min nəfərdən doqquz yüz doxsan doqquzunu". Həmin gün uşaqların saçı ağaracaq. Həmin gün baldır açılacaq".

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

[Hədisin ərəbcəsində keçən] "əl-leyt" sözünün mənası boynun tərəfidir. Yəni boynunun bir tərəfini yerə qoyub digər tərəfini qaldıracaq.

[1] "Səhih Muslim", 5233.

١٨١١– وَعَنْ أَنَسٍ ﷺ قَالَ: قَال رَسُولُ اللَّه ﷺ: « لَيْسَ مِنْ بَلَدٍ إلاَّ سَيَطَؤُهُ الدَّجَّالُ إلاَّ مَكَّةَ والمَدينة، ولَيْسَ نَقْبٌ مِنْ أنْقَابِهما إلاَّ عَلَيْهِ المَلائِكَةُ صَافِّينَ تحْرُسُهُما، فَيَنْزِلُ بالسَّبَخَةِ، فَتَرْجُفُ المدينةُ ثلاثَ رَجَفَاتٍ، يُخْرِجُ اللَّه مِنْهَا كُلَّ كَافِرٍ وَمُنَافِقٍ» رواه مسلم.

1811. Ənəsdən ﷺ nəql olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Dəccal Məkkə və Mədinədən başqa hər yerdə olacaq – Məkkə ilə Mədinənin hər yerini mələklər qoruyacaq. O Səbxa adlı yerə enəcək. Bu zaman Mədinə üç dəfə əsəcək və Allah bütün kafir və münafiqləri oradan çıxaracaq"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٨١٢– وعَنْهُ ﷺ أنَّ رسُولَ اللَّه ﷺ قَالَ: « يَتْبعُ الدَّجَّال مِنْ يهُودِ أصْبهَانَ سَبْعُونَ ألْفاً علَيْهِم الطَّيَالِسة » رواهُ مسِلمٌ.

1812. Yenə Ənəsdən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Xorasandan yetmiş min yəhudi Dəccala qoşulacaq. Onların üzərində örtüklər olacaq"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١٨١٣– وعَنْ أمِّ شَرِيكٍ ﷺ أنَّها سمِعتِ النبي ﷺ يَقُولُ: « ليَنْفِرَن النَّاسُ مِنَ الدَّجَّالِ في الجِبَالِ » رَوَاهُ مُسْلِمٌ.

1813. Ummu Şərik ﷺ rəvayət edir ki, mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: **"İnsanlar Dəccaldan dağlara qaçacaqlar"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[3]

١٨١٤– وعَن عِمْرَانَ بنِ حُصَيْنٍ ﷺ قالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: « مَا بَيْنَ خَلْقِ آدَم إلى قِيامِ السَّاعةِ أمْرٌ أكْبرُ مِنَ الدَّجَّالِ » رواه مسلم.

1814. İmran ibn Husayn ﷺ nəql edir ki, mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Adəm yaranandan Qiyamət saatınadək Dəccalın gəlişindən böyük bir hadisə olmamışdır".**

Bu hədisi Muslim rəvayət etmişdir.[4]

---

[1] "Səhih Muslim", 5236.

[2] "Səhih Muslim", 5237.

[3] "Səhih Muslim", 5238.

[4] "Səhih Muslim", 5239.

١٨١٥– وعنْ أبي سَعِيدٍ الخُدْرِيِّ ﷺ عَنِ النبي ﷺ قال: « يخْرُجُ الدَّجَّالُ فَيتَوَجَّه قِبَلَه رَجُلٌ منَ المُؤمِنين فَيَتَلَقَّاهُ المَسالح: مسالحُ الدَّجَّالِ، فَيقُولُونَ له: إلى أيْنَ تَعمِدُ؟ فيَقُول: أعْمِدُ إلى هذا الَّذي خَرَجَ، فيقولُون له: أو ما تُؤْمِن بِرَبِّنَا؟ فيقول: ما بِرَبنَا خَفَاء، فيقولُون: اقْتُلُوه، فيقُول بعْضهُمْ لبعضٍ: أَلَيْس قَدْ نَهاكُمْ رَبُّكُمْ أنْ تقتلوا أحداً دونَه، فَينْطَلِقُونَ بِهِ إلى الدَّجَّالِ، فَإذا رآه المُؤْمِنُ قال: يَا أيُّهَا النَّاسُ إنَّ هذا الدَّجَّالُ الَّذي ذَكَر رَسُولُ اللَّه ﷺ فَيأمُرُ الدَّجَّالُ بِهِ فَيُشْبَحُ، فَيَقولُ: خُذُوهُ وَشُجُّوهُ، فَيُوسَعُ ظَهْرُهُ وبَطْنُهُ ضَرْباً، فيقولُ: أوما تُؤمِنُ بي؟ فَيَقُولُ: أنْتَ المَسِيحُ الْكَذَّابُ، فَيُؤمرُ بهِ، فَيؤْشَرُ بالمِنْشَارِ مِنْ مَفْرقِهِ حتَّى يُفْرقَ بَيْنَ رِجْلَيْهِ، ثُمَّ يَمْشِي الدَّجَّالُ بَيْنَ الْقِطْعتَيْنِ، ثُمَّ يقولُ لَهُ: قُمْ، فَيَسْتَوي قَائماً. ثُمَّ يقولُ لَهُ: أتُؤمِنُ بي؟ فيقولُ: مَا ازْددتُ فِيكَ إلاَّ بصِيرةً، ثُمَّ يَقُولُ: يَا أيُّهَا النَّاسُ إنَّهُ لا يفْعَلُ بعْدِي بأَحَدٍ مِنَ النَّاسِ، فَيأخُذُهُ الدَّجَّالُ لِيَذْبَحَهُ، فَيَجْعَلُ اللَّه مَا بيْنَ رقَبَتِهِ إلى تَرْقُوَتِهِ نُحَاساً، فَلا يَسْتَطِيعُ إلَيْهِ سَبيلاً، فَيَأْخُذُ بيَدَيْهِ ورجْلَيْهِ فَيَقْذِفُ بِهِ، فَيحْسَبُ الناسُ أنَّما قَذَفَهُ إلى النَّار، وإنَّما أُلْقِيَ في الجنَّةِ » فقالَ رسُولُ اللَّه ﷺ: « هذا أعْظَمُ النَّاسِ شَهَادَةً عِنْد رَبِّ الْعالَمِينَ » رواه مسلم.

وروى البخاريُّ بَعْضَهُ بمعْنَاهُ. « المَسَالح »: هُمْ الخُفَرَاءُ وَالطَّلائعُ.

1815. Əbu Səid əl-Xudridən ﷺ nəql olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Dəccal çıxdıqda möminlərdən biri onu görməyə gedəcək və Dəccalı qoruyanlarla rastlaşacaq. Ondan hara getdiyini soruşacaqlar, deyəcək ki: "Bu çıxanın yanına gedirəm". Ona deyəcəklər: "Məgər rəbbimizə iman gətirmirsən?" O deyəcək: "Rəbbimiz görünməzdir". Deyəcəklər: "Öldürün onu!". Onlardan bəziləri digərlərinə deyəcək: "Məgər rəbbiniz sizə qadağan etməyib ki, onun hüzurunda olmadan kimisə öldürməyəsiniz?" Onlar onu Dəccalın yanına aparırlar. Mömin onu görüb: "Ey insanlar, bu, Rəsulullahın ﷺ xəbər verdiyi Dəccaldır!"– deyəcək. Dəccal əmr edəcək ki, onu öldürsünlər. Sonra deyəcək: "Onu götürüb birləşdirin". Onun belinə və qarnına vuracaqlar. Dəccal yenə soruşacaq: "Mənə iman gətirirsənmi?" O da deyəcək ki: "Sən yalançı məsihsən!" Onu yerə uzadıb mişarla başdan ayağa ikiyə böləcəklər. Dəccal onun ikiyə ayrılmış parçaları arasında var-gəl edəcək, ona: "Qalx!"– deyəcək, həmin adam da qalxacaq. Sonra ona deyəcək: "Mənə iman gətirmirsənmi?" O deyəcək: "İndi mən səni daha yaxşı tanıdım". Sonra deyəcək:**

“Məndən sonra heç kəslə belə edə bilməyəcəksən”. Dəccal yenə onun başını kəsmək istəyəcək, lakin bunu edə bilməyəcək – Allah onun boynundan körpücük sümüyünə mis salacaq. Onu əllərindən və ayaqlarından tutub *oda* atacaqlar. İnsanlar elə güman edəcəklər ki, onu oda atdılar, əslində isə o, Cənnətə atılacaq. Rəsulullah ﷺ dedi: “O, aləmlərin Rəbbi olan Allahın yanında ən yüksəkdə olan şəhiddir”.

Bu hədisi Muslim rəvayət etmişdir.[1] Bu hədisin bəzi hissəsini Buxari də nəql etmişdir.

[Hədisin ərəbcəsindəki] “əl-musalih” sözü “qarovulçu, qoruyan”dır.

١٨١٦– وعَنِ الْمُغِيرَةِ بنِ شُعْبةَ رضي الله عنه قَالَ: ما سَأَلَ أَحَدٌ رَسُولَ اللَّه ﷺ عَنِ الدَّجَّالِ أَكْثَرَ ممَّا سألْتُهُ، وإنَّهُ قالَ لي: « ما يَضُرُّكَ؟ » قلتُ: إنَّهُمْ يقُولُونَ: إنَّ معَهُ جَبَلَ خُبْزٍ وَنَهْرَ مَاءٍ، قالَ: « هُوَ أهْوَنُ عَلى اللَّهِ مِنْ ذلِكَ » متفقٌ عليه.

1816. Muğira ibn Şöbə رضي الله عنه deyir ki, Rəsulullahdan ﷺ Dəccal haqqında məndən çox soruşan olmamışdır. *Bir dəfə* o mənə belə dedi: **“Sənə nə zərəri var?”** Dedim: “Onlar deyirlər ki, onun çörəkdən dağı, çayı və suyu olacaq”. Dedi: **“Allah üçün bu, ondan daha asandır”**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١٨١٧– وعَنْ أنَسٍ رضي الله عنه قالَ: قالَ رَسُولُ اللَّه ﷺ: مَا مِنْ نَبِيٍ إلاَّ وَقَدْ أنْذَرَ أمَّتَهُ الأعْوَرَ الْكَذَّاب،ألا إنَّهُ أعْوَرُ،وإنَّ ربَّكُمْ عَزَّ وجلَّ لَيْسَ بأعْورَ،مكْتُوبٌ بَيْنَ عَيْنَيْهِ ك ف ر». متفق عليه.

1817. Ənəsdən رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **“Hər bir peyğəmbər öz ümmətini kor yalançıdan çəkindirmişdir. O, kordur. Sizin izzət və cəlal sahibi Rəbbiniz isə kor deyildir. Onun gözlərini arasında “kəf”, “fə” və “ra” hərfləri yazılmışdır”**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

---

[1] “Səhih əl-Buxari”, 1749; “Səhih Muslim”, 5230.

[2] “Səhih əl-Buxari”, 6589; “Səhih Muslim”, 5232.

[3] “Səhih əl-Buxari”, 6598; “Səhih Muslim”, 5219.

١٨١٨– وَعَنْ أبي هُرَيْرَة ﷺ قالَ: قالَ رَسُولُ اللَّهِ ﷺ: « ألا أُحَدِّثُكُمْ حَدِيثاً عنِ الدَّجَّالِ مَا حَدَّثَ بِهِ نَبيٌّ قَوْمَهُ، إنَّهُ أعْوَرُ وَإنَّهُ يجئُ مَعَهُ بِمثَالِ الجَنَّةِ والنَّار، فالتي يَقُولُ إنَّهَا الجنَّةُ هِيَ النَّارُ. متفقٌ عليه.

1818. Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Sizə Dəccal haqqında elə bir xəbər verimmi ki, heç bir peyğəmbər öz qövmünə bu barədə xəbər vermiş olmasın? O, kordur. Onun Cənnət və Cəhənnəmə bənzər bir şeyi olacaq. İnsanların Cənnət hesab etdikləri əslində Cəhənnəm olacaq".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٨١٩– وعَنْ ابنِ عُمَرَ ﷺ أنَّ رَسُولَ اللَّهِ ﷺ ذَكَرَ الدَّجَّالَ بَيْنَ ظَهْرَاني النَّاس فَقَالَ: « إنَّ اللَّه لَيْسَ بأَعْوَرَ، ألا إنَّ المَسِيحَ الدَّجَّالَ أعْوَرُ الْعيْنِ الْيُمْنى، كَأَنَّ عَيْنَهُ عِنَبةٌ طَافِيَةٌ » متفقٌ عليه.

1819. İbn Ömərdən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ insanlara Dəccaldan danışıb dedi: **"Şübhəsiz ki, Allah kor deyil, Dəccal məsihin isə sağ gözü kor olacaq. Onun gözü sanki şişmiş bir üzümdür".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Şərh:

Müəllifin ﷺ gətirdiyi bu hədislər Dəccal barəsindədir. Onların qeyd olunması məqsədəuyğundur, çünki Peyğəmbər ﷺ demişdir: **"Adəm yaradılandan Qiyamət saatınadək Dəccaldan böyük fitnə olmayacaqdır".** Elə bu səbəbdən də hər bir peyğəmbər öz qövmünü ondan çəkindirmişdir – baxmayaraq ki, o, axır zamanda gələcəkdir. İzzət və cəlal sahibi Allah bilir ki, Muhəmməd ﷺ peyğəmbərlərin sonuncusudur. Bununla belə əvvəlki peyğəmbərlərə də xəbərdarlıq etmişdir. Burada hikmət onun fitnəsinin nə dərəcədə böyük olmasına diqqət çəkməkdir. Hətta o, axır zamanda gəlsə belə, onun fitnəsi olduqca böyük olacaqdır.

---

[1] "Səhih əl-Buxari", 3090; "Səhih Muslim", 5227.

[2] "Səhih əl-Buxari", 6858; "Səhih Muslim", 247.

Peyğəmbər ﷺ bəyan etmişdir ki, Dəccal hər bir şəhərə girib insanları – Allah qorusun – özünə ibadətə dəvət edəcək. Yalnız Məkkə və Mədinədən başqa – o oralara girə bilməyəcək. Çünki oranın qapılarının üstündə mələklər duraraq onu oralardan uzaqlaşdıracaqlar. Peyğəmbər ﷺ həm də xəbər vermişdir ki, İsfahan yəhudilərindən yetmiş min nəfəri Dəccala qoşulacaq və onların başında örtüklər olacaq. Bu da yüksək keyfiyyətli libas növüdür. Yəni İrandakı İsfahan şəhərindən yetmiş min nəfər Dəccala qoşulacaq. Bundan əlavə Peyğəmbər ﷺ xəbər vermişdir ki, Dəccal kordur, İzzət və cəlal sahibi Allah isə kor deyil. Çünki korluq izzət və cəlal sahibi Allah üçün naqislikdir. Allah isə hər bir naqislik vəsfindən uzaqdır. Sünnə və camaat əhli bu hədisi dəlil gətirərək Allahın iki gözünün olduğunu bildirmişlər. Lakin həmin gözlər məxluqatın gözlərinə bənzəmir. Uca Allah buyurur: **"Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir".**[1]

Bu hədislərdə həm də qeyd olunur ki, müsəlman bir gənc Dəccalla görüşməyə çıxır ki, onun yalançı olduğunu insanlara bildirsin. Yolda Dəccalın silahlı qoruyanları onun qarşısına çıxır. Soruşurlar ki, hara gedirsən, deyir ki, bu təzə peyda olanın yanına. Ondan soruşurlar ki, rəbbimizə iman gətirirsənmi? Deyir: "Xeyr, o Dəccaldır". Onu öldürmək istəyirlər, ancaq onlardan bəziləri digərlərinə deyir: "Məgər rəbbimiz deməyib ki, mənim hüzurumda olmadan heç kimi öldürməyin?" Onu Dəccalın yanına gətirirlər, həmin adam da şahidlik edir ki, o, Peyğəmbərin ﷺ xəbər veridyi Dəccaldır. O qəzəblənir, əmr edir ki, onu tutub başından ayaqlarının arasınadək bədənini iki hissəyə bölürlər – yuxarıdakı hədisdə qeyd olunduğu kimi. Dəccal onun hissələri arasında gəzir, sonra onu çağırır. Onun tikələri birləşir, o qalxır və deyir: "Allaha and olsun ki, indi səni daha yaxşı tanıdım". O bunu iki dəfə edir. Üçüncü dəfə isə bunu edə bilmir. Uca Allah onu dəmirdən edir və onu öldürə bilmirlər. O ya doğrudan dəmir olur, ya da elə möhkəm olur ki, dəmir onu kəsmir. Allah hər şeyə qadirdir. Bütün bunlar Dəccalın sifətləridir.

Yenə Peyğəmbər ﷺ xəbər vermişdir ki, onun cənnəti və cəhənnəmi olacaq. Muğira ibn Şöbə رضي الله عنه ondan soruşur ki, deyilənə görə onun çörəkdən dağı olacaq. O da dedi: **"Allah üçün bu, ondan daha asandır"**. Yəni belə bir şey olmayacaq, halbuki bu, elə də çətin bir şey deyil.

[1] "əş-Şura" surəsi, 11.

Hər bir halda, biz iman gətiririk ki, axır zamanda Dəccal çıxacaq. Bu fəsildə qeyd olunanlar da onun vəsfləridir. Biz hər namazda onun fitnəsindən Allaha sığınırıq. Peyğəmbər ﷺ bizə əmr etmişdir ki, hər namazda sonuncu təşəhhüddən sonra dirilərin və ölülərin şərindən, həmçinin qəbir əzabından və Dəccal məsihin şərindən Allaha sığınaq.

١٨٢٠– وعَنْ أبي هُرَيْرَةَ رضي الله عنه أنَّ رَسُولَ اللَّهِ ﷺ قالَ: « لا تَقُومُ الساعَةُ حَتَّى يُقَاتِلَ المُسْلِمُونَ الْيَهُودَ حتَّى يَخْتَبِيءَ الْيَهُوديُّ مِنْ وَراءِ الحَجَر والشَّجَرِ، فَيَقُولُ الحَجَرُ والشَّجَرُ: يَا مُسْلِمُ هذا يَهُودِيٌّ خَلْفي تَعَالَ فَاقْتُلْهُ، إلاَّ الْغَرْقَدَ فَإنَّهُ منْ شَجَرِ الْيَهُودِ » متفقٌ عليه.

1820. Əbu Hureyradan رضي الله عنه nəql olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Müsəlmanlar yəhudilərə qarşı vuruşmayınca Qiyamət qopmayacaq. Yəhudi hətta daşın və ağacın arxasında gizlənəndə daş və ağac deyəcək: "Ey müsəlman, mənim arxamda yəhudi var, gəl onu öldür". Yalnız ğarqaddan başqa – o, yəhudilərin ağacıdır".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٨٢١– وعَنْهُ رضي الله عنه قالَ: قال رَسُولُ اللَّه ﷺ: « والذِي نَفْسِي بِيَدِه لا تَذْهَبُ الدُّنْيَا حَتَّى يَمُرَّ الرَّجُلُ بالْقَبْرِ، فيتمَرَّغَ عَلَيْهِ، ويقولُ: يَالَيْتَني مَكَانَ صَاحِبِ هذا الْقَبْرِ، وَلَيْس بِهِ الدَّين وما به إلاَّ الْبَلاَءُ ». متفقٌ عليه.

1821. Yenə Əbu Hureyradan رضي الله عنه nəql olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Canım əlində olan Allaha and olsun ki, dünya dağılmamışdan öncə elə bir vaxt olacaq ki, qəbirin yanından keçən adam onun üzərinə çömbəlib: "Kaş ki, bu məzarın sahibi mən olaydım"– deyəcək. Onun borcu olmayacaq, yalnız bəlalarla üzləşmiş olacaq".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١٨٢٢– وعَنْهُ رضي الله عنه قالَ: قالَ رَسُولُ اللَّهِ ﷺ: « لا تَقُومُ السَّاعَةُ حَتَّى يَحْسِرَ الْفُرَاتُ عَنْ جبَلٍ منْ ذَهَبٍ يُقْتَتَلُ علَيْهِ، فيُقْتَلُ مِنْ كُلِّ مِائةٍ تِسْعَةٌ وتِسْعُونَ، فَيَقُولُ كُلُّ رَجُلٍ مِنْهُمْ: لَعَلِّي أنْ أكُونَ أنَا أنْجُو».

[1] "Səhih əl-Buxari", 2709; "Səhih Muslim", 5203.

[2] "Səhih əl-Buxari", 6582; "Səhih Muslim", 5176.

وفي روايةٍ « يوُشِكُ أنْ يَحْسِرَ الْفُرَاتُ عَن كَنْزٍ مِنْ ذَهَبٍ، فَمَنْ حَضَرَهُ فَلا يأخُذْ منْهُ شَيْئاً » متفقٌ عليه.

1822. Yenə Əbu Hureyradan ﵁ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Fərat çayı çəkilərək qızıldan bir dağ üzə çıxmayınca Qiyamət qopmaz. İnsanlar ona görə bir-biriləri ilə vuruşacaqlar. Hər yüz nəfərdən doxsan doqquzu qətlə yetiriləcək, hər biri də deyəcək ki, bəlkə mən salamat qaldım".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Başqa bir rəvayətdə isə deyilir: **"Vaxt gələcək Fərat çayı çəkiləcək və qızıldan bir dağ üzə çıxacaq. Kim ona yetişərsə, ondan bir şey götürməsin".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Şərh:

Müəllif ﵀ Qiyamətin əlamətləri ilə bağlı Əbu Hureyradan ﵁ nəql olunan hədisi qeyd edir: **"Müsəlmanlar yəhudilərə qarşı vuruşmayınca Qiyamət qopmayacaq".**

Muhəmməd ﷺ peyğəmbərə tabe olanlar müsəlman adlanır. Bundan öncə isə mövcud şəriətə tabe olanlar müsəlman adlanırdı. Musanın vaxtında ona tabe olanlar, İsanın vaxtında ona tabe olan nəsranilər, Nuhun qövmündən ona iman gətirənlər də müsəlman idilər. Beləcə, mövcud peyğəmbərə iman gətirən hər kəs müsəlman sayılır. Muhəmməd peyğəmbərdən sonra isə yalnız ona iman gətirənlər müsəlman sayılırlar. Həvarilər: **"Bizik Allahın köməkçiləri!"– demişdilər. İsrail oğullarından bir zümrə iman gətirdi, digər bir zümrə isə kafir oldu. Biz də iman gətirənləri düşmənlərinə qarşı qüvvətləndirdik və onlar üstün gəldilər".[3]**

Səba kraliçası da belə demişdi: **"Ey Rəbbim, mən özümə zülm etmişdim. İndi isə Süleymana tabe olub aləmlərin Rəbbi olan Allaha təslim oldum!".[4]**

---

[1] "Səhih Muslim", 5152.

[2] "Səhih əl-Buxari", 6586; "Səhih Muslim", 5153.

[3] "əs-Saff" surəsi, 14.

[4] "ən-Nəml" surəsi, 44.

Bəlli olan digər qövmlər də belədir. Yəhudilər Musaya tabe olanlardır. Onlar babaları Yəhuzaya nisbətən belə adlandırılmışlar. Onlar ona nisbət olunurdular, lakin vaxt keçdikcə yəhudi oldular. Onlar isə qəzəbə düçar olmuş, lənətlənmiş, məkrli və xain bir qövmdür. Onlar öz rəblərini naqislik və eyiblə vəsf etmişlər. Yəhudilər deyirdilər ki: **"Allahın əli bağlıdır"**, yaxud demişlər ki: **"Allah kasıbdır",** yaxud demişdilər ki: "Allah göyləri və yeri yaratdıqdan sonra şənbə günü dincəlmişdir". Buna bənzər bir sıra naqis və eyib vəsfləri Uca Allaha aid etmişlər. Rəsullar haqqında dedikləri lap çoxdur. Onlar hətta peyğəmbərləri qətlə yetirmişlər. Məsih İsa ibn Məryəmi də iddialarına görə qətlə yetiriblər. Əslində isə onu nə öldürmüş, nə də çarmıxa çəkmişlər. Xalqlar arasında ən pis xalqdırlar. Onlar xain bir qövmdürlər. Onların nə əhdinə nə də heç bir başqa işlərinə inanılmaz.

Qiyamətdən öncə yəhudilər müsəlmanlarla vuruşacaqlar. "Müsəlmanlar" sözü barəsində bir düşün. Müsəlmanlarla yəhudilər vuruşacaq və müsəlmanlar onlar üzərində parlaq qələbə çalacaqlar. Bu zaman yəhudilər daşlar və ağacların arxasında gizlənəcək, hətta daşlar və ağaclar da dilə gələrək – hər şeyi danışdıran Allah onları da danışdıracaq – deyəcəklər: "Ey müsəlman, mənim arxamda yəhudi var, gəl onu öldür". Beləcə, müsəlmanlarla yəhudilərin vuruşduğu bir zamanda daşlar və ağaclar danışacaq. [Şahidi olduğumuz] yəhudilərlə ərəblərin döyüşündə isə, daha doğrusunu Allah bilir, kim qələbə çalacaq. Çünki millətpərəstlik uğrunda yəhudilərlə döyüşən izzət və cəlal sahibi Allah üçün deyil, təəssübkeşliklə döyüşür. Nə qədər ki o, din və İslam uğrunda deyil, ərəb millətinə görə vuruşur, onun qələbə çalması mümkün deyil. Yalnız Allah istəsə bu mümkün ola bilər. Yox, əgər həqiqi İslam dini üzərində olsaq və İslam uğrunda yəhudilərə qarşı vuruşsaq, biz Allahın izni ilə qələbə çalacağıq. Hətta daşlar və ağaclar da bizim lehimizə, yəhudilərin isə əleyhinə danışacaq – daş dil açıb deyəcək ki, "Bu, yəhudidir, gəl onu öldür!", ağac da deyəcək ki, "Bu, yəhudidir, gəl onu öldür!".

Yox, əgər məsələ təəssübkeşlik və millətpərəstlikdirsə, zəfərə əsla zəmanət yoxdur. Ona görə də ərəblər millətçilik üzərində əsla qalxa bilməzlər. Buna da dəlil acı reallıqdır – əllərindən gələni etdilər, lakin heç nəyə nail olmadılar. Əksinə, yəhudilər tərəfindən ərəblər böyük bəlalara məruz qaldılar. Yəhudilər onların torpaqlarını işğal etdi, onları mühasirəyə aldı və əziyyətlər verdi. Əgər döyüş İslam uğrunda olsaydı və müsəlmanlar

tərəfindən olsaydı, yəhudilər bir şeyə nail olmazdılar. Ərəblər isə cahilliklərindən yəhudilərə qarşı millətləri uğrunda döyüşdülər. Ona görə də indiyədək qalib gələ bilmirlər. Yəhudilərin üzərində qələbə İslamda dəqiq bilinən bir həqiqətdir və qeyb deyil. Doğrudanışan peyğəmbər Muhəmmədin ﷺ xəbər verdiyi baş verməyincə Qiyamət qopmayacaqdır: müsəlmanlar yəhudilərə qarşı vuruşacaq, onları məhv edərək qələbə qazanacaqlar. Adətən danışmayan daşlar və ağaclar da dil açıb deyəcəklər ki, "Ey müsəlman, arxamda yəhudi var, gəl onu öldür!".

Baş verməsi qaçılmaz olan Qiyamət əlamətlərindən biri də yarımadanın uzaq şərq hissəsində axan Fərat çayının çəkilməsi və qızıldan bir dağın üzə çıxmasıdır. Yəni qızıl orada dağ kimi çıxacaqdır. Qızılın nə olması məlumdur:

Gördüm ki, insanlar gedirlər,
Qızılı olanlara doğru.

Qızıl ağılları əldən alır, hər kəs qızıl istəyir. Bu məlum çay da bir vaxt çəkiləcək və dibində qızıldan bir dağ üzə çıxacaqdır. Hər kəs də onu əldə etmək üçün vuruşacaq. Bəziləri bu sözlərlə günümüzdə qara qızıl adlanan neftin nəzərdə tutulduğunu bildirmişlər. Rəsulullahın ﷺ nəyə işarə etdiyini Allah bilir. Lakin günümüzədək bəlli olan qızıl sarı parlaq bir mədən növüdür. Biz də bu rəy üzərində qalırıq. Qarşıdakı günlərdə hər şey bəlli olacaq. Bizlər deyirik ki, hədisdə deyilənlər baş verməyincə dünya bitməyəcək. Əgər dünya sonu gəlsə deyərik ki, bəli, Rəsulullahın ﷺ hədisində neft nəzərdə tutulmuşdur. Çünki o, qızıla satılır. Dünya dağılmadığı müddətdə isə bizlər doğrudanışan peyğəmbər Muhəmmədin ﷺ dediklərinin baş verəcəyini gözləyirik. Bu da Qiyamətin əlamətlərindəndir. Lakin hələ ki, bu baş verməmişdir. Müvəffəq edən Allahdır.

١٨٢٣– وعَنْهُ قال: سَمِعْتُ رَسُولَ اللَّه ﷺ يَقُولُ: « يَتْرُكُونَ المَدينَةَ عَلى خَيْرِ مَا كَانَتْ، لا يَغْشَاهَا إلاَّ الْعوَافِي يُرِيدُ: عَوَافِي السِّباعِ وَالطَّيْرِ وَآخِر مَنْ يُحْشَرُ رَاعِيانِ مِنْ مُزَيْنَةَ يُرِيدَانِ المَدينَةَ ينْعِقَانِ بِغَنَمِها فَيَجِدَانِها وُحُوشاً. حتَّى إذا بَلَغَا ثنِيَّةَ الْودَاعِ خَرَّا على وَجوهِهِمَا » متفقٌ عليه.

1823. Yenə Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Onlar Mədinəni ən xeyirli halda tərk edəcəklər. Oranı yalnız vəhşi heyvanlar və yırtıcı quşlar bürüyəcək. Ən son həşr olunacaq kəslər**

Muzeynədən Mədinəyə gələrək qoyunlarını səsləyərkən vəhşi heyvanlarla rastlaşanlar olacaq. Onlar "Səniyyətil-vadə" deyilən yerə çatdıqda üzüstə düşəcəklər".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٨٢٤– وعَنْ أبي سَعيدٍ الخُدْرِيِّ ﷺ أنَّ النَّبي ﷺ قَالَ: « يَكُونُ خَلِيفَةٌ مِنْ خُلَفَائِكُمْ فِي آخِرِ الزَّمَان يَحْثُو المَالَ وَلا يَعُدُّهُ » رواه مسلم.

1824. Əbu Səid əl-Xudri ﷺ nəql edir ki, Peyğəmbər ﷺ demişdir: **"Xəlifələrinizdən biri axır zamanda xəlifə olacaq, o, pulu saymadan paylayacaq".**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١٨٢٥– وعَنْ أبي مُوسى الأشْعَرِيِّ ﷺ أنَّ النَّبيَّ ﷺ قال: « ليأتيَنَّ عَلى النَّاسِ زَمَانٌ يَطُوفُ الرَّجُلُ فِيهِ بِالصَّدَقَة مِنَ الذَّهَبِ، فَلا يَجِدُ أحَداً يَأْخُذُهَا مِنْهُ، وَيُرَى الرَّجُلُ الْوَاحِدُ يَتْبَعُهُ أرْبَعُونَ امْرأةً يَلُذْنَ بِهِ مِنْ قِلَّةِ الرِّجالِ وَكَثْرَةِ النِّسَاءِ » رواه مسلم.

1825. Əbu Musa əl-Əşaridən ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"İnsanlar elə bir zamana yetişəcəklər ki, birisi qızıl sədəqə verməyə adam axtaracaq, lakin ondan bunu götürəcək bir kimsə tapmayacaq. Həmin vaxt kişilər o qədər az, qadınlar isə o qədər çox olacaq ki, bir kişinin arxasınca qırx qadın düşüb onu izləyəcək".**

Bu hədisi Muslim rəvayət etmişdir.[3]

١٨٢٦– وعَنْ أبي هُرَيْرَةَ ﷺ عَن النَّبيِّ ﷺ قَالَ: « اشْتَرَى رَجُلٌ مِنْ رَجُلٍ عقَاراً، فَوَجَد الذي اشْتَرَى الْعَقَارَ في عَقَارِه جَرَّةً فِيهَا ذَهَبٌ، فقالَ لهُ الذي اشْتَرَى الْعَقَارُ: خُذْ ذَهَبَكَ، إنَّمَا اشْتَرَيْتُ مِنْكَ الأرْضَ، وَلَمْ أشْتَرِ الذَّهَبَ، وقالَ الَّذي لَهُ الأرْضُ: إنَّمَا بعْتُكَ الأرضَ وَمَا فِيهَا، فَتَحاكَما إلى رَجُلٍ، فقالَ الَّذي تَحَاكَمَا إلَيْهِ: أَلَكُمَا وَلَدٌ؟ قَالَ أحدُهُمَا: لي غُلامٌ. وقالَ الآخرُ: لي جَارِيةٌ، قالَ أنْكِحَا الْغُلامَ الجَارِيَةَ، وَأنْفِقَا عَلى أنْفُسهِمَا مِنْهُ وتصَدَّقَا » متفقٌ عليه.

---

[1] "Səhih əl-Buxari", 1741; "Səhih Muslim", 2462.

[2] "Səhih Muslim", 5190.

[3] "Səhih Muslim", 1680.

1826. Əbu Hureyradan ﵁ nəql olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Bir kişi başqasından torpaq alır və orada içərisi qızılla dolu bir çəllək tapır. Torpağı alan kəs deyir ki, gəl qızılını apar, mən səndən qızıl deyil, torpaq almışam. Torpağı satan da ona deyir ki, mən sənə torpağı onun içərisindəki ilə birlikdə satmışam. Beləcə, onlar bir hakimin yanına gedirlər. Hakim soruşur ki, sizin övladınız varmı? Onlardan biri cavab verir ki, mənim bir oğlum var. Başqası da deyir ki, mənim də bir qızım var. Hakim deyir ki, oğlanı qızla evləndirin, həmin qızılı da onlara sədəqə verərək xərcləyin"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٨٢٧– وعنْهُ ﵁ أَنَّهُ سَمِعَ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: « كانَتْ امْرَأَتَان مَعهُمَا ابْناهُما، جَاءَ الذِّئْبُ فَذَهَبَ بابنِ إحْداهُما، فقالت لصاحِبتِهَا: إنَّمَا ذهَبَ بابنِكِ، وقالت الأخْرى: إنَّمَا ذَهَبَ بابنِك، فَتَحَاكما إلى داوُودَ ﵇، فَقَضِي بِهِ لِلْكُبْرَى، فَخَرَجتَا على سُلَيْمانَ بنِ داودَ ﵇، فأخبرتَاه، فقالَ: ائْتُوني بِالسِّكينَ أشَقُّهُ بَيْنَهُمَا. فقالت الصُّغْرى: لا تَفْعَلْ، رَحِمكَ اللَّه، هُو ابْنُهَا فَقَضَى بِهِ للصُّغْرَى » متفقٌ عليه.

1827. Yenə Əbu Hureyradan ﵁ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Övladları olan iki qadın var idi. Bir dəfə canavar gəlib onların övladlarından birini aparır. Qadınlardan biri digərinə deyir ki, sənin övladını aparıb. O biri isə deyir ki, xeyr, sənin övladını aparıb. Onlar Davudu ﵇ hakim seçirlər, o da böyüyün lehinə hökm verir. Sonra onlar Davudun oğlu Süleymanın ﵇ yanına gedib olanları ona xəbər verirlər. O deyir: "Mənə bıçaq gətirin, uşağı ortadan bölüm aranızda". Kiçik olan qadın deyir: "Etmə, Allah sənə rəhm etsin, onun oğludur". Beləcə, o kiçiyin lehinə hökm verir".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Şərh:

İmam Nəvəvinin ﵀ qeyd etdiyi bu fəsil "Müxtəlif çeşidli mövzular" adlanır. Bu fəsildə Dəccal, Yəcuc və Məcuc qeyd olunduqdan sonra Mədinə

[1] "Səhih əl-Buxari", 3213; "Səhih Muslim", 3246.

[2] "Səhih əl-Buxari", 6271; "Səhih Muslim", 3245.

şəhərinin şərəfini və əzəmətini bildirən hədislər qeyd olunmuşdur. Oranın əhalisi oradan çıxdıqdan sonra orada yalnız vəhşi heyvan və yırtıcı quşlar qalacaqdır. Bu hələ ki, baş verməyib. Doğrudanışan peyğəmbərin ﷺ xəbər verdikləri qeybi məsələlərdir. Şəkk yoxdur ki, onlar baş verəcəkdir. Çünki Peyğəmbərə ﷺ bu barədə vəhy verilmişdir və o, istəyinə uyğun danışmır.

Hədisdə pulun çox olacağı da bildirilir. Peyğəmbər ﷺ xəbər vermişdir ki, axır zamanda xəlifə mal-dövləti saymayaraq paylayacaqdır. Yəni mal-dövlət o qədər çox olacaqdır ki, hesabı aparılmadan paylanacaq.

Əbu Hureyradan رضي الله عنه nəql olunmuş hədis də qeyd olunur. Həmin hədisin Qiyamətin əlamətləri ilə aidiyyatı lolmasa da, o çeşidli mövzulara aiddir. Bir kişi başqasından torpaq alır və orada içərisi qızılla dolu bir çəllək tapır. Həmin şəxs torpağı satanın yanına gedib deyir ki, gəl qızılını apar, bu sənin malındır, mən səndən qızıl deyil, torpaq almışam. Torpaq satan da ona deyir ki, mən sənə torpağı onun içərisindəki ilə birlikdə satmışam. Bu da onların hər ikisinin nə qədər təqvalı olmasının göstəricisidir. Beləcə, onlar bir hakimin yanına gedirlər. Hakim birindən soruşur ki, sənin qızın varmı? O cavab verir ki, bəli. O birindən soruşur ki, sənin də oğlun varmı? Deyir, bəli. Hakim də deyir ki, elə isə oğlanı qızla evləndirin, bu qızılı da mehir və sədəqə kimi onlara verin. Onlar da elə edirlər. Bu da dəlildir ki, insanlar arasında bu qədər təqvalı olanları da vardır.

Bu məsələnin hökmü barəsində alimlər demişlər ki, insan bir adama torpaq satarsa, alan adam da orada qızıl və ya başqa bir dəfn olunmuş şey taparsa, həmin dəfinə torpağa görə onun mülkünə çevrilmir. Əgər satıcı onu başqa bir adamdan alıbsa, bu da onun mülküdür. Çünki dəfn olunmuş həmin şey yerdən deyil. Mədənlər isə fərqlidir. Əgər adam aldığı torpaqda qızıl, gümüş, dəmir, mis və ya başqa bir mədən taparsa, bu zaman onlar həmin torpağa aiddir.

Bu fəsildə Əbu Hureyradan nəql olunmuş başqa bir hədis də vardır. Həmin hədisdə iki qadın övladları ilə birlikdə ikən canavar gəlib onların övladlarından birini aparır, digərinin övladı isə qalır. Qadınlardan hər biri digərinə deyir ki, sənin övladını aparıb. Böyük deyir ki, bu mənim övladımdır, sənin övladını qurd aparıb, kiçik də deyir ki, xeyr, mənim övladımdır, qurd sənin övladını aparıb. Onlar Davudu hakim seçirlər. O da ictihad edərək böyüyün lehinə hökm verir. Çünki ola bilsin ki, onun daha uşağı olmasın. Kiçik olan isə gələcəkdə yenə övlad dünyaya gətirə bilər. Sonra

onlar Davudun oğlu Süleymanın yanına gedib olanları ona xəbər verirlər. O deyir: "Mənə bıçaq gətirin ki, uşağı ortadan bölüm aranızda". Böyük qadın buna razı olur, kiçik isə buna razı olmur və deyir: "Ey Allahın peyğəmbəri, Allah sənə rəhm etsin, etmə! uşaq onun oğludur". Uşağa yazığı gəlir, çünki bu onun oğlu idi. Böyük qadının isə oğlu olmadığı üçün buna əhəmiyyət vermir. Süleyman da buna əsasən kiçik qadının lehinə hökm verir. Çünki həmin qadın demişdi ki, o, böyüyündür. Yəni onu iki hissəyə bölüb öldürməkdənsə heç olmasa diri olaraq o birinə verin. Alimlər bu hədisi dəlil gətirmişlər ki, dəlillər güclü olarsa, buna əsasən qazi hökm verə bilər.

Yusuf ibn Yaqubla padşahın xanımı arasında baş verən qissə də buna dəlildir. Yusuf həbs olunmuşdu. Özü də olduqca gözəl bir insan idi. Hətta insanların gözəlliklərinin yarısı Yusufa verilmişdi. Padşahın qadını isə onun xanımı idi. Həm gözəl idi, həm də yüksək məqamı var idi. Lakin özünə hakim ola bilməmiş və ona hiylə qurmuşdu. Onu evinə çağırıb qapıları bağlamış və özünü ona təklif etmişdi. Allah qorusun. Lakin izzət və cəlal sahibi Allah onu qorudu. Qadın onun arxasınca qaçıb onun libasından tutur, onun da paltarı arxadan cırılır. Onlar qapının önündə padşahla rastlaşırlar: **"Onlar bir-birini qabaqlamaq məqsədilə qapıya tərəf yüyürdülər və qadın onun köynəyini arxadan cırdı. İkisi də qapının yanında qadının əri ilə rastlaşdı. *Qadın* dedi: "Sənin ailənə pislik etmək istəyənin cəzası zindana salınmaqdan və ya ağrılı-acılı bir əzaba düçar edilməkdən başqa nə ola bilər?!".**[1] Bu, onun həbsxanaya salınmasından öncə baş vermişdir. Həbsxanadan öncə onun dəlili yox idi. O evdən çıxmaq istəyərkən qadın onun arxasınca qaçmışdı. Belə olduğu halda kimə inanmalı? – Əlbəttə ki, padşahın xanımına. Çünki o, padşahın zövcəsidir, özü də əsilzadədir. O, özünü xidmətçiyə *təklif edəcək qədər* alçalda bilməz. **"*Yusuf* dedi: "O məni yoldan çıxartmaq istəyirdi".**[2] Ev əhlindən bir nəfər belə hökm verdi ki, onun köynəyinə baxın: **"*Qadının* ailəsindən olan bir şahid belə şahidlik etdi: "Əgər onun köynəyi öndən cırılıbsa, *qadın* doğru deyir, o isə yalançılardandır. Yox, əgər onun köynəyi arxadan cırılıbsa, *qadın* yalan deyir, o isə doğru danışanlardandır".**[3] Çünki əgər köynəyi öndən

[1] "Yusuf" surəsi, 25.

[2] "Yusuf" surəsi, 26.

[3] "Yusuf" surəsi, 28.

cırılıbsa, deməli o qadına hücum edib, qadın da onun libasını cırıb. Yox, əgər arxadan cırılıbsa, deməli o qaçarkən qadın onun libasını arxadan cırıb. **"*Qadının əri* onun köynəyinin arxadan cırıldığını gördükdə dedi: "Şübhəsiz ki, bu sizin *qadın* hiylələrinizdəndir. Həqiqətən də, sizin hiyləniz böyükdür".**[1] Beləcə, dəlili olmadan doğru danışan Yusuf oldu. Lakin bəzi işarələr də onun doğru danışdığını göstərirdi. Bu da şübhəsiz ki, qazi (hakim) və ya başqaları üçün gözəl bir qaydadır ki, insanlar arasında hökm verərkən işarələrə əsaslanmaq lazımdır. Müvəffəq edən Allahdır.

١٨٢٨– وعَنْ مِرْداسٍ الأسْلَمِيِّ ﷺ قالَ قالَ النَّبيُّ ﷺ: « يَذْهَبُ الصَّالحُونَ الأوَّلُ فالأولُ، وتَبْقَى حُثَالَةٌ كحُثَالَةِ الشِّعِيرِ أوْ التَّمْرِ، لا يُبالِيهمُ اللَّه بالَةً »، رواه البخاري.

1828. Mirdas əl-Əsləmi ﷺ nəql edir ki, Peyğəmbər ﷺ demişdir: **"Əməlisaleh insanlar bir-bir gedəcəklər. *Yerində isə* arpa və xurmanın zibili kimilər qalacaq, Allah da onlara əhəmiyyət verməyəcək".**

Bu hədisi Buxari rəvayət etmişdir.[2]

١٨٢٩– وعنْ رِفَاعَةَ بنِ رافعٍ الزُرقِيِّ ﷺ قالَ: جاء جِبْرِيلُ إلى النبي ﷺ قالَ: مَا تَعُدُّونَ أهْلَ بَدْرٍ فيكُمْ؟ قالَ: « مِنْ أفْضَلِ المُسْلِمِين » أوْ كَلِمَةً نَحْوَهَا قالَ: «وَكَذَلكَ مَنْ شَهِدَ بَدْراً مِنَ المَلائِكَةِ ».رواه البخاري.

1829. Rifaə ibn Rafi əz-Zurqidən ﷺ rəvayət olunur ki, o demişdir: "Cəbrail ﷺ Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Bədr əhlini aranızda nə hesab edirsiniz?" Dedi: **"Ən əfzəl müsəlmanlardan sayırıq"**, ya da buna bənzər söz dedi *və əlavə etdi*: **"Bədrdə iştirak etmiş mələkləri də"**.

Bu hədisi Buxari rəvayət etmişdir.[3]

١٨٣٠– وعن ابنِ عُمَر ﷺ قال: قال رَسُولُ اللَّهِ ﷺ: « إذا أنْزل اللَّه تَعالى بِقَوْمٍ عَذَاباً أَصَابَ الْعَذَابُ مَنْ كَانَ فِيهِمْ. ثُمَّ بُعِثُوا على أعمَالِهِمْ » متفقٌ عليه.

[1] "Yusuf" surəsi, 28.

[2] "Səhih əl-Buxari", 6271.

[3] "Səhih əl-Buxari", 3692.

1830. İbn Ömərdən ﵄ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Uca Allah bir qövmə əzab nazil edərsə, orada olanların hamısı o əzaba düçar olar. Sonra isə hər kəs öz əməllərinə görə həşr olunar"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Bunlar da Hafiz ən-Nəvəvinin ﵀ "Salehlər bağçası" əsərinin sonunda "Müxtəlif çeşiddə seçilmiş mövzular kitabı" fəslində gətirdiyi hədislərdir. Həmin hədislərin birində deyilir ki, **"Əməlisaleh insanlar bir-bir gedəcəklər.** ***Yerində isə*** **arpa və xurmanın zibili kimilər qalacaq, Allah da onlara əhəmiyyət verməyəcək"**. Yəni, onların üzərinə rəhmət nazil olmayacaq.

Bu hədis də Ənəs ibn Malikdən ﵁ nəql olunmuşdur. İnsanlar Həccac ibn Yusuf əs-Səqafidən şikayət etmək üçün onun yanına gəlmişdilər. O da onlara xəbər verdi ki, Peyğəmbər ﷺ demişdir: **"Elə bir zaman gələcək ki, Rəbbinizlə görüşənədək hər bir gün əvvəlki gündən daha pis olacaq".**[2]

Bu hədis də işarə etdiyimiz hədisə bənzəyir. Ona görə görürsən ki, insanların vəziyyəti əvvəlki illərə nisbətən daha da pisləşir.

"Əməlisaleh insanlar bir-bir gedəcəklər". Əvvəllər insanlar gecə namazı qılar, gündüzlər oruc tutar, özlərinin ehtiyacları olsa belə, malik olduqlarından sədəqə verərdilər. İndi isə insanlar ildən-ilə dəyişir, daha pis olurlar. Səhərə qədər vaxtlarını Allaha asiliklə keçirir, gündüzlər yatır, əylənir, alqı-satqı zamanı hiylə, yalan və xəyanət edirlər. Allah qorusun.

Buna baxmayaraq, Allaha həmd olsun ki, göründüyü kimi, Allahın dini üzərində möhkəm duran insanlar da vardır. Buxaridən rəvayət olunmuş üçüncü hədisdə deyildiyi kimi, insanlara əzab nazil olduqda o əzab onların hamısını bürüyər. Uca Allah buyurur: **"Elə bir bəladan qorxun ki, o, sizlərdən təkcə zalım olanlara üz verməz (hamınızı bürüyər). Bilin ki, Allah şiddətli cəza verəndir".**[3] Lakin onların hər biri Qiyamət günü öz niyyətinə görə həşr olunacaqdır.

Odur ki, insan çalışmalıdır ki, arpanın və xurmanın zibilinə bənzəməsin. Çalışmalıdır ki, insanlar həlak olsalar belə, – onlara ümumi bəla

[1] "Səhih əl-Buxari", 6575; "Səhih Muslim", 5127.

[2] "Səhih əl-Buxari", 6541.

[3] "əl-Ənfal" surəsi, 25.

gəlmiş olsa belə, – Allahın dinindən möhkəm yapışsın. Qiyamət günü hər bir insan öz niyyətinə görə həşr olunacaqdır.

Müxtəlif mövzulardan biri də budur. Bir dəfə Cəbrail عليه السلام Peyğəmbərin ﷺ yanına gəlib soruşdu ki, "Bədr əhlini aranızda nə hesab edirsiniz?" Dedi: **"Ən əfzəl müsəlmanlardan sayırıq"**, ya da buna bənzər söz dedi *və əlavə etdi*: **"Bədrdə iştirak etmiş mələkləri də"**.

Bədr, Məkkə ilə Mədinə şəhərləri arasında bəlli bir yerin adıdır. Həmin yerdə müsəlmanlar və müşriklər arasında döyüş baş vermişdir. Döyüşün səbəbi isə o idi ki, Əbu Sufyan Saxr ibn Hərb Məkkə əhlinin rəhbəri idi. O, Məkkə əhlinin azuqəsini daşıyan karvanla Şamdan qayıdırdı. Peyğəmbər ﷺ bu barədə eşitdikdə bu xəbəri səhabələrinə də verir. Bir zaman Məkkə əhli müsəlmanları öz evlərindən çıxararaq mallarını qəsb etmişdilər. İndi də müsəlmanlar bunun qisasını kafirlərdən almaq istədilər. Peyğəmbər ﷺ səhabələrinə əmr edir ki, karvanı qarşılamaqdan ötrü yola çıxsınlar. Peyğəmbərlə ﷺ birlikdə üç yüz on nəfərdən çox səhabə yola çıxdı. Yəni onların sayı üç yüz on ilə üç yüz iyirmi arası idi. Onların silahı yox idi. Onların cəmi yetmiş dəvəsi və iki atı var idi və onları növbə ilə minirdilər. Çünki onlar döyüş məqsədilə çıxmamışdılar. Yalnız karvanı ələ keçirib dönmək istəyirdilər. Əbu Sufyan da olduqca ağıllı birisi idi. O, Məkkəyə məktub göndərir ki: "Karvanınızı xilas edin! Muhəmməd və dostları üstümüzə gəlib karvanı qəsb etmək istəyirlər". Sonra da karvanı Mədinədən uzaq dəniz yolu ilə apardı. Bunu eşidən qureyşlilər cahiliyyət həvəsinə düşdülər. Onlar izzət və cəlal sahibi Allahın istəyinə uyğun olaraq böyükləri ilə birlikdə səfərbərlik elan edirlər. Ancaq onlar Məkkədən çıxdıqdan sonra xəbər gəlir ki, Əbu Sufyan Mədinədən uzaq dəniz yolu ilə gedərək xilas olmuşdur. Onlar yenə öz aralarında məşvərət edib dedilər: "Madam ki, karvan salamatdır, o zaman döyüşmədən Məkkəyə qayıdaq". Qureyşin zadəganlarından olan Əbu Cəhl və başqaları isə dedilər: "Allaha and olsun ki, Bədrdə olmayınca Məkkəyə qayıtmayacağıq". Bədr də Məkkə, Mədinə və Şam arasında yolayrıcı hesab olunurdu. "Gedib orada dəvələr kəsək, şərab içək, cariyələr bizim üçün musiqi çalsınlar, biz də sevinək. Ərəblər də bizim haqqımızda eşitsinlər. Belə olduqda onlar bizdən qorxacaqlar". Onlar izzət və cəlal sahibi Allahın izni ilə çıxdılar: **"Yurdlarından təkəbbürlə, özlərini camaata göstərmək üçün çıxan və *insanları* Allah yolundan sapdıran kəslər kimi olmayın. Allah onların əməllərini hər**

tərəfdən əhatə etmişdir".[1] Beləcə, onlar Peyğəmbərlə ﷺ döyüşməyə israr edərək Bədrdə onunla qarşılaşmaq istədilər. Peyğəmbər ﷺ və səhabələrinin sayı üç yüz ondan bir az artıq idi. Qureyşlilərin sayı isə doqquz yüzlə min nəfər arası idi. Üstəlik, onlar silah-sursatla döyüşə tam hazırlıqlı idilər. Peyğəmbər ﷺ isə müharibəyə hazır deyildi. Lakin izzət və cəlal sahibi Allah onları vədədən öncə görüşdürdü ki, Öz hökmünü həyata keçirsin. Beləcə, onlar qarşılaşdılar. Bu xüsusda izzət və cəlal sahibi Allah buyurur: **"O zaman Allah yuxunda sənə onları az göstərdi".** Peyğəmbər ﷺ yuxusunda onların az olmasını görmüş və bununla da döyüşə həvəslənmişdi. **"Əgər onları sənə çox göstərsəydi, ruhdan düşər və döyüş barəsində birbirinizlə mübahisə edərdiniz. Lakin Allah *sizi* qorudu. Şübhəsiz ki, O, kökslərdə olanları bilir. O vaxt qarşı-qarşıya gəldiyiniz zaman Allah onları sizin gözünüzə az göstərdi, sizi də onların gözündə azaltdı ki, olacaq işi yerinə yetirsin".** Sübhanallah, onlar səhabələrin azsaylı olduğunu görürdü, səhabələr də onların. Bununla da onlar bir-birilərinə qarşı daha cəsarətli olurdular. Xülasə, döyüş baş verdi. Məkkə əhlindən yetmiş nəfər öldürüldü, yetmiş nəfər də əsir götürüldü. Onların arasında Qureyşin zadəganları da var idi. Onların arasında məşhur qissədə adları keçən və Kəbənin altında səcdə edən Peyğəmbərin ﷺ üzərinə ölmüş dəvənin içalatını qoymuş yeddi-səkkiz nəfər də var idi. Orada Peyğəmbər ﷺ onlara bəddua edərək: Allahım, qureyşliləri məhv et! Allahım, qureyşliləri məhv et, Allahım, filankəsi, filankəsi ... məhv et!" demiş, onları adbaad sayaraq onlara bəddua etmişdi. Bədr günü onlar da məhv edildilər. Sonra Peyğəmbər ﷺ əmr etdi və Qureyşin zadəganlarının cəsədləri alçaldılaraq murdar bir quyuya atıldı. Beləcə Peyğəmbər ﷺ zəfər çaldı və orada üç gün qaldı. O zaman belə bir adət var idi ki, müharibədə qalib gələn tərəf həmin yerdə üç gün qalardı. Bu əzəmətli döyüşlə bağlı hekayə məşhurdur.

Xülasə, Bədrdə üç yüz ondan artıq müsəlman döyüşmüşdü ki, onlar da ən xeyirli müsəlmanlar sayılırlar. Bilirsinizmi Allah onlara nə deyib? Deyib ki: **"Nə istəyirsinizsə edin, artıq sizi bağışladım"**.[2] Bədr əhlinin etdiyi hər bir günah nə qədər böyük olursa-olsun, bağışlanır. Lakin onlar bundan sonra da küfr etmədilər. Bu müjdənin isə elanı belə baş vermişdi:

---

[1] "əl-Ənfal" surəsi, 47.

[2] "Səhih əl-Buxari", 2785; "Səhih Muslim", 4550.

Peyğəmbər ﷺ Fəth döyüşü üçün qureyşlilərin üzərinə getmək istədikdə Bədr döyüşündə iştirak etmiş Hatib qureyşlilərə məktub yazıb bir qadınla göndərir ki, "gözdə-qulaqda olun, Peyğəmbər ﷺ sizinlə döyüşməyə gəlir". Uca Allah da bunu peyğəmbərinə agah etdi. O, həmin qadının yanına iki nəfər göndərdi ki, onlardan biri də Əli ibn Əbu Talib idi. Onlar həmin qadını tapıb soruşdular ki, hara gedirsən? Dedi ki, Məkkəyə. Soruşdular ki, bəs əlindəki nədir? Dedi: "Heç bir şey". Dedilər: "Ya əlindəkini bizə verəcəksən, ya da ...". Yəni sənin işindən xəbərimiz var. Qadın məktubu onlara verir, onlar da baxırlar ki, bu, Hatib ibn Bəltəənin məktubudur. O isə Bədr döyüşünün iştirakçısı idi. Onlar məktubu Peyğəmbərə ﷺ göstərdilər, o da onu çağırıb soruşdu ki: "Bu nədir, ey Hatib? Niyə xəyanət edirsən? Bizim xəbərlərimizi qureyşlilərə necə göndərə bilərsən?" İnsanlar arasında beləsinə cəsus deyilir. O bu əməlinə görə üzür istədi. Ömər və ya başqa bir səhabə dedi ki: "Ey Allahın elçisi, bəlkə onun boynunu vurum? Axı o, Allaha və Onun elçisinə xəyanət edib". Peyğəmbər ﷺ dedi: **"Məgər Allahın Bədr əhlinə nə dediyini bilmirsən? – Nə istəyirsinizsə edin, artıq sizi bağışladım".** Beləcə, bu cür arzuolunmaz əmələ yol versə də, Bədr əhlindən olduğu üçün həmin adam bağışlanmışdı. Bunlardır Bədr əhli! Allah bizləri və sizləri onlarla Nəim cənnətlərində bir araya gətirsin.

Müsəlmanlardan kiminsə kafirlərə bizim xəbərlərimizi çatdırdığını görsək, həmin adam qeyd-şərtsiz qətlə yetirilməlidir. Hətta həmin adam: "Əşhədu ən la ilahə illəllah və əşhədu ənnə Muhəmmədən rəsulullah" desə belə, öldürülməlidir. Çünki Peyğəmbərin ﷺ Hatibi öldürməməsinin yeganə səbəbi onun Bədr əhlindən olması idi. Bu özəllik Qiyamətədək bir daha baş verməyəcək. Alimlər də bu hədisi dəlil gətirmişlər ki, içimizdən cəsusluq edən kəs müsəlman və ya kafir olmasından asılı olmayaraq, öldürülməlidir. Çünki o, bizim xəbərlərimizi düşmənə verir. Müvəffəq edən Allahdır.

١٨٣١– وعَنْ جابرٍ رضي الله عنه قال: كانَ جِذْعٌ يقُومُ إلَيْهِ النبي ﷺ، يعْني في الخُطْبَةِ، فَلَما وُضِعَ المِنْبرُ، سَمِعْنَا لِلْجذْعِ مثْل صوْتِ العِشَارِ حَتَّى نَزَلَ النبي ﷺ فَوضَع يدَه عليْهِ فسَكَنَ.

وفي روايةٍ: فَلَمَّا كَانَ يَومُ الجمُعة قَعَدَ النبي ﷺ على المِنْبَرِ، فصاحتِ النَّخْلَةُ التي كَانَ يخْطُبُ عِنْدَهَا حَتَّى كَادَتْ أنْ تَنْشَقَّ.

وفي روايةٍ: فَصَاحَتْ صياح الصَّبيّ. فَنَزَلَ النَّبيُّ ﷺ، حتَّى أخذَهَا فَضَمَّهَا إلَيْهِ، فَجَعلَتْ تَئِنُّ أنِينَ الصَّبيِّ الَّذي يُسكَّتُ حَتَّى اسْتَقرَّتْ، قال: « بكت عَلى ما كَانَتْ تسمعُ مِنَ الذِّكْرِ » رواه البخاريُّ.

1831. Cabirdən رضي الله عنه rəvayət olunur ki, "Peyğəmbər ﷺ xütbə verərkən bir kötüyün üzərinə çıxırdı. Minbər qoyulduqdan sonra kötükdən iniltiyə bənzər səs gəldi. Peyğəmbər ﷺ minbərdən enib əlini kötüyün üzərinə qoyduqda səs kəsildi".[1]

Başqa bir rəvayət isə belədir: "Cümə günü Peyğəmbər ﷺ minbərin üzərində oturdu. Bu vaxt əvvəllər üzərində xütbə verdiyi xurma ağacının kötüyü sanki parçalanacaq kimi inildədi".[2]

Digər bir rəvayət isə belədir: "Uşaq səsi kimi səs çıxardı. Peyğəmbər ﷺ minbərdən enib onu qucaqladı, uşaq iniltisinə bənzər səslə inildəyən kötük də sakitləşdi. O ﷺ dedi: **"O, eşitdiyi zikrlərə görə ağlayırdı"**.

Bu hədisi Buxari rəvayət etmişdir.[3]

Şərh:

Müəllifin qeyd etdiyi hədislərdən biri də Cabirdən nəql olunmuşdur ki, onda həm izzət və cəlal sahibi Allahın möcüzələri var, həm də Onun elçisinin.

Bil ki, Uca Allah göndərdiyi hər bir peyğəmbərə ﷺ möcüzələr vermişdir ki, onları görən insanlar ona iman gətirsin. Çünki əgər Allah möcüzəsiz peyğəmbər göndərmiş olsaydı, heç kəs ona iman gətirməz, insanların da onun sözlərini təkzib etməyə bəhanələri olardı. Lakin Uca Allah öz hikməti və rəhməti ilə göndərdiyi hər bir elçiyə möcüzələr vermişdir ki, insanlar onlara iman gətirsinlər. Möcüzələr, həmin adamların doğru danışdığını təsdiq edən ayələrdir (işarələrdir).

Bizim Peyğəmbərin ﷺ möcüzələri çoxdur. Onlarla tanış olmaq istəyən bu iki kitabdan bəhrələnə bilər:

Birincisi, "Əl-cavab əs-sahih limən bəddələ dinəl-məsih" əsəri. Şeyxul-İslam ibn Teymiyyə bu kitabın sonunda Peyğəmbərə ﷺ məxsus başqalarının qeyd etmədiyi həm təbii, həm də şəri ayələri qeyd etmişdir.

---

[1] "Səhih əl-Buxari", 867.

[2] "Səhih əl-Buxari", 1953.

[3] "Səhih əl-Buxari", 3319.

İkincisi, İbn Kəsirin "əl-Bidayə van-nihayə" əsəri.

Peyğəmbərin ﷺ möcüzələri olduqca çoxdur. Onlardan biri də Cabirdən nəql olunmuş hədisdə xatırlanır. Peyğəmbər ﷺ cümə günü öz məscidində bir kötüyün üzərində xütbə verərdi. Ənsarlardan olan bir qadın onun xütbə verməsi üçün minbər düzəltdikdən sonra kötük buna görə nalə çəkərək Peyğəmbəri ﷺ itirdiyinə görə uşaq kimi ağlamağa başlayır. Allahu Əkbər! Cansız bir əşya... – kötük, Peyğəmbəri ﷺ itirdiyinə görə ağlayır. Bu gün isə Peyğəmbərin ﷺ gətirdiyi hidayətin bir qismi itirilib, lakin heç kim buna görə ağlamır. Allah həm bizi, həm də sizi onu zikr etməyə, ona şükür etməyə və ona gözəl şəkildə ibadət etməyə müvəffəq etsin. Peyğəmbər ﷺ yerə enir, ana öz körpəsinə sığal çəkdiyi kimi, onu sığallayır, kötük də susur. Burada iki möcüzə vardır:

Birincisi, kötüyün Peyğəmbəri ﷺ itirdikdə nalə çəkməsi.

İkincisi, Peyğəmbərin ﷺ onu sakitləşdirdikdə susması.

Bunun bənzəri Musa عليه السلام ilə baş vermişdi. İsrail oğuları ona həddən ziyadə əziyyət vermişlər. İzzət və cəlal sahibi Allah buyurur: "**Ey iman gətirənlər! Musaya əziyyət verən kimsələr kimi olmayın. Allah onu onların dediklərindən təmizə çıxartdı".**[1] Qövmünün onun barəsində dedikləri sözlərdən biri də bu idi ki, "o, xayaları çox böyük olan adamdır". Bu da bir ayıb hesab olunurdu. Musa yuyunduqda örtünürdü, onlar isə bunu etmirdilər. Onlar dedilər ki, Musa ayıbı olduğu üçün örtünür. İzzət və cəlal sahibi Allah Musanın istəyi olmadan onda heç bir ayıb olmadığını bildirmək istədi.

Bir dəfə o, çimmək istəyərkən paltarını daşın üzərinə qoyur, daş da göyə qalxır. Musa onun ardınca qaça-qaça: "Daş, paltarım! Daş, paltarım!"– deyir. Yəni "ey daş, paltarımı ver". Daş isə uçmaqda davam edir. Bu vaxt Musa İsrail oğullarından bir toplum insanın qarşısına çıxır. Daş dayanır, Musa da onu vurmağa başlayır. Çünki o, ağıllı insanın etdiyi bir hərəkəti edir. Ona görə də onu vurmaqla tərbiyələndirir. Buna bənzər əməli analar öz kiçik övladlarını tərbiyələndirmək məqsədilə edirlər. Onlar uşağa bir şey dəyib ağrıtdıqda həmin əşyanı vururlar ki, uşaq sussun və rahatlansın. Əgər bu uşağı sakitləşdirirsə, bunu etməkdə bir qəbahət yoxdur. Daha doğrusunu Allah bilir.

[1] "əl-Əhzab" surəsi, 69.

١٨٣٢– وعنْ أبي ثَعْلَبَةَ الخُشَنِيِّ جَرْثُومِ بنِ نَاشِرٍ رضي الله عنه عنْ رَسُولِ اللَّه ﷺ قال: إن اللَّه تعالى فَرَضَ فَرائِضَ فلا تُضَيِّعُوهَا، وحدَّ حُدُوداً فَلا تَعْتَدُوهَا، وحَرَّم أشْياءَ فَلا تَنْتَهِكُوها، وَسكَتَ عَنْ أشْياءَ رَحْمةً لَكُمْ غَيْرَ نِسْيانٍ فَلا تَبْحثُوا عنها » حديثٌ حسن، رواه الدَّارقُطْني وَغَيْرَهُ.

1832. Əbu Sələbə əl-Xuşəni Cərsum ibn Naşirdən رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Uca Allah fərzlər buyurmuşdur, – onları itirməyin! Müəyyən sərhədlər qoymuşdur, – onu aşmayın! Üstəlik bəzi şeyləri haram buyurmuşdur, – onları etməyin! Bəzi şeylər barədə isə unutmamış, sadəcə sizə mərhəmət edərək onlar haqqında susmuşdur, – onları araşdırmayın!"**

Bu, həsən hədisdir, onu Daraqutni və başqaları rəvayət etmişlər.[1]

Şərh:

Bu hədis də Nəvəvinin رحمه الله qeyd etdiyi hədislərdəndir. Rəsulullah ﷺ demişdir: **"Uca Allah fərzlər buyurmuşdur, – onları itirməyin! Müəyyən sərhədlər qoymuşdur, – onu aşmayın! Üstəlik bəzi şeyləri haram buyurmuşdur, – onları etməyin! Bəzi şeylər barədə isə unutmamış, sadəcə sizə mərhəmət edərək onlar haqqında susmuşdur, – onları araşdırmayın!"** Bu üç cümləni Peyğəmbər ﷺ qeyd etmiş və onların hökmünü açıqlamışdır:

Birinci: **"Allah fərzlər buyurmuşdur".**

İnsanlara fərz buyurulmuş ən böyük fərz tövhiddir. Allahdan başqa ibadət haqqına malik məbudun olmadığına və Muhəmmədin ﷺ Onun qulu və elçisi olmasına şəhadət gətirmək. İbadətdə Onu təkləşdirmək, Ondan başqa heç kimə ibadət olunmamasıdır. Belə ki, ondan başqa heç kəsə ibadət olunmaz. "Muhəmmədən Rəsulullah" şəhadətinə əsasən isə ona tabe olmaq gərəkdir. Bu, fərzlərin ən üstünüdür. Sonra isə namazlar, zəkat, oruc, həcc, valideynlərə qayğı, qohumlarla əlaqə, qonşularla gözəl rəftar, doğruluq, nəsihət və Uca Allahın öz qullarına fərz buyurduğu bir çox başqa fərzlər. Həmin fərzlərdən bəziləri bütün insanlara fərzdir, bəziləri isə bəzi insanlara fərzdir. Yəni bir qrup insan onu edərsə, başqalarına fərz olmur. Məsələn, beş vaxt namaz hər müsəlmana fərz buyurulmuşdur, cənazə namazını isə bəzi müsəlmanların qılması kifayətdir.

[1] "Mustədrək əl-Hakim", 4/129; əl-Beyhəqi, "Sunən əl-Kubra", 10/12; Daraqutni, 4/184; Təbərani, "əl-Kəbir", 22/222.

İkinci: **"Müəyyən sərhədlər qoymuşdur, – onu aşmayın!"** Yəni müəyyən şeylər üçün bir həd qoymuşdur. Məsələn, beş vaxt namazın müəyyən hədləri vardır ki, həmin hədlər onların vaxtıdır: zöhr, günəş zeniti keçən vaxtdan əşyanın kölgəsinin özü boyda olan vaxtadəkdir; əsr, bu vaxtdan günəş batanadək, yaxud daha yaxşısı, gün batan yer saralanadəkdir; məğrib, gün batandan qırmızı şəfəq itənədək; işa, qırmızı şəfəq itəndən gecə yarıyadək; fəcr isə sübh çıxandan günəş çıxanadəkdir. Bunlar namazın vaxt hədlərdir. Orucun da hədləri var: Sübh vaxtından gün batanadək. Həcc də müəyyən aylarda və bəlli yerlərdə fərzdir. Bu minvalla.

"Onları aşmayın", yəni onları keçməyin. İzzət və cəlal sahibi Allah buyurur: **"Allahın qoyduğu hüdudları aşan kimsə özünə zülm etmiş olar".**[1]**; "Allahın *qoyduğu* hüdudları aşanlar – məhz onlar zalımlardır".**[2]

Üçüncü: "**Bəzi şeylər barədə isə unutmamış, sadəcə sizə mərhəmət edərək onlar haqqında susmuşdur, – onları araşdırmayın!"**

O bəzi şeylər barədə susmuşdur – onları bizlərə nə vacib etməyib, nə də haram buyurmayıb. Əgər istəsəydi, istədiklərini bizə vacib edər, istədiklərini də haram buyurardı. Lakin O, bəzi şeylər barəsində susmuşdur. Əgər Onun mərhəməti olmasaydı, bizlərə onu vacib edərdi. Buna nümunə olaraq beş vaxt namazı misal gətirirəm. İlk əvvəl Allah biz qullarına bir gün və gecə (bir sutka) ərzində əlli vaxt namaz qılmağı buyurmuşdu. Sonra Uca Allah bunu yüngülləşdirmiş və onu əməldə beş vaxt, tərəzidə isə əlli vaxt namaz buyurmuşdur. Buna bənzər bir çox əməllər də vardır ki, Allah istəsəydi onları da bizə vacib edərdi.

Peyğəmbərin ﷺ **"Bəzi şeylər barədə isə... susmuşdur"** sözü Sünnə və camaat əhlinin dediyinə uyğundur – Allah eşidilən səslə danışacaq. Çünki susmaq danışmağın əksidir. Uca və Böyük Allah istədiyi vaxt istədiyi sözləri istədiyi şəkildə danışandır. Biz isə Onun necə danışdığını, nə zaman danışdığını, üstəlik nə ilə danışdığını da bilmirik. Lakin biz iman gətiririk ki, Allah bir şeyin var olmasını dilədikdə ona: "Ol!" deyir, o da olur. Bu səbəbdən də izzət və cəlal sahibi Allahın kəlmələri sonsuzdur. Uca Allah buyurur: "**Əgər yer üzündəki bütün ağaclar qələm olsaydı",** yəni yer üzündəki bütün ağaclar qələmlərə çevrilsəydi, **"dəniz də *mürəkkəb olub***

[1] "ət-Talaq" surəsi, 1.

[2] "əl-Bəqərə" surəsi, 229.

ardından ona yeddi dəniz də qatılsaydı, yenə də Allahın Sözləri qurtarmazdı. Həqiqətən, Allah Qüdrətlidir, Hikmət sahibidir".[1] Yenə izzət və cəlal sahibi Allah buyurur: «**De: "Əgər Rəbbimin Sözlərini yazmaq üçün dəniz mürəkkəb olsaydı və bir o qədər də ona əlavə etsəydik belə, Rəbbimin Sözləri qurtarmadan öncə dənizin *suyu* qurtarardı"**».[2]

١٨٣٣– وعنْ عَبدِ اللَّهِ بن أبي أوْفي ﵄ قال: غَزَوْنَا مع رَسُولِ اللَّه ﷺ سَبْعَ غَزَوَاتٍ نَأكُلُ الجرادَ.وفي روايةٍ: نَأْكُلُ معهُ الجَراد، متفقٌ عليه.

1833. Abdullah ibn Əbu Əufədən ﵄ rəvayət olunur ki, o demişdir: "Peyğəmbərlə ﷺ birlikdə yeddi döyüşdə iştirak etdik. Həmin döyüşlərdə çəyirtkə yeyirdik".

Başqa bir rəvayətdə: "Onunla birlikdə çəyirtkə yeyirdik".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

١٨٣٤– وعَنْ أبي هُرَيْرةَ ﵁ أنَّ النبي ﷺ قَال: « لا يُلْدغُ المُؤمِنُ مِنْ جُحْرٍ مرَّتَيْنِ » متفقٌ عليه.

1834. Əbu Hureyradan ﵁ nəql olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Mömin bir yuvadan iki dəfə sancılmaz".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[4]

Şərh:

Müəllif ﵀ Abdullah ibn Əbu Əufədən ﵄ nəql olunmuş hədisi qeyd edir. Həmin hədisdə o demişdir: "Peyğəmbərlə ﷺ birlikdə yeddi döyüşdə iştirak etdik. Həmin döyüşlərdə çəyirtkə yeyirdik".

Çəyirtkənin nə olduğu bəllidir. Onu həm diri, həm də ölü halında yemək halaldır. Peyğəmbər ﷺ demişdir: **"Bizə iki leş və iki qan halal edildi: iki leş balıq və çəyirtkədir".**[5] Buna görə də onu kəsməyə ehtiyac yoxdur. Çünki o ovdur. Məkkədə olduqda onu ovlamaq və ya yerindən

[1] "Loğman" surəsi, 27.

[2] "əl-Kəhf" surəsi, 109.

[3] "Səhih əl-Buxari", 5071; "Səhih Muslim", 3610.

[4] "Səhih əl-Buxari", 5668; "Səhih Muslim", 5318.

[5] "Sunən İbn Macə", 3305.

uçurtmaq qadağandır. İki il bundan öncə Məkkədə Ramazan ayında çəyirtkələr yayılmışdı. Uşaqlar da Haram ərazisində onları tuturdular. Bu caiz deyil və haramdır. Kiminsə Haram ərazisində onu ovladığını gördükdə həmin adamı danlamaq və bunu qadağan etmək gərəkdir. Çünki o ovdur və qadağandır. Məkkədə onu ovlamaq caiz deyildir. Onu və ya quşları uçurtmaq da olmaz.

Bu da dəlildir ki, səhabələr Rəsulullahın ﷺ təsdiq etdiyi şeyləri dəlil götürürdülər. Yəni onların gördüyü bir işi Peyğəmbər ﷺ görüb susdusa, bu, halal sayılır. Bu elə belədir. Çünki Peyğəmbər ﷺ onlara qadağan edə bilər, onlara: "Bunu etməyin!" deyə bilərdi. Onun sakit durması bu işin caizliyinə dəlildir.

Əbu Hureyradan nəql olunan hədisdə isə Peyğəmbər ﷺ demişdir: **"Mömin bir yuvadan iki dəfə sancılmaz".**

Sancma ilanın sancmasıdır. Mömin olan kəs də ağıllıdır – bir yuvadan iki dəfə sancılmır. Yəni onun gördüyü işdə başına bir iş gəldisə həmin işi bir daha görməməlidir. Çünki o, ayıq-sayıq olmalıdır. Bir yuvadan sancıldıqda anlayır ki, burada fayda yoxdur və onu tərk edir. Mömin olan kəs bir yuvadan iki dəfə sancılmır. Çünki o, ağıllıdır, zəkalıdır, aldanmamalıdır, hiyləyə uymamalıdır. Bu da dəlildir ki, insan gərək ayıq-sayıq olsun, bir zərərlə üzləşdikdə onu ikinci dəfə etməsin, gərək mömin olsun, çünki bu, imanın kamilliyindəndir. Müvəffəq edən Allahdır.

١٨٣٥– وَعنْهُ قَال: قَال رسُولُ اللَّهِ ﷺ: « ثَلاثَةٌ لاَ يُكَلِّمُهُمُ اللَّه يَوْمَ الْقِيَامةِ وَلاَ ينْظُرُ إِلَيْهِمْ وَلا يُزَكِّيهِمْ ولَهُمْ عذابٌ أَلِيمٌ: رجُلٌ علَى فَضْلِ ماءٍ بِالْفَلاةِ يمْنَعُهُ مِن ابْنِ السَّبِيلِ، ورَجُلٌ بَايَع رجُلاً سِلْعَةً بعْد الْعَصْرِ، فَحَلَفَ بِاللَّهِ لأَخَذَهَا بكَذَا وَكَذا، فَصَدَّقَهُ وَهُوَ عَلى غيْرِ ذَلِكَ، ورَجُلٌ بَايع إِمَاماً لا يُبايِعُهُ إِلاَّ لِدُنيَا، فَإِنْ أَعْطَاهُ مِنْهَا وفي، وإِنْ لَم يُعْطِهِ مِنْهَا لَمْ يَفِ » متفقٌ عليه.

1835. Yenə Əbu Hureyradan رضي الله عنه nəql olunur ki, Rəsulullah ﷺ demişdir: **"Allah Qiyamət günü üç şəxsi danışdırmaz, ona baxmaz, onu təmizə çıxarmaz və ona ağrıdıcı əzab verər: çöllükdə yoldan keçənə suyunun artığını qadağan edən kəsə; birisinə bir malı əsrdən sonra satıb onu filan qiymətə aldığını Allaha and içən kəsə. Həmin adam da ona inanır, əslində isə elə olmur; bir də yalnız dünya məqsədilə imama beyət edən kəsə – imam ona bir şey verərsə vəfalı olar, verməzsə vəfalı olmaz".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Bu hədisi Hafiz ən-Nəvəvi ﵀ "Salehlər bağçası" əsərində qeyd etmiş və xəbər vermişdir ki, Rəsulullah ﷺ demişdir: **"Allah Qiyamət günü üç şəxsi danışdırmaz, ona baxmaz, onu təmizə çıxarmaz və ona ağrıdıcı əzab verər"**.

"Üç nəfər", yəni üç adam deyil, üç sinif insana. Ola bilsin ki, onlar bu vəsflərə malik böyük toplumlar olsunlar:

Birincisi: "**çöllükdə yoldan keçənə suyunun artığını qadağan edən kəsə"**. Yəni birinin çöllükdə quyu, bağ və ya başqa növ suyu var. Oradan keçən insanlar həmin sudan içmək istəyirlər, o isə bunu onlara qadağan edir. Allah qorusun. Beləsini Allah Qiyamət günü danışdırmaz, ona baxmaz, onu təmizə çıxarmaz və ona ağrıdıcı əzab verər.

İkincisi: adamın biri əsrdən sonra başqasına mal satır, alıcıya da yalandan and içir ki, həmin mala bu qədər verib. Müştəri də onu satıcının sözünə inanaraq alır, aldıqdan sonra isə məlum olur ki, belə deyil. Beləsini də Allah Qiyamət günü danışdırmaz, ona baxmaz, onu təmizə çıxarmaz və ona ağrıdıcı əzab verər. Peyğəmbər ﷺ əsr vaxtını ona görə vurğulayıb ki, çünki o gündüzün ən əfzəl vaxtıdır. Ancaq insan hər hansı bir məhsul üçün başqa bir vaxtda da yalandan and içərsə, Allah onu Qiyamət günü danışdırmaz, ona baxmaz, onu təmizə çıxarmaz və ona ağrıdıcı əzab verər.

Muslimin Əbu Zərdən ﵁ rəvayət etdiyi hədisdə isə Peyğəmbər ﷺ: **"Qiyamət günü Allah üç şəxsi danışdırmaz, onlara baxmaz, onları təmizə çıxarmaz və onlara ağrıdıcı əzab verər"**– dedi və bu sözləri üç dəfə təkrar etdi. Əbu Zər dedi: "Bu bədbəxt və xəsarətə uğrayanlar kimlərdir, ey Allahın elçisi?" Dedi:

Birinci: **"Libasının balağını uzadan".** Yəni libasını topuğundan aşağı uzadan.

İkinci: **"Minnət qoyan".** Yəni insanlara minnət qoyan. Əgər onlara mal versə, yaxud onları öyrətsə və ya yaxşılıq etsə, onlara minnət qoyar.

[1] "Səhih əl-Buxari", 2476; "Səhih Muslim", 157.

Üçüncü: **"Yalandan and içməklə mal satan"**. Yəni yalandan and içir ki, məhsulunun qiymətini artırsın. Bu da dəlildir ki, Əbu Hureyranın ﷺ hədisində əsr vaxtının qeyd olunması əzabın olduqca şiddətli olacağına işarədir. Əks halda, istənilən bir vaxtda malının qiymətini artırmaq məqsədilə yalandan and içərək məhsul satan kəsi Allah Qiyamət günü danışdırmaz, ona baxmaz, onu təmizə çıxarmaz və ona ağrıdıcı əzab verər.

Üçüncüsü: Əbu Hureyranın ﷺ hədisində deyilir ki, "**bir də yalnız dünya məqsədilə imama beyət edən kəsə – imam ona bir şey verərsə, vəfalı olar, verməzsə, vəfalı olmaz"**. Beləsini də Allah Qiyamət günü danışdırmaz, ona baxmaz, onu təmizə çıxarmaz və ona ağrıdıcı əzab verər. Çünki rəhbərə beyət etmək vacibdir. Hər bir müsəlmanın imamı olmalıdır. İstər bu raşidi xəlifələrin və onlardan sonrakıların zamanında olduğu kimi ümumi imam olsun, yaxud da müəyyən bir bölgənin imamı olsun. Necə ki, günümüzdə vəziyyət belədir. Artıq uzun zamandır ki, dörd xəlifənin zamanından sonra müsəlmanlar təfriqəyə düşüblər – hər tərəfin öz imamı var. Müsəlmanların icmasına görə, onların sözü eşidilməli və onlara itaət olunmalıdır. Müsəlmanlardan heç kim deməyib ki, onlara itaət etmək vacib deyil. Yalnız bütün müsəlman ölkələrinin *onun bayrağı altında birləşdiyi* vahid xəlifəsi olarsa, bu istisnadır. Bunu heç kim deyə bilməz. Çünki bunu deyərsə, müsəlmanların nə rəhbəri olar, nə də imamı. İnsanların da hamısı cahiliyyət ölümü ilə ölmüş olarlar. Çünki imamı olmadan insan ölərsə, cahiliyyət ölümü ilə ölmüş olur. Onlar özlərinə risalələr gəlməmiş, daha öncə mövcud olmuş cahiliyyə əhli ilə həşr olunar. Allah qorusun.

Hər bir zamanda hər bir məntəqənin imamı olur. Məsələn, Səudiyyə Ərəbistanında bizim imamımız Səud ailəsidir. Gərək onlara beyət edək. İzzət və cəlal sahibi Allaha qarşı asilik istisna olmaqla, onlara itaət etməyimiz vacibdir. Onlar bizim imamlarımızdır. Biz Uca Allaha onlara itaət etməklə tabe oluruq. Etiqad edirik ki, onlara beyət etmək boynumuzun borcudur. Bu ölkədə insanlardan kimsə bundan fərqli bir əqidə üzərində ölərsə, cahiliyyət ölümü ilə ölmüş olar. Çünki o, imansız ölmüş olur. Misir və digər müsəlman ölkələrində olanlar da belədir. Hər kəsin müəyyən bir rəhbəri var və hakimiyyət də onun əlindədir. Əgər desək ki, bütün müsəlmanlara rəhbərlik *edəcək* imamdan savayı imam yoxdur, onda bu gün bir dənə də olsun rəhbər qalmaz, müsəlmanların da hamısı cahiliyyət ölümü üzərində ölmüş olarlar. Allah qorusun.

Hədisdə zikr edilən bu adam da öz imamına din üçün deyil, dünya üçün beyət etmişdir. O, bunu aləmlərin Rəbbi olan Allaha itaət məqsədilə etməmişdir. Ona pul verildikdə vəfalı olar, vermədikdə isə vəfalı olmaz. Öz nəfsi istəklərinə tabe olan bu adam rəhbərinə itaət edib ona tabe olanlardan sayılmaz. Əksinə, o, beyətini nəfsi istəklər üzərində qurmuşdur.

Ola bilsin, kimsə desin ki, biz rəhbərə beyət etməmişik. Məgər hər kəs ona *əlbəəl* beyət etməlidir?

Deyirik: Bu, batil şeytani şübhədir. Məgər səhabələr Əbu Bəkrə beyət edən zaman hər kəs, hətta öz evində olan qocalar və bazardakı satıcılar da ona beyət etmişdilər?! Xeyr! Beyəti bir qisim səlahiyyətli insan edir. Onlar beyət etdikdə həmin məntəqənin əhalisi istəsələr də, istəməsələr də beyət etmiş sayılırlar. İnanmıram ki, müsəlmanlardan kimsə və ya ağıllı olan bir kəs desin ki, hər bir insan, hətta evində olan qoca, yaşlı və uşaqlar da beyət etməlidir. Bunu heç kim deməmişdir. Hətta qərb ölkələrində demokratiya iddia edənlər və ya başqaları da bunu deməyib. Baxmayaraq ki, onlar yalançıdırlar və keçirdikləri seçkilər də saxta və yalan üzərində keçirilir. Onlar yalnız öz istəklərini həyata keçirirlər.

İslam dinində isə səlahiyyətli şəxslər imam barəsində ittifaq edirsə, həmin rəhbər digər insanların istəyib-istəməməsindən asılı olmayaraq qəbul olunur. İşlər həmin səlahiyyətli nümayəndələrin əli ilə həyata keçirilir. Əgər iş ümumən insanlara, o cümlədən kiçiklərə, böyüklərə, yaşlılara verilsə, o zaman müəyyən bir rəyi olmayana belə rəhbərlik edən olmalıdır. Belə deyilərsə, o zaman insanların vahid imamı olmaz. Çünki insanların ixtilaf etməsi labüddür və onların yekdil rəydə olması qeyri-mümkündür. Səlahiyyətli nümayəndələr müəyyən bir şəxsin rəhbər olması barədə ittifaq etdikdə isə həmin şəxs rəhbər hesab olunur və ona itaət olunmalıdır. İnsan da ölməmişdən öncə ona itaət etməlidir. Etməsə, cahiliyyət ölümü ilə ölmüş olur. Allah qorusun.

Xülasə, *hədisdə sadalanan* bu üç şey insanda olarsa, Allah onu Qiyamət günü danışdırmayacaq, ona nəzər salmayacaq, onu təmizə çıxarmayacaq və ona ağrıdıcı bir əzab verəcək.

Bu hədis dəlildir ki, izzət və cəlal sahibi Allahın Kəlam sifəti vardır. Sünnə və camaat əhlinin məzhəbinə görə belədir ki, Uca Allah kəlam sifəti ilə vəsf olunur. Allah istədiyi kimi, istədiyi formada danışır və bunun qarşısını heç kim ala bilməz: **"Bir şeyi *yaratmaq* istədikdə ona təkcə: "Ol!"**

deyər, o da olar".[1]; "Göylərdə və yerdə Allahdan qaçıb xilas ola biləcək heç bir şey yoxdur. Həqiqətən, O, *hər şeyi* biləndir, *hər şeyə* qadirdir".[2]

Hədisdəki **"Allah onları danışdırmaz"** sözü dəlildir ki, O, başqalarını danışdıracaq. Bu bir həqiqətdir.

Həmçinin burada bildirilir ki, Allah iki cür nəzər salır:

Birinci, ümumidir. Uca və böyük Allahın nəzərindən heç bir şey qaça bilməz, O, hər şeyi görür.

İkinci, xüsusidir. Bu, mərhəmət baxışıdır ki, hədisdə o, istisna olunur.

Həmçinin bu dəlildir ki, Allah öz qullarını təmizə çıxaracaqdır. Uca Allah buyurur: **"Lakin Allah istədiyini təmizə çıxardır".[3]** O, işləri, şəxsləri, əşyaları, əməlləri təmizə çıxarır. O, izzət və cəlal sahibidir, aləmlərin Rəbbidir. Uca Allahdan diləyirəm ki, bizləri və sizləri təmizə çıxartdığı qullarından etsin. Şübhəsiz ki, O, hər şeyə qadirdir.

١٨٣٦– وَعَنْهُ عن النَّبِيِّ ﷺ قَالَ: « بَيْنَ النَّفْخَتَيْنِ أرْبعُونَ » قَالُوا يا أبَا هُرَيْرةَ، أرْبَعُونَ يَوْماً؟ قَالَ: أبَيْتُ، قالُوا: أرْبعُونَ سَنَةً؟ قَال: أبَيْتُ. قَالُوا: أرْبَعُونَ شَهْراً؟ قَال: أبَيْتُ « وَيَبْلَى كُلُّ شَيءٍ مِنَ الإنْسَانِ إلاَّ عَجْبَ الذَّنَبِ، فِيهِ يُرَكَّبُ الْخَلْقُ، ثُمَّ يُنَزِّلُ اللَّه مِنَ السَّمَآءِ مَاءً، فَيَنْبُتُونَ كَمَا يَنْبُتُ الْبَقْلُ » متفقٌ عليه.

1836. Yenə Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, Peyğəmbər ﷺ dedi: **"İki surun arasında qırx vardır".** Dedilər: "Ey Əbu Hureyra, qırx gün?" Dedi: "Razı deyiləm". Dedilər: "Qırx il?" Dedi: "Razı deyiləm". Dedilər: "Qırx ay?" Dedi: "Razı deyiləm" və davam etdi: **"İnsan bədənində bütün üzvlər məhv olur, yalnız "əcbəz-zənb" deyilən fəqərədən başqa. İnsanlar onlardan diriləcək. Sonra Uca Allah səmadan su endirəcək və yerdən paxla bitdiyi kimi, onlar da çıxacaqlar"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[4]

١٨٣٧– وَعَنْهُ قَالَ بيْنَمَا النَّبِيُّ ﷺ في مَجْلِسٍ يُحَدِّثُ الْقَوْمَ، جاءَهُ أعْرابِيٌّ فَقَالَ: مَتَى السَّاعَةُ؟ فَمَضَى رسُولُ اللَّه ﷺ يُحَدِّثُ، فقَال بَعْضُ الْقَوْمِ: سَمِعَ مَا قَالَ، فَكَرِه ما قَالَ،

[1] "Yasin" surəsi, 82.

[2] "Fatir" surəsi, 44.

[3] "ən-Nur" surəsi, 21.

[4] "Səhih əl-Buxari", 4554; "Səhih Muslim", 5253.

وقَالَ بَعْضُهُمْ: بَلْ لَمْ يَسْمَعْ، حَتَّى إِذَا قَضَى حَدِيثَهُ قَالَ: « أَيْنَ السَّائِلُ عَنِ السَّاعَةِ؟ » قَالَ: ها أَنَا يَا رسُولَ اللَّه، قَالَ: « إِذَا ضُيِّعَتِ الأَمَانةُ فانْتَظِرِ السَّاعةَ » قَالَ: كَيْفَ إِضَاعَتُهَا؟ قَالَ: إِذَا وُسِّد الأَمْرُ إِلى غَيْرِ أَهْلِهِ فَانْتَظِرِ السَّاعة » رواهُ البُخاري.

1837. Yenə Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ bir məclisdə bir qövmlə danışarkən bir bədəvi gəlib dedi: "Saat nə zaman olacaq?" Rəsulullah ﷺ da söhbətinə davam etdi. İnsanlardan bəzisi dedi: "Onun dediyini eşitdi", yaxud "onun dediyi xoşuna gəlmədi". Bəziləri də dedilər: "Yox, eşitmədi". O, söhbətini bitirdikdə soruşdu: **"Saat barəsində soruşan haradadır?"** Dedi: "Buradayam, ey Allahın elçisi". Dedi: **"Əmanət itdikdə Qiyaməti gözlə".** Dedi: "O necə itə bilər?" Dedi: **"İş layiq olmayan adama tapşırıldıqda Qiyaməti gözlə".**

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

١٨٣٨– وعنْهُ أنَّ رسُول اللَّه ﷺ قَالَ: « يُصَلُّونَ لَكُمْ، فَإِنْ أصَابُوا فَلَكُمْ، وإِنْ أخْطئُوا فَلَكُمْ وَعَلَيْهِمْ » رواهُ البُخاريُّ.

1838. Yenə Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Sizə namaz qıldırarlar. Əgər doğru etsələr, sizə qismət olar. Səhv etmiş olsalar isə sizin lehinizə, onların isə əleyhinə olar".**

Bu hədisi Buxari rəvayət etmişdir.[2]

١٨٣٩– وَعَنْهُ ﷺ: { كُنْتُمْ خَيْرَ أُمَّةٍ أخْرِجَتْ لِلنَّاسِ } قَالَ: خَيْرُ النَّاسِ لِلنَّاسِ يَأْتُونَ بِهِمْ فِي السَّلاسِلِ فِي أعْنَاقِهِمْ حَتَّى يَدْخُلُوا فِي الإِسْلامِ.

1839. Yenə Əbu Hureyradan ﷺ rəvayət olunur ki, o **"İnsanlar üçün çıxarılmış ən xeyirli ümmət idiniz"** *ayəsi haqqında* dedi: "İnsanlardan insanlara qarşı ən xeyirli olanları İslama daxil olanadək boyunlarına zəncir asılmış vəziyyətdə gətirəcəklər".

Bu hədisi Buxari rəvayət etmişdir.[3]

---

[1] "Səhih əl-Buxari", 57.

[2] "Səhih əl-Buxari", 653.

[3] "Səhih əl-Buxari", 4191.

١٨٤٠– وَعَنْهُ عَن النَّبيِّ ﷺ قَال: « عَجبَ اللَّه عَزَّ وَجَلَّ مِنْ قَوْمٍ يَدْخُلُونَ الْجَنَّةَ في السَّلاسِلِ » رواهُما البُخاري. معناها يؤسرون ويقيدون ثم يسلمون فيدخلون الجنة.

1840. Yenə Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"İzzət və cəlal sahibi Allah zəncirlərlə Cənnətə girəcək kəslərə təəccüb edər"**.

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

Yəni onlar əsir götürülüb zəncirlənəcək, sonra isə azad olunub Cənnətə daxil olacaqlar.

Şərh:

Bu hədislər də **"Müxtəlif çeşiddə seçilmiş mövzular kitabı"** fəslinə aiddir. Onların bir çoxu barəsində daha öncə söhbət açmışdıq. Növbəti dörd hədis də Əbu Hureyradan رضي الله عنه nəql olunur ki, onlardan birində Peyğəmbər ﷺ demişdir: **"İki sur arasında qırx vardır".** Yəni sura üfürüləcək zaman.

Sura üfürmək mələklərdən olan İsrafilə tapşırılmışdır. Sura birinci dəfə üfürüldükdə insanlar onun dəhşətindən diksinib atılacaq, yıxılaraq öləcəklər. Bu xüsusda Uca Allah buyurur: **"Sur üfürüləcəyi gün Allahın istədiklərindən başqa, göylərdə və yerdə olanlar dəhşətə düşəcək və hamısı Onun hüzuruna baş əyərək gələcəkdir".**[2] Yenə O buyurur: "**Sur üfürüləcək və Allahın istədiyi kimsələrdən başqa göylərdə və yerdə kim varsa, hamısı öləcək. Sonra bir daha ona üfürülən kimi onlar qalxıb baxacaqlar".**[3]

Birinci üfürmədə qorxu və ildırım, yəni ölüm və fanilik baş verəcək.

İkinci üfürmədə insanlar qalxacaqlar: "**... onlar qalxıb baxacaqlar".** Onlar məzarlarından qalxaraq nə baş verdiyinə baxacaqlar. Çünki Uca Allah bundan öncə onların üzərinə kişinin spermasına bənzər qatı bir yağış göndərəcək, onlar da torpaqdan cücərən dən kimi yerdən çıxacaqlar. İnsanlar belə diriləcəklər.

---

[1] "Səhih əl-Buxari", 2788.

[2] "ən-Nəml" surəsi, 87.

[3] "əz-Zumər" surəsi, 68.

İkinci dəfə sur çalınması ilə hər bir nəfs (ruh) Allahın izni ilə qalxıb dünyada onunla birlikdə olduğu cəsədin üzərinə gedəcək və əsla səhv etməyəcək. Əzəmətli Rəbbimiz nöqsansızdır! Diriləcəklərin sayını Allahdan başqa heç kim bilməz. Onların ruhları çıxaraq dünyada birlikdə olduqları öz cəsədlərinə doğru gedəcək və səhv etməyəcək.

"İki sur arasında qırx vardır". Əbu Hureyradan soruşurlar ki, qırx gün? Dedi: "Razı deyiləm", yəni bilmirəm. Dedilər: "Qırx il?" Dedi: "Razı deyiləm, bilmirəm". Dedilər: "Qırx ay?" Dedi: "Razı deyiləm".

Peyğəmbər ﷺ deyib ki, onların arasında qırx vardır. Biz də Peyğəmbərin ﷺ dediyi kimi deyirik. Daha doğrusunu Allah bilir. Əsas odur ki, sur çalınacaq. İnsanlar da dirilərək aləmlərin Rəbbinin hüzurunda haqq-hesab olunacaq, hər biri də etdiyi günahlara görə cavab verəcək. İzzət və cəlal sahibi Allah fəzilət və ədalətlə hökm verəcək və zülm etməyəcək. Belə ki, haqq-hesab zamanı ya zülm olur, ya da ədalət və fəzilət. İzzət və cəlal sahibi Allahın haqq-hesabı isə fəzilətlə ədalət arasında olur. İzzət və cəlal sahibi Allah buyurur: "**O gün heç kəsə zülm edilməyəcək. Sizə ancaq etdiyiniz əməllərin əvəzi veriləcəkdir".**[1]

İkinci hədisdə bir bədəvi Peyğəmbərin ﷺ yanına gələrək soruşur ki: "Saat nə zamandır?" Həmin vaxt da Peyğəmbər ﷺ səhabələri ilə danışırdı. O, söhbətinə davam etdi və onu saxlamaq istəmədi. Sanki o, – daha doğrusunu Allah bilir, – ardıcıl bir söhbət idi. İnsanlar dedilər: "O onun dediyini eşitdi, lakin *söz onun* xoşuna gəlmədi". Birinin verdiyi sualdan xoşlanmayan insan onu eşitsə belə, cavab verməyə bilər. Çünki ola bilsin, sualı verən hikmətli, yaxud fəhmli birisi olmasın, münasib olmayan bir sual soruşsun. Bu zaman soruşulan şəxs suala cavab verməyə bilər. Başqaları isə: "Ola bilsin, o, sualı eşitməyib"– dedilər. Peyğəmbər ﷺ söhbətini bitirib dedi: **"Sual verən haradadır?"** Dedi: "Burdayam, ey Allahın elçisi". Dedi: **"Əmanət itdikdə Qiyaməti gözlə".** Dedi: "O necə itə bilər?" Dedi: **"İş layiq olmayan adama tapşırıldıqda Qiyaməti gözlə".** Yəni vəziyyət pisliyə doğru dəyişdikdə və işlər öz sahiblərinə deyil, başqalarına tapşırıldıqda – fətvanı cahillər verdikdə, rəhbərliyi səfehlər etdikdə, idarəçiliyi idarəetmədən elmi olmayanlar etdikdə və beləcə.

[1] "Yasin" surəsi, 54.

Xülasə, insanlar korlandıqda Saatı gözlə, çünki Qiyamət ən pis insanların üzərində qopacaq. Bu da əmanətin itirilməsindən çəkinməyin gərək olmasına dəlildir. Gərək vəzifəyə ona layiq olan kəslər gətirilsin. Çünki bu, əmanətdən hesab olunur.

Üçüncü hədisdə isə Peyğəmbər ﷺ xəbər vermişdir ki, rəhbərlər olacaqdır ki, onlar sizə namaz qıldırırlar. Doğru söylədikləri şeylərdə onlara itaət olunmalıdır, səhv dediklərində isə günah onlara aiddir.

Bu söz məscid imamlarına da aiddir: **"Onlar sizə namaz qıldırarlar".** Onlar namazlarını qılsalar və onu lazımi şəkildə icra etsələr, itaət edin. Yox, əgər belə olmasa, bunun günahı onlara aiddir. Yəni onların günah iş tutmalarının sizə dəxli yoxdur. Əksinə, pislik onların özünə aid olar. Bu da dəlildir ki, əmr sahibinə səbir etmək lazımdır. Namazda nöqsanlı olsalar, yaxud namazı bizə əvvəl vaxtında qıldırmasalar belə, onu gecikdirdiyimizə görə biz günah qazanmırıq və üzrlü sayılırıq. Çünki biz ayrılmamalı və camaatla bir olmalıyıq.

Burada əmr sahiblərindən ayrılmaq, uzaqlaşmaq, insanları buna təşviq etmək, onların səhvlərini yaymağın İslam dinindən olmadığına işarə olunur. İslam dini xeyir və ədaləti əmr edir, şəri və fəsadı isə qadağan edir. Uca Allah buyurur: **"Ey iman gətirənlər! Allah üçün *haqqı* qoruyan, ədalətlə şahidlik edən kimsələr olun".**[1] Onun pisliyi barədə danışıldıqda yaxşılığı barədə də danışılmalıdır. Yalnız səhvləri barədə danışmaq zülm və haqsızlıqdır. İzzət və cəlal sahibi Allah isə zülmü sevmir: **"Bir qövmə qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır".**[2]

Əbu Hureyradan رضي الله عنه nəql olunan dördüncü hədis isə belədir: **"İzzət və cəlal sahibi Allah zəncirlərlə Cəhənnəmə girəcək kəslərə təəccüb edər".**

Müəllif Hafiz ən-Nəvəvi رحمه الله bunu belə açıqlayıb ki, onlar kafir bir qövm idi, əsir düşüb sonra azad olunurlar. Yəni bu əsarət onların İslama gəlmələrinə və Cənnətə daxil olmalarına səbəb olacaq. Müvəffəq edən Allahdır.

١٨٤١– وَعنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: « أَحَبُّ الْبِلاَدِ إِلى اللَّه مَساجِدُهَا، وأَبْغضُ الْبِلاَدِ إِلى اللَّه أَسواقُهَا » رواهُ مُسلم.

[1] "əl-Maidə" surəsi, 8.

[2] "əl-Maidə" surəsi, 8.

1841. Yenə Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Allah üçün şəhərlərin ən sevimli yerləri məscidlər, Allahın şəhərlərdə ən sevmədiyi yerləri isə bazarlardır".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٨٤٢– وَعَنْ سَلْمَانَ الْفَارِسِيِّ ﷺ منْ قَولِهِ قَال: لاَ تَكُونَنَّ إن اسْتَطعْتَ أَوَّلَ مَنْ يَدْخُلُ السُّوقَ، وَلا آخِرَ مَنْ يَخْرُجُ مِنْهَا، فَإِنَّهَا مَعْرَكَةُ الشَّيْطَانِ، وَبِهَا ينْصُبُ رَايَتَهُ. رواهُ مسلم هكذا.

ورَوَاهُ البرْقَانِي في صحيحه عَنْ سَلْمَانَ قَالَ: قَالَ رسُولُ اللَّه ﷺ: « لا تَكُنْ أَوَّلَ مَنْ يَدْخُلُ السُّوقَ، وَلا آخِرَ منْ يخْرُجُ مِنْهَا، فِيهَا بَاضَ الشَّيْطَانُ وَفَرَّخَ ».

1842. Salman əl-Farisinin ﷺ belə dediyi nəql edilir ki, "Çalış, bazara ilk daxil olan kəs olma, oradan da ən axırda çıxan kəs olma. Çünki ora şeytanın meydanıdır, bayrağını da ora sancar".

Bu hədisi bu cür Muslim rəvayət etmişdir.[2]

əl-Bərqani öz "Səhih"ində Salmandan ﷺ belə rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Çalış, bazara ilk daxil olan kəs olma, oradan axırıncı çıxan da olma. Şeytan orada yumurta qoyub balalayır"**.[3]

١٨٤٣– وعَنْ عاصِم الأَحْوَلِ عَنْ عَبْدِ اللَّه بنِ سَرْجِسَ ﷺ قَالَ: قُلْتُ لِرَسُولِ اللَّه ﷺ: يَا رَسُولَ اللَّه غَفَرَ اللَّه لكَ، قَالَ: « وَلَكَ » قَالَ عَاصِمٌ: فَقلْتُ لَهُ: اسْتَغْفَرَ لَكَ رَسُولُ اللَّه ﷺ ؟ قَالَ: نَعَمْ وَلَكَ، ثُمَّ تَلاَ هَذه الآيةَ: { واستغفِرْ لِذَنْبِكَ وِلِلْمُؤْمِنِينَ والمُؤْمِناتِ} [محمد: ١٩]، رَواهُ مُسلم.

1843. Asim ibn Əhval Abdullah ibn Sərcəsdən ﷺ nəql edərək demişdir: "Mən Rəsulullaha ﷺ dedim: "Ey Allahın elçisi, Allah səni bağışlasın". Dedi: **"Səni də".** Asim deyir ki, mən ona dedim: "Rəsulullah ﷺ sənin üçün bağışlanma dilədi?" Dedi: "Bəli, səni də *dedi*". Sonra da bu ayəni

[1] "Səhih Muslim", 1076.

[2] "Səhih Muslim", 4489.

[3] Təbərani, "Mocəm əl-kəbir", 6/248; Deyləmi, "Musnəd əl-Firdəus", 5/71; Beyhəqi, "Şuəbul-iman", 7/379; Heysəmi, "Məcmə əz-zəvaid", 4/77.

oxudu: **“Həm öz günahın üçün, həm də mömin kişilər və mömin qadınlar üçün bağışlanma dilə”.**[1]

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١٨٤٤– وَعَنْ أبي مسْعُودٍ الأنْصَارِيِّ رضي الله عنه قَالَ: قَالَ النَّبيُّ ﷺ: « إنَّ مِمَّا أدْرَكَ النَّاسُ مِنْ كَلامِ النُّبُوَّةِ الأولَى: إذَا لَمْ تَسْتَحِ فَاصْنعْ مَا شِئْتَ » رواهُ البُخَاريُّ.

1844. Əbu Məsud əl-Ənsaridən رضي الله عنه nəql olunur ki, Peyğəmbər ﷺ demişdir: **“İlk peyğəmbərlik kəlamından insanlara gəlib çatan söz budur: Əgər utanmırsansa, istədiyini et”.**

Bu hədisi Buxari rəvayət etmişdir.[3]

Şərh:

Bunlar Hafiz ən-Nəvəvinin رحمه الله öz əsərini onunla bitirdiyi bu fəsildəki hədislərdir. Həmin hədislərin birində Əbu Hureyradan رضي الله عنه nəql olunur ki, Peyğəmbər ﷺ demişdir: **“Allah üçün şəhərlərin ən sevimli yerləri məscidlər, Allahın şəhərlərdə ən sevmədiyi yerlər isə bazarlardır”.**

Məscidlər izzət və cəlal sahibi Allaha məxsusdur. Buna görə də Uca Allah onları Özünə nisbət edərək buyurur: **“Allahın məscidlərində Onun adının zikr edilməsinə maneçilik törədənlərdən və onların viranə qalmasına çalışanlardan daha zalım kim ola bilər?!”**[4] O həmçinin buyurur: **“*Bu nur* Allahın, tikilib ucaldılmasına və içində Öz adının zikr edilməsinə izin verdiyi evlərdədir. *Mömin kişilər* orada səhər-axşam Ona tərifl ər deyirlər”.**[5] Odur ki, məscidlər Allahın ən çox sevdiyi məkanlardır. Çünki o, Allahın zikr olunduğu, Ona ibadət olunduğu, şəriətinin oxunduğu və digər dini və dünyavi mənfəətlərin icra olunduğu yerdir. Ona görə də orada insanın öz malından sərf etməsi ən xeyirli sədəqələrdən hesab olunur. Orada malından sərf etmək davamlı sədəqə sayılır. Bu da insanın öz xəzinələrini qurban verməsindən, yemək paylamasından, yaxud buna bənzər başqa əməllərdən daha əfzəldir. Əgər insan yığdığı malını məscid

[1] “Muhəmməd” surəsi, 19.

[2] “Səhih Muslim”, 4329.

[3] “Səhih əl-Buxari”, 3224.

[4] “əl-Bəqərə” surəsi, 114.

[5] “ən-Nur” surəsi, 36.

inşasına və ya onun təmirinə sərf edərsə, bu daha xeyirli olar. Çünki məscid davamlı, qalıcı və ümumi sədəqədir. Bütün müsəlmanlar ondan faydalanırlar – namaz qılanlar, dərs alanlar, öyrənənlər, müəllimlər, soyuq və ya istidən ora sığınanlar və başqaları.

Bazarlar isə şeytanların məskənidir. Allah qorusun. Orada şeytanlar yumurta qoyub balalayır, orada bayrağını sancır və çadırını salır. Çünki Allahın dilədiyi hallar istisna olmaqla, alış-veriş bazarlarında adətən hiylə, xəyanət, yalan and və buna bənzər əməllər baş verir. Bu səbəbdən də izzət və cəlal sahibi Allahın ən çox xoşlamadığı yerlər bazarlardır.

Bu hədis dəlildir ki, Uca Allah sevir və nifrət edir. Sünnə və camaat əhlinin üsullarındandır ki, biz Uca Allahın sevməsinə və nifrət etməsinə iman gətiririk. Uca və nöqsansız Allah kamil sifətlərlə vəsf olunur. O yalnız xeyirli və faydalı işləri sevir, pis işlərə isə nifrət edir.

Daha sonra isə...

Salmanın ﵁ hədisində nəql olunduğu kimi, gərək insan bazara birinci və ya sonuncu daxil olan kəs olmasın. Əksinə, gərək oraya daxil olub işini gördükdən sonra çıxıb getsin. Çünki ora Allahın ən çox nifrət etdiyi məkandır. Orada qadınlarla kişilər bir-birinə qarışır, haram baxışlar, haram sözlər və başqa əməllər baş verir.

Abdullah ibn Sərcisin ﵁ hədisində isə o, Peyğəmbərdən ﷺ onun üçün bağışlanma diləməsini istəyir, Peyğəmbər ﷺ də ona cavab verir. O dedi: "Mənim üçün bağışlanma dilə, ey Allahın elçisi". O da onun istəyinə cavab verdi. Bu da dəlildir ki, Peyğəmbər ﷺ başqaları kimi deyil – ondan belə dua edilməsini istəmək olar: "Ey Allahın elçisi, mənim üçün bağışlanma dilə". Bunu da yalnız o sağ ikən etmək olar. Onun vəfatından sonra isə bunu etmək olmaz. Bunu edən kəs müşrik və kafirdir. Uca Allah öz peyğəmbərinə ﷺ əmr etmişdir ki, mömin kişilər və mömin qadınlar üçün bağışlanma diləsin. O buyurur: **"Sən həm öz günahlarının, həm də mömin kişilərlə mömin qadınların bağışlanmasını dilə".**[1] Bağışlanma da odur ki, Uca Allah qulun ayıbını örtür, onun günahlarını insanlardan gizlədir, onu bağışlayır, əfv edir. Çünki bağışlanma örtməkdən qorumaqdan götürülmüşdür.

[1] "Muhəmməd" surəsi, 19.

١٨٤٥– وَعَنْ ابْنِ مَسْعُودٍ ﷺ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: « أَوَّلُ مَا يُقْضَى بَيْنَ النَّاسِ يوْمَ الْقِيَامةِ فِي الدِّمَاءِ » مُتَّفَقٌ علَيْهِ.

1845. İbn Məsuddan ﷺ nəql olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Qiyamət günü insanlar arasında ilk əvvəl qanlar barəsində hökm veriləcək"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Bu hədis Hafiz ən-Nəvəvinin ﷺ qeyd etdiyi hədislərdəndir. Həmin hədisdə Abdullah ibn Məsuddan rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Qiyamət günü insanlar arasında ilk əvvəl qanlar barəsində hökm veriləcək".**

Uca Allah qullarını bir-birindən ayıraraq onlar arasında hökm verəcək. Allahın hökmü ilə Özü və onların arasında hökm ədalət və fəzilətlə veriləcəkdir: ya ədalətlə veriləcək, ya da fəzilətlə. İnsanların öz aralarındakı hökm isə yalnız ədalətlə veriləcək – hər bir insana öz haqqı heç bir artırmaya və ya əksiltməyə yol vermədən veriləcəkdir.

Allahın haqlarından insanın ilk əvvəl soruşulacağı əməl namazdır. Əgər namazı qaydasında olarsa, nicata çatıb qələbə çalar. Yox, əgər namazı qaydasında olmazsa, o başqa əməllərini də itirmiş olar. Çünki namazı olmayanın nə yaxşı işlərə dəvəti, nə də pis işlərdən çəkinməyi olar. Uca Allah buyurur: **"Kitabdan sənə vəhy olunanları oxuyub namaz qıl. Həqiqətən, namaz çirkin və yaramaz işlərdən çəkindirir".**[2]

İnsanlar arasında isə barəsində hökm veriləcək ilk şey qanlar və qətllər olacaq, sonra da mal-dövlət və namus məsələləri. Qətl bəzən haqla olur, bəzən də haqsız. Burada nəzərdə tutulan haqsız yerə baş vermiş qətldir və insanlar arasında ilk öncə məhz bu barədə hökm veriləcək.

Bu hədis Qiyamət günü hökmlərin veriləcəyinə dəlildir. Gərək haqqı tapdalanmış hər bir məzluma öz haqqı verilsin. Lakin burada məsələlər vardır: Adam, tövbə edib peşman olduqdan sonra qeybətini etdiyi, ona böhtan atdığı və barəsində sair bu kimi əməllər etdiyi birisinin yanına gəlib

[1] "Səhih əl-Buxari", 6052; "Səhih Muslim", 3178.

[2] "əl-Ənkəbut" surəsi, 45.

ondan halallıq istəyərək deyir: "Halallıq ver, mən düz etməmişəm. İndi mən Allahdan bağışlanma diləyərək tövbə edirəm". Bununla o üzrxahlıq edərək ondan halallıq istəyir. Haqq sahibi isə ona halallıq vermir və deyir ki, bağışlamıram, mən Qiyamət günü səndən haqqımı tələb edəcəyəm!

Biz deyirik: Allah həmin qulun səmimi şəkildə tövbə etdiyini bilsə, onu bağışlamaq istəməyən adamın haqqını onun üzərindən götürmüş olur. Buna bənzər başqa bir əməl də borcdur. Bir insanla sənin aranda mübahisə baş verərsə və sən ona pul verməli olduğunu danarsansa, həmin pul sənin boynunda qalar. Sən ona olan borcunu inkar etdikdən sonra tövbə edərək borcunu etiraf etsən və onun yanına gedib desən ki: "Ey filankəs, mən əvvəl sənə olan borcumu inkar etmişdim, indi isə Allaha tövbə edirəm, etdiyim əmələ görə də peşmanam. Haqqını götür!" Həmin adam da desə ki, "götürmürəm, qoy Qiyamət günü Allah bizim aramızda hökm versin", o zaman biz deyirik: Əgər Allah sənin tövbəndə niyyətinin səmimi olduğunu bilsə, sənin üzərindən həmin günahı götürər. Yəni həmkarını razı salar. Lakin sən həmin malı onun adından sədəqə ver ki, ondan azad olasan.

Məsələn, sənin ona yüz rial borcun var idi. Sonra peşman olub Allahdan bağışlanma diləyərək ona deyirsən ki, al, bu sənin yüz rialındır, götür. Əgər o desə ki, "xeyr, mən Qiyamət günü bunun əvəzində sənin yaxşı əməllərindən götürəcəyəm", bu zaman *borcunu qaytarmaq istəyənə* deyirik: Əgər Allah sənin niyyətinin səmimi olduğunu bilərsə, sən günah qazanmış olmursan, həmin günah da sənin üzərindən götürülmüş olur. Ancaq sən də həmin yüz rialı həmkarının adından sədəqə ver ki, ondan yaxa qurtarasan.

١٨٤٦– وَعَنْ عَائِشَةَ ﵂ قَالَتْ: قَالَ رَسُولُ اللَّه ﷺ: « خُلِقَتِ المَلَائِكَةُ مِنْ نُورٍ، وَخلِقَ الجَانُّ مِنْ مَارِجٍ منْ نَارٍ، وخُلِق آدمُ ممَّا وُصِفَ لَكُمْ » رواهُ مسلم.

1846. Aişənin ﵂ belə dediyi rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Mələklər nurdan xəlq olunmuşdur, cinlər isə tüstüsüz oddan yaradılmışlar. Adəm isə sizə vəsf olunmuş şeydən yaranmışdır".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

[1] "Səhih Muslim", 5314.

١٨٤٧– وَعنْهَا ﵂ قَالَتْ: « كَانَ خُلُقُ نبي اللَّه ﷺ الْقُرْآنَ » رواهُ مُسْلِم في جُمْلَةِ حدِيثٍ طويلٍ.

1847. Yenə Aişədən ﵂ rəvayət olunur ki, o demişdir: "Allahın Peyğəmbərinin ﷺ əxlaqı Quran idi".

Bu ifadəni Muslim uzun bir hədisdə qeyd etmişdir.[1]

١٨٤٨– وَعَنْهَا قَالَتْ: قَالَ رَسُولُ اللَّه ﷺ: « مَنْ أحَبَّ لِقاءَ اللَّهِ أحبَّ اللَّه لِقَاءَهُ، وَمنْ كَرِهَ لِقاءَ اللَّه كَرِهَ اللَّه لِقَاءَهُ » فَقُلْتُ: يَا رسُولَ اللَّه، أكَرَاهِيَةُ الموْتِ؟ فَكُلُّنَا نَكْرَهُ الموْتَ، قَالَ: « لَيْس كَذَلِكَ، وَلَكِنَّ الْمُؤمِنَ إذَا بُشِّر بِرَحْمَةِ اللَّه وَرِضْوانِهِ وَجنَّتِهِ أحَبَّ لِقَاءَ اللَّه، فَأَحَبَّ اللَّه لِقَاءَهُ وإنَّ الْكَافِرَ إذَا بُشِّرَ بعَذابِ اللَّه وَسَخَطِهِ، كَرِهَ لِقَاءَ اللَّه، وَكَرِهَ اللَّه لِقَاءَهُ» .رواه مسلم.

1848. Yenə Aişənin ﵂ belə dediyi rəvayət olunur ki, Rəsulullah ﷺ dedi: **"Kim Allahla görüşmək istəyərsə, Allah da onunla görüşmək istəyər. Kim də Allahla görüşmək istəməzsə, Allah da onunla görüşmək istəməz"**. Mən soruşdum: "Ey Allahın elçisi, bəs ölümə nifrət etmək necə? Axı hamımız ölümə nifrət edirik". Dedi: **"Xeyr, elə deyil. Əgər mömin Allahın rəhməti, razılığı və Cənnəti ilə müjdələnərsə, Allahla görüşmək istəyər, Allah da onunla görüşmək istəyər. Allahın əzabı və qəzəbi ilə müjdələnən kafir isə Allahla görüşmək istəməz, Allah da onunla görüşmək istəməz".**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

Şərh:

Bu hədislər də bu fəsildə qeyd olunan hədislərdəndir. Aişədən ﵂ nəql olunan hədisdə Peyğəmbər ﷺ yaradılışın əvvəli barədə belə xəbər vermişdir ki, mələklər nurdan yaradılmışlar. Ona görə də hamısı xeyirlidirlər, Allaha asi olmurlar. Ona ibadət etməyə nə təkəbbürlük edirlər, nə də ki, usanırlar. Gecə-gündüz Allahı zikr edirlər. Deməli, mələklər nurdan yaradılmışlar.

[1] "Səhih Muslim", 1233.

[2] "Səhih Muslim", 4845.

Şeytan cinlər isə oddan yaranmışlar. Bu da dəlildir ki, cinlər Adəmə səcdə etməyə təkəbbürlük göstərmiş böyük şeytanın zürriyyətindəndirlər. O demişdi: **"Mən ondan daha üstünəm. Çünki Sən məni oddan, onu isə palçıqdan yaratmısan".**[1] Bütün cinlər də oddan yaranmışlar. Ona görə də onların arasında bacardıqları kəsə vəsvəsə etmək və ədavət salmaq geniş vüsət almışdır. Lakin kim gecə vaxtı "Kürsü" ayəsini oxuyarsa, Allah onu qoruyar və səhərədək şeytan ona yaxınlaşa bilməz.

"Adəm isə sizə vəsf olunan şeydən yaradılmışdır", yəni palçıqdan, torpaqdan, saxsıya bənzər gildən xəlq olunmuşdur. Çünki torpaq palçığa çevrilir və gil yaranır. Adəm də ondan yaranmışdır. Uca Allah buyurur: **"Biz sizi torpaqdan yaratdıq. Sizi ora qaytaracaq və bir daha oradan çıxardacağıq".**[2]

Aişədən ﵂ nəql olunmuş ikinci hədisdə o demişdir: "Peyğəmbərin ﷺ əxlaqı Quran idi". Yəni o, Quran əxlaqını daşıyırdı. Quran nəyi əmr edirdisə, onu edir, Quran nəyi qadağan edirdisə, ondan çəkinirdi. İstər bu Allaha ibadətdə olsun, istərsə də Allahın qulları ilə müamələsində. Peyğəmbərin ﷺ əxlaqı Quran idi. Burada möminlərin anası Aişədən ﵂ işarə vardır ki, bizlər Peyğəmbərin ﷺ əxlaqına yiyələnmək istəyiriksə, gərək Quran əxlaqına tabe olaq. Çünki o, Peyğəmbərin ﷺ əxlaqı idi.

Üçüncü hədisdə Aişədən ﵂ nəql olunur ki, Peyğəmbər ﷺ dedi: **"Kim Allahla görüşmək istəyərsə, Allah da onunla görüşmək istəyər. Kim də Allahla görüşmək istəməzsə, Allah da onunla görüşmək istəməz"**. Mən soruşdum: "Ey Allahın elçisi, bəs ölümə nifrət etmək necə? Axı hamımız ölümə nifrət edirik". Peyğəmbər ﷺ də xəbər verir ki: **"Xeyr, elə deyil. Əgər mömin Allahın rəhməti, razılığı və Cənnəti ilə müjdələnərsə, Allahla görüşmək istəyər, Allah da onunla görüşmək istəyər".** Belə ki, mömin olan kəs inanır ki, Allah möminlərə Cənnətdə böyük savab, bol nemətlər hazırlamışdır. O da bunu istəyir, dünya isə onun gözündə dəyərsizləşir. Çünki o, daha xeyirli bir həyata qədəm basacaqdır. Bu zaman da o, Allahla görüşmək istəyər. Ələlxüsus da ölüm vaxtı. O, razılıq və rəhmətlə müjdələnərsə, izzət və cəlal sahibi Allahla görüşmək istəyər, Onun üçün darıxar, Allah da onunla görüşmək istəyər.

---

[1] "əl-Əraf" surəsi, 12.

[2] "Ta ha" surəsi, 55.

“Allahın əzabı və qəzəbi ilə müjdələnən kafir isə Allahla görüşmək istəməz, Allah da onunla görüşmək istəməz”. Allah qorusun. Bu səbəbdən müxtəsər bir hədisdə deyilir ki: “Kafir adam qəzəblə, əzabla müjdələndikdə onun ruhu cəsədindən çıxmaq istəməz. Ona görə də onun ruhu cəsədindən qarmaq yunun arasından onu cıra-cıra çıxdığı kimi, zorla çıxarılar. Yəni, onun ruhu çıxmaq istəməz, cünki o, – Allah qorusun – pis bir aqibətlə müjdələnmişdir. Uca Allah buyurur: **“Zalımları ölüm girdabında olduqda, mələklərin də əllərini uzadıb onlara: “Canınızı çıxarın! Allaha qarşı nahaq sözlər söylədiyinizə və Onun ayələrinə təkəbbür göstərdiyinizə görə bu gün siz cəzalandırılacaqsınız!”– *dediklərini* bircə görəydin”.**[1] Onlar, Allah qorusun, özlərinə qarşı xəsisdirlər. Ruhları çıxmaq istəmir, mələklər isə deyirlər: “Özünüzü çıxarın!” Pis xəbərlə müjdələnənlərin ruhları cəsədin fərqli yerlərinə yayılarlar. Bu zaman tük nəm yunun içərisindən dartılıb çıxarıldığı kimi, mələklər də onların ruhlarını dartıb zorla cəsəddən çıxararlar. Allah qorusun.

Xülasə, mömin Allahla görüşmək istəyir. Çünki o, izzət və cəlal sahibi Allahı, Onun savabını, nemətlərini sevir. O, Allahla görüşməyi xüsusən də ölüm anında istəyir. Allahım, bizləri Sənlə görüşmək istəyən qullarından et! Ey aləmlərin Rəbbi, bizlərə gözəl sonluq nəsib et! Sübhəsiz ki, Sən hər şeyə Qadirsən.

١٨٤٩– وَعَنْ أُمِّ الْمُؤْمِنِينَ صَفِيَّةَ بِنْتِ حُيَيٍّ ﵂ قَالَتْ: كَانَ النَّبِيُّ ﷺ مُعْتَكِفاً، فَأَتَيْتُهُ أَزُورُهُ لَيْلاً. فَحَدَّثْتُهُ ثُمَّ قُمْتُ لأَنْقَلِب، فَقَامَ مَعِي لِيَقْلِبَنِي، فَمَرَّ رَجُلانِ مِنَ الأَنْصارِ ﵄، فَلَمَّا رَأَيَا النَّبِيَّ ﷺ أَسْرعَا. فَقَالَ ﷺ: « عَلَى رِسْلِكُمَا إِنَّهَا صَفِيَّةُ بنتُ حُيَيٍّ » فَقالاَ: سُبْحَانَ اللَّه يَارسُولَ اللَّه، فَقَالَ: « إِنَّ الشَّيْطَانَ يَجْرِي مِنْ ابْنِ آدَمَ مَجْرَى الدَّمِ، وَإِنِّي خَشِيتُ أَنْ يَقذِفَ فِي قُلُوبِكُمَا شَرا أَوْ قَالَ: شَيْئاً » متفقٌ عليه.

1849. Möminlərin anası Safiyyə bint Huyeydən ﵂ nəql olunur ki, o demişdir: “Bir dəfə Peyğəmbər ﷺ etikafda idi. Mən gecə vaxtı onu ziyarət etməyə gəldim. Onunla söhbət etdikdən sonra çıxıb getmək üçün qalxdım, o da məni yola salmaq üçün qalxdı. Bu vaxt oradan ənsarlardan iki nəfər

[1] “əl-Ənam” surəsi, 93.

keçirdi. Onlar Peyğəmbəri ﷺ gördükdə addımlarını sürətləndirdilər. Peyğəmbər ﷺ onlara səsləndi: **"Ayaq saxlayın, bu Safiyyə bint Huyeydir"**. Onlar dedilər: "Sübhanallah, ey Allahın elçisi". Peyğəmbər ﷺ dedi: **"Şübhəsiz ki, şeytan Adəm övladının bədənində qan kimi hərəkət edir. Mən qorxdum ki, sizin qəlbinizə şübhə və ya nə isə atar".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Müəllifin ﷺ zikr etdiyi bu hədis möminlərin anası Safiyyə bint Huyeydən رضي الله عنها rəvayət olunmuşdur.

Bir dəfə Ramazan ayında Peyğəmbər ﷺ etikafda idi. Onu da qeyd edək ki, etikaf yalnız Ramazan ayında olur. Peyğəmbər ﷺ Ramazan xaricində yalnız bir il etikaf etmişdi. Belə ki, Ramazanda etikaf edə bilmədiyi üçün Şəvval ayında onu qəza etmişdi. Bundan başqa isə o, öz ümmətinə yalnız Ramazan ayında etikaf etməyi buyurmuşdur. Etikaf məhz Qədr gecəsinə nail olunması üçün edilirdi. Peyğəmbər ﷺ Ramazan ayının ilk on gününü Qədr gecəsinə nail olması üçün etikaf edərdi. Sonra orta on günü etikaf edərdi. Sonra ona dedilər ki, o, son on gündədir, o da son on gündə etikaf etdi.

Ömərdən رضي الله عنه rəvayət olunan hədisdə isə o, Peyğəmbərə ﷺ deyir ki, o, Məscidul-haramda bir gecə və ya bir gün etikaf etməyi nəzir edib. Peyğəmbər ﷺ də buyurur ki, **"Nəzirini həyata keçir"**. Bu dəlil deyil ki, digər günlərdə də etikaf etmək icazəlidir, sadəcə dəlildir ki, etikafa nəzir etdikdə ona əməl etmək gərəkdir. Yəni nəzirinə əməl edən adam günah qazanmır. Ancaq Sünnəyə görə etikaf yalnız Ramazan ayının son on günündə edilməlidir. Peyğəmbər ﷺ də Ramazan ayının son on günündə etikaf etmişdir.

Etikaf, Allaha itaət məqsədilə məsciddə qalmaqdır. Bu zaman insan vaxtını yalnız ibadətə sərf edir və başqa işlə məşğul olmur. Bəzi etikafda olanlar vaxtlarını mənasız söhbətlər keçirməklə hədər edirlər. Onların əməlləri bu ibadətin məqsədinə uyğun deyil.

Bir dəfə gecə vaxtı Safiyyə رضي الله عنها Peyğəmbər ﷺ etikafda olarkən onun yanına gəlib onunla söhbət edir. O, Peyğəmbərin ﷺ zövcəsi idi. İnsan etikafda olarkən öz ailəsi ilə danışa bilər. Bu ülfət, məhəbbət və mərhəmətin

[1] "Səhih əl-Buxari", 3039; "Səhih Muslim", 4041.

göstəricisidir. Sonra o evə getmək üçün ayağa qalxır. Peyğəmbər ﷺ də ailəsi ilə ən gözəl davranan insan idi. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Sizlərin ən xeyirliniz ailəsinə qarşı xeyirli olanınızdır. Mən də sizlərdən ailəsinə qarşı ən xeyirli olanınızam".**[1] Peyğəmbər ﷺ onu evə ötürmək üçün ayağa qalxır. Bu zaman oradan ənsarlardan iki nəfər keçirdi. Onlar Peyğəmbəri gördükdə utanıb xəcalət çəkdilər. Peyğəmbər ﷺ dedi: **"Ayaq saxlayın"**, yəni tələsməyin, **"bu, Safiyyə bint Huyeydir"**. O belə dedi ki, insanlar düşünməsinlər ki, gecə vaxtı Peyğəmbərin ﷺ yanına qadın gəlib. Çünki həmin vaxt insanların evdə olduqları və dincəldikləri vaxtdır. Onlar dedilər: "Sübhanallah!" Onlar Peyğəmbərin ﷺ bu sözləri deməsinə təəccübləndilər. Peyğəmbər ﷺ isə buyurdu: **"Şübhəsiz ki, şeytan insanın bədənində qan kimi hərəkət edir".** Yəni, qan insanın damarlarında hərəkət etdiyi kimi, onun qəlbinə və damarlarına çatır. [Hədisin ərəbcəsində işlənən] "məcra" sözü məkan ismidir. Yəni qanın hərəkət etdiyi yerdə. **"Mən qorxdum ki, sizin qəlbinizə şübhə və ya nə isə atar".**

Bu hədisdə bir sıra faydalar vardır:

Onlardan biri Peyğəmbərin ﷺ öz ailəsinə qarşı gözəl münasibətidir.

Daha bir fayda, əri etikafda olan qadının öz ərini ziyarət etməsinin caizliyidir. Bu, etikafı batil etmir. Hətta fərz etsək ki, əri ona baxaraq həzz almışsa, yaxud buna bənzər başqa bir əməl edibsə belə, bunun etikafa zərəri olmur. Çünki Uca Allah etikaf vaxtı yalnız qadınlara yaxınlıq etməyi qadağan etmişdir.

Yenə bir fayda. Gecə və ya təhlükəli bir vaxt olduqda gərək adam öz ailəsini ötürsün.

Başqa bir fayda. Gərək insan qəlbə vəsvəsə salan işlərdən uzaqlaşsın. Məsələn, kiminsə onun barəsində pis düşünə biləcəyindən ehtiyat edirsə, gərək bunu aradan qaldırsın və ona həqiqəti desin ki, qəlbində şübhə yaranmasın.

Daha bir fayda insanın təəccübə səbəb olan bir şey gördükdə: "Sübhanallah" deməsidir. Necə ki, ənsarlar belə demişdilər və Peyğəmbər ﷺ də bunu iqrar etmişdi.

Yenə bir fayda Peyğəmbərin ﷺ öz ümmətinə qarşı şəfqətli olması və pisliyi onlardan dəf etməsidir.

---

[1] "Sunən ət-Tirmizi", 43830; "Sunən İbn Macə", 1967.

١٨٥٠– وَعَنْ أبي الفَضْل العبَّاسِ بنِ عَبْدِ المُطَّلِب ﷺ قَالَ: شَهِدْتُ مَعَ رسُولِ اللَّه ﷺ يَوْمَ حُنَين فَلَزِمْتُ أنَا وَأبُو سُفْيَانَ بنُ الحارِثِ بنِ عَبْدِ المُطَّلِبِ رَسُولِ اللَّه ﷺ لَمْ نفَارِقْهُ، ورَسُولُ اللَّه ﷺ علَى بغْلَةٍ لَهُ بَيْضَاءَ.

فَلَمَّا الْتَقَى المُسْلِمُونَ وَالمُشْرِكُونَ وَلَّى المُسْلِمُونَ مُدْبِرِينَ، فَطَفِقَ رسُولُ اللَّه ﷺ، يَرْكُضُ بَغْلَتَهُ قِبل الْكُفَّارِ، وأنَا آخِذٌ بِلِجَامِ بَغْلَةِ رَسُولِ اللَّه ﷺ أَكُفُّهَا إرادَةَ أنْ لا تُسْرِعَ، وأبو سُفْيانَ آخِذٌ بِركَابِ رَسُولِ اللَّه ﷺ.

فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: « أيْ عبَّاسُ نادِ أصْحَابَ السَّمُرةِ » قَالَ العبَّاسُ، وَكَانَ رَجُلاً صَيِّتاً: فَقُلْتُ بِأعْلَى صَوْتِي: أيْن أصْحابُ السَّمُرَةِ، فَو اللَّه لَكَأنَّ عَطْفَتَهُمْ حِينَ سَمِعُوا صَوْتِي عَطْفَةَ الْبقرِ عَلَى أوْلادِهَا، فَقَالُوا: يالَبَّيْكَ يَالَبَّيْكَ، فَاقْتَتَلُوا هُمْ والْكُفَارُ، والدَّعْوةُ في الأنْصَارِ يقُولُونَ: يَا مَعْشَرَ الأنْصارِ، يا مَعْشَر الأنْصَار، ثُمَّ قَصُرَتِ الدَّعْوةُ عَلَى بنِي الْحَارِثِ بن الْخزْرَج.

فَنَظَرَ رَسُولُ اللَّه ﷺ وَهُوَ علَى بَغْلَتِهِ كَالمُتَطَاوِلِ علَيْهَا إلَى قِتَالِهِمْ فَقَال: « هَذَا حِينَ حَمِيَ الْوَطِيسُ » ثُمَّ أخَذَ رَسُولُ اللَّه ﷺ حصياتٍ، فَرَمَى بِهِنَّ وَجُوه الْكُفَّارِ، ثُمَّ قَال: «انْهَزَمُوا وَرَبِّ مُحَمَّدٍ » فَذَهَبْتُ أنْظُرُ فَإذَا الْقِتَالُ عَلَى هَيْئَتِهِ فِيما أرَى، فَواللَّه ما هُو إلاَّ أنْ رمَاهُمْ بِحَصَيَاتِهِ، فَمَازِلْتُ أرَى حدَّهُمْ كَليلاً، وأمْرَهُمْ مُدْبِراً. رواه مسلم.

« الوَطِيسُ » التَّنُّورُ. ومَعْنَاهُ: اشْتَدَّتِ الْحرْبُ. وَقَوْلُهُ: « حدَّهُمْ » هُوَ بِالحاءِ المُهْمَلَةِ أي: بأسَهُمْ.

1850. Əbul Fadl Abbas ibn Əbdul-Muttalibdən ﷺ rəvayət olunur ki, o demişdir: "Huneyn günü mən və Əbu Sufyan ibn Haris ibn Əbdül-Muttalib də Rəsulullahla ﷺ birlikdə idik. Peyğəmbər ﷺ ağ qatırının tərkində idi və biz ondan aralı deyildik. Müsəlmanlar müşriklərlə qarşılaşdıqda müsəlmanlar qaçdılar. Rəsulullah ﷺ isə qatırının üzərində müşriklərin üzərinə yürüməyə davam etdi. Mən Peyğəmbərin ﷺ qatırını tuturdum ki, tələsməsin. Əbu Sufyan da Rəsulullahın ﷺ miniyini tutmuşdu. Peyğəmbər ﷺ dedi: **"Ey Abbas, Səmura camaatını çağır!".** Abbas gur səsli biri idi. O deyir ki, mən uca səslə dedim: "Səmura camaatı haradadır?" Allaha and olsun ki, onlar mənim səsimi eşidər-eşitməz inək öz balalarının yanına gəldiyi kimi gəlib dedilər: "Hazırıq, hüzurundayıq". Onlar

kafirlərlə vuruşdular. Ənsarlardan bəziləri: "Ey ənsarlar, ey ənsarlar!"– deyə çağıraraq Haris ibn Xəzrəc oğullarını səsləyirdilər.

Peyğəmbər ﷺ miniyindən boylanaraq onların döyüşmələrinə baxdı və dedi: **"Bu, təndir qızan vaxtdır"**. Sonra Rəsulullah daşlar götürdü, onları kafirlərə doğru atdı və dedi: **"Muhəmmədin Rəbbinə and olsun ki, məğlub oldular"**. Gedib döyüşə baxıb gördüm ki, döyüş olduğu kimi davam edir. Allaha and olsun ki, o yalnız kafirlərə tərəf daşlar atdı. Bir də gördüm ki, onlar döyüşü dayandırıb qaçdılar".

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

[Hədisin ərəbcəsindəki] "əl-vatis" sözü "təndir"dir, döyüşün şiddətlənməsini bildirir. "həddəhum", yəni oxlarla.

Şərh:

Bu, Huneyn döyüşü barədə Abbasdan رضي الله عنه nəql olunmuş hədisdir.

Huneyn, yer adıdır və Peyğəmbər ﷺ orada səqiflilərlə döyüşmüşdür. Səhabələr Məkkəni həmin il, yəni hicrətin səkkizinci ilinin Ramazan ayında fəth etmişdilər. Onlarla birlikdə on min nəfər Məkkə xaricindən, iki min nəfər isə Məkkə əhlindən gəlmişdi. Onların toplam sayı on iki min nəfər idi. Onlardan bəziləri digərlərinə deyirdi ki, bu gün sayımız çox olduğu üçün məğlub olmayacağıq. Beləcə, saylarının çox olması onları qürrələndirdi. Lakin Uca Allah onlara bir daha göstərdi ki, qələbə yalnız Allahdandır. Çoxluq və güc Allahın qəza və qədərini önləyə bilməz.

Beləcə, onlar səqiflilərlə qarşılaşdılar. Səqiflilərin sayı üç min beş yüz nəfər idi, müsəlmanların sayı isə on iki min nəfər. Rəsulullah ﷺ da onlarla birlikdə idi. Huneyn vadisində səqiflilər müsəlmanlara pusqu qurub qəfil həmləyə keçdilər. Məlum məsələdir ki, pusqu qurulduqda bir tərəf önə keçir, digər tərəf məğlub olur. Səhabələr də məğlub duruma düşərək qaçmağa başladılar. Rəsulullahın ﷺ ətrafında on iki min nəfərdən sadəcə yüz nəfərə yaxın adam qaldı. Uca Allah buyurur: **"sonra geriyə çevrilib qaçdınız".**[2]

Ancaq Uca Allahın böyük şücaət bəxş etdiyi Muhəmməd özü irəli gedərək düşmənə tərəf yaxınlaşır və deyirdi: **"Mən Peyğəmbərəm, yalançı**

[1] "Səhih Muslim", 3324.

[2] "ət-Tövbə" surəsi, 25.

deyiləm, mən ibn Əbdül-Muttalibin oğluyam”. Beləcə, Peyğəmbər ﷺ onlara öyrədirdi. Sonra o səsi olduqca gur olan Abbasa əmr etdi ki, səhabələrə səslənsin ki, geri dönsünlər. O da çağırdı: “Ey Səmura əhli! Ey Səmura əhli! Ey Səmura əhli, gəlin, gəlin!!!”

Səmura, Hudeybiyyədə döyüşdən qaçmayacaqları ilə bağlı Rəsulullaha ﷺ altında beyət etdikləri ağacın adıdır. Onlar isə indi qaçırdılar. “Ey Səmura əhli!”– dedi və bu sözlə onlara heç zaman qaçmayacaqları barədə etdikləri bu beyəti xatırlatdı. Bu xüsusda Uca Allah buyurur: “**Möminlər *Hüdeybiyyədə* ağac altında sənə beyət edərkən Allah onlardan razı qaldı”.**[1]

Bu ayədə Uca Allah xəbər verir ki, onlardan razıdır. Peyğəmbər ﷺ də xəbər vermişdir ki: **“Ağac altında beyət etmiş kəs Cəhənnəmə daxil olmayacaq”.** Bu, onların nə az, nə də çox müddətə Cəhənnəm oduna daxil olmayacağı barədə bir müjdədir.

Abbas onlara: “Ey Səmura əhli!”– deyə səsləndi, onlar da: “Hazırıq, buradayıq”– dedilər. Onlar balalarına süd verməyə tələsən inəklər kimi tələsik gəldilər və yenidən düşmənə qarşı vuruşdular. Peyğəmbər ﷺ yerdən daşlar götürüb düşmənə tərəf atdı və dedi: “Muhəmmədin Rəbbinə and olsun ki, məğlub oldular!” Elə də oldu. Səqiflilər məğlub oldular, Peyğəmbər ﷺ də onlardan böyük qənimətlər – dəvələr, qoyunlar və çoxsaylı mal-dövlət götürdü.

Xülasə, bu hədis izzət və cəlal sahibi Allahın möcüzələrindəndir. Belə ki, Allah möminlərə Öz gücünü göstərdikdən sonra, işin kimin əlində olduğunu bildirdikdən sonra onlara yardım etdi və bildirdi ki, qələbə çoxluqla, güc-qüvvət, əzmkarlıqla olmur. Qələbəni verən izzət və cəlal sahibi Allahdır. Uca Allah buyurur: **“Həqiqətən, Allah əksər döyüşlərdə, habelə Huneyn günündə də sizə kömək etmişdi. O zaman çoxluğunuza aludə oldunuz, amma *bu* sizin karınıza gəlmədi. Yer üzü, genişliyinə baxmayaraq sizə dar gəldi, sonra geriyə çevrilib qaçdınız. Sonra Allah Öz Elçisinə və möminlərə əminlik nazil etdi, görə bilmədiyiniz döyüşçülər göndərdi və kafirlərə əzab verdi. Budur kafirlərin cəzası. Bundan sonra isə Allah istədiyinin tövbəsini qəbul edər. Çünki Allah Bağışlayandır, Rəhmlidir”.**[2]

---

[1] “əl-Fəth” surəsi, 18.

[2] “ət-Tövbə” surəsi, 25-27.

Bu hədisdə faydalar vardır:

Həmin faydalardan biri Peyğəmbərin ﷺ şücaəti və cürətidir. Belə ki, o, həm sözü, həm də əməli ilə düşmən üzərinə gedirdi. Əmələ gəlincə o, qatırının üstündə düşmənə tərəf qaçırdı. Sözlə isə o ucadan belə deyirdi: **"Mən peyğəmbərəm, yalançı deyiləm. Mən Əbdul-Muttalibin oğluyam"**.

Daha bir fayda odur ki, insan gərək öz gücünə, çoxluğuna, elminə, mal-dövlətinə, zəkasına və ağlına güvənməsin. Özünü bəyənən insan əksər hallarda Allahın izni ilə məğlub olur: çoxluğu ilə qürrələndikdə məğlub olur, elmi ilə qürrələndikdə zəlalətə düşür, ağlına güvəndikdə çaşır. Odur ki, özünü və ya malik olduğun hər hansı bir gücü bəyənmə. Əksinə, izzət və cəlal sahibi Allahdan yardım dilə, işi də Ona həvalə et ki, istədiyin iş tamamlansın.

Digər bir fayda qatır minməyin caiz olmasıdır. Qatır uzunqulaqla atdan törəyən heyvana deyilir. Erkək uzunqulaq dişi atla cütləşir və qatır dünyaya gəlir. Qatırın əti nəcis və haramdır. Lakin zahirən pakdır. Necə ki, pişiyin özü pak olsa da sidiyi və nəcisi murdardır. Qatırın da təri pakdır, minərkən ona toxunursa, o, pakdır. Belə ki, Peyğəmbər ﷺ, qatırı tərli olarkən onu minmişdir. Hətta bəzən yağış yağar, ancaq Peyğəmbər ﷺ onu minməkdən çəkinməzdi. Bu da onun pak olmasına dəlildir. Racih rəy budur.

Daha bir fayda odur ki, gərək insanları ürək-dirək verən sözlərlə səsləyəsən. Abbas insanları: "Ey möminlər, ey səhabələr!" sözləri ilə çağırmadı, o onları: "Ey Səmura əhli!"– deyə çağırdı. Çünki bu, onlara ürək-dirək verir və Rəsulullaha ﷺ etdikləri beyəti onlara xatırladırdı.

Daha bir fayda. Ola bilsin, Uca Allah batil mövqedə olan azsaylı kütləyə, haqq üzərində olan çoxsaylı topluma qarşı yardım edə bilər. Burada azsaylı toplum kafirlərdir. Onların sayı üç min beş yüz nəfər idi. Çoxsaylı toplum isə səhabələr idi. Rəsulullah ﷺ da onlarla birlikdə idi.

Buradan bir fayda da əldə olunur ki, müsəlmanlar sayca çox olduqları halda məğlub olsalar belə, aqibət müttəqilərə aiddir. Bu xüsusda Uca Allah buyurur: **"Səbir et! Şübhəsiz ki, *gözəl* aqibət müttəqilərindir".**[1] Müvəffəq edən Allahdır.

[1] "Hud" surəsi, 49.

١٨٥١– وعَنْ أبي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رسُولُ اللَّه ﷺ: « أيُّهَا النَّاسُ إنَّ اللَّه طيّبٌ لا يقْبلُ إلاَّ طيّباً، وَإنَّ اللَّه أمَر المُؤمِنِينَ بِمَا أمَر بِهِ المُرْسلِينَ، فَقَال تَعَالى: {يَا أيُّها الرُّسُلُ كُلُوا مِنَ الطَّيّباتِ واعملوا صَالحاً } وَقَال تَعالَى: { يَا أَيُّهَا الَّذِينَ آمنُوا كُلُوا مِنَ طَيّبَات مَا رزَقْنَاكُمْ } ثُمَّ ذَكَرَ الرَّجُلَ يُطِيلُ السَّفَر أشْعَثَ أغْبر يمُدُّ يدَيْهِ إلَى السَّمَاءِ: يَاربِّ يَارَبِّ، وَمَطْعَمُهُ حَرامٌ، ومَشْرَبُه حرَامٌ، ومَلْبسُهُ حرامٌ، وغُذِيَ بِالْحَرامِ، فَأَنَّى يُسْتَجابُ لِذَلِكَ؟ » رواه مسلم.

1851. Əbu Hureyradan ﷺ nəql olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Ey insanlar, şübhəsiz ki, Allah gözəldir və yalnız gözəli qəbul edir. Allah, elçilərinə əmr etdiyini möminlərə də əmr etmişdir. Uca Allah buyurur: "Ey rəsullarım, gözəl nemətlərdən yeyin və yaxşı işlər görün!" Yenə O buyurur: "Ey iman gətirənlər, sizə bəxş etdiyim gözəl nemətlərdən yeyin".** Sonra o ﷺ səfəri uzanan, üstü toz-torpaq, saçı dağınıq bir adamı zikr etdi: **"O, əlini səmaya qaldırıb: "Ey Rəbbim, ey Rəbbim!"– deyir, halbuki onun yediyi haram, içdiyi haramdır, özü də haramla bəslənir. Ona necə cavab verilsin?"**

Bu hədisi Muslim rəvayət etmişdir.

١٨٥٢– وَعنْهُ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّه ﷺ: « ثَلاثَةٌ لاَ يُكَلِّمُهُمْ اللَّه يوْمَ الْقِيَامةِ، وَلاَ يُزَكِّيهِمْ، وَلا ينْظُرُ إلَيْهِمْ، ولَهُمْ عذَابٌ أليمٌ: شَيْخٌ زَانٍ، ومَلِكٌ كَذَّابٌ، وَعَائِل مُسْتَكْبِرٌ » رواهُ مسلم. « الْعَائِلُ »: الْفَقِيرُ.

1852. Yenə Əbu Hureyradan ﷺ nəql edilir ki, Rəsulullah ﷺ demişdir: **"Üç şəxsi Qiyamət günü Allah danışdırmaz, onları təmizə çıxarmaz, onlara nəzər salmaz və onlar üçün ağrıdıcı bir əzab vardır: zinakar qoca, yalançı padşah və təkəbbürlü kasıb".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

[Hədisin ərəbcəsində keçən] "əl-Ail" sözü "kasıb" deməkdir.

Şərh:

Müəllifin ﷺ qeyd etdiyi hədislərin birində Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Üç şəxsi Qiyamət günü Allah**

[1] "Səhih Muslim", 156.

danışdırmaz, onları təmizə çıxarmaz, onlara nəzər salmaz və onlar üçün ağrıdıcı bir əzab vardır...".

Peyğəmbərin ﷺ adətindən, bəlağətindən və gözəl bəyanından idi ki, o, bəzən müəyyən məsələləri təfsilatı ilə qeyd edirdi ki, onları anlayıb öyrənmək asan olsun. Bəzən deyirdi ki, **"üç adamı Qiyamət günü Allah danışdırmaz"**, bəzən deyirdi ki, **"insanlardan iki sinif vardır ki..."**[1], bəzən də deyirdi ki, **"Qiyamət günü Onun kölgəsindən başqa heç bir kölgənin olmayacağı bir gündə Allah yeddi adamı öz kölgəsində yerləşdirəcək"**.[2] Buna bənzər misallar olduqca çoxdur. Çünki hər hansı bir məsələ təfsilatı və sayı ilə qeyd olunarsa, insan onu daha yaxşı anlayıb əzbərləyir və onu unutmur.

"Üç şəxsi", yəni üç sinif insanı. Yəni burada üç nəfər deyil, üç sinif insan nəzərdə tutulur.

"Allah onlarla Qiyamət günü danışmaz". Burada razılıqla danışmaq nəzərdə tutulur. Belə ki, izzət və cəlal sahibi Allah Cəhənnəm əhli ilə qəzəblə danışacaqdır. Cəhənnəm əhli: **"Ey Rəbbimiz, bizi oradan çıxart! Əgər bir də *günah işlərə* qayıtsaq, həqiqətən də zalım olarıq"**[3]– deyəcək, cavabında da **"*Allah* buyuracaq: "Orada alçalmış vəziyyətdə qalın və Mənə heç nə deməyin!"**[4]

Burada isə mərhəmət və razılıq danışdırması nəzərdə tutulur. Yəni bu üç nəfəri Allah Qiyamət günü danışdırmayacaq və onlara nəzər salmayacaq, yəni onlara mərhəmət, ikram, izzət nəzərləri ilə baxmayacaq. Əksinə, izzət və cəlal sahibi Allah onları alçaldacaq, onları təmizə çıxarmayacaq və onlar davamlı şəkildə bədbəxt olacaqlar. Allah qorusun!

Birincisi, **"zinakar qoca"**. Yəni yaşı çox olan zinakar. Beləsinin, Allah qorusun, zina etməsi gəncin zina etməsindən daha şiddətlidir. Çünki onun şəhvəti zəifdir. Gənc adamda isə şəhvət hissi daha güclüdür. Ola bilsin, fitrətcə onun şəhvəti güclü olsun və bu onun zinaya olan nifrətinə qalib gəlsin. Yaşlı adamın isə şəhvəti ölmüş (sönük) olur. Yaşlı adam zina edərsə, bu, onun xarab xislətli olmasını və zinanı sevməsini göstərir. Yəni güclü şəhvəti olmadığı halda zina edir.

---

[1] "Səhih Muslim", 100.

[2] "Səhih əl-Buxari", 620; "Səhih Muslim", 2313.

[3] "əl-Muminun" surəsi, 107.

[4] "əl-Muminun" surəsi, 108.

İkincisi, **"yalançı padşah"**. Padşah, yəni rəhbər, dediyini etmək səlahiyyəti və imkanı olan kəs. Bu xüsusda İbn əl-Vardi məşhur "Lamiyyə"-sində demişdir:

Rəhbərdən və onun qəzəbindən uzaq ol,
Dediyini edən adamla mübahisə etmə.

Rəhbər olan kəs deyir və edir. Onun yalan danışmağa ehtiyacı yoxdur. Ola bilsin, adi insanlar özlərini xilas etməkdən ötrü yalan danışmağa ehtiyac duysunlar, ancaq rəhbərin, padşahın isə yalan danışmağa ehtiyacı yoxdur. Əgər yalan danışarsa, o, Allahın Qiyamət günü danışdırmayacağı, nəzər salmayacağı, təmizə çıxarmayacağı, ağrıdıcı əzab verəcəyi kəslərdən olacaq. Allah qorusun.

Üçüncüsü, **"təkəbbürlü kasıb"**. Sübhanallah! Həm kasıbdır, həm də insanlar qarşısında təkəbbürlük edir. Ola bilsin, zəngin adam var-dövlətinə görə təkəbbürlük edir. İzzət və cəlal sahibi Allah bu xüsusda buyurur: **"Xeyr! İnsan, doğrudan da həddini aşır – özünün ehtiyacsız olduğunu zənn etdiyinə görə".**[1] Kasıbın isə insanlar qarşısında təkəbbürlük etməyə heç bir səbəbi yoxdur. Təkəbbürlük edərsə, bu onun xəbisliyinin, pis xislətli olmasının, habelə onun təbiətcə təkəbbürlü olmasının göstəricisidir. Allah qorusun!

١٨٥٣– وَعَنْهُ رضي الله عنه قَالَ: قَالَ رَسُولُ اللَّه ﷺ: « سيْحَانُ وجَيْحَانُ وَالْفُراتُ والنِّيلُ كُلٌّ مِنْ أَنْهَارِ الْجنَّةِ » رواهُ مسلم.

1853. Əbu Hureyradan رضي الله عنه nəql olunur ki, Rəsulullah ﷺ demişdir: **"Seyhan, Ceyhan, Fərat və Nil Cənnət çaylarındandır".**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١٨٥٤– وَعَنْهُ قَال: أَخَذَ رَسُولُ اللَّه ﷺ بِيَدِي فَقَالَ: « خَلَقَ اللَّه التُّرْبَةَ يوْمَ السَّبْتِ، وخَلَقَ فِيهَا الْجِبَالَ يَوْمَ الأحَد، وخَلَقَ الشَّجَرَ يَوْمَ الإثْنَيْنِ، وَخَلَقَ المَكْرُوهَ يَوْمَ الثُّلاثَاءِ، وَخَلَقَ النُّورَ يَوْمَ الأرْبَعَاءِ، وَبَثَّ فِيهَا الدَّوَابَّ يَوْمَ الخَمِيسِ، وخَلَقَ آدَمَ بَعْدَ الْعَصْرِ مِنْ يَوم الجُمُعَةِ فِي آخِرِ الْخَلْقِ فِي آخِرِ سَاعَةٍ مِنَ النَّهَارِ فِيمَا بَيْنَ الْعَصْرِ إلى اللَّيلِ ».رواه مسلم .

[1] "əl-Ələq" surəsi, 6-7.

[2] "Səhih Muslim", 5073.

1854. Yenə Əbu Hureyradan ﷺ rəvayət olunur ki, o demişdir: "Bir dəfə Rəsulullah ﷺ əlimdən tutub mənə dedi: **"Allah torpağı şənbə günü yaratdı, bazar günü də orada dağları yaratdı. Ağacları bazar ertəsi günü yaratdı, məkruhu çərşənbə axşamı günü yaratdı, Nuru isə çərşənbə günü xəlq etdi. Cümə axşamı günü orada heyvanları yaratdı, Adəmi isə yaradılışının sonuncusu olaraq cümə günü əsrdən sonra gündüzün son saatında – axşamçağı ilə gecə arasında yaratdı".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Şərh:

Müəllif ﷺ "Salehlər bağçası" əsərinin sonunda qeyd olunmuş hədislər arasında Əbu Hureyradan nəql olunmuş hədisi də qeyd edir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Seyhan, Ceyhan, Fərat və Nil Cənnət çaylarındandır".**

Peyğəmbər ﷺ dünyada olan bu dörd çayın Cənnət çayları olmasını xəbər vermişdir. Bəzi elm əhli demişdir: "Bunlar həqiqi mənada Cənnətdən olan çaylardır, ancaq dünyaya endikdən sonra dünya çaylarının xüsusiyyətlərinə malik olmuşlar". Beləcə, onlar dünya çaylarına çevriliblər. Çünki Cənnətin çayları dörddür: **"Müttəqilərə vəd olunan Cənnətin vəsfi belədir: orada xarab olmayan sudan çaylar, dadı dəyişməyən süddən çaylar, içənlərə ləzzət verən şərabdan çaylar və süzülmüş baldan çaylar vardır".**[2]

Bunlar Cənnətdə olacaq dörd çaydır. Biz onların necəliyini və dadını bilmirik. Qüdsi bir hədisdə Peyğəmbər ﷺ Cənnət barəsində izzət və cəlal sahibi Allahın belə buyurduğunu demişdir: **"Cənnətdə bəndələrim üçün gözlərin görmədiyi, qulaqların eşitmədiyi, insanların ağlına belə gəlməyən şeylər hazırlamışam"**.

Seyhan, Ceyhan, Nil və Fərat isə məlumdur ki, zamanla dəyişir və alimlər bunu iki cür izah etmişlər:

Birinci: Onlar sözün həqiqi mənasında Cənnət çaylarıdır, ancaq yerə endikdən sonra dünyadakı çayların hökmünü götürmüşlər.

İkinci: Onlar sözün həqiqi mənasında Cənnət çayları deyil, ancaq onlar ən əfzəl və dadlı suyu olan çaylardır. Peyğəmbər ﷺ də onların hörmətini

[1] "Səhih Muslim", 4997.

[2] "Muhəmməd" surəsi, 15.

artırmaq üçün onları belə vəsf etmişdir. Peyğəmbərin ﷺ nəyi nəzərdə tutduğunun doğrusunu Allah bilir.

İkinci hədis isə budur: **"Allah torpağı şənbə günü yaratdı..."**.

Bu hədisi İmam Muslim rəvayət etmişdir. Alimlər isə bu hədis barəsində ona irad tutmuşlar. Bu hədis səhih deyil və Peyğəmbərdən ﷺ səhih olaraq nəql olunmamışdır. Çünki o, Qurani-Kərimə müxalifdir. Qurani-Kərimə müxalif olan hər bir şey də batildir. Çünki onu rəvayət edənlər həm səhv, həm də düz əməllər edən insanlardır. Qurani-Kərimdə isə xəta yoxdur – hamısı doğrudur və mütəvatir şəkildə nəql olunmuşdur. Ona müxalif olan hər bir kəlamın isə səhih olmadığına hökm verilir. Hətta Quranı rəvayət edən rəvayət etsə belə. Çünki bu ravilər Rəsulullahdan ﷺ bilavasitə eşitməyiblər. Onlar bunu isnad vasitəsi ilə nəql etmişlər: filankəs bizə dedi ki,.. taa Rəsulullaha ﷺ qədər. Qurani-Kərimdə isə xəta yoxdur.

Bu hədisi elm əhli İmam Muslimə irad tutmuşlar (onu inkar etmişlər). Bunda da qəribə heç nə yoxdur. Çünki bütün insanlar – həm müsəlmanlar, həm də qeyri-müsəlmanlar bəşər övladıdırlar. Onlar həm düz əməllər edirlər, həm də səhv. Bu hədis də səhih olmadığı üçün bu barədə danışmağa ehtiyac duymuruq. Müvəffəq edən Allahdır.

١٨٥٥– وعنْ أبي سُلَيْمَانَ خَالِدِ بنِ الْوليدِ رضي الله عنه قالَ: « لَقَدِ انْقَطَعَتْ في يَدِي يوْمَ مُؤتَةَ تِسْعَةُ أسْيافٍ، فَمَا بقِيَ في يدِي إلا صَحِيفَةٌ يَمَانِيَّةٌ ».رواهُ البُخاري.

1855. Əbu Süleyman Xalid ibn əl-Valid رضي الله عنه demişdir: "Mutə *döyüşü* günü mənim əlimdə doqquz qılınc qırıldı və əlimdə yalnız Yəmən səhifəsi qaldı".

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

١٨٥٦– وعَنْ عمْرو بْنِ الْعَاص رضي الله عنه أنَّهُ سَمِع رسُولَ اللَّه ﷺ يَقُولُ: « إذَا حَكَمَ الْحَاكِمُ، فَاجْتَهَدَ، ثُمَّ أصاب، فَلَهُ أجْرانِ وإنْ حَكَم وَاجْتَهَدَ، فَأَخْطَأَ، فَلَهُ أجْرٌ» متفقٌ عَلَيْهِ.

1856. Amr ibn əl-Asdan رضي الله عنه rəvayət olunur ki, o, Rəsulullahın ﷺ belə dediyini eşitmişdir: **"İctihad edib verdiyi hökmdə hakimin ictihadı doğru çıxarsa, iki əcr qazanar. İctihad edib verdiyi hökmdə ictihadı səhv çıxarsa, bir əcr qazanar".**

[1] "Səhih əl-Buxari", 3932.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٨٥٧– وَعَنْ عائِشَةَ ﵂ أنَّ النبي ﷺ قَالَ: « الْحُمَّى مِنْ فيْحِ جَهَنَّم فأبْرِدُوهَا بِالمَاءِ » متفقٌ عليه.

1857. Aişədən ﵂ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Qızdırma Cəhənnəmin istisindəndir – onu su ilə soyudun"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١٨٥٨– وَعَنْهَا ﵂ عَنِ النبي ﷺ قَالَ:« مَنْ مَاتَ وَعَلَيْهِ صَوْمٌ، صَامَ عَنْهُ وَلِيُّهُ » متفقٌ عَلَيْهِ.

وَالمُخْتَارُ جَوَازُ الصَّوْمِ عَمَّنْ مَاتَ وَعَلَيْهِ صَوْمٌ لِهَذَا الْحَدِيثِ، والمُرَادُ بالْوَلِيّ: الْقَرِيبُ وَارِثاً كَانَ أوْ غَيْرِ وَارِثٍ.

1858. Yenə Aişədən ﵂ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Kim oruc borcu olduğu halda ölərsə, vəlisi onun yerinə oruc tutsun"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

Daha doğru rəyə görə, bu hədisə əsasən, oruc borcu olaraq ölmüş kəsin əvəzinə oruc tutmaq olar.

Şərh:

İmam Nəvəvinin ﵀ zikr etdiyi bu müxtəlif hədislərdən biri də Xalid ibn əl-Vəliddən ﵁ nəql olunur. Həmin hədisdə deyilir ki, Mutə döyüşü zamanı onun əlində doqquz qılıncı sınmış və əlində yalnız Yəmən səhifəsi qalmışdı.

Xalid ibn əl-Vəlid insanların ən şücaətlilərindən idi. Uhud döyüşündə o, müşrik qureyşlilərlə əlbir idi və Uhud dağının arxasından səhabələrə hücum edənlərdən biri idi. O, İkrimə ibn Əbu Cəhllə birlikdə səhabələrə və Peyğəmbərə ﷺ qarşı döyüşmüşdülər. Sonra Allah onu İslama hidayət etdi, o da müsəlmanların komandanlarından biri oldu.

[1] "Səhih əl-Buxari", 6805; "Səhih Muslim", 3240.

[2] "Səhih əl-Buxari", 3021; "Səhih Muslim", 4093.

[3] "Səhih əl-Buxari", 1816.

Onun həyat hekayəsi izzət və cəlal sahibi Allahın kamil qüdrətinin və bütün işlərin Onun əlində olmasının göstəricisidir. O istədiyini azdırır, istədiyini də doğru yola yönəldir. Nə qədər çox zəlalət əhli vardır ki, Allah onlara hidayət vermişdir. Nə qədər də hidayət əhli vardır ki, Allah onları azdırmışdır. Allah qorusun! Hələ bir Abdullah ibn Məsudun hədisinə bax. Peyğəmbər ﷺ demişdir: **"Ola bilsin, adam Cənnət əhlinin əməllərindən o qədər etsin ki, onunla Cənnət arasında hətta bir qarış məsafə qalsın. Sonra Kitab onu qabaqlasın və o, Cəhənnəm əhlinin əməlindən edərək oraya daxil olsun. Ola da bilsin, adam Cəhənnəm əhlinin əməllərindən o qədər etsin ki, onunla Cəhənnəm arasında hətta bir qarış məsafə qalsın. Sonra Kitab onu qabaqlasın və o, Cənnət əhlinin əməlindən edərək oraya daxil olsun"**.[1] Yəni əcəlinə bir qarış müddət qalmış insanın halı dəyişərək başqa halda ölə bilər.

İkinci hədis. Amr ibn əl-Asdan rəvayət olunur ki, o, Rəsulullahın ﷺ belə dediyini eşitmişdir: **"İctihad edib verdiyi hökmdə hakimin ictihadı doğru çıxarsa, iki əcr qazanar. İctihad edib verdiyi hökmdə ictihadı səhv çıxarsa, bir əcr qazanar".**

Burada "hakim" deyildikdə qazı nəzərdə tutulur. Mufti də onun kimidir. Yəni haqqı axtaran insan ictihad etdiyi zaman onun haqq olduğunu düşünərək fətva və ya hökm verərsə, o, xeyir üzərində olur: ictihadı doğru olduqda iki əcr, səhv olduqda isə bir əcr qazanır. Uca və böyük Allah yaxşı işlər görənin əcrini itirmir. Bu da dəlildir ki, insan haqqı arayaraq ictihad etdikdə, buna çalışdıqda, Uca və nöqsansız Allah buna görə ona savab verir: doğru olduqda iki əcr qazanır. Birinci əcr doğru ictihad etdiyinə görə, ikinci isə ictihad etdiyinə (çalışdığına) görə. Səhv etdikdə isə bir əcr qazanır ki, bu da haqqı aramaq üçün çalışqanlığına görədir.

Aişədən رضي الله عنها nəql olunmuş üçüncü hədisdə Peyğəmbər ﷺ demişdir: **"Qızdırma Cəhənnəmin istisindəndir – onu su ilə soyudun"**. Yəni xəstənin üzərinə su tökərək onu sərinlədin. Qızdırmaya tutulmuş kəsin şəfa tapmasına səbəblərdən biri budur. Müasir tibb elmi də bunu sübut edir. Qızdırmanı müalicə edən həkimlər xəstəyə çimməyi tövsiyə edirlər. Çimdiyi su da zərər verməyəcək qədər nə qədər sərin olarsa, bir o qədər yaxşıdır. Beləcə qızdırma aradan qalxmış olur. Müvəffəq edən Allahdır.

[1] "Səhih əl-Buxari", 3085; "Səhih Muslim", 4781.

Dördüncü hədis. Aişədən ﵂ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Kim oruc borcu olduğu halda ölərsə, vəlisi onun yerinə oruc tutsun".** Yəni insan boynunda oruc borcu olaraq ölərsə, onun əvəzinə vəlisi oruc tutmalıdır. Bu həm nəzir orucuna, həm də şəriətdə vacib buyurulmuş oruca aiddir. Fərz edək ki, bir adam Ramazan orucunu müsafir olduğu üçün pozub. Ramazandan sonra isə səhlənkarlıq edərək həmin orucun qəzasını tutmayıb. Əslində adam Ramazan orucunun qəzasını Şaban ayında tuta bilər. Lakin əcəli çatıb və ölüb. Bu zaman onun vəlisi yəni atası, anası, oğlu, qızı və ya xanımı olan varisi onun əvəzinə oruc tutmalıdır.

Bu, vacib deyil, müstəhəbdir. Vəlisi oruc tutmadıqda isə onun adından hər günə görə bir kasıb yedizdirilir. Həmçinin üzərində kəffarə olarsa və onu tutmadan öncə vəfat edərsə, vəlisi onun əvəzinə tutur. Həmçinin nəzir etsə ki, üç gün oruc tutacaq, sonra da onu tutmadan vəfat etsə, vəlisi onun əvəzinə oruc tutur. Tutmasa, hər günə görə onun əvəzinə bir kasıb yedizdirir. Müvəffəq edən Allahdır.

١٨٥٩– وَعَنْ عَوْفِ بنِ مَالِكِ بنِ الطُّفَيْلِ أنَّ عَائِشَةَ ﵂ حُدِّثَتْ أنَّ عَبْدَ اللَّه ابنَ الزَّبَيْر ﵄ قَالَ في بيْعٍ أوْ عَطَاءٍ أعْطَتْهُ عَائِشَةُ رضي اللَّه تَعالَى عَنْها: وَاللَّه لَتَنْتَهِيَنَّ عَائِشَةُ، أوْ لأحْجُرَنَّ علَيْهَا، قَالتْ: أهُوَ قَالَ هَذَا؟ قَالُوا: نَعمْ، قَالَتْ: هُو، للَّهِ علَيَ نَذْرٌ أنْ لا أُكَلِّم ابْنَ الزُّبَيْرِ أبَداً، فَاسْتَشْفَع ابْنُ الزُّبَيْرِ إليها حِينَ طالَتِ الْهِجْرَةُ. فَقَالَتْ: لاَ وَاللَّهِ لا أُشَفَّعُ فِيهِ أبَداً، ولا أتَحَنَّثُ إلَى نَذْري. فلَمَّا طَال ذَلِكَ علَى ابْنِ الزُّبَيْرِ كَلَّم المِسْورَ بنَ مخْرَمَةَ، وعبْدَ الرَّحْمنِ بْنَ الأسْوَدِ بنِ عبْدِ يغُوثَ وقَال لهُما: أنْشُدُكُما اللَّه لَمَا أدْخَلْتُمَاني علَى عائِشَةَ ﵂، فَإنَّهَا لاَ يَحِلُّ لَهَا أنْ تَنْذِر قَطِيعَتي، فَأَقْبَل بهِ المِسْورُ، وعَبْدُ الرَّحْمن حَتَّى اسْتَأْذَنَا علَى عائِشَةَ، فَقَالاَ: السَّلاَمُ علَيْكِ ورَحمةُ اللَّه وبرَكَاتُهُ، أَنَدْخُلُ؟ قَالَتْ عَائِشَةُ: ادْخُلُوا. قَالُوا: كُلُّنَا؟ قَالَتْ: نَعمْ ادْخُلُوا كُلُّكُمْ، ولاَ تَعْلَمُ أنَّ معَهُما ابْنَ الزُّبَيْرِ، فَلَمَّا دخَلُوا، دخَلَ ابْنُ الزُّبَيْرِ الْحِجَابَ، فَاعْتَنَقَ عائِشَةَ ﵂، وطَفِقَ يُنَاشِدُهَا ويبْكِي، وَطَفِقَ المِسْورُ، وعبْدُ الرَّحْمنِ يُنَاشِدَانِهَا إلاَّ كَلَّمَتْهُ وقبَلَتْ مِنْهُ، ويقُولانِ: إنَّ النبي ﷺ نَهَى عَمَّا قَدْ علِمْتِ مِنَ الْهِجْرةِ. وَلاَ يَحلُّ لمُسْلِمٍ أنْ يهْجُر أخَاهُ فَوْقَ ثَلاثِ لَيَالٍ. فَلَمَّا أكْثَرُوا علَى عَائِشَةَ مِنَ التَّذْكِرةِ والتَّحْرِيجِ، طَفِقَتْ تُذَكِّرُهُما وتَبْكِي، وتَقُولُ: إنِّي نَذَرْتُ والنَّذْرُ شَدِيدٌ، فَلَمْ يَزَالا بَهَا حتَّى كَلَّمتِ ابْنِ

الزُّبَيْرِ، وَأَعْتَقَتْ فِي نَذْرِهَا أَرْبعِينَ رقَبةً، وَكَانَتْ تَذْكُرُ نَذْرَهَا بعْدَ ذَلِكَ فَتَبْكِي حتَّى تَبُلَّ دُمُوعُهَا خِمارَهَا. رواهُ البخاري.

1859. Auf ibn Malik ibn Tufeyl Aişədən ﵂ nəql edir ki, Abdullah ibn Zubeyr ﵄ Aişənin verdiyi və ya satdığı bir şey barəsində *eşidib belə* dedi: "Allaha and olsun ki, ya Aişə bu işə son verəcək, ya da onu tərk edəcəyəm". Aişə dedi: "Bunu o deyib?" Dedilər: "Bəli". Dedi: "Mən də nəzir edirəm ki, İbn Zubeyri heç vaxt danışdırmayacağam". Küskünlüyün uzanmasını görən İbn Zubeyr onun yanına adam göndərərək barışıq istədi, Aişə də dedi: "Xeyr, Allaha and olsun ki, onunla barışmayacağam, nəzirimi də pozmayacağam". Bu, İbn Zubeyrə uzun gəldikdə Misvar ibn Məxramə və Abdur-Rahmən ibn əl-Əsvad ibn Abdu Yəğusla danışıb onlara dedi: "Sizi Allaha and verirəm, məni Aişənin yanına daxil edin. Onun mənimlə əlaqəni kəsəcəyi barədə etdiyi nəziri yerinə yetirməsi halal deyil". Misvarla Abdur-Rahmən onun yanına daxil olmaq üçün izin istəyib dedilər: "Allahın salamı, rəhməti və bərəkəti sənin üzərinə olsun. Daxil olaqmı?" Aişə dedi: "Daxil olun". Onlar soruşdular: "Hamımız?" Dedi: "Bəli, hamınız daxil olun". O, bilmirdi ki, İbn Zubeyr də onlarla birlikdədir. Onlar içəri daxil olduqda İbn Zubeyr hicabı qaldırıb Aişəni qucaqladı və ağladı. Misvar və Abdur-Rahmən də ondan xahiş etdilər ki, onunla danışsın. O da qəbul etdi. Onlar dedilər: "Sənin də bildiyin kimin, hicrət zamanı Peyğəmbər ﷺ bir müsəlmanın digər müsəlmanı üç gündən artıq danışdırmamasının halal olmadığını demişdir". Onlar Aişəni ﵂ çoxlu dilə tutduqda o da onlara qoşularaq ağladı və dedi: "Axı mən nəzir etmişəm, nəzir isə ağır məsələdir". Onlar onu o qədər dilə tutdular ki, Aişə İbn Zubeyrlə danışdı. Daha sonra həmin nəzirinə görə qırx kölə azad etdi. Sonralar o, nəzirini yada salaraq o qədər ağlayırdı ki, üzü və hicabı islanırdı".

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

Şərh:

Müəllifin ﵀ müxtəlif çeşidli hədislər arasında zikr etdiyi bu əzəmətli hədisdə böyük faydalar vardır.

[1] "Səhih əl-Buxari", 5611.

Həmin hədis möminlərin anası, Peyğəmbərin ﷺ ölümündən sonra zövcələrinin ən fəzilətlisi Aişədən رضي الله عنها rəvayət olunmuşdur. O, elm, ibadət, rəy və tədbirdə böyük insan idi. Onun bacısı Əsmanın oğlu Abdullah ibn Zubeyr bir dəfə eşidir ki, Aişə olduqca çox miqdarda sədəqə paylayıb. Deyir ki, bu əməlinə son verməsə onu tərk edəcəyəm. Bu söz də möminlərin anası Aişəyə ağır gəlir. O Zubeyrin xalası idi, həm də olduqca böyük elmə, anlayışa, hikmətə sahib birisi idi və onun barəsində belə bir söz deyilə bilməz. Onu tərk etmək isə malından böyük miqdarda sədəqə verə bilməsinin qarşısını almaq idi. Aişə bunu eşidir. Ona bunu insanlar arasında söz gəzdirərək onların arasını pozanlar çatdırmışdı. Allah qorusun.

Söz gəzdirmək böyük günahlardandır. Uca Allah söz gəzdirən kəs and içsə belə, ondan çəkindirərək buyurur: **"İtaət etmə hər tez-tez and içənə, alçağa, qeybət edənə, dedi-qodu yayana".**[1] Bir dəfə Peyğəmbər ﷺ Mədinədə iki müsəlmanın qəbrinin yanından keçirdi. O dedi: **"Onlar əzab çəkirlər, özü də elə böyük bir şeyə görə əzab çəkmirlər"**.[2] Yəni onlar böyük bir günaha görə əziyyət çəkmirlər. Onu etmək onlara asan gəlir, ancaq Allah yanında onlar böyük günahlardan hesab olunur.

Birincisi sidikdən təmizlənmirdi, yəni təmiz şəkildə sidikdən yuyunmurdu. Bədəninə və ya paltarına sidik dəydikdə isə buna əhəmiyyət vermirdi. Buna görə də qəbirdə ona əzab verilir.

Digəri isə söz gəzdirirdi. İnsanların yanına gələrək başqalarının bəziləri barəsində nə dediklərini yayırdı ki, onları bir-birindən uzaqlaşdırsın. Allah qorusun. Söz gəzdirmək böyük günahlardandır. Söz gəzdirən kəs məzarda buna görə əziyyət çəkəcəkdir. Həmçinin söz gəzdirən kəs Cənnətə daxil olmayacaqdır. Allah qorusun.

Xülasə, Aişəyə belə bir söz çatır ki, İbn Zubeyr onu tərk edəcəyini deyib. O da nəzir edir ki, heç vaxt onunla danışmasın. Çünki o, bacısının oğluna qəzəblənir və onu tərk edir.

Məlumdur ki, möminlərin anasının bacısı oğlunu tərk etməsi İbn Zubeyrə ağır gələcək. O çalışır ki, onu razı salsın, lakin Aişə fikrindən dönmür. Çünki o, nəzirin ağır məsələ olduğunu düşünürdü. İbn Zubeyr Peyğəmbərin ﷺ iki səhabəsindən yardım istəyir, onlar da möminlərin anasına hiylə gəlirlər. Amma bu hiylə yaxşı hiylə idi. Çünki onun vasitəsilə

[1] "əl-Qaləm" surəsi, 10-11.

[2] "Səhih əl-Buxari", 211; "Səhih Muslim", 439.

əsas məqsədə çatıldı və insanların arası düzəldi. İnsanların arasını düzəltmək məqsədilə belə yalan danışmaq icazəlidir. Əməllərdə də həmçinin. Onlar Aişəyə salam verərək onun yanına daxil olmaq istədilər. Belə icazə almaq Sünnədir ki, qapıda dayanaraq icazə istədikdə: "əssələmu aleykum" deyəsən.

Sonra onlar daxil olmaq üçün izin istəyərək: "Daxil olaqmı?"– soruşdular. Aişə ﵂: "Bəli"– dedi. Soruşdular ki: "Hamımız?" Dedi: "Bəli, hamınız". O bilmirdi ki, Abdullah ibn Zubeyr də onlarladır. O Abdullah ibn Zubeyrin onlarla olub-olmadığını soruşmadı və təfsilata varmadan ümumi şəkildə dedi ki: "Hamınız daxil olun". Onlar da daxil oldular. Onun yanına daxil olduqda gördülər ki, onun üzərində hicab var. Bu möminlərin anasının hicabı idi. "Hicab" deyildikdə, onun örtündüyü örtük nəzərdə tutulur. O, insanlarla həmin hicabın arxasından danışırdı. Burada günümüzdə qadınların istifadə etdikləri hicab nəzərdə tutulmur. Çünki həmin hicab yalnız üzü və bədəni örtür. Bu hicab isə möminlərin anası ilə insanlar arasında örtük idi. Onlar evə daxil olduqda Abdulah ibn Zubeyr hicabın içərisinə daxil oldu. Çünki o, onun bacısı oğlu idi və ona məhrəm idi. O, Aişəni qucaqladı, ağlayaraq onu öpdü. Onu izzət və cəlal sahibi Allaha and verərək qohumluq əlaqələrini kəsməkdən çəkindirdi, bəyan etdi ki, belə etmək olmaz. O isə dedi: "Nəzir ağır məsələdir". Sonra da o biri iki nəfər onlara Peyğəmbərin ﷺ **"Möminin öz qardaşını üç gündən artıq tərk etməsi halal deyildir"** hədisini xatırlatdılar: O da qane oldu, ağladı və Abdullah ibn Zubeyrlə danışdı. Bu iş onu çox fikirə saldı – hər dəfə bu hadisəni xatırladıqda ağlayırdı, çünki bu ağır məsələ idi.

Bu, Allahdan qorxan hər kəs üçün bir qaydadır. Allahı daha yaxşı tanıyan kəs Ondan daha çox qorxar. O hər dəfə bu nəziri pozduğunu xatırladıqda ağlayardı. Bununla belə o, həmin nəzirə görə qırx kölə azad edir ki, Allah onu Cəhənnəm odundan qorusun. Bu hədis möminlərin anasının imanının gücünə, kölə azad etməyə və Cəhənnəm əzabından qorunmağa hərisliyinə dəlildir.

Bu hədisdə başqa faydalar da vardır:

1 – İnsanın öz qardaşını üç gündən artıq tərk etməsi halal deyildir. Ələlxüsus da əgər həmin adam onun qohumudursa. Gərək o, andını pozub kəffarə versin. Peyğəmbər ﷺ demişdir: **"Kim and içdikdən sonra başqa bir əməlin daha xeyirli olduğunu görsə, andının kəffarəsini ödəsin və**

daha xeyirli olanı etsin".[1] Məsələn, and içsən ki, filankəsin evinə daxil olmayacaqsan, həmin adam da sənin qohumundur, o zaman sən gərək andını pozub kəffarəsini verəsən və qohumunla əlaqə saxlayasan. İzzət və cəlal sahibi Allah mərhəmətli və rəhmlidir. Andını pozub kəffarəsini ver və Peyğəmbərin ﷺ əmr etdiyi kimi, daha doğru olan əməli et.

2 – İnsanların arasını düzəltməyin fəziləti. Məlum məsələdir ki, insanların arasını düzəltmək ən əfzəl əməllərdəndir. Uca Allah buyurur: **"Onların pıçıldaşmalarının çoxunda xeyir yoxdur. Sədəqə verməyi və ya yaxşılıq etməyi, yaxud da insanlar arasında sülh yaratmağı əmr edən şəxsin *pıçıldaması* isə istisnadır. Kim bunu Allahın razılığını qazanmaq üçün edərsə, Biz ona böyük mükafat verərik".**[2]

3 – Harama səbəb olmayan hiyləni işlətməyin caizliyi. Çünki Aişənin رضي الله عنها yanına daxil olmaq istəyən o iki nəfər hiylə gəlmişdilər – Abdullah ibn Zubeyr də onlarla birlikdə idi.

4 – Səhabələrin incə qəlbli olması və onların İzzət və cəlal sahibi Allahın qorxusundan ağlamaları. Bu da qəlbin yumşaq olmasına və Allahdan qorxmasına dəlildir – insanın qəlbi nə qədər sərt olarsa, ağlamaqdan bir o qədər uzaq olar. Allah qorusun. Bu səbəbdən də görürük ki, insanlar Axirətə yaxın olduqca mütiləşir, ağlayır, gecə namazı qılır, Allaha yönəlir, sədəqə verir və yaxşı işlər görürlər. Qəlblər sərtləşdikdə isə deyilən moizələr onların üzərindən su kimi keçir və onlara heç bir fayda vermir. Uca Allahdan bizə və sizə afiyət diləyirəm.

١٨٦٠– وعَنْ عُقْبَةَ بنِ عامِر رضي الله عنه أنَّ رسُولَ اللَّه ﷺ خَرجَ إلَى قَتْلَى أُحُدٍ. فَصلَّى علَيْهِمْ بعْد ثَمان سِنِين كالمودِّع للأحْياءِ والأمْواتِ، ثُمَّ طَلَعَ إلى المِنْبر، فَقَالَ: إنِّي بيْنَ أيْدِيكُمْ فَرَطٌ وأنَا شهيد علَيْكُمْ وإنَّ موْعِدَكُمُ الْحوْضُ، وَإنِّي لأنْظُرُ إليه مِنْ مَقامِي هَذَا، وإنِّي لَسْتُ أخْشَى علَيْكُمْ أنْ تُشْركُوا، ولَكِنْ أخْشَى علَيْكُمْ الدُّنيا أنْ تَنَافَسُوهَا» قَالَ: فَكَانَتْ آخِرَ نَظْرَةٍ نَظَرْتُهَا إلَى رَسُولِ اللَّه ﷺ، متفقٌ عليه.

وفي روايةٍ: « وَلَكِنِّي أخْشَى علَيْكُمْ الدُّنيَا أنْ تَنَافَسُوا فِيهَا، وتَقْتَتِلُوا فَتَهْلِكُوا كَما هَلَكَ منْ كَان قَبْلكُمْ » قَالَ عُقبةُ: فَكانَ آخِر ما رَأيْتُ رَسُولَ اللَّه ﷺ عَلَى المِنْبرِ.

[1] "Səhih Muslim", 3115.

[2] "ən-Nisa" surəsi, 114.

وفي روَايةٍ قال: « إنّي فَرطٌ لَكُمْ وأنَا شَهِيدٌ علَيْكُمْ، وَإنّي واللَّه لأنْظُرُ إلَى حَوْضِي الآنَ، وإنّي أُعْطِيتُ مَفَاتِيحَ خَزَائِن الأرضِ، أوْ مَفَاتِيحَ الأرْضِ، وَإنَّي واللَّهِ مَا أَخَافُ علَيْكُمْ أنْ تُشْرِكُوا بعْدِي ولَكِنْ أخَافُ علَيْكُمْ أنْ تَنَافَسُوا فِيهَا ».

وَالمُرادُ بِالصَّلاةِ عَلَى قَتْلَى أُحُدٍ: الدُّعَاءُ لَهُمْ، لاَ الصَّلاةُ المعْرُوفَةُ.

1860. Uqbə ibn Amirdən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ səkkiz il sonra Uhud ölülərinin yanına çıxdı. O, həm dirilərlə, həm də ölülərlə vidalaşaraq onlara namaz qıldırdı. Sonra da minbərə qalxıb dedi: **"Mən sizlərə göndərilmişəm, sizlərə şahidəm. Sizinlə vədə yerimiz hovuzdur. Allaha and olsun ki, mən ona bu məqamımdan baxıram. Allaha and olsun ki, mən sizin şirk qoşacağınıza görə qoxmuram, sizin dünya üçün bir-birinizlə yarışacağınızdan qorxuram".** Dedi: "Bu mənim Rəsulullaha son baxışım idi".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Başqa bir rəvayətdə[2] deyilir: **"Lakin mən sizin dünya üçün bir-birinizlə yarışıb-vuruşmanızdan qorxuram. Sizdən əvvəlkilərin həlak olduğu kimi, sizin də həlak olmanızdan qorxuram".** Uqbə dedi: "Bu mənim Rəsulullahı ﷺ minbər üzərində son gördüyüm idi".

Digər bir rəvayətdə[3] isə deyilir: **"Mən sizin aranızda müvəqqətiyəm, həm də mən sizlərə şahidəm. İndi mən hovuzuma baxıram, mənə yerin xəzinələrinin açarları, – yaxud yerin açarları verilmişdir. Allaha and olsun ki, mən sizin məndən sonra şirk qoşacağınızdan qorxmuram. Mən sizin orada bir-birinizlə yarışmanızdan qorxuram".**

"Uhudda ölənlərə namaz" sözü ilə məlum namaz deyil, dua nəzərdə tutulur.

Şərh:

Müəllifin ﷺ son fəsildə qeyd etdiyi bu hədis Uqbə ibn Amirdən nəql olunmuşdur. Hədisdə deyilir ki, Peyğəmbər ﷺ Uhuda çıxıb onlar üçün namaz qıldı, yəni müəllifin də dediyi kimi, dua etdi. Burada bildiyimiz *cənazə namazı* nəzərdə tutulmur. Belə ki, məlum olduğu kimi, cənazə namazı

[1] "Səhih əl-Buxari", 3736; "Səhih Muslim", 4249.

[2] "Səhih əl-Buxari", 1258; "Səhih Muslim", 4248.

[3] "Səhih Muslim", 2296.

dəfndən sonra deyil, öncə olur. Yalnız cənazə namazı qılınmamış kəslər üçün dəfndən sonra cənazə namazı qılına bilər. Burada isə "namaz" deyildikdə dua nəzərdə tutulur. Necə ki, Uca Allah buyurur: **"Onların mallarından sədəqə götür ki, bununla onları pak edib təmizə çıxarasan. Onlar üçün dua et".**[1] Yəni onlar üçün dua et.

Sonra minbərə çıxıb insanlara vida xütbəsi verdi. Xəbər verdi ki, o, öz hovuzunu görür. Onun suyu süddən ağ, baldan şirin, qoxusu müşkdən gözəldir. Ətrafındakı qablar səmadakı ulduzlar kimi çoxsaylı və parlaqdır. İnsanlar ayaqda uzun-uzadı durduqdan sonra susamış halda o hovuzun yanına gələcəklər. Möminlər həmin hovuzdan içəcəklər. Allah Öz lütfü və səxavəti ilə bizləri və sizləri ondan içənlərdən etsin. Günahkar kafirlər isə ondan uzaqlaşdırılacaqlar. Kim dünyada onun qanunlarına tabe olub Sünnəsini (yolunu) izləyərsə, Qiyamət günü həmin hovuzdan içəcəyi barədə müjdələnər. Kimin halı belə olmazsa, bundan məhrum olar. Allah qorusun.

Peyğəmbər ﷺ deyir ki, "indi həmin hovuzu baxır". Bu ona dünyada ikən göstərilmişdi – Cənnət və Cəhənnəm ona kusuf namazında göstərildiyi kimi. Bunlar qeybi məsələlərdir. Lakin Allah və Rəsulu daha yaxşı bilir. Bizlər gərək iman gətirib təsdiqləyək.

Qiyamət günü insanlar bu hovuzun ətrafına axışacaq və ondan içəcəklər. Yalnız həddini aşıb təkəbbürlük edənlərdən başqa. Allah qorusun.

Sonra Peyğəmbər ﷺ xəbər verir ki, o, ümməti üçün şirkdən qorxmur. Çünki ölkələr fəth olunur və insanlar tövhid üzərindədirlər. Bundan sonra insanların şirkə düşmələri Peyğəmbərin ﷺ qəlbində yer almamışdı. Lakin bu o demək deyil ki, onun ümmətində şirk olmayacaqdır. Şirk baş verib, hal-hazırda şirk baş verməkdədir və indi şirk mövcuddur. Məsələn, elə müsəlmanlar var ki, müsəlman olduqlarını iddia edərək qəbirləri təvaf edir, qəbirdəkilərdən yardım diləyir, onlar üçün qurban kəsir, onlar üçün nəzir verir. Beləliklə, şirk mövcuddur. Rəsulullah ﷺ demədi ki, sizlər şirk qoşmayacaqsınız. Belə desəydi, biz də deyərdik ki, "indi baş verənlər şirk deyil, çünki Peyğəmbər ﷺ şirkin olacağını inkar edib. O isə havadan danışmıır". O sadəcə dedi ki: "mən... qorxmuram". Bu da onun zamanında dəvətin yayılması, tövhidin bəyan olunması, insanların da ona tabe olmasına görə idi. Lakin bu söz bu işin Qiyamət gününədək mütləq belə davam edəcəyi anlamına gəlmir.

[1] "ət-Tövbə" surəsi, 103.

Şirk isə, göründüyü kimi, yayılmışdır. Bunun belə olacağına dəlil də Rəsulullahdan ﷺ səhih olaraq nəql olunandır: **"Ümmətimdən bir toplum bütlərə ibadət etməyincə Qiyamət qopmaz".** Yəni tək-tük saylı adamlar yox, böyük camaatlar. Ancaq o saatda Peyğəmbər ﷺ ümməti üçün şirkdən deyil, başqa bir şeydən qorxurdu ki, insanlar ona daha sürətlə meyl edirlər. Bu da dünya qapılarının ümmətin üzünə açılması, onların da bu yolda bir-biriləri ilə yarışmaları və mübarizə aparmalarıdır. Son nəticədə, əvvəlkilərin məhv olması kimi, onların da məhv olmasıdır. Hal-hazırda baş verən də budur. Dünya hər tərəfdən üzümüzə açılıb. Əvvəlki vəziyyət heç ağıla gəlmir. Kimsə əvvəlki zamanlar barədə danışsa, ona inanılmaz. Lakin bu baş vermişdir. Insanlar da indi dünya üçün yarışaraq vuruşurlar. Dünya da əvvəlkiləri məhv etdiyi kimi, onları da məhv edir. Hətta onun üçün mübarizə aparmayanların belə qəlbləri sonradan dünyaya meyl edir. Allah qorusun. Yatıb-durub, oturub-qalxıb gecə-gündüz dünya barəsində düşünürlər. İş o yerə çatıb ki, məşhur bir məsəl artıq çox insanlara şamil olunub: "Haram və ya halal olmasından asılı olmayaraq, əlinə düşən hər şey halaldır". Peyğəmbərin ﷺ də bu sözü onların barəsində öz təsdiqini tapmışdır: **"Elə bir zaman gələcək ki, insanlar götürdükləri malın halal, yoxsa haram olmasına əhəmiyyət verməyəcəklər".**[1] Allah qorusun. İndi insanlar bir-birləri ilə dünya üçün vuruşurlar. Qəribəsi də odur ki, o özü üçün yaradılmış dünyanın arxasınca qaçır. Halbuki, dünya onun arxasınca qaçmalıdır. Sanki insan dünya üçün yaradılmışdır. Allah qorusun. Ona böyük xidmətlər göstərir, bədənini, ağlını, fikrini, rahatlığını, ailəsi ilə xoş davranışını ona qurban verir. Bəs sonra? Sonra isə ola bilsin ki, onu bir anda itirsin. Məsələn, evindən çıxsın və bir daha geri qayıtmasın, yatağında yatsın və durmasın. Bu da görünmüş bir şeydir.

Başqa bir təəccüblü hal isə odur ki, biz bu möcüzələri görürük, ancaq *bundan ibrət almaq üçün* qəlblərimiz sərtdir. Görürük ki, adam qadınla nikah bağlayır, lakin onunla yaxınlıq etmədən ölür. Baxmayaraq ki, onu çox istəyir, ona ümid bağlayır, lakin vəziyyət başqa cür olur. Görürük ki, bəziləri öz toyuna dəvətnamə paylayarkən, dəvətnamələri hələ avtomobildə ikən dünyalarını dəyişirlər.

Elə isə dünyanın faydası nədir? Bu qədər qürrələnmək nə üçündür? Bu səbəbdən də möminlərə qarşı şəfqətli və rəhimli olan Peyğəmbər ﷺ

[1] "Səhih əl-Buxari", 1918.

xəbər vermişdir ki, bizim üçün qorxduğu odur ki, dünya bizim üzümüzə açılar, biz də onu əldə etmək üçün onun uğrunda yarışarıq. Bu da artıq gördüyümüz bir reallıqdır.

Odur ki, qardaşım, çalış ki, dünya həyatının səni aldatmasından, Allahdan uzaqlaşdırmasından çəkinəsən. Allah sənin ruzini artırsa, sən də ona təşəkkür etsən, bu sənin xeyrinə olar. Ruzin daraldıqda isə səbir etsən, bu da sənin xeyrinə olar. Dünyanı işinin əsası, elminin məğzi etməyin isə həm dünyanı, həm də Axirətini itirməkdir. Allah bizləri və sizləri həm dünyanın, həm də Axirətin xəsarətindən qorusun. Allah bizi və sizi həm gizli, həm də aşkar olan fitnələrdən qorusun.

١٨٦١– وعَنْ أبي زَيْدٍ عمْرُو بنِ أخْطَبَ الأنْصَارِيِّ ﷺ قَال: صلَّى بنا رَسُولُ اللَّه ﷺ الْفَجْر، وَصعِدَ المِنْبَرَ، فَخَطَبنَا حَتَّى حَضَرَتِ الظُّهْرُ، فَنَزَل فَصَلَّى. ثُمَّ صَعِدَ المِنْبَر فخطب حَتَّى حَضَرتِ العصْرُ، ثُمَّ نَزَل فَصَلَّى، ثُمَّ صعِد المنْبر حتى غَرَبتِ الشَّمْسُ، فَأخْبرنا مَا كان ومَا هُوَ كِائِنٌ، فَأَعْلَمُنَا أحْفَظُنَا. رواهُ مُسْلِمٌ.

1861. Əbu Zeyd Amr ibn Əxtab əl-Ənsarinin ﷺ belə dediyi rəvayət olunur ki, "Rəsulullah ﷺ bizlərə fəcr namazını qıldırdı. Sonra minbərə qalxıb bizlərə zöhrün vaxtı yetişənədək xütbə verdi. Sonra düşüb namazını qıldı. Sonra yenə minbərə qalxdı və əsrə qədər xütbə verdi. Sonra enib namazı qıldı. Sonra yenə minbərə qalxdı və gün batanadək xütbə verdi. O, bizə olmuş və olacaqlar barədə xəbər verdi. Bizim elmli olanlarımız *onları* daha yaxşı əzbərləyənlərimizdir".

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٨٦٢– وعنْ عائِشَةَ ﷺ قَالَتْ: قال النبي ﷺ: « مَنْ نَذَرَ أن يُطِيع اللَّه فَلْيُطِعْهُ، ومَنْ نَذَرَ أنْ يعْصِيَ اللَّه، فلا يعْصِهِ » رواهُ البُخاري.

1862. Aişədən ﷺ nəql olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Kim Allaha itaət edəcəyini nəzir edərsə, buna itaət etsin. Kim də Allaha asiliyə nəzir edərsə, Allaha asi olmasın"**.

Bu hədisi Buxari rəvayət etmişdir.[2]

---

[1] "Səhih Muslim", 5149.

[2] "Səhih əl-Buxari", 6202.

Şərh:

Bu iki hədis müəllif Hafiz ən-Nəvəvinin ﵀ "Salehlər bağçası" kitabının sonunda qeyd etdiyi hədislərdəndir. Bu hədislər müəyyən bir fəsilə aid deyil. Həmin hədislərdən biri də Peyğəmbərin ﷺ ən gözəl xatib olduğuna dəlalət edir. Ona başqalarına verilməmiş fəsahət də bəxş edilmişdir.

Bir gün o ﷺ sübh namazını qılıb minbərə qalxdı və zöhr namazının azanınadək xütbə verdi. Sonra enib zöhr namazını qıldı və yenidən minbərə qalxıb əsrin azanınadək xütbə verdi. Sonra enib əsr namazını qıldı, yenidən minbərə qalxdı və gün batanadək xütbə verdi. Yəni bütöv bir gün sübhdən məğribədək xütbə verdi. Hətta qeyd olunmur ki o, evə nahar etməyə getdi. O, ya oruc idi, ya da daha mühüm işlə məşğul idi. O da qeyd olunmur ki, o, zöhrün nafiləsini qıldı. Çünki o, nafilədən daha mühüm bir işlə məşğul idi. Belə ki, insanları öyrətmək nafilə ibadətdən daha mühümdür. Əgər nafilə ibadətlə elm öyrətmək müqayisə olunarsa, elm öyrətmək daha əfzəl sayılar.

Səhabə dedi: "O, bizə olmuş və olacaqlar barədə xəbər verdi". Yəni Uca Allahın ona bildirdilərini. Çünki o, qeybi Allahın onu bildirdiyi qədər bilirdi. İzzət və cəlal sahibi Allah da ona həmin gün bəzi keçmişdə olan qeybi məsələləri, bir də bəzi gələcəkdə olacaq qeybi məsələləri bildirərək xəbər vermişdi.

"Bizim elmli olanlarımız *onları* daha yaxşı əzbərləyənlərimizdir". Yəni bəzilərimiz eşitdiklərini əzbərləmiş və bunlar onun zehnində qalmışdı. Bəzilərimiz isə bunu öyrənə bilməmişdi. Ən elmli olanlarımız da daha çox əzbərləyənlər oldu. Bu da Peyğəmbərin ﷺ gücünə, aktivliyinə, risaləsinin yayılmasının hərisliyinə dəlalət edir. Belə ki, o bütöv bir gün ayaq üstə dayanmışdı.

İkinci hədis Aişədən ﵂ nəql olunmuşdur. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Kim Allaha itaət edəcəyini nəzir edərsə, buna itaət etsin. Kim də Allaha asiliyə nəzir edərsə, Allaha asi olmasın".**

Nəzir, insanın özünü izzət və cəlal sahibi Allah üçün bir şeyə məcbur etməsidir. Məsələn, deyir ki, nəzir edirəm ki, oruc tutum, yaxud namaz qılım və ya Quran oxuyum, həccə gedim, ümrə ziyarəti edim, sədəqə verim və s.

Nəzir ya haram olur, ya da məkruh. Bəzi alimlər nəzirin haram olduğunu bildirmişlər. Onlara görə insanın nəzir etməsi halal deyildir. Çünki o, özünü ehtiyacı olmadığı bir şeylə yükləyir. Nə qədər insanlar vardır ki,

nəzir ediblər, ancaq onları yerinə yetirə bilməyiblər. Nə qədər insanlar vardır ki, nəzir ediblər, lakin onları yerinə yetirməkdə çətinlik çəkmişlər. Bir çoxları isə nəzir etdikdən sonra alim yanına gedərək rüxsət aramışlar. Mühüm olan odur ki, Peyğəmbər ﷺ nəziri qadağan etmişdir.

Bəziləri isə demişlər ki, bu, məkruhdur, lakin Allaha itaət edəcəyinə nəzir edən kəsin nəzirini yerinə yetirməsi vacibdir. Məsələn, desə ki, nəzir edirəm ki, hər həftənin bazar ertəsi günü oruc tutum, onda gərək hər həftənin bazar ertəsi günü oruc tutsun. Xəstə olması kimi hallar istisna olmaqla, gərək o nəzirini yerinə etirsin. Əgər nəzir etsə ki, hər gün duha vaxtı iki rükət namaz qılacaq, gərək iki rükət namaz qılsın. Nəzir etsə ki, yüz dirhəm sədəqə verəcək, gərək bunu etsin. Əslində, *əgər nəzir etməsəydi,* bunları etməyə də bilərdi – istəsəydi oruc tutardı, istəməsəydi tutmazdı, istəsəydi namaz qılardı, istəməsəydi qılmazdı. Fərz olmayan əməllərdə o azaddır. Lakin o özünü *nəzirlə* buna məcbur edir. Qəribəsi də odur ki, xəstələnən bəzi insanlar – Allah onlara hidayət versin – deyirlər ki, Allah mənə şəfa verərsə, belə-belə edəcəyimi nəzir edirəm. Sübhanallah! Belə şərt qoyduğuna görə Allah sənə şəfa verməsin!!! Peyğəmbər ﷺ buna işarə etmiş və demişdir: **"Nəzir heç bir şeyi dəf etmir".**[1] – əgər Allah bir şeyi istəyərsə, sən nəzir etsən də, etməsən də o iş olacaq. Yenə o ﷺ demişdir: **"O, xeyir gətirmir"**.[2] Peyğəmbər ﷺ doğru buyurmuşdur – nəzirdə xeyir yoxdur. Nə qədər insanlar vardır ki, nəzir etmiş, lakin onu yerinə yetirə bilməmişdir.

Bil ki, sən hansısa şərtlə nəzir etdikdə həmin şərt həyata keçərsə, onu yerinə yetirməməyin sənin əleyhinə böyük bir təhdid olur – sən nifaqa düşə bilərsən, Allah sənin qəlbinə ölənədək nifaq qoyar. İzzət və cəlal sahibi Allah buyurur: **"Onlardan: "Əgər *Allah* Öz lütfündən bizə bəxş etsə, əlbəttə, biz sədəqə verər və əməlisalehlərdən olarıq!"– *deyə* Allaha əhd edənləri də vardır".**[3] Allaha əhd vermişdilər ki: **"Allah onlara mal-dövlət versə, sədəqə verəcəklər və Allaha itaət edəcəklər. *Allah* Öz lütfündən onlara verdikdə isə xəsislik edərək üz çevirib getdilər".**[4] İşləri düzəldikdə isə sədəqə vermədilər, üz döndərdilər və sadiqlərdən olmadılar: Allaha

[1] "Səhih əl-Buxari", 6118; "Səhih Muslim", 3095.

[2] "Səhih Muslim", 3095.

[3] "ət-Tövbə" surəsi, 75.

[4] "ət-Tövbə" surəsi, 76.

verdikləri əhdə vəfa etmədilər. **"Allaha verdikləri vədə xilaf çıxdıqlarına və yalan söylədiklərinə görə *Allah da* onların qəlblərinə Onunla qarşılaşacaqları günədək nifaq saldı".**[1] – daimi nifaqa düşürlər və ondan tövbə etməyə müvəffəq olmurlar, qəlbləri də ondan təmizlənmir. Ölənədək nifaq onların qəlbində qalır. Allah qorusun. Beləcə, onlar sədəqə verəcəkləri ilə bağlı Allaha verdikləri əhdə xilaf çıxdıqlarına görə nifaq üzərində ölürlər. Onlar həm də **"salehlərdən olacağıq"**– deyirdilər. Odur ki, müsəlman qardaş, həm özün nəzirdən çəkin, həm də müsəlman qardaşlarını bundan çəkindir. Xəstə olan kəsə de ki, əgər Allah sənin sağalmağını diləyərsə, nəzirsiz də sağalacaqsan. Şagirdə de ki, əgər Allah sənin imtahandan keçməni diləyərsə, nəzirsiz də keçəcəksən. Bir şeyini itirən adama de ki, əgər Allah sənin onu tapmağını diləyərsə, onu nəzirsiz də tapacaqsan. Allahla nəfsində sadiq ol, bir şey əldə etdikdə Allaha şükür et, dilədiyin qədər sədəqə ver, oruc tut, namaz qıl. Sənin nəzir etməyin isə sanki izzət və cəlal sahibi Allahın hər hansı bir işi şərt olmadan həyata keçirmədiyi kimi anlaşılır. Allah qorusun. Odur ki, nəzirin haram olması barədə olan rəy güclüdür. Şeyxulislam ibn Teymiyyə də bu rəyə meyl etmişdir.

"Kim Allaha asiliyə nəzir edərsə, Allaha asi olmasın". Məsələn, biri nəzir etsə ki, şərab içsin, onu içməsi haram olur. Nəzir onun şərab içməsini halal etmir. Allaha asi olma məsələlərində nəzir həyata keçirilməz. Nəzir etsə ki, birisinə təcavüz edəcək, bunu etməsi halal deyil. Nəzir etsə ki, birinin qeybətini edəcək, onun qeybətini etməsi halal deyildir. Nəzir etsə ki, qohumu ilə əlaqəni kəsəcək, onunla əlaqəni kəsməsi halal deyil. Nəzir etsə ki, valideyinlərinin üzünə ağ olacaq, bunu etməsi halal deyil. Çünki bunlar asilikdir.

"Kim Allaha asiliyə nəzir edərsə, Allaha asi olmasın". Bəs nə etsin? Elm əhli demişdir: Allaha asi olmur və andı pozmanın kəffarəsini verir – on nəfər kasıbı yedirir, geyindirir, qul azad edir. Bunları etmək ona asan olmadıqda isə üç gün ardıcıl oruc tutur. Bu xüsusda Peyğəmbərdən ﷺ hədis də varid olmuşdur. Müvəffəq edən Allahdır.

١٨٦٣– وَعنْ أُمِّ شَرِيكٍ رضي الله عنها أن رسُول اللَّه ﷺ أمرَهَا بِقَتْلِ الأوزَاغِ، وقَال: « كَانَ ينْفُخُ علَى إبْراهيمَ » متفقٌ عَلَيْهِ.

[1] "ət-Tövbə" surəsi, 77.

1863. Ummu Şərikdən ﵂ rəvayət olunur ki, Rəsulullah ﷺ ona kərtənkələni öldürməyi əmr edərək demişdir: **"O, İbrahimə üfürürdü"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٨٦٤– وَعنْ أبي هُريرةَ ﵁ قَال: قَالَ رسُولُ اللَّه ﷺ: « منْ قَتَلَ وزَغَةً في أوَّلِ ضَرْبةٍ، فَلَهُ كَذَا وَكَذَا حسنَةً، وَمَنْ قَتَلَهَا في الضَّرْبَةِ الثَّانِية، فَلَهُ كَذَا وكَذَا حَسنَةً دُونَ الأولَى، وإنَّ قَتَلَهَا في الضَّرْبةِ الثَّالِثَةِ، فَلَهُ كَذاَ وَكَذَا حَسَنَةً ».

وفي رِوَايةٍ: « مَنْ قَتَلَ وزَغاً في أوَّلِ ضَرْبةٍ، كُتِبَ لَهُ مائةُ حسَنَةٍ، وَفي الثَّانِيَةِ دُونَ ذَلِكَ، وفي الثَّالِثَةِ دُونَ ذَلِكَ ». رواه مسلم.

قال أهْلُ اللُّغَةِ: الْوَزَغُ: الْعِظَامُ مِنْ سامَّ أبْرصَ.

1864. Əbu Hureyradan ﵁ nəql olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kim kərtənkələni bir zərbəyə öldürərsə, o, belə-belə savab qazanar. Kim onu ikinci zərbəsində öldürərsə, birincidən az – belə-belə savab qazanar. Kim də kərtənkələni üçüncü zərbəsində öldürərsə, belə-belə savab qazanar".**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

Başqa bir rəvayətdə[3] deyilir: **"Kim kərtənkələni ilk zərbəsində öldürərsə, o, yüz savab qazanar. İkinci zərbəsində öldürən bundan az, üçüncüsündə öldürən isə bundan da az qazanar".**

Dil alimləri demişlər ki, [hədisin ərəbcəsində hallanan] "əl-vazəğ" böyük zəhərli kərtənkələdir.

Şərh:

Bu iki hədis kərtənkələni öldürmək barəsindədir.

"əl-vazəğ", kərtənkələ növüdür. Burada evlərə girib insanlara zərər verən növ nəzərdə tutulur. Peyğəmbər ﷺ onu qətlə yetirməyi əmr etmişdir. Aişənin ﵂ nizəsi var idi və onunla kərtənkələ öldürərdi.

Peyğəmbər ﷺ xəbər vermişdir ki, kim onu birinci zərbəsində qətlə yetirərsə, belə-belə əcr qazanır. İkincidə ondan az, üçüncüdə ondan az.

[1] "Səhih əl-Buxari", 3109.

[2] "Səhih Muslim", 4156.

[3] "Səhih Muslim", 2240.

Bununla müsəlmanları buna təşviq etmişdir. Onu güclü zərbə ilə vurmaq lazımdır ki, birinci zərbədən ölsün. Peyğəmbər ﷺ onu ziyanverici adlandırmış, həmçinin xəbər vermişdir ki, kərtənkələ, düşmənləri İbrahimi oda atdıqda onun üzərinə od üfürmüşdü ki, daha da alovlansın. Bu da onun tövhid və ixlas əhlinə olan düşmənçiliyinin göstəricisidir. Odur ki, gərək insan evdə, məsciddə və ya bazarda kərtənkələni təqib etsin və Peyğəmbərin ﷺ əmrinə uyğun olaraq qətlə yetirsin, bununla da əcr və savaba nail olsun. Çünki müəllifin qeyd etdiyi və Əbu Hureyradan rəvayət olunan bu hədisdə deyilir ki, ilk zərbədən onu öldürən yüz savab, ikinci zərbədən öldürən yetmiş, üçüncüdən öldürən isə ondan az savab əldə edir. Hər birimiz savab əldə etməyə çalışırıq. Allah bizləri savaba müvəffəq etsin.

Odur ki, qardaşım, kərtənkələni öldürməyə həris ol – əlinlə, ayaqqabı ilə, daşla və ya başqa bir şeylə. Rəvayət olunur ki, möminlərin anası Aişə də nizəyə bənzər bir şey hazırlamış və onunla kərtənkələləri öldürərdi. Müvəffəq edən Allahdır.

١٨٦٥– وَعَنْ أبي هُرَيْرَةَ رضي الله عنه أنَّ رسُول اللَّه ﷺ قَال: « قَال رَجُلٌ لأتَصدقَنَّ بِصَدقَةٍ، فَخَرجَ بِصَدقته، فَوَضَعَهَا في يَدِ سَارِقٍ، فَأصْبحُوا يتَحدَّثُونَ: تَصَدِّقَ الليلة علَى سارِقٍ، فَقَالَ: اللَّهُمَّ لَكَ الْحَمْدُ لأتَصَدَّقَنَّ بِصَدَقَةٍ، فَخَرَجَ بِصَدقَتِهِ، فَوَضَعَهَا في يدِ زانيةٍ، فَأصْبَحُوا يتَحدَّثُونَ تُصُدِّق اللَّيْلَةَ عَلَى زَانِيَةٍ، فَقَالَ: اللَّهُمَّ لَكَ الْحَمْدُ عَلَى زانِيَةٍ، لأتَصَدَّقَنَّ بِصدقة، فَخَرَجَ بِصَدقَتِهِ، فَوَضَعهَا في يد غَنِي، فأصْبَحُوا يتَحدَّثونَ: تُصُدِّقَ علَى غَنِيٍّ، فَقَالَ اللَّهُمَّ لَكَ الْحَمْدُ علَى سارِقٍ، وعَلَى زَانِيةٍ، وعلَى غَنِي، فَأتِي فَقِيل لَهُ: أمَّا صدَقَتُكَ علَى سَارِقٍ فَلَعَلَّهُ أنْ يَسْتِعفَّ عنْ سرِقَتِهِ، وأمَّا الزَّانِيةُ فَلَعلَّهَا تَسْتَعِفَّ عَنْ زِنَاهَا، وأمَّا الْغنِيُّ فَلَعلَّهُ أنْ يعْتَبِر، فَيُنْفِقَ مِمَّا آتَاهُ اللَّهُ » رَواهُ البخاري بلفظِهِ، وَمُسْلِمٌ بمعنَاهُ.

1865. Əbu Hureyradan رضي الله عنه nəql olunan hədisdə Peyğəmbər ﷺ demişdir: «**Bir kişi "sədəqə verəcəyəm" deyib sədəqəsi ilə çıxdı və onu oğrunun əlinə qoydu. Səhər insanlar: "Bu gecə oğruya sədəqə verildi"– dedilər. O dedi: "Allahım, Sənə həmd olsun". Yenə "sədəqə verəcəyəm" deyib sədəqəsi ilə çıxdı və sədəqəni zinakar bir qadına verdi. Səhər insanlar: "Bu gecə zinakara sədəqə verildi"– dedilər. O dedi: "Allahım, zinakara *çatan sədəqəyə* görə Sənə həmd olsun". "Sədəqə verəcəyəm" deyib sədəqəsi ilə çıxdı və bu dəfə onu zəngin bir adama verdi. Səhər**

insanlar: "Bu gecə zənginə sədəqə verildi"– dedilər. O dedi: "Allahım, oğruya, zinakara, varlıya *çatan sədəqəyə* görə Sənə həmd olsun!" Onun yanına gəlib dedilər: "Oğruya verdiyin sədəqə ola bilsin ki, onu oğru olmaqdan çəkindirdi. Zinakar ola bilsin ki, zinadan əl çəksin. Zəngin isə ola bilsin ki, ibrət götürsün və Allahın ona bəxş etdiyi nemətlərdən xərcləsin"».

Bu hədisi Buxari bu ləfzlə rəvayət etmişdir. Muslim isə bu hədisi mənası ilə nəql etmişdir.[1]

Şərh:

Əbu Hureyradan ﷺ nəql olunmuş hədisdə bir kişi sədəqə vermək üçün çıxır. Məlum məsələdir ki, sədəqə kasıblara və yoxsullara verilir. Onun sədəqəsi isə oğrunun əlinə düşür. İnsanlar da danışırlar ki, bu gecə oğruya sədəqə verildi. Əslində, oğru olan kəs cəzalandırılmalıdır. Ona pul verib malını artırmaq doğru deyil. Sədəqə verən bu adam da: "Allaha həmd olsun!" dedi.

Uca Allaha hər bir halda şükür edilməlidir. Peyğəmbərin ﷺ hidayətindəndir ki, onu sevindirən bir şeylə üzləşdikdə: **"Həmd olsun o Allaha ki, Onun neməti ilə yaxşı işlər tamamlanır"**– deyərdi.[2] Odur ki, sən də səni sevindirən bir işlə üzləşdikdə: "Həmd olsun o Allaha ki, Onun neməti ilə yaxşı işlər tamamlanır"– de. Pis bir işlə üzləşdikdə isə belə de: "Hər bir halda Allaha həmd olsun". Peyğəmbərin ﷺ hidayəti belədir.

Bəzi insanların: "Həmd olsun o Allaha ki, pis bir işə görə yalnız Ona həmd olunar"– demələrinə gəlincə, belə demək doğru deyil. Çünki "pis bir iş" demək, həmin şeyə narazılığın bir ifadəsidir, yaxud bunda narazılıq əlaməti vardır. Peyğəmbər ﷺ buyurduğu kimi demək lazımdır: "Hər bir halda Allaha həmd olsun!"

Şəkk yoxdur ki, bu dünyada insan bir gün sevdiyi işlə üzləşir, başqa bir gün isə sevmədiyi işlə. Dünya eyni vəziyyətdə qalmır, hər cəhətdən də saf olmur. Həyatda mütləq kədər də olur. Allah bizlərə və sizlərə Axirətdə gözəl aqibət nəsib etsin. Odur ki, səni sevindirən bir işlə üzləşdikdə: "Həmd olsun o Allaha ki, Onun neməti ilə yaxşı işlər tamamlanır"– de. Pis bir işlə üzləşdikdə isə: "Hər bir halda Allaha həmd olsun"– de.

---

[1] "Səhih əl-Buxari", 1332; "Səhih Muslim", 1698.

[2] "Səhih əl-Buxari", 3793.

Həmin adam yenə deyir ki, bu gecə sədəqə verəcəyəm. Bu dəfə onun sədəqəsi zinakar qadının əlinə düşür. Yəhi pozğun qadının. Allah qorusun.

"Səhər insanlar: "Bu gecə zinakara sədəqə verildi"– dedilər". Bunu da nə ağıl qəbul edir, nə də fitrət. Dedi: "Allaha həmd olsun!".

Sonra yenə: "Bu gecə sədəqə verəcəyəm"– dedi. Sanki o, birinci və ikinci sədəqəsinin qəbul olunmamasını düşünmüşdü. Bu dəfə isə sədəqəsi varlı birinin əlinə düşür. Varlı adama isə sədəqə düşmür. Ona hədiyyə və ya buna bənzər başqa bir şey vermək olar.

"Səhər insanlar: "Bu gecə zənginə sədəqə verildi"– dedilər. O dedi: "Allahım, oğruya, zinakara, varlıya *çatan sədəqəyə* görə sənə həmd olsun!" O istəyirdi ki, kasıb və ehtiyacı olan birisinə sədəqə versin. Lakin Allahın qədəri mütləq şəkildə həyata keçir. Ona dedilər ki, sənin sədəqən qəbul olunmuşdur, çünki onu ixlasla vermisən. O, xeyirə niyyət etmişdi, lakin istədiyi alınmamışdı. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"İctihad edən hakimin hökmü səhv olarsa, bir savab qazanmış olar"**.[1] Bu adam da ictihad etdi, ancaq ictihadı doğru çıxmadı. Ona dedilər ki, sədəqən qəbul olunub – ola bilsin ki, oğru öz əməlindən əl çəksin, desin ki, bu pul mənə kifayət edər. Zinakar da ola bilsin, zinadan əl çəkər. Çünki o, pul əldə etmək üçün zina edirdi. Allah qorusun. Pul əldə etdikdə isə zinadan əl çəkə bilər. Varlı olan kəs də ola bilsin, ibrət götürsün, malından sərf etsin.

Gözəl niyyət belədir, o yalnız gözəl nəticələr verir. Bütün bu sadalananlar ehtimaldır və baş verməsi mümkündür. Oğru oğurluqdan çəkinə bilər, zinakar zinadan çəkinər, varlı isə ibrət götürər.

Bu hədis dəlildir ki, insan xeyirə niyyət edib ona səy göstərdikdə səhv edərsə, ona savab yazılır və səhvi ona zərər vermir. Alimlər bu barədə demişlər: Əgər adam birisinin zəkata layiq insan olduğunu güman edərək ona zəkat verərsə, sonra da məlum olarsa ki, həmin adam zəkata layiq deyil, zəkat keçərli sayılır. Məsələn, bir nimdaş libas geyinən birisini kasıb zənn edərək zəkat verirsən. Sonra insanlardan eşidirsən ki, o varlı adamdır və çoxlu pulu var. Buna bənzər başqa bir adamı da zəkata layiqli bilib ona zəkat verəndən sonra bəlli olarsa ki, o adam buna layiq deyil, zəkat yenə keçərli sayılır. Müvəffəq edən Allahdır.

---

[1] "Səhih əl-Buxari", 6805; "Səhih Muslim", 3240.

١٨٦٦– وعنه قال كنا مع رسول اللَّه ﷺ في دعوة فرفع إليه الذراع وكانت تُعجبه فَنَهَسَ منها نَهَسةَ وقال: أنا سيد الناس يوم الْقِيَامَةِ، هَلْ تَدْرُونَ مِمَّ ذَاكَ؟ يَجْمعُ اللَّه الأوَّلِينَ والآخِرِينَ في صعِيدٍ وَاحِد، فَيَنْظُرُهمُ النَّاظِرُ، وَيُسمِعُهُمُ الدَّاعِي، وتَدْنُو مِنْهُمُ الشَّمْسُ، فَيَبْلُغُ النَّاسُ مِنَ الْغَمِّ والْكَرْبِ مَالاَ يُطيقُونَ وَلاَ يحْتَمِلُونَ، فَيَقُولُ النَّاسُ: أَلاَ تَروْنَ إِلى مَا أَنْتُمْ فِيهِ، إِلَى ما بَلَغَكُمْ؟ أَلاَ تَنْظُرُونَ مَنْ يشْفَعُ لَكُمْ إِلى رَبِّكُمْ؟

فيَقُولُ بعْضُ النَّاسِ لِبَعْضٍ: أَبُوكُمْ آدَمُ، ويأتُونَهُ فَيَقُولُونَ: يَا أَدمُ أَنْتَ أَبُو الْبَشرِ، خَلَقَك اللَّه بيدِهِ، ونَفخَ فِيكَ مِنْ رُوحِهِ، وأَمَرَ المَلاَئِكَةَ فَسَجَدُوا لَكَ وَأَسْكَنَكَ الْجَنَّةَ، أَلا تَشْفعُ لَنَا إِلَى ربِّكَ؟ أَلاَ تَرى مَا نَحْنُ فِيهِ، ومَا بَلَغَنَا؟ فَقَالَ: إِنَّ رَبِّي غَضِبَ غضَباً لَمْ يغْضَبْ قَبْلَهُ مِثْلَهُ. وَلاَ يَغْضَبُ بَعْدَهُ مِثْلَهُ، وَإِنَّهُ نَهَاني عنِ الشَّجَرةِ، فَعَصَيْتُ. نَفْسِي نَفْسِي نَفْسي. اذهَبُوا إِلَى غَيْرِي، اذْهَبُوا إِلَى نُوحٍ. فَيَأْتُونَ نُوحاً فَيقُولُونَ: يَا نُوحُ، أَنْتَ أَوَّلُ الرُّسُل إِلى أَهْلِ الأرْضِ، وَقَدْ سَمَّاك اللَّه عَبْداً شَكُوراً، أَلا تَرَى إِلَى مَا نَحْنُ فِيهِ، أَلاَ تَرَى إِلَى مَا بَلَغَنَا، أَلاَ تَشْفَعُ لَنَا إِلَى رَبِّكَ؟ فَيَقُولُ: إِنَّ رَبِّي غَضِبَ الْيوْمَ غَضَباً لمْ يَغْضَبْ قَبْلَهُ مِثْلَهُ، وَلَنْ يَغْضَبَ بَعْدَهُ مِثْلَهُ، وَأَنَّهُ قدْ كانَتْ لِي دَعْوةٌ دَعَوْتُ بِهَا عَلَى قَوْمِي، نَفْسِي نَفْسِي نَفْسِي، اذْهَبُوا إِلَى غَيْرِي اذْهَبُوا إِلَى إِبْرَاهِيمَ. فَيَأْتُونَ إِبْرَاهِيمَ فَيَقُولُونَ: يَا إِبْرَاهِيمُ أَنْتَ نَبِيُّ اللَّهِ وَخَلِيلُهُ مِنْ أَهْلِ الأرْضِ، اشْفَعْ لَنَا إِلَى رَبِّكَ، أَلاَ تَرَى إِلَى مَا نَحْنُ فِيهِ؟ فَيَقُولُ لَهُمْ: إِنَّ رَبِّي قَدْ غَضِبَ الْيَوْمَ غَضَباً لَمْ يَغْضَبْ قَبْلَهُ مِثْلَهُ، وَلَنْ يَغْضَبَ بَعْدَهُ مِثْلَهُ وَإِنِّي كُنْتُ كَذَبْتُ ثَلاَثَ كَذْبَاتٍ نَفْسِي نَفْسِي نَفْسِي، اذْهَبُوا إِلَى غَيْرِي، اذْهَبُوا إِلَى مُوسَى. فَيأْتُونَ مُوسَى، فَيقُولُون: يا مُوسَى أَنْت رسُولُ اللَّه، فَضَّلَكَ اللَّه بِرِسالاَتِهِ وبِكَلاَمِهِ على النَّاسِ، اشْفعْ لَنَا إِلَى رَبِّكَ، أَلاَ تَرَى إِلى مَا نَحْنُ فِيهِ؟ فَيَقول إِنَّ رَبِّي قَدْ غَضِبَ الْيَوْمَ غَضَباً لَمْ يَغْضَبْ قَبْلَهُ مِثْلَهُ، وَلَنْ يَغْضَبَ بَعْدَهُ مِثْلَهُ وَإِنِّي قَدْ قتَلْتُ نَفْساً لَمْ أُومرْ بِقْتلِهَا. نَفْسِي نَفْسِي نَفْسِي، اذْهَبُوا إِلَى غَيْرِي، اذْهَبُوا إِلَى عِيسى. فَيَأْتُونَ عِيسَى. فَيقُولُونَ: يا عِيسى أَنْتَ رَسُولُ اللَّهِ وَكلمتُهُ أَلْقَاهَا إِلَى مَريم ورُوحٌ مِنْهُ وَكَلَّمْتَ النَّاسَ في المَهْدِ. اشْفَعْ لَنَا إِلَى رَبِّكَ. أَلاَ تَرَى مَا نَحْنُ فِيهِ، فيَقولُ: إِنَّ رَبِّي قَدْ غَضِبَ الْيَوْمَ غَضَباً لَمْ يَغْضَبْ قَبْلَهُ مِثْلَهُ، وَلَنْ يَغْضَبَ بَعْدَهُ مِثْلَهُ، وَلمْ يَذْكُرْ ذنْباً، نَفْسِي نَفْسِي نَفْسِي، اذْهَبُوا إِلَى غَيْرِي، اذْهَبُوا إِلَى مُحمَّد ﷺ. فيأْتون محَمداً ﷺ.

وفي روايةٍ: « فَيَأْتُوني فيَقُولُونَ: يَا مُحَمَّدُ أَنْتَ رسُولُ اللَّهِ، وَخاتَمُ الأَنْبياءَ، وقَدْ غَفَرَ اللَّه لَكَ ما تَقَدَّمَ مِنْ ذَنْبِكَ وَما تَأخَّر، اشْفَعْ لَنَا إِلَى ربِّكَ، أَلاَ تَرَى إِلَى ما نَحْنُ فِيهِ؟ فَأَنْطَلِقُ، فَآتي تَحْتَ الْعَرْشِ، فأَقَعُ سَاجِداً لِربِّي » ثُمَّ يَفْتَحُ اللَّه عَلَيَّ مِنْ مَحَامِدِهِ، وحُسْن الثَّنَاءِ عَلَيْهِ شَيْئاً لِمْ يَفْتَحْهُ عَلَى أَحَدٍ قَبْلِي ثُمَّ يُقَالُ: يَا مُحَمَّدُ ارفَع رأْسكَ، سَلْ تُعْطَهُ، وَاشْفَعْ تُشَفَّعْ، فَأَرفَعُ رَأْسِي، فَأَقُولُ أُمَّتِي يَارَبِّ، أُمَّتِي يَارَبِّ، فَيُقَالُ: يامُحمَّدُ أَدْخِلْ مِنْ أُمَّتك مَنْ لاَ حِسَابَ عَلَيْهِمْ مِنَ الْباب الأَيْمَنِ مِنْ أَبْوَابِ الْجَنَّةِ وهُمْ شُرَكَاءُ النَّاسِ فِيمَا سِوىَ ذَلِكَ مِنَ الأَبْوَابِ » ثُمَّ قال: « وَالَّذِي نَفْسِي بِيدِهِ إِنَّ مَا بَيْنَ المصراعَيْنِ مِنْ مَصَارِيعِ الْجَنَّةِ كَمَا بَيْن مَكَّةَ وَهَجَر، أَوْ كَمَا بَيْنَ مَكَّةَ وَبُصْرَى » متفقٌ عليه.

1866. Yenə Əbu Hureyradan ﷺ rəvayət olunur ki, o demişdir: "Bir yeməyə dəvətdə Peyğəmbərə ﷺ yemək üçün qol təqdim olundu. Bu onun çox xoşuna gəlirdi. Ondan azacıq qoparıb dedi: **"Mən Qiyamət günü insanların ağası olacağam. Bilirsinizmi nəyə görə? Allah bütün insanları bir yerə toplayacaqdır. Baxan onları görəcək, çağıran onları eşidəcək, günəş onlara yaxınlaşacaq. İnsanlar taqətdən düşüb yorulacaq dərəcədə sıxıntı ilə üzləşəcək və bir-birilərinə deyəcəklər: – Baxın, görün Rəbbinizin yanında sizlər üçün kim şəfaət edə bilər?**

Onlardan biri digərinə: "Atanız Adəm" deyəcək. Gəlib ona deyəcəklər ki, "Ey Adəm, sən bəşəriyyətin atasısan. Allah səni öz Əli ilə yaratmış, sənə Öz Ruhundan üfürmüş, mələklərə də əmr etmişdir ki, sənə səcdə etsinlər. Sonra da səni Cənnətdə məskunlaşdırmışdır. Bizə Rəbbin yanında şəfaətçilik et. Məgər halımızı görmürsən? Məgər bizə üz veräni görmürsən?!" O deyəcək: "Bu gün Rəbbimiz elə qəzəblənmişdir ki, bundan əvvəl heç vaxt belə qəzəblənməyib, bundan sonra da heç vaxt belə qəzəblənməyəcək. O, mənə bir ağacı qadağan etdi, mən isə Ona asi oldum. Nəfsim, nəfsim, nəfsim... Siz başqasının yanına gedin, Nuhun yanına gedin".

Onlar Nuhun yanına gəlib deyəcəklər: "Ey Nuh, sən yer üzərinə göndərilmiş ilk rəsulsan. Uca Allah səni şüküredən qul adlandırmışdır. Məgər halımızı görmürsən? Məgər bizə üz veräni görmürsən? Bizim üçün Rəbbinin yanında şəfaətçilik etməyəcəksənmi?!" O deyəcək: "Mənim Rəbbim bu gün elə qəzəblənmişdir ki, bundan əvvəl heç vaxt belə

qəzəblənməyib, bundan sonra da heç vaxt belə qəzəblənməyəcək. Mən artıq öz qövmüm üçün dua etmişəm. Nəfsim, nəfsim, nəfsim... Siz başqasının yanına gedin, İbrahimin yanına gedin".

Onlar İbrahimin yanına gəlib deyəcəklər: "Ey İbrahim, sən Allahın peyğəmbəri və yer əhlindən olan dostusan. Bizim üçün Rəbbin yanında şəfaətçilik et. Məgər halımızı görmürsən?" O da deyəcək: "Mənim Rəbbim bu gün elə qəzəblənmişdir ki, bundan əvvəl heç vaxt belə qəzəblənməyib, bundan sonra da heç vaxt belə qəzəblənməyəcək. Mən üç dəfə yalan danışmışam. Nəfsim, nəfsim, nəfsim... Siz başqasının yanına gedin, Musanın yanına gedin".

Onlar Musanın yanına gəlib deyəcəklər: "Ey Musa, sən Allahın rəsulusan. Allah səni risaləsi və danışdırması ilə başqalarından üstün etmişdir. Məgər halımızı görmürsən?" O deyəcək: "Mənim Rəbbim bu gün elə qəzəblənmişdir ki, bundan əvvəl heç vaxt belə qəzəblənməyib, bundan sonra da heç vaxt belə qəzəblənməyəcək. Mən, buna əmr olunmadan bir nəfəri qətlə yetirmişəm. Nəfsim, nəfsim, nəfsim... Siz başqasının yanına gedin, İsanın yanına gedin".

Onlar İsanın yanına gəlib deyəcəklər: "Ey İsa, sən Allahın rəsulu, Məryəmə verdiyi kəlməsi, Ondan olan bir ruhsan, beşikdə ikən insanlarla danışmısan. Rəbbinin yanında bizə şəfaətçi ol. Məgər halımızı görmürsən?" İsa deyəcək: "Mənim Rəbbim bu gün elə qəzəblənmişdir ki, bundan əvvəl heç vaxt belə qəzəblənməyib, bundan sonra da heç vaxt belə qəzəblənməyəcək". O, heç bir günahını zikr etməyib deyir: "Nəfsim, nəfsim, nəfsim... Siz başqasının yanına gedin, Muhəmmədin yanına gedin".

Onlar gəlib deyəcəklər: "Ey Muhəmməd, sən Allahın rəsulusan, peyğəmbərlərin sonuncususan, Allah sənin keçmiş və gələcək günahlarını bağışlamışdır. Rəbbinin yanında bizlər üçün şəfaətçi ol. Məgər halımızı görmürsənmi?" Mən gedib Ərşin altında Rəbbimə səcdə edəcəyəm. Sonra Allah mənim üzərimə nemətlər, gözə təriflər verəcək ki, bundan öncə Ərşdə mənə belə nemətlər verməmişdir. Sonra deyiləcək: "Ey Muhəmməd, başını qaldır! İstə, veriləcək, şəfaət dilə, şəfaət veriləcək". Mən başımı qaldırıb deyəcəm: "Ey Rəbbim, ümmətim! Ey Rəbbim, ümmətim!" Mənə deyiləcək: "Ey Muhəmməd, ümmətindən hesabı olmayanları Cənnətin sağ qapısından daxil et". Başqa qapılarda isə onlar sair

insanlarla bərabər olacaqlar. Sonra Peyğəmbər ﷺ dedi: "Canım əlində olan Allaha and olsun ki, Cənnətin iki hissəsi arasındakı məsafə Məkkə ilə Həcər arası qədər, yaxud Məkkə ilə Busra arası qədərdir".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Müəllifin ﷺ qeyd etdiyi bu uzun hədis Əbu Hureyradan رضي الله عنه nəql olunmuşdur. Hədisdə qeyd olunur ki, bir dəfə onlar bir qonaqlıqda idilər və onlara qol təqdim olundu. Peyğəmbərin ﷺ də qol xoşuna gəlirdi. Burada qoyunun qolu nəzərdə tutulur. Çünki onun əti bədəndəki ən dadlı yeridir. Qolun əti yumşaq, faydalı və tez həzm olunandır. Peyğəmbərin ﷺ də onun ətindən yemək xoşuna gəlirdi. Ondan azacıq qoparır, sonra da bu qəribə hədisi danışmağa başlayır və deyir: "**Mən Qiyamət günü insanların ağası olacağam**". Şəkk yoxdur ki, Peyğəmbər ﷺ uca və böyük Allahın yanında Adəm övladlarının ağası, insanların ən şərəflisidir.

"Bilirsinizmi nəyə görə?". Dedilər: "Xeyr, ey Allahın elçisi". O bununla onlara Adəm övladları arasındakı şərəfini və fəzilətini bəyan edir. Sonra buyurur ki, insanlar hamısı Qiyamət günü bir yerə toplanacaqlar. Bu xüsusda izzət və cəlal sahibi Allah buyurur: «**De: "Şübhəsiz ki, əvvəlkilər də, sonrakılar da bəlli bir günün müəyyən vaxtında mütləq toplanacaqlar"**».[2]

İnsanların hamısı bir araya gələcəklər və həmin vaxt yer düz olacaq. Yəni o vaxt yer indiki kimi kürəvi formada olmayacaq. İndi baxdıqda bütün yer üzünü görə bilmirsən. Yalnız onun üzərində olduğun hissəsini görə bilirsən. Qiyamət günü isə yer üzü dəri kimi düz olacaq. Yerin üzərində dağlar, vadilər, çaylar və dənizlər olmayacaq – yer dümdüz olacaq. İnsanlardan kimsə danışsa, hər kəs onu eşidəcək, hər kəs də görünəcək. Çünki onun üzərində nahamarlıq olmayacaq ki, bir-birilərini görməsinlər. Hamı bir yerdə olacaq. Həmin gün günəş insanlara bil mil ölçüdə yaxınlaşacaqdır. İnsanlar da taqətsiz, dözülməz dərəcədə kədər və sıxıntı içərisində olacaqlar o qədər ki, artıq Yer üzü də onlara dar gələcək. Onlar izzət və cəlal sahibi Allahın yanında onlar üçün şəfaətçi ola biləcək kimsələr

[1] "Səhih əl-Buxari", 4343; "Səhih Muslim", 287.

[2] "əl-Vaqiə" surəsi, 49-50.

axtaracaqlar ki, onları heç olmasa bu məqamdan xilas etsin. İzzət və cəlal sahibi Allah onlara ilham verir ki, bəşəriyyətin atası Adəmin yanına getsinlər. Onlar da onun yanına gedib onun fəzilətlərini ona deyirlər ki, bəlkə izzət və cəlal sahibi Allahın yanında onlar üçün şəfaətçi olsun. Ona deyirlər ki: **"Ey Adəm, sən bəşəriyyətin atasısan"** – Qiyamət günündək bütün insanlar – qadınların və kişilərin hamısı Adəm övladıdırlar.

"Allah səni öz Əli ilə yaratmışdır". Uca Allah İblisin əməlini inkar edərkən belə buyurur: «***Allah* buyurdu: "Ey İblis, sənə Mənim iki əlimlə yaratdığıma səcdə etməyə mane olan nədir?"».[1] Uca Allah Adəmi Öz əli ilə yaratmışdır. Digər məxluqları isə Allah bir kəlmə ilə yaratmışdır – "Ol!"– demiş, onlar da olmuşlar. Deyirlər: **"Allah səni Öz əli ilə yaratmış, mələklərə də əmr etmişdir ki, sənə səcdə etsinlər"**. Uca Allah buyurur: **"Bir zaman Biz mələklərə: "Adəmə *hörmət əlaməti olaraq* səcdə edin!"– dedikdə, İblisdən başqa *hamısı* səcdə etdi".[2]**

"Allah sənə hər şeyin adını öyrətdi". Uca Allah buyurur: **"*Allah* Adəmə bütün *şeylərin* adlarını öyrətdi".[3]**

"Sənə öz Ruhundan üfürdü". Uca Allah buyurur: **"Mən ona biçim verib ruhumdan üfürdüyüm zaman siz ona *hörmət əlaməti olaraq* səcdə edin!".[4]** Bütün bunları məxluqat bilir, ələlxüsus da başqa ümmətlərə verilməyən elmə malik olan Muhəmmədin ümməti.

Adəm də üzrxahlıq edərək deyir: "**Bu gün Rəbbimiz elə qəzəblənmişdir ki, bundan əvvəl heç vaxt belə qəzəblənməyib, bundan sonra da heç vaxt belə qəzəblənməyəcək".** Sonra da öz səhvini zikr edərək deyir ki, uca və nöqsansız Allah ona bir ağacdan yeməyi qadağan etmişdi, o isə ondan yemişdi. Uca Allah buyurur: **"Təkcə bu ağaca yaxınlaşmayın, yoxsa zalımlardan olarsınız".[5]**

Bu ağac Cənnətdə olan bir ağacdır. Biz həmin ağacın nə ağacı olduğunu, nə növ ağac olduğunu, böyüklüyünü və ya kiçikliyini bilmirik. Allah həmin ağacı məchul olaraq bildirmişdir ki, elə məchul şəkildə də ona iman gətirək. Allah Adəmə ondan yeməyi qadağan etdi və onlara bildirdi ki,

---

[1] "Sad" surəsi, 75.

[2] "əl-Bəqərə" surəsi, 34.

[3] "əl-Bəqərə" surəsi, 31.

[4] "əl-Hicr" surəsi, 29.

[5] "əl-Bəqərə" surəsi, 35.

əgər o, öz zövcəsi ilə həmin ağacdan yesələr, zalımlardan olarlar. Lakin onların düşmənləri olan şeytan onlara vəsvəsə etmiş, "Mən sizin üçün nəsihət edənlərdənəm" deyərək onları çaşdırmış, onlar da ona uymuşlar. Beləcə Adəm izzət və cəlal sahibi Allahla əhdini pozaraq Ona asi oldu: **"Beləliklə, Adəm Rəbbinə asi olub səhv yol tutdu".**[1]

O, əhdini unudaraq həmin ağacın meyvəsindən yedi və cəzalandırılaraq Cənnətdən çıxarıldı və izzət və cəlal sahibi Allahın bildiyi bir hikmətə görə yerə endirildi. Beləcə o, öz günahını xatırlayaraq: **"Nəfsim, nəfsim, nəfsim..."**– deyir. Yəni, qoyun hələ bir özümü xilas edim. O, bunu təkidlə üç dəfə təkrar edəcək və deyəcək: **"Siz başqasının yanına gedin, Nuhun yanına gedin".**

Nuh bəşəriyyətin ikinci atasıdır. Uca Allah Nuhu yalançı sayan bütün insanları yerə batırmışdır. Ona yalnız az sayda insan iman gətirmişdir. Odur ki, Nuh bəşəriyyətin ikinci atasıdır. Onlar Nuhun yanına gəlirlər. Çünki onlar şiddət və sıxıntı içərisindədilər. Gəlib Allahın ona bəxş etdiyi nemətləri sadalayırlar. Belə ki, o, yer üzərinə göndərilmiş ilk rəsul idi. Allah onu şükür edən bəndə adlandırmışdır. Ancaq o da Adəmin izzət və cəlal sahibi Allahın qəzəbi barəsində dediyini deyir: **"Mənim Rəbbim bu gün elə qəzəblənmişdir ki, bundan əvvəl heç vaxt belə qəzəblənməyib, bundan sonra da heç vaxt belə qəzəblənməyəcək".** Sonra o ümməti üçün etdiyi duanı xatırlayır: «**Nuh dedi: "Ey Rəbbim, kafirlərdən yer üzündə bir nəfəri belə sağ qoyma!"**».[2] Bir rəvayətdə isə o, oğlu üçün etdiyi duanı xatırlayır: «**Nuh Rəbbinə yalvarıb dedi: "Ey Rəbbim, axı oğlum da mənim ailəmdəndir. Sənin vədin, şübhəsiz ki, haqdır. Sən hakimlərin hakimisən!" *Allah* buyurdu: "Ey Nuh, o sənin ailəndən deyil. Çünki bu, (onun küfr etməsi və ya sənin onun xilas olması üçün kömək diləməyin) pis bir işdir. Elə isə bilmədiyin bir şeyi Məndən istəmə. Həqiqətən də, Mən sənə cahillərdən olmamağı tövsiyə edirəm"**».[3] Beləcə o, öz günahını xatırlatdı.

Şəfaətçinin şəfaət etməsi üçün gərək onunla şəfaət sahibinin arasında heç bir qorxu olmasın. Yəni insanla Rəbbi arasında günah olduqda, bu, insanda qorxu və utanc hissinin yaranmasına səbəb olur. Nuh da günahını

[1] "Ta ha" surəsi, 121.

[2] "Nuh" surəsi, 26.

[3] "Hud" surəsi, 45-46.

zikr edib: "Nəfsim, nəfsim, nəfsim..."– deyəcək və onları İbrahimin yanına göndərəcək.

İnsanlar İbrahimin yanına gəlib deyəcəklər: **"Ey İbrahim, sən Allahın peyğəmbəri və yer əhlindən olan dostusan**". Beləcə onun vəsflərini qeyd edir və ondan xahiş edirlər ki, Allah yanında onlar üçün şəfaətçilik etsin. O isə üç dəfə yalan danışdığını deyib üzrxahlıq edəcək və: "Nəfsim, nəfsim, nəfsim..." deyəcək.

Haqqında dediyi birinci yalan isə onun: "Mən xəstəyəm" deməsi idi. Halbuki o, xəstə deyildi. O bunu ulduzlara ibadət edən qövmünün çağırışına qarşı belə demişdi.

O, haqqında dediyi ikinci yalanı kafir padşaha öz xanımı haqqında demişdi ki, "O, mənim bacımdır". Belə demişdi ki, onun şərindən yaxa qurtarsın.

Dediyi üçüncü yalan: "Onu bu böyük büt etmişdir" deməsidir. Yəni *o böyük büt* digər bütləri qırmışdır. Əslində isə o bütləri İbrahim özü qırmışdı. *Qövmünün adamları* geri qayıtdıqda bütləri sınmış görüncə: **"Onlar dedilər: "Məbudlarımızı sənmi bu kökə saldın, ey İbrahim?"** İbrahimlə onların arasında belə bir söhbət oldu. O da onlara dedi: **"*İbrahim* dedi: "Xeyr, bunu onların bu böyüyü etmiş olar. Əgər danışa bilirlərsə, özlərindən soruşun".**[1] Əslində büt bir şey etməmişdi. Bunu edən İbrahimin özü idi. Lakin o bunu bütlərə ibadət edənlərin təhdidlərinə görə belə demişdi.

Bunlar zahirən yalan olsa da, həqiqətdə bunlar peyğəmbərin açıqlamaları idi və yalan sayılmır. Lakin o Allahdan çox qorxduğu üçün və Ondan həya etdiyi üçün bu səhvlərlə üzrxahlıq edərək: "Nəfsim, nəfsim, nəfsim... Siz başqasının yanına gedin, Musanın yanına gedin" deyəcək.

Onlar Musanın yanına gəlib onun vəsflərini belə qeyd edəcəklər ki, Allah onu kəlamla danışdırmış və onu yer əhlinin arasından öz risaləsi və kəlamı ilə seçmişdir. O da bir səhvini deyib üzrxahlıq edəcək. Deyəcək ki, o, özünə izn verilməmişdən öncə adam öldürmüşdür. Həmin adam İsrail oğullarından biri ilə mücadilə edən qibtli idi. Qibtli Fironun qövmündən idi, Musa isə İsrail oğullarından. **"O, şəhərə əhalisi xəbərsiz ikən daxil**

[1] "əl-Ənbiya" surəsi, 63.

oldu və orada bir-biri ilə vuruşan iki kişi gördü. Biri onun tərəfdarlarından, o biri isə düşmənlərindən idi. Tərəfdarlarından olan kəs onu düşməninə qarşı köməyə çağırdı. Musa onu vurub öldürdü və: "Bu, şeytan əməlindəndir. Həqiqətən, o, *haqq yoldan* azdıran açıq-aydın bir düşməndir!"– dedi". Beləcə, ona həmin adamı qətlə yetirmək əmr olunmamışdı. Musa da görəndə ki, bu iş onun şəfaət etməsi üçün bir əngəldir, deyəcək ki: "Nəfsim, nəfsim, nəfsim... Siz başqasının yanına gedin, İsanın yanına gedin".

Onlar İsanın yanına gələrək Allahın ona bəxş etdiyi üstünlükləri zikr edəcəklər. Deyəcəklər ki, Allah ona öz Ruhundan üfürüb, o Onun Məryəmə buyurduğu kəlməsi və Ondan olan bir ruhdur. Axı Uca Allah İsanı atasız yaratmışdır. Ancaq İsa heç bir günahını demədən insanları Muhəmmədin yanına göndərir.

Bu, Rəsulullah ﷺ üçün böyük bir şərəfdir. Çünki dörd peyğəmbər öz səhvlərini əsas gətirərək üzrxahlıq etdilər, biri isə heç bir günahını qeyd etmir, sadəcə Muhəmmədin ﷺ ondan daha üstün olduğunu qeyd edərək adamları onun yanına göndərir. Onlar da Muhəmmədin yanına gəlirlər. O bunu qəbul edir və Ərşin altında səcdə edir. Allaha çoxlu həmd-sənalar və təriflər edir. Ondan öncə heç kimə bunun bənzərini demək müyəssər olmayacaq. Sonra ona deyiləcək: "Başını qaldır. De, eşidiləcək, istə, veriləcək, şəfaət et, şəfaət olunacaq". Peyğəmbər ﷺ də şəfaət edərək: "Ey Rəbbim, ümmətim! Ey Rəbbim, ümmətim! Ey Rəbbim, ümmətim!" deyəcək.

Allah da onun şəfaətini qəbul edəcək və ona deyiləcək: "Ümmətini Cənnətin sağ qapısından daxil et". Başqa qapılarda isə onlar digər insanlarla bərabərdirlər. Bu da açıq-aydın dəlildir ki, Peyğəmbər ﷺ rəsulların ən hörmətlisidir. Rəsullar isə məxluqatın ən xeyirliləridir. Necə ki, izzət və cəlal sahibi Allah buyurur: **"Allaha və Peyğəmbərə itaət edənlər – məhz onlar Allahın nemət bəxş etdiyi peyğəmbərlər, siddiqlər, şəhidlər və əməlisalehlərlə birlikdə olarlar. Onlar necə də gözəl dostlardır!".**[1]

Bu dörd sinif insan məxluqatın ən xeyirliləridir: peyğəmbərlər, siddiqlər, şəhidlər və salehlər. Peyğəmbərimiz Muhəmməd ﷺ də məxluqatın ən xeyirlisidir. Müvəffəq edən Allahdır.

[1] "ən-Nisa" surəsi, 69.

١٨٦٧– وَعَنِ ابْنِ عَبَّاسٍ ﷺ قَالَ: جاءَ إِبْرَاهِيمُ ﷺ بِأُمِّ إِسْمَاعِيل وَابنِهَا إِسْمَاعِيلَ وَهِي تُرْضِعُهُ حَتَّى وَضَعَهَا عِنْدَ الْبَيْتِ عِنْدَ دَوْحَةٍ فوْقَ زَمْزَمَ في أَعْلَى المسْجِدِ، وَلَيْسَ بمكَّةَ يَؤْمئذٍ أَحَدٌ وَلَيْسَ بِهَا مَاءٌ، فَوضَعَهُمَا هُنَاكَ، وَوضَع عِنْدَهُمَا جِرَاباً فِيه تَمرٌ، وسِقَاء فيه مَاءٌ. ثُمَّ قَفي إِبْرَاهِيمُ مُنْطَلِقاً، فتَبِعتْهُ أُمُّ إِسْماعِيل فَقَالَتْ: يا إِبْراهِيمُ أَيْنَ تَذْهَبُ وتَتْرُكُنَا بِهَذا الْوادِي ليْسَ فِيهِ أَنيسٌ ولاَ شَيءٌ؟ فَقَالَتْ لَهُ ذَلكَ مِراراً، وجعل لاَ يلْتَفِتُ إِلَيْهَا، قَالَتْ لَه: آللَّهُ أَمرك بِهذَا؟ قَالَ: نَعَمْ. قَالَت: إِذًا لا يُضَيِّعُنا، ثُمَّ رجعتْ.فَانْطَلَقَ إِبْراهِيمُ ﷺ، حَتَّى إِذا كَانَ عِنْدَ الثَّنِيَّةِ حيْثُ لا يَرَوْنَهُ. اسْتَقْبل بِوجْهِهِ الْبيْتَ، ثُمَّ دعا بِهَؤُلاءِ الدَّعواتِ، فَرفَعَ يدَيْه فقَالَ: { رَبَّنَا إِنِّي أَسْكَنْتُ مِنْ ذُرِّيَّتِي بِوادٍ غَيْرِ ذِي زَرْعٍ } حتَّى بلَغَ {يشْكُرُونَ}. وجعلَتْ أُمُّ إِسْمَاعِيل تُرْضِعُ إِسْماعِيل، وتَشْربُ مِنْ ذَلِكَ المَاءِ، حتَّى إِذَا نَفِدَ ما فِي السِّقَاءِ عطشت وعَطِش ابْنُهَا، وجعلَتْ تَنْظُرُ إِلَيْهِ يتَلوَّى أَوْ قَالَ: يتَلَبَّطُ فَانْطَلَقَتْ كَراهِيةَ أَنْ تَنْظُر إِلَيْهِ، فَوجدتِ الصَّفَا أَقْرَبَ جبَلٍ فِي الأَرْضِ يلِيهَا، فَقَامتْ علَيْهِ، ثُمَّ استَقبَلَتِ الْوادِيَ تَنْظُرُ هَلْ تَرى أَحداً؟ فَلَمْ تَر أَحداً. فهَبطَتْ مِنَ الصَّفَا حتَّى إِذَا بلَغَتِ الْوادِيَ، رفَعتْ طَرفَ دِرْعِها، ثُمَّ سَعتْ سعْيَ الإِنْسانِ المجْهُودِ حتَّى جاوزَتِ الْوَادِيَ، ثُمَّ أَتَتِ المرْوةَ، فقامتْ علَيْهَا، فنَظَرتْ هَلْ تَرى أَحَداً؟ فَلَمْ تَر أَحَداً، فَفَعَلَتْ ذَلِكَ سَبْع مرَّاتٍ. قَال ابْنُ عبَّاسٍ ﷺ: قَال النَّبيُّ ﷺ: « فَذَلِكَ سعْيُ النَّاسِ بيْنَهُما ». فلَمَّا أَشْرفَتْ علَى المرْوةِ سَمِعتْ صوتاً، فَقَالَتْ: صهْ تُرِيدُ نَفْسهَا ثُمَّ تَسمَعَتْ، فَسمِعتْ أَيْضاً فَقَالتْ: قَدْ أَسْمعْتَ إِنْ كَانَ عِنْدكَ غَواثٌ.فأَغِث. فَإِذَا هِي بِالمَلَكِ عِنْد موْضِعِ زمزَم، فَبحثَ بِعقِبِهِ أَوْ قَال بِجنَاحِهِ حَتَّى ظَهَرَ الماءُ، فَجعلَتْ تُحوِّضُهُ وَتَقُولُ بِيدِهَا هَكَذَا، وجعلَتْ تَغْرُفُ المَاءَ فِي سِقَائِهَا وهُو يفُورُ بَعْدَ ما تَغْرفُ وفِي روايةٍ: بِقَدرِ ما تَغْرِفُ. قَال ابْنُ عبَّاسٍ ﷺ: قالَ النَّبيُّ ﷺ: « رحِم اللَّه أُمَّ إِسماعِيل لَوْ تَركْت زَمزَم أَوْ قَالَ: لوْ لَمْ تَغْرِفْ مِنَ المَاءِ، لَكَانَتْ زَمْزَمُ عيْناً معِيناً قَال فَشَرِبتْ، وَأَرْضَعَتْ وَلَدهَا.

فَقَال لَهَا المَلَكُ: لاَ تَخَافُوا الضَّيْعَة فَإِنَّ هَهُنَا بَيْتاً للَّهِ يبنيه هَذَا الْغُلاَمُ وأَبُوهُ، وإِنَّ اللَّه لا يُضيِّعُ أَهْلَهُ، وَكَانَ الْبيْتُ مُرْتَفِعاً مِنَ الأَرْضِ كَالرَّابِيةِ تأْتِيهِ السُّيُولُ، فتَأْخُذُ عنْ يمِينِهِ وَعَنْ شِمالِهِ. فَكَانَتْ كَذَلِكَ حتَّى مرَّتْ بِهِمْ رُفْقَةٌ مِنْ جُرْهُمْ، أو أَهْلُ بيْتٍ مِنْ جُرْهُمٍ مُقْبلِين مِنْ طَرِيقِ كَدَاءَ، فَنَزَلُوا فِي أَسْفَلِ مَكَّةَ، فَرَأَوْا طَائراً عائفاً فَقَالُوا: إِنَّ هَذا الطَّائِر لَيَدُورُ عَلى ماء

لَعهْدُنَا بِهذا الوادي وَمَا فِيهِ ماءَ فَأرسَلُوا جِريّاً أَوْ جَرِيَّيْنِ، فَإِذَا هُمْ بِالماءِ، فَرَجَعُوا فَأَخْبَرُوهم فَأقْبلُوا، وَأُمُّ إِسْماعِيلَ عند الماءَ، فَقَالُوا: أَتَأْذَنِينَ لَنَا أَنْ ننزِلَ عِنْدكَ؟ قَالتْ: نَعَمْ، ولكِنْ لا حَقَّ لَكُم في الماءِ، قَالُوا: نَعَمْ. قَال ابْنُ عبَّاسٍ: قَالَ النَّبِيُّ ﷺ: « فَأَلفي ذلكَ أُمَّ إِسماعِيلَ، وَهِي تُحِبُّ الأُنْسَ. فَنزَلُوا، فَأَرْسلُوا إِلى أَهْلِيهِم فنَزَلُوا معهُم، حتَّى إِذا كَانُوا بِهَا أَهْل أَبياتٍ، وشبَّ الغُلامُ وتَعلَّم العربِيَّةَ مِنهُمْ وأَنْفَسَهُم وأَعجَبَهُمْ حِينَ شَبَّ، فَلَمَّا أَدْركَ، زَوَّجُوهُ امرأَةً منهُمْ، ومَاتَتْ أُمُّ إِسمَاعِيل.

فَجَاءَ إبراهِيمُ بعْد ما تَزَوَّجَ إسماعِيلُ يُطالِعُ تَرِكَتَهُ فَلم يجِدْ إِسْماعِيل، فَسأَل امرأَتَهُ عنه فَقَالتْ: خَرَجَ يبْتَغِي لَنَا وفي رِوايةٍ: يصِيدُ لَنَا ثُمَّ سأَلهَا عنْ عيْشِهِمْ وهَيْئَتِهِم فَقَالَتْ: نَحْنُ بَشَرٍ، نَحْنُ في ضِيقٍ وشِدَّةٍ، وشَكَتْ إِليْهِ، قَال: فإذا جاءَ زَوْجُكِ، اقْرئى عَلَيْهِ السَّلام، وقُولي لَهُ يُغَيِّرْ عَتبةَ بابهِ. فَلَمَّا جاءَ إِسْماعيلُ كَأَنَّهُ آنَسَ شَيْئاً فَقَال: هَلْ جاءَكُمْ منْ أَحَدٍ؟ قَالَتْ: نَعَمْ، جاءَنَا شَيْخٌ كَذا وكَذا، فَسأَلَنَا عنْكَ، فَأَخْبَرْتُهُ، فَسألني كَيْف عيْشُنا، فَأخْبرْتُهُ أَنَّا في جَهْدٍ وشِدَّةٍ. قَالَ: فَهَلْ أَوْصاكِ بشَيْءٍ؟ قَالَتْ: نَعمْ أَمَرني أَقْرَأ علَيْكَ السَّلامَ ويَقُولُ: غَيِّرْ عَتبة بابكَ. قَالَ: ذَاكِ أَبي وقَدْ أَمرني أَنْ أُفَارِقَكِ، الْحَقِي بأَهْلِكِ. فَطَلَّقَهَا، وتَزَوَّج مِنْهُمْ أُخْرى. فلَبِث عَنْهُمْ إِبْراهيم ما شَاءَ اللَّه ثُمَّ أَتَاهُم بَعْدُ، فَلَمْ يجدْهُ، فَدَخَل على امْرَأتِهِ، فَسَأَل عنْهُ. قَالَتْ: خَرَج يبْتَغِي لَنَا. قَال: كَيْفَ أَنْتُمْ، وسألهَا عنْ عيْشِهِمْ وهَيْئَتِهِمْ فَقَالَتْ: نَحْنُ بِخَيْرٍ وَسعةٍ وأَثْنتْ على اللَّهِ تَعالى، فَقَال: ما طَعامُكُمْ؟ قَالَتْ: اللَّحْمُ. قَال: فَما شَرابُكُمْ؟ قَالَتِ: الماءُ. قَال: اللَّهُمَّ بَارِكْ لَهُمْ في اللَّحْم والماءِ، قَال النَّبيُّ ﷺ: «وَلَمْ يكنْ لهُمْ يوْمَئِذٍ حُبٌّ وَلَوْ كَانَ لهُمْ دَعَا لَهُمْ فيهِ » قَال: فَهُما لاَ يخْلُو علَيْهِما أَحدٌ بغَيْرِ مكَّةَ إِلاَّ لَمْ يُوافِقاهُ.

وفي روايةٍ فَجاءَ فَقَالَ: أَيْنَ إِسْماعِيلُ؟ فَقَالَتِ امْرأتُهُ: ذَهبَ يَصِيدُ، فَقَالَتِ امْرأَتُهُ: أَلا تَنْزِلُ، فتَطْعَم وتَشْربَ؟ قَالَ: وما طعامُكمْ وما شَرابُكُمْ؟ قَالَتْ: طَعَامُنا اللَّحْمُ، وشَرابُنَا الماءُ. قَال: اللَّهُمَّ بَارِكْ لَهُمْ في طَعامِهِمْ وشَرَابِهِمْ قَالَ: فَقَالَ أَبُو القَاسِم ﷺ: «بركَةُ دعْوةِ إبراهِيم » قَالَ: فَإِذا جاءَ زَوْجُكِ، فاقْرئي علَيْهِ السَّلامَ وَمُريهِ يُثَبِّتْ عتبَةَ بابهِ. فَلَمَّا جاءَ إِسْماعِيلُ، قَال: هَلْ أَتَاكُمْ منْ أَحد؟ قَالتْ: نَعَمْ، أَتَانَا شيْخٌ حَسَن الهَيئَةِ وَأَثْنَتْ عَلَيْهِ، فَسَأَلَني عنْكَ، فَأَخْبرتُهُ، فَسأَلَني كيفَ عَيْشُنَا فَأَخبَرْتُهُ أَنَّا بخَيرٍ. قَالَ: فأَوْصَاكِ بِشَيْءٍ؟ قَالَتْ: نَعَمْ، يَقْرَأُ عَلَيْكَ السَّلامَ، ويأْمُرُكَ أَنْ تُثَبِّتَ عَتَبَة بابكَ. قَالَ: ذَاكِ أَبي وأنتِ الْعَتَبةُ أَمرني أَنْ أُمْسِكَكِ. ثُمَّ لَبِثَ عنْهُمْ ما

شَاءَ اللَّه، ثُمَّ جَاءَ بعْد ذلكَ وإِسْماعِيلُ يبْرِي نَبْلاً لَهُ تَحْتَ دَوْحةٍ قريباً مِنْ زَمْزَمَ، فَلَمَّا رآهُ، قَامَ إِلَيْهِ، فَصنعَ كَمَا يصْنَعُ الْوَالِد بِالْولَدُ والوالد بالْوالدِ، قَالِ: يا إِسْماعِيلُ إِنَّ اللَّه أَمرني بِأَمْرٍ، قَال: فَاصْنِعْ مَا أَمركَ ربُّكَ؟ قَال: وتُعِينُني، قَال: وأُعِينُكَ، قَالَ: فَإِنَّ اللَّه أَمرني أَنْ أَبْني بيْتاً هٰهُنَا، وأَشَار إِلى أَكَمَةٍ مُرْتَفِعةٍ على ما حَوْلَهَا فَعِنْد ذلك رَفَعَ الْقَوَاعِدَ مِنَ الْبيْتِ، فَجَعَلَ إِسْماعِيل يأتي بِالحِجارَةِ، وَإِبْراهِيمُ يبْني حتَّى إِذا ارْتَفَعَ الْبِنَاءُ جَاءَ بِهَذا الحجرِ فَوضَعَهُ لَهُ فقامَ عَلَيْهِ، وَهُو يبْني وإِسْمَاعِيلُ يُنَاوِلُهُ الحِجَارَة وَهُما يقُولاَنِ: « ربَّنَا تَقبَّلْ مِنَّا إِنَّكَ أَنْتَ السَّمِيعُ الْعَلِيمُ ».

وفي روايةٍ: إِنَّ إِبْراهِيم خَرَج بِإِسْماعِيل وأُمِّ إِسْمَاعِيل، معَهُم شَنَّةٌ فِيهَا ماءٌ فَجَعلَتْ أُم إِسْماعِيلَ تَشْربُ مِنَ الشَّنَّةِ، فَيَدِرُّ لَبنُهَا على صبِيِّهَا حَتَّى قَدِم مكَّةَ. فَوَضَعهَا تَحْتَ دَوْحةٍ، ثُمَّ رَجَع إِبْراهيمُ إِلى أَهْلِهِ، فاتَّبعَتْهُ أُمُّ إِسْمَاعِيلَ حَتَّى لَمَّا بلغُوا كَداءَ نادَتْه مِنْ ورائِه: يَا إِبْرَاهيمُ إِلى منْ تَتْرُكُنَا؟ قَالَ: إِلى اللَّهِ، قَالَتْ: رضِيتُ بِاللَّهِ. فَرَجعتْ، وَجعلَتْ تَشْرَبُ مِنَ الشَّنَّةِ، وَيَدرُّ لَبَنُهَا عَلى صَبِيِّهَا حَتَّى لَمَّا فَنى الماءُ قَالَتْ: لَوْ ذَهبْتُ، فَنَظَرْتُ لعَلِّي أحِسُّ أَحَداً، قَالَ: فَذَهَبَتْ فصعِدت الصَّفا. فَنَظَرتْ وَنَظَرَتْ هَلْ تُحِسُّ أَحداً، فَلَمْ تُحِسَّ أحداً، فَلَمَّا بلَغَتِ الْوادي، سعتْ، وأَتتِ المرْوةَ، وفَعلَتْ ذلكَ أَشْواطاً، ثُمَّ قَالَتْ: لو ذهَبْتُ فنَظرْتُ ما فَعلَ الصَّبِيُّ، فَذَهَبتْ ونَظَرَتْ، فإِذَا هُوَ على حَالهِ كأَنَّهُ يَنْشَغُ للمَوْتِ، فَلَمْ تُقِرَّهَا نفْسُهَا. فَقَالَت: لَوْ ذَهَبْتُ، فَنَظَرْتُ لعلي أَحِسُّ أَحداً، فَذَهَبَتْ فصَعِدتِ الصَّفَا، فَنَظَرتْ ونَظَرتْ، فَلَمْ تُحِسُّ أَحَداً حتَّى أَتمَّتْ سَبْعاً، ثُمَّ قَالَتْ: لَوْ ذَهَبْتُ، فَنَظَرْتُ مَا فَعل. فَإِذا هِيَ بِصوْتٍ. فَقَالَتْ: أَغِثْ إِنْ كان عِنْدَكَ خيْرٌ فإِذا جِبْرِيلُ عليه السلام فقَال بِعَقِبهِ هَكَذَا، وغمزَ بِعقِبه عَلى الأَرْض، فَانْبثَقَ الماءُ فَدَهِشَتْ أُمُّ إِسْماعِيلَ فَجعلَتْ تَحْفِنُ وذكَرَ الحَدِيثَ بِطُولِهِ.رواه البخاري بهذِهِ الرواياتِ كلها.

« الدَّوْحةُ »: الشَّجرةُ الْكَبِيرةُ. قولهُ: « قَفي » أَيْ: ولَّى. « وَالجَرِيُّ »: الرسول. « وَأَلَفي » معناه: وجَد. قَوْلُهُ: « يَنْشَغُ » أَيْ: يَشْهقُ.

1867. İbn Abbas رضي الله عنهما demişdir: “İbrahim İsmayılın anasını və oğlu İsmayılı – ona süd verdiyi halda – gətirib Evin yanına, Zəmzəmin üstündəki böyük ağacın altına qoydu. Həmin vaxt Məkkədə heç kim yox idi, orada heç su da mövcud deyildi. Gətirib onları oraya qoydu. Onların yanında bir qab xurma, bir cürdək də su qoydu.

Sonra İbrahim getdi. Ummu İsmayıl da onu izləyib dedi: "Ey İbrahim, bizi nə bir insan, nə də bir canlı olmayan bu vadidə buraxıb hara gedirsən?" O bunu ona bir neçə dəfə desə də İbrahim ona tərəf çevrilmədi. Qadın dedi: "Sənə bunu Allahmı əmr edib?" Dedi: "Bəli". Dedi: "Elədirsə, O bizi itirməz". Sonra da geri qayıtdı.

İbrahim oradan uzaqlaşıb "Səniyyə" deyilən gözdən uzaq bir yerə çatdı. Üzünü Evə tutdu, əllərini qaldırıb bu duaları etdi: **"Ey Rəbbimiz, mən nəslimdən bəzisini Sənin mühafizə olunan Evinin (Kəbənin) yaxınlığında, heç bir bitki olmayan bir vadidə sakin etdim. Ey Rəbbimiz, onlar *doğru-düzgün* namaz qılsınlar deyə *belə etdim*. İnsanların bir qisminin qəlbini onlara meylli et və onlara *növbənöv* məhsullardan ruzi ver ki, bəlkə şükür etsinlər. Ey Rəbbimiz, Sən bizim nəyi gizli saxladığımızı və nəyi aşkara çıxartdığımızı bilirsən. Nə yerdə, nə də göydə heç bir şey Allahdan gizli qalmaz".**[1]

İsmayılın anası İsmayılı əmizdirdi və həmin sudan içdi. Nəhayət qabda su bitdi və o, susadı. Oğlu da susadı. O yaxınlıqdakı dağa baxdı. Onun üzərinə çıxaraq ətrafdakı vadiyə boylandı ki, bəlkə kimisə görsün, ancaq heç kimi görmədi. Sonra Səfadan vadiyə endi. Libasının ətəyini qaldırıb çətinliklə vadinin digər tərəfinə keçdi və Mərvə dağının üzərinə çıxıb boylandı ki, bəlkə kimisə görsün. Ancaq yenə heç kəsi görə bilmədi. O, bunu yeddi dəfə təkrarladı.

İbn Abbasdan ﵄ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"İnsanlar da beləcə bu iki dağın arasında səy edirlər".**

Növbəti dəfə Mərvənin üzərinə çıxdıqda bir səs eşidir. Öz-özünə dedi ki, sus! Sonra dinlədi və dedi: "Eşitdim, yardım edə bilərsənsə, et". Bir də gördü ki, Zəmzəmin yerində bir mələk var. Onu – yaxud qanadını – izlədi və su göründü. O suyu bir yerə toplamağa və əli ilə belə etməyə başladı. Sudan götürüb qaba doldurmağa başladı. Hər dəfə qabı doldurduqca, su əvvəlki qədər artırdı.

İbn Abbas ﵄ deyir ki, Peyğəmbər ﷺ demişdir: **"Allah İsmayılın anasına rəhm etsin. Əgər o, sudan götürməsəydi, zəmzəm məchul bir bulaq olardı".**

[1] "İbrahim" surəsi, 37-39.

Beləcə o, sudan içdi və övladına da ondan içirtdi. Mələk ona dedi: "İtməkdən qorxmayın. Burada tikiləcək evi bu uşaq atası ilə birlikdə inşa edəcəklər". Ev də yerdən yüksəkdə yerləşirdi, oraya sellər axır, sağdan və soldan oranı bürüyürdü.

Beləcə vaxt keçdi. Bir müddət sonra Curhum ailəsinin üzvlərindən bəziləri Məkkənin aşağı yerinə gəldilər. Onlar uçan quşlar gördülər və dedilər ki, bu quşlar suya görə burada uçurlar. Bu vadiyə enək görək su varmı. Onlar bir-iki elçi göndərdilər. Onlar gəlib suyu tapdılar və geri qayıdaraq bu barədə yoldaşlarına xəbər verdilər. Gəlib İsmayılın anasını suyun yanında tapdılar. Dedilər: "İcazə verirsənmi sənin yanına gələk?" Dedi: "Bəli. Lakin sizin su üzərində haqqınız yoxdur". Dedilər: "Bəli".

İbn Abbas ﵄ deyir ki, Peyğəmbər ﷺ demişdir: **"Bu, İsmayılın anasının xoşuna gəldi, çünki o, ünsiyyətdə olmağı xoşlayırdı".** Onlar orada məskunlaşdılar. Sonra ailələrinə xəbər göndərdilər, onlar da gəldi. Beləcə orada bir neçə ev qurub məskunlaşdılar. Oğlan da böyüyərək ərəb dilini öyrəndi və başqalarına öyrətdi. Onların da bu xoşlarına gəldi. Böyüyüb boya-başa çatan oğlanı özlərindən olan bir qadınla evləndirdilər. Sonra İsmayılın anası vəfat etdi.

İsmayıl evləndikdən sonra İbrahim onu ziyarət etməyə gəldi. Xanımından onu soraqladı, o da dedi ki, bizə bir şeylər gətirmək üçün çıxıb. Başqa bir rəvayətdə isə: "Bizim üçün ov ovlamağa gedib" deyir. Ondan yaşayışları və vəziyyətləri barədə soruşdu. Qadın dedi: "Biz insanıq, çətinlik və sıxıntımız var". Beləcə ona şikayət etdi. İbrahim də ona dedi: "Ərin gələndə ona salam de, bir də de ki, qapısının pilləsini dəyişsin".

İsmayıl gəldikdə nə isə şübhələndi və dedi: "Yanınıza kimsə gəlmişdi?" Dedi: "Bəli, yanımıza bir yaşlı kişi gəlmişdi. Səni soruşdu, mən də xəbər verdim. Soruşdu ki, necə yaşayırıq, mən də dedim ki, çətinlik və sıxıntımız var". Dedi: "Sənə bir şey tövsiyə etdimi?" Dedi: "Bəli, mənə əmr etdi ki, sənə salam çatdırım və tapşırdı ki, evinin qapısının pilləsini dəyişdirəsən". Dedi: "O, mənim atam idi, mənə əmr etdi ki, səndən ayrılım. Get ailənin yanına". O, onu boşadı və onlardan başqa bir qadınla evləndi.

Bir müddət sonra İbrahim yenə onların yanına getdi və yenə onu tapmadı. Onun xanımının yanına daxil oldu və onu soruşdu. Qadın dedi ki, "Bizə bir şey gətirmək üçün çıxıb". Sonra onların yaşayış vəziyyətləri barədə xəbər aldı, qadın da dedi ki, "Allaha şükürlər olsun, yaxşıyıq və

bolluq içərisindəyik". Soruşdu: "Nə yeyirsiniz?" Dedi: "Ət". Soruşdu: "Nə içirsiniz?" Dedi: "Su". Dedi: "Allahım, onların ətinə və suyuna bərəkət ver!" Peyğəmbər ﷺ dedi: **"O zaman onların dənləri yox idi, olsaydı, onlar üçün də dua edərdi"**. Dedi: "Məkkə xaricində bu iki şeyi olmayan kəs uğur qazanmış sayılmazdı".

Başqa bir rəvayətdə deyilir: *İbrahim* soruşdu ki, İsmayıl haradadır? zövcəsi də dedi ki, ova gedib. Sonra qadın dedi: "Gəlib yeyib-içməyəcəksənmi?" Dedi: "Nə yeyib-içirsiniz?" Dedi: "Yeməyimiz ətdir, içdiyimiz isə su". Dedi: "Allahım, onların yeməyinə və içməyinə bərəkət ver". *İbn Abbas* deyir ki, Əbul-Qasim dedi: **"İbrahimin duası bərəkətli oldu".** Dedi: "Ərin gələndə ona salamımı çatdır və de ki, qapısının pilləsini möhkəmlətsin".

İsmayıl gəldikdə soruşdu: "Kimsə yanınıza gəlmişdimi?" Yoldaşı: "Bəli, gözəl simalı bir ağsaqqal bizə gəlmişdi"– deyib onu tərifladi. "Səni soruşdu, mən də xəbər verdim. Yaşayışımızın necəliyini soruşdu, mən də dedim ki, yaxşıdır". Dedi: "Sənə bir şey tövsiyə etdimi?" Dedi: "Bəli, sənə salam dedi və əmr etdi ki, qapının pilləsini möhkəmləndirəsən". Dedi: "O mənim atam idi, evin pilləsi isə sənsən, əmr edir ki, səni saxlayım".

Bir müddət də keçir və o yenə onun yanına gedir. Həmin vaxt İsmayıl Zəmzəmə yaxın ağacın altında nizəsini düzəldirdi. Onu gördükdə ona yaxınlaşaraq atanın övladına, yaxud övladın ataya etdiyini etdi. Dedi: "Ey İsmayıl, Allah mənə əmr edib". İsmayıl dedi: "Rəbbin nə əmr edibsə, onu et". Dedi: "Mənə yardım et". Dedi: "Yardım edərəm". Dedi: "Allah mənə əmr edib ki, burada bir ev tikim". Bunu deyib yaxınlıqdakı yüksəkliyə işarə etdi. Onlar evin əsaslarını qoydular. İsmayıl ona daş gətirir, İbrahim də evi inşa edirdi. Beləcə, tikili yüksəldi. O, bu daşı gətirdi və onun üçün qoydu, o da onun üzərinə çıxdı. İsmayıl yenə ona daş verir, o da tikirdi. Onlar iş görə-görə deyirdilər: **"Ey Rəbbimiz, bizdən qəbul et! Şübhəsiz ki, sən Eşidənsən, Bilənsən"**.

Başqa bir rəvayətdə deyilir: "İbrahim İsmayıl və onun anası ilə birlikdə çıxdı. Onlarda içərisində su olan qab var idi. İsmayılın anası qabdan su içir, uşağına da süd verirdi. Bu minvalla onlar *indiki* Məkkəyə çatdılar. İbrahim onları ağacın altında qoyub geriyə – öz ailəsinin yanına döndü, İsmayılın anası da onu izlədi. Bir xeyli getdikdən sonra onu arxadan səslədi: "Ey İbrahim, bizi kimə həvalə edib gedirsən?" Dedi: "Allaha". Dedi: "Allahdan razıyam".

Qadın İsmayılın yanına qayıtdı. O sudan içir, körpəyə də süd verirdi. Sonra su da bitdi. Dedi: "Gedim, görüm kimisə tapa bilirəmmi". Gedib Səfa dağına qalxdı. Boylandı, lakin bir kimsəni görmədi. Sonra vadi ilə gedib Mərvə dağına qalxdı. O, bunu bir neçə dəfə etdi. Sonra dedi: "Gedim, görüm uşaq necədir". Gələndə gördü ki, uşaq sanki can verən vəziyyətdədir. Onun narahatlığı daha da artdı. Dedi ki, bir də gedim, bəlkə kimisə tapdım. Yenə Səfa dağına çıxdı, boylandı. Yeddi dəfə gedib-gəldi, lakin heç kəsi görmədi. Sonra dedi: "Gedim, görüm uşaq necədir". Bu vaxt bir səs eşidir və deyir: "Əgər səndə xeyir varsa, yardım et". Gördü ki, Cəbrail yerə bir şey batırdı və həmin yerdən su fışqırdı. İsmayılın anası dəhşət içində suyu bir yerə toplamağa başladı". Beləcə o, hədisi tam danışdı.

Bu hədisi bütün bu rəvayətlərlə Buxari rəvayət etmişdir.[1]

١٨٦٨– وعنْ سعِيدِ بْنِ زيْدٍ ﵁ قَال: سمِعتُ رسول اللَّهِ ﷺ يقُولُ: «الْكَمأَةُ مِنَ المنِّ، وماؤُهَا شِفَاءٌ لِلْعَينِ» متفقٌ عليه.

1868. Səid ibn Zeyd ﵁ deyir ki, mən Rəsulullahın ﷺ belə dediyini eşitdim: **"Həqiqətən də dombalan nemətdir, suyu isə gözə şəfadır".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Şərh:

Müəllif ﵀ Səid ibn Zeyddən nəql edir ki, Peyğəmbər ﷺ demişdir: **"Həqiqətən də dombalan nemətdir, suyu isə gözə şəfadır".**

Dombalan, insanlar arasında mövsümi yağışlardan sonra çıxan tərəvəz kimi tanınır. Onun nə olduğu bəllidir, özü da ləzizdir. Yerdə bitir, böyüdükdə insanlar onu asanlıqla götürürlər. Bu səbəbdən də Peyğəmbər onun nemət olduğunu bildirmişdir. Yəni Uca Allahın asanlıqla insanlara bəxş etdiyi nemətlərdəndir.

"Suyu da gözə şəfadır". Yəni onun suyu rütubət səbəbindən xəstə olan gözə izzət və cəlal sahibi Allahın izni ilə şəfadır. Çünki onun suyu maye olsa da, gözü qurudaraq rütubəti ondan aparır. Bu səbəbdən də bu-

[1] "Səhih əl-Buxari", 3113.

[2] "Səhih əl-Buxari", 4118; "Səhih Muslim", 3816.

yurur ki: **"Suyu da gözə şəfadır".** Yəni *gözdəki* bütün xəstəliklərdən deyil, məhz rütubətdən dolayı yaranan xəstəliyə şəfadır. İzzət və cəlal sahibi Allahın izni ilə həmin gözə şəfadır.

Bəs onun suyu necə əldə olunur?

Bəziləri deyirlər ki, onu odda qaynadaraq suyunu çıxarırlar. Çünki odda qaynadıqda o yumşalır və suyu çıxır. Bəziləri də onu kiçik hissəciklərə bölərək suyunun çıxarılmasını demişlər. Lakin bunu deyənlər azdır. Müvəffəq edən Allahdır.

İSTİĞFAR KİTABI

Üç yüz yetmiş birinci fəsil

İstiğfar və onun fəziləti

Mövzu ilə əlaqəli ayələr:
Uca Allah buyurur:

﴿ وَٱسۡتَغۡفِرۡ لِذَنۢبِكَ وَلِلۡمُؤۡمِنِينَ وَٱلۡمُؤۡمِنَٰتِ ﴾

"Sən həm öz günahlarının, həm də mömin kişilərlə mömin qadınların bağışlanmasını dilə".[1]

﴿ وَٱسۡتَغۡفِرِ ٱللَّهَۖ إِنَّ ٱللَّهَ كَانَ غَفُورٗا رَّحِيمٗا ﴾

"Allahdan bağışlanma dilə! Şübhəsiz ki, Allah bağışlayandır, rəhmlidir".[2]

﴿ فَسَبِّحۡ بِحَمۡدِ رَبِّكَ وَٱسۡتَغۡفِرۡهُۚ إِنَّهُۥ كَانَ تَوَّابَۢا ﴾

"Həmd ilə Rəbbini təriflə və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir!"[3]

﴿ قُلۡ أَؤُنَبِّئُكُم بِخَيۡرٖ مِّن ذَٰلِكُمۡۚ لِلَّذِينَ ٱتَّقَوۡاْ عِندَ رَبِّهِمۡ جَنَّٰتٞ تَجۡرِي مِن تَحۡتِهَا ٱلۡأَنۡهَٰرُ خَٰلِدِينَ فِيهَا وَأَزۡوَٰجٞ مُّطَهَّرَةٞ وَرِضۡوَٰنٞ مِّنَ ٱللَّهِۗ وَٱللَّهُ بَصِيرُۢ بِٱلۡعِبَادِ * ٱلَّذِينَ يَقُولُونَ رَبَّنَآ إِنَّنَآ ءَامَنَّا فَٱغۡفِرۡ لَنَا ذُنُوبَنَا وَقِنَا عَذَابَ ٱلنَّارِ * ٱلصَّٰبِرِينَ وَٱلصَّٰدِقِينَ وَٱلۡقَٰنِتِينَ وَٱلۡمُنفِقِينَ وَٱلۡمُسۡتَغۡفِرِينَ بِٱلۡأَسۡحَارِ ﴾

---

[1] "Muhəmməd" surəsi, 19.
[2] "ən-Nisa" surəsi, 106.
[3] "ən-Nasr" surəsi, 3.

“De: “Sizə bunlardan daha xeyirlisini xəbər verimmi? *Allahdan* qorxanlar üçün Rəbbi yanında, *ağacları və qəsrləri* altından çaylar axan, içində əbədi qalacaqları cənnətlər, pak zövcələr və Allahın rizası vardır”. Allah qullarını görəndir. O kəslər ki, deyirlər: “Ey Rəbbimiz, həqiqətən, biz iman gətirdik, bizim günahlarımızı bağışla və bizi Od əzabından qoru!” *Onlar* səbir edən, dürüst olan, müti olan, *malından Allah yolunda* xərcləyən və sübh çağına yaxın *Allahdan* bağışlanma diləyən kimsələrdir”.[1]

﴿ وَمَن يَعۡمَلۡ سُوٓءًا أَوۡ يَظۡلِمۡ نَفۡسَهُۥ ثُمَّ يَسۡتَغۡفِرِ ٱللَّهَ يَجِدِ ٱللَّهَ غَفُورٗا رَّحِيمٗا ﴾

“Kim pis bir iş görər və ya özü özünə zülm edər, sonra da Allahdan bağışlanma diləyərsə, Allahın bağışlayan, rəhmli olduğunu görər”.[2]

﴿ وَمَا كَانَ ٱللَّهُ لِيُعَذِّبَهُمۡ وَأَنتَ فِيهِمۡۚ وَمَا كَانَ ٱللَّهُ مُعَذِّبَهُمۡ وَهُمۡ يَسۡتَغۡفِرُونَ ﴾

“Sən onların arasında olduğun halda Allah onlara əzab verməyəcək. Bağışlanmalarını dilədikləri zaman da Allah onlara əzab verən deyildir”.[3]

﴿ وَٱلَّذِينَ إِذَا فَعَلُواْ فَٰحِشَةً أَوۡ ظَلَمُوٓاْ أَنفُسَهُمۡ ذَكَرُواْ ٱللَّهَ فَٱسۡتَغۡفَرُواْ لِذُنُوبِهِمۡ وَمَن يَغۡفِرُ ٱلذُّنُوبَ إِلَّا ٱللَّهُ وَلَمۡ يُصِرُّواْ عَلَىٰ مَا فَعَلُواْ وَهُمۡ يَعۡلَمُونَ ﴾

“O kəslər ki, bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə, Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər. Axı günahları Allahdan başqa kim bağışlaya bilər? Bir də onlar gördükləri *pis* işlərdə bilə-bilə israr etməzlər”.[4]

Bu mövzuda ayələr olduqca çoxdur.

---

[1] “Ali İmran” surəsi, 15-17.

[2] “ən-Nisa” surəsi, 110.

[3] “əl-Ənfal” surəsi, 33.

[4] “Ali İmran” surəsi, 135.

Şərh:

Müəllif ﷺ "Salehlər bağçası" əsərini istiğfar və tövbə fəsli ilə bitirir. Çünki Uca və nöqsansız Allah öz Peyğəmbərinə ﷺ ömrünün sonunda belə əmr etmişdir: **"Allahın köməyi və qələbə gəldiyi zaman, insanların dəstə-dəstə Allahın dininə girdiklərini gördükdə, həmd ilə Rəbbini təriflə və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir!"**[1]

Müəllif ﷺ bu əzəmətli kitabı istiğfarla xətm edir. Bu kitabdan dünyanın hər yerindəki müsəlmanlar – həm adi insanlar, həm də elm tələbələri faydalanırlar.

Bu "Salehlər bağçası" kitabı gördüyüm ən bərəkətli kitablardandır. Bu da onun müəllifinin gözəl niyyətli olmasından xəbər verir.

İstiğfar, bağışlanma diləməkdir. Hər bir insanın xətaları olur. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Hər bir Adəm övladı xəta edəndir, xəta edənlərin ən xeyirlisi isə tövbə edənlərdir".**[2]

Adəm övladının etdiyi xətalar ya haramları etməklə olur, ya da vacibləri etməməklə. Elə bir insan yoxdur ki, xətaları olmasın. Günahların dərmanı isə bağışlanma diləməkdir. Allaha həmd olsun. Belə bir rəvayət vardır ki, şeytan deyir: "Mən insanları günahlarla həlak etdim, onlar isə məni "la ilahə illəllah" sözü və istiğfarla". Buna görə də Uca Allah Qurani-Kərimdə bir çox ayələrdə istiğfarı əmr edir. Müəllif onlardan bəzilərini qeyd etmişdir:

Uca Allah öz peyğəmbərinə ﷺ buyurmuşdur: **"Bil ki, Allahdan başqa *ibadətə layiq olan* heç bir məbud yoxdur. Sən həm öz günahlarının, həm də mömin kişilərlə mömin qadınların bağışlanmasını dilə".**[3]

Uca Allah peyğəmbərinə əmr edir ki, bilsin ki, Allahdan başqa ibadət haqqına malik məbud yoxdur. Sonra da ona bağışlanma diləməyi buyurur: **"öz günahların üçün bağışlanma dilə".** Baxmayaraq ki, Peyğəmbərin ﷺ bütün keçmiş və gələcək günahları bağışlanmışdır, O ona əmr edir ki, günahlarına görə bağışlanma diləsin. O buyurur: **"Sən həm öz günahlarının, həm də mömin kişilərlə mömin qadınların bağışlanmasını dilə".**

---

[1] "ən-Nasr" surəsi, 1-3.

[2] "Sunən ət-Tirmizi", 2423; "Sunən İbn Macə", 4241.

[3] "Muhəmməd" surəsi, 19.

Uca Allah istiğfar edənləri bir çox ayələrdə tərifləmişdir. Belə ayələrin birində O buyurur: **"*Onlar* səbir edən, dürüst olan, müti olan, *malından Allah yolunda* xərcləyən və sübh çağına yaxın *Allahdan* bağışlanma diləyən kimsələrdir".**[1] Onlar o kəslərdir ki, gecənin sonunda bağışlanma diləyirlər. Alimlər demişlər: Çünki onlar gecə namazı qılır, Allaha ibadət edir, özlərinin təqsirli olduqlarını görür və Allahdan bağışlanma diləyirlər. Baxmayaraq ki, onlar gecələr qalxıb ibadət edirlər, buna rəğmən onlar təqsirlərindən qorxaraq bağışlanma diləyirlər. İnsan gərək daim izzət və cəlal sahibi Allahdan bağışlanma diləsin.

Mövzu ilə əlaqəli hədislər:

١٨٦٩– وَعن الأَغَرِّ المُزَنِيّ ﷺ أَنَّ رسُول اللَّهِ ﷺ قَالَ: « إِنَّهُ لَيُغَانُ على قَلْبي، وَإِني لأَسْتغْفِرُ اللَّه في الْيوْمِ مِئَةَ مرَّةٍ » رواهُ مُسلِم.

1869. əl-Ağarr əl-Muzənidən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Bəzən qəlbimə gizli hiss daxil olur və mən gün ərzində yüz dəfə Allahdan bağışlanma diləyirəm"**.

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١٨٧٠– وعنْ أَبي هُرَيْرة ﷺ قَال: سمِعْتُ رسُول اللَّهِ ﷺ يقُولُ: « واللَّهِ إِنِّي لأَسْتَغْفِرُ اللَّه وأَتُوبُ إِلَيْهِ في الْيَوْمِ أَكْثَرَ مِنْ سبْعِينَ مَرَّةً » رواه البخاري.

1870. Əbu Hureyra ﷺ belə nəql edir ki, mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Allaha and olsun ki, gün ərzində mən yetmiş dəfədən çox Allahdan bağışlanma diləyərək Ona tövbə edirəm".**

Bu hədisi Buxari rəvayət etmişdir.[3]

١٨٧١– وعنْهُ ﷺ قَال: قَال رسُولُ اللَّهِ ﷺ: « والَّذي نَفْسِي بِيدِهِ لَوْ لَمْ تُذْنِبُوا، لَذَهَب اللَّه تَعَالى بِكُمْ، ولجاءَ بقَوْمٍ يُذْنِبُونَ فَيَسْتَغْفِرُونَ اللَّه تَعالى فَيغْفِرُ لهمْ » رواه مسلم.

[1] "Ali İmran" surəsi, 17.

[2] Hədisi Muslim (4870) rəvayət etmişdir.

[3] Hədisi Buxari (5832) rəvayət etmişdir.

1871. Yenə Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Canım əlində olana and olsun ki, əgər günah etmiş olmasaydınız, Allah sizi məhv edib, yerinizə günahlar edib Uca Allahdan bağışlanma diləyən bir qövm gətirər, sonra da onları bağışlayardı".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٨٧٢– وعَنِ ابْنِ عُمر ﷺ قَال: كُنَّا نَعُدُّ لِرَسُول اللَّهِ ﷺ في المجلِس الْواحِدِ مائَةَ مرَّةٍ: « ربِّ اغْفِرْ لِي، وتُبْ عليَ إِنَّكَ أَنْتَ التَّوابُ الرَّحِيمُ » رواه أبو داود، والترمذي، وقال: حديث صحيح.

1872. Rəvayət olunur ki, İbn Ömər ﷺ demişdir: "Bizlər bir məclisdə Rəsulullahın ﷺ yüz dəfə belə dediyini sayardıq: **"Ey Rəbbim, məni bağışla, tövbəmi qəbul et! Şübhəsiz ki, Sən tövbələri qəbul edən, Rəhmlisən".**

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, səhih hədisdir"– demişdir.[2]

١٨٧٣– وعنِ ابْنِ عَبَّاسٍ ﷺ قَال: قالَ رَسُولُ اللَّهِ ﷺ: « منْ لَزِم الاسْتِغْفَار، جعل اللَّه لَهُ مِنْ كُلِّ ضِيقٍ مخْرجاً، ومنْ كُلِّ هَمٍّ فَرجاً، وَرَزَقَهُ مِنْ حيْثُ لا يَحْتَسِبُ » رواه أبو داود .

1873. İbn Abbasdan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kim davamlı şəkildə istiğfar edərsə, Allah ona hər bir sıxıntıdan çıxış yolu, hər bir kədərdən qurtuluş nəsib edər və onu gözləmədiyi yerdən ruziləndirər"**.

Hədisi Əbu Davud rəvayət etmişdir.[3]

١٨٧٤– وعنِ ابْنِ مَسْعُودٍ ﷺ قال: قال رسُولُ اللَّه ﷺ: « منْ قال: أَسْتَغْفِرُ اللَّه الذي لا إِلَهَ إِلاَّ هُو الحيَّ الْقَيُّومَ وأَتُوبُ إِلَيهِ، غُفِرَتْ ذُنُوبُهُ وإِنْ كَانَ قَدْ فَرَّ مِنَ الزَّحْفِ » رواه أبو داود والترمذي والحاكِمُ، وقال: حدِيثٌ صحيحٌ على شَرْطِ البُخَارِيِّ ومُسلمٍ.

1874. İbn Məsuddan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Hər kim: "Əbədi yaşayan və yaratdıqlarının Qəyyumu olan Allahdan**

[1] "Səhih Muslim", 4936.

[2] "Sunən Əbu Davud", 1295; "Sunən ət-Tirmizi", 3356.

[3] "Sunən Əbu Davud", 1297; "Sunən İbn Macə", 3809.

bağışlanma diləyir və Ona tövbə edirəm"– deyərsə, həmin adam hətta döyüş meydanından qaçmış olsa belə, günahları bağışlanar".

Hədisi Əbu Davud, Tirmizi və Hakim rəvayət etmiş, Hakim: "Buxari və Muslimin şərtinə görə səhihdir"– demişdir.[1]

Şərh:

Müəllifin ﵀ qeyd etdiyi ayələr istiğfara təşviq edir, istiğfar edənləri tərifləyir. Sonra müəllif bu barədə bir sıra hədisləri qeyd etmişdir.

Həmin hədislərin birində əl-Ağarr əl-Muzənidən rəvayət olunur ki, keçmiş və gələcək günahları bağışlanmış Peyğəmbərimiz Muhəmməd ﷺ demişdir: **"Bəzən qəlbimə gizli bir hiss daxil olur".** Yəni qəlbimdə gizli bir hiss və ya buna bənzər bir şey olur.

"və mən gün ərzində yüz dəfə Allahdan bağışlanma diləyirəm". O gün ərzində yüz dəfə: "əstəğfirullah"– deyirdi. Əgər keçmiş və gələcək günahları bağışlanmış Peyğəmbər ﷺ belə edirdisə, o zaman bizlər nə qədər etməliyik? Lakin bizim qəlbimiz sərtləşib və qəlbimiz günahların çoxluğundan sıxıntı duymur, bizlər də etdiyimiz əməllərə görə sıxıntı duymuruq. Ona görə də insan az bağışlanma diləyərək bu məsələyə əhəmiyyət vermir. Halbuki, insana nümunə olacaq kəs Rəsulullahdır ﷺ. O, çoxlu istiğfar edərdi. Necə ki, İbn Ömər ﵄ demişdir: "Bizlər bir məclisdə Rəsulullahın yüz dəfə: **"Ey Rəbbim, məni bağışla, tövbəmi qəbul et! Şübhəsiz ki, Sən tövbələri qəbul edən, Rəhmlisən"**– dediyini sayardıq".

Yenə Peyğəmbər ﷺ xəbər verir ki, Allahın öz bəndələrinə bəxş etdiyi nemətlərdən biri də odur ki, onlar günah etdikdən sonra bağışlanma diləyirsə, Allah onları bağışlayır. O ﷺ demişdir: **"Əgər günah etmiş olmasaydınız, Allah sizi məhv edib, yerinizə günahlar edib Uca Allahdan bağışlanma diləyən bir qövm gətirər, sonra da onları bağışlayardı".** Bu da insanın Rəbbindən çoxlu istiğfar edərək bağışlanma diləməsinə təşviqdir. Qul bununla izzət və cəlal sahibi Allaha istiğfar edənlərin dərəcəsinə çatmış olur.

Əbu Davuddan nəql olunan hədisdə isə o ﷺ demişdir: **"Kim davamlı şəkildə istiğfar edərsə, Allah ona hər bir sıxıntıdan çıxış yolu, hər bir kədərdən qurtuluş nəsib edər və onu gözləmədiyi yerdən ruziləndirər".**

[1] "Sunən Əbu Davud", 1296; "Sunən ət-Tirmizi", 3501.

“Kim davamlı şəkildə istiğfar edərsə”, yəni bunu çox edərsə, kədərdən qurtular, sıxıntıdan uzaqlaşar, ruzisi artar və Allah onu gözləmədiyi yerdən ruziləndirər.

İstiğfarın fəziləti, onu edənlərin tərifləmməsi, ona təşviq olunması barədə hədislər çoxdur. Odur ki, qardaşım, sən də çoxlu istiğfar et, bu sözləri çox söylə: “Allahım, məni bağışla! Allahım, mənə rəhm et! Allahdan bağışlanma diləyir, Ona tövbə edirəm”. Yaxud buna bənzər sözlər söylə. Ola bilsin ki, bu, izzət və cəlal sahibi Allahın dualara cavab verdiyi vaxta təsadüf etsin, O da səni bağışlasın. Müvəffəq edən Allahdır.

١٨٧٥– وعنْ شَدَّادِ بْنِ أَوْسٍ ﷺ عن النَّبِيِّ ﷺ قالَ: « سيِّدُ الاسْتِغْفار أَنْ يقُول الْعبْدُ: اللَّهُمَّ أَنْتَ رَبِّي، لا إِلَه إِلاَّ أَنْتَ خَلَقْتَني وأَنَا عَبْدُكَ، وأَنَا على عهْدِكَ ووعْدِكَ ما اسْتَطَعْتُ، أَعُوذُ بِكَ مِنْ شَرِّ ما صنَعْتُ، أَبوءُ لَكَ بِنِعْمتِكَ علَيَ، وأَبُوءُ بذَنْبي فَاغْفِرْ لي، فَإِنَّهُ لا يغْفِرُ الذُّنُوبِ إِلاَّ أَنْتَ. منْ قَالَهَا مِنَ النَّهَارِ مُوقِناً بِهَا، فَماتَ مِنْ يوْمِهِ قَبْل أَنْ يُمْسِيَ، فَهُو مِنْ أَهْلِ الجنَّةِ، ومَنْ قَالَهَا مِنَ اللَّيْلِ وهُو مُوقِنٌ بها فَمَاتَ قَبل أَنْ يُصْبِح، فهُو مِنْ أَهْلِ الجنَّةِ » رواه البخاري.

« أَبُوءُ »: بباءٍ مضْمومةٍ ثُمَّ واوٍ وهمزَةٍ مضمومة، ومَعْنَاهُ: أَقِرُّ وَأَعترِفُ.

1875. Şəddad ibn Ovsdan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **“İstiğfar dualarının ən üstünü qulun belə deməsidir: “Allahım, Sən mənim Rəbbimsən, Səndən başqa ibadətə layiq heç bir məbud yoxdur. Məni Sən yaratdın, mən Sənin qulunam və gücüm yetdiyi qədər Sənə verdiyim söz və vədin üzərində dururam. Etdiyim pis əməllərin şərindən sənə sığınır, mənə ehsan etdiyin nemətləri iqrar, günahımı etiraf edirəm. Məni bağışla, çünki günahları ancaq Sən bağışlayırsan”. Bu duanı ixlasla və fəzilətinə inanaraq gündüz oxuyan kəs həmin gün axşama çıxmadan ölərsə, cənnətlik olar. Bu duanı ixlasla və fəzilətinə inanaraq gecə oxuyan kəs həmin gün səhərə çıxmadan ölərsə, o da cənnətlik olar”.**

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

[Hədisin ərəbcəsində keçən] “əbu-u” sözü “iqrar və etiraf etməkdir”.

[1] “Səhih əl-Buxari”, 5831.

١٨٧٦– وعنْ ثوْبانَ ﷺ قَال: كَانَ رسولُ اللَّهِ ﷺ إِذا انْصرفَ مِنْ صلاتِهِ، استَغْفَر اللَّه ثَلاثاً وقَالَ: « اللَّهُمَّ أَنْتَ السَّلامُ، ومِنْكَ السَّلامُ، تَباركْتَ ياذَا الجلالِ والإِكْرامِ » قيلَ لِلأوزاعِيِّ وهُوَ أَحدُ رُوَاتِهِ : كَيْفَ الاسْتِغْفَارُ؟ قَال: يقُولُ: أَسْتَغْفِرُ اللَّه، أَسْتَغْفِرُ اللَّه. رواه مسلم.

1876. Sövbandan ﷺ nəql olunur ki, Rəsulullah ﷺ namazı bitirdikdə Allahdan üç dəfə bağışlanma diləyər və deyərdi: **"Allahım, sən Salamsan, salam Səndəndir. Sən Ulusan, ey cəlal və kərəm Sahibi!"** Hədisin ravilərindən olan əl-Əvzaidən soruşdular ki, "Bəs bağışlanma *diləməsi* necə idi?", dedi: "Əstəğfirullah, əstəğfirullah"– deyirdi.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Şərh:

Nəvəvinin ﷺ "İstiğfar və onun fəziləti" fəslində qeyd etdiyi hədislərdən biri Şəddad ibn Ovsdan ﷺ rəvayət olunmuşdur. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"İstiğfar dualarının ən üstünü",** yəni ən şərəflisi və ən əfzəli **"qulun belə deməsidir: "Allahım, Sən mənim Rəbbimsən, Səndən başqa ibadətə layiq heç bir məbud yoxdur. Məni Sən yaratdın, mən Sənin qulunam və gücüm yetdiyi qədər Sənə verdiyim söz və vədin üzərində dururam. Etdiyim pis əməllərin şərindən sənə sığınır, mənə ehsan etdiyin nemətləri iqrar, günahımı etiraf edirəm. Məni bağışla, çünki günahları ancaq Sən bağışlayırsan". Bu duanı ixlasla və fəzilətinə inanaraq gündüz oxuyan kəs həmin gün axşama çıxmadan ölərsə, cənnətlik olar. Bu duanı ixlasla və fəzilətinə inanaraq gecə oxuyan kəs həmin gün səhərə çıxmadan ölərsə, o da cənnətlik olar".**

"İstiğfar dualarının ən üstünü qulun belə deməsidir: "Allahım, Sən mənim Rəbbimsən, Səndən başqa ibadətə layiq heç bir məbud yoxdur. Məni Sən yaratdın, mən Sənin qulunam". Bununla sən öz dilinlə və qəlbinlə izzət və cəlal sahibi Allaha etiraf edirsən ki, sənin Rəbbin, Hökmdarın, işlərini səhmana salan, halına diqqət göstərən Odur. Sən də həm yaradılış, həm də şəri baxımdan Onun qulusan. Yaradılış baxımdan O, sənə istədiyini edə bilər – istəsə səni xəstəliyə mübtəla edər, istəsə sağaldar, istəsə səni zəngin edər, istəsə kasıb edər, istəsə səni azdırar, istəsə də hidayət verər. İzzət və cəlal sahibi Allahın hikməti nəyi tələb edirsə, onu da

[1] "Səhih Muslim", 931.

edər. Şəri baxımdan da sən Onun qulusan, Onun əmrlərini yerinə yetirirsən, Onun əmrlərini həyata keçirir, qadağalarından isə çəkinirsən. Etiraf edib deyirsən: "**Allahım, Sən mənim Rəbbimsən, Səndən başqa ibadətə layiq heç bir məbud yoxdur. Məni Sən yaratdın, mən Sənin qulunam və gücüm yetdiyi qədər Sənə verdiyim söz və vədin üzərində dururam**". Etiraf edirsən ki, səni yaradan Allahdır. O, səni yoxdan var etmişdir və sən Ona verdiyin söz və vədə bacardığın qədər əməl edirsən. Çünki hər bir insan izzət və cəlal sahibi Allaha əhd vermişdir ki, bildiyinə əməl edəcək: **"Bir zaman Allah Kitab verilənlərdən: "Siz o *kitabı* mütləq insanlara açıqlayacaqsınız və onu gizlətməyəcəksiniz!"– deyə əhd almışdı".**[1] Allah sənə elm verirsə, sənin ona əməl edəcəyin barədə də əhd almış olur. "öz vədimə", yəni Sənin vədini təsdiq edirəm. Sən xeyir əhlinə xeyir, şər əhlinə isə şər vəd vermisən, mən də sənə verdiyim vədə görə xeyir üzərindəyəm. Belə ki, sən bu sözlərinlə izzət və cəlal sahibi Allaha təvəssül etmiş olursan.

"Etdiklərimin şərindən Sənə sığınıram". Yəni sən etdiyin əməllərin şərindən Allaha sığınırsan. İnsan xeyirli işlər gördükdə savab qazanır, pis işlər gördükdə isə cəzalandırılır. Pis iş görməsi onun zəlalətə düşməsinə səbəb olur. Bu xüsusda Uca Allah buyurur: **"Əgər onlar üz döndərsələr, bil ki, Allah onları bəzi günahlarına görə müsibətə düçar etmək istəyir".**[2] Deməli, bununla sən etdiyin əməllərin şərindən Allaha sığınırsan.

"mənə ehsan etdiyin nemətləri iqrar, günahımı etiraf edirəm". Yəni mənə bəxş etdiyin saysız-hesabsız nemətləri təsdiq edirəm: **"Məni bağışla, çünki günahları ancaq Sən bağışlayırsan"**.

Çalış, bu duanı əzbərlə və hər səhər-axşam onu davamlı şəkildə de. Bunu deyib gündüz ölsən, sən Cənnətliksən, bunu deyib gecə ölsən, sən Cənnətliksən.

Sonra müəllif başqa hədislər də qeyd edir. Həmin hədislərin birində Sövbandan rəvayət olunur ki, Peyğəmbər ﷺ namazını bitirdikdə, yəni salam verdikdən sonra üç dəfə **"əstəğfirullah"** deyər, sonra bu zikri edərdi: **"Allahım, sən Salamsan, salam Səndəndir. Sən Ulusan, ey cəlal və kərəm Sahibi!".**

Fərz namazını bitirdikdən dərhal sonra: "əstəğfirullah, əstəğfirullah, əstəğfirullah" de. Birdən soruşulsa ki, "Niyə bağışlanma diləyirik ki? Axı

[1] "Ali İmran" surəsi, 187.

[2] "əl-Maidə" surəsi, 49.

biz namaz qılıb itaət edirik". Cavab: Çünki sənin bu itaətin naqisliklərdən və xələldən xali deyil. Orada baş verə biləcək xətalara görə bağışlanma diləyirik. Buna digər bir misal. Gecə namazına duranlar da namazlarını bitirəndə "əstəğfirullah" edirlər. Uca Allah buyurur: **"sübh çağına yaxın *Allahdan* bağışlanma diləyən kimsələrdir".**[1]

Deyirsən: **"Allahım, sən Salamsan, salam Səndəndir".**

"Sən Salamsan", yəni hər bir eyibdən və naqislikdən uzaqsan.

"Salam Səndəndir", yəni salamatlıq Səndəndir. İzzət və cəlal sahibi Allah olmasaydı, biz nə salamat olar, nə əməl edər, nə qalxar, nə də döyüşərdik.

"Sən Ulusan, ey cəlal və kərəm Sahibi!". Burada "Sən Ucasan" sözü qeyd olunmamışdır. Başqa rəvayətlərdə isə bu deyilir.

"Sən Ulusan, ey cəlal və kərəm Sahibi!", yəni Sənin bəndələrinə bəxş etdiyin xeyirlərin, bərəkətin və nemətlərin böyükdür.

Deməli, insan fərz namazından sonra üç dəfə "əstəğfirullah" deyərək bunu deməlidir: "Allahım, sən Salamsan, salam Səndəndir. Sən Ulusan, ey cəlal və kərəm Sahibi!"

١٨٧٧– وعَنْ عَائِشَةَ ﵂ قَالَتْ: كَانَ رَسُولُ اللَّهِ ﷺ يُكْثِرُ أَنْ يَقُولَ قَبْل موْتِهِ: « سُبْحانَ اللَّهِ وبِحمْدِهِ، أَسْتَغْفِرُ اللَّه وأَتُوبُ إِلَيْهِ » متفقٌ عليه.

1877. Aişənin ﵂ belə dediyi rəvayət olunur ki, "Allahın elçisi ﷺ ölümündən öncə: **"sübhanallahi va bihəmdihi, əstəğfirullahə va ətubu ileyhi / Allah nöqsansızdır, Ona həmd olsun, Allahdan bağışlanma diləyir və Ona tövbə edirəm"** sözlərini çox deyərdi".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.

١٨٧٨– وَعَنْ أَنسٍ ﵁ قالَ: سمِعْتُ رسُولَ اللَّه ﷺ يَقُولُ: « قالَ اللَّه تَعَالى: يا ابْنَ آدَمَ إِنَّكَ ما دَعَوْتَني ورجوْتَني غفرتُ لَكَ على ما كَانَ منْكَ وَلا أُبَالِي، يا ابْنَ آدم لَوْ بلَغَتْ ذُنُوبُك عَنَانَ السَّماءِ ثُم اسْتَغْفَرْتَني غَفرْتُ لَكَ وَلا أُبالي، يا ابْنَ آدم إِنَّكَ لَوْ أَتَيْتَني بِقُرابِ الأَرْضِ خطايَا، ثُمَّ لَقِيتَني لا تُشْرِكُ بي شَيْئاً، لأَتَيْتُكَ بِقُرابِها مَغْفِرَةً » رواه الترمذي وقَالَ: حَدِيثٌ حَسَنٌ.

[1] "Ali İmran" surəsi, 17.

1878. Ənəs ﷺ rəvayət edir ki, mən Rəsulullahın ﷺ belə dediyini eşitdim: «**Uca Allah buyurur: "Ey Adəm oğlu, sən Mənə dua edib Məndən rica edərsənsə, sənin günahlarını mütləq bağışlayaram. Ey Adəm oğlu, sənin günahların səmadakı buludlara çatsa, sonra da Məndən bağışlanma diləsən, səni mütləq bağışlayaram. Ey Adəm oğlu, əgər yer üzü qədər xəta ilə Mənim yanıma gəlmiş olsan, Mənə şərik qoşmuş olmasan, sənin yanına bir o qədər məğfirətlə gələrəm".**

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir" demişdir.[1]

١٨٧٩– وَعنِ ابنِ عُمَرَ ﷺ أَنَّ النَّبيَّ ﷺ قَال: « يا معْشَرَ النِّساءِ تَصَدَّقْنَ، وأَكْثِرْنَ مِنَ الاسْتِغْفَارِ، فَإِنِّي رَأَيْتُكُنَّ أَكْثَرَ أَهْلِ النَّارِ » قالَتِ امْرَأَةٌ مِنْهُنَّ: مالَنَا أَكْثَرَ أَهْلِ النَّارِ؟ قَالَ: « تُكْثِرْنَ اللَّعْنَ، وتَكْفُرْنَ العشِيرَ مَا رأَيْتُ مِنْ نَاقِصَاتِ عقْلٍ ودِينٍ أَغْلبَ لِذِي لُبٍّ مِنْكُنَّ » قَالَتْ: ما نُقْصانُ الْعقْل والدِّينِ؟ قال: « شَهَادَةُ امرأَتَيْنِ بِشهَادةِ رجُلٍ، وتَمْكُثُ الأَيَّامَ لا تُصَلِّي » رواه مسلم.

1879. İbn Ömərdən ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Ey qadınlar, sədəqə verin və istiğfarı çoxaldın! Mən Cəhənnəm əhlinin çoxunun sizlərdən ibarət olduğunu gördüm"**. Qadınlardan biri dedi: "Niyə Cəhənnəm əhlinin çoxu bizlərdəndir?" Peyğəmbər ﷺ dedi: **"Çünki çoxlu lənət deyir, ərlərinizə qarşı nankorluq edirsiniz. Sizlərdən daha çox ağlı və dini naqis olan başqalarını görmədim".** Qadın dedi: "Ağlımızın və dinimizin naqisliyi nəyə görədir?" Dedi: **"İki qadının şahidliyi bir kişinin şahidliyinə bərabərdir, bəzi günlərdə də namaz qılmırsınız".**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

Şərh:

Müəllif ﷺ istiğfar etmək və ona təşviq barədə bir sıra hədislər qeyd etmişdir.

Həmin hədislərin birində deyilir ki, Uca Allah buyurur: **"Ey Adəm oğlu, sən Mənə dua edib Məndən rica edərsənsə, sənin günahlarını mütləq bağışlayaram".** Yəni Mənə dua edib yalvarsan, səni bağışlayaram. Belə ki, Uca və nöqsansız Allah qüdsi hədisdə Özünün də buyurduğu kimi,

[1] "Sunən ət-Tirmizi", 3463.

[2] "Səhih Muslim", 114.

qulunun Onun barəsində zənninin yanındadır: **"Mən qulumun barəmdəki zənninin yanındayam. O, Məni xatırlayarsa, Mən də onunla olaram. Məni özündə xatırlayarsa, Mən də onu nəfsimdə xatırlayaram. Məni bir toplumun yanında xatırlayarsa, Mən onu daha xeyirli bir toplumun yanında xatırlayaram".**[1]

Hədisin davamında deyilir ki, Uca və nöqsansız Allah buyurur: **"Ey Adəm oğlu, əgər yer üzü qədər xəta ilə Mənim yanıma gəlmiş olsan, Mənə şərik qoşmuş olmasan, sənin yanına bir o qədər məğfirətlə gələrəm".** Bu da dəlildir ki, insan nə qədər çox günah etmiş olsa belə, Uca Allahdan bağışlanma diləyərsə və Ona tərəf dönərsə, Uca Allah onu bağışlayar.

İstiğfarın fəziləti barədə Uca Allah buyurur: **"Ey Adəm oğlu, sənin günahların səmadakı buludlara çatsa, sonra da Məndən bağışlanma diləsən, səni mütləq bağışlayaram".** Səmadakı buludlara, yəni səmanın üzərinə. Yəni insanın günahları səmanın üzərinədək çox olarsa, sonra da o Uca və nöqsansız Allahdan bağışlanma diləyərsə, onu bağışlayar. Çünki Uca Allah buyurur ki, kim pis bir iş görər və ya özü özünə zülm edər, sonra da Allahdan bağışlanma diləyərsə, Allahın bağışlayan, rəhmli olduğunu görər. Ey insan, nə günah işlədirsən işlət, sonra bağışlanma diləsən Uca Allah səni bağışlayacaqdır.

Həmçinin Peyğəmbər ﷺ qadınlara çoxlu sədəqə verməyi əmr etmişdir. Belə ki, onların Cəhənnəm əhli arasında çoxluq təşkil etdiyini görmüşdür. Bu da dəlildir ki, istiğfar Cəhənnəmə daxil olmağa bir maneədir. Odur ki, əziz qardaşım, çoxlu istiğfar et, bu sözləri çox de: "Əstəğfirullah. Allahım, məni bağışla, mənə rəhm et!" Yaxud buna bənzər başqa sözlər. Bunlar asan sözlərdir, sənə nə zərəri olar, nə də çətinlik törədər. Müvəffəq edən Allahdır.

[1] "Səhih əl-Buxari", 6856; "Səhih Muslim", 4851

Üç yüz yetmiş ikinci fəsil

Allahın Cənnətdə möminlər üçün hazırladığı nemətlər

Mövzu ilə əlaqəli ayələr:
Uca Allah buyurur:

﴿ إِنَّ ٱلۡمُتَّقِينَ فِي جَنَّٰتٖ وَعُيُونٍ * ٱدۡخُلُوهَا بِسَلَٰمٍ ءَامِنِينَ * وَنَزَعۡنَا مَا فِي صُدُورِهِم مِّنۡ غِلٍّ إِخۡوَٰنًا عَلَىٰ سُرُرٖ مُّتَقَٰبِلِينَ * لَا يَمَسُّهُمۡ فِيهَا نَصَبٞ وَمَا هُم مِّنۡهَا بِمُخۡرَجِينَ ﴾

“Sözsüz ki, müttəqilər cənnətlərdə və çeşmələr başında olacaqlar. *Onlara deyiləcək*: “Oraya sağ-salamat və əmin-amanlıqla daxil olun!” Biz onların ürəklərindəki kin-küdurəti çıxardıb kənar etdik. Onlar taxtlar üstündə qarşı-qarşıya oturan qardaşlar olacaqlar. Onlara *Cənnətdə* heç bir yorğunluq üz verməyəcək və onlar oradan çıxarılmayacaqlar”.[1]

﴿ يَٰعِبَادِ لَا خَوۡفٌ عَلَيۡكُمُ ٱلۡيَوۡمَ وَلَآ أَنتُمۡ تَحۡزَنُونَ * ٱلَّذِينَ ءَامَنُواْ بِـَٔايَٰتِنَا وَكَانُواْ مُسۡلِمِينَ * ٱدۡخُلُواْ ٱلۡجَنَّةَ أَنتُمۡ وَأَزۡوَٰجُكُمۡ تُحۡبَرُونَ * يُطَافُ عَلَيۡهِم بِصِحَافٖ مِّن ذَهَبٖ وَأَكۡوَابٖۖ وَفِيهَا مَا تَشۡتَهِيهِ ٱلۡأَنفُسُ وَتَلَذُّ ٱلۡأَعۡيُنُۖ وَأَنتُمۡ فِيهَا خَٰلِدُونَ * وَتِلۡكَ ٱلۡجَنَّةُ ٱلَّتِيٓ أُورِثۡتُمُوهَا بِمَا كُنتُمۡ تَعۡمَلُونَ * لَكُمۡ فِيهَا فَٰكِهَةٞ كَثِيرَةٞ مِّنۡهَا تَأۡكُلُونَ ﴾

“Ey qullarım, bu gün sizə qorxu yoxdur və siz heç kədərlənməyəcəksiniz də. Siz ayələrimizə iman gətirib müsəlman olmusunuz. Siz də, zövcələriniz də fərəhlə Cənnətə daxil olun!” Onlar üçün qızıl sinilər və piyalələr dolandırılacaq. Orada nəfslərin istədiyi və gözlərə xoş gələn hər şey olacaq. Siz orada əbədi qalacaqsınız. Etdiyiniz əməllər sayəsində varis olduğunuz Cənnət budur. Orada sizin üçün çoxlu meyvələr var – onlardan yeyəcəksiniz”.[2]

---

[1] “əl-Hicr” surəsi, 45-48.

[2] “əz-Zuxruf” surəsi, 68-73.

﴿إِنَّ ٱلۡمُتَّقِينَ فِي مَقَامٍ أَمِينٖ * فِي جَنَّٰتٖ وَعُيُونٖ * يَلۡبَسُونَ مِن سُندُسٖ وَإِسۡتَبۡرَقٖ مُّتَقَٰبِلِينَ * كَذَٰلِكَ وَزَوَّجۡنَٰهُم بِحُورٍ عِينٖ * يَدۡعُونَ فِيهَا بِكُلِّ فَٰكِهَةٍ ءَامِنِينَ * لَا يَذُوقُونَ فِيهَا ٱلۡمَوۡتَ إِلَّا ٱلۡمَوۡتَةَ ٱلۡأُولَىٰۖ وَوَقَىٰهُمۡ عَذَابَ ٱلۡجَحِيمِ * فَضۡلٗا مِّن رَّبِّكَۚ ذَٰلِكَ هُوَ ٱلۡفَوۡزُ ٱلۡعَظِيمُ﴾

“Allahdan qorxanlar isə təhlükəsiz bir yerdə – bağçalarda və çeşmələr başında olacaqlar. Taftadan və atlazdan libaslar geyib qarşı-qarşıya əyləşəcəklər. Bax belə! Üstəlik, onları iri qara gözlü hurilərlə də evləndirəcəyik. Onlar orada əmin-amanlıq içində hər meyvədən istəyəcəklər. Onlar ilk ölümdən başqa orada heç bir ölüm dadmayacaqlar. *Allah* onları Cəhənnəm əzabından qorumuşdur – sənin Rəbbindən bir lütf olaraq. Məhz bu, böyük uğurdur”.[1]

﴿إِنَّ ٱلۡأَبۡرَارَ لَفِي نَعِيمٍ * عَلَى ٱلۡأَرَآئِكِ يَنظُرُونَ * تَعۡرِفُ فِي وُجُوهِهِمۡ نَضۡرَةَ ٱلنَّعِيمِ * يُسۡقَوۡنَ مِن رَّحِيقٖ مَّخۡتُومٖ * خِتَٰمُهُۥ مِسۡكٞۚ وَفِي ذَٰلِكَ فَلۡيَتَنَافَسِ ٱلۡمُتَنَٰفِسُونَ * وَمِزَاجُهُۥ مِن تَسۡنِيمٍ * عَيۡنٗا يَشۡرَبُ بِهَا ٱلۡمُقَرَّبُونَ﴾

“Həqiqətən, itaətkarlar nemət içində olacaqlar. Onlar taxtlar üstündə seyrə dalacaqlar. Sən onların üzündə səadət parlaqlığı görəcəksən. Onlara möhürlü şərabdan içirdiləcək. Onun möhürü müşkdür. Qoy yarışanlar ona *nail olmaq* üçün yarışsınlar! Onun qatışığı təsnim *bulağındandır. O təsnim elə* bir bulaqdır ki, ondan *Allaha* yaxın olanlar içərlər”.[2]

Bu fəslin mövzusu barəsində ayələr olduqca çox və məlumdur.

Şərh:

Müəllif ﵀ “Salehlər bağçası” kitabını **“Allahın Cənnətdə möminlər üçün hazırladığı nemətlər”** fəsli ilə bitirir. Allah bizləri və sizləri o kəslərdən etsin. Ümid edirəm ki, bu gözəl bir stimul olar. Allah bizim və sizin əməllərinizi Cənnət əhlinin əməllərindən etsin. Allah bu kitabın da müəllifini bağışlasın və ona Cənnət əhlinin gözəl sonluğunu nəsib etsin.

Uca Allah öz kitabında Cənnət əhlinə hazırladığı nemətlər barədə çoxsaylı ayələr qeyd etmişdir. Bu xüsusda qeyd olunmuş ən ümumi ayələrdən bəziləri bunlardır:

---

[1] “əd-Duxan” surəsi, 51-57.

[2] “əl-Mutaffifin” surəsi, 22-28.

“Orada sizin üçün nəfsinizin çəkə biləcəyi hər şey hazırlanmışdır. Orada istədiyiniz hər şey vardır. Bağışlayan və Rəhmli *Allah tərəfindən verilən* ziyafət kimi”.[1] İnsanın istəyə biləcəyi hər bir bemət Cənnətdə olacaqdır. İstədiyi hər bir şey Cənnətdə olacaqdır. Hətta bundan artığı belə olacaqdır. Uca Allah buyurur: **“Orada onlar üçün istədikləri hər şey hazırlanmışdır. Üstəlik, hüzurumuzda bundan da artığı – *Allahı görmək* var”.**[2] Uca Rəbbimiz həmçinin buyurur: **“Etdikləri əməllərin mükafatı kimi onlar üçün gözlərinə sevinc gətirəcək nələrin saxlandığını heç kəs bilmir”.**[3] İnsan üçün Uca Allahın möminlərə Cənnətdə nələri hazırladığının mahiyyətini anlaması qeyri-mümkündür. Çünki bu, insan təsəvvürünün fövqündədir. Dünyada olan nemətlər isə sadəcə nümunədir, nümunədir, nümunədir! Axirət nemətləri ilə isə eyni deyildir. Lakin Uca Allah bu dünyada insanlara bəzi nemətləri və bəzi əzabları göstərmişdir ki, ibrət götürsünlər. Əslində isə dünya nemətləri ilə axirət nemətləri arasında dərk olunması və hiss edilməsi mümkünsüz olan fərq vardır.

Cənnət, Uca Allahın müttəqi dostları üçün hazırladığı mənzildir. Müəllif ﷺ ilk əvvəl Uca Allahın bu ayələrini qeyd edir: **“Sözsüz ki, müttəqilər cənnətlərdə və çeşmələr başında olacaqlar. *Onlara deyiləcək*: “Oraya sağ-salamat və əmin-amanlıqla daxil olun!”**[4] Yəni onlara deyiləcək: oraya hər bir çətinlikdən, xəstəlikdən, ölümdən və hər şeydən salamatlıq və əmin-amanlıqla daxil olun.

“**Biz onların ürəklərindəki kin-küdurəti çıxardıb kənar etdik”.** Yəni onlar Cənnətə onunla Cəhənnəm arasındakı körpüdən daxil olacaqlar. *Əvvəlcə* onların bəziləri digərlərindən qisas alacaq. Sonra onlar təmizlənib paklanacaq, qəlbləri də saflaşacaq və içərisində kindən əsər-əlamət qalmayacaq. Beləcə, Allah onların qəlblərindən kini çıxarıb yox etdikdən sonra onlar Cənnətə daxil olacaqlar.

“Onlar taxtlar üstündə qarşı-qarşıya oturan qardaşlar olacaqlar”. Taxtlar, yəni yataqlar. Onların üzərində oturulur.

“qarşı-qarşıya”, yəni onlar oturduqda yüksək əxlaq nümayiş etdirəcəklər – bir-birilərinə arxa çevirməyəcək, üz-üzə oturacaqlar. Bəzi alimlər

---

[1] “Fussilət” surəsi, 31-32.

[2] “Qaf” surəsi, 35.

[3] “əs-Səcdə” surəsi, 17.

[4] “əl-Hicr” surəsi, 45-46.

demişlər: Çünki onlar yanaşı, böyük bir həlqə şəklində oturacaqlar. Həlqədə heç kim bir-birinə arxa çevirmir, hər kəs qarşı tərəfin qarşısında olur.

"Onlara *Cənnətdə* heç bir yorğunluq üz verməyəcək və onlar oradan çıxarılmayacaqlar".[1] Yəni onlara yorğunluq və çətinlik üz verməyəcək. Həmçinin onlar oradan çıxmayacaq, əbədi olaraq orada yaşayacaqlar.

İkinci ayə. Uca Allah buyurur: **"Ey qullarım, bu gün sizə qorxu yoxdur və siz heç kədərlənməyəcəksiniz də. Siz ayələrimizə iman gətirib müsəlman olmusunuz. Siz də, zövcələriniz də fərəhlə Cənnətə daxil olun!" Onlar üçün qızıl sinilər və piyalələr dolandırılacaq. Orada nəfslərin istədiyi və gözlərə xoş gələn hər şey olacaq. Siz orada əbədi qalacaqsınız. Etdiyiniz əməllər sayəsində varis olduğunuz Cənnət budur. Orada sizin üçün çoxlu meyvələr var – onlardan yeyəcəksiniz".**[2]

İzzət və cəlal sahibi Allah Qiyamət günü mömin qulları Cənnətə daxil olduqdan sonra onları çağıracaq və deyəcək: **"Bu gün sizə qorxu yoxdur və siz heç kədərlənməyəcəksiniz də".** Qorxu, gələ biləcək şeylərdən, kədər isə keçmişdə baş vermiş hadisələrdən olur. Çünki onlar kamil nemətlərə nail olacaqlar.

"Siz ayələrimizə iman gətirib müsəlman olmusunuz". Onlar qəlbləri ilə iman gətirmiş, əzaları ilə də müsəlman olmuşdular. Onlar izzət və cəlal sahibi Allahın əmrlərinə itaət edir, Ona asi olmurdular. Haram işlər görmür və vacib əməlləri tərk etmirdilər.

"Siz də, zövcələriniz də fərəhlə Cənnətə daxil olun!". Yəni onlar nemətlərə çatacaqlar. Zövcələri də hurilər və dünyadakı zövcələri olacaqdır. Uca Allah buyurur: **"Möminlərin imanda onların arxasınca gedən nəsillərini də *Cənnətdə* özlərinə qovuşduracağıq. Onların əməllərindən heç bir şey əskiltməyəcəyik. Hər kəs qazandığının girovudur".**[3] Yəni onlar öz zövcələri ilə birlikdə nemətlər içərisində olacaqlar. Orada nəfslərin istədiyi hər bir şey, gözlərin ləzzət aldığı hər bir nemət olacaqdır.

"Onlar üçün qızıl sinilər və piyalələr dolandırılacaq. Orada nəfslərin istədiyi və gözlərə xoş gələn hər şey olacaq. Siz orada əbədi qalacaqsınız". Uca Allah bu ayədə onların yanında kimin təvaf edəcəyini demir. Ancaq bunu başqa ayələrdə bəyan edir: **"Onların ətrafında həmişəcavan**

---

[1] "əl-Hicr" surəsi, 48.

[2] "əz-Zuxruf" surəsi, 68-73.

[3] "ət-Tur" surəsi, 21.

***xidmətçi* oğlanlar fırlanacaqlar – çeşmə şərabı ilə dolu badələr, bardaqlar və qədəhlərlə – ondan başları ağrımaz və məst olmazlar".**[1]

Üçüncü ayə Uca Allahın bu ayəsidir: **"Allahdan qorxanlar isə təhlükəsiz bir yerdə – bağçalarda və çeşmələr başında olacaqlar".** Yəni öncə də qeyd olunduğu kimi, qaldıqları yerdə hər bir şeydən əmin-amanlıq içərisində olacaqlar.

"Taftadan və atlazdan libaslar geyib qarşı-qarşıya əyləşəcəklər". Bu onların libaslarıdır – ən keyfiyyətli ipəkdən.

Uca Allah buyurur: **"Həqiqətən, itaətkarlar nemət içində olacaqlar. Onlar taxtlar üstündə seyrə dalacaqlar. Sən onların üzündə səadət parlaqlığı görəcəksən. Onlara möhürlü şərabdan içirdiləcək. Onun möhürü müşkdür. Qoy yarışanlar ona *nail olmaq* üçün yarışsınlar! Onun qatışığı təsnim *bulağındandır. O təsnim elə* bir bulaqdır ki, ondan *Allaha* yaxın olanlar içərlər".**[2]

İtaətkarlar, yaxşı işlər görüb haramlardan çəkinənlərə deyilir. "əl-birr" sözündən götürülüb ki, bu da Allaha itaət etmək anlamını daşıyır.

"Həqiqətən, itaətkarlar nemət içində olacaqlar". Yəni onlar həm qəlblərində, həm də bədənlərində nemət içərisində olacaqlar. Onlar olduqca sevincli halda olacaqlar. Allah bizləri və sizləri onlardan etsin.

"Onlar taxtlar üstündə seyrə dalacaqlar". [Ayənin ərəbcəsində olan] "əl-əraik", *ərikə* sözünün cəmidir və örtülmüş tavanı olan taxtlara deyilir. Onlar Allahın onlar üçün hazırladığı Cənnət nemətlərinə baxacaqlar. İzzət və cəlal sahibi Allahın üzünə baxmaq da bu nemətlərə aiddir.

"Sən onların üzündə səadət parlaqlığı görəcəksən". Yəni sən onları gördükdə onların nemət içərisində olduqlarını anlayacaqsan. Çünki onların üzü parlaq, gözəl və işıqlı olacaqdır.

"**Onlara möhürlü şərabdan içirdiləcək. Onun möhürü müşkdür. Qoy yarışanlar ona *nail olmaq* üçün yarışsınlar!"** Yəni onlar saf şərabdan içəcəklər. [Ayənin ərəbcəsində keçən] "məxtum" isə "möhürlü" deməkdir. Möhürü də gözəl müşk qoxusudur. Qoy yarışanlar elə bu savab, əcr və nemətlər üçün yarışsınlar! Müvəffəq edən Allahdır.

---

[1] "əl-Vaqiə" surəsi, 17-19.

[2] "əl-Mutaffifin" surəsi, 22-28.

Mövzu ilə əlaqəli hədislər:

١٨٨٠– وعنْ جَابِرٍ ﷺ قَالَ: قَالَ رسُولُ اللَّهِ ﷺ: « يَأْكُلُ أَهْلُ الجنَّةِ فِيهَا ويشْرَبُونُ، ولا يَتَغَوَّطُونَ، ولا يمْتَخِطُونَ، ولا يبُولُونَ، ولكِنْ طَعامُهُمْ ذلكَ جُشَاء كَرشْحِ المِسْكِ يُلهَمُونَ التَّسبِيح وَالتكْبِير، كَما يُلْهَمُونَ النَّفَسَ » رواه مسلم.

1880. Cabirdən ﷺ nəql olunur ki, Rəsulullah ﷺ demişdir: **"Cənnət əhli orada yeyib-içəcək, ancaq nə təbii ehtiyaclarını rəf etməyəcək, nə bəlğəm çıxarmayacaq, nə də sidik ifraz etməyəcəklər – yedikləri müşk qoxulu tərlə çıxacaq. "Sübhanallah", "Allahu Əkbər" dəmələri aldıqları nəfəs kimi olacaq".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٨٨١– وعَنْ أَبي هُرَيْرةَ ﷺ قَال: قَال رسُولُ اللَّهِ ﷺ: « قَال اللَّه تَعالَى: أَعْدَدْتُ لعِبادِيَ الصَّالحِينَ مَا لاَ عيْنٌ رَأَتْ، ولاَ أُذُنٌ سَمِعتْ ولاَ خَطَرَ علَى قَلْبِ بَشَرٍ، واقْرؤُوا إِنْ شِئتُمْ: { فَلا تَعْلَمُ نَفْسٌ ما أُخْفِيَ لَهُمْ مِنْ قُرَّةِ أَعْيُنٍ جزَاءً بِما كَانُوا يعْملُونَ } [السجدة: ١٧] متفقٌ عليه.

1881. Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: «**Uca Allah buyurur: "Əməlisaleh qullarım üçün gözlərin görmədiyi, qulaqların eşitmədiyi, heç kəsin ağlına belə gəlməyən nemətlər hazırlamışam. İstəyirsinizsə, bu ayəni oxuyun: "Etdikləri əməllərin mükafatı kimi onlar üçün gözlərinə sevinc gətirəcək nələrin saxlandığını heç kəs bilmir"[2]».**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

١٨٨٢– وعَنْهُ قَالَ: قال رسُولُ اللَّهِ ﷺ: « أَوَّلُ زُمْرَةٍ يدْخُلُونَ الْجنَّةَ على صُورَةِ الْقَمرِ لَيْلَةَ الْبدْرِ. ثُمَّ الَّذِينَ يلُونَهُمْ علَى أَشَدِّ كَوْكَبٍ دُرِّيٍّ فِي السَّمَاءِ إِضَاءَةً: لاَ يُبولُونَ ولاَ يتَغَوَّطُونَ، ولاَ يتْفُلُونَ، ولاَ يمْتَخِطُون. أَمْشاطُهُمُ الذَّهَبُ، ورشْحهُمُ المِسْكُ، ومجامِرُهُمُ الأُلُوَّةُ عُودُ

[1] "Səhih Muslim", 5067.

[2] "əs-Səcdə" surəsi, 17.

[3] "Səhih əl-Buxari", 3005; "Səhih Muslim", 5050

الطِّيبِ أَزْواجُهُم الْحُورُ الْعِينُ، علَى خَلْقِ رجُلٍ واحِد، علَى صُورَةِ أَبِيهِمْ آدم سِتُّونَ ذِراعاً في السَّماءِ » متفقٌ عليه.

وفي روايةٍ للبُخَارِيِّ ومُسْلِمٍ: آنيتُهُمْ فِيهَا الذَّهَبُ، ورشْحُهُمْ المِسْكُ، ولِكُلِّ واحِدٍ مِنْهُمْ زَوْجَتَانِ يُرَى مُخُّ سُوقِهِما مِنْ وراءِ اللَّحْمِ مِنَ الْحُسْنِ، لاَ اخْتِلاَفَ بينَهُمْ، ولا تَبَاغُضَ: قُلُوبهُمْ قَلْبُ رَجُلٍ واحِدٍ، يُسَبِّحُونَ اللَّه بُكْرةً وَعَشِيّاً ».

قَوْلُهُ: « عَلَى خَلْقِ رجُلٍ واحِد » رواهُ بَعْضُهُمْ بِفَتْحِ الخَاءِ وإِسْكَانِ اللاَّمِ، وبعْضُهُمْ بِضَمِّهِما، وكِلاَهُما صَحِيحٌ.

1882. Yenə Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Cənnətə daxil olacaq ilk zümrə gecə vaxtı çıxan bədirlənmiş ay surətində olacaq. Ondan sonra gələnlər göydə işıq verən dan ulduzu kimi olacaqlar. Onlar nə yüngül, nə də ağır subaşına çıxmayacaqlar, nə tüpürcək, nə də bəlğəm çıxarmayacaqlar. Onların darağı qızıldan olacaq. Ətirləri müşk, buxurdanlarının közü isə ətir ağacından olacaq. Zövcələri bir-birinə oxşar eyni insan qiyafəsində olacaq hurilərdir. Onlar ataları Adəm kimi, altmış ərəş uzunluğunda olacaqlar".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Buxari və Muslimin digər rəvayətində isə belə deyilir: **"Onların qabqacaqları qızıldan, ətirləri müşk olacaq. Onların hər birinin iki zövcəsi olacaqdır. Dərinin incəliyindən ətin altından iliyi görünəcək. Aralarında ixtilaf və nifrət olmayacaqdır: qəlbləri eyni olacaq, səhər-axşam Allahı zikr edəcəklər".**[2]

Hədisdəki **"eyni insan qiyafəsində olacaq"** sözünü bəziləri "xuluqi", yəni "əxlaqı" sözü kimi rəvayət etmişlər. Hər ikisi səhihdir.

١٨٨٣– وَعَن الْمُغِيرَةِ بْن شُعْبَة رضي الله عنه عنْ رسُولِ اللَّهِ ﷺ قَالَ: « سأَل مُوسَى ﷺ ربَّهُ، ما أَدْنَى أَهْلِ الْجنَّةِ مَنْزِلَةً؟ قَالَ: هُو رَجُلٌ يجِيءُ بعْدَ ما أُدْخِل أَهْلُ الْجنَّةِ الْجَنَّةَ، فَيُقَالُ لَهُ: ادْخِلِ الْجنَّة. فَيقُولُ: أَيْ رَبِّ كَيْفَ وقَدْ نَزَل النَّاسُ منَازِلَهُمْ، وأَخَذُوا أَخَذاتِهِم؟ فَيُقَالُ لهُ:

[1] "Səhih əl-Buxari", 3080; "Səhih Muslim", 4324.

[2] "Səhih əl-Buxari", 3006; "Səhih Muslim", 5065.

أَتَرضي أَنْ يكُونَ لَكَ مِثْلُ مُلْكِ مَلِكٍ مِنْ مُلُوكِ الدُّنْيا؟ فَيقُولُ: رضِيتُ ربِّ، فَيقُولُ: لَكَ ذَلِكَ ومِثْلُهُ ومِثْلُهُ ومِثْلُهُ، فَيقُولُ فِي الْخَامِسَةِ: رضِيتُ ربِّ، فَيَقُولُ: هَذَا لَكَ وعشَرةُ أَمْثَالِهِ، ولَكَ ما اشْتَهَتْ نَفْسُكَ، ولَذَّتْ عَيْنُكَ. فَيَقُولُ: رضِيتُ ربِّ، قَالَ: ربِّ فَأَعْلاَهُمْ منْزِلَةً؟ قال: أُولَئِك الَّذِينَ أَردْتُ، غَرسْتُ كَرامتَهُمْ بِيدِي وخَتَمْتُ علَيْهَا، فَلَمْ تَر عيْنٌ، ولَمْ تَسْمعْ أُذُنٌ، ولَمْ يخْطُرْ عَلَى قَلْبِ بشَرٍ » رواهُ مُسْلم.

1883. Muğira ibn Şöbədən ﵁ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: «**Musa Rəbbindən Cənnətin ən aşağı təbəqəsində olacaq kəslərin kimliyini soruşdu, O da dedi: "Bu o kəsdir ki, Cənnət əhli Cənnətə daxil olduqdan sonra gələcək. Ona deyiləcək ki, Cənnətə daxil ol. O deyəcək: "Ey Rəbbim, necə? Axı artıq insanlar öz mənzillərinə çatıblar, götürdüklərini də götürüblər". Ona deyiləcək: "Dünya padşahlarından birinin malik olduğu qədər mülkünün olmasını istəyirsənmi?" Deyəcək: "Razıyam, ey Rəbbim". Deyəcək: "Sənə bir o qədər, onun daha bir misli, daha bir misli, daha bir misli və daha bir mislini verirəm". Beşincidə deyəcək: "Razı oldum, ey Rəbbim". Deyəcək: "Bunlar və bunların on misli sənindir. Üstəlik, nəfsin nə istəsə, gözünə nə xoş gəlsə sənə veriləcək". Deyəcək: "Razı qaldım, ey Rəbbim". *Musa* soruşdu: "Bəs ən uca məqama sahib olanları kimlərdir?" Dedi: "Onlar o kəslərdir ki, onları Mən istəmişəm, kəramətlərini Öz əlimlə əkib onun üzərində xətm etmişəm, gözlərin görmədiyini, qulaqların eşitmədiyini, heç bir insanın ağlına gəlmədiyini".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

١٨٨٤– وعن ابْنِ مسْعُودٍ ﵁ قال: قَال رسُولُ اللَّهِ ﷺ: « إِنِّي لأَعْلَمُ آخِرَ أَهْل النَّار خُرُوجاً مِنهَا، وَآخِرَ أَهْل الْجنَّةِ دُخُولاً الْجنَّة. رجُلٌ يخْرُجُ مِنَ النَّارِ حبْواً، فَيقُولُ اللَّه عزَّ وجَلَّ لَهُ: اذْهَبْ فَادخُلِ الْجنَّةَ، فَيأْتِيهَا، فيُخيَّلُ إِلَيْهِ أَنَّهَا مَلأَى، فيَرْجِعُ، فَيقُولُ: ياربِّ وجدْتُهَا مَلأى، يَقُولُ اللَّه عزَّ وجلَّ لهُ: اذْهَبْ فَادْخُلِ الجنَّةَ، فيأْتِيها، فَيُخَيَّل إِلَيْهِ أَنَّهَا ملأى، فَيرْجِعُ. فيَقُولُ: ياربِّ وجدْتُهَا مَلأى،، فَيقُولُ اللَّه عزَّ وجلَّ لهُ: اذْهَبْ فَادْخُلِ الْجَنَّةَ. فإِنَّ لَكَ مِثْلَ الدُّنْيا وعشَرةَ أَمْثَالِها، أَوْ إِنَّ لَكَ مِثْل عَشرَةِ أَمْثَالِ الدُّنْيا، فَيقُولُ: أَتَسْخَرُ بِي، أَوَ أَتَضحكُ بِي وأَنْتَ الملِكُ »

[1] "Səhih Muslim", 276.

قَال: فَلَقَدْ رأَيْتُ رَسُول اللَّهِ ﷺ ضَحِكَ حَتَّى بدت نَوَاجذُهُ فَكَانَ يقُولُ: « ذَلِكَ أَدْنَى أَهْلِ الْجَنَّةِ منْزِلَةً » متفقٌ عليه.

1884. İbn Məsuddan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Mən Cəhənnəmdən ən son çıxacaq kəsləri tanıyıram. Mən Cənnətə ən son daxil olacaq kəsləri də tanıyıram. Adam Cəhənnəmdən iməkləyərək çıxacaq. İzzət və cəlal sahibi Allah ona buyuracaq: "Get, Cənnətə daxil ol". O oraya gələcək və ona elə gələcək ki, ora artıq dolub. Geri qayıdıb deyəcək: "Ey Rəbbim, baxdım ki, ora doludur". İzzət və cəlal sahibi Allah ona deyəcək: "Get, Cənnətə daxil ol". O yenə gedəcək və ona yenə elə gələcək ki, ora artıq dolub. Yenə qayıdıb deyəcək ki, "Ey Rəbbim, baxdım ki, ora dolub". İzzət və cəlal sahibi Allah ona deyəcək: "Get, Cənnətə daxil ol. Sənə dünya və on dünya qədəri verildi". Yaxud sənə dünyanın on misli verildi. Həmin adam da: "Mənim Sahibim olduğun halda mənə istehzamı edirsən? Yaxud mənəmi gülürsən?"– deyəcək".** İbn Məsud deyir ki, mən Rəsulullahın ﷺ arxa dişləri görünənədək güldüyünü gördüm. Sonra o ﷺ dedi: **"Bu, Cənnətə ən son daxil olacaq kəsdir".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Bu hədisləri müəllif رحمه الله Cənnət əhlinə veriləcək nemətlər barədə qeyd etmişdir. Həmin hədislərdən birində deyilir ki, Cənnətə daxil olacaq ilk zümrə bədirlənmiş ay kimi olacaqdır. Bu ilk və ən əfzəl zümrədir. Peyğəmbərdən ﷺ sabit olmuşdur ki, Cənnətə ilk daxil olacaq kəs bu ümmət olacaqdır. Onlardan sonra gələnlər göydəki dan ulduzu kimi olacaq. Yəni göydəki ulduzlar kimi olacaqlar. Onlardan sonra gələnlər isə dərəcələrinə görə olacaqdır. Onlar orada nə ağır, nə də yüngül su başına çıxmayacaq, bəlğəm və ya tüpürcəkləri olmayacaq. Çünki onların ifrazatları dünya əhlininki kimi olmayacaq. Onların ifrazatları tər kimi çıxacaqdır. Həmin tər isə müşk qoxusundan daha gözəl olacaqdır. Gəyirmələri də müşk qoxusu kimi olacaqdır, çünki onlar davamlı nemətlər içərisində olacaqlar.

[1] "Səhih əl-Buxari", 6086; "Səhih Muslim", 272.

Sonra o ﷻ Cənnətdə ən üstün olanları və ən son daxil olacaq kəsləri qeyd etmişdir. Bütün bunlar həmin nemətlərin fəzilətinə dəlildir. Allah bizləri və sizləri onların əhlindən etsin.

Cəhənnəm əhlinə gəlincə isə, Allah qorusun, bundan aşağı səviyyədə olacaqlar. Odur ki, Cənnəti qazanmaq istəyən göz gərək yatmasın. Cəhənnəm odundan qorxan göz gərək yatmasın. Çünki dünya nemətləri keçicidir, axirət nemətləri isə təqvalı olanlar üçün daha xeyirlidir. Lakin izzət və cəlal sahibi Allahın hikmətindən, həmçinin imtahandandır ki, bu dünyada insanların çoxu sanki bu dünyadan başqa bir həyat olmayacaq kimi yaşayırlar. Sanki onlar bu dünya üçün yaranıblar. Əslində isə insan Axirət üçün yaradılmışdır. Axirət yurdu fani olmayan əbədi həyatdır – ya Cəhənnəm odunda, Allah qorusun, ya da əbədi nemətlər içərisində. Uca Allahdan diləyirəm ki, bizləri də o əməlisaleh kəslərdən etsin ki, O onlar üçün gözlərin görmədiyi, qulaqların eşitmədiyi, heç kimin ağlına belə gəlməyən nemətlər hazırlamışdır.

١٨٨٥– وَعَنْ أَبِي مُوسَى ﷺ أَنَّ النَّبِيَّ ﷺ قَالَ: « إِنَّ لِلْمُؤْمِنِ فِي الْجَنَّةِ لَخَيْمةً مِنْ لُؤْلُؤةٍ وَاحِدةٍ مُجوَّفَةٍ طُولُهَا فِي السَّماءِ سِتُّونَ ميلاً. لِلْمُؤْمِنِ فِيهَا أَهْلُونَ، يَطُوفُ عَلَيْهِمُ الْمُؤْمِنُ فَلاَ يَرى بعْضُهُمْ بَعْضاً». متَّفقٌ علَيْهِ

« المِيلُ » سِتَّة آلافِ ذِرَاعٍ.

1885. Əbu Musadan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Möminin Cənnətdə içi boş mirvaridən bir çadırı olacaq. Onun uzunluğu səmada altmış mildir. Çadırın içərisində möminin əhli-əyalı olacaqdır. Mömin onların yanına gedəcək, lakin onlar bir-birilərini görməyəcəklər".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Bir mil altı min dirsəkdir.

١٨٨٦– وَعَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَال: « إِنَّ فِي الْجنَّةِ لَشَجرَةً يسِيرُ الرَّاكِبُ الْجوادَ الْمُضَمَّرَ السَّرِيعَ مِائَةَ سنَةٍ مَا يَقْطَعُهَا » متفقٌ عليه.

[1] "Səhih əl-Buxari", 3004; "Səhih Muslim", 5070.

وَرَوَياهُ فِي « الصَّحِيحَيْنِ » أَيْضاً مِنْ روَايَةِ أَبِي هُرَيْرَةَ ﷺ قالَ: « يَسِيرُ الرَّاكِبُ فِي ظِلِّهَا مِائَةَ سَنَةٍ مَا يَقْطَعُهَا ».

1886. Əbu Səid əl-Xudridən ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Cənnətdə elə bir ağac var ki, yaxşı qaçan sürətli atlı yüz il onun altından çıxa bilmir".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Yenə Buxari və Muslimin "Səhih" əsərlərində Əbu Hureyradan ﷺ nəql etdikləri hədisdə o demişdir: **"Atlı onun kölgəsində yüz il çapsa da, ondan çıxa bilmir".**[2]

١٨٨٧– وَعَنْهُ عَن النَّبِيِّ ﷺ قَالَ: « إِنَّ أَهْلَ الْجنَّةِ لَيَتَرَاءُوْنَ أَهْلَ الْغُرَفِ مِنْ فَوْقِهِمْ كَمَا تَتَرَاءَوْنَ الكَوْكَبَ الدُّرِّيَّ الْغَابِرَ فِي الأُفُقِ مِنَ المشْرِقِ أَوِ المَغْرِبِ لتَفَاضُلِ ما بَيْنَهُمْ » قَالُوا: يَا رَسُولَ اللَّه، تلْكَ مَنَازلُ الأَنْبِيَاءِ لاَ يبْلُغُهَا غَيْرُهُمْ؟ قَالَ: « بلَى وَالَّذِي نَفْسِي بِيَدِهِ رجَالٌ أَمَنُوا بِاللَّهِ وصَدَّقُوا المُرْسلِينَ » متفقٌ عليه.

1887. Yenə Əbu Səid əl-Xudridən ﷺ nəql olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Cənnət əhlinin üzərində üfüqdə məşriq və ya məğrib tərəfdən görünən parlaq ulduzlar kimi, otaqları olacaqdır. Onlar arasında belə bir fərq olacaqdır".** Dedilər: "Ey Allahın elçisi, bu, yəqin ki, peyğəmbərlərin məqamıdır, onlara kimsə çata bilməyəcək". Dedi: **"Canım əlində olan Allaha and olsun ki, onlar Allah iman gətirib rəsulları təsdiqləyən kəslər olacaqlar".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

١٨٨٨– وعنْ أَبي هُرَيْرةَ ﷺ أَنَّ رسُول اللَّهِ ﷺ قَال: « لَقَابُ قَوْسٍ فِي الْجَنَّةِ خَيْرٌ مِمَّا تَطْلُعُ علَيْهِ الشمْسُ أَوْ تَغْربُ » متفقٌ عليهِ.

1888. Əbu Hureyradan ﷺ nəql olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Cənnətdəki bir yay arası qədər məsafə günəşin çıxıb-batdığı yerdən daha üstündür".**

---

[1] "Səhih əl-Buxari", 6069; "Səhih Muslim", 5056.

[2] "Səhih əl-Buxari", 4502; "Səhih Muslim", 5054.

[3] "Səhih əl-Buxari", 3016; "Səhih Muslim", 5059.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٨٨٩– وعنْ أَنَسٍ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: « إِنَّ فِي الْجنَّةِ سُوقاً يأْتُونَهَا كُلَّ جُمُعةٍ. فتَهُبُّ رِيحُ الشَّمالِ، فَتحثُو في وُجُوهِهِمْ وثِيَابِهِمْ، فَيزْدادُونَ حُسْناً وجَمالاً. فَيَرْجِعُونَ إِلَى أَهْلِيهِمْ، وقَدْ ازْدَادُوا حُسْناً وجمالاً، فَيقُولُ لَهُمْ أَهْلُوهُمْ: وَاللَّهِ لَقَدِ ازْدَدْتُمْ حُسْناً وجمالاً، فَيقُولُونَ: وأَنْتُمْ وَاللَّهِ لَقَدِ ازْددْتُمْ بعْدَنَا حُسناً وَجمالاً،» رواهُ مُسلِمٌ.

1889. Ənəsdən ﷺ nəql olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Cənnətdə bir bazar var ki, hər cümə günü insanlar oraya gələcək. Sonra əsən şimal küləyi onların üzlərinə və libaslarına dəyəcək və onlar daha da gözəlləşəcəklər. Öz əhli-əyalının yanına qayıdanda onlar daha gözəl olacaqlar. Əhli-əyalları onlara: "Allaha and olsun ki, siz daha da gözəlləşmisiniz"– deyəcək, onlar da deyəcəklər ki: "Allaha and olsun ki, siz də bizdən sonra daha gözəlləşmisiniz".**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١٨٩٠– وعنْ سَهْلِ بْنِ سعْدٍ ﷺ أَنَّ رسُولَ اللَّه ﷺ قَالَ: « إِنَّ أَهْلَ الْجنَّةِ لَيَتَراءَوْنَ الْغُرفَ فِي الْجنَّةِ كَمَا تَتَرَاءَوْنَ الْكَوْكَبَ فِي السَّماءِ » متفقٌ عليه.

1890. Səhl ibn Səddən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Şübhəsiz ki, Cənnət əhli səmada görünən ulduzlar kimi, Cənnətdə otaqlar görəcəklər".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

١٨٩١– وَعنْهُ ﷺ قَال: شَهِدْتُ مِنَ النَّبِيِّ ﷺ مجْلِساً وَصفَ فِيهِ الْجَنَّةَ حتَّى انْتَهَى، ثُمَّ قَال فِي آخِرِ حدِيثِهِ: « فِيهَا ما لاَ عيْنٌ رأَتْ، ولا أُذُنٌ سمِعَتْ، ولاَ خَطَر عَلى قَلْبِ بشَرٍ، ثُمَّ قَرأَ { تتجافى جُنُوبُهُمْ عَنِ المضَاجِعِ } إِلى قَوْلِهِ تَعالَى: {فَلاَ تعْلَمُ نَفْسٌ ما أُخْفِيَ لَهُمْ مِنْ قُرَّةِ أَعْيُنٍ}. رواهُ البخاري.

[1] "Səhih əl-Buxari", 2584.

[2] "Səhih Muslim", 5061.

[3] "Səhih əl-Buxari", 6071; "Səhih Muslim", 5058.

1891. Yenə Səhl ibn Səd ﷺ rəvayət edir ki, bir dəfə Peyğəmbərlə ﷺ bir məclisdə idik. O, Cənnəti vəsf etdi, söhbətinin sonunda isə belə dedi: **"Orada gözlərin görmədiyi, qulaqların eşitmədiyi, heç kimin ağlına belə gəlmədiyi şeylər olacaq".** Sonra o, bu ayəni oxudu: **"Onlar *gecə namazını qılmaq üçün* böyürlərini yataqdan qaldırır, qorxu və ümid içində öz Rəbbinə yalvarır və onlara verdiyimiz ruzilərdən *Allah yolunda* xərcləyirlər. Etdikləri əməllərin mükafatı kimi onlar üçün gözlərinə sevinc gətirəcək nələrin saxlandığını heç kəs bilmir".**[1]

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

١٨٩٢– وعنْ أَبِي سعِيدٍ وأَبي هُرَيْرةَ ﷺ أَنَّ رسُول اللَّهِ ﷺ قَال: « إِذَا دخَلَ أَهْلُ الْجنَّةِ الجنَّةَ يُنَادِي مُنَادٍ: إِنَّ لَكُمْ أَنْ تَحْيَوْا، فَلا تَمُوتُوا أَبداً وإِنَّ لكُمْ أَنْ تَصِحُّوا، فَلاَ تَسْقَمُوا أَبداً، وإِنَّ لَكُمْ أَنْ تَشِبُّوا فَلا تهْرَمُوا أَبداً وإِنَّ لَكُمْ أَن تَنْعمُوا، فَلا تبؤسوا أَبَداً » رواهُ مسلم.

1892. Əbu Səid ﷺ və Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Cənnət əhli Cənnətə daxil olduqda bir nəfər elan edəcək ki, "Sizlər diri qalacaq və heç vaxt ölməyəcəksiniz. Sizlər sağlam olacaq və heç zaman xəstələnməyəcəksiniz. Sizlər gənc qalacaq və əsla qocalmayacaqsınız. Sizlər nemətlərə qovuşacaq və əsla pislik görməyəcəksiniz".**

Bu hədisi Muslim rəvayət etmişdir.[3]

Şərh:

Bu hədislər Cənnət əhlinə veriləcək nemətlərdən təfsilatlı bəhs edir. Bu hədislərdən birində Peyğəmbər ﷺ demişdir ki, **"Möminin Cənnətdə içi boş mirvaridən bir çadırı olacaq. Onun uzunluğu səmada altmış mildir. Çadırın içərisində möminin əhli-əyalı olacaqdır. Mömin onların yanına gedəcək, lakin onlar bir-birilərini görməyəcəklər"**. Bu da həmin çadırın genişliyinə və örtülü olmasına görədir.

Başqa bir hədisdə isə Peyğəmbər ﷺ xəbər vermişdir ki, Cənnət əhli Cənnətə daxil olduqda bir nəfər çağıracaq ki, **"Sizlər diri qalacaq və heç**

[1] "əs-Səcdə" surəsi, 16-17.

[2] "Səhih Muslim", 5053.

[3] "Səhih Muslim", 5069.

vaxt ölməyəcəksiniz. Sizlər sağlam olacaq və heç vaxt xəstələnməyəcəksiniz...”. Beləcə hədis sonunadək qeyd olunur. Yəni onlar daimi nemətlər içərisində olacaq, ölümdən, xəstəlikdən və özlərinə verilmiş nemətlərin kəsilməsindən qorxmayacaqlar. Bu xüsusda Uca Allah buyurur: **“çoxlu meyvələr – tükənməz və qadağan edilməyən *meyvələr* içində *olacaqlar*”.**[1]

Cənnət əhlinin hər cümə günü yığışdıqları bazarları olacaq. Yəni onun miqdarında. Çünki Cənnətdə nə namaz olacaq, nə cümə, nə də başqa bir şey. Sonra şimal küləyi əsəcək və bu onların gözəlliyini artıracaq. Burada şimal küləyinə bənzər sərin və xəfif meh nəzərdə tutulur.

Bütün bu hədislərdə sadalananlar insanların həmin yerə çata bilmələri üçün yaxşı işlər görməyə sövq edir. Allah bizləri və sizləri Cənnət əhlindən etsin.

Cənnətdə olacaq ən gözəl və ən böyük nemət isə izzət və cəlal sahibi Allaha həqiqi şəkildə baxmaq olacaq. Uca Allah bu barədə buyurur: **“O gün *bir çox* üzlər parlayacaq və öz Rəbbinə baxacaqdır”.**[2] O həmçinin buyurur: **“Onlar taxtlar üstündə seyrə dalacaqlar”.**[3] Yenə O buyurur: **“Yaxşı iş görənlər üçün ən yaxşısı və bundan da üstünü (Cənnət, üstəlik də Allahı görmək) vardır”.**[4] Burada bundan üstünü deyildikdə uca və böyük Allahın üzünə baxmaq nəzərdə tutulur. Əzəmətli Allahdan, əzəmətli Ərşin Sahibindən diləyirəm ki, bizləri və sizi onlardan etsin.

١٨٩٣– وعَنْ أَبي هُرَيْرَةَ رضي الله عنه أَنَّ رَسُول اللَّهِ ﷺ قَالَ: « إِنَّ أَدْنَى مقْعَدِ أَحدِكُمْ مِنَ الْجنَّةِ أَنْ يقولَ لَهُ: تَمنَّ فَيَتَمنَّي ويتَمنَّي. فَيَقُولُ لَهُ: هلْ تَمنَّيْتَ؟ فَيَقُولُ: نَعمْ فَيقُولُ لَهُ: فَإِنَّ لَكَ ما تَمنَّيْتَ ومِثْلَهُ معهُ » رَواهُ مُسْلِمٌ.

1893. Əbu Hureyradan رضي الله عنه nəql olunur ki, Rəsulullah ﷺ demişdir: **“Cənnət əhlindən ən aşağı dərəcəsi olacaq kəsə deyiləcək ki, istə. O da istəyəcək və yenə istəyəcək. Ona deyiləcək: “İstədinmi?” Deyəcək: “Bəli”. Ona deyiləcək: “Sənə istədiyin, üstəlik, onun daha bir misli veriləcək”.**

Bu hədisi Muslim rəvayət etmişdir.

---

[1] “əl-Vaqiə” surəsi, 32-33.

[2] “əl-Qiyamə” surəsi, 22-23.

[3] “əl-Mutaffifin” surəsi, 23.

[4] “Yunus” surəsi, 26.

١٨٩٤– وعنْ أَبِي سعِيدٍ الْخُدْرِيِّ ﷺ أَنَّ رسُول اللَّه ﷺ قَال: « إِنَّ اللَّه عزَّ وجلَّ يقُولُ لأهْل الْجنَّةِ: يا أَهْلَ الْجنَّة، فَيقُولُونَ: لَبَّيْكَ ربَّنَا وسعْديْكَ، والْخيرُ في يديْك فَيقُولُ: هَلْ رَضِيتُمْ؟ فَيقُولُونَ: وما لَنَا لاَ نَرْضَي يا رَبَّنَا وقَدْ أَعْطَيْتَنَا ما لمْ تُعْطِ أَحداً مِنْ خَلْقِكَ، فَيقُولُ: أَلاَ أُعْطِيكُمْ أَفْضَلَ مِنْ ذَلَكَ؟ فَيقُولُونَ: وأَيُّ شَيْءٍ أَفْضلُ مِنْ ذلِكَ؟ فيقُولُ: أُحِلُّ عليْكُمْ رضْوانِي، فَلا أَسْخَطُ عليْكُمْ بَعْدَهُ أَبَداً » متفق عليه.

1894. Əbu Səid əl-Xudridən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"İzzət və cəlal sahibi Allah Cənnət əhlini səsləyəcək: "Ey Cənnət əhli". Deyəcəklər: "Buyur, ey Rəbbimiz, hüzurundayıq. Xeyir Sənin əlindədir". Deyəcək: "Razı qaldınızmı?" Deyəcəklər: "Ey Rəbbimiz, necə razı qalmayaq ki, bizlərə yaratdıqlarından heç kimə vermədiyin nemətləri bəxş etmisən". Deyəcək: "Ondan daha üstün olanını sizə verimmi?" Deyəcəklər: "Bundan daha üstün nə ola bilər ki?" Deyəcək: "Sizə olan razılığım. Bundan sonra sizlərə heç vaxt qəzəblənməyəcəyəm".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

١٨٩٥– وعنْ جرِيرِ بْنِ عبْدِ اللَّهِ ﷺ قال: كُنَّا عِنْدَ رَسُولِ اللَّهِ ﷺ فَنَظَرَ إِلَى الْقَمرِ لَيْلَةَ الْبدْرِ، وقَال: « إِنَّكُمْ سترَوْنَ رَبَّكُمْ عِياناً كما تَرَوْنَ هَذَا الْقَمرَ، لاَ تُضامُونَ في رُؤْيتِهِ». مُتَّفَقٌ علَيْهِ.

1895. Cərir ibn Abdullah ﷺ rəvayət edir ki, bir dəfə biz Rəsulullahın ﷺ yanında idik. O, gecə vaxtı bədirlənmiş aya baxıb dedi: **"Sizlər bu ayı gördüyünüz kimi Rəbbinizi də görəcəksiniz. Onu görməyinizə heç nə mane olmayacaq".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١٨٩٦– وعنْ صُهَيْب ﷺ أَنَّ رسُول اللَّهِ ﷺ قَال: « إِذَا دَخَل أَهْلَ الْجنَّةِ الجنَّةَ يقُولُ اللَّه تَبارَكَ وتَعالَى: تُرِيدُونَ شَيْئاً أَزِيدُكُمْ؟ فَيقُولُونَ: أَلَمْ تُبيِّضْ وُجُوهَنَا؟ أَلَمْ تُدْخِلْنَا الْجَنَّةَ وتُنَجِّنَا مِنَ النَّارِ؟ فَيكْشِفُ الْحِجابَ، فَما أُعْطُوا شَيْئاً أَحبَّ إِلَيهِمْ مِنَ النَّظَرِ إِلَى رَبِّهِمْ » رواهُ مُسْلِمٌ.

[1] "Səhih əl-Buxari", 6964; "Səhih Muslim", 5057.

[2] "Səhih əl-Buxari", 521; "Səhih Muslim", 1002.

1896. Suheybdən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Cənnət əhli Cənnətə daxil olduqda uca və böyük Allah deyəcək: "Başqa bir şey istəyirsinizmi sizə verim?" Deyəcəklər: "Məgər bizim üzümüzü ağ etmədinmi? Bizləri Cənnətə daxil edərək Cəhənnəmdən xilas etmədinmi?" Bu vaxt Allah hicabı qaldıracaq və onlara Rəbbinə baxmaqdan daha böyük nemət verilməyəcək".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Uca Allah buyurur:

﴿ إِنَّ ٱلَّذِينَ ءَامَنُواْ وَعَمِلُواْ ٱلصَّٰلِحَٰتِ يَهۡدِيهِمۡ رَبُّهُم بِإِيمَٰنِهِمۡۖ تَجۡرِي مِن تَحۡتِهِمُ ٱلۡأَنۡهَٰرُ فِي جَنَّٰتِ ٱلنَّعِيمِ * دَعۡوَىٰهُمۡ فِيهَا سُبۡحَٰنَكَ ٱللَّهُمَّ وَتَحِيَّتُهُمۡ فِيهَا سَلَٰمٞۚ وَءَاخِرُ دَعۡوَىٰهُمۡ أَنِ ٱلۡحَمۡدُ لِلَّهِ رَبِّ ٱلۡعَٰلَمِينَ ﴾

"İman gətirib saleh əməllər edənləri Rəbbi imanlarına görə doğru yola yönəldər. Nəim cənnətlərində onların *ağacları və qəsrləri* altından çaylar axar. Onların oradakı duası: "Allahım, Sən pak və müqəddəssən!", orada *bir-birilərini* salamlaması: "Salam!" *sözü*, dualarının sonu da: "Həmd, aləmlərin Rəbbi Allaha məxsusdur!" *sözləri olacaq*".[2]

Bizi buna hidayət edən Allaha həmd olsun. Allah bizə hidayət verməsəydi, hidayətə çata bilməzdik. Allahım, İbrahimə və İbrahimin ailəsinə xeyir-dua və salam verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də xeyir-dua və salam ver. Allahım, İbrahimə və İbrahimin ailəsinə bərəkət verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də bərəkət ver. Şübhəsiz ki, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən.

Kitabın müəllifi Yəhya ən-Nəvəvi (Allah onu bağışlasın) deyir: "Bu kitabı bazar ertəsi günü, Ramazan ayının on dördü, altı yüz yetmişinci ildə Dəməşq şəhərində bitirdim".

---

[1] "Səhih Muslim", 266.

[2] "Yunus" surəsi, 9-10.

Şərh:

Müəllif Hafiz ən-Nəvəvi ﵀ "Salehlər bağçası" əsərinin sonuncu fəslində Cənnətdəki nemətlər barəsində olan hədisləri qeyd edir. Uca Allahdan diləyirik ki, bunu gözəl bir əlamət etsin, həm müəllifi, həm də bizi Nəim cənnətlərinə daxil etsin.

Müəllif ﵀ möminlərin Qiyamət günü Allahı görəcəkləri barədə iki hədisi qeyd edir. Bundan öncə qeyd etmişdi ki, Uca Allah onlardan razı qalacaq və onlara heç vaxt qəzəblənməyəcək. Möminlərin Cənnətdə Allahı görmələri Uca Allahın kitabı, Rəsulunun sünnəsi, səhabələrin icması və ümmətin imamlarının rəyi ilə sabitdir. Allahın qəlblərini kor etdiyi kəslərdən başqa heç kim bunu inkar etməmişdir. Allah qorusun. Bu hədislər də Peyğəmbərdən ﷺ mütəvatir olaraq varid olmuşdur. İzzət və cəlal sahibi Allah buyurur: **"O gün *bir çox* üzlər parlayacaq və öz Rəbbinə baxacaq".**[1] Uca və nöqsansız Allah həmçinin buyurur: **"Yaxşı iş görənlər üçün ən yaxşısı və bundan da üstünü (Cənnət, üstəlik də Allahı görmək) vardır".**[2]

Yaradılmışların ən elmlisi Allah rəsulu Muhəmməd ﷺ bu ayədəki üstünlüyü izzət və cəlal sahibi Allaha baxmaq kimi təfsir etmişdir.

Uca və böyük Allah həmçinin buyurur: **"Onlar taxtlar üstündə seyrə dalacaqlar".**[3] Yəni onlar Uca Allahın onlar üçün hazırladığı nemətlərə baxacaqlar. Bu nemətlərin ən üstünü Allaha baxmaqdır. Uca Allah buyurur: **"Orada onlar üçün istədikləri hər şey hazırlanmışdır. Üstəlik, hüzurumuzda bundan da artığı – *Allahı görmək* var".**[4] Ayədəki "artıq" "əlavə" deməkdir ki, Peyğəmbər ﷺ bunu Allahın üzünə baxmaq kimi təfsir edib.

Rəbbimiz həmçinin buyurur: **"Gözlər Onu dərk etmir, O isə gözləri dərk edir. O, Lətifdir, *hər şeydən* Xəbərdardır".**[5] Buradakı: **"Gözlər Onu dərk etmir"** sözü dəlildir ki, gözlər Onu görəcək, lakin dərk edə bilməyəcək. Çünki Uca və böyük Allah gözlərin Onu dərk edə biləcəyindən daha əzəmətlidir.

Uca Allahın kitabında varid olmuş bu beş ayə dəlildir ki, möminlər Qiyamət günü Allahı *mütləq* görəcəklər. Bunu zəlalət əhlindən savayı heç kim inkar etməmişdir. Uca Allahdan diləyirik ki, onları haqqa yönəltsin,

---

[1] "əl-Qiyamə" surəsi, 22-23.

[2] "Yunus" surəsi, 26.

[3] "əl-Mutaffifin" surəsi, 23.

[4] "Qaf" surəsi, 35.

[5] "əl-Ənam" surəsi, 103.

çünki bunu yalnız inadkarlar inkar edir. Belə ki, ayələr aydın, bu mövzuda varid olmuş hədislər isə mütəvatirdir. Şair öz qəsidəsində belə deyir:

Yalan olmayan hədis mütəvatirdir ki,
Kim Allah üçün ev tikib savabını Ondan diləsə,
Allaha baxmaq, şəfaət və hovuz,
Xüflərə məsh çəkmək, bunlar bəzilәridir.[1]

"Baxmaq" sözü ilə möminlərin Qiyamət günü Allahı görməsinə işarə edilir. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Sizlər gecə vaxtı bədirlənmiş ayı gördüyünüz kimi, Rəbbinizi də görəcəksiniz və heç biriniz: çəkil mən də baxım – deməyəcəksiniz"**. O ﷺ həmçinin demişdir: **"Sizlər buludsuz səmada günəşi necə *aydın* görürsünüzsə, Rəbbinizi də elə *aydın* görəcəksiniz".** Bu barədə hədislər olduqca çoxdur. Onlarla tanış olmaq istəyən İbn Qeyyimin "Hadil-ərvah ilə bilədil əfrah" əsərinə müraciət edə bilər.

Uca Allahdan diləyirik ki, bizlərə Nəim cənnətlərində Onun Kəramətli Üzünə baxmağı nəsib etsin. Şübhəsiz ki, O, hər şeyə Qadirdir. Müvəffəqiyyət yalnız Allahdandır.

Naşirdən.

Bununla da "Riyadus-salihin min kəlami seyyidil-mursəlin" ("Salehlər bağçası") əsərinin şərhini bitirmiş oluruq. Həmd olsun o Allaha ki, Onun nemətləri ilə yaxşı əməllər tamamlanır. Allahdan diləyirik ki, bizə onunla fayda versin, onun vasitəsilə müəllifi Hafiz Muhyiddin Əbu Zəkəriyyə ən-Nəvəviyə (hicrətin 676-cı ilində vəfat etmişdir), həmçinin onu şərh edən Əllamə Şeyx Muhəmməd ibn Saleh əl-Useyminə (hicrətin 1421-ci ilində vəfat etmişdir) bol əcr və savab nəsib etsin. Allah onlara qəni-qəni rəhmət eləsin, onları bağışlasın, onlardan razı olsun, onları nemət bəxş etdiyi peyğəmbərlər, siddiqlər, şəhidlər və salehlərlə birlikdə etsin.

Allahın xeyir-duası, salamı və bərəkəti peyğəmbərlərin sonuncusu, müttəqilərin imamı, əvvəlkilərin və sonrakıların rəhbəri peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə, səhabələrinə və Qiyamət gününədək ona tabe olacaq kəslərə olsun.

---

[1] Bu beytləri əl-Kəttani "Nazm əl-mutənasir fil hədis əl-mutəvatir" əsərində qeyd etmiş və onu "Səhih əl-Buxari" əsərinin haşiyəsində (səh. 18) ət-Tədaviyə nisbət etmişdir.

Mündəricat

DUALAR KİTABI

İki yüz əllinci fəsil. Duanın fəziləti 5

1465-ci hədis 11
1466-cı hədis 12
1467-ci hədis 13
1468-ci hədis 14
1469-cu hədis 16
1470-ci hədis 18
1471-ci hədis 19
1472-ci hədis 21
1473-cü hədis 25
1474-cü hədis 26
1475-ci hədis 27
1476-cı hədis 29
1477-ci hədis 29
1478-ci hədis 29
1479-cu hədis 30
1480-ci hədis 30
1481-ci hədis 31
1482-ci hədis 32
1483-cü hədis 32
1484-cü hədis 32
1485-ci hədis 33
1486-cı hədis 33
1487-ci hədis 34
1488-ci hədis 35
1489-cu hədis 35
1490-cı hədis 35
1491-ci hədis 36
1492-ci hədis 36

1493-cü hədis 37
İki yüz əlli birinci fəsil. Gizlində edilən duanın fəziləti 39
1494-cü hədis 41
1495-ci hədis 42
İki yüz əlli ikinci fəsil. Dua ilə bağlı məsələlər 43
1496-cı hədis 43
1497-ci hədis 44
1498-ci hədis 45
1499-cu hədis 46
1500-cü hədis 47
1501-ci hədis 48
1502-ci hədis 48
İki yüz əlli üçüncü fəsil. Övliyaların kəraməti və fəziləti 50
1503-cü hədis 62
1504-cü hədis 70
1505-ci hədis 73
1506-cı hədis 76
1507-ci hədis 80
1508-ci hədis 81
1509-cu hədis 85
1510-cu hədis 87

ÇƏKİNİLMƏSİ ƏMR OLUNANLAR KİTABI
İki yüz əlli dördüncü fəsil. Qeybətin haram olması və dili qorumağın əmr edilməsi 92
1511-ci hədis 103
1512-ci hədis 103
1513-cü hədis 105
1514-cü hədis 105
1515-ci hədis 105
1516-cı hədis 109
1517-ci hədis 109
1518-ci hədis 109

1519-cu hədis 110
1520-ci hədis 110
1521-ci hədis 110
1522-ci hədis 111
1523-cü hədis 113
1524-cü hədis 113
1525-ci hədis 114
1526-cı hədis 114
1527-ci hədis 114
İki yüz əlli beşinci fəsil. Qeybəti dinləməyin haramlığı, haram qeybət eşidən adamın bunu rədd etməsi, onu söyləyənə irad bildirməsi, aciz olduqda isə həmin məclisi tərk etməsi 117
1528-ci hədis 118
1529-cu hədis 118
1530-cu hədis 120
İki yüz əlli altıncı fəsil. Mübah sayılan qeybət 122
1531-ci hədis 123
1532-ci hədis 124
1533-cü hədis 124
1534-cü hədis 125
1535-ci hədis 129
İki yüz əlli yeddinci fəsil. Söz gəzdirməyin haram olması – bu, fəsad məqsədilə insanlar arasında söz yaymaqdır 131
1536-cı hədis 131
1537-ci hədis 132
1538-ci hədis 132
İki yüz əlli səkkizinci fəsil. Fəsad qorxusu kimi bir səbəb olmadıqca, insanların söhbətlərini əmr sahiblərinə çatdırmağın qadağan olunması 135
1539-cu hədis 135
İki yüz əlli doqquzuncu fəsil. İkiüzlülüyün pis əməl olması 138
1540-cı hədis 138
1541-ci hədis 139

İki yüz altmışıncı fəsil. Yalanın haram olması 141
1542-ci hədis 145
1543-cü hədis 147
1544-cü hədis 152
1545-ci hədis 155
1546-cı hədis 157
İki yüz altmış birinci fəsil. Caiz olan yalanlar 163
İki yüz altmış ikinci fəsil. Danışılanı dəqiqləşdirməyə təşviq etmək 166
1547-ci hədis 166
1548-ci hədis 166
1549-cu hədis 167
İki yüz altmış üçüncü fəsil. Yalan şahidliyin haramlığının ağırlığı 170
1550-ci hədis 171
İki yüz altmış dördüncü fəsil. Müəyyən bir insanı və ya heyvanı lənətləmək 174
1551-ci hədis 174
1552-ci hədis 174
1553-cü hədis 174
1554-cü hədis 181
1555-ci hədis 181
1556-cı hədis 182
1557-ci hədis 182
1558-ci hədis 183
İki yüz altmış beşinci fəsil. Bəzi qeyri-müəyyən günahkarları lənətləməyin caizliyi 185
İki yüz altmış altıncı fəsil. Haqsız olaraq müsəlmanı söyməyin haramlığı 197
1559-cu hədis 197
1560-cı hədis 199
1561-ci hədis 200
1562-ci hədis 201
1563-cü hədis 206

İki yüz altmış yeddinci fəsil. Ölüləri haqsız yerə və şəri məsləhət olmadıqca söyməyin haramlığı 208
1564-cü hədis 208
İki yüz altmış səkkizinci fəsil. Əziyyət verməyin haramlığı 210
1565-ci hədis 210
1566-cı hədis 210
İki yüz altmış doqquzuncu fəsil. Nifrət etmə, əlaqələri kəsmə və [qardaşına] arxa çevirmənin qadağan olması 214
1567-ci hədis 220
1568-ci hədis 222
İki yüz yetmişinci fəsil. Həsədin haram olması 224
1569-cu hədis 224
İki yüz yetmiş birinci fəsil. Casusluğun və başqalarının gizli söhbətlərinə qulaq asmağın haram olması 227
1570-ci hədis 228
1571-ci hədis 231
1572-ci hədis 231
İki yüz yetmiş ikinci fəsil. Zərurət olmadan müsəlmanlar barədə pis zəndə olmağın qadağan olunması 233
1573-cü hədis 233
İki yüz yetmiş üçüncü fəsil. Müsəlmanları aşağılamağın haram olması 234
1574-cü hədis 236
1575-ci hədis 237
1576-cı hədis 237
İki yüz yetmiş dördüncü fəsil. Müsəlmana qarşı istehza etməyin qadağan olunması 240
1577-ci hədis 240
İki yüz yetmiş beşinci fəsil. Nəsəbləri təhqir etməyin haramlığı şəri baxımdan sabitdir 242
1578-ci hədis 242
İki yüz yetmiş altıncı fəsil. Hiylə gəlib aldatmağın haramlığı 245
1579-cu hədis 245

1580-ci hədis 246
1581-ci hədis 246
1582-ci hədis 246
1583-cü hədis 246
İki yüz yetmiş yeddinci fəsil. Əhdi pozmağın haramlığı 247
1584-cü hədis 250
1585-ci hədis 250
1586-cı hədis 251
1587-ci hədis 251
İki yüz yetmiş səkkizinci fəsil. Verdiyi şeyə minnət qoymağın və buna bənzər əməllərin haramlığı 253
1588-ci hədis 253
İki yüz yetmiş doqquzuncu fəsil. İftixarın və qarşı çıxmağın qadağan olunması 256
1589-cu hədis 256
1590-cı hədis 259
İki yüz səksəninci fəsil. Tərk olunası bidətlər, aşkar fasiqlik və buna bənzər əməllər istisna olmaqla, müsəlmanların bir-birilərini üç gündən artıq tərk etmələrinin haramlığı 261
1591-ci hədis 261
1592-ci hədis 262
1593-cü hədis 262
1594-cü hədis 262
1595-ci hədis 263
1596-cı hədis 263
1597-ci hədis 263
İki yüz səksən birinci fəsil. Üçüncü adamın yanında iki nəfərin gizli danışmasının qadağan olunması 267
1598-ci hədis 267
1599-cu hədis 268
İki yüz səksən ikinci fəsil. Köləyə, heyvana, qadına və övlada şəri bir səbəb olmadan və ya ədəb normaları xaricində əzab verməyin qadağan olması 270

1600-cü hədis 270
1601-ci hədis 271
1602-ci hədis 271
1603-cü hədis 271
1604-cü hədis 273
1605-ci hədis 274
1606-cı hədis 274
1607-ci hədis 275
1608-ci hədis 275
İki yüz səksən üçüncü fəsil. Heyvanlara, hətta qarışqaya belə odla işgəncə verməyin haramlığı 279
1609-cu hədis 279
1610-cu hədis 279
İki yüz səksən dördüncü fəsil. Haqq sahibinin tələbi haqqında varlının işi yubatmasının haramlığı 282
1611-ci hədis 282
İki yüz səksən beşinci fəsil. İnsanın hədiyyəni təslim etdiyi və ya etmədiyi adama və ya övladına hədiyyə verməkdən vaz keçməsi. Həmçinin sədəqə və ya zəkat verdiyi, yaxud kəffarə ödədiyi adamdan sədəqə verdiyi şeyi almasının bəyənilməməsi. Başqa adama verildikdə isə onu almaqda problem yoxdur 286
1612-ci hədis 286
1613-cü hədis 287
İki yüz səksən altıncı fəsil. Yetimin malını mənimsəməyin haram olması 289
1614-cü hədis 290
İki yüz səksən yeddinci fəsil. Sələmin haramlığının böyüklüyü 300
1615-ci hədis 310
İki yüz səksən səkkizinci fəsil. Riyakarlığın haram olması 315
1616-cı hədis 317
1617-ci hədis 321
1618-ci hədis 324

1619-cu hədis 327
1620-ci hədis 328
İki yüz səksən doqquzuncu fəsil. Riya olduğu güman edilən, əslində isə riya olmayan əməllər 330
1621-ci hədis 330
İki yüz doxsanıncı fəsil. Naməhrəm qadınlara, habelə göyçək uşaqlara şəri ehtiyac olmadan baxmağın haram olması 332
1622-ci hədis 334
1623-cü hədis 336
1624-cü hədis 336
1625-ci hədis 338
1626-cı hədis 338
1627-ci hədis 340
İki yüz doxsan birinci fəsil. Naməhrəm qadınla xəlvətdə qalmağın haramlığı 342
1628-ci hədis 342
1629-cu hədis 342
1630-cu hədis 343
İki yüz doxsan ikinci fəsil. Kişilərin geyimdə, hərəkətdə və başqa əməllərdə özlərini qadınlara, qadınların da özlərini kişilərə bənzətməsinin haramlığı 345
1631-ci hədis 345
1632-ci hədis 345
1633-cü hədis 346
İki yüz doxsan üçüncü fəsil. Şeytana və kafirlərə bənzəməyin qadağan olunması 351
1634-cü hədis 351
1635-ci hədis 351
İki yüz doxsan dördüncü fəsil. Kişiyə və qadına saçlarına qara rəng qoymağın qadağan olması 354
1636-cı hədis 354
1637-ci hədis 354

İki yüz doxsan beşinci fəsil. Saçın bir hissəsini qırxıb, digər hissəsini saxlamağın qadağan olunması, saçları dibdən qırxmağın isə qadınlara deyil, kişilərə caiz olması 356
1638-ci hədis 356
1639-cu hədis 356
1640-cı hədis 356
1641-ci hədis 357
İki yüz doxsan altıncı fəsil. Sac calatdırmağın, bədənə döymə vurmanın və dişləri aralamağın haram olması 359
1642-ci hədis 360
1643-cü hədis 360
1644-cü hədis 360
1645-ci hədis 361
İki yüz doxsan yeddinci fəsil. Saqqaldakı və saçdakı və başqa ağ tükləri qopartmağın, həmçinin tüksüz insanın ilk tüklərini qopartmağının qadağan olunması 362
1646-cı hədis 362
1647-ci hədis 362
İki yüz doxsan səkkizinci fəsil. Üzürsüz olaraq sağ əllə yuyunmağın və sağ əli övrət yerinə vurmağın bəyənilməməsi 363
1648-ci hədis 363
İki yüz doxsan doqquzuncu fəsil. Üzürsüz olaraq tək xüf və ya tək ayaqqabı ilə gəzməyin bəyənilməməsi, həmçinin üzürsüz olaraq ayaq üstə xüf və ya ayaqqabıların geyinilməsinin bəyənilməməsi 365
1649-cu hədis 365
1650-ci hədis 365
1651-ci hədis 365
Üç yüzüncü fəsil. Yatarkən odu və ya çırağı yanılı qoymağın qadağan olması 368
1652-ci hədis 368
1653-cü hədis 368
1654-cü hədis 368

Üç yüz birinci fəsil. Özünü mükəlləf etməyin, yəni məsləhət olmayan çətin bir sözü deməyin qadağan olunması 370
1655-ci hədis 370
1656-cı hədis 370
Üç yüz ikinci fəsil. Meyitin üzərində ah-nalə çəkməyin, üzə vurmağın, yaxa cırmağın, saç yolmağın və ya onu qırxmağın, habelə bəddua etməyin qadağan olması 373
1657-ci hədis 373
1658-ci hədis 373
1659-cu hədis 377
1660-cı hədis 377
1661-ci hədis 378
1662-ci hədis 378
1663-cü hədis 378
1664-cü hədis 379
1665-ci hədis 379
1666-cı hədis 379
1667-ci hədis 380
Üç yüz üçüncü fəsil. Kahinlərin, münəccim, falçı və rəml atanların yanına gəlməyin, daş, arpa və ya buna bənzər şeylərlə fala baxmağın qadağan olması 382
1668-ci hədis 382
1669-cu hədis 385
1670-ci hədis 385
1671-ci hədis 386
1672-ci hədis 386
1673-cü hədis 388
Üç yüz dördüncü fəsil. Quş uçurmağın qadağan olması 390
1674-cü hədis 390
1675-ci hədis 390
1676-cı hədis 390
1677-ci hədis 391

Üç yüz beşinci fəsil. Daş-divarın, libasın, dinar-dirhəmin, yastıq-yatağın və başqa əşyaların üzərində heyvan şəkli çəkməyin haramlığı, habelə divar, örtük, əmmamə, libas və ya başqa şeyin üzərinə şəkil asmağın haramlığı və şəkillərin məhv edilməsinə əmr 394
1678-ci hədis 394
1679-cu hədis 394
1680-ci hədis 395
1681-ci hədis 398
1682-ci hədis 398
1683-cü hədis 399
1684-cü hədis 399
1685-ci hədis 399
1686-cı hədis 400
1687-ci hədis 400
Üç yüz altıncı fəsil. Ov, sürü və əkin itindən başqa it saxlamağın haramlığı 404
1688-ci hədis 404
1689-cu hədis 404
Üç yüz yeddinci fəsil. Dəvəyə və başqa heyvanlara zınqırov bağlamağın bəyənilməməsi, həmçinin it və zınqırovla səfərə çıxmağın məkruhluğu 407
1690-cı hədis 407
1691-ci hədis 407
Üç yüz səkkizinci fəsil. Cəllaləni minməyin bəyənilməməsi 409
1692-ci hədis 409
Üç yüz doqquzuncu fəsil. Məscidə tüpürməyin qadağan olunması, məsciddə ona rast gəlindikdə onun aradan qaldırılması, məscidi natəmizliklərdən qorumaq 410
1693-cü hədis 410
1694-cü hədis 410
1695-ci hədis 410

Üç yüz onuncu fəsil. Məsciddə mübahisə etməyin, səs ucaltmağın, heyvan səsləməyin, alqı-satqı etməyin, icarə və başqa işlər görməyin bəyənilməməsi 413
1696-cı hədis 413
1697-ci hədis 413
1698-ci hədis 413
1699-cu hədis 414
1700-cü hədis 414
Üç yüz on birinci fəsil. Sarımsaq, soğan, kəvər soğanı və ya pis qoxulu başqa bir şey yeyib zərurət olmadan qoxusu gedənədək məscidə daxil olmağın qadağan olunması 419
1701-ci hədis 419
1702-ci hədis 419
1703-cü hədis 419
1704-cü hədis 420
Üç yüz on ikinci fəsil. İmam cümə xütbəsi verən zaman dizləri qucaqlamağın bəyənilməməsi. Çünki bu, yuxu gətirir, xütbəni dinləməyə mane olur və dəstəmazın pozulmasına səbəb ola bilər 422
1705-ci hədis 422
Üç yüz on üçüncü fəsil. Zil-hiccə ayının ilk on günü daxil olduqda qurban kəsmək istəyən şəxsin qurban kəsənədək öz saçından və dırnaqlarından kəsməsinin qadağan olunması 423
1706-cı hədis 423
Üç yüz on dördüncü fəsil. Məxluqa, o cümlədən Peyğəmbərə, Kəbəyə, mələklərə, səmaya, ataya, həyata, ruha, başa, sultanın nemətinə, filan torpağa və ən çox qadağan olunmuş əmanətə and içməyin qadağan olunması 424
1707-ci hədis 424
1708-ci hədis 424
1709-cu hədis 425
1710-cu hədis 425
1711-ci hədis 425

Üç yüz on beşinci fəsil. Bilərəkdən yalan and içməyin şiddəti..... 428
1712-ci hədis 428
1713-cü hədis 428
1714-cü hədis 429
Üç yüz on altıncı fəsil. And içdikdən sonra başqa bir işin daha xeyirli olduğunu görən kəsin daha xeyirli olanı edib sonra andının kəffarəsini ödəməsi 431
1715-ci hədis 431
1716-cı hədis 431
1717-ci hədis 431
1718-ci hədis 432
Üç yüz on yeddinci fəsil. Səhvən içilən andın kəffarəsi əfv olunur. Bu, qəsd olmadan içilən andlara deyilir. Misal üçün, birisi adətən: "vallahi yox, hə vallah" və buna bənzər başqa ifadələr deyir 434
1719-cu hədis 434
Üç yüz on səkkizinci fəsil. Doğru danışsa belə, ticarət zamanı and içməyin bəyənilməməsi 436
1720-ci hədis 436
1721-ci hədis 436
Üç yüz on doqquzuncu fəsil. İnsanın Allahın üzü xatirinə Cənnətdən başqa bir şey diləməsinin bəyənilməməsi; Uca Allah xatirinə istəyən və yardım diləyən kəsə verməməyin də bəyənilməməsi 438
1722-ci hədis 438
1723-cü hədis 438
Üç yüz iyirminci fəsil. Sultana "şahənşah" deməyin haramlığı. Çünki bunun mənası "şahlar şahı"dır. Bu vəsf isə yalnız Allaha aid ola bilər..... 442
1724-cü hədis 442
Üç yüz iyirmi birinci fəsil. Fasiq və bidətçiyə "cənab" və ya buna bənzər sözlər deyilməsinin qadağan olması..... 443
1725-ci hədis 443

Üç yüz iyirmi ikinci fəsil. Qızdırmanı söyməyin bəyənilməməsi..... 444
1726-cı hədis 444
Üç yüz iyirmi üçüncü fəsil. Küləyi söyməyin qadağan olması və külək əsdikdə nə deyilməsinin bəyanı..... 446
1727-ci hədis 446
1728-ci hədis 446
1729-cu hədis 447
Üç yüz iyirmi dördüncü fəsil. Xoruzu söyməyin qadağan olması..... 449
1730-cu hədis 449
Üç yüz iyirmi beşinci fəsil. Bir insanın: "Filan səbəbdən yağış yağdı" deməsinin qadağan olması..... 450
1731-ci hədis 450
Üç yüz iyirmi altıncı fəsil. Müsəlmana: "ey kafir!" deməyin haramlığı..... 453
1732-ci hədis 453
1733-cü hədis 453
Üç yüz iyirmi yeddinci fəsil. Pis işlərin və acıdil olmanın qadağan olması..... 456
1734-cü hədis 456
1735-ci hədis 456
Üç yüz iyirmi səkkizinci fəsil. Avam insanlarla danışarkən bəlağətli, fəsahətli danışığa səy göstərməyin, dilin incəliklərinin və qrammatik qaydalara diqqət yetirməyin bəyənilməməsi 457
1736-cı hədis 457
1737-ci hədis 457
1738-ci hədis 458
Üç yüz iyirmi doqquzuncu fəsil. "Nəfsim xəbis oldu" deməyin bəyənilməməsi..... 460
1739-cu hədis 460
Üç yüz otuzuncu fəsil. Üzümü "səxavət" adlandırmağın bəyənilməməsi..... 462
1740-cı hədis 462
1741-ci hədis 462

Üç yüz otuz birinci fəsil. Nikah və ya buna bənzər şəri bir səbəb olmadan qadının gözəlliklərini yad kişiyə danışmağın qadağan olması 464
1742-ci hədis 464
Üç yüz otuz ikinci fəsil. İnsanın: "Allahım, istəyirsənsə məni bağışla" deməsinin bəyənilməməsi. Əksinə, o bunu qətiyyətlə istəməlidir 466
1743-cü hədis 466
1744-cü hədis 466
Üç yüz otuz üçüncü fəsil. "Allah və filankəs istəyərsə" deməyin bəyənilməməsi 469
1745-ci hədis 469
Üç yüz otuz dördüncü fəsil. İşa namazından sonra danışmağın bəyənilməməsi 471
1746-cı hədis 471
1747-ci hədis 471
1748-ci hədis 472
Üç yüz otuz beşinci fəsil. Şəri bir üzürü olmayan qadını əri öz yatağına çağırdıqda getməməsinin haram olması 474
1749-cu hədis 474
Üç yüz otuz altıncı fəsil. Ərinin izni olmadan qadının nafilə oruc tutmasının haramlığı 475
1750-ci hədis 475
Üç yüz otuz yeddinci fəsil. Namazda imama tabe olanın öz başını imamdan öncə rukudan və səcdədən qaldırmasının haram olması 477
1751-ci hədis 477
Üç yüz otuz səkkizinci fəsil. Namazda əlləri yana qoymağın bəyənilməməsi 479
1752-ci hədis 479
Üç yüz otuz doqquzuncu fəsil. Adamın yemək gətirildikdə nəfsi çəkə-çəkə namaz qılmasının və təbii ehtiyacını rəf etməkdən özünü zorla saxlayaraq namaz qılmasının bəyənilməməsi 480

1753-cü hədis 480
Üç yüz qırxıncı fəsil. Namazda göyə baxmağın qadağan olması 482
1754-cü hədis 482
Üç yüz qırx birinci fəsil. Üzürsüz olaraq namazda çevrilməyin bəyənilməməsi 484
1755-ci hədis 484
1756-cı hədis 484
Üç yüz qırx ikinci fəsil. Məzarlara tərəf namaz qılmağın qadağan olması 486
1757-ci hədis 486
Üç yüz qırx üçüncü fəsil. Namaz qılanın önündən keçməyin haram olması 487
1758-ci hədis 487
Üç yüz qırx dördüncü fəsil. Müəzzin iqamə verməyə başladıqdan sonra adamın nafilə namaz qılmasının bəyənilməməsi – bu istər həmin namazın sünnəsi olsun, istər də başqa bir namaz 488
1759-cu hədis 488
Üç yüz qırx beşinci fəsil. Cümə gününü orucla, gecəsini isə namazla xüsusiləşdirməyin bəyənilməməsi 490
1760-cı hədis 490
1761-ci hədis 490
1762-ci hədis 490
1763-cü hədis 491
Üç yüz qırx altıncı fəsil. "əl-Visal" orucu tutmağın haramlığı, bu da iki və daha artıq günü aralarında yemədən-içmədən oruc tutmaqdır 494
1764-cü hədis 494
1765-ci hədis 494
Üç yüz qırx yeddinci fəsil. Məzarın üzərində oturmağın haram olması 496
1766-cı hədis 496
Üç yüz qırx səkkizinci fəsil. Məzarı suvamağın və üstünü tikməyin qadağan olması 497

1767-ci hədis 497
Üç yüz qırx doqquzuncu fəsil. Kölənin öz sahibindən qaçmasının haramlığının ağırlığı 499
1768-ci hədis 499
1769-cu hədis 499
Üç yüz əllinci fəsil. Şəri cəzalar məsələsində şəfaətçiliyin haramlığı 501
1770-ci hədis 501
Üç yüz əlli birinci fəsil. İnsanların yolunda, kölgələndikləri yerdə və su hövzələrində ağır təbii ehtiyacı rəf etməyin qadağan olması 507
1771-ci hədis 507
Üç yüz əlli ikinci fəsil. Durğun suya sidik ifraz etməyin qadağan olması 508
1772-ci hədis 508
Üç yüz əlli üçüncü fəsil. Övladlardan bəzilərinə digərlərindən daha yaxşı hədiyyələr verməyin bəyənilməməsi 510
1773-cü hədis 510
Üç yüz əlli dördüncü fəsil. Qadının ölüyə üç gündən artıq yas saxlamasının haramlığı. Yalnız öz əri üçün dörd ay on gün gözləməlidir 514
1774-cü hədis 514
Üç yüz əlli beşinci fəsil. Şəhər əhlinin çöl adamı ilə ticarət etməsi; minikliləri qarşılamaq; qardaşının ticarəti üstünə ticarət etmək, izni olmadan və ya qaytarmadan onun nişanı üzərinə nişan etmək 518
1775-ci hədis 518
1776-cı hədis 518
1777-ci hədis 518
1778-ci hədis 519
1779-cu hədis 519
1780-ci hədis 519

Üç yüz əlli altıncı fəsil. Mal-dövləti şəriətin icazə vermədiyi işlərə sərf etməyin qadağan olması 523
1781-ci hədis 523
1782-ci hədis 523
Üç yüz əlli yeddinci fəsil. Ciddi və ya zarafatyana müsəlmana silahla işarə etməyin, habelə qılıncı açıq verməyin qadağan olması 529
1783-cü hədis 529
1784-cü hədis 529
Üç yüz əlli səkkizinci fəsil. Azandan sonra fərz namazını qılmadan məsciddən üzürsüz çıxmağın bəyənilməməsi 531
1785-ci hədis 531
Üç yüz əlli doqquzuncu fəsil. Üzürsüz olaraq reyhandan imtina etməyin bəyənilməməsi 533
1786-cı hədis 533
1787-ci hədis 533
Üç yüz altmışıncı fəsil. Özünübəyənmə kimi fəsadın olmasından ehtiyat edildikdə bir adamı üzünə tərifləməyin bəyənilməməsi, belə bir hal olmadıqda isə bunun caizliyi 535
1788-ci hədis 535
1789-cu hədis 535
1790-cı hədis 536
Üç yüz altmış birinci fəsil. Bəla gəlmiş yerdən qaçıb çıxmağın və ora getməyin bəyənilməməsi 539
1791-ci hədis 540
1792-ci hədis 541
Üç yüz altmış ikinci fəsil. Sehrin haram olmasının ağırlığı 546
1793-cü hədis 549
Üç yüz altmış üçüncü fəsil. Düşmən əlinə keçməsindən ehtiyat etdikdə Quranla kafir ölkəsinə səfər etməyin qadağan olması 553
1794-cü hədis 553

Üç yüz altmış dördüncü fəsil. Yemək-içmək, təmizlik və başqa məqsədlər üçün qızıl və gümüş qabdan istifadə etməyin haramlığı 555
1795-ci hədis 555
1796-cı hədis 555
1797-ci hədis 556
Üç yüz altmış beşinci fəsil. Kişinin zəfəranlı paltar geyinməsinin haramlığı 558
1798-ci hədis 558
1799-cu hədis 558
Üç yüz altmış altıncı fəsil. Gecəyədək günü susaraq keçirməyin qadağan olması 560
1800-cü hədis 560
1801-ci hədis 560
Üç yüz altmış yeddinci fəsil. İnsanın özünü öz atasından başqasına, habelə öz ağasından başqasına nisbət etməsinin haramlığı 562
1802-ci hədis 562
1803-cü hədis 562
1804-cü hədis 563
1805-ci hədis 563
Üç yüz altmış səkkizinci fəsil. İzzət və cəlal sahibi Allahın və Onun elçisinin qadağan etdiyi əməlləri etməkdən çəkinmək 568
1806-cı hədis 569
Üç yüz altmış doqquzuncu fəsil. Qadağan olunmuş əməli edən adam nə deməli və nə etməlidir 573
1807-ci hədis 574

MÜXTƏLİF ÇEŞİDDƏ SEÇİLMİŞ MÖVZULAR KİTABI
Üç yüz yetmişinci fəsil 577
1808-ci hədis 578
1809-cu hədis 587
1810-cu hədis 588

1811-ci hədis 589
1812-ci hədis 589
1813-cü hədis 589
1814-cü hədis 589
1815-ci hədis 590
1816-cı hədis 591
1817-ci hədis 591
1818-ci hədis 592
1819-cu hədis 592
1820-ci hədis 594
1821-ci hədis 594
1822-ci hədis 595
1823-cü hədis 597
1824-cü hədis 598
1825-ci hədis 598
1826-cı hədis 599
1827-ci hədis 599
1828-ci hədis 602
1829-cu hədis 602
1830-cu hədis 603
1831-ci hədis 607
1832-ci hədis 609
1833-cü hədis 611
1834-cü hədis 611
1835-ci hədis 612
1836-cı hədis 616
1837-ci hədis 617
1838-ci hədis 617
1839-cu hədis 617
1840-cı hədis 618
1841-ci hədis 621
1842-ci hədis 621


1843-cü hədis 621
1844-cü hədis 622
1845-ci hədis 624
1846-cı hədis 625
1847-ci hədis 626
1848-ci hədis 626
1849-cu hədis 628
1850-ci hədis 631
1851-ci hədis 635
1852-ci hədis 635
1853-cü hədis 637
1854-cü hədis 638
1855-ci hədis 639
1856-cı hədis 639
1857-ci hədis 640
1858-ci hədis 640
1859-cu hədis 643
1860-cı hədis 647
1861-ci hədis 650
1862-ci hədis 650
1863-cü hədis 654
1864-cü hədis 654
1865-ci hədis 655
1866-cı hədis 659
1867-ci hədis 668
1868-ci hədis 672

İSTİĞFAR KİTABI


Üç yüz yetmiş birinci fəsil. İstiğfar və onun fəziləti 674
1869-cu hədis 677
1870-ci hədis 677
1871-ci hədis 678


1872-ci hədis 678
1873-cü hədis 678
1874-cü hədis 678
1875-ci hədis 680
1876-cı hədis 681
1877-ci hədis 683
1878-ci hədis 684
1879-cu hədis 684
Üç yüz yetmiş ikinci fəsil. Allahın Cənnətdə möminlər üçün hazırladığı nemətlər 686
1880-ci hədis 691
1881-ci hədis 691
1882-ci hədis 692
1883-cü hədis 693
1884-cü hədis 694
1885-ci hədis 695
1886-cı hədis 696
1887-ci hədis 696
1888-ci hədis 696
1889-cu hədis 697
1890-cı hədis 697
1891-ci hədis 698
1892-ci hədis 698
1893-cü hədis 699
1894-cü hədis 700
1895-ci hədis 700
1896-cı hədis 701

Azərbaycan dilinə tərcümə etdiyimiz kitablar






















Azərbaycan dilinə tərcümə etdiyimiz kitablar























Azərbaycan dilinə tərcümə etdiyimiz kitablar























Azərbaycan dilinə tərcümə etdiyimiz kitablar
























Azərbaycan dilinə tərcümə etdiyimiz kitablar























Azərbaycan dilinə tərcümə etdiyimiz kitablar




















Azərbaycan dilində yazdığımız kitablar
























Azərbaycan dilində yazdığımız kitablar





















Azərbaycan dilində yazdığımız kitablar





















Azərbaycan dilində yazdığımız kitablar























Azərbaycan dilində yazdığımız kitablar
























Azərbaycan dilində yazdığımız kitablar




Türk dilində yazdığımız kitablar























Türk dilində yazdığımız kitablar













Rus dilində yazdığımız kitablar






















Rus dilində yazdığımız kitablar
























İngilis dilində yazdığımız kitablar











Ərəb dilində yazdığımız kitablar





